**MİLLİ MÜDAFİƏ UNİVERSİTETİ**
**HƏRBİ-EİMİ TƏDQİQAT İNSTİTUTU**

**MEHMAH SÜLEYMANOV**

# SƏFƏVİLƏR

## VII

## I Şah Abbas

Milli Müdafiə Universiteti Hərbi-Elmi Tədqiqat İnstitutu Elmi şurasının 13.09.2022 il tarixli 3 N-li protokolu ilə çapa tövsiyə olunub

MAARİF nəşriyyatı

**BAKI – 2023**

Baş məsləhətçi: **Heydər Piriyev**: general-leytenant

Elmi redaktor: **Şahin Fazil (Fərzəliyev)**
tarix üzrə elmlər doktoru, professor

Mehman Süleymanov. Səfəvilər VII. I Şah Abbas
Bakı, Maarif, 2023, 888 səh.

Kitab Azərbaycan xalqının dovlətcilik tarixində yeni bir səhifə açmış Səfəvilər dövlətinin ən qüdrətli hökmdarlarından biri olan I Şah Abbasın həyatına və onun hakimiyyəti illərində Səfəvi dövləti hüdudlarında cərəyan edən hadisələrin öyrənilməsinə həsr olunmuşdur. Bununla I Şah Abbasın həyatı və fəaliyyəti, ədalətli şah simvoluna çevrilməsi Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq geniş araşdırmanın obyekti seçilmiş və onun hakimiyyəti illərində Səfəvi dövlətçiliyinin möhkəmləndirilməsi onun əvvəlki əzəmətinin geri qaytarılması istiqamətində görülən işlər ilkin mənbələr və elmi-tarixi ədəbiyyat əsasında tədqiq edilmişdir.

ISBN: 978-9952-445-23-07

© Mehman Süleyman 2023

# GİRİŞ

Səfəvi dövlətçilik tarixinin çox mühüm bir dövrünü heç şübhəsiz ki, I Şah Abbasın hakimiyyəti dövrü təşkil edir. Çünki atası Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində dərin bir böhran içərisində olan Səfəvi dövlətçiliyini həmin böhrandan çıxarılması və onun əvvəlki qüdrətinin özünə qaytarılması Şah Abbasın adı və fəaliyyəti ilə bağlıdır. Bu mənada Şah Abbasın hakimiyyət tarixinin araşdırılması və öyrənilməsi Səfəvi dövlətinin bütöv tarixinin yaradılması baxımından elmi-tarixi əhəmiyyət kəsb edir.

1501-ci ildə Şah İsmayıl tərəfindən Azərbaycan hüdudlarında Səfəvi dövlətinin əsası qoyuldu və sonra da qısa dövr ərzində bu dövlətin hüdudları xeyli genişləndirildi. Uğurlu fəthlərdən sonra çox geniş ərazilər mərkəzi Təbriz olan Səfəvilər dövlətinə birləşdirildi. Şah İsmayılın hakimiyyəti illərində bu dövlətin hüdudları şimalda Şimali Qafqaz, cənubda Hind okeanı sahillərinə, şərqdə Herat və Qəndəhar, qərbdə isə Bağdada qədər uzanırdı və Şərqin və islam dünyasının ən böyük və güclü dövlətlərindən biri idi. Şah İsmayılın oğlu Şah Təhmasibin hakimiyyəti illərində də Səfəvi dövləti öz qüdrətini və əzəmətini qoruyub saxlaya bildi. Səfəvi dövləti ilə nəinki onun böyük və güclü qonşuları, hətta Avropanın güclü dövlətləri də hesablaşırdılar və həmin dövlətlər hər vasitə ilə Səfəvi dövləti ilə əlaqələr yaratmağa çalışırdılar. Lakin Şah Təhmasibin dünyasını dəyişməsindən sonra onun varisləri Səfəvi dövlətinin bu əzəmətini və qüdrətini qorumaq mümkün olmadı. Doğrudur, Səfəvi dövləti bölgənin böyük və güclü dövləti olaraq qalmaqda idi. Lakin Şah Təhmasibdən sonra hakimiyyətə gələn övladlar II Şah İsmayıl və sonra da Şah Məhəmməd Xudabəndə hakimiyyət təcrübəsizliyi üzündən səltənətin şərqində və qərbində böyük əraziləri itirmək məcburiyyəti qarşısında qaldılar. Bundan başqa səltənət daxilində ziddiyyətlər və hakimiyyət uğrunda mübarizə gücləndi, Səfəvi dövləti getdikcə zəifləməyə və öz qüdrətini itirməyə başladı. Bu prosesin uzun müddət davam edəcəyi

təqdirdə Səfəvi dövlətinin parçalanması dönməz bir xarakter ala bilərdi.

Şah Abbasın hakimiyyətə gəlməsi belə ağır bir duruma təsadüf edir. Hakimiyyətə gələndə onun cəmi 17 yaşı var idi. Kifayət qədər gənc və hakimiyyət təcrübəsizliyi olan bir gəncin böyük səltənətə hökmdarlıq etməsi və onu qarşılaşdığı dərin böhrandan çıxarması indi hamı üçün bəlli olan bir tarixi faktdır. Şah Abbasın buna necə müvəffəq olmasını onun həyat yolunu araşdırmaqla aydınlıq gətirmək mümkündür. Bu məsələnin aydınlaşdırılması Şah Abbasın Səfəvi dövlətçiliyi və bütünlükdə Azərbaycan türk dövlətçiliyi tarixində yerini daha obyektiv şəkildə aydınlaşdırmağa imkan verə bilər. Bu mənada aparılan obyektiv və geniş araşdırma bir sıra maraq doğuran suallara da cavab verə bilər: Şah Abbas hakimiyyətə necə gətirildi, bu məsələdə ona müxalif ola biləcək qüvvələrin müqaviməti necə aradan qaldırıldı, dövlətin qarşılaşdığı ciddi böhrandan çıxarılması üçün mərkəzləşdirilmiş dövlətin gücləndirilməsi istiqamətində hansı addımlar atdı, bütünlükdə səltənət maraqları necə qorundu? Sadalanan bu suallara cavab tapılması bir sıra məsələlərin də elmi-tarixi aydınlaşdırılmasına obyektiv əsas ola bilər. Şah Abbasın dövlətçilik təfəkkürü, fəaliyyət strategiyasının və onun həyata keçirilməsi üçün lazım olan qüvvələrin düzgün müəyyənləşdirilməsi, qarşıda dayanan vəzifələrin icrasının düzgün təşkili, Şah Abbası digər şahlardan fərqləndirən qabiliyyət və keyfiyyətlər. Bu məsələlərə düzgün aydınlıq gətirilməsi ilə bir hökmdar kimi Şah Abbasın tarixi fəaliyyətinə də daha ətraflı işıq salmaq mümkündür.

Şah Abbas izlədiyi siyasətlə Səfəvi dövlətinin ilkin hüdudlarını bərpa etdi və onun ilkin coğrafiyasını özünə qaytardı. Səltənətin şərqində və qərbində yerləşən böyük və güclü dövlətlərlə mübarizədə belə bir nəticənin əldə edilməsinin səbəblərinin araşdırılması və üzə çıxarılması həm Şah Abbasın şəxsi keyfiyyətlərinin, həm də Səfəvi dövlətinin tarixinin gizlinlərinin üzə çıxarılması baxımından əhəmiyyət kəsb edə bilər. İlk baxışdan belə görünə bilər ki, güclü və yeni bir qoşun formalaşdırmaqla Şah Abbas

hərbi yürüşlərini böyük uğurlarla yekunlaşdırdı və Səfəvi dövlətinin ilkin sərhədlərini bərpa etdi. Bu, doğrudanmı belə idi, yoxsa belə uğurun əldə edilməsi üçün Şah Abbasın hərbi sahədə gördüyü işləri başqa istiqamətlərdə izlənilən siyasət tamamlayırdı? Məsələ ciddi araşdırma tələb edən bir problemdir və Şah Abbas tarixinin əhatəli öyrənilməsi ilə bu məsələnin mahiyyətinə də elmi-tarixi aydınlıq gətirmək mümkündür.

Şah Abbas tarixinin araşdırılması Azərbaycan türklərinin hərb tarixinin, hərbi təfəkkür tarixinin öyrənilməsi baxımından da elmi əhəmiyyət kəsb edir. Məlumdur ki, Şah Abbas öz hakimiyyəti illərində qoşunlar daxilində ciddi islahatlar apardı, mövcud dünya hərb təcrübəsinin dərslərini Səfəvi qoşunlarına tətbiq etdi. Bu islahatlara hansı zərurət olduğunu, onların hansı yollarla tətbiq edildiyini, qoşunların zərbə qüdrətinin artırılması üçün onun maddi təchizat məsələlərinin necə həll edildiyini araşdırmaqla Şah Abbasın Səfəvi dövlətinin və eləcə də Azərbaycan türklərinin hərb tarixindəki yerini müəyyənləşdirmək baxımından aktualdır. Şah Abbasın qoşunların təşkili istiqamətindəki uğurları əslində, onun tərəfindən Səfəvi dövlətinin əzəmətinin bərpası istiqamətində görülmüş başlıca işlərdən biri idi. Onun izlədiyi siyasət nəticəsində strukturu, idarəçilik üsulu, təchizat səviyyəsi, döyüş qabiliyyəti ilə fərqli olan bir qoşun yaradıldı, bu qoşunlara rəhbərlik etməyə qadir olan istedadlı sərkərdələr, əmirlər nəsli yetişdirildi. Bunu Şah Abbas tarixinin öyrənilməsi ilə də təsdiq etmək mümkündür.

Şah Abbas yaratdığı yeni qoşunlarla səltənət maraqları uğrunda mübarizədə rəngarəng taktika da tətbiq etməyə müvəffəq olmuşdu. Bura həm müharibə bölgəsindən yerli əhalinin köçürülməsi, konkret dövr üçün güclü Osmanlı dövləti ilə güzəştli sülhə razılıq verilməsi, az saylı qüvvə ilə çox böyük say üstünlüyünə malik olan qarşı tərəfin üzərinə hücum edilməsi və s. də daxil idi. Şah Abbas tarixinin araşdırılması ilə bu məsələlərin də məqsədəuyğunluğuna, onların icrası üsullarına, qüvvə və vəsaitlərin düzgün idarə edilməsinin incəliklərinə də aydınlıq gətirmək mümkündür.

Şah Abbas istər türk şifahi ədəbiyyatında, istərsə də qonşu xalqların deyimlərində ədalətli şah kimi haqqında ən çox dastanlar, rəvayətlər qoşulan hökmdarlardan biridir. Şah Abbasın təğyiri-libas eləməsi, vəzir-vəkilləri ilə xalq içərisinə getməsi, insanlarla birbaşa ünsiyyətdə olması, adi insanların yaşayışı, onların qayğıları, xüsusilə şah məmurlarının xalqa necə xidmət etməsi haqqında çoxlu rəvayətlər mövcuddur. Məlumdur ki, xalq görmək istədiyi həyatı, sorağında olduğu haqq və ədaləti, intizarında olduğu sakit həyatı bir çox hallarda rəvayətləşdirərək bu və ya digər hökmdarın adına yazır, ya da onun hakimiyyəti illərinə aid edirdi. Bu mənada Şah Abbasın adı ilə rəvayətləşdirilmiş mövzuların tarixi həqiqətə nə dərəcədə yaxın olduğunu da yalnız Şah Abbas tarixinin geniş və əhatəli şəkildə öyrənilməsi ilə aydınlıq gətirilə bilər. Şah Abbas çox məşhur tarixi şəxs olmaqla bərabər, həm də şifahi xalq ədəbiyyatının çox məşhur qəhrəmanlarından biridir. Şifahi xalq ədəbiyyatında Şah Abbasa aid edilən sifətlərin və keyfiyyətlərin böyük əksəriyyəti onun son dərəcə zəkalı, etiqadlı, xalqa yaxın, ədalətli, haqq tərəfdarı, heç zaman olmadığı qədər insanlara yaxın, onların qayğısı ilə yaşayan bir hökmdar kimi xarakterizə edir. Əslində, bütün bu keyfiyyətlər doğrudan da Şah Abbasa xas olan keyfiyyətlərdir və onun tarixinin araşdırılması ilə bunların doğruluğuna əsaslı sübutlar əldə etmək mümkündür.

Yəni Şah Abbas tarixinin araşdırılmasının aktuallığını şərtləndirən amillərdən biri də elə onun özünün doğru, düzgün, obyektiv portretinin yaradılması, fəaliyyətinin türk dövlətçiliyi sahəsində əhəmiyyəti haqqında dolğun təsəvvür yaradılmasıdır. Buna hazırda bir elmi-tarixi ehtiyac vardır. Çünki Azərbaycan tarixşünaslığında Şah Abbas tarixinin öyrənilməsinə bu insanın Azərbaycan dövlətçilik tarixindəki yerinə layiq olacaq bir diqqət ayrılmamışdır. Şah Abbasın tarixinə yalnız mövzu kontekstində ayrı-ayrı araşdırmalarda ötəri olaraq toxunulmuşdur ki, bunu da yetərli saymaq doğru olmazdı.

Şah Abbas Səfəvi hökmdarları arasında ən çox tədqiqat mövzusuna çevrilmiş hökmdarlardan birisidir. O eyni zamanda həm də

tarixi ən çox təhrif olunan hökmdarlardan biridir. Bunun da səbəbləri vardır. Şah Abbas kimi dünya əzəmətli bir hökmdarın türk olmasına bir sıra tədqiqatçılar qısqanclıqla yanaşırlar. Bu qısqanclıq isə onun tarixinin obyektiv öyrənilməsinə qərəzsiz yanaşılmasını mümkünsüz edir. Hətta Şah Abbasın türk olduğu, onun hakimiyyəti dövründə şah sarayında istər yerli kontingentlə, istərsə də xarici qonaqlarla ünsiyyətində türk dilində danışması etiraf ediləndə belə, onun hakimiyyətinin türklüyü birmənalı şəkildə qəbul edilmir. Baxmayaraq ki, Şah Abbasın hakimiyyəti illərində də türk qızılbaş tayfaları hakimiyyətin əsasını təşkil edirdilər və səltənət idarəçiliyinin əsas ağırlığı da qızılbaş əmir və əyanları üzərində idi. Bu gerçəkliyin inkar edilməsi üçün bir çox hallarda məntiqdən uzaq olan iddialara əl atılır ki, aparılan geniş və tərəfsiz araşdırma onların əsassızlığını üzə çıxara bilər.

Hətta sovet dövrü Azərbaycan tarixşünaslığında belə bir konsepsiya mövcud idi ki, Şah Abbasın hakimiyyətinə qədər Səfəvi dövləti öz türk mahiyyətini saxlayırdı. Şah Abbas isə öz hakimiyyəti illərində qeyri-türk elementlərə daha çox yer verdi, onlara daha çox arxalandı və ona görə də Şah Abbasın dövründə Səfəvi türk mahiyyətini itirərək tranformasiyaya məruz qaldı. Sovet hakimiyyəti illərində türkçülüyə başqa bir münasibət göstərilməsini gözləmək də heç doğru olmazdı. Bu konsepsiya Səfəvi dövlətinin tarixinin öyrənilməsinə həsr edilmiş araşdırmalara da öz ideoloji təsirini göstərirdi və obyektiv mahiyyətin ortaya çıxarılmasına yol vermirdi.

Bu konsepsiyanın bu və ya digər şəkildə təkrarlanmasını qonşu xalqların, xüsusilə Şah Abbas şəxsiyyətinə birmənalı yanaşmayan tədqiqatçıların araşdırmalarında da rast gəlmək mümkündür. Dəlil kimi isə belə bir iddia ortaya qoyulur ki, guya Şah Abbas qızılbaş tayfa rəhbərlərinin gücünün və təsirinin azaldılması üçün onların səltənət idarəçiliyində iştirakını azaltdı, qoşunlara tayfa rəhbərliyini aradan qaldırdı, yerli (fars) elementlərin iştirakını xeyli genişləndirdi. Yəni Şah Abbas daha çox yerli qüvvələrə istinad etdi və bununla qızılbaş elementlərinin təsirini xeyli azaltdı,

dövləti farslaşdırdı. Səltənət hüdudlarında yaşayan bütün etnik toplumların peşəkar, qabiliyyətli nümayəndələrinin dövlət idarəçiliyinə cəlb edilməsi Şah Abbasın hər zaman diqqət mərkəzində idi və onların xidmətlərinin kənara qoyulması heç də doğru olmazdı. Amma bir neçə yerli əyanın heç də aparıcı əhəmiyyətə malik olmayan vəzifələrə irəli çəkilməsinə dövlətin mahiyyətinin transformasiyaya uğraması demək olmazdı. Tədqiqatlar da bunu üzə çıxara bilər. Bu mənada Şah Abbasın tarixinin təhrif edilməsinin elmi-tarixi əsasının olmamasının üzə çıxarılması və ictimailəşməsi obyektiv mənzərənin yaradılması baxımından əhəmiyyət kəsb edir. Şah Abbas tarixini, bu tarixin dəyərini ortaya çıxarmaq üçün həmin tarixin doğru, qərəzsiz, tərəfsiz və ümumbəşəri mövqedən təhlilinə dərin bir ehtiyac vardır. Təqdim olunan bu araşdırma da məhz bu ehtiyacdan doğmuşdur. Məlumatlı oxucu da təqdim olunan bu araşdırma ilə tanışlıqdan sonra Şah Abbas haqqında yəqin ki, fərqli bir təsəvvür əldə edə biləcəkdir.

Onu da qeyd etmək lazımdır ki, Şah Abbasın son dərəcə zəngin bir tarixi vardır və həcm məhdudiyyətlərinə görə müəllif qarşıya qoyduğu mövzuların heç də hamısını araşdırmağa müvəffəq olmamışdır. O cümlədən, Şah Abbasın xarici siyasəti, Şah Abbasın mədəniyyət və incəsənət sahəsindəki siyasəti, bu məsələlərə münasibəti tədqiqata cəlb edilməmişdir. Nəzərdə tutulmuşdur ki, Şah Abbas tarixinin çox mühüm istiqamətlərini təşkil edən bu məsələlər də ayrıca tədqiq olunsun.

Son illərdə Azərbaycan tarixşünaslığında da Səfəvi dövlətinin tarixi haqqında maraqlı araşdırmalar işıq üzü görmüşdür. Müəllif onlardan mövzu çərçivəsində bəhrələməyə çalışmışdır. Hazırkı tədqiqatın aparılmasında və tamamlanmasında tarix elmləri doktoru, professor Şahin Fazil (Fərzəliyev) tərəfindən tərcümə olunmuş İsgəndər bəy Münşinin "Dünyanı bəzəyən Abbasın tarixi" (Tarixi aləmarayi Abbasi) əsərinin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Azərbaycan tarixşünaslığının tanınmış nümayəndəsi olan Şahin Fazilin yorulmaz və fədakar zəhmətinin nəticəsi olaraq Azərbaycan elmi ictimaiyyətinin istifadəsinə verilmiş bu

sanballı əsər tədqiqatın aparılmasını xeyli asanlaşdırmış və sürətləndirmişdir.

Şah Abbas tarixinin öyrənilməsi üçün avropalı səyyahların, elçilərin və din xadimlərinin xatirələri də xüsusi əhəmiyyətə malikdir. Bu müəlliflərin çoxu Şah Abbası görmüş və onun fəaliyyətini yaxından müşahidə etmiş insanlardır. Ona görə də onların xatirələri kifayət qədər mötəbərdir. Ancaq onlardan bəzilərini əldə etmək müəllif üçün əlçatmaz olduğundan həmin müəlliflərdən bəzi farsdilli araşdırmalarda istifadə olunmuş istinadlarına müraciət olunmuşdur. Ona görə tədqiqatda bəzi farsdilli araşdırmalara çoxlu sayda istinad etmək zərurəti yaranmışdı.

Şah Abbasın tarixi Azərbaycan tarixşünaslığında ilk dəfə belə geniş araşdırmanın mövzusu olduğu üçün sözsüz ki, maraq doğura biləcək bütün məsələlərin burada genişliyi ilə əhatə olunduğunu iddia etmək doğru olmazdı. Şübhə yoxdur ki, gələcək tədqiqatlarla Azərbaycan türklərinin yetişdirməsi olan Şah Abbasın tarixi əzəmətini daha geniş şəkildə ortaya qoymaq mümkün olacaqdır.

# I FƏSİL
# ŞAH ABBASIN ŞAHLIĞA QƏDƏRKİ HƏYAT YOLU

## 1. Şah Abbasın anadan olması

Səfəvi dövlətinin beşinci hökmdarı olan Şah Abbas 1571-ci il fevral ayının 5-də (hicri tarixi ilə 978-ci il ramazan ayının 1-də, bazar ertəsi günü) Heratda anadan olmuşdu. Mənbələrdə və elmi-tarixi araşdırmalarda Şah Abbasın doğum gün ilə bağlı fərqli tarixlərə də rast gəlmək mümkündür. Amma araşdırmaçılar daha çox yuxarıda göstərilən tarixi Şah Abbasın doğum günü kimi qəbul etməkdədirlər (1).

Şah Abbasın anadan olduğu Herat şəhəri bölgənin və bütünlükdə Şərqin inkişaf etmiş böyük şəhərlərindən biri idi. Ticarət yolları üzərində yerləşməsi, ətrafında məhsuldar torpaqların olması, geosiyasi mövqeyi bu şəhərin əhəmiyyətini daha da artırırdı. Onun üçün idi ki, Herat şəhəri böyük güclərin diqqət mərkəzində olmaqla davamlı şəkildə hərbi təhlükələrlə üzləşməli olurdu (2).

Əmir Teymurun yaratdığı imperiyanın tərkibində olarkən Herat şəhəri inkişafının yeni bir dövrünə daxil oldu. Şəhərdə əzəmətli binalar tikildi, bağlar salındı, sənətkarlığın və ticarətin genişlənməsi üçün əlverişli mühit yaradıldı, şəhərin müdafiə imkanları daha da gücləndirildi. Nəticədə Herat şəhəri Səfəvi dövlətinin meydana gəlməsi ərəfəsində artıq böyük elm və sənət mərkəzinə çevrildi (3).

Əmir Teymurun dünyasını dəyişməsindən sonra onun yaratdığı imperiya parçalansa da Herat şəhəri XVI əsrin ilk illərinə qədər Əmir Teymur nəslinin davamçılarının hakimiyyəti altında oldu. Əmir Teymur varislərinin daxili didişmələr və mübarizələr nəticəsində zəifləməsindən məharətlə istifadə edən özbəklər bir sıra ərazilərlə bərabər, Heratı da ələ keçirə bildilər. 1507-ci ilin may ayında Şeybani qoşunları Herat şəhərinə yaxınlaşaraq onu nəzarət altına aldılar və bununla da Herat üzərinə teymurilərin hakimiyyətinə son qoyuldu (4).

Özbək hakimləri Herat şəhərini və eləcə də Xorasan vilayətini öz nəzarətləri altında saxlamağa çalışsalar da, onların bu istəkləri elə də uzun çəkmədi. Azərbaycanda Səfəvilər dövlətinin əsasını qoymuş Şah İsmayıl Səfəvi 1510-cu ilin dekabrında səltənətin şərqinə doğru yürüş zamanı Herat şəhərini ələ keçirdi və bu şəhəri Səfəvi dövlətinin hüdudlarına daxil etdi (5). Bununla da, Heratın tarixinin Səfəvi dövrünün başlanğıcı qoyuldu.

Herat şəhəri Xorasan vilayətinin mərkəzi idi. Bu vilayət Səfəvi dövləti üçün həm də dini baxımdan xüsusi əhəmiyyət kəsb edirdi. Çünki Səfəvi dövlətinin hakim məzhəb kimi qəbul etdiyi şiəliyin səkkizinci imamı olan imam Rzanın məzarı da bu vilayət daxilindəki Məşhəd şəhərində yerləşirdi. Herat şəhəri həm də Səfəvi dövlətinin şərq sərhədlərinin mühafizəsinin əsas hərbi qalalarından biri idi. Bu şəhərə yiyələnmədən Xorasan vilayətini ələ keçirmək mümkün deyildi. Herat eyni zamanda səltənətin şərq sərhədlərinə qonşu olan ərazilərin nəzarət altında saxlanması baxımından hərbi-siyasi əhəmiyyət kəsb edirdi. Bütün bu cəhətləri nəzərə alaraq Şah İsmayılın hakimiyyəti illərindən başlayaraq Herat hakimliyi şahın övladlarından birinə tapşırılırdı. Herat hakimliyi tapşırılmış şah övladları kiçik yaşlı olduqları halda onlara lələlər təyin edilir və həmin lələlər də şah övladları adından Heratı və bütünlükdə Xorasan vilayətini idarə edirdilər. Ona görə Herat həm də darüssultan (sultan evi) adlanırdı. Şah Abbasa qədər yalnız Təbriz və Qəzvin şəhərləri belə bir ada layiq görülmüşdülər (6).

Şah İsmayılın övladları arasında ilkin olaraq Təhmasib Mirzə (Şah Təhmasib) Heratın hakimi təyin edilmişdi. Abbas Mirzə (Şah Abbas) anadan olanda Şah Təhmasibin böyük oğlu Məhəmməd Mirzə (Səfəvi dövlətinin dördüncü hökmdarı Şah Məhəmməd Xudabəndə) bu şəhərin hakimi idi. O, altı yaşında olarkən Herat hakimi təyin edilmişdi. Məhəmməd xan Şərəfəddinoğlu Təkəli isə onun lələsi idi və vilayəti də əslində o, idarə edirdi. Bir müddətdən sonra Şah Təhmasib oğlu Məhəmməd Mirzəni öz yanına gətirdi və Heratın hakimliyini digər oğlu İsmayıl Mirzəyə həvalə etdi

(Səfəvi dövlətinin üçüncü oğlu II Şah İsmayıl). Lakin İsmayıl Mirzə atasının etimadını doğrulda bilmədi və Xorasan daxilində idarəçiliyi düzgün qura bilmədiyi kimi, mərkəzi hakimiyyətin möhkəmlənməsinə xidmət etməyən separatçı meyllərə də rəğbət göstərməsi haqqında məlumatlar alındı. Belə olanda Şah Təhmasib onu geri çağırdı və Herat hakimliyi vəzifəsi yenidən Məhəmməd Mirzəyə tapşırıldı. Məhəmməd Mirzə ikinci dəfə Herat hakimliyini öz üzərinə götürməli oldu. Bu dəfə Şahqulu sultan Ustaclı onun lələsi vəzifəsinə təyin edildi (7).

Şah Abbasın da anadan olması onun atasının ikinci dəfə Herat hakimliyi dövrünə təsadüf edir. Məhəmməd Mirzə dərhal yeni övladının dünyaya gəlməsi haqqında atası Şah Təhmasibə xəbər göndərdi. Bəzi məlumatlara görə, lələsi Şahqulu sultan Ustaclı Məhəmməd Mirzənin adından bu barədə Şah Təhmasibə məktub yazdı və saray xidmətçisi Kazım ağa adlı birisi ilə həmin məktub şah sarayına göndərildi. Həmin məktubda həm də Şah Təhmasibdən iltimas olunurdu ki, yeni doğulmuş oğlan nəvəsinə ad qoysun. Mənbələr onu da xəbər verirlər ki, Şah Təhmasib yuxusunda xoş xəbər eşidəcəyini və bu xəbərin də Xorasandan gələcəyini görmüşdü. Ona görə o, oğlu Sultan Həsən Mirzəni yanına çağırıb ona Xorasan istiqamətindən gələ biləcək çaparın qarşılanması və saraya gətirilməsi haqqında tapşırıq verdi. Sultan Həsən Mirzə də Turabi bəy adlı bir qulamını Xorasan yolu istiqamətinə göndərdi. Turabi bəy Xorasan istiqamətindən çapar gəlməsini gördüyü halda onu qarşılamalı, ona yeni at verməli və onu şah sarayına gətirməli idi. Turabi bəy də Xorasan yolu ilə Qəzvindən bir qədər aralandıqdan sonra Kazım ağa ilə qarılaşır. Kazım ağa bu zaman yorulmuş atına istirahət veribmiş. Turabi bəy öz atını ona verir ki, tez bir zamanda şah sarayına yetişə bilsin (8).

Turabi bəy saraya yetişən kimi Şah Təhmasibin hüzuruna aparıldı və ona yeni bir nəvəsinin dünyaya gəlməsi xəbəri çatdırıldı. Şah Təhmasib bu xəbərdən çox sevindi və elə həmin anda da yeni nəvəsinə ad qoydu. Mənbə məlumatlarına görə, bu şad xəbəri aldığı gün Şah Təhmasib bir beyti zümzümə edirmiş. Həmin beyt-

də Həzrət Əlinin oğlu Abbasın adı çəkilirmiş. Şah Təhmasib yeni nəvəsini də elə Həzrət Əlinin oğlunun adı ilə adlandırmağı qərara adır və beləliklə Məhəmməd Mirzənin yeni oğluna Abbas Mirzə adı qoyuldu. "Dünyanı bəzəyən Abbasın tarixi"nin müəllifi bu məsələni belə şərh edirdi: "O yüksək məqamlı şəxsiyyətin səadətli təvəllüdünün baş verməsi barədə xəbəri onun adlı-sanlı atası (Sultan Məhəmməd Mirzə) öz uca mənsəbli atasına (Şah Təhmasibə) çatdıraraq bildirdi ki, onun şanlı və əziz adının təyin olunması barədə hökmdarın fikri nədirsə, buyursun ki, o, bu adla çağırılsın. Təsadüfən, İsgəndər şanlı nəvvabın ərizəsi cənnətməkan şah həzrətlərinin mübarək nəzərinə çatan gün o, asimani bir ilhamla təkrar-təkrar bu beyti mübarək dili ilə söyləyirdi:

«Əlinin Abbası döyüşkən aslan,
Hicaz qoşununda odur komandan» (9).

Mənbə məlumatlarından belə bir qənaətə gəlmək mümkündür ki, Şah Təhmasib mürşidi-kamil və kəramət sahibi kimi yenicə dünyaya gəlmiş nəvəsinin parlaq gələcəyini hiss edirdi və ona görə də elə ilk günlərdən ona xüsusi bir hüsn-rəğbətlə bağlanmışdı. Şah Təhmasib Herata gedib gələn saray adamlarından da Abbas Mirzə haqqında eşitdiklərini, gördüklərini soruşar, yeni nəvəsi haqqında hal-əhval tutmağa çalışardı. Bir dəfə Şah Təhmasib Heratdan yenicə qayıtmış bir qorçudan da Abbas Mirzə haqqında soruşur. Görünür, həmin qorçu Şah Təhmasibin yeni nəvəsinə bağlılığından xəbəri yox imiş. Ona görə də o, Abbas Mirzə haqqında ötəri bir cavab verir və bu cavab Şah Təhmasibin heç də xoşuna gəlmir. Şah Təhmasib hiddətlənərək həmin qorçuya belə bir cavab verir:

"- Axı sənin o yüksək məqamlı şahzadənin halından nə xəbərin ola bilər?! O, bu kəramətli xanədanın göz bəbəyi olacaq və sülalənin çırağını şöləlndirəcəkdir.

Bu sözlərin ardınca [Şah Təhmasib] yuxarıda qeyd olunmuş «Əlinin Abbası döyüşkən aslan, Hicaz qoşununda odur komandan» beytini bir daha mübarək dilinə gətirdi. [Şah Təh-

masibin] mübarək dilindən çıxan hər nə vardısa, tezliklə baş verirdi” (10).

Abbas Mirzənin zəka və qabiliyyət sahibi olmasının qabartmaq üçün mənbələrdə onun həm ata xətti ilə, həm də ana xətti ilə əcdadlarının imamlara bağlılığı göstərilmişdir. Onların nəsil şəcərəsi də mənbə müəlliflərinin diqqət mərkəzində olmuşdur. Ata tərəfdən məlumdur ki, Abbas Mirzənin əcdadları yeddinci imam olan imam Musa əl-Kazıma bağlanılırdı. Bu bağlılıq uzun bir şəcərədə öz ifadəsini tapırdı. Belə ki, Abbas Mirzə ibn Məhəmməd Mirzə ibn Təhmasib Mirzə ibn İsmayıl Mirzə (Şah İsmayıl) ibn Heydər Mirzə ibn Cüneyd Mirzə ibn Şeyx İbrahim ibn Sultan Xacə Əli Siyahpuş ibn Şeyx Sədrəddin ibn Şeyx Səfiəddin ibn Əminəddin Cəbrayıl ibn Saleh ibn Qütbəddin Əhməd ibn Səlahəddin Rəşid ibn Məhəmməd Hafiz ibn Əvəz ibn Firuz şah ibn Məhəmməd ibn Şərəfşah ibn Məhəmməd ibn İbrahim ibn Cəfər ibn Məhəmməd ibn İsmayıl ibn Məhəmməd ibn Əhməd ibn Məhəmməd Əbülqasım Həmzə ibn imam Musa əl-Kazım. Abbas Mirzənin anasının, yəni atasının Məhəmməd Mirzənin (Şah Məhəmməd Xudabəndənin) xanımı Məhdi-Ülya Xeyrannisə xanımın atası Mazandaran hakimi Mir Abdulla xanın dördüncü imam Zeynəddinə qədər uzanan nəsil şəcərəsi isə belə olmuşdur: Mir Abdulla xan ibn Sultan Mahmud ibn Mir Əbdülkərim ibn Mir Abdulla ibn Mir Əbdülkərim ibn Seyid Məhəmməd ibn Seyid Murtuza ibn Seyid əli ibn Seyid Kəmaləddin ibn Seyid Qivaməddin ibn Sadıq ibn Abdulla ibn Məhəmməd ibn Haşım ibn Əli ibn Həsən ibn Əli əl-Mərəş ibn Abdulla ibn Məhəmməd əl-Əkbər ibn Həsən ibn Hüseyn əl-Səğir ibn imam Zeynalabdin ibn Hüseyn ibn Əli Əbu Talib (11).

Tədqiqatçılar və araşdırmaçılar Səfəvi nəslinin imam Kazıma bağlanmasını birmənalı şəkildə təsdiq etmirlər. Bununla belə, Abbas Mirzənin nəslinin və əcdadlarının qədim və şərəfli bir nəslə mənsubluğu şübhə doğurmayacaq bir məsələ idi. Onun anası Məhdi-Ülya Xeyrannisə xanımın Məhəmməd Mirzəyə nikah edilməsi Şah Təhmasibin təşəbbüsü ilə baş vermişdi. Şah Təhmasib

də onun nəslinin etiqadlı və nəcib bir nəsil olduğunu yaxşı bilirdi və Məhdi-ülya Xeyrannisə xanımın atası Mir Abdulla xanın hakimiyyət savaşında yaxınları tərəfindən qətlə yetirilməsindən sonra bu nəsil ilə qohumluq əlaqələri yaradılmasını məsləhət bilmişdi.

"Dünyanı bəzəyən Abbasın tarixi"nin müəllifi İsgəndər bəy Münşi də Məhdi-Ülya Xeyrannisə xanımın atası Mir Abdulla xanı seyidliklə sultanlığı özündə birləşdirən bir insan kimi xarakterizə edirdi. Onun yazdığına görə bu nəslin ən tanınmış nümayəndələrindən biri Mir Büzürg kimi tanınmış Seyid Qivaməddin idi. Bu nəsil hətta Seyid Qivaməddin nəsli kimi də tanınırdı. Seyid Qivaməddin elmi, biliyi və etiqadı ilə müasirləri arasında hörmət və ehtiram qazanmışdı. Onun oğlu Seyid Kəmaləddin Əmir Teymurun müasiri olmuş və böyük fatehin bölgəyə hücumu zamanı Seyid Kəmaləddin Əmir Teymur qoşunlarına qarşı güclü müqavimət təşkil edə bilmişdi. Seyid Qivaməddinin əcdadları həm də Mərəş seyidlərinə bağlanılırdı. Seyid Əli əl-Mərəş də dövrün tanınmış seyidlərindən biri idi. Seyid Əli əl-Mərəşin yaxın əcdadları isə imam Zeynalabdinə gedib çatırdı. "Sözün qısası, o rəhmətlik cənab (Mir Büzürg) yüksək hörmətə Hüseyni seyidlərindən olmuş, özündə maddi və mənəvi səltənəti birləşdirmiş, siyasi və dini məqamların meracına qalxmış, ruhani və dünyəvi dəqiqliklərin kəşfedicisinə çevrilmişdi. O, əvvəlcə Allahın köməyi ilə çalışqanlıq ətəklərini nəfsani arzulardan çəkib, din yolunda səy göstərmiş və möminlik vadisinə qədəm qoymuşdu. Bu sahədə yüksək məqamların dərəcələrinə ucaldıqdan sonra gizli [ilahi] divandan qismən Təbəristan məmləkətinin və o vilayətə daxil olan yerlərin halının rahatlığı hüsn-rəğbətlə o rəbbani arifə həvalə olunduğundan, təqdirə uyğun olaraq, Mazandarana tələsib, o diyarda məskunlaşdı və onun ulu xanəgahı həmin mülkün yüksək və aşağı təbəqələrdən olan insanlarının ziyarət yerinə çevrildi. O vilayətin Çəlavilər sülaləsindən olan valisi Əfrasiyab o həzrətin təəssübkeşləri sırasına daxil olduqdan sonra onun müridlərinin çoxluğundan və [ziyarətə gələn] camaatının izdihamından narahat

olub, o cənaba qarşı xəyanət mövqeyi tutaraq, onun dəf edilməsinə qərar verdi və özü şəxsən yaramaz adamlardan ibarət bir dəstə ilə seyidin xanəgahı üzərinə getdi. Beləliklə, şəriətə görə onun hücumunun dəf edilməsi o cənab (Mir Büzürg) üçün vacib oldu və o, müdafiə mövqeyi tutdu. İlahi təqdirə əsasən, qəzavü-qədərin əli ilə atılmış bir ox Əfrasiyaba dəyib, onu qətlə yetirdi və o cənab (Mir Büzürg) zəfər və qələbəyə nail olub, həmin mülkdə qılıncla xüruc edərək, maddi səltənəti özünün mənəvi xilafəti ilə birləşdirdi. Sözün qısası, o təmiz və iffətli Məhdi-Ülyanın ata-babaları nəsilbənəsil Təbəristan diyarında vali və hökmran olmuşlar" (12).

İsgəndər bəy Münşi yeni şahzadənin nəsil şəcərəsi haqqında məlumat verdikdən sonra onu da əlavə edirdi ki, bir insanın mənşəyinin saf olması onun ilahi qüdrətin himayəsində olmasına yol açar və belələri dini və dünyəvi məsələlərin həllində daha uğurlu nəticələrə nail ola bilərdi.

"Dünyanı bəzəyən Abbasın tarixi"nin müəllifi Abbas Mirzənin dünyaya gəlişini xüsusi bir şövqlə vəsf edirdi. Onun fikrincə, Abbas Mirzənin anadan olması ilə sanki cah-calal üfüqündən aləmi işıqlandıran bir günəş doğdu və bu günəş zülmətli aləmi bəxtiyarlıq tələtinin nuru ilə işıqlandırdı. Bununla sanki iqbaldan qaynaqlanan elə bir xoşbəxtlik ulduzu parladı ki, dünya insanları da qayğıkeşlik və xeyirxahlıqla əhatə olunmaq fürsəti əldə etdilər. Əslində, Abbas Mirzənin dünyaya gəlməsi elə atası Məhəmməd Mirzə tərəfindən də çox böyük sevinclə qarşılanmışdı. Belə bir xəbəri alan kimi Məhəmməd Mirzə carçılar vasitəsilə Herat əhlinə Abbas Mirzənin doğuluşu barəsində car çəkdirdi, böyük şadyanalıq məclisləri quruldu və süfrələr açıldı.

Elə anadan olduğu anlardan da Abbas Mirzənin həyatında möcüzələr özünü göstərməyə başlamışdı. Necə olursa, Abbas Mirzə doğulan kimi mamaça onu öz döşlərinə yaxınlaşdırır. Bu qadının hələ uşağı olmamışdı və heç kimə süd verməmişdi. Amma qəzavü-qədərdən Abbas Mirzəni öz döşlərinə yaxınlaşdıranda onun döşlərinə süd gəlir və Abbas Mirzə də ilkin olaraq bu südlə qida-

lanmağa başlayır. Belə bir hadisənin baş verməsini ətrafdakılar Abbas Mirzə ilə bağlı olan ilahi bir möcüzə kimi qiymətləndirdilər. “O xoşbəxtlik dənizinin gövhəri (körpə Abbas) həmin südü tamam rəğbətlə nuş etdi və xariqüladə olan bu qəribə işin baş verməsindən sonra o iffətli qadın həmin sevimli körpəyə dayəlik etmək səadətinə qovuşdu” (13).

Şah Təhmasib yeni doğulan nəvəsinin gələcəyi haqqında daha geniş təsəvvür əldə etmək üçün münəccimləri və rəml sahiblərini də yanına çağırtdırdı, onlardan Abbas Mirzənin taleyi ilə bağlı öz müşahidələrini söyləməsini istədi. Heratın o zaman tanınmış münəccimi olan Əbdülsəməd Herəvi bəyan etdi ki, Abbas Mirzənin tale ulduzu Merkuri (Mərrix) planetidir. Merkuri üstünlük, ucalıq demək idi və ona görə Herəvi əmin idi ki, Abbas Mirzə də gələcək həyatında üstün və müvəffəq bir insan olacaqdır (14).

Başqa bir məlumata görə isə, zəmanəsinin böyük fazillərindən biri olan Qazi Müəzzəddin Məhəmməd İsfahani bəyan etdi ki, səma cisimlərinin müşahidəsi ona Abbas Mirzənin gələcəkdə hökmdar olacağını, onun ədalət günəşinin şüalarının bütün aləmə yayılacağını deməyə əsas verir. Qazi Müəzzəddin Məhəmməd İsfahani onu da əlavə etdi ki, Abbas Mirzə hökmdar olduqdan sonra çoxlu sayda fəthlərə sahib olacaqdır və fateh kimi ruzgarın yaddaşında qalacaqdır. Bu xəbər Şah Təhmasibi bir daha sevindirdi və bu sevincini yanındakılarla bölüşdü (15).

Mövcud olan ənənəyə görə, şah ailəsində yeni doğulmuş körpəyə hökmdar tərəfindən beşik və beşiyin içərisinə salmaq üçün xalça hədiyyə edilərdi. Şah Təhmasib yeni doğulan nəvəsinin Səfəvi taxt-tacının böyük davamçılarından biri olacağını şübhə etmədiyi üçün ona qarşı xüsusi iltifat göstərdi. O, taxta çıxdığı zaman bu taxtın üstünə salınmış xalçanı və bir beşiyi Abbas Mirzə üçün göndərdi. “...ədəm yoxluğundan vücud meydanına qədəm basan hər şahzadə üçün dövlət xəzinəsindən (xəzineyiamere) xalça (qaliçe) və beşik ləvazimatı (yəraqe-məhd) şəfqət olunurdu. Həzrət cənnətməkan şah o səltənət və şəhriyarlıq bağının sərvindən ötrü mübarək dövlətxananın "Çehel sotun" ("Qırx sütun") sarayında

olan və öz altına saldığı mübarək xalçasını beşiklə birgə şahzadəyə göndərdi. Sanki o bəyənilmiş (həmide) xasiyyətli zat (Şah Təhmasib) duymuşdu (mottəsel) ki, o əzəmət və böyüklük bürcünün dürrü tezliklə şahlıq taxtını bəzəyəcək və padşahlıq sarayının canişini olacaqdır. [Anladı ki,] bu şahzadənin dövlət günəşi cahcəlal məşriqindən görünəcək, şahlıq məqamına vüsal işığı salacaq və gündən-günə güllənən bu dövlətin həmişəbahar gülşəninə tazəlik, paklıq və təravət bəxş edəcəkdir. [Bildi ki,] səltənət və kamkarlıq çəminə yol tapan fitnə-fəsad iti qılıncın zülalı ilə yenidən bahar əyyamının təravətinə bürünəcək, bədxah və bədkar adamlar dövlətin gücü, fikrin istiqaməti, qəlbin fərasəti, əqlin qüvvəti və hüsni-təbdir yoluyla öz cəzalarına çatacaqdır" (16).

Şah Abbas haqqında mötəbər və samballı əsərin müəllifi olan İsgəndər bəy Münşi Türkman bu əsərin qəhrəmanı olan Şah Abbasın dünyaya gəlməsini son dərəcə səxavətlə vəsf etmiş və onun gələcək keyfiyyətlərini hələ dünyaya gəldiyi zaman anlatmağa çalışmıdı. O yazırdı ki, uşaqlıq zamanından başlayaraq şahlıq taxtına yetişənədək böyük yaradan onu ruzgarın sınaqlarından, ona düşmən kəsilmiş qüvvələrin qəsdlərindən, yağıların xəyanətlərindən, haram xislətli insanların qəsdlərindən qorumuşdu. İsgəndər bəy Münşiyə görə, dünyanın heç bir iqtidar sahibinə nəsib olmayan bir fatehlik də Şah Abbasa iltifat edilmişdi.

Hələ uşaq yaşlarında ikən Abbas Mirzənin qarşılaşmış olduğu ciddi sınaqlardan biri ata-anasından ayrı düşməsi oldu. Bu hadisə 1573-cü ildə baş vermişdi və o zaman Abbas Mirzə bir yaş altı aylığında idi. Həmin hadisənin baş verməsi həm Abbas Mirzənin atası Məhəmməd Mirzənin qəfildən xəstəliyə tutulması, həm də Məhəmməd Mirzə ilə lələsi Şahqulu sultan Ustaclı arasında ixtilafların başlanması ilə əlaqələndirilir. Bir məlumata görə, 1573-cü ildə Məhəmməd Mirzə çiçək xəstəliyinə tutuldu və bu xəstəliyin başlanmasından sonra Məhəmməd Mirzə hər iki gözünün işığını itirdi. Deyilənə görə, Məhəmməd Mirzənin xəstələnməsi və gözlərinin nurunun itirməsi xəbəri Şah Təhmasibə çatanda Məhəmməd Mirzənin Şiraza göndərilməsi və Fars hakimi təyin edilməsi qəra-

rını verdi. Bu qərara əsasən, Məhəmməd Mirzə oğlu Həmzə Mirzəni öz yerində, yəni Herat hakimliyində saxlamalı və ailəsi ilə birlikdə Şiraza yollanmalı idi. Amma Məhəmməd Mirzə Həmzə Mirzənin onunla getməsi və Herat hakimi vəzifəsində Abbas Mirzənin saxlanması haqqında Şah Təhmasib qarşısında məsələ qaldırdı. Bildirilir ki, Məhəmməd Mirzə də, xanımı Məhdi-Ülya Xeyrannisə xanımda Həmzə Mirzəyə çox bağlanmışdılar və ondan ayrı qalmaq istəmirdilər. Şah Təhmasib onların bu xahişini qəbul etdi və Abbas Mirzənin Herat hakimi təyin edilməsinə və Həmzə Mirzənin də ata-anası ilə birlikdə Şiraza yollanmasına icazə verdi. Məhəmməd Mirzənin lələsi olmuş Şahqulu sultan öz lələliyini Abbas Mirzə üzərində də davam etdirməli idi (17).

Mənbələrdə və elmi-tarixi ədəbiyyatda Məhəmməd Mirzənin Şiraza göndərilməsi daha çox onunla ləlləsi Şahqulu sultan arasında ixtilafın yaranması və getdikcə güclənməsi ilə əlaqələndirilməkdədir. Bu zaman da mənbələrdə fərqli məlumatlarla qarşılaşmaq mümkündür. Bir mənbə məlumatında deyilir ki, Məhəmməd Mirzə ailəsi ilə birlikdə Heratı tərk etmək hökmünü şahın istədiyi kimi icra etdi. Yəni Həmzə Mirzə Herat hakimliyində saxlandı və Məhəmməd Mirzə isə qalan ailəsi ilə birlikdə Şiraza yola düşdü. Həmzə Mirzə ata-anasına çox öyrəşdiyindən onlar üçün çox darıxırdı. Lələsi Şahqulu sultan onun həyatının nisgilli keçməsini görür və ona mümkün təsəlli verməyə çalışırdı. Həmzə Mirzə isə onun təsəllilərindən heç də razı qalmırdı. Bu vəziyyətin aradan qaldırılması üçün Şahqulu sultan məktubla Şah Təhmasibə müraciət etdi və Həmzə Mirzənin Şiraza buraxılmasına icazə istədi. Həmzə Mirzə də Şah Təhmasibə məktub göndərdi. Şah Təhmasib bu təkliflər razılaşdı və Abbas Mirzənin Herat hakimi təyin edilməsi ilə Həmzə Mirzənin Şiraza yollanmasına icazə verdi (18).

Mənbələrə istinad edən araşdırmaçılar daha çox Həmzə Mirzənin də Məhəmməd Mirzə ilə birlikdə Şiraza yollanması və Məhəmməd Mirzədən dərhal sonra Abbas Mirzənin Herat hakimi təyin edilməsi faktının üzərində dayanırlar. Lakin bu zaman Məhəmməd Mirzə ilə lələsi Şahqulu sultan arasında ixtilafların ma-

hiyyəti heç də açıqlanmır. Görünür elə bir səbəb var imiş ki, Şah Təhmasib oğlunun deyil onun lələsi Şahqulu sultanın Heratda qalmasına üstünlük verməli olmuşdu. İstənilən halda Şah Təhmasib belə bir qərara gəlmişdi ki, Məhəmməd Mirzə ilə onun lələsi arasında ixtilafın davam etməsi Heratda vəziyyətin mürəkkəbləşməsinə yol aça bilər. Ona görə də onların birinin Heratdan çıxarılmasını lazım bilmişdi. İsgəndər bəy Münşi bu hadisəni öz əsərində belə təsvir edirdi: “Herat darüssəltənəsində o həzrətin atası və Heratın valisi olan İsgəndər şanlı nəvvab Əbülqalib Sultan Məhəmməd Mirzə ilə lələsi Şahqulu Sultan Yeqan arasında fəsadkar adamların fəsadı ilə vəhşət yarandı və onlar bir-birilərinin rəftarından narazı oldular, ali saraya tez-tez şikayətlə dolu məktublar göndərdilər. Cəm məqamlı həzrət şah bundan sonra onların arasında sülh və barışıq olmayacağını görüb belə qərara gəldi ki, kamkar şahzadə Sultan Həmzə Mirzəni o vaxtlarda səkkiz yaşı olan əyan qardaşı ilə [gələcək] zilləllah şahla birlikdə atasının yerinə Herat darüssəltənəsinə vali vəzifəsinə qoysun, onun alişan atası isə müzəffər məmləkətlər hakimliyinə (hökumət) Şiraz darülmülkünə göndərilsin. Hökm elə beləcə də yerinə yetirildi. Nəvvab Sultan Məhəmməd Mirzə və onun möhtərəm hərəmi bu fərmanı alan kimi sevindilər və şadiman oldular, amma ata, sevimli fərzəndi Sultan Həmzə Mirzədən ayrıldığına görə çox qəmginləşdi. [Belə ki,] gözünün nuru olan o fərzənddən ayrılmaq ata-ana üçün çox çətin idi. Sultan Məhəmməd Mirzə yenidən məktub yollayıb xahiş etdi ki, o əziz fərzənd ata-anası ilə bərk ülfət və ünsiyyət bağladığına görə, əgər ayrı düşərsə, çətin ki, fəraqa tab gətirə bilsin. Elə olan halda Sultan Həmzə Mirzədə nəfsani meyl (əğraz) baş qaldırar və təhlükə yaranar. Heç anası da onsuz yaşaya bilməz. Amma, səltənətin gözünün işığı olan Abbas hələ südəmər olduğundan, dayəsindən başqa heç kəslə ülfət və ünsiyyət bağlamamışdır. Əgər şəhriyar əmr edərsə, onu Heratda saxlasın, Sultan Həmzə Mirzə isə ata-anası ilə birlikdə Şiraza getsin.

Həzrət cənnətməkan şanlı nəvvab, mirzənin istəyi ilə razılaşdı və bu təklifi qəbul etdi. İsgəndər şanlı nəvvab [gələcək] nəvvab ali

şahı Heratda qoyaraq, başqa fərzəndləri ilə birlikdə Şiraza yollandı. Yuxarıda yazıldığı kimi, o iqbal gülşəninin fidanının qanuni sultanların taxtgahı olan Heratda qalması xəbəri eşidilən kimi adamlar bildilər ki, səltənət və kamkarlıq bostanının o nihalı iqbal bağında böyüyərək murad meyvəsini dərəcək və dövlətdə kamyab olacaqdı" (19).

Şah Təhmasib 1576-cı ildə dünyasını dəyişdi. Bu zaman Abbas Mirzənin beş yaşı var idi. O, hələ də Heratın formal hakimi olaraq qalmaqda idi. Əslində isə vilayət onun lələsi Şahqulu sultan tərəfindən idarə olunurdu. Şahqulu sultan həm də Abbas Mirzənin tərbiyələndirilməsinə məsuliyyət daşıyırdı. Anası Məhdi-Ülya Xeyrannisə xanım Heratı tərk etdikdən sonra Abbas Mirzə bir daha onun üzünü görmədi. Çünki Məhəmməd Mirzə sonradan hakimiyyətə çatandan sonra yüksək vəzifələrə malik olan qızılbaş əmirlərinin və əyanlarının sui-qəsdi nəticəsində Xeyrannisə xanım qətlə yetirildi. Abbas Mirzə də ana mehrindən və nəvazişindən bir dəfəlik məhrum oldu.

## 2. Abbas Mirzəni öldürmək cəhdləri

Şah Təhmasibin dünyasını dəyişməsi ilə həm Səfəvi dövlətinin, həm də elə Abbas Mirzənin həyatında yeni sınaqların başlanğıcı qoyuldu. Mövcud ənənəyə uyğun olaraq Şah Təhmasibdən sonra şahlıq taxt-tacına onun böyük oğlu olan Məhəmməd Mirzənin yiyələnməsinə daha çox haqqı olsa da bu hadisə baş vermədi. Qızılbaş əmirləri və əyanları arasında gedən daxili mübarizə, vəzifə çəkişmələri Şah Təhmasibin ikinci oğlu İsmayıl Mirzənin II Şah İsmayıl adı ilə şahlıq taxt-tacına yiyələnməsi ilə nəticələndi. Məhəmməd Mirzənin görmə qabiliyyətini itirməsi də onun taxt-tac mübarizəsində uğur şanslarını xeyli azaltdı. İsmayıl Mirzə ömrünün böyük bir hissəsini Qəhqəhə qalasında dustaq keçirsə də, hakimiyyətə təsir etmək imkanı olan qızılbaş əyanları məhz onun şah elan edilməsinə nail oldular. Bununla onlar həm də öz əvvəlki nüfuzlarını qorumaq vəzifəsini yerinə yetirmiş oldular. İsmayıl

Mirzə hakimiyyətə gələndən sonra öz yaxınlarına qarşı çox sərt bir siyasət izləməyə başladı (20).

II Şah İsmayıl hakimiyyətini qoruyub saxlamaq üçün bu hakimiyyətə iddialı ola biləcək qardaşlarının, yaxın qohumlarının qətlinə fərman verdi və bu fərman qısa müddətdə yerinə yetirildi. Əvvəlcə, onun qardaşları qətlə yetirildi. Sonra II Şah İsmayıl hətta əmisi Bəhram Mirzənin uşaqlarının qətlindən də çəkinmədi. Bununla, II Şah İsmayıl Səfəvi hökmdarları arasında hakimiyyəti qorumaq naminə öz yaxın ətrafının qətli ənənəsinin əsasını qoydu. Hətta bir sıra nüfuzlu qızılbaş əmirləri və əyanları da II Şah İsmayılın bu sərt siyasətinin qurbanı oldular. O cümlədən, Abbas Mirzənin Heratdakı lələsi Şahqulu sultan da II Şah İsmayıl tərəfindən qətlə yetirildi (21).

1578-ci ildə II Şah İsmayılın oğlan övladı dünyaya gəldi (22). Bundan sonra II Şah İsmayıl oğlunun gələcək hakimiyyətə şəriksiz şansının qorunması üçün yaxın qohumlarının qətli siyahısını daha da genişləndirdi. O cümlədən, Məhəmməd Mirzənin qətli haqqında da fərman verildi. Məhəmməd Mirzə ilə II Şah İsmayıl eyni anadan doğulmuşdular. Ona görə də anaları hər vasitə ilə Məhəmməd Mirzənin və onun övladlarının qətlinə mane olmağa çalışırdı. II Şah İsmayıl da anasının istəklərinə müəyyən yumşaqlıqla yanaşırdı. Lakin oğlan övladının dünyaya gəlişindən sonra Məhəmməd Mirzənin və Abbas Mirzənin qətli məsələsi ciddi şəkildə qərarlaşdırıldı. Məhəmməd Mirzənin və onun yanında olan övladları – Həmzə Mirzənin, Əbu Talib Mirzənin və Təhmasib Mirzənin qətlini həyata keçirmək üçün Qazı bəy Zülqədər adlı bir qorçusunu Şiraza göndərdi. Qazi bəy əvvəlcə Məhəmməd Mirzənin və onun övladlarını ətraf aləmdən təcrid etməli, sonra isə onların qətlini həyata keçirməli idi. Belə bir tapşırığı alan kimi Qazi bəy dərhal Şiraza yola düşdü (23). Yalnız II Şah İsmayılın vaxtsız dünyasını dəyişməsi bu qətli qarşısını almağa kömək etdi.

Abbas Mirzənin qətlə yetirilməsi də əslində, II Şah İsmayılın dünyasının dəyişməsi ilə icra olunmadı. II Şah İsmayıl onu da həm özünün, həm də oğlunun gələcək hakimiyyəti üçün təhlükə

hesab edirdi. Ona görə də Abbas Mirzənin qətlə yetirilməsi görüləsi bir iş kimi II Şah İsmayılın planlarına daxil idi. Bu iş 1577-ci ilin oktyabrında Herat hakimi təyin edilmiş Əliqulu xan Şamlıya tapşırıldı. Həmin qətlin icrasına əmin olmaq üçün II Şah İsmayıl tərəfindən Əliqulu xana qarşı xoş rəftar göstərildi, ona xan məqamı verildi və ondan tələb olundu ki, dərhal bu tapşırığın yerinə yetirilməsi üçün Herata yola düşsün. Əliqulu xan da şah nəslindən idi və II Şah İsmayıl şübhə etmirdi ki, göstərdiyi iltifat qarşısında Əliqulu xan onun tapşırığını yerinə yetirəcəkdir. Əliqulu xan isə II Şah İsmayıldan yüksək vəzifə əldə etsə də, onun Abbas Mirzənin qətlə yetirilməsi əmrinin icrasına heç də meylli deyildi. Xüsusilə, Əliqulu xanın anası Xanıcan xanım Abbas Mirzənin süd anası olmuşdu və onun Abbas Mirzəyə xüsusi bir bağlılığı var idi. Ona görə Xanıcan xanım da oğlunu hər vasitə ilə Abbas Mirzənin qətlindən çəkindirməyə çalışırdı. Əliqulu xan da anasının xahişinə əməl etmək üçün yollar axtarırdı. Bununla belə, Əliqulu xan onu da bilirdi ki, II Şah İsmayılın əmrini icra etməsə, onda o özü həyatı ilə vidalaşmalı olacaqdı.

Əliqulu xan həm də Şah Təhmasibin cənazəsini Məşhədə kimi müşayiət etməli idi. Məlumdur ki, Şah Təhmasib dünyasının dəyişdikdən sonra Qəzvində müvəqqəti olaraq dəfn edilmişdi və qərar verilmişdi ki, onun cənazəsi sonradan Məşhədə aparılsın və İmam Rzanın türbəsi ətrafında dəfn edilsin. Əliqulu xan da Məşhəddə Şah Təhmasibin dəfn mərasimini tamamladıqdan sonra Herata yollanmalı və vəzifəsinin icrasına başlamalı idi. Amma Əliqulu xan Herata yetişməyə heç də tələsmədi. Yəni o çalışırdı ki, Abbas Mirzənin salamat qalmasına əlavə bir fürsət verilsin. Bununla belə, Əliqulu xan 1577-ci il dekabr ayının 7-də Herata gəlib çatdı. O dərhal  Abbas Mirzənin qətlini həyata keçirməli olsa da müxtəlif bəhanələrlə vaxt uzatmağa çalışdı. Bunun üçün bəzi bəhanələr də tapıldı. Nəhayət, Əliqulu xan məcburiyyət qarşısında qalıb Abbas Mirzənin qətlinin icra olunacağı günü açıqladı. O, 1577-ci il dekabr ayının ortalarında Abbas Mirzənin həyatına son qoymağı qərarlaşdırdı (24).

“Dünyanı bəzəyən Abbasın tarixi”nin müəllifi bu hadisəni belə təsvir edirdi: “İsmayıl Mirzə dövlət və iqbal sütunlarını (payə), qardaşlarını və imam övladlarını qırmaqla kifayətlənməyərək, özünün rəhm şilləsini birdəfəlik olaraq böyük və adlı-sanlı qardaşı, bir anadan doğulduqları İsgəndər şanlı nəvvabın sifətinə vurmaq istəyirdi, amma bu zaman ilahi qeyrət hərəkətə gəldi və bu cəza baş tutmadı. Xülasə, özünün Herata hakim və əmirül-üməra vəzifəsinə təyin etdiyi Əliqulu xan Şamlıya - Durmuş xanın nəvəsinə tapşırmışdı ki, nəvvab Herata gəlib çatan kimi dövlət və iqbal çəmənini bəzəyən o səadətli nihalı (ağac, qələm) yəni əlahəzrət zilləllah şahı aradan götürsün və beləliklə onlardan asudə olsun. İsgəndər şanlı nəvvabın nökərzadəsi və o həzrətin illərlə çörək verib boya-başa çatdırdığı adam olan Əliqulu xan axı belə bir işə - öz vəlinemətzadəsinə qarşı, Allah eləməsin, necə əl qaldıra bilərdi? Əliqulu xan və o sülalənin yaxınlarından olan xanın hörmətli anası əlahəzrətin (Abbas Mirzənin ) və başqa şahzadələrin süd anası (madəre-rezai) idi. Onlar elə bir hökmdən kədərləndilər. Amma, İsgəndər Mirzə tərəfindən vəzifəyə təyin olunan və yüksək xan ləqəbinə və mərtəbəsinə layiq görülən o şərafətli əmirül-üməranın padşahın əmrini yerinə yetirməkdən başqa heç bir çarəsi yox idi. Onun və şanlı ağalarının fikirləri onlara tapşırılan əmrə görə beləydi ki, onların gəlib şəhərə daxil olduqları vaxt tapşırığa əməl etsinlər, hətta bircə gün belə onların yaşamalarına imkan verilməsin. O vaxt Heratda olan etibarlı adamların sözlərinə görə bunlar məlum olur: Ali mənsəbə çatan və yüksək xan ləqəbinə layiq görülən Əliqulu xan Şamlı bu dəhşətli işdən boyun qaçırdı və qəmgin halda yol gəlib mübarək Ramazan ayının iyirmi altısında (7 dekabr) cahar şənbə günü gözəl Herata çatdı. Amma, ramazanın iyirmi yeddisi (8 dekabr) İslam əhlinin etiqadına görə, qədir gecəsi olduğundan həmin sülalə qadınları bu mübarək gecədə o bigünahların - o seyidzadələrin qətlinə mane oldular və bu işin yerinə yetirilməsini bir gündən sonraya saxladılar. O günün özü də cümə gününə təsadüf etdiyindən həmin işə iqdam olunmadı. Sonrasa bayram günləri başlandı ki, belə

günlər də şadyanalıq günləridir [Xan] eys və şadlıq (sorur) günlərində bayram günlərinə zəhər qatıb adamlara damcı-damcı zəhər (təcərro) içirilməsini istəmədi, bayramın bitməsini gözlədi.

... Xülasə, bayramdan sonra şəvval ayının ikisində (13 dekabr) padşahın qəzəb ümmanının dalğalarını təlatümə gətirən o qətl hadisəsinin bu gecə həyata keçiriləcəyi haqda xəbər rəiyyət və döyüşçülər arasında yayıldı. Günün axırında bəzi işlərin icrası üçün Qəzvində qalan Əliqulu xanın vəkili Sultan Mahmud bəy Beyxərli, İsmayıl Mirzənin vəfatından sonra bu xəbəri yaymaqdan ötrü Herat darüssəltənəsinə rəvan oldu, gəlib oraya çatdı. Elə ki, İraq dərvazəsindən keçib şəhərə daxil oldu, dərvazəbanlardan (qapıçılardan) şahzadənin mübarək vücudunun sağ-salamat olub-olmamasını soruşdu. Qapıçılar hümayun zatın salamatlıq müjdəsini bildirdilər. Sonra o, Əliqulu xanın yanına gələrək baş vermiş hadisəni bəyan etdi. Ötən neçə gün ərzində Herata gələn və hələ hakimlik və qaladarlıqla məşğul ola bilməyən cənab xan və şamlı ağaları İsmayıl Mirzənin başına gəlmiş ölüm hadisəsindən hali olaraq, ətraf məliklərin və özbəklərin üsyana qalxacaqlarından qorxdular, amma şahzadənin və əlahəzrət zilləllah şahın sağ-salamat qalmalarından şad oldular, İlahiyə şükr və dua (səcdə) elədilər, xilafət və şadimanlıq dəryasının yenicə böyüməyə başlayan cavan ağacının (burada: şahzadəsinin) əziz vücudunun məmləkətin əmniyyəti və inkişafı üçün sərmayə olduğunu düşünərək, səmimi-qəlbdən ona mülazim və qulam olmağı özlərinə borc bildilər, o həzrətin dövlət və iqbalına ümid etdilər” (25)

Bir sözlə, II Şah İsmayılın dünyasını dəyişməsi Abbas Mirzəni də real ölümdən xilas etdi. Əliqulu xan hadisələrin belə cərəyan etməsini və Abbas Mirzəyə əl qaldırmaqdan xilas olmasını çox böyük məmnunluqla qarşıladı. Abbas Mirzənin sağ qalması ilə bağlı Əliqulu xan böyük bir şadyanalıq məclisi qurdu, şəhər əhlini bu məclisə dəvət etdi, Abbas Mirzəyə sədaqətlə xidmət edəcəyini bəyan etdi və ətrafdakıları da buna dəvət etdi. Mənbə məlumatlarına görə, qoşun əhli və sərkərdələri, vilayət əmirləri, adi insanlar dəstə-dəstə gələrək Abbas Mirzəyə öz sədaqətlərini bildir-

dilər, onun sağ qalması ilə bağlı yaradana dua və şükür etdilər. Əliqulu xan sonra da Qəzvin sarayına, yəni yenicə taxta çıxmış Şah Məhəmməd Xudabəndəyə (Məhəmməd Mirzəyə) Abbas Mirzənin sağ olması barəsində müjdə göndərdi. Şah Məhəmməd Xudabəndə və xanımı Məhdi-Ülya Xeyrannisə xanım bu xəbərə çox sevindilər və onlar tezliklə Abbas Mirzə ilə görüşmək istəklərini ifadə etdilər. Şah Məhəmməd Xudabəndə və Xeyrannisə xanım Abbas Mirzə ilə olan ayrılığa son qoymaq üçün onun Qəzvinə gətirilməsini qərarlaşdırdılar. Bununla, Şah Məhəmməd Xudabəndə həm də övladına qarşı yenidən yarana biləcək təhlükələrin qarşısını almaq istəyirdilər. Abbas Mirzə ətrafında cərəyan edən hadisələrdən nəticə çıxaran Şah Məhəmməd Xudabəndə və onun xanımı bütün övladlarının saray daxilində olmasını və onların qızılbaş əmir və əyanlarının təhlükəli oyunlarından kənar qalmalarını lazım bildilər. Ona görə Abbas Mirzənin Heratdan Qəzvinə gətirilməsi üçün etibarlı bir adam seçildi və Herata yola salındı. Bu adam Məhdi-Ülya Xeyrannisə xanımın atası Mir Abdulla xanın sadiq qulamı olmuş və sonradan Xeyrannisə xanımın qulluğunda xidməti davam etdirmiş Ağa Nəzər adlı birisi idi. Xeyrannisə xanım ona etibar etdiyi üçün yanına gətirmiş və o da sədaqətli xidməti ilə həm Xeyrannisə xanımın, həm də ətrafın hörmət və ehtiramını qazanmışdı. Nəzərdə tutulmuşdu ki, Ağa Nəzər Herata çatıb Abbas Mirzənin geri gətirilməsi məsələsini nizamlamalı və bundan sonra Abbas Mirzənin müşayiət edilməsi üçün ora xüsusi bir dəstə göndərilməli idi (26).

### 3. Abbas Mirzənin qızılbaş əmirlərinin girovluğunda qalması

Ağa Nəzər Herata yetişdikdən sonra şah sarayından aldığı tapşırığı Əliqulu xana çatdırdı. Bu xəbər tez bir zamanda bütün Herata və vilayətə yayıldı və Abbas Mirzənin Xorasan vilayətini tərk etməsi ehtimalı həm qızılbaş əmir və əyanları arasında, həm də vilayət sakinləri arasında birmənalı qarşılanmadı. Qızılbaş əmir-

ləri və əyanların böyük bir hissəsi Abbas Mirzənin vilayəti tərk etməsi ilə razılaşmadılar. Onların bəziləri bununla öz mövqelərini itirməkdən qorxurdularsa, bəziləri də vilayətin təhlükəsizliyi ilə bağlı nigarançılıq keçirirdilər. Çünki Xorasan vilayəti özbək xanlıqları ilə həmsərhəd olan bir ərazi idi və bu vilayətə özbək qoşunlarının hücum təhlükəsi hər zaman qalmaqda idi. Şahın övladlarından birinin Heratda olması Xorasan vilayətinin təhlükəsizliyinin təmin edilməsi üçün bir zəmanət rolu da oynayırdı. Şahzadənin bu vilayətdə olması şah sarayının da bu vilayətə olan diqqətini artırırdı. Ona görə də vilayətin qızılbaş əmirləri və əyanları Abbas Mirzənin Heratı tərk etməsinə olan narazılıqlarını Əliqulu xana belə çatdırdılar: "Bu hökmün qəbulundan və icra olunmasından sərfnəzər etmək lazımdır. Xorasan məmləkəti Mavərənnəhrin yanındadır və çox vaxt hadisələrin tapdağı altında qalmışdır. Xorasan özbəklərin qarətindən əldən düşmüşdür. Xorasanın bu xilafət dudmanının əlinə keçməsindən bu vaxtadək Herat darülmülkü dövr sultanlarının və fərman sahiblərinin taxtgahı olaraq qalmış, bu mülk həmişə alişan şahzadələrin biri tərəfindən idarə olunmuşdur. İndi də əgər ali rütbəli şahzadələrdən biri bu mülkün mühafizə və qorunması ilə məşğul olmasa, bu iş biz bəndələr tərəfindən qoruna bilməz" (27).

Abbas Mirzənin vilayəti tərk etməsi onun ətrafına toplanmış qızılbaş tayfalarının mövqelərinin zəifləməsinə də yol aça bilərdi. Ona görə, əslində, Abbas Mirzənin Heratda qalması və ya onun Qəzvinə göndərilməsi qızılbaş tayfaları arasında nüfuz mübarizəsinin bir ifadəsi idi. Abbas Mirzənin lələsi olan Əliqulu xan şamlı tayfasından idi. Abbas Mirzənin itiriləcəyi təqdirdə Əliqulu xanın da, onun mənsub olduğu tayfanın da öz nüfuzunu itirmək təhlükəsi var idi və ona görə də şamlı tayfasının təmsilçiləri Abbas Mirzənin vilayətdən kənara buraxılmasına razı olmadılar.

Əliqulu xanla bərabər, vilayətdə digər söz və nüfuz sahibi olan Mürşüdqulu xan da Abbas Mirzənin öz valideynlərinin yanına getməsinə razılıq vermədi. Mürşüdqulu xan hələ Məhəmməd Mirzə Xorasanda olarkən onun lələsi olmuş Şahqulu sultan Yeqanın

oğlu idi. O, Xəbvab və Baxərzin hakimi idi. Mürşüdqulu xan, ustaclı tayfasını təmsil edirdi. Bu tayfanın təmsilçiləri də öz nüfuzunun qorunması və səltənət idarəçiliyində daha geniş yer alması üçün digər qızılbaş tayfaları ilə ixtilafda idilər. Xorasan vilayətində nüfuz və söz sahibi olan digər bir qızılbaş əmiri isə Məşhədin hakimi Murtəzaqulu xan idi. O, ilk baxışdan Abbas Mirzənin vilayətdən buraxılmasının əleyhinə olsa da, daxilən Əliqulu xanla Mürşüdqulu xanın nüfuzunun artmasını heç də istəmirdi. Murtəzaqulu xan türkman tayfasına mənsub idi və bu tayfa şamlı və ustaclı tayfaları ilə ixtilafda idi. O, şübhə etmirdi ki, Abbas Mirzəni yanında saxlamaqla Əliqulu xan öz nüfuzunu qoruyub saxlaya biləcəkdi. Bu isə Murtəzaqulu xanı razı salmırdı. Lakin o, açıq şəkildə Əliqulu xana və Mürşüdqulu xana qarşı da çıxa bilmirdi. Murtəzaqulu xana o da bəlli idi ki, Əliqulu xanla Mürşüdqulu xan sözləşərək birlikdə Abbas Mirzənin Heratı tərk etməsinə qarşı mövqe tutmuşdular və onlar öz məqsədlərinə nail olmaq üçün hərbi qüvvə tətbiq etməyə də hazır idilər. Murtəzaqulu xanın isə bu qüvvələrə qarşı çıxmaq gücü yox idi və yalnız mərkəzdən əlavə hərbi qüvvələr gələcəyi təqdirdə Murtəzaqulu xan Əliqulu xanla Mürşüdqulu xana təsirli müqavimət göstərə bilərdi. Mərkəzdən əlavə hərbi qüvvələrin gələcəyi isə hələlik ehtimal edilmirdi (28).

Şah sarayının nümayəndəsi kimi Herata gəlmiş Ağa Nəzər burada qızılbaş əmirlərinin müqaviməti ilə qarşılaşdı. “Ağa Nəzər onların hər biri ilə söhbət etdi. Əmirlərin ona çox təzim etmələrinə baxmayaraq, bu ancaq zahiri bir rəsmi təvazökarlıqdan başqa, bir şey deyildi. Onlar bu işə dövlətxahlıq libası geydirib, ona xatırladırdılar və xahiş edirdilər ki, gedib nəvvab Məhdülyaya belə desin: "O, qoy bu istəyindən əl çəkib, Xorasanı o həzrətin qiymətli vücudundan xali etməsin, çünki belə bir əməl qüvvətli dövlətə layiq olmaz" (29).

Qızılbaş əmirləri və əyanları hətta Xeyrannisə xanıma ultimatum da göndərdilər ki, Abbas Mirzənin Qəzvinə aparılması istəyindən əl çəksin. Əks təqdirdə, qızılbaş əmirləri müqavimət gös-

tərməli olacaqlarını da Ağa Nəzərin diqqətinə çartdırdılar. Bununla, Xorasandakı qızılbaş əmirləri və əyanları əslində, mərkəzi hakimiyyətə qarşı itaətsizlik nümayiş etdirdilər. Belə bir itaətsizliyin nə ilə nəticələnə biləcəyi qızılbaş əmirlərinə yaxşı bəlli idi. Ancaq onlar şübhə etmirdilər ki, şah sarayının tələbinin icra edilməsi onların durumunu daha da ağırlaşdıra bilər. Ona görə onlar Abbas Mirzəni öz yanlarında girov kimi saxlamağa üstünlük verdilər. Abbas Mirzə nə qədər ki, müxaliflik edən qızılbaş əmirlərinin yanında idi, onlar şah sarayının qərarlarına da müəyyən təsirlər göstərə bilərdilər.

Xeyrannisə xanımın etibarlı adamlarından olan Ağa Nəzər ona verilmiş olan tapşırığın icrasına nail ola bilmədi. Belə olanda o, geri qayıtmaq məcburiyyətində qaldı. Ağa Nəzər Heratda rastlaşdıqları, eşitdikləri və müşahidələri haqqında şah sarayına məlumat çatdırdı. Şah Məhəmməd Xudabəndənin xəstəliyi üzündən səltənət idarəçiliyində aparıcı rola malik olan Xeyrannisə xanım eşitdiklərindən heç də razı qalmadı. Şah Məhəmməd Xudabəndə şahlıq taxtına çıxdıqdan sonra Abbas Mirzənin böyük qardaşı Həmzə Mirzə varis elan edilmişdi. Xeyrannisə xanım da Həmzə Mirzənin varisliyini dəstəkləyirdi və Şah Məhəmməd Xudabəndənin öz fəaliyyət qabiliyyətini itirdiyi halda hakimiyyətin Həmzə Mirzəyə keçməsini istəyirdi. Abbas Mirzənin Heratda qızılbaş əmirlərinin nəzarəti altında saxlanmasını Xeyrannisə xanım həm də Həmzə Mirzənin varisliyinə bir təhlükə kimi qəbul edirdi. Onun gümanınca müxalifətdə olan qızılbaş tayfaları malik olduqları hərbi gücə istinad etməklə Abbas Mirzənin hakimiyyətə gətirilməsinə cəhd göstərə bilərdilər. Hakimiyyət uğrunda cərəyan edən proseslərin belə bir hal almasını isə Xeyrannisə xanım istəmirdi (30).

Ona görə də Xeyrannisə xanım Herata, Abbas Mirzənin ardınca yenidən başqa bir adamın göndərilməsinə qərar verdi. Bu dəfə isə saray daxilində hörmət və nüfuz sahibi olan İbrahim bəy adlı bir qızılbaş əyanı seçildi və ona Herata yollanmaq tapşırıldı. O da Əliqulu xanı və müxaliflik edən digər qızılbaş əmir və əyanlarını inandırmaqla Abbas Mirzənin Qəzvinə gətirilməsinə nail olmalı

idi. Mənbə məlumatına görə, İbrahim bəyi 50 nəfərlik qızılbaş ağaları müşayiət edirdi. Bu böyük dəstə şah sarayının tələbini çatdırmaqla qızılbaş əmir və əyanları ilə müzakirələr aparmalı idilər. Lakin Xeyrannisə xanımın bu cəhdi də gözlənilən nəticəni vermədi. İbrahim bəyin və onu müşayiət edən ağaların Herata gəlməsi xəbəri alınan kimi, Əliqulu xanla Mürşüdqulu xan yeni məsləhətləşmələr apardılar, şah sarayının tələbi qarşısında nə etməli olacaqlarını dəqiqləşdirdilər. Adları çəkilən bu xanlar yenidən şah sarayına qarşı itaətsizlik göstərmək qərarına gəldilər. Onlar eyni zamanda belə qərara gəldilər ki, vilayətin bütün əmirləri və hakimləri əlaqə saxlasınlar və şah sarayına qarşı birgə fəaliyyət üçün onların razılığını alsınlar. O cümlədən, Məşhəd hakimi Murtəzaqulu xanın yanına adam göndərildi və ondan da şah sarayına qarşı müxalifətçilik tələb olundu. Amma Murtəzaqulu xan bu dəfə şah sarayına qarşı müxalifət mövqeyində durmayacağını açıq şəkildə bəyan etdi. "Dünyanı bəzəyən Abbasın tarixi"nin müəllifi bunu Murtəzaqulu xanın Əliqulu xana qarşı qibtəsi və qürur hissləri ilə bağlı olması ilə əlaqələndirirdi. Yəni Murtəzaqulu xan istəmirdi ki, Əliqulu xan Abbas Mirzəni yanında saxlamaqla daha böyük gücə və nüfuza malik olsun. Özünü Abbas Mirzənin lələsi adladırmaqla Əliquluxan əslində, vilayət idarəçiliyində aparıcı mövqeni əldə etmişdi. Şah sarayına qarşı müxalifətçiliyi davam etdirməsi Əliqulu xanın vilayət daxilindəki gücünü daha da artırırdı. Murtəzaqulu xan Əliqulu xanın nüfuzunun belə qeyri-qanuni yolla artmasının qarşısını almaq üçün şah sarayına qarşı müxaliflik etməyəcəyini və Abbas Mirzənin Heratda saxlanmasını dəstəkləməyəcəyini bəyan etdi. O, tabeliyində olan bütün əmir və hakimlərdən də tələb etdi ki, Əliqulu xanın cəbhəsinə qoşulmasınlar. Beləliklə, Xorasan vilayətində qızılbaş əmirlərinin və hakimlərinin bir-birinə qarşı olan iki dəstəsi yarandı. Murtəzaqulu xanın qətiyyətli mövqeyi bir sıra yerli hakimlər tərəfindən də dəstəkləndi və onun ətrafında müxalif dəstənin formalaşması Əliqulu xanın mövqeyinin zəifləməsinə və vilayət daxili qüvvələrin parçalanmasına yol açdı (31).

Şah sarayının tapşırığının icrası üçün bölgəyə yollanmış İbrahim bəy isə Məşhədə yetişəndə Əliqulu xanla Mürşüdqulu xan bundan xəbər tutdular, ona məktub göndərərək gəlişindən sevindiklərini bildirdilər. Lakin İbrahim bəyin nəzərinə o da çatdırıldı ki, Abbas Mirzənin Qəzvinə aparılması məqsədilə Herata gəlməsinin heç bir nəticəsi olmayacaqdır. Əliqulu xan və onun ətrafındakılar hətta Qəzvin sarayına məktub da göndərdilər. Həmin məktubda deyilirdi: "Şahzadənin İraqa aparılması özbək müxaliflərinin cürətlərinin artmasına səbəb ola bilər və belə hərəkət bu əzəmətli dövlətə məsləhət görülmür. Buna görə də biz dövlətxahlar cəsarət edib o işə razı olmadıq" (32).

Əliqulu xan və onun ətrafındakılar şah sarayının tələbini icra etmək əvəzinə saraya məktub göndərdilər və öz istəklərini də bəyan etdilər. İbrahim bəy də daha Herata yollanmağı məqsədəuyğun saymadı və Məşhəddə qalaraq şah sarayına göndərilmiş məktuba veriləcək cavabı gözləməyə başladı. Ona görə də bir müddət Məşhəddə qalmalı oldu. Həmin müddət ərzində Məşhəd hakimi Murtəzaqulu xan davamlı şəkildə İbrahim bəyi şah sarayının tələbinin icrasına yönəltməyə çalışdı. İbrahim bəy Məşhəddə qaldığı günlərdə anladı ki, Murtəzaqulu xanın Əliqulu xana qarşı münasibətdə həm də şəxsi maraqları vardır. İbrahim bəyə görə, əgər o, Məşhəddə çox qalsaydı bunu Əliqulu xan və onun ətrafındakılar İbrahim bəy tərəfindən Murtəzaqulu xanın dəstəklənməsi kimi qəbul edə bilərdilər. Bu da Əliqulu xan və onun ətrafındakıların qəzəbinin coşmasına və Abbas Mirzənin də bundan ziyan görməsinə gətirib çıxara bilərdi. Ona görə də İbrahim bəy Məşhədi tərk etdi və Quriyana yollandı. O, şah sarayından cavab gələnə kimi bölgədə gözləməyi lazım bildi. İbrahim bəy bir müddət Quriyanda qaldıqdan sonra Əliqulu xanın və onun ətrafındakıların təkidi ilə Qəzvinə qayıtmalı oldu. Yəni Əliqulu xan birmənalı şəkildə bildirdi ki, Abbas Mirzənin Heratdan ayrılması mümkün deyil. Xeyrannisə xanım övladının geri gətirilməsinə növbəti dəfə nail ola bilməməsinə görə ciddi şəkildə qəzəbləndi. Bu qəzəbini o, Əliqulu atası Sultan Hüseynə də çatdırdı. Sultan Hüseyn Səfəvi sarayın ta-

nınmış və nüfuzlu əyanlarından biri olmaqla təvaçıbaşı vəzifəsini də icra edirdi. Xeyrannisə xanım verilən tapşırığı yerinə yetirə bilmədiyi üçün İbrahim bəydən olan narazılığını ona çatdırdı və onun özünü də xeyli danladı. Sultan Hüseyn oğlunun saraydan verilən tapşırığa biganə yanasmasından xoşu gəlmədiyini dilinə gətirsə də, yaranmış vəziyyətin günahını müxalifətdə olan Xorasan əmirlərin üstünə atmağa çalışdı. Onun fikrincə, çoxlu sayda qızılbaş əmirlərinin Səfəvi sarayına qarşı müxalifətdə olduqları halda Əliqulu xanın onlara gücü çata bilməzdi. Xeyrannisə xanım Sultan Hüseyni oğlunun əməllərinə görə ittihamlandıraraq ona Herata yollanmağı, oğlunu ağıllandırmağı və sonra da Abbas Mirzəni də yanına alaraq Qəzvinə qayıtmağı tapşırdı. O da bildirilirdi ki, Sultan Hüseyn öz oğlunu ağıla gətirə bilməsə, onda heç Qəzvinə qayıtmasın. Çünki saray fərmanını icra etməyən ata və oğul saraya göstərdikləri itaətsizliklərə görə sarayın düşməninə çevrilmiş olarlardı (33).

Sultan Hüseyn təklif etdi ki, Xorasanda baş qaldıran müxalifətçiliyin aradan qaldırılması üçün müxalifətdə olan tayfaların təmsilçiləri yüksək vəzifələrdən azad edilsinlər və onların yerinə şah sarayına itaəti ilə fərqlənən Murtəzaqulu xanın yaxınlarını və onun mənsub olduğu tayfanın təmsilçilərini təyin edilsinlər. Bununla da müxalifətdə olan tayfaların səltənət idarəçiliyinə təsir imkanları azaldılsın. Şah sarayını isə daha çox Abbas Mirzənin geri qaytarılması məsələsi narahat edirdi. Sultan Hüseyn də anladı ki, çox çətin bir seçim qarşısında qalmışdır. Onun Herata gedərək öz oğlunu yola gətirməkdən başqa bir çarəsi yox idi. Ona görə də Sultan Hüseyn dərhal Xorasana yollandı. Bura yetişəndə artıq yerli əmirlərin onun gəlişinin məqsədindən xəbəri var idi. Yerli əmirlər bu dəfə də toplaşaraq Abbas Mirzənin öz valideynlərinin yanına qaytarılmasına razı olmadıqlarını bildirdilər. Herata gələndən sonra isə Sultan Hüseyn oğlu Əliqulu xanla görüşdü, Xeyrannisə xanımın tələbini ona çatdırdı və öz tərəfindən bu məsələnin şah sarayının istəyincə həll edilməsinə tərəfdar olmasını istədi. Şamlı tayfasının Heratda toplanmış bir sıra əmir və əyanları şah sarayı-

nın tələbinə itaət edilməsini, Sultan Hüseynin Abbas Mirzə ilə geri yola salınmasını, şamlı tayfasının şah sarayına qarşı sərt müxalifətçilikdən çıxarılmasını məsləhət bildilər. Amma Heratdakı əmir və əyanların heç də hamısı bu mövqeni dəstəkləmədilər. Hətta Mürşüdqulu xan da Əliqulu xana xəbər göndərərək Abbas Mirzənin sərt şəkildə Qəzvinə yola salınmasına qarşı olduğunu bəyan etdi. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərində bu müzakirələrin hansı gərginliklə keçməsi belə təsvir olunmuşdur: “Sultan Hüseyn xan Herat darüssəltənəsinə gəlib çatdıqda ata-oğul görüşdü, amma atasının gözlədiyi oğlunda görünmədiyi üçün əmirlər yenidən qətiyyətlə bir yerə yığışdılar. Heratdakı şamlı tayfasının ağıllı və ağsaqqal adamlarının əksəriyyəti padşahın əmrinə itaət etməyi, Sultan Hüseyn xanı məqsədinə çatdırıb geri yollamağı, şamlı tayfasını müxalifət və üsyan damğası ilə müttəhim etməyi məsləhət bilmədilər. Amma türk və taciklərin bir dəstəsi isə bu fikrə qarşı çıxaraq belə deyirdilər: "Əgər bu əzəmətli dövlətin dövlətxah adamları etdikləri işi dövlətin xeyrinə edirlərsə, bu niyə üsyan kimi anlaşılmalıdır? Əksinə belə hərəkət dövlətxahlıq və duz-çörəyə ehtiram əlaməti kimi başa düşülməlidir".

Xülasə, belə söz-söhbət çox davam etdi. Get-gedə ata-oğul arasında pis münasibət çoxalırdı. Hüseyn xan deyirdi: "Əgər mən məqsədə yetmədən geri qayıtsam, dərgahın qapıları üzümə bağlanacaqdır. Elə halda qayıtmamağını məsləhətdir".

Amma, Mürşüdqulu xan və onunla sözü bir olan əmirlər Əliqulu xanın atasının təkidi və şamlı ağsaqqallarının məsləhəti ilə savab yoldan dönəcəyindən qorxdular. Onlar Səbzvar darülmömininə - əmirlərlə sözü bir olan oranın hakimi Qubad xan Qacarın yanında toplaşdılar, cənnətməkan şahın zamanında Azərbaycan və Şirvanın mötəbər vəziri Mirzə Ətaullanın oğlu, indi isə Mürşüdqulu xanın vəziri, mütləq ixtiyar sahibi və bu hadisələrin iştirakçısı olan Mirzə Əhmədi Herat darüssəltənəsinə yolladılar, əzəmətli xanlara və mötəbər şamlılara bir daha tapşırdılar: "Başqa fikri başınızdan silib atın, faydasız yerə səy etməyin. Əgər bütün şamlı tayfası xoşbəxt şahzadənin Qəzvinə göndərilməsinə razı olsa belə,

biz canımız və bütün var-dövlətimizlə qoymarıq ki, bu iddia baş tutsun. Biz İraq yolunun ortasında olan Səbzəvarda qətiyyətlə dayanıb müntəzir olaraq ki, əgər şamlı tayfası səltənət mücrüsünün o qiymətli gövhərini əldən vermiş olsa, biz himmətin və iqbalın qüvvəsi ilə onu əlimizə alaq, Xorasanda iftixar bayrağı qaldıraq" (34).

Əliqulu xanın Abbas Mirzəni öz valideynlərinə qaytara bilməsi ehtimalına qarşı Mürşüdqulu xan heç də tək deyildi. Bu hadisənin baş verməsinin qarşısını almaq üçün Mürşüdqulu xan Səbzəvar hakimi Qubad xan Qacarla ittifaq yaratdı. Nəzərdə tutulmuşdu ki, Əliqulu xan razılaşmanı pozub Abbas Mirzəni Qəzvinə göndərəcəyi halda Səbzəvarda onun qarşısı kəsilsin. Çünki Xorasandan Qəzvinə gedən yol Səbzəvardan keçirdi. Amma Abbas Mirzə ilə bağlı bir qərara gəlmək üçün Mürşüdqulu xanın və Qubad xanın adamları Səbzəvarda toplaşdılar və Abbas Mirzənin Qəzvinə göndərilməsinin qarşısının alınması yolları ilə bağlı məsləhətləşmələr apardılar. Sonra da bu toplantının qərarını Əliqulu xana çatdırmaq üçün Mürşüdqulu xanın vəziri Mirzə Əhməd Herata, Əliqulu xanın yanına göndərildi. Mirzə Əhməd də Mürşüdqulu xanla Qubad xanın qətiyyətli mövqeyini Əliqulu xana çatdırdı. Əliqulu xan atasının həyatı üçün qorxduğu üçün Abbas Mirzənin geri qaytarılması məsələsində fikrini dəyişməyə meylli idi. Lakin Mürşüdqulu xanla Qubad xanın sərt mövqeyini görəndən sonra o da öz fikrindən çəkinməli oldu. Əliqulu xan narahatçılıq və nigarançılıq içərisində atasını əliboş geri qaytarmaq məcburiyyətində qaldı. Sultan Hüseyn də anladı ki, Abbas Mirzəni aparmaq ona nəsib olmayacaqdır və bu işdə Mürşüdqulu xanla Səbzəvar hakiminin müqavimətini qırmaq heç də asan deyildir. Belə olanda, Sultan Hüseyn geri qayıtmağa qərar verdi. Səbzəvara çatanda o, Abbas Mirzənin geri qaytarılmasına müxalif olan əmir və yanlarla görüşdü, onlarla uzun müddət müzakirələr apardı, Abbas Mirzənin geri qaytarılmasına olan müxalifətçiliyin hansı risqlərlə bağlı olduğunu onlara xatırlatdı. Bununla belə, Sultan Hüseyn müxaliflərin razılığını almadı. Onun son ümidi də puça çıxdı. O, bir neçə

gün Səbzəvarda qaldı və həmin günlərdə özünün gələcək taleyi, Abbas Mirzəni özü ilə gətirə bilməməsi ilə bağlı Qəzvin sarayına nə cavab verəcəyi barəsində düşünməyə başladı. Elə həmin günlərdə Xeyrannisə xanımın qızılbaş əmirləri tərəfindən öldürülməsi barəsində xəbər alındı. Bunun ardınca Sultan Hüseynə də xəbər göndərildi ki, Abbas Mirzənin Qəzvinə gətirilməsi təxirə salınsın və özü geri qayıtsın (35).

Sultan Hüseyn də məsələ barəsində Əliqulu xana xəbər göndərib özü geri qayıtdı. Xeyrannisə xanımın öldürülməsi xəbəri alınandan sonra Mürşüdqulu xan və onun ətrafına toplananlar yenidən Əliqulu xanla, habelə Xorasanın şamlı və ustaclı tayfasından olan digər əmir və əyanları ilə birlikdə toplantı keçirdilər və bu toplantıda Abbas Mirzənin geri qaytarılmaması haqqında birgə razılığa gəldilər. Bu toplantı iştirakçıları bildirdilər ki, Qəzvin sarayındakı dövlət adamlarının əksəriyyətini təşkil edən təkəli və türkman tayfa təmsilçilərinin şamlı və ustaclı tayfası ilə ixtilafı var idi və ona görə də Abbas Mirzəni təkəli və türkman tayfasının təmsilçilərinə etibar etmək mümkün deyildi. Bu toplantıda o da qərara alındı ki, Abbas Mirzənin Qəzvinə qaytarılmasına müxalif olan qüvvələr Əliqulu xan ətrafında birləşəcəklər və bu qüvvələr Əliqulu xanı özlərinə ağsaqqal kimi qəbul edəcəklər. Amma məlumdur ki, Xorasan vilayətində olan əmir və əyanların heç də hamısı Əliqulu xanın mövqeyini dəstəkləmirdilər. Həmin əmir və əyanlar isə Məşhəd hakimi Murtəzaqulu xanın ətrafında birləşdilər. Nəticədə Xorasan vilayətində qızılbaş əmir və əyanlarının iki dəstəyə parçalanması və onların bir-birinə qarşı əks cəbhə tutması baş verdi. Qeyd edildiyi kimi, bu cəbhələrdən biri Abbas Mirzənin öz valideynləri yanına qaytarılmasını, digər cəbhə isə Abbas Mirzənin Xorasanda saxlanılmasına istəyirdi. Vaxt ötdükcə bu dəstələr arasındakı münasibətlər daha kəskin xarakter almağa başladı (36).

Xeyrannisə xanımın qətlə yetirilməsi Sultan Hüseyndə sağ-salamat geri qayıtmaq üçün böyük ümidlər yaratsa da, o heç də şah sarayında özünə yer tutmuş qızılbaş əmirlərinin cəzasından canını qurtara bilmədi. Yəni Abbas Mirzəni geri gətirə bilmə-

sini qızılbaş əmirləri ona bağışlamadılar. Sultan Hüseyn o zaman Qəzvinin hakimi idi. Vəziyyət mürəkkəbləşəndə Sultan Hüseyn tutduğu bu vəzifədən kənarlaşdırıldı. Onun qətli təhlükəsi yaranında Sultan Hüseyn qaçıb Ərdəbildə Şeyx Səfi türbəsinə sığındı. Dövrün tələblərinə görə, Şeyx Səfi türbəsinə sığınanlar onları izləyən cəzalardan canlarını qurtara bilirdilər və beləəri təqiblərdən xilas olurdu. Amma qızılbaş əmirləri öz niyyətlərindən əl çəkmədilər. Müəyyən bəhanələr ortaya atmaqla Sultan Hüseyni Şeyx Səfi türbəsindən çıxarmaq və həbs etmək mümkün oldu. Sonra isə o, qətlə yetirildi (37).

Bu hadisələrin gedişində Abbas Mirzə anasını da itirməli oldu. Təxminən 7 ildən bir qədər artıq bir müddətdə olan ayrılıqdan sonra Abbas Mirzə görüşə bilmədiyi anasının qətl edilməsi xəbərini aldı. Xeyrannisə xanımın qətlə yetirilməsi Abbas Mirzəni Xorasanda girovluqda saxlayan şamlı və ustaclı tayfası ilə dərin ixtilafda olan təkəli, türkman və digər tayfaların öz nüfuzlarını qorumaq üçün apardıqları mübarizənin nəticəsi idi. Xeyrannisə xanımın səltənət idarəçiliyi işlərinə müdaxilə etməsi və bu zaman qızılbaş əmirlərinin mənafelərinin heç də həmişə gözlənilməməsi ona qarşı kəskin bir düşmənçiliyin yaranmasına yol açmışdı. Əslində, Xeyrannisə xanımın səltənət idarəçiliyinə müdaxilə etməsinə bir təbii səbəb var idi. Bu da Şah Məhəmməd Xudabəndənin sağlamlığının zəif olması və bununla əlaqədar heç də hər zaman qətiyyət göstərə bilməməsi Xeyrannisə xanımın səltənət idarəçiliyinə müdaxilə etməsinə yol açırdı. Şah Məhəmməd Xudabəndənin qətiyyətsizliyi hətta Xeyrannisə xanıma qarşı təşkil olunmuş qətiyyətsizliyin qarşısının alınmasında da özünü göstərdi.

Bəzi qaynaqlarda Məhdi-ülya xanımın qətlə yetirilməsi daha çox onun özünün əməlləri və xarakteri ilə əlaqələndirilirdi. Belə ki, Məhdi-ülya kifayət qədər hökmlü və inadkar idi, kimsə ilə hesablaşmadan öz hökmünün qızılbaş əmir və əyanları tərəfindən də qəbul edilməsinə çalışırdı. İstəklərinin şah fərmanı ilə rəsmiləşdirilməsi də Xeyrannisə xanım üçün çətinlik təşkil etmirdi. Bu zaman əmir və əyanlara adi ehtiram göstərilməməsi, onlarla hesab-

laşılmaması bu əmirlərin qəzəbini artırmaqda idi. Saraya yaxın olan çoxlu sayda əmirlər öz aralarında məsləhətləşərək bu vəziyyətə son qoyulmasının yolunu aramağa başladılar. Bu məsləhətləşmələr də ona gətirib çıxardı ki, Məhdiülyaya qarşı sui-qəsd təşkil edildi. Həmin qətlin əsaslandırılması üçün isə əmirlər müxtəlif bəhanə və şayiələr də yaymağa başladılar. Hətta Şah Məhəmməd Xudabəndəyə ultimatum da göndərildi ki, Məhdi-Ülya Xeyrannisə xanımın özbaşınalıqları çərçivəyə salınsın. Bu işin təşəbbüskarı olan əmirlər səltənətin nüfuzlu əmirlərindən biri olan Məhəmməd xan Türkmanı şahın xalası oğlu Müseyib xan Şərəfəddinoğlunu da öz tərəflərinə çəkə bildilər. Bu əmirlər Şah Məhəmməd Xudabəndəyə çatdırdılar ki, səltənət idarəçiliyinin bir zənənin əlində qalması şahlıq üçün ar və alçaqlıqdır. Sonra da bəyan edildi ki, Məhdi-ülya xanım səltənət idarəçiliyindən uzaqlaşdırılmasa ona qarşı kəskin mövqe tutulacaqdır. Şah Məhəmməd Xudabəndə də əmirlərin tələbi qarşısında güzəştə gedərək Məhdi-Ülya xanımın tezliklə ya Quma, ya da Herata aparılacağı haqqında vəd verdi. Amma şah bu vədini həyata keçirə bilmədi. Çünki Məhdi-Ülya  xanım bu tələblə razılaşmadı və ona qarşı cəbhə tutan əmirlərə də xəbər göndərdi ki, o, dörd övlad anasıdır və ona heç nə edə bilməzlər (38).

“Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi İsgəndər bəy Münşi isə əksinə, Xeyrannisə xanımın qətlində qızılbaş əmirlərini ittihamlandırırdı. Bu əslində, təsadüf deyildi. İsgəndər bəy Münşi dövrünün böyük zəka sahibi kimi Şah Abbasın münşisi idi və onun Şah Abbas haqqında yazdığı əsərdə həm Şah Abbas, həm də onun anası haqqında rəğbətli bir mövqe duyulmaqdadır. İsgəndər bəy Münşi Xeyrannisə xanımın qətli xəbərini çox ağır bir təəssüratla xatırlayırdı və bu barədə belə yazırdı: “ Cənnətməkan şahın hakimiyyəti zamanı qoşunun və rəiyyətin rahatlıq və rifahının təmin olunduğu ölkənin abadanlığı, şəhərlərin sakitliyi, qulamların asayişinin olduqca yüksəldiyi bir vaxtda dövlət hadisələrinin nəhsliyi və əhalinin qudurğanlığı üzündən bu vəziyyət zavala uğradı. Qızılbaş tayfası müqəddəs səfəvi xanədanı üzvləri ilə mürid

və pis münasibətlərdə olub sədaqət yolunun yolçuları kimi hərəkət etsələr də, şeytani fitnəkarlığa uyaraq, öz nəfsani istəkləri və üstün olmaları kimi arzuları səbəbindən birlik və ittifaq yolundan kənara çıxdılar, get-gedə həmin vəfalı insanlara və saf əqidəli sufilərə sədaqətsizlik meyli sirayət etdi. Onlar ədəbə və sədaqətə zidd olan işlərə cəsarət edib, cahilliyə, fitnə-fəsada və xətakarlığa başladılar, nəticədə özləri də müxtəlif bəlalara məruz qaldılar. Onların pis xasiyyətli cahil və fitnəkarlarından əqidə və sədaqətə zidd olan işlər göründü, nəticədə isə elə bu səbəbdən də öz əməllərinin cəzasına giriftar oldular, müxtəlif bəlalar gördülər. ... Hal-hazırda, hicri tarixlə min iyirmi beşinci ildir (miladi 1616) və həmin hadisələrin üstündən qırx beş il keçmişdir, lakin (miladi 1616) o adamların ədəbsiz hərəkətlərindən onların sağ qalan adamları hal-hazırda da danışırlar və bu adamlar öz atalarının günahkar əməllərindən əzab-əziyyət içindədirlər. Həmin fitnə-fəsad əhli olan kinli adamların ən qəbahətli əməli zamanın mələkəsi dövranın iffətlisi, Zəhranın Zöhrəsi, seyyidə qadınların gözəl törəməsi (zürriyyə) Məryəm şanlı Məhdülya Xeyrənnisa bəyimin qətlidir.

Kamyab nəvvabın (Məhəmməd Xudabəndənin) möhtərəm hərəmi və ali nəsilli şahzadələrin məşhur (macedə) anası olmasını nəzərə almayan [canilər] əql və salamatlığın (afiyət) düzgün yolundan çıxdılar, öz vəziyyətlərin düzəlməsi və müvəqqəti rütbələrinin qorunmasından ötrü etdikləri əməlin alçaqlığını görmədilər, dünya və axirətdən mədəd (xezlan) aramadan və etdikləri ədəbsizliyin nəticəsindən qorxmadan elə bir qəbih əmələ cəsarət etdilər” (39).

Xeyrannisə xanımın türk olmaması və ətrafına da qeyri-türk əyanların toplanmasına meylli olması da qızılbaş əmirlərinin güclü narazılığı ilə qarşılaşırdı. Bu narazılıqlar Xeyrannisə xanımın gözləri qarşısında böyüməkdə idi. Buna baxmayaraq, Xeyrannisə xanım öz iradəsindən geri dönmək və qızılbaş əmirlərinin tələbləri ilə razılaşmaqdan çox uzaq idi. O hətta qızılbaş əmirlərinə belə bir xəbər göndərdi: “Nə qədər ki, sağam öz xasiyyətimi dəyişməyəcəm və tutduğum yoldan geri çəkilməyəcəm. Əgər qızılbaşlar pad-

şahın dedikləri ilə razılaşmayıb, onun möhtərəm hərəmini zülmlə qətl etməyə iqdam edərlərsə, hökm böyük Allahındır, mən dörd şahzadə anası öz qanımın sizdən alınmasını Allah-təalanın izni ilə övladlarıma tapşıraram" (40).

Qızılbaş əmirləri də öz mövqelərindən əl çəkmədilər. Nəticədə, 1579-cu il iyul ayının 24-də qızılbaş əmirləri şah hərəmxanasına daxil olaraq Xeyrannisə xanımı, sonra isə onun anasını və Xeyrannisə xanımın xidmətində olan bir neçə mazandaranlı əyanı qətlə yetirdilər (41).

Abbas Mirzənin anasını qətlə yetirən qızılbaş əmir və əyanları Abbas Mirzənin özünün də Xorasanda qalmasını istəmirdilər. Onlar ehtiyat edirdilər ki, Abbas Mirzə nə zamansa taxt-tac varisi elan oluna və şahlığa gətirilə bilər. Bu isə şah sarayında böyük vəzifələr tutmuş təkəli və türkman tayfası təmsilçilərinin mövqelərinin zəifləməsinə gətirə bilərdilər. Ona görə şah sarayının təhriki ilə Abbas Mirzənin Qəzvinə qaytarılması məsələsi yenidən aktuallaşdı. Xeyrannisə xanımın qətlindən sonra Xorasan vilayətində Abbas Mirzənin saraya qaytarılması məsələsində Fuşənc və Quryan hakimi İsgəndər xan Şamlı da fəallaşmağa başlamışdı. İsgəndər xan Şamlı şah tərəfindən "Xoşxəbər" ləqəbinə layiq görülmüşdü və onun bu ləqəblə xatırlanmasına qaynaqlarda da rastlaşmaq mümkündür. O bu ləqəbə II Şah İsmayılın ölümündən sonra şahlıq taxtına çıxacağı xəbərini ilkin olaraq Şah Məhəmməd Xudabəndəyə çatdırdığı üçün layiq görülmüşdü. İsgəndər xan şah sarayına sədaqətli bir xan idi və bu keyfiyyətinə görə Xeyrannisə xanım onun Xorasan vilayətinə daxil olan Fuşənc və Quryana məntəqələrinə hakim göndərdi. Onun bu təyinatı Xorasan vilayətinin idarəçiliyini öz üzərinə götürmüş Əliqulu xanla razılaşdırılmadığı üçün Əliqulu xan bundan narazı qaldı. Əslində, Xeyrannisə xanımın məqsədi də bu idi ki, Əliqulu xanın razılığını almamaqla onun zəiflədilməsinə yol açsın. İsgəndər xan da Quryana gəldiyi gündən Əliqulu xana qarşı itaətsizlik göstərdi, Xeyrannisə xanıma arxalandığı üçün öz fəaliyyətini tamamilə sərbəst şəkildə qurdu. İsgəndər xan hətta bütün Xorasanın idarəçiliyini öz üzərinə götürmək

iddiasında olduğunu da gizlətmədi. Onun daha təkəbbürlü davranışı və böyük iddialara düşməsi Əliqulu xanın ciddi narazılığı və etirazı ilə qarşılaşdı və dinc yolla yaranmış vəziyyətin aradan qaldırılması mümkün olmayanda Əliqulu xan Quryan üzərinə qoşun çəkdi. İsgəndər xanın Əliqulu xanın göndərdiyi qoşun dəstəsinə müqavimət göstərmək üçün yetərli qüvvəsi yox idi. Ona gör də o, həyatını xilas etmək üçün Esfəzar adlanan məntəqəyə qaçdı. Bu məntəqənin hakimi olan Murad bəy Əfşar öz qoşun dəstəsi ilə İsgəndər xanı müdafiə etdi və Əliqulu xanın göndərdiyi qoşun dəstəsinə qarşı döyüşə girdi. Murad bəy Əfşar bu döyüşü uğurla bitirdi və Əliqulu xanın dəstəsini geri qayıtmağa məcbur etdi. İsgəndər xan isə daha Quryana qayıtmağa cəsarət etmədi və Esfəzardan Qəzvinə yollandı (42).

İsgəndər xan vilayətdən uzaqlaşdırıldıqdan sonra Xorasan daxilində Əliqulu xana müxalif olan əsas qüvvə Məşhəd hakimi Murtəzaqulu xan və onun tabeliyində olan əmilər idi. Murtəzaqulu xan Əliqulu xanın mövqelərinin güclənməsini istəmirdi və ona görə də o, Abbas Mirzənin Qəzvinə qaytarılmasının tərəfdarı idi. Yəni Murtəzaqulu xan şah sarayına itaətini saxlamaqda idi və elə sarayın köməyinə arxalanmaqla o da Xorasan daxilində öz təsir sahəsini genişləndirməkdə idi. Məşhəd ətrafında yerləşən bir çox məntəqələrin hakimləri onunla birləşərək Əliqulu xana qarşı çıxmaqda idilər. İsgəndər xanın vilayətdən uzaqlaşdırılmasından sonra isə Murtəzaqulu xanla Əliqulu xan arasındakı ixtilaf silahlı qarşıdurmaya çevrildi. Murtəzaqulu xan bu silahlı qarşıdurmada üstün gəlməklə bir tərəfdən Abbas Mirzəni Əliqulu xanın girovluğundan çıxarıb Qəzvinə göndərməyə, digər tərəfdən isə Əliqulu xanın Xorasandakı hakimliyinə son qoymaq istəyirdi. Bu silahlı qarşıdurma Murtəzaqulu xanın Səbzəvar üzərinə qoşun çəkməsi ilə başladı. Bu məntəqənin hakimi Qubad xan Qacar Məşhəd hakiminin təsiri altında olan birisi idi. Əliqulu xanın atası Sultan Hüseynin iştirakı ilə Səbzəvarda keçirilən toplantıdan sonra Qubad xan Əliqulu xanı dəstəkləməyi qərara almışdı. Murtəzaqulu xan da Qubad xanın ona qarşı hörmətsizlik göstərməsini qəbul et-

mədi. Böyük sayda olan qoşun dəstəsinə qarşı Qubad xan müqavimət göstərə bilmədi. Murtəzaqulu xan Səbzəvara nəzarəti ələ keçirdi. O, Qubad xanı ciddi cəzalandırmadı, onun yalnız vəzifədən azad edilməsi ilə kifayətləndi. Murtəzaqulu xan onu özü ilə Məşhədə gətirdi, yerinə isə başqa birisini təyin etdi (43).

Murtəzaqulu xanın Səbzəvara qoşun çıxarması və oranın hakimini dəyişməsi əslində, Əliqulu xana qarşı açıq təhdid və saymazlıq idi. Əliqulu xan da bu hadisəni elə bu cür qəbul etdi. O, Xorasanın əmirül-ümərası kimi bu vilayətə hakimliyi bütünlüklə öz əlində cəmləşdirməyə çalışdığı halda Murtəzaqulu xanın ona qarşı açıq meydan oxuması Əliqulu xanın niyyətlərinin həyata keçməsinə son qoya bilərdi. Amma Əliqulu xanın narahatçılığı yalnız Murtəzaqulu xanla bağlı deyildi. Murtəzaqulu xanın fəallaşdığı bir vaxtda şah sarayı da Əliqulu xanın mövqeyinin zəiflədilməsi üçün əməli addımlar atmağa başlamışdı. O cümlədən, vilayət daxilindəki bir sıra məntəqələrə şah sarayına sədaqətli olan əmir və əyanlar hakim təyin edilmişdilər. Bu təyinatların aparılmasında şahın vəziri Mirzə Salman da öz fəallığı ilə fərqlənirdi. Mirzə Salman da yaxşı anlayırdı ki, Əliqulu xanın güclənməsi və Abbas Mirzənin də onun yanında girov saxlanması gələcəkdə şah hakimiyyətinə qarşı olduğu kimi, elə onun özü üçün də təhlükəyə çevrilə bilərdi. Ona görə onun da təklifi və tövsiyələri əsasında Xorasan daxilində Xəvaf və Baxərz Mürşüdqulu xandan alınaraq Əmir Həmzə xana verildi. Qain hakimi Polad xəlifə Şamlının yerinə Vəli xəlifə Şamlı, Torşiz hakimi Mahmud xan Sufioğlu Ustaclının yerinə Vəli xan Ustaclı, İsfəreyn hakimi İbrahim xan Ustaclının yerinə isə Mustafa xan Çavuşlu təyin edildi (44).

Vəzifəsindən azad edilmiş keçmiş hakimlər isə ətrafında olan qoşun dəstələri ilə birlikdə Əliqulu xan ətrafında birləşdilər və onlar birlikdə vilayətdə şah sarayının əsas dayağı olan Murtəzaqulu xana qarşı döyüşməyə hazır olduqlarını bildirdilər. Mürşüdqulu xan da Əliqulu xana qoşuldu. Əliqulu xan ətrafına topladığı qoşunları Abbas Mirzənin qoşunları kimi təqdim edirdi və onun adından döyüş apardığını bildirdi. Murtəzaqulu xanın üzərinə hə-

yata keçirilən yürüşdə Abbas Mirzə də qoşunların rəhbəri kimi iştirak etməli idi. Əliqulu xan vilayət daxilində ciddi iş apararaq böyük qoşun dəstəsi toplamağa müvəffəq olmuşdu. Xüsusi ilə vəzifədən kənarlaşdırılmış hakimlər daha böyük fəallıq göstərməklə Əliqulu xanın ətrafında toplanan qoşunların sayını artıra bilmişdilər. Onlar belə bir ümidlə yaşayırdılar ki, Murtəzaqulu xana üstün gəlməklə Əliqulu xan onları yenidən öz əvvəlki vəzifələrinə bərpa edəcəkdir. Amma Məşhəd üzərinə yürüşə başlamazdan əvvəl Əliqulu xanın ətrafına toplanmış olan əmir və əyanlar Murtəzaqulu xana və onun ətrafında toplanmış olan hakimlərə məktub göndərdilər, onları Əliqulu xan ətrafında birləşməyə çağırdılar. Həmin məktubun mətni belə idi: “Bizlər və sizlər hamımız bu dərgahın dövlətxahlarıyıq, İsgəndər şanlı nəvvabı özümüzün mürşidi və vəlineməti bilirik, bu dərgaha qarşı müxalifətdə olmaq qətiyyən bizim xəyal səhifəmizdə yazılmamışdır. Bir halda ki, adlı-sanlı şahzadənin və ali nəsilli xanın razılığı ilə belimizə xidmət kəməri bağlamışıq, iki məsələnin baş verməsinin şahidi olmuşuq: Birincisi budur ki, Rum padşahı əvvəlki əhd-peyman sazişini pozaraq Azərbaycan və Şirvan məmləkətlərini fəth etməyə gəldiyindən, o sərhəddə fitnə və qarışıqlıq başlamış, bizim padşahımız isə İraq və Azərbaycan ləşkərləriylə onların fitnəkarlığını dəf etməyə məcbur olmuşdur. Özbək sultanları da fürsəti qənimət bilərək Xorasan məmləkətinə hücuma keçə biliblər. Herat darüssəltənəsi Xorasanın paytaxtı, aləm şahzadəsi isə bizlərin və sizlərin vəlineməti olduğundan o, bu torpaqda yerləşmişdir. Məqsədimizin mahiyyəti budur ki, əzəmətli əmirlər arasında razılıq və birlik olsun, küdurət və nifaq aradan çıxsın. Əgər, Allah göstərməsin, bir hadisə baş verərsə, padşah tərəfindən heç bir kömək gəlməyəcəkdir. Gərək hamımız bir-birimizlə yekdil olaq, vəlinemətimizin başına yığılaq, onun müqəddəs ordusu tərkibində düşmənlərini aradan qaldırmağa qalxaq. O həzrətin lələsi Əliqulu xanı da qüvvətli dövlətimizin məsləhətiylə ağsaqqalımız və xanlar xanı bilək, onun tapşırıq və məsləhətindən kənara çıxmayaq. Əgər bizim aramızdakı nifaq və ayrılıq özbək müxaliflərinin qulaqlarına çatarsa, hərəkətində cür-

ətlənib müxtəlif fitnə-fəsada səbəb ola bilərlər və bu mülkdə qarışıqlıq olar.

... İkinci məsələ isə budur: Məlumdur ki, ali dərgahda səltənət işlərinin ipi və dövlət məsələlərinin qaydaya salınması vəzir Mirzə Salmanın və bir neçə əmirin əlindədir. Onlar bizim tiyullarımızda daim dəyişiklik edir, etibarımızı azaltmağa çalışırlar. Bizlər və sizlər xidmətdə bəlkə də ata-babalarımızdan, əsil-nəsildəsə onlardan əskik deyil, hətta ola bilsin ki, xidmət və sədaqətdə hamımız onlardan irəli, saydasa onlardan çoxuq. Əgər İraq, Azərbaycan sərhədləri, Fars və Kirmanın işləri onların qüdrəti altında qalarsa, ola bilər ki, Xorasanın bütün işləri bizim ixtiyarımızda qalar və biz də dövlət və dinin məsləhət gördüyü hər işi həyata keçirərik. Bu məsələ Xorasanın əzəmətli əmirləri tərəfindən bəyənilmişdir və onlar adı çəkilən xanlar xanı ilə əhd və peyman bağlamışlar. İndi bu dövlətə layiqdir ki, o cənab da (Mürtəzaqulu xan - red.) başqa əmirlərlə razılığa gələrək, şahzadənin mülazimi olmaq və xanlar xanı ilə görüşmək izzətinə yetişsin, küdurət və nifaq qapılarını bağlasın, etibardan saldığı Qubad xandan üzr istəyərək onu Səbzəvara göndərsin" (45).

Bu məktubla Murtəzaqulu xan və onun ətrafındakılara qarşı iki başlıca tələb irəli sürüldü. Biri Səbzəvarın keçmiş hakimi Qubad xan Əfşarın yenidən öz vəzifəsinə bərpa edilməsi tələbi idi. Digər tələb isə təklif kimi səslənsə də, əslində qızılbaş əmirləri və əyanları arasında baş verən parçalanmanın və qarşıdurmanın mahiyyətini əks etdirən məsələ idi. Əliqulu xanın cəbhəsindən təklif olunurdu ki, Murtəzaqulu xan və onun ətrafındakılar Əliqulu xanın ətrafında birləşsinlər, onun xanlar xanı olmasını qəbul etsinlər və bununla da Xorasan daxilində parçalanmaya son qoyulsun. Əliqulu xanın tərəfdarları bu təkliflə Xorasanın Əliqulu xanın rəhbərliyi altında mərkəzi hakimiyyətə qarşı itaətdən çıxmasını istəyirdilər. İddia olunurdu ki, bununla Xorasan əslində, Abbas Mirzənin rəhbərliyi altına gətirilmiş olurdu.

Murtəzaqulu xan irəli sürülən təklif və tələbi qəbul etmədi. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifinin fikrincə,

Murtəzaqulu xan təkəbbürlülük və özündən razı olması üzündən irəli sürülən təklif və tələblərdən xoşu gəlmədi. Müəllif sonra onu da əlavə edirdi ki, Murtəzaqulu xanın mənsub olduğu türkman tayfasının pornak oymağı da şamlı və ustaclılarla ixtilafda idi. Ona görə Murtəzaqulu xanın da şamlı və ustaclı tayfasından olanlara qarşı inamı yox idi. Murtəzaqulu xan da Əliqulu xana və onun ətrafındakılara cavab məktubu yazdı. Bu məktubda Əliqulu xana və onun ətrafındakılara qarşı kobud ifadələr və təhqirlər yağdırıldı, Əliqulu xanın və onunla həmfikir olanların tutduğu mövqe mərkəzi hakimiyyətə qarşı itaətsizlik kimi qiymətləndirildi. O özünü şahsevən (şahı sevən), qarşı tərəfi isə düşmən adlandırdı. Murtəzaqulu xan eyni zamanda vilayətdə baş verənlər, Əliqulu xanın əməlləri haqqında şah sarayına məktublar göndərdi, Əliqulu xanın əməllərini xüsusi olaraq qabartmaqla şah sarayını bölgəyə qoşun dəstəsi göndərməyə təhrik etmək istədi. Murtəzaqulu xan bununla vilayətdə Əliqulu xanın və onun tərəfdarlarının fəaliyyətinə son qoymağı və onları sıxışdırıb aradan çıxarmaqla vilayətə nəzarəti bütünlüklə ələ keçirmək istəyirdi. Bununla həm də səltənət daxilindəki parçalanmanı aradan qaldırmaq olardı (46).

Bir başqa məlumata görə isə, Əliqulu xanın və onun müttəfiqlərinin nəsihətlərini alandan sonra Murtəzaqulu xan vəziri Mirzə Əhməd İsfahanini yanına çağırdı, baş verənlər haqqında onunla məsləhətləşdi və onun tövsiyəsi ilə cavab məktubu hazırlandı. Həmin cavab məktubunda Əliqulu xan və onun həmkarları tutduğu yoldan çəkinməyə çağırıldı, onlara Abbas Mirzə ilə xoş davranmaq təklif olundu və sonra da bildirildi ki, Qəzvindən gələn qoşun qarşısında onlar onsuz da geri çəkilməli olacaqlar. Murtəzaqulu xanın məktubu Əliqulu xana çatanda onun da vəziri yanında imiş və göndərilən məktubla tanış olandan sonra Abbas Mirzənin vilayətdə saxlanması fikrindən imtina edilmədi. Ona görə də Xorasan vilayəti daxilində vəzifələrindən kənarlaşdırılmış əmirlərlə söhbətlər edildi və qətiyyətli fəaliyyət üçün onların da razılığı alındı. Murtəzaqulu xan həmin əmirlərə də məktub göndərdi və onları dinc yolla mərkəzi hakimiyyətə qarşı itaətsizlikdən çəkindirməyə

çalışdı. Murtəzaqulu xan bu əmirlərə xatırlatdı ki, səltənət daxilində yalnız şahın hakimiyyəti tanınmalı və ona itaət göstərilməlidir. Məktub dövrün tanınmış və nüfuzlu müctəhidi Mövlana Abdulla Şüştəri vasitəsi ilə qiyam qaldırmış əmirlərə göndərildi. Murtəzaqulu xan güman edirdi ki, Mövlana Abdulla Şüştərinin nüfuzu da itaətsizlik göstərən əmirləri və hakimləri öz yolundan çəkindirə bilər (47).

"Dünyanı bəzəyən Abbasın tarixi" müəllifinin yazdığından belə məlum olur ki, Murtəzaqulu xanın xahişindən sonra şah sarayı tərəfindən onunköməyinə hərbi qüvvələr göndərilməsinə başlanmışdı. İlkin olaraq Məşhəd ətrafında Vəli xəlifə Şamlının rəhbərliyi altında olan qoşun dəstəsi gəlib çatmışdı. Bu dəstənin sayı haqqında mənbədə məlumat verilməmişdir. Əliqulu xan da belə bir dəstənin gəlməsindən xəbər tutdu və həmin dəstənin Məşhədə daxil olmasına yol vermədən şəhər kənarında ona qarşı döyüşə başladı. Çox güman ki, Vəli xəlifənin dəstəsi elə də böyük deyildi. Ona görə idi ki, Əliqulu xan bu dəstəni asanlıqla məhv etdi və Vəli xəlifə isə qətlə yetirildi (48).

Bundan sonra Əliqulu xan bütün qoşunla Məşhədə tərəf irəlilədi. Abbas Mirzə də bu qoşunla birlikdə idi. Formal olaraq Abbas Mirzə qoşunların rəhbəri olmaqla döyüş də onun rəhbərliyi altında aparılırdı. Murtəzaqulu xan görünür, Əliqulu xanın qoşunlarına üstün gələcəyinə əmin idi. Çünki o, böyük arxayınçılıqla döyüş meydanına atıldı. Həm də Murtəzaqulu xan şah sarayı tərəfindən digər qüvvələrin də onun köməyinə göndərilməsi barəsində xəbər almışdı. Görünür, bu da Murtəzaqulu xanın qələbəyə əminliyini artırmışdı. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində Murtəzaqulu xanın qoşunu ilə Əliqulu xanın qoşunu arasındakı döyüş belə təsvir edilmişdir: "...Əliqulu xan və yoldaşları müqəddəs Məşhədə çatdılar. Mürtəzaqulu xan Xəbuşan hakimi Budaq xan Qacar Çekəni, Nişahur hakimi Dərviş Məhəmməd xan Rumlu, Tun hakimi Süleyman Xəlifə Türkman, Cam hakimi Şahqulu Sultan Əfşar və sair kimi özünün tabeliyindəki əmirləri toplayaraq cəngə hazırlaşdı. Şəhərdən kənarda o iki ağır qoşun bir-birilərinin

qarşısında səf bəzədilər, tərəflərin igidləri döyüş meydanına qədəm basdılar. Çoxlu döyüşdən sonra şamlı və ustaclı tayfaları öz vuruş addımlarını irəli ataraq türkman ləşkərinin səfinə şığıdılar və qələbə çaldılar. O igidlərin ardıcıl həmlələrindən türkman tayfasının əhvalı pozuldu, Mürtəzaqulu xanın səbat və qərar ayağının möhkəmliyinə və onları cəngə təhrik etməsinə baxmayaraq, bunun faydası olmadı, məcbur olub döyüşdən əl çəkərək məğlubiyyət vadisinə yollandılar, dağınıq halda şəhərə qayıtdılar, bürc və barıları, habelə darvazaları möhkəmləndirməyə başladılar, qalanı mühafizədən ötrü qala silahları tədarük etdilər. Şamlılar və ustaclılar atlarını darvazayadək qovub onların bir çox döyüşçüsünü öldürdülər və yaraladılar. Bu mərəkədə bayrağın yanında dayanmış müqəddəs Məşhəd məscidinin mütəvvəllisi Mir Əbdülkərim onu tanımayan döyüşçülər tərəfindən öldürüldü. Türkmanlarla birlikdə olan Qubad xan Qacar özünü şamlıların arasına atdı. Cam hakimi Şahəli Sultan Əfşar əsir alındı. Vəli Xəlifənin öldürülməsi və Xorasandakı çaxnaşma xəbəri xəlifənin ardınca gəlməkdə olan Əmir Həmzə xana və Şahqulu Sultan Qarınca Ustaclıya çatdıqda onlar qayıdış təbilini döyüb İraqa qayıtdılar” (49).

Bu məlumatdan göründüyü kimi, şah sarayı tərəfindən Murtəzaqulu xanın köməyinə göndərilmiş qoşun dəstələrinin rəhbərləri olan Əmir Həmzə xan və Şahqulu Sultan Qarınca Ustaclı onlardan əvvəl Məşhəd ətrafına gəlmiş Vəli xəlifənin və onun rəhbərliyi altında olan qoşun dəstəsinin məhv edilməsindən xəbər tutandan sonra onlar daha Məşhədə daxil olmağa cəsarət etmədilər və dönüb geri qayıtdılar.

## 4. İxtilafda olan qızılbaş əmirləri tərəfindən Abbas Mirzənin şah elan etdirilməsi

Əliqulu xanla onun müttəfiqi olan Mürşüdqulu xan Məşhəd şəhərini mühasirəyə aldılar. Bu şəhərin ələ keçirilməsi bütün Xorasan vilayətinin nəzarət altına alınması demək idi. Yəni Məşhədin alınması Əliqulu xan və onun tərəfdarları üçün xüsusi

əhəmiyyət kəsb edirdi. Ona görə də bütün qüvvələr bu şəhərin alınmasına səfərbər edildi. Amma Məşhədi ələ keçirmək elə də asan olmadı. Bu şəhərin ətrafında möhkəm qala divarları var idi və Əliqulu xanın qoşunları bu divarlar ətrafında dörd ay dayansalar da onu ələ keçirə bilmədilər. Belə olanda Əliqulu xan qərara gəldi ki, Məşhəd ətrafında Murtəzaqulu xana itaət göstərən bəzi qızılbaş əmirlərinin hakim olduğu məntəqələri ələ keçirsin və bununla həm də Murtəzaqulu xanın gücünü zəiflətsin. Onun üz tutmalı olduğu ilk məntəqə Nişapur oldu. Nişapurun hakimi olan Dərviş Məhəmməd xan həmin vaxt Məşhəddə idi və Murtəzaqulu xanın dəstəsinə qoşulmuşdu. Əliqulu xanın niyyətindən xəbər tutanda Dərviş Məhəmməd xan Nişapura qayıtmaq və bu şəhərin müdafiəsini möhkəmləndirmək üçün Murtəzaqulu xandan icazə aldı. O, Əliqulu xanın göndərdiyi qoşun dəstəsindən daha tez Nişapura çatdı. Lakin bu şəhərin möhkəmləndirilməsi üçün xeyli vaxt lazım olduğundan Dərviş Məhəmməd xan müqavimət göstərməyi məqsədəuyğun saymadı. Əliqulu xan və onun qoşun dəstəsi Nişapur ətrafına yetişəndə Dərviş Məhəmməd xan qalanı tərk edib təslim olmağı qərarlaşdırdı. O, əvvəlcə Abbas Mirzənin görüşünə getdi və ona öz itaətini bəyan etdi. Sonra isə Əliqulu xanla görüşən Dərviş Məhəmməd xan onunla bir cəbhədə olmağı vəd etdi. Əliqulu xan onun barəsində sərt qərar qəbul etmədi. Lakin onu vəzifəsindən kənarlaşdırdı. Bu şəhər-qalaya hakimlik Mürşüdqulu xana həvalə edildi. Əliqulu xan sonra Dərviş Məhəmməd xanı da yanına alıb Murtəzaqulu xanın qardaşı Fərrux xanın nəzarətində olan Heydəriyyə Türbətinə yollandılar. Fərrux xanın da yanında Əliqulu xanın qoşun dəstəsinə müqavimət göstərməyə yetərli olacaq qüvvə yox idi. Ona görə o da müqavimət göstərmədən Əliqulu xana itaəti qəbul etməli oldu. Heydəriyyə Türbəti ələ keçiriləndən sonra Fərrux xan da vəzifəsindən kənarlaşdırıldı və bu məntəqənin hakimi vəzifəsinə Dərviş Məhəmməd xan təyin edildi. Ona icazə verildi ki, Nişapurda olan öz adamlarını köçürüb Heydəriyyə Türbətinə gətirsin. Bu məntəqə də nəzarət altına alınandan sonra Əli-

qulu xan Abbas Mirzə ilə birlikdə Herata qayıtdı. Bununla Məşhədin də mühasirəsinə son qoyuldu (50).

Vilayət daxilində nisbi sakitliyin yaranmasından istifadə edən Murtəzaqulu xan Məşhədin divarlarının bərpa edilməsi və öz qüvvələrinin gücləndirilməsi ilə məşğul olmağa başladı. Əliqulu xan qarşısında uğursuzluğa düçar olsa da Murtəzaqulu xan öz mövqeyindən də əl çəkmədi. Vilayət daxilində baş verənlər haqqında o, vaxtaşırı şah sarayına müfəssəl məlumatlar çatdırdı və nəhayət, şah sarayında da Xorasan vilayətinin mərkəzi hakimiyyətin itaətinə gətirilməsinin zəruriliyi şah sarayında da qəbul olundu və bunun üçün yollar axtarılmasına başlandı. Yenidən Məşhəd istiqamətində şah qoşunlarının göndərilməsi barəsində qərar qəbul olundu. Səltənət vəziri Mirzə Salmanın təkidi ilə göndərilən bu qoşun dəstəsinə Məhəmməd xan Türkman və Qəzvin hakimi İsmayılqulu xan Şamlı rəhbərlik edirdilər. İsmayılqulu xan özü də Xorasana göndərilən dəstəyə rəhbərlik etmək arzusunda idi. Çünki bu vilayətə qoşun çəkməklə o, orada qətlə yetirilmiş atası Vəli xəlifənin qisasını almağa çalışırdı. Ondan başqa nüfuzlu qızılbaş əmirlərindən olan Qorxmaz xan Şamlı da Xorasana göndərilən qoşunun tərkibində idi. Mirzə Salman və eləcə də şah sarayında yüksək mövqe tutmuş digər əmirlər bu qoşunların göndərilməsi ilə onlar üçün Xorasanda yaranmış ciddi narahatçılığın birdəfəlik aradan qaldırılacağına ümid edirdilər. Onlar şübhə etmirdilər ki, Əliqulu xanın fəaliyyətinin qarşısının alınmaması onun yaratdığı təhlükəni daha da artırmaqda idi. Məhəmməd xan Türkman, İsmayılqulu xan və Qorxmaz xan Xorasana gəlməklə nəhayət ki, Əliqulu xanın və onun ətrafındakıların müxalifətçiliyinə son qoymalı və onları həm Şah Məhəmməd Xudabəndəyə, həm də onun taxt-tac varisi Həmzə Mirzəyə itaətə inandırmalı idilər. Belə olduğu təqdirdə qızılbaşlar arasında yaranmış ikitirəlik də aradan qalxa bilərdi. Şah sarayının istədiyi də bu idi. Adları çəkilən xanlar Xorasana doğru hərəkət etmək əmri alandan sonra bir neçə gün qoşun toplanması və bu qoşunların təchizatı ilə məşğul oldular. Ha-

zırlıq işləri başa çatandan sonra həmin xanlar Məşhədə doğru hərəkətə başladılar (51).

Şah sarayı tərəfindən qoşun göndərilməsi xəbəri tezliklə bütün Xorasan vilayətinə yayıldı. Əliqulu xan da onun üstünə qoşun göndərilməsindən xəbərdar oldu və o da uyğun hazırlıqların aparılmasına başladı. Daha böyük sayda qoşunun gəlməsi onu heç də çəkindirmədi və həm Mürşüdqulu xana, həm də digər həmfikir olduğu xanlara xəbər göndərərək o da qoşun toplanmasına başladı. Tezliklə Herat ətrafında böyük bir qoşun dəstəsi formalaşdırıldı və Əliqulu xan Abbas Mirzəni də yanına alaraq bu qoşun dəstəsi ilə Məşhədə doğru hərəkətə başladı. Əliqulu xanın öz niyyətlərindən əl çəkməyəcəyini bildiyi üçün Məşhəd hakimi Murtəzaqulu xan da yeni qarşılaşma hazırlıqlarına girişdi. Murtəzaqulu xan onun üstünə gələcək qüvvənin miqyasından və imkanlarından xəbərdar idi. Ona görə də o da daha böyük və güclü bir qoşun dəstəsi formalaşdırmaqda idi. Bu məqsədlə Murtəzaqulu xan bir tərəfdən topladığı qoşunun döyüşçülərinə səxavətlə pul paylayır, hədiyyələr verir, bir tərəfdən də bu maliyyə xərclərinin ödənməsi üçün şəhərin imkanlı adamlarından pul tələb edirdi. Murtəzaqulu xan imkanlı adamların sərvətlərini müsadirə edir, onlara qarşı böyük kobudluq göstərirdi. Belə talançılıq yolu ilə Murtəzaqulu xan əlində böyük vəsait də toplaya bilmişdi. Murtəzaqulu xan hətta İmam Rza astanasını xəzinəsini, qiymətli əşyalarını da ələ keçirdi, onları pula çevirərək qoşun əhlinə payladı. Bu yolla böyük qoşun dəstəsi toplamaq mümkün olsa da, Murtəzaqulu xanın hərəkətləri şəhər daxilində ona qarşı böyük narazılıq yaratdı (52).

Şah qoşunları Məşhədə yetişdikdən sonra Məhəmməd xan Türkman vilayət daxilindəki ixtilafın dinc yolla həll edilməsi üçün Əliqulu xana məktub yazdı. Mənbə məlumatlarından aydın olur ki, Əliqulu xana bir neçə məktub göndərildi. Əliqulu xan bu məktublarda yazılan fikirləri və təklifləri birmənalı şəkildə rədd etdi. Fikirlərinin əsaslandırılması üçün o, cavab məktubu yazdı və bu məktubda Murtəzaqulu xanla barışmağın mümkün olmamasını izah etdi: “Sözün qısası, Məhəmməd xan, İsmayılqulu xan və on-

larla birlikdə getməyə təyin olunmuş əmirlər və əsgərlər müqəddəs Məşhədə çatdılar. Onlar o mübarək şəhərin yanına gəldikdən sonra Məhəmməd xanla Əliqulu xan arasında nəsihətamiz məktublaşma baş verdi. Amma onlar (Əliqulu xan və tərəfdarları) Məhəmməd xanın türkman oymağının təəssübkeşliyi, İsmayılqulu xanın isə Vəli xəlifənin qanının qisası baxımından qalmaqal və fitnə-fəsad törətməyi düşündüklərini güman etdiklərindən və özləri ilə Mürtəzaqulu xan arasındakı gərginliyin sülh yolu ilə həllini mümkün hesab etmədiklərindən bu [məktublaşmanın] heç bir təsiri olmadı. Əliqulu xanın müddəası bundan ibarət idi: “Bizimlə Mürtəzaqulu xan arasındakı fitnə və düşmənçilik atəşi elə bir tərzdə alışıb ki, öyüd-nəsihət suyu ilə sönən deyildir və bizim onunla yola getməyimiz heç bir vəchlə mümkün deyildir. Əgər onu [başqası ilə] dəyişdirsələr və öz yüksək dərəcəli atasının hökmü ilə bu sərhəddə olan kama yetmiş şahzadə [Abbas Mirzəyə] itaət göstərən, əhvalatlar və hadisələr zamanı lələnin və bəylərbəyinin (Əliqulu xanın) sözündən və məsləhətindən çıxmayan digər bir şəxsə müqəddəs Məşhədin hökumətini versələr, onda sülh və asayiş bərqərar olar. Biz əvvəllər olduğu kimi, yenə də elə həmin dövlətsevər bəndələrik” (53).

Bu məktubu ilə Əliqulu xan birmənalı şəkildə bəyan etdi ki, Murtəzaqulu xanla barışıq mümkün deyildir. Yaranmış vəziyyətdən çıxış yolunu isə Əliqulu xan Məşhədə yeni hakimin təyin edilməsində və həmin hakimin də Abbas Mirzəni vilayət hakimi tanımasında görürdü. Bu isə o demək idi ki, Əliqulu xan da Abbas Mirzənin lələsi, həm də vilayət idarəçiliyini real olaraq öz üzərinə götürmüş bir əmir kimi tanınmalı idi. Məhəmməd xan Türkman və onunla birlikdə gəlmiş xanlar və Murtəzaqulu xan bu təklifi qəbul etmədilər. Həmin təklifin qəbul edilməsi şah sarayı tərəfindən verilmiş vəzifənin də icra edilməməsi demək idi. Şah qoşunlarının gəlməsi ilə Məşhəd ətrafında mərkəzi hakimiyyətə sədaqətli olan böyük bir qoşun dəstəsi toplanmışdı. Məhəmməd xan Türkman da, Murtəzaqulu xan da bu qoşunlara arxalanamqla Əliqulu xana

üstün gələcəklərinə şübhə etmirdilər. Ona görə də onlar Əliqulu xanla yazışmaları dayandırmağı qərara aldılar (54).

Əliqulu xan da bu yazışmaları dayandırıb Məşhəddə toplanmış qoşunlarla döyüşə hazırlıq işlərinə başladı. Həmin qoşunlara qarşı mübarizəni isə Əliqulu xan Nişapur şəhərini ələ keçirməklə başlamağı məqsədəuyğun saydı. Bu şəhər vaxtilə onun tərəfindən ələ keçiriləndən sonra oranın hakimi Dərviş Məhəmməd xan şəhər hakimliyi vəzifəsindən azad edilərək Heydəriyyə Türbətinin hakimi təyin edilmişdi. O, həm də Əliqulu xana sədaqətli olmağa vəd vermişdi. Lakin sonradan Dərviş Məhəmməd xan yenidən Əliqulu xanın cəbhəsindən ayrılaraq Nişapura gəlmiş və bu şəhəri yenidən ələ keçirmişdi. Əliqulu xan istəyirdi ki, bir daha Nişapur üzərinə qoşun çəkməklə əvvəlcə Dərviş Məhəmməd xanı vədini pozduğuna görə cəzalandırsın. Sonra da bu şəhəri ələ keçirməklə şah qoşunlarına qarşı döyüşdə əlverişli mövqelər əldə etmək olardı. Əliqulu xan həm də Məşhəddə toplanan qüvvələri qaladan kənara cəlb etmək istəyirdi. Əks təqdirdə qala daxilinə sığınmış şah qüvvələrinə qarşı səmərəli döyüş aparmaq mümkün olmazdı. Abbas Mirzə də Əliqulu xanla birlikdə Nişapur üzərinə hücumda iştirak edirdi (55).

Əliqulu xanın Nişapur üzərinə qoşun çəkdiyini biləndə Məhəmməd xan Türkman, Murtəzaqulu xan və Məşhəddə toplanmış digər xanlar və əmirlər nə edəcəkləri barədə müzakirə və məsləhətləşmələr apardılar. Toplantıda belə bir ümumi fikrə gəlindi ki, Əliqulu xanın Nişapur üzərinə hücumunun cavabsız qoyulması doğru deyildir. Lakin o da vurğulandı ki, qoşunları Nişapur istiqamətinə göndərməklə Məşhədin müdafiəsini də zəiflətmək olmaz. Son qərar belə oldu ki, qoşunların əsas hissəsi Məşhəddə saxlansın. Nişapur istiqamətinə isə İsmayılqulu xanın rəhbərliyi altında bir dəstə göndərilsin. Güman edilirdi ki, bu dəstənin və Dərviş Məhəmməd xanın rəhbərliyi altında olan qoşun dəstəsinin köməyi ilə Əliqulu xanın rəhbərliyi altında olan qoşunlara ciddi zərbə vurmaq mümkün olacaqdır. Əliqulu xan isə tətbiq etdiyi taktika ilə şah qoşunlarının rəhbərlərinin niyyətlərini alt-üst etdi və Nişa-

purda toplanan qoşun dəstəsinə ağır zərbə vurdu. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi bu qarşıdurmada əldə edilən uğuru Abbas Mirzənin əmirlərinin uğuru kimi xarakterizə edirdi. Elə bu döyüşün gedişində də Əliqulu xanın rəhbərliyi atında olan qoşun dəstəsinin əmirləri Abbas Mirzənin Xorasanda Səfəvi şahı elan edilməsi məsələsini qaldırdılar. Adı çəkilən əsərdə Nişapur ətrafında baş verənlər belə təsvir edilmişdir: "Beləliklə, Məşhəddən cilovu döndərərək Nişabura yollandılar, şəhər ətrafına çatdılar. Dərviş Məhəmməd xan isə qaladarlıq silahları toplamağa və qalanı möhkəmləndirməyə başladı, şəhər qapıları bağlandı, xan üzünə maneçilik qalxanı tutdu. Qarşı tərəf isə qalanı araya alaraq, qala tutmaq tədbirləri ilə məşğul olmağa başladılar. Onların Nişabura getmələrindən xəbər tutan Məhəmməd xan və Mürtəzaqulu xan müqəddəs Məşhədi boş qoymağın səhv fikir və günahkar tədbir olduğunu düşünüb, bu hadisəni dəf etməyin asan olacağını sandılar, özləri şəhərdə qalıb, İsmayılqulu xan Çekəninin sərkərdəliyi altında bir dəstə döyüşçünü Dərviş Məhəmməd xana kömək üçün Nişapura tərəf rəvan etdilər. Nişapur yaxınlığında tərəflər arasında cəng başlandı. Amma, iqbal nəsimi Abbas dövləti əmirlərinin bayrağı üstündə əsdi və əlahəzrətin adamları qələbə çaldılar. İsmayıl xan, Budaq xan və yoldaşları isə məğlubiyyət yoluna düşərək məğlub və bədhal tərzdə gəlib müqəddəs Məşhədə çatdılar. Bu hadisə Abbas əmirlərinin şövkət və qüdrətlərinin artmasına Məhəmməd xan, Mürtəzaqulu xan və Məşhəd əmirlərininsə pərişanlığına səbəb oldu və Məşhəd ləşkəri bu vaqiədən sonra özündə onlarla döyüş qüdrəti görməyib, şəhərdən kənara çıxmadı, onların sayca çox olmaları azalmağa başladı. Məşhəd ləşkərinin məğlubiyyətindən sonra Abbasın əmirləri, xüsusən ustaclı tayfası belə bir fikrə düşdülər: "Qəzavü-qədərin hökmü ilə bizə bu qələbə qismət oldu. Bir halda ki, müzəffər İsgəndər şanlı nəvvab dövlətinin başçıları bizim tayfanın alnı üstünə müxalifət və üsyan qələmi çəkmişdir, biz hamılıqla öz vasitəçilik əlimizi əlahəzrət zilləllah şahın iqbal ətəyinə uzatmalı və o həzrəti "padşah" adlandırıb Xorasan taxtına əyləşdirməliyik. Qoy hamıya məlum olsun

ki, bizim etdiyimiz səy və xidmətimiz fəqət o həzrətin yolundadır. Qoy dost və düşmənin kimliyi məlum olsun" (56).

Əliqulu xanın qoşun dəstəsində olan əmirlər Abbas Mirzənin şah edilməsi məsələsini onun lələsi Əliqulu xanla da məsləhətləşdilər. Əliqulu xan bu təklifə etirazını bildirmədi. Əksinə, həmin təklifə tərəfdar çıxdı. Çünki Abbas Mirzənin şah elan edilməsi ilə onun da lələ kimi imkanları və hakimiyyəti daha da genişlənə bilərdi. Ona görə də Əliqulu xan Abbas Mirzənin Səfəvi şahı elan edilməsi mərasiminin hazırlanmasına göstəriş verdi.

Abbas Mirzənin şah sarayına müxalifətdə olan Əliqulu xan və onun həmfikirləri tərəfindən şah elan edilməsi 1581-ci ildə baş verdi. O zaman Abbas Mirzənin cəmi 11 yaşı var idi (Abbas Mirzə 1571-ci il yanvar ayının 27-də anadan olmuşdu). Kiçik yaşda olan bir uşaq kimi sözsüz ki, Abbas Mirzə onun şah elan edilməsinin mahiyyətinə hələ lazımınca vara bilmirdi və heç bunu arzulamırdı da. Amma bu tədbiri həyata keçirməyə çalışan əmirlər öz niyyətlərindən imtina etmədilər. Əliqulu xan və onun rəhbərliyi altında olan qoşunlar Nişapur qalasının fəthini başa çatdırmamış bu qala ətrafında Abbas Mirzənin tacqoyma mərasimi təşkil etdilər. “Rövzət üs-səfəviyyə” əsərindəki məlumata görə, Əliqulu xan və onun ətrafındakılar əvvəlcə bölgənin tanınmış münəccimlərindən biri olan Mir Molla Münəccim Türbəti ilə məsləhətləşmə apardılar. Səma cisimlərinin müşahidəsindən sonra Abbas Mirzənin hansı saatda taxta çıxması müəyyənləşdirildi. Mərasim üçün çox qiymətli bir taxt hazırlanmışdı. Bu taxtın hazırlanmasına və bəzədilməsinə çox böyük həcmdə qızıl, dürr, yaqut və digər qiymətli daşlar istifadə olunmuşdu. Həmin taxt mərasim keçirilən yerə gətirilmiş və onun üstünə qiymətli bir xalça örtülmüşdü. Xalçanın künclərində, yəni taxtın dörd tərəfində Əliqulu xan Şamlı, Mürşüdqulu xan Ustaclı, Budaq xan Çegəni və bir nəfər də zülqədər əmirlərindən dayanmışdı. Münəccim Türbəti münasib anın çatdığını elan edəndə həmin əmirlər bahalı xalçanı taxtın üstündən götürdülər və Abbas Mirzəni taxta əyləşdirdilər. Bundan sonra dualar oxundu və ziyafət təşkil edildi. Taxta çıxdığı elan edilən Ab-

bas Mirzə həmin mərasimdən sonra Şah Abbas adlanmağa başlandı (57).

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərində isə Abbas Mirzənin Səfəvi şahı elan edilməsi daha böyük səxavətlə və sevinclə təsvir edilmişdir: "Doqquz yüz həştad doqquzuncu (miladi 1581/82) ilə bərabər olan türkicə ilan ilində - ayın (qəmər) məsud şərəf məqamında (beytüş-sərəf) olduğu və nəhs (mənhusə) ulduzların çətinliyin (vəbal) ən aşağı nöqtəsində (həziz) düzüldiyi bir gündə şahanə məclis qurub, sultanlıq və padşahlıq taxtını bəzədilər və o iqbal ölkəsinin şahənşahı başqa sultanların qanun-qaydası üzrə cülus etdi, bu vaxtadək gözəl adı xalq arasında "Abbas Mirzə" kimi məşhur olan şahzadəni "Şah Abbas" adlandırdılar. O həzrət hərçənd ki, yaşının azlığına görə bu işə qarışmır və məşhur atasının və böyük qardaşının razılığı olmadan buna razılıq vermirdi, amma qəza və qədər işbilənlərinin köməyi ilə bu böyük iş ixtiyarsız olaraq baş verdi, şahlıq tuğrasına hökmlər yazıldı və Xorasanda sikkə və xütbə onun hümayun adı ilə bəzəndi. Dillər mübarəkbadlıq üçün açıldı, Xorasanın əksər əyan-əfşarı, ərbabı və əhalisi ali dərgaha üz tutub itaət və tabeçilik göstərdilər. O vilayətin böyük adamlarından və ali orduda münşiül-məmalik olan Mir Şahhüseynin oğlu Mir Məhəmməd Yusif Nişaburi başqalarından daha çox canfəşanlıq etdiyindən, əmarət rütbəsinə çatdı və "Mir Məhəmməd Yusifxan" adı ilə ləqəbləndi. O həzrətin maddeyi-tarixi "in sale-fərxəndefal" oldu. Elə ki, bu xəbər müqəddəs Məşhədə yetişdi, Məhəmməd xanın və Məşhəd ləşkərinin pərişanlığına səbəb oldu. Xan bu məsələni ali dərgaha yazaraq məktubunu yel kimi surətlə gedən qasidlərlə Azərbaycana göndərdi. Allahtəala o həzrətin vücud cövhərini əzəldən parlaq və bəxt ulduzunu xürrəm və işıqlı yaratdığı üçün o, hələ cocuqluq vaxtından hamının ürəyində yer tutmuşdu və əhali onun hakimiyyətini arzulayırdı. Cülus xəbəri hər tərəfə yayılaraq şadyanalığa səbəb olur, qeybdən müşahidə olunan əlamətlər hamıya onun cülusu nıünasibətilə müjdə verirdi. Xülasə, bu xoş səmərəli xəbər orduda ya-

yıldıqda hamının təəccübünə səbəb oldu, çünki belə bir əhvalat Səfəvi xanədanı üzvləri arasında hələ görünməmişdi” (58).

Səfəvi tarixinə aid olan bir sıra mənbələrdə Abbas Mirzənin şah elan edilməsi təqdirlə qarşılanmışdır (59). Bu mənbələrin məlumatına görə, onun şah elan edilməşi insanlar tərəfindən də sevinclə qarşılanmışdı. Çox güman ki, Şah Məhəmməd Xudabəndənin şahlığı dövründə qarışıqlıqdan, səltənət daxilindəki dağınıqlıqdan və parçalanmalardan çətin günlər keçirən insanlar Abbas Mirzənin şah elan edilməsi ilə nəhayət ki, bu çətinliklərə son qoyulacağına ümid bağlayırdılar.

Abbas Mirzə şah elan edildikdən sonra Əliqulu xan bütün diqqəti Nişapurun ələ keçirilməsinə istiqamətləndirdi. Bu qalanın hakimi olan Dərviş Məhəmməd xan əvvəlki döyüşdən nəticə çıxararaq qala divarlarının möhkəmləndirilməsini həyata keçirdi. O, şəxsən bütün günü qala divarları üzərində gəzir və möhkəmləndirmə işlərini nəzarət altında saxlayırdı. Dərviş Məhəmməd xanın bu inadkarlığı öz nəticəsini də verdi və Əliqulu xan Nişapuru ələ keçirə bilmədi. Mənbə məlumatlarından görünür ki, Əliqulu xan davamlı olaraq qala divarları üzərinə hücumlar təşkil edirdi. Amma hər dəfə də bu hücumlar bir nəticə vermirdi. Nəhayət, Əliqulu xan geri çəkilmək qərarı verdi. Bir tərəfdən havalar soyumaqda idi və mövsüm döyüş aparılmasını çətinləşdirirdi. Digər tərəfdən Əliqulu xan xəbər almışdı ki, Şah Məhəmməd Xudabəndə özü də böyük bir qoşun dəstəsi ilə Xorasana tərəf hərəkət etməkdədir. Əliqulu xan belə böyük bir qüvvəyə gücü çatmayacağı üçün Herata dönməyi məqsədəuyğun bildi. Bu qərardan sonra onun ətrafına toplanmış əmirlər də öz məntəqələrinə yollandılar (60).

“Rövzət üs-səfəviyyə” əsərinin məlumatına görə, Əliqulu xan rastlaşdığı uğursuzluğa baxmayaraq heç də Nişapurun mühasirəsini buraxıb Herata dönməyin tərəfdarı deyildi. O təklif edirdi ki, Qəzvindən yeni göndərilən şah qoşunları Xorasan vilayətinə gəlib yetişənə qədər bu vilayətdə onlara qarşı toplanmış qüvvələrə güclü zərbə vurulsun. Amma Mürşüdqulu xan bu fikirlə razılaşmadı. O bildirdi ki, indi qarşıda şahın (Abbas Mirzənin) hakimiyyətinin

möhkəmləndirilməsi kimi daha ciddi işlər vardır. Bu işin icrası üçün isə müxalifətdə olan əmirlərə yeni və güclü qüvvələr lazım idi. Ona görə də Müşüdqulu xan təklif etdi ki, hər bir əmir öz qalasına qayıtsın, gələcək döyüşlər üçün hazırlıqlara başlasın, döyüş ehtiyatları toplasın və yeni qoşunlar yığsın. Sonra onu da əlavə etdi ki, artıq qış da yaxınlaşmaqdadır və Xorasan daxilində kifayət qədər ərzaq və yem ehtiyatları tapmaq çətin olacaqdır. Əliqulu xan və digər əmirlər bu təklifi bəyəndilər. Qərara alındı ki, Əliqulu xan Abbas Mirzə ilə birlikdə Herata qayıtsın, müharibə ehtiyatlarını təkmilləşdirməklə bərabər, həm də bu qalanın müdafiə imkanlarını təkmilləşdirsin. Mürşüdqulu xan isə Türbət qalasına qayıtmalı oldu. Bu qalanın yaxşı müdafiə imkanları var idi və əlavə tədbirlərin həyata keçirilməsi ilə bu qalada uzun müddət müdafiə olunmaq mümkün idi. Mürşüdqulu xan ətraf yaşayış məntəqələrinin əhalisini də Türbət qalasına köçürtdü və Türbət qalasının müdafiəsinin möhkəmləndirilməsi üçün bu qalaya lazım olan qədər top da yerləşdirdi. Başqa bir məlumata görə isə, Mürşüdqulu xan Türbət qalasına o qədər ərzaq və döyüş ehtiyatları topladı ki, bu qalada üç il müddətində müdafiə olunmaq imkanı yaradıldı. O cümlədən, Əliqulu xanın ətrafına toplaşmış digər əmirlər də hər biri öz qalasına yollandılar və hazırlıq işləri apardılar. Bu əmirlər aparılan hazırlıq işlərindən sonra belə bir inama malik idilər ki, Şah Məhəmməd Xudabəndənin Xorasan vilayətinə qoşun çəkəcəyi təqdirdə, bu vilayətdəki möhkəmləndirilmiş qalaları ələ keçirə bilməyəcəkdir. Ona görə də şah qoşunlar bir müddətdən sonra geri çəkilmək məcburiyyətində qalacaqdılar (61).

Abbas Mirzənin şah elan edilməsi xəbərini alandan sonra Qəzvindən gəlmiş şah qoşunlarına rəhbərlik edən Məhəmməd xan Türkman və İsmayılqulu xan geri qayıtmağı məqsədəuyğun saydılar. Onlar baş verən hadisəni şah sarayına çatdırdılar. Şah sarayı bu xəbəri böyük həyəcan və təşvişlə qarşıladı. Səltənət daxilində ikihakimiyyətliliyin yaranması Qəzvində toplaşmış qızılbaş əyanlarının qəzəbi ilə qarşılaşdı. Doğrudur, Xorasanda Abbas Mirzənin şah elan edilməsini ciddi qəbul etməyənlər və ona qarşı sərt təd-

birlər həyata keçirilməsini lazım bilməyənlər də var idi. Amma səltənət vəziri Mirzə Salman və onun ətrafındakılar hər vasitə ilə Şah Məhəmməd Xudabəndəni Xorasana qoşun yeritməyə təhrik edirdilər. Həmin vaxtlarda səltənət vəziri öz qızını Həmzə Mirzəyə kəbin etdirmişdi. Bu mənada da Mirzə Salman Abbas Mirzənin hakimiyyət məsələsində Həmzə Mirzəni üstələmək ehtimalını qəbul etmirdi. Ona görə də Mirzə Salman hər vasitə ilə Xorasana qoşun göndərilməsinə və Abbas Mirzə ilə bağlanılan hakimiyyət oyunlarına son qoymağa çalışırdı. 1581-ci ildə Osmanlı qoşunlarının təhlükəsinin qalması üzündən Xorasana qoşun göndərilməsi mümkün olmadı. 1582-ci ilin yayında isə Xorasana qoşun göndərilməsi üçün əlverişli məqam yarandı. Həmin vaxt ərzində Mirzə Salman həm də Xorasana qoşun çıxarılmasına razı olmayan əmirlər arasında iş apardı. Xüsusilə, şah sarayına yaxın olan ustaclı əmirləri yüksək vəzifələrlə mükafatlandırıldı ki, onlar ustaclı tayfasından olan Əliqulu xanla Mürşüdqulu xan üstünə qoşun göndərilməsinə narazı olmasınlar. Bir sıra ustaclı əmirlərinə Xorasanda yüksək vəzifələr vəd olundu. Eyni zamanda belə bir fikir də ortaya qoyuldu ki, şah sarayı ətrafında olan ustaclı əmirləri və ağsaqqalları da Xorasana göndərilsin və onlar Xorasanda məskunlaşmış ustaclılar arasında söhbətlər aparsınlar və onların şaha sadiq qalmalarına çalışsınlar (62).

Mənbələrin birində göstərilir ki, Abbas Mirzənin şah elan edilməsi haqqında xəbər alınandan sonra Şah Məhəmməd Xudabəndə ilə Həmzə Mirzə özləri Xorasan üzərinə qoşun göndərməyi lazım bildilər. Onlar üçün aydın idi ki, Xorasanda cərəyan edən hadisələrin genişlənməsi mərkəzi hakimiyyətə qarşı təhlükəni daha da artıracaqdır. Şahın və şahzadənin fikrincə, belə bir yürüşün həyata keçirilməsi üçün münasib şərait də artıq mövcud idi. Belə ki, Osmanlı sarayı ilə razılaşma əldə edilmiş və Osmanlı dövləti tərəfindən hər hansı bir hücum təhlükəsi gözlənilmirdi. Belə bir zamanda Xorasan üzərinə qoşun çəkməklə orada şah hakimiyyətini tam şəkildə bərqərar etmək və qızılbaş əmirlərinin müxalifətçiliyinə son qoymaq olardı. Ona görə də vilayətlərə fərman göndərildi ki,

yerlərdə əlavə qoşun dəstələrinin toplanması üçün lazımi işlər görülsün (63).

Eyni zamanda qorçular vasitəsilə Xorasanın əmirlərinə xəbər göndərildi ki, onlar da yeni qoşun dəstələri toplasınlar və şahı sevənlik yolu tutaraq Məşhəd hakimi Murtəzaqulu xan Pornaka qoşulsunlar. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifinin yazdığına görə, az müddət ərzində Xorasana göndərilməsi üçün çox böyük sayda qoşun toplandı. Hətta o qədər qoşun toplandı ki, əvvəllər kimsə bu sayda qızılbaş qoşunu görməmişdi (64).

"Rövzət üs-səfəviyyə" əsərinin müəllifi də Xorasana yürüş üçün çox böyük sayda qoşun toplanmasını təsdiq edirdi. Onun yazdığına görə, əvvəlcə türkman və təkəli tayfalarının yeddi tanınmış əmirinin rəhbərliyi altında 12 min nəfərlik bir qoşun dəstəsi toplandı. Türkman əmirləri Mirzə Salmanın yanına gələrək ilk olaraq onlara hərəkət etmək icazəsi verilməsini xahiş etdilər. Bu əmirlər bildirirdilər ki, səltənət qoşunları toplanana kimi onlar Xorasana yetişib müxalifət yolunu tutmuş əmirləri və qoşunları cəzalandıracaqlar. Türkman və təkəli əmirləri vəd edirdilər ki, səltənət qoşunları yetişənə kimi onlar Xorasandakı müxalifətçiliyi aradan qaldıracaq və sonra da vilayətə gələn səltənət qoşunlarını qarşılamağa çıxacaqlar. Mirzə Salman da türkman və təkəli əmirlərinin xahişini qəbul etdi və onların rəhbərliyi altında olan qoşunlar şah qoşunlarının ön dəstəsi kimi Xorasana doğru hərəkətə başladılar. Ardınca da Azərbaycandan, Farsdan, İraqdan Kermandan və səltənətin digər vilayətlərindən yığılmış qoşunlar Qəzvinə toplanmağa başladılar. Adı çəkilən mənbənin məlumatına görə, Şah Məhəmməd Xudabəndənin, şahzadə Həmzə Mirzənin, səltənət vəziri Mirzə Salmanın və Məhəmməd xan Türkmanın rəhbərliyi altında Səfəvi qoşunları Xorasana doğru hərəkətə başladılar. Havaların soyumağa doğru getdiyi bir vaxtda şah qoşunları Xorasan vilayətinə daxil oldular (65).

Beləliklə, Xorasanda qızılbaş əmirlərinin ortaya atdığı müxalifətçiliyi və onların təkidi ilə meydana gəlmiş iki hakimiyyətliyi aradan qaldırmaq üçün Şah Məhəmməd Xudabəndə özü də qo-

şunla həmin vilayətə yola düşdü. Onun bu qoşunlarla Xorasana yola düşməsi həmin vilayətdə cərəyan edən hadisələrin səltənət üçün taleyüklü olmasının təsdiqi idi. Şah Məhəmməd Xudabəndə qızılbaş əmirlərinin müxalifətçiliyini arada qaldırmaqla həm öz hakimiyyətini möhkəmləndirmək, həm də Həmzə Mirzənin taxt-tac varisliyinə olan təhlükəni aradan qaldırmaq istəyirdi. Qoşun göndərilməsi Şah Məhəmməd Xudabəndə üçün arzuedilməz bir seçim idi. O, əvvəldən də Abbas Mirzənin şah sarayına gətirilməsi və vilayətdəki qızılbaş əmirlərinin müxalifətçiliyinin aradan qaldırılması üçün bir neçə dəfə dinc yollarla həll etməyə çalışmışdı. Amma bu cəhdlər nəticəsiz qalmışdı. Hətta Xorasana doğru hərəkətə başlamazdan əvvəl də Şah Məhəmməd Xudabəndə Mürşüdqulu xanın əmisi Şahverdi bəyi mövcud ixtilafın dinc yolla aradan qaldırılması üçün Xorasana göndərmişdi. Şahverdi bəy Mürşüdqulu xanla görüşsə də onu öz yolundan döndərə bilməmişdi. Şah qoşunları Xorasana doğru hərəkət edən zaman Şahverdi bəy geri qayıdırdı və o, Şah Məhəmməd Xudabəndənin hüzuruna yetişməklə səfərinin nəticələri haqqında ona məlumat verdi. Lakin bu zaman Şahverdi xan şah qarşısında tələb olunan davranışı nümayiş etdirə bilmədi. Danışığında və hərəkətlərində kobudluğa yol verdiyi üçün, Mürşüdqulu xanı müdafiə etməyə çalışdığı üçün saray əmirlərinin təhriki ilə o, qətlə yetirildi (66).

Şah qoşunlarının Xorasan istiqamətində hərəkət etməsi xəbərini alandan sonra Əliqulu xanla Mürşüdqulu xan da Abbas Mirzə ilə birlikdə öz qoşunlarını hərəkətə gətirdilər. “ Əliqulu xan və Mürşüdqulu xan İraq ləşkərinin gəlib-çatma xəbərini eşidərək şahzadənin, yəni həzrət zillallah şahın (Abbas Mirzə nəzərdə tutulur) müqəddəs məiyyətində Herat darüssəltənəsindən çıxdılar. Əlahəzrət şahzadə (Abbas Mirzə) ilə müvafiqət, amma İsgəndər şanlı nəvvabla müxalifətdə olmaq xüsusda bir-birləriylə əhd-peyman bağlayan əzəmətli əmirlərin hamısı onların başında cəm oldular, bir neçə mənzil qət edib, möminlər məkanı olan Səbzəvaradək gəldilər. Hümayun şah ordusu Damğana çatan vaxt onlar artıq Səbzəvarda idilər. İraq ləşkərinin qüvvət və şövkətinin şah ordu-

sundan zəif olmasına baxmayaraq, xorasanlıların qorxmazlığı və onların Səbzəvara qədər gəlib-çıxmalarından xatirləri kədərli və pərişan oldular. Adamlar güman edirdilər ki, o iki dəstə arasında elə bu neçə gündə böyük savaş vaqe olacaqdır. Böyüklərin və ağsaqqalların əksəriyyəti bu savaşı arzuolunmaz hesab edirdi, çünki qızılbaş tayfalarının qohum-əqrabaları bir-birləri ilə qaynayıb-qarışdıqlarından onların bir dəstəsi bu tərəfdə, digər dəstəsi isə o biri tərəfdə qarşı-qarşıya durmuşdular. Məsləhətçi əmirlərdən xüsusilə Qulu bəy Qorçibaşı və Şahrux xan müxalifətin tərk olunması barədə fikir söyləyirdilər” (67).

Göründüyü kimi, şah ətrafında olan bir çox əmirlər, tayfa ağsaqqalları qızılbaş qoşun dəstələrinin qarşı-qarşıya gəlməsini istəmirdilər və belə bir qardaş qırğınına yol verilməsini düzgün saymırdılar. Amma hadisələrin inkişafı elə bir nöqtəyə gəlib çatmışdı ki, qızılbaş əmirlərinin yaratdığı müxalifətin aradan qaldırılması üçün hərbi qarşıdurma artıq çıxılmaz olmuşdu.

Mənbələrdə əksini tapmış məlumata görə isə, Əliqulu xanın və Mürşüdqulu xanın rəhbərliyi altında olan qoşun dəstəsi Məşhədə doğru irəlilədikləri zaman bəzi məntəqələri ələ keçirməyi düşündülər. Əliqulu xan öz qoşun dəstəsi və Abbas Mirzə ilə Heratdan hərəkətə başladıqdan sonra onunla ittifaqda olan hakimlər öz qoşun dəstələri ilə yolda ona qoşuldular. Bu qüvvələr Məşhədə yaxınlaşanda Murtəzaqulu xanın tabeçiliyində olan cuni tayfası üzərinə hücum etməyi qərara aldılar. Həmin tayfa Radkan çəməni adlanan ərazidə yerləşirdi. Amma elə bu vaxt şah qoşunlarının yaxınlaşması xəbəri alındı və ona görə də Əliqulu xan qoşun dəstəsi ilə Səbzəvara qayıtdı (68).

Digər bir məlumata görə isə, Əliqulu xan öz qoşun dəstəsi ilə Məşhəd ətrafına gəldi. Abbas Mirzə də onunla idi. Amma onlar Məşhədin mühasirə edilməsini məqsədəuyğun saymadılar və 8 min nəfərlik qoşun dəstəsi ilə Səbzəvara doğru irəlilədilər. Elə həmin günlərdə Şah Məhəmməd Xudabəndə və onun rəhbərlik etdiyi qoşunlar da Damğana yetişdilər (69).

Hər iki tərəfdə qarşı tərəfin gücü və imkanları barəsində lazım olan məlumatlar toplandı. Bəlli oldu ki, şah qoşunları müxalifətçi qızılbaş əmirlərinin rəhbərliyi altında olan qoşunlardan xeyli çoxdur və həmin qoşunlara üstün gəlmək mümkün deyildir. Təxminən 8 min nəfərlik bir qoşunla Əliqulu xanın və onun tərəfdarlarının şah qoşunlarına qarşı çıxması şah qoşunlarının daxilində müəyyən bir nigarançılıq yaratdı. Bəziləri düşünürdülər ki, Xorasanda toplanmış az sayda qoşun dəstəsi böyük sayda olan şah qoşunları ilə döyüşməyə cəsarət edirsə, yəqin ki bu seçim onların məharətinə və qabiliyyətinə dayaqlanır. Qoşunlar daxilində tərəddüd doğuran fikirlərin yayılmasının qarşısının alınmasına səltənət vəziri Mirzə Salman özü də qarışmalı oldu. Məhz onun müdaxiləsindən sonra qoşunlar daxilində tərəddüdlü söhbətləri aradan qaldırmaq mümkün oldu (70).

Qeyd edilməlidir ki, Abbas Mirzə cəbhəsində də Xorasana doğru hərəkət edən şah qoşunları haqqında məlumat toplanılırdı. Həmin məlumatlara əsasən, Əliqulu xana və onunla həmfikir olanlara bəlli oldu ki, şah qoşunları çox böyük üstünlüyə malikdir. Belə olanda Əliqulu xan və digər qoşun əmirləri toplantı keçirib məsləhətləşmələr apardılar. Nəticədə belə qərara alındı ki, şah qoşunları ilə açıq döyüşə girməkdən imtina edilsin. Çünki belə bir döyüş xorasanlılara uğur gətirməyəcəkdi. Ona görə qərara alındı ki, Abbas Mirzə ətrafında toplanmış olan hər bir əmir rəhbərlik etdiyi qoşun dəstəsi ilə öz qalasına çəkilsin və qala daxilində şah qoşunlarından müdafiə olunsun. Bu qərar hamı tərəfindən bəyənildi. Mürşüdqulu xan öz qoşun dəstəsi ilə Heydəriyyə Türbətinə çəkildi və dərhal da bu qalanın möhkəmləndirilməsi üçün əlavə işlərin görülməsinə başladı. Əliqulu xan isə Abbas Mirzə ilə birlikdə Herata yollandı (71).

Şah qoşunları hələ Məşhədə çatmamış Xorasan əmirlərinin qoşunlarının geri çəkilməsi haqqında məlumat alındı. Məşhədə yetişəndə şah qoşunlarına Murtəzaqulu xanın və onunla əlbir olan digər yerli hakimlərin qoşunları da qoşuldular. Yeni yaranmış vəziyyət şah qoşunları düşərgəsində müzakirə olundu və qərara

alındı ki, qoşunlar əvvəlcə Türbət (Heydəriyyə Türbəti) qalası üzərinə hərəkət etsinlər, bu qalanı mühasirəyə alsınlar və onu ələ keçirsinlər. Görünür, türbət qalasının daha asanlıqla ələ keçiriləcəyi güman edilirdi. Belə olduğu təqdirdə Xorasan müxalifətinin əsas dayaqlarından birinə güclü zərbə vurmaq olardı. Bu qərardan sonra çoxsaylı şah qoşunları Türbət qalası ətrafına hərəkətə başladılar. Qala mühasirəyə alındıqdan sonra qoşun əmirlərinin vəzifələri konkretləşdirildi, onların hücum edəcəkləri istiqamətlər müəyyənləşdirildi. Fəal həmlələrin başlanmasından əvvəl qalanın nümayəndələri ilə danışıqlar aparılmasına cəhd göstərildi. Amma məlum oldu ki, qala daxilindəkilər qalanın müdafiəsində qərarlıdırlar. Onda qala divarları üzərinə həmlələr başlandı. Qala üzərinə həmlələr kərənayların və döyüş təbillərinin səsi ilə başladı. Şah qoşunlarında olan toplar da işə salındı, qala divarları atəş tutuldu. Lakin bütün bunlar gözlənilən nəticəni vermədi. Bu həmlələr qala müdafiəçiləri tərəfindən qətiyyətli şəkildə dəf edildilər. Mürşüdqulu xan qalanın müdafiəsinin təşkilinə böyük məsuliyyətlə yanaşdı, qalanı müdafiə edən qoşun dəstələri şəraitə uyğun olaraq qruplaşdırıldı, qalanın hər bir hissəsi və bürcü üçün məsul olan dəstələr müəyyənləşdirildi. O, qala divarları üzərinə dayanmaqla müdafiənin təşkilinə də rəhbərlik edirdi. Mürşüdqulu xan fəal müdafiə taktikasını seçmişdi. O, yalnız müdafiədə dayanmaqla kifayətlənmirdi. Eyni zamanda qalanı mühasirə etmiş şah qoşunları üzərinə çevik və sürətli basqınlar da təşkil edirdi. Belə basqınların gedişində tanınmış qızılbaş əmirlərindən olan Ərdoğdu xəlifə Təkəli və Həmzə Mirzənin eşikağası olan Təhmasibqulu bəy qətlə yetirildilər (72).

Şah qoşunları ümid edildiyinin əksinə olaraq Türbət qalasını vaxtında ələ keçirə bilmədilər və bu qalanın mühasirəsi altı aya qədər davam etdi. Bu müddət ərzində qoşunlar əldən düşməklə bərabər, həm də onların ərzaq qıtlığı yaranmağa başladı. Qala ətrafında şah qoşunları 1583-cü ilin novruz bayramı günlərinə qədər dayanmalı oldular. Həmin ilin qışının sərt keçməsi də qoşunların ərzaq çətinliklərini artırdı. Digər tərəfdən də mühasirənin uzan-

ması qızılbaş əmirləri və əyanları arasında narazılıqların genişlənməsinə səbəb oldu. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşinin yazdığına görə, şah sarayının əyanlarından olan Qulu bəy Qorçibaşı və Şahrux xan qan axıdılmasına və qalanın zorla alınmasına razı deyildilər. Onlar söhbət arası oymaq ağaları və ağsaqqallarına gizlicə belə deyirdilər: "Ümidvarıq ki, qızılbaş qılıncı qızılbaşları qırmayacaq, işlər sülhlə nəticələnəcək və fitnə-fəsad sülhə səy edənlərin səyləri sayəsində müsbət həll olunacaqdır" (73).

Doğrudur, belə söhbətləri açıq şəkildə qoşunlar arasında aparmaq mümkün deyildi. Lakin mühasirənin uzanması hər iki tərəfi əldən salmışdı. Ona görə vaxt ötdükcə və qalanının alınması çətinləşdikcə qoşun əmirləri arasında məsələnin dinc yolla həllinə meyl daha da güclənməkdə idi. Xüsusilə, Əliqulu xanın və Mürşüdqulu xanın tayfadaşları olan şamlı və ustaclı əmirləri məsələnin dinc yolla həllinə daha ciddi şəkildə yanaşılmasının tərəfdarı idilər. Sonradan bu söhbətlər Mirzə Salmana da çatdırıldı. Mirzə Salman Xorasandakı müxalifətçiliyin büs-bütün aradan qaldırılmasının tərəfdarı olsa da, yaranmış mürəkkəb vəziyyət onu da güzəştə getməyə məcbur etdi. Qərara alındı ki, Türbət qalasına, Mürşüdqulu xanla müzakirələr aparmağa nümayəndə heyəti göndərilsin. Mənbələr bu qərarın Mirzə Salman tərəfindən qəbul edildiyini bildirirlər. Heç şübhəsiz ki, bu qərar Şah Məhəmməd Xudabəndə və Həmzə Mirzə ilə razılaşdırılmışdı. Yəqin ki, şah da tezliklə Xorasan hadisələrinə son qoyulmasının tərəfdarı idi. Nəticədə şah sarayının nüfuzlu əyanlarından olan Seyid bəy Kəmunə, seyid Mir Əbdülməali, digər seyidlər və əsgər qaziləri bir neçə ağsaqqalla birlikdə Türbət qalasına göndərildilər. Bu nümayəndə heyəti Mürşüdqulu xanla görüşdü, ona təklif olundu ki, Şah Məhəmməd Xudabəndəyə və Həmzə Mirzəyə müxalifətçilik yolundan çəkinsin. Mürşüdqulu xan isə vaxtilə onunla söhbətə göndərilmiş Şahverdi bəyin öldürülməsini xatırlatdı və onun yanına gəlmiş nümayəndə heyətinin dediklərinə və verdikləri vədə etibar etmədiyini bildirdi. Hətta Mürşüdqulu xan bu nümayəndə heyətini qalada saxlamaq

qərarını bildirdi. Bu söhbət şah qoşunlarına da çatdı. Mürşüdqulu xanı inandırmaq və şaha itaət bildirəcəyi halda ona toxunulmayacağına zəmanət vermək üçün Şahrux xan Möhürdar Zülqədər və Fars hakimi Ümmət xan bütün zülqədər tayfası ilə birlikdə şahdan və nəvvab şahzadədən Mürşüdqulu xanın təqsirinin əfvini xahiş etdilər. Şah Məhəmməd Xudabəndə və Həmzə Mirzə də itaət bildirəcəyi halda Mürşüdqulu xana toxunulmayacağı barəsində zəmanət verdilər. Bundan sonra Şahrux xanla Ümmət xan Türbət qalasına yollandılar. Şahrux xan qalaya gedib Mürşüdqulu xanla görüşdü. Əslində, Mürşüdqulu xan və qala daxilindəkilər də mühasirənin uzanmasından təngə gəlmişdilər və onlar da mühasirənin başa çatmasını arzulayırdılar. Ona görə də Mürşüdqulu xan məsələnin dinc yolla həll edilməsinə zəmanət alandan sonra qarşılıqlı razılaşma əldə edilməsi üçün Mirzə Salmanla da qala divarları ətəyində görüş keçirildi. Mənbə məlumatlarına görə, bu görüşlər bir neçə dəfə təkrar olundu. Nəhayət tərəflər qarşılıqılı razılığa gəldilər. Əldə edilmiş razılaşmaya əsasən, Mürşüdqulu xan həm Şah Məhəmməd Xudabəndəyə, həm də Həmzə Mirzəyə sadiq olacağını və onların hakimiyyətini qəbul edəcəyini vəd etdi. Bunun qarşılığında Mürşüdqulu xana öz vəzifəsində fəaliyyət imkanları yaradılacağına söz verildi. Razılaşmaya əsasən, şah qoşunları Türbət qalasının mühasirəsini dayandıraraq qaladan geri çəkilməli idi. Mürşüdqulu xan isə bir neçə gün ərzində şahla əldə edilmiş barışığın təsdiqi kimi şaha layiq olan hədiyyələr hazırlamağa söz verdi. Bundan əlavə, Mürşüdqulu xan öz qohumlarının və yaxın ətrafının bir neçə nümayəndəsini Mirzə Salmanla birlikdə Şah Məhəmməd Xudabəndənin hüzuruna göndərdi. Bu adamlar şahdan Mürşüdqulu xanın günahının bağışlanmasını xahiş etməli idilər. Onlar da şahın və Həmzə Mirzənin hüzurunda Mürşüdqulu xanın iltimasını çatdırdılar. Bu iltimas şah tərəfindən qəbul edildi və vasitəçiliyə gələn qala adamları şad-xürrəm geri qayıtdılar. Şah Məhəmməd Xudabəndə hökm yazmaqla Mürşüdqulu xanın bağışlandığını bəyan etdi. Başqa bir fərmanla isə Mürşüdqulu xanın atası Şahqulu sultan Yeganın bir neçə illik məvacibinin oğluna

ödənməsi haqqında hökm verdi. Şahqulu sultanın həyatına II Şah İsmayılın hakimiyyəti illərində son qoyulmuşdu və həmin illərdə o, Abbas Mirzənin lələsi olmuşdu. Əldə edilmiş razılaşmaya uyğun olaraq şah qoşunları da Türbət qalasından geri çəkildi və Məşhədlə Herat arasındakı bir məntəqədə düşərgə saldı. Nəzərdə tutulmuşdu ki, Mürşüdqulu xan burada şahın hüzuruna gəlsin və öz itaətini bəyan etsin (74).

Türbət qalası ətrafında hadisələrin nikbin sonluqla bitməsi şah ətrafının da sevincinə səbəb oldu və saray əyan və əmirləri Əliqulu xanın da bu yolla müxalifətçilikdən uzaqlaşdırılmasına cəhd göstərilməsini məqsədəuyğun bildilər. O da təklif olundu ki, Mürşüdqulu xanla əldə edilmiş barışıq Abbas Mirzəyə də çatdırılsın və onun da baş verənlərdən xəbəri olsun. Əslində, Abbas Mirzə baş verən hadisələrə təsir etmək gücündə deyildi. O, Əliqulu xanın əlində girova çevrilmişdi və onunla barışıq yollarının tapılmasına ehtiyac var idi. Əliqulu xan Türbət qalası ətrafında baş verənləri nəzarət altında saxlayırdı və hətta Mürşüdqulu xana kömək göstərilməsi məqsədilə öz qoşun dəstəsi ilə Herat qalasını da tərk etmişdi. O, Herat qalasından təxminən beş fərsəx aralıda, Quryan adlanan məntəqədə düşərgə saldı və buradan şah qoşunlarının fəaliyyətini nəzarət altında saxlamağa çalışdı. Əliqulu xan mərkəzi hakimiyyətə itaəti birmənalı şəkildə qəbul etmirdi və Mürşüdqulu xanın da hər hansı bir şəkildə mərkəzi hakimiyyətlə sövdələşməyə gedəcəyinə inana bilmirdi. Herat qalasından çıxmaqda da Əliqulu xanın məqsədi Mürşüdqulu xana mümkün köməyin göstərilməsi idi. Bununla, Əliqulu xan şah qoşunlarının diqqətini cəlb etmək və Türbət qalasının mühasirəsini zəiflətmək istəyirdi. Herat qalasından kənarda olarkən Əliqulu xana Mürşüdqulu xanın şah hakimiyyətinə itaət göstərməyə razı olması haqqında məlumat çatdırıldı. Əliqulu xan bu xəbəri gətirən casusun sözlərinə inanmadı və hətta onu düzgün məlumat verməməkdə günahlandırdı. Casus isə dediyinin üstündə dayandı və onu da əlavə etdi ki. Türbət qalası ətrafında öz işini qurtarmış olan şah qoşunları tezliklə Əliqulu xanın üstünə hərəkət edəcəkdir. Bu xəbər tezliklə öz təsdiqini tapdı

və Əliqulu xan şah qoşunlarının onun düşərgə qurduğu istiqamətə gəlməsinin şahidi oldu (75).

Şah düşərgəsində isə Əliqulu xanın fəaliyyəti nəzarət altında saxlanılır və bununla bağlı məlumatlar toplanılırdı. Mürşüdqulu xanla barışıq məsələləri yoluna qoyulduqdan sonra şah qoşunlarının Herat istiqamətinə hərəkət edəcəyi şübhəsiz idi. Şah qoşunları Türbət qalasından aralanıb Məşhədlə Herat arasında düşərgə qurduğu zaman Əliqulu xanın da təxminən 8 min nəfərlik bir qoşun dəstəsi ilə Quryan yaxınlığında düşərgə salması barəsində məlumat alındı. Bu məlumat əvvəlcə şah düşərgəsində təəccüblə qarşılandı. Səltənət vəziri və saray əyanlarının təəccübünə səbəb olan Əliqulu xanın azsaylı qoşunla çoxsaylı şah qoşunlarına qarşı mövqe tutması idi. Sonra məlum oldu ki, qoşun dəstəsinin qaladan çıxarılması Əliqulu xanın düşündüyü bir plan idi. Bu planı icra etməklə Əliqulu xan şah qoşunlarını Türbət qalacından uzaqlaşdırmaq istəyirdi. Onun gümanında Əliqulu xanın qaladan çıxması xəbərini alanda Şah Məhəmməd Xudabəndə və onun ətrafındakılar bütün qoşunları ona tərəf istiqamətləndirəcəkdilər. Əliqulu xana üstün gəlməklə Abbas Mirzəni də ələ keçirmək və bununla Xorasan müxalifətçiliyinə də son qoymaq olardı. Şah qoşunlarının hərəkəti haqqında məlumat alandan sonra Əliqulu xan yenidən Abbas Mirzə ilə birlikdə Herata çəkilməli idi. Onun fikrincə, Türbət qalasını altı ay ərzində almaq mümkün olmamışdısa, bu qaladan dəfələrlə möhkəm olan Herat qalasını isə heç bir ilə də almaq mümkün olmayacaqdı. Yəni Əliqulu xan Herat qalasının etibarlılığına əmin idi. Əliqulu xana görə, şah qoşunları uzun müddət Herat qalası ətrafında dayana bilməzdi. Çünki Osmanlı qoşunlarının hücum təhlükəsi bu qoşunların Herat ətrafından çəkilməsinə gətirib çıxaracaqdı (76).

Vəziyyəti reallıqla qiymətləndirdikdən sonra Mirzə Salman da, qoşun başçılarından olan İsmayılqulu xan da şamlı və ustaclı tayfaları ilə ixtilafda olan təkəli əyanları da Əliqulu xanın aradan götürülməsi və Abbas Mirzənin girovluqdan azad edilməsi üçün əlverişli fürsət yetişdiyi qənaətinə gəldilər. Onlar şübhə etmədilər

ki, Əliqulu xanın Türbət qalası ətrafında baş verənlərdən, şah qoşunlarının bu qaladan geri çəkilməsindən xəbəri yoxdur. Ona görə şah düşərgəsində belə qərara gəlindi ki, vaxt itirmədən dərhal Quryan istiqamətinə hərəkət edilsin və Əliqulu xan orada, açıq sahədə mühasirəyə alınsın. Bu məsələ Həmzə Mirzəyə çatdırıldı və ondan xahiş olundu ki, qoşunların hərəkətə başlaması üçün Şah Məhəmməd Xudabəndənin razılığı alınsın. Bu razılıq alınandan sonra şah qoşunları Quryana doğru hərəkətə başladı (77).

"Nəvvab şahzadə əmirlərlə birlikdə bu məsələni İsgəndər şanlı nəvvaba bildirdi və onlar yürüşə yollandılar. Əmirlər və dövlət başçıları qorxudan öz narazılıqlarını bildirməyib bu təkliflə razılaşdılar. Elə o məclisdə Vəlixan Təkəli bir dəstə türkman əmirləri ilə çərxçi təyin olundular. Bu xəbər orduya yayıldı. Əsgərlər at və başqa zəruri ləvazimat hazırlığına başladılar. Ləşkər dəryası Əxzər kimi dalğalandı. Əzəmətli əmirlər istər-istəməz İsgəndər şanlı nəvvabın və aləmlər şahzadəsinin məiyyətində yola düşüb, Tirpol kənarınadək bütün gecəni yol getdilər və o uzaq yolu üç gecə-gündüzə keçdilər. Dördüncü günü sübh çağı, o vaxt ki, hava hələ Abbasilərin libası rəngindəydi, müzəffər ləşkərin qarovulları Tirpol körpüsü kənarına yetişdilər. Əliqulu xan ordusunun qarovulları bundan agah olub ordunun gəlib çatma xəbərini ona bildirdilər. Əliqulu xan o vaxt bu xəbərin yalan olduğunu güman etdi, çünki İraq ləşkərinin hələ Türbət qalası ayağında olduğunu düşündü və ehtimal etdi ki, qaladan körpüyədək böyük bir məsafə vardır" (78).

Əliqulu xan hələ də şah qoşunlarının onun düşərgəsinə yaxınlaşmasına inana bilmirdi. Belə bir halın baş verməsini o, mümkün də saymırdı. Amma səhər açılandan sonra çox yaxında şah qoşunlarının səs-küyü eşidilməyə başladı. Əliqulu xan şah qoşunları tərəfindən vaxtsız yaxalansa da, o dərhal müqavimət göstərmək üçün lazımi hazırlıqlara başladı. Bütün qoşunlar atlandı, silahlarını hərəkətə gətirib döyüşə hazır vəziyyət aldılar. Eyni zamanda qoşunlar döyüş aparılması üçün qruplaşdırıldı, sağ və sol cinahlar müəyyən edildi, döyüşü başlamaq üçün çərxçi təyin edildi. Şah

qoşunları yaxınlaşan kimi istirahətə dayanmadan Əliqulu xanın dəstəsinin üzərinə həmlə etdi. Əliqulu xan qüvvəsinin az olmasına baxmayaraq gərgin bir döyüşə qatılmalı oldu. Mənbə məlumatlarından belə aydın olur ki, Əliqulu xan şah qoşunlarına qarşı ciddi müqavimət göstərməyə çalışdı. Lakin şah qoşunlarının böyük say üstünlüyünə malik olması bu döyüşün taleyini həll etdi. Əliqulu xan və onun qoşun dəstəsi bu döyüşdə uğursuzluqla barışmalı oldu: "İsgəndər şanlı nəvvabın iqbal ulduzu və cahan şahzadəsinin hümayun fallı çətiri nizamla gələn qoşunlarla göründükdə Əliqulu xanın və onun döyüşçülərinin gözləri həmin saysız-hesabsız ləşkərə sataşdı. Əlləri işdən, işləri əldən soyudu. Nəticədə onlar mübariz döyüşçülərin hücumu ilə darmadağın olaraq məğlubiyyətə uğradılar, qaçış vadisinə üz tutdular. Ard-ardınca gələn qızılbaşlar isə qızılbaşiyyə təəssübkeşliyi və qohumluqları üzündən onları öldürməyə və tutmağa çox da cəhd etmirdilər" (79).

Amma təkəli tayfasından olan əmirlər və əyanlar köhnə ixtilafın davam etməsi üzündən müxalif qoşunların əsasını təşkil edən şamlı və ustaclı tayfasının döyüşçülərinə qarşı qəddarlıqla davranırdılar. Onlar əllərinə keçən şamlı və ustaclı döyüşçülərini sorğu-sualsız qılıncdan keçirirdilər. Çoxlu sayda tanınmış şamlı və ustaclı əmirləri əsir götürüldülər. Şah sarayında vəzifə tutan şamlı və ustaclı əyanları əsir alınanların bağışlanmasını xahiş etsələr də, Mirzə Salman bu xahişlərə qulaq asmadı. Əsirlərlə bərabər hətta onların bağışlanmasını xahiş edən bəzi əmirləri də qətlə yetirildilər. Əliqulu xanın dəstəsinin əmlakı ələ keçirildikdən sonra türkmən və təkəlilərin başı bu əmlakın yağmalanmasına qarsıdı. Bununla bağlı, hətta Əliqulu xanın dəstəsinin təqib edilməsi də yaddan çıxdı. Şah Məhəmməd Xudabəndə və Həmzə Mirzə döyüş meydanına gəlib nəticə ilə tanış olduqdan sonra Murtəzaqulu xanın rəhbərliyi altında bir qoşun dəstəsini Herat qalasına göndərdilər. Murtəzaqulu xan öz qoşun dəstəsi ilə Əliqulu xandan daha tez Herata çataraq bu şəhər-qalanı nəzarət altına almalı və sonra da şah qoşunlarının gəlişini gözləməli idi. Əliqulu xan isə bu döyüşdə ağır zərbə aldı. O elə bir tələskənlik içində döyüş meyda-

nını tərk etdi ki, hətta Abbas Mirzəni də orada unudaraq təklikdə canını qurtarmağa çalışdı. Belə olanda Abbas Mirzə ətrafında olan azsaylı dəstə ilə birlikdə başqa bir yolla Herata qayıtdı (80).

Əliqulu xanın döyüş meydanından çıxaraq naməlum istiqamətə yollanmasından sonra Abbas Mirzə nəzarətsiz qaldı. Bu zaman onun sərbəst şəkildə atasına qoşulması imkanı var idi. Abbas Mirzə isə bunu etmədi. Çox güman ki, Abbas Mirzə yaşının azlığından Əliqulu xanın və müxalifətdə olan qızılbaş əmirlərinin təsiri altında idi və ona görə də atasının yox, Əliqulu xanın maraqlarının ardınca getdi. Bu döyüşün gedişində Abbas Mirzə yaxından tanıdığı bir çox əmirlərin həyatına son qoyulmuşdu. Onların arasında Ağzıvar xanın oğlu Əbülfəth xan Şamlı, Qubad xan Qacar, "Kutval" təxəllüsü ilə məşhur olan Hacı Sultan Cığatay, həmçinin qələm əhlindən o vaxtlarda əlahəzrətin vəziri olan Sultan Hüseyn xanın vəziri Mirzə Məhəmməd Kirmani də var idi. Mümkündür ki, bu adamların qətlə yetirilməsi Abbas Mirzəni şah qoşunlarından uzaqlaşmağa sövq etmişdi.

“Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifinin təsvirindən görünür ki, Əliqulu xanın dəstəsində Abbas Mirzəyə qarşı barışmaz münasibətdə olan insanlar var idi. Abbas Mirzə ona sadiq olan insanlarla Herata qayıtmaqla həm də belə insanların nigarançılığından uzaqlaşmağa müvəffəq oldu. Bu əsərdə belə bir məlumat da vardır ki, Abbas Mirzə, Əliqulu xanın naməlum istiqamətə getməsini və onun taleyinin qaranlıq qalmasını narahatçılıqla qarşılayırdı. Həmin məlumat onu deməyə əsas verir ki, Əliqulu xanla Abbas Mirzə arasında müəyyən bir fikir və baxış oxşarlığı da var idi və yəqin ki, məhz bu fikir və baxış oxşarlığı Abbas Mirzəni şah düşərgəsinə deyil, Əliqulu xanın hakim olduğu Herata gətirmişdi. Abbas Mirzə Herata daxil olanda artıq gecə idi. O, həm Murtəzaqulu xandan, həm də Əliqulu xanın dəstəsinin üzvlərindən daha tez Herata yetişmişdi. Qalanın müdafiəsində dayanmış bir dəstə şamlı döyüşçüsü Abbas Mirzənin qayıdışını böyük sevinclə qarşıladılar və dərhal da onu qayğı ilə əhatə etdilər. Elə həmin gecə, Abbas Mirzənin gəlişindən bir qədər sonra Əliqulu

xan da onu müşayiət edən dəstə ilə birlikdə Herata qayıtdı. Bildirilir ki, Heratda sağ-salamat görüşmələri həm Abbas Mirzənin, həm də Əliqulu xanın sonsuz sevincinə səbəb oldu. Əliqulu xandan sonra isə şah qoşunlarına qarşı döyüşdə iştirak etmiş onun vəziri Xacə Əfzəl də qalaya qayıda bildi. Səhər açılan kimi isə Əliqulu xanın rəhbərliyi altında Herat qalasının möhkəmləndirilməsinə başlandı. Əliqulu xan və onun ətrafı şübhə etmirdi ki, şah qoşunları Herata doğru irəliləməyə başlayacaqlar. Bu qoşunlara qarşı müqavimətin göstərilməsi üçün qala divarlarının və bürclərin bərpası və möhkəmləndirilməsi üçün lazım olan işlər görüldü (81).

Şah Məhəmməd Xudabəndə tərəfindən Heratın nəzarət altına götürülməsi üçün göndərilmiş Murtəzaqulu xan və onun rəhbərliyi altında olan qoşun dəstəsi fürsəti əldən verərək müxaliflərin bu şəhərə qayıtmasına müvəffəq ola bilmədi. Murtəzaqulu xan və onunla birlikdə olan İsmayılqulu xan axşama yaxın Herat ətrafına yaxınlaşalar da həmin axşam şəhərə daxil olmağı lazım bilmədilər. Döyüş və yol yorğunluqları Murtəzaqulu xanı və onun dəstəsini əldən saldığı üçün qərara alındı ki, şəhər kənarındakı Sultan Hüseyn Mirzə mədrəsəsində istirahətə dayanılsın. Murtəzaqulu xanın və onun adamlarının Abbas Mirzə ilə Əliqulu xanın Herata qayıtmalarından xəbəri yox idi və güman edilirdi ki, səhəri gün asanlıqla Herat qalasına daxil olmaq mümkün olacaqdır. O da ehtimal edilirdi ki, Əliqulu xan artıq məğlubiyyətə uğrayıbdır və o, yəqin ki, Herata qayıtmayacaqdır. Amma səhər Murtəzaqulu xan öz dəstəsi ilə Herat qapılarına yaxınlaşanda bu qalanın darvazalarının möhkəm şəkildə bağlı olduğunu gördü. Herat darvazalarının bağlı olması xəbəri Şah Məhəmməd Xudabəndənin və saray əyanlarının böyük qəzəbi ilə qarşılandı. Saray əyanları və əmirləri Herat şəhərinin alınmamasını Murtəzaqulu xanın ləngliyi ilə bağladılar. Onlar öz etirazlarını bildirdirlər ki, əgər Murtəzaqulu xan çevik hərəkət edib dərhal Herat şəhərinə daxil olsaydı, bu şəhərin taleyi də həll edilmiş olardı (82).

Bununla belə, Herat şəhərinin ələ keçirilməsi və Abbas Mirzənin Əliqulu xanın əlindən alınması planından imtina edilmədi. Şah

qoşunları qısa istirahətdən sonra Herat ətrafına gəlib çatdı. Sultan Hüseyn Mirzə mədrəsəsi Şah Məhəmməd Xudabəndənin və Həmzə Mirzənin dövlətxanası kimi seçildi. Mirzə Salman isə onların yaxınlığında özünə çadır qurdu. Şahın qeyri-çevikliyi, Həmzə Mirzənin isə təcrübəsiz olması üzündən Heratın ələ keçirilməsi işlərinə Mirzə Salman rəhbərlik edirdi. Qeyd edildiyi ki, Xorasan müxalifətinin yatırılmasında və xüsusilə də Abbas Mirzənin ələ keçirilməsində Mirzə Salmanın şəxsi və ailə maraqları var idi. O öz qızını taxt-tac varisi Həmzə Mirzəyə nikah etdirməkdən əlavə, böyük oğlunu Həmzə Mirzənin vəziri etdirmiş, kiçik oğlu isə Həmzə Mirzənin yaxın dostlarından biri olmuşdu. Ona görə Abbas Mirzənin şəxsində Həmzə Mirzənin taxt-tac arzularına yönəlmiş olan təhlükəni Mirzə Salman özünə və öz ailəsinə qarşı yönəlmiş təhlükə kimi qarşılayırdı. Mirzə Salma nəyin bahasına olursa-olsun Heratı ələ keçirməyə çalışırdı. Bunun üçün o, bütün gününü Herat divarları ətrafında keçirir, Herat divarlarının alınmadığı üçün şah qoşunlarının əmirlərini fəaliyyətsizlikdə ittihamlandırır, onlarla kobudluqla davranırdı. Bu isə qızılbaş əmirləri və əyanlarının narazılıqları və qəzəbi ilə qarşılanırdı. Əslində, kobud hərəkətləri və qızılbaş əmirlərinin maraqlarına uyğun gəlməyən fəaliyyəti ilə Mirzə Salman özünə qarşı müxalif bir cəbhə formalaşdırmışdı. Mirzə Salmanın qızılbaş tayfalarından olmaması və qeyri-türk olması isə qızılbaş əmirlərinin narazılığını daha da artırırdı. Bu narazılıqlar genişlənərək elə Herat ətrafında onun qətlə yetirilməsi ilə nəticələndi.

“Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifinin yazdığına görə, Mirzə Salman şah qoşunlarında olan bir sıra qeyri-türk adamları ətrafına yığmaqla və onların vasitəsilə müxtəlif məlumatlar toplayırdı. Sonra da bu məlumatları öz maraqları çərçivəsində Həmzə Mirzəyə çatdırırdı. Mirzə Salman xüsusilə dövrün nüfuzlu qızılbaş əmirləri olan Qulu bəy Qorçubaşı, Şahrux xan Möhürdar və Məhəmməd xan Türkman haqqında Həmzə Mirzəyə doğru olmayan məlumatlar çatdırır və Həmzə Mirzəni onlara qarşı təhrik etməyə çalışırdı. Qızılbaş əmirləri və əyanları da görürdülər

ki, Həmzə Mirzə tədricən Mirzə Salmanın təsiri altına düşməkdədir və az vaxtdan sonra Həmzə Mirzə tamamilə onun iradəsindən asılı ola bilər. Bu isə qızılbaş əmirləri üçün yeni risqlər yarada bilərdi. Ona görə də qızılbaş əmirləri belə bir fikrə gəldilər ki, Mirzə Salmanın əlində böyük səlahiyyətlər toplanmasına imkan vermək olmaz. Buna isə onun qətlə yetirilməsi ilə nail olmaq mümkün idi. Yəni Mirzə Salman təhlükəsi elə bir hal aldı ki, qızılbaş əmirləri Abbas Mirzənin Əliqulu xan girovluğundan azad edilməsi məsələsini müvəqqəti də olsa unudub səltənət vəzirinin qətlə yetirilməsi yollarını aramağa başladılar (83).

Şah qoşunları tərəfindən Herat qalasının mühasirəsinin davam etdiyi günlərdə Mirzə Salman bu şəhərdən bir qədər kənarda, Gazərqah adlanan bir yerdə məclis qurub vaxtını orada xoş keçirmək fikrinə düşdü. Bu məqsədlə o, əvvəlcə öz xidmətçilərini, qulluqçularını, musiqiçiləri göndərdi ki, onlar lazımi hazırlıq işləri görsünlər və Mirzə Salmanın arzusunda olduğu məclisi təşkil etsinlər. Bu məclisə Mirzə Salman özünə yaxın bildiyi bir sıra əmirləri də dəvət etməyi planlaşdırırdı. Mirzə Salmanın bu planından onunla nifaqda olan qızılbaş əmirləri də xəbər tutdular və onlar Mirzə Salmanın qoşunlardan uzaqlaşmasını onun qətlə yetirilməsi üçün bir fürsət kimi qəbul etdilər. Qızılbaş əmirləri toplaşaraq Mirzə Salmanın qətli planını hazırladılar və bu planın icrasını şah qoşunların qorçubaşısının oğlu Yusif xana, Məhəmməd xanın oğlu Vəlican xana, Şahrux xanın qardaşı oğlu Xəlil sultana və digərlərinə həvalə etdilər. Adları çəkilən adamlar Gazərqaha yollanaraq Mirzə Salmanın qətlini icra etməli idilər. Amma təsadüfən Mirzə Salmana yaxın olan adamlardan biri qızılbaş əmirlərinin bu planından xəbər tutdu. Həmin adam dərhal Mirzə Salmanın yanına yollandı və hazırlanan sui-qəsd haqqında ona məlumat verdi. Bu xəbəri eşidən kimi Mirzə Salman dərhal geri qayıtmaq yolunu tutdu. Qətli həyata keçirməli olan qızılbaş əmirləri biləndə ki, Mirzə Salman geriyə yollanıb, onda bir neçə atlını onun ardınca göndərdilər. Mirzə Salman Herata dönmək üçün başqa bir yol seçdiyin-

dən onu haqlamaq mümkün olmadı. Bununla Mirzə Salmanın qətl edilməsi planı da baş tutmamış qaldı (84).

Mirzə Salman birbaşa şah dövlətxanasına gəldi, Şah Məhəmməd Xudabəndənin və Həmzə Mirzənin hüzurunda qızılbaş əmirlərinin onu qətlə yetirmək planları haqqında onlara öz ərzini çatdırdı. Şah Məhəmməd Xudabəndə bu məlumatı narahatçılıqla qarşıladı. Çünki Xorasanda baş qaldırmış müxalifətçilik hələ aradan qaldırılmadığı bir vaxtda sarayın daxilində yeni bir qarşıdurma ortaya çıxmaqda idi. Məsələnin aydınlaşdırılması üçün Səfəvi şahı Mirzə Salmana qarşı cəbhə tutmuş qızılbaş əmirlərini yanına topladı. Onunla bu əmirlər arasında baş verən söhbət "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində belə təsvir edilmişdir: "Mirzə Salman yoldan dövlətxanaya çatıb İsgəndər şanlı nəvvabın və nəvvab şahzadənin yanına gələrək, əmirlərin niyyətindən onları agah etdi. Nəvvab şah əmirlərin yanına gəlmələri xüsusunda əmr etdi. Bütün əmirlər və dövlət başçıları gəlib yığışdıqdan sonra onlardan soruşdu: "Bizim vəzirimiz və yüksək etimadlı adamımız olan Mirzə Salmana qarşı belə hərəkətinizin səbəbi nədir?" Əmirlər əvvəlcə bunu inkar edərək dedilər: "Bizim ondan heç bir şikayətimiz yoxdur. Əgər qızılbaş cahillərindən kimlərsə onunla ədəbsiz rəftar etsələr, biz onları tutub fəsada nail olanların cəzalarını verərik".

Mirzə Salmana qarşı olan adamlar bu əsnada Sultan Hüseyn Mirzə mədrəsəsinə yığışıb böyük qiyam qaldırdılar, saraya adam göndərib bildirdilər: "Mirzə Salman dövlətin viranlığını istəyir və qızılbaşların düşmənidir. Qızılbaşların müxalif olmaları və Xorasan əmirlərinin üsyan və tüğyanlarının səbəbi də onun pis rəftarından başqa bir şey deyildir. Əgər o aradan götürülməsə, qızılbaşlar arasında ikitirəlik kənar olmayacaqdır".

İş bu yerə çatdıqda əzəmətli əmirlər də bu barədə danışıb şaha belə ərz etdilər: "Mirzə Salman tacikdir və hesab işləri və divan müamilələrindən başqa işlər ona aid deyil və ondan heç nə də təvəqqə olunmur. Nə gərəkdir ki, o ləşkər və qoşun sahibi olub səltənət işlərinə dəxalətdə bulunsun, fitnə-fəsada səbəb olsun? Bir halda ki, indi qızılbaşlar məsələnin üstündən pərdəni götürüb

onunla belə bir pis məqamdadırlar, yaxşısı budur ki, o vəzarət mənsəbindən və başqa işlərindən uzaqlaşdırılsın".

Mirzə Salman ağıllı adam idi və bilirdi ki, bu işlər əmirlər tərəfindən qurulmuşdur və onlar onun qətlindən başqa heç nə ilə razılaşmayacaqlar. Belə düşündü: "Bu məsələ madam ki, şahın və şahzadənin hüzurunda qaldırıldı, həyatda olan adam həyatdan getmək istəməz." Buna görə də razılaşdı ki, heç olmasa onu həbs etsinlər və [müəyyən] bir yerdə saxlasınlar" (85).

Mirzə Salmana aydın oldu ki, qızılbaş əmirləri ona qarşı ciddi bir cəbhə tutmuşlar və onların əlindən yaxasını asanlıqla qurtara bilməyəcəkdir. Ona görə də o, həbs olunmasına etiraz etmədi və bunu sağ qalması üçün bir fürsət kimi qəbul etdi. Şah Məhəmməd Xudabəndə isə qızılbaş əmirlərinin Mirzə Salmana qarşı düşmənçilik yolunu tutmasını dolayısı yolla Həmzə Mirzəyə qarşı olan düşmənçilik kimi qiymətləndirdi. Bununla bağlı şahda hətta bu qızılbaş əmirlərinin Abbas Mirzə il əlaqədə olması və ya onun xeyrinə müxalifət yolunu tuta bilməsi şübhələri yarandı. Bu məsələnin aydınlaşdırılması üçün etibar etdiyi adamlardan birini qızılbaş əmirlərinin yanına göndərdi ki, onların əsil məqsədi aydınlaşdırılsın. Qızılbaş əmirləri də and-aman edib bildirdilər ki, Mirzə Salmanla olan ixtilaf onların şaha və onun varisinə olan sədaqətinə heç bir təsir etməyibdir Bu əmirlər bir daha söz verdilər ki, şaha və taxt-taca hər zaman sədaqətli qalacaqlar. Amma eyni zamanda o da bildirildi ki, Mirzə Salmana qarşı olan düşmənçilikdən əl çəkilməyəcək (86).

Şah Məhəmməd Xudabəndə qızılbaş əmirlərinin ona qarşı sədaqətli qaldığına əmin olandan sonra Mirzə Salmanın müdafiəsi üçün qətiyyətli addımlar atmadı və Mirzə Salmanı qızılbaş əmirlərindən qurtarmaq mümkün olmadı. Çox tezliklə Mirzə Salman qızılbaş əmirlərin tərəfindən qətlə yetirildi. Bu hadisədən sonra şahın da, qızılbaş əmirlərinin də bütün diqqəti yenidən Herat qalasının alınmasına və Abbas Mirzənin ələ keçirilməsinə yönəldildi. Bununla belə, şah qoşunları, qızılbaş əmirləri tərəfindən göstərilən cəhdlər bir nəticə vermirdi. Herat qalasının möhkəm bir qala ol-

masından əlavə, Əliqulu xan şah qoşunlarına səmərəli müqavimət göstərilməsi üçün lazım olan işləri görürdü. Bu minvalla şah qoşunları tərəfindən Herat qalasının mühasirəsi iki ay davam etdi. Elə bu zaman Fərhad paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücum etməsi haqqında məlumat alındı. Səltənətin qərb sərhədlərinin Osmanlı qoşunlarının hücumuna məruz qalması Səfəvi şahından əməli addımların atılmasını tələb edirdi. Ona görə də qızılbaş əmirləri və əyanları tezliklə Əliqulu xanla sülh əldə edilməsi və sonra da qoşunların səltənətin qərbinə göndərilməsi təklifləri irəli sürüldü. Bu təkliflərin həyata keçirilməsi məqsədilə Şahrux xan Möhürdar qala divarları ətəklərinə yollandı və Əliqulu xanla görüşdü. Onlar arasında sülh əldə edilməsi məsələsi müzakirə edildi. Əliqulu xan da qalanın mühasirəsinə son qoyulmasına maraqlı idi. Ona görə də bu barədə tərəflər arasında bir razılaşma əldə etmək mümkün oldu. Əliqulu xan bu şərtlə sülh razılaşması əldə edilməsini qəbul etdi: "Əliqulu xan o vaxt on iki yaşındakı böyük oğlu Vəlixan Mirzəni bir yalvarış məktubu (zəriətnamə) ərizəsi ilə şahın yanına göndərsin; ərizədə ərz olunsun ki, bütün bu fitnə-fəsadın mayası (xəmirmayə) Mirzə Salman olmuşdur, indi ki, o, aradan götürülüb bizlər yenə də əvvəlki kimi bu dərgahın qulamları və qulamzadələriyik; [Əliqulu xan] sabiq təqsirlərinin [əfvi üçün] üzr istəsin; ədəbə riayət edilsin, səfəvi [xanədanının] sufiyəsindən olduğunu sübut etmək yolu (təriq) ilə [Abbas Mirzənin] məşhur atasının və böyük (bozorqvar) qardaşı [Həmzə Mirzənin] hörmətini hifz etməkdən ötrü Xorasanda əvvəllər olduğu kimi səltənət və padşahlıq xütbəsi İsgəndər şanlı nəvvabın adına oxunsun və onun böyük oğlu nəvvabi-cahanbanini şahlığın vəliəhdi bilsinlər; Xorasan məmləkəti yenə əvvəlki kimi ölkələr tutan (gitisetan) şahzadəyə, yəni əlahəzrət şaha verilsin və o, layiqli peşkəşlər göndərib, hər nə xahişləri (moltəməsat) olarsa ərz etsin ki, onlar xeyirxah adamlar vasitəsilə o izzət sahibinə (be ezze-əncahe-əqtəran) [padşaha] çatdırılsın" (87).

Şah sarayının bir çox əmirləri, xüsusilə də təkləli tayfasından olan əmirlər köhnə ixtilaflara görə Əliqulu xanın şərtinin qəbul

edilməsi ilə razılaşmırdılar. Amma uzun çək-çevirdən sonra mövcud şəraitdə bu şərtlərin qəbul edilməsi məqsədəuyğun sayıldı. Bundan sonra Şah Məhəmməd Xudabəndənin razılığı ilə Şahrux xan və İsmayılqulu xan qala daxilinə yollandılar. Onlar Əliqulu xanla bir daha söhbətləşərək sülh razılaşmasını qəbul etdilər. Yuxarıdakı şərtlərdən göründüyü kimi, Əliqulu xan öz şərtləri çərçivəsində Şah Məhəmməd Xudabəndənin hakimiyyətini və Həmzə Mirzənin də varisliyini qəbul edirdi. Vilayət daxilində xütbələr də Şah Məhəmməd Xudabəndənin adına oxunmalı idi. Yəni Əliqulu Mirzə mərkəzi hakimiyyəti tanıdığını və bu hakimiyyətə sədaqətli qalacağını bildirirdi. Əvəzində isə Xorasan vilayəti Abbas Mirzənin idarəçiliyində qalırdı. Əliqulu xan isə onun lələsi və vilayət əmirül-ümərası kimi vilayətin real idarəçiliyini öz əlində saxlayırdı. Əliqulu xanın irəli sürdüyü şərtlərdən biri də Murtəzaqulu xanın Məşhədə hakimlikdən uzaqlaşdırılması idi. Şahrux xanla İsmayılqulu xanın qalaya gəldikləri günün səhəri Əliqulu xan Şah Məhəmməd Xudabəndəyə məktub yazdı. Bu məktubda o hər şeydən əvvəl vilayətdə baş verənlərə görə üzr istədi və bu hadisələrin bir səbəbini də o, saray mənsublarının ona qarşı haqsız davranışında gördü. Əliqulu xan Mirzə Salmanın vilayət idarəçiliyinə müdaxilələri, Məşhəd hakimi Murtəzaqulu xanın xoşagəlməz əməlləri haqqında da şaha məlumat verdi. Əliqulu xanın istəkləri şah tərəfindən nəzərə alındı, əldə edilmiş sülh razılaşmasına görə ziyafətlər təşkil olundu, Əliqulu xana və Abbas Mirzəyə şah tərəfindən qiymətli hədiyyələr göndərildi, Əliqulu xanın oğlu Vəlixan Mirzə şahzadənin ali sarayının mülazimləri sırasına daxil edildi. Şah qoşunları Məşhəddən keçərkən Şah Məhəmməd Xudabəndənin hökmü ilə Murtəzaqulu xan bu vilayətin hakimi vəzifəsindən azad edildi. Onun yerinə isə ustaclı tayfasının təmsilçilərindən biri təyin olundu (88).

Beləliklə, Xorasanda başlanan hadisələrə müvəqqəti də olsa bir sakitlik gətirildi. Əliqulu xan isə sülh razılaşmasını qəbul etməklə Abbas Mirzənin şah elan edilməsindən də imtina etmiş ol-

du. Abbas Mirzə sadəcə olaraq şah övladı və şahlığa gələcək namizədlərdən biri kimi Xorasanda qalmaqda idi.

## 5. Abbas Mirzənin ikinci dəfə şah elan etdirilməsi

Şah Məhəmməd Xudabəndə ilə Əliqulu xan arasında sülh razılaşması əldə edilməsi əslində, mövcud şəraitdə məcbiriyyət üzündən əldə edilmiş bir razılaşma idi. Doğrudur, hər iki tərəf bu razılaşmanı məmnunluqla qarşıladı. Lakin bu sülh razılaşması şah sarayının ümidində olduğu sabitliyi təmin etməklə, qızılbaş əmirləri arasındakı qarşıdurmaları aradan qaldırmadı. Şah Məhəmməd Xudabəndədə isə lazımi qətiyyət yox idi ki, sərt tədbirlər həyata keçirməklə mərkəzləşdirilmiş hakimiyyəti bütün səltənət hüdudlarında tətbiq etsin. Onun nəticəsi idi ki, Şah Məhəmməd Xudabəndə Xorasan vilayətini tərk etdikdən sonra Əliqulu xanla Mürşüdqulu xan arasında münasibətlər gərginləşməyə başladı. Bu münasibətlər əslində, Abbas Mirzənin ətrafında dövr edirdi və onun həyat yoluna bu və ya digər dərəcədə təsir göstərirdi.

İlk baxışdan Xorasan vilayətində narazılıq yarada biləcək məsələlər həll olunmuşdu. Amma Şah Məhəmməd Xudabəndə şah qoşunları ilə birlikdə vilayəti tərk etdikdən sonra Mürşüdqulu xan yenidən daha böyük iddialara düşdü. O, Məşhədin yeni hakimi təyin edilmiş Salman xan Ustaclıya xəbər göndərib bu şəhərə ziyarətə gəlmək niyyətini açıqladı. Görünür, Mürşüdqulu xanın heç də yaxşı niyyətdə olmadığı Salman xana bəlli olmuşdu. Ona görə də Salman xan Mürşüdqulu xanın Məşhədə gəlməsini təşvişlə qarşıladı. Bu şəhərə yenicə hakim təyin edildiyi üçün Saman xan şəhərin müdafiəsinin təşkili işlərinə yetərincə bələd deyildi. Eyni zamanda ona lələ təyin edilmiş təcrübəli qızılbaş əmiri Şahqulu xan da həmin vaxt Məşhəddə deyildi ki, onunla məsləhətləşmə aparmaq mümkün olsun. Mürşüdqulu xan Məşhədi öz nəzarəti altına almaq fikrinə düşəcəyi təqdirdə Salman xanın ona lazımi müqavimət göstərmək imkanı yox idi. Məşhədin ağsaqqalları, seyidləri, əyanları Mürşüdqulu xanın qıcığına səbəb olmamaq üçün onun

daha yaxşı qarşılanması üçün öz hazırlıqlarını görməyə başladılar. Nəticədə Mürşüdqulu xan böyük qonaqpərvərliklə qarşılandı, ona böyük ehtiram göstərildi, İmam Rzanın qəbrinin ziyarət edilməsi təşkil edildi. Sonra Mürşüdqulu xan İmam Rzanın məqbərəsində qaldı, ətrafdakılarla mehriban davranmağa çalışdı. Həmin günlər ərzində Salman xan da onun görüşünə gəldi və onu mümkün qayğı ilə əhatə etdi. Mürşüdqulu xan ilk günlər öz niyyətini gizlətdi və münasib anın yetişməsini gözlədi. Bir neçə gün ərzində Məşhəd şəhərinə Mürşüdqulu xanın çoxlu sayda adamları gəldilər və şəhərin nəzarət altına alınması üçün öz yerlərini tutdular. Bu adamlar hətta Mürşüdqulu xanla da görüşür və ondan lazımi təlimatlar alırdılar. Bir neçə gündən sonra Mürşüdqulu xan nəhayət ki, Salman xanın iqamətgahına getdi və onunla söhbət zamanı öz niyyətini açıqladı. Mürşüdqulu xan bildirdi ki, Xorasan vilayəti neçə ildir ki, Abbas Mirzənin hakimliyi altındadır. Şah Məhəmməd Xudabəndə də Xorasana son səfəri zamanı bu vilayətin Abbas Mirzənin hakimliyi altında qalmasına hökm verdi. Mürşüdqulu xan ona çatdırmaq istədi ki, əgər Salman xan Xorasan vilayəti hüdudlarında qalmaq istəyirsə gərək bunu Abbas Mirzənin lələsi Əliqulu xanla və elə Mürşüdqulu xanın özü ilə razılaşdırsın. Mürşüdqulu xanın Salman xana müraciəti "Dünyanı bəzəyən Abbasın tarixi" kitabında belə verilmişdir: "Xorasan əhalisinin rəiyyət və əsgərləri əlahəzrətə itaət etməyə ürək bağlamışlar. Onlar o həzrətin lələsi və Xorasanın bəylərbəyisi olan Əliqulu xan Şamlı ilə də əhd-peyman etmişlər. İsgəndər şanlı nəvvab da Xorasan məmləkətini təzədən Xorasanda olan bu əziz və səadətli oğluna vermişdir. Əgər cənab xanın Xorasanda qalmaq meyli vardırsa, onun əlahəzrət şahın itaətindən və Əliqulu xanla razılaşmasından başqa heç bir çarəsi yoxdur. Belə olan bir halda, cənab xanın hakimi kimi bu vilayəti qorumaq, bölgə sərkeşlərini və Məşhəd hüdudlarındakı düşmənləri cəzalandırmaqdan ötrü güclü qoşunu yoxdur. Dövlətin məsləhəti belədir ki, bu vilayət mənim ixtiyarıma verilsin, cənab xan isə mənim olan Xaf və Baxərzə gedib o vilayətdə rahatlıqla yaşasın" (89).

Salman xanın müqavimət göstərmək gücü yox idi və onun müqavimət göstərmək cəhdi həyatı bahasına da başa gələ bilərdi. Ona görə də o, Mürşüdqulu xanın təklifini qəbul etmək məcburiyyətində qaldı. Mürşüdqulu xan da onu öz adamlarının müşayiətində Baxərzə yola saldı. Özü isə Məşhədin hakimliyini öz üzərinə götürdü. Bu hadisə 1584-cü ildə baş verdi. Amma bu dəyişiklik Salman xanı heç də razı salmadı. Məşhədin tərk edilməsi, əslində, həm də onun hakim təyin edilməsi ilə bağlı şah hökmünə əməl edilməməsi idi. Salman xan isə bunu doğru saymırdı və ona görə də Baxərzə gedib çıxmadı. Bu şəhərə tərəf hərəkət zamanı Salman xan ov etmək bəhanəsi ilə onu müşayiət edən adamlardan bir qədər aralandı və sonra da onların diqqətindən uzaqlaşaraq Qəzvinə tərəf üz tutdu. Mürşüdqulu xan isə bu hadisədən çox sevindi və daha asudə şəkildə Məşhəddə hakimliyi davam etdirdi. O, ilk növbədə Herata, Əliqulu xana bu barədə xəbər göndərdi, Məşhəddə hakimliyi ələ almaqla Abbas Mirzəyə və Əliqulu xana sədaqətli olacağını bəyan etdi. Mürşüdqulu xanın fikrincə, Məşhəd hakimliyini ələ keçirməsi Abbas Mirzənin tale qismətindən irəli gəlirdi və bununla da o, etdiyi hərəkətin Abbas Mirzənin maraqları əksinə olmayacağını çatdırmaq istəyirdi. Əliqulu xan da bu xəbəri sakitcə qarşıladı. Çünki ilk vaxtlar Mürşüdqulu xanın itaətsizlik iddialarına düşməsini göstərəcək heç bir hadisə ilə qarşılaşmadı. Mürşüdqulu xan da Məşhəd və Məşhəd ətrafında olan əmir və əyanlarla mehriban münasibətlər qurdu, onları öz ətrafında səfərbər etdi. O, eyni zamanda Məşhədin və onun ətrafının idarəçiliyinin nizamlanması və sahmanlanması istiqamətində səmərəli addımlar atdı (90).

Mürşüdqulu xanın iddiaları əslində, yalnız Məşhədlə də kifayətlənmirdi. Bu barədə o öz niyyətlərini açıqlamadan vilayət daxilindəki əmirlərlə xoş rəftar etdi, əvvəlcə hakim olduğu məntəqələrə qızılbaş əmirlərini hakim təyin etməklə onları öz ətrafında birləşdirə bildi. Bununla o, vilayət daxilində öz təsirini xeyli genişləndirə bildi. Mürşüdqulu xan gördüyü bütün işlər barəsində Əliqulu xana da vaxtaşırı məlumat verir və bütün bu işlərin Abbas

Mirzənin xeyrinə gördüyünü bildirirdi. Bu da Əliqulu xanda onun fəaliyyətinə qarşı müəyyən bir sakitlik yaradırdı. Bir müddət sonra Mürşüdqulu xan qardaşı İbrahim xanı Əliqulu xanın yanına göndərdi və bəzi təkliflərini ona çatdırdı. Mürşüdqulu xan istəyirdi ki, Əliqulu xanın razılığı ilə onun rəhbərliyi altında olan vilayət qoşunlarını Xorasan vilayətinin qərbində olan məntəqələrin nəzarət altına gətirilməsinə təhrik etsin. Bu işləri də Mürşüdqulu xan Abbas Mirzənin xeyrinə olan bir iş kimi təqdim etməyə çalışırdı. Mürşüdqulu xan Xorasanın qərbində, Damğan, Bestam və Astrabada qədər olan əraziləri formal olaraq Abbas Mirzənin hakimliyi altına gətirmək təklifini verirdi. Reallıqda isə Mürşüdqulu xan bu əraziləri də öz idarəçiliyi altına almaq istəyirdi. İbrahim xan Herata gəldikdən sonra əvvəlcə Abbas Mirzə ilə görüşdü, ona öz sədaqətini və itaətini bəyan etdi. Sonra da o, Əliqulu xanın yanında olaraq Mürşüdqulu xanın təkliflərini ona çatdırdı. Mürşüdqulu xan əvvəlcə bir daha Əliqulu xanı onunla bir olduğuna əmin etmək istədi və İbrahim xan vasitəsilə onun nəzərinə çatdırdı ki, bir sıra yeni məntəqələri nəzarət altına almasını, həmin məntəqələrə hakimlər təyin etməsini Əliqulu xanın təmsilçisi kimi etmişdir. Onun fikrincə, səltənət daxilində əsaslı bir sabitlik yaranmadığı üçün Mürşüdqulu xan ən azı vilayət daxilində sabitlik və vahid idarəçilik təmin edilməli idi. Əliqulu xan onun bu fikirlərindən razı qaldı və fəaliyyətində də separatçılıq əlaməti görmədiyi üçün irəli sürdüyü təklif barədə şamlı və ustaclı əmirlərindən məsləhət istədi. Şamlı və ustaclı tayfasından olan əmirlər və əyanlar Mürşüdqulu xanın təkliflərinə inamsız yanaşdılar. Onlar həmin təkliflər haqqında müxtəlif fikirlər ortaya atdılar və bu fikirlərlə Əliqulu xanın diqqətini də bu təkliflərdən yayındırdılar. Hətta şamlı tayfasının bəzi təmsilçiləri Mürşüdqulu xanın etibarlı bir adam olmaması və onun qətlinə qərar verilməsi haqqında fikirlər də söyləməyə başladılar (91).

Bu söhbətlər və müxalif fikirlər Mürşüdqulu xana da çatdı. Amma Mürşüdqulu xanın Xorasandan qərbə doğru olan əraziləri nəzarət altına almaq istəyi o qədər güclü idi ki, özü birbaşa Əli-

qulu xanın yanına getməyi qərara aldı. Baxmayaraq ki, ona qarşı Heratda şübhəli bir münasibət var idi, Mürşüdqulu xan onun üçün mövcud ola biləcək təhlükədən çəkinmədi və Herata yollandı. Bu şəhərə yetişəndən sonra Mürşüdqulu xanın da ilk işi Abbas Mirzənin hüzuruna yollanmaq və onun qarşısında səcdə etmək oldu. Məlum oldu ki, hətta Mürşüdqulu xanın Herata gəlişi anında da şamlı tayfasının ona düşmən olan bəzi təmsilçiləri təhrikçiliklərindən əl çəkməmişdilər. Onlar Əliqulu xanı hər vasitə ilə onun qətlinə sövq etmək istəyirdilər. Əliqulu xan isə Mürşüdqulu xanı bir qonaq kimi qarşıladı, ona qonaq ehtiramı nümayiş etdirdi, onun cəzalandırılmasını qonaqpərvərlikdən kənar saydı. Amma Mürşüdqulu xan özlüyündə ona qarşı inamsız bir münasibətin olduğunu hiss edirdi. Yaxın ətrafı da ona Herat daxilində ehtiyatlı olmağı tövsiyə edirdi. Həmin günlərdə Mürşüdqulu xan hamamda olarkən xarici görünüşünə görə ona bənzəyən bir dəlləyin öldürülməsi xəbərini aldı. Bu dəllək Mürşüdqulu xanın olduğu hamamda və eyni gündə qətlə yetirilmişdi. Mürşüdqulu xanın yaxın ətrafının fikrincə, əslində məqsəd Mürşüdqulu xanın öldürülməsi idi. Amma bu işi icra etməli olan adam Mürşüdqulu xanla dəlləyi səhv salıbmış. Mürşüdqulu xan məsələdən xəbərdar olan kimi, dərhal hamamı tərk etdi və öz iqamətgahına yollandı. Əliqulu xan da bu məsələni eşidəndə Mürşüdqulu xanın evinə yollandı və bununla ona anlatmağa çalışdı ki, baş verən hadisə heç də onun qətl edilməsi niyyəti ilə bağlı deyil (92).

Əliqulu xanın onun yanına gəlməsi qarşılıqlı etimadın qorunmasına xidmət etsə də, Mürşüdqulu xan ona qarşı məkrli bir münasibətin olmasına şübhə etmədi. Heratdakı şamlı və ustaclı əmirləri və əyanları Mürşüdqulu xanın öz hakimliyini yeni ərazilərə yaymaqla böyük iddialara düşdüyü fikrində olduqları üçün ona qarşı qəsd niyyətindən əl çəkmirdilər. Mürşüdqulu xanın getdikcə möhkəmlənməsi və qüdrətinin artması Herat əmi və əyanlarını qane etmirdi. Burada onlar öz maraqlarına bir təhlükə görürdülər və ona görə də Mürşüdqulu xanı aradan götürmək istəyirdilər. Ona qarşı şübhəli planların çoxaldığından ehtiyatlanan Mürşüdqulu

xan gizlicə Heratı tərk edib Məşhədə qayıtdı. Bu zaman o, Əliqulu xanla da görüşüb salamatlaşmadı və həm də çalışdı ki, çox tezliklə özünü Məşhədə yetirsin. Onun qardaşı İbrahim xan isə Heratda qalmaqda idi. Əliqulu xan onunla görüşündə Mürşüdqulu xanın gizlicə Heratı tərk etməsindən narazı qaldığını gizlətmədi və öz narazılığını İbrahim xana çatdırdı. İbrahim xan ona qarşı da münasibətin dəyişdiyini hiss etdi və əlinə fürsət düşən kimi o da gizli şəkildə Heratı tərk edib Məşhədə qayıtdı. Mürşüdqulu xana əks olan əmirlər və əyanlar bu hadisədən ona qarşı əks-təbliğatın genişləndirilməsinə bir bəhanə kimi istifadə etdilər. Nəticədə, Əliqulu xanın da Mürşüdqulu xana qarşı münasibətində əsaslı dəyişikliklər baş verdi. Doğrudur, bu hadisədən sonra da Mürşüdqulu xanla Əliqulu xan arasında yazışmalar, çapar mübadiləsi davam edirdi. Lakin həmin günlərdən başlayaraq bu iki xan arasında kin-küdurət artmaqda idi. Bir müddətdən sonra isə Heratın əmir və əyanları Əliqulu xanı Mürşüdqulu xanın cəzalandırılmasına inandıra bildilər. Bu cəzalandırma vilayət qoşunlarının Məşhəd şəhəri üzərinə yürüşü ilə baş verməli idi. Nəzərdə tutulmuşdu ki, vilayət qoşunları Məşhədə yollansın, bu şəhər nəzarət altına alınsın, şəhər hakimi vəzifəsinə Əliqulu xanın yaxın adamlarından biri təyin edilsin. Vilayət qoşunları ilə birlikdə Abbas Mirzə də yollanmalı idi. Əslində, bu yürüş özü də Abbas Mirzə bayrağı altında, Məşhədin və ətrafının Abbas Mirzənin hakimliyi altına gətirilməsi adı altında həyata keçirilməli idi (93).

Məşhədə yollanmazdan əvvəl vilayət daxilindəki bəzi məntəqələrə qoşun yeridildi. Həmin məntəqələrin hakimləri Mürşüdqulu xanın təsiri altında olan hakimlər idi və Əliqulu xan da bununla razı deyildi. O cümlədən, Qain və Tərşiz məntəqələrinin hakimləri vəzifələrindən uzaqlaşdırıldı. Bəzi məntəqələrin hakimlərinə isə məktublar göndərildi ki, onlar Abbas Mirzənin və onun lələsinin hakimliyini sözsüz qəbul etsinlər. Həmin hakimlərin də bu tələbi qəbul etməkdən başqa çarəsi qalmadı. Bununla, Mürşüdqulu xanın təsir sahəsi müəyyən dərəcədə daraldılmış oldu (94).

Əliqulu xanın Məşhəd üzərinə qoşun çəkmək xəbərini Mürşüdqulu xan təşviş və narahatçılıqla qarşıladı. Çox güman ki, Mürşüdqulu xan həmin vaxt Əliqulu xana qarşı çıxmaq gücündə olmadığını anlayırdı. Ona görə də o, Əliqulu xanla döyüşə girmək istəmirdi. Bunu onun yaxın ətrafı və ona etibarlı olan adamlar da hiss edirdilər. Mürşüdqulu xan ona razı idi ki, tərəflər arasında görüşlər və müzakirələr olsun, qarşılıqlı anlaşma əldə edilsin və bununla narazılıq da aradan qaldırılsın. Mürşüdqulu xan mərkəzi hakimiyyətə sədaqətli olmağa və öz qoşunları ilə istənilən vaxt Abbas Mirzə qoşunlarının tərkibinə qatılmağa da hazır idi. Bütün bu məsələlərin həlli üçün Mürşüdqulu xan öz adamını Əliqulu xanın vəziri Xacə Əfzəlin yanına göndərdi, onu və şamlı ağsaqqallarını mövcud narazılıqların aradan qaldırılması üçün danışıqlara dəvət etdi. Onun fikrincə, Əliqulu xanı qızışdıran və onu təhrik edən vəziri Xacə Əfzəl idi. Ona görə də Mürşüdqulu xan əvvəlcə onunla məsələni həll etmək, onun razılığını almaq və onun vasitəsilə Əliqulu xanı da barış yoluna gətirmək idi. Xacə Əfzəl isə Mürşüdqulu xanın təklifini qəbul etmədi və iki xan arasındakı narazılığın aradan qaldırılmasını onunla müzakirə etmək istəmədi. Əksinə, Xacə Əfzəl yenə də Mürşüdqulu xanın və onun tərəfdarlarının cəzalandırılmasını istədi. Nəticədə, münasibətlər silahlı qarşıdurmaya gətirib çıxardı. Təşizin Susfəd adlı kəndi yaxınlığında Əliqulu xanla Mürşüdqulu xanın qoşun dəstələri qarşı-qarşıya gəldilər. Bu qoşun dəstələri bir-birindən çox da uzaq olmayan bir ərazidə düşərgə saldılar. Əvvəlcə, tərəflər arasında yenə yazışmalar başladı, elçi mübadiləsi həyata keçirildi. Amma bunun da nəticəsi olmadı və iki xan arasında mövcud olan narazılığı aradan qaldırmaq mümkün olmadı. Elə bu zaman şah sarayından Məşhədə göndərilən və Mürşüdqulu xanın qohumlarından olan İbrahim Sultan Şərəfli Tərşiz ətrafında Mürşüdqulu xanın qoşun dəstəsinə qoşuldu. İbrahim Sultanın da rəhbərliyi altında öz qoşun dəstəsi var idi. Bu dəstənin də Mürşüdqulu xanın dəstəsinə qoşulması onun gücünü daha da artırdı. İbrahim Sultan vəziyyətlə tanış olandan sonra Mürşüdqulu xanı Əliqulu xanın üzərinə qoşun

çəkməyə təhrik etdi və sonra da təbilləri səsləndirərək döyüş bayraqlarını qaldırdı. Döyüş təbilinin səsi qarşı tərəfdə də eşidildi və Əliqulu xan da döyüşə hazır olmaq göstərişi verdi. Əliqulu xanın göstərişi ilə onun rəhbərliyi altında olan qoşunlar döyüş üçün qruplaşdırıldı, sağ və sol cinahlar, habelə mərkəzdə qərar tutacaq dəstə müəyyənləşdirildi (95).

Döyüş başlamazdan əvvəl Əliqulu xanın dəstəsində olan Sultanəli xəlifə adlı birisi ondan ayrılıb öz dəstəsi ilə Mürşüdqulu xanın yanına gəldi. Sultanəli xəlifə yaranış ixtilaf üzündən əvvəlcə Əliqulu xan tərəfindən həbs edilmiş və sonra azad edilmişdi. Sultanəli xəlifə isə bu hadisədən sonra Əliqulu xandan incik düşmüş və döyüş ərəfəsində ondan ayrılaraq Mürşüdqulu xana qoşulmuşdu. Bu da şübhəsiz ki, Mürşüdqulu xanın gücünü bir qədər də artırmışdı. Döyüşün gedişində də bu cəhət özünü göstərdi. Tərəflər arasında başlanan döyüşün başlıca nəticəsi ondan ibarət oldu ki, Mürşüdqulu xan Abbas Mirzəni ələ keçirdi və onu öz düşərgəsinə gətirdi. Əliqulu xanın başı döyüşə qarışdığı üçün Abbas Mirzənin mühafizəsində yol verdiyi səhlənkarlıq nəhayətdə Abbas Mirzənin itirlməsi ilə başa çatdı. İsgəndər bəy Münşi bu hadisəni öz əsərində belə təsvir edirdi: "Xülasə, hər iki tərəf qılınc və oxlara əl atdı, tozun çoxluğundan göyün üzü qaraldı. Əliqulu xanın gözü, içərisində Mürşüdqulu xanın da olmasını güman etdiyi bir dəstəyə sataşdıqda, ehtiyatını unudub, özü şəxsən hərbə başladı. Mərəkədə onunla birlikdə vuruşan şamlı şücaətliləri o dəstənin üstünə at çəkərək onları dağıtdılar və məğlub etdilər. Əliqulu xanın həmin dəstənin təqibi ilə məşğul olduğu vaxt başqa tərəfdə dayanan Mürşüdqulu xan və onun bir dəstə adamı hücuma keçdi və xanın gözü padşahlıq bayrağına sataşdı, istədi ki, az miqdar adamla qoşunun qəlb hissəsində dayanan xilafət və şəhriyarlığın o dürdanəsini (dorre-yekta) özünə tərəf gətirsin. [Buna görə də] bir dəstə adamını onun üstünə yolladı. Onlar bu hümayun qoşunun şamlı döyüşçülərinin arasında olduğunu görüb, fürsəti qənimət bildilər, şahzadənin [Abbas Mirzə nəzərdə tutulur] zəfər bayrağı kölgəsindəki həmin az miqdar döyüşçüyə həmlə etdilər. Onlar bu həmləyə tab

etməyərək pərakəndə oldular. Mötəbər əmirlərdən və Mürşüdqulu xanın yoldaşlarından olan Əbu Müslüm xan Çavuşlu o həzrətə çataraq, həmin dövlət və iqbal taxtının fələk (gərdun) kimi sakit dayanmayan bozumtul at üstündə əyləşmiş şahzadəni özündə sonsuz hikmət cəmləşdirən təqdir valisinin (yəni Allahın - red.) fərmanı ilə ələ keçirdi” (96).

Abbas Mirzənin ələ keçirilməsi ona lələlik vəzifəsini ələ keçirilməsi demək idi. Buna görə Mürşüdqulu xan bu hadisədən sonsuz dərəcədə sevindi və Abbas Mirzəni görüncə atdan yerə düşərək onun ayaqlarını öpdü və ona itaətini bəyan etdi.

Başqa bir məlumata görə, Sultanəli xəlifə döyüşün gedişində Abbas Mirzənin azsaylı mühafizə dəstəsi ilə Əliqulu xanın diqqətindən kənarda qalmasını Mürşüdqulu xana çatdırdı. Mürşüdqulu xan da bu xəbəri eşidən kimi bir min nəfərlik atlı dəstəsi ilə Abbas Mirzənin dayandığı məkana üz tutdu, onun mühafizə dəstəsini mühasirəyə aldı. Bu qarışıqlıqda Abbas Mirzənin atına ox dəydi və Abbas Mirzə atdan yerə yıxıldı. Mürşüdqulu xanın göstərişi ilə Abbas Mirzəyə yeni bir at verildi və döyüşçülərdən biri də atın üzəngisini əlinə aldı ki, yenidən Əliqulu xanın düşərgəsinə qayıtmasın. Mürşüdqulu xan Abbas Mirzəni yanına alıb Məşhədə tərəf üz tutdu. Əliqulu xan bu hadisədən xəbər tutanda bir dəstə atlını Abbas Mirzənin arxasınca göndərdi ki, onu Mürşüdqulu xanın əlindən alıb geri qaytarsın. Bu mümkün olmadığı halda isə Abbas Mirzə qətlə yetirilsin. Amma Əliqulu xanın sərdarlarından biri özünü daha tez Mürşüdqulu xanın yanına çatdırdı və onların ardınca dəstə göndərildiyini və Əliqulu xan tərəfindən Abbas Mirzəyə də qəsd hazırlandığını onun nəzərinə çatdırdı. Hətta o da bildirilir ki, bu zaman Əliqulu xanın göndərdiyi dəstə gəlib yetişdi və bu dəstənin döyüşçüləri oxla Abbas Mirzəni hədəf aldı. Bu zaman Əliqulu xanın dəstəsindən xəbər gətirmiş sərdar sinəsini qabağa verdi və öz həyatı bahasına Abbas Mirzəni xilas etdi. Bundan sonra Mürşüdqulu xanın dəstəsi döyüş vəziyyəti alaraq Əliqulu xan tərəfindən göndərilmiş silahlı dəstəyə müqavimət göstərdi və həmin dəstəni geri qayıtmağa məcbur etdi (97).

Əliqulu xan Abbas Mirzənin itirilməsindən son dərəcə qəzəbləndi. Çünki həm vilayət daxilində, həm də səltənət daxilində onun hökmü və nüfuzu yalnız Abbas Mirzə ilə bağlı idi. Abbas Mirzə olmadığı halda o, onun lələsi vəzifəsini də itirmiş olurdu. Amma Əliqulu xan yalnız vəzifəsini itirmirdi, bütünlükdə gələcəyə bağladığı ümidlərini də itirirdi. Çünki o, Abbas Mirzəni gələcək şah kimi görürdü və onun şah olacağı təqdirdə Əliqulu xanın hökmü və səlahiyyətləri də artacaqdı. Adi bir səhlənkarlıq nəticəsində Abbas Mirzənin itirilməsi Əliqulu xanın bütün planlarını alt-üst etmiş oldu.

Mürşüdqulu xan isə əksinə, gözləmədiyi bir üstünlük qazanmış oldu. O, Əliqulu xanla döyüşə girməyə ehtiyat etdiyi bir vaxtda Abbas Mirzəni ələ keçirə bildi və bununla da səltənət daxilindəki hökmünü yeni bir səviyyəyə qaldırmış oldu. Mürşüdqulu xan döyüşə başqa məqsədlə qoşulmuşdu, amma qazandıqları ümidində olduğu nəticələri xeyli üstələdi və bu nəticəni o, Allah tərəfindən ona bəxş olunmuş böyük bir sovqat kimi dəyərləndirdi. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifinin yazdığına görə, belə bir şansı qazanması Mürşüdqulu xanın papağını fələyin başınadək ucaltdı. O, Abbas Mirzəyə öz canında yer ayırdı, onun xidmətində dayandı. Abbas Mirzə ələ keçiriləndən sonra isə Mürşüdqulu xan dərhal Məşhədə qayıtdı. Hələ kiçik yaşlarından şamlı tayfası arasında həyat sürən Abbas Mirzə ustaclı tayfası təmsilçilərinin arasına düşməyə əvvəllər ehtiyatla yanaşdı. Hətta Əliqulu xanın düşərgəsindən ayrıldığı üçün Mürşüdqulu xanın hərəkətlərindən bir inciklik də duydu. Lakin Məşhəddə, Mürşüdqulu xanın ətrafında ona olan ehtiramı və nəvazişi görəndən sonra bu incikliyi unutdu, onda narahatçılıqdan bir əsər-əlamət qalmadı. Fürsət yaranan kimi Abbas Mirzə Məşhəddəki İmam Rza ziyarətgahına yollandı, orada dua və ibadət etdi, yeni həyatından razılığını bəyan etdi. Abbas Mirzəyə itaət və ehtiram əlaməti olaraq Mürşüdqulu xan döyüş vaxtı Əliqulu xanın dəstəsindən əsir götürdüyü bütün döyüşçülərə qarşı rəhmli bir münasibət göstərdi. Bütün əsirlərə bildirildi ki, əldə edilmiş hərbi qənimət içərisində kim ona məxsus olan əşyanı

taparsa, onu geri götürə bilər. Hamıya elan edildi ki, onlara geri qayıtmaq azadlığı verilir. Kim istəyirsə qayıtsın, qayıtmaq istəməyənlər isə Abbas Mirzəyə aid olan yeni qoşunlarda xidməti davam etdirə bilərlər. Əsir götürülənlər arasında Əliqulu xanın vəziri olmuş Xacə Əfzəl də var idi. Mürşüdqulu xan onu Abbas Mirzənin vəziri vəzifəsinə məsləhət bildi. Əliqulu xanın qoşun dəstəsində və sarayında yüksək vəzifə tutmuş əsirlərin hamısına Məşhəddə yüksək vəzifələr təklif edildi. Mürşüdqulu xan sonra Əliqulu xana məktub yazdı, onu baş verənlərə görə incikliyi unutmağa çağırdı. Mürşüdqulu xanın bütün qayğısına baxmayaraq Əliqulu xanın əsir götürülmüş adamları onun yanında qalmaq istəmədilər. İki nəfər istisna olmaqla əsir götürülənlər hamısı geri qayıtmaq arzusunda olduqlarını bildirdilər. Mürşüdqulu xan tərəfindən onlara geri qayıtmaq üçün şərait yaradıldı (98).

Məşhədə yetişəndən az sonra Mürşüdqulu xan xüsusi bir mərasim təşkil etdirdi və Abbas Mirzəni yenidən şah elan etdirdi. Bunun üçün Abbas Mirzə yenidən şahlıq taxtında oturduldu, hələ yetkinlik yaşına çatmadığı üçün özünü də yeni Səfəvi şahının lələsi elan etdi. Mürşüdqulu xanın nəzərində Abbas Mirzənin lələsi olmaq səltənət daxilində ixtiyar sahibi olmaq demək idi. Xorasan daxilində Abbas Mirzənin şah elan edilməsi onun böyük planlarının bir hissəsi idi. Mürşüdqulu xan bütün səltənət idarəçiliyində ixtiyar sahibi olmaq istəyirdi. Amma elə Xorasan daxilində Mürşüdqulu xan bütün hakimiyyəti öz əlində cəmləşdirə bilməmişdi. Xorasan vilayətinin əsas şəhəri və şahzadələr şəhəri sayılan Herat şəhəri Əliqulu xanın əlində qalmaqda idi. Əliqulu xan bu şəhər ətrafında müəyyən qüvvə toplayıb onun üstünə hücum da edə bilərdi. Mürşüdqulu xan isə bunu istəmirdi və özlüyündə Xorasan vilayətinin iki xanın idarəçiliyi altında qalmasını mümkün sayırdı. Ona görə də Abbas Mirzə şah elan olunduqdan sonra Mürşüdqulu xan onun adından hökm yazdırdı və Əliqulu xanı Herat hakimi kimi tanıdı. Bununla Mürşüdqulu xan bildirmək istədi ki, Herat şəhərini almaq niyyəti yoxdur və Əliqulu xan da sakitcə həmin şəhərdə hakimliyini davam etdirə bilər. Abbas Mirzənin ikinci

dəfə şah elan edilməsi 1586-cı ilin iyul ayına təsadüf edirdi. Belə bir hadisənin baş verməsi sözsüz ki, şah sarayının da nəzərindən qaça bilməzdi. Lakin həmin vaxt Səfəvi dövlətinə qarşı Osmanlı təhlükəsi qalmaqda idi və şah sarayı da daha çox bu təhlükənin aradan qaldırılması məsələsi ilə məşğul idi. Bu isə Mürşüdqulu xana imkan verdi ki, Abbas Mirzənin şahlığı məsələsinin uzadılmasında bir qədər də vaxt əldə etsin (99).

1586-cı ilin dekabrında səltənət taxt-tacının varisi olan Həmzə Mirzə qətlə yetirildi. Bu hadisənin baş verməsi həm səltənət daxilində, həm də Abbas Mirzə ətrafında cərəyan edən hadisələrə yeni bir məzmun gətirdi. Həmzə Mirzənin qətlindən sonra şahlıq taxt-tacının varisliyinə haqqı çatan Abbas Mirzə idi. O, Şah Məhəmməd Xudabəndənin Həmzə Mirzədən sonra ikinci oğlu idi. Abbas Mirzədən başqa Şah Məhəmməd Xudabəndənin daha iki oğlu var idi – Əbu Talib Mirzə və Təhmasib Mirzə. Təhmasib Mirzə ustaclı tayfasının adamları tərəfindən oğurlanaraq Ələmut qalasında saxlanılırdı. Abbas Mirzə də Xorasanda olduğundan şahın yanında yalnız Əbu Talib Mirzə qalmışdı. Həmzə Mirzənin qətlindən sonra yeni vəliəhdin elan edilməsi aktuallığı ortaya çıxdı. Şahın ətrafında olan təkəli-türkman tayfalarının təmsilçiləri onların ixtilafda olduğu şamlı-ustaclı tayfasının arasında böyümüş Abbas Mirzənin vəliəhd edilməsini birmənalı şəkildə qəbul etmirdilər. Belə bir hadisənin baş verməsi şamlı-ustaclı tayfasının təkəli-türkman tayfasını üstələməsi, təkəli-türkman tayfasının təmsilçilərinin səltənət daxilindəki mövqelərinin itirilməsi demək idi. Ona görə də onlar o zaman 12 yaşında olan Əbu Talib Mirzənin vəliəhd elan edilməsini istəyirdilər.

Şah Məhəmməd Xudabəndə isə qızılbaş tayfaları arasındakı bu ixtilafı görürdü və bu ixtilafın daha da dərinləşməməsi üçün yeni vəliəhd seçilməsinə də meylli deyildi: "Günahları bağışlanmış mərhum şahzadənin [Həmzə Mirzə nəzərdə tutulur] başına gələn o böyük hadisədən sonra İsgəndər şanlı nəvvab əzəmətli əmirləri toplayıb öz ürəkaçan və dürlər saçan nəsihətləri ilə onları nəsihətləndirdi, oymaqlar arasında düşmənçilik və nifaqın dəf

olunması, onların bir-biriləri ilə razılığa gəlmələri və birləşmələri, xüsusilə şamlı-ustaclı və türkman-təkəli tayfaları arasındakı inadkarlığın aradan qaldırılması üçün xeyli söhbətlər apardı. O istəyirdi ki, özü şəxsən səltənət və dövlət işlərini yoluna qoysun. Həmin vaxtlarda elan edilməsi münasib olmayan bəzi daxili düşüncə və mülahizələrinə görə İsgəndər şanlı nəvvab özünün heç bir fərzəndini və adlı-sanlı şahzadələri ali divanın başçısı və vəliəhd təyin etmək istəmirdi, rəhmətlik nəvvabdan sonra böyük övladı olan əlahəzrət zillǝllah [Abbas Mirzə nəzərdə tutulur] isə o zaman Xorasanda yaşayırdı” .

Şah Məhəmməd Xudabəndə onu da yaxşı başa düşürdü ki, Əbu Talib Mirzə ilə Təhmasib Mirzənin yaşlarına görə vəliəhd elan edilməsi düzgün deyil. Abbas Mirzə isə saraydan uzaqda, sarayla müxalifətdə olan tayfalar arasında idi. Bu cəhət isə onun nigarançılığına səbəb olurdu. Abbas Mirzənin vəliəhd elan ediləcəyi təqdirdə şamlı və ustaclı tayfalarının saraya daha da yaxınlaşmasını da Şah Məhəmməd Xudabəndə istəmirdi. Ona görə də vəliəhd seçilməsi məsələsində ilk vaxtlar bir tərəddüd yarandı. Vəliəhd məsələsinin həll edilməmiş qalması isə saray əyanlarını və əmirlərini razı salmırdı. Vəliəhdliyə ənənəvi haqqı olan Abbas Mirzənin gələcəkdə bu məqama yetişə biləcəyi ehtimalı onları qorxudurdu və ona görə də şah sarayına toplaşmış olan təkəli və türkman əyanları Əbu Talib Mirzənin vəliəhd seçilməsinə nail olmağa çalışırdılar. Bu məsələ ilə bağlı təkəli və türkman əmir və əyanları Şah Məhəmməd Xudabəndənin fikrinin əksinə çıxdılar və onu yeni vəliəhdin seçilməsinə inandırmaq üçün yollar aramağa başladılar: “İsgəndər şanlı nəvvab həmin məsələnin rəsmiləşməsini istəmir, onun təxirə salınmasını məsləhət görürdü. O, ilham bəyanlı dili ilə deyirdi ki, özünün şəhid fərzəndinin - həmsöhbət olduğu cahil qızılbaşların əli ilə başına gələn hadisədən sonra heç bir başqa fərzəndinin özbaşına hərəkəti ilə razılaşmayacaq və qızılbaşların şahzadələrin yanına azad gəliş-gediş qapılarını bağlayacaqdır. Saray əmirləri bir-biri ilə danışıb, o vaxtlarda müstövfiül-məmalik olan Mirzə Məhəmmədi özlərinə nümayəndə seçə-

rək padşaha belə ərz etdilər: "Ali padşahın əmri ilə səltənət və padşahlıq işlərini bir neçə il icra edən nəvvab şahzadənin iqtidar və etibarı bütün ətrafa yayıldığından, onun başına gələn o mədhuş hadisənin xəbəri artıq hər yana gedib çatmışdı. Əgər indi kamkar şahzadələrdən birinin cülus etmə xəbəri tezliklə sərhədlərə gedib çatmazsa, hər yerdə tam qarmaqarışıqlıq başlayacaqdır ki, bu da dinə və dövlətə nöqsan dəyməklə nəticələnəcəkdir. Məğlubedilməz dövlətin məsləhəti belədir ki, səltənətə və şahlığa ləyaqəti olan şahzadələrin birinin təcili olaraq vəliəhdlik rütbəsi ilə şərəfləndirsinlər. Üstəlik də onun ixtiyar və iqtidar dərəcəsini rəhmətlik şahzadəyə nisbətən daha da artırsınlar ki, onun cülusu xəbəri tez bir vaxtda sərhədlərə gedib çatsın. Böyük fərzənd olan ali qədirli, fələk iqtidarlı şahzadə, yəni həzrət zilləllah şah isə Xorasandadır. Buna görə də əmirlər o həzrət mülkünü "Xorasan sultanı" adlandırmışlar və onun məiyyətində dayanıb həmin məmləkəti qorumaqdadırlar. Amma, Əbu Talib Mirzə isə padşahın məiyyətindədir və onu bu adlı-sanlı rütbə ilə müşərrəf edin" (100).

Saray əyanı olan Mirzə Məhəmməd qızılbaş əmirlərindən aldığı bu təlimatı bir qədər də bəzək-düzəklə Səfəvi şahına çatdırdı. Sonra da onu inandıra bildi ki, qızılbaş əmirlərinin təklifini və istəyini qəbul etsin vəliəhdin olmamasına görə səltənətin qarşılaşa biləcəyi təhlükələri aradan qaldırsın. Şah Məhəmməd Xudabəndə görəndə ki, sarayın bütün əmir və əyanları Əbu Talib Mirzənin vəliəhd seçilməsinin tərəfdarıdır, onda etiraz etməkdən çəkindi. Bununla, şah qızılbaş əmirlərinin istəklərini nəzərə alaraq Əbu Talib Mirzənin vəliəhd elan edilməsinə razılıq verdi. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi İsgəndər bəy Münşi Abbas Mirzənin haqqının tapdalanmasına görə qızılbaş əmirlərinin bu istəyini və təkidini düzgün saymırdı. O, adı çəkilən əsərdə Abbas Mirzə ilə bağlı düzgün seçimə getməyən qızılbaş əmirlərinin və əyanlarının haqsız istəyinə belə qiymət verirdi: “Dövlət işlərinin nizama düşməsində həmin əmirlərin birinci səhvi bu idi ki, onlar qətiyyən bu işin aqibətini fikirləşmədilər. Onların bəsirət gözləri əlahəzrət zilləllah şahın dövlət və kamranlıq nurunu müşa-

hidə etməkdən məhrum idi. Onlar görə bilmirdilər ki, Xorasanın şərqindən doğub bütün İraq və Azərbaycan ərazilərini işığa qərq edərsə, qızılbaş tayfalarınınsa əlindən itaətdən başqa heç nə gəlməyəcəkdir. Onlar belə düşünürdülər ki, Xorasan əmirləri, xüsusilə də həmin vilayətdə mütləq hakim (hakim il-əl-etlaq) müqəddəs Məşhəddəsə əlahəzrətin lələsi və rüknussəltənəsi olan Mürşüdqulu xan özünün Xorasandakı ixtiyar və iqtidarını əldən verib İraqa gəlməyəcək, əlahəzrət şahzadəni özünə sərmayə edərək Xorasan səltənətinin gəlinini onun gözləri önündə cilvələndirəcək, onu Xorasandan digər dövlətlər üzərinə yürüş etməyə qoymayacaqdır. Lakin onlar anlamadılar ki, [Abbas Mirzənin] aləmi işıqlandıran hümayun şüaları önündə başqa adamın nursuz çırağı xilafət və cahandarlıq üzərinə necə işıq sala bilər? [Onlar görə bilmirdilər ki,] zülməti əridən günəş nurları müqabilində bir işıldaquş (kerme-şəbtab) nə təhər işıldayıb nur sala bilər? [Onlar bilmirdilər ki,] günəşdən daha parlaq (əzhər min əşşəms) olan o [şahzadənin] hümayun məiyyətinin günəş misallı ayparası, yəni ən yüksəklikdə belə ov ovlamağı özünə aşağı bilən büləndpərvaz bir şahin quşu (şahbaz) axı alacəhrə (səvə) şikarına necə tamah sala bilər?" (99).

Saray əmirləri və əyanları Əbu Talib Mirzənin vəliəhd elan edilməsinə şah tərəfindən razılıq verilməsini sevinclə qarşıladılar və dərhal da bu mərasimin təşkil edilməsinə başladılar. Bu zaman məhərrəm ayı idi və səltənət daxilində imam övladlarına yas tuturdu. Amma əmir və əyanlar öz niyyətlərinə yetmək üçün vaxt keçməsini gözləmək istəmirdilər. Ona görə də şahla razılaşaraq qısa zaman ərzində vəliəhdin elan edilməsi mərasiminin keçirilməsini qərarlaşdırdılar. Razılaşdırılmış saatda saray əmirləri Əbu Talib Mirzəni atasının yanına gətirdilər. Şah Məhəmməd Xudabəndə başındakı tacını çıxarıb Əbu Talib Mirzənin başına qoydu, belinə bahalı bir qılınc bağladı, əyninə qiymətli libaslar geydirdi və onu taxt-tac vəliəhdi elan etdi. Şah qərara aldı ki, Həmzə Mirzənin xidmətində olmuş bütün heyət yeni şəraitdə Əbu Talib Mirzənin xidmətinə verilsin. Hətta Həmzə Mirzənin var-dövləti, ima-

rəti də onun sərəncamına verildi. Qəbul olunmuş ənənəyə görə, sarayda xidmət edən bütün əmirlər və əyanlar Əbu Talib Mirzənin ayağını öpdülər, onu təbrik etdilər. Sonra isə vilayətlərə və şəhərlərə çaparlar göndərildi və Əbu Talib Mirzənin vəliəhd elan edilməsi yerlərə çatdırıldı (101).

İsgəndər bəy Münşinin fikrincə, Abbas Mirzənin haqqını tapdalayıb Əbu Talib Mirzəni vəliəhd seçdirən "əmirlər haqq yoldan azıb öz nəfslərinə uyğun hərəkət etdiklərindən yersiz məsələlərə yol verdilər, baş vermiş vəziyyəti özlərinin maraqlarına uyğun yönəltdilər, öz işlərini din və dövlət mənafeyindən üstün tutdular, qəzavü-qədər işgörənlərinin (karpərdazane-qəza-və qədər) təhriki ilə öz idbar əməllərini yerinə yetirdilər, öz dövlətlərinin dağılması üçün çalışdılar, onların atdıqları murad zərləri (kəbəteyne-morad) müxalifət səmtinə düşdü və zəmanə onlara etdiyini etdi. Tezliklə haqq yerini tutdu və buna görə də öz əməllərinin cəzasına çatdılar" (102).

İsgəndər bəy Münşinin bu fikri əslində, həqiqəti əks etdirirdi. Əbu Talib Mirzənin vəliəhd seçilməsi səltənət daxilində heç də sabitliyin yaranmasını təmin etmədi. Xüsusilə, Azərbaycan bəylərbəyi Əliqulu xan Ustaclının və Qəzvin hakimi İsmayılqulu xan Şamlının böyük səlahiyyətlər qazanması şah sarayının digər əmir və əyanlarını heç də razı salmırdı. Vilayət hakimləri arasında da Əbu Talib Mirzənin vəliəhdliyinə rəğbətlə yanaşmayanlar tapılmaqda idi. Bu narazılıqlar isə getdikcə səltənət daxilində ixtilafları daha da dərinləşdirdi.

Əbu Talib Mirzənin vəliəhdliyindən sevinməyən qızılbaş əmirlərindən biri də Damğan hakimi Murtəzaqulu xan Pornak idi. Vaxtilə Məşhəd hakimi olmuş və sonra bu vəzifədən uzaqlaşdırılmış Murtəzaqulu xan Həmzə Mirzənin sağlığında yüksək məqamlar tutmaq şansına malik idi. Hətta o, Həmzə Mirzə tərəfindən saraya da dəvət edilmişdi. Murtəzaqulu xan Qəzvinə doğru hərəkət edərkən Həmzə Mirzənin qətli haqqında məlumat almış və geri qayıtmaq məcburiyyətində qalmışdı. Onu geri qayıtmağa məcbur edən səbəblərdən biri də Əbu Talib Mirzənin vəliəhd elan

edilməsi haqqında xəbər tutması idi. Məlumdur ki, Murtəzaqulu xan hələ Məşhəddə olarkən həm şah sarayına sədaqətli qalmışdı, həm də Abbas Mirzənin şah sarayına göndərilməsini istəyirdi. Səltənət daxilində kifayət qədər nüfuza malik olan Murtəzaqulu xan Abbas Mirzənin kənara qoyaraq Əbu Talib Mirzənin vəliəhd elan edilməsinə heç də laqeyd yanaşmadı. Öz maraqlarını da itirmək istəməyən Murtəzaqulu xan yeni şəraitdə Abbas Mirzəyə yaxınlıq etməyi daha düzgün saydı və ona görə də mənsub olduğu türkman tayfasından bir neçə nəfəri onun yanına göndərdi. Bu adamlar Abbas Mirzəyə Murtəzaqulu xanın sədaqətini, onun lələsi Mürşüdqulu xana isə Murtəzaqulu xanın məktubunu çatdırmalı idilər. Həmin məktubda deyilirdi: "Rəhmətlik şahzadə (Həmzə Mirzə - red.) sağ olan vaxt o, İsgəndər şanlı nəvvabın böyük fərzəndi olduğundan vəliəhdlik rütbəsinə çatmışdı. Biz də sufilik yolumuzdan, istək və sədaqət üslubumuzdan dönməyib, o həzrətə müttəfiq, ali mülazimlərə isə müxalif idik. Amma indi ki, o həzrətin başına belə bir hadisə gəlmişdir, əlahəzrəti vəliəhd və məşhur atanın qayimməqamı bilirik. Əgər onun müzəffər ordusu İraqa gedərsə, türkman tayfasından hədsiz sədaqət və bəndəlik görəcəkdir" (103).

Yəni Murtəzaqulu xan bu məktubunda Abbas Mirzənin hakimiyyəti ələ almaq üçün Qəzvinə doğru hərəkət edəcəyi təqdirdə öz qoşunu ilə onu dəstəkləməyə hazır olduğunu bildirirdi. Vaxt ötdükcə mövcud hakimiyyətdən incik duruma düşərək Abbas Mirzəni dəstəkləyənlərin sayı artmağa başladı. Belələrindən biri də Yəzd hakimliyini ələ keçirmiş Bəktaş xan Əfşar idi. Bəktaş xan Kerman hakimi Vəli xan Əfşarın oğlu idi. O, Yəzd hakimliyinə şah fərmanı ilə sahib olmamışdı. Həmzə Mirzənin həyatının sonlarına yaxın şah sarayı ilə qızılbaş əmirləri arasında gedən ixtilafların nəticəsində Bəktaş xan Yəzd hakimliyini ələ keçirmişdi. Həmzə Mirzə qətlə yetiriləndən sonra isə Bəktaş xan Əfşar Yəzddə möhkəmlənməyə çalışmaqla Abbas Mirzə cəbhəsinə keçməyi qərara aldı. Bunun təsdiqi kimi, o, Məşhədə Mürşüdqulu xanın yanına öz adamlarını göndərdi və Abbas Mirzəyə sədaqətli olmaqla onun yolunda mübarizə aparmağa hazır olduğunu bildirdi.

Bəktaş xanın bu qərarından sonra İsfahan ətrafında olan əfşar və ərəşli tayfasının üzvləri də Abbas Mirzə cəbhəsinə qoşulmaq qərarına gəldilər (104).

Abbas Mirzə cəbhəsinə qoşulanlardan biri də Fars hakimi Mehdiqulu xan oldu. O da qızılbaş çəkişmələri nəticəsində bu vəzifəyə sahib olmuşdu. Həmzə Mirzənin qətlindən sonra o da Abbas Mirzənin yanına öz adamlarını göndərdi və ona öz sədaqətini bildirdi. Ancaq Mehdiqulu xan şah sarayı ilə də əlaqəni kəsmədi və Şirazda xütbələrin Şah Məhəmməd Xudabəndənin adına oxunması davam etdi (105).

Qızılbaş çəkişmələri nəticəsində mərkəzi hakimiyyətdən üz döndərərək Abbas Mirzə cəbhəsinə qoşulanlardan biri də Həmədan hakimi Pirqeyb xan idi. O, Həmədan hakimi vəzifəsindən ona müxalif olan qızılbaş əmirlərinin təhriki ilə səltənət vəliəhdi Əbu Talib Mirzənin qərarı ilə uzaqlaşdırılmışdı. Pirqeyb xan öz mövqelərinin bərpa edilməsinə çalışsa da, buna nail ola bilmədi və onda o da mərkəzi hakimiyyətdən uzaqlaşaraq Abbas Mirzəyə sığınmağı daha məqsədəuyğun hesab etdi (106).

Qızılbaş əmirləri arasında ixtilafların kəskinləşməsi və nəticədə də mərkəzi hakimiyyətdən yadlaşmanın güclənməsi Əbu Talib Mirzənin vəliəhd təyin edilməsindən sonra səltənət daxilində adi hal almışdı. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərində bu vəziyyət müxtəsər olaraq belə xarakterizə olunmuşdur: “Xülasə, Azərbaycan, İraq, Fars, Kirman, Kuh-Giluyə və Xuzistan əhalisinin işləri nizamdan düşdü, qoşunların istila etdiyi yerlərin rəiyyəti olduqca pis vəziyyətə qaldı. Əsgərlər çobansız sürü kimi dağılışmağa başladılar. Hamı qeyb aləmindən kömək intizarında idi. Belə bir halda İlahinin inayət nəsimi əsməyə başladı. O ilin sonlarında əlahəzrət zilləllah şahın cahangirlik ordusunun təntənəsi İraq məmləkətlərində səslənməyə başladı, İran mülkünün sakinləri üzərinə mərhəmət (atefət) kölgəsi düşdü və nizamsızlıq azalmağa başladı. Şahın zavalsız iqbalının köməyi ilə hadisələrin təsirindən öz paklıq və səliqə-sahmanını itirən İran mülkünün hər tərəfi az vaxtda təravətləndi və İrəm gülzarına döndü” (107).

Həmzə Mirzənin qətlindən sonra səltənət daxilində baş verən parçalanmaların və itaətsizliklərin qarşısını almaq üçün Əbu Talib Mirzənin lazımi təcrübəsi yox idi. Onun ətrafına toplaşmış olan əmirlər, habelə şah sarayının əmir və əyanlar isə daha çox fərdi maraqlarını duşunürdülər. Ona görə də onlar səltənət daxilində vəziyyətin sabitləşdirilməsi üçün ciddi narahatçılıq keçirmirdilər. Bu əmir və əyanlar belə düşünürdülər ki, harada itaətsizlik halının baş verməsindən asılı olmayaraq, onlar səltənət üçün ciddi təhlükə törədə bilməyəcəkdir. Yəni səltənət qoşunlarının gücü ilə yerlərdə baş verən itaətsizlik halını aradan qaldırmaq mümkün olacaqdır. İlk vaxtlar hətta Abbas Mirzənin ətrafına toplanan qüvvələr də səltənət üçün təhlükə yarada biləcək bir güc kimi qəbul edilmirdi. 1587-ci ilin Novruz bayramı günlərində İsfahandan, Kaşandan, Yəzddən, Kermandan, Şirazdan itaətsizlik və parçalanmalar haqqında həyəcanlı xəbərlər alınanda şah sarayında vəziyyətin ciddiliyi nəzərə alınmağa başladı. Artıq gizli deyildi ki, səltənət daxilində vəziyyət heç də ürəkaçan deyildir və bu vəziyyətin aradan qaldırılması üçün qətiyyətli tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Amma şah sarayına qarşı itaətsizlik halları elə kütləvi bir hal almışdı ki, Əbu-Talib Mirzə və onun ətrafı bu prosesin qarşısını almağa qadir olmadı.

Belə bir vəziyyətdə Abbas Mirzənin ətrafında kifayət qədər güc sahibi olan əmirlər və əyanlar toplaşmışdılar. Yəni əslində, Məşhəddə ikinci bir hakimiyyət formalaşmaqda idi. Abbas Mirzəyə sədaqətini bildirən əmir və əyanlar da səltənət daxilində baş verənləri nəzarət altında saxlayırdılar. Bu əmir və əyanlar yalnız baş verənləri müşahidə etmirdilər. Eyni zamanda vaxt keçdikcə səltənəti artıq idarə etmək gücündə olmayan mərkəzi hakimiyyətə qarşı fəal mövqe tutulmasını istəyirdilər. Bu zaman Məşhəd hakimi olan Mürşüdqulu xan şah sarayından narazı olan vilayət hakimlərinin Xorasana axışdığını görəndə qərara gəldi ki, Qəzvinə, şah sarayına öz nümayəndəsini göndərsin, onun vasitəsilə şah sarayında və səltənət daxilində nələrin baş verməsi haqqında ətraflı məlumat əldə etsin və öz işini də şah sarayının məsləhətləri əsasında

qursun. Bu məqsədlə Aşur ağa adlı bir nəfər şah sarayına göndərildi. Aşur ağa həm Abbas Mirzənin, həm də Mürşüdqulu xanın məktubunu çatdırmalı idi. Abbas Mirzə bu məktubunda Həmzə Mirzənin qətlə yetirilməsi ilə bağlı öz hüznünü atasına çatdırırdı. Mürşüdqulu xan həm də saray əyanlarına bir məktub yazmışdı. Həmin məktubun məzmunu belə idi: "Bir neçə ildir ki, fələyin muradı və fəsad əhlinin fitnəkarlığı ilə İraq və Xorasanın əzəmətli əmirləri arasında vəhşətli hadisələr baş vermiş, cürbəcür müxalifət vaqe olmuşdur ki, bunlardan böyük fəlakətlər törənmişdir. Qızılbaşlar arasında ittifaqın olmaması və əmirlərlə tayfa ağsaqqallarının nifaqı nəticəsində müxtəlif tayfalar məmləkətlərə öz tarac əllərini uzatmış və səltənətdə tam qarma-qarışıqlıq yaranmışdır. Rəhmətlik şahzadənin başına dəhşətli hadisə gəlmişdirsə də, hal-hazırda əlahəzrət şahzadə (yəni Abbas Mirzə - red.) müqəddəs Məşhəddədir və İsgəndər şanlı nəvvabın böyük oğludur. O, artıq özünün inkişaf mərtəbəsinə çatmışdır və ondan cahangirlik əsəri görünməkdədir. Həzrət dövlət başçılarından təvəqqemiz budur ki, bu gündən sonra müxalifət büsatını dağıdaq ki, hamımızın boynu bir köynəyin yaxasından boylansın. Biz gərək bir-birimizlə ittifaqa girib səltənət və şahlıq işlərində, düşmənlərin dəf olunmasında və məmləkət işlərinin nizam - intizamında dövlətin və bir-birimizin rəyi və məsləhəti ilə hərəkət edək, qızılbaşlar arasındakı iki tirəliyi aradan qaldıraq" (108).

Mürşüdqulu xan ətrafında müəyyən güc formalaşmasına baxmayaraq, hələ də mərkəzi hakimiyyətdən birdəfəlik üz döndərməmişdi. Əksinə, o, səltənət daxilində parçalanmaların əksinə idi və bunun fəlakətə gətirib çıxara biləcəyini Qəzvinə toplaşmış əmir və əyanların da nəzərinə çatdırırdı. Mürşüdqulu xan bu vəziyyətdən çıxmağın ən yaxşı yolunu Abbas Mirzənin ətrafında birləşməkdə və hamının da bir mövqedən çıxış etməsində görürdü. Bu zaman o, Şah Məhəmməd Xudabəndənin də şahlıqda qalmasının tərəfdarı idi. Mürşüdqulu xan bütün əmir və əyanları birləşməyə, onlar arasında mövcud olan ikitirəliyi aradan qaldırmağa çağırırdı.

Amma Mürşüdqulu xanın elçisinin gəlişi Qəzvində müəyyən həyəcanla qarşılandı. Əvvəlcə onu Qəzvin darvazaları qarşısında dayandırdılar, onun nə məqsədlə gəlməsini soruşdular. Gəlişinin məqsədi aydın olanda onun şəhərə buraxılmasına icazə verildi. Sonra isə onun gətirdiyi təkliflərə qarşı bir etinasızlıq göstərildi. Çünki Qəzvin xanları və səltənət mənsubları Mürşüdqulu xana qarşı etimadsızlıqla yanaşırdılar. Xüsusilə, Əliqulu xan Fəthoğlu Mürşüdqulu xanın təklifinə heç bir rəğbət göstərmədi. Əliqulu xan Fəthoğlu son zamanlar, xüsusilə Əbu Talib Mirzənin vəliəhd seçilməsindən sonra səltənət idarəçiliyində daha geniş səlahiyyətlər əldə etmişdi. O, hətta səltənətin bütün idarəçiliyini öz əlində cəmləşdirə bilmişdi. Abbas Mirzənin Qəzvinə gəlməsindən sonra nələrin baş verəcəyini bilməyən Əliqulu xan əlinə cəmləşdirdiyi səlahiyyətləri heç kimlə bölüşdürmək istəmirdi. Əliqulu onu da yaxşı bilirdi ki, Mürşüdqulu xanla əməkdaşlıq etməsi mümkün deyil. Ona görə də məktubda yazılanları Əliqulu xan istehza ilə qarşıladı, irəli sürülən təkliflərdən imtina etməklə Mürşüdqulu xana belə bir cavab yazdı: “İsgəndər şanlı nəvvab öz əziz oğlu Sultan Həmzə Mirzəni özünün vəliəhdi və qayimməqamı etmişdi. O, türkman və təkəlilər arasında baş verən hərbə yollanarkən belə vəsiyyət etmişdi ki, əgər onun başına həmin səfərdə bir hadisə gələrsə, qoy onun canişini Əbu Talib Mirzə olsun. Bir halda ki, qızılbaş tayfaları Sultan Həmzə Mirzənin qərarını bilirlər, buna görə də onlar adlı-sanlı şahzadə Əbu Talib Mirzənin xidmətində qalıb, qeyri bir əmrə razı olmazlar."

Onlar İraq və Xorasan əmirləri arasında fitnə-fəsada səbəb olmuş Mürşüdqulu xanı töhmətləndirib, bürün əmirlər və oymaq ağsaqqalları tərəfindən bu xüsusda məktub yazdılar, hər təbəqədən olan əmirlər və ağsaqqallar da məktuba öz möhürlərini vuraraq Aşur ağanı etimadsızlıqla yola saldılar. Amma Əliqulu xan, İsmayılqulu xan, Məhəmmədi Sarı Solaq və vəzir Mirzə Məhəmməddən başqa qeyri əmirlər bundan razı deyildilər və [məktuba] öz möhürlərini basmışdılar. Hətta onların bir hissəsi Mürşidqulu xanın məktubuna görə öz fikirlərini şifahi bildirmişdilər” (109).

Əliqulu xan Fəthoğlu və Əbu Talib Mirzə ətrafına toplaşmış olan əmirlər Aşur ağanın yanında Mürşüdqulu xan haqqında kobud sözlər danışmağa başladılar. Onlar bildirdilər ki, Mürşüdqulu xan ixtilafla məşğul olur və Xorasan əmirləri ilə mərkəzi hakimiyyət ətrafında toplaşmış əmirlər arasında narazılıqlar yaradır. Ona görə Mürşüdqulu xana yazılan məktub da onun təkliflərinə qarşı yazılmış bir məktub oldu. Məktubun oxunması zamanı orada iştirak edən əmirlər və əyanlar həmin məktubu imzalamaqla bərabər, həm də öz möhürlərini vurdular. Amma Qəzvin sarayı ətrafında olan əmir və əyanların heç də hamısı Mürşüdqulu xana narazılıqlar dolu məktub göndərilməsi ilə razı deyildilər. Onlardan bəziləri hətta gizli şəkildə Aşur ağa ilə görüşərək Mürşüdqulu xana qarşı kinli münasibət bəsləmədiklərini bildirdilər.

Aşur ağanı Xorasana yola saldıqdan sonra saray mənsubları mərkəzi hakimiyyətə itaətsizlik göstərən hakimlərin cəzalandırılması üçün daha qətiyyətli addımlar atılması qərarına gəldilər. Bu məqsədlə şahın rəhbərliyi altında bəzi vilayətlərə qoşun göndərilməsi barəsində fikirlər ortaya qoyuldu. Belə məsləhət bilindi ki, ilkin olaraq Kaşan, Yəzd və İsfahana qoşun göndərilsin və həmin vilayətlərdə mərkəzi hakimiyyət bərqərar edilsin. Şah qoşunları əvvəlcə Kaşana göndərildi və bu qala mühasirəyə alındı. Bu qala mühasirədə saxlanılanda İsfahanda mərkəzi hakimiyyətə itaət etməyən qüvvələrin kifayət qədər fəallaşması haqqında məlumat alındı. Kaşanın mühasirəsi uzandığı üçün qərara alındı ki, İsfahan ətrafına da qoşun göndərilsin (110).

Şahın rəhbərliyi altında olan qoşun dəstəsi İsfahan ətrafına gəldi və tezliklə bu şəhər üzərində mərkəzi hakimiyyəti bərqərar etmək mümkün oldu. Elə bu vaxtlarda səltənətin iki nüfuzlu əyanı olan Əliqulu xanla İsmayılqulu xan arasında ixtilaf yarandı. Bu ixtilaf şahın möhürdarı vəzifəsinə kimin təyin edilməsi üstündə yarandı və sonradan qızılbaş əmirləri arasında çox ciddi parçalanmaya gətirib çıxardı. Vəziyyət elə bir hal aldı ki, şahdan, onun vəliəhdindən çəkinmədən qızılbaş əmirləri arasında düşmənçilik artmaqda davam etdi. Hətta tərəflər arasında silahlı qarşıdurma

təhlükəsi də meydana gəldi. Adları çəkilən xanlar arasında olan düşmənçilik onların mənsub olduğu tayfalar arasında da qızışdı. Elə bu vaxtlarda özbək xanı Abdulla xanın Xorasanı işğal etmək məqsədilə Herat üzərinə hücum etmələri haqqında məlumat alındı. Eyni zamanda belə bir məlumat da alındı ki, Mürşüdqulu xan Abbas Mirzə ilə birlikdə Məşhədi tərk edib Qəzvinə tərəf istiqamət götürmüşdür. Amma bəlli deyildi ki, Mürşüdqulu xanın Abbas Mirzə ilə birlikdə Qəzvin istiqamətində irəliləməsi özbək qoşunlarının təhlükəsindən qorunmaq istəyi ilə bağlı idi, yoxsa Qəzvində hakimiyyəti ələ keçirmək niyyəti ilə. İstənilən halda bu həyəcanlı xəbərləri eşitdikdən sonra Əliqulu xanla İsmayılqulu xan barışmaq qərarına gəldilər (111).

Bu xanlar barışsalar da, onlar arasında bir-birinə şübhəli münasibət qalmaqda idi. Çünki onlar arasında etimad yaranmadı və ona görə də onlar vahid mövqe ətrafında səfərbər ola bilmədilər. Abbas Mirzənin Qəzvinə doğru gəlməsi xəbəri qızılbaş əmirlərində daha çox onun hakimiyyət iddiası ilə bağlı olduğu qənaəti yaratmışdı. Barışıq əldə edildikdən sonra Əliqulu xan belə bir fikrə gəldi ki, tabeliyində olan qoşun dəstəsi ilə Reyə, oradan da Xar və Semnana yollansın və bu bölgələrin əhalisinə Abbas Mirzənin qarşılanması üçün yollara çıxmalarını qadağan etsin. Onun təklifinə görə, bu zaman Şah Məhəmməd Xudabəndə də Əbu Talib Mirzə ilə birgə İsfahan ətrafından Qəzvinə yola düşməli və orada öz yerlərində olmalı idilər. İsmayılqulu xan da onları müşayiət etməklə Qəzvinə yollanmalı idi. Əliqulu xanın tayfadaşları bu fikirlə razılaşmadılar. Onların gümanınca, şahı və onun vəliəhdini İsmayılqulu xana tapşırmaq Əliqulu xanın tərəfdarları üçün baha başa gələ bilərdi. Yəni İsmayılqulu xan şahı və onun vəliəhdini bütünlüklə öz nəzarəti altına ala bilərdi. Belə olanda Əliqulu xan və onun tərəfdarları öz yerlərini itirmək təhlükəsi ilə qarşılaşa bilərdilər. Ona görə də, Əliqulu xan da şahın yanında qalmalı oldu (112).

Eyni zamanda ondan da ehtiyat edilirdi ki, Mürşüdqulu xan öz yolunu çevirib İsfahan üzərinə gələ və şah qoşunlarına hücum edə

bilər. Məlum idi ki, Yəzddən, Kermandan, Şirazdan Mürşüdqulu xanın yanına xeyli adam toplaşmışdı və onlar Abbas Mirzənin hakimiyyətinin bərqərar olmasını istəyirdilər. Mürşüdqulu xan İsfahan ətrafında olan şah qoşunlarını məğlub etməklə heç Qəzvinə getmədən də hakimiyyətin Abbas Mirzənin xeyrinə ələ keçməsinə müvəffəq ola bilərdi. Belə olan təqdirdə həm Əliqulu xanın, həm də İsmayılqulu xanın və onların ətrafındakıların vəziyyəti xeyli pisləşə bilərdi. Ona görə tərəfdarları Əliqulu xanın İsfahanda qalmasını istədilər. Amma sonradan məlum oldu ki, qızılbaş əmirlərinin və eləcə də Şah Məhəmməd Xudabəndənin İsfahanda qalmasına ehtiyac yoxdur. Çünki Abbas Mirzəni müşayiət edən Mürşüdqulu xan qoşun dəstəsi ilə birlikdə artıq Damğana çatmışdı. Yəni onların Qəzvinə doğru irəlilədikləri şübhə doğurmurdu. Belə olduqda Şah Məhəmməd Xudabəndə İsfahanı tərk edib Qəzvinə doğru istiqamət götürdülər (113).

### 6. Abbas Mirzənin Səfəvi şahı elan olunması

Mürşüdqulu xanın Abbas Mirzə ilə birlikdə Məşhəddən Qəzvinə doğru hərəkətə başlamasına bir səbəb də Abdulla xanın rəhbərliyi altında özbək qoşunlarının Herat üzərinə hücumu oldu. Abdulla xanın öz qoşunları ilə Məşhədə tərəf istiqamət götürəcəyi halda Mürşüdqulu xanın müqavimət göstərmək imkanı yox idi və ona görə də Məşhədin tərk edilməsi qərarına gəldi.

Mürşüdqulu xan hansı yolla Qəzvinə doğru irəliləmək üzərində də düşünməli oldu. Onun Damğandan keçməklə Qəzvinə doğru hərəkət etmək seçimi var idi. Damğan hakimi Murtəzaqulu xan yuxarıda qeyd edildiyi kimi, şah sarayı ilə narazılıq üzündən Mürşüdqulu xanın yanına öz adamlarını göndərdi, Abbas Mirzəyə sədaqətini bildirməklə onunla olduğunu bəyan etdi. İlk baxışdan Mürşüdqulu xanın Abbas Mirzəyə öz sədaqətini bildirmiş Murtəzaqulu xanın hakim olduğu Damğandan keçməklə Qəzvinə üz tutmaq imkanı var idi. Amma Mürşüdqulu xan heç də Murtəzaqulu xana və onun mənsub olduğu türkman tayfasına etibar etmir-

di. O ehtiyat edirdi ki, türkmanlar Abbas Mirzəni onun əlindən ala bilərlər. Bu isə Mürşüdqulu xanın da bütün planlarının alt-üst olması demək idi. Məşhəddə qalmaq da təhlükəli olduğundan Mürşüdqulu xan Təbəs-Yəzd yolu ilə Qəzvinə yollanmaq seçimini etdi. Bu yol onun üçün daha təhlükəsiz göründü və yol ətrafında yerləşən Yəzd, Kerman və Şiraz hakimləri və əhalisi Abbas Mirzəyə öz sədaqətlərini bəyan etmişdilər. Mürşüdqulu xan ümid edirdi ki, Yəzd yolu ilə irəliləyən zaman həmin vilayətlərin hakimləri və qoşunları da ona qoşulacaq və bu da Qəzvinə yollanan Abbas Mirzə karvanının daha da güclənməsinə yol açacaqdır. Bu qərara gələndən sonra Mürşüdqulu xan qardaşı İbrahim xanı Məşhəd hakimi öz yerində saxladı. O, Məşhəd qoşunlarını, habelə onunla həmfikir olan bir sıra hakimlərin qoşun dəstələri ilə birlikdə şəhəri tərk etdi və Herata yollanmaq görüntüsü ilə əslində Qəzvin istiqamətinə üz tutdu (114).

Özbək qoşunlarının Herat ətrafına gəlməsinin Abbas Mirzə ilə də bir bağlılığı var idi. Tərşiz ətrafındakı döyüşdə Abbas Mirzəni itirməsi Herat hakimi və Abbas Mirzənin o zamankı lələsi Əliqulu xan Şamlıya ağır təsir göstərmişdi. Çünki Əliqulu xan özünün bütün gələcək planlarını Abbas Mirzənin üzərində qurmuşdu və bu plan böyük iddialarla bağlı idi. Abbas Mirzənin Mürşüdqulu xanın əlinə düşməsi onun nüfuzunu və hökmünü xeyli azaltmışdı və kifayət qədər iddialı bir əmir olan Əliqulu xan bu vəziyyətlə heç də barışmaq istəmirdi. Onun Məşhəd üzərinə yürüş etmək və Abbas Mirzəni geri qaytarmaq üçün kifayət qədər gücü də yox idi. Bu məsələni öz xeyrinə həll etmək üçün Əliqulu xan şah sarayına müraciət edə bilmirdi. Şah sarayı bu məsələni yalnız öz maraqları çərçivəsində həll edəcəyi şübhəsiz idi. Ona görə Əliqulu xan özünə başqa yerdə kömək axtarmağa başladı. Bu məqsədlə o, Qəndəhar mirzələrinə və Buxaraya, Abdulla xana məktublar göndərdi və onlardan kömək istədi (115). Əliqulu xana gizli deyildi ki, səltənətin bəzi hakimləri Məşhədə gələrək Abbas Mirzəyə öz sədaqətlərini bəyan edirdilər. Bu hakimlərin ona qoşulması Mürşüdqulu xanın gücünü də artırmaqda idi. Mürşüdqulu xanın ətrafında

daha böyük gücün formalaşmasından əvvəl Əliqulu xan Abbas Mirzənin onun əlindən alınması məsələsini həll etməyə çalışırdı.

Abdulla xan Herat hakimindən kömək üçün aldığı məktubdan son dərəcə xoşhal oldu. Çünki o uzun müddət idi ki, Herat kimi böyük və zəngin bir şəhərin ələ keçirilməsi niyyəti ilə yaşayırdı. Abdulla xan dərhal da Herat ətrafına yollanmaq hazırlıqlarına başladı. Amma bu hazırlıqlar Əliqulu xana kömək göstərilməsi üçün deyil, Heratın işğal altına alınması üçün başlanan hazırlıqlar idi. 1587-ci ildə Abdulla xan çoxsaylı özbək qoşunları ilə Xorasan vilayəti hüdudlarına daxil oldu. Herata doğru irəliləməyə başlamazdan əvvəl özbək xanı öz elçisi vasitəsilə Əliqulu xana məktub göndərdi. Həmin məktubun məzmunu belə idi: "Xan bir neçə vaxt bundan əvvəl adam yollayıb onunla ülfət və dostluq etmiş, öz dostluq və nökərlik təklifini bildirmişdi. Budur, indi Xorasan mülkünü tutmaqdan ötrü [bizim] ali məiyyət həmin tərəfə gəlməkdədir. Xan əgər öz sözünə sadiqdirsə, yubanmadan ali orduya birləşib görüş səadətinə yetişsin, həmin mülkdə xütbə və sikkəni öz adı və xanlıq ləqəbi ilə zinətləndirilsin ki, bizim lütfkarlığımıza yetişmiş olsun və biz o vilayətin idarə olunmasını fərmanla ona tapşıraq. Əgər o həmin vilayəti [bizim] ali divana verərsə, biz Mavərənnəhr, Türküstan və Bədəxşan məmləkətlərindəki ürəyi istəyən hər hansı bir yeri ona verərik. Yox, əgər o, öz sözünə sadiq olub bizə mülazimlik etmək istəməzsə, artıq gecdir. Biz o tərəfə yürüşü qərarlaşdırmışıq və məqsədə yetmədən geri qayıtmaq, səltənət namusuna münasib olan bir əməl deyildir. Əgər bu təklifə əksdirsə, qoy Herat şəhərini boşaldıb qızılbaşlara tərəf getsin" (116).

Abdulla xanın bu məktubu alınandan sonra Əliqulu xan ona müraciət etməsinə görə çox peşman oldu. Onu gözləyən təhlükədən xilas olmaq üçün Əliqulu xan nəhayət ki, Məşhədə müraciət etmək qərarına da gəldi. Bu zaman Mürşüdqulu xan Məşhədi tərk etmiş və Qəzvinə doğru hərəkətə başlamışdı. Məşhəddə onun qardaşı İbrahim xan qalmışdı. İbrahim xan isə özü Məşhədi Abdulla xan təhlükəsindən qorumaq yolları axtarırdı. Ona görə Əliqulu xan Məşhəddən də kömək ala bilmədi və Heratı öz gücü ilə

müdafiə etmək məcburiyyətində qaldı. 1587-ci ilin iyun ayında Herat şəhəri özbək qoşunları tərəfindən mühasirəyə alındı. Bu mühasirəyə Abdulla xanın oğlu Əbdül Mömin rəhbərlik edirdi (117). Herat kifayət qədər müdafiə imkanlarına malik olduğu üçün onun mühasirəsi də xeyli uzanmalı oldu.

Bu zaman Mürşüdqulu xan Abbas Mirzə ilə birlikdə Qəzvinə doğru irəliləməkdə idi. Tərşiz adlı məntəqəyə yetişəndə eşitdiyi bəzi xəbərlərə görə Mürşüdqulu xan öz yolunu dəyişməyi qərara aldı. Həmin xəbər ondan ibarət idi ki, Damğan hakimi olan Murtəzaqulu xan Pornak dünyasını dəyişmişdi. Murtəzaqulu xanın dünyasını dəyişməsi onun yarada biləcəyi təhlükəni də aradan qaldırmışdı. Ona görə Mürşüdqulu xan ilkin seçiminə qayıtdı və Damğan-Semnan yolu ilə Qəzvinə doğru hərəkət etməyi daha münasib və məqsədəuyğun saydı. Mürşüdqulu xanın eşitdiyi başqa bir xəbər isə ondan ibarət idi ki, Şah Məhəmməd Xudabəndə vəliəhd Əbu Talib Mirzə və şah qoşunları ilə birlikdə Qəzvini tərk edib İsfahana yollanmışdır. Yəni Qəzvin şəhəri nəzarətsiz qalmışdı və bu şəhəri asanlıqla nəzarət altına almaq olardı. Həm də yuxarıda qeyd edildiyi kimi, Qəzvindən Abbas Mirzəyə meylli olan bəzi əmirlər də Aşur ağa vasitəsilə Mürşüdqulu xana öz təkliflərini göndərmişdilər ki, tezliklə şah sarayına gəlməyə tələssin. Həmin əmirlər bildirmişdilər ki, Mürşüdqulu xan və onun ətrafındakılar İraqa gəlməyə tələssinlər, tez gəlsinlər ki, görüləsi işlər Allahın köməyi ilə istənilən tərzdə həyata keçməkdədir (118).

Damğan yolu ilə Qəzvinə doğru hərəkət etmək fikri Mürşüdqulu xanın dəstəsində olan bütün əmir və əyanların razılığı ilə qarşılandı. Bu yol Qəzvinə həm yaxın idi, həm də hərəkət etmək üçün daha münasib idi. Ona görə də Mürşüdqulu xan və onun dəstəsi yenidən geriyə, Məşhədə qayıtmalı oldular. Fürsətdən istifadə etməklə Mürşüdqulu xan bir neçə gün Məşhəddə qaldı, özbək qoşunlarının təhlükəsindən daha yaxşı qorunmaq üçün Məşhəd qalasının möhkəmləndirilməsi üçün əlavə işlər görülməsinə rəhbərlik etdi. Bu məqsədlə qala divarları bərpa edildi, yeni bürclər tikildi. Qala divarları elə bir vəziyyətə gətirildi ki, Mürşüdqulu xan şəhə-

rin özbək qoşunlarının təhlükəsindən daha etibarlı şəkildə qoruna biləcəyinə arxayın oldu. Yalnız bundan sonra Mürşüdqulu xan Məşhədi tərk etməyi mümkün saydı. Onu və Abbas Mirzəni Qəzvinə doğru hərəkət zamanı 500-600 nəfərlik bir qoşun dəstəsi müşayiət edirdi. İndi əsas məsələ tezliklə Qəzvinə yetişmək idi. Ona görə də Mürşüdqulu xan yolda az dayanmağa çalışırdı. Bu dəstə Damğana çatanda bu şəhərin dünyasını dəyişmiş hakimi Murtəzaqulu xanın qardaşları, yaxınları və türkman əyanları Şah Abbasa öz itaətlərini bildirdilər və onun dəstəsinə qoşuldular (119).

Damğanda olarkən Mürşüdqulu xan eyni zamanda Semnanda məskunlaşmış zülqədərlilərin yanına adam göndərdi, onları da ittifaqa dəvət etdi. Bu zaman Semnan hakimi zülqədər tayfasından olan Əhməd sultan idi. Əhməd sultan bu şəhərə Əliqulu xan Fəthoğulunun icazəsi ilə hakim təyin edilmişdi. Buna baxmayaraq, Əhməd sultan Abbas Mirzə cəbhəsinə keçməyə rəğbətlə qarşıladı. O öz yaxın adamlarını Abbas Mirzənin də hərəkət etdiyi dəstənin qarşılanmasına göndərdi, həmin dəstə yaxınlaşanda Semnan qalasının darvazalarını Abbas Mirzənin və onu müşayiət edən dəstənin üzünə açdı, onlara böyük qayğı və xidmət göstərdi. Mürşüdqulu xan elə oradan Qəzvinə adam göndərdi, bu şəhərin müdafiəsi tapşırılmış Qorxmaz xan Şamlını, şəhər əhalisini, əyan və əmirlərini Abbas Mirzəni qarşılamağa dəvət etdi. Bu təklifi alandan sonra Qorxmaz xan Şamlı Qəzvində qalmış əmir və əyanları, İsmayılqulu xanın qardaşını, şamlı tayfasının ağalarını, tayfa böyüklərini, şəhər əhalisinin nümayəndələrini yanına topladı, Abbas Mirzəni və onu müşayiət edən dəstəni qarşılayıb-qarşılamamaq barəsində onlarla məsləhətləşmə apardı. İsmayılqulu xanın qardaşı və bəzi əmirlər Abbas Mirzənin qarşılanmasına razı olmadılar. Onlar elə də çoxluq deyildilər. Şəhər əhalisi və qoşun əhli isə Abbas Mirzənin gəlişindən çox sevindilər və hətta bu sevincin ifadəsi kimi uca səslə şüarlar söyləməyə başladılar. “Xəld-bərin” müəllifinin yazdığına görə isə, İsmayılqulu xanın qardaşından başqa qalan bütün əmir və əyanlar, qoşun əhli və sakinlər Abbas Mirzənin gəlişinə sevindilər və onu qarşılamağa hazırlaşdılar (120).

Mürşüdqulu xan hələ Qəzvinə gəlib çatmazdan əvvəl Əliqulu xan Fəthoğluna da məktub göndərdi və ona Qəzvinə doğru hərəkət etmələrinin səbəbini açıqladı. Mürşüdqulu xan bildirdi ki, onun məqsədi qızılbaş əmirləri arasındakı nifaqa son qoymaq, bu əmirlər və tayfalar arasında ittifaqa və birliyə nail olmaqdır. Mürşüdqulu xanın yazdığına görə, bu birliyin yaranması ilə məmləkət maraqlarını da daha yaxşı qorumaq olardı. Belə bir birliyin yaradılmasının yolunu isə Mürşüdqulu xan səltənət daxilində Abbas Mirzənin şah elan edilməsində görürdü. Bu məsələdə o, şəxsi maraqlarını izləmədiyini əsaslandırmaq üçün Mürşüdqulu xan bildirirdi ki, Abbas Mirzənin taxta çıxarılmasından sonra o, Məşhədə qayıdacaq və bu şəhərin hakimliyi ilə kifayətlənəcəkdir. Bu məktubu göndərməklə Mürşüdqulu xan Əliqulu xanın və onun ətrafının Abbas Mirzənin taxta çıxarılmasına müxalifliyini zəiflətməyə çalışırdı. Əliqulu xan isə Mürşüdquluxanın yazdıqlarını heç də məmnunluqla qarşılamadı və bəlli idi ki, Abbas Mirzənin taxta çıxması onun maraqlarına cavab vermirdi. Abbas Mirzənin şah elan edilməsi ilə Əliqulu xan nəinki bütün səlahiyyətlərini itirə bilərdi. Hətta onun həyatı da təhlükə altına düşə bilərdi. Bu təhlükənin qarşısını almaq və Abbas Mirzənin Qəzvinə doğru hərəkətini dayandırmaq üçün Əliqulu xan şah qoşunlarının bir dəstəsi ilə Damğan yoluna doğru hərəkət etmək istəyirdi. Lakin yuxarıda qeyd edildiyi kimi, tayfadaşları onun bu qərarı ilə razılaşmadılar və Şah Məhəmməd Xudabəndənin tək qalmasını istəmədilər. Tezliklə Abbas Mirzə karvanının artıq Damğanı adlaması haqqında da xəbər alındı. Belə olanda Əliqulu xan da, İsmayılqulu xan da Qəzvinə qayıtmaq barədə qərara gəldilər. Onlar vəziyyəti Şah Məhəmməd Xudabəndənin nəzərinə çatdırdılar və o da qoşunla Qəzvinə dönməyə razı oldu (121).

Abbas Mirzənin karvanı şah qoşunlarından daha tez Qəzvinə yetişdi. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi İsgəndər bəy Münşinin yazdığına görə, onun gəlişi Qəzvin əhalisi tərəfindən çox böyük sevinclə qarşılandı. Yəni şəhərdə Abbas Mirzənin gəlişinə müxalif ola biləcək kimsə yox idi. İnsanlar vəzifəsin-

dən asılı olmayaraq küçələrə çıxaraq Abbas Mirzəyə olan ehtiramını bildirdilər. Yaxın ətrafda yalnız Rey hakimi Hüseynqulu sultan Fəthoğlu Abbas Mirzənin Qəzvinə gəlməsini xoşluqla qarşılamadı. Hüseynqulu sultan Əliqulu xanın qardaşı idi və o şübhə etmirdi ki, Mürşüdqulu xanın Əliqulu xana olan münasibəti onun üçün də yaxşı nəticələnməyəcəkdir. Ona görə də Hüseynqulu sultan şəhəri tərk edib Ələmut qalasına yollandı. Bu qala onun tayfadaşları tərəfindən qorunurdu və o özünü bu qalada daha təhlükəsiz hiss edə bilərdi. Abbas Mirzə isə hər hansı bir müqavimətlə rastlaşmadan Qəzvinə daxil oldu və burada Şah Təhmasibin qurduğu dövlətxanada yerləşdi. O zaman Qəzvin şəhərinin hakimliyini edən Qorxmaz xan Abbas Mirzənin dəstəsinin şəhərə daxil olmasına heç bir müqavimət göstərmədi. "Şahzadə xoşbəxt bir saatda şəhərə daxil olaraq öz böyük babasının mübarək dövlətxanasında səadətlə nüzul etdi, səltənət və padşahlıq paytaxtı şahənşahlıq taxtının (məsnəd) işığından və [Şah Abbasın] səadətli qədəmlərinin parıltısından rəngarəng (buqələmun) fələyədək yüksəldi. ... Xülasə, elə ki, hümayun paytaxt Xosrov əzəmətli və yüksək məqamlı həzrətin şərafətli qədəmi ilə şərəfləndi, Mürşüdqulu xan ali divan vəkalətini heç bir etiraz görmədən özünə götürdü və hümayun dövlətin hər bir tərəfindən qızılbaş tayfalarının əmir və ağsaqqalları cahana pənah verən dərgaha axışmağa başladılar" (122).

Bu hadisə 1588-ci ilin oktyabr ayında baş vermişdi Yuxarıdakı cümlələrdə "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşi Qəzvinə yetişən kimi Abbas Mirzənin şahlıq taxtına çıxdığını, yəni Səfəvi şahı elan olunduğunu və Mürşüdqulu xanın da səltənət vəkili vəzifəsini öz üzərinə götürdüyünü qeyd edir. Amma tədqiqatçılar bu fikri birmənalı şəkildə qəbul etmirlər. Çünki Abbas Mirzənin şah elan olunması üçün lazım olan mərasim keçirilməmişdi, Abbas Mirzə şah adlandırıldığı halda səltənətin əsil şahı olan Şah Məhəmməd Xudabəndə öz vəzifəsini icra edirdi və o hələ şahlıqdan əl çəkməmişdi. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşi də sonrakı günlərə aid olan məlumatlarda Şah Məhəmməd Xudabəndəni səltənət

şahı kimi xatırladırdı. Ona görə Abbas Mirzənin şahlıq taxtına nə vaxt sahib olması tarixi haqqında fərqli məlumatlara da rast gəlirik. Əslində, bu məlumatlar arasında fərq elə də böyük deyildir. Bu fərq bir neçə gün olaraq göstərilir. Bununla belə, bu bir neçə gün ərzində Qəzvin şəhərində ciddi proseslər baş verdi və son nəhayətdə Abbas Mirzə şahlıq taxtına sahib oldu.

O da məlumdur ki, Mürşüdqulu xan Abbas Mirzəni səltənət şahı və özünü də səltənət vəkili elan etsə də Şah Məhəmməd Xudabəndənin və vəliəhd Əbu Talib Mirzənin bu hadisəni sakitcə qarşılayacağından heç də arxayın deyildi. Aydın idi ki, səltənət idarəçiliyində yüksək vəzifələrə və səlahiyyətlərə malik olan Əliqulu xanla İsmayılqulu xan da öz nüfuzlarının itirilməsi ilə razılaşmayacaqdılar. Ona görə yaxın günlərdə hadisələrin necə cərəyan edəcəyi onu kifayət qədər narahat edirdi. O, şahın, vəliəhdin və onların ətrafındakı əmir və əyanların geri dönməsini intizarla gözləyirdi. Bu intizar hətta onu məcbur edirdi ki, Qəzvin daxilində ehtiyatla hərəkət etsin, əhali və saray mənsubları arasında qıcıqlandırıcı əməllərə yol verməsin. Mürşüdqulu xan şah dəstəsinin nə vaxt qayıdacağından vaxtında xəbər tutmaq üçün Pirqeyb xan Ustaclını, onun qardaşlarını və bütün türkman əmirlərini İsfahan yolu üstündə olan Pirəsufiyan kəndinə göndərdi. Şah dəstəsi yaxınlaşan kimi onlar dərhal bu barədə Mürşüdqulu xana xəbər verməli idilər (123).

Şah Məhəmməd Xudabəndə, vəliəhd Əbu Talib Mirzə, Əliqulu xan və İsmayılqulu xan Qum şəhərinə çatanda Abbas Mirzənin öz dəstəsi ilə Qəzvinə gəlməsi və onun şah elan edilməsi haqqında məlumat aldılar. Bu məlumat xüsusilə, Əliqulu xan və İsmayılqulu xan tərəfindən sonsuz qəzəblə qarşılandı. Adları çəkilən xanlar Qum hakimi Əliqulu xan Zülqədərin yanına adam göndərib ondan şah dəstəsini qarşılamağı tələb etdilər. Amma Qum hakimi bu tələbi yerinə yetirmədi. Başqa sözlə, Qum hakimi artıq Abbas Mirzənin şahlığını tanımışdı və Şah Məhəmməd Xudabəndəyə artıq itaət göstərmədi. Hətta şahı böyük sayda qoşun dəstəsinin müşayiət etməsi də onu qorxutmadı: “Amma Əliqulu xan, İsmayılqulu

xan və Əbu Talib Mirzə tərəfdarları olan əzəmətli əmirlər İsgəndər şanlı nəvvabın və mirzənin məiyyətində Cərpadqandan keçib darülmöminin olan Quma çatdıqda, əlahəzrət zilləllah şahın hümayun məiyyətinin gəlmə xəbəri onlara çatdı, bərk qorxuya düşərək, Qum hakimi Əliqulu Sultan Zülqədəri çağırmaqdan ötrü adam yolladılar, amma o, gəlməkdən vaz keçib qala qapılarını bağladı, onlara müxalif münasibət bildirdi. Əliqulu xan, Əliqulu Sultanın belə hərəkət edəcəyini təsəvvür etmədiyindən və onu fədəvilərdən biri güman etdiyindən bu məsələni olduqca təəccüblü (estebad) saydı. İsmayılqulu xan və əmirlərlə həzrət Məsumə əleyhanın - ona və əcdadına salavat və salamlar (təhiyyət) olsun – nurlu məzarını ziyarət etmək bəhanəsilə ordudan ayrıldı və Quma gəldi. Əmirlər [Əliqulu Sultanın] yanına dilli-dilavər və etibarlı bir adam yollayıb ona müttəfiqlik etməsini və geri qayıtmasını təklif etdilər. Belə məktub yazdılar: "Biz sənin yanına mehman kimi gəlmişik. Belə olan halda mizbanlıq şərtinə əməl et. Bəzi zəruri söhbətlər vardır ki, gərək səninlə üzbəüz danışaq". O, cavabında belə yazdı: "Qoroğlu tayfası mənim gəlməyimə mane olmuşdur və onların başlarında abbasilik havası vardır. Mənim buna ixtiyarım yoxdur". Əmirlər bu haldan məyus olub müqəddəs rövzəni ziyafətdən sonra orduya qayıtdılar” (124).

Əliqulu xan Fəthoğlu ilə İsmayılqulu xanın təkidləri bir nəticə vermədi və Qum hakimi şəhər darvazasını onların üzərinə açmadı.

“Rövzət üs-səfəviyyə” əsərindəki məlumata görə, Qumdan əvvəl Kaşan hakimi də Şah Məhəmməd Xudabəndə və onun ətrafındakılara qarşı müxalifətçilik etdi. Bu şəhərin hakimi vaxtilə şah hakimiyyətinə qarşı qiyam qaldırmış türkman tayfasının rəhbəri Məhəmməd xan Türkmanın oğlu idi. Adı çəkilən əsərdə verilən məlumata görə, İsfahandan hərəkət edəndə Şah Məhəmməd Xudabəndənin ətrafında 30 min nəfərlik qoşun dəstəsi toplanmışdı. Buna baxmayaraq Kaşan hakimi bu qoşundan çəkinmədi və Şah Məhəmməd Xudabəndəyə itaətdən üz döndərdi (125).

Şahın dəstəsi Qum şəhərinin ətəklərinə gəlib çatana qədər Abbas Mirzə ətrafında toplanan güclərin səltənət daxilində ciddi bir

dəyişikliyə səbəb ola biləcəklərinə Əliqulu xanla İsmayılqulu xan inanmırdılar. Onlar öz təkəbbürlü mövqelərində qalmaqla Mürşüdqulu xanın hərəkətlərinə ciddi bir diqqət də yetirmirdilər. Bu adamlar inana bilmirdilər ki, Qəzvinə gəlib çıxmaqla onlar səltənət daxilində Şah Məhəmməd Xudabəndəyə qarşı geniş bir itaətsizliyə yol aça bilərlər. Amma elə Qum hakiminin onlardan üz döndərməsi, şah ətrafındakı qoşundan qorxamayaraq ona itaətsizlik göstərməsi Əliqulu xanla İsmayılqulu xanı sanki yuxudan ayıltdı və onlar anlamağa başladılar ki, səltənət daxilində hakimiyyət dəyişməkdədir. Elə Qum yaxınlığında şah qoşunlarının da itaətdən çıxaraq dağılışmağa başlaması Əliqulu xanla İsmayılqulu xanda qorxunc bir təəssürat yaratdı. Qəzvin şəhərinə nəzarəti ələ keçirdikdən sonra Mürşüdqulu xan şah qoşunlarının əmirlərinin və döyüşçülərinin ailələrinə tapşırdılar ki, ailə başçıları şah qoşunlarını tərk edib geri qayıtsınlar. Belə bir xəbərdarlıq edildi ki, şah qoşunlarındakı döyüşçülər şaha xidmətdən imtina edib geri qayıtmasalar onda Qəzvində onlara məxsus olan evlər, mülklər talanacaq, ailə üzvləri əsir alınaraq onlara əl uzadılacaqdır. Şah qoşunlarının əmir və döyüşçülərinin əksəriyyətinin ailəsi və mülkü isə Qəzvində idi. Ona görə onlar öz ailələrinin taleyini fikirləşərək şah qoşunlarından ayrılıb Qəzvinə yollandılar. Bir məlumata görə, şah ətrafında olan 30 minlik qoşunlardan cəmi 10 min nəfəri qalmışdı. Qalan qoşun əhli isə şaha xidməti tərk edərək öz evlərinə döndülər. İsmayılqulu xanın qardaşı Mürşüdqulu xana tapşırıq verildi ki, bir qoşun dəstəsi ilə Qəzvinə aparan yolu kəssin və şah qoşunlarından fərarilik edənlər geri qaytarılsın. Onların qayıtmayacağı təqdirdə yanlarındakı var-yoxları əllərindən alınmalı idi. Amma fərarilik yolunu tutanlar var-yoxlarını verməli olsalar da geri dönmədilər və Qəzvinə yollandılar (126).

Şah Məhəmməd Xudabəndənin ətrafında olan əyanlar və əmirlər isə Qəzvinə qayıtmaq istəyən qoşun əhlinin qarşısının alınmasını doğru saymırdılar. Onlar bunu təbii səbəblərlə əlaqələndirirdilər və bununla bağlı öz fikirlərini də açıq söyləyirdilər. Həmin əmir və əyanlar hadisələrin bu nöqtəyə çatmasını qızılbaş əmirləri

və tayfaları arasında ixtilafların kəskinləşməsi ilə bağlayırdılar: "Əzəmətli qorçilərin, xasseye-şərifə mülazimlərinin və başqalarının xanəköçləri Qəzvin darüssəltənəsindədir, əgər bu iki dəstə arasında müxalifət başlansa məsələ qırğına səbəb olacaqdır. Əgər elə olarsa, ehtimal ki, Mürşüdqulu xan və onun adamları bu ordunun xanəköç və alilərinə əl uzadacaqlar. [Adamlar] bu narahatlığı rəf etməkdən ötrü hövsələsizlik edirlər" (127).

Şah Məhəmməd Xudabəndə ətrafında olan əmir və əyanlar eyni zamanda Əliqulu xanla İsmayılqulu xanın arasında olan ixtilafdan da narahat idilər. Bir tərəfdən səltənət daxilində ikihakimiyyətlilik yaranmış, qızılbaş dəstələri Abbas Mirzə ilə Şah Məhəmməd Xudabəndə ətrafında cəbhələşmişdilər. Bundan əlavə Şah Məhəmməd Xudabəndə cəbhəsi özü də iki dəstəyə parçalanmışdı. Əmir və əyanlar da yaxşı bilirdilər ki, Şah Məhəmməd Xudabəndə ətrafında birlik olmadığı halda qüvvələri birləşdirib hakimiyyətin qorunmasını təmin etmək mümkün olmayacaqdır. Səltənət idarəçiliyində və şaha təsir göstərilməsində böyük imkanları olan Əliqulu xanla İsmayılqulu xan arasında fikir və əməl birliyi yox idi. Onlar arasındakı etimadsızlıq açıq bir hal almışdı və biri tərəfindən irəli sürülən təklif o biri tərəfindən rədd edilirdi. İsgəndər bəy Münşi öz əsərində Abbas Mirzənin Qəzvinə gəldiyi günlərdə Əliqulu xanla İsmayılqulu xan arasında ixtilafların dərinləşməsini belə təsvir edirdi: "Əliqulu xan İsmayılqulu xanın yekdilliyi və sadiqliyindən xatircəm deyildi və onların bir-birləri ilə münasibətləri razılaşma, birlik və dostluq əsasında qurulmamışdı. Əliqulu xanın hər hansı bir hərəkəti İsmayılqulu xan tərəfindən bəyənilmirdi. Əliqulu xanın iddiası belə idi: "Qızılbaşlar arasında ixtilafların kəskinləşdiyindən camaatın əksəriyyəti Qəzvinə üz tutmuşlar, biz isə belə gərgin bir vaxtda əlahəzrətin mənsubları olan xorasanlılara müqavimət göstərə bilmərik.

Padşah və şahzadə bizim hansımızı istəyərsə, Savədən Həmədana gedib orada da dayanarıq. Bu zaman İraq camaatı bizim Həmədanda olmağımızdan bir nəticə çıxarıb Qəzvinə getməkdən vaz keçərək öz yerlərindən tərpənməyəcək. O zaman belə bir xə-

bər yayılacaq ki, Xorasandan gələnlər əliboş və pərişanhaldırlar. Amma bizim xəzinəmiz və bütün şeylərimiz öz yanımızdadır. Bunu bilən əsgərlər onlardan üz döndərib bizim ətrafımızda cəm olacaqlar. İndi biz gərək bir neçə gün özümüzü qoruyaq və "Əl-leyl hobla ma təbla sərayere" ("Hamilədir gecə, görək nə doğar") misrasına uyğun olaraq ...özümüzü bir güşəyə çəkək və gözləyək ki, qeyb pərdəsi arxasından nə görsənəcəkdir". İsmayılqulu xan bu fikri rədd edib belə söylədi: "Hazırda bu orduda olan camaatın hamısının xanəkiçu və ailəsi Qəzvindədir, buna görə də onlar oraya gedib öz əhl-əyalı başları üstündə olmaq istəyirlər. Əgər Həmədana tərəf getsə bu, məğlubiyyət əlaməti olacaqdır, çünki indi bizimlə yoldaş olanlar bizə mat qalıb bəzi işlərə əl atacaqlar və yanımizda bircə adam da qalmayacaqdır. Əgər elə olarsa, biz tamamilə məhv olarıq. Gərək əvvəlcə, Qəzvinə gedək. Mürşidqulu xanın adamları çox deyil, eşidirik ki, onun adamları zorla ona tabe ediliblər, qoy onda bizim istəyimizlə hərəkət etsin. Bizim gücümüz və qüdrətimiz ondan çox, İraq ləşkəri isə Xorasan ləşkərindən artıqdır. Onu aradan götürüb, ürəyimiz istəyən hörmətli şahzadələrdən birini vəliəhd kimi səltənət taxtına çıxardarıq” (128).

Əliqulu xan artıq başa düşməkdə idi ki, Şah Məhəmməd Xudabəndə və onunla birlikdə də onun ətrafı hakimiyyəti itirməkdədirlər. Səfəvi şahının və onun ətrafının daha yetərincə gücü qalmamışdı ki, mərkəzi hakimiyyəti qoruya bilsin. Onun irəli sürdüyü təklif də əslində, çarəsizlikdən doğan bir təklif idi. Bu təklifin icrasının bir nəticə verməyəcəyini hiss edən İsmayılqulu xan Əliqulu xanla razılaşmadı. İsmayılqulu xanın irəli sürdüyü təklif də şəraitə uyğun olan bir təklif deyildi. Onun təklifi də şah ətrafı tərəfindən qəbul olunmadı. Əliqulu xan heç bir vəchlə Mürşüdqulu xanın təsiri altına düşməyi qəbul etmirdi. O, əmin idi ki, Mürşüdqulu xan dərhal onları məhv edəcəkdi. Əliqulu xan təklif etdi ki, hər vasitə ilə çalışıb Mürşüdqulu xandan uzaq olmaq lazımdır. O, Mürşüdqulu xanla əlaqələrin yalnız məktub vasitəsi ilə saxlanmasına tərəfdar idi. Aparılan yazışmalardan sonra şah hakimiyyəti ətrafında cərəyan edən hadisələr də aydınlaşa bilərdi. Əliqulu

xanla İsmayılqulu xan bir-biri ilə nə etmək məsələsi aydınlaşdırdığı vaxt onların ətrafında olan əmir və əyanlar da icazəsiz olaraq şah düşərgəsini tərk edib Abbas Mirzə düşərgəsinə qoşuldular. Gün keçdikcə belələrinin sayı daha da artdı.

Hər gün ötdükcə şah hakimiyyətinin zəiflədiyini görən saray əmirləri və əyanları faydalı addımlar atılmasının vaxtı çatdığı qənaətinə gəldilər. Ona görə də şah sarayında olan əmirlər, yüzbaşılar, qızılbaş tayfa əyanları və hər oymağın hörmətli adamları və onların başçıları olan Əliqulu xan Fəthoğlu, İsmayıl qulu xan Şamlı, Şahverdi Xəlifə Eynallı Şamlı, Əsləməs xan Zülqədər Möhürdar, Ədhəm xan Türkman, Şahqulu Xəlifə Rumlu, Seyid bəy Kəmunə, İsmayıl Sultan Alplı Əfşar, Şirazın hakimi olmuş Şahqulu Xəlifə Zülqədər, Həmzə Xəlifənin oğlu Mehdiqulu Sultan Talış və başqa ustaclı, şamlı, bayat əmirləri, mosullu türkman əmirzadələri, habelə Şah Məhəmməd Xudabəndənin anası Sultanım xanım və başqaları səltənət vəziri Mirzə Məhəmmədin evində toplaşıb öz aralarında məsləhətləşdilər və qərara gəldilər ki, şah hakimiyyətinin tərəfdarları bir-birinə sədaqətli olsunlar, biri-digərinin məsləhətindən çıxmasın, başqalarının təhrikinə uymasınlar, səhv yol tutanları özləri öz aralarında cəzalandırsınlar. Sonra da toplantı iştirakçıları hamısı Qurana and içdilər və qərarlarına sadiq olacaqlarını bildirdilər. Amma elə bir neçə gün keçməmiş bu insanlar öz andlarını pozmağa başladılar. Xüsusilə, Əliqulu xan Fəthoğlunun mənsub olduğu ustaclı tayfasının əmir və əyanları kimsədən icazə almadan şah düşərgəsindən ayrıldılar və Abbas Mirzənin tərəfdarlarına qoşulmağa başladılar. Bu məsələ ustaclı tayfası arasında kütləvi hal aldı. Elə bir vəziyyət yarandı ki, Əliqulu xan yanında ustaclı əmir və əyanlarından çox az adam qaldı və bu da Əliqulu xanın şah düşərgəsindəki mövqeyini xeyli zəiflətdi (129).

Əliqulu xan həm də İsmayılqulu xanla müqayisədə öz nüfuzunu xeyli itirdi. İsmayılqulu xanın mənsub olduğu şamlı tayfasının əmir və əyanları isə şah düşərgəsini tərk etmədilər. Ona görə İsmayılqulu xan öz əvvəlki gücünü və nüfuzunu qoruyub saxlaya

bildi və Əliqulu xanla müqayisədə onun şaha olan təsiri də xeyli artdı. Əslində, İsmayılqulu xan şah yanında söz sahibi oldu. Bundan Mürşüdqulu xan da xəbər tutdu və yaranmış vəziyyətin sabitləşdirilməsi üçün o da İsmayılqulu xanla əlaqə saxlamağı məqsədəuyğun saydı. Mürşüdqulu xan yaranmış vəziyyətdən çıxmaq üçün İsmayılqulu xana məktub göndərdi. Həmin məktubda deyilirdi: "Sən əziz adama məlumdur ki, şamlı və ustaclı tayfaları arasındakı dostluq qədimdir və onlar həmişə müxtəlif hadisələr baş verərkən birlikdə olmuşlar və heç zaman ayrılmamışlar. Buna görə də, gərəkdir ki, bu dövlətdə şamlı tayfasının əzəmətli əmirlərindən biri və ağsaqqalı dövlət adamlarının başçılarından biri olsun. Bu gün şamlılar arasında seçilən adamların biri Durmuş xanın nəvəsi və Herat hakimi olan Əliqulu xan, ikinci isə sənsən. Onun bizimlə və səninlə etdiyi ədavət hamıya məlumdur və düşmənin düşməni dost deməkdir. Buna görə də mənimlə sən əziz arasında məhəbbət və dostluq etməkdən başqa çarə yoxdur. Biz ki, Əliqulu xan Fəthoğlu ilə bir oymaqdanıq, o, vəkalət mənsəbini tutmaq və ağsaqqallıq etməkdən ötrü bizim qorxumuzdan bu tərəfə gəlmək istəmir. Belə olan halda, bəs sən əziz nədən qorxursan?" (130).

Mürşüdqulu xanın bu məktubu İsmayılqulu xanda gələcək taleyi üçün bir ümid yaratdı. İlk baxışdan Mürşüdqulu xan ona hətta böyük bir vəzifə də vəd edirdi. Ona görə İsmayılqulu xanda şah düşərgəsindən uzaqlaşaraq Abbas Mirzə tərəfdarları sırasına qoşulmaq meyli xeyli gücləndi. Amma Mürşüdqulu xan öz təklifində heç də səmimi deyildi. Onun məqsədi şah ətrafını tərk-silah etmək, onun yaxınlarını zərərsizləşdirmək idi. Əliqulu xan Fəthoğlu da Mürşüdqulu xanın məktubundan xəbər tutanda onun səmimi olmadığını İsmayılqulu xanın nəzərinə çatdırdı: "Mürşidqulu xan mənim oymağımdandır. Mən onu səndən daha yaxşı tanıyıram. Onun mülayim rəftarına və məsləhətli sözlərinə qətiyyən inanmaq olmaz. Əgər əlinə düşsək, bir gün bizi cəzalandıracaq. Şamlı camaatı arasında iddialı adamlar çoxdur, buna görə də o, başqa bir adama vəzifə verəcəkdir ki, onun özünün yetişdirməsi olsun. O,

məndən çox səni dəf etmək istəyəcək. Gərək özümüz haqqında düşünək” (131).

Əliqulu xan Fəthoğlu ilə etimadsız bir münasibət olduğu üçün İsmayılqulu xan onun sözlərini heç də səmimi qəbul etmədi və o, Qəzvinə yollanmaq fikrindən əl çəkmədi. İsmayılqulu xanda belə bir əminlik var idi ki, Mürşüdqulu xanla ortaq bir dil tapacaq və öz əvvəlki mövqeyini yenə də qoruyub saxlaya biləcək. İsmayılqulu xan öz niyyətindən əl çəkməyəndə Əliqulu xan yeni bir təklif ortaya atdı. O, məsləhət bildi ki, əvvəlcə Qəzvinə onların nümayəndələri elçi kimi göndərilsinlər. Bu adamlar Qəzvində Mürşüdqulu xanla görüşməli, Əliqulu xanın və İsmayılqulu xanın adından ona çatdırmalı idilər ki, adları çəkilən xanlar Şah Məhəmməd Xudabəndə tərəfdarları ilə Abbas Mirzə tərəfdarları arasındakı qarşıdurmaya son qoymağa, Abbas Mirzənin iradəsini qəbul etməyə və səltənət maraqlarına xidmət etməyə hazırdırlar. Bu elçilər bir tərəfdən Mürşüdqulu xanın gizli niyyətinin olub-olmamasını müəyyənləşdirməyə çalışmalı idilər, digər tərəfdən Qəzvində vəziyyətin və saray əhlinin əhval-ruhiyyəsinin durumunu qiymətləndirməli idilər. Elçilərin gətirdiyi xəbərlər təhlil edildikdən sonra Əliqulu xanla İsmayılqulu xan da əldə olunan nəticələrə uyğun olaraq hərəkət etməli idilər. Hər iki xan bu təkliflə razılaşdılar. Əliqulu xan tərəfindən Qəzvinə Əhməd bəy Bey, İsmayılqulu xan tərəfindən isə Əhməd bəy Beqdeli Şamlı göndərilməli idi. Tezliklə həmin elçilər Qəzvinə yola düşdülər (132).

Adları çəkilən elçilər Qəzvinə yollanıb Mürşüdqulu xanla görüşdülər və ona çatdırdılar ki, Əliqulu xanla İsmayılqulu xan öz maraqlarını bir kənara qoyub baş vermiş parçalanmanın aradan qaldırılması tərəfdarlarıdır. Elçilər onu da bildirdilər ki, adları çəkilən xanlar Qəzvinə qayıtmağa və Mürşüdqulu xanla əməkdaşlıq etməyə hazırdırlar. Mürşüdqulu xan bu elçiləri çox səmimi qarşıladı, onlara mümkün qayğını göstərdi. Onların yanında da Mürşüdqulu xan bir daha öz təkliflərini səsləndirdi, bu təkliflərin həyata keçməsini, səltənət xatirinə Əliqulu xanla və İsmayılqulu xanla əməkdaşlıq etməyə maraqlı olduğunu bəyan etdi. Dediklə-

rinin doğru olmasına inam yaratmaq üçün Mürşüdqulu xan da öz elçilərini şah düşərgəsinə göndərdi. Ustaclı tayfasının ağsaqqallarından olan Mir Seyid Hüseyn Müctəhid, Abbasəli Sultan Şamlı və Əhməd bəy Eşikağası bu elçilik vəzifəsini öz üzərinə götürdülər. Elçilər Xüşkrud adlanan məntəqədə Şah Məhəmməd Xudabəndə hüzuruna yetişə bildilər. Çünki Əliqulu xanla İsmayılqulu xanın elçiləri Qəzvinə yola düşəndən sonra şah karvanı da Savədən hərəkət edərək Xüşkruda çatmışdı. Şah hüzuruna yetişməzdən əvvəl isə Mürşüdqulu xanın elçiləri Əliqulu xanla və İsmayılqulu xanla görüşdülər, Mürşüdqulu xanın məktubunu onlara çatdırdılar. Həmin məktubun mətni belə idi: "Fələyin məsləhəti ilə qızılbaşlar arasında iki tirəlik başlamışdır ki, bunun nəticəsində aralıqda şər və fəsadlı əməllər baş vermişdir. Buna görə də, dinin düşmənləri ürəkləndilər və qızılbaşlara xas neçə məmləkət rumiyyənin əlinə keçdi. Hal hazırda isə Xorasan səmtində özbəkiyyə qoşunu fürsət tapıb oranı tutmaq üçün hücuma keçmişdir. Əgər qızılbaşların arasındakı ixtilaf aradan götürülməsə, nə Xorasan ləşkərinin özbəklərə qüdrəti, nə də İraq qoşununun rumiyyəyə qüvvəti çatacaqdır. Əgər bu minvalla iki-üç il də ötsə, din və dövlətə böyük xəsarət yetişəcəkdir. Mən, Abdulla xanın Xorasana gəlib çatdığı bu vaxtda dövlətə bunu layiq bilmədim ki, İsgəndər şanlı nəvvabın böyük fərzəndi və qızılbaşlar dövlətinin sərmayəsi olan, hümayunlarında günəş kimi cahandarlıq nurları (ənvar) parlayan bir padşahzadəni Xorasanda saxlayıb özbəkiyyə əsgərlərinin mühasirəsinə rəva biləк. Buna görə də bu vəlayətnişan xanədanın bizə bəxş etdiyi haqqını nəzərdə saxlayıb o həzrəti bura gətirdik. Məqsədimiz birlikdən, dinin qüvvətlənməsindən və düşmənlərin dəfindən başqa heç nə deyildir. Əzəmətli xanlardan və bu qüdrətli dövlətin ağsaqqallarından istəyimiz budur ki, inad və qərəzi tərk etsinlər, [biz də] bir-birilərimizlə birləşib dövlətə layiq olan əməlləri qarşılıqlı məsləhət yolu ilə həyata keçirək" (133).

Göründüyü kimi, bu məktubda Mürşüdqulu xan səltənət daxilində baş verənlərin şah hakimiyyətini heç də möhkəmlətməyəcəyi, Abbas Mirzənin Xorasanı tərk edərək Qəzvinə gəlməsi mən-

tiqi dəlillərlə əsaslandırılmışdı. Mürşüdqulu xan həm də öz fikirlərini inandırıcı şəkildə ifadə etməyə çalışmışdı. Ona görə də bu məktəb müəyyən təsir qüvvəsinə malik oldu. Mürşüdqulu xan öz elçiləri vasitəsilə onu da çatdırdı ki, Əliqulu xanla İsmayılqulu xan onun fikirləri ilə razılaşacağı və kin saxlamaq yolundan əl çəkəcəkləri halda and içsinlər. Bununla onlar Mürşüdqulu xana qarşı məkrli planlara əl atmayacaqlarına söz verməli idilər. Mürşüdqulu xanın elçiləri şah düşərgəsinə yetişdikdən sonra onlar əvvəlcə Əliqulu xanın evində qarşılandı. İsmayılqulu xan və digər nüfuzlu əmir və əyanlar da onun evinə toplaşdılar və elçilərin gətirdiyi xəbərlərlə tanış oldular. Mürşüdqulu xanın elçiləri gətirdikləri ismarıcları səsləndirdikdən sonra ilk olaraq İsmayılqulu xan başının işarəsi ilə öz razılığını bəyan etdi və bununla Mürşüdqulu xanın Qəzvinə gəlməsinə öz dəstəyini ifadə etdi. Amma Əliqulu xan yenə də Mürşüdqulu xanın fikirlərinə və təkliflərinə şübhə ilə yanaşdı. Eşitdikləri onda Mürşüdqulu xana qarşı yeni bir inam yaratmadı. Onların hər ikisi ustaclı tayfasından idilər və hər ikisi də özünü səltənət vəkili elan etdirmişdilər. Əliqulu xan əmin idi ki, onunla Mürşüdqulu xan arasındakı anlaşma müvəqqəti ola bilər. Çünki onlar hər ikisi eyni vəzifənin sahibi idilər və onlardan biri bu vəzifəni tərk etməli idi. Əliqulu xan hətta ona sakit şəkildə tutduğu vəzifəni tərk etmək fürsəti veriləcəyinə də inanmırdı. Onun gümanınca, fürsət yaranan kimi, Mürşüdqulu xan onun həyatına son qoyacaqdı. O, Mürşüdqulu xanın nümayəndələri yanında məktubda səslənənlərə öz etirazını bildirmədi və məcburiyyət qarşısında qalaraq o da verilən təklifi dəstəklədi. Məsləhətləşmədən sonra belə bir qərar qəbul edildi ki, Əliqulu xanla İsmayılqulu xan Qəzvinə yollansınlar, əldə olunmuş anlaşmaya sadiq qalacağı ilə bağlı Mürşüdqulu xanı da and içdirsinlər. Bununla da tərəflər arasında nifaq və qarşıdurmanı aradan qaldırmağa çalışsınlar. Əliqulu xanla İsmayılqulu xan da belə bir and qəbul etdilər, Mürşüdqulu xana qarşı kinli münasibətdən uzaq olacaqlarını, onunla bilikdə xidmətə razı olduqlarını vəd etdilər. Bundan sonra Mürşüdqulu xanın nümayəndələri, habelə Əliqulu xan və İsmayılqulu xan

birlikdə Şah Məhəmməd Xudabəndənin hüzuruna yollandılar. Abbasəli sultan və zəmanəsinin tanınmış müctəhidlərindən olan Mir Seyid Hüseyn şah hüzurunda Abbas Mirzənin dualarını, arzularını Şah Məhəmməd Xudabəndəyə çatdırdılar. “Dünyanı bəzəyən Abbasın tarixi” müəllifinin yazdığına görə, Şah Məhəmməd Xudabəndə artıq səltənət idarəçiliyi işlərindən yorulmuşdu və ona görə Abbas Mirzənin yüksək məqama yiyələnməsini razılıqla qarşıladı (134).

Şah Məhəmməd Xudabəndə ilə görüşdükdən sonra Mürşüdqulu xanın elçiləri Qəzvinə qayıtdılar. Onlar verilmiş tapşırığın öhdəsindən gəlmiş, şahın və onun ətrafındakı dəstənin Qəzvinə qayıtmasına razılıq almışdılar. Bu elçilərlə birlikdə Əliqulu xanla İsmayılqulu xanın nümayəndəsi olan Məhəmmədi bəy Sarısolağ da Qəzvinə yollandı. Əldə edilmiş qarşılıqlı razılaşmaya əsasən, Məhəmmədi bəy də Mürşüdqulu xanın Əliqulu xanla İsmayılqulu xana qarşı düşmənçilik yolu tutmayacağı barədə and qəbul etməsinə şahidlik etməli idi. Mürşüdqulu xanın elçiləri həm gördükləri iş barəsində, həm də şah düşərgəsindəki vəziyyət haqqında ona məlumat çatdırdılar. Mürşüdqulu xana aydın oldu ki, şah düşərgəsində, onun qoşunlarında artıq güclü parçalanma vardır. Bu parçalanma isə əslində, onun istəklərinə cavab verirdi. Yəni şah qoşunları artıq elə bir gücə malik deyildi ki, Qəzvin üzərinə hücum etsin, Abbas Mirzə ətrafında toplanmış qüvvələrə üstün gəlsin. Ona görə Əliqulu xanla İsmayılqulu xan artıq Mürşüdqulu xan üçün ciddi təhlükə mənbəyi ola bilməzdilər. Bununla belə, Mürşüdqulu xan istəmirdi ki, şah ətrafında toplanmış olan əmirlər və onların qoşunları bir yerdə Qəzvinə daxil olsunlar. Mürşüdqulu xan belə bir qərara gəldi ki, Məhəmmədi xanı da, Əliqulu xanla İsmayılqulu xanı da ayrı-ayrılıqda qəbul etsin, onlar tək-tək Qəzvinə daxil olsun və beləliklə onların hər birini ayrılıqda zərərsizləşdirsin. Ona görə Mürşüdqulu xan əvvəlcə Məhəmmədi xanı təklədi, onu dərhal qəbul etmədi, onun Məhəmməd Şərif bəy Çavuşlunun evində qalması haqqında göstəriş verdi. Məhəmmədi xan geri buraxılmadı və o anladı ki, Mürşüdqulu xan söylədiklərində, irəli sür-

düyü təkliflərində heç də səmimi deyildir. Amma Məhəmmədi xan bu barədə şah düşərgəsinə məlumat çatdıra bilmədi. Sonra da Mürşüdqulu xan şah ətrafında olan Əliqulu xana, İsmayılqulu xana və digər vəzirlərə, əmirlərə məktub göndərdi, onları ayrı-ayrılıqda Abbas Mirzə ilə görüşməyə dəvət etdi (135).

Əliqulu xanla İsmayılqulu xanın nümayəndəsinin Qəzvinə gəlməsindən sonra şah düşərgəsində vəziyyət daha da mürəkkəbləşdi, qoşunlar daxilində fərarilik və intizamsızlıq daha da artdı, döyüşçülər, dəstə rəhbərləri kimsənin sözünə qulaq asmadan dağılışmağa başladılar. Hətta şahın xidmətində olan adamlar da öz vəzifələrini atıb oradan uzaqlaşdılar. Şah qoşunlarında nağara və kərənay çalanlar da öz alətlərini götürüb Qəzvinə yollandılar və orada bu alətləri səsləndirməklə Abbas Mirzəyə olan rəğbətlərini ifadə etməyə başladılar. Şah Məhəmməd Xudabəndənin və onun ətrafının Qəzvinə yola düşmək ərəfəsində şah düşərgəsində heç cilovdarlar da qalmamışdı ki, onlar şahın və Əbu Talib Mirzənin atının cilovunu tutsunlar. Hətta əmirlər və əyanlar da şaha yaxın düşməkdən ehtiyat edirdilər. Onlar da tələsik şəkildə Qəzvinə yola düşmək arzusunda idilər. Şah düşərgəsində olan əmir və əyanlar artıq mərkəzi hakimiyyətin dağıldığının fərqində idilər. Ona görə də onların hər biri şahın ətrafındakılardan gizli şəkildə Qəzvinə yetişib Abbas Mirzəyə öz itaətini bildirmək, bununla da heç olmasa öz həyatlarını şübhə və inamsızlıqlardan qurtarmaq istəyirdilər. Məntərə adlanan məntəqəyə çatanda həm şah ətrafında olan əmirlər, əyanlar, həm də elə Əliqulu xanla İsmayılqulu xan bir-birindən gizli şəkildə Qəzvinə yollanaraq Abbas Mirzəyə öz itaətlərini bildirmək istədilər. Xüsusilə, Əliqulu xan bu işdə qabağa düşmək istəyirdi. Çünki İsmayılqulu xanın güclü olması və ətrafında daha çox adamın toplaşması Əliqulu xanı öz həyatından ehtiyatlanmağa sövq edirdi. Məntərəyə çatan günün gecəsi Əliqulu xan şəhərə yollandı. İsmayılqulu xan da Əliqulu xandan xəbərsiz elə həmin gecə şəhərə daxil oldu. Onu beş yüz nəfərlik atlı dəstəsi müşayiət edirdi. Şahın ətrafında olan vəzir və əyanlar da elə həmin gecə şəhərə daxil oldular. Bütün bu əmir və əyanlar bir-birin-

dən xəbərsiz Qəzvin dövlətxanası ətrafına gəldilər və orada bir-birlərin gördülər.

Bu xanlar və əmirlər bir-birinə anlatdılar ki, onların arasında etibar və etimad yoxdur və fərdi maraqlar daha üstündür. Bununla belə, onların heç biri dövlətxanaya daxil olub Abbas Mirzəyə öz itaətlərini bəyan edə bilmədi. Mürşüdqulu xan buna yol vermədi və dövlətxananın darvazalarının mühafizəsini də Xorasandan gətirilmiş qüvvələrə tapşırdı. Bu xanların və əmirlərin gəlişini Mürşüdqulu xan özünün uğuru sandı. Çünki indi həmin xanları və əmirləri bir-bir aradan götürmək mümkün idi. O, göstəriş verdi ki, adları çəkilən xanlar və əmirlər qoşun dəstələri ilə deyil, yalnız bir nəfər xidmətçi ilə birlikdə dövlətxanaya daxil olsunlar. Onları müşayiət edən digər xidmətçilər və silahlılar isə evlərinə dağılışmalı idilər. Əliqulu xanda və İsmayılqulu xanda şübhə yaratmamaq üçün Mürşüdqulu xan onların yanına öz adamını göndərdi və onlara belə çatdırdı: "Siz həzrətlər, sədaqətli və sufipərəst olduğunuza görə, evlərinizə qayıtmanızdan əvvəl mübarək dövlətxanaya gəlmişsiniz. Sufilik təriqi belədir ki, siz əvvəlcə (şahzadə Abbas Mirzənin – red.) ayağını öpməklə müşərrəf olasınız. İndi şərafətli nəvvab yatmışdır. Siz bu gün dövlətxanada qalın ki, sabah şaha baş əyməklə müşərrəf olasanız" (136).

Əliqulu xan, İsmayılqulu xan, digər xanlar və əmirlər bu təkliflə razılaşmalı oldular və onlar şah dövlətxanası ilə "At meydanı" arasındakı evlərdə yerləşdirildilər. Amma bu xanlar və əmirlər onlara göstərilən münasibətdən anladılar ki, ümid etdikləri onlar üçün xülya imiş və onlar Abbas Mirzə ilə, hətta Mürşüdqulu xanla görüşə bilməyəcəklər. Səhər açılanda isə Mürşüdqulu xanın göndərdiyi mühafizəçilər bu xanların və əmirlərin silahlarını toplayıb əllərindən aldılar. Bununla da, Əliqulu xana da, İsmayılqulu xana da, digər xanlara və əmirlərə də aydın oldu ki, onlar həbs olunurlar (137).

Həmin gün Qəzvin hakimi Qorxmaz xan Şamlı, Mürşüdqulu xanın vəziri Mirzə Şahvəli və bir dəstə ustaclı ağsaqqalı Şah Məhəmməd Xudabəndənin və Əbu Talib Mirzənin ardınca getdilər.

Onlar şəhər yaxınlığında düşərgə salıb ətraflarında cərəyan edən hadisələrin nə ilə başa çatacağını gözləyirdilər. Adları çəkilən adamlar Şah Məhəmməd Xudabəndə və Əbu Talib Mirzə ilə ehtiramla görüşdülər və sonra da onları atlara mindirib şəhərə müşayiət etdilər. Dövlətxanaya yetişəndə onları Abbas Mirzə özü qarşıladı. O, Şah Məhəmməd Xudabəndənin əlini öpdü, qardaşı Əbu Talib Mirzəni mehribanlıqla qucaqladı. Sonra da Abbas Mirzə onları hərəmxanaya müşayiət etdi. Elə həmin gün də Şah Məhəmməd Xudabəndə şahlıq taxtından əl çəkdi və hakimiyyətin Abbas Mirzəyə keçməsini qəbul etdi. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifinin yazdığından belə məlum olur ki, Abbas Mirzənin şahlıq taxtına oturdulması üçün çox da böyük olmayan bir mərasim təşkil olundu. Bir məlumata görə isə, mərasim başlanandan sonra Abbas Mirzə mərasim yerinə gətirildi və şahlıq taxtında oturduldu. Bu zaman o, əlində qiymətli daşlarla bəzədilmiş əsa tutmuşdu. Şah Məhəmməd Xudabəndə və Mürşüdqulu xan onun kənarlarında dayanmışdılar. Bir sıra nüfuzlu ustaclı əmirləri, habelə Xorasandan gətirilmiş 300 nəfər qoşun əmiri şah taxtı ətrafında dövrə vurmuşdular. Bir sıra sufilər də bu mərasimdə iştirak edirdilər. Bu sufilər qılınc, xəncər və çiyinlərinə dayaqladıqları təbərzinlə silahlanmışdılar. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində isə bu mərasim müxtəsər şəkildə belə təsvir olunmuşdur: "Fələyin nahamvar vəziyyətindən və fani dünyanın keşməkeşlərindən cana doymuş İsgəndər şanlı nəvvaba elə onsuz da dinc və rahat bir guşə lazım idi. O öz əziz fərzəndi ilə görüşdən olduqca şadlandı, səltənət və padşahlıqdan əl çəkib, oğlunun hümayun başını şahlıq tacı ilə bəzədi, öz ata-babasından ona çatan irşad əmanətini əziz fərzəndinə təhvil verdi, əhali və İraq ləşkəri tərəfindən indiki vaxta qədər "Abbas Mirzə" çağırılan mübarək ad "Şah Abbas" adlanmağa başladı" (138).

Abbas Mirzənin Şah Abbas adı ilə Səfəvi taxtına çıxması 1588-ci il oktyabr ayının 29-na təsadüf edir (139). Mənbələrin və elmi-tarixi araşdırmaların bir çoxunda olan məlumatlar belə bir qənaətə gəlməyə əsas verir ki, Şah Məhəmməd Xudabəndə haki-

miyyətdən könüllü şəkildə əl çəkmişdi. Bu məsələ onun səhhətinin yaxşı olmaması, hakimiyyət sınaqlarından təngə gəlməsi və rahat həyat sürmək istəyi ilə bağlanılır. Şah Məhəmməd Xudabəndənin səhhətinin yaxşı olmadığı həqiqət idi və şahlıq taxtına çıxanda da onun səhhətindəki problemlər qalmaqda idi. Bununla belə, o, şahlıq taxtını qəbul etmişdi. Hətta davamlı qətiyyətsizlikdən doğan daxili hərc-mərcliyin yüksək nöqtəyə çatdığı vaxtda belə Şah Məhəmməd Xudabəndə taxt-tacdan əl çəkməmişdi. Ona görə, Şah Məhəmməd Xudabəndənin könüllü şəkildə və öz istəyi ilə taxt-tacdan əl çəkməsi real vəziyyəti tam şəkildə əks etdirmir. Şah Məhəmməd Xudabəndənin taxt-tacdan kənarlaşdırılması və hakimiyyətə Abbas Mirzənin gətirilməsini qızılbaş əmirlərinin iştirakı ilə həyata keçirilmiş bir saray çevrilişi adlandırılması daha doğru olardı.

Abbas Mirzənin şah elan edilməsi ilə Xorasan əmirləri Qəzvin əmirləri ilə çəkişmədə üstünlük əldə etmiş oldular. Mürşüdqulu xan bununla qarşısına qoymuş olduğu mühüm hədəflərdən birinə çatdı. Abbas Mirzənin şah elan edilməsi onun səltənət daxilində çox geniş səlahiyyətlər əldə etməsi idi. Rəsmi olaraq da Mürşüdqulu xan səltənət vəkili və ya nayibüssəltənə məqamına yiyələndi. Rəsmi mərasimlərdə o, şahın sol tərəfində dayanardı (140).

Yeni şahın taxta çıxması ilə Mürşüdqulu xan öz düşmənlərinin zərərsizləşdirilməsi qərarına gəldi. Amma bunun üçün Mürşüdquli xan bəzi ehtiyat tədbirləri həyata keçirməli oldu. Mürşüdqulu xana görə, Əliqulu xan Ustaclının və İsmayılqulu xan Fəthoğlu Şamlının qətlə yetirilməsi onların Qəzvindəki tayfadaşlarının narazılıqları ilə qarşılaşa bilərdi. Məsələn, İsmayılqulu xanın qətli üçün Mürşüdqulu xan Qəzvin hakimi Qorxmaz xan Şamlıdan çəkinirdi. Ona görə də o, Qorxmaz xana şamlı tayfasının rəhbəri məqamını vəd etdi. Qorxmaz xan da belə bir məqama yiyələnəcəyi üçün İsmayılqulu xanın qətlinə etiraz etmədi. Abbas Mirzənin şah elan edildiyi günün səhəri "Çehelsütun" sarayı qarşısında Əliqulu xanla İsmayılqulu xanın qətli ilə bağlı xüsusi bir mərasim keçirildi. Əvvəlcə, Şah Abbas "Çehelsütun" sarayının eyvanında bəzə-

dilmiş taxta çıxdı. Bu mərasimdə Şah Abbasın anası da iştirak edirdi. İsgəndər bəy Münşinin yazdığına görə, Mürşüdqulu xan anasının icazəsi ilə Şah Abbası taxta çıxardı. Mərasimdə iştirak edən əmirlər və əyanlar, habelə şəhər sakinlərinin nümayəndələri, Şah Abbası ilk dəfə taxtda görənlər ona öz sədaqətlərini bəyan etdilər. Sonra da bu mərasimdə iştirak edən qızılbaş əmirləri və əyanları Həmzə Mirzənin qətlində günahkar bilinən Əliqulu xanla, İsmayılqulu xanın qətlini tələb etdilər. Qızılbaş tayfalarının rəhbərləri buna icazə verdilər. Bir məlumata görə isə, Mürşüdqulu xan bu mərasimə xüsusi olaraq hazırlaşırdı və ona sədaqətli olan adamları da bu mərasimlə bağlı məlumatlandırmışdı. Mürşüdqulu xana görə, mərasim zamanı Şah Abbas onlara müraciət edəcək və qardaşı Həmzə Mirzənin qatillərinə cəza verilməsi ilə bağlı onların fikrini soruşacaqdı. Həmin adamlar da Həmzə Mirzənin qatillərinin qətl edilməsini məsləhət bilməli idilər. Şah Abbas mərasimin gedişində xəlif-əl-xüləfaya müraciət etdi və ondan soruşdu ki, Həmzə Mirzənin qatillərinin cəzalandırılması ilə bağlı onun fikri necədir? O da səcdə edib cavab verdi ki, çoxdandır insanlar belə bir hökmün verilməsi intizarındadırlar. Yəni səltənətin dini işlər üzrə rəhbərindən də bu qətllərin həyata keçirilməsi üçün razılıq alındı. Bundan sonra qərara gəlindi ki, Əliqulu xanla İsmayılqulu xan "Çehelsütun" sarayıma gətirilsin və burada onlar qisa üçün şah ailəsinin üzvlərinə təslim edilsin. Belə də edildi. Adları çəkilən xanlar bir-bir "Çehelsütun" sarayına gətirildilər. Elə burada toplaşan insanları gözü qarşısında əvvəlcə İsmayılqulu xan qılıncla doğrandı. Sonra Əliqulu xan belə bir tale ilə qarşılaşdı. Onların ardınca Məhəmməd bəy Sarısolaq və Məhəmməd Şərif bəy Çavuşlu da qətlə yetirildi. Qətlə yetirilmiş xanların və əmirlərin əmlakları da müsadirə olundu. Həmin xanlarla və əmirlərlə həmfikir olan bir sıra adamlar isə əfv edildi. Elmi-tarixi araşdırmalarda İsmayılqulu xanın ilkin olaraq qətlə yetirilməsi haqqında da məlumat vardır. Hətta o da bildirilir ki, Şah Abbasın hökmü bəyan olunandan sonra İsmayılqulu xan ayaqlar altında tapdalanaraq o dünyaya göndərildi. Sonra isə o biri xanlar Şah Abbasın gözləri

qarşısında edam edildilər. Bir neçə əmir isə qətlə yetirilmədi, onların günahı bağışlandı. Həmin əmirlər böyük məbləğdə cərimə ödəməklə canlarını qurtara bildilər (141).

"Rövzətüs Səfəviyyə" əsərində Əbu Talib Mirzənin vəliəhdliyini dəstəkləyən xanların qətli bir qədər fərqli şəkildə təsvir edilmişdir. Bildirilir ki, Əliqulu xan, İsmayılqulu xan və digər xanlar və əmirlər onları müşayiət edən qoşun dəstələri ilə dövlətxananın Alaqapı adlanan darvazası qarşısına toplaşdılar. Onlar Şah Abbasın hüzuruna yetmək və ona itaətlərini bəyan etmək istədiklərini bildirdilər. Darvazanın mühafizəsi Xorasandan gətirilmiş silahlı dəstəyə tapşırılmşdı və bu dəstəyə Məlik Bəhmən Mazandarani adlı birisi rəhbərlik edirdi. O, darvaza qarşısına toplaşanlara cavab verdi ki, onların gəlişi Mürşüdqulu xana çatdırılacaq və onun icazəsi olarsa darvaza açılacaqdır. Məlik Bəhmən məsələni Mürşüdqulu xana çatdırdı. Mürşüdqulu xan böyük bir kütlənin dövlətxanaya daxil olmasını istəmirdi. Ona görə xəbər göndərdi ki, hazırda Şah Abbas istirahət edir və yuxudan ayılandan sonra tədbir görüləcəkdir. Məlik Bəhmənə tapşırıldı ki, belə bir bəhanə ilə toplaşanların dövlətxanaya girməsinin qarşısı alınsın. Sonra Mürşüdqulu xan hələ Xorasanda onunla birgə olmuş əyanları başqa qapıdan keçməklə darvaza qarşısına gəlmiş xanların yanına göndərdi, həmin xanların hər birini ayrı-ayrılıqda dövlətxanaya dəvət etdi. Məqsəd bu xanların təklənməsi və onların bir-birindən ayrı salınması idi. Sonra da Mürşüdqulu xan bu xanların hər birini ona sədaqətli olan əmirlərin birinə tapşırdı. Bu yolla Mürşüdqulu xan Əbu Talib Mirzənin vəliəhdliyini dəstəkləyən xanları bir-birindən ayırmaqla nəzarət altına aldı və onların gücünü parçalamağa müvəffəq oldu. Mürşüdqulu xan sonra da bu barədə Şah Abbasa məlumat verdi. Mürşüdqulu xanın məlumatı belə idi ki, Həmzə Mirzənin qətlini təşkil etmiş olan xanlar Qəzvinə gəliblər və onların məqsədi Abbas Mirzəni qətlə yetirərək onun yerinə digər şahzadələrdən birini taxta çıxarmaqdır. Bu deyilənlərlə bağlı Mürşüdqulu xan hətta hansısa sənədləri də dəlil-sübut kimi Şah Abbasa təqdim etdi. Bununla Mürşüdqulu xan öz məqsədinə nail oldu və

Şah Abbası Əliqulu xanla İsmayılqulu xana qarşı təhrik edə bildi. O, hətta şaha belə bir təklif də verdi ki, xüsusi bir mərasim təşkil olunsun, həmin xanlar bu mərasimə dəvət olunsun və qətlə yetirilsinlər. Şah Abbas bu təklifi qəbul etdi və adları çəkilən xanların qətlini elə Mürşüdqulu xanın özünə tapşırdı. Adı çəkilən mənbədəki məlumata görə, müxalifətdə olan xanların qətli Abbas Mirzənin taxta çıxdığı gün baş verdi. Mərasim başa çatandan sonra Əliqulu xan şahın hüzuruna gətirildi. Əliqulu xan şah hüzuruna yetişəndə onun nə üçün bura gətirildiyini və buradan salamat çıxmayacağını anladı. Bununla belə, o, Şah Abbasa təzim elədi, ona öz itaətini bildirdi. Şah Abbas isə onu Həmzə Mirzənin qətlində suçlandırdı və onun digər günahlarını da sadalamağa başladı. Mürşüdqulu xanın işarəsi ilə mərasimdə iştirak edən sufilər Əliqulu xanı ayaqları altına saldılar və onu ölənə qədər təpiklədilər. Sonra sufilər Əliqulu xanın qana və torpağa bulaşmış cəsədini bir kənara atıb digər müttəhimin üstünə atıldılar. Təpik zərbələri ilə qətlə yetirilən ikinci adamın İsmi xan Şamlı olduğu bildirilir. Sonra da digər günahlandırılanlar qətlə yetirildilər (142)

Oruc bəy Bayatın xatirələrində isə bu qətllərin təşkilatçısı kimi daha çox Şah Abbasın adı qabardılmışdır. O yazırdı ki, taxt-taca çıxdığı günün səhəri Şah Abbas bütün xanların və əmirlərin silahsız şəkildə onun hüzuruna toplaşması barəsində göstəriş verdi. Guya Şah Abbas bu zaman səltənət divanının təşkil olunması barəsində onlarla məsləhətləşmələr aparacaqmış. Səhəri gün bütün xanlar və əmirlər şah dərgahına toplaşanda Şah Abbas özünün gürcülərdən təşkil olunmuş qvardiyasına saraya giriş-çıxış qapılarının bağlanmasını əmr etdi. Xanlar və əmirlər şah dərgahına gələndə Şah Abbasın atası Məhəmməd Xudabəndə onun sağ tərəfindən dayanıbmış. Hamı toplaşandan sonra Şah Abbas məclisdəkilərə belə bir sual verdi ki, öz vəliəhdini qətlə yetirən insanlar hansı cəzaya layiqdir? Oruc bəy Bayatın yazdığına görə, Həmzə Mirzənin qətlində iştirakı olanlar alçaq səslə belələrinin cəzaya layiq olduğunu bildirdilər. Digərləri isə daha uca səslə onlara cəza verilməsini tələb etməyə başladılar. Hansı cəzanın verilməsi

barəsində fərqli təkliflər olsa da, nəhayət ölüm cəzası haqqında təkliflər də səslənməyə başladı. Bunu eşitcək Şah Abbas öz qvardiyasına Həmzə Mirzənin qətlində iştirak etmiş 22 nəfərin öldürülməsi haqqında hökm verdi. Bu hökm dərhal yerinə yetirildi və öldürülənlərin başları nizələrə keçirilərək saray pəncərələrindən asıldı ki, şəhər sakinləri də onları görə bilsinlər (143).

Göründüyü kimi, Oruc bəy Bayat öz xatirələrində Abbas Mirzə əleyhdarları olan xanların qətlində Mürşüdqulu xanın adını çəkməmişdir. Bu müəllifin əsərində sonrakı bir çox proseslərin də baş verməsində Mürşüdqulu xanın adı çəkilməmişdir. Amma məlumdur ki, Şah Abbasın taxta çıxarılmasında, ona müxalif olan qüvvələrin aradan götürülməsində Mürşüdqulu xanın xüsusi rolu və təşəbbüskarlığı var idi.

Beləliklə, Abbas Mirzə beşinci Səfəvi şahı olaraq tam hüquqla taxt-tac sahibi oldu. Onun taxta çıxmasına qarşı olan əsas maneələr isə aradan qaldırıldı və bununla Səfəvi dövlətinin tarixində yeni bir dövrün başlanğıcı qoyuldu.

## 7. İstifadə olunmuş mənbə və ədəbiyyat

1. İsgəndər bəy Münşi. Tarix-i Aləmara-yi Abbasi (Dünyanı bəzəyən Abbasın tarixi). Fars dilindən tərcümə - Oqtay Əfəndiyev və Namiq Musalı. Bakı, 2009, s. 237; Qəzvini Ə. Fəvayed-e Səfəviyyə. Tehran, 1367, s.38; Şamlı V. Qisas ül-xaqani. Tehran, 1371, s. 117; Molla Cəlaləddin. Tarix-e Abbasi və ya ruzname-y Molla Cəlal. Tehran, 1366, s.17; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, Tehran, 1388, s. 20; Lui Belan. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 43
2. Туманович Н.Н. Герат в XVI-XVII веках. Москва, 1989, с.76
3. Blou D. Şah Abbas. Tehran, 1390, s. 31
4. Туманович Н.Н. Герат в XVI-XVII веках. Москва, 1989, с.99; Blou D. Şah Abbas. Tehran, 1390, s. 31

5. Conabedi M. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 243; Xandəmir. Tarix-e həbib-us siyər. Tehran, c. IV, 1380, s. 515; İsfahani M.Y.. Xolde bərin. Tehran, 1372, s. 198
6. Blou D. Şah Abbas. Tehran, 1390, s. 32
7. İsgəndər bəy Münşi. Tarix-i Aləmara-yi Abbasi (Dünyanı bəzəyən Abbasın tarixi). Fars dilindən tərcümə - Oqtay Əfəndiyev və Namiq Musalı. Bakı, 2009, s. 233-234
8. Molla Cəlaləddin. Tarix-e Abbasi və ya ruzname-y Molla Cəlal. Tehran, 1366, s. 20
9. Tarix-i Aləmara-yi Abbasi (Dünyanı bəzəyən Abbasın tarixi). Fars dilindən tərcümə - Oqtay Əfəndiyev və Namiq Musalı, s. 241
10. Yenə orada, s. 242
11. Molla Cəlaləddin. Tarix-e Abbasi, s. 18-19; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, Tehran 1391, s. 35-36
12. Tarix-i Aləmara-yi Abbasi (Dünyanı bəzəyən Abbasın tarixi). Fars dilindən tərcümə - Oqtay Əfəndiyev və Namiq Musalı, s.240
13. Yenə orada, s. 238
14. Lui Belan. Zendegi-ye Şah Abbas, s. 44
15. Şamlı V. Qisas ül-xaqani, s. 118
16. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən tərcümə Şahin Fazil. Bakı, 210, s. 250
17. Şamlı V. Qisas ül-xaqani, s. 119
18. Molla Cəlaləddin. Tarix-e Abbasi, s. 22
19. Dünyanı bəzəyən Abbasın tarixi, s. 253-254
20. II Şah İsmayılın şahlıq fəaliyyəti ilə bağlı bax: Süleymanov M. Səfəvilər. VI. II Şah İsmayıl. Şah Məhəmməd Xudabəndə. Bakı, 2021
21. Şamlı V. Qisas ül-xaqani, s. 119; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 21
22. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi – Əbdülhüseyn Nəvayi. Tehran, 1366, s. 138
23. Dünyanı bəzəyən Abbasın tarixi, s. 391

24. Hins V. Şah İsmayıl-i Dovvom-i Səfəvi. Çevirəni Keykavus Cihandari, Tehran, 1371, s. 136; Parsadust M. Əz Şah İsmayıl dovvom ta Şah Abbas-e əvvəl. Tehran,1391, s. 90
25. Dünyanı bəzəyən Abbasın tarixi, s. 449-451
26. Dünyanı bəzəyən Abbasın tarixi, s. 452; Rzaqulu xan Hidayət. Tarix-e rövzət üs-səfa-ye Naseri. Cild həştom, Tehran, 1380, s.6569
27. Dünyanı bəzəyən Abbasın tarixi, s. 452
28. Dünyanı bəzəyən Abbasın tarixi, s. 452; Rzaqulu xan Hidayət. Tarix-e rövzət üs-səfa-ye Naseri, s. 6569; Parsadust M. Padşahi ki, şah nəbud, s. 82/ Şah İsmayıl dovvom. Şah Məhəmməd. Tehran, 1381 (kitabın ikinci hissəsi)
29. Dünyanı bəzəyən Abbasın tarixi, s. 452
30. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, Tehran, 1388 s. 23; Lui Belan. Zendegi-ye Şah Abbas, s. 47
31. Dünyanı bəzəyən Abbasın tarixi, s. 453
32. Yenə orada, s. 453
33. Dünyanı bəzəyən Abbasın tarixi, s. 454; Rzaqulu xan Hidayət. Tarix-e rövzət üs-səfa-ye Naseri, s. 6569; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 24; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 67
34. Dünyanı bəzəyən Abbasın tarixi, s. 455
35. Yenə orada, s. 456
36. Dünyanı bəzəyən Abbasın tarixi, s. 456; Lui Belan. Zendegi-ye Şah Abbas, s .48
37. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 23
38. Rzaqulu xan Hidayət. Tarix-e rövzət üs-səfa-ye Naseri, s. 6570-6571
39. Dünyanı bəzəyən Abbasın tarixi, s. 457-458
40. Yenə orada, s. 461
41. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 77; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 24;

42. Dünyanı bəzəyən Abbasın tarixi, s. 469; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s.601; Parsadust M. Padşahi ki, şah nəbud, s. 99
43. Dünyanı bəzəyən Abbasın tarixi, s. 470; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s.602; Parsadust M. Padşahi ki, şah nəbud, s. 99
44. İsfahani M. Xəld-bərin. Tehran, 1372, s.603; Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar. Tehran,1373, s. 124; Parsadust M. Padşahi ki, şah nəbud, s. 100
45. Dünyanı bəzəyən Abbasın tarixi, s. 471-472
46. Dünyanı bəzəyən Abbasın tarixi, s. 472; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 80
47. Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 605-607; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 605
48. Dünyanı bəzəyən Abbasın tarixi, s. 472
49. Yenə orada, s. 473
50. Dünyanı bəzəyən Abbasın tarixi, s. 474; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 609; Parsadust M. Padşahi ki, şah nəbud, s. 102
51. Dünyanı bəzəyən Abbasın tarixi, s. 506
52. Yenə orada, s. 506
53. Tarix-i Aləmara-yi Abbasi (Dünyanı bəzəyən Abbasın tarixi). Fars dilindən tərcümə - Oqtay Əfəndiyev və Namiq Musalı, s. 459
54. Dünyanı bəzəyən Abbasın tarixi, s. 507
55. Dünyanı bəzəyən Abbasın tarixi, s. 508; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 650; Parsadust M. Padşahi ki, şah nəbud, s. 122
56. Dünyanı bəzəyən Abbasın tarixi, s. 508
57. Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 613
58. Dünyanı bəzəyən Abbasın tarixi, s. 5 09
59. Dünyanı bəzəyən Abbasın tarixi, s. 509; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 652; Conabedi M. Rövzət üs-səfəviyyə.

Tehran, 1378, s. 614; Astrabadi S.H. Tarix-e sultani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 119
60. İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 653; Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 615
61. Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 616-617; Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar. Tehran,1373, s.138
62. Dünyanı bəzəyən Abbasın tarixi, s. 515
63. Astrabadi S.H. Tarix-e sultani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 119
64. Dünyanı bəzəyən Abbasın tarixi, s. 515
65. Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 619
66. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 88
67. Dünyanı bəzəyən Abbasın tarixi, s. 515
68. İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 660
69. Rzaqulu xan Hidayət. Tarix-e rövzət üs-səfa-ye Naseri, s. 6592
70. Dünyanı bəzəyən Abbasın tarixi, s. 516
71. Dünyanı bəzəyən Abbasın tarixi, s. 516; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 660
72. Dünyanı bəzəyən Abbasın tarixi, s. 516; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 662; Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 620
73. Dünyanı bəzəyən Abbasın tarixi, s. 517
74. Dünyanı bəzəyən Abbasın tarixi, s. 517-518; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 663; Parsadust M. Padşahi ki, şah nəbud, s. 126
75. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar. Tehran,1373, s.142
76. Dünyanı bəzəyən Abbasın tarixi, s. 519
77. Yenə orada, s. 519
78. Yenə orada, s. 520
79. Yenə orada, s. 520-521
80. Yenə orada, s. 521
81. Yenə orada
82. Yenə orada, s. 521

83. Yenə orada, s. 524
84. Dünyanı bəzəyən Abbasın tarixi, s.524; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 672; Parsadust M. Padşahi ki, şah nəbud, s.1 29-130
85. Dünyanı bəzəyən Abbasın tarixi, s. 525
86. Yenə orada, s. 525-526
87. Yenə orada, s. 529
88. Yenə orada, s. 531
89. Dünyanı bəzəyən Abbasın tarixi, s. 538
90. Yenə orada, s. 539
91. Yenə orada, s. 550
92. Yenə orada s. 551
93. Yenə orada, s. 551
94. Yenə orada, s. 552
95. Yenə orada, s. 552
96. Yenə orada, s. 553
97. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 128
98. Dünyanı bəzəyən Abbasın tarixi, s. 555-556
99.Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 50; Şah Abbas Səfəvi. Tərtibçi Səid Qaneyi. Tehran, 1388, s. 9; Туманович Н.Н. Герат в XVI-XVIII веках. Москва, 1989, с. 133
100. Dünyanı bəzəyən Abbasın tarixi, s. 635
101. Yenə orada, s. 636-637
102. Yenə orada
103. Yenə orada, s. 639
104. Dünyanı bəzəyən Abbasın tarixi, s.641; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 813-814; Parsadust M. Padşahi ki, şah nəbud, s. 196
105. Dünyanı bəzəyən Abbasın tarixi, s. 642
106. İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 821; Parsadust M. Padşahi ki, şah nəbud, s. 197
107. Dünyanı bəzəyən Abbasın tarixi, s. 643-644
108. Yenə orada, s. 647
109. Yenə orada, s. 648

110. Dünyanı bəzəyən Abbasın tarixi, s. 649-650; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 827; Parsadust M. Padşahi ki, şah nəbud, s. 207
111. Dünyanı bəzəyən Abbasın tarixi, s. 653; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 829-830; Parsadust M. Padşahi ki, şah nəbud, s. 208
112. Dünyanı bəzəyən Abbasın tarixi, s. 653
113. Dünyanı bəzəyən Abbasın tarixi, s. 654; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 833; Parsadust M. Padşahi ki, şah nəbud, s. 211; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 131
114. Dünyanı bəzəyən Abbasın tarixi, s. 658
115. Dünyanı bəzəyən Abbasın tarixi, s. 655
116. Dünyanı bəzəyən Abbasın tarixi, s. 655-656; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 836; Parsadust M. Padşahi ki, şah nəbud, s. 209
117. Туманович Н.Н., s. 133
118. Dünyanı bəzəyən Abbasın tarixi, s. 658
119. Yenə orada, s. 659
120. Dünyanı bəzəyən Abbasın tarixi, s. 659; İsfahani M. Xəld-bərin. Tehran, 1372, s. 838; Parsadust M. Padşahi ki, şah nəbud, s. 210
121. Parsadust M. Padşahi ki, şah nəbud, s. 211
122. Dünyanı bəzəyən Abbasın tarixi, s. 660
123. Yenə orada
124. Yenə orada, s. 661
125. Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 668-669; Fəlsəfi N. Zendegani-ye Şah Abbas Əvvəl (cild əvvəl və dovvom). Tehran, tarixsiz, s. 173
126. Dünyanı bəzəyən Abbasın tarixi, s. 661; Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 669
127. Dünyanı bəzəyən Abbasın tarixi, s. 661
128. Yenə orada, s. 662-663
129. Yenə orada, s. 663

130. Yenə orada, s. 664
131. Yenə orada
132. Dünyanı bəzəyən Abbasın tarixi, s. 666; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 138; Parsadust M. Padşahi ki, şah nəbud, s. 214
133. Dünyanı bəzəyən Abbasın tarixi, s. 666
134. Dünyanı bəzəyən Abbasın tarixi, s. 667; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 138
135. Dünyanı bəzəyən Abbasın tarixi, s. 670; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 139
136. Dünyanı bəzəyən Abbasın tarixi, s. 670
137. Yenə orada, s. 670-671
138. Dünyanı bəzəyən Abbasın tarixi, s. 671; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 141
139. Parsadust M. Padşahi ki, şah nəbud, s .216
140. Blou D. Şah Abbas. Tehran, 1390, s.48; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 62
141. Dünyanı bəzəyən Abbasın tarixi, s.671; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 141-142
142. Rövzətüs Səfəviyyə, s. 670-671
143. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского. (Историко-географический трактат). Перевод с английского Октая Эфендиева, Акифа Фарзалиева. Баку, 1988, с. 71

# II FƏSİL
# ŞAH ABBASIN ŞAHLIĞININ İLK İLLƏRİ

## 1. Hakimiyyətin möhkəmləndirilməsi tədbirləri

Bəzi mənbələrdə (1) Şah Abbas haqqında məlumatların nəqlinə Quranı Kərimin Əl-İmran surəsinin (3-cü surə) 26-cı ayəsi ilə başlanılır. Həmin ayənin tərcüməsi belədir: "Ya Rəsul(um), de. Ey mülkün sahibi olan Allah, sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız sənin əlindədir. Həqiqətən sən hər şeyə qadirsən" (2). Müqəddəs kitabdan olan bu ayəyə istinad etməklə mənbə müəllifi Abbas Mirzənin şahlıq taxtına çıxmasını Allahın lütfü, yaradanın qədəri, Abbas Mirzənin Allahın seçilmiş bəndəsi olması kimi təqdim etməyə çalışmışdır. Mənbə müəllifi bu ayəyə toxunmaqla Şah Abbasın həm keşməkeşli gəncliyinə, həm də uğurlu şahlığına işarə etməklə onu bildirməyə çalışmışdır ki, qarşılaşdığı bütün sınaqlara baxmayaraq o, Allahın lütfü ilə belə yüksək bir mərtəbəyə yüksələ bilmişdi. Yəni qədəri məyyənləşdirən Allahdır və Abbas Mirzə də onun nəzəri altında olduğu üçün kimsənin iradəsindən və istəyindən asılı olmayaraq nəhayətdə şahlıq məqamına yüksəldi, nəinki böyük mülk, var-dövlət, həm də böyük səlahiyyət sahibi oldu, böyük bir səltənəti idarə etmək işini öz üzərinə götürdü. Şah Abbasın böyük əzəmət sahibi olması, ərşdən fələyə qədər olan aləmin şahına çevrilməsi, möhtəşəm fəthləri əldə etməsi də Allahın yuxarıdakı ayədə işarə olunan lütfü ilə bağlanılırdı.

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşi də Abbas Mirzənin şahlıq taxtına çıxmasını taleyin qədəri və ulduzların yerləşmələri ilə əlaqələndirməyə çalışmışdır. Yəni ulduzların düzülüşü də Abbas Mirzənin şahlıq qismətindən xəbər verirdi. İsgəndər bəy Şah Abbas səltənətinin zühurunu, onun dövlətinin möhkəmliyini ulduzların inayəti ilə əlaqələndirirdi. Mənbə müəllifi öz fikrini belə əsaslandırırdı: "Bəsirət sahibi olan şəxslərdən gizli deyil ki, hər sabiq padşahın adının əvvəlinə

"sahibqran" sözü artırılmışdır. Bu söz əksər halda [müxtəlif] bəzədilmələrlə münşi və katiblər tərəfindən işlədilmişdir, lakin, əlahəzrətin şəninə uyğun olan bu ifadə tamamilə haqlı yazılmışdır, çünki onun səadətli təvəllüdündən hal-hazıra qədər asimani ulduz yaxınlaşma və birləşmələri (qranat) baş vermişdir ki, onların hökmləri (ehkam) həqiqətən də o padşahın əhvalına uyğundur. Nücum elminin isbat etdiyinə görə, müxtəlif asimani qranlar iqtidarlı bir sahibqranın zühur etməsinə dəlalət edir. Mahir ulduzşünaslar əgər bu hadisəyə dərindən nəzər salsalar, görərlər ki, səltənətin zühuru və dövlətin möhkəmliyi o yüksək sifatlı zata ulduzların qranları nəticəsində inayət olunmuş, onun ləyaqətli xüsusiyyətləri məhz həmin qranların təsiri və hökmü ilə baş vermişdir" (3).

İsgəndər bəy Münşi yazırdı ki, hicri tarixi ilə 1012-ci ildə (`1603/04) üç ulduz qövsü bürcündə bir atəş parıldadı. Dövrünün təcrübəli və məşhur alimləri, xüsusilə onların arasında daha çox ad çıxarmış Mövlanə Məhyədin Ənarpiyazi bildirirdi ki, bu atəşin parıldaması əzəmətli bir dövlət başçısının meydana çıxacağından xəbər verirdi. Onun yazdığına görə, həmin dövlət adamının hakimiyyəti dövründə dünya dəyişəcək, dinlərdə və məzhəblərdə dəyişikliklər baş verəcək, insanlar arasında talanlar, qarətlər artacaqdır. Müəllif əlavə edirdi ki, doğrudan da Şah Abbasın hakimiyyəti illərində Azərbaycanda, Şirvanda və Gürcüstanda belə hadisələr baş vermişdi. Belə ki, Şah Abbasın hökmü nəticəsində bu ərazilərdə qeyri-islam dininə mənsub xeyli sayda insan islam dinini qəbul etdi, qoşunların bu məmləkətlərə tez-tez çıxarılması nəticəsində isə həmin ərazilərdə çoxlu sayda dağıntılar baş verdi. İsgəndər bəy Münşi sonra Şah Abbasın özünün də şahlığa qədərki həyatında çoxlu sayda sınaqlarla qarşılaşdığını bildirirdi. Onun qənaətincə, Abbas Mirzənin seçilmiş olması, onun taleyinə şahlıq qismətinin yazılması şahı bu sınaqlardan qoruya bildi. Adı çəkilən müəllif Şah Abbasın yeddi ciddi sınaqla qarşılaşdığını bildirirdi. Həmin sınaqlar onun tərəfindən belə təsvir edilmişdir: "Birincisi: Körpəlikdən ana-atadan ayrılmaq böyük məhrumiyyət (şədayed)

və kədərdir ki, həyatının başlanğıcında (bədayət) o həzrətə üz vermişdir.

İkincisi: İsmayıl Mirzənin hakimiyyəti zamanı şahzadələrin qətli həyata keçirilmişdir ki, [o həzrət] bu pis əməli öz gələcək mətləbinə qeyri-müvafiq bilmişdir. Onun lələsi Şahqulu Sultan Yegan da [o vaxt] Heratda qətlə yetirildi, amma Allah o zatın yeganə hamisi olmuş, yüksək məqamlar arzusunda olan dünyapərəst, xudbin, özündənrazı cahillərin gözləri qarşısına hicab pərdəsi tutduğundan [Şah Abbas] düşmənlərin məkr və təhlükələrindən qurtula bildi.

Üçüncüsü: Ən böyük təhlükə [isə] bu olmuşdur: Xalq arasında yayılan söhbətlərə görə Əliqulu xan Şamlı İsmayıl Mirzə tərəfindən bu alçaq işin (Abbas Mirzənin öldürülməsinin - red.) yerinə yetirilməsi üçün göndərildi. O, mübarək ramazan ayında Herata çatdı, asimani göstərişlərlə -Görək nə doğacaq hamilə gecə- [deyiminin] məzmununa əməl edərək, bərk qorxu ilə ramazan ayının bitməsini gözləməyə başladı. O bəyənilməz işin baş verəcəyi gecə ay kimi nurlu bir qasid sürətlə gələrək, İsmayıl Mirzənin vəfatı və [Abbas Mirzənin] nicatı barədə müjdə gətirdi. Həqiqətən də, bu hadisənin baş verməsi sahibqranın qəribə hallarındandır.

Dördüncüsü: Xorasan və İraq əmirləri arasında İlahi təqdirin hökmü ilə başlayan müxalifətə görə, yuxarıda yazıldığı kimi, İsgəndər şanlı nəvvab və ali məkanlı şahzadə Sultan Məhəmməd Mirzə Xorasana ləşkər çəkdi, tərəflər arasında Ğuryan [vilayətinin] Tirpol adlanan yerində qızğın hərb baş verdi, nəticədə Xorasan ləşkəri məğlubiyyətə uğradı. Bu vaxt az yaşlı əlahəzrət bir neçə mülazimi ilə həmin xətərli mərəkədən salamat qurtula bildi.

Beşincisi: Əlahəzrət Heratda yaşayırdı. Onun qəza lövhəsində həmin şəhərin özbəklər tərəfindən tutulacağı və mühasirəyə düşəcək adamların qətl və əsir olacaqları haqqında sözlər yazılmışdı. Bir-birləri ilə iki dost olan Əliqulu xan Lələ və Mürşüdqulu xan arasında vəhşət və inadkarlıq yarandı, işlər qətllə nəticələndi. [O zaman] İlahinin təqdiri ilə o həzrətin səadətli bayrağının kölgəsi altında olan şamlı tayfası bərk gözə gələrək (çeşme-zəxme-qəvi)

qəhrə məruz qaldı. O mərəkədə əlahəzrətin zirehli döyüş libasına (dər) bir neçə yerdən ox və nizə zərbələri dəyməsinə baxmayaraq onun müqəddəs zatına heç bir xətər toxunmadı. O həzrət əl-cinn və-l-ünsün (İmam Rzanın - red.) müqəddəs ruhunun cazibə qüvvəsi müqəddəs Məşhədə təşrif apardı, beləliklə də, həmin iki böyük xətadan sağ-salamat qurtardı.

Altıncısı: O həzrətə böyük (əzim) xəstəliklərin üz verməsinə baxmayaraq, Allahın inayəti sayəsində şəfa tapdı. Şirazda atdan yıxılıb bir neçə müddət yatağa düşdüsə də İlahinin iltifatı onu qorudu.

Yeddincisi: Müqəddəs məiyyətin mülazimləri Cığaloğlu ilə cəng zamanı bir neçə əsiri şaha göstərmək üçün gətirdikləri vaxt mokri kürdlərindən iri cüssəli və qüvvəli bir adam öz uzun qılıncı çəkməsindən (muze) iti bir xəncər çıxarıb o həzrətin üstünə cumdu, özünü onun bənzərsiz bədəninə çatdırdı. O həzrət isə İlahi inayətin köməyi və sonsuz mərhəməti ilə həmin bədniyyət adamın əlini öz mübarək əliylə sıxaraq, xəncəri onun əlindən çəkib aldı, böyük məkr şahın mübarək zatına pislik gətirə bilmədi" (4).

Əslində, Şah Abbasın səltənət taxtına çıxması özü də onun həyatının ən böyük sınaqlarından biri idi. Şah Məhəmməd Xudabəndənin dövründə baş verən qarışıqlıqlar hakimiyyəti kifayət qədər zəiflətmiş, qızılbaş əmirlərinin nüfuz üstündə mübarizəsi xeyli kəskinləşmişdi. Bu mübarizənin gedişində Abbas Mirzənin ələ keçirilərək qətlə yetirilməsi risqləri də artmışdı. Onun şahlıq taxtına çıxması ərəfəsində səltənət daxilində real olaraq ikihakimiyyətlilik yaranmışdı. Hakimiyyət və nüfuz uğrunda mübarizəyə qoşulan qızılbaş əmirlərinin bir hissəsi Şah Məhəmməd Xudabəndə, bir hissəsi isə Abbas Mirzə ətrafında toplaşmışdılar. Bu dəstələrdən birinin üstünlüyünün digərinin məhvinə yol açacağı da şübhə doğurmurdu. Abbas Mirzə də bu mübarizənin mərkəzində idi. Doğrudur, Abbas Mirzənin taxta çıxması, Şah Məhəmməd Xudabəndənin hakimiyyətdən əl çəkməsi və onun ətrafına toplanmış olan iddialı şamlı və ustaclı əmirlərinin qətlə yetirilməsi Şah Abbas hakimiyyətinə qarşı istiqamətlənmuş müxalifəti bir qədər zəif-

lətdi. Amma bununla, Şah Abbasın hakimiyyətinin sabit davamı üçün heç də münasib şərait meydana gəlmədi. Bir tərəfdən vilayət hakimlərinin iki cəbhəyə bölünməsi halı aradan qaldırılmamışdı və şah hakimiyyəti səltənət daxilində elə də möhkəm deyildi. Bir tərəfdən Mürşüdqulu xan hüdudsuz səlahiyyətlər əldə etdi. Şah Abbasın hakimiyyətinin ilk vaxtlarında səltənət Mürşüdqulu xan tərəfindən idarə olunurdu və Şah Abbasın şahlığı formal xarakter alırdı. Şah Abbas bunu heç də normal hal saymırdı. Digər tərəfdən səltənətin bəzi əraziləri qonşu dövlətlərin nəzarəti altına düşmüşdü. Şirvanın böyük hissəsi Osmanlı qoşunlarının nəzarəti altında idi. Xorasana isə özbək qoşunları yürüş etmişdilər. Məlumdur ki, Abbas Mirzənin Mürşüdqulu xanın müşayiəti ilə Qəzvinə doğru hərəkətə başlamasının bir səbəbi də Abdulla xanın rəhbərliyi altında olan özbək qoşunlarının Xorasan üzərinə yürüşə başlaması idi (5).

Səltənətin daxilində də parçalanmalar baş alıb gedirdi. Xüsusilə, Qəzvindən uzaq olan vilayətlərin hakimləri mərkəzi hakimiyyətə itaətsizlik göstərir və onlar özlərini müstəqil hakimlər hesab edirdilər. Bir vilayətdə baş qaldıran qiyam yatırılmamış, səltənətin digər bir vilayətində qiyam özünü göstərirdi. Şahıdlərin yazdıqlarına görə, Şah Abbas hakimiyyəti əlinə alanda səltənət 20 vilayətə bölünmüşdü və bu vilayətlərin hakimləri özlərini müstəqil sayırdılar. Eyni zamanda bu vilayətlərin hakimləri bir-biri ilə nifaqda olmaqla davamlı şəkildə müharibələrə qatılırdılar (6).

“Dünyanı bəzəyən Abbasın tarixi” müəllifinin yazdığına görə, şahlıq taxtına çıxanda Şah Abbasın səltənət idarəçiliyində kifayət qədər təcrübəsi yox idi. Ona görə o özü Mürşüdqulu xana cahandarlıq işlərinin nizamlanması məsələlərini həvalə etdi. Nəticədə Mürşüdqulu xanın əzəməti və iqtidarı da günü-gündən artdı və səltənət idarəçiliyində söz sahibinə çevrildi. Şah Abbasın şahlığının ilk vaxtlarında Mürşüdqulu xan dövlətxanada yaşayırdı. Dövlətxananın bütün vəzifəli adamları da onun rəhbərliyi altında öz işlərini qururdular. Hər gün səltənətin yüksək vəzifəli əyanları onun yanına gəlir və ondan göstərişlər alırdılar. Bir müddətdən sonra

isə Mürşüdqulu xan dövlətxananı tərk etdi və Şah Abbasın bibisi, Şah Təhmasibin qızı Pərixan xanımın dövlətxanaya bitişik olan imarətində məskən saldı. Onun nəzarəti altında vilayət hakimləri olan qızılbaş əmirləri dövlətxanaya gəlir və şah öz itaətlərini bəyan edirdilər. Onların arasında Kirmandan Vəli xan Əfşar, Əbrquhdan Qulu bəy Qorçibaşı Əfşarın oğlu Yusif xan, Şirazdan Mehdiqulu xan Zülqədər və Mirzə Salmanın oğlu Mirzə Abdulla, Qumdan Şahqulu Xəlifə Zülqədər Möhürdarın nəvəsi Əliqulu Sultan, Astaradan Əmir Həmzə xan Talış, Ərdəbildən Məhəmməd xan Türkman da var idi (7).

Şahlığının elə ilk günlərində Şah Abbasa saray mənsubları tərəfindən evlənmək və iki xanımla eyni vaxtda nikah kəsdirmək təklif olundu. Şah Abbas da bu təklifi qəbul etdi. Nikah bağlaması üçün ona təklif olunan xanımların hər ikisi Səfəvi xanədanının nümayəndələri idilər. Onlardan biri Şah Təhmasibin oğlu Sultan Mustafa Mirzənin qızı idi. Yəni bu xanım Şah Abbasın əmisi qızı idi. Digər xanım isə mərhum qardaşı Həmzə Mirzənin xanımı idi və Şah Abbas onunla nikah bağlamağa etiraz etmədi. O isə Şah İsmayılın oğlu olan Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzənin qızı idi. Bu nikahlarla bağlı Qəzvinin "Səadətabad bağı"nda və "At meydanı"nda üç gün toy çalındı, məclis quruldu, şəhər əhli şadyanalıq keçirdi. Üç gündən sonra nikaha olunan xanımlar şah hərəmxanasına gətirildilər (8).

Bəzi məlumatlara görə isə, Şah Abbasın yenidən nikah kəsdirməsi Mürşüdqulu xanın təşəbbüsü idi. Bununla o istəyirdi ki, Şah Abbasın başı daha çox hərəmxanaya qarışsın və Mürşüdqulu xanın səltənət idarəçiliyinə mane olmasın. Şah Abbas Xorasanda olarkən artıq bir dəfə nikah kəsdirmişdi. Orada nikaha aldığı xanımın milliyətcə çərkəz olduğu bildirilir. Məşhədi tərk etmək ərəfəsində Şah Abbasın ilk övladı olan Səfi Mirzə dünyaya gəlmişdi. Şah elan olunandan sonra isə eyni vaxtda iki xanım ona nikah etdirildi. Mövcud olan məlumata görə, nikah etdirdiyi xanımlardan biri Həmzə Mirzənin nikahında olmuş xanım Oğlanpaşa xanım adlanırdı (9).

Toy məclisini başa vurandan sonra Şah Abbas səltənətin yüksək vəzifələrini onun şahlığa gətirilməsində xidməti olan əmirlərə, Şah Abbas hakimiyyətinə sədaqətli bilinən insanlara payladı. Bu vəzifələrin bölüşdürülməsində Mürşüdqulu xan söz sahibi idi və ona görə onun dostları, yaxınları daha yüksək vəzifələrə sahib ola bildilər. Vilayətlər də yeni insanlar arasında bölüşdürüldü. Səltənətin ən sərvətli məkanlarından biri olan İsfahanı Mürşüdqulu xan özünə götürdü. İsfahan və onun ətrafı bir qayda olaraq şahzadələrə verilirdi. Şah Məhəmməd Xudabəndənin dövründə İsfahan əvvəlcə Həmzə Mirzəyə, sonra isə Əbu Talib Mirzəyə mənsub olmuşdu. İsgəndər bəy Münşi öz əsərində Mürşüdqulu xanın İsfahanı özünə götürməsini ədəbsizlik və səhv addım kimi qiymətləndirirdi. Başqa vilayətlər də Mürşüdqulu xanın və sarayın yaxınları arasında bölüşdürüldü. Yeni vilayət hakimlərinə tapşırıldı ki, təyin edildikləri vilayətə sahib olsunlar və dərhal da Xorasan üzərinə hərbi yürüş etmək üçün qoşun toplamağa başlasınlar. Bu yürüş özbək qoşunlarının Xorasan vilayətindən uzaqlaşdırılması üçün olmalı idi (10).

Şah Abbasın Xorasana yürüş etməkdə məqsədinin biri də Herat hakimi Əliqulu xana öz rəğbətini nümayiş etdirmək idi. O, uşaqlıq həyatının böyük bir hissəsini Əliqulu xanın yanında keçirmişdi və ona xüsusi bir münasibəti var idi. Yuxarıda yazılanlardan məlumdur ki, Abbas Mirzə təsadüf nəticəsində Mürşüdqulu xanın əlinə düşmüşdü. Uşaqlığı şamlı tayfası daxilində keçdiyindən Şah Abbas bu tayfanı özünə daha yaxın bilirdi. Herat hakimi Əliqulu xan da şamlı tayfasının nümayəndəsi idi. Mürşüdqulu xan isə məlum olduğu kimi, ustaclı tayfasından idi və bu tayfa ilə şamlı tayfası arasında olan ixtilafda Şah Abbas Əliqulu xanın yanında olmağa daha çox üstünlük verirdi. Amma hadisələr elə gətirdi ki, Mürşüdqulu xan səltənət idarəçiliyində daha üstün mövqe tutdu. İlk vaxtlar Şah Abbas bu vəziyyətlə razılaşırdı və səltənət idarəçiliyində Mürşüdqulu xanın təcrübəsinə ehtiyac duyduğu üçün onun söz sahibi olmasını qəbul edirdi. Saray ətrafında olan əmri və əyanların bir hissəsi isə Mürşüdqulu xanın hökm sahibi olmasını

qəbul edə bilmirdilər. Mürşüdqulu xan səltənət idarəçiliyinin yüksək vəzifələrini öz yaxınlarına paylasa da, bütün vəzifələrə öz adamlarını təyin edə bilməmişdi. Yəni ona qarşı ola biləcək bütün narazılıqlar aradan qaldırmağa imkan tapmamışdı. Şah Abbasla Mürşüdqulu xanın arasındakı münasibətlərin mahiyyətinə bələd olan bir sıra xanlar Mürşüdqulu xanın aradan götürülməsi üçün planlar qurmağa başladılar. Bu planın təşəbbüskarlarına Pirğeyb xan və onun qardaşı rəhbərlik edirdi. Pirğeyb xan və onun qardaşı, habelə onları dəstəkləyən əmirlər yaxşı bilirdilər ki, Şah Abbasın da Mürşüdqulu xandan xoşu gəlmir və onların Mürşüdqulu xana qarşı qurduqları sui-qəsd planı şah tərəfindən də dəstəklənəcəkdir. Mürşüdqulu xanın aradan götürülməsi sui-qəsddə iştirak edən əmirlərin gələcəkdə yüksək vəzifə ələ keçirmək şanslarını da artıra bilərdi. Səltənətin ali divan rəhbəri vəzifəsini ələ keçirmək istəyində olan Mirzə Abdullanın təhriki ilə Şiraz hakimi olan Mehdiqulu xan, qorçubaşı Yusif xan, möhürdar Əliqulu sultan Zülqədər, habelə Əbülməsum Türkman və kor Qorxmaz Xüləfa öz aralarında razılığa gələrək Mürşüdqulu xanın aradan götürülməsi üçün münasib anı gözləməyə başladılar. Nəhayət belə bir münasib an yetişdi. Həmin günlərdə dövrünün tanınmış seyidlərindən olan Mirzə Məhəmməd Əmin İsfahandan Qəzvinə gəlməli idi. Mürşüdqulu xan da onu qarşılayanlar arasında olmalı idi. Sui-qəsd hazırlayan əmirlər belə hesab etdilər ki, Mürşüdqulu xan adı çəkilən seyidi qarşılamağa çıxanda onun atını dövrəyə alsınlar və Mürşüdqulu xanı qətlə yetirsinlər (11).

Bu sui-qəsddən xəbərdar olan bir neçə adam məsələni Mürşüdqulu xana çatdırdılar. O da adı çəkilən seyidin qarşılanmasına getməkdən imtina etdi. Mürşüdqulu xan özünü Şah Abbasın yanına çatdırdı və qızılbaş əmirlərinin ona qarşı sui-qəsd təşkil etmələri barədə məlumat verdi. Üsyankar əmirlər də Mürşüdqulu xanın qətl məsələsi haqqında məlumat almasından xəbərdar oldular. Onlar Yusif xan Qorçubaşının evində toplaşıb görəcəkləri işlər barədə tədbir tökməyə başladılar. Qərara alındı ki, onlar öz tərəfdarlarını toplayıb dövlətxanaya yollansınlar və Mürşüdqulu xanı ələ

keçirsinlər. Üsyankar əmirlər əmin idilər ki, Şah Abbasın Mürşüdqulu xana qarşı rəğbətli münasibəti olmadığı üçün onun qətlini dəstəkləyəcəkdir. Ona görə də dərhal hərəkətə keçdilər. Eşikağası və qapıçılar üsyankar əmirlərin dəstəsinə mane olmağa çalışsalar da buna müvəffəq ola bilmədilər. Onlar irəli hərəkət edib silahlı şəkildə "Çehelsütun" sarayına daxil oldular. Amma Şah Abbas üsyankar xanları dəstəkləmədi və bu məsələdə Mürşüdqulu xanın tərəfində oldu. Mürşüdqulu xanı öldürməyə cəhd edən əmirlərin və əyanların hərəkəti heç də Şah Abbasın xoşuna gəlmədi. Belə bir özbaşınalıq, saymazlıq və bir də üsyankar əmirlərin keçmişi Şah Abbası başqa bir qərar qəbul etməyə sövq etdi. Onun nəzərində bu gün üsyan qaldıran əmirlər yüksək vəzifələrə təyinat alacaqları təqdirdə gələcəkdə də özbaşınalıqlar edə bilərdilər. Çünki belə hallar onun atasının da hakimiyyəti dövründə baş vermişdi. Məhz belə iddialı əmir və əyanların məkrli addımları nəticəsində Şah Abbasın anası və qardaşı Həmzə Mirzə qətlə yetirilmiş və sonra da bu qətlləri təşkil edənlər Şah Məhəmməd Xudabəndəni öz təsirləri altına almışdılar. Belə bir vəziyyətlə qarşılaşmamaq üçün Şah Abbas onların özlərini aradan qaldırmaq hökmü verdi. Şah Abbasa görə, bu üsyankarların aradan qaldırılması səltənət daxilində sabitliyin yaradılması yolunda atılmış bir addım olardı. Baş verən hadisə isə həmin əmirlərin aradan qaldırılması üçün əlverişli bir fürsət idi (12).

Üsyankar əmirlərin öz dəstələri ilə "Çehelsütun" sarayına gəlməsi xəbərini alanda Şah Abbas onların yanına adam göndərdi və onlardan nə məqsədlə saraya gəlmələrini soruşdu. Üsyankar əmirlər öz məqsədlərini açıb ortaya qoya bilmədilər, cəsarət edib öz planlarının həyata keçirilməsi üçün addım atmadılar. Onlar belə qərara gəldilər ki, Mürşüdqulu xanın qətlini başqa vaxta da təxirə salmaq olar. Şahın göndərdiyi adama isə belə bir cavab verdilər ki, İsfahandan gəlməkdə olan Mirzə Məhəmməd Əmini qarşılamaq istəyirlər və Mürşüdqulu xanla birlikdə qarşılanma mərasimində iştirak etməyi arzulayırlar. Üsyankarlar onu da bildirdilər ki, əgər şah razı olmasa onda çəkilib gedə bilərlər. Şah Abbas da

onlara xəbər göndərdi ki, hazırda Mürşüdqulu xan ciddi tapşırıqların icrası ilə məşğuldur və adı çəkilən seyidin qarşılanmasında iştirak edə bilməyəcəkdir. Eyni zamanda üsyankarlara izn verdi ki, qarşılanma mərasiminə Mürşüdqulu xan olmadan getsinlər. Üsyankarlar da qətl planından əl çəkib İsfahandan gələn seyidin qarşılanmasına yollandılar, onun qarşılanmasında iştirak edəndən sonra yenidən bir yerə toplaşdılar və nə etməli olacaqlarını götür-qoy etməyə başladılar. Üsyankar xanlar və əmirlər əslində, özləri üçün geri çəkilmək yolu qoymamışdılar. Onların qətl planından həm şah, həm də Mürşüdqulu xan xəbər tutmuşdu və şübhə yox idi ki, Mürşüdqulu xan onlara qarşı ciddi addımlar atacaqdı. Üsyankar xanlar ya Mürşüdqulu xanı aradan götürməli idilər, ya da özləri Mürşüdqulu xanın qurbanı olmalı idilər. Onlar hamılıqla "Səadətabad bağına gəldilər, öz qüvvələrini nəzərdən keçirdilər və belə qərara gəldilər ki, Mürşüdqulu xanın qətlini həyata keçirmək üçün silahlı adamların sayını daha da artırsınlar. Bu üsyankar xanlar onu da anladılar ki, ilk fürsətin əldən verilməsi onların vəziyyətini daha da çətinləşdirmişdir. Üsyankar xanlar Mürşüdqulu xanı aradan götürmək üçün üsyana hazırlaşdıqlarını gizlədə də bilmədilər. Görünür, bu üsyanla bağlı geniş hazırlıq işləri gorulürmüş və bundan narahat olan Şah Abbas sarayın nüfuzlu əmirlərindən olan Həmədan hakimi Qorxmaz xan Şamlını üsyankar əmirlərin yanına göndərdi ki, onların məqsədindən bir xəbər tutsun. Üsyankar əmirlər bu dəfə öz niyyətlərini gizlətmədilər və bildirdilər ki, məqsədləri Mürşüdqulu xanı aradan götürməkdir. Onlar dedilər ki, əlahəzrət şahın bəndələri ilə olduqca pis davranan Mürşüdqulu xanın iqtidar sahibi olmasını istəmirlər və ona qarşı əlbir olublar. Öz məqsədlərini açıqlayanda üsyankar əmirlər hələ də Şah Abbasın onları dəstəkləyəcəklərinə ümid edirdilər. Amma Şah Abbasın onlara göndərdiyi cavab tam fərqli oldu. Səfəvi şahı bir dəstə qızılbaş əmirinin yenidən üsyan qaldırması, şahın iradəsini nəzərə almadan böyük iddialara düşməsi planını qəbul etmədi və əvvəlcə onları dinc şəkildə tutduqları yoldan çəkindirməyə çalışdı. Şah Abbas onlara öz fikrini belə çatdırdı:

“Əlahəzrət buyurdu ki, sizlər bu dərgahın mülazimlərisiniz. Əgər dövlətxanə barədə bir fikir xatirinizə düşərsə, yaxud Mürşidqulu xanın, ya başqa adamların iş rəftarından nəsə bir şikayətiniz olarsa, qayda belədir ki, yalnız bizə ərz etdikdən sonra fərmanımıza uyğun olaraq nəyinsə icrasına başlaya bilərsiniz. Özbaşınalıq edib qızılbaşların arasına fitnə-fəsad salmaq və qoşun çəkmək isə üsyan və tüğyan deməkdir” (13).

Şah Abbasa görə, bu adamlar ətraflarına böyük qüvvə topladıqdan sonra başqa iddialara da düşə bilərdilər. O cümlədən, onların üsyanı şaha qarşı çevrilə və qardaşlarından biri Şah Abbasın yerinə taxta çıxarıla bilərdi. Sonra isə yeni şahı onlar öz təsiri altına ala bilərdilər. Ona görə də şah tez bir zamanda bu dəstəni zərərsizləşdirmək qərarına gəldi. Şahın əmrinə əsasən carçılar şəhər əhli arasında car çəkdilər ki, şahı sevənlər şah sarayına gəlsinlər. Bu çağırışı eşidən qızılbaşlar qısa zaman ərzində dəstə-dəstə Qəzvinin “At meydanı”na toplaşdılar. Şahı müdafiəyə qalxanları sayı o dərəcədə artdı ki, üsyankar qüvvələr onların qarşısında ümidində olduğu nəticəyə çata bilməyəcəklərini anladılar. Onların növbəti cəhdi uğursuzluğa düçar oldu. Belə olanda üsyankar əmirlər və xanlar Qorxmaz xan Şamlını yanlarına çağırdılar və onun vasitəsilə Şah Abbasa bunları çatdırmağa çalışdılar: “Bizim sədaqət və qulamlığımızda heç bir qüsur ola bilməz, nəvvab şahdan da olduqca razıyıq, amma biz Mürşüdqulu xandan incimişik. O, bizimlə yersiz rəftar etmişdir. Bizim hər birimiz yüksək divanın ali mənsəblərinə münasib adam olduğumuza baxmayaraq, bizi həmin mənsəblərə münasib bilmir və heç birimizə öz işimiz verilməyibdir. Ondan [Mürşidqulu xandan - Ş.F.] çoxlu hörmət-izzət görmək istəyimizə baxmayaraq, bunu az hiss edirik. Xahişimiz budur ki, əlahəzrətin biz bəndələri onun yanına gedək və məğlubedilməz dövlətin ləyaqətinə uyğun olaraq aramızdakı bütün narazılıqlar həll edilsin” (14).

Üsyankar əmirlər və xanlar bu dəfə də ehtiyatsız hərəkət etdilər. Onlar öz niyyətlərinin icrası üçün qətiyyət göstərmək əvəzinə yenə də gözləməyi üstün tutdular. Bu əmirlər qərara gəldilər

ki, bir gün Qorxmaz xana qonaq olsunlar və səhərin gəlişini gözləsinlər. Onlarda belə bir ümid var idi ki, Mürşüdqulu xan da onların üsyanından qorxuya düşəcək, onları yanına çağıracaq və onlarla dil tapacaqdır. Ola bilsin ki, əmirlərin qonaq dəvət edilməsi həm də Qorxmaz xanın təşəbbüsü idi. Bu yolla həm vaxt qazanmaq, həm şah tərəfdarlarının sayını artırmaq, həm də üsyankar əmirlərin sayıqlığını kütləşdirmək mümkün idi. Üsyankar əmirlər öz üsyanlarını başa çatdırmamış Qorxmaz xanın evinə yollandılar, gecəni orada qaldılar. Heç şübhəsiz ki, həmin gün ərzində bu üsyankar əmirlərə qarşı hansı tədbirlərin həyata keçirilməsi istiqamətində şah sarayı tərəfindən də müəyyən hazırlıqlar aparıldı. Dövlətxana ətrafına toplaşmış olan şah tərəfdarları isə o gecə sübhə qədər oradan getmədilər. Onlar ehtiyat edirdilər ki, elə gecə ikən üsyankar əmirlər əməli işə keçə bilərlər. Buna görə də onlar dövlətxananın mühafizəsində dayandılar. Səhəri gün isə üsyankar əmirlərin və xanların nümayəndəsi kimi Şiraz hakimi Mehdiqulu xan şahın hüzuruna yollandı və üsyankar əmirlərin istəklərini şaha belə bəyan etdi: "Mürşüdqulu xan şaha heç nəyi bildirmədən öz xeyri naminə məmləkətin bütün işlərini aparır, şahın mübarək möhürlərini boynundan asıb, hər şeyi öz bildiyi kimi həll edir. Qayda isə belə olmalıdır ki, bundan sonra Mürşüdqulu xan möhürləri öz yanında saxlamasın və onları cənnətməkan şahın dövründə olduğu kimi şahın bəndələrinə versin və möhürlər hərəmxanada saxlanılsın, hər həftədə iki gün divan çağırılsın, divanda hər birinin öz mənsəbi olan və öz oymaqlarının ağsaqqallığını edən əzəmətli əmirlər toplaşsınlar, hər tayfanın ülka və qoşun işləri tayfa ağsaqqallarının məsləhəti və təsdiqi ilə həyata keçsin ki, qorçibaşının, əzəmətli qorçilərin, dövlətin sütunları olan hər bir əmirin öz el və oymaqları içərisində izzəti və ehtiramı olsun" (15).

Üsyankar əmirlər bununla, əslində, şah qarşısında tələblər qoydular və həmin tələblərin həyata keçirilməsini istədilər. Onlar Mürşüdqulu xana qarşı da ciddi ittihamlar irəli sürdülər. Mehdiqulu xan Zülqədər Şiraz hakimliyinə Mürşüdqulu xan tərəfindən təyin etdirilmişdi. Amma görünür, o, daha böyük iddialara malik

idi və ona görə də ona qarşı üsyana başlamışdı. Mehdiqulu xan yaxşı bilirdi ki, daha böyük iddiaların həyata keçirilməsi üçün ilk növbədə Mürşüdqulu xanı aradan götürmək lazımdır. Mehdiqulu xan üsyankar əmirlərin tələbini səsləndirdiyi zaman Mürşüdqulu xan da şahın yanında öz yerini tutmuşdu. Şah Abbas üsyankar əmirlərin irəli sürdüyü tələbləri qəzəblə qarşıladı və onların belə bir fikrə düşmələrini mərkəzi hakimiyyətə qarşı üsyan kimi dəyərləndirdi. Yenicə hakimiyyətə gəlmiş Səfəvi şahı səltənət daxilində yeni bir parçalanmanın baş verməsini sözsüz ki, istəmirdi və ona görə o öz narazılığını Mehdiqulu xana da bildirdi. Şah Abbas hələ atası Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə də qızılbaş əmirlərinin səltənət idarəçiliyinə müdaxilələrinin baş verdiyini xatırlatdı və belə müdaxilələrdən yaranan fitnə-fəsadın təkrar olunmamasına təkid etdi. O eyni zamanda Mürşüdqulu xanı da müdafiə etdi: "İsgəndər şanlı nəvvabın dövründə də əmirlərin iqtidarı, onların işlərə dəxalət etmələri və bir-birilərinə qarşı olan narazılıqlarının qarşısının alınmasından ötrü qızılbaşların arasında bir neçə dəfə fitnə-fəsad törəndi ki, hal-hazırda elə işləri unutmaq lazımdır. Çünki, hər işin ixtiyarı padşahın əlindədir. Biz isə Mürşüdqulu xanı etimad sahibi kimi qəbul edib, işlərin icrasını ona tapşırmışıq" (16).

Şah hüzurunda olarkən Mehdiqulu xanla Mürşüdqulu xanın sözləri düz gəlmədi. Mehdiqulu xan şah hüzurunda adi nəzakət qaydalarını gözləmədən Mürşüdqulu xana qarşı kobud sözlər işlətdi. Bunu eşidincə Şah Abbas daha da qəzəbləndi və onun bu qəzəbi Mehdiqulu xanın həyatının itirməsi ilə nəticələndi. Şah Abbas onun nəzakətsizliyinə belə cavab verdi: "Ey fitnə-fəsad sahibi olan kişicığaz, biz səni Şiraz əyalətinə göndərib, xan rütbəsinə layiq görmüşük. Bundan artıq nə istəyirsən ki, qızılbaşlar arasında fitnə-fəsad törədirsən? Özbaşınalıq edən siz kimi adamların vücudları dövlət gülzarının tikanlandırlar" (17).

Elə oradaca Mehdiqulu xanın qətlinə fərman verildi. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə bir müddət Şiraz hakimi olmuş, sonradan isə Xorasanda Abbas Mirzənin xidmətinə

göndərilmiş Yaqub xan Zülqədərə şah tərəfindən tapşırıq verildi ki, Mehdiqulu xanın həyatına son qoysun. Bundan əvvəl isə şah hökm verərək Yaqub xan Zülqədəri həm də yeni Şiraz hakimi vəzifəsinə təyin etdi. Yaqub xan da dərhal şah hökmünü icra etdi, Mehdiqulu xanın əl-qolunu bağladı, başındakı tacını çıxardı və sonra da həyatına son qoydu. Baş vermiş üsyanın birdəfəlik aradan qaldırılması üçün Şah Abbas həmin üsyanın iştirakçıları olan böyük xanları və əmirləri də vəzifələrindən azad etdi və onların yerinə yeni qızılbaş əmirləri təyin edildi. Şah Abbas xidmətində olan bir sıra cavan əmirlərə isə tapşırıq verildi ki, üsyan qaldırmış qızılbaş əmirlərini tutub qətlə yetirsinlər. Bu tapşırığı almış qızılbaş əmirləri dərhal atlanıb Qorxmaz xanın evinə yollandılar ki, üsyankar əmirləri ələ keçirib qətlə yetirsinlər (18).

Qorxmaz xanın evində Mehdiqulu xanın qayıtmasını gözləyən üsyankar əmirlər şah sarayında baş verəndən xəbər tutduqda qorxuya düşdülər. Onlar dərhal Qorxmaz xanın evini tərk edib Qəzvin dağlarına tərəf irəliləməyə başladılar. Bu əmirlərin məqsədi Gilan meşələrinə yetişmək və orada şah adamlarının təqibindən yaxa qurtarmaq idi. Bu əmirlərin qətli üçün şah tərəfindən vəzifələndirilmiş cavan əmirlər isə dövlətxana ətrafına toplaşmış şahı sevənlərlə birlikdə onların təqibinə başladılar. Üsyankar əmirlərin bütün cəhdlərinə baxmayaraq, onlar şah adamlarının təqibindən yaxa qurtara bilmədilər. Şah adamları onları haqlaya bildi və onlar arasında döyüş başladı. Üsyankarlardan bir çoxu bu döyüşdə qətlə yetirildilər. Bəziləri isə bu döyüşdə uduzacaqlarını gördükləri üçün silahı yerə qoymağa üstünlük verdilər. Bu əmirlər şah sarayına gətirildilər. Onlardan yalnız Yusif xan Qorçubaşı və Pirğeyb xanın oğlu Əmiraslan xan şahın şəfqəti ilə qarışılaşdılar. Digər qızılbaş əmirləri hamısı qətlə yetirildilər. Əmiraslan xan həbs olunub qalaya salındı. Ancaq bir müddət sonra o da qətlə yetirildi (19).

"Nəqavətül-əsar" əsərində üsyankar əmirlərlə bağı olan hadisə bir qədər fərqli şəkildə verilmişdir. Bu əsərdəki məlumata görə, Fars hakimi Mehdiqulu xan, Yəzddən Yusif bəy Qorçubaşı əslin-

də Şah Abbasın taxta çıxmasını təbrik məqsədilə Qəzvinə tərəf yola düşmüşdülər. Onlar İsfahana çatdıqda bu şəhərdə istirahətə dayanmaq istədilər. İsfahan hakimliyini həyata keçirən və bu vəzifəyə Əbu Talib Mirzə tərəfindən təyin edilən İbrahim xan əvvəlcə onları şəhərə buraxmaq istəmədi. Çox güman ki, İbrahim xan Əbu Talib Mirzənin adamı olduğu üçün Şah Abbası təbrikə yollanan əmirləri şəhərə buraxmaq istəmədi. O zaman İsfahan daxilində olan Ərəşli tayfa təmsilçiləri İbrahim xanın nəzərinə çatdırdılar ki, Şah Abbasa qarşı yanlış mövqe tutmaq və şəhər darvazalarını əmirlərin üzünə bağlamaq heç də yaxşı deyil. Bundan sonra İbrahim xan şəhər darvazalarını açdırdı və adları çəkilən əmirləri şəhərə buraxdırdı. Bu əmirlər üç gün İbrahim xanın qonağı olduqdan sonra Qəzvinə yollandılar, Şah Abbasın hüzuruna yol tapdılar, ona öz sədaqətlərini bəyan etdilər. Buradakı söhbətlər zamanı Mehdiqulu xan və onunla olan əmirlərin Mürşüdqulu xanın əsilnəsəbi, fəaliyyəti haqqında narazılıqları özünü göstərdi. Onların Mürşüdqulu xana qarşı olan ixtilafı da burada başladı. Bu əmirlərin ixtilaflı iddiaları səltənət vəziri Mirzə Məhəmmədə də çatdı. Mənbədə qeyd edilməsə də, görünür, Mehdiqulu xanın və onun ətrafındakı əmirlərin Mürşüdqulu xana qarşı düşüncələri ciddi xarakter aldı və onlar Mürşüdqulu xanın aradan götürülməsi qərarına gəldilər. Sonra bu əmirlər Qorxmaz xanın evinə yollandılar. Mənbədə olan məlumata görə, üsyankar əmirlər Qorxmaz xanı da öz tərəflərinə çəkmək istəyirlərmiş. Onlar hətta bu fikrə düşmüşdülər ki, əgər Qorxmaz xan onların tərəfinə keçməsə, onda ilkin olaraq onu qətlə yetirsinlər və sonra da Mürşüdqulu xanın məsələsini həll etsinlər. Qorxmaz xan onların niyyətlərini dərhal anladı və ona görə də onlara qarşı mehribanlıq göstərməyə çalışdı. Üsyankar əmirlərə qonaqlıq versə də, Qorxmaz xan fürsət tapıb adamlarından birini Mürşüdqulu xanın yanına göndərdi və onun evində qonaq olan əmirlərin niyyətlərini ona çatdırdı. Mürşüdqulu xan da dərhal bu barədə Şah Abbasa məlumat verdi. Şah Abbas isə bu məlumatı alandan sonra carçılar vasitəsilə şahı sevənlərin At meydanına çağırılmasına göstəriş verdi. O da bildirilir ki, üs-

yankar əmirlər Əliqulu sultan Möhürdarı göndərdilər ki, Mürşüdqulu xanın harada olmasını müəyyənləşdirsin. Əliqulu sultan isə At meydanına çatanda ora böyük bir izdihamın toplanması ilə qarşılaşdı. Burada təsadüfən Mürşüdqulu xan onu gördü və onun göstərişi ilə Əliqulu sultanı tutub başını bədənindən ayırdılar. Mehdiqulu xan və onun yanındakılar vəziyyətdən xəbər tutunda Qorxmaz xanın evini tərk edib qaçmağa çalışdılar. Amma Mürşüdqulu xanın göndərdiyi dəstə onları tutub qətlə yetirdi. Qorxmaz xanın bu məsələdə sayıqlıq göstərməsini Mürşüdqulu xan məmnunluqla qarşıladı və ona qarşı planlaşdırılan qətlin üstünün açılmasında göstərdiyi xidmətə görə Mürşüdqulu xan onu Həmədan hakimi təyin etdi (20).

Bu hadisələrdən sonra Mürşüdqulu xanın nüfuzu və hökmü səltənət idarəçiliyində daha da artdı. Şah Abbas da səltənətin idarəçiliyi naminə Mürşüdqulu xanın hökmünün artmasına qarşı hələlik dözümlü yanaşırdı və onun səltənət idarəçiliyi fəaliyyətinə lazımi imkanlar da açırdı. Müxalif xanların və üsyankar əmirlərin aradan qaldırılması səltənət idarəçiliyində də müəyyən bir sakitlik və sabitlik yaratdı. Şah Abbas da bundan istifadə edərək Xorasana qoşun çıxarmaq barəsində hazırlıqlara başlamaq əmri verdi.

Xorasan səfərinə yollanmazdan əvvəl isə Şah Abbas yaxın qohumları ilə bağlı bəzi qərarlar qəbul etdi. Şahın qardaşları həbsə alındı və Ələmut qalasına salındı. Şah Abbasın ən kiçik qardaşı Təhmasib Mirzə elə əvvəldən də bu qalada saxlanılırdı. Şah Məhəmməd Xudabəndə və onun hakimiyyəti zamanı səltənət vəliəhdi elan edilmiş Əbu Talib Mirzə də Ələmut qalasına göndərildi. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi İsgəndər bəy Münşinin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Şah Məhəmməd Xudabəndənin və Əbu Talib Mirzənin Ələmut qalasına göndərilməsi Mürşüdqulu xanın təşəbbüsü ilə baş vermişdi. Çünki o, Şah Abbasın Xorasan səfərində olduğu vaxt Qəzvində qalmış Şah Məhəmməd Xudabəndənin və Əbu Talib Mirzənin tərəfdarlarının saray çevrilişi edə biləcəklərindən qorxurdu: “Mürşüdqulu xan Xorasana yürüş üçün silah tədarükünü edib, hər gününü dö-

yüşçülərin yanında keçirirdi. Qızılbaşların fitnəsindən uzaq olmaq üçün İsgəndər şanlı nəvvabın və Əbu Talib Mirzənin yerini vəziyyətin başlanğıcında Təhmasib Mirzənin də salındığı Ələmut qalasında müəyyənləşdirdilər ki, [şah] Xorasan səfərindən qayıdana qədər qoy orada yaşasınlar. Amma, sonradan, Gilan bu qalaya yaxın olduğu üçün, ora məsləhət görülmədi və onları İraqın ortasında yerləşən və yaxşı evləri olan Reyin Vəramin qalasına apardılar. Ustaclı tayfasının hörmətli adamlarından və etibarlı şəxs olan Əhməd bəy Kərampanı həmin qalanı qorumaq və onlara xidmət etmək üçün Vəraminə göndərdilər" (21).

Mürşüdqulu xanın Ələmut qalasının Gilana yaxın olmasına görə narahatçılıq keçirməsi, Şah Məhəmməd Xudabəndənin qətlə yetirilimiş xanımı Xeyrannisə xanımın Gilandan olması ilə bağlı idi. Həm də Gilan valisi Şah Məhəmməd Xudabəndənin bacısı ilə evlənmişdi. Güman edilirdi ki, Gilanda yeni hakimiyyətə qarşı güclü müxalifət formalaşa bilər. Şah Məhəmməd Xudabəndənin və Əbu Talib Mirzənin Gilana gələcəkləri halda onlar burada formalaşmış müxalifətə rəhbərlik edə bilərdilər. Başqa bir mənbədə olan məlumata görə isə, qardaşlarının həbsə alınması Şah Abbasın təşəbbüsü idi və Şah Abbas hətta Əbu Talib Mirzə ilə Təhmasib Mirzənin gözlərinin kor edilməsinə də göstəriş verdi (22).

Bir məlumata görə isə, Şah Abbas taxta çıxandan iki ay sonra onun atası və qardaşları həbsə alındı. Həbsə alınanlar içərisində Şah Məhəmməd Xudabəndənin əmilərindən birisi, habelə qətlə yetirilmiş olan Həmzə Mirzənin İsmayıl və Heydər adlı kiçik övladları da var idi. Onlar da Ələmut qalasına göndərildilər (23).

Şah Abbasın yaxın ətrafı həbsə alındıqdan sonra Xorasan üzərinə hərbi yürüş hazırlıqları daha da genişləndi. Bu vilayətə qoşun çıxarmaqda Şah Abbasın iki başlıca məqsədi var idi. Bir məqsəd Xorasanın özbək qoşunlarından təmizlənməsi və bu vilayət üzərində şah hakimiyyətinin yenidən bərqərar edilməsi idi. Xorasan səltənətin böyük vilayətlərindən biri idi. Bu vilayət coğrafi mövqeyi, təsərrüfat imkanları və şiə etiqadı mərkəzi olmaq baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Xorasanın itirilməsi səltənətin

digər ərazilərini itirilməsinə də yol aça bilərdi. Digər tərəfdən Şah Abbasın həyatı körpəlik yaşlarından bu vilayətlə bağlı idi və bu vilayətin işğal altına düşməsi onu ciddi narahat edirdi.

Şah Abbasın Xorasana qoşun çıxarmaqda başqa bir məqsədi isə Herat hakimi Əliqulu xana kömək göstərmək istəyi idi. Şah Abbas taxt-taca Mürşüdqulu xanın vasitəsilə sahib olsa da Əliqulu xana qarşı doğma münasibəti qalmaqda idi. Şah Abbasın (Abbas Mirzənin) Mürşüdqulu xana qədərki həyatı Əliqulu xanla, onun anası və xanımı ilə bağlı idi. Herata gətiriləndə Abbas Mirzənin (Şah Abbasın) anadan olmasından bir il yarım keçmişdi. Əliqulu xanın anası Xanixan xanım onu analıq qayğısı ilə əhatə etmiş, öz südü ilə böyümüşdü. Şah Abbas ona öz anası kimi bağlanmışdı. Elə Əliqulu xanın xanımı Canağa xanım da Abbas Mirzəyə öz övladı kimi yanaşırdı və onun bütün qayğılarla əhatə etmişdi. Abbas Mirzə əslində, gözlərini açanda yanında Əliqulu xanla onun xanımını görmüşdü və onları özünə doğma insanlar kimi qəbul edirdi (24).

Şah Abbas taxt-tac ətrafında cərəyan edən hadisələri müəyyən qədər nizamladıqdan sonra sabiq lələsi Əliqulu xana kömək göstərmək qərarına gəldi. Əliqulu xan gözlənilməz şəkildə Abbas Mirzəni öz nəzarətindən çıxarmış olsa da onun Səfəvi taxt-tacına çıxmasına çox sevindi və o, əmin idi ki, Şah Abbas ona göstərilən qayğını heç zaman unutmaz. Ona görə Əliqulu xan özbək qoşunlarına qarşı mübarizənin təşkilində də Şah Abbasın ona kömək edəcəyinə böyük ümidlər bağlayırdı (25).

Xorasan üzərinə hazırlıq işlərinə Mürşüdqulu xan rəhbərlik edirdi. Amma o, mümkün olduqca bu yürüşü təxirə salmağa çalışırdı. Çünki Mürşüdqulu xan da Şah Abbasın Əliqulu xana böyük ehtiramından xəbərdar idi. O şübhə etmirdi ki, Əliqulu xan özbək qoşunlarının təhlükəsindən sağ-salamat qurtaracağı halda Şah Abbasın ən yaxın adamlarından birinə çevriləcəkdi. Bu isə Mürşüdqulu xanın taleyinə xoş səhifələr açmayacaqdı. Şah Abbasın ona müəyyən məsələlərdə etibar etməsi əslində, hakimiyyətin möhkəmləndirilməsi zərurətindən irəli gəlirdi. Bu məsələdə Şah Ab-

basın da başqa bir uyğun seçimi də yox idi. Bunu Mürşüdqulu xan da hiss edirdi. O, bir çox müxalifərini aradan qaldırmaqla səltənət idarəçiliyindəki nüfuzunu da ciddi şəkildə möhkəmləndirə bilmişdi. Bununla belə, Əliqulu xanın mövcudluğu onun böyük iddialarının üstündən xətt çəkə bilərdi. Əliqulu xanın birbaşa aradan qaldırılması imkanı isə hələlik onun əlində yox idi. Buna görə, özbək qoşunlarının Herat qalasını mühasirəyə almasını Mürşüdqulu xan məmnunluqla qarşıladı. O güman edirdi ki, özbək qoşunları Herat şəhərinin fəthinə nail olacaqları təqdirdə Əliqulu xanın da həyatına son qoyacaqdılar. Bununla, Mürşüdqulu xan daha bir güclü rəqibindən də qurtulmuş olardı. Ona görə idi ki, Mürşüdqulu xan Xorasan vilayəti üzərinə yürüşü hər vasitə ilə ləngitməyə çalışırdı. Yəni şah qoşunlarının Xorasana gec gəlməsi Heratın özbəklər tərəfindən ələ keçirilməsi şansını da artıra bilərdi.

Bəzi məlumatlara görə, səltənət hakimiyyətində öz mövqelərinin möhkəmləndirilməsi üçün Mürşüdqulu xan hətta şah ailəsi ilə nikah əlaqəsi qurmağa cəhd göstərdi. Belə bir əlaqənin olduğu halda Mürşüdqulu xan ona qarşı yarana biləcək təhlükələrin də qarşısını ala bilərdi. Bu məsələ ilə bağlı Mürşüdqulu xan nəhayət ki, Şah Abbas qarşısında da məsələ qaldırdı və onun qətlə yetirilmiş qardaşı Həmzə Mirzənin qızını almaq istədiyini bildirdi. Şah Abbas bu fikrə qarşı getmədi. Çünki səltənətin idarəçilik işlərində onun Mürşüdqulu xana ehtiyacı var idi. Amma Həmzə Mirzənin qızı bu evliliyə razı olmadı. Hətta Şah Abbas özü də Mürşüdqulu xanın israrından sonra Həmzə Mirzənin evinə yollandı, onun qızını Mürşüdqulu xana istədi. Həmzə Mirzənin qızı yenə bu evliliyə razı olmadı. Mürşüdqulu xan isə bunu çox böyük təəssüflə qarşıladı (26).

Mürşüdqulu xanın yaxın ətrafının fikrincə, Şah Abbas bu evliliyin baş tutması üçün təkid göstərmədi. Ona görə, Mürşüdqulu xana da məsləhət bilindi ki, öz işlərində ehtiyatlı olsun, çox da məğrurluq göstərməsin. Çünki şahın onun axırına çıxmaq ehtimalı heç də istisna deyil. Mürşüdqulu xana hətta o da məsləhət görüldü ki, öz həyatına arxayın olmaq üçün Şah Abbasın taxtdan

uzaqlaşdırılmasına və Həmzə Mirzənin oğlu İsmayıl Mirzənin şahlıq taxtına çıxarılmasına nail olsun (27).

Səltənət daxilində öz mövqelərinin yenidən möhkəmləndirilməsi üçün Mürşüdqulu xan hətta Şah Abbasın Ələmut qalasında həbsdə olan qardaşları Əbu Turab Mirzə ilə Təhmasib Mirzənin yenidən Qəzvinə qaytarılması qərarına gəlmişdi. Amma Şah Abbas bunun nə üçün edildiyindən xəbərdar olandan sonra həbsdə olan qardaşlarının Ələmut qalasından Tehran yaxınlığındakı Vəramin qalasına göndərdi. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas qardaşlarının daha yaxşı mühafizə olunması üçün etibarlı saydığı əyanlarının birini də bu qalaya göndərdi (28).

"Rövzət üs-səfəviyyə" əsərinin müəllifi də bildirir ki, hakimiyyət ətrafında cərəyan edən hadisələr nisbətən sakitləşdikdən sonra Şah Abbas Xorasana hərbi yürüş hazırlığı barəsində göstəriş verdi. Mürşüdqulu xan isə özlüyündə belə güman edirdi ki, Xorasanı özbəklərdən almaq Əliqulu xandan almaqdan daha asandır və ona görə də Mürşüdqulu xan bu hazırlığı görməkdə elə də tələsmədi. Adı çəkilən əsərin müəllifinin yazdığına görə, Şah Abbasla Mürşüdqulu xan arasında ilk narazılıq məhz Xorasan üzərinə yürüşün qəsdən ləngidilməsi ilə bağlı oldu. O da bildirilir ki, Xorasan vilayəti üzərinə hərbi yürüş üçün 120 min nəfərlik bir qoşun dəstəsi toplanması haqqında fərman verilmişdi. Bu qoşunlar Bestam çəməninə toplanmalı və oradan da Xorasan istiqamətində hərəkətə başlamalı idi. Şah Abbas bu qoşunların toplanmasını xeyli gözləməli oldu və vaxt ötdükcə də onun Mürşüdqulu xana qarşı münasibəti dəyişməyə başladı. Ona görə Şah Abbas hər vasitə ilə onunla görüşməkdən çəkindi, ona olan ehtiyatlı münasibətini açıq hiss etdirməyə başladı (29).

## 2. Şəriksiz hakimiyyətin təmin edilməsi. Əliqulu xanın və Mürşüdqulu xanın qətlə yetirilməsi

Mənbələrdə olan məlumatlardan belə qənaətə gəlmək mümkündür ki, Şah Abbas qoşunlarla birlikdə Bestam çəməninə gəldi

(30) və Xorasanda baş verənlər haqqında da burada xəbər tutdu. Yuxarıda qeyd olunanlardan bəllidir ki, Mürşüdqulu xan Abbas Mirzəni ələ keçirdikdən sonra Herat hakimi Əliqulu xan özbək xanı Abdulla xana müraciət etdi və ondan hərbi yardım istədi. Abdulla xan da dərhal Xorasana qoşun çıxarmaq təklifi ilə razılaşdı. Çünki bununla, Abdulla xan həm də öz iddialarını həyata keçirə və Xorasan üzərində nəzarətə nail ola bilərdi. O, 1587-ci ildə qoşunlarla Xorasana doğru istiqamət götürdü. Abdulla xan öz qoşun dəstəsi ilə Bəlx və Şibirğan yaxınlığında bir neçə gün istirahətə dayandıqdan sonra Herata doğru istiqamət götürdü. Bu zaman Əliqulu xanın artıq Abdulla xanın niyyətindən xəbərdar idi və anlayırdı ki, kömək üçün özbək xanına müraciət edilməsi heç də düzgün seçim deyilmiş. Bəzi məlumatlara görə, Əliqulu xan kömək almaq üçün Qəzvin sarayına müraciət etdi. Mürşüdqulu xan isə məlum səbəblər üzündən Əliqulu xanınköməyinə qoşun göndərilməsini ləngitdi (31).

Belə olanda Əliqulu xanın öz gücü ilə müdafiə olunmaqdan başqa çarəsi qalmadı. O, bütün qüvvələrini Herat qalası daxilinə çəkdi və qala daxilində müdafiəyə başladı. Abdulla xan isə Herat qalası ətrafına yetişərək bu qalanı mühasirəyə aldı. Abdulla xan öz niyyətinə nail olmaq üçün Herat qalasını ələ keçirmək istəyirdi. Bu qalanı almadan Xorasan vilayətinə sahib olmaq da mümkün deyildi. Ona görə qala ətrafında fəal mühasirə qurulması üçün lazım olan tədbirlər həyata keçirildi. Yəni Abdulla xan sadəcə qaladakıların nə vaxt təslim olacağını gözləmədi. Hər gün qala divarları üzərinə hücum təşkil edilir və qala divarları ətrafında döyüşlər baş verirdi. Qala müdafiəçilərinin fədakarlığı nəticəsində özbək döyüşçüləri geri çəkilmək məcburiyyətində qalırdılar. Bəzi hallarda bir neçə yüz özbək döyüşçüsü qala daxilində yol tapa bilirdilər. Ancaq qala müdafiəçiləri onların qarşısını almaqla özbəklərini tanınmış əmirlərini də qətlə yetirə bilmişdilər (32). Bunun nəticəsi idi ki, Herat qalasının mühasirəsi uzanmalı oldu.

Qalanın mühasirəsinin uzanması qala daxilində yaşayışı da çətinləşdirdi. Bu çətinliyə dözməyən bəzi şəhər sakinləri özbək-

lərlə təslim oldular, şəhərin ələ keçirilməsi üçün onlarla əməkdaşlıq yolunu tutdular. Amma elə bir vəziyyət yarandı ki, Əliqulu xan özü də onun mürəkkəbliyini nəzərə alaraq Abdulla xanla sövdələşmək qərarına gəldi: "Mühasirə müddəti çox uzandı və heç yandan imdad küləyi əsmədi. Azuqənin çatışmaması və havanın üfunətindən şəhərdə bərk xəstəlik yarandı, mülki adamlar və ləşkər də xəstəliyə yoluxdular. Türk və taciklərdən hər gün dəstə-dəstə adam yoxluq yoluna yollanırdı. Buna görə də qaladakıların arasına çaxnaşma düşdü, savaşa bilmədilər. Qalada olan bəzi xorasanlılar, xüsusilə illərlə bu dövlətin çörəyini yeyən Molla Mir Baxərzi haramnəməklik edərək, qorunması ona tapşırılan şəhər bürclərindən birini boş qoydu, gedib qala eşiyindəkilərə qoşuldu. Qalanın idarə olunması, döyüşçülərin acizlik və iztirabları, qüvvət və qüdrətin yoxluğu onların yadına Abdulla xanı saldı. Onlar özbəklərə dövlətxahlıq izhar etdilər. Qalanın fəth edilməsinə cəhd artdı. Əliqulu xan şamlı tayfası əyanlarından Pir Budaq Sultanı özünə yaxın adam olan müstövfi Əbu Talib bəy Ordubadi və daha bir neçə nəfərlə birlikdə Abdulla xanla sülh bağlamaqdan ötrü qaladan eşiyə çıxardı, qızılbaşlara məmləkətdən çıxmaları üçün yol verməsini və əhl-əyalları ilə çıxıb getmələrini xahiş etdi. Buraya hücumunun ilk vaxtlarında bunu istəyən Abdulla xan indi Molla Mirin və haramnəmək fəsad əhlinin təhriki, xüsusən ərbabların mirzəsi və Əbülhəsən Guryaninin təsiri ilə bu təkliflə razılaşmadı" (33).

Bu məlumatdan göründüyü kimi, Abdulla xan sövdələşməyə getmədi və qalanı bütünlüklə öz tabeliyinə almaq fikrindən əl çəkmədi. O, irəli sürdüyü iddiasından geri çəkilməyəcəyini nümayiş etdirmək üçün Əliqulu xanın göndərdiyi elçiləri topun ağzına bağladı və onları top atəşinə tutdu. Əliqulu xan da öz inadından dönmədi və qalanın müdafiəsini davam etdirdi. Abdulla xanın qala elçilərini top atəşinə tutmasından sonra daha iki ay mühasirə davam etdi. Lakin mühasirənin davam etməsi qala müdafiəçilərinin sırasını da seyrəltmişdi. Bu isə qalanın müdafiəsini zəiflətməkdə idi. Əliqulu xan özü də birbaşa müdafiənin təşkilində iştirak edirdi və

qala bürclərinin birində döyüş mövqeyində dayanırdı. Bir dəfə gecə ikən o, istirahət üçün evinə yollandı. Bu zaman qala müdafiəçilərindən biri satqınlıq edərək müdafiəsiz qalmış qala bürcü haqqında qışqıraraq özbəklərə məlumat çatdırdı. Özbəklər də dərhal bundan istifadə etdilər və kəndirlə müdafiəsiz qalmış qala bürcünə dırmaşdılar. Bundan sonra onlar yaxınlıqdakı bürcləri də ələ keçirdilər və özbəklərin aşağıdan qala divarları üzərinə dırmaşmasına kömək etdilər. Bu iş elə bir sürət və gizliliklə edildi ki, Əliqulu xan ondan vaxtında xəbər tuta bilmədi. O, məsələdən xəbər tutanda isə artıq gec idi. Özbək qüvvələri artıq şəhər daxilinə yayılmışdılar. Hətta özbək döyüşçüləri qala bürcləri üzərində kərənay səsləndirərək bütün qoşunlara hücum işarəsi verdilər. Özbəklər hər hansı müqavimətlə rastlaşmadan bütün şəhəri ələ keçirdilər. Herat şəhərinin təslim edilməsi 1588-ci il mart ayının 17-də baş verdi. Şəhəri ələ keçirdikdən sonra özbək döyüşçüləri yerli sakinlərə böyük əziyyətlər verdilər. Bu əziyyətlər bir tərəfdən şəhərin talanması və qiymətli əşyaların yerinin müəyyən edilməsi ilə bağlı idi. Bir məlumata görə, şəhər xəzinəsinin yerinin tapılması üçün özbəklər şəhərdəki qadınları lüt soyundurub küçələrə çıxardılar. Bundan başqa çoxlu sayda əsir götürülmüş və sonradan onlar Buxaraya daşınmışdılar. Digər tərəfdən isə şəhər əhalisi şiə olduğu üçün özbəklərin qılıncından keçirildi. Əhalinin kütləvi şəkildə qətliama məruz qaldığı bildirilirdi. Abdulla xan özü şəhərin ələ keçirilməsindən dörd gün sonra qalaya daxil oldu və baş verən talanları gördükdən sonra bu işlərin dayandırılması barəsində göstəriş verdi (34).

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərindəki məlumata görə, bir tərəfdən özbəklərin hücumu qəfil şəkildə baş verdi. Digər tərəfdən də qala müdafiəçiləri mühasirə çətinliklərinə görə əldən düşmüşdülər və onların qüvvəsi yox idi ki. şəhər daxilinə tökülüşən özbəklərlə döyüşə bilsinlər. Bütün şəhər özbəklərin qarət və talanlarına məruz qaldı. Şəhər sakinləri təsəvvür edilməz bir zülmlə qarşılaşdılar (35).

Belə ağır bir durumda Əliqulu xan Herat qalasından çıxaraq İxtiyarəddin qalası adlanan bir qalaya sığına bildi. Bu qala Herat qalası kimi böyük müdafiə imkanlarına malik deyildi və qala daxilində ərzaq ehtiyatları da yox idi. Abdulla xan isə belə güman edirdi ki, Əliqulu xan həmin qalaya sığınıbsa, demək orada ərzaq ehtiyatları kifayət qədərdir və bu da özbək qoşunlarına qarşı müqaviməti davam etdirməyə imkan verəcəkdir. Özbək xanı yenidən qala mühasirəsinə əlavə vaxt itirmək istəmirdi. Ona görə o öz adamlarını Əliqulu xanın yanına göndərdi və təslim olacağı təqdirdə salamat qalmasına zəmanət verdi (36).

Əliqulu xanın və onun yanında olanların bu şərti qəbul etməkdən başqa bir çarəsi yox idi. Onlar özbək xanının insafına və verdiyi sözü tutacağına ümid edərək qalanı tərk etdilər və Abdulla xanın olduğu məkana yollandılar. Bu qərar Əliqulu xana və onun ətrafındakılara həyatları bahasına başa gəldi. Abdulla xan və onun oğlu Herat ətrafında aparılmış döyüşlərdə qətlə yetirilmiş özbək bahadırlarının qisasının alınması üçün Əliqulu xanın qətlinə fərman verdilər. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərində Əliqulu xanın qətli belə təsvir edilmişdir: “Abdulla xanın oğlu Əbdülmömin xan şəhər bağında (Bağşəhr) idi. Onunla görüş üçün əmirlər Əliqulu xanı oraya apardılar. O peymanı süst olan oğlan, ya öz istəyi, yaxud atasının işarəsi, ya da oğul-uşaqları və qohumları mühasirə zamanı qızılbaşların əlləri ilə öldürülmüş özbək bahadırlarının təhriki nəticəsində qızılbaşlardan intiqam aldılar. Əliqulu xan və adamları Abdulla xanın olduğu yerə çatdıqda əmirlər onlara xanın yanına silahla getməyin məqbul olmadığını bildirib, qılınclarını onların bellərindən açdılar. Elə o əsnada da biriki nəfər özbək şəmşirini çıxarıb şamlılara tərəf atdı. Şah Məhəmməd Çəyan əlini Əliqulu xanın məndilinə (çalma - red.) apardı ki, onu çıxarsın. Qazi Sultan Şamlı onun əliuzunluğuna mane olaraq xəncərini ona çəkdi. Özbəklərin başqa bir dəstəsi də yoldaşlarını himayə etmək niyyəti ilə öz şəmşirlərini ələ götürdü. Vəziyyəti belə görən qızılbaşlar məsələnin nə yerdə olduğunu bildilər, öz kəlmeyi-şəhadətlərini oxuyub fəna qılıncı ilə öldürdülər” (37).

Herat və İxtiyarəddin qalalarını ələ keçirdikdən sonra Abdulla xan üzünü Məşhəd şəhərinə tərəf tutdu. Xorasan vilayətinin bütünlüklə nəzarət altına alınması üçün Məşhədin də ələ keçirilməsinə ehtiyac var idi. Həmin vaxt bu şəhərə hakimliyi Mürşüdqulu xanın qardaşı İbrahim xan edirdi. O, özbək qoşunlarının Heratda və onun ətrafında hansı talan və soyğunçuluqlar etməsi barəsində artıq xəbərdar idi. Ona görə də İbrahim xan özbəklərlə sövdələşməyə cəhd göstərdi. İbrahim xan öz elçilərini çoxlu sayda qiymətli hədiyyələrlə özbək xanının yanına göndərdi. Bu hadisə o vaxt baş verirdi ki, Şah Abbasın da qoşun toplayaraq Xorasan üzərinə yürüşə hazırlaşması haqqında məlumatlar alınmışdı. Belə məlumatlar Abdulla xana da çatmışdı. Ona görə Abdulla xan elçilərin gətirdiyi məktubu diqqətlə mütaliə etdi. İbrahim xan tərəfindən göndərilən həmin məktubun mətni belə idi: “Özbək ləşkəri uzun müddətdir ki, vətənlərindən uzaq düşmüş və Herat qalasının fəthində çox əziyyət çəkmişdir. Onlar əgər müqəddəs Məşhədin mühasirəsinə başlayarlarsa, bilsinlər ki, bu vilayət adamlarının qaladarlıq istedadları böyükdür. Buna görə də onlar həzrət imamın müqəddəs rövzəsini hifz etməkdən ötrü qaladarlıqda Herat camaatından da çox səy edəcəklər. O zaman gərək sizin ali ordunuz bu vilayətdə uzun müddət dayanmalı olsun. Belə olası halda ləşkərlər xeyli zəhmət çəkməli olacaqlar. Bundan başqa bizim padşahımız artıq irsi səltənət və şahlıq taxtındadır və o, bütün qızılbaş qoşunlarıyla birlikdə hümayun paytaxtdan çıxıb Xorasana gəlməkdədir. Əgər müqəddəs Məşhədin mühasirəsi zamanı o, bu vilayətə qədəm basarsa, hələ məlum deyildir ki, özbək tayfası bu il Xorasana qoşun çəkərək qızılbaşların saysız-hesabsız ləşkərinə müqavimət edə biləcəklər, ya yox? Məsləhət belədir ki, onlar bu il buradan çıxıb öz səltənət paytaxtlarına getsinlər və bizə möhlət versinlər və gələn il əgər bizim padşahımız Xorasanda olarsa, onlar öz dövlətlərinin məsləhətinə uyğun hərəkət etsinlər. Buna görə də ali qoşununuzun buraya yürüşə ehtiyacı yoxdur. Qoy özbək əmirlərindən kimi istəsələr göndərsinlər və biz məmləkəti onlara verib öz yolumuzla gedək” (38).

Abdulla xan məktubda yazılanlarla razılaşdı və Məşhədin mühasirəsində uzun müddət dayanmağı mənasız saydı. Bu məsələ ilə bağlı o, əmir və əyanları ilə də məsləhətləşdi və geri çəkilməyi daha düzgün saydı. Məşhəddən göndərilən hədiyyələri də götürərək Abdulla xan öz yurduna üz tutdu. Hərəkət zamanı yolu üzərində olan Sərəxs qalasını ələ keçirmək istədi. O bu qalanı mühasirəyə aldı və 40 gün davam edən bu mühasirə bir nəticə vermədi. Abdulla xan Sərəxsin də mühasirəsindən əl çəkdi və Xorasanı tərk etmək yolunu tutdu.

Əliqulu xanın qətlə yetirilməsi, Herat qalasının və onun ətrafının talanması xəbəri Şah Abbası xeyli kədərləndirdi. Bu xəbər alınandan sonra o, Xorasan vilayətinə doğru irəliləmək əmrini verdi. Mürşüdqulu xan zahirdə özünü baş verən hadisələrə görə kədərli kimi göstərməyə çalışsa da, əslində onun Əliqulu xanla bağlı nigarançılığı artıq aradan qalxmışdı. Ona görə də qoşunların Xorasana doğru hərəkətə başlaması haqqında qərar verildi. Mövcud olan məlumatlara görə, Mürşüdqulu xanın Həmzə Mirzənin qızına elçi düşməsi, Şah Abbasın qardaşlarının Ələmut qalasından Qəzvinə gətirilməsinə cəhd göstərilməsi, sonradan onların Şah Abbas tərəfindən Vəramin qalasına göndərilməsi də qızılbaş qoşunlarının Xorasana doğru hərəkətə başlaması ərəfəsində baş verdi (39).

1588-ci ilin aprelində Şah Abbas onu müşayiət edən 12 min nəfərlik qoşun dəstəsi ilə birlikdə Xorasana doğru hərəkətə başladı. Hərəkətə başlamazdan əvvəl Şah Abbas tərəfindən Məhəmməd Şərif bəy Çavuşlu Qəzvin hakimi təyin edildi və şahın olmadığı vaxtlarda şəhərin mühafizəsi ona tapşırıldı. Mənbə məlumatına görə, Şah Abbas əvvəlcə Tehrana gəldi (40) və oradan da Lar yaylağına yollandı ki, həmin yaylaqda qoşunların toplanmasını gözləsin. Qoşunlar toplanandan sonra isə onlar Xorasana doğru hərəkəti davam etdirməli idilər. Bu hərəkət zamanı şah karvanı Gilandın ətrafından keçməli oldu və bu bölgədə Səfəvi hakimiyyətinə loyal yanaşan bir sıra hakimlər mərkəzi hakimiyyətə bütünlüklə tabe olduqlarını bəyan etdilər: “Səhra və çölün ot və güllərinin (rəyahin) çoxluğundan bu dəyişkən fələyin həsədinə səbəb

olduğu bahar [fəslinin] əvvəlində hümayun məiyyət hərəkətə başlayıb, müzəffər ləşkərin bir yerə toplanmasından ötrü Lar yaylaqlarına getdi. Belə qərara gəldilər ki, məhsulların (əkin məhsullarının – red.) böyüyüb ucalmasınadək yol getsinlər. Lar yaylağında Rüstəmdar məliklərindən hər ikisinin adı Məlik Cahangir olan və ataları Rüstəmdar dağlarında (cəbal) özbaşına ortaya çıxıb başqa adamları saya almayan Larican valisi Məlik Bəhmən, həmçinin Nur və Kəcur vilayətinin [Məlik Cahangirləri] gələrək qızılbaş əmirləri ilə görüşdülər və onlardan olduqca qorxdular (təhasi). Onlar həmişə düşmənlik mövqeyindədilər (yağı), qızılbaşlara lazımi kimi itaət etmirdilər. Belə bir vaxtda hümayun iqbal [sahibinin] buraya gəlməsinə görə həmin vəhşisifət adamlar ram oldular, bəxtlərinin göstərişi ilə qorxu-hürküsüz hümayun orduya gələrək şah ilə görüş şərəfinə yetişdilər, qulaqlarına itaət sırğası taxıb bellərinə bəndəlik qayışı bağladılar. Belə vəziyyətin baş verməsi həqiqətən də dünyagörmüş şəxslərin nəzərində iqbalı təsdiq edən hal idi. Hümayun məiyyət bir neçə gün yaylaqlarda qaldı və hər gün əsgərlər gəlib onlara qoşulurdu. Elə həmin yaylaqda da Allah-təalanın bəxşişi kimi kamyab nəvvabın bir oğlu doğuldu, adını Sultan Həsən Mirzə qoydular. Amma az bir vaxtda borc verilmiş həyata vida etdi və əbədi aləmə getdi" (41).

Sultan Həsən Mirzə şahın ilk övladı deyildi və göründüyü kimi, onun ömrü uzun olmadı. Xorasana doğru hərəkət zamanı Şah Abbas və onu müşayiət edən qoşun dəstəsi Damğanda olarkən Osmanlı sarayı ilə sülh anlaşması əldə edilməsi yenidən gündəmə gəldi. Hələ Həmzə Mirzənin sağlığında Osmanlı sarayı ilə sülh anlaşmasının əldə edilməsi istiqamətində müəyyən işlər aparılırdı. Amma bu iş başa çatmamış qalmışdı. Səltənət qoşunlarının Xorasana doğru irəlilədiyi bir vaxtda Osmanlı qoşunları yenidən Səfəvi hüdudlarına hücum başlayacağı təqdirdə vəziyyət xeyli mürəkkəbləşə bilərdi. Yəni Şah Abbas qoşunlarının iki istiqamətdə müharibə aparmaq imkanı elə də böyük deyildi. Ona görə belə bir qərara gəlindi ki, Osmanlı sarayına da elçilər göndərilsin və ən azı şah qoşunlarının Xorasanda olduğu vaxt Osmanlı qoşunlarının hü-

cum ehtimalı aradan qalxmış olsun. Elə həmin günlərdə də Mürşüdqulu xanın qətli məsələsi aktuallaşdı və Şah Abbas bununla bağlı nəhayət ki, qəti qərara gəldi. Bir məlumata görə, Osmanlı sarayı ilə sülh anlaşması imzalanması qərara alınsa da, Mürşüdqulu xan Qəzvində olan Osmanlı nümayəndəsi Vəli ağa Çeşnigirbaşını vaxtında geri dönməsinə imkan vermədi. Bu da Şah Abbasın xoşuna gəlmədi və bildirilir ki, Mürşüdqulu xanın bu hərəkəti də onun qətlinə fərman verilməsi üçün əlavə bir səbəb oldu (42).

Əslində isə, Mürşüdqulu xanın qətlinin bir sıra ciddi səbəbləri var idi. Hər şeydən əvvəl Mürşüdqulu xanın davranışı, səltənət iddiaları, idarəçilik işlərində bütün səlahiyyətləri öz əlində cəmləşdirməyə çalışması heç də Şah Abbasın ürəyincə deyildi. Doğrudur, Şah Abbas ona müəyyən fəaliyyət sərbəstliyi verdi və onun əli ilə hakimiyyətə müxalif olan bir sıra qızılbaş əmirlərini aradan qaldırdı. Mürşüdqulu xan isə ona verilən səlahiyyətlərdən sui-istifadə etdi və səltənət idarəçiliyində daha böyük iştahalara düşdü. O, saray daxilində və ətrafında elə bir vəziyyət yaratdı ki, qızılbaş əmirləri və əyanları onun icazəsi olmadan Şah Abbasın yanına yol tapa bilmədilər. Şah Abbas səltənət işlərindən təcrid olundu və hakimiyyətin ən mühüm vəzifələrinə Mürşüdqulu xanın adamları yerləşdirildi. Bir çox hallarda Mürşüdqulu xanın istəklərinin və əməllərinin nəticəsi olaraq Şah Abbasın hakimiyyəti formal xarakter aldı. Amma Şah Abbas da Mürşüdqulu xanın fikirləşdiyi qədər sadəlövh bir insan və şah deyildi. O, baş verənlərə səltənət maraqları mövqeyindən qiymət verməyi bacarırdı və qətiyyətli addımların atılması üçün məqam gözləyirdi. Əliqulu xanın özbəklər tərəfindən qətlə yetirilməsi və Xorasan hadisələrinin önlənməsi üçün Mürşüdqulu xanın qəsdən ləng hərəkət etməsi Şah Abbasda onun aradan qaldırılması haqqında son qərara gəlməyə yol açdı. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi Mürşüdqulu xanın qətlinin səbəbləri haqqında belə yazırdı: “Bu ibrətamiz hadisənin şərhi belədir: Yuxarıda, hadisələr yazan qələm [belə yazmışdı]: Mürşidqulu xan Tərşizdə əlahəzrət zilləllah şahın lələsi Əliqulu xan Şamlıya qalib gələndə, o həzrət fələyin və Allahın

məsləhəti ilə müqəddəs Məşhədə təşrif gətirdi və Mürşüdqulu xan öz atalıq xidmətinə başladı. Onun xasiyyəti şahzadənin ürəyincə deyildi və o, xanın pis rəftarından incik idi. Amma gənclik əyyamında qocalarda olan hövsələyə malik olduğundan əbədi dövlətin möhkəmlənməsi naminə xanla sülh yolu ilə davranırdı. İraqa gələndən sonra elə ki, İran dövlətinin başçılığını əlinə aldı, xanın adamlarının çoxluğundan onun bəzi yerli-yersiz hərəkətlərinə göz yumaraq, dövlət yolundakı səylərini nəzərə aldı, səbir etdi. Xan isə ixtiyar və iqtidar cilovunu əlinə elə götürmüşdü ki, hümayun şah heç bir işə dəxalət edə bilmirdi. Elə ki, Qəzvin darülsəltənəsində Herat hadisəsindən və Əliqulu xanın qətlə yetirilməsindən sonra o, [Mürşidqulu xan - red.] ayağını ədəb dairəsindən kənara çıxarıb bu dudmanın ən yüksək məqamına yetmək (mosaherət) istədi, bu məsələdə istəyini ifrat sərhədinə çatdırdı. [Başqa] adlı sultanlar və kamkar padşahlardan [elə adamlara qarşı] inayətlər görünmüşdür, onlar vəfalı sadiq şəxslərə elə yüksək rütbə verməklə vəzifələrini ucaltmışlar. Amma, dərgah bəndələrinin nə həddi ola bilər ki, belə bir iddia edə bilsinlər? Xülasə, [Mürşüdqulu xan] çox səylər etməsinə baxmayaraq, məqsədinə deyil, ədəbsizliyə çata bildi. Xanın ustaclı tayfasından olan bəzi tərəfdarları, xüsusilə Mahmud bəy Sufilər ona açıq-aşkar deyirdilər ki, bu padşah səni dəf etmək barədə düşünür və tezliklə sənin həyatını məhv edib ustaclı oymağını qara torpaqla yeksan edəcəkdir” (43).

Mürşüdqulu xanın özbaşınalığı o dərəcəyə çatmışdı ki, Şah Abbası heç saya da salmırdı. Onun nəzərində Şah Abbas hələ də lələ himayəsində olan bir uşaq idi və özünü də lələ kimi Şah Abbas üzərində tam nəzarət səlahiyyətinə malik birisi kimi hesab edirdi. Şahidlərin ifadəsinə görə, Mürşüdqulu xan hələ Məşhəddə ikən bir lələ kimi Abbas Mirzə ilə necə rəftar edirdisə, taxta çıxandan sonra da Şah Abbasla elə rəftar edirdi. Bildirilir ki, bir dəfə Şah Abbas hakimiyyətinin əvvəllərində Mürşüdqulu xanla söhbətlərinin birində onun fikri ilə razılaşmadı. Mürşüdqulu xan sərt şəkildə ondan tələb etdi ki, sussun və deyilənə qulaq assın. Mürşüdqulu xana görə, Şah Abbas hələ uşaq idi və hələ dünya işlərini

başa düşəcək ağıla sahib deyildi. Şah Abbas isə Mürşüdqulu xanın ona qarşı təhqiramiz hərəkətlərini heç də qəbul etmirdi və ona görə də Mürşüdqulu xandan qurtulmağın münasib anını gözləyirdi (44).

Mənbələrdə öz əksini tapmış məlumatlardan görünür ki, Xorasan səfərinin ortaya düşməsi Mürşüdqulu xan haqqında ciddi qərar qəbul edilməsini bir qədər ləngitdi. Yəni Şah Abbas istəyirdi ki, Xorasan səfərini başa vursun, bu səfərin təşkilində Mürşüdqulu xan öz işini görsün və səfər başa çatandan sonra onun haqqında son qərarı qəbul etsin. Lakin hadisələrin gedişi, Mürşüdqulu xanın özbaşınalıqlarının artması Şah Abbası onun qətli ilə bağlı daha erkən qərar qəbul etməyə sövq etdi. Şah Abbas ondan da xəbər tutdu ki, Mürşüdqulu xanın ətrafında olan adamların bəziləri onun qətl oluna biləcəyini ehtimal edirdilər. Mürşüdqulu xan bu ehtimallara inanacağı təqdirdə müəyyən vasitələrə əl ata bilərdi. Ona yol verməmək üçün Şah Abbas qətiyyət nümayiş etdirdi və bu məsələdə ləngliyə yol verilməsini düzgün saymadı. Bestamda olarkən Şah Abbas nəhayət ki, Mürşüdqulu xanın qətli barəsində hökm verdi. Bu işi görməyə qadir olacaq adamlar da müəyyənləşdirildi. Şah Abbas qardaşı Əbu Talib Mirzənin vəziri olmuş Mirzə Məhəmmədi bu iş cəlb edə bildi. Onun vasitəsilə qızılbaş əmirləri arasından dörd nəfər seçildi. Həmin əmirlər bunlar idi: Ümmət bəy Qarasarlı Kuşəkoğlu, Qara Həsən bəy Çavuşlu, Allahverdi bəy Zərgərbaşı və Məhəmməd bəy Sarığçıbaşı. Bu adamlar qətli gizli şəkildə həyata keçirməli idilər və onlara verilmiş tapşırıq haqqında kimsə bilməməli idi. Qətlin həyata keçiriləcəyi halda həmin əmirlərə böyük vəzifələr vəd olunmuşdu. O cümlədən, səltənət vəkili, onun müavini, Məşhəd, İsfahan, Qəzvin, Həmədan kimi böyük şəhərlərin hakimliyi vəd edildi (45).

Allahverdi bəy Zərgərbaşı milliyətcə gürcü idi və bəllidir ki, o, sonradan səltənət idarəçiliyində böyük səlahiyyətlərə malik oldu. 1588-ci il sentyabr ayının 5-də Şah Abbas planlaşdırılan qətlin həyata keçməsinə izn verdi. Həmin günün axşamı Şah Abbas qətlinə fərman verilmiş Mürşüdqulu xanı xeyli vaxt yanında saxladı.

Onunla müxtəlif məsələləri uzun müddət müzakirə etdi. Məqsəd o idi ki, Mürşüdqulu xan bu müzakirələrdən yorulsun və gecə dərin yuxuya getsin. Mürşüdqulu xanın çadırı şah çadırının yaxınlığında idi və Şah Abbasın yanından ayrılan kimi öz çadırına yollandı və dərhal da yuxuya getdi. Şah Abbas isə onun öz çadırına yollanmasından sonra qətlin icraçılarına göstəriş verdi və onları Mürşüdqulu xanın çadırına göndərdi. Həmin adamlar Mürşüdqulu xanın çadırına yetişəndə onu doğrudan da yatmış gördülər və dərhal da öz silahlarını işə saldılar. Əvvəlcə, Ümmət bəy özünü irəli verdi və əlindəki nizə ilə Mürşüdqulu xanın üz nahiyyəsindən zərbə vurdu. Mənbə məlumatına görə, bu zərbədən sonra nizənin ucluğu Mürşüdqulu xanı hülqumuna qədər işlədi. Mürşüdqulu xan bu zərbədən ayıldı və ayağa qalxdı. Müəyyən hərəkətlərlə özünü müdafiə etməyə çalışanda o, Qara Həsən bəy Çavuşludan ikinci bir zərbəni aldı. Mürşüdqulu xan yerə yıxılsa da, yenidən ayağa qalxmağa özündə qüvvə tapdı. "Rövzət üs-səfəviyyə" əsərinin müəllifinin yazdığına görə, Mürşüdqulu xan hətta üz-gözündən qan axa-axa çadırından bayıra qaçdı, səs-küy salmaqla köməyinə adamlar çağırmağa çalışdı. Ancaq onun hülqumu kəsildiyindən sözlərini aydın tələffüz edə bilmirdi. Qaça-qaça yaxınlıqda şah atlarının saxlanması üçün tövlə kimi nəzərdə tutulmuş çadıra yaxınlaşanda Kiçik mehtər kimi tanınan şah tövləsinin müdiri Mürşüdqulu xanın başına atların nallanması üçün istifadə olunan mıx vurdu. Bu zərbədən Mürşüdqulu xanın beyni də bir-birinə qarışdı və səndirləyərək yerə yıxıldı. Bununla, Mürşüdqulu xan həyatla vidalaşmalı oldu (46).

Şah qoşunlarının düşərgəsində Mürşüdqulu xanın qətlindən kimsənin xəbəri yox idi. İnsanlar gecə vaxtı öz işləri ilə məşğul idilər. Şah Abbas qoşun başçılarını və əmirləri yanına topladı və Mürşüdqulu xanın qətli barəsində onlara məlumat verdi. Sonra da carçılara tapşırıq verildi ki, Mürşüdqulu xanın qətlini bütün qoşun əhlinə çatdırsınlar (47).

Şah Abbas əvvəldən də vəd etdiyi kimi, Mürşüdqulu xanın qətlində iştirak edən əmirləri böyük səxavətlə mükafatlandırdı. O

cümlədən, “xanın qətlindən sonra, elə həmin gecə şah vəzarətin ona veriləcəyini vəd etdiyi Mirzə Məhəmmədi yanına çağırıb ali divan vəzarətinin başçılığı ilə onu şərəfləndirdi. Mürşüdqulu xanın adamlarından olan və onun tərəfini tutaraq şahdan aralanan bəzi adamlar cəzalandırıldı, xanın müqəddəs Məşhədin hakimi olan qardaşı İbrahim xan vəzifəsindən çıxarılıb cəzalandırıldı. Ümmət bəyə yüksək xanlıq rütbəsi verildi və Mürşüdqulu xanın yaraq-yasağı ona inayət olundu, [bəy] bir neçə mülazimə sahib oldu. Əmirlik rütbəsinə yetməklə şərəflənən Allahverdi bəy Zərgərbaşı "sultan" ləqəbinə layiq görüldü, Cərpadqan və oraya tabe yerlər ona şəfqət olundu. Məhəmməd bəy Saruqçi İstahan darülsəltənəsinə daruğə təyin edildi. Qara Həsən tirü-kaman qorçisi oldu və əlavə olaraq "xan" rütbəsi də aldı. Xülasə, səltənət və padşahlıq işlərinə o qədər də qarışmayan əlahəzrət zilləllah şahın özü şəxsən din və dövlət işlərinin icrasına başladı” (48).

Mürşüdqulu xanın qətlindən sonra Şah Abbasın fərmanı ilə ona yaxın olan Mirzə Mahmud xan Sufilər də ağır cəzaya məruz qaldı. Onun cəzalandırılması, əslində, başqa qızılbaş əmir və əyanları üçün ibrət dərsi kimi nəzərdə tutulmuşdu. Şah Abbas bütün əmirlərə və əyanlara çatdırmaq istəyirdi ki, şah hakimiyyətinə qarşı çıxmaq istəyənləri belə bir cəza gözləyir. Mirzə Mahmud xanı tutub kürəyini parçaladılar və sonra onun dilini kürəyindən bayıra çıxardılar. Beləcə sonra onu bazar daxilində gəzdirdilər ki, daha çox insan onun bu vəziyyətini müşahidə etsin. Şah Abbas ondan başqa Mürşüdqulu xanın yaxınlarından kimsəni daha cəzalandırmadı. Əksinə, onlara mümkün qayğını göstərməyə çalışdı. Mənbə müəllifləri, Mirzə Mahmud xanın da ağır cəzaya məruz qalmasını onun öz günahı sayırdılar. Güman edilirdi ki, əgər Mirzə Mahmud xan hakimiyyətə Şah Abbasın qardaşlarının birinin gətirilməsi barəsində Mürşüdqulu xana məsləhətlər verməsəydi, dilindən də asılmazdı (49).

Mürşüdqulu xanın aradan qaldırılması ilə Şah Abbas şəriksiz hakimiyyətini təmin etmiş oldu. O daha öz qərarlarında və fəaliyyətində Mürşüdqulu xan kimi birisinin təsiri altında deyildi. Bu

zaman onun 18 yaşı var idi və şəriksiz hakimiyyətə sahib olmaq üçün özündə güc və qüvvə hiss edirdi. Şah Abbas bütünlükdə, səltənət daxilində, qızılbaş tayfaları arasında parçalanmaların aradan qaldırılması istəyində idi. Şahidlərin də qeyd etdiyi kimi, Şah Abbas istəyirdi ki, oymaqlardakı fitnəkarları aradan götürsünlər. Bununla qızılbaşlar arasından fitnə-fəsad yığışsın, məşhur qızılbaş tayfaları arasında oymaq təəssübkeşliyi qalmasın, onların hamısı sadiq havadarlar olsunlar, şahla yekdillik etsinlər, onun əmirlərinə müti və bağlı qalsınlar (50).

Mürşüdqulu xanın qətli Şah Abbasın şahlıq mövqeyini xeyli möhkəmləndirsə də qızılbaş əmirlərinin səltənət mövqelərinə uyuşmayan əməlləri sonradan da müşahidə edildi. Ona görə Şah Abbas qızılbaş əmirlərinin özbaşınalıqlarına qarşı öz mübarizəsini davam etdirdi. Bu mənada qarşılaşmalı olduğu xoşagəlməz hadisələrin biri elə Mürşüdqulu xanın qətlindən dərhal sonra baş verdi. Belə ki, vaxtilə Şah Məhəmməd Xudabəndənin şahlığı dövründə Həmzə Mirzənin vəliəhdliyinə qarşı müxalifət yaratmış qüvvələrin başında dayanan və Şah Abbasın anası Xeyrannisə xanımın qətlində iştirak edən Məhəmməd xan Türkman özünü Mürşüdqulu xanın yerində görmək istədi. O, türkman tayfasının rəhbəri idi və nədənsə belə güman etdi ki, Mürşüdqulu xanın yerini tutmasına Şah Abbas etiraz etməyəcəkdir. Məhəmməd xan Türkman qızılbaş əmirləri içərisində nüfuz sahibi olan insanlardan biri idi. Lakin onun Şah Məhəmməd Xudabəndə hakimiyyətinə müxaliflik etməsi, hakimiyyət uğrunda toqquşmalara qoşulması yaddan da çıxmamışdı. Mürşüdqulu xanın qətlə yetirildiyi vaxt Məhəmməd xan Türkman Hezarcirib adlanan məntəqədə idi və qətl xəbərini eşidən kimi şah düşərgəsinin yerləşdiyi Bestama yolandı. Şah Abbasın icazəsi və fərmanı olmadan Məhəmməd xan Türkman əyninə bahalı paltar geyindi, əlinə Mürşüdqulu xanın daş-qaşla bəzədilmiş əsasını götürdü və şah divanında Mürşüdqulu xanın yerini tutdu. Onun bu hərəkəti, şaha qarşı saymazlığı Şah Abbas tərəfindən həm təəccüb, həm də hiddətlə qarşılandı. O, dərhal da Məhəmməd xan Türkmanın qətli barəsində hökm verdi. Bu iş elə türkman

tayfasından olan Fərrux xan Pornaka tapşırıldı. Fərrux xan Pornak da dərhal bu hökmü icra etdi. Əvvəlcə, Məhəmməd xan Türkmanın başında olan qızılbaş tacı çıxarıldı və sonra da başı bədənindən ayrıldı. Şah Abbasın tapşırığına əsasən, Məhəmməd xan Pornakın başı nizəyə keçirildi və düşərgə daxilində gəzdirildi ki, hamı görsün (51).

Bununla, hakimiyyət iddiasında olan qızılbaş əmirlərindən birinin də həyatına son qoyuldu və Şah Abbas bir daha nümayiş etdirdi ki, səltənət idarəçiliyini və hakimiyyəti kimsə ilə bölüşmək niyyətində deyil. Elə Bestamda olarkən Şah Abbas həm Mürşüdqulu xanın yaxınlarını mühüm səltənət vəzifələrindən uzaqlaşdırdı, həm də bir sıra mühüm vəzifələrə şah hakimiyyətinə etibarlı olan bir neçə əmir təyin edildi. O cümlədən, qorçubaşı vəzifəsinə təyin edilmiş Bədr xan Əfşara Astrabadın hakimliyi həvalə olundu. Xar və Semnanda hakim olan Əhməd sultan Zülqədər də ona köməkçi təyin edildi. Qorçubaşı kimi mühüm vəzifəyə Kirman hakimi Vəli xan Əfşar gətirildi. Kirman hakimi vəzifəsinə isə Vəli xanın oğlu Bəktaş xan təyin olundu. Şah tərəfindən səltənət vəziri vəzifəsinə irəli çəkilmiş Mirzə Məhəmməd xan öz səlahiyyətlərindən istifadə etməklə bir sıra vəzifələrə öz yaxınlarının və etibar etdiyi əmirlərin namizədliyini irəli sürdü. Onlar arasında ən nüfuzlu məqam Budaq xan Çekəniyə təklif olundu. Budaq xan Çekəniyə Xorasan səfəri zamanı Şah Abbasın dünyaya gəlmiş oğlu Sultan Həsən Mirzənin lələsi və atabəyi vəzifəsi verilməklə Məşhəd hakimliyinə namizəd olaraq irəli sürüldü. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbasın bu oğlunun ömrü elə də uzun olmadı. Bununla belə, anadan olan kimi ona lələ təyin edildi və bununla Budaq xan Çekəni kifayət qədər böyük nüfuz və səlahiyyətlər əldə etdi. Eyni zamanda onun övladlarına da yüksək vəzifələr verildi (52).

Budaq xan bir vaxtlar Mürşüdqulu xanla yaxşı münasibətlərdə idi. Ona görə onun övladları bu məsələdən ehtiyatlı olmağı lazım bildilər. Övladlarının sözlərinə inanan Budaq xan Çekəni ona verilən vəzifələrin icrasındansa, ucqarlara qaçıb Şah Abbasın qəzəbindən qorunmağa üstünlük verdi. O, şahın yenicə doğulmuş oğlu

Sultan Həsən Mirzəni də özü ilə götürərək Xəbuşan qalasına yollandı.

Mənbə məlumatlarından belə bir qənaətə gəlmək mümkündür ki, bu hadisələr artıq Şah Abbasın Xorasan vilayətində olduğu zaman baş vermişdi. Çünki Mürşüdqulu xan qətlə yetiriləndən sonra Şah Abbas tezliklə Xorasana yollanmaq və bu vilayəti özbək qoşunlarının işğalından azad etmək istəyirdi. Belə bir məlumat da var ki, Şah Abbas Bestam çəmənində olarkən Məşhəd hakimi, yəni qətlə yetirilmiş Mürşüdqulu xanın qardaşı İbrahim xan öz elçisini Şah Abbasın yanına göndərdi və Məşhədin müdafiəsi üçün ondan kömək istədi. Şah Abbas tərəfindən bu xahişə müsbət münasibət göstərildi və bu münasibət İbrahim xan tərəfindən də sevinclə qarşılandı. Baxmayaraq ki, qardaşı Mürşüdqulu xan qətlə yetirilmişdi, İbrahim xan kömək üçün Şah Abbasa müraciət etməkdən çəkinmədi və müraciətinə də müsbət cavab aldı. Özbək xanı Abdulla xan da elə həmin vaxtlarda qızılbaş qoşunlarının Xorasana gəlmək əzmində olmasından xəbər tutdu və ondan sonra vilayəti tərk etməyi məqsədəuyğun saydı (53).

Bir məlumata görə isə, Şah Abbas bir müddət vilayətlərdən gəlməli olan qoşunların toplanmasına gözlədi və bu məqsədlə Əsfəreyn yaxınlığındakı Əlləngin adlanan məntəqədə 40 gün dayanmalı oldu (54). Bununla belə, o da məlumdur ki, vilayətlərin heç də hamısı öz qoşun dəstələrini şah qoşunlarına göndərmədilər. Məsələn, Azərbaycanın qoşunları, İsfahan hakimi Yolu bəyin rəhbərliyi altında olan qoşun dəstəsi, habelə Gilan, Luristan və Xuzistan qoşunları da şah qoşunlarına qatılmadılar. Bundan başqa Zəngənərud, Əbhər və Sultaniyyə hakimi Dövlətyar xan da şah qoşunlarına öz dəstəsini göndərmədi. İsfahan hakimi Yolu bəylə Dövlətyar xanın belə qərara gəlməsinə səbəb Mürşüdqulu xanın qətlə yetirilməsi idi. Şah qoşunlarına qatılmayan vilayət hakimləri mərkəzi hakimiyyətdən qoparaq müstəqil olmaq arzusuna düşdülər. Görünür, onlar Şah Abbasın mərkəzi hakimiyyəti qorumaq gücündə olmadığını ehtimal edirdilər. Şah Abbas planlaşdırdığı sayda qoşun toplaya bilməsə də Xorasana doğru hərəkət əmri

verdi. Tezliklə Məşhədə yetişən Şah Abbas dərhal da İmam Rzanın türbəsinin ziyarətinə yollandı. O, Məşhədin təslim edilməsinə yol verməmiş İbrahim xanı Mürşüdqulu xana görə sərt cəzalandırmadı və onu İstəxr qalasında həbsə aldırdı. Budaq xan Çəngənə isə İbrahim xandan sonra Məşhəd hakimi təyin edildi (55).

Məşhəddə olarkən Şah Abbas hakimiyyətin möhkəmləndirilməsi üçün ixtilaf yolunda olan bəzi qızılbaş əmirlərini cəzalandırmaq haqqında hökm verdi. Onlardan biri Qain hakimi Sultanəli xəlifə Şamlı idi. O, vaxtilə Əliqulu xanın yanında xidmətdə idi. Tərşiz yaxınlığındakı döyüş zamanı Sultanəli xəlifə Əliqulu xanın xidmətindən ayrılmaq və Mürşüdqulu xana qoşulmaq qərarına gəldi. Bu isə Əliqulu xanın qüvvələrinin müəyyən dərəcədə zəifləməsinə yol açdı. Nəticədə Əliqulu xan uğursuzluğa düçar oldu və Şah Abbas da (Abbas Mirzə) Mürşüdqulu xanın əlinə keçdi. Sultanəli xəlifə həm də öz qoşun dəstəsi ilə şah qoşunlarına qoşulmaqdan imtina etdi. Ona görə də Şah Abbas onu beş yüz tümən maliyyə ödənci ilə cəzalandırdı. Bu məbləğ kifayət qədər böyük bir məbləğ idi. Həmin miqdarda cərimə verməyə həm də Mürşüdqulu xanın damadı olan Qum hakimi Süleyman xəlifə məhkum edildi (56).

Şah Abbas Məşhədə olduğu günlərdə onun qoşunlarında olan Şiraz zülqədərliləri mərkəzi hakimiyyətə tabe olmaqdan imtina etdilər. Bu zülqədər döyüşçüləri Həmzə bəy Camışlının rəhbərliyi altında Məşhədi tərk edib Şiraza doğru yola düşdülər. Həmin vaxt artıq Şiraz hakimi olan Yaqub xan Zülqədər həmin dəstənin geri qaytarılması tapşırığı aldı. Yaqub xan da öz dəstəsi ilə mərkəzi hakimiyyətə tabe olmayan zülqədərlilərin saxlanılıb geri qaytarılmasına yollandı. O, mənsub olduğu tayfanın parçalanmasını və mərkəzi hakimiyyətə qarşı fərqli münasibət bəsləmələrini istəmirdi. Yəzd şəhərinə çatanda zülqədər döyüşçüləri bu şəhərin hakimi olan Bəktaş xan tərəfindən saxlanıldı. Yaqub xan həmin şəhərə çatanda qiyam qaldırmış zülqədər döyüşçüləri artıq saxlanılmışdılar. O, Bəktaş xan tərəfindən qarşılanıb şəhər daxilinə aparıldı. Lakin Yaqub xan tezliklə Bəktaş xanın hərəkətərindən şübhələn-

məyə başladı. Ona elə gəldi ki, Bəktaş xan onun Şiraz hakimi olmasını istəmir və qiyam qaldırmış zülqədər dəstəsinin rəhbəri Həmzə bəyi onun yerinə Şiraz hakimliyinə gətirmək istəyir. Ona görə də Yaqub xan gecə ikən bütün əşyalarını Yəzddə qoyaraq bu şəhəri tərk etdi və Şiraza tərəf istiqamət götürdü. Görünür, onun şübhələnməyə əsası var imiş. Çünki Yaqub xanın qaçmasından sonra Bəktaş xan onun tutulması üçün bir atlı dəstəsi göndərdi. Lakin bu dəstə Yaqub xanı tuta bilmədi (57).

Həmin günlərdə Şah Abbas Məşhəd şəhərinin hakimliyini Mürşüdqulu xanın qətli üçün ilk zərbəni endirmiş Ümmət xan Ustaclıya həvalə etdi və İbrahim xanın tabeliyində olan qoşun dəstəsi də onun ixtiyarına verildi. Bundan sonra Şah Abbas qoşunlarla Herat istiqamətində hərəkətə başladı. Özbək xanı Abdulla xan Xorasan vilayətini tərk etsə də, Herat şəhərinə öz əmirlərindən birini hakim təyin etmiş və bu şəhəri öz nəzarəti altında saxlamışdı.

Şah karvanı Bəndi-fərman adlanan məntəqəyə qədər hərəkət etdi və orada Osmanlı qoşunlarının səltənət hüdudlarına yeni hücumu haqqında məlumat aldı. Həmin məlumata görə: "Ərzrumda olan Rum sərdarı Fərhad paşa saysız-hesabsız ləşkərlə Qarabağa gəlib, o vilayəti qacar əmirlərinin əlindən almış, Gəncədə qala inşa etmiş, oraya mühafizəçi və yeniçəriləri qoymuş və geri qayıtmışdır. Başqa xəbərsə bu idi: Bağdad hakimi olan Cığaloğlu İraqi-Ərəb ləşkəri ilə Həmədana tərəf gəlib, oranın hakimi Qorxmaz xan və o ətrafdakı əmirlərlə müharibə etmiş, Qorxmaz xanı tutmuş, vilayətdə isə qarətkarlıq törətmişdi. Cığaloğlu sonra Həmədandan çıxaraq İraqa yaxın olan Nəhavənddə qala inşa etmiş, orada azuqə və silah saxlayıb geri qayıtmışdı" (58).

Osmanlı qoşunlarının hücumuna məruz qalmış vilayətlərdən olan şah döyüşçüləri ailə və uşaqlarının vəziyyətinə görə narahatçılıq keçirməyə başladılar. Onlar arasında hətta qoşunları tərk edərək öz yurdlarına yola düşənlər də tapıldı. Belə bir vəziyyətdə Şah Abbas geri qayıtmaq haqqında qərar qəbul etdi. Doğrudur, onun üçün əziz olan Heratı özbək işğalından azad etmək mümkün olmadı. Amma yaranmış konkret vəziyyətdə geri qayıdılması və Os-

manlı təhlükəsinin qarşısının alınması üçün lazımi işlər görülməsi zərurəti ortaya çıxdı. Şah Abbas üçün bəlli idi ki, Herat qalasının mühasirəsi bir neçə ay çəkə bilər. Bu zaman səltənətin qərbində vəziyyət daha da mürəkkəbləşə bilərdi. Şah Abbas əvvəlcə istədi ki, geri qayıdarkən yolunu Yəzd şəhərindən salsın və şah qoşunlarına qatılmaqdan imtina etmiş Kirman hakimi Bəktaş xanı cəzalandırsın. Bəktaş xanın mərkəzi hakimiyyətə itaəti qaldığı təqdirdə onun öz vəzifəsində saxlanması da mümkün sayılırdı. Yəzdə çatmamış Şah Abbas onun tərəfindən Məşhəd hakimi təyin edilmiş və sonradan bu vəzifədən əl çəkərək mərkəzi hakimiyyətə qarşı müxaliflik yolunu tutmuş Budaq xanın doğru yola gətirilməsi üçün bir cəhd göstərdi. Şah tərəfindən ustaclı tayfasının nüfuzlu əmirlərindən olan Kor Həsən Ustaclı Xəbuşana göndərildi. Budaq xan orada gizlənməyi qərara almışdı və şahın yeni doğulmuş övladı Sultan Həsən Mirzə də onun yanında idi. Şah Abbas bir neçə gün onun gəlməsini gözləsə də Budaq xan şah hüzuruna yollanmaqdan imtina etdi. Bununla, Budaq xanın müxalifliyi məsələsi həll edilməmiş qaldı (58).

Budaq xanın şah hüzuruna gətirilməsi gözənildiyi günlərdə Şah Abbasın yenicə vəzir vəzifəsinə təyin edilmiş Mirzə Məhəmməd xanla da münasibətlələri dəyişdi. Bu da onun həyatını itirməsi ilə nəticələndi. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi Mirzə Məhəmməd üzərinə şübhə düşməsinin səbəbini belə təsvir edirdi: “Şahın ondan dönməsinə səbəb başqalarına məlum olmasa da, amma aqil şəxslərə məlum idi və ağıl bunu təsdiq edirdi: [Şah vəziri ona görə həbs etdi ki,] əvvəla o, nəvvab şahzadə Sultan Həmzə Mirzədən sonra Əbu Talib Mirzənin lələsi olmuş və İraq əmirləri tərəfindən əlahəzrətə ədəbsiz sözlər yazıb Xorasana yollamışdı. İkincisi, o da istəyirdi ki, qalibiyyətlə Mürşüdqulu xanın yolu ilə gedib məmləkətlərin işlərini, şaha ərz etmədən, öz rəyi və məsləhəti ilə həll etsin. Bundan başqa o, mirmiran ilə görüşüb belə qərara gəlmişdi ki, Yəzdə çatdığı vaxt Bəktaş xanla damad olsun və onu öz hamisinə çevirib əfşar tayfasının köməyi ilə şahanə bir şəxsə çevrilsin. Budaq xan da sonradan təsdiq etmişdi

ki, bəs Mirzə Məhəmmədin təhriki və fitnəkarlığı ilə mən də elə bir cəsarətə yol vermişəm” (59).

Mirzə Məhəmməd xan hələ Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərindən başlayaraq səltənət idarəçiliyində mühüm vəzifələr tutmuşdu. Bu vəzifələrin icrası zamanı o öz bilik və bacarığını nümayiş etdirmişdi. Ona görə idi ki, Mirzə Məhəmməd xan uzun müddət mühüm vəzifələrə sahib olmuşdu. Bu zaman o kifayət qədər təcrübə toplamış və səltənətin təcrübəli əmirlərindən birinə çevrilmişdi. Şah Abbas da onun bu keyfiyyətini nəzərə alaraq səltənət vəzirliyinə irəli çəkdi. Amma tədricən Mirzə Məhəmməd xan da böyük iddialara düşməyə başladı. O da güman edirdi ki, Şah Abbasın cavanlığından və təcrübəsizliyindən istifadə etməklə daha böyük səlahiyyətlər əldə edə bilər. Mürşüdqulu xanın aradan qaldırılmasındakı iştirakına görə, Şah Abbasın yüksək etibarını qazanan Mirzə Məhəmməd xan tutduğu yeni vəzifə ilə niyyətində olduğu arzuların həyata keçməsinə bir şans qazandığını güman etdi. Bu isə Şah Abbasın nəzərindən qaçmadı və mərkəzi hakimiyyəti hər vasitə ilə möhkəmləndirməyə çalışdığı üçün onunla bağlı sərt cəza tədbirinə qərar verdi.

Şah Abbasın əmri ilə Mirzə Məhəmməd xan Fərhad xan tərəfindən həbsə alındı və sonra da Pirəli ağa Ərbatan adlı birisi tərəfindən qətlə yetirildi. Mirzə Məhəmməd xanın qətlindən sonra səltənət vəziri vəzifəsinə Həmzə Mirzənin, son vaxtlar isə Şah Abbasın bibisi Zeynəb bəyimin (Herat hakimi olmuş Əliqulu xanın həyat yoldaşı) vəziri olmuş  Mirzə Lütfulla gətirildi (60).

Mirzə Məhəmməd xan aradan götürüldükdən sonra Şah Abbas öz əmirlərini ətrafına topladı və Qəzvinə tərəf hansı yolla hərəkət etmək barəsində onlarla məsləhətləşdi. Şah Abbasın əvvəlki qərarı belə idi ki, Qəzvinə doğru hərəkət zamanı Yəzddən keçsin və Kirman hakimi Bəktaş xanı mərkəzi hakimiyyətdən qopmaq istəklərinə görə cəzalandırsın. Bəktaş xanın atası olan Vəli xan Qorçubaşı şah hüzurunda məsələ qaldırdı ki, Yəzdə getməkdən imtina edilsin və Bəktaş xanın şah hakimiyyətinə sədaqət yoluna gətirilməsi isə ona tapşırılsın. O öz fikrini belə şərh etdi: “Əgər hüma-

yun ordu Yəzdə tərəf gedərsə, Bəktaş xanın və mirmiranın vahiməyə düşmələrinə səbəb olar və onlar şahın yanına gəlməyə cürət etməzlər və güman ki, [o zaman] böyük hadisələr törənər. Yaxşısı budur ki, hər biri bu dərgahın mülazimi və yetişdirməsi olan onlarınn adamlarına güzəşt edək (əğmaz), Tərşiz və Səbzəvar yolu ilə İraqa gedib səltənət paytaxtında əyləşək, Azərbaycan sərhədinin nizamlanması ilə məşğul olaq və rumiləri dəf edək. [Əlahəzrət] qoy bu məsələdə şahanə başısoyuqluq (təqofol) edib onların yersiz davranışlarını bağışlasın. Mən qoca qul söz verirəm ki, oğlum Bəktaşın işi xüsusunda əlahəzrətin razılığından sonra onu hüzura gətirim" (61).

Şah Abbas bu təkliflə razılaşdı və Yəzd istiqamətinə hərəkət etməyi dayandırdı. Şah karvanı Tərşiz və Səbzəvar yolu ilə Qəzvinə doğru istiqamət götürdü. Bu zaman artıq 1589-cu ilin novruz günləri yaxınlaşmaqda idi. Damğanda şah karvanı üç gün dayanaraq Novruz bayramını qeyd etdi. Sonra isə şah karvanı Reyə tərəf hərəkəti davam etdirdi. Şah Abbasın atası və qardaşları Rey yaxınlığındakı Vəramin qalasında saxlanılırdılar. Bəlli olduğu kimi, Mürşüdqulu xan onları özü üçün münasib bildiyi Vəramin qalasına yollamışdı. Bu qərar Şah Abbasın iradəsinin əksinə olaraq verilmişdi. Ona görə də Reyə çatanda Şah Abbas öz atası və qardaşları ilə görüşmək istəyini bəyan etdi. O, Rey yaxınlığındakı saraylardan birində böyük bir məclis təşkil etdirdi və atasının Vəramin qalasından gətirilməsi üçün ora yaxınlarından birini göndərdi. Şah Abbasla görüşmək fürsəti Şah Məhəmməd Xudabəndəni də hədsiz dərəcədə sevindirdi və böyük sevinclə qaladan çıxıb oğlunun görüşünə yollandı. Onun yaxınlaşması xəbərini alanda Şah Abbas atlanaraq düşərgəsini tərk etdi və atasını qarşılamağa yollandı. Şah Məhəmməd Xudabəndəni müşayiət edən dəstə görünəndə Şah Abbas atdan yerə düşdü, atasının qarşısına gedib ədəb-ərkanla onun ayaqlarını öpdü. Şah Məhəmməd Xudabəndə də onu qucaqladı və onunla salamlaşdı. Şah Abbasın yerləşdiyi saraya gətirən yollar xalçalarla bəzənmişdi, yol boyu isə çoxlu sayda insanlar şahın və atasının qarşılanmasına çıxmışdı. Şah Abbas tərəfindən

yol kənarına çıxmış insanlara qızıl paylandı, onlara hədiyyələr verildi. Keçmiş Səfəvi şahının şərəfinə təşkil edilmiş zəngin məclis axşama qədər davam etdi. Şah Məhəmməd Xudabəndə burada bacısı Zeynəb bəyimlə və digər yaxınları ilə də görüşə bildi. Sonra da Şah Məhəmməd Xudabəndə və onun yaxınları Şah Abbasla birlikdə Qəzvinə yollandılar (62).

### 3. Qızılbaş əmirlərinin mərkəzi hakimiyyətə qarşı yeni itaətsizlikləri

Şah Abbasın kifayət qədər cavan olması və onun səltənət idarəçiliyində ciddi təcrübəyə malik olmaması bir sıra qızılbaş əmirlərində mərkəzi hakimiyyətə itaətdən yayınma meyllərini alovlandırmaqda idi. Çoxları üçün Şah Abbas hakimiyyət dövrü Şah Məhəmməd Xudabəndə hakimiyyətinin davamı, qətiyyətsizliyin, özbaşınalıqlrın, parçalanmaların yeni bir səhifəsi kimi qəbul olunurdu. Belələri belə güman edirdilər ki, ətraflarına müəyyən qüvvə toplamaqla mərkəzi hakimiyyətə, onun təmsilçisi Şah Abbasa meydan oxuya, öz iddialarını istədikləri şəkildə həyata keçirə bilərlər. Şah Abbas tərəfindən Məşhədin hakimi və şah oğlunun lələsi kimi yüksək bir etimada layiq görülmüş Budaq xan Çegəni də belələrindən idi. Mürşüdqulu xanın yaxın adamlarından olmuş Budaq xan onun taleyindən dərs çıxarmadan tutduğu yolu davam etdirməkdən əl çəkmədi. Şah Abbasın oğlu Sultan Həsən Mirzəni yanında saxlamaqla Budaq xan böyük iddialara düşdü, Xorasanı səltənət hüdudlarından qopararaq onun müstəqilliyini elan etmək yolunu tutdu. O da Sultan Həsən Mirzəni Xorasan hüdudlarında şah elan etməklə real olaraq hakimiyyəti öz əlinə keçirmək və Xorasana hakimlik etmək istəyirdi. Bu niyyətini həyata keçirmək üçün o, Xorasan daxilində Şah Abbas tərəfindən vəzifəsindən azad edilmiş keçmiş hakimləri, ətraf məntəqələrdə olan əmir və əyanları öz başına topladı və onların qarşısında belə bir bəyanat verdi: “Əlahəzrət zilləllah şah İraqa təşrif aparmışdır və daha onun rumilərin istilası səbəbindən Xorasana gəlmək fürsəti olmayacaq-

dır. Şahzadə isə əlimizdədir. Onu müqəddəs Məşhədə aparıb dövlət taxtına əyləşdirək, başına toplaşaq, Xorasan mülkünü zəbt edək, düşməndən qorunaq. Bizə itaət etməyən hər bir kəsi dəf edib, onun ülkasını başqasına verək" (63).

İlk növbədə hakimlik vəzifəsindən uzaqlaşdırılmış qızılbaş əmirləri Şah Abbasa itaətdən üz döndərməklə Budaq xanın şirnikləndirici təklifinə qoşuldular. Bir sıra əmirlər isə yeni şəraitdə arzusunda olduqları vəzifələri almaq üçün ümidləndilər və mərkəzi hakimiyyətə asilik yoluna düşdülər. Budaq xana qoşulan ilk əmirlərdən biri keçmiş Nişapur hakimi Mahmud xan Sufioğlu Ustaclı idi. O bu vəzifədən Şah İsmayıl tərəfindən uzaqlaşdırılmışdı. Budaq xanın bəyanatını eşitdikdən sonra Mahmud xan ona arxalanmaqla yenidən Nişapura döndü və oranın hakimi olan Şahnəzər sultan Kuşəkoğlunu şəhərdən uzaqlaşdıra bildi. Şahnəzər sultan Şah Abbas tərəfindən bu vəzifəyə təyin edilmişdi. Amma onun xidmətində olan əmirlər, əyanlar, qoşun əhli əsasən Mahmud xanın adamları idilər. Ona görə də Mahmud xan yenidən Nişapura gələndə onun adamları Şahnəzər sultanın oradan uzalaşdırılmasına nail oldular. Şahnəzər sultan Məşhədin hakimi olan Ümmət xanın qohumlarından biri idi. O, vəzifsindən kənarlaşdırıldıqdan sonra Ümmət xanın yanına yollandı. Beləliklə, Nişapur şəhəri Şah Abbasa qarşı qiyam qaldırmış Budaq xanın nəzarəti altına düşdü. Bu hadisədən sonra keçmiş Səbzəvar hakimi olan İmamqulu xan da Budaq xana qoşuldu və o da öz keçmiş vəzifəsini geri qaytarmaq iddiasına düşdü. İmamqulu xan da Şah Abbas tərəfindən Səbzəvar hakimliyindən uzaqlaşdırılmışdı və onun yerinə Məhəmməd sultan Çavuşlu adlı birisi təyin olunmuşdu. O da Şah Abbasın etibar və etimad etdiyi əmirlərdən biri idi. İmamqulu xan da öz adamlarını ətrafına toplayaraq Səbzəvara yollandı və bu şəhərə hakimliyi zorla ələ aldı. Əsfəreyn hakimi Əli Müslüm xan da Şah Abbasa qarşı itaətsizlik yolunu tutmağa üstünlük verdi. Məşhəd şəhərinin hakimi olan Ümmət xan mərkəzi hakimiyyətə qarşı qiyamın genişlənməsinin qarşısını almaq üçün itaətsizlik yolunu tutmuş qızılbaş əmirlərinə müraciət etdi, onları Şah Abbasa sədaqətli qal-

mağa dəvət etdi. Amma həmin əmirlər Budaq xanın rəhbərliyi altında bu müraciəti qəbul etmədilər. Budaq xan hətta mərkəzi hakimiyyətdən qopmağa çalışan əmirlərin ətrafındakı qüvvədən istifadə etməklə Məşhəd şəhəri üzərinə qoşun çəkmək və bu şəhəri də öz nəzarəti altına almaq fikrinə düşdü. Şah Abbasın başı Osmanlı qoşunlarının hücumunun qarşısını almağa qarışdığı üçün onun tezliklə Məşhədə qoşun çıxaracağı mümkün deyildi. Budaq xan da bu fürsətdən bəhrələnməklə Məşhədi ələ keçirmək, Sultan Həsən Mirzəni şah elan etmək və özünü də onun vəkili etmək niyyətində idi. Lakin elə bu vaxt Abdulla xanın oğlu Əbdülmömün xanın rəhbərliyi altında özbək qoşunları 1589-cu ildə yenidən Xorasana daxil oldular (bu barədə aşağıda danışılacaqdır) və Məşhəd şəhərini mühasirəyə aldılar (64). Bu hadisə Budaq xanın Məşhədi tutmaq planına yeni bir məzmun verdi.

Həmin vaxtda Məşhədi ələ keçirməklə mərkəzi hakimiyyətdən qopmağa çalışan başqa bir dəstə də meydana gəlmişdi. Bu dəstə Şah İsmayılın qardaşı Bəhram Mirzənin nəvəsi Rüstəm Mirzənin ətrafında birləşməyə çalışırdı. Rüstəm Mirzə o zaman Qəndəhar hakimi idi. Onun ətrafına ilkin toplaşanlar isə Xorasan vilayəti daxilində vəzifələrini itirmiş olan Sultanəli xəlifə Şamlı və Süleyman xəlifə Türkman oldu. Bu adları çəkilən əmirlər istəyirdilər ki, Rüstəm Mirzəni Xorasana sövq etsinlər və onun ətrafında birləşməklə Məşhəd üzərinə hücum etsinlər. Məşhədin ələ keçirilməsi isə bütün Xorasan vilayətinin nəzarət altına gətirilməsinə yol aça bilərdi. Görünür, Rüstəm Mirzənin rəhbərliyi altında Məşhədin ələ keçirilməsi mümkün sayılırdı. Çünki belə bir planın olmasından xəbər tutan xeyli sayda Xorasan əmir və döyüşçüsü Rüstəm Mirzənin ətrafında birləşməyə hazır olduğunu bildirdilər (65).

Özbək qoşunlarının təhlükəsindən və təcavüzündən nicat tapmaq üçün Fərah şəhərinin sakinləri Rüstəm Mirzəni köməyə çağırdılar. Rüstəm Mizə bu çağırışı öz hakimiyyətinin genişləndirilməsi üçün bir fürsət kimi dəyərləndirdi və ətrafında olan qoşun dəstəsi ilə həmin şəhərə yollandı. Bu şəhər hələ özbək qoşunları tərəfindən işğal edilməmişdi və şəhər əhli özbəklərin işğalı altına

düşməkdənsə Rüstəm Mirzənin hakimiyyəti altında olmağa üstünlük verdi. Fərah şəhərinə əfşar tayfasının təmsilçiləri hakimlik edirdilər. Şəhərin özündə də əfşarlar çox idi. Rüstəm Mirzə bu şəhərə hakimlik edən əfşar əmir və əyanlarını qətlə yetirdi və şəhəri öz nəzarəti altına aldı. O, hətta 1589-cu ildə özbəklərin bu şəhər üzərinə hücumunun da qarşısını almağa müvəffəq oldu. Rüstəm Mirzənin belə bir nəticəyə sahiblənməsi ona qoşulanların sırasını da artırmağa başladı. Onların arasında nüfuzlu qızılbaş əmirlərindən olan Süleyman xəlifə Türkman və İslam bəy Şamlı da var idi. Bu əmirlərin Rüstəm Mirzəyə qoşulmaqda sözsüz ki, öz maraqları var idi. Onlar çalışırdılar ki, Rüstəm Mirzə hərəkatını genişləndirməklə yüksək vəzifələr ələ keçirsinlər. Məhz Rüstəm Mirzə ətrafına toplaşan əmirlər onu Məşhəd üzərinə hücum etməyə təşviq etdilər. O zaman Məşhəd hələ Səfəvi nəzarətində idi. Rüstəm Mirzə isə Məşhəd şəhəri üzərinə hücum etməkdən imtina etdi. Görünür, o bu şəhərin əldə saxlanmasının çətin olacağını anlayırdı. Əvəzində isə o, Sistan üzərinə yürüş etməyi qərara aldı. Sistan bu zaman Səfəvi xanədanına mənsub olan Məlik Zərif adlı bir əmirin hakimliyi altında idi. Rüstəm Mirzə bu şəhəri bir neçə günlük mühasirədən sonra ələ keçirə bildi. Amma o bu şəhərdə möhkəmlənə bilmədi. Bir neçə həftədən sonra Sistanda Rüstəm Mirzə hakimliyinə qarşı qiyam qaldırıldı. Doğrudur, bu qiyam yatırıldı və qiyamçılara divan tutuldu. Bununla belə, Rüstəm Mirzə şəhərdə qala bilmədi və tezliklə oranı tərk edib Zəmindavərə üz tutdu (66).

Bütünlükdə, Rüstəm Mirzə mərkəzi hakimiyyətə qarşı uzun müddət itaətsizlik edə bilmədi. O özü bu yoldan əl çəkdi. Bir tərəfdən onun hərəkatı düzgün anlaşılmadı. Rüstəm Mirzə görürdü ki, onun ətrafına toplaşanlar daha çox vəzifə arzusunda olanlardır. Digər tərəfdən qızılbaş tayfaları arasında mərkəzi hakimiyyətə bağlılıq güclənməyə başlayırdı. Bu da Rüstəm Mirzənin mərkəzi hakimiyyətdən qopmaq və daha böyük əraziləri öz hakimiyyəti altına gətirmək ümidlərini zəiflədirdi. Ona görə vaxt ötdükcə Rüstəm Mirzənin separatçılğı zəifləməyə başladı və çox keçmədi ki, o, könüllü şəkildə malik olduqlarından əl çəkdi. Rüstəm Mirzə

sonra da Səfəvi dövləti hüdudlarını tərk edərək Hindistana yollandı (67).

Şah Abbasa qarşı sədaqətsizlik yolunu tutmuş Budaq xana gəlincə isə, özbək qoşunlarının Xorasan vilayətinə hücumu onun planlarına müəyyən dəyişikliklər etdi. Ən başlıcası, o, Məşhədi tutmaq fikrindən əl çəkməli oldu. Çünki özbək qoşunları da Məşhədi tutmaq niyyətində idi. Bu qoşunların yaxınlaşmaq təhlükəsi meydana gələndə şəhər hakimi Ümmət xan həm Qəzvin sarayından, həm də Budaq xandan və onun ətrafına toplanan qüvvələrdən kömək istədi. Məşhəd özbəklər tərəfindən ələ keçiriləcəyi təqdirdə Budaq xanın planları həyata keçməmiş qala bilərdi. Ona görə o, Məşhədin özbək qoşunlarından qorunmasını məqsədəuyğun saydı və bu məsələni öz müttəfiqlərinə də çatdırdı: “Bir halda ki, özbəklər bu vilayətə qədəm basmışlar, yaxşısı budur ki, gərək əvvəlcə biganə düşməni dəf edək, yox, əgər onların qüdrətləri olarsa qoy müqəddəs Məşhədədək gəlsinlər ki, biz də onlarla birləşək və müxalifləri dəf etməklə məşğul olaq. Yox əgər müqavimət gücümüz olmazsa, Radkanın hüduduna qədər hərəkət edərək, İraqdan kömək gəlib çatanadək bir neçə gün o inadkarların başlarını qarışdıraq. Əgər belə etsək, ola bilər ki, həmin şərafətli məkan düşmən şərindən nicat tapsın” (68).

Əslində, Məşhədin özbək qoşunlarından qorunmasına çalışmaqla Budaq xan bu şəhəri özü üçün saxlamaq niyyətində idi. Lakin bu zaman yeni bir özbək qoşun dəstəsinin Xorasan üzərinə gəlməsini eşidəndə Budaq xan Məşhəd istiqamətində hərəkət etməyi dayandırdı və qərara aldı ki, indi öz gücünü özbək qoşunlarına tərəf istiqamətlənirsin. Xorasana yürüş edən yeni özbək qoşun dəstəsinə isə özbək xanı Abdulla xanın bacısı oğlu Nur Məhəmməd xan rəhbərlik edirdi. O, Mərv, Nisa və Əbivərd hakimi idi. Nur Məhəmməd xanın Əbdülmömün xanla ixtilafı var idi və qorxurdu ki, bu ixtilafdan üstün çıxan Əbdülmömün xan rəhbərliyi altında olan qoşun dəstəsi ilə onun hakim olduğu vilayətlərə hücum etsin və həmin vilayətləri öz nəzarəti altına alsın. Yəni, Nur Məhəmməd xan malik olduğu hakimliyi itirməyindən qor-

xurdu və onun bu qorxusu da Əbdülmömün xanla bağlı idi. Nur Məhəmməd xan rəhbərlik etdiyi qoşun dəstəsi ilə Xəbuşan yaxınlıqlarına qədər irəlilədi. Budaq xan isə belə düşündü ki, Nur Məhəmməd xan Xorasana gəlməklə Əbdülmömün xanın qoşunları ilə birləşəcək və bundan sonra özbək qoşunlarına qarşı müqavimət göstərmək mümkünsüz olacaqdır. Ona görə o, vilayətə yeni gəlməkdə olan Nur Məhəmməd xanın qoşun dəstəsinə qarşı müqavimət göstərməyi qərara aldı. Budaq xanın fikrincə, Nur Məhəmməd xana qarşı müqavimət göstərməklə onun Əbdülmömün xanla birləşməsinin qarşısını almaq mümkün idi. Nur Məhəmməd xan güclü zərbə alacağı təqdirdə Əbdülmömün xanla birləşə bilməyəcəkdi. Belə olanda isə Əbdülmömün xan da əlavə köməkdən məhrum olduğu üçün Məşhədin mühasirəsini davam etdirməkdən əl çəkə bilərdi. Nəticədə, Budaq xan və onun müttəfiqləri də qarşılarına qoyduqları məqsədə, yəni Xorasan vilayətinin nəzarət altına alınmasına nail ola bilərdilər. Ona görə də Budaq xan ətrafına toplanan qüvvələrlə Nur Məhəmməd xanın dəstəsinə müqavimət göstərməyə yollandı. Nur Məhəmməd xan onun üstünə gələn qızılbaş dəstəsindən ehtiyatlanmağa başladı və ona görə də dinc yolla Budaq xanın geri çəkilməsinə çalışdı. O, Budaq xana xəbər çatdırdı ki, məqsədi qızılbaşlarla deyil, Əbdülmömün xanla döyüşməkdir.

Budaq xan və onun ətrafına toplaşan əmirlər isə Nur Məhəmməd xanın sözlərinin kələk və məkr olduğunu düşünərək, onun sözlərini qulaq ardına vurdular və qoşun dəstəsi ilə onun qarşısına çıxdılar. Belə olanda özbəklər o qızılbaş dəstəsinin önündə döyüş hazırlığına başladılar və hər iki tərəf cəng alətlərinə əl atdılar. Tez bir zamanda özbək bahadırları və qızılbaş igidləri bir-birlərinə qarışdılar. Qızılbaş çərxçiləri qorxu bilmədən düşmən üzərinə tərəf at sürdülər, onların çərxçi qarovulunu ön hissədən götürüb özlərini əsas qüvvələrə çatdırdılar. Nur Məhəmməd xanın qoşunu döyüşə atıldı və qızılbaşların bütün səylərinə baxmayaraq təşəbbüsü ələ aldı. Elə döyüşün əvvəlində xeyli sayda qızılbaş döyüşçüsü özbək oxlarının hədəfinə çevrildilər. Döyüşün uğurla başlamasından da-

ha da ilhamlanan özbəklər bütün güclərini toplayıb pərakəndə düşən qızılbaş səfinə hücum etdilər. Şah Abbasa müxalifət yolunu tutmuş Budaq xan ağır bir sınaqla qarşılaşmalı oldu. Sayca üstün qüvvəyə malik olmasına baxmayaraq, Budaq xan döyüşü uduzdu və özbək döyüşçülərinin artan təzyiqi qarşısında qızılbaş döyüşçüləri geri çəkilməyə başladılar. Nur Məhəmməd xan qızılbaşların məğlubiyyətindən sonra onları təqib etməkdən əl çəkdi və daha irəli getmədi. Budaq xan xeyli sayda itki verdi və onunla birlikdə geri çəkilən əmirlərin hər biri öz qalasına dönərək onu möhkəmləndirməyə başladılar. Budaq xan isə anlamağa başladı ki, onun Şah Abbasa qarşı müxalifət yolunu tutmasının ümidverici bir gələcəyi yoxdur. Ona görə də Budaq xan yenidən şah Abbasa itaət yoluna qayıtdı. O, Şah Abbasa yalvarış və peşmançılıq dolu bir məktub yazaraq ondan günahlarının bağışlanmasını xahiş etdi. Həmin məktubu Budaq xan böyük oğlu Hüseynəli Sultanla Qəzvinə göndərdi. Şah Abbas bu məktubu və Budaq xanın yalvarışlarını dözümlülüklə qarşıladı və qərar tutduğu mürəkkəb durumda yeni bir gərginlik ocağının açılmasını istəmədiyi üçün Budaq xanın günahlarını bağışladı (69). Bununla, Budaq xanın Şah Abbas hakimiyyətinə qarşı müxalifətçiliyinə də son qoyuldu.

### 4. Kirman və Fars vilayətlərində mərkəzi hakimiyyətə qarşı itaətsizlik halının aradan qaldırılması

Şah Abbasın hakimiyyətinin ilk illərində onun şahlığına geniş miqyaslı bir müxalifətçilik də özünü Kirman vilayətində göstərdi. Həmin vilayətin hakimi Bəktaş xan idi və o, səltənət qorçubaşısı Vəli xanın oğlu idi. Yəni Bəktaş xanın mənsub olduğu ailə saray daxilində və səltənət hüdudlarında kifayət qədər nüfuzlu bir ailə idi. Bəktaş xan Kirman hakimi vəzifəsinə Şah Abbas tərəfindən təyin edilsə də, o tezliklə itaətsizlik yolunu tutdu. Bəktaş xanın atası da uzun müddət Kirman hakimi olmuş və qorçubaşı vəzifəsinə gətiriləndə onun yerini oğlu tutmuşdu. Görünür, Şah Abbasın kifayət qədər cavan olması Bəktaş xanın da müəyyən iddialara

düşməsinə gətirib çıxarmışdı. Bir müddətdən sonra Bəktaş xan yalnız Kirman hakimi olmaqla kifayətlənmədi və daxilində Fars və Yəzd vilayətlərini də ələ keçirmək niyyətinə düşdü. Bir məlumata görə, onun bu xəyala düşməsinə qayınatası, dövrünün böyük və nüfuzlu seyidi Mir Qiyasəddin Mirmiran rəvac vermişdi. Mir Qiyasəddin Yəzddə yaşayırdı və burada onun böyük nüfuzu var idi. Şah Abbas hakimiyyətinin ilk ilində Herat şəhərinin özbək işğalından qurtarılması üçün Bestam çəmənində qoşun dəstəsi toplayarkən Bəktaş xan öz qoşunu ilə şah qoşunlarına qatılmadı. Bundan əlavə Bəktaş xan Şah Abbasın Məşhəd səfərindən geri qayıtması ərəfəsində icazəsiz olaraq onun düşərgəsindən qaçan zülqədər əmirlərini tutub öz yanında saxlamışdı. Həmin əmirlər Şiraza yollanmalı idilər. Bu şəhərin paytaxtı olduğu Fars vilayətinə hakimliyi isə Yaqub xan Zülqədər edirdi. Zülqədər əmirləri şah düşərgəsini icazəsiz olaraq tərk etdikləri üçün Şah Abbas onların geri qaytarılmasını tələb etdi və bu iş Yaqub xana tapşırıldı. Yəzdə yetişəndə Yaqub xan bildi ki, onun əmirləri və döyüşçüləri Bəktaş xan tərəfindən tutulub saxlanılıb. Bəktaş xan ona da qonaq kimi yanında qalmağı təklif etdi. Yaqub xan bu təklifi qəbul etdi və Yəzddə qaldı. Lakin sonra başa düşdü ki, Bəktaş xanın Fars vilayətini ələ keçirmək niyyəti var və onun Yəzddə qalması həyatı bahasına başa gələ bilər. Ona görə də Yaqub xan gecə ikən əşyalarını da götürmədən Yəzdi tərk etdi. Onun əldə etdiyi bir məlumata görə, Şah Abbas düşərgəsini tərk edib Yəzdə gəlmiş əmirlərdən biri olan Həmzə bəy Fars hakimi kimi nəzərdə tutulmuşdu və Bəktaş xan onu Fars hakimi etmək istəyirdi (70).

Yaqub xanın Bəktaş xanla münasibətləri və Bəktaş xanın nüfuzunun zəiflədilməsi üçün Yaqub xan tərəfindən hansı tədbirlərə əl atılması "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində belə təsvir olunmuşdur: "Amma, hiyləgər və özündən razı olduğundan, belə hərəkət etməklə həmin zülqədər ağaları vasitəsiylə Fars vilayətini özünə ram etmək və orada ixtiyar sahibi olmaq fikrində idi. Qayınatası və fitnəkar bir adam olan mirmiranın təhriki ilə o, bütün Fars, Kirman və Yəzddə özünün iqtidar bayrağını dalğalandırmaq

və həmin yerlərdə hökmran olmaq istəyirdi. Buna görə də, qüvvətli padşah dövlətinin başçıları ilə kifayət qədər hesablaşmırdı. Onların hər ikisi qəflət və qürur badəsi ilə məst olduqlarından, bu işin təhlükəli bir iş olduğu barədə düşünmürdü. Yaqub xan onları təqib edərək Yəzdə gəlib çatdıqda onların hərəkətlərində kin və ziddiyyət olduğunu öyrəndi və tutulan ağaları geri qaytarmaq haqda danışığa başladı, elə o dəm Yəzddən çıxaraq Şiraz yolunu önə tutdu. Bəktaş xan onun ardınca bir dəstə adam yolladısa da, onlar heç onun tozuna belə çata bilmədilər. Yaqub xan Şiraza çatan kimi Bəktaş xana imdad edən zülqədər tayfasının fəsadlı adamlarına qarşı çıxdı, istədi ki, Bəktaş xanın şan-şöhrətini aşağı salsın, onun iqtitdar şöləsini tədbir zülalı ilə elə söndürsün ki, o, bir daha zülqədərlərdən kömək ala bilməsin. Şah tərəfindən ona Fars vilayətinin tənzimlənməsi üçün, özünün məsləhət bildiyi işləri icra etmək tapşırıldığından, əlahəzrət hümayun padşahın təhrikini Bəktaş xanın əmisi Abbas Sultan Əfşara çatdırdı və Kirmandakı əfşar tayfasına elan etdi ki, Abbas Sultanın ətrafına yığışsınlar, çünki nəvvab şah Bəktaş xanı düz işlərdən sapdığına və özbaşına hərəkətlərinə görə həmin vilayəti Abbas Sultana vermişdir. Həmişə bu arzuda olan Abbas Sultan bu təklifi bərk şadyanalıqla qarşıladı, həmin əyalət və mülklərin idarə olunması tədbirlərini hazırladı və özünün zəbt əlini divan mallarına tərəf uzatdı. Nəqdi faydasız yerə nisyə ilə əvəz etməyin ziyan olduğunu düşünən o vilayətin bütün döyüşçüləri ənamlar almaq və münasib mənsəblərə çatmaq ümüdiylə onun başına toplaşdılar, Abbas xan da vilayətin idarə olunması ilə məşğul olmağa başladı. Bu xəbər Yəzdə çatdıqda Bəktaş xanın canına vəlvələ düşdü, Yəzddə onunla birgə olan ağsaqqallara [daha] heç bir etibarı qalmadı"(71).

Amma Bəktaş xan heç də bu vəziyyətlə razılaşmadı və Kirmanı öz nəzarəti altına almaq üçün qoşun toplamağa başladı. O, yaxşı bilirdi ki, Abbas Sultan Kirman hakimliyinə Şah Abbasın fərmanı olmadan gətirilib və qanuni hal daşımır. Bu məqamı əlində əsas tutmaqla Bəktaş xan əfşarlara da müəyyən təsir göstərməyə çalışdı. Bununla belə, Bəktaş xanla Abbas Sultan arasında

döyüşün baş verməsindən qaçmaq mümkün olmadı. Abbas Sultan da Bəktaş xanın təhdidlərinə qoşun toplamaqla cavab verdi. Mənbə məlumatına görə, onun qoşun dəstəsində xeyli sayda tüfəngçi var idi və Bəktaş xanın yaxınlaşması xəbəri alınanda Abbas Sultan da Kirman qalasının ətrafında döyüş mövqeyi tutdu. Tərəflər arasında baş verən döyüşdə Bəktaş xanın döyüşçüləri daha üstün fədakarlıqlar nümayiş etdirdi. Nəticədə Abbas Sultan və onun dəstəsi geri çəkilməli oldu. Abbas Sultanın qoşun dəstəsində olan döyüşçülərin çoxu hətta heç bir müqavimət göstərmədən geri çəkilməli oldu. Abbas Sultan özü isə Kirman qalasına sığınmaqla həyatını ölümdən qurtara bildi. Bəktaş xan qala divarları kənarına gələrək onu mühasirəyə aldı. Onun vəziri olan Hatəm bəy Ordubadi tərəflər arasında qan tökülməsinə razı olmadı və Bəktaş xandan icazə alaraq vasitəçilik missiyası ilə qala daxilinə yollandı. Hatəm bəy müqavimət göstərməyin əbəs olduğunu Abbas Sultana inandırmaqla onu təslim olmağa sövq etmək istəyirdi. Aparılan müzakirələrdən sonra Abbas Sultan Kirmanı təhvil verməyə razı oldu. Amma bunun üçün öz şərtini də açıqladı. Onun şərti belə idi ki, Kirman təhvil veriləndən sonra Bəktaş xan ona, onun ailəsinə, yaxınlarına, onun tərəfdarlarına qarşı qisasçılıq başlamasın, malik olduğu mülklər əlində alınmasın. Bəktaş xan bu şərti qəbul etdi və bununla bağlı Qurana da and qəbul etdi. Abbas Sultan onun andına inanaraq övladları və yaxınları ilə birlikdə qaladan çıxıb Bəktaş xanın yanına yollandı. Kirman qalasını öz nəzarəti altına gətirməsindən Bəktaş xan çox sevinsə də andına xilaf çıxdı. Tərəfdarları arasında böyük hörmət və ehtirama malik olan vəziri Hatəm bəydən xəbərsiz olaraq Bəktaş xan əvvəlcə Abbas Sultanı, onun övladlarını və yaxınlarını həbs etdirdi və sonra da onları bir-bir qətlə yetirdi. Bu qətlləri həyata keçirdikdən sonra Bəktaş xan Yəzdə qayıtdı (72).

Geri qayıtdıqdan sonra Bəktaş xan yenidən Fars hakimi vəzifəsinə ona sədaqətli ola biləcək birisinin gətirilməsi üzərində düşünməyə başladı. O, Yəzddə həbsdə olan zülqədərliləri zindandan çıxararaq onları Həmzə bəy Camillunu Fars hakimi kimi tanımağa

məcbur etdi. Həmzə bəy Fars hakimi kimi Şiraza göndərilmişdi. Doğrudur, sonradan Həmzə bəy də Yaqub xanın qarşısında duruş gətirə bilmədi. Amma Bəktaş xan öz niyyətinin icrasına qanuni bir don da geyindirmək üçün Həmzə bəyin Fars hakimi elan edilməsi haqqında Qəzvin sarayına da məlumat göndərdi. Bəktaş xan güman və təkid edirdi ki, Fars vilayətinə tədbirli bir əmir hakim seçilsin. Onun fikrincə, Yaqub xan yerli sakinlər tərəfindən dəstəklənmirdi və onun dəyişdirilməsinə bir ehtiyac yaranmışdı. Bəktaş xan Qəzvin sarayına göndərdiyi məktubunda Yaqub xanın vəzifəsindən azad edilməsi istəyi ilə bağlı belə yazırdı: "Yaqub xanla zülqədər tayfası arasında fitnə-fəsad olduğu üçün o tayfa ağsaqqalları onunla yola getmirlər və onun hakimliyini tanımırlar. Əgər padşahın inayəti olarsa, Yaqub xanı Fars hakimliyindən çıxarıb, həmin vəzifəni dərgah qulamlarından birinə verə bilər" (73).

Bəktaş xan bu təklifinin qəbul olunması üçün şah xəzinəsinə böyük miqdarda maliyyə vəsaitinin ödənməsini də boynuna götürürdü. Onun vəziri olan təcrübəli və müdrik Hatəm bəy Bəktaş xanı hər vasitə ilə bu işlərdən çəkindirməyə çalışırdı. Hatəm bəy israrla təkid edirdi ki, Bəktaş xan şah tərəfindən Kirman hakimi təyin edilib. Ona görə də Yəzdin və zülqədər tayfasının işlərindən əl çəkib Kirmana yollanmalı və özünün əsas vəzifəsinin icrası ilə məşğul olmalıdır. Xüsusilə, onun nəzərinə çatdırırdı ki, Bəktaş xanın tutduğu yol Şah Abbasın və səltənət mənsublarının dəstəkləmədiyi bir yoldur və bu yolun sonu yoxdur. Bəktaş xanın atası Vəli xan da onu hər vasitə ilə bu yoldan, yəni Şah Abbasa qarşı itaətsizlik yolundan çəkindirməyə çalışırdı. Bəktaş xan isə ona verilən məsləhətlərin heç birini qəbul etmədi: "Onun bütün hərəkət və əməlləri tüğyan və üsyandan xəbər verirdi. Nəhayət, puç bir xəyala düşüb bu qənaətə gəldi ki, əgər ali divan onun istəyinə özü istəyən kimi razılıq verməzsə, öz bildiyi kimi hərəkət edəcək, bütün Fars və Kirman vilayətini özünə götürəcəkdir" (74).

Amma Şah Abbas heç də onun xahişini və təklifini qəbul etmədi. Bəktaş xan ümumiyyətlə, Şah Abbas tərəfindən artıq etibarlı bir insan kimi qəbul edilmirdi və vilayətin idarəçilik məsə-

ləri ilə bağlı vəzir Hatəm bəydən məlumat almağı daha düzgün sayırdı. Ona görə də Şah Abbas Yaqub xanın Fars hakimi vəzifəsindən uzaqlaşdırılması təklifini qəbul etmədi.

Bəktaş xan isə öz inadından, iddialarından və yersiz qürurundan əl çəkmədi. Hətta Şah Abbasın narazılığına baxmayaraq, o, daha geniş ərazilərə hakim olmaq iddiasının həyata keçirilməsi üçün yeni-yeni yollar axtarmağa başladı. Tiryək məstliyi zamanı isə təkrar-təkrar mərkəzi hakimiyyətdən qopmağı və müstəqil hakim olmağı dilinə gətirərdi. Bəktaş xan özünü hətta tarixi şəxsiyyətlərlə müqayisə edərək, onlardan geri qalmadğının qürurunu da ətrafındakılarla bölüşərdi. Qayınatası olan tanınmış seyid Mir Nemətullanın təqdiredici mövqeyi isə Bəktaş xanı daha da təşviqləndirərdi. Ətrafına vəzifə ehtirası ilə toplaşan bəzi əmir və əyanlar isə onu açıq itaətsizliyə təhrik edə bilirdilər. Beləleri ona məsləhət bilmişdilər ki, qoşun dəstəsi ilə Fars vilayətinə yol alsın, bu vilayətin müxtəlif məntəqələrinə öz adamlarını hakim təyin etsin. Belə bir güman yaradılırdı ki, Fars vilayətinin əmir və əyanları, bu vilayətin sakinləri Yaqub xanın hakimliyini istəmirlər və onun devrilməsini də dəstəkləyəcəklər. Bəktaş xanı hətta inandırmağa da çalışırdılar ki, o, Yaqub xanı yanına çağıra və onu Farsın hakimliyindən sakitcə uzaqlaşdıra bilər. Bəktaş xan da bu sözlərə inanırdı və güman edirdi ki, çox yaxında çətinlik çəkmədən Fars vilayətinin hakimliyinə öz adamını yerləşdirə biləcəkdir. Belə bir adam kimi o, Həmzə bəy Camillunu nəzərdə tuturdu. Bəktaş xan ona Fars hakimliyini vəd etdi və onu 150 nəfərlik bir dəstə ilə Şiraza yola saldı ki, Yaqub xanı oradan sıxışdırıb özü onun yerini tutsun. Həmzə bəyə kömək göstəriləcəyi də vəd edilmişdi. Bəktaş xan özü isə Yəzd qalasını almağa yollandı. Bu qalanın hakimi Əliqulu bəy Şamlı həmin vəzifəyə elə Bəktaş xan tərəfindən gətirilmişdi. Lakin sonradan onların münasibətləri korlanmış və Əliqulu bəy ona itaətdən üz döndərmişdi. Bəktaş xan qoşun dəstəsi ilə Yəzd qalasını mühasirəyə aldı və bir neçə gün qala ətrafında, tərəflər arasında döyüşlər baş verdi. Bəktaş xan öz gümanlarının əksinə olaraq, Yəzd qalasını tezliklə ələ keçirə bilmədi. Onun həm

Yəzd qalasına, həm də Şiraza qoşun dəstəsi göndərməsi xəbəri şah sarayına da çatdı və Şah Abbas Yəzd-Şiraz ətrafında qızılbaş çəkişmələrinin və itaətsizliklərinin aradan qaldırılması üçün qətiyyətli addımlar atılması qərarına gəldi. Onun nəzərində, səltənət daxili çəkişmələr və qarşıdurmalar Osmanlı və özbək qoşunlarının yaratdığı təhlükədən də qorxulu idi. Ona görə onun əmrinə əsasən şah qoşunları qısa bir zaman ərzində toplanaraq İsfahan istiqamətində hərəkətə başladı. Şah Abbas özü də bu qoşunla hərəkət edirdi. Amma şah qoşunları Kaşana çatanda Bəktaş xanın öldürülməsi xəbəri alındı və bu da şah qoşunlarının hərəkətini təxirə saldı (75).

Bəktaş xanın qətlə yetirilməsi Yaqub xanın ona qarşı fəal addımlar atması ilə bağlı idi. Hələ Şah Abbas Məşhəddə olarkən zülqədər əmir və döyüşçülərinin icazəsiz olaraq şah düşərgəsindən ayrılması bu tayfanın idarəçiliyində olan Fars vilayətində Yaqub xanın mövqelərinin zəifləməsi gümanını yaradırdı. Yaqub xan Bəktaş xanın evindən gizli şəkildə qaçıb Şiraza gələndən sonra ona və bütünlükdə şah hakimiyyətinə qarşı itaətsizlik yolunu tutmuş zülqədər əmir və əyanlarına qarşı qətiyyətli mövqe tutdu. Şiraz hakimi onların bəzilərini tədbir yolu ilə yenidən şah hakimiyyətinə itaət yolunu tutmağa sövq etdi. Bu yolu tutmaqdan imtina edənlərə qarşı isə Yaqub xan silahını işə saldı, onlara qarşı sərt tədbirlər həyata keçirdi, barışmazlıq yolu tutanları aradan qaldırdı. Nəhayət, Fars vilayətində nisbi bir sabitlik yaradıldı, itaətsizlik yolu tutmaq istəyənlərin bazası məhv edildi. Sağ-salamat qalan zülqədər əmir və əyanları isə elə bir qorxu keçirdilər ki, onlar Yaqub xanın hakimliyinə qarşı səslərini çıxara bilmədilər (76).

Yaqub xanı devirmək üçün Bəktaş xandan vədə və kömək almış Həmzə bəy isə əvvəlcə mənsub olduğu Camillu tayfasının ixtiyarında olan Şulestana getdi, Sefid qalasını ələ keçirdi. Sonra da həmin qalanı Ümmət ağa adlı bir yaxınına həvalə edib hərəkətini davam etdirmək üçün hazırlıqlarını görməyə başladı. Həmzə bəy çox ümid edirdi ki, onun orada olduğu zaman zülqədər tayfasının üzvləri ona qoşulacaq və onun rəhbərliyi altında Yaqub xanın devrilməsində iştirak edəcəklər. Amma bu baş vermədi və

Həmzə bəy yerli zülqədərlilərdən kömək görmədi. Bununla, əslində, Həmzə bəyin niyyətlərinin həyata keçməsi şübhə altına alındı. Digər tərəfdən öz ətrafında işləri müəyyən qədər sahmana saldıqdan sonra Yaqub xan zülqədər, lur və kürd döyüşçülərindən ibarət 12 min nəfərlik qoşun dəstəsi yaradıb Bəktaş xanın cəzalandırılmasına yola düşdü. Həmzə bəyin dəstəsində olan əfşar əmirləri və döyüşçüləri böyük bir qoşun dəstəsi ilə rastlaşdıqlarını görəndə müqavimət göstərməyin mənasız olması qənaətinə gəldilər. Ona görə də onların çoxu geriyə qayıtmağı qərarlaşdırdılar. Buna baxmayaraq, onlar canlarını Yaqub xanın zərbəsindən qurtara bilmədilər. Yaqub xan geri üz tutan əfşarların arxasınca bir dəstə zülqədər atlısı göndərdi. Həmin dəstə əfşarları haqlayıb onlarla döyüşə girdi. Əfşar döyüşçülərinin çoxu bu döyüşdə həyatlarını itirdilər. Salamat qalanlar isə özlərini Yəzdə yetirib baş verənləri Bəktaş xana çatdırdılar (77).

Həmzə bəy Yəzd qalasına sığınmaqla heç də özünü təhlükəsiz hesab etmədi. O, şübhə etmirdi ki, kifayət qədər gücə malik olan Yaqub xan onunla düşmənçilik yolunu tutmuş Bəktaş xanın üzərinə qoşun çəkəcəkdir. Bu qarşıdurmada Yaqub xan Şah Abbasa itaət yolundan sapınmadığı üçün Bəktaş xanı daha acı tale gözləyə bilərdi. Ona görə hələ Yaqub xanın dəstəsi Yəzdə yetişmədən Həmzə bəy oranı tərk etdi. Öz tərəfdarlarının müşayiəti ilə o, Kuh-Giləviyyəyə üz tutdu. Amma burada da o, həyatını qoruya bilmədi. Yaqub xan Kuh-Giləviyyə hakiminin yanına adamlarını göndərdi və bu şəhərə sığınmış olan Həmzə bəyi ondan tələb etdi. Kuh-Giləviyyə hakiminin Yaqub xana müqavimət göstərmək imkanı yox idi. Ona görə də onun tələbi əsasında Həmzə bəyi və onun yaxın ətrafını Yaqub xana təhvil verdi. Yaqub xan da dərhal onların hamısını qətlə yetirdi. Həmzə bəyin ətrafına toplaşmış olan Camilli camaatı isə dağılıb pərən-pərən düşdü. Yaqub xan həmin camaatdan əlinə keçəni qətl etdi və çalışdı ki, mərkəzi hakimiyyətə qarşı silah qaldırmış adamların hamısını aradan götürsün. Bununla, Yaqub xan Şah Abbas hakimiyyətinə qarşı Yəzd-Kirman-Şiraz ətrafında silah qaldırmış müxaliflərin müəyyən bir his-

səsini zərərsizləşdirmiş oldu. Bununla həm də bölgədə Yaqub xanın hökmü daha da genişləndi. Yaqub xan bununla kifayətlənmədi və sonra qoşun dəstəsi ilə Bəktaş xanın üzərinə qoşun çəkdi (78).

Bəktaş xan isə hadisələrin belə cərəyan edəcəyini gözləmirdi və böyük iddialarla yaşayırdı. Həmzə bəyi irəli göndərdiyi günlərdə də vaxtını Yəzddə eyş-işrətdə keçirirdi. Həmzə bəyin öz dəstəsi ilə onun yanına gəlməsi və sonra da qətlə yetirilməsi onu bir növ yuxudan ayıltdı və anladı ki, çox ciddi təhlükə onu da haqlamaqdadır. Belə olanda o, yaxın ətrafını başına topladı və onlarla nə etmək lazım olması haqqında məsləhətləşməyə başladı. Bəziləri Bəktaş xana belə məsləhət verdilər ki, yığışıb Kirmana yollansın. Əgər yolda ikən Yaqub xan onları haqlamağa çalışsa onda müdafiə olunsunlar və sonra da Kirmana çəkilsinlər. Bəktaş xanın əmirlərinin fikrincə, onlar Kirmana sığındıqdan sonra orada əlavə qoşun dəstəsi də toplaya bilərdilər. Bu adamlarda belə bir ümid də var idi ki, Kirmanda qoşun dəstəsi toplamaqla sonradan Yəzdə qayıtmaq və sonra isə Şiraza doğru hərəkət etmək də mümkün olardı. Bəktaş xan bu məsləhəti qəbul etmədi. Yersiz qürur hissini boğa bilməyən Bəktaş xan əmirlərin məsləhəti ilə Yaqub xanın qarşısından qaçmağı özünə rəva bilmədi. Fikrini də onunla əsaslandırmağa çalışdı ki, döyüşün nəticəsi heç də həmişə qoşunların say üstünlüyü ilə bağlı olmur. Ona görə Bəktaş xan düşmənə arxa çevirməyəcəyini bəyan etdi. Beləliklə, Bəktaş xan qoşun dəstəsini səfərbər etməklə Yaqub xanla döyüşə girmək qərarını verdi (79).

Bəktaş xan üzərində uğurun etibarlı təminatı üçün Yaqub xan Əbərqu hakimi Yusif xanla da sövdələşə bildi. Şah Abbas hakimiyyətə gələndən sonra Yusif xana səltənət qorçubaşısı kimi yüksək bir vəzifə verilmişdi. Amma onun mərkəzi hakimiyyətə qarşı itaətsizlik göstərən qızılbaş əmirləri ilə əlaqələri üzə çıxandan sonra bu vəzifədən azad edildi və həbsə alındı. Sonradan o, Bəktaş xanın atası Vəli xanın vasitəçiliyi ilə həbsdən azad edildi. Ona görə Yusif xanın Bəktaş xana və onun ailəsinə rəğbətli münasibəti var idi. Şah Abbas Xorasanda olarkən Yusif xan Yəzdə gəldi. Yusif xanın atası Qulu bəy Qorçubaşı vaxtilə Əbərqu hakimi ol-

muşdu. Yusif xan Yəzdə gələndə Qulu xanın Əbərquda olan tərəfdarları onun başına toplaşdılar və həmin adamların köməyi ilə Yusif xan Əbərqu qalasını ələ keçirdi. Bu qalanın ələ keçirilməsində Bəktaş xanın köməyi də istisna deyildi. Əslində, onların arasında qohumluq əlaqəsi də var idi. Bununla belə, Bəktaş xanın ötkəmliyi və böyük iddialara düşməsi Yusif xanın ürəyincə deyildi. Bundan isə Yaqub xan istifadə edə bildi. Yəzddən əvvəl Yaqub xan Əbərqu yaxınlığına gəldi və Yusif xana xəbər göndərdi ki, Bəktaş xan dövlətin əleyhinə olduğu üçün aradan qaldırılmalıdır. Yaqub xan məsləhət bildi ki, tayfa yaxınlığını və qohumluq əlaqələrini bir kənara qoyaraq mərkəzi hakimiyyətə qarşı mövqe tutmuş Bəktaş xanın zərərsizləşdirilməsində Yusif xan öz köməyini əsirgəməsin. Göstərəcəyi köməyin qarşılığında isə Yusif xana Kirman hakimliyi vəd olundu. Kirman hakimi olmaq xəbərini Yusif xan məmnunluqla qarşıladı və dərhal da öz qoşun dəstəsi ilə Yaqub xana qoşuldu (80).

Yaqub xanla Yusif xanın birləşmiş qoşun dəstəsi sonra Bəktaş xanın zərərsizləşdirilməsi üçün Yəzd istiqamətində hərəkətə başladı. Bəktaş xan ətrafında olan qüvvələri səfərbərliyə alaraq 3 min nəfərlik qoşun dəstəsi ilə Yəzdi tərk etdi və Tüfət adlanan bir kənd yaxınlığında özünə düşərgə saldı. Elə burada da o öz qoşun dəstəsini Yaqub xanla döyüş aparmaq üçün qruplaşdırmağa başladı. Çox da böyük olmayana dəstəsinin mərkəzini Bəktaş xan vəziri Hatəm bəyin rəhbərliyi altına verdi. Bundan başqa qoşunların sağ və sol cinahları da müəyyənləşdirildi və təcrübəli əmirlər həmin cinahların rəhbəri təyin edildi. Yaqub xan da həmin məntəqəyə gəldi və o da öz qoşun dəstəsini döyüş üçün qruplaşdırdı. 12 min nəfərlik qoşun dəstəsini Yaqub xan üç sırada düzdürdü, sağ və sol cinahlar təyin edildi. Yaqub xan özü ikinci sıranın mərkəzində qərar tutdu. Onun qoşununun əsasını zülqədər tayfasının üzvləri, Bəktaş xanın qoşun dəstəsinin əsasını isə əfşarlar təşkil edirdilər. Döyüş işarəsi verilən kimi bu iki qızılbaş tayfasının silahlıları birbirinin üstünə atıldılar. Mənbə məlumatına görə, Bəktaş xan 2500

nəfərlik əfşar atlısı ilə irəli atıldı və elə ilk zərbələrdən sonra onlar Yaqub xanın qoşunlarının ikinci sırasına yetişə bildilər (81).

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərində Yaqub xanla Bəktaş xan arasında döyüşün başlaması və gedişi belə təsvir edilmişdir: "Hər iki tərəf hərb alətlərinə əl atdı. Şiraz ləşkərinin çərxçiləri aramsız həmləyə keçdilər. Əfşar qoşununun dilavərləri onların sədəmələrinə tab gətirə bildi və Yəzd qoşununa qorxu üz vermədi. Öz ləşkərinin mərkəzi hissəsini (qəlb) və düşmənin çoxluğunu müşahidə edən Bəktaş xan anladı ki, əgər cəng qayda-qanununa riayət edərsə, həmin saysız-hesabsız ləşkərə müqavimət edə bilməyəcəkdir. Abbas Sultanla hərb zamanı əl atdığı üsula əməl edib, qoşununun hamısını hərəkətə gətirdi və onlar bütövlükdə Şiraz ləşkəri üzərinə hücuma keçdilər. Bəktaş xan qoşunun qol hissəsini yürüş üçün öz etibarlı adamlarına tapşıraraq, ləşkərin özünə məxsus şücaətli döyüşçülərini qoldan ayırdı, sürətlə hücuma keçdi, çərxçi döyüşçülərinin səfini dağıtdı, Şiraz əsgərinin səbat və dözüm bünövrəsinə zəlzələ saldı. Yaqub xan çaş-baş qalıb, əfşar qazilərinin məharətli bir sədəməsindən sonra öz əsgərlərində acizlik və sınıqlıq müşahidə etdi. Elə iztiraba düşdü ki, bayrağının yanından uzaqlaşıb ehtiyatını əldən vermədi. Fars əmirləri zümrəsindən olan Mürtəzaqulu xan Pornakın oğlu Məhəmmədqulu xan ürəkdirək verərək onu səbir və dözümə rəğbətləndirməkdəydi" (82).

Qüvvələrinin az olmasına baxmayaraq, Bəktaş xan fədakarlıqla vuruşa və Yaqub xanın dəstəsinə xeyli itki yetirə bildi. Hətta Yaqub xanın qoşun dəstəsinin birinci sırasını yararaq ikinci sıraya qədər irəliləməyə də müvəffəq oldu. Amma Bəktaş xanın döyüşçülərinin cəsarətsizliyi və qətiyyətsizliyi onun uğurlu hücumuna mane oldu. Bu döyüşçülər Yaqub xan qoşunlarının böyük say üstünlüyünə malik olduğunu görəndə, tərəddüd içərisinə düşdülər və Bəktaş xanın arxasınca getməyi dayandırdılar. Onlar hətta bir ləhzə dayanaraq döyüş meydanında nə baş verdiyini anlamağa çalışdılar. Yaqub xanın döyüşçüləri isə qarşı tərəfin döyüşçülərinin tərəddüd keçirməsində dərhal istifadə etdilər və böyük sürətlə irəli atıldılar. Yusif xanın döyüşçülərinin bəziləri Bəktaş xanın yerini

müşahidə edə bildilər və onun yerini Yaqub xana da göstərdilər. Bəktaş xan bu zaman öz qoşun dəstəsindən bir qədər aralanmışdı və ona görə Yaqub xan öz döyüşçülərinə onu mühasirəyə almaq tapşırığı verdi. Belə bir tapşırığı alandan sonra zülqədər atlıları Bəktaş xanı mühasirəyə almağa çalışdılar. Bəktaş xan bunu görüb öz dəstəsindən bir qədər aralı düşməyə peşman oldu və vəziyyəti dəyərləndirəndən sonra geri çəkilmək qərarına gəldi. Çünki artıq onun yenidən öz dəstəsi ilə birləşmək fürsəti də qalmamışdı. Bəktaş xan yalnız Yəzdə tərəf irəliləmək imkanı əldə etdi. Yəni o, döyüş meydanını tərk etmək məcburiyyətində qaldı. Onun geri çəkilməsi ilə əfşar döyüşçüləri də döyüş meydanını tərk etməli oldular. Bəktaş xan Yəzd şəhərinə daxil olub darvazaları yaxşıca bağlamağı tapşırdı və özünün etibar etdiyi adamları da darvazaların mühafizəsinə vəzifələndirdi. Sonra da qayınatası Mir Nemətulla ilə nə edəcəyi barəsində məsləhətləşməli oldu. Bəktaş xan ya Yəzddə qalıb qala daxilində müdafiə olunmalı idi, ya da Kirmana çəkilməklə orada öz həyatını qorumağa çalışmalı idi. Bəktaş xanın ətrafında toplanmış insanların bəzisi ona Kirmana getmək təklifini verdi. Onların fikrincə, Kirman daha təhlükəsiz idi və məsləhət olunurdu ki, elə gecəliklə Yəzd şəhərini tərk edib Kirman istiqamətində hərəkətə başlasınlar. Bəktaş xan bu təklifi öz istəyinə uyğun hesab etmədi. Xüsusilə, o, ailəsini Yəzddə buraxıb Kirmana yollanmaq istəmirdi. Bir tərəfdən ailəni Kirmana aparmaq çətinlikləri var idi. Digər tərəfdən də Bəktaş xana görə Yaqub xanın adamları Kirman yolunu bağlaya bilərdilər ki, bu da ciddi bir təhlükə yarada bilərdi (83).

Bəktaş xan və onun döyüşçüləri sürətlə geri çəkilməli olduqlarından döyüş meydanında böyük sayda əmlak qoyub getmişlər. O cümlədən, atlar, dəvələr, silah və təchizat əşyaları. Bütün bu əmlak Yaqub xanın adamlarının əlinə keçdi. Yaqub xan əldə etdiyi uğuru məmnunluqla qarşıladı və axşamın yaxınlaşması üzündən Bəktaş xanın dəstəsini təqib etmədi. Bir mənbə məlumatına görə isə, Yaqub xan Yəzd şəhəri ətrafına öz adamlarını düzdürdü ki, Bəktaş xan şəhərdən çıxa bilməsin. Bəktaş xanın Kirmana getmək

ehtimalını Yaqub xan da hiss edirdi və buna yol vermək istəmirdi. Ona görə də Yaqub xan səhər açılan kimi bir neçə ağsaqqalı Yəzd daxilinə, Mir Nemətullanın yanına göndərdi və ondan Bəktaş xanın təhvil verilməsini istədi. Yaqub xan tələbini Mir Nemətullaya göndərdiyi məktubunda da ifadə etdi. Mir Nemətulla dövrünün ehtiram qoyulan bir seyidi olduğu üçün vəzifəsindən və məqamından asılı olmayaraq səltənət daxilində ona hörmətlə yanaşılırdı. Yaqub xanın məktubunda isə ona qarşı həm tələb, həm də təhdid ifadə olunmuşdu. Bu məktubda bildirirdi ki, Bəktaş xan dövlətə xəyanət edib və şah adına o, dustaq edilməlidir. Sonra da əlavə olunurdu ki, hazırda Bəktaş xan Mir Nemətullanın nəzarəti altındadır və əgər o, gizli şəkildə Yəzdi tərk edərdisə, onda məsuliyyət daşımalı olacaqdı. Mir Nemətulla bu məktubdan sonra Bəktaş xanı Yaqub xana təhvil vermədi. Amma Yaqub xanla konfliktə girməyi də məqsədəuyğun saymadı. Ona görə elə Bəktaş xanın yanında məktubu gətirən adamlara bildirdi ki, Bəktaş xan heç yerə gedə bilməz və onun nəzarəti altında Yəzddə qalacaqdır. Eyni zamanda Mir Nemətulla özünün yaxın adamlarına da tapşırdı ki, Bəktaş xanı nəzarət altına alsınlar və onun icazəsiz şəhəri tərk etməsinə yol verməsinlər. Yaqub xan tərəfindən cəzalanmaqdan qorxan Mir Nemətulla digər ehtiyat tədbirlərinə də əl atdı. O, Yaqub xanın qoşunlarından bir dəstəni şəhərə buraxıb öz evi ətrafında yerləşdirdi. Bu dəstə də Bəktaş xanın icazəsiz olaraq şəhərdən çıxmasının qarşısını almalı idi. Yəni Bəktaş xanın Yəzdi tərk etmək yolu bütünlüklə bağlanmışdı. Eyni zamanda şəhər daxilində də onun müdafiə olunmaq imkanları yox idi. Bir tərəfdən Mir Nemətulla onu ciddi nəzarət altında saxlayırdı. Digər tərəfdən də Bəktaş xan artıq öz adamlarına da etibar etmirdi. Ona görə o, çarəsiz bir duruma düşmüşdü (84).

Bəktaş xanın gecələr gözünə yuxu da getmirdi və yaranmış vəziyyətdə canını salamat qurtarmağın yolunu arayırdı. Bir gecə otağını tərk edib bayıra çıxanda evin qarşısında dayanan mühafizəçilərin başlarının söhbətə qarışdığını gördü. Ona elə gəldi ki, bu məqamdan istifadə etməklə bəlkə də canını qurtara bilər. Bək-

taş xan qılıncını əlinə alıb həmin adamların üstünə atıldı. Elə bu vaxt tüfəng səsi gəldi və Bəktaş xanın qılınc tutan əli güllə yarası aldı. Bu güllənin kim tərəfindən açıldığı bəlli deyildi. Güman edilirdi ki, güllə ya təsadüfən açılıb və Bəktaş xana dəyib, ya da kimsə onun qaçmasından xəbər tutub onu yaralayıb. Hər halda Bəktaş xan bununla Yaqub xanın adamlarının əlinə keçdi və həmin adamlar da onu Yaqub xanın yanına aparacaqlarını bəyan etdilər. Bəktaş xan öz qüruruna və ötkəmliyinə görə qolları bağlı şəkildə Yaqub xanın qarşısına çıxmaq istəmirdi. Ona görə Bəktaş xan tələb etdi ki, onu elə oradaca qətl etsinlər. Dirəniş göstərdiyini görən zülqədər silahlıları Bəktaş xanı elə evi ətrafında qətlə yetirdilər və onun başını bədənindən ayırdılar. Bu hadisə gecə yarı baş versə də, məsələ haqqında Yaqub xana xəbər çatdırıldı. Yaqub xan da ona müxalif olan güclü əmirlərin birindən canını qurtardığı üçün çox sevindi. Yaqub xan bu barədə şah sarayına da məktub yazdı və Bəktaş xanın kəlləsini Qəzvinə göndərdi. Səhəri gün Yaqub xanın adamları Yəzdə tökülüşdülər və bu şəhərdə yaşayan əfşarların evlərini, var-yoxlarını talan elədilər (85).

“Rövzətüs-səfəviyyə” əsərinin müəllifinin yazdığına görə, Yəzddə ciddi mühafizə altına alınandan sonra Bəktaş xan canını qurtarmaq üçün Yaqub xanla görüşmək qərarına gəldi. Ehtimal edilir ki, qətlə yetirildiyi gün Bəktaş xan bu planını həyata keçirmək və Yaqub xanla görüşmək fikrinə düşmüşdü. Onun qətlə yetirilməsi ilə bağlı adı çəkilən mənbədə iki mülahizə irəli sürülür. Bir mülahizəyə görə, Bəktaş xan görüşə yollanmazdan əvvəl öz tüfəngdarlarının birini yanına çağırdı və ona tapşırdı ki, Yaqub xanın adamları onu həbs etmək istəsələr açdığı atəşlə onun həyatına son qoysun. Bundan sonra Bəktaş xan atlanıb yol düşmək istədi. Yaqub xanın adamları onun saxladılar. Bəktaş xan hara getmək istədiyini onlara açıqladı. Onlar arasında söhbət uzandı və zülqədər atlıları istədilər ki, bu xəbəri Yaqub xana çatdırsınlar. Bəktaş xanın adamı isə nə baş verdiyindən xəbərsiz atəş açıb onu öldürdü. Bundan sonra zülqədər silahlıları onun başını bədənindən ayırıb Yaqub xanın yanına apardılar (86).

Başqa bir mülahizəyə görə isə Bəktaş xan ev dustağı kimi Mir Nemətullanın yanında saxlanılanda Yaqub xan onun tutulması üçün silahlı dəstə göndərdi. Bu dəstə evi mühasirəyə alıb Bəktaş xanı tutmaq istədi. Bəktaş xan müqavimət göstərəndə isə Yaqub xanın silahlıları onu öldürdülər və başını bədənindən ayırıb Yaqub xanın yanına apardılar. Bəktaş xan qətlə yetiriləndən sonra onun bütün əmlakını Yaqub xan ələ keçirdi. Sonra da Yaqub xan Bəktaş xanın kəlləsini Şah Abbasa göndərib yenidən Şiraza qayıtdı (87).

Yaqub xan Yəzddə bir neçə gün vaxt keçirdi. Əldə etdiyi qələbədən son dərəcə razı qalan Yaqub xan həmin günlər ərzində öz uğurunu böyük şadyanalıqla qeyd etdi. Bəktaş xanın qətlə yetirilməsi həm də onun iddialarının həyata keçməsi üçün böyük bir fürsət açırdı. Bu qarşıdurmanı Yaqub xan mərkəzi hakimiyyətə itaətsizlik halının aradan qaldırılması pərdəsi altında aparsa da, əslində, onun da gizli iddiaları var idi. Həmin iddialar da səltənətin cənub bölgəsini öz hakimiyyəti altına gətirməkdən ibarət idi. Bəktaş xanın qətli ilə Fars, Yəzd və Kirman vilayətləri onun nəzarəti altına düşdü. Bəktaş xana qarşı mübarizədə özünə müttəfiq edə bildiyi Yusif xanı isə vəd etdiyi kimi Kirman hakimi elan etdi. Yəni o, Şah Abbasın hökmü olmadan özbaşına Yusif xanı vilayət hakimi elan etdi və malik olduğu hərbi qüvvə ilə onun hakimliyinə zamin oldu. Bununla, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi bayrağı altında Bəktaş xanı qətlə yetirən Yaqub xan özü mərkəzi hakimiyyətə qarşı çıxdı və əməli ilə əslində, səltənətin parçalanması yolunu tutdu. Nəzarəti altında olan vilayətlər daxili yerli hakimlərin təyin edilməsində də Yaqub xan özbaşınalıq nümayiş etdirdi. Elə həmin günlərdə Şah Abbasın qəzəbinə düçar olmuş bir neçə qızılbaş əmiri də Yaqub xanın yanına gələrək Fars vilayətində özlərinə sığınacaq tapdılar. Bu da Yaqub xanın artıq mərkəzi hakimiyyətə itaətdən uzaqlaşmaqda olmasının göstəricisi idi. Yəzddə olduğu günlərdə Yaqub xan çox zəngin var-dövlət də ələ keçirdi. Bu var-dövlətin əsasını Bəktaş xanın və onun ətrafında olan əfşar əmirlərinin əmlakı təşkil edirdi. Var-dövlətin xeyli sayda artması isə onun iddialığını da yüksəltdi. Bəktaş xanın qət-

lindən sonra Yaqub xan Lar vilayətinin hakimi İbrahim xana xələt göndərdi. Xələt göndərilməsi Lar hakiminin itaətə çağırılmasına bir işarə idi. Baxmayaraq ki, Lar hakimi İbrahim xan həmin vəzifəyə Şah Abbas tərəfindən təyin edilmişdi, Yaqub xanın göndərdiyi xələti qəbul etdi. Başqa sözlə, İbrahim xan mərkəzi hakimiyyətə itaətdən imtina edərək Yaqub xana itaət göstərmək seçimini qəbul etməli oldu (88).

Günlər ötdükcə Yaqub xan mərkəzi hakimiyyətdən daha da uzaqlaşdı, özünə arxayınçılığı və səltənətin cənubunda özbaşınalıqları artdı. Bu bölgənin mərkəzi hakimiyyətdən qoparaq müstəqil bir dövlət edəcəyinə Yaqub xanda şübhə yeri də qalmamışdı. İddialarının həyata keçirilməsi üçün Yaqub xan ətrafına böyük sayda qoşun da toplamağa başladı. Bu qoşunların sayı 20 min nəfərə çatmışdı. Fars vilayətində olan İstəxr qalasını təmir və bərpa etdirərək oranı özünün müdafiə mərkəzinə çevirdi. Yaqub xan bütün əmlakını və sərvətlərini də həmin qalaya daşıtdırdı, bu qalada uzunmüddətli müdafiə üçün lazımi ehtiyatlar topladı. Fars hakimi Yaqub xanın özbaşınalıqları, mərkəzi hakimiyyətdən uzaqlaşması barəsində məlumatlar Şah Abbasa da çatdı. O, qətiyyətli şəkildə bu özbaşınalıqların aradan qaldırılması və mərkəzi hakimiyyətin səltənətin cənubunda da bərpa edilməsi üçün əməli addımları atılmasını zəruri bildi. Şah Abbasın əmri əsasında şah qoşunları İsfahana doğru hərəkətə başladı. Şahın özü tərəfindən rəhbərlik edilən qoşunlar Yaqub xan itaətsizliyini aradan qaldırmalı idi. Bu yürüşdə Şah Məhəmməd Xudabəndə də Şah Abbası onun xahişi ilə müşayiət edirdi (89). Şah Abbas İsfahanda yerləşməklə bölgəyə yaxın olmaq və burada vəziyyətə uyğun qərarlar vermək niyyətində idi.

Bu zaman İsfahan şəhərinin hakimi Yolu bəy adlı birisi idi. Mənbə məlumatlarından aydın olur ki, Yolu bəy də mərkəzi hakimiyyətə itaətdən üz döndərmək niyyətinə düşmüşdü. Ona görə əvvəlcə Şah Abbasın qarşılanması ilə bağlı Yolu bəy bir qədər tərəddüd keçirdi. Şah Abbasın İsfahana gəlməsi 1589-cu ilin mart ayına təsadüf edirdi. Şah Abbasın bölgəyə gəlməsindən Yaqub

xan da xəbər tutmuşdu. Amma Yaqub xan qərar tutduğu vəziyyətdə Şah Abbasın qarşılanmasına cəsarət etmədi. O, Yolu bəyə xəbər göndərdi ki, Şah Abbasın qarşılanması üçün lazımi işləri görsün. Yolu bəy də əvvəlcə şəhərin özünü şahın qarşılanmasına hazırladı. Sonra isə Yolu bəy İsfahan qalasını etibarlı adamlara tapşıraraq Şah Abbasın qarşılanmasına yollandı. Kaşanla İsfahan arasındakı bir məntəqədə Yolu bəy Şah Abbasın pişvazına çıxdı. Şah Abbas onu çox mehribançılıqla qarşıladı və ona xüsusi şəfqət göstərdi. Buna baxmayaraq, Yolu bəy şah düşərgəsində dayanmadı və icazə alaraq şahın qarşılanması ilə bağlı lazımi işlərin görülməsi bəhanəsi ilə yenidən İsfahana qayıtdı. Onun ardınca da şah karvanı İsfahana doğru hərəkətini davam etdirdi. Şəhər əhalisi böyük sevinc və təntənə ilə şahın qarşılanmasına çıxdı. Şəhər darvazalarından üç fərsəx aralıda olan Dövlətabaddan İsfahana qədər olan yola xalılar döşənmişdi. Şəhərin imkanlı adamları isə şahı müşayiət edən qoşun döyüşçülərinin başına tabaqla qızıl səpirdilər. Belə bir qarşılanma ilə İsfahana daxil olan Şah Abbas dövlətxanada özünə məskən tutdu. Şəhər daxilində də şahın layiqincə qarşılanması üçün məclislər quruldu (90).

Şah Abbasın İsfahana gəlməsi Novruz bayramı ərəfəsində baş verdi və o, bu bayramı həmin şəhərdə qeyd etdi. Novruz bayramı münasibətilə şəhərin Nəqşi-cahan meydanında bayram şənlikləri təşkil olundu, ətraf vilayətlərin və şəhərlərin hakimləri bu zaman şahı bayram münasibətilə təbrik etdilər, ona qiymətli hədiyyələr təqdim etdilər. Şah da onlara qarşı səxavət göstərdi. Şah Abbas Novruz şənliklərini başa vurduqdan sonra Yaqub xanın məsələsi ilə məşğul olmalı idi. Amma onun gözləmədiyi halda İsfahan hakimi Yolu bəy də itaətsizlik yolunu tutdu. Şah Abbas tərəfindən mərhəmət və səxavətə layiq görülən və onun qarşılanması üçün layiqli işlər görən Yolu bəy birdən-birə İsfahanın Təbərrük qalasına çəkildi. Bu qalanı o, əvvəldən yaxşı möhkəmləndirərək onun mühafizəsini etibar etdiyi adamlara tapşırmışdı. Novruz bayramı günlərində Şah Abbas hətta Yolu bəyin evinə getmiş və orada qurulan məclisdə əylənmişdi. Yəni ilk baxışdan şahın ona qarşı

şübhəli münasibətdə olmasını hiss etmək mümkün deyildi. Yolu bəy isə şah tərəfdən hər hansı bir narazılıq görməzdən əvvəl Təbərrük qalasına yollandı. Bəktaş xanla müəyyən əlaqədə olması və həmçinin özünün də müstəqillik sövdasına düşməsi Yolu bəyi ciddi təşvişə salmışdı. Onda belə bir hiss var idi ki, Şah Abbas etibarsızlığına görə Yolu bəyi cəzalandıracaqdır. Bu şübhələrini aradan qaldırmaq üçün Yolu bəy bir dəstə yaxını ilə Təbərrük qalasına sığındı və bu qalanın müdafiəsinə başladı. Görünür, Yolu bəyin belə bir qərar qəbul etməsi Şah Abbasın da təəccübünə səbəb olmuşdu. Ona görə də Şah Abbas Yolu bəyin yanına bir nüfuzlu əmiri göndərdi. Onların arasında hələ əvvəllər də səltənət idarəçiliyində xüsusi nüfuz sahibi olan Seyid bəy Kəmunə də var idi. Bu əmirlər Yolu bəylə görüşməli və onun nə üçün bu yolu tutmasının səbəbini aydınlaşdırmalı idilər. Yolu bəy isə öz höcətliyindən əl çəkmədi və onun görüşünə gəlmiş şah elçilərini həbs edərək onların mühafizəsini etibarlı adamlarından birinə tapşırdı (91).

Bu xəbər Şah Abbas tərəfindən Yolu bəyin şah hakimiyyəti əleyhinə yönəlmiş hərəkəti kimi qəbul edildi. Göstərilən şəfqət və səxavət qarşılığında Yolu bəyin belə bir itaətsizliyə başlaması ona qarşı uyğun addımın atılması zərurətini ortaya qoydu. Bununla belə, Şah Abbas ifrat qərar qəbul etməkdən çəkindi və Yolu bəyin dinc yolla itaət yoluna qaytarılması üçün cəhd göstərdi. Ona görə hələ Həmzə Mirzənin vaxtında Yolu bəylə dostluq münasibətlərində olmuş Fərhad xan Qaramanlı adlı birisi Təbərrük qalasına göndərildi. Fərhad xan nəsihət yolu ilə Yolu bəyi tutduğu yoldan döndərməyə çalışmalı idi. Fərhad xan bir neçə xidmətçisi ilə birlikdə qalaya yollandı və Yolu bəylə görüşdü. İlk gün onlar arasında dostcasına söhbət baş verdi. Çox güman ki, Yolu bəydə tutduğu yoldan əl çəkmək meyli də yaranmışdı. Lakin ətrafındakı əmir və əyanlar onu yenidən itaətsizlik yoluna təhrik edə bildilər. Sabahı gün Yolu bəy yenidən öz tərsliyini nümayiş etdirdi və Fərhad xanı da qalada həbsə aldırdı. Bu xəbər Şah Abbası xeyli qəzəbləndirdi və ona qarşı belə saymazlıq göstərən Yolu bəyin ciddi cəzalandırılması haqqında göstəriş verdi. Onun əmri əsasında qoşun

dəstəsi Təbərrük qalasını mühasirəyə aldı. Bu qala kifayət qədər geniş müdafiə imkanlarına malik idi. Yolu bəy də bu müdafiə imkanlarına arxalanmaqla şah qoşunlarına qarşı cəbhə tutmaqdan çəkinmədi. Yolu bəy hətta qalanı mühasirəyə almış şah qoşunlarına qarşı döyüşə girmək cəsarəti də göstərdi. Bununla belə, Yolu bəy onu da anladı ki, tutduğu yolun axırı yoxdur və istənilən halda o, şah qoşunlarının mühasirəsindən qurtula bilməyəcəkdir. Ona görə də Yolu bəy şahın əfvini qazanmaq yolunu axtarmağa başladı. O, həbsdə olan Fərhad xanla yenidən görüşdü və qalanın təhvil verilməsi şərtini ona açıqladı. Yolu bəy hər şeydən əvvəl günahlarının bağışlanmasını xahiş etdi. Sonra da o, İsfahan hakimliyində qalmaq arzusunda olduğunu bildirdi. Qaladan azad olan Fərhad xan şahın hüzuruna gəlib Yolu bəyin istəklərini ona ərz elədi. Baş verən itaətsizliyin dinc yolla aradan qaldırılması üçün Şah Abbas həmin istəkləri qəbul etdi. Fərhad xan özü də şah qarşısında Yolu bəyin günahının bağışlanmasını xahiş etdi. Şahın lütfünü əldə etdikdən sonra Fərhad xan Təbərrük qalasına yollandı və Yolu bəyi özü ilə birlikdə Şah Abbasın hüzuruna gətirdi. Şah Abbas bir daha Yolu bəyi bağışladığını bildirdi və onun İsfahan hakimi olmasına da razılığını bəyan etdi. Doğrudur, Şah Abbas ona qarşı sərt addımlar atmadı. Amma Şah Abbasda ona qarşı bir etibar və etimad da yaranmadı. Yolu bəyin hərəkətləri yalnız şahın deyil, İsfahan sakinlərinin də narazılıqları ilə qarşılandı. Ona görə, Yolu bəyin İsfahan hakimi olmasına qarşı şəhər sakinləri arasında narazı əhval-ruhiyyə genişlənməyə başladı. Belə olanda Yolu bəy İsfahan hakimliyi vəzifəsindən əl çəkməli oldu. Bir müddətdən sonra isə onun həyatına da son qoyuldu (92). İstinad olunan mənbədə Yolu bəyin kim tərəfindən qətl edilməsi barəsində aydın məlumat olmasa da, çox güman ki, bu qətl onun mərkəzi hakimiyyətə qarşı göstərdiyi itaətsizliyin nəticəsi idi.

İsfahanda olarkən Şah Abbas bir müddət istirahət də etdi. Həmin günlərdə o, ov mərasimlərində oldu, saray mərasimləri təşkil etdi. İsfahanda olarkən Şah Abbas həm də səltənətə yeni vəzir təyin etdi. Bu yüksək vəzifəyə əslən Şirazdan olan Mirzə Lütfulla

layiq görüldü. Vəzir vəzifəsinə layiq görülməsi münasibətilə Şah Abbas tərəfindən Mirzə Lütfullaya qiymətli xələt, tac, qızıl kəmər, yəhərli at, qızıl üzəngi, qızıl sapla tikilən araxcın, bayraq və nağara da verildi. Şahın İsfahanda olduğu günlərdə dövrünün tanınmış seyidi olan Mir Nemətulla da Yəzddən onun hüzuruna gəldi. Şah Abbas onu qəbul etsə də, ona qarşı xüsusi bir rəğbət göstərmədi. Bu da Mir Nemətullanın şaha qarşı itaətsizlik yolunu tutmuş Bəktaş xana müəyyən himayədarlıq göstərməsi ilə bağlı idi. Amma Mir Nemətullanın Bəktaş xanla münasibətini qəbul etməyən oğlu Şah Xəlilulla isə Şah Abbasın lütfü ilə qarşılaşdı və Yəzd mülkü onun tabeçiliyinə verildi. İsfahanda olarkən Şah Abbas həm də Vəramin qalasında həbsdə olan qardaşlarının Təbərrük qalasına gətirilməsinə göstəriş verdi. Şah Abbas ehtiyat edirdi ki, Vəramin qalasında onun qardaşlarına ziyan yetirilə bilər. Təbərrük qalası isə müdafiə edilməsi baxımından daha etibarlı bir qala idi (93).

İsfahan daxilində və ətrafında vəziyyəti sahmana saldıqdan sonra Şah Abbas bütün diqqətini Yaqub xan itasətsizliyinin aradan qaldırılmasına yönəltdi. Əslində, Şah Abbas bölgəyə Bəktaş xan itaətsizliyinin aradan qaldırılması üçün gəlmişdi və bölgəyə gəlməzdən əvvəl onun Yaqub xana qarşı rəğbətli münasibəti var idi. Yaqub xanın itaətsizlik yolunu tutması da Şah Abbas üçün təəccüb doğuracaq bir hadisə idi. Yaqub xansa şahın ona olan səxavətli münasibətini lazımınca dəyərləndirə bilmədi. Mənbə məlumatlarından belə aydın olur ki, Yaqub xan heç də dövrünün seçilən əmirlərindən biri deyildi və hər hansı hərbi uğurları ilə fərqlənməmişdi. Onun qazandığı başlıca hərbi uğur Bəktaş xan itaətsizliyini aradan qaldıra bilməsi idi. Bəktaş xan üzərində qələbə isə onun iddialarına yeni meydan açdı, özü haqqında əsassız fikirlərə düşdü. Şah yanında hörmət və nüfuzunu itirmiş bir sıra əmirlər Yaqub xanın yanına gələrək onu qabiliyyətinə şişirdilmiş qiymət verdilər. Onların arasında Budaq Qəraku Xəbuşlu, Muxtar Sultan Təkəli, Vəli İxtiyar Türkmanın oğlu Türabi bəy, əmiraxur Fulad bəyin oğlu Əbülfəth bəy Şamlı kimi qızılbaş əmirləri var idi. Yersiz təriflər isə Yaqub xanın iştahalarına daha da artırdı. Xüsusilə,

şahın yanında etibardan düşmüş əmirləri mehribanlıqla qarşılaması Yaqub xana qarşı şah sarayının münasibətində də dəyişiklik yaratmağa başladı. Yaqub xan özünün daha böyük səlahiyyətlərə haqqı olduğuna inanaraq Fars vilayəti daxilindəki yerli əmirləri özbaşına dəyişdirdi və vilayətin bütünlüklə öz adamları əlində cəmləşməsinə müvəffəq oldu. Baş verənlər heç şübhəsiz ki, Şah Abbasın rizası ilə qarşılanmadı. Xüsusilə, hər zaman şəfqət göstərdiyi birisinin ona qarşı naxələfliyi şahın nigarançılığına yol açdı. Əvvəlki münasibətlərin bərpa olunmasını arzu edən Şah Abbas bir neçə dəfə Yaqub xana məktub göndərdi, onu şah sarayına dəvət etdi, itaətsizlik yolunun tutmasının səbəblərini aydınlaşdırmağa çalışdı. Yaqub xan isə Şah Abbasın bu çağırışlarına qarşı da hörmətsizlik nümayiş etdirdi, şahın hüzuruna yollanmadı. Əksinə, o öz ətrafı daxilində Fars mülkünə haqqı olduğuna israr edir və ətrafındakılara da bu iddianı qəbul etdirirdi. Yaqub xanın ətrafındakılar, eləcə də vilayət sakinləri onun bütün hərəkətlərinə dözümlülüklə yanaşırdılar. Bu da ondan irəli gəlirdi ki, şahın Yaqub xana yaxşı münasibəti var idi və insanlara da elə gəlirdi ki, Yaqub xanın vilayət daxilindəki bütün fəaliyyəti şah tərəfindən də dəstəklənir. Amma bir müddət sonra Yaqub xanın ətrafındakı əmir və əyanlar da onun əməllərində mərkəzi hakimiyyətdən qopmaq meylini hiss etməyə başladılar. Şah Abbasa sədaqətli olan belə əmirlərdən bir neçəsi fürsət tapan kimi şahın hüzuruna gəldilər və Yaqub xanın əməllərində müşahidə etdiklərini ona çatdırdılar. Şah Abbas baş verənlərdən xəbər tutsa da, Yaqub xana qarşı sərt tədbirlər yolunu tutmadı. Onda belə bir ümid var idi ki, göstərdiyi şəfqətlər qarşısında Yaqub xan yenidən itaət yoluna qayıda bilər. Ona görə də əvvəlcə onun yanına Kor Həsən Ustaclı adlı əyanlarından birini göndərdi. Kor Həsən Şiraza yollanaraq Yaqub xanla görüşməli, onu dinləməli, şahın buyuruqlarını ona çatdırmalı və onu özü ilə İsfahana, şahın hüzuruna gətirməli idi. Kor Həsən Şirazda Yaqub xanla görüşdükdən sonra onun şah hüzuruna gələcəyinə heç də inanmadı. Bu görüş zamanı Yaqub xan öz iddialarını, Fars vilayətinə və bütünlükdə səltənətin cənub hissəsinə sahib

olmaq niyyətini və bunun üçün əməli hazırlıqlar gördüyünün şahidi oldu. Kor Həsən yalnız onu edə bildi ki, Yaqub xanı İstəxr qalasına sığınmağa inandırsın. Görünür Kor Həsənə görə, şah qoşunları Şiraz qalasına nisbətən İstəxr qalasını daha asanlıqla ələ keçirə bilərdilər. Yaqub xan da onun bu məsləhətini qəbul etdi. Geri qayıtdıqdan sonra Kor Həsən şahidi olduqlarını Şah Abbasa ərz etdi və Şah Abbasda da belə bir əminlik yarandı ki, Yaqub xan itaətsizliyini yalnız hərbi yolla aradan qaldırmaq mümkündür (94).

İsfahandakı işlərini başa vurandan sonra Şah Abbas bütün qoşunu ilə Kuşkzərd yaylağına üz tutdu. Bu yaylaq İsfahanla Şiraz arasında yerləşirdi. Şah Abbas bu yaylaqda və onun ətrafında ovla da məşğul oldu və belə bir görüntü də yaratdı ki, Şiraz üzərinə hərəkət etmək heç də onun əsas məqsədi deyil. Görünür, Şah Abbas hələ də Yaqub xanın itaət yoluna qayıdaraq onun xidmətinə gələcəyinə ümid edirdi. Amma bu, baş vermədi. Əksinə, başladığı itaətsizliyin Şah Abbas tərəfindən bağışlanmayacağını və tezliklə şah qoşunlarının hücumuna məruz qalacağını görəndə Yaqub xan İstəxr qalasına köçdü. O öz ailəsini, var-dövlətini və etibar etdiyi əyanlarını da İstəxr qalasına apardı. Amma heç də Şirazda məskunlaşmış zülqədər əmirlərinin hamısı Yaqub xanla İstəxr qalasına getmədilər və onların xeyli hissəsi şah hüzuruna gələrək Yaqub xanın İstəxr qalasına çəkildiyini ona ərz etdilər. Şah Abbas da bu xəbəri aldıqdan sonra İstəxr qalasının mühasirəsi haqqında əmr verdi. Əsləməs xan Möhürdarın rəhbərliyi altında olan şah dəstəsinə zülqədər əmirləri, Fars vilayətindən olan könüllülər də qoşuldular. Şah Abbasın özü isə bir müddət Kuşkzərd yaylağında qaldıqdan sonra Şiraza doğru üz tutdu. Bu şəhərin sakinləri və əmirləri öz sədaqətlərini bəyan etməklə Şah Abbasın qarşılanmasına çıxdılar (95).

Şiraza yetişən kimi Şah Abbas Fars vilayətinin idarəçilik məsələsini həll etdi və Onun tərəfindən Hüseyn xan Qacar Şiraz darğası, Bünyad bəy yüzbaşı isə Fars hakimi təyin edildi. Bu təyinatdan dərhal sonra Bünyad bəyə xan məqamı verildi. O, zül-

qədər tayfasının nümayəndəsi idi. Bünyad bəyin bu vəzifəyə təyin edilməsi ilə Şah Abbas bütün zülqədərlilərə göstərmək istəyirdi ki, Yaqub xanın itaətsizliyinə baxmayaraq, bu tayfaya qəzəbli münasibətdən uzaqdır. Şah Abbasın Şiraza gəlməsi ilə Yaqub xana itaəti öz üzərinə götürmüş Lar hakimi İbrahim xan qiymətli hədiyyələr göndərdi və yenidən şaha öz itaətini bəyan etdi. Şah Abbas da onun üzrünü qəbul etdi. Şiraza gəlməsinin ilk günlərində Şah Abbasın atdan yıxılaraq zədələnməsi də baş verdi. Bununla bağlı o, bir müddət müalicə aldı və öz səhhətini bərpa etməli oldu (96).

Yaqub xan isə İstəxr qalasında bir müddət müdafiə olunmağı davam etdirdi. Şah Abbas tərəfindən göndərilmiş olan qoşun dəstəsi bu qalanı mühasirəyə alsa da, onun ələ keçirilməsinə müvəffəq olmadı. İstəxr qalasının yaxın zamanlarda ələ keçiriləcəyinə bir ümid də yox idi. Belə bir durumda Şah Abbas fənd işlətməklə Yaqub xanı qaladan çıxarmağa cəhd göstərdi. Göstəriş verdi ki, Kirman ətrafında ov mərasimi təşkil edilsin. Sonra da şah onu müşayiət edən dəstə ilə Kirmana doğru hərəkətə başladı. İstəxr qalası yaxınlıqlarından keçərkən Şah Abbas məktub yazıb Yaqub xana göndərdi və onu qaladan çıxmağa şirnikləndirdi. Həmin məktubun məzmunu belə idi: “Mən həmişə öz behişt ayinli məclisimdə səni xatırlayıram. Sən əbəs yerə özünü qorxuya (vəhşət) giriftar etmisən. Əgər öz puç xəyallarım ürəyindən çıxarıb mülazimətə gəlsən, yenidən sədaqətlə iltifat nəzərinə yetişə bilərsən” (97).

Şah Abbasın məktubu Yaqub xanı xeyli sevindirdi. Çünki uzun müddət qala daxilində mühasirədə qalmaq onun da hövsələsini daraltmışdı. Ona elə gəldi ki, günahları şah tərəfindən bağışlanıb və ona görə yenə əvvəlki səlahiyyətlərini özünə qaytara biləcəkdir. Yaqub xan aldığı şah məktubuna cavab yazdı və Şah Abbasın təklifini qəbul etdiyini bu məktubda ifadə etdi. Bu məktubu Yaqub xan özünə yaxın və etibarlı saydığı vəzir Mirzəcan bəyi və bir neçə digərini şah hüzuruna göndərdi. Bu adamlar məktubu çatdırmaqla bərabər, həm də Şah Abbasın Yaqub xana olan münasibətini müəyyənləşdirməli idilər. Şah Abbasa həm də Yaqub xanın Fars hakimliyində qalmaq istəyi də çatdırılmalı idi. Yaqub

xanın məktubu və elçiləri Şah Abbas tərəfindən xoşluqla qarşılandı. O bir daha Yaqub xana olan rəğbətini bəyan etdi. Mirzəcan bəy şahın bu iltifatından çox sevindi və şah qarşısında söz verdi ki, Yaqub xanın qaladan çıxarılmasına və şah hüzuruna gətirilməsinə çalışacaqdır. Mirzəcan bəy Şah Abbasın göstərdiyi lütfkarlıqla bağlı öz fikirlərini Yaqub xana da çatdırdı. O, Yaqub xanı İstəxr qalasından çıxaraq şah hüzuruna getməyə və onun lütfünə sığınmağa təşviqləndirdi. Bir məlumata görə, Şah Abbas həm də Şeyx Bəhaəddin Amolini Mirzəcan bəylər birlikdə Yaqub xanın yanına göndərdi ki, Yaqub xan verilən vədin doğruluğuna inansın. Yaqub xan da vəzirinin məsləhətini qəbul etdi və bütün günahlarının bağışlanacağı, əvvəlki hökmünün bərpa olunacağı ümidi ilə İstəxr qalasını tərk edib şah hüzuruna yollandı. Yaqub xan elə bir davranışla şah hüzuruna yollandı ki, sanki o hələ də Fars hakimi idi və ətrafdakılar da bununla razılaşmalı idilər. O, şəhərə daxil olanda Şah Abbas öz məiyyətinin müşayiəti ilə şəhərin seyrinə çıxmışdı və elə şəhər xiyabanında Yaqub xanı qəbul etməyə razı oldu. Zahirən Şah Abbas onun hərəkətlərindən narazı qaldığını hiss etdirmədi. Yaqub xan isə özünü elə apardı ki, sanki o, Şah Abbasa qarşı itaətsizlik yolunu tutmamışdı, mərkəzi hakimiyyətdən qopma xəyallarına düşməmişdi. Bütünlükdə isə Yaqub xanın davranışında şah hakimiyyətinə qarşı səmimi bir sədaqət hiss olunmadı. Şəhərdə qaldığı bir neçə gün ərzində yerli sakinlər nə baş verdiyindən xəbərdar olmadan Yaqub xanın yanına gəlir və ona öz sədaqətini bildirirdilər. Yaqub xan isə bundan daha da ilhamlanırdı və özünü böyük səlahiyyətlərə və hökmə malik bir hakim kimi göstərməyə çalışırdı. Yaqub xan hətta dəvət almadan şah məclislərinə gəlir, özü seçdiyi yerdə əyləşirdi. Onun bu hərəkətləri şah sarayının əyanlarına və xidmətçilərinə heç də xoş gəlmirdi. Şahın səbri qarşısında onlar sussalar da, nəhayət Yaqub xan haqqında düşündüklərini şaha da ərz etdilər. Mövcud olan məlumatlara görə, Şah Abbas üç gün ərzində Yaqub xana toxunmayacağı haqqında and qəbul etmişdi. Ona görə də üç gün ərzində Yaqub xana kimsə toxunmadı. Yaqub xanın Şiraza gəlməsinin dördüncü günü

onun icazəsiz dövlətxanaya girişi qadağan edildi və xidmət adamlarına da tapşırıldı ki, bu əmr icra olunsun. Yaqub xan öz istəyi üzrə şah məclisində adət etdiyi məkanda əyləşmək istəyəndə əvvəldən şah göstərişi almış Həsən xan Ziyadoğlu onu qaldırıb yerə çırpdı və sonra da əllərini arxasında bağladı. Yaqub xan ona qarşı edilən bu kobudluqdan qəzəblənəndə Həsən xan onu təpikləməyə başladı və sonra da ona ağır sözlər dedi. Daha sonra isə onu bayıra çıxarıb başı açıq şəkildə günün altında saxladılar. Bunun ardınca şahın göstərişinə əsasən, Yaqub xanın vəziri Mirzəcan bəy şah tərəfindən bağışlanmaları haqqında Yaqub xanın ətrafında toplanmış olan zülqədər bəylərinə və əmirlərinə məktub yazdı. Bu məktub möhürlənərək həmin adamlara göndərildi. Şah tərəfindən bağışlandıqlarına sevinən zülqədərlilər tez bir zamanda şah dövlətxanasına gəldilər. Şahın göstərişinə əsasən, həmin adamlar dərhal həbsə alındılar və Yaqub xanın gözləri qarşısında qətlə yetirildilər. Onların parça-parça olmuş bədən əzaları nizələrə keçirilərək şəhər əhalisi qarşısında nümayişə çıxarıldı. Yaqub xanın yaxınları arasında yalnız vəziri Mirzəcan bəy və digər iki zülqədər əmiri canlarını salamat qurtara bildilər. Digərləri isə hamılıqla qətlə yetirildilər (98).

Yaqub xan isə həmin gün qətlə yetirilmədi. Onu vaxtilə həbs edilənlərin saxlanması üçün özü qazdırdığı quyuya saldılar və orada saxladılar. Ara bir onu quyudan çıxarır və başı aşağı quyuya sallamaqla döyəcləyirdilər. Həbsdə olduğu zaman Yaqub xandan İstəxr qalasını qoruyanlarına adına sənəd alındı ki, bu qalanı şah adamlarına təhvil versinlər. Güman edilirdi ki, Yaqub xanın həmin sənədi əsasında İstəxr qalasını qoruyanlar müqavimətdən əl çəkəcəklər. Lakin bu da bir nəticə vermədi. Yaqub xan qalanı qoruyanlara tapşırıbmış ki, şəxsən özünün göstərişi olmasa heç bir şərt daxilində qalanı kimsəyə təhvil verməsinlər. Yaqub xanın vilayətə hakimliyi dövründə yerli-yersiz xeyli sayda zülqədərlini qətlə yetirmişdi. Şah Abbasın göstərişi ilə Yaqub xan həmin qətlə yetirilmişlərin qohumlarının ixtiyarına verildi. Onlar da Yaqub xanın dilini kəsdilər, insanların gözü qarşısında onun saqqalına tü-

pürməyə başladılar. Sonra da min bir əzabla onun həyatına son qoydular (99).

Yaqub xanın itaətsizliyinin başladığı günlərdə Kirman hakimi Yusif xan da müstəqilləşmək iddialarına düşdü. Yusif xan şah sarayına yaxın olan qızılbaş əmirlərindən biri idi. Məlum olduğu kimi, onun atası Vəliqulu xan Əfşar Şah Məhəmməd Xudabəndə hakimiyyəti dövründə qorçubaşı vəzifəsini daşıyırdı. Şah Abbasın hakimiyyətə gəlməsindən sonra o, Mürşüdqulu xanın təqdimatı ilə bu vəzifəyə təyinat aldı. Ancaq sonradan o, Mürşüdqulu xana qarşı məkrli planların icrasında yer aldığı üçün həmin vəzifədən azad edildi. Hətta həbsə də alındı. Bir müddətdən sonra o, Bəktaş xanın atası olan Vəli xan Əfşarın xahişi ilə həbsdən azad olundu. Bəktaş xanın aradan qaldırılmasında göstərdiyi köməyə görə Yaqub xan onu öz hökmü ilə Kirman hakimi elan etmişdi. Yaqub xan sağ olduqca onun gücünə arxalanmaqla Yusif xan Kirmanın hakimliyini icra edirdi. Şah Abbas mərkəzi hakimiyyətlə ənənəvi əlaqələrinə görə Yusif xanın onun hökmlərinə itaətlə yanaşacağını güman edirdi. Ona görə idi ki, Şah Abbas İsfahana gələndə Yaqub xanın itaətsizliyinin aradan qaldırılması üçün onun da iştirak etməsi üçün yanına adam göndərdi. Yusif xan isə şah hökmünü qəbul etmədi. Hətta onun yanına gəlmiş şah nümayəndələrinin bəzilərini də həbs etdirdi. Şah Abbas eşidəndə ki, Yusif xan ona qarşı itaətsizlik göstərir və onun hökmlərini qəbul etmir, onda onun bu itaətsizliyinin yatırılması üçün Kirmana qoşun dəstəsi göndərdi. Qoşun dəstəsinə rəhbərlik Fərhad xana tapşırıldı. Bəktaş xanın təcrübəli vəziri olmuş Hatəm bəy Ordubadi, Vəli xan Qorçubaşı və bir neçə tanınmış qızılbaş əmiri də Fərhad xanın rəhbərliyi altına verildi. Adı çəkilən Vəli xan (Bəktaş xanın atası) vaxtilə Kirmanın hakimi olmuşdu və vilayət daxilində xeyli sayda onun yaxınları və tanışları qalmışdı. Fərhad xan da Kirmanı mühasirəyə alanda bu məqamdan istifadə etdi. O, Kirmanda olan əfşarlara müraciətlər göndərdi və onların hamısını yenidən Vəli xana yaxın olmalarını istədi. Kirman əhalisi də bu çağırışa diqqətlə yanaşdılar. Onlar böyük bir qoşun dəstəsinin gəlməsindən xəbər alandan sonra Yusif

xana arxalanmağın təhlükəli olduğunu hiss etdilər və dəstə-dəstə şah qoşunları düşərgəsinə axışdılar (100).

Kirman əhalisinin şah qoşunlarına və əmirlərinə pənah aparmalarından xəbər tutanda Yusif xan vəziyyətinin heç də yaxşı olmadığını anladı. Ona görə də ona yaxın olan adamları ilə Kirman qalasında özünə sığınacaq tapdı. Əvvəlcə, o, qala daxilində müdafiə olunmaq və şah əmirlərinin tələbini qulaq ardına vurmaq istədi. Fərhad xan da onun qalaya sığındığını görəndə bu qalanı mühasirəyə aldı. Sonra isə Fərhad xan onun yanına öz adamlarını göndərdi, mühasirədə qalmağın mənasızlığını və şahın lütfünə sığınmaqla həyatını da xilas edə biləcəyini ona anlatmağa çalışdı. Fərhad xan öz adamları vasitəsilə Yusif xana onu da vəd etdi ki, şah hüzurunda onun günahlarının bağışlanmasına çalışacaqdır. Yusif xan əvvəlcə bu təkliflərə ehtiyatla yanaşdı və Fərhad xanı qane edəcək cavab vermədi. Fərhad xan da bir neçə dəfə onun yanına öz adamlarını göndərdi, onu tutduğu yoldan çəkindirməyə çalışdı. Nəhayət, Yusif xan edilən təkliflərlə razılaşdı və qaladan çıxdı. Kirman qalası şah adamlarının nəzarəti altına keçdi. Fərhad xan bu vilayətin idarəçilik işlərini nizamladıqdan sonra özü Şiraza, Şah Abbasın hüzuruna yollandı. Şah Abbas Şirazdan İsfahana qayıtdığı zaman Fərhad xan onun qəbulunda oldu, Kirmanda gördüyü işlər barəsində ona ərz etdi, əməllərindən peşman olmuş Yusif xanın bağışlanmasını xahiş etdi. Şah bu xahişi qəbul etdi. Yusif xan da qılıncı boynundan asılı şəkildə şah hüzuruna gəldi və şahdan aman dilədi. Bağışlandıqdan sonra Yusif xan səltənət işlərindən əl çəkərək həyatını ibadət işlərinə bağladı (101).

Kirman itaətsizliyi də yoluna qoyulandan sonra Şah Abbas ordunun Şirazdan İsfahana yola düşməsi haqqında fərman verdi. Şah Abbasın özü isə Təbrizə tərəf hərəkət etmək qərarına gəldi. Yolda ikən o, Mir Nemətullanın oğlu Şah Xəlilullanın yaşadığı Bağgülşən məntəqəsində istirahətə dayandı. Burada olduğu günlərdə Şah Xəlilulla Şah Abbasın xidmətində dayandı və onun istirahətini təşkil etdi. Həmin məntəqədə istirahətə dayandıqları vaxt Şah Abbasın fərmanı ilə qətlə yetirilmiş Bəktaş xanın vəziri olmuş

Hatəm bəy Ordubadi səltənət vəziri vəzifəsinə irəli çəkildi. Bir neçə günlük istirahətdən sonra yolunu davam etdirən Şah Abbas İsfahana gəldi və təxminən bir aya qədər bu şəhərdə qaldı. Həmin müddət ərzində Şah Abbas səltənət idarəçiliyini nizama salmaqla yanaşı rəiyyətin də qayğısına aldı, onun hüzuruna gəlmiş insanları narahat edən mətləblərin həllinə yardımçı oldu (102).

İsfahan və Şirazda olduğu müddətdə Şah Abbas onun hakimiyyətinə qarşı biganəliklə yanaşan, bəzi hallarda isə itaətsizlik göstərən əmirlərin və hakimlərin zərərsizləşdirilməsinə ciddi diqqət ayırdı. Bu istiqamətdə onun qəbul etdiyi qərarlardan biri də Təbərrük qalasının dağıdılması əmri oldu. Şah Abbas Şirazda olduğu günlərdə Təbərrük qalasının kutvalı (hakimi) Əhməd bəy Kərəmpa müstəqilləşmək iddialarına düşdü, qala daxilinə çox böyük həcmdə ərzaq ehtiyatları toplayaraq şaha itaətsizlik qolunu tutmağı qərarlaşdırdı. Həmin vaxt Şah Abbasın qardaşları olan Əbu Talib Mirzə ilə Təhmasib Mirzə bu qalada saxlanılırdılar. Çox güman ki, qala hakimi Əhməd bəy bu Səfəvi şahzadələrindən öz məqsədləri üçün istifadə etmək niyyətinə düşmüşdü. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifinin fikrincə, əslində, Əhməd bəyin belə bir niyyəti yox idi. Amma Şah Abbasın ətrafı onu inandıra bildi ki, Əhməd bəy başqa niyyətlərə düşə bilər. Şah Abbas da yaxın ətrafının dediklərini qəbul etdi. Adı çəkilən əsərdə olan məlumatlara görə, İsfahan əhalisi qalada saxlanılan şahzadələrə qarşı çox ciddi cəzaların verilməsini tələb edirdilər. O cümlədən, Əbu Talib Mirzə ilə Təhmasib Mirzənin öldürülməsi tələbləri də irəli sürülürdü. İddia olunurdu ki, bu şahzadələrin hakimiyyəti ələ keçirmək niyyətləri var idi və bu da Şah Abbasın nigarançılığına səbəb olurdu. Şah Abbas isə qalada saxlanılan şahzadələrin qətli ilə razılaşmadı. Əvəzində onların gözlərinin kor edilməsi haqqında əmr verdi. Sonra Şah Abbas qardaşlarını saxlanmaq üçün Ələmut qalasına göndərdi. Təbərrük qalası isə Şah Abbasın əmrinə əsasən dağıdıldı (103).

“Dünyanı bəzəyən Abbasın tarixi” əsərində şahzadələrin qətlinə fərman verilməməsi və onların gözlərinin kor edilməsi Şah

Abbasın səxavəti kimi qələmə verilmişdir. Şahzadələrin gözlərinin kor edilməsi onların hakimiyyət uğrunda mübarizədən kənarlaşdırılması demək idi. Bu mənada onların kor edilməsi elə qətlə yetirilməsinə bərabər olacaq bir qərar idi.

İsfahanı tərk edib Qəzvinə doğru hərəkət edərkən Şah Abbas Kaşanda ustaclı tayfasının böyüklərindən olan Kor Həsən Ustaclının da qətlinə fərman verdi. Kor Həsən Ustaclı nüfuzlu qızılbaş əmirlərindən biri idi. O, Mürşüdqulu xanın yaxın adamlarından biri idi və onun köməyi ilə yüksək vəzifələrə irəli çəkilmişdi. Mürşüdqulu xanın qətlindən sonra isə o, Şah Abbasın xidmətində dayanırdı. Amma o da öz hərəkətləri ilə Şah Abbasın şübhələrini qazanmışdı. Ona görə də onun qətlinə fərman verildi. Sonra da Şah Abbas atası Şah Məhəmməd Xudabəndə ilə birlikdə Qəzvinə yollandı. O, 1590-1591-ci ilin qışını Qəzvində keçirdi. 1991-ci ilin Novruz bayramını da Şah Abbas böyük məclislər təşkil etməklə Qəzvində olarkən qeyd etdi (104).

1591-ci ildə də Şah Abbas mərkəzləşdirilmiş hakimiyyətin möhkəmləndirilməsinə təhlükə törədə biləcəyi güman edilən qızılbaş əmirlərinin zərərsizləşdirilməsi davam etdi. Ərdəbil hakimi olan Mehdiqulu xan da bu qətlə yetirilən əmirlər arasında idi.

Mehdiqulu xan Şah Abbasın hakimiyyətinin ilk illərində Osmanlı sarayı ilə sülh sazişinin bağlanması üçün İstanbula göndərilmişdi. O, sülh sazişi ilə bağlı müəyyən məsələləri razılaşdırmış, müəyyən məsələlərlə bağlı isə Osmanlı sarayının əlavə təkliflərini özü ilə gətirmişdi. 1591-ci ilin Novruz bayramından sonra Mehdiqulu xan İstanbulda gördüyü işlər barəsində, habelə Osmanlı sultanından gətirdiyi məktubu təqdim etmək üçün Şah Abbasın görüşünə gəldi. Lazım olan məlumatlar ərz edildikdən sonra Mehdiqulu xan bir aydan bir qədər artıq Qəzvində qalmalı oldu. Mehdiqulu xan çavuşlu tayfasından olmaqla Mürşüdqulu xanın qohumlarından biri idi. Mürşüdqulu xana qohum olması Şah Abbasda ona qarşı bir inamsızlıq yaradırdı. Bundan başqa Mehdiqulu xanın digər bir qohumu olan Məhəmmədşərif xan həmin vaxtlarda mərkəzi hakimiyyətə itaətsizlik göstərərək Gilana qaçmış və Sə-

fəvi hakimiyyətindən qopmaq niyyətinə düşmüş Gilan hakiminə qoşulmuşdu. Ona görə Şah Abbasda bütünlükdə çavuşlu tayfasına qarşı bir inamsızlıq yaranmışdı. Onun əmri ilə Mehdiqulu xan həbs edildi və sonra da qətlə yetirildi (105).

1591-ci ildə Şah Abbas həm də Dövlətyar xan qiyamını yatırmaq üçün qətiyyətli addımlar atdı. O, Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi sarayına yaxın olan əmirlərdən biri idi. Həmzə Mirzənin vəliəhdliyi dövründə Dövlətyar xan türkman və təkəli tayfalarının itaətsizliyinin yatırılamsında yaxından iştirak etmişdi. Onun bu xidmətləri Həmzə Mirzə tərəfindən də yüksək qiymətləndirildi və bunun əvəzi kimi o, Sultaniyyə və Səcas hakimi təyin edildi. Həmzə Mirzənin qətlə yetirilməsindən sonra Dövlətyar xan da Səfəvi sarayından aralanmağa başladı. O, Səcasda möhkəmləndirilmiş bir qala tikdirdi və bu qalanın müdafiə imkanlarına sığınmaqla böyük iddialara düşdü. Dövlətyar xan güman edirdi ki, Şah Abbasın cavanlığından istifadə etməklə öz niyyətlərinə çata biləcəkdir. Onun itaətsilziyi hələ Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində başlamışdı. Amma Şah Məhəmməd Xudabəndə hakimiyyətinin sonlarında baş verən qarışıqlıqlar üzündən Dövlətyar xanın itatsizliyini aradan qaldırmaq mümkün olmadı. Hakimiyyətinin əvvəlində Xorasana səfəri başlayanda Şah Abbas tərəfindən Dövlətyar xan itaətsizliyinin aradan qaldırılaması üçün Səcasa qoşun dəstəsi göndərdi. Amma Dövlətyar xanın orada tikdirdiyi qala kifayət qədər möhkəm bir qala idi və uzun müddət müdafiə olunmaq üçün onun daxilinə xeyli miqdarda ərzaq ehtiyatları toplanmışdı. Ona görə də Şah Abbas tərəfindən göndərilmiş ilk qoşun dəstəsi Dövlətyar xanın qalasını ələ keçirə bilmədi. Dövlətyar xan isə bundan daha da ilhamlandı. O, ətrafına kürd silahlılarını da cəlb edərək Səcas yaxınlığındakı məntəqələrin talanmasına başladı. Dövlətyar xan müdafiəsiz qalmış bir sıra məntəqələri ələ keçirib talan eləməsi onun iştahalarını daha da artırdı. O, Qəzvin yaxınlığında olan Əbhərə qədər olan əraziləri var-yoxdan çıxardı, topladığı sərvətləri Səcas qalası daxilinə daşıdı. Dövlətyar xan hətta Zəncan, Sultaniyyə, Tarom, Dərczin kimi böyük

yaşayış məntəqələrini də var-yoxdan çıxardı. Yəni Dövlatyar xanın özbaşınalıqları kifayət qədər genişləndi və səltənət üçün artıq müəyyən narahatlıqlar yaratmağa başladı. Bu narahatlıqların aradan qaldırılması üçün Şah Abbas Səcas istiqamətində qoşun dəstəsi göndərməyi qərara aldı. Bu qoşun dəstəsinə rəhbərlik Qum hakimi Hüseyn xan Şamlıya həvalə olundu. Hüseyn xan Şamlı və digər əmirlər Səcas qalasını mühasirəyə aldılar. Dövlətyar xan qala müdafiəsinə qərar verdi. O, təslim olmaq haqqında Hüseyn xan Şamlının təklifini qəbul etmədi. Dövlətyar xan bildirdi ki, Qəzvinə yollanmağa ehtiyat edir və əgər Şah Abbas bu tərəflərə gələrsə ona təslim olmağa və onun itaətini qəbul etməyə hazırdır (106).

Dövlətyar xanın dedikləri Şah Abbasa da çatdırıldı. Şah Abbas ov məqsədilə Gözəldərə adlanan məntəqədə olanda yolunu Səcas qalası tərəfdən saldı. Onun qoşun dəstəsi ilə Səcas qalası yanına gəlib çıxması Dövlətyar xanın iradəsini qırdı və o, təslim olmaqdan başqa bir yolun qalmadığını anladı. Dövlətyar xan əfv olunmasını xahiş etsə də, onun bu xahişi qəbul edilmədi. O, Qəzvinə gətirildi və burada qətlə yetirildi (107).

Bir məlumata görə, Qum hakimi Hüseyn xan Şamlı Səcas qalasını bir ay mühasirədə saxladı. Bu mühasirənin uzuna biləcəyini görəndə Şah Abbas saray münəccimi Molla Cəlalı yanına çağırdı və ondan Səcas qalasının alınması ehtimalı haqqında soruşdu. Molla Cəlal da Səcas qalasının alınacağına şübhəsini bildirdi. Belə olanda şah ondan soruşdu ki, əgər o özü bu qalanın alınmasına yollansa bir nəticə əldə oluna bilərmi? Molla Cəlal da cavab verdi ki, əgər şah Səcas qalası ətrafına yollansa bu qala fəth ediləcəkdir. O, hətta bu qalanın fəth olunması tarixini də dilinə gətirdi. Bundan sonra Şah Abbas qoşun dəstəsi ilə Səcasa yollandı. Onun Səcas qalası yaxınlığına gəlməsi ilə Dövlətyar xan təslim oldu və Şah Abbasın hökmü ilə qətlə yetirildi (108).

Şah Abbasın bu dövrdə yatırdığı qiyamlardan biri də Əmir Həmzə xan Talış tərəfindən başlanmış olan itaətsizlik idi. Bu itaətsizliyin də başlanması Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin son illərinə təsadüf edirdi. Əmir Həmzə xan o vaxtlar talış

ərazilərinin hakimi olan Bayandur xan Talşın oğlu idi. Bayandur xan şah sarayına və hakimiyyətinə kifayət qədər sədaqətli olan qızılbaş əmirlərindən biri idi. Əmir xan Həmzə o qədər iddialı bir insan idi ki, hətta atasını da talış ərazilərinə hakimlikdən uzaqlaşdıraraq onun yerinə keçə bilmişdi. Şah Məhəmməd Xudabəndə hakimiyyətinin zəifləməsindən və qızılbaş əmirləri arasında hakimiyyət çəkişmələrinin güclənməsindən istifadə edən Əmir Həmzə xan ətraf bölgələrin ələ keçirilməsinə də cəsarət etdi. O, talış bölgəsi ətrafında yerləşən Kəskərə və hətta Gilan ərazilərini də öz nəzarəti altına gətirməyə çalışırdı. Bu ərazilərin hakimləri də yetərli müdafiə imkanlarına malik olmadıqları üçün Əmir Həmzə xanın ağalığını qəbul etmək və ona itaət göstərmək məcburiyyətində qalmışdılar (109).

Şah Abbas hakimiyyətə başladıqdan sonra Əmir Həmzə xan dəyişən vəziyyətdən də bəhrələnməyə çalışdı. O, Qəzvinə gəldi, Şah Abbasla deyil, Mürşüdqulu xanla görüşdü və ona itaətini bildirdi. Mürşüdqulu xan da ona sədaqətli qalacağına söz verən Əmir Həmzə xanın rəsmən talış bölgəsinin hakimi vəzifəsində qalmasına nail oldu. Mürşüdqulu xanın qətlindən sonra Şah Abbas mərkəzi hakimiyyətə sədaqətsiz olan qızılbaş əmirlərini aradan qaldırmaq yolunu tutanda Əmir Həmzə xan haqqında da ciddi qərarın qəbul edilməsi qənaətinə gəldi. Edilən çağırışlara baxmayaraq, Əmir Həmzə xan Qəzvinə gəlib şaha itaətini bildirməkdən imtina etdi. Yəni o da itaətsizlik yolunu tutdu və ona elə gəldi ki, ixtiyarında olan Sindan qalasına sığınmaqla şah qoşunlarının hücumlarından da qoruna bilər. Əmir Həmzə xanın itaət altına gətirilməsi və onun başladığı hərəkata son qoyulması üçün Sindan qalası istiqamətində şah qoşunları göndərildi. Bu qoşunlara rəhbərlik nüfuzlu qızılbaş əmiri olan Fərhad xanın qardaşı Əlvənd sultana tapşırıldı. Əlvənd sultan da qoşun dəstəsi ilə Sindan qalası ətrafına gəldi, bu qalanı mühasirəyə aldı və Əmir Həmzə xana təslim olmağı təklif etdi. Əmir Həmzə xan da təslim olmaqdan imtina etdi və qala daxilində öz müdafiəsini qurdu (110).

Şah Abbasın hökmü ilə Ərdəbil əyalətinin hakimi Məhəmməd xan Toxmaq şeyxavənd tayfası və şahsevənlərlə birlikdə Əlvənd sultanın köməyinə göndərildi. Onlar bölgəyə yetişməklə Əmir Həmzə xan itaətsizliyinə son qoymalı və Əlvənd sultanı o bölgənin hakimi vəzifəsinə gətirməli idilər. Məhəmməd xan Toxmaq da şah hökmünü aladan sonra qoşun dəstəsi ilə bölgəyə yollandı. Əmir Həmzə xan şah tərəfindən qoşun dəstəsi göndərildiyi xəbərini alanda ətrafına 3-4 min nəfərdən ibarət talış atlılarını toplayaraq qalanı tərk etdi. Onun məqsədi qaladan kənarda şah qoşunlarını qarşılamaq idi. O həm də əmin idi ki, rəhbərliyi altında olan qoşun dəstəsi ilə şah qoşunlarına üstün gələ biləcəkdir. Amma göstərdiyi bütün cəhdlərə baxmayaraq, Əmir Həmzə xan şah qoşunlarına müqavimət göstərə bilmədi. Onun döyüşçülərinin çoxu qətlə yetirildi. Bu uğursuzluqdan sonra Əmir Həmzə xan Sindan qalasına çəkildi və orada gizləndi. Qalanın barı və divarlarını yenidən möhkəmləndirməklə Əmir Həmzə xan burada özünü qoruya biləcəyinə ümid edirdi. Əmir Həmzə xanın meydan döyüşü zamanı uğursuzluğa düçar olması və yenidən qalaya çəkilməsi xəbəri Şah Abbasa da çatdırıldı. Onun iradəsi isə belə oldu ki, əgər Əmir Həmzə xan günahlarını boynuna alsa, etdiklərindən peşmançılıq duysa və şah hakimiyyətinə itaət etməyi öhdəsinə götürsə, onda ona rəhm edilsin və şəfqət göstərilsin. Əks təqdirdə Əmir Həmzə xan ciddi şəkildə cəzalandırılmalı idi. Əmir Həmzə xanın işlərinin tezliklə başa çatdırılması üçün şah sarayından tir-kaman qorçusu Həsən bəy Çavuşlu da bölgəyə göndərildi. Lakin onun gəlişindən sonra da Əmir Həmzə xan öz inadından dönmədi (111).

Əmir Həmzə xanın bu inadkarlığına bir səbəb də onun sığındığı Sindan qalasının çox güclü müdafiə imkanlarına malik olması idi. Bu qala ucqar bir dağ zirvəsində tikilmişdi. Qalanın hər tərəfi qayalıq idi və ona tərəf yalnız bir istiqamətdən yol var idi. Bu yol da o qədər dar idi ki, iki adam yanaşı hərəkət edə bilmirdi. Bundan başqa qalanın ətrafı sıx meşəlik idi. Bu meşəlik də kənar qüvvələrin qalaya yaxınlaşmasına mane olurdu. Şah qoşunları bu qalanı dövrəyə aldılar və onun daxilinə gediş-gəliş yolunu kəsdilər.

Bir tərəfdən qala daxilindəkilərin ətraf aləmlə əlaqəlrinin kəsilməsi, digər tərəfdən də talış camaatının şah hakimiyyətinə öz sədaqətlərini bildirməsi Əmir Həmzə xanın manevr imkanlarını azaltdı. Ona görə o da təslim olmağı qərara aldı. O, Şah Abbasa məktubla müraciət etdi. Həmin məktubda deyilirdi: “Hal-hazırda Azərbaycanın müstəqil hakimi olan Hüsam bəy Qaramanlı övladı ilə bizim xanədan arasında düşmənçilik vardır və qanlar axıdılmışdır, buna görə də onlar məndən intiqam almaq istəyirlər, elə bu səbəbdən qaladan kənara çıxa bilmirəm. Xahiş edirəm ki, qalanı təhvil verməyimdən və əlahəzrəti ziyarət etməyimdən ötrü mənə icazə versinlər" (112).

Şah Abbas onun bu istəyini qəbul etdi və Qum hakimi Hüseyn xan Şamlını Sindan qalasına göndərdi. Hüseyn xan Şamlı xoş niyyətlə gəldiyini göstərmək üçün qala ətrafında olan şah qoşunlarının tutduqları mövqelərdən uzaqlaşmalarını tələb etdi. Şah qoşunları qala ətrafından çəkiləndən sonra Əmir Həmzə xan arvad-uşağı ilə birlikdə qalanı tərk etdi və o zaman Osmanlı qoşunlarının işğalı altında olan Şirvana yollandı (113).

Əmir Həmzə xan şah qəzəbindən qorxaraq Şirvanda qalmağı qərara aldı. Şirvanın Osmanlı hakimi olan Əhməd paşa onun gəlişini xoş niyyətlə qarşıladı və Şamaxıda ona yer ayırdı. Amma Əmir Həmzə xanın yanında olanlar, o cümlədən Məhəmməd Bağır və Molla Fazil Osmanlı idarəçiliyi altında qalmaq istəmirdilər. Adları çəkilən bu adamlar bir müddət sonra ov mərasimi zamanı Əmir Həmzə xanı qətlə yetirdilər və onun başını bədənindən ayıraraq Şah Abbasın yanına gətirdilər. Əmir Həmzə xanın itaətsizliyinə baxmayaraq, Şah Abbas onun övladlarına şəfqət göstərdi və onları saray əyanları sırasına daxil etdi (114).

Şah Abbas həm də ərəşli camaatının itaətsizlikləinin və qanunsuz hərəkətlərinin qarşısının alınması üçün lazım olan qətiyyətli addımları atdı. İsfahan ətrafında məskunlaşmış olan ərəşli camaatı da hələ Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində qanusuzuqlarına və özbaşına hərəkətlərinə başlamışdılar. Onların başlıca məqsədi İsfahan ətrafındakı yaşayış məntəqələri-

nin var-yoxdan çıxarılması, insanların talanması idi. Ərəşli atlıları gecələr imkanlı adamların evlərinə basqınlar edir və zor tətbiq etməklə onların var-yoxlarını əllərindən alırdılar. Şah Abbas hakimiyyətə başlayandı bu camaatın rəhbərləri onun hüzuruna gəlmədilər və ona öz itaətlərini bildirmədilər. Bu hərəkət, əslində, şah hakimiyyətinə etinasızlıq göstərilməsi idi. Şah Abbas İsfahan və Şiraz səfərləri zamanı itaətsizlik yolunu tutmuş ərəşli camaatını da cəzalandırmaq qərarına gəldi. Onun hökmü əsasında İlyas bəy qoşun dəstəsi ilə ərəşli camaatının cəzalandırılmasına göndərildi. İlyas bəy də ərəşli camaatı üzərinə getdi, onların bir çoxunu qətlə yetirdi və şah əmrini icra edərək geri qayıtdı (115).

Ərəşli əmirlərinin və camaatının bir hissəsi də Kuh-giləviyyədə məskunlaşmışdı. Onlar da ətraf məntəqələrin dinc yaşayışına imkan vermirdilər və bununla bağlı narazılıqlar Şah Abbasa da çatdırılmışdı. Bu bölgədə Təhmasibqulu sultan Ərəşli adlı birisi ərəşli camaatına rəhbərlik edirdi. Ərəşli camaatının ətraf yaşayış məntəqələrini talanlara məruz qoyması da onun rəhbərliyi altında aparılırdı. Şah Abbas tərəfindən onun da ələ keçirilməsi və bununla ərəşli camaatının özbaşınalıqlarına son qoyulması üçün qoşun dəstəsi göndərildi. Həmin dəstə Təhmasibqulu sultanı ələ keçirib şah hüzuruna gətirdi. Şahın əmri ilə o, Şirazın bazar meydanında qətlə yetirildi. Təhmasibqulu sultanın qətlindən sonra onun oğlu Zəhrimar sultanın aradan qaldırılması məsələsi ortaya çıxdı. Çünki o da ərəşli camaatı ilə birlikdə ətraf yaşayış məntəqələrin talan edilməsində xüsusi amansızlıqlar göstərirdi. Zəhrimar sultan onu izləyən təhlükədən xilas olmaq üçün Damğan tərəfə qaçdı. Niyyəti də bu idi ki, Damğan hakimi olan Bədr xan Əfşarın köməyi ilə Hindistana yollansın və bununla da canını Şah Abbas qəzəbindən qurtarsın. Amma Bədr xan onu həbsə aldı və sonra da Şah Abbasa təhvil verdi. İnsanlara gətirdiyi bəlalara görə, Şah Abbas onu və onunla birlikdə ələ keçirilən ərəşli əmirlərini çox ciddi şəkildə cəzalandırdı. Mənbələrdə olan məlumata görə, İsfahanın böyük meydanlarının birində böyük qazanlarda su qaynadıldı, Zəhrimar xan və digər ərəşli əmirləri diri-diri qaynaq qazanların içinə atıldı.

Bununla onların həyatına son qoyuldu. Sonra da insanların talanmasında və var-yoxdan çıxarılmasında fəallıq göstərmiş ərəşli camaatı qılıncdan keçirildi (116).

## 5. Mərkəzi hakimiyyətə qarşı Gilan qiyamları və onların yatırılması

### a) Xan Əhmədin rəhbərliyi altında qiyam

1591-ci ildə özbək qoşunları yenidən Xorasan vilayətinə hücum etdilər və bu vilayətin bir sıra şəhərlərini ələ keçirdilər. Şah Abbas bu hücumun qarşısının alınması üçün bəzi hazırlıqlar görməyə başladı. Lakin daxili sabitliyin yaradılması sahəsində müəyyən işlərin görülməsi, sonra da Gilanda davam etməkdə olan qiyamın yatırılması zərurəti Xorasana qoşun çıxarılmasını bir qədər təxirə salmalı oldu. 1591-ci ilin sonlarında Şah Abbas İsfahana yollandı. O, nəzərdə tutmuşdu ki, 1592-ci ilin baharına kimi orada gözləsin. Həmin vaxt ərzində Şah Abbas qoşunları daha da təkmilləşdirməli və sonra da Xorasana doğru hərəkətə başlamalı idi. Amma qışın sonunda Şah Abbas yenidən Qəzvinə qayıtdı. Qəzvində də Şah Abbas Xorasana qoşun çıxarmaq hazırlıqlarını davam etdirdi. Novruz bayramından sonra isə Şah Abbas ulu əcdadı Şeyx Səfiəddinin məqbərəsini ziyarət etmək qərarına gəldi. O, bu ziyarətə əvvəldən də getmək istəyirdi. Lakin səltənət daxili qarışıq və nizamsızlıqların aradan qaldırılması Şah Abbasın bu ziyarət səfərini təxirə salmışdı. Nəhayət, 1592-ci ilin novruz bayramından sonra Şah Abbas bu ziyarəti həyata keçirməyi qərarlaşdırdı: “Cəm məqamlı əlahəzrətin və ulduz sanlı qoşunu olan şahın mübarək fikri həmişə düşmənləri dəf etmək və Xorasan ölkəsini geri almağa yönəlmişdi. İranda hümayun cülusu və həzrət cənnətməkan şahın taxtına əyləşməsindən bu vaxta qədərki dövrdə o övliyalar sultanı, pak adamların seçilmişi, haqq, həqiqət və din qütbü mərhum Şeyx Səfinin və o həzrətin əcdadı olan uca məqamlı şeyxlərin ziyarəti şərəfinə hələ yetişməmişdi. Əlahəzrət bu vax-

tadək Azərbaycanın süst vəziyyətdə olması və rumilərin müxalifət etmələrinə görə həmin səadəti ləngitmişdi. ...Şahın işıqlı fikrinə əzəmətli şeyxlərin pak məzarlarını təvaf etmək düşdü, səltənət taxtından çıxıb xoş bir vaxtda həmin müqəddəs yerə çatdı, ziyarətini təqdim etdi, oranın sakinlərinə sədəqələr verdi, şeyxlərin müqəddəs ruhlarından kömək istədi.

Elə bu vaxtlarda da... əlahəzrət Ərdəbil darülirşadına gedərək sultanül-övliyanın (Şeyx Səfiəddin İshaqın - red) şərafətli türbətini ziyarət etdi” (117).

Ərdəbildə olarkən Şah Abbas yenidən qızılbaş əmirlərinin itaətsizliyinin aradan qaldırılması ilə məşğul oldu. Yəni Şah Abbas Xorasan səfərinə hazırlıq gördüyü bir vaxtda diqqətini yenidən daxili qiyamların aradan qaldırılmasına yönəltdi. Bu dəfə Şah Abbas Qaracadağ hakimi Şahverdi xanın itaətsizliyinin aradan qaldırılması məsələsi ilə məşğul oldu. Şahverdi xan Qaracadağ hakimi idi və bu vəzifəyə atasından sonra sahiblənmişdi. Amma Osmanlı qoşunları Azərbaycan ərazilərinə hücum edəndə Şahverdi xan şah sarayına itaətdən çıxıb Osmanlı bayrağı altına keçməyə üstünlük verdi. Onun Səfəvi hakimiyyətindən üz döndərməsi və Osmanlı itaətini qəbul etməsi heç şübhəsiz ki, Şah Abbasın qəzəbi ilə qarşılaşmışdı. Şahverdi xan Osmanlı hakimiyyətinə sədaqətinin ifadəsi kimi oğlunu da Təbrizin Osmanlı hakimi Cəfər paşanın yanına göndərmişdi. Şahverdi xan güman edirdi ki, bölgədə, o cümlədən Qaracadağ üzərində Osmanlı işğalı uzun müddət davam edəcəkdir. Amma Osmanlı dövləti ilə Səfəvi sarayı arasında sülh müqaviləsi imzalananda (bu barədə aşağıda danışılacaqdır) Qaracadağ əyaləti Səfəvi hüdudları daxilində qaldı. Ona görə Şah Abbas ehtimal edirdi ki, Şahverdi xan şah sarayına gələcək və Şah Abbasa itaətini bəyan edəcəkdir. Şahverdi xan isə gəlmədi. Hətta Şah Abbas Ərdəbildə olanda da Şahverdi xan onun hüzuruna gəlməkdən imtina etdi. Bu hadisə o vaxt baş verirdi ki, mərkəzi hakimiyyət artıq möhkəmlənmək üzrə idi və səltənət daxili itaətsizlik hallarının aradan qaldırılması istiqamətində ciddi addımlar atılmışdı. Ərdəbildə ikən Şah Abbas nüfuzlu qızılbaş əmirlərindən

olan Allahverdi xanı bir dəstə seçilmiş qulamla birlikdə Şahverdi sultanın gətirilməsinə göndərdi. Şahverdi xan isə Şah Abbasın hüzuruna yollanmaqdan imtina etdi. Onu ciddi cəza gözlədiyini bildiyi üçün Osmanlı nəzarəti altında olan əraziyə üz tutdu və Osmanlı hakimiyyəti altında qalmaq qərarına gəldi. Şah Abbas da onun yerinə Qaracadağa başqa bir adamı hakim təyin etdi. Bundan sonra Şah Abbas diqqətini yenidən Xorasan üzərinə yürüş hazırlıqlarına yönəltdi. Şah sarayı yaxın günlərdə Xorasan üzərinə yürüşün başlanacağı sorağında olduğu bir zamanda Gilan qiyamının yatırılması məsələsi ortaya gəldi və mövcud tarixi şəraitdə Şah Abbas Xorasana yürüşə başlamazdan əvvəl Gilan qiyamının yatırılmasını və bu bölgənin mərkəzləşdirilmiş hakimiyyətin nəzarəti altına gətirilməsini daha vacib saydı.

Gilan vilayəti öz coğrafi şəraitinə görə səltənətin əlçatmaz əyalətlərindən biri idi. Sıx meşələr, yüksək dağlıq ərazilər bu vilayətlə əlaqələri xeyli çətinləşdirirdi və ona görə də bu vilayətlə səltənətin mərkəzi, habelə digər vilayətlə arasında gediş-gəliş imkanları da xeyli məhdud idi. Qız fəslində isə bu vilayətin digər vilayətlərlə əlaqəsi daha da çətinləşirdi. Yəni ətraf aləmdən təcrid olunmuş bu vilayət mərkəzi hakimiyyətin nəzarətindən də kənar qalırdı. Əslində, elə bu şərait Gilan hakimlərinin müstəqilləşmək meyllərinə yer verirdi.

Gilan vilayəti ilə Səfəvi xanədanının kifayət qədər sıx əlaqələri var idi. Şah İsmayılın hələ uşaq ikən Ağqoyunlu hakimlərinin təqiblərindən qaçması və salamat qalması Gilan vilayəti ilə bağlı idi. Şah İsmayıl bu vilayətdə təqiblərdən yaxa qurtarmaqla öz hərəkatını da bu vilayətdən başlamışdı. Onun bu bölgəyə sığındığı vaxtlar artıq Gilan iki hissəyə bölünmüşdü. Biyəpiş adlanan hissə Sefidrud çayının şərq hissəsində qalırdı və bu hissənin paytaxtı Lahican idi. Şah İsmayıl da uşaqlıq illərində Biyəpişə gəlmişdi və bu hissənin hakimi olan Karkiya Mirzə Əli onun həyatının təhlükədən xilas edilməsində xüsusi xidmətə malik idi. Sefidrud çayının qərb hissəsi isə Biyəpəs adlanırdı. Bu hissənin paytaxtı əvvəllər Fumən, sonra isə Rəşt olmuşdu. Biyəpəsin hakimi Şah İs-

mayılın hakimiyyəti illərində Əmirə Dibac idi. Əmirə Dibac bir müddət sonra Şah İsmayıl hakimiyyətinə müxalifət yolunu tutdu. Bu müxalifətçiliyi həyata keçirmək üçün Əmirə Dibac ətrafına müəyyən sayda hərbi qüvvə də toplaya bilmişdi. Bu barədə xəbər tutanda Şah İsmayıl dərhal qətiyyətli addımlara əl atdı. Onun fərmanı əsasında Biyəpəsə güclü bir qoşun dəstəsi göndərildi və bu dəstəyə rəhbərlik Şah İsmayılın bacısı oğlu Durmuş xana həvalə olundu. Bu itaətsizlik halı 1519-cu ildə baş vermişdi. Görünür, Əmirə Dibacın itaətsizliyi geniş miqyas almışdı və səltənət üçün ciddi təhlükəyə çevrilmək imkanı var idi. Onun qarşısının alınması üçün Şah İsmayıl yalnız ən nüfuzlu əmirlərini bölgəyə göndərmədi. Eyni zamanda o özü də bölgəyə yollandı. Çaldıran döyüşündən sonra bu, səfər Şah İsmayılın ilk hərbi səfəri idi. Bu özü də Biyəpəs itaətsizliyinin aradan qaldırılmasına Şah İsmayılın necə böyük diqqət ayırmasının göstəricisi ola bilərdi. Əmirə Dibac biləndə ki, Şah İsmayıl da qoşunla birlikdə onun başladığı itaətsizliyin aradan qaldırılmasına gəlir, onda mərkəzi hakimiyyətlə barışığa getmək yolunu tutdu. Əmirə Dibac bölgənin ağsaqqallarının, Biyəpiş hakiminin vasitəçiliyi ilə Şah İsmayıldan bağışlanmasını xahiş etdi. Şah İsmayıl da bu xahişlərə xoş görüşlə yanaşdı. O, Əmirə Dibacı nəinki bağışladı, hətta qızı Xeyrannisə xanımı da ona nikah etdirdi (118).

Şah İsmayılın hakimiyyəti illərində Əmirə Dibac mərkəzi hakimiyyətə sədaqətli qaldı. Şah Təhmasibin hakimiyyəti illərində isə Biyəpəsdə yenidən itaətsizlik halı özünü göstərməyə başladı (bu məsələ ilə bağlı daha ətraflı məlumat üçün bax: Süleymanov M. Səfəvilər. V cild. Şah Təhmasib. Bakı, 2019). Xüsusilə, Əmirə Dibacın xanımı və Şah İsmayılın qızı Xeyrannisə xanımın on beş illik ailə həyatından sonra dünyasını dəyişməsi bu itaətsizlik hərəkatını daha da gücləndirdi. Əmirə Dibaca görə, Şah İsmayılın qızının və Şah Təhmasibin bacısının dünyasını dəyişməsi ilə onu Səfəvi sarayına bağlayan tellər də qırılmış oldu. Özünün hakimiyyətini qorumaq yolunu Əmirə Dibac o zaman Səfəvi dövləti üzərinə hücum çəkmiş Osmanlı dövlətinə sığınmaqda gördü. Bu məq-

sədlə o, Osmanlı qoşunları düşərgəsinə yollandı. Lakin tezliklə, Osmanlı qoşunları geri çəkildi və bundan sonra Əmirə Dibacın ağır günləri başladı. Ətrafında cərəyan edən hadisələrdən düzgün nəticə çıxara bilməməsi tezliklə onun həyatına da son qoydu. Əmirə Dibacın qətlə yetirilməsi və Şah Abbas hakimiyyəti illərində mərkəzi hakimiyyətə qarşı müxalifət yolunu tutmuş Xan Əhmədin vilayət hakimliyinə gətirilməsi Şah Təhmasibin dövrünə təsadüf edir. Atası Xan Həsən dünyasını dəyişəndə Xan Əhmədin cəmi bir yaşı var idi. Xan Əhməd Biyəpişin hakimi olmaqla bərabər, sonradan Biyəpəsin də hakimliyinə sahib oldu. Şah Təhmasibin Xan Əhmədə olan münasibəti "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində belə təsvir edilmişdir: "Hələ Süleyman şanlı xaqan [Şah İsmayıl nəzərdə tutulur] öz qardaşı Sultan Əli padşahın ölüm hadisəsindən sonra Gilana təşrif aparıb bir neçə il Lahicanda qaldığı zaman Xan Əhməd Mazinin əmisi Karkiya Əli və onun qardaşları Seyid Haşım və Sultan Həsən ona xoşagələn xidmətlər göstərmişdilər. Buna görə də cənnətməkan şah həzrətləri o sülalənin sabiq və birbaşa xidmətlərinin keyfiyyəti səbəbindən ona (Xan Əhmədə) münasibətdə lazımi qayğıkeşlik nümayiş etdirirdi. Belə ki, onun atası Sultan Həsənin 943-cü ildə (20.06.1536 - 09.06.1537) baş vermiş ölümündən sonra Xan Əhməd hələ bir yaşında südəmər körpə ola-ola [Şah Təhmasib tərəfindən] atasının yerinə [Biyəpiş hakimi] təyin edilmişdi. O sülaləyə (Biyəpiş hakimləri nəslinə) müxalif olan kəslərin və Gilanın iddia sahibi olan əmirlərinin ona (körpə Xan Əhmədə) münasibətdə ziyankarlıq edə biləcəklərini nəzərə alan Gilan əmirlərindən biri və [mərhum] Sultan Həsənin vəkili olan Kiya Xurkiya Talqaninin bir neçə dəfə təkrarladığı xahişləri nəticəsində [Şah Təhmasib] Bəhram mirzəni Gilana göndərdi ki, bir müddət əyaləti başqalarının qəsb etməsinə imkan verməsin. Lakin Bəhram mirzə zorakı adamların sözlərinə əməl edib, Kiya Xurkiyanı həbs etdi. Buna görə də gilanlılar ondan incidilər və o, Gilan vilayətini tərk etdi. Elə ki Xan Əhməd həddi-buluğa çatdı, cənnətməkan şah günbəgün onun mövqeyini yüksəltdi" (119).

Bir məlumata görə də Bəhram Mirzənin Gilanı tərk etməsi Xan Əhmədin yaşa dolması və Gilanın idarəçiliyinin öz üzərinə götürə bilməsi ilə bağlı idi. Biyəpəsin hakimi Müzəffər sultanın dünyasını dəyişməsindən sonra isə Gilanın bu hissəsi də Biyəpişə birləşdirildi və bütün bu ərazilər Xan Əhmədin hakimiyyəti altına verildi. Amma Şah Təhmasibin hakimiyyəti illərində Xan Əhməd mərkəzi hakimiyyətə qarşı müxalifətçilik yolunu tutdu. O, mərkəzi hakimiyyətə tabe olmaqdan üz çevirdi və onun itaət yoluna gətirilməsi üçün göstərilən cəhdlər də bir nəticə vermədi. Hətta Şah Təhmasib ona məktub yazdı, onu tutduğu yoldan çəkindirməyə çalışdı. Lakin bu da bir nəticə vermədi. Belə olanda Şah Təhmasib tərəfindən Gilan hakimi Xan Əhmədə qarşı böyük bir qoşun dəstəsi göndərildi. Göstərdiyi bütün cəhdlərə baxmayaraq Xan Əhməd şah qoşunlarına müqavimət göstərə bilmədi və son nəticədə o, şah qoşunları tərəfindən əsir alındı. Xan Əhməd əsir alınaraq Qəzvin sarayına gətirildi: "Uzun sözün qısası, Məsum bəy adlısanlı əmirlər və zəfər şüarlı qorçularla birlikdə Xan Əhmədi, onun ailəsini və yaxınlarını aləmin pənahı olan dərgaha gətirərək, onu darüssəltənə Qəzvində müzəffər şəhriyara təqdim etdi. O, xəcalət çəkə-çəkə və etdiklərindən peşman ola-ola acizlik və bicarəlik izhar etdi. Şahın mürvəti bunu lazım bildi ki, onun törətdiyi bütün bu üsyan və itaətsizliyə baxmayaraq, onu hakimlikdən kənarlaşdırsa da, qanını bağışlasın. Buna görə də onun halına rəhm edib, ona bir zərər vurmadı. [Xan Əhməd] Qəhqəhə qalasında məhbus edildi" (120).

Sonradan Xan Əhməd İstəxr qalasına köçürüldü və Şah Məhəmməd Xudabəndənin hakimiyyətə gəlməsinə qədər orada qaldı. Şah Məhəmməd Xudabəndənin Məhdi-ülya adlanan xanımı Xeyrannisə xanımla Xan Əhmədin qohumluq əlaqələri var idi. Həyat yoldaşının Səfəvi taxt-tacına sahib olmasından sonra Xeyrannisə xanım Xan Əhmədin bağışlanmasını ondan xahiş etdi. Şah Məhəmməd Xudabəndə də onun xahişini qəbul etdi və Xan Əhmədi həbsdən azad etməklə bərabər, ona Piyəpişin hakimliyini də verdi. Bundan əlavə Şah Məhəmməd Xudabəndə bacısı Məryəm sultan

xanımı da ona nikah etdirdi. Yəni Xan Əhməd həm Şah Məhəmməd Xudabəndənin lütfünə layiq görüldü, həm də onunla qohumluq əlaqələrinə girdi. Bu məqamların hər ikisi Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə onunla Xan Əhməd arasında münasibətin müəyyənləşməsinə öz təsirini göstərdi. Xan Əhməd də vilayət daxilində müstəqil şəkildə hakimlik etməklə bərabər, şah sarayına da sədaqətini qoruyub saxladı. Hətta Xeyrannisə xanımın qətlindən sonra da Xan Əhməd şah sarayına itaətini itirmədi. İstər Həmzə Mirzənin, istərsə də Əbu Talib Mirzənin vəliəhdliyi dövründə Xan Əhmədlə şah sarayı arasında xoş münasibətlər qalmaqda idi. Hazırda elmi-tarixi dövriyyədə Xan Əhmədin Həmzə Mirzəyə yazdığı məktublar qalmaqdadır. Həmin məktublarda da Xan Əhmədin Səfəvi sarayına qarşı xoş münasibətini görmək mümkündür (121).

Şah Abbasın hakimiyyətə gəlməsi ilə Xan Əhmədin mərkəzi hakimiyyətə qarşı münasibətlərində bir dəyişiklik görmək mümkündür. Xüsusilə, yeni hakimiyyətin ilk illərində Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücum etməsi Xan Əhmədin də şah hakimiyyətindən uzaqlaşmasına əlavə bir zəmin yaratdı. Xan Əhməd Osmanlı hakimiyyəti ilə əlaqələr yaratmağa başladı. Əslində, Osmanlı sarayının da Gilanla əlaqələr qurmaqda öz maraqları var idi. Bu əlaqələr bir tərəfdən Səfəvi hakimiyyətini zəiflədirdi və Səfəvi ərazilərində möhkəmlənmək üçün Osmanlı qoşunlarının imkanlarını artırırdı. Digər tərəfdən, Gilan bölgənin ipəkçilik mərkəzlərindən biri idi. Bu vilayətlə əlaqələr qurulması və yaxın münasibətlərin bərqərar edilməsi Osmanlı sarayının da maraqlarına cavab verirdi. Bir tərəfdən də Gilan ərazisində sünni məzhəbinə mənsub olan insanların sayı çox idi. Osmanlı sarayı bu məqamdan istifadə etməklə Gilanın sünni əhalisini öz tərəfinə çəkməyə çalışırdı (122).

Yeni şəraitdə Xan Əhməd Səfəvi hakimiyyətdən qopmaq və müstəqilləşmək iddialarına düşdü. Bu iddiasının həyata keçirilməsi üçün Xan Əhməd həm də Səfəvi hüdudlarına qoşun çəkmiş Osmanlı qoşunlarına arxalanmaqda idi. Amma 1590-cı ildə Os-

manlı-Səfəvi sülh anlaşmasının imzalanması ilə Xan Əhməd Osmanlı köməyindən məhrum oldu. Şah Abbas müəyyən ərazilərin Osmanlı dövlətinə güzəştə gedilməsi ilə razılaşsa da, Gilan Səfəvi hüdudlarında saxlanıldı. Bu da Xan Əhmədin Osmanlı himayəsindən məhrum olmasına gətirdi. Xan Əhməd Osmanlı-Səfəvi sülh anlaşmasının imzalanmasından sonra Şah Abbasa göndərdiyi məktubunda belə bir anlaşmanın əldə edilməsinə heç də öz rəğbətini ifadə etmədi. Xan Əhməd mərkəzi hakimiyyətin işlərinə qarışmağı öz əqidəsindən kənar saysa da, belə bir hadisənin baş verməsində susmağı düzgün hesab etmirdi. Onun fikrincə, müxtəlif məzhəblərə mənsub olan padşahların bir-birini düşmən adlandırdıqları halda sülh anlaşması əldə etmələri düzgün deyildi. Xüsusilə, Xan Əhməd sülhün əldə edilməsi üçün böyük ərazilərin Osmanlı dövlətinə bağışlanmasına öz narazılığını ifadə edirdi. Bu mənada o, Osmanlı-Səfəvi sülh anlaşmasının əhəmiyyətini şübhə altına aldı. Xan Əhməd sonra yazırdı ki, Şah Təhmasib vaxtilə Osmanlı şahzadəsi Sultan Bayəzidi yanında saxlayaraq onu və övladlarını Osmanlı sarayına təhvil verməк istəmirdi. Yalnız onların ölüləri Osmanlıya aparıldı. Şah Abbas isə Səfəvi dövlətinin ərazilərini asanlıqla Osmanlı dövlətinə hədiyyə edirdi. Xan Əhməd Osmanlı dövləti ilə sülhün əldə edilməsi üçün Həmzə Mirzənin oğlu Heydər Mirzənin girov kimi Osmanlı sarayına göndərilməsini də düzgün saymırdı (123).

Belə bir məktubun Xan Əhməd tərəfindən Şah Abbasa yazılması araşdırmaçılar arasında şübhə ilə qarşılanmaqdadır. Xan Əhməd həmin məktubda Osmanlı sultanını "düşmən" adlandırsa da, onun da Osmanlı sultanına məktub yazması haqqında məlumatlar mövcuddur. Həmin məktubda isə Xan Əhməd Osmanlı sultanına bir müttəfiqi kimi müraciət edirdi. Hətta Xan Əhməd hakimi olduğu Gilanın da Osmanlı sultanının nəzarəti altına verilməsinə razılığını bildirirdi. Xan Əhmədin bu məktubunda deyilirdi: "Əgər siz, Xəzər Dənizindən [Şirvandan] gəmilərlə Gilana gəlsəniz, heç zəhmət etmədən bütün Gilanı ala bilirsiniz. Mən də sizə Lahicanı

vermәyә hazırım. Lahicandan Qәzvin isә az bir mәsafәdәdir. Bu düzәnlә Iraqı vә bәlkә İranın tamamını fәth edә bilirsiniz” (124).

Xan Əhmәd bu mәktubu İstanbul sarayına elçisi vasitәsilә göndәrdi. Şah Abbas onun Osmanlı sarayına elçi göndәrmәsini eşidәndә Xan Əhmәddәn onun sәbәbini soruşdu. Şah Abbasın göndәrdiyi elçiyә Xan Əhmәd bildirdi ki, Osmanlı sarayına mәktub yazmaqda yeganә mәqsәdi hәcc sәfәrlәrinin tәşkili mәsәlәlәri ilә bağlıdır. Əsas niyyәtini isә Xan Əhmәd Şah Abbasdan gizlәtdi. Şah Abbas isә onun cavabının doğruluğuna heç dә inanmadı vә İstanbuldakı casusları vasitәsi ilә Xan Əhmәdin Osmanlı sarayına göndәrdiyi mәktubun mәzmunundan xәbәr tutdu. Bәzi araşdırmaçıların fikrincә, Xan Əhmәd Gilan hakimliyini әlindә saxlamaq üçün nәzarәti altında olan әrazilәrin yarısını Osmanlı sultanına güzәştә getmәyә hazır idi. İddia edilir ki, Xan Əhmәd öz Gilan hakimliyinә Şah Abbas tәrәfindәn bir tәhlükә hiss edirdi. Hәmin tәhlükә ilә rastlaşmamaq üçün dә Xan Əhmәd Osmanlı sarayı ilә münasibәtlәr qurmağa üstünlük verirdi. Mövcud olan mәlumata görә, Şah Abbasın bu mәsәlә ilә yaxından maraqlandığı günlәrdә Xan Əhmәd Osmanlı sarayına növbәti mәktubunu göndәrdi. Hәmin mәktubda Xan Əhmәd nәzarәti altında olduğu әrazilәrin Osmanlı sarayına güzәştә getmәyә hazır olduğunu bәyan edirdi. Amma bir şәrtlә ki, Osmanlı sarayı da Gilanın ikinci yarısının Xan Əhmәdin vә onun vәrәsәlәrinin hakimiyyәti altında qalması haqqında “mәnşur” verilsin. Yәni Xan Əhmәd bu mәktubla Osmanlı sarayını yenidәn Sәfәvi hüdudlarına qoşun çıxarmağa vә Gilana tәrәf irәlilәmәyә tәhrik edirdi. Xan Əhmәd bu mәktubu Osmanlı sarayına Hüsamәddin Lәngәrudi adlı bir elçisi vasitәsilә göndәrdi. Osmanlı sarayı isә bu tәhrikә uymadı vә Sәfәvi dövlәti ilә әldә edilmiş anlaşmanı pozmağı mәqsәdәuyğun saymadı. Bir mәlumata görә, Osmanlı sarayının mәnsubları sәdr-әzәm Fәrhad paşanın evindә toplaşaraq Sәfәvi sarayı ilә münasibәtlәri, habelә Xan Əhmәdin göndәrdiyi tәklifi müzakirә etmiş vә belә bir qәrara gәlinmişdi: “Şah Abbas, qardaşının oğlunu İstanbula göndәrmiş vә itaәt üzrә olduğunu bәlli etmiştir. Tәkrardan fitnәyә sәbәb olmaya

gərək yoxdur. Gilan elçisi Hüsaməddinə icazə verilsin və Divana gəlmədən Üsküdara keçirilsin” (125).

Xan Əhmədin bu asiliyinin qarşısında Şah Abbas təmkinli bir mövqe tutdu və əvvəlcə dinc vasitələrdən istifadə etməyə üstünlük verdi. Elə bunun nəticəsi idi ki, Şah Abbas dörd yaşında olan oğlu Səfi Mirzə üçün Xan Əhmədin beş yaşında olan qızını istədi. Şah Abbas nikah qohumluğu yaratmaqla Gilan hakiminin mərkəzi hakimiyyətə olan bağlılığını artırmaq istəyirdi. Mövcud olan məlumata görə, bu qız Xan Əhmədin yeganə övladı idi. Onun Sultan Həsən adlı övladı dünyasını dəyişəndən sonra Xan Əhməd tək qalmış qız övladının da kiçik yaşlarında yanından uzaq düşməsini istəmirdi. Mövcud olan məlumatlardan aydın olur ki, Xan Əhməd Şah Abbasın yanına çoxlu sayda hədiyyələrlə və nağd pulla birlikdə Xəlil bəy adlı bir adamını göndərdi. Şah Abbas bu hədiyyələri biganəliklə qarşıladı. Böyük miqdarda olan nağd pulu isə o, qara dərili xidmətçilərindən birinə bağışladı və bəyan etdi ki, ona pul və hədiyyə deyil, Xan Əhmədin itaəti lazımdır. Bununla bağlı məlumat Xan Əhmədə çatdırıldıqdan sonra o, Şah Abbasa məktub yazmaq qərarına gəldi (125).

Bu məktubu yazanda Xan Əhmədin artıq 57 yaşı var idi və bunu o öz məktubunda da qeyd etmişdi. Xan Əhməd belə ahıl yaşında kiçik yaşlı qızından ayrılmaq istəmədiyini Şah Abbasın nəzərinə çatdırdı. Onun yazdığına görə, əgər uşaqlar analarının südü ilə böyüyürdülərsə, beş yaşında olan qızı isə atasının ciyərinin qanı ilə böyümüşdü. Ona görə də Xan Əhməd kiçik yaşlı qızının bu yaşında nikaha alınmasını nigarançılqıla qarşılayırdı. O, şübhə etmirdi ki, qızının nikah yaşına çatması üçün ən azı on il keçməli idi. Bu on il ərzində isə fikirlər və qərarlar da dəyişə bilərdi. Fikrinin qarşı tərəfdən qəbul olunması üçün Xan Əhməd məktubunda Şah Abbasa xoş və təmtəraqlı ifadələrlə müraciət edirdi, onu əzəmətli Keyxosrov, ədalətli Cəmşid, günəş təbiətli, səadət müştərisi, şücaətli Rüstəm, İsgəndər zəfərli, ölkələr fatehi və s. adlandırırdı. O yazırdı ki, Səfi Mirzə də başqa şah övladları kimi gənc yaşlarında öz atasının yerinə hakimiyyətə yiyələnmək niyyətlərinə düşə

bilər. Bu zaman Şah Abbas sözsüz ki, qəzəblənərək oğlunu cəzalandırmaq qərarına gələ bilərdi. Xan Əhməd bildirirdi ki, belə bir zamanda Səfi Mirzə qaçaraq onun yanına gəlsəydi o öz damadını himayə edəcəkdi. Belə bir hal isə Şah Abbasla Xan Əhməd arasında narazılıqları daha da qızışdıra bilərdi. Belə bir halın baş verməməsi üçün o belə bir nikahdan imtina edilməsinə üstünlük verirdi (126).

Xan Əhmədin bu məktubu onun əvvəlki məktubuna nisbətən daha nəzakətli bir tərzdə yazılmışdı. Bu məktub yazılanda Şah Abbas onun hakimiyyətinə müxaliflik etmək istəyən bir neçə güclü qızılbaş əmirini artıq aradan götürmüşdü. Bu cəhət Xan Əhmədin də Səfəvi şahına daha yumşaq şəkildə yanaşmasına yol aça bilərdi. Şah Abbas bu məktuba qarşı biganə qalmadı və o, Xan Əhmədə cavab yazdı. Şah Abbas da məktubunda kifayət qədər nəzakətli bir şəkildə öz istəklərini Xan Əhmədin diqqətinə çatdırdı. Bu məktubun əvvəlində o, Xan Əhmədə xüsusi bir ehtiramla müraciət edilirdi, onun hörmət və izzət sahibi olmasına işarə edilirdi. Şah Abbas onun haqqında səltənətin pənahı, əzəmətli, əlahəzrət kimi ifadələr işlətmiş və onu hətta özünün əmisi də adlandırmışdı. Şah Abbas sonra Xan Əhməddən məktub aldığını və məktubda toxunulan məsələlərə öz münasibətini bildirmək istədiyinə toxunurdu. Xan Əhməd öz məktubunda 30 il ərzində sınaqlarla qarşılaşdığını, yetimliklə həyat sürdüyünü yazmışdı. Şah Abbas onun bu həyatına anlaşıqlı yanaşdığını yazmaqla özünün taleyindən heç də narazı olmadığını və yaradanın lütfü ilə şahlıq taxtına layiq görüldüyünü qeyd edirdi. Şah Abbas yaradanın ona qarşı lütfünün böyük olduğuna, arzuladıqlarını əldə edə bildiyinə görə öz məmnunluğunu izhar edirdi. Səfəvi şahı onu da yazırdı ki, onun şah olduğu səltənət daxilində kimsə itaət yolundan çıxarsa heç də dərhal onun cəzalandırılması yolunu tutmur. Şah Abbas bir daha Xan Əhmədi kifayət qədər ağıllı və zəkalı bir insan kimi qəbul etdiyini, onun cahil və ağılsız olması fikrindən uzaq olduğunu bildirirdi. Ona görə də Xan Əhmədin öz məktubunda iddia etdiyi bəzi məsələlərə Şah Abbas təmkinlə və ayrıca olaraq cavab verməyi lazım bilirdi. Bu

məktubda ilk növbədə Şah Abbasın əmir və əyanlarının Şah Təhmasibin əmir və əyanları qədər təcrübəli və müdrik olmaması barəsində Xan Əhmədin iddiasına cavab verilirdi. Xan Əhməd konkret olaraq ona işarə etmişdi ki, Şah Təhmasibin Bəhram Mirzə kimi qardaşı, Sulatınım xanım kimi bacısı var idi. Onun sözlərinə görə, Şah Abbasın belə məsləhətçiləri yox idi. Şah Abbas isə bununla razılaşmırdı. Onun sözlərinə görə, sarayının əmir və əyanlarının çoxu hələ Şah Təhmasibin vaxtında xidmətə başlamışdılar və onun təcrübəsini almışdılar. Qardaş və bacı məsələsinə gəlincə isə, Şah İsmayıl bildirirdi ki, onun Bəhram Mirzə kimi qardaşı olmasa da Xan Əhməd kimi bir əmisi vardır və o, Xan Əhmədi bənzərsiz, tədbirli, hər işə vaqif bir insan kimi xarakterizə edirdi. Bacı məsələsinə gəlincə isə, Şah Abbas Xan Əhmədin xanımı olan bibisinə işarə edirdi və ona da yüksək qiymət verirdi (127).

Şah Abbas məktubunda Xan Əhmədin qızını oğluna istəməsi məsələsinə də toxunurdu. Bu məsələ ilə bağlı Xan Əhmədin yazdıqlarını Şah Abbas anlaya bilmədiyini qeyd edirdi və onu bu fikrindən də daşındırmağa çalışırdı. Xüsusilə, Səfi Mirzənin gələcəkdə Şah Abbasa asi olaraq Xan Əhmədə pənah gətirməsi və bundan sonra Xan Əhmədlə Şah Abbas münasibətlərinin pisləşə biləcəyi məsələsinə Şah Abbas özüməxsus bir cavab verdi. Fikrini izah etmək üçün Şah Abbas məktubunda bir rəvayəti açıqladı. Həmin rəvayətə görə bir dəfə bir qəzvinli yolda bir at nalı tapır. O, sevincək bu nalı götürüb evə gəlir və başlayır evinin darvazasını sökməyə. Qonşusu bunu görüb qəzvinlidən nə etdiyini soruşur. Qəzvinli də cavab verir ki, mən bir ədəd at nalı tapmışam, üç dənəsini də tapandan sonra at alacağam. Həmin at bu darvazadan keçə bilməyəcək. Ona görə indidən bu darvazanı söküb onu böyütmək istəyirəm. Qonşusu da ona cavab verir ki, mən də gələcəkdə kətxuda olacağam, mənim oğlan övladların burada oynayanda sənin atın gəlib onları təpikləyə bilər. Ona görə qonşusu qəzvinlinin darvazanı böyütmək istəyinin əksinə çıxır və onlar arasında dava düşür. Şah Abbas bununla demək istəyirdi ki, onun oğlu hələ çox kiçikdir və indidən onun gələcəkdə hansı iddialara düşə biləcəyi

haqqında düşünmək hələ tezdir. Digər tərəfdən Şah Abbas bildirirdi ki, Xan Əhmədin qızını oğluna istəməsi bibisi Zeynəb bəyimin arzusu əsasında baş vermişdir. Zeynəb bəyim Şah Abbasın oğlunu özünə oğlulluğa qəbul etmişdi. Ona görə o istəyirdi ki, Səfi Mirzəyə qan qohumluğu çatan birisini alsın. Xan Əhmədin xanımı Zeynəb bəyimin bacısı idi və istəyirdi ki, bacısı qızı onun yanında olsun. Şah Abbas onu da əlavə edirdi ki, onun qızını istəməsinin bir səbəbi də elə Xan Əhmədə olan hörməti ilə bağlı idi. Yəni bu elçilikdən sonra bütün qızılbaş əmirlərinə və tayfalarına bəlli olacaqdı ki, Şah Abbasla Xan Əhməd arasında yaxşı münasibətlər mövcuddur.

Xan Əhməd məktubunda onun haqqında Şah Abbasa düzgün olmayan xəbərlər çatdırması haqqında da yazmışdı. Şah Abbas isə bəyan edirdi ki, kimsənin onun yanında qeybət etməsinə imkan verməz. Xan Əhməd haqqında düşündüklərinin isə gizli qalmayacağını və ona çatdırılacağını bildirirdi (128).

Xan Əhməd kiminsə onun haqqında Şah Abbasa yalan məlumat çatdırmasına işarə edəndə, heç şübhəsiz ki, keçmiş vəziri Xoca Məsihin Qəzvin sarayına sığınmasını və onun Şah Abbasa Gilan hadisələri haqqında müəyyən məlumatlar verməsini nəzərdə tuturdu. Xoca Məsih doğrudan da Gilanda baş verən hadisələr, Xan Əhmədin mərkəzi hakimiyyətə qarşı itaətsizlik meylləri haqqında Şah Abbasa məlumat çatdırmış və onu Gilana qoşun çəkməyə təhrik etməyə çalışmışdı. Amma o zaman bir tərəfdən özbək qoşunlarının Xorasan üzərinə hücumu, digər tərəfdən də itaətsilik yolunu tutmuş qızılbaş əmirlərinin zərərsizləşdirilməsi üçün Şah Abbasın İsfahan və Şiraza səfər etməsi Gilan haqqında hər hansı bir qərar qəbul edilməsini təxirə saldı. Eyni zamanda, yuxarıdakı məktubun məzmunundan da göründüyü kimi, Şah Abbas Gilan itaətsizliyini dinc yolla aradan qaldırmağa çalışırdı. Bu niyyətinə nail olmaq üçün Şah Abbas hətta Xan Əhmədlə yeni nikah qohumluğunu da mümkün sayırdı. Əslində, bu nikah olmadan belə Xan Əhmədlə Səfəvi xanədanı arasında bir nikah qohumluğu mövcud idi. Həm də ənənəvi münasibətlərə istinad etməklə Şah

Abbas Gilanın Səfəvi hüdudları daxilində qalmasını təmin etmək istəyirdi. Xan Əhməd isə göründüyü kimi, Şah Abbasın təkliflərinə qarşı heç də rəğbətli münasibət göstərmirdi.

Güman edilir ki, Xan Əhmədin qızının Şah Abbasın oğluna istənilməsi təşəbbüsü də Xoca Məsihə məxsus idi. Bu təşəbbüs həm də səltənət maraqlarına cavab verən bir təşəbbüs idi. Çünki Xan Əhmədin oğlan övladı yox idi və onun qızının Səfi Mirzə ilə ailə quracağı təqdirdə Xan Əhməddən sonra Gilan hakimliyi qanuni olaraq Səfi Mirzəyə keçəcəkdi. Bununla Gilanın Səfəvi sarayına bağlılığına yaranmış nigarançılqılar da aradan qalxmış olacaqdı. Amma belə bir güman da var ki, Xoca Məsih bu elçiliyin və evlənmənin baş tutmayacğına əmin idi. Çünki Xan Əhməd ahıl yaşında qısmətini çıxmış yeganə övladının yanından uzaqlaşmasına razı olmayacaqdı. Bu isə Şah Abbasın qəzəbinə və nəticədə Gilan üzərinə qoşun çəkməsinə gətirib çıxaracaqdı. Xoca Məsih də əslində bunu istəyirdi və bu yolla o, Xan Əhməddən öz qisasını almaq istəyirdi. İstənilən halda bu təklif Şah Abbas tərəfindən müsbət qarşılandı. O da bu təklifi bibisi Zeynəb bəyimə çatdırdı. Zeynəb bəyim şah hərəmxanasının böyük xanmlarından idi. Xan Əhmədin qızına elçilik təklifinə Zeynəb bəyim də dərhal razılaşdı. Elçiliyin edilməsini isə Zeynəb bəyim hərəmxananın kənizlərindən birinə tapşırdı və onu bəzi hədiyyələrlə birlikdə Lahicana göndərdi. Şah sarayından elçi gəlməsi məsələsi Xan Əhmədə də çatdı. O bu elçiliyin baş tutmasını istəmirdi və ona görə də elçi kimi gələn kənizin Lahicana buraxılmaması haqqında göstəriş verdi. Bu göstərişə əsasən, Xan Əhməd məmurları Lahicana gəliş-gedişi nəzarət altına aldılar və şah hərəmxanasının kənizi Lahicana çatanda onu dayandırıb geri yola saldılar. Şah elçisinin geri qaytarılması Şah Abbasın böyük qəzəbinə səbəb oldu və elçiyə belə hörmətsizlik göstərildiyinə görə, Gilan üzərinə qoşun çəkilməsi haqqında düşünməyə başladı (129).

Şah Abbasın yaxın ətrafında onun bu qərarı ilə razılaşmayanlar da var idi. O cümlədən münəccim Molla Cəlal biləndə ki, Şah Abbasın Gilana qoşun çəkmək qərarı şah elçisinin hörmətsiz

şəkildə geri qaytarılması ilə bağlıdır, onda bu barədə öz münasibətini açıqladı. O, şaha dedi ki, şah ailəsinə elçilik etmək üçün müdrik və fazil bir insanın göndərilməsi daha yaxşı olardı. Əvəzində isə adi bir kəniz elçiliyə göndərilib. Şah Abbas bu fikirlə razılaşdı və nüfuzlu bir adamın elçiliyə göndərilməsini daha doğru saydı. Ona görə də Şah Abbas səltənətin nüfuzlu əmirlərindən olan və saraya yaxınlığı ilə seçilən Fərhad xan Qaramanlını bu elçilik üçün vəzifələndirdi. Bu elçiliyin də baş tutmayacağı təqdirdə Şah Abbas Gilan vilayəti üzərinə qoşun çıxaracağını bəyan etdi. Fərhad xan da şah tapşırığının icrası üçün hazırlıqlara başladı. O cümlədən, Fərhad xan xeyli sayda qiymətli hədiyyələr topladı. Amma elə bu arada özbək qoşunlarının yenidən Xorasan üzərinə hücum etmələri haqqında məlumat alındı. Şah Abbas Fərhad xanı Xorasan istiqamətinə göndəriləcək qoşunlara rəhbər təyin etdi. Xan Əhmədin qızının elçiliyi isə münəccim Molla Cəlala (Molla Cəlaləddin Məhəmməd Yəzdi) həvalə edildi. O da öz növbəsində çoxlu sayda qiymətli hədiyyələr hazırladı və bir müddətdən sonra 20 nəfər tüfüəngçinin müşayiəti ilə Lahicana tərəf istiqamət götürdü. Bu şəhər yaxınlığındakı Şahrud çayına çatanda Xan Əhmədin adamları Molla Cəlalın yanındakı tüfəngçiləri dayandırdılar və onların Lahicana daxil olmasına icazə vermədilər. Molla Cəlal yanındakı üç nəfər xidmətçisi ilə Xan Əhmədin görüşünə yollandı. Xan Əhməd onu görəndə soruşdu ki, Molla Cəlal məni aldatmağa gəlib, yoxsa mənim qoşunlarımı? Molla Cəlal da cavab verdi ki, onun xeyirxahlığı üçün gəlmişdir. Molla Cəlal bir neçə gün Lahicanda qalmalı oldu. Onun elçiliklə bağlı dedikləri Xan Əhməd xoşuna gəlmədi və bu elçilik məsələsi ətrafında onların söhbətləri xeyli uzandı. Nəhayətdə Xan Əhməd kiçik yaşlı qızının Səfi Mirzəyə verilməsinə razı oldu. Bununla bağlı, o hətta yazılı razılıq da verdi. Molla Cəlal da həmin razılıq kağızını Şah Abbasa çatdırdı (130).

Amma sonrakı hadisələr göstərdi ki, Xan Əhməd bu qərarında heç də səmimi deyildi. Əks təqdirdə, Xan Əhməd mərkəzi hakimiyyətdən qopmaq üçün öz səylərini gücləndirməzdi. Şah Ab-

basda əksinə, belə bir ümid yarandı ki, şah sarayı ilə Xan Əhməd arasındakı xoş münasibətlər yaranmaqdadır. Elə bunun üçün idi ki, elçilik məsələsindən az sonra Şah Abbas özünün Mürşüdqulu xan Qocili adlı əmirini Xan Əhmədin yanına göndərdi. Məqsəd də bu idi ki, şah sarayından üz döndərərək Gilana qaçan və Xan Əhmədin yanında sığınacaq tapan bəzi qızılbaş əmirlərini təhvil alıb Qəzvinə gətirsin. Bu məsələ Şah Abbası narahat edən məsələlərdən biri idi. Hakimiyyətinin möhkəmləndirilməsi üçün Şah Abbas məlumdur ki, iddialı və inadkar qızılbaş əmirlərini aradan götürməyə başladı. Cavan olmasına baxmayaraq Şah Abbas hakimiyyətin möhkəmləndirilməsi üçün qətiyyətli addımlar atmalı olduğunu yaxşı başa düşürdü. Ona görə bu istiqamətdə əməli addımlar da atırdı. Səltənət vəkili olan Mürşüdqulu xanın qətlə yetirilməsindən sonra inadkar əmirlərin bir çoxu təhlükə içində olduqlarını anladılar. Belə əmirlərdən bir neçəsi Gilana qaçaraq Xan Əhmədə sığındı. Bu xəbər Şah Abbas tərəfindən müəyyən təşvişlə qarşılandı. Çünki Gilana qaçan qızılbaş əmirləri Şah Abbasa asilik edən əmirlər idilər və Xan Əhmədin də onları himayə etməsi heç də Şah Abbası razı salmırdı. Bu əmirlərin arasında Məhəmməd Şərif xan Çavuşlu, Mürşüdqulu sultan Şamlı, Sultan Mahmud xan, Salman xan kimi nüfuzlu və güclü əmirlər var idi. Bu əmirlərin Xan Əhməd tərəfindən müdafiə olunması Şah Abbasın Xan Əhmədə olan münasibətinə də bir kölgə gətirirdi. Şah Sarayına müxalif olan qüvvələrin Gilana toplanması və burada onların himayə altına alınması bu vilayətin mərkəzi hakimiyyətə qarşı müxalifətçilik mərkəzinə çevrilməsi anlamına gəlirdi. Sonradan Salman xan Gilandan geri qayıtdı və Şah Abbas tərəfindən bağışlandı. Onun bağışlanması Xan Əhməddə geri qaytarılacaq digər əmirlərin də bağışlanacağına bir ümid yaratdı. Ona görə o, Şah Abbasa xəbər göndərərək onun yanında olan əmirlərin günahlarının bağışlanacağı təqdirdə geri qaytarılmasına razı olduğunu bildirdi. Gilana qaçan qızılbaş əmirlərinin geri gətirilməsi məsələsi hələ özbək qoşunlarının Xorasan üzərinə hücumundan əvvəl qalxmışdı. Bu hücuma görə həmin məsələni də təxirə salmaq ehtiyacı ortaya

çıxdı. Xan Əhmədin qızına elçilik məsələsi həll olunduğu günlərdə Şah Abbas öz nümayəndəsini Gilana göndərdi ki, həmin əmirləri geri gətirsin. Mürşüdqulu xan Qociliyə tapşırılmışdı ki, Xan Əhmədin qaçqın əmirləri geri qaytarmayacağı təqdirdə Lahicanda dayansın və şahın növbəti fərmanını gözləsin. Amma Xan Əhməd həmin əmirlərlə bağlı elə də ciddi bir direniş göstərmədi. Şah Abbasdan həmin əmirlərin bağışlanacağı xəbərini alandan sonra Xan Əhməd qaçqın əmirlərin hamısını təhvil verdi. Qəzvin şəhərinə yaxınlaşanda təhvil alınan qızılbaş əmirlərinin hamısı qətlə yetirildilər. Onların cəsədləri dəvələrə yükləndi və şəhər daxilində gəzdirildi. Bu əmirlərin verilən vədin əksinə olaraq qətlə yetirilməsi isə Xan Əhmədde Şah Abbasa qarşı inamı və etibarı bir qədər də azaltdı və onlar arasındakı münasibətlərin daha da mürəkkəbləşməsinə əlavə bir təkan oldu (131).

Şah Abbasla Xan Əhməd münasibətlərini mürəkkəbləşdirən məsələlərdən biri də yuxarıda deyildiyi kimi, Xan Əhmədin Osmanlı sarayına sığınmağa çalışması idi. Şah Abbas dinc yollarla Gilan itaətsizliyini aradan qaldırmağa və Xan Əhmədlə münasibətləri normal bir hala salmağa çalışdığı halda Xan Əhmədin Osmanlı sarayı ilə münasibətlər qurmağa çalışması və bunun üçün əməli addımlar atması səltənət maraqlarına heç bir vəchlə uyğun gəlmirdi. Mənbə məlumatları da Xan Əhmədin Osmanlı sarayı ilə münasibətlər qurmağa çalışmasını Gilan üzərinə Səfəvi qoşunları çıxarılmasının səbəblərindən biri kimi ortaya qoyurdu. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərində bu məsələyə belə bir münasibət bildirilmişdi: “Xan Əhməd ... sədaqət yolundan dönmüş və vəkili Xacə Hüsaməddini Şirvan yoluyla İstanbula - Rum xandgarının yanına yollamış və ona ərz etmişdi: "Gilan vilayəti (Gilan!) mənim irsi mülkümdür. Mən onu açıq ürəklə ale-Osman dudmanına peşkəş verirəm. Sultan əgər rumiyyə əsgərlərini dərya yoluyla Lahicana yollarsa, Lahican qalasını onlara təslim edərəm. Oradansa Qəzvinə qısa bir məsafə vardır və İraqın fəthi asanlıqla baş verəcəkdir". Bu xəbər hümayun şaha çatdıqda onun təəccübünə səbəb oldu. Şah məclislərinin iştirakçılarından bir nəfər hümayun

şahın işarəsi ilə Xan Əhməd xana belə dedi: "Əgər o, səhv və xətasını boynuna alıb, etdiyi hərəkətdən əl çəkərək, deyərsə ki, şahanə heysiyyətin qorxusu və şahın mənə iltifatsızlığına görə belə bir xəta məndən üz vermişdir, əfv oluna bilər". Xan Əhməd xan isə düzgün yol tutmaqdan sərf-nəzər edib həmin sözdən boyun qaçırmış və belə demişdi: "Xacə Hüsaməddin Məkkeyi-müəzziməyə getməyi məndən xahiş etmişdi, mən onu Ruma göndərməmişdim və bundan heç xəbərim də yoxdur". Amma, rumiyyə ilə sülh müqaviləsinin bağlandığı bu günlərdə etibarlı bir şəxs İstanbuldan gələrək Xacə Hüsaməddinin səfərinin səbəbi və onun Xan Əhməddən apardığı məktub barədə olduğu kimi məlumat verdi. Şah belə bir haramzadəlikdən olduqca incidi və onun qəzəb alovu elə şöləlndi ki, həmin alov Xan Əhməd sülaləsinin qırılmasından başqa heç nə ilə söndürə bilməzdi. Bir daha aydın oldu ki, o dudmanın üzvləri şahla hiyləgərlik və yalançılıq yolu ilə davranmaqdadır, buna görə də, daha xanın tənbeh olunub cəzalandırılmasından çəkilmək olmaz. Əlahəzrət zilləllah şah xana qulaqburma verməyi vacib bilərək, məmləkət sərhədinin daxili düşməndən (dosmənhaye-xanəgi) qorunmasının əhəmiyyətli və əsas bir iş olduğunu anladı” (132).

Xan Əhməd xanın Səfəvi sarayına qarşı asilik etməsi və İstanbulda özünə himayə axtarması Osmanlı sarayının razılığına səbəb olmuşdu. Mövcud olan məlumatlardan belə bir qənaətə gəlmək mümkündür ki, Osmanlı sultanı Xan Əhmədin məktubunu məmnunluqla qarşıladı və ona cavab da yazdı. Bu məktub Xan Əhmədin Osmanlı sarayına sığınmaq və Biyəpəsin Osmanlı sarayına güzəştə getmək təklifinə cavab olaraq yazılmışdı. Xan Əhmədin Osmanlı sarayından gözləntisi isə o idi ki, Biyəpişin ağsaqqallığı ona həvalə edilsin. Osmanlı sultanı Xan Əhmədə göndərdiyi məktubunda bildirirdi ki, Biyəpəsin hədiyyə edilməsini qəbul edib və onun tərəfindən əmirül-ümərа Əhməd paşa artıq Biyəpəsin valisi vəzifəsinə təyin edilibdir. Sultanın yazdığına görə, Şirvanın Osmanlı valisinə göstəriş verilmişdi ki, 500-600 nəfər tüfəngçi yeniçərini Biyəpəsin nəzarət altına alınması üçün göndərsin. Lazım

olardısa, sonradan yenə də Biyəpəsə yeniçərilər göndərilə bilərdi. Osmanlı sultanı eyni zamanda Xan Əhmədi Şah Abbasdan himayə edəcəyini də boynuna götürürdü. Məktubunda o yazırdı ki, Xan Əhməd davamlı olaraq Şah Abbasın hərəkətlərini nəzarət altında saxlasın və onun Gilan tərəfə qoşun çəkməsi müşahidə olunanda Osmanlı sarayına məlumat göndərilsin. Osmanlı sultanı vəd edirdi ki, bu halda dərhal bölgəyə Osmanlı qoşunlarını göndərəcək və Şah Abbası cəzalandırmaqla Gilanı da Səfəvi nəzarətindən çıxaracaqdır (133).

Xan Əhmədin Osmanlı sarayı ilə ciddi münasibətlər yaratması barəsində Şah Abbas Şirvanda olarkən yerli adamların və şahidlərin dilindən də eşitmişdi. Mənbələrdə olan məlumata görə, 1591-ci ildə Şah Abbas balıq tutmaq üçün Salyan yaxınlığında Kür çayı kənarına gəlmişdi. Bu səfərdə onu Fərhad xan Qaramanlı da müşayiət edirdi. Şah Abbas sadə paltar geyindiyindən onu yerli adamlar tanıya bilməmişdilər. Əynində bahalı paltar olan Fərhad xan yerli adamların diqqətini cəlb etmiş və onu qonaq dəvət etmişdilər. Şah da onunla birlikdə bu qonaqlığa dəvət olunmuşdu. Sonradan Şah Abbas da yerli adamlar tərəfindən tanınmış və ona uyğun ehtiram göstərilmişdi. Şirvan hüdudlarında olarkən Şah Abbasa məlumat çatmışdı ki, Xan Əhmədin vəziri Xoca Hüsaməddin Ləngərudi Şirvandan keçməklə Osmanlı sarayına yollanmışdı. Xoca Hüsaməddin Gilandan Şirvana Xəzər dənizindən keçməklə gəlib çıxmışdı. Şirvanda olarkən Xoca Hüsaməddin bildirmişdi ki, Osmanlı sarayına getməkdə məqsədi Gilanın Səfəvi dövlətindən qoparılması üçün Osmanlı qoşunlarının gətirilməsinə nail olmaqdır. Onun gümanında Gilana gəlmiş olan Osmanlı qoşunu Lahicandan keçməklə Qəzvin üzərinə də hücum edə bilərdi. Ümid edilirdi ki, bu zaman Təbrizdə olan Osmanlı qoşunları da qərbdən Qəzvin üzərinə hərəkət edə bilərdi. Bununla da Səfəvi dövlətinin mövcudluğuna son qoymaq olardı. Xoca Hüsaməddinin söylədiyinə görə, Xan Əhməd Gilana gələ biləcək Osmanlı qoşunlarının bir illik azuqə təminatını da öz üzərinə götürmüşdü (134).

Eşitdikləri və müşahidə etdikləri Şah Abbasda belə bir əminlik yaratdı ki, Xan Əhmədin Osmanlı sarayı ilə birləşmək istəməsinə artıq şübhə yeri yoxdur. Doğrudur, Osmanlı sarayının belə bir planın icrasına əl atması 1590-cı ildə əldə edilmiş Osmanlı-Səfəvi sülh anlaşmasının pozulması demək idi. Bununla belə, Şah Abbasda elə bir əminlik də yox idi ki, Osmanlı sarayı həmin anlaşmaya sadiq qalacaqdır. Şirvandan keçməklə Gilana Osmanlı qoşununun çıxarılması isə Səfəvi dövləti üçün yeni və ciddi bir təhlükənin də meydana gəlməsi demək idi. Xan Əhməd tərəfindən Osmanlı sarayına təklif edilən planın icrasına başlanması isə Qəzvin şəhərinin də təhlükə altında qalması demək idi. Yəni Şah Abbasda artıq şübhə yeri qalmırdı ki, Gilan məsələsinin həlli üçün bu vilayətə qoşun çıxarılmalıdır və bu məsələ hərbi yolla həll edilməlidir.

Şah Abbas Şirvanda eşitdiklərindən sonra dərhal Qəzvinə qayıtdı və Xan Əhmədin üzərinə qoşun göndərilməsi barəsində fərman verdi. Bu fərmana əsasən Gilan istiqamətinə bir neçə böyük qoşun dəstəsi göndərildi. Şah fərmanı ilə nəzərdə tutulmuşdu ki, Fərhad xan Qaramanlının rəhbərliyi altında olan qoşun dəstəsi Ərdəbildən, onun qardaşı Zülfüqar xanın rəhbərliyi altında olan Azərbaycan və talış qoşun dəstəsi Qızılağac yolu ilə Gilana doğru hərəkət etməli idilər. Bundan əlavə, Şah Abbasın əmri ilə Kəsgər hakimi Siyavuş xan və Gilanın Biyəpəs hissəsinin hakimi Əli xan da öz qoşun dəstələri ilə Fərhad xanla Zülfüqar xana kömək etməli idilər. Nəhayət, Qəzvin hakimi Cəmşid bəy də Deyləman yolu ilə hərəkət edərək Gilan üzərinə irəliləyən qoşunlara qoşulmalı idilər (135).

Qoşun dəstəsi göndərməklə bərabər, Şah Abbas Gilan itaətsizliyinin dinc yolla aradan qaldırılması üçün daha bir cəhd də göstərdi. O, Fərhad xan vasitəsilə Xan Əhmədə yeni bir məktub yolladı və onu tutduğu itaətsizlik yolundan çəkindirməyə çalışdı. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində bu hadisə belə təsvir edilmişdir: "Əlahəzrət zilləllah şah xana qulaqburma verməyi vacib bilərək, məmləkət sərhədinin daxili düşməndən (dosmənhayexanəgi) qorunmasının əhəmiyyətli və əsas bir iş olduğunu anladı.

Ərdəbildən Fərhad xanı və qardaşı Zülfüqar xanı Azərbaycan və Təvaleş ləşkərlərini Qızılağac yolu və dərya kənarı ilə xanın üstünə yolladı, Kəsgər hakimi Əmirə Səyavuşa, həmçinin Biyəpəs Gilanın hakimi Əlixana belə bir şah hökmü yolladı: "Qoy onlar Fərhad xan əsgərlərinə qoşulub [bu hücumda], onunla yoldaş və həmrah olsunlar". Hümayun ordu Qəzvin darüssəstənəsinə qayıdaraq, Qəzvin hakimi olan xasseyi-şərifə qulamı Cəmşid bəyi də bir dəstə adamla Deyləman yoluyla yola saldı. Xan Əhməd xandan baş vermiş bu qədər savabsız əməllərin hələ də şahın rəhm silləsi ilə islah olunması, onunla bu dudman arasında hələ də rabitənin qalması padşahın alicənablığına dəlalət edirdi. Müzəffər döyüşçülərin xan üzərinə yürüşünə izn verildiyindən, səltənətin adından Xan Əhmədin adına bu məzmunda bir məktub inayət olundu: "Ali şah himməti Xorasan işləri ilə məşğuldur və yəqin ki, bu iş o vilayətdə hələ iki-üç il davam edəcəkdir. Aramızda sərhəd qonşuluğu və qohumluq mövcud olduğu üçün bu dudmanın hüququ belə tələb edir ki, o cənab da bizə köməklik göstərsə, bizimlə razılaşsa, Qəzvində qalan mənim möhtərəm atam və bu dudmanın üzvləri ilə səmimiyyət və mehribanlıqla davransa, bizim ona qarşı etimadımız kamilləşər. Yox, əgər o rumiyyə düşmənləriylə razılıq yoluna düşsə və istəsə ki, bu vilayət onların əllərinə keçsin, bu halda biz ondan necə razı qala bilərik? Hər halda, sənin bu işlərinin xəbəri bizə yetişmiş və yaxın-uzaq yerlərə gedib çatmışdır. Münasibdir ki, indi sən öz sədaqətinin sübutundan və şahanə mürüvvətə yetməkdən ötrü bizim əlimizi öpməklə sərəfraz olasan. Sizin bu dudmanla yenidən razılaşmağınızın sədası qoy gedib rumilərə çatsın. Əgər xan indi yanımıza gəlmək istəməzsə, qarşıda Xorasana hücum məsələsi durduğundan, qoy anasının bizim sülaləyə mənsub olan fərzəndini Ruma getmiş Xacə Hüsaməddinin qardaşı ilə şəfa rəsmiylə  şahın xidmətinə göndərsin və biz ona hörmətlə yanaşıb təqsirini bağışlayaq, onlara şahanə iltifat göstərərək geri qaytaraq. O cənabın (Xan Əhmədin – red.) yanımıza gəlişi isə qoy bizim Xorasan səfərindən geriyə dönməyimizə qalsın” (136).

Məktubdan göründüyü kimi, Xorasana yollanmaq planı hələ də ortadan qalxmamışdı. Belə bir vaxtda o, bir daha Xan Əhmədə üz tuturdu ki, itaət yoluna qayıtsın, Xorasana səfər edəcəyi təqdirdə Xan Əhməd Qəzvində qalmış Şah Məhəmməd Xudabəndəylə əlaqədə olsun. Özünün Xan Əhmədlə görüşünü isə Şah Abbas Xorasan səfərindən sonraya saxlamaq istəyirdi. Xan Əhmədin Osmanlı sarayına qoşulmaq yolundan əl çəkəcəyi təqdirdə Şah Abbas onu və onun əmirlərini bağışlamağa hazır olduğunu bildirirdi.

Gilana hücum qabağı Xan Əhmədə göndərdiyi məktubunda Şah Abbas imam nəslinə və seyidliyə mənsubluğuna toxunmaqla bildirirdi ki, heç bir vaxt ağılsızların və nadanların sözləri ilə hərəkət etməmiş və yalnız insaf və ədalət yolu ilə öz işlərini qurmağa çalışmışdı. Şah Abbas xatırladırdı ki, uzun müddət həbsdə olan Xan Əhmədi onun atası Şah Məhəmməd Xudabəndə məhbəsdən xilas etmiş və sonra da bacısını (Şah Abbasın bibisini) ona verməklə Gilanın Biyəpiş hakimliyinə də gətirmişdi. Özünün şahlıq taxtına çıxmasından sonra da Şah Abbas Xan Əhmədə və onun xanədanına yalnız şəfqət və qayğı ilə yanaşmışdı. Xan Əhmədin qızının Şah Abbasın oğluna istənilməsini də Şah Abbas ona olan hörmətin və qayğının bir əlaməti kimi dəyərləndirirdi. Bütün bunların qarşısında Xan Əhmədin itaətsizlik yolunu tutmasını və səltənət maraqları ilə uzlaşmayan addımlar atmasını Şah Abbas təəccüblə qarşılayırdı. Şah Abbas onun belə hərəkətlər etməsini qəbul etmirdi və həmin hərəkətlərə qarşı dözümlü yanaşdığına da məktubunda işarə edirdi. O, bildirmək istəyirdi ki, Gilana qoşun göndərməsi məcburiyyət üzündən olmuşdur və onun artıq başa bir çıxış yolu qalmamışdı. Məktubda deyilirdi ki, Gilandakı bir çox nadan və ağılsız insanların təhrikləri və əməlləri bu bölgəyə qoşun çıxarmasına gətirmişdi. Şah Abbas Gilan istiqamətində Fərhad xanın rəhbərliyi altında qoşun dəstəsi göndərdiyini bildirirdi. Amma onu da yazırdı ki, Xan Əhmədin tutduğu yoldan dönəcəyi və şah hakimiyyətinə itaət yolunu tutacağı təqdirdə qoşunlar ona toxunmayacaqdır. Sözünün doğru olmasının sübutu üçün Şah Abbas and da içirdi. O, müqəddəs imamların ruhuna, cənnətməkan şah

babasının (Şah Təhmasibin) və vaxtsız dünyasını dəyişmiş qardaşının (Həmzə Mirzənin) ruhuna and içərək yazırdı ki, Xan Əhməd sədaqət yoluna qayıdaraq şah hakimiyyətinə öz itaətini bildirsə, onun qızının şah sarayına gətirilməsindən başqa heç bir ziyanla qarşılaşmayacaqdır, onun hörmət və nüfuzuna zərbə vurulmayacaqdır və ona göstərilən qayğı azalmayacaqdır. Şah Abbas vəd verirdi ki, Xan Əhməd əvvəllər olduğu kimi Biyəpişin hakimi olacaqdır. O bir daha bəyan edirdi ki, məqsədi heç də Xan Əhmədə əziyyət vermək və onu Gilan hakimliyindən uzaqlaşdırmaq deyil, ona nəsihət verməkdir (137).

Şah Abbasın Gilan itaətsizliyini dinc yolla aradan qaldırmaq üçün göstərdiyi son cəhd də bir nəticə vermədi. Fərhad xan rəhbərlik etdiyi qoşun dəstəsi ilə bölgəyə yetişəndən sonra Şah Abbasın məktubunu Xan Əhmədə göndərdi. Fərhad xan öz qoşun dəstəsi ilə Kəsgərə yetişəndə Səyavuş xan öz qoşun dəstəsi ilə gəlib ona qoşuldu. Fumənə çatanda isə Biyəpəs hakimi Əli xan və onun qoşun dəstəsi şah qoşunlarına yetişdi. Digər qoşun dəstələri də gəlib yetişdikdən sonra Fərhad xan Lahicana doğru hərəkətini davam etdirdi: “Fərhad xan Astara və Təvaleşdən keçdi Kəsgərdə Əmirə Səyavuş və Füməndə Əlixan, habelə o vilayətin başqa adamları gəlib ona qoşuldular. Fərhad xan Xan Əhmədin adına yazılan mərhəmət ayinli məktubu ona göndərdi. Söz qulağı bağlı olan Xan Əhməd yazılan sözləri razılıq qulağı ilə dinləmədi. O, elə qorxu və təşvişə düşmüşdü ki, nə gəlmək üzü, nə də getmək fikri qalmışdı. Əhali arasında belə söz gəzirdi: Xan Əhməd nücum elmini yaxşı bildiyi üçün öz tale zicinə baxdı. Zicdə ona göstərildi ki, bu il onun məmləkəti başqalarına veriləcək və onu irsi mülkündən qovacaqlar. Buna görə də xan gərək gəmiyə oturub Şirvana, oradan da Rum xandgarının yanına getsin. Gilan əhalisi əlahəzrət zilləllah şahı qəlbən elə istəyirdi ki, Xan Əhməd ürəyindəki istəyini heç cür həyata keçirə bilməzdi. O, Gilan əmirlərinin onun xondgarın yanına gedəcəyi xəbərini şaha xəbər verəcəyindən qorxurdu. Buna görə də, hərb etmək və qoşun çəkmək qərarına gəldi və ordu yaratmağa başladı. Cik sülaləsindən və Gilanın böyük

əmirlərindən olan əmir Abbas Ləştə Nişayini, Deyləman sipəhsaları Kiya Rüstəmin oğlu Kiya Cəlaləddin Məhəmmədi və Lahican sipəhsaları Talişə Kulini ləşkər sərdar[ları] edib, iyirmi min nəfərlik süvari və piyadalardan ibarət bir ordu ilə güclü əsgərlərin (qızılbaş ordusunun - Ş.F) qarşısına yolladı. Hər iki tərəf Sefidrud çayı kənarına gələrək bir-birinin qarşısına səf bəzədi. Xan Əhməd qoşunları yola saldıqdan sonra, əli çatan gümüş, cəvahirat, xəzinə malları, qızıl və gümüş alətləri toplayıbLəngəruda və Rudsərə tərəf göndərdi ki, gəmiyə əyləşib fərara hazır vəziyyətdə olsun. Hərəmxana qadınlarını Gilanın mötəbər əmirlərindən və hərəmxananın başçısı (dərgahsalan) olan Kiya Fəriduna tapşırıb, onları Lahicandan kənara göndərdi. Özü isə hələlik qeyb pərdəsinin nə təhər açılacağı və buranı tərk edəcəyi günü gözləməyə başladı" (138).

Bu yazılanlardan belə aydın olur ki, Xan Əhməd ciddi sınaqlarla qarşılaçşağını duymuşdu və gəmi ilə Şirvandan keçməklə Osmanlı dövlətinə qaçmaq istəyirdi. Lakin yerli əhalinin şahpərəst mövqeyi onu bu planın icrasından məhrum etmişdi. Şah qoşunlarının Gilan üzərinə hücuma başladığı günlərdə Sefidrid çayına sel gəlmişdi. Ona görə qoşunların bu çayı adlaması xeyli çətinləşmişdi. Belə olanda Fərhad xan bir neçə gün bu çayın kənarında düşərgə saldı və çayı adlamaq üçün münasib yerlərin axtarılmasına başladı. Bu məsələ ilə bağlı yerli adamlarla məsləhətləşmə apardı və nəhayət məlum oldu ki, Kuçsəfan adlı məntəqənin yuxarısındakı yerdə çayı adlamaq daha münasibdir. Şah qoşunları Sefidrud çayı adladıqdan sonra Xan Əhmədin qoşun dəstəsi irəli atıldı və tərəflər arasında döyüş qızışdı: "Padşahın xüsusi (xasse) tüfəngçilərinin tüfənglərindən çıxan tüstüdən cəngəllik və meşələr görünməz oldu. Hərbə başladıqdan az sonra Gilan əmirlərinin əlləri qızılbaşların qüvvət və qüdrətini, həmçinin tüfəngçilərin çoxluğunu, özlərininsə zəif və süst vəziyyətdə olduqlarını müşahidə edərək, hərbdən soyudu. Ordu sərdarı və öz qoşununun başçısı olan Əmir Abbas qaçdı, hərbdə inadkarlıq etməyib Talişə Kuli və başqaları məğlub olaraq əzildilər" (139).

Çoxsaylı və daha yaxşı təchiz olunmuş şah qoşunlarının qarşısında Xan Əhmədin qoşun dəstəsi duruş gətirə bilmədi. Bu dəstənin geri çəkilməsi Xan Əhmədin də vəziyyətini xeyli çətinləşdirdi. Belə bir şəraitdə onun Osmanlı dövlətinin köməyinə arxalanmaq imkanı olmadığı kimi, əlavə qoşun toplanmasına da vaxt yox idi. Ona görə də onun qaçmaqdan başqa çarəsi qalmadı. Belə bir nəticənin ortaya çıxacağı, əslində, elə əvvəldən də gözlənilən idi. Xan Əhməd geniş planda Osmanlı qüvvələrinin köməyinə, daha dar planda isə Gilan vilayətinin coğrafi çətinliklərinə arxalansa da, ona heç bir kömək çatmadı. Xan Əhməd ata minərək dəniz kənarına yollandı ki, oradan gəmi ilə Şirvana doğru hərəkətə başlasın. Əvvəlcədən də Xan Əhməd özünün qiymətli əşyalarını artıq dəniz kənarına göndərmişdi. Yaxınlarından olan Kiya Fəriduna isə tapşırdı ki, onun xanımını və qızını dərya kənarına gətirsin. Kiya Fəridun isə onun bu tapşırığını yerinə yetirmədi. Güman olunur ki, bununla Kiya Fəridun da Xan Əhməddən öz qisasını alırdı. Kiya Fəridun əvvəllər Lahicanın sipəhsaları idi və sonradan Xan Əhməd tərəfindən bu vəzifədən kənarlaşdırılmışdı. Əlinə düşən fürsətdən istifadə edərək Kiya Fəridun ona verilən tapşırığı qəsdən icra etmədi və bununla Xan Əhməddən öz qisasını almış oldu. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi İsgəndər bəy Münşinin fikrincə isə, Kiya Fəridun bu qərarı ilə Şah Təhmasibin qızının (Xan Əhmədin xanımının) və nəvəsinin yad məmləkətə getməsini rəva bilmədi və ona görə də onları gətirib Şah Abbasa təhvil verdi. Mənbələrdə olan məlumata görə, Kiya Fəridun hətta Xan Əhmədin də qaçmasının qarşısını almaq niyyətinə düşmüşdü. Amma qardaşı oğlu buna imkan vermədi (140).

Həmin gün Şah Abbas özü də Gilana yollandı. Görünür, Şah Abbas Gilan məsələsini birdəfəlik həll etmək və bu vilayətin mərkəzi hakimiyyətə bağlılığını möhkəmləndirmək üçün özü də bölgəyə gəlməyi lazım bildi. Şah Abbas Deyləmən yolu ilə Lahicana tərəf hərəkətə başladı. O, Deyləməndə olarkən Kiya Fəridun da Xan Əhmədin xanımı Məryəm bəyimi və onun qızını Şah Abbasa təqdim etdi. Xan Əhməd özü isə dərya kənarında xanımının və

qızının gəlməsini xeyli gözləməli oldu. Onlardan bir xəbər olmayanda Şirvan hüdudlarına doğru hərəkətə başladı. Bir məlumata görə isə, Xan Əhməd xanımının və yeganə övladı olan qızının Şah Abbasa təhvil verilməsi xəbərini eşitdi. Yalnız bundan sonra yaxın ətrafının bir dəstəsi ilə gəmiyə minib oradan uzaqlaşmalı oldu. Şah Abbas isə onun ciddi narahatçılğına səbəb olan Gilan itaətsizliyini də aradan qaldırmağa müvəffəq oldu. Onun bu uğuru sözsüz ki, mərkəzi hakimiyyətin daha da möhkəmlənməsinə yol açdı. Bununla belə, Gilanın əmir və əyanlarının, sakinlərinin rəğbətini mərkəzi hakimiyyətə qarşı daha da gücləndirmək üçün onlara qarşı lütfkarlıq və səxavət göstərdi, onlarla xoş davrandı: "Xan Əhmədin getməyi və hümayun ordunun gəlməyini eşidən Gilan əmirlərinin hamısı şahın yanına yollandılar və Lahicanda onun ayağını öpməklə şərəfləndilər. Əlahəzrət şah gilanlıların ürəklərini ələ almaq üçün Gilan əmirlərinə lütfkarlıqla nəzər saldı, onların hamısını özünün iltifat və ehsanına layiq gördü, qiymətli xələtlər verməklə onları şərəfraz etdi. O, həmçinin şahzadə [xanımı] gətirdiyinə görə Kiya Fəridunu öz diqqətinə layiq görməklə başqalarından uca tutdu. Hümayun xidmətə yararlı olan Gilan ləşkərinin bir dəstə əyanını siyahıya alıb onlar üçün yaxşı məvacib və mərsum (rusum, mükəlləfiyyət, vergi - Ş.F.) müəyyənləşdirdi, onları qalibiyyətli əsgərlər silkinə daxil etdi. Şahın bütün səfər və yasaqları müddətində sübhdən axşama kimi qızılbaşlarla birlikdə olan və yaşadıqları yerləri tərk etmək halında olmayan başqa yığma adamlar (mötəcənde və ləyam) canbaşla öz rəiyyətçilik etmələrində qaldılar. Zəfər ayəli ordu bir neçə gün Lahicanda dayandı, [şah] gilanlıların mətləb və iddialarını onların istəklərinə uyğun şəkildə həll etdi, seyidlərin, üləmaların, zahidlərin, məzarıstan müttəvəllilərinin hərbi qulluqdan azad olma sənədlərini (məafiyyat) imzaladı, Lahican ülkasını və Gilan əmirülüməralığını Mehdiqulu xan Şamlıya, Gilan vəzarətini Xacə Məsih Gilaniyə, Ləştə Nişa ülkasını Mir Abbasa, Lahıcan sərkərdəliyini (sepahsalari) Talişə Kuliyə, bütün Gilanın ağsaqqallığını sadiq, doğru danışan və xeyirxah adam olan Kiya Fəriduna, Deyləman ülkasını Kiya Cəla-

ləddin Məhəmmədə, Vərankuhu isə Buli Sultan Sufiyə verdi. Başqa mahallara[da] qızılbaş hakim və daruğələri təyin olunduqdan sonra, şah səltənət paytaxtına qayıtmaq əmrini verdi. Biyəpəs Gilanının hakimliyi ilə Əlixan sərəfraz oldu, illik (hame sale) peşkəş kimi min tümən pul verməyi qəbul etdi. Azərbaycana tabe olan və Kəskərə bitişən Xəlxal ülkası etdiyi xidmətə görə Əmirə Səyavuşa inayət olundu. Gilan işlərini tənzimlədikdən sonra Xorasan istiqamətinə yollandılar" (141).

Oruc bəy Bayat Gilan səfərindən şəxsən iştirak etmişdi. O öz xatirələrində çox müxtəsər şəkildə bu səfərə toxunmuşdur. Bununla belə, onun xatirələrində bir neçə maraqlı məqamla rastlaşmaq mümkündür. Oruc bəy hər şeydən əvvəl şah qəzəbindən qorxaraq Gilan hakiminə sığınmış qızılbaş hakimləri haqqında fərqli məlumat vermişdir. Onun yazdığına görə, Gilana qaçan qızılbaş əmirləri Məhəmməd Şərif xan, Sultan Mahmud və Əzim bəy idilər. Müəllifin fikrincə, Şah Abbas bu əmirləri geri tələb etsə də Xan Əhməd onları Qəzvin sarayına təhvil vermədi. Belə olanda Şah Abbas da 30 min nəfərlik bir qoşun dəstəsini toplayıb Gilana doğru hərəkətə başladı. Oruc bəy Bayat yazırdı ki, Gilan dağlıq və meşəlik bir ərazi idi və ona görə də bu ərazi ilə atlı qoşunların irəliləməsi mümkün deyildi. Ona görə də qoşunların əsasını piyadalar təşkil edirdi. Hətta Şah Abbas özü də piyada şəkildə qoşunların qarşısında irəliləyir və bununla qoşunları da irəliləməyə təşviqləndirirdi. Qoşunların piyada irəliləməli olacağına əvvəlcədən bir hazırlıq da görülmüşdü. Xüsusilə, qoşun əhlinə bir neçə dəst ayaq geyimi paylanmışdı. Bu ayaq geyimləri xüsusi mal dərisindən hazırlanmışdı. Belə ayaq geyimlərinin ən yaxşı nümunəsi isə çarıq adlanırdı. Şah qoşunları Qəzvindən Lahicana qədər on iki gün yol getməli oldular. Yol boyu Xan Əhməd qoşunlarının müqaviməit təşkil olunmuşdu. Bir tərəfdən böyük ağaclar kəsilərək hərəkət yolları üzərinə atılmışdı və bununla şah qoşunlarının hərəkətinə maneələr yaradılmışdı. Digər tərəfdən də qoşunların hərəkət marşrutu üzrə çoxlu pusqular qurulmuşdu. Şah qoşunları bu pusquları adlaya bilsələr də, itkilər də verməli oldular. Oruc bəy

Bayata görə, Şah Abbas qoşunların özünə yerləşdirdiyi avanqard dəstəyə Səfəvi sarayının baş qazısı Şeyx Əhməd rəhbərlik edirdi. Bu dəstənin döyüşçüləri başdan ayağa qırmızı geyinmişdilər. Dəstə Lahicana daxil olduqdan sonra orada kütləvi qırğın törədildi. Oruc bəyin iddiasına görə, bu şəhərdə 10 min adan qılıncdan keçirildi ki, onların arasında arvad və uşaqlar da var idi (142).

Xan Əhmədə gəlincə o, gəmi ilə Şirvana çıxdı və Şirvanın Osmanlı mühafizi Həsən paşanın yanına gəldi. Onun gəlişi barəsində Həsən paşa Osmanlı sarayına məktub göndərdi və haqqında hansı qərarın qəbul edilməsi ilə bağlı saraydan məsləhət istədi. Əhməd xan həm vilayət hakimi, həm də Səfəvi xanədanına qohum olması baxımından Osmanlı sarayı üçün maraq kəsb edirdi. Səfəvi dövlətinə qarşı gələcək mübarizədə ondan istifadə edilə bilərdi. Ona görə Osmanlı sarayı Xan Əhmədin Şirvan hüdudlarına gəlməsini məmnunluqla qarşıladı və Həsən paşaya göstəriş verildi ki, onu vilayət daxilində saxlasınlar və onun dolanışıq xərclərini vilayət xəzinəsindən ödəsinlər. Şah Abbas üçün isə Xan Əhmədin Şirvana qaçması ilə heç də onunla bağlı olan problemlər başa çatmadı. Səltənətin şərqində yaranmış olan təhdidlər aradan qalxmamış Xan Əhməd ətrafında məsələlərin qızışdırılması Osmanlı təhlükəsinin də alovlanmasına yol aça bilərdi. Gizli deyildi ki, Osmanlı sultanı da Xan Əhməd məsələsindən öz maraqları üçün yararlana bilərdi. Onun üçün idi ki, Osmanlı sarayı ilə yenidən yazışmalar başlandı. Bu yazışmalar ehtimal ediləcək təhlükənin qarşısının alınmasına hesablanmaqla bərabər, həm də Şah Abbasın dövlətçilik təfəkkürünün ifadəsi idi. Mövcud məlumatlara görə, Xan Əhmədin Gilanı tərk etməsindən sonra Osmanlı sultanı III Murad məktubla Şah Abbasa müraciət etdi və bu müraciətində o, Xan Əhmədin taleyinə toxundu. Osmanlı sultanına görə, Xan Əhməd seyid idi və ona görə də onunla mehribanlıqla davranılmalı idi. Osmanlı sultanı Şah Abbasa təklif edirdi ki, Xan Əhmədə nəvazişlə yanaşsın, onu yenidən öz vəzifəsinə bərpa etsin və o geri dönməklə öz ömrünü Vətənində başa vursun (143).

Şah Abbas bu məktubu cavabsız qoymadı və Osmanlı sultanına göndərdiyi məktubunda Gilan ətrafında baş verən hadisələrin mahiyyətini ona da çatdırdı. Həmin məktub Seydi bəy Eşikağası vasitəsilə Osmanlı sarayına göndərildi. Bu məktub həcmli bir məktub idi və Şərq yazışmaları ənənəsi üzərində qurulmuşdu. Məktubun mətni daxilində səkkiz dəfə nəzm parçası istifadə olunmuşdu. Məktubun əvvəlində Osmanlı sultanına təmtəraqlı sözlər və ləqəblərlə müraciət edilmiş və bununla ona qarşı dərin ehtiram ifadə olunmuşdur. Bu ifadələrlə Osmanlı sultanı şövkətli Firiduna, böyük Bəhrama, əzəmətli İsgəndərə və digər əfsanəvi qəhrəmanlara oxşadılmışdı. Məktubda istifadə olunmuş nəzm parçalarında da Osmanlı sultanının tərifinə yer verilmişdir. Öz fikrinin əsaslandırılması üçün Şah Abbas Quranın Əncil, Yusif və Təh surələrindəki ayələrə də istinad etmişdi. Məktubun giriş hissəsindən sonra Şah Abbas əsas mətləbə işarə etmiş və Xan Əhmədin öz vəzifəsinə bərpa edilməsi ilə bağlı Osmanlı sultanı tərəfindən qaldırılan məsələyə münasibətini ifadə etmişdi. Osmanlı sultanının bu xahişinə qarşı Şah Abbas öz fikir və mülahizələrini ortaya qoymuşdu. O bildirirdi ki, Səfəvi xanədanı hakimiyyət başına gəldiyi gündən, təxminən bir əsrlik bir müddətdə Gilan bu dövlətin tərkibində olmuşdu. Yəni Şah Abbas Gilanı Səfəvi səltənətinin tərkib hissəsi kimi təqdim edirdi. Sonra onu da yazırdı ki, babası Şah Təhmasib hakimiyyət başına gəldikdən sonra oranın hakimini həbs etmiş və Gilan hakimliyini qızılbaş əmirlərinə tapşırmışdı. Şah Abbas ona da işarə edirdi ki, Şah Təhmasibin dünyasını dəyişməsindən sonra Xan Əhməd Gilan hakimi təyin edildi və özünün şahlığı dövründə də onun vəzifəsinə toxunmadı. Sonra məktubda Şah Abbas tərəfindən göstərilən nəvazişlər qarşısında Xan Əhmədin itaət yolundan uzaqlaşmasına, özbaşına etdiyi hərəkətlər də toxunulmuşdu. Səfəvi şahı bildirirdi ki, Xan Əhmədin islah olunmayan əməlləri nəhayətdə onun tutduğu vəzifədən azad edilməsinə gətirib çıxardı. Vəziyyətin gərginləşdiyi anlarda Xan Əhməd məktubla Osmanlı sarayına müraciət etmiş və saraydan kömək istəmişdi. Şah Abbas da yazırdı ki, osmanlı sarayında Gilanla bağlı kifayət qədər məlu-

mat olmadığından Xan Əhmədə müəyyən köməklər vəd edildi. Hətta bundan sonra da Şah Abbas Xan Əhmədə qarşı nəvaziş və mehribanlıq göstərildiyini yazırdı (144).

Xan Əhmədin Osmanlı sarayı tərəfindən qarşılanmasına və qəbul edilməsinə isə Şah Abbas öz narazılığını ifadə edirdi. Belə bir münasibət əslində, 1590-cı ildə əldə edilmiş Osmanlı-Səfəvi sülh anlaşmasına da qeyri-ciddi yanaşılması demək idi. Bir tərəfdən ona görə ki, tərəflər sülh əldə edilməsi üçün razılığa gəlmişdilər və bu anlaşmada tərəflərin sərhədi də müəyyən edilmişdi. Əldə edilmiş anlaşmanın pozulmaması və onun etibarlılığına əminlik yaradılması üçün Şah Abbas hətta qardaşı oğlu Heydər Mirzənin də Osmanlı sarayına girov göndərilməsinə razı olmuşdu. Xan Əhmədin təhrikçiliyinə uyulması Səfəvi dövlətinə qarşı inamsız yanaşılması Səfəvi dövlətinin daxili işlərinə qarışılması demək idi. Digər tərəfdən sülh anlaşmasının əldə edilməsi ilə tərəflər belə bir qarşılıqlı razılaşmaya gəlmişdilər ki, mərkəzi hakimiyyətə qarşı itaətsizlik etməklə ölkəni tərk edib qarşı tərəfə sığınan yüksək vəzifəli məqamlar geri qaytarılsın. Bu razılaşmaya istinad etməklə Şah Abbas da Xan Əhmədin geri qaytarılmasını istəyirdi. Şah Abbas onu da əlavə edirdi ki, Xan Əhmədin Osmanlı sarayı və sultanı tərəfindən himayə və qayğı ilə qarşılanması məyusluğa səbəb olacaqdır.

Bununla belə, Şah Abbas Osmanlı sultanına qarşı nəzakət və hörmətlə yanaşdığını də ifadə etmişdi. O yazırdı ki, Osmanlı sultanının məktubu Gilan yürüşü başa çatandan və Xan Əhməd də vilayətdən didərgin salındıqdan sonra alınmışdır. Şah Abbasa görə, sultanın məktubu Gilan səfərindən əvvəl alınsaydı, onda bu vilayət üzərinə hərbi yürüş dayandırılardı və Osmanlı sultanının ehtiramı üçün onun istənilən xahişi nəzərə alınaraq yerinə yetirilərdi. Amma Şah Abbas onu da xahiş edirdi ki, Xan Əhmədin sözlərinə ciddi əhəmiyyət verməsin. Çünki onun nəzərində Xan Əhməd haqq yolundan azmış bir insan idi və danışdıqları da həqiqəti əks etdirmirdi. Şah Abbas əldə edilmiş sülh razılaşmasına məsuliyyətlə yanaşdığını bildirir və yazırdı ki, özünün xoş məramını çat-

dırmaq üçün eşikağası Seydi bəyi məktubla Osmanlı sultanının yanına göndərmişdir. O, Osmanlı sultanının da xoş məramı ilə qarşılaşacağına və Seydi bəy tərəfindən ondan xoş soraqlar gətiriləcəyinə inandığını bildiridi. Məktubun sonunda Şah Abbas yaxın vaxtlarda Xorasana doğru yürüşə başlayacağını və Səfəvi dövlətinə məxsus olan bu vilayətə hücum etmiş özbək qoşunlarına qarşı döyüşə qatılacağını bildirirdi. Şah Abbas belə uzunmüddətli və çətin yürüş zamanı Osmanlı sərhədində Osmanlı paşaları tərəfindən ikitərəfli sülhün pozulmasına səbəb olacaq əməllərə yol verilməyəcəyinə ümid etdiyini bildirirdi (145).

Şah Abbasın Osmanlı sultanına göndərdiyi bu məktub cavabsız qalmadı. Qısa müddətdən sonra Osmanlı sultanı da Xan Əhməd mövzusunda öz fikirlərini və mülahizələrini yazaraq Şah Abbasa göndərdi. Həmin məktub osmanlı dilində yazılmışdı və yalnız məktubun əvvəlində fars dilində bir beyt qeyd olunmuşdu. Məktub nəzakətli bir tərzdə yazılsa da, bu nəzakətin arxasında Sultan III Muradın qətiyyətini və istəyini də görmək mümkündür. Məktubun başlanğıcında Şah Abbasa ehtiramlı bir müraciət vardır. Osmanlı sultanı Seydi bəyin gətirdiyi məktubu da dərin məzmunlu və dostluq məktubu kimi dəyərləndirirdi. Sonra da Osmanlı sultanı Xan Əhmədlə bağlı Şah Abbasın yazdıqlarına öz münasibətini ifadə edirdi. O, Şah Abbas tərəfindən Gilan vilayətinin Səfəvi dövlətinin tərkib hissəsi olması və Xan Əhmədin dədə-babadan Səfəvi sarayına tabe olması haqqında dediklərini birmənalı şəkildə qəbul etmirdi. Osmanlı sultanı bəyan edirdi ki, iki dövlət arasında sülh anlaşmasının əldə edilməsindən hələ xeyli əvvəl Gilan xanları Osmanlı sarayı ilə yazışır və öz dostluğunu bildirirdilər. Gilan hakimlərinin yazdıqları məktubların Osmanlı sarayında məmnunluqla və xoşluqla qarşılandığı da III Muradın məktubunda öz əksini tapmışdı. Sultan Murad onu da əlavə edirdi ki, Gilan xanlarının Osmanlı sarayı ilə yazışmaları Səfəvi sarayı tərəfindən yaxşı qarşılanmırdı və bununla bağlı hətta Gilan xanlarından həyatları ilə vidalaşanlar da olmuşdu. Konkret olaraq Əmirə Dibac Müzəffər xan Osmanlı sarayı ilə əlaqədə günahlandırılaraq

Şah Təhmasib tərəfindən qətlə yetirilmişdi. Osmanlı sultanı sonra Şah Təhmasiblə Sultan Süleyman arasında əldə olunmuş sülh anlaşmasına da işarə edərək yazırdı ki, bu hökmdarların zamanında da Gilan hakimləri Osmanlı sarayı ilə xoş münasibətlərə malik idilər və bu hökmdarlar arasındakı sülh anlaşması heç də Gilan hakimlərinin Osmanlı sarayına məktub göndərməsini, onların elçilərinin Osmanlı sarayına gediş-gəlişinə son qoymadı. Ona görə Sultan III Murad məktubunda Xan Əhmədin Osmanlı sarayı ilə yaxın münasibətlərini qəbul etməməsini təəccüblə qarşılayırdı (146).

Osmanlı sultanı sonra yazırdı ki, elə həmin vaxtlardan bu günə qədər Gilan xanlarının Osmanlı sarayı ilə möhkəm bağlılığı olmuşdur. Bu mənada Xan Əhmədin Biyəpəsi Osmanlı sarayına hədiyyə etmək istəyi Osmanlı sultanı tərəfindən heç də təəccüblə qarşılanmırdı. Onun fikrincə, bu səxavət Xan Əhmədin Osmanlı sarayı ilə xoş münasibətlərinin və sədaqətinin ifadəsi idi. Sultan III Murad heç də yeni ərazi iddiasında olmadığını bildirirdi və heç də Biyəpəsin ələ keçirilməsində gözü yoxdur. Osmanlı sultanının fikrincə, hökmdarı olduğu ölkənin çox geniş əraziləri var idi. Ona görə də o, Biyəpəs kimi kiçik bir ərazini ələ keçirmək sövdasında deyildi. Buna görə idi ki,, Osmanlı sultanı əcdadlarının ənənəsini davam etdirərək yalnız məktub göndərməklə kifayətlənmişdi. Osmanlı sultanı eyni zamanda Şah Abbasın onun əyanlarını ittihamlandırması ilə də razılaşmırdı. Şah Abbasa görə Osmanlı sarayının əmir və əyanlarının Gilan vilayətinin Səfəvi dövlətinin tərkibində olmasından xəbərləri yox idi. Onlar Osmanlı sultanı adından Gilan vilayəti ilə bağlı yanlış məzmunlu bir məktubun Şah Abbasa göndərilməsinə rəvac vermişdilər. Osmanlı sultanı bir daha onun əcdadlarının Gilan hakimləri ilə xoş münasibətlərdə olmasını Şah Abbasa xatırladırdı. Əksinə, Osmanlı sultanı Şah Abbasın qəflətdə qaldığını qeyd edirdi. Onun sözlərinə görə, gərək Səfəvi sarayının əyanları və xidmətçiləri Gilan hakimlərinin xeyli vaxtdan bəri Osmanlı sarayı ilə yazışmalarından və xoş münasibətdə olmalarından xəbərdar olaydılar. Əks təqdirdə, Səfəvi mənsubları Osmanlı

sarayının mənsublarını Gilanla bağlı münasibətləri bilməməkdə ittihamlandırmağa cəsarət etməzdilər (147).

Şah Abbasa göndərdiyi məktubunda Osmanlı sultanı Xan Əhmədə qayğı göstərilməsini Gilan hakiminin seyidliyi ilə əlaqələndirirdi. Osmanlı sultanı yazırdı ki, seyid kimi Xan Əhmədə ehtiram və qayğı göstərilməsi əslində, peyğəmbər övladına qayğı göstərilməsi deməkdir. Onun fikrincə, peyğəmbər övladına ehtiram göstərilməsi həm də fərz və vacib idi. Ona görə belə bir əməlin tərəflər arasında əldə edilmiş sülh anlaşmasına ziddi olmasını Osmanlı sultanı doğru saymırdı. Digər tərəfdən də Xan Əhmədə Osmanlı hüdudlarında yer verilməsinin də sülh anlaşmasına zidd olması haqqında Şah Abbasın fikirlərinə qarşı Osmanlı sultanı öz fikirlərini qoyurdu. Osmanlı sultanı yazırdı ki, Gilan xanlarının Osmanlı hüdudlarına gəliş-gedişinin qədim bir tarixi vardır. Xan Əhmədin də Osmanlıya gəlişi onun əcdadlarının Osmanlı hüdudlarına gəlməsinin davamı kimi qəbul edilirdi və burada da sülh anlaşmasını pozacaq bir qəbahət görülmürdü (148).

Şah Abbas Osmanlı sultanına Osmanlı nəzarəti altında olan ərazilərə qaçmış Qaracadağ hakimi Şahverdi xanın da geri qaytarılması haqqında xahiş göndərmişdi. Osmanlı sultanı bu xahişə əməl etmədi və məktubunda bəyan etdi ki, Qaracadağ hakiminin Osmanlı nəzarəti altında olan ərazilərə gəlişi iki dövlət arasında sülh anlaşmasını imzalanmasından əvvəl baş vermişdir. Osmanlı himayəsinə sığımış keçmiş Qaracadağ hakiminin oğlan övladları da Osmanlı himayəsinə qəbul edilmiş və onlara Təbriz şəhərində vəzifə ayrılmışdı. Səfəvi qoşunlarının Xorasana hərbi yürüşü zamanı Osmanlı sərhədindən hərbi müdaxilələrin baş verməməsi xahişinə gəlincə isə Sultan III Murad bildirirdi ki, bu barədə artıq sərhəd komandanlarına əmr verilmişdir və onlar iki dövlət arasında dostluq münasibətlərinə xələl gətirəcək əməllərə əl atmayacaqlar. Sonra Osmanlı sultanı yazdığı məktubu Səfəvi elçisi ilə yola saldığını bəyan edirdi (149).

Osmanlı sultanı onun himayəsinə sığınmış Qaracadağ hakimi Şahverdi xanın və onun övladlarının geri qaytarılmasının müm-

künsüzlüyünü bildirdiyi halda “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi bu qızılbaş əmiri haqqında fərqli məlumata yer vermişdir. Bu əsərdəki məlumata görə, Qaracadağ hakimi Osmanlı hüdudlarına buraxılmadı və geri qaytarıldı. Onun geri qaytarılmasına səbəb də Osmanlı paşaları tərəfindən iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının pozulmasının qarşısının alınması istəyi idi. Adı çəkilən əsərdə Şahverdi xanın sonrakı taleyi belə təsvir edilmişdir: “Xan rumilərin ona köməklik göstərməmələrindən məyus olub ali hümayun çətirin kölgəsi altına sığınmaqdan özgə çarə tapa bilməyərək [şaha] peşmanlıq məktubu yolladı ki, məzmunu belədir: "Müzəffər ordunun gəlişi zamanı bu qulam şah qəzəbinin qorxusundan elə dəhşətə gəldi ki, hətta mülazimətə gələ bilmədi. Əgər, indi şahanə mürüvvət bu bəndənin günahları üzərindən əfv qələmi çəksə başımı ayaq edib ali dərgaha gələrəm". Şahın adından ona əfv olunması barədə bir iqbal məktub yazıldı və əlahəzrət onun günahını bağışladı, Şahverdi xan əyninə müqəddəs imam libası geyib Xorasanda müzəffər orduya gəldi. O, bir müddət müqəddəs orduda qaldı, amma hələ də başında özbaşınalıq havası olmasına və canında sədaqət olmamasına görə, ordu Bəstam çəmənliyində dayanarkən, özünün daxilindəki xəbisliyini biruzə çıxardı və əməllərinə görə vəzifədən çıxarılıb həsrət və nakamlıq içində gün keçirərək, türkman piyadası Şahqulu Sultan, Nədr xan Əfşar, o vaxtlar abrı-həyası olmayan Atilandilli İmamverdi xan kimi əmirlərlə [gizli] söhbətə başladı. Onlar vaxtlarının çoxunu birlikdə keçirir və düşmənçilik hisslərini özlərində saxlayırdılar. Onların söhbətlərindən agah olan sədaqətli adamların biri məsələdən şahı xəbardar etdi. Əmirlər bunu bilərək, köç zamanı ordudan geri qalıb fərar etdilər, arxada qaldılar. İmamverdi Atilandilli ələ keçib cəzalandırıldıqdan sonra öz günahını boynuna aldı və nicat tapdı. Amma, o biri səadətsiz üç əmir isə öz cəzalarına çataraq qətl olundular” (150).

Səfəvi şahı ilə Osmanlı sultanı arasında Xan Əhməd mövzusunda aparılan yazışmalar sonradan da davam etdi. Elmi-tarixi dövriyyədə olan növbəti məktub Şah Abbas tərəfindən Osmanlı

sultanına göndərilmişdi. Həmin məktub Səfəvi qoşunlarının Xorasan vilayəti üzərinə hücumunun başlanmasından sonra yazılmışdı. Bu məktub Şah Abbasın Osmanlı sultanına göndərdiyi məktublardan daha genişdir. Çox güman ki, Xorasan yürüşündə əldə etdiyi uğurlardan ruhlanan Şah Abbas belə uzun bir məktub yazmağa diqqət yetirmişdi. Məktubun əvvəlində Osmanlı sultanı uzun-uzadı vəsf olunurdu. Səfəvi şahı məktubu ünvanlandığı məqamın vəsfini daha orijinal bir şəkildə ifadə etmişdi. O, Osmanlı sultanını vəsf etdiyi hər ifadədən sonra bir nəzm parçasına yer vermişdi. Bütünlükdə məktubda on yeddi dəfə nəzm parçasından istifadə olunmuşdur. Onlardan birincisi Allahın vəsfinə həs olunmuş, digərləri isə əsasən Osmanlı sultanının vəsfi ilə bağlı idi.Bu mənada Şah Abbasın həmin məktubu informasiya hüdudlarını aşaraq bədii əsər təəssüratı bağışlamaqdadır (151).

Sultanın vəsfinə böyük yer ayırdıqdan sonra Şah Abbas Xorasana yürüş etməsi barəsində məlumat verirdi. O yazırdı ki, bir müddət Xorasana lazımi diqqət yetirilmədiyi üçün özbək qoşunları bu vilayət üzərinə hücum etmişlər. Xorasanı ələ keçirmək fürsətinin olduğunu görüncə Əbdülmömün xan atası Abdulla xandan böyük sayda qoşun alaraq bu vilayətin işğal edilməsi niyyətinə düşmüşdü. Şah Abbas da əvvəlki məktubunda Osmanlı sultanına bu işğalın aradan qaldırılması məqsədilə Xorasana yürüşə hazırlaşması barəsində məlumat vermişdi. Əbdülmömün xan Xorasan vilayətinə daxil olsa da, bu vilayətdə möhkəmlənə bilmədi Xüsusilə, biləndə ki, Səfəvi şahı Osmanlı sarayı ilə sülh anlaşması əldə edib, onda o özü də niyyətlərinin həyata keçəcəyinə şübhələnməyə başladı. Bütün bunlar haqqında Şah Abbas Osmanlı sultanına ünvanladığı məktubda da yazmışdı. Mövqelərinin zəif olduğu üçün idi ki, Əbdülmömün xan şah qoşunlarına elə də güclü müqavimət göstərmədi. Şah Abbas yazırdı ki, onun rəhbərliyi altında Səfəvi qoşunlarının Xorasan vilayətinə gəlməsi xəbərini eşidəndə Əbdülmömün xan təşvişə düşdü. Ona görə də özbək qoşunları müqavimət göstərmədən Xorasan vilayətinin əksər hissəsini tərk etdilər. Yalnız Herat və Məşhəd özbəklərin nəzarətində qaldı.

Özbək hakimləri Şah Abbasa məktub göndərdilər ki, bu şəhərlərin özbəklərin əlində qalmasına razı olsunlar. Şah Abbas bu şərtə razı oldu. Çünki onun fikrincə, qış yaxınlaşmaqda idi və həmin şəhərlərin mühasirəsi çətin hava şəraitində uzana bilərdi. Səfəvi qoşunlarının ərzaq ehtiyatları da tükənməkdə idi. Belə bir şəraitdə özbək qoşunlarına üstün gəlmək çox çətin olardı. Ona görə Şah Abbas özbəklərin təklifi ilə razılaşdı və geri çəkilmək haqqında əmr verdi. Özbəklər vəd etmişdilər ki, baharın gəlişi ilə onlar Məşhəd və Herat qalalarını tərk edərək öz yurdlarına dönəcəklər. Şah Abbas onları öz vədlərinə xilaf çıxmayacaqlarına inamla yanaşırdı. O, Osmanlı sultanına yazırdı ki, əgər özbəklər öz vədlərinə xilaf çıxsalar, onda yenidən qoşunla Məşhəd və Herat üzərinə yürüş təşkil etməli olacaqdır (152).

Sonra Şah Abbas məktubunda yenidən Xan Əhməd mövzusuna qayıdırdı. Xüsusilə, Gilan hakimlərinin əvvəllər Osmanlı sarayı ilə sıx əlaqədə olması, Osmanlı sarayı ilə gediş-gəlişiun olması haqqında Osmanlı sultanının yazdıqları barəsində Şah Abbas aydın bir təsəvvür yaratmağa çalışırdı. Şah Abbas Gilan hakimlərinin Osmanlı sarayı ilə davamlı gediş-gəlişə malik olması iddiasını qəbul etmirdi. Osmanlı sultanı məhz bu məqamı qabartmaqla Gilan hakimləri ilə əlaqələrin genişləndirilməsinə və onların himayə altına alınmasına bir bəraət tapmaq istəyirdi. Şah Abbas öz fikrinin sübutu kimi, Şah Təhmasib dövrünə müraciət edirdi. Osmanlı sultanının iddiasına görə, hələ Şah Təhmasiblə Sultan Süleyman arasında sülh anlaşması əldə edilməzdən əvvəl Biyəpiş hakimi Müzəffər xanın Osmanlı sultanı ilə yaxşı əlaqələri var idi. Şah Abbas isə bu məktubunda bəyan edirdi ki, Sultan Süleyman Azərbaycan üzərinə qoşun çəkəndə Müzəffər xan doğrudan da onun görüşünə getmişdi. Amma Şah Təhmasib onu bu hərəkətinə görə qətlə yetirmişdi. Yəni Gilan hakimlərinin Osmanlı sarayı ilə münasibətlər qurmaq istəyinin qarşısı Səfəvi sarayı tərəfindən sərt şəkildə alınırdı. Şah Abbas daha sonra yazırdı ki, Gilan hakimləri hələ qədimdən Səfəvi dövlətinə xərac ödəyirlər. Çünki onlar məhz Səfəvi sarayına bağlı idilər. Bundan başqa, Şah Abbasın yazdığına

görə Gilan hakimləri nə zamandan bəridir ki, Səfəvi şahlarının adına xütbə oxutdurur və sikkə vurdururdular. Bununla onlar Səfəvi şahlarına itaətlərini rəsmən bəyan edirdilər. Şah Abbas bəyan edirdi ki, şahlıq taxt-tacı ona keçəndən sonra da Gilan hakimləri onun adına xütbə oxutdurmuş və sikkə vurdurmuşdular. Bu vilayətin əmir və əyanlarını Şah Abbas özünün əmir və əyanı hesab edirdi. Elə Şah Abbasın hakimiyyəti dövründə, yəni 1590-cı ildə Səfəvi-Osmanlı anlaşması əldə ediləndə Gilan Səfəvi dövlətinin hüdudları daxilində qalmışdı. Şah Abbas məktubunda buna da işarə edirdi və bununla Gilanla münasibətlər yaradılmasını Səfəvi dövlətinin daxili işlərinə müdaxilə olmasına işarə edirdi. Şah Abbas əldə edilmiş sülh anlaşmasına əsasən müəyyən edilmiş sərhəd xəttinin pozulmasına kəskin münasibət ortaya qoyurdu. Çünki belə bir ehtimal var idi və Gilan hakimi Xan Əhməd Osmanlı sultanına Biyəpəsi hədiyyə etdiyini bildirmişdi. Ona görə Şah Abbas yazdığı məktubunda syazırdı ki, əgər sərhəd xəttində Osmanlı əmirlərindən kimsə bu sərhəd xəttini pozmağa cəsarət etsə və bu barədə Osmanlı sarayına xəbər çatdırılsa və bu xəbərdən sonra Osmanlı sultanı tərəfindən sərhəd pozucusu cəzalandırılmasa, onda iki dövlət arasında əldə edilmiş sülh anlaşması necə möhkəmləndirilə bilər? (153).

Şah Abbas bu sülh anlaşmasının möhkəmləndirilməsinə tərəfdar olmasının sübutu kimi bir daha qardaşı oğlu Heydər Mirzənin girov şəklində Osmanlı sarayına göndərildiyini yazırdı. Onu da bildirirdi ki, Xan Əhməd onun tabeçiliyində olanlardan biri idi və iki dövlət arasında sülh anlaşması əldə olunandan sonra da Gilan vilayətinə Səfəvi sarayı tərəfindən kimsə göndərilməmişdi. Yəni Xan Əhmədə qarşı hər hansı bir təzyiq yox idi. Yalnız Heydər Mirzə girov kimi Osmanlı sarayına göndəriləndən sonra Xan Əhməd tərəfindən şah hakimiyyətinə qarşı bəzi itaətsizliklər özünü göstərməyə başladı. Şah Abbas məktubunda Xan Əhmədin hakimi olduğu Gilan vilayəti daxilindəki özbaşınalıqlardan da söz açırdı. Onun yazdığına görə, Xan Əhməd ona şah sarayı tərəfindən göstərilən etimada vilayət daxilində özbaşına və qanunsuz

hərəyacağınıkətləri ilə cavab verir və bununla yerli əhali arasında ciddi narazılıqlara səbəb olurdu. O cümlədən, Xan Əhməd müxtəlif bəhanələrlə əhalidən əlavə vergilər toplayır, çoxlu sayda xanımları və qızları özünə kəniz edirdi. Bu əməllərinə görə Xan Əhməd Səfəvi sarayının dəfələrlə tənbihləri ilə qarşılaşmalı olmuşdu. Onu gözləyən cəzalardan canını qurtarmağın yolunu isə Xan Əhməd Osmanlı sarayı ilə münasibətlər qurmaqda görürdü. Ona görə də Osmanlı sarayına Xan Əhmədin elçiləri göndərilirdi. Xan Əhmədə şah tərəfindən himayə və qayğının göstərilməmsəi barəsində Osmanlı sultanının yazdıqlarını Şah Abbas birmənalı şəkildə rədd edirdi. Sultan tərəfindən belə bir ehtimal bildirilirdi ki, Xan Əhmədə az qayğı göstərilməsi ilə Şah Abbas həm də Səfəvi-Osmanlı arasında əldə edilmiş sülh anlaşmasının möhkəmlənməsinə qarşı mövqe tutmuşdur. Şah Abbas bunun belə olmadığını, iki dövlət arasındakı sülhün qorunmasına tərəfdar olduğunu və elə buna görə də qardaşı oğlunu girov kimi Osmanlı sarayına göndərdiyini bildirirdi (154).

1592-ci ilin yayında yazılmış bu məktub şah elçisi Bayəzid bəy vasitəsilə Osmanlı sultanına göndərildi. Həmin məktubun sonunda Şah Abbas Gilan hakiminin geri qaytarılması məsələsinə də cavabını yazdı. O bildirdi ki, Xan Əhmədin geri qayıtmasına razıdır və ona hər hansı bir cəza verilməyə bilər. Amma onun öz vəzifəsinə bərpa edilməsini Şah Abbas mümkünsüz saydı və bildirdi ki, həmin vəzifəyə artıq təyinat baş vermişdir (155).

Osmanlı sultanı nümayiş etdirdiyi təkidə baxmayaraq Şah Abbas Gilan hakiminin bağışlanması və onun yenidən öz vəzifəsinə təyin edilməsi istəyini qəbul etmədi. Xan Əhməd isə bir müddət Şirvanda qaldıqdan sonra Osmanlı sarayına yollanmaq icazəsini ala bildi və İstanbula yollandı. 1592-ci ilin sonlarında o, İstanbula yetişdi. Osmanlı sultanı onu 1593-cü ilin yanvar ayında öz hüzuruna qəbul etdi və onunla söhbətləşdi. Təxminən bir aydan sonra Xan Əhməd Osmanlı sarayının sədr-əzəmi Sinan paşa tərəfindən də qəbul olundu. Bu görüşdə də ona ümidlər verildi, köməklər göstəriləcəyi vəd olundu. Amma Xan Əhməd əməli kömək ala bil-

məyəcəyini və yenidən Gilana qayıtmağın mümkün olmayacağını görüncə Osmanlı sarayından Bağdad ətrafında Həzrət Əlinin və imam Hüseynin məzarlarını ziyarət etmək icazəsini istədi (156). Heç şübhəsiz ki, Xan Əhmədin istəyinin baş tutmamasına və Osmanlı sarayından əməli kömək ala bilməməsinə Şah Abbasın Sultan III Muradla məktublaşmasının da öz təsiri olmuşdu. Gilan hakiminə əməli köməyin göstərilməsi iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının pozulması demək idi. Osmanlı sultanı Gilan məsələsinin sülh anlaşmasına aidliyinin olmamasını əsaslandırmağa çalışsa da, Şah Abbas bu məsələdə kifayət qədər qətiyyət göstərdi. Yəqin elə buna görə idi ki, Osmanlı sultanı da iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının qorunmasını Osmanlı maraqlarına daha uyğun bildi.

Şah Abbas isə Gilan məsələsi ilə bağlı kifayət qədər inadkarlıq göstərdi və bu məsələnin həlli üçün fəal yazışmalar apardı. O bu məsələ ilə bağlı hətta Babur imperatorluğunun hökmdarı Əkbər şaha da məktub göndərdi və məsələnin mahiyyəti ilə bağlı onu da məlumatlandırdı. Həmin məktubunda Şah Abbas yazırdı: “Bu Əhməd xan ki, bizim çörəyimizi yemişdir, onun haqqını yerinə gətirmədi. Bizi arxadan vurdu və Gilan xalqına qarşı zülmlər həyata keçirdi. O bizim hakimiyyətimizi yox etmək üçün hərəkətə başladı. Biz ona çox mərhəmət göstərdik. Amma o bu mərhəmətin cavabını bizi yox etmək planları ilə verdi. Bizim səbrimizi və şəfqətimizi başqa cür anladı. Ən pisi isə başqa bir ölkəyə sığındı. Ayrıca olaraq İranı ələ keçirmək üçün planlar hazırlamaqdadır. Gilan xalqı yaxşı bir hakimə layiqdir. Onun yenidən Gilan hakimi olmasını istəmirlər. Əgər yenidən gəlmək istərsə, onun etdiklərinə baxmayaraq əfv edərik. Amma Gilan hakimi olub-olmamasının qərarını biz veririk” (157).

Gilan məsələsi ilə bağlı Şah Abbas eyni zamanda Osmanlı sarayının nüfuzlu mənsublarına da məktub göndərdi. Həmin məktublardan biri Sadəddin əfəndiyə yazılmışdı. Sadəddin əfəndi Osmanlı müftisi olmaqla bərabər, həm də Sultan III Muradın ustadı və müəllimi idi. Onun həm səltənət daxilində, həm də Osmanlı

sultanı yanında böyük nüfuzu var idi. Şah Abbas Gilan məsələsinin mahiyyətini ona da çatdırdı və çalışdı ki, bu etiqad adamının vasitəsilə Xan Əhməd məsələsinə görə iki dövlət arasında əldə edilmiş sülh anlaşmasını pozulmasının qarşısını alsın. Quran surəsi ilə müşayiət olunan girişdən sonra Şah Abbas məktubunda Osmanlı müftisini də Gilan vilayətinin hələ Səfəvi hakimiyyətinin bərqərar olduğu vaxtlardan bu hakimiyyətə tabe olduğunu bildirirdi və elə o zamanlardan da Gilan hakimləri müntəzəm şəkildə Səfəvi xəzinəsinə vergi verdiyini yazırdı. Sonra da Şah Abbas bildirirdi ki, son zamanlar Xan Əhməd tərəfindən itaətə, haqq və ədalətə zidd olan bəzi əməllər özünü göstərməyə başladı və ona görə də onun hökmü ilə Xan Əhməd Gilan hakimi vəzifəsindən azad edildi. Məktubda daha sonra bildirilirdi ki, Xan Əhməd də onu gözləyə biləcək cəzadan canını qurtarmaq üçün vilayəti tərk edərək Osmanlı hüdudlarına pənah aparmış və Osmanlı sarayında ona məxsus olan Gilan vilayətinin geri qaytarılması üçün kömək istəmişdir. Şah Abbas bununla bağlı öz nigarançılığını bəyan edirdi və bildirirdi ki, iki dövlət arasında əldə edilmiş sülh anlaşmasına görə bu dövlətlərdən birinin vəzifə adamı digər dövlətin ərazisinə pənah aparardısa, o, tutulub geri qaytarılmalı idi. Xan Əhmədə münasibətdə isə Osmanlı sarayı bu anlaşmaya əməl etməmişdi. Əksinə, Xan Əhməd Osmanlı sarayında sevinclə qarşılanmış və bu sarayın əyan və əmirləri ona qayğı göstərməklə Şah Abbas qarşısında da onun tənbih edilməsinin dayandırılması məsələsi qaldırılmışdı. Belə münasibəti Şah Abbas iki dövlət arasında əldə edilmiş sülh anlaşmasına zidd hesab edirdi. Şah Abbas bir daha bəyan edirdi ki, bu sülh anlaşmasının qorunması tərəfdarıdır və elə bunun üçündür ki, Səfəvi şahları arasında ilk dəfə belə bir sülhün qorunması üçün şah ailəsinin bir üzvünü girov kimi Osmanlı sarayına göndərmişdi. Şah Abbas bu sülh anlaşmasının davamlı olmasına çalışdığı kimi, Osmanlı müftisindən də xahiş edirdi ki, öz mövqeyi və əməlləri ilə bu anlaşmanın uzunömürlü olmasına çalışsın (158).

Türk elmi ədəbiyyatında Şah Abbasın Osmanlı müftisinə məktubunun tərcüməsi belə verilmişdir: “Hər kəs bilir ki, Gilan hakimliyi keçmiş zamanlardan bəri bizim öhdəmizdə idi. Onların Gilana hakim olması bizim sülalənin razılığı ilə gerçəkləşmişdi. Hər zaman onların bir günahı olanda mənim atalarım tərəfindən cəzalandırılırdı. Əhməd xan öz xalqına və bizim məmləkətə xəyanət etmişdir. Öz günahını sizin dövlətinizlə paylaşmaq üçün sizə sığınmışdır. Bu məsələ bizim xalqımızı və dövlətimizi çox üzməkdədir. Mən öncədən də məktub göndərib onu İrana qaytarmağınızı tələb etmişdim. Bizim sülh anlaşmamızda - əgər hər hansı bir tərəfin bir üsyankarı digər ölkəyə sığınarsa öz ölkəsinə təslim edilməlidir - maddəsi vardır. Əhməd xan mənim ölkəmin vətəndaşı olaraq sizin ölkənizə sığınmışdır. Bu ölkənin uca padşahı o adamı qəbul etmişdir. Bizim anlaşmamızda belə bir maddə yoxdur. İran şahzadələrindən biri sizin ölkəyə gəlirsə onu geri göndərməlisiniz. Bu, müsəlman dünyası üçün daha xeyirlidir. İki ölkənin müsəlmanlarına bu daha xeyirlidir. Əksi isə zərərlidir. Bu caninin padşahın himayəsində olması doğru deyildir. Bu məsələ bizi iki ölkənin münasibətlərinə görə məyus etmişdir. Bu, bizim xidmətlərimizi heçə saymaqdır. Mən Allahın ədalətinə inanıram. Mən iki ölkənin münasibətlərinə zidd olan bir iş görmədim. Müsəlmanların hüzuru üçün əlimdən gələni etdim və edəcəyəm. Amma bizim də sizdən bir ricamız vardır. Əgər iki ölkənin dostluğunu qorumaq istəyirsinizsə, Əhməd xanın ölkənizdə yaşamasına icazə verməyin” (159).

Osmanlı müftisi Şah Abbasın məktubunu cavabsız qoymadı. O da öz məktubunda əslində, Osmanlı sarayının siyasətinin müdafiəsinə qalxdı və Şah Abbasın Xan Əhmədlə bağlı irəli sürdüyü iddiaları dəstəkləmədi. Bu məktub həcmcə elə də böyük deyildir və başlanğıcda altı beytlik bir nəzm parçası verilmişdir. Sonra da Osmanlı müftisi xeyir-dua ilə açılan girişdə Şah Abbasdan məktub aldığını və həmin məktubda Xan Əhməddən və Osmanlı sarayının vəkillərindən şikayət oldunduğunu bildirilirdi. Xan Əhməd məsələsinə gəlincə, Osmanlı müftisi də yazırdı ki, o, Səfəvi sarayının

mənsublarının təhdidlərindən qorxduğu üçün öz vilayətini tərk edərək Osmanlı hüdudlarına sığınmışdır. Müfti Sadəddin Biyəpəsin Xan Əhməd tərəfindən Osmanlı sultanına bağışlanmasına işarə edərək bəyan edirdi ki, Osmanlı sultanı bu hədiyyəni peymana sədaqətli olduğu üçün qəbul etməmişdi. Lakin Osmanlı saray ona himayə göstərməkdən imtina etməmişdi və bunun iki dövlət arasında əldə edilmiş anlaşmaya zidd olması haqqında Şah Abbasın fikirləri müfti Sadəddin tərəfindən də qəbul edilmirdi. Osmanlı müftisi Xan Əhmədi elm və bilik adamı, şair təbli bir insan və seyid kimi xarakterizə edirdi və ruzgarın onunla amansız olmasını heç də qəbul etmirdi. Onun insani və etiqad keyfiyyətlərini xatırlatmaqla müfti Sadəddin ona qarşı irəli sürülmüş iddialarla razılaşmırdı. Osmanlı müftisi onu da bildirirdi ki, Xan Əhməd artıq Bağdad ətrafındakı müqəddəs məkanların ziyarətinə yola düşmüşdür və orada onun üçün müəyyən məbləğ də ayrılacaqdır. O, Xan Əhmədin geri qaytarılmamasının iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının tələblərini pozulması ilə bağlı Şah Abbasın yazdıqlarını da qəbul etmirdi (160). Bir sözlə, Şah Abbasın Osmanlı müftisinin nüfuzundan istifadə etməklə Xan Əhmədin geri qaytarılması məsələsinin həllinə çalışması gözlənilən nəticəni vermədi və Osmanlı müftisi də Sultan III Muradın mövqeyinin müdafiəsinə qalxdı.

Türk elmi ədəbiyyatında müfti Sadəddinin Şah Abbasa cavabı belə tərcümə olunmuşdur: "Bizim sarayımıza bir müsafir sığınırsa və bu kişi seyid olursa, bundan da ötə bir kişi bir müsəlman isə şəriətimizə görə qəbul edərik. Məktubunuzda bizi anlaşmaları pozmaqda ittiham edirsiniz. Biz anlaşmalarımızı heç zaman pozmadıq. Bizə görə bir müsafir Tanrının sevgilisidir. Müsafiri evdən çıxarmaq bizim də sizin də dininizə ziddir. Əhməd xan seyid, şair və Tanrının bir quludur. Onun niyyəti sizi rahatsız etmək və sizin mülkünüzə hücum etmək deyil. Əgər bir yanlışlıq olmuşsa keçmişdə olmuşdur. Bu anda o, özünü ölkəsinə bağlı bilir və sizdən də əfv tələb edir. Dinimizdə böyüklər əfv edərlər. Onun məqsədi sizin hökumətinizin sayəsində yaşamaqdır. Sizinlə mücadilə etmə

kimi bir məqsədi yoxdur. Mən sizi İran şahı, şair və dərviş ruhlu bir adam olaraq görürəm. Amma Əhməd xanın dönməsi öz istəyindən asılıdır" (161).

Şah Abbas Osmanlı müftisinin cavabı və xüsusilə onun Xan Əhmədə haqqında yazdıqları ilə razılaşmadı. Ona görə də o, Osmanlı müftisinə yeni bir məktub göndərdi və həmin məktubda Xan Əhməd haqqında kifayət qədər sərt bir münasibət ortaya qoydu. Şah Abbas məktubunda Xan Əhmədi təhqiredici ləqəblərlə və adlarla aşağıladı. O, Xan Əhmədin seyidliyə şamil edilməsini birmənalı şəkildə qəbul etmədi. Şah Abbasın yazdıqlarına görə, Xan Əhməd öz başına özünü şiə imamları xanədanına mənsub olması haqqında fikir yaymışdı və bunun həqiqətlə bir əlaqəsi yox idi. Onun üçün də Şah Abbas yazırdı ki, gərək insanlar bu yalana qarşı şəriətin tələbləri çərçivəsində rəftar etsinlər. Məktubda belə bir fikir ifadə olunmuşdu ki, özünü seyid adlandıran və özünü imamlar nəslinə şamil edən birisi gərək müsəlmanlara zülm və haqsızlıq etməsin. Xan Əhməd isə əksinə, vilayətin müsəlman əhalisinə qarşı haqsızlıqlar edirdi, onlardan müxtəlif adlar altında əlavə vergilər toplayırdı, müsəlmanlara zülm verməklə onların qızlarını da kənizə çevirirdi. Şah Abbas onu da yazırdı ki, Xan Əhməd Səfəvi xanədanının iltifatından sui-istifadə edən Xan Əhməd Səfəvi hakimiyyətinə düşmən kəsilmiş qızılbaş əmirlərinə sığınacaq vermiş və onları geri qaytarmaqdan imtina etmişdi. Bunun nəticəsi kimi, Xan Əhməd də Səfəvi sarayının qəzəbi ilə qarşılaşaraq tənbihlərə məruz qalmışdı. Belə keyfiyyətlərə malik olan Xan Əhmədin Kərbəla ziyarətinə yollanmasını da Şah Abbas onun cılızlığı kimi qəbul edirdi. Onun fikrincə, dini və etiqadı kamil olsaydı Xan Əhməd Omanlı sarayının himayəsindən bəhrələnməklə həcc ziyarətinə, islam peyğəmbərinin məzarının ziyarətinə yollanardı (162).

Şah Abbas bu cavab məktubunu yazanda Xan Əhməd Kərbəla ziyarətinə yollanmış və doğrudan da öz ziyarətini başa çatdırmadan bölgəni tərk etmişdi. O, İstanbula deyil, Şirvana tərəf yola düşmüş və sərhəd məmurları tərəfindən həbs edilmişdi. Şah Abbas onun belə bir addım atmasını Osmanlı sarayının qayğısına qarşı

hörmətsizlik kimi qəbul edirdi və bunu Osmanlı müftisinin diqqətinə də çatdırırdı. Eyni zamanda o ümid etdiyini bildirirdi ki, Osmanlı sarayı nəhayət ki, Xan Əhmədin bu əməlini layiqincə qiymətləndirəcəkdir. Şah Abbas ona da işarə edirdi ki, Xan Əhməd Şirvandan Xəzər dənizinə çıxmaqla Buxara xanının yanına getmək istəyir. Bununla Şah Abbas həm də Xan Əhmədin Osmanlı sarayına xəyanət etməsini vurğulamaq istəyirdi. Doğrudan da belə bir güman var idi ki, Xan Əhməd özbək hakimlərinin yanına pənah aparmaqla onlardan kömək almaq istəyir. Şah Abbasın Osmanlı sarayı ilə fəal yazışmalarından sonra Sultan III Murad Gilan hakimini geri qaytarmaqdan imtina etsə də, Gilan hakiminin təhriki ilə bu vilayətə qoşun çıxarmaqdan imtina etdi. Xan Əhməd məktubla Biyəpəsin Osmanlı sultanına hədiyyə etdiyini bildirmişdi. Ona görə də Xan Əhməd ümid edirdi ki, Osmanlı sultanı bölgəyə qoşun çıxarmaqla Biyəpəsi öz səltənətinə birləşdirəcək, Biyəpişi isə Xan Əhmədə geri qaytaracaqdır. Belə bir vəziyyətdə Xan Əhməd də sakit bir şəkildə Gilanda öz hakimliyini davam etdirə biləcəkdi. Osmanlı sultanı Gilana qoşun çıxarmaqdan çəkinəndə Xan Əhməd hakimliyini geri qaytara biləcəyinə ümidsiz oldu. Belə olanda Xan Əhməd özbək xanlarının yanına yollanmaq və onları bölgəyə qoşun çıxarmağa təhrik etmək fikrinə düşdü. Bu fikir xan Əhməd üçün kifayət qədər ümidverici göründü. Çünki özbək hakimləri davamlı şəkildə Xorasana hücum edirdilər və onlar işğal etdikləri Səfəvi ərazilərinin coğrafiyasını da genişləndirmək niyyətində idilər. Yəni Xan Əhməd Osmanlı sarayının köməyinə ümidsiz olaraq yeni bir müttəfiq axtarışına başlamışdı. Ona görə də Şah Abbas onun Osmanlı sarayı tərəfindən ciddi cəzalandırılması imkanlarına işarə edirdi. Xan Əhmədə belə bir ciddi cəzanın verilməsi onla bağlı olan narahatçılıqları da aradan qaldırmış olardı. Şah Abbas məktubunun sonunda Osmanlı sultanının kafirlərlə müharibəyə hazırlaşdığından xəbərdar olduğunu bildirir və bu müharibənin uğurla başa çatması üçün Səfəvi hüdudlarında üləma və fazil insanların dua etdiklərini yazırdı (163).

Türk elmi ədəbiyyatında Şah Abbasın Osmanlı müftisinə göndərdiyi cavab məktubunun tərcüməsi belə verilmişdir: “Sən bu adamın əhli-beytə, Tanrıya sayğılı müsəlman bir adan olduğunu söyləyirsən. Amma bir müsəlman öz dininin tələblərinə əməl etməlidir. İnsani və əxlaqi məsələlərdə xoşagəlməz bir davranış olursa, beləsinin cəzalandırılması lazımdır. Əgər insanlara zülm edib mallarını qəsb edirsə və özünə qanuni olmayan yollarla sərvət toplayırsa, hətta insanların namusuna müsəllət olursa belə bir insan müsəlman deyil. Müsəlman olsa da etdiyi günahla görə cəzalanırılmalıdır. Əgər bir insan şəriətə zidd bir günah işlədərsə, ilk dəfə ona nəsihət etmək lazımdır ki, barış üstün tutulsun. Amma nəsihətin faydalı olmadığı zaman Allahın əmrilə onun əməlinin qarşılığı verilməlidir. Beytullaha gedənlərin xulüsi-niyyət və şeytanın şərindən uzaq olmaq lazımdır. Hətta həccə də gedərsə, qəlbi təmiz olmayanın imanının dəyəri yoxdur. Siz Əhməd xanı mənə nə qədər təriflısəniz də o adam bir müsəlman ölkəsində insanların namusuna təcavüz etmiş, camiləri yıxmış, günahsız insanları öldürmüş və sonra da bir neçə ölkəyə sığınmaq istəmişdi. Amma o ölkələr bu adamın niyyətini anlayıb onu qəbul etməmişlərdi. Siz məktubunuzda məndən onun əfv edilməsini istəyirsiniz. Amma bir insan öz dininə və inancına zidd işlər görərsə, onun cəzası olmayacaqmı? Əcəba, islam dinində suçlular üçün cəza yoxdurmu? O, İrana gələ bilər. Fəqət onun haqqında qərarı biz verəcəyik. Bu məsələdə onun İrana geri qaytarılmasıdır. Əhməd xanın [Gilan] hakimliyi mövzusunda isə -babası da Gilan hakimi idi – biz yaxşı bilirik ki, suç işlətməsəydi biz onun sülaləsinə - babası zamanında da - dəstək verərdik. Qanunlara əməl etsəydilər indi şahın himayəsi altında olardı. Amma məsələ başqa yerlərə hücum edib qan tökmək olunca nə mən, nə də məndən öncəki şahlar riza göstərməmişlər. Biz iki ölkənin dostluğunu istəyirik. Sizinlə anlaşmamız var. Əhməd xanın Osmanlı sarayında olması sizin üçün də təhlükəlidir. Çünki o adamın niyyəti pisdir. Biz öz istəyimizə israr etməkdəyik. Onun İran şahına verilməsini istəyirik. Bu, iki ölkənin dostluğu və barışı üçün daha faydalıdır” (164).

Bu məktubda Xan Əhmədin Kərbəla ziyarətin yollanması və oradan İstanbula dönməməsi barəsində məlumat yoxdur. Bununla belə, Xan Əhməd məsələsi Şah Abbası təşviş içində saxlamaqda idi. Bu təşvişi aradan qaldırmaq üçün o, Osmanlı sarayının böyük əyanlarına da məktub yazmışdı. Əslində, məktubun mətnindən bəlli olur ki, Şah Abbasın məktubu Osmanlı sarayının böyüklərinin məktubuna cavab idi. Xan Əhməd məsələsi meydana çıxdığı gündən iki dövlətin saray arasında fəal yazışmalara meydan açmışdı. Osmanlı sarayının böyüklərinin də bu məsələnin mahiyyətindən xəbərləri var idi və onlar da yazdıqları məktubda Şah Abbası Xan Əhmədə qarşı sərt mövqedən çəkindirməyə çalışırdılar. Şah Abbas cavab məktubunda Xan Əhməd haqqında digər məktublarında olan məlumatları təkrarladı. O cümlədən, Xan Əhmədin itaətsizliyi, vilayət əhalisinə divan tutması, mərkəzi hakimiyyətdən qopmağa çalışması və s. faktlar bu məktubda da yer almşdı. Bununla belə, Şah Abbas məsələnin sülh yolu ilə həll edilməsinə hazır olduğunu bir daha bəyan etdi. Xan Əhmədin geri qayıtması ilə bağlı bildirdi ki, Gilan vilayətinin hakimliyinə yeni bir qızılbaş əmiri təyin olunmuşdur. Amma Xan Əhməd geri qayıdacağı təqdirdə ona Gilan vilayətindən daha böyük olan bir vilayətin hakimliyi həvalə olunacaqdır. Belə bir addım atmağa Şah Abbas islam müqəddəslərinə and içməklə söz verirdi və Osmanlı saray böyüklərindən xahiş edirdi ki, onun bu qərarı Osmanlı sultanına da çatdırılsın (165).

Osmanlı sarayının böyüklərinə müraciət etməkdə də Şah Abbasın əsas məqsədi iki dövlət arasında sülh anlaşmasının pozulmasına yol verməmək idi. Bu sülh anlaşmasının qorunmasına Şah Abbasın böyük ehtiyacı var idi və onun qüvvədə qalması mərkəzi hakimiyyətin möhkəmləndirilməsi üçün gərəkli bir fürsətə zəmanət verirdi. Həmin dövrdə sərhəd xəttində baş vermiş bir hadisə də Şah Abbası bu anlaşmanın qüvvədə saxlanması barəsində düşünməyə vadar edirdi. Çünki yaranmış vəziyyət Osmanlı qoşunlarının Səfəvi sərhədi üzərinə göndərilməsinə bir zəmin yaratmışdı. Belə ki, Osmanlı ticarət karvanları Xuzistan ərazisindən keçəndə talana

məruz qalırdılar. Bu işin baş verməsində Xuzistan hakimi Əmir Mübarək də suçlu bilinirdi. Güman edilir ki, onun göstərişi və himayəsi ilə Osmanlı karvanları üzərinə basqınlar edilməkdədir. Ticarət karvanlarının sahibləri isə baş verənlər haqqında Osmanlı sarayına şikayət etdilər. Osmanlı sarayı da Xuzistan ərazisində karvan üstünə hücum çəkən qüvvələrin zərərsizləşdirilməsi üçün ora qoşun dəstəsi göndərməyi qərara aldı. Bu qoşun dəstəsinin iki dövlətin sərhədini aşması isə Səfəvi-Osmanlı sülh anlaşmasının pozulması demək idi. Şah Abbas Osmanlı böyüklərinə yazırdı ki, Əmir Mübarək onun tərəfindən təyin edilmiş və onun tabeliyində olan bir hakimdir. Ona görə bu hakim sülh anlaşmasının ziddinə əməl etdiyi təqdirdə gərək Səfəvi şahına bildirilə. Belə bir xəbərdarlıq edilməsə də, Xuzistan ərazisində Osmanlı ticarət karvanlarına basqın haqqında məlumat alınandan sonra Şah Abbas həmin vilayətə qoşun dəstəsi göndərdi və Əmir Mübarəki vilayət hakimliyindən azad etdi. Eyni zamanda Əmir Mübarəkdən tələb olundu ki, Osmanlı tacirlərinin talan edilmiş malları geri qaytarılsın. Şah Abbas bu barədə məlumat verməklə, Osmanlı sarayının böyüklərindən də xahiş edirdi ki, sərhəd xəttinə qoşun göndərilməsinin dayandırılması haqqında Osmanlı sultanı qarşısında məsələ qaldırsınlar. Osmanlı sarayının böyüklərindən o da xahiş olundu ki, onlar iki dövlət arasında əldə edilmiş sülhün qorunmasına öz köməklərini əsirgəməsinlər (166).

Xan Əhmədə gəlincə isə, bir məlumata görə o, Bağdad ətrafındakı müqəddəs məkanların ziyarətində olduğu vaxt orada taun xəstəliyi yayılmağa başladı. Bu da ona təkan verdi ki, Xan Əhməd bölgəni tərk etsin. Amma bəlli olduğu kimi o, İstanbula qayıtmadı. Xan Əhməd Bağdadın Osmanlı mühafizi Müşir paşadan icazə alaraq 1594-cü ilin yayında Şirvana yola düşmək qərarını açıqladı. Şirvanda olarkən isə onun özbək hakimlərinə pənah aparmaq istəməsi aşkar olmuş və həbsə alınmışdı. Sonradan o, yenidən İstanbula qaytarıldı. Osmanlı sarayı onun Səfəvi dövlətinə qarşı silahlı müxalifətçiliyə başlamasını istəmirdi. Lakin seyidliyini nəzərə alaraq onun qətlinə də fərman verilmirdi. Həyatının sonrakı illə-

rini Xan Əhməd Osmanlı hüdudları daxilində keçirdi. Həyatının on illərini isə Xan Əhməd Bağdadda keçirdi. O, tez-tez ziyarətə yollandığı Nəcəf və Kərbəla şəhərlərində bir çox karvansara, hamam, mədrəsə və dükanlar açmış və onlardan əldə olunan vəsaitlə yaşayırdı (167).

Xan Əhməd məsələsini sona çatdırmaq fikrindən daşınmayan Şah Abbas yeni Osmanlı sultanının dövründə də mümkün vasitələrə əl atmağa çalışdı. Sultan III Murad 1595-ci ildə dünyasını dəyişdi və həmin ilin yanvar ayının sonlarında Sultan III Məhəmməd Osmanlı taxt-tacına sahib oldu. Görünür, Şah Abbas yeni Osmanlı sultanının Xan Əhməd məsələsinə başqa cür yanaşacağını güman edirmiş. Ona görə Şah Abbas ona da məktub göndərərək Xan Əhmədin və bir neçə başqa əmirin geri qaytarılması məsələsini xahiş etdi. Sultan III Məhəmməd isə Xan Əhmədlə bağlı Osmanlı sarayının mövqeyini dəyişmədi və Xan Əhmədin geri qaytarılmasına icazə vermədi. Bu məsələ ilə bağlı Sultan III Məhəmməd cavab məktubunda da məsələyə öz münasibətini bəyan etdi. Əvvəla, o bildirdi ki, Xan Əhməd onun atasının hakimiyyəti dövründə Osmanlı sarayına pənah gətirib və həmin vaxtdan da ona sığınacaq verilib. İkincisi, Osmanlı sultanı bir daha Xan Əhmədin seyid olduğunu, peyğəmbər nəslinə mənsubluğunu qeyd edərək geri qaytarılmasının qeyri-mümkünlüyünə işarə etdi. Nəhayət, Osmanlı sultanı Xan Əhmədin artıq qocaldığını, bir kənara çəkilib sakit həyat keçirdiyini, ixtiyar yaşında olan bir insandan qisas alınmasının insafdan kənar olduğunu bildirdi. Osmanlı sultanı Xan Əhmədin və Şah Abbasın adını çəkdiyi bir neçə əmirin geri qaytarılmamasının ikitərəfli sülh anlaşmasının pozulması kimi dəyərləndirilməsi ilə də razılaşmırdı. Həmin qaçqınlardan bəzilərinin nə zaman Osmanlı hüdudlarına gəlməsinin araşdırılması barəsində də Osmanlı sultanı göstəriş vermişdi. O, Osmanlı sarayına üzüdönüklük edərək Səfəvi hüdudlarına qaçmış bəzi Osmanlı əmirlərinin adını çəkir və onların geri qaytarılmasına israr etmədiyini yazırdı. Əslində isə sülh anlaşmasına əsasən, Osmanlı sultanının onları geri tələb etmək haqqı var idi. Sultan III Məhəmməd yazırdı ki, belə

bir məsələni ortaya atmaq elə də ciddi bir iş deyil və Osmanlı dövləti o qədər güclüdür ki, bəzi əmirlərin üzüdönüklük edib qaçması bu dövlətin gücünə təsir edə bilməz (168).

Xan Əhməd 1597-ci ildə (hicri qəməri tarixi ilə 1005-ci ildə) 63 yaşında olarkən Bağdadda dünyasını dəyişdi və Nəcəfdə torpağa tapşırıldı. Onun dünyasını dəyişməsi Bağdad bəylərbəyi tərəfindən Şah Abbasa da bildirildi. Xan Əhmədin xanımı və qızı isə həyatlarını Şah Abbasın hərəmxanasında davam etdirdilər. Onun xanımı Məryəm Sultan xanımın 1619-cu ildə dünyasını dəyişməsi ehtimal olunur. Şah Abbasın göstərişi ilə onun dəfni Məşhəd şəhərində baş tutdu. Xan Əhmədin qızı isə bəlli olduğu kimi, Şah Abbasın böyük oğlu Səfi Mirzəyə deyikli idi. Amma Səfi Mirzə heç də onun hərəkətlərini və davranışını xoşlamırdı. Ona görə də Səfi Mirzə Xan Əhmədin qızı ilə evlənməkdən imtina etdi. Bir xanımın hərəmsarayda nikahsız qalması yaxşı bir hal sayılmadığı üçün 1603-cü ildə Şah Abbas Xan Əhmədin qızını özünə nikah etdirdi (169).

Araşdırmaçıların fikrincə, Xan Əhmədin Bağdadda dünyasını dəyişməsi Şah Abbasın böyük sevinci ilə qarşılaşdı. Çünki Xan Əhmədin dünyasını dəyişməsi ilə onun ətrafında cərəyan edən hadisələrə və onun bəhanə edilərək Səfəvi hüdudlarına Osmanlı qoşunlarının çıxarılması ehtimallarına da son qoyuldu. Xan Əhmədin dünyasını dəyişdiyi ildə Osmanlı sarayına girov kimi göndərilmiş Heydər Mirzə də həyatını itirdi. Şah Abbasın yuxarıda istinad edilən fikrinə uyğun olaraq, Heydər Mirzə Səfəvi sarayından ilk dəfə olaraq Osmanlı sarayına girov kimi göndərilmişdi. Doğrudur, Şah Abbas öz yazışmalarında Heydər Mirzənin girov kimi göndərilməsini iki dövlət arasında sülhün möhkəmləndirilməsinə bir zəmanət kimi dəyərləndirirdi. Amma o da məlum idi ki, Osmanlı sarayı gələcəkdə Səfəvi dövlətinə qarşı öz siyasətinin həyata keçirilməsində Heydər Mirzədən istifadə edə bilərdi. Heydər Mirzə Səfəvi taxt-tacına gətirilməklə bu dövləti Osmanlı nəzarəti altında saxlamaq olardı. Ona görə Heydər Mirzənin Osmanlı sarayında olması Şah Abbasın həm də narahatçılığı ilə qarşılanırdı.

1597-ci ildə Heydər Mirzə öz əcəli ilə, taun xəstəliyinə tutularaq İstanbulda dünyasını dəyişdi (170). Bununla, Şah Abbasın başqa bir nigarançılığı da aradan qalxmış oldu.

### b) Gilanda Şah Məlik qiyamı və onun yatırılması

Xan Əhməd hərəkatının yatırılması Gilanın yenidən mərkəzi hakimiyyətin nəzarəti altına gətirilməsinə imkan verdi. Lakin bununla Gilanda heç də mərkəzi hakimiyyətə qarşı müxalifətçilik meylləri aradan qalxmadı. Şah Məlik qiyamı da bu müxalifətçiliyin nümunələrindən biri idi. Amma Şah Abbas hələ Xorasanda ikən özünə sədaqətli saydığı əmirlərdən biri, Kiya Cəlaləddin Məhəmməd də müxalifət yoluna yuvarlandı. Bu adam Xan Əhməd itaətsizliyinin yatırılmasında mərkəzi hakimiyyətə öz köməyini göstərdi və Şah Abbas da onun xidmətlərini layiqincə qiymətləndirdi və onu Deyləman hakimi təyin etdi (171).

Şah Abbas qoşunla Xorasana tərəf üz tutanda Kiya Cəlaləddin Məhəmməd də şah qoşunlarına qoşuldu və Xorasan yürüşündə iştirak etdi. Amma sonradan o, şah düşərgəsindən fərarilik etdi. Kiya Cəlaləddin tezliklə göstərdiyi sədaqətsizliyin cəzasına çatdı və ona qarşı göndərilmiş şah qoşunları ilə döyüşdə həyatını itirdi (172).

Şah Abbas hələ Xorasanda olarkən əfşar əmirlərini də cəzalandırdı. Əfşarlar Xorasan yürüşündə iştirak etməklə bağlı şah fərmanını icra etməmişdilər. Ona görə də onlar şahın qəzəbinə düçar oldular. Uzun müddət idi ki, Kirman vilayətinin idarəçiliyi əfşar tayfasının təmsilçiləri tərəfindən həyata keçirilirdi. Kirman hakimliyi əfşar əmirlərindən geri alındı və bu vəzifə ustaclı tayfasından olan Həsən xana tapşırıldı. Amma sonradan Xorasana gəlib çıxan əfşar əmirləri şah cəzasını almalarına baxmayaraq özbəklərə qarşı döyüşdə igidliklə vuruşdular. Onların bu fədakarlığı şahın məmnunluğu ilə qarşılandı və şah onların günahını bağışlamağı qərara aldı. Xorasan yürüşündə zəif iştiraka görə şah cəzasına layiq görülən başqa bir tayfa isə zülqədər tayfası oldu. Fars vilayətinin ha-

kimliyi həvalə olunmuş bu tayfa Xorasan yürüşü üçün nəzərdə tutulan qədər döyüşçü çıxara bilmədi. Ona görə də bu vilayətin hakimi olan zülqədər əmiri vəzifəsindən azad edildi və həmin vəzifəyə qacar tayfasının təmsilçisi gətirildi (173).

Şah Abbas Xorasandan 1592-ci ilin sonlarında Qəzvinə döndü və bir müddət burada dövlət idarəçiliyinin sahmanlanması ilə məşğul oldu. Səltənətə sədaqətli olan əmirlər yüksək vəzifələrə gətirildi, Xorasan yürüşündə iştirak etməyənlər, şah tapırıqlarını layiqincə yerinə yetirməyənlər isə şahın göstərişi ilə cəzalandırıldılar: "Azərbaycan vilayətinin əmirülüməralığı və o yerin işlərinin tənzimlənməsi, həmçinin həzrət sultanül-övliya rövzəsinin (Ərdəbil Şeyx Səfi ziyarətgahının – red.) sərkarının tövliyyət Fərhad xana verildi, o vilayətin bütün işlərinin ixtiyar cilovu onun iqtidar qəbzəsinə və ixtiyar pəncəsinə keçdi, o, Ərdəbil darülirşadına getdi. Etimalüddövlə Hatəm bəyə, qorçibaşı və mənsəb sahibi olan ərbablarla birlikdə Qəzvin darüssəltənəsində ləşkərin qayğısına qalmaq, onların ülufə, mərsumat və başqa ehtiyaclarını ödəmək tapşırıldı. Qərara alındı ki, qızılbaş tayfaları, döyüşçülərin el və oymaqlarının təhqiqi ilə məşğul olsunlar, məvacib alan hər bir mülazim və başqa adam müəyyənləşsin ki, onlar süvarilik və yasaq işlərinə cəlb edilə bilsinlər, Xorasan yasağında xəyanət edib gəlməyənlərsə cəzalandırılsınlar, bu dəfə onları tənbeh etmək məqsədiylə cəriməyə məruz qoysunlar, yığılan vəsait ənam şəklində yasaq və səfər əziyyəti çəkmiş dərgah qorçilərinə və mülazimlərinə verilsin ki, [bu tədbir] camaat üçün xəbərdarlıq və tənbeh sayılmış olsun, əgər bu gündən sonra yasaq elan olunarsa heç kəs ondan yayına bilməsin, yoxsa bu işdə onlar müxtəlif təqiblərə məruz qalacaqlar.

Fərmanı alanlar bu ali əmri dərhal yerinə yetirdilər. Həqiqətən də bu qərar ona səbəb oldu ki, yasaq əmri alınan kimi bütün qızılbaş tayfaları və el-oymaq əhalisi padşahın cəzasının qorxusundan həm piyadalar, həm də süvarilər çağırış hökmü olmadan yola düşərək səy etdilər ki, müzəffər orduya çağırış zamanı bir-birlərindən geri qalmasınlar [və yasaq əmrinə əməl etsinlər]. ... Bu qayda-

qanun hümayun şahın hakimiyyəti zamanından ləşkər arasında yerinə yetirilir (estemrar), padşah qəzəbinin qorxusundan heç kim onun ziddinə gedə bilmirdi” (174).

Sonra isə Şah Abbas İsfahana yollandı. O, 1592-ci ilin son aylarını və 1593-cü ilin ilk aylarını orada keçirdi. 1593-cü ilin baharının başlanğıcında isə Şah Abbas ov seyrinə çıxmaq qərarına gəldi. Bu niyyətini həyata keçirmək üçün Şah Abbas məiyyəti ilə birlikdə Qəzvini tərk edib Qızılağaca tərəf istiqamət götürdü. Bu səfər zamanı Fərhad xan, Biyəpəs hakimi Əli xan, Kəsgər hakimi Əmirə Siyavuş da Şah Abbası müşayiət edirdilər. Taroma yetişəndə Şah Abbasa xəbər çatdırıldı ki, Biyəpiş əhli bu bölgənin hakimi olan Mehdiqulu xan Şamlının idarəçiliyindən xeyli narazıdır. Bu narazılıqlar əsasən, bölgə əhalisinə tətbiq edilən vergilərlə bağlı idi. Bu vergilərin çox olması əhalinin narazılıqlarını qaldırırdı. Gilanda yenidən kütləvi itaətsizlik halının qarşısının qarşısını almaq üçün Şah Abbas dərhal ciddi tədbirlər həyata keçirməyə başladı. Elə Qızılağaca doğru hərəkətdə ikən Şah Abbas Biyəpiş hakimi Mehdiqulu xan Şamlını vəzifəsindən uzaqlaşdırdı və Beqdeli tayfasından olan Əhməd bəy adlı birisini Lahican darğası təyin etdi. Əhməd bəy dərhal Lahicana yola salındı. Bundan əlavə Şah Abbas tərəfindən xüsusi bir dəstə təşkil edildi və həmin dəstəyə tapşırıldı ki, bölgəyə getməklə orada insanlara hansı vergilərin təyin edilməsini araşdırsınlar: “Əhməd bəyə ona tapşırılan işin icrası üçün bir dəstə şamlı qorçisini həmrah etdilər və Asəf sifətli etimadüddövləni (Hatəm bəy Ordubadini - red.) müstöfvilər, qələm ərbabı və hümayun dəftərxananın daruğəsi Bəstam ağa ilə birlikdə Gilana göndərdilər ki, o vilayətin mal və divan hüquqlarını ədalət qanununa müvafiq tənzimləsin, əgər Xan Əhmədin və sabiq hakimlərin vaxtında mövcud olan haqq-hesabsızlıq işləri və pul çatışmazlıqları aşkarlanarsa, onların üstündən batillik qələmi çəkilsin, o vilayətin işləri bu güclü dövlətin məsləhətinə müvafiq, rəiyyət vəziyyətinin yaxşılaşmasına rəğmən və acizlərin işlərinin tənzimi kimi həyata keçirilsin” (175).

Hatəm bəy Ordubadinin rəhbərliyi altında olan dəstə Lahicana gələrək vilayət daxilində vergi sisteminin qurulmasını yoxladı. Onun rəhbərliyi altında mövcud olan qüsurlar aşkar edildi və vilayətdə yerli əhalinin də razılığı ilə qarşılanan yeni bir vergi sistemi yaradıldı. Bu vergi sistemi sonradan uzun müddət işlək və səmərəli bir sistem kimi öz mövcudluğunu saxladı. Şah Abbas özü isə sonra yolunu davam etdirdi. O, əvvəlcə Ərdəbilə gəldi. Burada ona Azərbaycan hakim olan Fərhad xan qoşuldu. Biyəpəs hakimi Əli xanla Əmirə Siyavuş isə Şah Abbasın dəstəsinə Qızılağacda qoşuldular. Həmin məkanda Şah Abbas yenidən Gilanın idarəçilik işlərinin təkmilləşdirilməsi ilə məşğul oldu. Bu bölgə, eləcə də sərhəd xətti boyunca yerləşən bəzi vilayətlər ənənəvi olaraq qədim varislər tərəfindən idarə olunurdular. Həmin varislərin müəyyən müstəqillikləri var idi. Bəzi varislər isə ənənəvi idarəçilik üsulundan bəzən sui-istifadə edir və mərkəzdən qopmaq xülyalarına düşürdülər. Qədim varislər tərəfindən idarə olunan vilayətlərdə müəyyən hallarda mərkəzi hakimiyyətə qarşı biganəlik və laqeydlik halları da özünü göstərməkdə idi. Biyəpəsin idarə olunmasında da bu hal özünü göstərməkdə idi.

Bu vilayətdə hakimliyi Əli xan adlı birisi ələ keçirmişdi. Biyəpəsə ənənəvi hakimlik edən Cəmşid xanın mənsublarından olan Əli xan məkrli bir siyasət izləməklə ənənəvi varisləri bu hakimlikdən uzaqlaşdırmış və özü bu vəzifəyə yiyələnmişdi. Mənbələrdə olan məlumata görə, Əli xanın bu vəzifəni ələ keçirməyə xidmət və dövlətxahlıq haqqı yox idi. Baxmayaraq ki, Şah Abbas onu da Qızılağacda nəzərdə tutulan ov mərasiminə dəvət etmişdi, amma onun hakimliyindən elə də razı deyildi. Əli xan isə bölgədə öz ətrafına kifayət qədər tərəfdar toplaya bilmiş və onların köməyi ilə öz məqsədinə nail olmuşdu. Gilanda mərkəzdən qopma meyllərinə birdəfəlik son qoymaq üçün isə Şah Abbas Biyəpişlə Biyəpəsi birləşdirmək və onu birbaşa mərkəzi hakimiyyətə tabe etmək istəyirdi. Bununla Gilanda varis hakimliyinə də son qoyulmalı və bu vilayətə hakimlər birbaşa şah sarayından təyin edilməli idilər. Şah Abbas Kəsgərdə də varis hakimliyinə son qoymaq istəyirdi. Ona

görə onun fərmanı əsasında həm Əli xan, həm də Əmirə Siyavuş həbsə alındılar. Əli xanın yerinə Biyəpəs hakimliyi onun qohumlarından olan Əmir Şah Məlik adlı birisinə həvalə edildi. Ondan başqa bir neçə tanınmamış adamlara da yüksək vəzifələr verildi. Güman edilirdi ki, onlar bölgədə mərkəzi hakimiyyətə qarşı narazılıqların yaranmasının qarşısını ala biləcəklər Şah Məlik və vəzifəyə təyin olunmuş digər adamlar böyük sevinc içində Biyəpəsdə həvalə olunan vəzifələrin icrasına başladılar (176).

“Onlar amma həqşünaslıq və əql cövhərinin bəhrəsini görmədilər, bütün Gilan əhalisinin batinlərində gizlətdikləri xəbisliyi aşkara çıxardaraq üsyana başladılar. Biyəpəsin avara adamlarını toplayıb Fumənin daruğəsi üzərinə gedərək onu qətlə yetirdilər. Bu xəbəri eşidən Rəşt daruğəsi oranın əhalisindən də müxaliflik əlamətləri görüb Rəştdən çıxdı. Əmir Şahməlik isə fitnəkarlıq edərək biyəpişliləri də üsyana qaldırdı. Biyəpişlilər də şah şəfqətlərinin qədir-qiymətini bilməyib özlərini üsyan təhlükəsinə (məhləke) saldılar” (177).

Beləliklə, şah tərəfindən Biyəpəsə hakim təyin edilmiş Şah Məlik şah etimadını doğrultmaq əvəzinə müxalifətçilik bayrağı qaldırdı və o, yalnız Biyəpəsin nəzarət altına alınması ilə kifayətlənmədi. Şah Məlik eyni zamanda Biyəpişi də mərkəzi hakimiyyətdən qoparmaq niyyətinə düşdü. Bunun üçün o, Biyəpişdə məskunlaşmış çəpək və əjdər tayfalarından da istifadə etməyi qərarlaşdırdı. Bu tayfaların təmsilçiləri hər zaman Biyəpişdə yüksək vəzifələr tuturdular və daha yüksək vəzifənin ələ keçirilməsi üçün həmin tayfalar arasında bir rəqabət də mövcud idi. Şah Məlik qiyamının qalxdığı vaxt çəpək tayfasından olan Əmir Abbas adlı birisi Ləştənaş hakimi təyin edilmişdi. Əjdər tayfası isə bununla razılaşmaq istəmirdi. Həmin tayfanın təmsilçilərindən olan Bu Səid adlı birisi Əmir Abbasa qarşı açıq mübarizəyə də başlamışdı. Bu Səid ətrafına topladığı adamlarla sıx meşələrdə gizlənməklə öz niyyətinə nail olmaq istəyirdi. O, Şah Məlik qiyamı haqqında xəbər tutanda onun yanına getdi və ona birləşmək istəyini ifadə etdi. Bu Səid bəyan etdi ki, öz mübarizəsinin nəticəsi kimi Gilanın

keçmiş hakimi Xan Əhmədin geri qaytarılması və onun öz vəzifəsinə bərpa edilməsi istəyindədir. Mərkəzi hakimiyyətə tabe olmayan bir sıra digər Gilan əmirləri də Şah Məlik qiyamına qoşuldular. Onların arasında həm Biyəpişdən, həm də Biyəpəsdən olanlar da var idi.

Bu adamlar və Şah Məlik ətrafına toplaşanlar məşvərət iclası təşkil edərək qərara gəldilər ki, mövcud şəraitdə Biyəpiş və Biyəpəs arasındakı ədavətə son qoyulsun və bütün güc qiyamın uğurla başa çatdırılmasına istiqamətləndirilsin. O da razılaşdırıldı ki, mərkəzi hakimiyyətə qarşı başlanan qiyam uğurla nəticələnəndən sonra Biyəpiş hakimliyi yenidən Xan Əhmədə, Biyəpəs hakimliyi isə əvvəlki hakim ailənin nümayəndələrinə təhvil verilsin. Qiyam iştirakçılarının razılaşdırdıqları qərarda qızılbaş əmirlərinin bütünlükdə Gilandan uzaqlaşdırılması planı da var idi. Şah Məlik ətrafına topladığı qüvvə ilə Fumən darğasının üzərinə hücum etdi və onu 20 xidmətçisi ilə birlikdə qətlə yetirdi. Rəşt darğası, Şah Məlikin rəhbərliyi altında qiyamdan və bu qiyam iştirakçıları tərəfindən Fumən darğasının öldürülməsi xəbərini eşidəndə Rəşti tərk edib qaçdı (178).

Qiyamçıalr birləşərək Biyəpişi də nəzarət altına ala bildilər. Bu işə rəhbərlik edənlər hər gün keçmiş Gilan hakimi Xan Əhmədin evinə toplaşaraq əllərinə düşən fürsətdən daha çox faydalanmağa çalışır və özlərini bir bölgənin hakimi kimi aparırdılar. Tezliklə Gilanın yenidən itaətsizlik yolunu tutması Şah Abbasa da ərz olundu. Şah Abbas da dərhal bu itaətsizliyin qətiyyətli şəkildə yatırılmasının yollarını aramağa başladı. O, hətta şəxsən bölgəyə yollanaraq itaət yolundan azmışların cəzalandırılamsına rəhbərlik etmək istəyirdi. Amma sonra Şah Abbas özünün Gilana getməsini məqsədəuyğun saymadı. O, qərara gəldi ki, yenidən alovlanan Gilan itaətsizliyinin yatırılmasına rəhbərliyi Azərbaycan hakimi Fərhad xana həvalə etsin. Fərhad xanın rəhbərliyi altında aparılacaq işlərin səmərəliliyini artırmaq üçün Hüseyn xan Şamlı və təcrübəli əmirlərdən olan Allahqulu bəy Qorçubaşı da bu dəstənin tərkibinə verildi: “O, əvvəl istədi ki, şəxsən özü bu hadisənin dəf olunma-

sından ötrü gedib o puç təbiətli adamları elə cəzalandırsın ki, qəflət yuxusundan bidar olsunlar və bundan sonra "fitnə" sözü onların heç birisinin dilindən çıxa bilməsin. Şahın hümayun ordu ilə bu vaxt getmək imkanı olmadığından, o zatın möbidlər möbidi olan ağlı onu o niyyətdən çəkindirdi. [Əlahəzrət] Fərhad xana tapşırdı ki, Biyəpəs və Biyəpiş arasındakı Kuhdəm yoluyla oraya yollansın. Allahqulu bəy Qorçibaşıya Deyləmana gedərək Əhməd bəyə və Kiya Fəridunə birləşmək və Şeymə yoluyla getmək tapşırıldı. Onlara həvalə olundu ki, Gilana gedərək birlikdə hər iki Gilan düşmənlərini öz əməllərinin cəzasına yetirsinlər, o torpağı tüğyan ərbablarının dəxalət tikanından təmizləsinlər" (179).

Fərhad xan və digər əmirlər də dərhal Gilana yola düşmək hazırlıqlarına başladılar. Fərhad xan ona verilən tapşırığın yerinə yetirilməsi üçün vəziyyəti təhlil etməyə başladı və belə bir qərara gəldi ki, Biyəpəsin həbsdə olan keçmiş hakimi Əli xanın azad edilməsi və onun yenidən öz vəzifəsinə bərpa edilməsi ilə həmin bölgədə alovlanmış itaətsizliyi səngitmək mümkündür. Əslində, Əli xandan əvvəl həmin bölgəyə hakimlik etmiş İbrahim xanın da azad edilməsi və əvvəlki vəzifəsinə bərpa edilməsi məsələsi var idi. Əli xan bölgə hakimliyini ələ keçirəndən sonra İbrahim xan Qəzvinə gətirilmiş və oradan da Kirmana sürgün edilmişdi. Hətta İbrahim xanın Kirmandan gətirilməsi üçün Həsən bəy Qorçunun rəhbərliyi altında dəstə də göndərildi. Lakin Fərhad xanın məsləhəti ilə Şah Abbas öz qərarını geri götürdü və Əli xanın Biyəpəsin hakimi vəzifəsinə gətirilməsi ilı razılaşdı. Çünki o bölgədə Əli xanın tərəfdarları çox idi və onlar da Əli xanı dəstəkləməklə, həm də itaətsizliyin aradan qaldırılmasında yaxından iştirak edə bilərdilər. Ona görə də Fərhad xan bu məsələ ilə bağlı Şah Abbas qarşısında məsələ qaldırdı və öz düşündüklərini də ona ərz etdi. Fərhad xan Şah Abbasa çatdırdı ki, Biyəpiş əhalisinin itaətsizliyə başlaması Biyəpəs əmirlərinin təhriki ilə olmuşdur: "Əgər şahın inayəti Əli xana olarsa və bu dəfə onun təqsirindən keçərsə, o zaman Biyəpəs hakimliyi fərmanla ona verilər, o, bu dövlətxah şahın tərəfində durar, müxalif kütlə isə bir-birindən ayrılar, Biyəpişin işləri ürək

istəyincə asanlıqla öz yoluna düşər. Əgər Əli xandan şaha itaətə xilaf olan bəyənilməz hər hansı bir əməl müşahidə olunarsa, bunun dəf olunması çətin deyildir” (180).

Şah Abbas bu təklifi dərhal qəbul etdi, Əli xanı azad etdi, onu əvvəlki vəzifəsinə bərpa etməklə ona qiymətli kəmər, daş-qaşlarla bəzədilmiş tac və cins at bağışladı. Biyəpişin hakimliyi isə Fərhad xana tapşırıldı. Fərhad xan öz qoşun dəstəsi ilə Kuhdəm yolu ilə Lahicana tərəf hərəkətə başladı. Allahqulu bəy Qorçubaşı isə Deyləman yolu ilə irəlilədi və şah qüvvələrinin gəlişi tezliklə qiyamçı qüvvələrə də çatdı. Bu Səid və ona həmkarlıq edən bir sıra əmirlər ətraflarına topladıqları qoşun dəstəsi ilə Deyləmanda şah qoşunlarının qarşısını kəsmək istədilər. Başqa bir dəstə Şah Məlikin qoşun dəstəsi ilə birləşərək Kuhdəm yolunda Fərhad xanın dəstəsinin qarşısını kəsmək niyyətinə düşdü. Güman edilirdi ki, bununla Fərhad xanın Gilana daxil olmaq yolunun qarşısı alınacaqdır. Amma onların göstərdikləri cəhdlər uğursuzluğa düçar oldu və şah qoşunlarının Gilanın içərilərinə doğru irəliləməsinin qarşısını kəsmək mümkün olmadı. Gilan qiyamçılarının bölgənin təbii şəraitindən istifadə etmək cəhdləri də bir nəticə vermədi. Mənbələrdə olan məlumatlar Allahqulu bəy Qorçubaşının və onun rəhbərliyi altında olan dəstənin xüsusi fədakarlıqla döyüşməsindən xəbər verir. Aparılan uğurlu döyüşdən sonra Gilan qiyamçılarının rəhbərlərinin bəziləri məhv edildi, bəziləri isə qaçmaqla canlarını xilas edə bildilər. Onların ətrafında toplaşmış olan silahlılar da qalın meşələrə dağılmaqla döyüş meydanından uzaqlaşdılar. Şah qüvvələri qarşılarına çıxan mürəkkəb təbii maneələri də aşaraq Lahicana doğru irəlilədilər və onlar dayanmadan tezliklə bu şəhərə çatmağa çalışdılar. Əjdər tayfasınnı rəhbəri olan Bu Səid dərhal Lahicanı tərk etdi və o da Gilan meşələrində özünə sığınacaq tapdı. Şah qoşunlarının yaxınlaşması ilə Lahican daxilində də bir çaxnaşma yaşandı və haqlı cəzadan yaxa qurtarmaq üçün çoxları şəhəri tərk etdilər. Allahqulu bəy Qorçubaşı Lahicanı nəzarət altına aldıqdan sonra Fərhad xanın yanına öz çaparını göndərdi və şəhərin alınmasını ona çatdırdı. Allahqulu bəy eyni zamanda rəhbərliyi altın-

da olan qoşun dəstəsinin əsgərlərinə qarətlə məşğul olmağı və şəhər əhalisinə qayğı ilə yanaşılmasını əmr etdi. Qiyamçılarla birlikdə şəhəri tərk edən şəhər sakinləri bu xəbəri alandan sonra tədricən geri qayıtmağa başladılar. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi İsgəndər bəy Münşi bu hadisələrin şahidi idi. O yazırdı ki, Fərhad xan Lahicana daha tez daxil olmaq və bu şəhəri nəzarət altına almaq istəyirdi. Ona görə o, Lahicanın Allahqulu bəy tərəfindən ələ keçirilməsinə bir qədər keyfsiz yanaşdı. Lakin bunu zahirdə hiss etdirmədi. Ola bilsin ki, Allahqulu bəyin bu fədakarlığının Şah Abbas tərəfindən yüksək qiymətləndiriləcəyindən Fərhad xan müəyyən narahatçılıq keçirirdi. Çünki İsgəndər bəy Münşi də yazırdı ki, şahın yanında Fərhad xan daha çox özünü tərifləyər və Allahqulu xan haqqında isə elə də səxavətli fikir söyləmirdi. Bununla belə, Fərhad xan Biyəpəsin də nəzarət altına alınması üçün Əli xanı o bölgəyə göndərdi. O özü isə Lahicana daxil oldu. Oradan Fərhad xan Lahicanın nəzarət altına alınması barəsində Şah Abbasa xəbər göndərdi. Onunla birlikdə Allahqulu bəy və onun qorçuları da Lahicanda qaldılar, burada qiyamçıların axtarışı ilə məşğul oldular və bölgədə şah hakimiyyətinin bərpası üçün lazım olan işləri gördülər. Bir müddətdən sonra Allahqulu bəy və onun qorçuları Qəzvinə qayıtsalar da, Fərhad xan Lahicanda qaldı və vilayətin idarəçiliyini öz üzərinə götürdü (181).

Sonra da Biyəpəsdə başlanan itaətsizlik yatırıldı. Əli xan bu bölgəyə gəldikdən sonra tərəfdarları onun ətrafında birləşdilər. Xeyli sayda insan Şah Məlik hərəkatından üz döndərdi və onlar da Əli xanın bölgəyə hakim təyin edilməsindən razı qaldılar. Bu insanlar Əli xanın şəxsində həm də mərkəzi hakimiyyəti dəstəklədilər. Şah Məlik ətrafına toplanmış olan insanların dağılışdığını və meydanda tək qaldığını görəndə Əli xanın yanına gəldi və onun lütfünə sığındı. Haqlı cəzadan qurtarmağın mümkün olmadığını görəndə Şah Məlik təslim olmaq qərarına gəldi. O, qılıncını boynuna asaraq şah mənsublarına təslim oldu. Bununla belə, onun haqqında sərt qərar çıxarıldı və qətlə yetirildi. Şah Məlikin başı

bədənindən ayrıldı. Əli xan onu Lahicanda olan Fərhad xana göndərdi. Fərhad xan da bu kəlləni Şah Abbasa yolladı (182).

### c) Gilanda yeni itaətsizliyin baş verməsi və onun yatırılması

Yuxarıda qeyd edildiyi kimi, Əli xanın Şah Abbas tərəfindən həbsdən azad edilməsi və onun Biyəpəsə yenidən hakim təyin edilməsi bu bölgənin insanları tərəfindən də məmnunluqla qarşılandı. Əli xan da ona tapşırılan vəzifəsindən bacarıqla gəldi və Biyəpəsdə mərkəzi hakimiyyətə qarşı itaətsizliyə son qoyulmasında səmərəli xidmətlər göstərdi. Bir müddət o, mərkəzi hakimiyyətə qarşı sədaqətli xidmətini davam etdirdi, Biyəpiş hakimi Fərhad xanla yaxşı münasibətlərdə oldu. Təxminən bir ilə yaxın Əli xan sədaqətli xidmət göstərdi. Lakin onun bu sədaqətli xidməti elə də uzun sürmədi. Şah Abbasın səxavətli iltifatını, bölgədə cərəyan edən hadisələrin mahiyyətini düzgün qiymətləndirə bilməyən Əli xan çox çəkmədi ki, şəxsi iddialarına meydan verdi. Onun Fərhad xanla da münasibətləri mürəkkəbləşdi, hətta ona qarşı üsyan qaldırmaq fikrinə də düşdü. Tədricən bölgədə möhkəmlənməyə müvəffəq olan Əli xan elə güman elədi ki, müstəqilləşə də bilər. Bu isə bölgədə yeni bir gərginlik ocağının meydana gəlməsinə səbəb oldu (183).

Əli xan itaətsizliyinin baş verməsi özünü 1594-cü ildə göstərdi. Şah Məlik qiyamının yatırılmasından sonrakı qısa dövr ərzində Səfəvi dövlətinin həyatında ciddi hadisələr cərəyan etmişdi. Şah Abbas özbək qoşunlarının növbəti hücumunun qarşısını almış, səltənətin bir sıra vilayətlərində alovlanmış itaətsizlik qiyamlarını yatırmışdı. 1594-cü ilin xoş günlərində Şah Abbas yenidən Gilana gəldi. Onun üçün gərgin keçən hadisələrdən sonra Şah Abbas bir qədər istirahət etmək və qayğısız günlər keçirmək istəyirdi. Yaşıl və səfalı təbiəti ilə seçilən Gilan Şah Abbasın da xoşladığı məkanlardan biri idi. Ona görə də 1594-ci ilin yazında Şah Abbas Qəzvini tərk edərək Gilana doğru üz tutdu. O zaman Gilan hakim-

liyini də öz üzərinə götürmüş olan Fərhad xan lazımi hazırlıqların görülməsi üçün Qəzvini Şah Abbasdan daha tez tərk etdi və bölgəyə yollandı. Bu səfər zamanı Şah Abbasın ilk dayanacağı Taromda oldu. “Tarom ülkasına çatan əlahəzrət dağ ətəyində yerləşən, evləri bir-birinə bitişən, kəndləri bağlarla əhatələnən, dağının çeşməsindən saf çeşmələr axıb bir yerdə çari olan belə bir bahar fəslində bağlarının hər qarışı cənnət bağından xəbər verən Tarom vilayətinin Məncil və Xəzrəvil (?) adlı kəndlərində dayanıb eyş-işrət büsatı qurdu, səhərdən axşamacan onun behişt ayinli məclisi İrəm məclisinin munisləri ilə bəzəndi, Zöhrə çöhrəli saqilər əllərdə şərab camları gəzdirməyə başladılar, nuşanuş sədaları atlasla bəzənmiş asiman (fələk) sakinlərinin qulaqlarına gedib çatdı. Xoş ahəngli çalğıçılar və mahir müğənnilər bir ləhzə belə öz oxuyub-çalmaqlarından qalmadılar. Həmçinin o zaman müzəffər orduda olan bütün adamlar, istər yaxın olsun, istərsə də ağa, ya qulam, müdam içki içməklə məşğul məiyyətin və həmin bir neçə gün ərzində şadyanalıq etdilər. Sonra əzəmətli bayraqlar qaldırıldı və Gilanın Kuhdəm ülkası cahan şəhriyarının atının dırnaqları ilə ətirləndi, Fərhad xan Gilan əhalisi ilə birlikdə şahın istiqbalına çıxdı və xoşbəxt fallı bu ilin novruz axşamlarında gəlib Kuhdəm yurdunda hümayun məiyyətə çaldı, Gilan əhalisi şahın ayağı altındakı torpağı öpməklə şərəfləndi və onun iltifat nəzərinə layiq görüldü. Kuhdəm valisi Hüseyn xan onunla görüşməklə şərəfləndi, imkanı müqabilində öz xidməti vəzifəsini icra etdi, müzəffər əsgərlərə çoxlu savəri verildi. Ertəsi gün, ulduzlar padşahının Hüt ətəyindən ümid əlini üzüb həməlin boynundan asdığı gün əlahəzrət öz cahanı ayaqlayan (gərdünxoram) atını Gukə ülkasına tərəf yönəltdi və oradan sonra cənnətnişan Lahicana gəldi, hümayun ordunun qədəmləri cənnət bağının həsədinə səbəb oldu. O diyarın bütün əhalisi əlahəzrətin cahangəzən atının tozundan işıqlandı və onların gözləri açıldı. Fərhad xan öz peşkəş təqdim etmək vəzifəsini icra etdi, o həzrətin bütün əmələləri, dövlət başçıları və əyanlarına ziyafət verdi. Amma, Fərhad xanın xahişi ilə əlahəzrət tərəfindən yenidən vəzifəyə təyin edilmiş Biyəpəs Gilanının hakimi

Əli xan səadətli məiyyətin təşrif gətirməyindən əvvəl özünə xas keçmiş üsyankarlığına başladı, Fərhad xanla bağladığı əhd-peyman şərtlərini pozdu" (184).

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşinin yazdığından belə bir qənaətə gəlmək mümkündür ki, bu itaətsizliklər Şah Abbasın 1594-cü ilin yazında Gilana ova gəlməsi ilə bir vaxta düşmüşdü. İsgəndər bəy Münşi bu ov mərasimində Şah Abbasın yanında idi və bölgədə cərəyan edən hadisələri də birbaşa yerindəcə izləmək imkanına malik idi. O, bu itaətsizliklərin alovlanmasında müəyyən yerli dairələrin düşünülməmiş əməllərinin təsirini xüsusi olaraq qeyd edirdi. Belə adamların öz niyyətlərinin həyata keçirilməsi üçün itaətsizlik yoluna yuvarlanması asan yolla öz istəklərini təmin etmək istəyən müəyyən qüvvələrin də dərhal fəallaşmasına gətirb çıxarırdı: "Məlumdur ki, Gilan adamları olduqca dayaz ağıllı, qara fikirli və aqibətsiz adamlardır. Onların qamət nihalları zülmət arxından dikəlmiş, gilanlılara əzəli qüdrət süfrəsindən hiylə və bivəfalıqdan başqa heç nə düşməmişdir. Mürüvvət və insanlıq onlarda yoxdur. Hamısı fitnəkarlıqla məşğuldurlar. Belə ki, əgər hər hansı bir əkinçi (bərzigər) övladı müstəqil sultan olmaq niyyəti ilə müxalifət meşəsinə üz tutarsa, oranın bütün camaatı yubanmadan ona mülazimlik edəcək və elə ilk gündən onun ətrafında tərbiyəsiz adamlar toplaşacaqlar. Yaxud, elə həmin gün onlar özlərindən bixəbər halda hər hansı asan (səhl) bir işin ardınca gedərlərsə, o aqibətsizlər dərhal bir-birlərindən ayrılıb həmin işdən əl çəkməzlər. Lap əgər ertəsi gün də elə bir məsələ baş verərsə, onlar yenə də həmin hərəkəti icra edərlər. Sabah başlarına nə gələcəklərini bilsələr belə o adamlar fəqət bu günü özlərinə qənimət sayıb qətiyyən məsələnin aqibətini fikirləşməzlər, bircə gün artıq yaşamaqdan ötrü özlərini həlak meydanına atmağa hazırdırlar. Duz-çörək qazanmaqdan ötrü çalışan iki dostun biri o birisindən şübhələnməkdədir. O bədəməl (bədkerdar) tayfanın belə yersiz hərəkətləri elə həmin mülkün suyu və havası ilə həmahəngdir. Neçə gündən bir o diyarda bir hakim istiqlaldan dəm vurur. Onların sərdarlarını əgər öldürülsələr, yerbəyerdən fit-

nə və üsyana başlayırlar. Elə adamlardan çəkinmək bilikli imamlar məzhəbinə görə olduqca vacibdən də vacib bir əməldir" (185).

İsgəndər bəy Münşinin tez-tez itaətsizlik yolunu tutan Gilan əhlinə qarşı belə barışmaz mövqe nümayiş etdirməsində onun Şah Abbas xidmətində olması və onun münşisinə çevrilməsi də istisna deyildi. Heç şübhəsiz ki, Şah Abbasın nigarançılığı ilə qarşılanan hər məsələ İsgəndər bəy Münşi üçün də həssas bir məsələ səviyyəsinə qalxırdı.

Əli xanın itaətsizlik yolunu tutması sözsüz ki, Şah Abbas üçün gözlənilməz oldu. Bir tərəfdən ona görə ki, Gilanda əsas itaətsizlik bazası aradan qaldırılmışdı. Digər tərəfdən isə Əli xan onun lütfi əsasında həbsdən azad edilmiş və yenidən Biyəpəsin hakimi vəzifəsinə təyin edilmişdi. Yuxarıda yazılanlardan bəllidir ki, Əli xan həbsdən azad edildikdən sonra Şah Məlik qiyamının yatırılmasında da yaxından iştirak etmiş və özünü Şah Abbasa sədaqətli bir hakim kimi göstərmişdi. Şah Məlik qiyamının yatırılmasından sonra mərkəzi hakimiyyətə qarşı olan bir neçə digər böyük qiyamlar da yatırılmışdı. Əli xanın da bundan xəbəri var idi və Şah Abbas hakimiyyətinin günü-gündən möhkəmlənməsi onun gözləri qarşısında baş verirdi. Ona görə də Əli xanın itaətsizlik yolu tutması təəccübə səbəb olan bir hadisə idi.

İsgəndər bəy Münşi öz əsərində Əli xanın itaətsizlik yoluna düşməsini belə təsvir edirdi: "Fərhad xanın səyi və təşəbbüsü ilə yenidən Biyəpəs Gilanının hakimi olan Əlixan öz istiqlal bayrağını dalğalandırdı. Sücaətlərinə görə bütün Gilan adamlarından üstün olan o vilayət hərbçiləri onun başına yığıldı. Saxta adam olduğu və başına özbaşınalıq havası dolduğu üçün, az vaxt içərisində onun tifaqı dağıldı, qəddar gilanlılardan malı və mülkü (əqar) çox olduğundan qürurlanıb, qədəmini itaət dairəsindən kənara çıxardı, Fərhad xanla etdiyi əhd-peymanı unutdu, dili "üsyan" kəlməsi ilə açılmağa başladı. Biyəpəs Gilanı pak hümayun şəhriyarın qədəmləri ilə cənnət meydanına çevrilən vaxt o, öz bəxtinin yoxluğundan və iqbalının dönüklüyündən o, amal qibləsinin (Şah Abbasın -red.) ayağı altındakı torpağı öpmək şərəfinə yetmədi, boş

xəyallara qapılıb qalibiyyətli ləşkərlə qarşılaşmaq üçün özünə ləşkər və yaraq hazırlamağa başladı. Yollarda və keçidlərdə çəpərlər dikəltdi, bütün əsas yolları bağladı. Amma, bunu bilmədi ki, balaca bir alacəhrə quşu (səvə) ənginliyə uçan şahinin qabağında tab gətirə bilməz. Nəticədə, özünün bu cürətinə görə zavala uğradı" (186).

Əli xanın üsyan yolunu tutması Şah Abbasın yalnız təəccübünə deyil, həm də ciddi qəzəbinə səbəb oldu və dərhal da Fərhad xanın rəhbərliyi altında Biyəpəsə qoşun dəstəsi göndərdi. Bir vaxtlar Əli xanın həbsdən azad edilməsini təklif edən və onun sədaqətinə zəmanət verən Fərhad xan indi onun başladığı üsyanı yatırmalı idi. Onun rəhbərliyi altında olan qoşun dəstəsi Sefidrud çayını adlayıb Biyəpəsə tərəf irəliləyən zaman Əli xan bundan xəbər tutdu və qorxuya düşdü. Şah qoşunlarının gəlməsi xəbərini eşidəndə Əli xanın ətrafına toplaşmış olan adamlar da dağılışmağa başladılar. Bu adamların çoxu Fərhad xanın yanına gələrək şaha olan sədaqətini bəyan etdilər. Fərhad xan hər hansı bir müqavimətə rast gəlmədən Biyəpəsin ərazilərini nəzarət altına aldı, Əli xana məxsus olan sərvətlər və mülklər talan edildi. Əli xanın yaxın ətrafı da onun müdafiəsinə qalxmadı. Əli xanın özü isə ata-baba yurdu olan Fumənə qaçdı. O, güman edirdi ki, Fumən camaatı onun müdafiəsinə qalxacaqdır. Amma Fumən camaatı şah hakimiyyətinə sədaqətli qaldı. Fərhad xan da onun təqib edilməsi üçün bir qoşun dəstəsi ayırdı. Belə olanda Əli xan Fuməndən də qaçmalı oldu. Fərhad xanın göndərdiyi dəstə isə onu təqib etsə də, həbsinə nail olmadı. Çünki Əli xan əvvəlcə gəmiyə minib Şirvana qaçmaq istədi. Bu niyyətinə nail olmayanda isə o, Gilan meşələrinin dərinliklərinə çəkilərək əcdadlarının doğulduğu Zərmex adlı məntəqəyə yollandı (187).

O, bir müddət həmin məntəqədə qaldı və onun Zərmexdə olduğu zaman bu yerin adamları canlarının qorxusundan Əli xanın dediklərini icra etməyə başladılar. Görünür, Zərmexdə qalmaq da Əli xan üçün təhlükəsiz deyildi. Ona görə də bir müddət sonra Əli xan Zərmexi də tərk etdi və özünün bir neçə tərəfdarı ilə birlikdə

sıx meşələrdən keçməklə hündür dağlara pənah apardı. İsgəndər bəy Münşinin yazdığına görə, Əli xanın pənah apardığı məkanda meşələr o dərəcədə sıx idi ki, ağacların arasından heç günəş şüası da keçmirdi. Külək də bu ağacları tərpədə bilmirdi. Əli xan həmin məkana çatandan sonra müdafiə olunmaq üçün sığınacaqlar da düzəltməyə başladı. Qoşun əhli və Biyəpəsin sərdarları isə Fərhad xanın əmrinə əsasən, onun axtarışını davam etdirdilər. Bir neçə gündən sonra Fərhad xana xəbər çatdırıldı ki, Əli xan Zərmex ətrafındakı məkanlardan birində gizlənmişdir. Onun əmrinə əsasən, Əli xanın gizləndiyi güman edilən məkan hər tərəfdən mühasirəyə alındı və xüsusi adamlar həmin məkanın müşahidəsinə təyin edildilər. Qoşun dəstəsi də kiçik qruplara bölünərək meşənin daxilinə göndərildi. Həmin qruplar Əli xanın gizlənə biləcəyi istiqamətlərdə axtarışlar aparmalı idilər. Coğrafi şərait müəyyən mürəkkəbliklər yaratsa da, Əli xanın axtarışı günlərlə davam etdirildi. Bu axtarışlar nəhayət ki, öz nəticəsini vermişdi və məlum oldu ki, Əli xan doğrudan da həmin məkanda gizlənmişdir. Çünki bəzi vaxtlar hər iki tərəfin adamları meşə daxilində qarşı-qarşıya gəlir və onlar arasında atışma da baş verirdi. Əli xan üçün aydın idi ki, yanındakı azsaylı adamlarla şah dəstəsinin qarşısını dayandıra bilməyəcəkdir. Ona görə tərəflər arasında atışma baş verəndə Əli xanın adamları tez də geri çəkilirdilər (188).

Şah qüvvələrinin əlinə keçməmək üçün Əli xan hər gün yerini dəyişir, fərqli məkanlarda gecələyirdi. Bu minvalla Əli xan iki ay ərzində şah qüvvələrindən gizlənə bildi. Həmin müddət ərzində şah qüvvələri ilə onun mühafizləri arasında bir neçə atışma baş verdi və Əli xanın ətrafında olan adamların çoxu qətlə yetirildi. Buna baxmayaraq, Əli xan yenə də qaçıb gizlənməyə müvəffəq oldu. Bu adamın ələ keçirilməsinin uzandığını görəndə Şah Abbas bölgəyə əlavə hərbi qüvvə göndərdi. On min nəfərdən ibarət olan bu qoşun dəstəsinə Fərhad xanın qardaşı Zülfüqar xan rəhbərlik edirdi. O da Astara və Talış bölgəsindən keçməklə yolunu Kəsgərə saldı. Zülfüqar xan Xəzər dənizinin cənub hissəsindəki keçid yollarını və Gilana aparan digər yolları nəzarət altına aldı (189).

Zülfüqar xanın Kəsgərə göndərilməsinin səbəbi bu bölgənin hakimi olan Əmirə Siyavuşun qardaşı Əmirə Müzəffərin rəhbərliyi altında itaətsizlik halının baş verməsi idi. Yuxarıda qeyd edildiyi kimi, bölgədə varislik hakimiyyətini ləğv etməklə mərkəzi hakimiyyəti möhkəmləndirmək yolunu tutan Şah Abbas Kəsgərin nəsil hakimi Əmirə Siyavuşu da həbsə almışdı. Əmirə Siyavuş isə sözsüz ki, bundan narazı idi və ona görə imkanlarından istifadə etməklə şah hakimiyyətinə qarşı itaətsizlik hərəkatını formalaşdırmağa çalışırdı. Bununla bağlı, onun yaxın adamlarından biri Şah Abbas Lahicanda olarkən belə bir məlumat çatdırmışdı: "Əmirə Səyavuş özünün həbs olunması səbəbini şaha müxalifətində gördüyü üçün öz qardaş və övladlarını üsyana təhrik edir və qardaşına gizli məktublar yollayır". [Kəsgərdən gələn adam] o məktubların birini şaha verdi. Bu hərəkətdən qəzəblənən şahın Əmrə Səyavuş xüsusundakı mülayimləşməkdə olan qəzəb atəşi yenidən alovlandı və onun qətlinə fərman verdi. Baxmayaraq ki, bu xəbəri gətirən şəxs bu hərəkəti öz dövlətxahlığı naminə etmişdi, amma, şah özünə xas xislətə sadiq qalaraq, Gilan əhalisi haqqında yuxarıda dediyimiz mülahizələrdən çıxış etdi, bu pak etiqadlı padşah Əmirə Səyavuşun haqqı tapdadığına və öz vəlinemətinə qarşı çıxdığına görə onun da qətlinə fərman verdi" (190).

İsgəndər bəy Münşinin yazdığına görə, Kəsgərdə Əmirə Müzəffər yerli əhali və Əmirə Siyavuşla birlikdə şah qoşunlarının tələbinə tabe olmadılar. Onlar Əli xanın yanına üz tutaraq onunla əlbir olmağı qərara aldılar və Əli xanın dəstəsi ilə birlikdə şah qoşunlarına qarşı mövqe tutdular. Zülfüqar xan onları təqib edib yaxaladı, onun dəstəsi ilə Əli xanın ətrafında olan qüvvələr arasında ciddi bir döyüş baş verdi. Bu döyüşdə Əmirə Müzəffərlə gəlmiş Kəsgər camaatının xeyli hissəsi qətlə yetirildi, onların böyük bir hissəsi isə əsir götürüldü. Əsir götürülənlər arasında çoxlu sayda uşaq və qadın da var idi. Salamat qalanlar isə Əmirə Müzəffərin arxasınca getməkdən imtina etdilər və Zülfüqar xanın qoşun dəstəsinə pənah gətirdilər. Əli xan, Əmirə Müzəffər və

onların yaxın ətrafı isə yenə meşəliklərin dərinliklərinə çəkilməklə canlarını xilas edə bildilər (191).

Zülfüqar xan isə heç də onların təqibini dayandırmadı. Əmirə Müzəffərin və onun yanında olan qardaşı oğlanlarının tapılması xüsusi bir dəstəyə tapşırıldı. Bu dəstə də meşənin və cəngəlliyin dərinliklərinə üz tutdu, adları çəkilən adamları mühasirəyə aldı. Əmirə Müzəffərin ətrafında olan adamlar son gülləyə qədər Zülfüqar xanın dəstəsi ilə döyüşdü, gücləri tükənəndə isə daha münasib bir yerə qaçmağa cəhd göstərdilər. Amma onlar mühasirə vəziyyətində olduqları üçün canlarını qurtara bilmədilər. Əmirə Müzəffər və onun qardaşı oğlanları əsir düşmək məcburiyyəti ilə qarşılaşdılar. Şah döyüşçüləri onları ələ keçirərək Zülfüqar xanın yanına gətirdilər.

Sonra Zülfüqar xan qardaşı Fərhad xanın düşərgəsinə yollandı və onların birləşmiş qoşunları yenidən Əli xanın axtarışlarını davam etdirdilər. Əli xanın gizlənmək ehtimalı olan bütün məkanlar şah qoşunlarının mühasirəsinə alındı. Bu da Əli xanın manevr etmək imkanlarını məhdudlaşdırdı. Belə bir vəziyyətin çox da uzun davam etməycəyini görən Əli xan bir gecə bir neçə ən yaxın adamı ilə qoşun əhlinə xəbər vermədən meşədən çıxıb gizlənmək üçün yer axtarmağa başladı. Amma şah qoşunları hər yanı tutduqlarından Əli xan o məkandan elə də uzaqlaşa bilmədi. Belə olanda o, məcbur oldu ki, rastına çıxdığı evlərdən birində gizlənsin. Bu evin məxsus olduğu kənd də, əslində, şah qoşunları tərəfindən mühasirə olunmuşdu və kəndin evlərinin çoxuna da şah döyüşçüləri yerləşmişdilər. Ona görə Əli xanı həmin kənddə gizlənə biləcəyini şah mənsubları güman etmirdilər. Əli xanın gizləndiyi evin sahibi də onun sirrini şah mənsublarına çatdırmadı. Əksinə, bu evin sahibi Əli xanı gizlətməklə bərabər, ona lazım olan qayğını da göstərdi. Bunun nəticəsi idi ki, xeyli müddət ərzində Əli xanı tapmaq mümkün olmadı. Lakin o da məlum idi ki, Əli xan o bölgədədir. Yaxşı gizlənə bildiyi üçün onu çox axtarmaq lazımdır. Şah mənsubları isə davamlı olaraq onun axtarışını apardılar. Hətta gecələr də bu iş davam etdi. "Nəhayət murad küləyi arzu cinahın-

dan əsməyə başladı və o düşmənin tutulması xəbəri gəlib müzəffər əsgərlərə yetişdi. Məsələ belə olmuşdu: O ətrafda olan bir dəstə qazi Əli xanın gizlənməsini anlamış və axtarışa başlamışdılar. Ev sahibi mehmanlarını bu vəziyyətdən xəbərdar etdi və onlar məcbur olaraq gizləndikləri yerdən çıxıb cəngəlliyə üz tutdular. Bunu bilən qazilərin bir dəstəsi onların arxasınca getdilər, meşənin kənarına çatdılar, aralarında savaş oldu, hərb atəşi şölələndi. Həmin müxalif adamlar qazilərin şərini uzaqlaşdırmağa çalışdılar, onların bəziləri yaralandı, bəziləri isə qətlə yetirildi. Cəngavər igidlər isə onların atdığı oxlardan qətiyyən çəkinməyərək, Əli xandan əl çəkmirdilər. Türkman qorçilərindən biri olan Heydər bəy Dəvəlioğlu gəlib ona çatdı. Əli xanın yoldaşı Kamranın atdığı iki oxun ona dəyməsinə baxmayaraq, Heydər bəy atdan piyada olub Əlixanın üstünə cumdu, bəxti gətirdi, onun kəmərinə əl ataraq tutub saxladı. Əli xanı onun əlindən xilas etmək istəyən Kamran yalın şəmşirlə onun üstünə yüyürdü və bir neçə yerdən onu yaraladı. Heydər bəy öz qeyrət və mərdanəliyindən yenə də Əlixandan əl çəkmədi, amma yaraları ağır olduğundan əli gücdən düşdü və daha Əli xanı tutub saxlaya bilmədi. O qədər saxladı ki, qazilərin biri arxadan gəlib Əli xanı, başqa bir qazi isə Kamranı qucaqlarına çəkdilər. Habelə, onların yoldaşları bir-bir tutuldular. Bu işdən xəbər tutan müzəffər əsgərlərin və amalları zəfər olan qazilərin hücumu nəticəsində müxaliflər tutuldular və cənab xanın yanına gətirildilər. Onları da Əmirə Müzəffər və qardaşı oğlanları kimi zəncirləndilər. Müxaliflərin tutulmaları barədə paytaxta məktub göndərildi" (192).

Bir məlumata görə isə, Əli xanı və onun yaxınlarını evində gizlədən adamın Məskət idi. Bir müddətdən sonra şah mənsubları ondan şübhələnməyə başladılar. Fərhad xanın əmrinə əsasən onu və onun dörd oğlunu tutub düşərgəyə gətirdilər. Fərhad xan onlardan Əli xanla bağlı məlumat almağa çalışdı. Məskət və onun oğulları isə heç nə boyunlarına almadılar. Əli xan isə gizləndiyi evin sahibinin işgəncələrə məruz qalmasını biləndə həmin evi gizlicə tərk edib Mərəki adlanan kəndə gəldi. Yolda ikən Əli xan və

yanındakılar bir qızılbaş dəstəsi ilə rastlaşdılar. Bu dəstə atlara yem toplanması üçün o ətrafa gəlibmiş. Onların arasında bir qarşıdurma baş verdi. Vuruş əsnasında Heydər bəy qorçu özünü Əli xana yetirdi və ondan möhkəmcə yapışdı. Əli xanın silahdaşı olan Kamran bu qorçuya iki ox vurdu və sonra da onu qılıncla doğramağa başladı. Heydər bəy isə son nəfəsinə qədər onu buraxmadı. Elə bu anlarda digər qorçular yetişib həm Əli xanı, həm də onun silahdaşı Kamranı tutdular (193)

Əli xanın ələ keçirilməsi xəbəri Şah Abbas tərəfindən məmnunluqla qarşılandı. Bununla bağlı həm Fərhad xan, həm də Əli xanı ələ keçirən döyüşçü Şah Abbas tərəfindən xüsusi olaraq mükafatlandırıldı. Həmin döyüşçüyə qiymətli daşlarla bəzədilmiş kəmər və ciqqə bağışlandı. Ona böyük miqdarda nağd pul da verildi. Bundan başqa, Əli xanı saxlayarkən şəhid olmuş Heydər bəyin ailəsinə də qiymətli hədiyyələr bağışlandı. Fərhad xan bir müddət Şah Abbasın hökmü əsasında bölgədə qaldı, Gilanın idarəçilik işlərini sahmana saldı. Zülfüqar xan isə əsir götürülmüş qiyam rəhbərləri ilə birlikdə Qəzvinə döndü. Şah Abbasın əmri əsasında Qəzvinin oğruları, başıpozuqları, məsxərəbazları Əli xanın qarşılanmasına göndərildilər. Bu adamların irəli çıxarılması əslində, Əli xanın və onunla həmfikir olanların məsxərəyə qoyulması idi. Əli xan və onunla birlikdə əsir kimi Qəzvinə gətirilənlər bu qismətlə barışmalı oldular. Onları Çehelsütun sarayında Şah Abbasın hüzuruna gətirdilər. Əli xanın bütün üzüdönüklüyünə və yaratdığı təhlükəyə baxmayaraq Şah Abbas onun qətlinə fərman vermədi. Amma onu kifayət qədər danladı və o da xəcalət içində başını aşağı salıb deməyə bir öz tapmadı. Şah Abbasın əmrinə əsasən, əsir alınanlar Qəzvin darğası Şeyx Əhməd ağaya təhvil verildilər. Bu adamlar bir neçə gün Şeyx Əhmədin evində saxlandılar. Sonra qərara alındı ki, Şeyx Əhməd onları aparıb Ələmut qalasına təhvil versin. Şeyx Əhməd də onları aparıb Ələmut qalasına təhvil verdi. İsgəndər bəy Münşinin yazdığına görə, sonradan onlardan bir daha xəbər eşidilmədi. Çox güman ki, onlar elə orada da həyatlarını başa vurdular. Əsir götürülənlər arasında yalnız Kamran azad

buraxıldı. Onun Əli xana son ana qədər sədaqətli qalması və Əli xanın ələ keçməsinin qarşısını almaq üçün fədakarlıq göstərməsi Şah Abbasın xoşuna gəldi. Vəfalılığına görə Kamran həm də şahın qiymətli hədiyyələrinə layiq görüldü və o, xasseyi-şərifə mülazimləri sırasına daxil edildi (194).

Əli xanın və sonra da Əmirə Müzəffərin başladığı itaətsizliyin yatırılması Gilan daxilində nisbi bir sakitlik yaratdı. Mərkəzi hakimiyyətdən qopmağa və müstəqilləşməyə çalışan qüvvələrə ağır zərbə vuruldu. Yerlərə şah hakimiyyətinə sədaqətli olan əmir və əyanların təyin edilməsi ilə idarəçilik işləri də gücəndirildi. Amma o da məlum idi ki, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən qüvvələr hamılıqla aradan qaldırılmamışdı. O cümlədən əjdər tayfasının rəhbəri olan Bu Səid və bir vaxtlar Lahican sipəhsaları vəzifəsini icra etmiş Talişə Kuli şah qüvvələri qarşısında müqavimət göstərə bilməyərək meşələrə çəkilmişdilər. Bu yolla onlar canlarını xilas etməyə çalışırdılar. Şah qüvvələrinin əlinə keçməmək üçün bu insanlar meşələr daxilində sərgərdan həyat sürür və hər gecəni bir məkanda gecələyirdilər. Şah Abbas bu insanların dinc yolla müqaviməti dayandırmasını istəyirdi və ona görə də bir neçə dəfə onlara məktub göndərdi. Həmin məktubların məzmunu belə idi: "Əgər etdiklərindən peşman olub bu astanəyə gələrlərsə, onların təqsirləri əfv olunacaq və şahanə şəfəqqətə layiq görüləcəklər" (195).

İstər Bu Səid, istərsə də Talişə Kuli çıxış yollarının qalmadığını yaxşı başa düşürdü və ona görə də Bu Səid nəhayət ki, Şah Abbasın çağırışından faydalanmaq qərarına gəldi. Bununla bağlı o, Xan Əhməd itaətsizliyinin yatırılmasında öz xidməti ilə fərqlənən və şahın iltifatına layiq görülən Kiya Fəridunun evinə gəldi və bağışlanması üçün onun şah qarşısında vəsatətçi olmasını xahiş etdi. Bu Səid istəyirdi ki, Kiya Fəridun onu şah sarayına aparsın və şahdan onun günahlarının əfv olunmasını xahiş etsin. Görünür, bu barədə Şah Abbasa məlumat çatdırılıbmış. Çünki Şah Abbas məktub göndərərək Kiya Fəriduna Bu Səidə inanmamağı tapşırdı. Kiya Fəridun isə Bu Səidi şübhələndirməmək üçün səfər hazırlıq-

larına başladı. Bu Səid bir neçə gün onun evində qonaq qaldı. Amma o, Kiya Fəridundan şübhələnməyə başladı və günlərin birində qılıncla onun həyatına son qoydu. Sonra da Bu Səid ətrafında olan bir neçə nəfərlə qaçıb yenidən cəngəlliklərə yollandı. Kiya Fıridunun qətlə yetirilməsi xəbəri Şah Abbası çox qəzəbləndirdi və əmr verdi ki, bu qətli həyata keçirənlər tapılaraq məhv edilsinlər. Bu iş həmin vaxt Qəzvin hakimi olan Şeyx Əhməd ağaya tapşırıldı. Şeyx Əhməd ağa bölgəni qarış-qarış gəzərək Bu Səidi tapmalı idi. Eyni zamanda o, bölgə əhalisini xəbərdar etməli idi ki, kimsə Bu Səidə evində sığınacaq verməsin və o, göründüyü halda dərhal həbs edilərək hakimiyyət nümayəndələrinə təhvil verilsin. Həmçinin Qənbər bəy Gözüböyüklü adlı bir əmirə də göstəriş verildi ki, ona həvalə olunmuş dəstə ilə Kuhdəm yolu ilə irəliləyib Talışə Kulini tapsın (196).

Mənbələrdə olan məlumatlara görə belə bir qənaətə gəlmək mümkündür ki, Qəzvin hakimi Şeyx Əhmədin Gilana göndərilməsi heç də təsadüfi deyildi. O, kifayət qədər qətiyyətli bir qızılbaş əmiri idi və mərkəzi hakimiyyətə itaətsizlik edənlərə qarşı barışmaz mövqe tuturdu. Şeyx Əhmədin tabeliyində xüsusi bir dəstə var idi və bu dəstə cəza dəstəsi kimi tanınmışdı. Bu dəstə 500 nəfərdən ibarət idi və dəstənin özünəməxsus geyimi var idi. Dəstə üzvləri başlarına qırmızı rəngdə olan böyük əmmamə qoyurdular və bu əmmamənin kənarına qartal və digər quşların ləläklərini sancırdılar. Onların digər libaslarında da qırmızı rəng üstünlük təşkil edirdi. Verilən tapşırığın vaxtında yerinə yetirilməsi üçün Şeyx Əhməd ağanın rəhbərliyi altına əlavə olaraq 2-3 min nəfərlik atlı dəstəsi də verildi. Mənbələrdə o da bildirilir ki, Şeyx Əhməd həmin dəstə ilə bölgəyə yollandı və şah tərəfindən ona verilmiş tapşırığı icra etdi. O da bildirilir ki, Şeyx Əhməd yerli əhaliyə qarşı amansızlıq göstərdi. Çox güman ki, yerli əhali mərkəzi hakimiyyətdən qaçan insanların gizlədilməsində və ərzaqla təmin edilməsində iştirak edirdilər. Şeyx Əhməd bir neçə gündən sonra Bu Səidi və onun adamlarını ələ keçirə bildi. Eyni zamanda şah qüvvələri Talışə Kulini də ələ keçirdilər və onları mərkəzi hakimiy-

yətə təhvil verildilər. Kiya Fəriduna qarşı göstərdiyi haqsızlığa və amansızlığa görə Bu Səid ağır cəzaya məhkum edildi və qətlə yetirildi. Amma Talışə Kuli şah lütfünə layiq görüldü və onun həyatına toxunulmadı. Bir müddətdən sonra məlum oldu ki, Talışə Kuli şah lütfünə layiq görülsə də heç də mərkəzi hakimiyyətə sədaqətli deyil. O öz həmfikirlərinə xəbər göndərmişdi ki, qızılbaşlara tabe olmasınlar və öz müxalifliyini davam etdirsinlər. Bu məsələ aşkar olunanda onun da qətlinə fərman verildi (197).

Bundan sonra Gilanda mərkəzi hakimiyyətin möhkəmləndirilməsi üçün əlavə addımlar atıldı. Əvvəla, Şeyx Əhməd ağa öz dəstəsi ilə birlikdə əlavə olaraq bir il Gilanda saxlanıldı. Bu qərar itaətsizlik yoluna düşən qüvvələrə ciddi cəzaların verilməsi və mərkəzi hakimiyyətin qorunması istəyi ilə bağlı idi. Sonradan Şah Abbas Gilanı öz şəxsi mülkü elan etdi və oranı xassə mülklər sırasına daxil etdi. Aləmlərin mirzəsi kimi şöhrət tapmış nişapurlu Mirzə Məhəmməd Şəfi Gilanın vəziri vəzifəsinə gətirildi və Gilanın bütün idarəçilik işləri onun rəhbərliyi altına verildi. Mirzə Məhəmməd Şəfi də öz növbəsində Gilanın yerli hakimləri vəzifəsinə özünə sədaqətli insanları gətirməyə müvəffəq oldu. O cümlədən, Rəşt və Kuçsəfanın idarəçiliyi Behzad bəy Astrabadiyə, Fumənin idarəçiliyi Aslan bəyə həvalə olundu (198). Bu təyinatlardan sonra bir neçə il ərzində Gilanda sabitlik bərqərar oldu.

### 6. İstifadə olunmuş mənbə və ədəbiyyat

1.Əfvəştei Nətənzi M. Nəqavətül-əsar fi-zikrül xəyyar. Tehran, 1373, s. 279
2. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Tərcümə - Ziya Bünyadov və Vasim Məmmədəliyev. Bakı, 2004, s. 29
3. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən tərcümə Şahin Fazil. Bakı, 210, s. 680
4. Yenə orada, s. 681-682

5. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, Tehran, 1388, s. 79; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, Tehran, 1391, s. 142; Blou D. Şah Abbas. Tehran, 1390, s. 50
6. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 71
7. Dünyanı bəzəyən Abbasın tarixi, I cild, s. 720; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 64
8. Dünyanı bəzəyən Abbasın tarixi, s. 720;
9. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 77
10. Dünyanı bəzəyən Abbasın tarixi, s. 720
11. Dünyanı bəzəyən Abbasın tarixi, s. 722; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 143-144; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 78
12. Dünyanı bəzəyən Abbasın tarixi, s. 7222; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 144; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 78
13. Dünyanı bəzəyən Abbasın tarixi, s. 723-724
14. Yenə orada, s. 724
15. Yenə orada
16. Yenə orada, s. 725
17. Yenə orada
18. Dünyanı bəzəyən Abbasın tarixi, s. 725; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 146; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 80
19. Dünyanı bəzəyən Abbasın tarixi, s. 727
20. Nəqavətül-əsar, s. 288-290
21. Dünyanı bəzəyən Abbasın tarixi, s. 729-730
22. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского. (Историко-географический трактат). Перевод с английского Октая Эфендиева, Акифа Фарзалиева. Баку, 1988, с. 72
23. Blou D. Şah Abbas. Tehran, 1390, s. 50
24. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 147
25. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi. Tehran, 1366, s. 142

26. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s.149
27. Yenə orada
28. Blou D. Şah Abbas. Tehran, 1390, s. 53
29. Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 674
30. Şamlı V. Qisas ül-xaqani. Tehran, 1371, s. 133; Conabedi M. Rövzət üs-səfəviyyə. Tehran, 1378, s. 674
31. Əfvəştei Nətənzi M. Nəqavətül-əsar fi-zikrül xəyyar. Tehran,1373, s. 292
32. Dünyanı bəzəyən Abbasın tarixi, s. 731
33. Yenə orada
34. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi, Ankara, 2011, s. 163
35. Dünyanı bəzəyən Abbasın tarixi, s. 732
36. Yenə orada
37. Yenə orada, s. 733
38. Yenə orada, s. 734-735
39. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 149; Blou D. Şah Abbas. Tehran, 1390, s. 53
40. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi, Ankara, 2011, s. 166
41. Dünyanı bəzəyən Abbasın tarixi, s. 756-757
42. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi, Ankara, 2011, s. 166
43. Dünyanı bəzəyən Abbasın tarixi, I cild, s. 758
44. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s.82
45. Conabedi M. Rövzətüs-səfəviyyə, s. 675
46. Dünyanı bəzəyən Abbasın tarixi,s. 759; Conabedi M. Rövzətüs-səfəviyyə, s .676; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 88; Şah Abbas Səfəvi. Tərtibçi Səid Qanei. Tehran, 1387, s. 29-30
47. Conabedi M. Rövzətüs-səfəviyyə, s. 677; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 151; Blou D. Şah Abbas. Tehran, 1390, s. 53
48. Dünyanı bəzəyən Abbasın tarixi, s. 760

49. Conabedi M. Rövzət üs-səfəviyyə, s. 677
50. Dünyanı bəzəyən Abbasın tarixi, s. 760
51. Dünyanı bəzəyən Abbasın tarixi, s. 761; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 90
52. Dünyanı bəzəyən Abbasın tarixi, s. 762
53. Şamlı V. Qisas ül-xaqani. Tehran, 1371, s. 162
54. Dünyanı bəzəyən Abbasın tarixi, I cild, s. 761
55. Conabedi M. Rövzət üs-səfəviyyə, s. 678; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 111
56. Dünyanı bəzəyən Abbasın tarixi, s. 762; Conabedi M. Rövzətüs-səfəviyyə, s. 679; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 112
57. Dünyanı bəzəyən Abbasın tarixi, s. 762; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 112
58. Dünyanı bəzəyən Abbasın tarixi, s. 762; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s.112
59. Dünyanı bəzəyən Abbasın tarixi, s. 764-765
60. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s.113
61. Dünyanı bəzəyən Abbasın tarixi, s. 765
62. Yenə orada, s. 766
63. Yenə orada, s.769
64. Yenə orada
65. Dünyanı bəzəyən Abbasın tarixi, s. 770; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 114
66. Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 75
67. Yenə orada, s. 75-76
68. Dünyanı bəzəyən Abbasın tarixi, s. 782
69. Dünyanı bəzəyən Abbasın tarixi, s. 784; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 114
70. Dünyanı bəzəyən Abbasın tarixi, s. 789; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 115
71. Dünyanı bəzəyən Abbasın tarixi, s. 789

72. Dünyanı bəzəyən Abbasın tarixi, s. 790-791; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 116; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 76-77
73. Dünyanı bəzəyən Abbasın tarixi, s. 792
74. Yenə orada
75. Yenə orada, s. 803
76. Dünyanı bəzəyən Abbasın tarixi, s. 802; Conabedi M. Rövzət üs-səfəviyyə, s. 707-708
77. İsgəndər bəy Türkman. Tarix-e Aləmara-ye Abbasi. Cild əvvəl. Tərtibçi Fərid Yəzdi. Tehran, 1390, s. 539; Dünyanı bəzəyən Abbasın tarixi, s. 794
78. Tarix-e Aləmara-ye Abbasi. Cild əvvəl, s. 540; Dünyanı bəzəyən Abbasın tarixi, s. 796-797
79. Conabedi M. Rövzət üs-səfəviyyə, s. 708
80. Dünyanı bəzəyən Abbasın tarixi, s. 795-796
81. Conabedi M. Rövzət üs-səfəviyyə, s. 709
82. Tarix-e Aləmara-ye Abbasi. Cild əvvəl, s. 541; Dünyanı bəzəyən Abbasın tarixi, I cild, s. 797
83. Tarix-e Aləmara-ye Abbasi. Cild əvvəl, s. 542; Dünyanı bəzəyən Abbasın tarixi, I cild, s. 798
84. Tarix-e Aləmara-ye Abbasi. Cild əvvəl, s. 543; Dünyanı bəzəyən Abbasın tarixi, s. 798
85. Tarix-e Aləmara-ye Abbasi. Cild əvvəl, s. 543; Dünyanı bəzəyən Abbasın tarixi, s. 800
86. Conabedi M. Rövzət üs-səfəviyyə, s. 711
87. Yenə orada
88. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 117; Belan L. Zendegi-ye Şah Abbas, s. 79
89. Dünyanı bəzəyən Abbasın tarixi, s. 802; Belan L. Zendegi-ye Şah Abbas, s. 79; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 574
90. Dünyanı bəzəyən Abbasın tarixi, s. 803
91. Yenə orada, s. 804

92. Dünyanı bəzəyən Abbasın tarixi, s. 805-806; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 119
93. Dünyanı bəzəyən Abbasın tarixi, s. 811
94. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 574
95. Dünyanı bəzəyən Abbasın tarixi, s. 812
96. Dünyanı bəzəyən Abbasın tarixi, s. 813; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 118
97. Dünyanı bəzəyən Abbasın tarixi, s. 816
98. Dünyanı bəzəyən Abbasın tarixi, s. 818-819; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 118
99. Dünyanı bəzəyən Abbasın tarixi, s. 819; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 118; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 577-578
100. Dünyanı bəzəyən Abbasın tarixi, s. 820; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 122;
101. Dünyanı bəzəyən Abbasın tarixi, s. 821; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 123;
102. Dünyanı bəzəyən Abbasın tarixi, s. 822
103. Yenə orada, s. 822
104. Yenə orada
105. Yenə orada, s. 826
106. Yenə orada, s. 827
107. Yenə orada, s. 828
108. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 119
109. Dünyanı bəzəyən Abbasın tarixi, s. 828; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 123
110. Dünyanı bəzəyən Abbasın tarixi, s. 829; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 123
111. Dünyanı bəzəyən Abbasın tarixi, s. 829
112. Yenə orada, s. 830
113. Yenə orada
114. Yenə orada
115. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 121

116. Conabedi M. Rövzət üs-səfəviyyə, s. 713; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 121
117. Dünyanı bəzəyən Abbasın tarixi, s. 838-839
118. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1378, s. 399
119. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, s. 205
120. Yenə orada, s. 209-210
121. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 142; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 580; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 79
122. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 79
123. Name-ye Xan Əhməd be Şah Abbas, s. 871-872/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 871-872
124. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 80
125. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 128
126. Name-ye Xan Əhməd Gilani be Şah Abbas, s. 873-875/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 873-875; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 147-148
127. Cavab. S.876/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 876-879; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 148
128. Cavab. S.878/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 876-879; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 149
129. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 151
130. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 590
131. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 158; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 591
132. Dünyanı bəzəyən Abbasın tarixi, s. 841
133. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 155

134. Molla Cəlaləddin Münəccim. Tarix-e Abbasi ya ruzname-ye Molla Cəlal. Tehran, 1366, s. 115; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 156
135. Molla Cəlaləddin. Tarix-e Abbasi, s. 115; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 153
136. Dünyanı bəzəyən Abbasın tarixi, I cild, s. 842
137. Name-ye Şah Abbas be Xan Əhməd, s. 880-882/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 880-882
138. Dünyanı bəzəyən Abbasın tarixi, I cild, s. 843
139. Yenə orada
140. Dünyanı bəzəyən Abbasın tarixi, s. 844; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 167; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 593
141. Dünyanı bəzəyən Abbasın tarixi, s. 844-845
142. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского. Перевод с английского
Октая Эфендиева, Акифа Фарзалиева. Баку, 1988, с. s. 72-73
143. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 183
144. Name-ye Şah Abbas be Sultan Murad sevvom dər bare-ye Xan Əhməd, s. 889-890/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 888-891
145. Name-ye Şah Abbas be Sultan Murad sevvom dər bare-ye Xan Əhməd, s. 890-891
146. Name-ye Sultan Murad sevvom be Şah Abbas dər bare-ye Xan Əhməd, s. 897/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 892-899; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 185
147. Name-ye Sultan Murad sevvom be Şah Abbas dər bare-ye Xan Əhməd, s. 898/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 892-899; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 185
148. Name-ye Sultan Murad sevvom be Şah Abbas dər bare-ye Xan Əhməd, s. 898-899
149. Yenə orada, s. 899
150. Dünyanı bəzəyən Abbasın tarixi, s. 855

151. Name-ye Şah Abbas be Sultan Murad sevvom dər bare-ye Xan Əhməd, s. 900-902/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 900-905
152. Name-ye Şah Abbas be Sultan Murad sevvom dər bare-ye Xan Əhməd, s. 902
153. Name-ye Şah Abbas be Sultan Murad sevvom dər bare-ye Xan Əhməd, s. 904; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 188
154. Name-ye Şah Abbas be Sultan Murad sevvom dər bare-ye Xan Əhməd, s. 905; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 189
155. Name-ye Şah Abbas be Sultan Murad sevvom dər bare-ye Xan Əhməd, s. 905; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 84
156. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 85
157. Yenə orada, s. 85
158. Name-ye Şah Abbas be Sadəddin Məhəmməd, müfti-ye Osmani dər bare-ye Xan Əhməd, s. 911-912/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 911-913
159. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 85-86
160. Cavab (Molla Saddədinin Şah Abbasa cavabı), s. 914-915/ Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 914-916; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 191-192
161. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 86-87
162. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 191
163. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 193-194; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 602
164. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 87-88
165. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 189-190
166. Yenə orada, s. 190-191

167. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s.602; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 89
168. Name-ye Sultan Məhəmməd Salis be Şah Abbas (tərcüməsi),s.271-274/ Şah Abbas. Məcmue-ye əsnad və məkateb-e tarixi. Tərtib edən Ə.Nəvayi. Cild II, Tehran, 1366, 271-274
169. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s.602; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 89
170. Şah Abbas. Məcmue-ye əsnad və məkateb-e tarixi. Tərtib edən Ə.Nəvayi. Cild II, Tehran, 1366, s. 219
172. Yenə orada, s. 772
173. Yenə orada, s. 778
174. Yenə orada, s. 772-773
175. Yenə orada, s. 780
176. Yenə orada, s. 781
177. Yenə orada, s. 782
178. Dünyanı bəzəyən Abbasın tarixi, s. 861; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 212
179. Dünyanı bəzəyən Abbasın tarixi, s. 863
180. Dünyanı bəzəyən Abbasın tarixi, s. 863; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 212
181. Dünyanı bəzəyən Abbasın tarixi, s. 865
182. Dünyanı bəzəyən Abbasın tarixi, s. 865; Molla Cəlaləddin. Tarix-e Abbasi, s. 120; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 83; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 213
183. Dünyanı bəzəyən Abbasın tarixi, s. 865
184. Yenə orada, s. 914
185. Yenə orada, s. 916
186. Yenə orada, s. 919-920
187. Yenə orada, s. 920-921

188. Dünyanı bəzəyən Abbasın tarixi,  s. 921; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 215
189. Dünyanı bəzəyən Abbasın tarixi,  s. 922; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 215
190. Dünyanı bəzəyən Abbasın tarixi, s. 919
191. Dünyanı bəzəyən Abbasın tarixi, s. 922; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 215
192. Dünyanı bəzəyən Abbasın tarixi, s. 923
193. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 216
194. Dünyanı bəzəyən Abbasın tarixi, s. 924; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 216
195. Dünyanı bəzəyən Abbasın tarixi,  s. 925; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 217
196. Dünyanı bəzəyən Abbasın tarixi, s. 926; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 217
197. Dünyanı bəzəyən Abbasın tarixi, s. 926; Conabedi M. Rövzət üs-səfəviyyə, s. 725; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 219
198. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 225



I Şah Abbasın portreti. Rəssam – Əli bəy Hüseynzadə

Şah Abbasın xalça üzərində təsviri



Şah Abbasın portreti

## III FƏSİL
## MƏRKƏZİ HAKİMİYYƏTƏ QARŞI BAŞ VERƏN QİYAMLARIN YATIRILMASI

### 1.Lur üsyanının yatırılması

Şah Abbasın hakimiyyətinin ilk illərində mərkəzi hakimiyyətə qarşı üsyan və itaətsizliklər səltənətin digər vilayətlərində də özünü göstərməkdə idi. Qeyd edildiyi kimi, varislik hakimiyyətinin mövcud olduğu əyalətlərdə mərkəzdənqaçma meylləri daha güclü idi. Belə vilayətlərdən biri də Luristan vilayəti idi. Bu vilayət Səfəvi dövlətinin cənub qərbində, ərəblər yaşayan bölgənin sərhədində yerləşirdi. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi İsgəndər bəy Münşi bu vilayətin sərhədlərini belə müəyyənləşdiridi: “Xorrəmabad, Xavə, Əlşətr, Sədmərə və Həzmeyn vilayət[lər]ində yaşayan Lurkuçek tayfaları qədim əyyamdan bəri batinən şiə (təşəyyö) olmaları və əhli-beyti uca tutmaları ilə fərqlənmişlər. Onun torpaqları bir tərəfdən Həmədan vilayətinə və Əlişəkərə birləşir, digər tərəfdənsə Xuzistan ülkası ilə hüdudlanır. Uzunluğu Bərucerd qəsəbəsindən başlayıb İraqi-Ərəbin Bağdad və son mahallarınadək uzanır və təxminən yüz fərsəxdir” (1).

Luristan lurları çoxlu sayda müxtəlif qəbilələrdən ibarət idi və mövcud olan məlumat görə hələ Səfəvi dövləti yaranmasından xeyli əvvəl bu qəbilələrin ağsaqqalları bir yerə toplanaraq Həkrədi qəbiləsindən olan Şücaəddin Xurşidi özlərinə vali və əmir seçdilər. Şücaəddin qəbilələr arasında hörmət və ehtiram sahibi olan bir insan idi və apardığı idarəçilik işlərində də qəbilələrin hörmətini qazana bilmişdi. O, insanlarla həm ədalətlə, həm də insafla davranırdı və buna görə onun özünü və ailə üzvlərini pir kimi tanıyırdılar. Lur əhalisi Şücaəddini və onun övladlarını “Abbasi” kimi qəbul edirdilər. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərinin müəllifi bu məsələyə toxunurdu, lakin bunun nə ilə bağlı olması haqqında konkret cavab ortaya qoymurdu. Onun bir mülahizəsinə görə, Şücaəddin Xurşidinin nəsil şəcərəsi Həzrət Əliyə gedib çatırdı və

ona görə onun da Abbasi xanədanından olduğu güman edilirdi. Adı çəkilən əsərin müəllifinin digər bir mülahizəsinə görə isə, lurlar xilafət xəzinəsinə vergi verdikləri üçün bütünlükdə tayfa “Abbasi” tayfası kimi tanınmışdı (2).

Səfəvi dövlətinin meydana gəlməsindən əvvəl də bu vilayət irsi hakimiyyətə malik idi və həmin irsi hakimiyyət Səfəvi dövründə də saxlanıldı. Luristanın Səfəvi dövlətinin tərkibinə qatılması Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edir. Şah İsmayıl səltənətinə daxil olmuş vilayətləri bir-bir fəth edəndə lur hakimləri də onun hakimiyyətini qəbul etmək seçimini etdilər. O dövrdə Luristan hakimi olan Şah Rüstəm adlı birisi Şah İsmayılın sarayına gələrək ona itaətini bildirdi. Bu hərəkətinə görə, Şah Rüstəm də Səfəvi sarayında nəvaziş və qayğı ilə qarşılandı və o, həmin vilayətin hakimi vəzifəsində saxlanıldı. İsgəndər bəy Münşinin verdiyi məlumata görə, Şah Rüstəmin çox uzun saqqalı var idi və onun bu saqqalı Səfəvi sarayında çoxlu sayda qiyməti daşlarla bəzədilmişdi. Sonradan Şah Rüstəm Səfəvi sarayına həmişə belə qiyafədə gələrmiş. Yəni Şah Rüstəm sarayda böyük hörmətə malik idi. Lakin onun oğlu Əmir Cahangir bu hörməti və münasibəti qoruyub saxlaya bilmədi. Şah Təhmasibin hakimiyyəti illərində o, mərkəzi hakimiyyətə qarşı müəyyən iddialar irəli sürməyə başladı. Şah Təhmasibin bundan heç də xoşu gəlmədi və onun tapşırığı əsasında sərhəd bölgəsinin əmirül-ümərası olan Abdulla xan Ustaclının rəhbərliyi altında bir qoşun dəstəsi Əmir Cahangirin cəzalandırılmasına göndərildi. Əmir Cahangir bu qoşun dəstəsinə müqavimət göstərə bilmədi və ələ keçirilərək qətlə yetirildi. Eyni zamanda Əmir Cahangirin bütün ailəsi talanlara məruz qaldı. Onun övladları olan Şah Rüstəm və Məhəmmədi canlarını qurtarmaq üçün Bağdada pənah apardılar. Əmir Cahangirin qızının əri olan Seyid Əmirşah Qasım dövrünün tanınmış və nüfuzlu seyidlərindən biri idi. Həmin seyid Şah Təhmasibdən Əmir Cahangir ailəsinin bağışlanmasını xahiş etdi. Şah Təhmasib də bu xahişi qəbul etdi və Əmir Cahangirin övladlarının geri qayıtmasına və irsi hakimiyyətə sahib olmasına icazə verdi. Luristan vilayəti bu iki qardaş arasında

bölündü və onların idarəçiliyinə verildi. Hər iki qardaş Səfəvi sarayına sədaqətli olacaqlarını bildirsələr də yalnız Şah Rüstəm bu vədinə sadiq qaldı. Məhəmmədi isə müəyyən müddətdən sonra mərkəzi hakimiyyətdən uzaqlaşmağa başladı. Məhəmmədinin itaətsizliyi haqqında xəbərlər təsdiqlənən kimi, Şah Təhmasibin əmrinə müvafiq olaraq Həmədan hakimi Əmir xan Mosullu onun üzərinə qoşun çəkdi. Məhəmmədi ələ keçirilərək şah sarayına göndərildi. Şah Təhmasibin hökmünə əsasən, Məhəmmədi həbs edildi və Ələmut qalasına göndərildi. Həyatının sonlarına yaxın Şah Təhmasib onun günahlarını bağışlayaraq həbsdən azad etdi və nəzərdə tutmuşdu ki, onu yenidən öz əvvəlki vəzifəsinə bərpa etsin. Məhəmmədi isə şahın lütfünü gözləmədən icazəsiz olaraq Luristana qaçdı və oradan əfv olunması üçün şah sarayına məktub göndərdi. Şah Təhmasib onun üzrünü qəbul etdi və onu cəzalandırmaqdan əl çəkdi. Şah Təhmasibin vəfatından sonra Osmanlı qoşunlarının Səfəvi hüdudlarına ilk hücumu zamanı Məhəmmədi öz ailəsi ilə birlikdə Osmanlı himayəsini qəbul etməyi məqsədəuyğun saydı. Ondan sonra oğlu Şahverdi irsi hakimliyin sahibi oldu. Onun hakimliyi Həmzə Mirzənin vəliəhdliyinin sonlarına yaxın başladı. Luristan hakimlərinin isə hələ II Şah İsmayılın hakimiyyətin illərindən başlayaraq Osmanlı itaətini qəbul etdiyi bildirilir. Osmanlı qoşunlarının bölgədə fəallaşması, Şirvan üzərinə hücumları görünür lur hakimlərində güclüyə tabe olmaq meyli yaratmışdı. II Şah İsmayılın hakimiyyəti dövründə lur hakiminə Osmanlı təbəəliyini qəbul etdiyi üçün Osmanlı sarayından xələt, sancaq və qılınc verilmişdi. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində də Luristanın Osmanlı dövlətini bağlılığı davam etdi. Mövcud olan məlumata görə, Luristan hakimi hətta Osmanlı sarayından bəzi sancaqların ona bağışlanmasını xahiş etmiş və bu xahişinə müsbət cavab almışdı (3).

Şah Abbasın hakimiyyətinin ilk illərində Luristanın Osmanlı dövlətinə bağlılığı qalmaqda idi. Belə ki, 1588-ci il oktyabr ayının sonlarında Şah Abbas Xorasan üzərinə qoşun çəkməsindən və onun paytaxtdan uzaqlaşmasından istifadə edən Osmanlı sarayı

Bağdad sərdarı Sinan paşa Cığaloğlunun rəhbərliyi altında qoşun dəstəsini Nəhavənd istiqamətində göndərdi. Osmanlı qoşunları Həmədan hakimi Qorxmaz xanı məğlub edərək onu əsir götürdülər. Lur hakimi Şahverdi xan da Osmanlı dövlətinin bölgədəki fəallaşmasını gördükdə, Bağdad hakiminin yanına öz elçilərini göndərdi və ona itaəti etməyi qəbul etdiyini bildirdi. 1590-cı ildə Səfəvi-Osmanlı sülh anlaşmasının əldə edilməsi bölgədə yeni bir şərait yaratdı və həmin illərdə Şahverdi xan da mürəkkəb bir duruma düşdü. O, bir tərəfə açıq-aydın meyl göstərməkdən çəkinərək tərəddüdlü bir vəziyyətlə qarşılaşdı. İsgəndər bəy Münşinin yazdığı kimi, həmin vaxtlarda Şahverdi xan hər iki tərəfə baxırdı, başında həm şahlıq, həm də sultan tacını gəzdirirdi. Lakin bu vəziyyət çox da uzun sürmədi. Osmanlı sarayı ilə sülh anlaşmasını əldə etdikdən sonra Şah Abbas səltənət daxilində mərkəzi hakimiyyətin möhkəmləndirilməsinə, qiyam yolu tutmuş hakimlərin itaət altına gətirilməsinə başladı. 1590-92-ci illərdə Mərkəzi hakimiyyətə qarşı itaətsizlik yolunu tutmuş bir sıra hakimlər ciddi cəzalandırılandan sonra Şahverdi xan da nəhayət ki, aydın qərar qəbul etmək qərarına gəldi. O, hiss etdi ki, artıq iki saraya meyl etmək siyasətini davam etdirmək mümkün deyil və hansı sarayın hakimiyyəti altında olması haqqında seçim edilməlidir. Belə bir vəziyyətdə Şahverdi xan öz xalası oğlu Hüseyn bəyi şah sarayına göndərdi və onun vasitəsilə Səfəvi şahından əfv olunmasını xahiş etdi. Şah Abbas bu xahişi qəbul etdi və Şahverdi xanın Abbasilər xanədanına mənsubluğunu və vilayət daxilində şiəliyin yayılmasını nəzərə alaraq ona xüsusi qayğı da göstərdi. Şahverdi xan öz xan rütbəsini məhz həmin il aldı, onun bacısı şah hərəmxanasına gətirildi və bununla Şahverdi xan ilə Səfəvi şahı arasında nikah qohumluğu da yarandı. Eyni zamanda Şahverdi xan özü də şah ailəsi ilə qohumluq məsələsini qaldırdı və nəticədə Şah Təhmasibin qardaşı Bəhram Mirzənin oğlu Bədiüzzəaman Mirzənin qızını özünə nikah etdirdi (4).

Səfəvi şahı ilə nikah qohumluğunu əldə etməsindən sonra Şahverdi xanın həm Luristanda, həm də bölgədə nüfuz və hökmü da-

ha da artdı. Vilayət daxilində o öz əcdadlarından daha böyük əzəmət və iqtidara sahib oldu. Mövcud məlumata görə, Şahverdi xanın idarəçiliyi altında olan ərazilər Həmədandan başlayaraq Xuzistana və Bağdada qədər uzanırdı. Hökmü və nüfuzu artdıqca Şahverdi xanın fərdi iddiaları da geniş meydan almaqda idi. Bu iddialar onun əməllərində də özün göstərməkdə idi. Şah Abbas ilk vaxtlar Şahverdi xanın əməllərinə və ərköyünlüyünə göz yumurdu və onun itaət altından çıxmayacağına ümid edirdi. Şahverdi xan isə ona qarşı göstərilən iltifatdan lazım olan nəticəni çıxarmırdı və bu da onun özbaşınalığını artırırdı. Onun özbaşınalığı o qədər artdı ki hətta ətraf əraziləri də öz nəzarəti altına almaq fikrinə düşdü. O cümlədən, Şahverdi xan Borucərdin də nəzarət altına gətirilməsi planları var idi. Şahverdi xan yaxın ətrafda yaşayan qızılbaş tayfalarının üzərinə tez-tez hücumlar təşkil edir və bu tayfalara məxsus mal-qaranı, mülkləri talan edərək özü ilə aparırdı. Bayat tayfası üzərinə hücum zamanı bu tayfanın rəhbəri Uğurlu sultan Bayat müqavimət göstərməyə çalışsa da, Şahverdi xan onu üstələdi və həyatına da son qoydu. Bu isə Şahverdi xanın iddialarının genişlənməsinə əlavə bir təkan verdi. Şah Abbas onun qızılbaş tayfaları üzərinə hücumu və Uğurlu sultanı da qətlə yetirməsi xəbərindən nəhayət ki, qəzəbləndi. Qarşısı alınmayacağı təqdirdə Şahverdi xanın başqa tayfalar və ərazilər üzərinə hücum edəcəyi istisna deyildi (5).

Bir məlumata görə, Şahverdi xan hələ Borucərdi nəzarət altına alanda Şah Abbas ona qarşı qoşun çıxarmaq istəyirdi. Lakin Gilan itaətsizliyinin aradan qaldırılması zəruriliyi onun Borucərdə qoşun çıxarmasını təxirə saldı. Şah Abbas həm də ehtimal edirdi ki, Şahverdi xan ətrafda cərəyan edənlərdən bir nəticə çıxararaq mərkəzi hakimiyyətə itaətdən uzaqlaşmayacaqdır. Lakin Gilan qiyamçılarının ciddi cəzalandırılması da Şahverdi xan üçün bir dərs olmadı. Başqa bir məlumata görə isə, Şah Abbas özbək qoşunlarının hücumunun qarşısının alınması üçün Xorasana növbəti dəfə yürüşə hazırlaşanda Uğurlu sultan Bayata göstəriş verdi ki, Luristan və Borucərddən əlavə qoşun dəstələri toplasın. Uğurlu sultan da

bu məqsədlə bölgəyə gələrək Şahverdi xanla qarşılaşmalı olmuşdu. Şahverdi xanın qüvvələrinin müqaviməti ilə rastlaşanda Uğurlu sultan onun yanına öz adamını göndərib gəlişinin və ona göstərilən müqavimətin məqsədini öyrənməyə çalışdı. Lakin o öz elçisini yola salmağa macal tapmamış Şahverdi xan ətrafındakı böyük qüvvə ilə Uğurlu sultanın üzərinə hücum etdi və onu qətlə yetirdi. Bu məqam "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində belə təsvir edilmişdir: "Ləşkər toplamaq və yasaq tədarükü görməkdən ötrü Uğurlu Sultan Bayat Borucərdə gəldi, amma hələ bayat ləşkəri gəlib onun başına yığışmamışdı ki, Şahverdi qəfildən onun üstünə ləşkər çəkərək döyüşə gəldi. Bu iki-üç ildə əlahəzrət şahla heç bir ziddiyyətə olmayan Uğurlu Sultan bunu müşahidə etdikdə çaşğınlıq içərisində qaldı, belə ki, nə irəli getməyə qüvvəti, nə də geri çəkilməyə qeyrəti qalmadı. Bayat qazilərindən birini onun hücumunun səbəbini öyrənmək və etdiyi aqibəti pis olacaq belə bir yaramaz hərəkətin səbəbini bilmək üçün Şahverdinin qarşısına göndərmək istədi. Bu fikir hələ həyata keçməmişdi ki, əlvar ləşkərinin qaraltısı göründü. Uğurlu Sultan zərurət üzündən irəli yürüdü, amma döyüşdə bir o qədər də cidd-cəhd göstərmədi. Qarşı tərəfdənsə, Şahverdi xanın yoldaşları qorxu-hürkü bilmədən cəngə başladılar. Bayat ləşkərindən zəif olan əlvar ləşkəri onları məğlub etməyə başladı. Səbat ayağını yerə möhkəm dirəyən Uğurlu Sultan mərdanə döyüşdü və şəhid oldu, bayat camaatı isə dağılışaraq, öz vətənlərinə qayıtdı. Şahverdi xan qələbə çalmasına baxmayaraq, məğlub olan qoşundan qayğılandı, özünün aqibətini fikirləşməyə başladı, öz yersiz hərəkətindən peşman olub Xürrəmabada getdi, dayısı oğlu Hüseyn bəyi təzədən şahın yanına yollayıb, ağlabatmaz üzrxahlıq etdi. Amma, elə ki, Uğurlu Sultanın öldürülməyi və Şahverdinin cəsarəti şahın qulağına çatdı, şahanə qəzəb odu alovlandı və o, Xorasan səfəri fikrini ürəyindən çıxarıb, qonşuluqda elə yersiz hərəkət edən Şahverdini cəzalandırmağı vacib bildi, özbəklərin dəfini təxirə saldı, hələlik Nişapur məsələsindən vaz keçdi" (6).

Bundan əlavə, Şah Abbas belə bir məlumat da əldə etdi ki, Şahverdi xanın Osmanlı sarayı ilə əlaqələri heç də kəsilməyib. Bu da Şah Abbasın qəzəbini artırdı və qərara aldı ki, Luristan itaətsizliyi tezliklə aradan qaldırılsın. Əks təqdirdə, Şahverdi xanın özbaşınalıqları daha geniş ərazilərə yayıla bilərdi. Ola bilsin ki, Şah Abbasın belə bir niyyətə düşməsindən Şahverdi xan da xəbər tutmuşdu. Ona görə o, bir daha xalası oğlu Hüseyn bəyi şah sarayına göndərdi və günahlarının bağışlanmasını Şah Abbasdan xahiş etdi. Lakin Şah Abbas bu dəfə onun günahlarını bağışlamadı və Luristan üzərinə hücum başlanması barəsində əmr verdi. Bu hücum 1592-ci ildə baş verdi. Şah qoşunlarının Luristan üzərinə yürüşə başlamasını eşidəndə Şahverdi xan məskunlaşdığı Xürrəmabad qalasını tərk etdi və “oradan atının cilovunu Sədmərəyə tərəf döndərib, istinin şiddətli, vaxtında, sərətan [bürcünün] ortasında - hüt [ayındakı] balığın fələk tavasında qıpqırmızı yandığı bir vaxtda Luristanın ən isti və lurların qışlaq yeri olan Sədmərəyə çatdılar. Şahverdi buradan fərar edərək, Luristan və Bağdad sərhədi arasında yerləşən Kurkuha yollandı ki, oradan Bağdada getsin. Luristanın mötəbər əmirlərindən və iki min evin sərdarı olan Mir Qeysər Xamə Bidel ondan dönüb, hümayun orduya qoşuldu. Sədmərədə Şahverdinin Kurkuha getməsi xəbəri eşidildikdə, cahanı bəzəyən rəy belə oldu ki, Sədmərədən orayacan olan iyirmi fərsəx yolu gedib, onu ya tutsunlar, ya da Luristandan birdəfəlik qovsunlar. Ali ordunu və hümayun agrəqi Sədmərədə qoyub, Bəhram intiqamlı qazilər başdan-başa dağlarla dolu olan həmin uzaq məsafəni bir gecə-gündüz ərzində qət etdilər. ... Belə məlum oldu ki, [Şahverdi] Luristandan qaçıb, özünü rumilərin ölkəsinə çatdırmışdır. Sülh şərtlərinə görə rumiyyəyə mənsub olan ölkəyə daxil olmaq qadağandır və buna görə də [qazilər] ayaq saxladılar və əzəmətli orduya qayıtdılar” (7).

Onun qaçmasından sonra Xürrəmabad qalası şah qoşunlarının əlinə keçdi. Şahverdi xanın ətrafına toplaşmış əmir və əyanların bir çoxu isə şah qoşunlarının düşərgəsinə gələrək öz itaətlərini bil-

dirdilər. Şah Abbasın hökmü ilə Mehdiqulu xan Şamlı vilayətin hakimi vəzifəsinə təyin edildi (8).

Sonradan isə Şah Abbasın hökmü ilə Luristanda irsi hakimiyyət bərpa edildi və vilayətin hakimi vəzifəsinə Şahverdi xanın əmisi oğlu Sultan Hüseyn gətirildi. Şahverdi xanın vilayət daxilində özbaşınalıqları artanda onun əmisi oğlu Sultan Hüseyn öz yurdunu tərk edərək Kəlhərdə məskən salmışdı. Şahverdi xanın qaçmasından sonra Sultan Hüseyn şaha müraciət etdi və vəziyyətini ona anlatdı. Şah Abbas da Şahverdi xanın özbaşınalıqlarının qurbanı olmuş Sultan Hüseynə iltifat göstərdi, onu öz qayğısı altına aldı. Şah Abbasın hökmü ilə Mehdiqulu xanın hakimliyi altına verilmiş Xürrəmabad şəhəri və ona bağlı olan ətraf ərazidən başqa Luristanın bütün əraziləri Sultan Hüseynin idarəçiliyi altına verildi. Bundan başqa bölgədə olduğu zaman Şah Abbas lur ağsaqqallarına, böyüklərinə şahanə nəvaziş göstərdi, onlara Sultan Hüseynin xidmətində olmağı tapşırdı. Lur ağsaqqalları da şah inayətindən razı qalaraq ona yüz min baş qoyun hədiyyə etdilər. Şahın əmri ilə bu hədiyyə qəbul edildi və şah qoşununun əsgərləri arasında bölüşdürüldü. Şah Abbas Luristanda vəziyyəti öz yoluna qoyduqdan sonra qoşunla Xorasana yollanmaq və özbək qoşunlarının hücumunun qarşısını almaq niyyətində idi. Bu məqsədlə də Luristandan hərəkətə başladı. Lakin elə yolda ikən Xorasanda vəziyyətin dəyişməsi (bu barədə aşağıda danışılacaq) barədə məlumat aldı və bundan sonra Qəzvinə doğru hərəkətə başladı (9).

Şah Abbas Qəzvinə döndükdən sonra Şahverdi sultan ətrafında olan qüvvələrlə Luristan üzərinə qoşun çəkdi və öz əvvəlki mövqeyini yenidən geri qaytarmağa cəhd göstərdi. Lakin onun bu cəhdi bir nəticə vermədi. "Şahverdi xan Abbasi də onunla birlikdə olan bir dəstə əlvar camaatı ilə Luristana gəldi, oranın hakimi olan əmisi oğlu Sultan Hüseynə hücum etdi, onu tutdu, qətlə yetirdi və istədi ki, Luristanda bir də öz istila və iqtidar bayrağını qaldırsın, amma qəhr qəhrəmanı olan padşahdan qorxub öz fikrini həyata keçirə bilmədi. O, Luristan hüdudunda heyvanlar kimi (hərəkətülməzbuh) hərəkət edirdi" (10).

Şahverdi xanın Luristana qayıtmaq xəbərini alanda Şah Abbas da ona qarşı qoşun dəstəsi göndərdi. Səltənət vəkili vəzifəsinə təyin olunmuş Hatəm bəy Ordubadi və Fərhad xan qoşun dəstəsi ilə Luristana göndərildi. Bu əmirlərə tapşırıq verildi ki, onlar Şahverdi xanın Luristana qayıtmasının qarşısını almaqla mərkəzi hakimiyyətin orada möhkəmləndirilməsinə nail olsunlar. Şahverdi xan görəndə ki, öz niyyətinə nail ola bilmir, onda şah nümayəndələri ilə əlaqəyə girdi, onlardan günahlarının bağışlanmasına kömək göstərilməsini xahiş etdi. Şahverdi xan and qəbul etdi ki, daha heç bir zaman şah itaətindən üz döndərməyəcək, əvvəli vəzifəsinə bərpa olunacağı təqdirdə mərkəzi hakimiyyətə sədaqətli qalmaqla bərabər, şah xəzinəsinə də ildə bir min tümən vergi ödəyəcəkdir. “O hüdudda sərgərdan halda olan Şahverdi xan Abbasi öz qorxusundan etibarlı adamlarını onların və əzəmətli əmirlərin yanına yollayıb, şah dərgahına bəndəlik edəcəyini və öz keçmiş əməllərindən peşman olduğunu bildirdi, əlini acizlik və biçarəlik ətəyinə atdı, onların vasitəsiylə əfv olunmasını xahiş etdi. Onlar da Ərəbistan valisi və Kuh-Giləviyyə hakimlərinin qəlblərinin alınması və onların xatircəm olmalarından ötrü belə məsləhət gördülər ki, onu şahın inayəti ilə nəvazişləndirsinlər və yenidən Luristan hakimliyini verməklə başıuca etsinlər. Buna görə də, adına istimalət hökmü yazıldı və onu xosrovanə əfv sarıdan xatircəm etdilər, görüşmək istədilər, [amma] Şahverdi xan qorxusundan görüşə curət etmədi. Arada elçilər gediş-gəlişi başlandı. Onun xatircəmliyi üçün Fərhad xan və etimadüddövlə bir neçə adamlarıyla, o hüduda yerləşən Allah əhli (əhlüllah) olan böyük bir şəxsin məzarı üstünə getdilər və Şahverdi xan da iki yüz nəfərlə gəlib onlarla görüşdü, şaha öz bəndəliyini izhar etdi, and içib dedi: "Əgər şah onun üsyan yazısını əfv qələmi ilə pozarsa, bütün ömrüm boyu xidmətkarlıq yolundan çıxmayacağam". Onun, sözünün sədaqətdən uzaq olduğunu bilən Fərhad xan və etimadüddövlə vaxtın məsləhətinə qulaq asdılar, onu xosrovanə dostluqdan ümüdvar etdilər, həmin vilayətin idarəsi yenidən onun adına yazıldı, ona qiymətli şah xələti geydirildi, Xürrəmabad qalasını boşaldıb ona

verdilər. Şahverdi xan da şahanə dostluğa şükr edib ali divana min tümən peşkəş verməyə boyun oldu, dövlət başçılarına layiqli xidmətlər göstərdi" (11).

İsgəndər bəy Münşi "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin başqa bir yerində yazırdı ki, Şahverdi xan bağışlanmasını Fərhad xan və Hatəm bəy Ordubadi vasitəsilə şah qarşısında qaldırdı. Əvvəlcə, Hatəm bəylə Fərhad xan onun bağışlanacağına vəd verdilər. Adları çəkilən əmirlər səltənət maraqları və bölgədə vəziyyətin sabitləşdirilməsi üçün Şahverdi xanın bağışlanmasını məqsədəuyğun sayırdılar. Şah Abbas isə etdiyi əməllərə və göstərdiyi sədaqətsizliyə görə Şahverdi xanı bağışlamaq istəmirdi. Lakin ona sədaqətli olan Hatəm bəylə Fərhad xanın məsləhətini də kənara qoymadı. Şahverdi xana yeni bir fürsət verildi. Lakin Şahverdi xan bu fürsəti də layiqincə qiymətləndirə bilmədi. Çünki o, Şah Abbasa sədaqətli olacağını vəd etsə də, Osmanlı mənsubları ilə də əlaqəni kəsmədi. Onda belə bir güman var idi ki, Şah Abbasın ona qarşı qəzəbi sovuşmamışdır və nə vaxtsa onun cəzalandırılması üçün əməli addımlar atıla bilər. Belə bir durumla qarşılaşacağı halda Şahverdi xan yenidən Osmanlı mənsublarına sığına bilərdi. Şah Abbas da bundan xəbərdar idi. Çox çəkmədi ki, Şah Abbasın Şahverdi xana qarşı münasibəti yenidən dəyişdi. Bunun səbəbini İsgəndər bəy Münşi belə təsvir edirdi: "Şahverdi xan da özünün sabiqdəki haqsız əməlləri barədə düşündüyündən həmişə vahimə, qorxu içərisindəydi, əlahəzrətin ona hücum edəcəyindən vahiməyə düşmüşdü. Elə buna görə də, Borucərdə və Silaxura yaxın məsafədə yerləşən Xürrəmabada gəlmirdi. Bu il istiliyin şiddətlənməsindən və qəbilə ağsaqqallarının təkliflərini nəzərə alaraq Xürrəmabada gəldi. Elə bu əsnada Seyid Mübarəkin oğlu Seyid Bədr izn almadan ali ordudan Ərəbistana getdi, Luristan hüdudunda Şahverdi xan adamlarının əlinə keçdi. Əlahəzrət Əbülqasim bəy Qorçi Evoğlunu onu gətirməkdən ötrü yolladı. Şahverdi xan bir neçə gün o qorçinin başını söz-söhbətlə aldadıb Bədr xanın [dərgaha] göndərilməsini ləngitdi, vaxtı hiyləgərliklə uzatdı. Buna görə də,

onunla Əbülqasim bəy arasında təhdidamiz söhbətlər başlandı. Axırda başqa çarə tapmadı və xanı istər-istəməz yola saldı” (12).

Əbülqasım bəy də geri qayıdandan sonra Şahverdi xanın davranışını, şah fərmanının icrasına qarşı laqeyd münasibətini Şah Abbasa çatdırdı. Bu söhbəti eşidəndən sonra Şah Abbas daha sərt qərara əl atdı və Şahverdi xanın qətli barəsində fərman verdi (13).

Qeyd etmək lazımdır ki, bu hadisə 1597-ci ildə baş vermişdi. Həmin vaxta qədər səltənət daxilində xeyli ciddi hadisələr baş vermişdi, Şah Abbas hakimiyyəti istər səltənət daxilində, istərsə də səltənət xaricində kifayət qədər möhkəmlənmişdi. Mərkəzi hakimiyyətə qarşı yönəlmiş itaətsizlik hallarına qarşı Şah Abbasın artıq daha səmərəli şəkildə mübarizə aparmaq imkanları var idi. Şah Abbas yaxşı anlayırdı ki, Şahverdi xanın əköyünlüyünə və itaətsizliyinə qarşı artıq ciddi tədbirlərin həyata keçirilməsi vaxtı çatmışdır. Amma Şah Abbas onu da yaxşı bilirdi ki, Şahverdi xan kifayət qədər təcrübəli və hiyləgər bir insandır və ona görə də ehtiyatın əldən verilməsi yenə də Şahverdi xanın səltənətdən baş götürüb qaçmasına gətirib çıxara bilər. Şahverdi xan doğrudan da, Şah Abbasın ona qarşı sərt tədbirlərə əl atacağını gözləyirdi və ona görə də Qəzvin sarayında olan tanışları vasitəsilə Şah Abbasın hərəkətlərini və qərarlarını nəzarət altında saxlamağa çalışırdı. Şah Abbas isə onu duyuq salmamaq üçün İsfahana getmək adı altında hərəkətə başladı. Şah karvanı Qəzvin-Savə-Avə-Borucərd marşrutu üzrə irəlilədi və qısa müddət ərzində Borucərdə yetişmək mümkün oldu. “O həzrət isə uzaqgörən əqli ilə bilirdi ki, agah, tədbirli və hüşyar adam olan Şahverdi xan özünün mühafizəsi barədə düşünməyə bilməz. Xanı aldatmaqdan ötrü guya İsfahana gedəcəyini izhar etdi və o səmtə yola düşdü. Savəyə qədər gedib Savədən Avəyə təşrif apardı, Avədənsə Luristana tərəf yollandı. İyirmi fərsəxlik yol olan Borucərdə çatanadək gecə-gündüz yol getdi. O həzrət isə uzaqgörən əqli ilə bilirdi ki, agah, tədbirli və hüşyar adam olan Şahverdi xan özünün mühafizəsi barədə düşünməyə bilməz. Xanı aldatmaqdan ötrü guya İsfahana gedəcəyini izhar etdi və o səmtə yola düşdü. Savəyə qədər gedib Savədən

Avəyə təşrif apardı, Avədənsə Luristana tərəf yollandı. İyirmi fərsəxlik yol olan Borucərdə çatanadək gecə-gündüz yol getdi, fələklər fələyi kimi (fələkül-əflak) bircə ləhzə belə hərəkətdən qalmadı. Müqəddəs ordu mülazimlərinin əksəriyyətinin atları taqətdən düşdü. Borucərd yaxınlığına çatana qədər müqəddəs məiyyətdə beş yüz başdan çox at qalmamışdı. Şah, müzəffər döyüşçülərin gəlib-çatmalarından ötrü orada bir az gözlədi, sonra yenidən atlanaraq sübhədək səkkiz fərsəx yol getdi, günortaya yaxın Xürrəmabad qəsəbəsinə yetişdi. O vaxt şahın yanında qırx-əllidən artıq qorçi, qulam və başqa yaxın adamı yox idi. Xülasə, bu qəsəbənin kənarından ötüb, xanın qala yaxınlığında yerləşən evinə tərəf yollandılar ki, oranı mühasirəyə alaraq, Allahın köməyi ilə xanı ələ keçirsinlər" (14).

Şahverdi xanın adamları hər gün şah karvanının harada olması haqqında ona məlumatlar çatdırırdılar. Şah karvanı hətta İsfahanda olanda da Şahverdi xan bu karvanın Xürrəmabada gələcəyi barədə ciddi şübhələrə malik idi. Bununla belə Şahverdi xan ehtiyatını əldən vermirdi. Şah karvanını yaxınlaşacağı təqdirdə daha asanlıqla qaça bilməsi üçün Şahverdi xan Bəlaymərdan adı ilə məşhur olan Sədmərə Xeymələri adlanan yerə gedib orada gözləyirdi. Hətta o öz atlarını da yəhərli vəziyyətdə saxlayırdı ki, zərurət yarananda dərhal aradan çıxa bilsin. Ətrafa göndərdiyi adamlarından şah karvanının İsfahana yollanması xəbərini alanda Şahverdi xan bir qədər sakitləşə bildi. Lakin onun bu sakitliyi uzun sürmədi. Çox tezliklə bəlli oldu ki, şah karvanı Xürrəmabada tərəf hərəkətə başlamışdır. Şahverdi xan bu xəbəri alan kimi, ehtiyatı əldən vermədi, qoşunundan xəbərsiz halda cəld atlandı, fərzənd və övrətlərini də atlara mindirdi, pullarını, qızıl-gümüşünü və qiymətli əşyalarını götürüb, bir neçə nəfər etibarlı xidmətçiləri ilə birlikdə bölgədən qaçmaq yolunu tutdu. Yaxınlaşmaqda olan şah qulamları onu təqib etməyə başladılar. Ancaq şah qulamları uzaqdan və sürətlə gəldikləri üçün atları çox yorulmuşdu. Ona görə şah qulamları Şahverdi xanın dəstəsini sona qədər təqib edə bilmədilər və geri qayıtmalı oldular. Şah Abbas özü də qoşun dəs-

təsi ilə həmin gün Xürrəmabada yetişdi və məlum olanda ki, Şahverdi xan ailəsi ilə birlikdə bağlar arasındakı çadırlarda gecələyibdir, Şah Abbas da həmin məkana yollandı. Burada da Şahverdi xanın artıq qaçıb getməsi bəlli oldu. Şahı müşayiət edən dəstənin atları əldən düşmüşdü və ona görə də Şahverdi xanın təqib edilməsi fikrindən əl çəkildi (15).

Şah Abbasın rəhbərliyi altında olan qoşun dəstəsi üç gün ərzində Xürrəmabadda dayandı. Həmin gün ərzində lur qəbilələrinin nümayəndələri və ağsaqqalları Şah Abbasın görüşünə gəldilər, ona öz sədaqətlərini bəyan etdilər. Şah Abbas tərəfindən Şahverdi xanın ardınca xüsusi bir dəstə göndərildi və həmin dəstəyə rəhbərlik Hüseyn xan adlı birisinə həvalə olundu. Hüseyn xanın Şahverdi xanla qan qohumluğu var idi və güman edilirdi ki, o, Şahverdi xanın hansı istiqamətə üz tutmasını daha yaxşı müəyyənləşdirə bilər. Sonra şah dəstəsi də Xürrəmabaddan hərəkətə başlayaraq Sədmərəyə gəldi. Sədmərəkdə olanda Şah Abbas qaçqın düşmüş Şahverdi xanın tapılıb geri qaytarılması üçün daha bir dəstə təşkil etdi. Bu dəstəyə şahın xassə qulamları daxil edilmişdi və ona rəhbərlik də Allahverdi xan Qullarağasına tapşırılmışdı. Şahverdi xanın ardınca bir dəstə də başqa bir istiqamətdən göndərildi. Bu dəstəyə isə Qənbər ağa Silahdarbaşı rəhbərlik edirdi. Şahverdi xan isə artıq Səfəvi hüdudlarını tərk edərək Osmanlı ərazilərinə daxil olmuşdu. O, ehtimal edirdi ki, iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının şərtlərinə görə, Səfəvi qoşun dəstəsi Osmanlı ərazilərinə daxil ola bilməyəcək və Şah Abbas təhlükəsindən kənar qala biləcəkdir. Belə bir ümidlə Şahverdi xan Cəngəle-Səncəgqala adlanan bir qalaya sığındı. Bu qalanın komendantı da onun qohumlarından biri idi. Amma şah mənsubları onun ələ keçirilməsi üçün ciddi axtarışlarını davam etdirdilər. Qullarağası Allahveri xanın rəhbərliyi altında olan qulamlar Şahverdi xanın gizləndiyi qalanın ətrafına qədər gələ bildilər. Həmin ətrafda çobanlıq edən birisindən məlumat əldə edildi ki, Şahverdi xan bu qala daxilində gizlənmişdir. Şah qulamları bu xəbəri alandan sonra atlardan yerə düşüb qala darvazası üzərinə hücum çək-

dilər. Doğrudur, qala darvazaları bağlandı və onların qala daxilinə girməsinin qarşısı alındı. Lakin qulamlar şah tərəfindən çox ciddi tapşırıq aldıqları üçün geri qayıtmağa cürət etmədilər. Onlar qala daxilinə yol tapmaq üçün darvazalara od vura bildilər. Yanan darvazaların alovu ətrafı bürüdü. Darvaza ətrafında elə bir alov şölələndi ki, qala mühafizəçiləri cürət edib onu söndürə bilmədilər. Darvazaların yarısı yanandan sonra şah qulamları qalxanlara sığınmaqla qala divarlarının üzərinə qalxa bildilər. Qala daxilindəkilər də qulamlara müqavimət üçün döyüş mövqeləri tutdular. Onların bəzisi qala divarları üzərində, bəzisi də elə yaşadıqları evin damında döyüşə qatıldılar. Şahverdi xan da məskunlaşdığı evin damına çıxdı və əlindəki tüfənglə şah qulamlarını hədəfə aldı. Lakin onun tüfəngindən güllə açılmadı. Belə olanda, Şahverdi xan tüfəngi yerə atdı və ox-kamanla özünü müdafiə etməyə çalışdı. Bəzi məlumata görə, Şahverdi xan heç ox-kamandan da lazımınca istifadə edə bilmədi. Qala əhalisi şah qulamlarına müqavimət göstərməyin əbəs olduğunu görüncə silahı yerə qoydu və barışıq yolunu tutdu. Allahverdi xanın əmrinə əsasən, silahı yerə qoyan şəhər əhalisinə toxunulmadı. Yalnız Şahverdi xan ələ keçirildi və qaladan bayıra çıxarıldı (16).

Mənbə məlumatından aydın olur ki, Şahverdi xan heç də döyüşsüz təslim olmadı. O, həyatını qorumaq üçün müqavimət göstərməli oldu və bu zaman onun yanında olan xidmətçilərindən bir neçəsi də həyatını itirməli oldu. Allahverdi xan əsir götürdüyü Şahverdi xanı, onun qardaşlarını və yaxınlarını öz düşərgəsinə gətirdi, onlarla mülayimliklə davrandı və sonra da onlar şah düşərgəsinə yollandılar. Sədmərə çayına yaxınlaşanda Allahverdi xanın tapşırığı ilə Şahverdi xanın boynuna zəncir saldılar. Allahverdi xan bu zəncirin bir ucundan yapışıb Şahverdi xanı Şah Abbasın hüzuruna gətirdi. İsgəndər bəy Münşi yazırdı ki, Şahverdi xan kifayət qədər xoş görünüşlü və qürurlu bir insan idi. Əgər o, şah qarşısında günahlarını boynuna alıb əfv olunmasını istəsəydi, bəlkə də ona ciddi cəza verilməzdi. Amma Şahverdi xan bunu etmədi. Ona görə də Şahverdi xan və onun yaxın ətrafından olan bir

neçə adam qətlə yetirildi (17). Bununla da, mərkəzi hakimiyyətə qarşı Luristanda mövcud olan müxalifətçilik bazasına güclü bir zərbə vurulmuş oldu.

## 2. Şah Abbas tərəfindən hakimiyyətin müvəqqəti təhvil verilməsi

1593-cü ildə, hakimiyyətinin 6-cı ilində Şah Abbas müvəqqəti olaraq üç günlüyə hakimiyyətdən əl çəkdi və səltənətin idarəçiliyi bu sahədə heç bir təsəvvürü və təcrübəsi olmayan bir dərvişə həvalə olundu. Belə bir qərar qəbul edilməsi Şah Abbasın çox inandığı və dövrün tanınmış münəccimlərindən biri olan Mövlana Cəlaləddin Məhəmməd Yəzdinin verdiyi məsləhətdən sonda oldu. Səltənət idarəçiliyində və dövlət işlərinin aparılmasında artıq kifayət qədər təcrübəsi olan Şah Abbas bu məsləhəti qəbul etdi, ulduzların seyri əsasında iddia olunan təhlükənin aradan qaldırılması üçün Şah Abbas hətta hakimiyyətlə vidalaşmağa da razı oldu. Münəccimlərin müşahidələrinə görə, yaxın günlərdə iki ulduzun dörd yerə parçalanması baş verəcəkdi. Şah Abbasın ulduzu guya həmin vaxt ən aşağı nöqtədə olduğu üçün ona ziyan yetişə bilərdi. Münəccimlərə görə, ulduzların bu hərəkəti və parçalanmaları yer üzərində şah-şöhrətli bir adamın həyatla vidalaşmasına gətirib çıxaracaqdı. O da bildirilirdi ki, həyatla vidalaşmalı olan həmin adam hazırda İran ərazisindədir (18). Bununla, əslində, münəccimlər Səfəvi şahının ulduzların oyunlarının qurbanına çevrilə biləcəyinə işarə edirdilər.

Mövlana Cəlaləddin səltənət münəccimləri arasında ən nüfuzlusu idi. Ona görə də o özündə cəsarət taparaq ulduzlardan gözlənilən təhlükə barəsində Şah Abbasa məlumat verdi. Mövlana Cəlaləddin eyni zamanda şah üçün ehtimal olunan təhlükədən çıxış yolunu da göstərdi. O, “gərək əlahəzrət səyyarələrin böyük təsiri və iki ulduzun dörd yerə parçalanması baş verəcəyi o üç gün müddətində özünü səltənət və padşahlıqdan kənar edib, qətli vacib olan günahkar adamlardan birini padşah qoysun. Həmin üç gündə

qoy bütün hərbçilər və rəiyyət həmin şəxsin fərmanına tabe olsunlar, o isə öz padşahlıq işini yerinə yetirsin. Üç gün keçdikdən sonra qətl olunması üçün qoy o günahkar adamı böyük ulduzun nəhs işlər üzrə şəhnəsinə və dövran hadisələrinin cəlladına tapşırsınlar" (19).

Şah Abbas bu məsləhəti qəbul etdi və səltənət daxilində ölüm cəzasına layiq ola biləcək birisinin axtarışına başlandı. Tezliklə belə birisi tapıldı və o, Yusifi Tərkeşduz (ox qabları tikən adam) adlı bir dərviş oldu. Saray əyanlarının, mənsublarının və münəccimlərinin fikrincə, Yusifi Tərkeşduz öz əməlləri ilə, dini dəyərlərə qarşı etiqadsız münasibətinə görə çox ciddi cəzaya layiq idi. Belə bir fikir mövcud idi ki, Yusifi Tərkeşduz elə özü kimi etiqadsız keyfiyyətlərə malik Xosrov adlı birisi tərəfindən haqq yolundan azdırılmışdı. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində Xosrovun kim olması, nə ilə məşğul olması və Yusifi Tərkeşduzu da necə öz tərəfinə cəlb edə bilməsi haqqında müxtəsər məlumat mövcuddur. İstər Xosrov, istərsə də Yusifi Tərkeşduz haqdan kənar işlərlə məşğul olduqları və bu əməlləri ilə digərlərini də düz yoldan azdırdıqları üçün cəzaya layiq olan insanlar kimi təqdim edilmişdir. Bildirilir ki, Xosrov Qəzvinin Dərb-Kuşək məhəlləsinin yaramaz xasiyyətli sakinlərindən biri idi. Onun əcdadları quyuqazan olmuşdular. Bu peşə Xosrovun xoşuna gəlmədi və o, daha asanlıqla pul qazanmaq yolunu tutdu. Ona görə də Xosrov qələndərlik və dərvişlik libasına büründü və özünü xalqa belə tanıtmağa başladı. O, bir müddət Qəzvindən də uzaqlaşdı, bəzi təriqətlərlə əlaqəyə girdi, axtarışında olduğu müəyyən təcrübəni əldə etdi və sonra yenidən Qəzvinə döndü. Xosrov bir məscidin kənarında özünə kiçik bir yer tapdı və həmin yeri özünün dərvişlik mərkəzinə çevirdi. Burada Xosrov yanına gələn insanlara özünəməxsus öyüd-nəsihət verir və dərvişliyini başqalarına qəbul etdirirdi. Cəhalət içərisində olan adamlar arasında onun səsinə səs verənlər də tapılır və beləliklə, onun ətrafında toplaşanların sayı da artırdı. Xosrovun təbliğ etdiyi dəyərlər heç də düzgün etiqada uyğun deyildi və ona görə də üləma və etiqad sahibləri onun danış-

dıqlarını qəbul etmirdilər. Hətta bu üləma və ruhanilər şəhər sakinlərinə Dərviş Xosrovun moizələrinə qulaq asmağı qadağan etmişdilər. Dərviş Xosrova eyni zamanda məscidə daxil olmaq da qadağan edildi. Onun haqqında yayılan söz-söhbət hətta Şah Təhmasibə də gedib çatdı. Ona verilən məlumata görə, şəhər əhalisi arasında kifayət qədər məşhur olan Dərviş Xosrovun söhbətləri və əməlləri məzhəbə zidd idi. Şah Təhmasib də onu yanına çağırdı və apardığı söhbətlə bu dərvişin əqidəsinin nədən ibarət olduğunu aydınlaşdırmağa çalışdı. Dərviş Xosrov özünü şah qarşısında kifayət qədər təmkinli apardı, şəriət, şiə məzhəbi və islami dəyərlər haqqında şahın yanında şübhə və etiraz doğurmayacaq söhbətlər etdi. Sonra Dərviş Xosrov onun haqqında söylənilənlərin doğru olmadığını da şah qarşısında əsaslandırmağa cəhd göstərdi. Şah Təhmasib onun danışdıqlarında islama zidd bir fikir görmədiyi üçün azad buraxdı. Amma göstəriş verdi ki, Dərviş Xosrova məsciddə yer verilməsin, cəhalət içərisində olan insanların onun ətrafına toplaşmasının qarşısı alınsın (20).

Dərviş Xosrov bu qərardan özünəməxsus nəticə çıxardı. Yəni onun hərəkətlərində bir təmkinlilik özünü göstərməyə çalışdı. O, ətrafına adamları toplayıb onunla ruhanilərin xoşuna gəlməyən söhbətləri dayandırdı, fiqh elmini öyrənmək üçün üləma və fazil insanların yanına getdi, cümə günləri şəhər əhli ilə birlikdə məscidlərdə namaza dayandı və kimsənin iradına səbəb olmayacaq normal həyata döndü. Ona görə onun haqqında aparılan söz-söhbətlərə də bir ara son qoyuldu. Bir müddətdən sonra Dərviş Xosrov evinə yaxın olan bir məsciddə məskən saldı və öz əvvəlki fəaliyyətini, söz-söhbətlərini yenidən davam etdirməyə başladı. Aqibətsiz və avara həyat sürən bir dəstə adam yenidən onun yanına yol açdı. Bu dərviş Şah Abbasın taxta çıxmasına qədər bir neçə il həmin məsciddə vaxt keçirdi. Onun ətrafına toplaşanların sayı da getdikcə kifayət qədər artdı. Dərviş Xosrov o məscidin yaxınlığında bir təkyə də tikməyə başlayaraq, onun binasını qaldırdı. Məscid adamları Xosrov tərəfdarlarının yığıncağını dağıtmırdılar. Əksinə, o məhəllənin camaatı ona kömək etdi, olduqca gözəl və

yaşıl təkyə və bağça yaradıldı, Dərviş Xosrov da oraya köçdü. Onun evində hər gün növbənöv xörəklər bişirilirdi. Müəyyən vaxtlarda küçə və məhəllələri seyr edib müxtəlif təbəqələrdən olan əhali ilə tanışlıq edən Şah Abbas da Dərviş Xosrovun fəaliyyətindən xəbər tutmuşdu və hərdən bir dərvişin yanına gedib onunla söhbət edirdi. Dərviş Xosrov eşidəndə ki, Şah Abbas yaxınlıqdadır və onun təkyəsi ilə tanış olmaq fikrindədir, dərhal küçəyə qaçdı, təzim etməklə şahı qarşıladı və şahın izni ilə onu təkyəsinə gətirdi. Sonralar da Şah Abbas rəiyyətin vəziyyəti ilə tanış olmaq üçün şəhər küçələrinə çıxanda Dərviş Xosrovun da təkyəsinə baş çəkirdi. O bəzən dərvişin əqidəsini öyrənmək üçün onunla məntiqi danışıqlar aparır, dərvişanə tərzdə allahşünaslığı onun nəzərində cilvələndirməyə çalışırdı. Dərviş isə şah ilə olduqca ehtiyatla davranır, şəriətin xilafına danışmırdı. Şah Abbas bu dərvişlə görüşməyə başlayanda Yusifi Tərkeşduz da artıq onun ətrafına toplaşanlar arasında idi. Yusifi Tərkeşduz da dərvişlik yolunu tutmuşdu və Dərviş Xosrovun əqidəsinin təbliğatçılarından biri idi. Yusifi Tərkeşduz Şah Abbasla görüşlərdə də iştirak etmişdi və bu zaman da Dərviş Xosrov əməllərinin fəal təbliğatçısı kimi Şah Abbasın diqqətini cəlb etmişdi. Şah Abbasın bu dərvişə qarşı marağı saray əyan və əmirləri tərəfindən də təkrarlanırdı. Onlar da Dərviş Xosrovun təkyəsinə ayaq açdılar, ona pul və digər əşyalar bağışladılar. Bu isə Dərviş Xosrovun daha da məşhurlaşmasıma təkan verirdi və onun ətrafına toplaşan müridlərin sayı isə yüzləri keçdi (21).

Dərviş Xosrovun nöqtəvi təriqəti ilə maraqlanması haqqında mənbələrdə də müəyyən məlumatlar mövcuddur. Həm bu təriqət dəyərlərinə istinad etməklə, həm də öz fikirlərini ortaya qoymaqla bir sıra islam normalarını, o cümlədən də şiə təriqət normalarını qəbul etmirdi. Məsələn, o bildirirdi ki, qiyamət yoxdur, insan öz əməllərinin cəzasına bu dünyada çatır, hər kəs yaxşı əməllərinin mükafatını da elə bu dünyada alır. İsgəndər bəy Münşi nöqtəvi təriqətinin əsasları haqqında öz əsərində müxtəsər şəkildə belə bir məlumat vermişdi ki, nöqtəvilər hikmət sahiblərinə əsaslanıb, dünyanı qədim dünya sayırlar və qətiyyən məhşər gününə və qi-

yamətdə ölülərin diriləcəklərinə inanmırlar, yaxşı və pis əməllərinin mükafatını dünyanın rifahında və pis günündə görür, behişt və cəhənnəmi də öz dünyaları ilə əlaqələndirirlər. Dərviş Xosrova görə, cəhənnəm zülm və əziyyət məkanı, cənnət isə asudəlik və rahatlıq məkanı idi. Cənnətin nə demək olduğunu yaxşı başa düşmək üçün Dərviş Xosrov öz müridlərinə şərab içməyi məsləhət görürdü. Ona görə də onun təkyəsində hər zaman şərab içilirdi. Təkyədə hər zaman şərab ehtiyatları da olurdu. Bu məqamlara görə Dərviş Xosrovun müridləri, o cümlədən də Yusifi Tərkeşduz ölüm cəzasına layiq bilinirdi (22).

Yusifi Tərkeşduz ilə Şah Abbas arasında da müəyyən münasibətlər yaranmışdı. Yusifi hətta Şah Abbas üçün ox qabları da tikərdi və hər dəfə bu ox qablarını Şah Abbasa bağışlayanda onun tərəfindən yaxşı hədiyyələr alardı. Dərviş Xosrov da Şah Abbasın mülayim münasibətindən həvəslənərək özünün sirlərini ona açmaqdan çəkinmirdi. Ona elə gəlirdi ki, söhbətlərinə qulaq asdığı üçün artıq Şah Abbas da onun müridləri arasındadır. Bir dəfə Dərviş Xosrov cəsarət edərək Şah Abbasa özünün rəhbərliyi altında 50 min nəfər döyüşkən müridin olması haqqında məlumat çatdırdı. Bu dərviş onu da dedi ki, bu qədər müridlə o istəsə dünyanı da çevirə bilər. Başqa bir dəfə isə Dərviş Xosrov cəsarətə gələrək Şah Abbasdan ona qarşı mövqe tutmuş üləma və ruhanilərin cəzalandırılmasını istədi (23). Şah Abbas onun bu söylədiklərini təmkinlə dinləyirdi və hətta imkan da verirdi ki, o öz sirlərini və ürəyindən keçənləri açıb söyləsin. Bu isə onun Dərviş Xosrov barəsində fikrinin aydınlaşmasına yol açırdı.

Şah Abbas isə bu məclisdə söylənilənlərə qulaq assa da, onların cəfənglikdən uzağa getmədiyinə şübhə etmirdi. Şah Abbasa görə, Dərviş Xosrov və onun ətrafına toplananlar islam şəriətindən kənara çıxırdılar və ona görə də onların fəaliyyətinin məhdudlaşdırılması qərara alındı. Şahverdi xan itaətsizliyinin yatırılması üçün Şah Abbas Luristana yollanmazdan əvvəl bir daha Dərviş Xosrovla görüşdü. Bu səfər barəsində Dərviş Xosrovun nə deyəcəyi onun üçün maraqlı idi və əslində, bu zaman Dərviş Xosrovun

söylədikləri onun haqqında qəti qərar verilməsinə əlavə bir təkan oldu. Dərviş Xosrov məsləhət gördü ki, Şah Abbas bu səfərə yollanmasın. Getmək məcburiyyətinin olacağı təqdirdə isə Dərviş Xosrov Şah Abbasa məsləhət gördü ki, məhərrəm ayının başlamasına qədər geri qayıtsın. Dərvişin sözlərinə görə, məhərrəm ayı ilə başlanan yeni ilin əvvəlində onun müridlərindən biri şahlıq taxt-tacına yiyələnəcəkdir. O sonra da əlavə etdi ki, müridləri arasında Şah Abbasın şah olmaq təcrübəsi daha çoxdur və bu vəzifəyə daha layidir və ona görə də vaxtında geri qayıtsın və şahlıq taxt-tacı da ona qismət olsun. Şah Abbas yenə onun dediklərini təmkinlə dinlədi, cəfəng sözlərinə qarşı etirazını bəyan etmədi. Onun hökmü əsasında, Luristan istiqamətində yürüş başlandı. Şah Abbas və onun dəstəsi Xərqana çatanda Dərviş Xosrovdan məktub alındı. Həmin məktubda da Dərviş Xosrov şaha məsləhət bilirdi ki, səfərini tezliklə başa vurub Qəzvinə qayıtsın. Məktubda o da bildirilirdi ki, Şah Abbas getdiyi yerdə köməyə ehtiyac duyarsa, onda Dərviş Xosrov dərhal döyüşkən bir silahlı dəstəni onun sərəncamına göndərə bilər. Bu məktub Şah Abbası xeyli qəzəbləndirdi. Çünki yazdıqları ilə Dərviş Xosrov əslində, Şah Abbasa meydan oxuyurdu və böyük bir gücə malik olduğunu iddia edirdi. Şah ehtiyat edirdi ki, Qəzvində olmadığı vaxtda Dərviş Xosrov orada hansısa təxribatları törədə bilər. Amma Dərviş Xosrovda vaxtından əvvəl bir şübhə yaratmamaq üçün Şah Abbas məktub gətirən müridə qiymətli xələt və böyük miqdarda nağd pul verib yola saldı. Ardınca isə Şah Abbas Dərviş Xosrovun neytrallaşdırılması haqqında əmr verdi. Bu əmrə əsasən Məlikəli sultan Çarşıbaşının rəhbərliyi əsasında Qəzvinə yüz nəfərlik bir dəstə göndərildi. Məlikəli sultana tapşırıldı ki, sakit şəkildə Dərviş Xosrovun təkyəsi mühasirəyə alınsın, Dərviş Xosrov və onun bütün müridləri həbs edilsin. Bu iş elə sakit bir halda icra edilməli idi ki, şəhər əhlinin bundan xəbəri olmasın və şəhər daxilində hər hansı bir həyəcan yaşanmasın (24).

Məlikəli sultan şahın əmrinin icrası üçün Qəzvinə yollandı, adamları ilə birlikdə Dərviş Xosrovun təkyəsini sakit bir tərzdə

mühasirəyə aldı. Sonra özü Dərviş Xosrovun yanına yollandı və bildirdi ki, ona qiymətli bir xələt gətirmişdir. Dərviş Xosrov heç nədən şübhələnmədən ayağa qalxdı ki, Məlikəli sultanın boxçadan çıxardığı qəbanı çiyninə alsın. Məlikəli sultan əlində həmin qəba dərvişə yaxınlaşdı və güclü bir yumruq zərbəsi ilə onu vurub yerə yıxdı. Dərhal da dərvişin əl-qolu bağlandı. Bundan sonra bayırda hazır vəziyyətdə dayanan silahlı döyüşçülər təkyənin daxilinə gəldilər, təkyə daxilində olan müridlərin bir hissəsinin həyatına son qoydular. Müridlərin bir hissəsi isə həbsə alındı. Həbsə alınanlar içərisində Yusifi Tərkeşduz da var idi (25).

Çox güman ki, Yusifi Tərkeşduz da qətlə məhkum ediləcəkdi. Amma şah Qəzvinə qayıtdıqdan sonra səmada quyruqlu ulduzun müşahidə edilməsi və bu ulduzun taxt-tac üçün yarada biləcəyi təhlükə ətrafında söhbətlər ortaya düşdü. Münəcimmlər, əmir və əyanlar tərəfindən təklif olundu ki, Şah Abbas üç gün müddətinə hakimiyyətdən əl çəkəcəyi halda yerinə elə Yusifi Tərkeşduzu şah elan eləsinlər: "Bu fikir hamının xoşuna gəldi, püşk (qore) Ustad Yusifi Tərkeşduza düşdü. O, dinsizlikdə bütün yoldaşlarından irəlidə gedirdi. Buna görə də, həmin dinsizlər zümrəsindən adı çəkilən Yusifini orduya gətirdilər, əlahəzrət özünü səltənət və padşahlıqdan kənar etdi və padşahlıq ismini o qan tutmuş adama yazdılar, başına şahlıq tacı qoyub, əyninə gözəl libaslar geydirdilər. Hakimiyyətə gəlişi günü onu qiymətli daş-qaşlarla bəzənmiş yəhər və üzəngili bərdəi bir ata mindirdilər və onun padşah olması elanını başı üstündən asdılar. Bütün əmirlər, saraya yaxın adamlar, xidmətçi məmurlar ləşkər və qoşunlarla gələrək, müəyyən olunmuş şəkildə xidmətində dayanıb onu mənzilinə gətirdilər, hümayun divanxanada atdan düşürüb, yemək-içmək məclisi qurdular. Gecələr əzəmətli qorçilər və müzəffər əsgərlər onun keşiyini çəkirdilər. O biçarə də öz əməlinin aqibətini anlayıb, həmin üç günü asudəliklə (fərağət) keçirdi. ...Və əlahəzrət həmin üç gün müddətində özünün iki-üç cilovdarı və xidmətkarı ilə ata süvar olub səltənət işlərinə qətiyyən dəxalət etmədi" (26).

Beləliklə, 1593-cü il avqust ayının 5-8-i arasında Şah Abbas hakimiyyətdən əl çəkdi. Bununla bağlı bir mərasim də keçirildi. Həmin mərasim  Şah Məhəmməd Xudabəndənin hakimiyyətdən əl çəkməsini bəyan etdiyi və Şah Abbasın da taxta çıxmasının rəsmiləşdirildiyi salonda baş tutdu. Şah Abbas öz əli ilə şahlıq tacını Yusifi Dərvişin başına qoydu və onun şah olması bütün saray əhlinə elan edildi. Ona qiymətli paltar geydirildi, cins at bağışlandı və səltənətin idarəçiliyi ona tapşırıldı. Carçılar vasitəsilə Yusifi Tərkeşduzun şahlıq taxtına çıxması bütün şəhər əhlinə də çatdırıldı. Həmin üç gün ərzində Yusifi Tərkeşduzun səltənət idarəçiliyini neçə həyata keçirməsi barəsində, onunla saray mənsubları arasındakı münasibətlərin neçə olması haqqında mənbələrdə yetərincə məlumat yoxdur. Heç şübhəsiz ki, onun şahlığı zahiri bir şahlıq oldu və səltənətin idarəçiliyi də mövcud olan təcrübə üzərində davam etmişdi. Mənbələrdə olan kəsad məlumatdan görünür ki, Şah Abbas doğrudan da səltənət idarəçiliyi işlərindən çəkdi və üç gün ərzində bu işlərə müdaxilə etmədi. Bildirilir ki, o hətta yaxınları ilə birlikdə Qəzvini də tərk etdi (27). Şah Abbasın vəzir və vəkilləri isə öz vəzifələrinin icrasını davam etdirməkdə idilər. Saray mənsublarından biri münəccim Mövlana Cəlaləddinə demişdi ki, Yusifi Tərkeşduzun taxta çıxarılması onun təklifi əsasında baş vermişdir. Yusifi isə hakimiyyətdə olduğu günlər ərzində onun qətli barəsində hökm verə bilər. Onda kimsə bu hökmün qarşısını ala bilməyəcəkdir. Mövlana Cəlaləddin də bu deyilənlərdən qorxuya düşdü və üç gün ərzində Yusifi Cəlaləddinin gözlərindən uzaq durmağa çalışdı. Ün gün keçdikdən sonra Şah Abbas yenidən taxta çıxdı və şahlığını bərpa edib Yusifi Tərkeşduzun qətli barəsində fərman verdi. Dərhal da bu fərman icra edildi və Yusifi Tərkeşduz dar ağacından asılmaqla qətlə yetirildi (28).

Yusifi Tərkeşduzun qətlindən sonra Dərviş Xosrovun təkyəsində yenidən axtarışlar aparıldı və təkyədə şərab tapıldı. Bu zaman dərviş özü hələ salamat idi və həbsdə saxlanılırdı. Dərvişin və onun müridlərinin şəraba meyli olması onların qətli barəsində fərman verilməsinə yol açdı. İlk növbədə mühafizəkar ruhanilər

nöqtəvi təriqətinin tərəfdarı olan Dərviş Xosrov və onun sağ qalmış müridlərinin qətlini tələb etməyə başladılar. Bəzi məlumatlara görə, Şah Abbas şərab içmələrinə görə bu adamların qətlinə elə də meylli deyildi. Çünki saray əhli və şah xanədanı arasında da şəraba meylli insanlar var idi. Amma ruhanilərin birləşərək həmin adamların qətlini tələb etməsi qarşısında Şah Abbas müqavimət göstərilməsini məqsədəuyğun saymadı. Qətl fərmanı verməzdən əvvəl isə Şah Abbas bir daha Dərviş Xosrovu öz dərgahına gətizdirdi və onun hüzurunda olan üləma və ruhanilər Dərviş Xosrova müxtəlif suallar verdilər. Bununla belə, Dərviş Xosrovun qətli hökmü ləğv olunmadı. Şah Abbasın göstərişi əsasında əvvəlcə Dərviş Xosrovun uzun saqqalı qırxıldı, sonra da onun uzunqulaq üstünə otuzdurdular və bu vəziyyətdə onu Qəzvinin küçə və bazarlarında gəzdirdilər. Şəhər küçələrində Dərviş Xosrovu uzunqulaq belində görən, insanlar, arvad-uşaq onun başına daş, kəsək, torpaq yağdırdılar. Səhəri günü Dərviş Xosrovun ayaqlarını bağlayıb onu dəvənin boynundan asdılar və yenə şəhərin küçə-bazarını gəzdirdilər. Bu vəziyyətdə Dərviş Xosrov həyatla vidalaşmalı oldu. Sonra onun meyitini dar ağacına çəkdilər və o, bir həftə dar ağacından asılı qaldı (29).

Dərviş Xosrovun ardınca əməlləri ilə şiə etiqadına zidd mövqe tutan bir sıra digər din xadimləri də Şah Abbas tərəfindən ciddi cəzalara layiq görüldülər. Onlardan biri dövrünün məşhur alimi hesab edilən Mövlana Süleyman Təbib Savəçi idi. Bu mövlananın nəyə görə ruhanilərin etirazı ilə qarşılaşması haqqında mənbələrdə ayrıntılı məlumat toxdur. Ancaq məlum olan odur ki, onun mövcud dini duruma zərərli olan fəaliyyəti Şah Abbasa çatdırılmış və o da bu mövlananın cəzalandırılması tələbi ilə razılaşdırılmışdı. Şah Abbas onun məsələsinə baxılmasını üləmalara tapşırdı. Üləmalar da birdən-birə onun qətlə yetirilməsinin insanlar arasında anlaşılmazlığa səbəb olmaması üçün bir müddət həbsdə saxladılar. Sonra dini etiqadın və şəriətpərvərliyin möhkəmləndiirlməsi və təmiz saxlanması məqsədilə onun qətlə yetirilməsi haqqında hökm verildi. Bu hökm dərhal yerinə yetirildi (30).

Fəaliyyəti ilə din mühitə ziyan gətirdiyi iddia olunan etiqad adamlarından biri də Mir Seyid Əhməd Kaşi idi. Bu din adamının fəaliyyəti də dini mühitin qəlizləşməsinə yönəldilmiş bir fəaliyyət kimi qəbul olunurdu. Şah Abbas belə adamlara qarşı ciddi mövqe tutulmasına yalnız dini mühitin sağlamlaşdırılması kimi deyil, həm də dövlətçiliyin möhkəmləndirilməsi kimi baxırdı. Çünki dövlətçiliyin əsas dayaqlarından biri dini dünyagörüşü idi. Mir Seyid Əhməd Kaşi haqqında yazarkən İsgəndər bəy Münşi onun fəaliyyətinin mahiyyəti haqqında geniş məlumat verməmişdir. Lakin bu din adamının fəaliyyəti elə bir xoşagəlməz durum yaratmışdı ki, Şah Abbas özü öz qılıncı ilə onu iki parça etmişdi. Sonradan onun əşyaları araşdırılarkən nöqtəvi təriqətinə mənsubluğu və bu təriqətlə bağlı risalə yazdığı da məlum olmuşdu. Görünən odur ki, Şah Abbas sarayı tərəfindən nöqtəvi təriqətinin üzvlərinə qarşı ciddi mübarizə aparılırdı. Sonradan bu təriqətə mənsub olan Dərviş Kamal Əqlidi, Dərviş Binyani öz müridləri ilə birlikdə qətlə yetirildilər. Əslində, səltənət daxilində nöqtəvi təriqətinin tərəfdarlarının ovuna başlanmışdı. Məlumdur ki, Fars vilayətində bir neçə din aliminin bu təriqətə mənsubluğu müəyyən edilmiş və onlar dərhal qətlə yetirilmişdilər. Axtarışlar onu göstərdi ki, səltənət daxilində nöqtəvi təriqətinin tərəfdarları xeyli çoxdur və onlar çox fəal şəkildə öz təbliğatlarını aparırlar. Bu məsələ şah sarayı tərəfindən çox böyük nigarançılıqla qarşılandı. Ona görə səltənət daxilində olan nöqtəvilər ya qətlə yetirildilər, ya da təqib edilərək səltənətdən çıxarıldılar (31).

### 3. Xuzistanda baş qaldırmış itaətsizliyin aradan qaldırılması

1593-94-cü illərdə Şahverdi xan Abbasi tərəfindən Luristanda mərkəzi hakimiyyətə qarşı üsyan qaldırıldığı bir vaxtda həmsərhəd bölgə olan Xuzistan əmiri olan Seyid Mübarək şah sarayına tabe olmaqdan imtina etdi. Bu adam hələ Şah Abbas hakimiyyətə gəlməzdən əvvəl bu vilayətin əmiri idi və Şah Abbas taxta çıx-

dıqdan sonra Seyid Mübarək yeni şaha itaət göstərilməsi ilə bağlı laqeyd münasibət nümayiş etdirdi. Əyalətdə yerləşməsi, mərkəzdən xeyli uzaq olması və mərkəzlə bağlılığın zəif olması Xuzistanda da mərkəzdənqaçma meylini gücləndirməkdə idi. Səltənət daxilində, o cümlədən də qonşuluqda olan Luristanda itaətsizlik halının rəvac tapması isə Seyid Mübarəkin müstəqilləşmək niyyətini daha da rövnəqləndirdi. Bölgədə yerləşən Şüştər hakimi Şahverdi xan Əfşar da Seyid Mübarək kimi mərkəzi hakimiyyətə itaətdən üz döndərdi. Bu əmirlər həm məsafəcə bir-birinə yaxın idilər və həm də onların arasında qohumluq əlaqələri var idi. Ona görə də onların mərkəzi hakimiyyətə qarşı mövqeyində bir uzlaşma da mövcud idi. Amma sözsüz ki, Şah Abbas səltənət daxilində baş verən itaətsizlik hallarına qarşı biganə deyildi və fürsət ələ düşən kimi ilk növbədə Şüştər itaətsizliyinin aradan qaldırılması üçün həmin şəhər istiqamətində qoşun dəstəsi göndərdi. Bu qoşun dəstəsinə Murad bəy Cilovdarbaşı Şamlı rəhbərlik edirdi. "O yerin hakimi Şahverdi xan Əfşar ləşkər əyanlarının fikrinin əksinə olaraq dövlətxahlıq və dövlətə bağlılığını nümayiş etdirdi, Murad bəyə izzət və ehtiram göstərib onu qalaya apardı, qalanın açarını ona verdi və istədi ki, özü çıxıb qalanı tərk etsin. Murad bəy buna mane olub onu şahanə inayətdən arxayın etdi, başqa adamları isə qaladan çıxardı. Amma, o, nəhayət əfşar tayfasının hücumundan qorxub, onlarla birgə olan Şahverdi xanı qalada tutaraq qətlə yetirdi, beləliklə də əfşar tayfasını özünə qarşı qaldırdı, onların arasında fitnə və çaxnaşma yüksəldi" (32).

Murad bəy Şüştər qalasını ələ keçirsə də onu qoruyub saxlaya bilmədi. Şahverdi xanın qətl edilməsi xəbəri bəlli olanda əfşar tayfasının adamları Murad bəyə qarşı ayağa qalxdılar. Onlar Murad bəyi Şüştərdən uzaqlaşdırmaq üçün Xuzistan əmiri Seyid Mübarəkdən kömək istədilər.

Seyid Mübarək də əfşarlara belə bir köməyi çatdırmaqdan imtina etmədi. O öz qoşun dəstəsi ilə əfşarların köməyinə yollandı, Dizful qalasını nəzarət altına aldı və sonra da Şüştəri mühasirə etdi. Bu hadisə həmin vaxt baş vermişdi ki, Şahverdi xan Abbasi

də öz hakimliyini bərpa etmək üçün Luristan üzərinə hücum etmiş və orada hakimlik edən Sultan Hüseyni də qətlə yetirmişdi. Elə o vaxt Şah Abbas tərəfindən belə bir qərar qəbul edildi ki, bölgəyə qoşun dəstəsi göndərilsin və bununla, həm Luristanda, həm də Xuzistanda itaətsizlik halının qarşısı alınsın. Həmin qoşun dəstəsinə də Fərhad xanla Hatəm bəy rəhbərlik edirdi. Onların bölgəyə göndərilməsi saray mənsublarının təklifi idi. Güman edilirdi ki, hu təcrübəli əmirlər bölgədə tezliklə vəziyyəti sahmana sala biləcəkdilər. Onlardan əlavə tanınmış qızılbaş əmirlərindən olan Hüseyn xan Şamlı və Nədr xan Möhürdar və digərləri də bölgəyə göndərildilər. Şah Abbas onların tapşırılan vəzifənin öhdəsindən gələ biləcəklərinə əmin olub İsfahana yollandı və bir müddət orada istirahət etdi (33).

Yuxarıda yazılanlardan bəllidir ki, Fərhad xanla Hatəm bəy bölgəyə yetişəndə Şahverdi xan onlarla əlaqə yaratdı və etdiklərindən peşman olduğunu bildirməklə günahlarının bağışlanmasını xahiş etdi. Fərhad xanla Hatəm bəy də vəziyyətin mürəkkəbləşməsindən qaçmaq üçün Şahverdi xanın günahlarının bağışlanmasını və onun əvvəlki vəzifəsinə bərpasını mümkün saydılar. Bununla bağlı Şah Abbas qarşısında da məsələ qaldırıldı. Yəni ilk baxışdan Şahverdi xan Abbasinin başladığı itaətsizlik həll edilmiş oldu. Fərhad xanla Hatəm bəy bu nəticədən məmnun qalaraq diqqətlərini Şüştər istiqamətinə yönəltdilər. Onlar məlumat almışdılar ki, həmin günlərdə Seyid Mübarək Şüştər qalasının mühasirəsini davam etdirmək üzrədir və bu mühasirənin bir qədər də davam etməsi qalanın təslim edilməsi ilə nəticələnə bilər. Ona görə də adları çəkilən əmirlər Luristanda çox da dayanmayıb Şüştərə doğru istiqamət götürdülər. Bu şəhərə aparan yol xeyli uzun idi. Bu yolu qısaltmaq üçün hərəkət etmək çətin olan Kiyalan aşırımından keçmək qərara alındı. Adları çəkilən əmirlər yaxşı bilirdilər ki, bu aşırımdan çox nadir hallarda istifadə olunurdu. Buna baxmayaraq Şüştərə daha tez yetişmək üçün məhz bu aşırımdan keçmək seçimi edildi. Qızılbaş əmirləri əzmkarlıq göstərərək sağ-salamat bu aşırımı adlaya bildilər və bununla da onların Şüştərə olan yolu xeyli

qısalmış oldu. Qoşun dəstəsinın Xuzistana daxil olmasını Seyid Mübarək qorxu və həyəcanla qarşıladı və bu qoşun dəstəsinə müqavimət göstərməyin mümkün olmayacağını anlayaraq Şüştər ətrafından geri çəkilmək yolunu tutdu. O, iqamətgahının olduğu Həvizəyə və Kamalabada yollandı. Şah qoşun dəstəsinin yaxınlaşması ilə mərkəzi hakimiyyətə sədaqətli olan insanlar da fəallaşmağa başladılar və onlar şah qoşunlarına qoşuldular. Fərhad xanla Hatəm bəy isə rəhbərlik etdikləri qoşun dəstəsi ilə Şüştər qalasına yetişib orada dayandılar. Şah fərmanına əsasən Mehdiqulu xan Şamlı Şüştər hakimi təyin edilmişdi. Fərhad xanla Hatəm bəy onu bu vəzifəyə gətirdilər və onunla birlikdə bir müddət Şüştər daxilində və ətrafında idarəçiliyin sahmana salınması ilə məşğul oldular. Şüştər ətrafında idarəçiliyin sahmana salınmasından sonra Fərhad xanla Hatəm bəyin qarşısında dayanan vəzifə Xuzistana doğru irəliləmək və Seyid Mübarəki də itaət altına gətirmək idi. Seyid Mübarək isə Şüştər ətrafında baş verənləri müşahidə etdikdən sonra anladı ki, itaətsizliyi davam etdirməyin bir mənası yoxdur. Ona görə o öz adamlarından birini elçi kimi Fərhad xanla Hatəm bəyin yanına göndərdi və etdiyi əməllərə görə onlardan üzr istədi. O həm də Şüştərdə mərkəzi hakimiyyəti bərpa etmək üçün gəlmiş Murad ağa Cilovdarı qətlə yetirdiyi üçün üzr istədi. Bu hadisəni Seyid Mübarək Murad ağanın kobud hərəkətləri ilə əlaqələndirməyə çalışdı. O, inandırmağa çalışdı ki, şah hakimiyyətinə sədaqətli olub və yenə də bu mövqeyində qalmaqdadır. Sözünün təsdiqi kimi, o, oğlu Seyid Nazirin girov olaraq şah sarayına göndərildiyini söylədi (34).

Seyid Mübarəkin bu xahişinə rəğbətlə yanaşıldı. Çünki Şah Abbas özü də Fərhad xanla Hatəm bəyə tapşırmışdı ki, Seyid Mübarək üzrxahlıq edib bəndəlik məqamına gələrsə əfv olunması mümkün sayılsın. Şah Abbas onun seyidliyini və şiə olmasını nəzərə almağı lazım bilirdi. Ona görə də Seyid Mübarəkin üzrxahlığı qəbul olundu və şah inayətinə layiq görüldü. Mənbədə olan məlumatdan belə aydın olur ki, Seyid Mübarəkin elçiləri bir neçə dəfə Fərhad xanla Hatəm bəyin yanına gəlmiş və onlarla danışıqlar

aparmışdılar. Nəhayət, Seyid Mübarəkin şah lütfünə layiq görüldüyü elan edildi. Bu qərarı çatdırmaq üçün Fərhad xanla Hatəm bəy Seyid Mübarəkin yanına yollandılar. Xuzistan ərəblərinin şah nümayəndələrinə qarşı üsyankar mövqeyi müəyyən təhlükə yaratdığı halda Fərhad xanla Hatəm bəy çəkinmədən Xuzistana yollandılar. Həvizəyə yaxınlaşanda Seyid Mübarək onları qarşılamağa çıxdı. "Seyid Mübarək çoxlu döyüşçü ilə oraya gəldi və bərk qorxu içində onlarla görüşdü. Etdiyi ədəbsizlikləri xatırladan əmirlər ona dedilər: "Əlahəzrət sənin seyid olmağına, Peyğəmbər dudmanına yaxınlığına və şiəliyinin xatirinə etdiyin əməllərin üzərindən əfv qələmi çəkmişdir. Sən əgər sədaqət yolu ilə düz getsən və vergilərdən yayınmasan, gərək bundan sonra elə hərəkət edəsən ki, səndən səmimiyyət, istək və sədaqət əlamətləri görünsün. Ərəbistan hökuməti sabiqdə olduğu kimi sənə veriləcək. Əgər bəndəlik etməkdən bir tük qədər kənar olsan, bu dəfə öz dudmanının cəzalandırılacağından arxayın ola bilərsən". Seyid Mübarək qüsurlarını etiraf edərək təqsirinin əfvinə şükür izhar etdi və dedi: "Mən bundan sonra bəndəlik yəhərini çiynimə qoyub, itaət sırğasını qulağıma taxıb, heç vaxt şahın mübarək razılığı olmayan bir işlə məşğul olmayacağam, bu dövlətin dostu ilə dost, düşməni ilə düşmən olacağam". O, əhd-peyman sözünü ortaya gətirib onları arxayınlaşdırdı. Şahın ona göndərdiyi hədiyyələrdən izzət və şərəf duydu, asudəliklə öz məkanına, əzəmətli əmirlər isə öz ordularına qayıtdılar" (35).

Xuzistan itaətsizliyi də aradan qaldırılandan sonra Fərhad xanla Hatəm bəy Kuh-Giləviyyəyə doğru istiqamət götürdülər. Bu yürüş bölgəyə aramsız yağış yağması mövsümünə təsadüf etdi. Bu yağışlar Şüştər çayını da daşıraraq onun keçilməz bir vəziyyətə gətirdi. Ona görə şah qoşunları bu yürüşü təxminən bir aya qədər təxirə salmalı oldular. Bu da ona gətirdi ki, qoşun dəstəsinin ərzaq ehtiyatı tükəndi, qoşun heyvanlarının yemi azaldı. Nəticədə qoşun əhli də müəyyən çətinliklərlə üzləşməli oldu. Yağışlar dayanandan sonra qoşun dəstəsində olan əmirlərin və döyüşçülərin bir qismi dəstədən uzaqlaşmaq izni aldı. Fərhad xanla Hatəm bəy isə yürüşü

dayandırmadılar və Kuh-Giləviyyəyə yollandılar. Bu vilayətə hakimliyi Şah Abbasın hökmü olmadan əfşar tayfasının təmsilçisi Həsən xan ələ keçirmişdi. Həsən xan görəndə ki, yaxınlaşmaqda olan şah qoşun dəstəsinə müqavimət göstərmək gücü yoxdur, dinc yolla istəyinə nail olmağa cəhd göstərdi. Amma bu cəhd bir nəticə vermədi. Şah mənsubları Həsən xanı, onunla həmfikir olmuş bir neçə əmiri həbsə alıb Qəzvinə göndərdilər. Bundan sonra vilayətin hakimliyi Kazerun hakimi Əmir xan Əfşara, Kazerunun idarəçiliyi isə İsmayıl xan Alplı Əfşara həvalə olundu. Bölgədə mərkəzi hakimiyyətə itaətsizlik göstərmiş bir sıra tayfa və qəbilələr cərimələrə məruz qaldılar. Bundan sonra idarəçilik işləri sahmana salındı və Fərhad xanla Hatəm bəy verilən tapşırığı yerinə yetirib Qəzvinə qayıtdılar (36).

## 4. Kəcur və Rüstəmdarda idarəçiliyin möhkəmləndirilməsi. Gəraylı itaətsizliyinə son qoyulması

1594-cü ildə Şah Abbas tərəfindən diqqət yetirilən məsələlərdən biri də Kəcur və Rüstəmdarda mərkəzi hakimiyyətin möhkəmləndirilməsi məsələsi oldu. Bu bölgəyə Məlik Cahangir Rüstəmdari hakimlik edirdi. Bu hakimlik ona atası Məlik Sultan Mahmuddan irsi olaraq keçmişdi. Məlik Sultan Mahmud din və dövlət işlərində elə də səriştəli və qətiyyətli bir adam kimi qəbul olunmurdu. Onun bu qətiyyətsizliyi vilayət daxilində idarəçiliyin təşkilinə də mənfi təsir göstərirdi. O, Şah Təhmasibin hakimiyyəti illərindən başlayaraq bu vilayətə hakimlik edirdi. Onun əməllərində bir sıra xoşagəlməz hallar baş vermişdi və həmin hallar şah tərəfindən də qəbul edilmirdi. Məsələn, Məlik Sultan Mahmud bacısı qızını öz oğluna namizəd etsə də, sonradan fikrini dəyişib həmin qızı özü almışdı. O, həmin xanımla uzun müddət yaşadı. Məlik Sultan Mahmud dünyasını dəyişdikdən sonra isə həmin xanımı onun oğlu Məlik Cahangir almışdı. Məlik Sultan Mahmud və onun hakimlik etdiyi vilayətin adamları belə qəbahət işlərə tez-tez əl atardılar. Belə qəbahət əməllərin çoxalmasının nəticəsi idi ki,

vilayət daxilində oruc tutanların, namaz qılanların, dua və ibadətlə məşğul olanların sayı da azalmışdı. Vilayət daxilində belə xoşagəlməz əməllərin çoxalması və vilayət hakiminin özünün də belə əməllərə rəvac verməsi Şah Təhmasibin də qəzəbi ilə qarşılanmışdı. Bu əməllərə son qoyulması və mərkəzi hakimiyyətə bağlılığın möhkəmləndirilməsi üçün həmin vilayətə İmamqulu xan Ustaclının rəhbərliyi altında qoşun dəstəsi göndərildi. Məlik Cahangir görəndə ki, bu qoşuna qarşı müqavimət göstərə bilməyəcək, onda hiyləyə əl atdı və şah hakimiyyətinə sədaqətli olacağını bəyan etdi. Bu sədaqətinə inandırmaq üçün Məlik Cahangir tərəfindən İmamqulu xan gizli bir məkanda görüşə dəvət edildi. İmamqulu xan da Məlik Cahangirin sözlərinə inanaraq həmin məkana gəldi və elə oradaca Məlik Cahangirin adamları tərəfindən qətlə yetirildi. Bu xəbər Şah Təhmasibi daha da qəzəbləndirdi. Lakin onun xəstələnməsi, sonra səltənət daxilində daha vacib olan işlərin ortaya çıxması Kəcur və Rüstəmdara qoşun göndərilməsinə imkan vermədi. Şah Abbas hakimiyyətə gələn vaxt Məlik Sultan Mahmud hələ də Kəcur vilayətinin hakimi idi. Amma çox tezliklə o, dünyasını dəyişdi və onun yerinə oğlu Məlik Cahangir hakimliyi öz üzərinə götürdü. Məlik Cahangir həmin vaxtlarda Qəzvinə gəldi və şanın dərgahına yollanaraq ona öz itaətini bildirdi. Şah Abbas da onun gəlişini və sədaqətini bildirməsini xoşluqla qarşıladı, ona öz məsləhətlərini və tövsiyələrini verdi. Məlik Cahangir hətta şahın xüsusi məclislərinin iştirakçısına çevrildi, Kəcur vilayəti şahın hökmü ilə onun idarəçiliyi altına verildi. Həmin günlərdə Fərhad xanla Hatəm bəy Ərəbistan səfərindən qayıdaraq Qəzvinə yetişdilər. Saray və qoşun mənsubları onların qarşılanmasına yollananda Məlik Cahangir kimsəyə demədən sarayı tərk etdi və Kəcur və Rüstəmdar istiqamətində hərəkətə başladı. Sonradan şah sarayında məlum oldu ki, Məlik Cahangir kimsəyə demədən Qəzvindən qaçmışdır. Şah Abbas bundan xəbər tutanda onun arxasınca dəstə göndərildi. Lakin həmin dəstə Məlik Cahangiri haqlaya bilmədən geri qayıtmalı oldu. Məlik Cahangir sadəcə şah sarayını icazəsiz tərk etmədi. O, eyni zamanda Kəcura yetişdikdən sonra

mərkəzi hakimiyyətə tabe olmaqdan üz döndərdi. Ona görə də Şah Abbas Kəcura qoşun dəstəsi göndərmək qərarına gəldi (37).

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərində Məlik Cahangirlə Şah Abbas arasında formalaşan münasibət belə təsvir edilmişdir: "Məlik Cahangir şahın mülazimətinə gedib izzət və ehtiramla qarşılanmış, əlahəzrət məlikdə divanə bir sadəlövhlük gördüyü üçün ona böyük şəfəqqətlə yanaşmışdı. Amma, cəhalət və divanəliyi ona üstün gəldiyindən boş vahiməyə düşərək, izzət və etibara nail olduğuna baxmayaraq, şah astanasından dəli kimi üz çevirdi, saraydan fərar edib Kəcura getdi, qalalarını möhkəmlədib üsyan yolunun yolçusu oldu. Hümayun hökmdar ... Kəcuru almaq və o aqibətsiz sərxoşu ələ keçirmək qərarına gəldi, Allahqulu bəy Qorçibaşının sərkərdəliyi ilə əzəmətli qorçilərə bu işi yerinə yetirmələrini tapşırdı" (38).

Allahqulu bəy qorçubaşı da rəhbərliyi altına verilmiş qoşun dəstəsi ilə Kəcur istiqamətində hərəkətə başladı. Səltənət qoşunlarının yaxınlaşması xəbərini alanda Məlik Cahangir "Marankuh" kimi məşhur olan Kəcur qalasına sığındı və orada müdafiə olunmağa başladı. Şah qoşunları da bu qalanı mühasirəyə aldılar və onun fəthi yollarını aradılar. Allahqulu bəyin dəstəsində toplar da var idi. Həmin toplar xasseyi-şərifə topçularının istifadəsində idilər. Bu heyət qala ətrafına çatan kimi topları uyğun mövqelərdə yerləşdirdilər və onları qalaya tərəf istiqamətləndirdilər. Şah qüvvələri sadəcə qalanı mühasirəyə almaqla kifayətlənmədilər. Onlar hər gün qala üzərinə basqınlar edir və onun fəthi yollarını axtarırdılar. Məlik Cahangir də qala daxilində etibarlı müdafiə olunmaq üçün lazım olan işləri görürdü. Bunun nəticəsi idi ki, qala ətrafındakı döyüşlər dörd aya qədər uzandı. Burada şah qoşunlarına ağır zərbə vurulması və qala daxilindəkilərin azad edilməsi üçün Rüstəmdar vilayətindən kömək gəldi. Rüstəmdarlılar Allahqulu bəyin dəstəsini asanlıqla məğlub edə bilməyəcəyini görəndə hiyləyə əl atmağa cəhd göstərdilər. Həmin vilayətdən olan bir neçə böyük əmirlər belə bir xəyala düşdülər ki, Kəçur ətrafındakı qoşun dəstəsinin rəhbəri Allahqulu bəyi hiylə nəticəsində qətlə yetir-

sinlər. Bu hiylələrini həyata keçirmək üçün rüstəmdarlılar hərəkətə başlamazdan əvvəl şah hakimiyyətinə sədaqətli olduqlarını və şahısevənlər zümrəsindən olduqlarını bəyan etdilər. Sonra da onların 50 nəfərlik bir dəstəsi Allahqulu bəyin yanına gəldi və ona Kəcur qalasının fəthi üçün kömək göstərəcəklərini vəd etdilər. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərindəki məlumata görə, Allahqulu bəy rüstəmdarlıların onun yanına gəlməsi və onların Kəcur qalasının fəthinə kömək vədini Şah Abbasa çatdırdı. Şah tərəfindən bu adamlara qiymətli hədiyyələr göndərildi. Şah Abbas eyni zamanda Allahqulu bəyə belə bir xəbər də yolladı ki, rüstəmdarlıların sözlərinə bütünlüklə inanmasın və onların hiyləyə əl ata biləcəklərini yadından çıxarmasın (39).

Rüstəmdardan gələnlər özlərini hər cəhdlə dövlətə sadiq adamlar kimi göstərməyə çalışırdılar. Onlar bir müddət şah qoşunlarının düşərgəsində qaldılar və şah döyüşçüləri ilə birlikdə gün keçirdilər. Bu adamlar hər gün Allahqulu bəyin çadırına gəlir, Kəcur qalasının fəthi üçün onunla məsləhətləşmələr aparırdılar. Onlar müxtəlif vasitələrlə özlərini dövlətə sədaqətli adamlar kimi göstərməyə çalışsalar da, əslində, öz məkrli planlarının həyata keçməsi üçün münasib anı gözləyirdilər. Allahqulu bəy də sadəlövh xarakterə malik olduğu üçün onların əsil niyyətini ayırdı edə bilmirdi. Bir dəfə o, hamama yollananda Rüstəmdardan gələnlər onun qətlə yetirilməsi üçün münasib fürsətin yetişdiyi qənaətinə gəldilər. Ona görə onlar da öz silahları ilə həmin hamama yollandılar. Təsadüfən bu plandan xəbər tutan birisi xəlvəti şəkildə məsələni Allahqulu bəyə çatdırdı. O da hamamdan çıxmazdan əvvəl yanındakı xidmətçilərdən birini yüzbaşıların yanına göndərdi və onlara hazırlıqlı olmaqla Rütəmdardan gələnlərin həbsini tapşırdı. Bununla, Rüstəmdar adamları həbsə alındılar və zəncirləndilər. Sonra da onların hamısı qətlə yetirildilər. Bu barədə xəbər aldıqdan sonra Məlik Cahangir vəziyyətinin daha da ağırlaşdığını gördü və canını qurtarmaq üçün Kəcur qalasından qaçmağı lazım bildi. O, əvvəlcə yaxın ətrafda yerləşən qalalara pənah apardı. Amma həmin qalalarda etibarlı şəkildə mühafizə olunma-

ğın mümkün olmağını gördükdə, Məlik Cahangir meşə və cəngəlliklərə üz tutdu. Ələ keçməmək üçün o, hər gün bir məkanda gizləndi ki, onun yerini aşkar etmək mümkün olmasın. Məlik Cahangirin Kəcur qalasını tərk etməsi isə yalnız bir neçə gündən sonra şah qorçularına bəlli oldu. Bundan sonra qala üzərinə hücum daha da gücləndi. Bu hücumların birində qalanın kərpicdən tikilmiş bir bürcünü uçurmaq mümkün oldu. Qorçulardan iki nəfər gizlicə həmin bürcə qalxdılar, qala divarları yaxınlığına sakinlər tərəfindən toplanmış odunlara və quru ağaclara od vurub yandırdılar. Bununla, bütün bürcü alov götürdü. Bu alov ətrafa yayılınca qala daxilindəkilər çıxılmaz vəziyyətdə qaldılar, onların fəryadı göylərə ucaldı. Nəticədə qala divarları şah qoşunlarının üzünə açıldı. Şah qorçuları qalaya daxil olaraq orada qalmış Məlik Cahangirin qardaşı Məlik Kəyumərsi ələ keçirdilər. Qalada müqavimətin təşkilində fəallıq göstərən digər adamlar da həbs edildilər və bu qala şah qoşunlarının nəzarəti altına düşdü. Amma iş bununla da bitmədi. Kəcur qalasının ələ keçməsindən sonra şah qorçuları və qaziləri dəstə-dəstə ətrafdakı meşələrə daxil oldular və Məlik Cahangirin izini axtardılar. Onun tapılması və cəzasına çatdırılması Şah Abbasın ciddi tapşırığı idi. Hətta Kəcur qalası ətrafında mühasirə uzananda Şah Abbas kömək üçün ora əlavə qüvvələr göndərdi. Həmin əlavə qüvvələr Gilandan gətirilmişdi. Gilan qaziləri meşə daxilində axtarış apararkən libasını dəyişib öz adamları ilə bir gizlinə sığınan Məlik Cahangirlə qarşılaşdılar. Məlik Cahangir yanındakıları şah qüvvələri üzərinə döyüşə atdı və özü isə oradan qaça bildi. Onun adamları hamısı qətlə yetirildilər. Sonra şah döyüşçüləri Məlik Cahangiri izləməyə başladılar və dar keçidlərin birində onu haqladılar. Məlik Cahangirin yanında bir neçə xidmətçisi və mühafizəçisi də var idi. Onlar təslim olmaq əvəzinə şah döyüşçüləri üstünə atıldılar. Amma bir nəticəyə nail olmadılar və ələ keçdilər. Bununla Kəcurda başlanan itaətsizlik halı da aradan qaldırıldı. Məlik Cahangir və onun ətrafındakılar Şah Abbasın hüzuruna aparıldılar və etdikləri əməllərin cəzası kimi onlar hamısı qətl edildilər (40).

Kəcurun mərkəzi hakimiyyətin tabeliyinə gətirilməsi Rüstəmdarda da mərkəzi hakimiyyətin bərpası ilə tamamlandı. Gilan və Mazandaran arasında yerləşən Rüstəmdar vilayəti Mazandaranın Amelindən Gilanın Tənkabonuna qədərki ərazini əhatə edir. Eni Dəmavənd dağından Xəzər dəryasının kənarına qədərdir. Bu vilayət də irsi olaraq idarə edilirdi. Şah Abbasın hakimiyyətə gəldiyi vaxt bu vilayət Məlik Bəhmən adlı birisinin idarəçiliyi altında idi. Məlik Bəhmən kifayət qədər qəddar adam olmaqla bərabər, həm də iddialı bir hakim idi. Bu keyfiyyətlərinə görə onunla övladları arasında da ciddi ixtilaflar yaranmışdı. Başlıcası isə, Məlik Bəhmən də mərkəzi hakimiyyətdən qopmağa çalışırdı. Onun bu itaətsizliyinin qarşısının alınması üçün Şah Abbas tərəfindən şahlı tayfasının nüfuzlu əmirlərindən biri olan Məhəmməd bəy Biqdelinin rəhbərliyi altında qoşun dəstəsi göndərildi. Məhəmməd bəy Biqdeli də ona verilmiş tapşırığı vaxtında yerinə yetirdi. Məlik Bəhmən, onun ailə üzvləri və yaxınları ələ keçirilərək Qəzvinə göndərildi (41).

1594-cü ildə Şah Abbasın qətiyyəti nəticəsində qarşısı alınan itaətsizliklərdən biri də Əli xan Gəraylının başladığı itaətsizlik idi. Şah Abbas hakimiyyətə gələndə o, Cacərm hakimi idi. Şah Abbas onu həmin vəzifədə saxlamaqla ona bir sıra qiymətli hədiyyələr də göndərmişdi. Amma Əli xan Gəraylı şaha sədaqətində davamlı ola bilmədi. 1593-cü ildə özbək qoşunları bölgədə olanda Əli xan özbək xanı Əbdülmömün xana tabe olmağı üstün saydı və hətta Şah Abbasdan aldığı qiymətli hədiyyələri də ona bağışladı. Əli xanın gümanında özbək qoşunlarının bölgədəki ağalığı uzun sürəcəkdi və həmin müddət ərzində o da öz hakimliyini qoruyub saxlaya biləcəkdi. 1594-cü ildə Şah Abbas qoşun dəstəsi ilə özbək qoşunları üzərinə yürüş etdi. Əsfəreyndə olarkən Şah Abbas ətraf bölgələrin, o cümlədən də Cacərmin hakimlərinin onun düşərgəsinə qoşulacaqlarını gözləyirdi. Lakin Əli xan Gəraylı şah düşərgəsinə gəlmədi. Bu hadisə Şah Abbasın təəccübünə səbəb oldu və Əli xan itaətsizliyinin dərhal yatırılmasını lazım bildi. O belə bir qərar verdi ki, əvvəlcə Əli xan Gəraylı ilə əlaqə saxlansın və onun

yenidən öz sədaqətini bildirəcəyi halda günahı bağışlansın. Bu halda Şah Abbas onu da yanına alaraq Astrabad itaətsizliyinin aradan qaldırılmasına yollanmağı planlaşdırırdı. Əks təqdirdə, Şah Abbas bu itaətsizliyi silah gücünə yatırmağı və yalnız bundan sonra Astrabada yollanmağı lazım bilirdi. Bu məqsədlə şah qoşunları Əsfəreyni tərk edərək Cacərmə tərəf hərəkətə başladılar. Şah karvanı hələ yolda ikən gəraylı ağsaqqalları Şah Abbasın yanına gəldilər, bildirdilər ki, Əli xan hazırda Payhisar qalasındadır, əməlindən peşmandır və şahdan bağışlanmasını təvəqqe edir. Şah Abbas bu üzrxahlığı qəbul etmədi və Qum hakimi Hüseyn xan Şamlının rəhbərliyi altında Payhisar qalasına bir qoşun dəstəsi göndərdi. Əli xan bu qoşun dəstəsinə müqavimət göstərməyin əbəs olduğunu gördükdə Ruğd qalasına qaçdı. Şah Abbas bu qala üzərinə də qoşun dəstəsi göndərməklə Əli xanı ələ keçirmək istəyirdi. Lakin bu zaman özbək qoşunlarının Səbzəvara gəlməsi və onu mühasirəyə alması xəbəri alındı. Belə olanda Şah Abbas qoşun dəstəsi ilə Səbzəvara yollanmağı qərara aldı. Əli xanın hakimi olduğu vilayəti isə Şah Abbas iki yerə böldü, birini Mənsur xan Gəraylıya, o biri yarısını isə Təvəkkül xana verdi. Eyni zamanda həmin xanlara tapşırıldı ki, Əli xan itaətsizliyinin yatırılması ilə məşğul olsun (42).

Əli xanın tabeliyində olmuş Payhisar, Ruğd qalaları və bəzi digər ərazilər isə Dərviş Xəlifə adlı birisinin idarəçiliyi altına verildi. Hüseyn xan Şamlı qoşun dəstəsi ilə Payhisar qalasını nəzarət altına aldıqdan sonra Dərviş Xəlifəni həmin qalada yerləşdirdi. Vilayət daxilində vəziyyətin dəyişdiyini görən gəraylı əhlinin böyük hissəsi şah hakimiyyətinə öz sədaqətlərini bəyan etdilər və bununla Əli xandan uzaqlaşdılar. Əli xan çarəsiz bir vəziyyətə düşdü. Onun özbəklərdən kömək almaq imkanı yox idi və heç özü də artıq özbəklərə etibar etmirdi. Şah Abbas isə onun təbəəliyini artıq qəbul etmirdi. Ona görə də Əli xan bölgədə sərgərdan bir həyat sürmək məcburiyyətində qalmışdı. Bu vəziyyətdə Əli xan qohumu olan Mənsur xan Gəraylıya müraciət etdi və ondan görüş istədi. Mənsur xan Gəraylı şah hakimiyyətinə sədaqətli olsa da

onunla görüşməyə razılıq verdi. Əli xan bu görüşə gəldi və bağışlanması yollarını axtarmaq əvəzinə yenə öz iddialarını ortaya qoydu, Mənsur xanın köməyi ilə idarəçiliyi altında olmuş vilayəti yenə də özünə qaytarmağa çalışdı. Mənsur xan onun bu iddiasını həm özü üçün, həm gəraylı tayfası üçün zərərli hesab etdi. Ona görə də o, Əli xanı həbsə aldı və bu barədə Şah Abbasa da məlumat göndərdi. Şah Abbas onun təhvil alınması üçün xüsusi bir dəstə göndərdi. Həmin dəstə də Əli xanı Mənsur xandan təhvil alaraq Luristan səfərindən geri qayıdan Şah Abbasın hüzuruna gətirdi. Şah iltifatına və lütfünə laqeydlik göstərdiyi üçün Əli xan çox ciddi cəzalara layiq görüldü. Əvvəlcə onun gözləri çıxarıldı. Sonra bəzi bədən üzvləri kəsildi və işgəncə ilə həyatına son qoyuldu (43).

### 3. Mazandaran və Astrabad itaətsizliyinə son qoyulması

Mərkəzi hakimiyyətin möhkəmləndirilməsi üçün Şah Abbasın həyata keçirdiyi qətiyyətli tədbirlər içərisində Mazandaran və Astrabadda baş qaldıran itaətsizliklərin yatırılması da var idi. Bu bölgələr də əyalət bölgələri kimi öz coğrafi və irsi ənənələrinə görə mərkəzi hakimiyyətlə zəif bağlara malik idi. Yəni bu vilayətlərdə mərkəzdənqopma halının baş verməsi üçün bəzi obyektiv imkanlar var idi. Yerli hakimlər də bu imkanlardan sui-istifadə edərək öz fərdi iddialarını həyata keçirmək fürsətlərindən bəhrələnməyə çalışırdılar.

Şah Abbas Mazandaran daxilində mövcud olan ərazilərdə mərkəzi hakimiyyətin daha da möhkəmləndirilməsi üçün 1596-cı ildə ora Fərhad xanın rəhbərliyi altında qoşun dəstəsi göndərmişdi. Fərhad xan da bu tapşırığı yerinə yetirmiş və lazım olan tədbirləri həyata keçirmişdi. İtaətsizlik hallarının təkrarlanmasının qarşısını almaq üçün Fərhad xan öz qardaşı Əlvənd Sultanı qoşun dəstəsi ilə birlikdə o bölgədə saxlamışdı. Bu bölgədə yalnız Övlad qalası Əlvənd Div adlı birisinin nəzarəti altında idi və o da heç bir vəchlə şah hakimiyyətini tanımaq istəmirdi. Əlvənd Div tək özü

mərkəzi hakimiyyətdən qaçmırdı, eyni zamanda o, yaxın ətrafda özünə həmfikir insanlar axtarır və onları da şah hakimiyyətinə qarşı çıxmağa təhrik edirdi. Fərdi iddialarının dalınca qaçan bir çox insanlar da Əlvənd Divi müdafiə etməklə öz niyyətlərinin həyata keçəcəyinə ümid edirdilər. Həmin adamlar eyni zamanda Əlvənd Sultana qarşı düşmənçilik yolunu da tutmuşdular. Əlvənd Sultan isə mərkəzi hakimiyyəti tanımaq istəməyən Əlvənd Divi və onun ətrafına toplaşanları dinc yolla şaha sədaqət yolunu tutmağa cəlb etmək istəyirdi. Mərkəzi hakimiyyəti tanımaq istəməyən bəzi fitnə-fəsad sahibləri şayiə yayaraq Əlvənd Sultanı gözdən salmağa çalışır və onu qardaşı Fərhad xana qarşı müxalifətçilikdə ittihamlandırırdılar. Mənbələrdəki məlumatlara görə, Əlvənd Sultanın davranışında müəyyən qeyri-adilik var idi və xasiyyətinə görə onu divanə adlandıranlar da tapılırdı. Bununla belə, Əlvənd Sultan heç də şah hakimiyyətinə qarşı deyildi və Mazandaranda bu yola düşənləri də müdafiə etmirdi. Bölgədə baş verənlər Şah Abbas tərəfindən də yaxından izlənilirdi. Təxminən bir il sonra, 1597-ci ildə Əlvənd Divin itaətsizliyinin aradan qaldırılmasına diqqət ayırmaq imkanı yarandı. Şah Abbasın fərmanı ilə Fərhad xanın rəhbərliyi altında Mazandarana qoşun dəstəsi göndərildi. Bu qoşun dəstəsi Övlad qalasını və Əlvənd Divi ələ keçirməli, bölgədə mərkəzi hakimiyyətə qarşı bayraq qaldıranları zərərsizləşdirməli idi (44).

Fərhad xan da şah fərmanını alan kimi dərhal Mazandaran bölgəsinə yollandı. O, əvvəlcə öz qardaşı Əlvənd Sultanı şah sarayına göndərdi ki, orada onun müxalifətçiliyi haqqında danışılanlar araşdırılsın. Şah Abbas bu məsələyə təmkinlə yanaşdı. O da bilirdi ki, Əlvənd Sultan öz davranışı etibarilə qeyri-adi bir adamdır və onun sözləri və ya hərəkətləri başqa cür qiymətləndirilə bilər. Şah Abbas onu da mümkün sayırdı ki, Əlvənd Sultan ümumi maraq dairəsində müxalifətdə olan insanlarla anlaşma görüntüsü də yarada bilərdi. Yəni Şah Abbas əmin idi ki, Əlvənd Sultan məqsədyönlü şəkildə şah hakimiyyətinə hörmətsizlik göstərməmişdir. Ona görə də Şah Abbas ona toxunmadı. Fərhad xan isə Övlad qalası məsələsini əvvəlcə dinc yollarla həll etmək istədi. Bununla

bağlı, onun Əlvənd Divlə yazışmaları başladı, Əlvənd Div görüşə dəvət edildi. Amma Əlvənd Div ixtilafın aradan qaldırılması üçün Fərhad xanın görüşünə getmədi. İxtilafın dinc yolla aradan qaldırılması baş tutmayanda Fərhad xan Övlad qalasının mühasirəsinə yollandı. Əlvənd Div görəndə ki, şah qoşunu qalanın mühasirəsinə gəlməkdədir, onda uşaqlarını, yaxın ətrafını qalada qoyub bir neçə xidmətçisi ilə birlikdə cəngəlliklərə çəkildi. Fərhad xan isə qalanı mühasirəyə aldı, qətiyyətli tədbirlər həyata keçirməklə qala daxilində vəziyyəti xeyli mürəkkəbləşdirdi. Sonra isə o, qala daxilindəki bəzi adamları hədiyyələrlə təslim olmağa şirnikləndirdi. Bəziləri isə vəziyyətin mürəkkəbləşdiyini görüncə təslim olmağı qərara aldılar. Nəticədə, bütün qala, qala daxilində Əlvənd Divin bütün əmlakı və var-yoxu şah qoşunlarının əlinə keçdi. Fərhad xan dərhal da Övlad qalasının ələ keçirilməsi haqqında Şah Abbasa məlumat göndərdi. İsfahana yollanmaqda olan Şah Abbas Kaşanda olarkən Övlad qalasının fəth edilməsi xəbəri ona çatdırıldı. Bu xəbərdən məmnun olan Şah Abbas isə Fərhad xana çoxlu qiymətli xələtlər, hədiyyə və mükafatlar göndərdi (45).

Əlvənd Div isə azadlıqda qalmaqda idi. O, hər gün yerini dəyişməklə avara və sərgərdan bir həyat keçirmək məcbiriyyətində idi. Əlvənd Divin ələ keçirilməsi və cəzalandırılması 1598-ci ildə baş verdi. Bu zaman artıq Astrabad itaətsizliyi də aradan qaldırılmışdı. Bölgədə vəziyyətin sabitləşməsindən istifadə edən Şah Abbas nəhayət ki, Əlvənd Div məsələsinə də son qoymaq qərarına gəldi. Şah Abbas özü də bu məsələni başa çatdırmaq üçün bölgəyə səfər etdi. Həmin vaxtlarda Şah Abbas Xorasandan geri qayıdırdı və yolüstü bu məsələ ilə də məşğul olmağa vaxt tapdı. "Şahın qərarı beləydi ki, əgər bu qış Mazandaranda qışlamaq belə lazım olarsa, orada qalıb, meşə və cəngəlliklər özlərini yarpaq yükündən təmizləyən vaxtlarda, başında düşmənçilik və tüğyan olan hər bir kəsi tutsun ki, həmin behiştnişan vilayət üsyançılardan və saxtakar adamlardan təmizlənsin və o, İraqa tərəf getməyə başlasın. [Şah] Mazandaran əyanlarına da bol vədlər verərək, onları da Əlvənd Divi və başqa düşmənləri tapmağa cəlb eylədi, bir dəstə adamı

hələ hümayun məiyyət yollanmazdan əvvəl onların axtarışına rəvan etdi” (46).

Bu xəbəri eşidəndən sonra Əlvənd Div anladı ki, onun nicat tapmaq şansı çox azdır. Bunun üçün Əlvənd Div şahın iltifatına güvənməyi lazım bildi. Əlvənd Div əvvəlcə öz adamlarından birini Şah Abbasın bibisi oğlunun yanına göndərməyi qərara aldı. O, şahın bibisi oğluna bu sözləri çatdırdı: “Əgər [şahzadə] aləmin ən mərhəmətli adamı olan şahdan bu günahkar [bəndənin] günahlarının bağışlanmasını xahiş edərsə və mən əfv olunaramsa, başımı ayaq edib aləmpənah dərgaha gələrəm” (47).

Şah Abbas onun bu iltimasından xəbər tutdu və vəd etdi ki, əgər Əlvənd Div şah sarayına gəlib günahlarının bağışlanmasını xahiş edərsə, onda onun malı və canı amanda olacaqdır. Əks təqdirdə, Əlvənd Div ələ keçirilməli idi. Əlvənd Div şahın vədinə çox sevindi və ona görə dərhal şahın dərgahına yollandı. Şah Abbas verdiyi sözün üstündə dayandı və Əlvənd Divin günahlarını bağışladı. Lakin onun qarşısında belə bir şərt qoyuldu ki, bir daha hakim vəzifəsinə təyin edilməyəcəkdir. Ona təklif edildi ki, üzünü Qəzvin tərəfə tutsun, ailəsi və yaxınları ilə paytaxtda və ya onun ətrafında həyat sürsün və həyatına toxunulmayacağından da əmin olsun.

Əlvənd Div bu təklifə də razı oldu və həyatına toxunulmamasını özü üçün bir qənimət bildi. O öz istəyi ilə Şiraz ətrafına gəldi və orada məskən saldı və bununla Əlvənd Div itaətsizliyinə də son qoyuldu. Şah Abbas isə bu hadisənin belə dinc şəkildə başa çatmasından sonra bir neçə gün də Mazandaranda qaldı. Bu zaman o, həm istirahət etdi, həm də bəzi üsyankarları bölgədən təmizlədi. Cürcandan başlayaraq Şirvanın sərhədinə qədər olan ərazilər, yəni Xəzər dənizinin cənub bölgəsini əhatə edən ərazilərdə uzun müddət idi ki, qarışıqlıq, daxili çəkişmələr davam etməkdə idi. Bütün bu ərazilər Şah Abbasın qətiyyətli tədbirləri nəticəsində mərkəzləşmiş hakimiyyətin nəzarəti altına düşdü və o ərazilərdə yerli idarəçiliyin möhkəmləndirilməsi aparıldı. Nəticədə, bölgədə

daha sabit bir həyat bərqərar odlu və insanlar da daha dinc həyat sürməyə başladılar.

Astrabadda baş qaldırmış itaətsizliyin yatırılması da bölgədə sabitliyin bərqərar olmasına öz müsbət təsirini göstərdi. Qeyd edildiyi kimi, bu vilayətdə mərkəzi hakimiyyətin möhkəmləndirilməsi Əlvənd Divin şah lütfünə təslim olmasından əvvəl baş vermişdi. Bu vilayət səltənətin səfalı ərazilərindən biri idi və İsgəndər bəy Münşinin yazdığına görə vilayət daxilində şah hakimiyyətinə sədaqətli olan insanlar da az deyildi: "Xülasə, Astrabad darülmülkü İran torpağının gözəl və ürəkaçan yerlərindəndir. Bu vilayət bir tərəfdən Xəzər dəryasına birləşir, olduqca gözəldir, oranın bahar (rəbi) və payız (xərif) fəsilləri eynidir, cənnətin bir parçasıdır. Əhalisi iman bəzəyi (həliyye) ilə bəzənmişdir, zöhd və təqvada ali dərəcəli adamlardandır. Amma, yolkəsən adamlardan da xali yer deyildir, Təbəristanın başqa yerləri kimi onların başlarında hərdənbir üsyan havası olur ki, o təbəqədən olanları "siyahpuş" adlandırırlar" (48).

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərində olan məlumata görə, Astrabadın özbək qoşunlarının davamlı hücumları çevrəsində olması, xüsusilə yəqə türkmanlarının bu bölgəyə yaxın ərazilərə yerləşmələri Astrabadın həyatına da öz təsirini göstərirdi. Şah Təhmasibin hakimiyyəti illərində Cürcan çayı kənarında Mübarəkabad adlanan bir qala tikildi. Nəzərdə tutulmuşdu ki, bu qala yəqə türkmanlarının basqınlarının qarşısını almaqda bu qala faydalı ola bilər. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində qızılbaş əmirləri arasında daxili çəkişmələr gücləndiyi üçün Astrabad məsələsinə yer ayırmaq mümkün olmadı. Həmin illərdə Astrabadda da parçalanmalar və didişmələr gücləndi. Belə didişmələrdən istifadə edən Əlyar bəy Eymur adlı yəqə türkmanlarından olan birisi qoşun dəstəsi ilə vilayət üzərinə yürüş etdi. O, Astrabad şəhərinin yaxınlıqlarına qədər irəliləyə bildi. Amma Əlyar bəy də vilayətdə möhkəmlənə bilmədi. Çünki o da vilayət daxilində gedən çəkişmələrin, hakimiyyət uğrunda mübarizələrin qarşısını ala bilmədi. Şah Abbas hakimiyyətə gəldikdən sonra

Astrabadda səltənət idarəçiliyinin möhkəmləndirilməsi və daxili didişmələrin aradan qaldırılması üçün Əlyar bəyin Astrabad hakimi olması ilə razılaşdı və bununla bağlı hökm də verildi. Əlyar bəy vilayətdə hakimiyyətin bir əldə cəmləşdirilməsi üçün böyük iddialara düşmüş adamlarla dil tapmağa çalışdı, onlarla danışıqlar apardı. Əlyar bəyin dünyasını dəyişməsindən sonra Astrabad hakimliyi onun oğlu Məhəmmədyar xana həvalə olundu. Amma oxlu türkmanları onun hakimliyini qəbul etmirdilər. Ona görə də onu qətlə yetirdilər. Məmmədyar xanın qətlindən sonra onun kiçik qardaşı Qılınc xan şah sarayına gələrək Şah Abbasa sədaqətini bəyan etdi. Şah Abbas da Astrabadın hakimliyinin ona verilməsi haqqında hökm imzaladı. Amma Qılınc xan da vilayət hakimliyini yerinə yetirə bilmədi. Çünki yerli hakimlər ona və mərkəzi hakimiyyətə tabe olmaqdan imtina etdilər. Bir müddət vilayət daxilindəki qarışıqlıq qalmaqda davam etdi. Şah Abbasın başı daha ciddi məsələlərin həllinə qarışdığı üçün Astrabad itaətsizliyi bir neçə il davam etməli oldu. Bir də 1597-ci ildə özbək qoşunlarına qarşı Xorasan vilayətinə edilən yürüşdən sonra Şah Abbas Astrabad itaətsizliyinin də aradan qaldırılmasına qərar verdi. Xorasandan Qəzvinə dönərkən şah qoşunları Şah Abbasın rəhbərliyi altında Astrabada doğru istiqamət götürdülər (49).

Şah Abbasın bölgəyə gəlməsi xəbərini eşidəndə Astrabadda mərkəzi hakimiyyəti tanımaqdan imtina etmiş xeyli sayda əmir və əyanlar qarşılaşa biləcəkləri ağır cəzalardan yaxa qurtarmaq üçün şaha öz sədaqətlərini bəyan etdilər. Onlardan hətta şah qoşunlarına qoşulanlar da tapıldı. Şah Abbas rəhbərlik etdiyi qoşun dəstəsi ilə Bəhriyan çölünə çatanda istirahət üçün orada düşərgə salındı. Burada qərara alındı ki, fəaliyyət sərbəstliyinin yaradılması üçün qoşunların bütün təchizatı, yükləri Bəstam yolu ilə Qəzvinə göndərilsin. Bu yüklərin müşayiət edilməsi üçün müəyyən qüvvələr də ayrıldı. Əsas qüvvələr isə Astrabadda mərkəzi hakimiyyətin möhkəmləndirilməsi üçün saxlanıldı. Şah Abbas buradakı vəziyyəti də əvvəlcə dinc yolla həll etməyə cəhd göstərdi. Bununla əlaqədar o, şah hakimiyyətinə sədaqəti ilə seçilən Məhəmmədqulu bəy Əmir-

axurbaşını məktubla oxlu türkmanlarının rəhbəri Qari xanın yanına göndərdi. Həmin məktubda deyilirdi: "Sizlər qədim dövrlərdən bəri Xarəzm sultanlarının təbəələri olmusunuz. Hal-hazırda dövran hadisələrinin təsiri ilə şah dövlətinin kölgəsi altına pənah gətirən və bir müddət hümayun şahın iqbal kölgəsi altında yaşayan Xarəzm padşahı və onun övladları bizim yardım və köməyimizlə yenidən öz irsi məmləkətini tutmuşlar, özlərini bizim hümayun adamlarından sayırlar. Həqiqətən də, Hacı Məhəmməd xana mənsub olan adamlar elə bizim adamlarımızdırlar. Gərək, Məhəmmədqulu bəylə birlikdə hümayun məiyyəti qarşılamağa çıxasınız və bizimlə görüşməyə sərəfraz olasınız. Siz qətiyyən hümayun məiyyətin gəlişindən həyəcanlanmayın. Əgər öz qədim yerinizdə sakin olub ayağınızı ədəb dairəsində saxlasanız, tərəfimizdən sizə qarşı iltifat və şəfəqqətdən başqa heç bir əməl zahir olmayacaqdır" (50).

Məktub göndərilməsinin ardınca Şah Abbas özü də bir sıra yerli əmirlərin müşayiəti ilə oxlu qəbiləsinin mərkəzi olan Qünbəd-kəbud şəhərinə tərəf hərəkətə başladı. Qari xan şah tərəfindən göndərilən məktubu xoşluqla qarşıladı və hətta bir neçə gün ərzində Məhəmmədqulu bəyə lazımi qonaqpərvərlik göstərildi. Həmin günlər ərzində Qari xan öz yaxınları ilə, qəbilə ağsaqqalları ilə məsləhətləşərək şah hakimiyyətinə itaət etsinlər və birlikdə Şah Abbasın hüzuruna yollansınlar. Qari xanın bu təklifini qəbul edənlər çox oldu. Lakin oxlu tayfasının üzvləri arasında mərkəzi hakimiyyəti qəbul etmək istəməyənlər də var idi. Onlar uzun müddət idi ki, müxalifətçilikdə idilər. Ona görə onlar şah hüzuruna yollanmaqdan qorxdular və qaçıb ətrafa dağılışdılar. Bu məsələ sonra daha geniş əks-səda tapdı və mərkəzi hakimiyyətdən ehtiyat edən oxlu türkmanları Məhəmmədqulu bəyin qaldığı yerə hücum etdilər. Məhəmmədqulu bəyin mühafizəsində olan dəstə ilə türkmanlar arasında vuruşma başladı və bu zaman Məhəmmədqulu bəy bir neçə yerdən ağır yaralandı. Şah elçisinin bir neçə mülazimi hətta qətlə yetirildi və onların əmlakı da qarətə məruz qaldı (51).

Şah Abbas Qünbəd-kəbuda çatanda Məhəmmədqulu bəyin ağır yaralanması xəbərini aldı. O, dərhal da şah elçisinə və bütünlükdə şah hakimiyyətinə qarşı belə bir itaətsizlik nümayiş etdirən türkmanların cəzalandırılması üçün hadisə yerinə yol aldı. Şah Abbas çox böyük sürətlə həmin məkana irəliləmək əmri verdi və hadisənin baş verdiyi məkana çatanda artıq gecə idi. Şah Abbasın qoşun dəstəsi ilə gəlməsi xəbərini eşidəndə dövlətə müxalifətçilik yolunu tutmuş oxlu türkmanlarının çoxu qaçıb dağılmaqla canlarını haqlı cəzadan qurtarmağa çalışdılar. Səfəvi şahının şəxsən özünün gecə vaxtı asiləri cəzalandırmağa gəlməsi oxlu türkmaları arasında ciddi bir təşviş yaratdı. Şah Abbas isə səhər açılan kimi yanında olan dəstə ilə Ətrək çayına doğru irəlilədi. Qari xan başda olmaqla oxlu türkmənləri burada öz köçünü salmışdılar. Oxlu türkmanların qoşun dəstəsi burada şah dəstəsinə müqavimət göstərmək istədi. Amma Qari xan görəndə ki, bu müqavimətin bir nəticəsi olmayacaq, onda öz qoşunlarını tərk edib qaçmağa üz tutdu. Onun ardınca şah dəstəsi göndərildi. Lakin bu dəstə Qari xanın hansı istiqamətdə qaçdığını müəyyənləşdirə bilmədiyi üçün geri qayıtmalı oldu. İtaətsizlik yolunu tutmuş türkmanlar isə ciddi cəzalandırıldı. Onların çoxu öldürüldü, var-dövləti və əmlakı talan edildi. Oxlu türkmanlarına ağır zərbə vurulandan sonra şah dəstəsi həmin məkanı tərk etdi və Mübarəkabad qalası ətrafına gəldi. Oxlu qəbiləsindən əlavə eymur, kuklən, salur və başqa qəbilələrin ağsaqqalları şahın qəzəbindən qorxaraq onun hüzuruna gəldilər və ona itaətini bildirdilər. Şah Abbas da bu qəbilələrin adamlarına qarşı iltifat göstərdi, onlara nəvazişini nümayiş etdirdi. Elə oradaca Şah Abbas Mübarəkabad qalasının təmiri haqqında öz göstərişini verdi. Bu işə şah qoşunları da cəlb edildi. Qalanın bürcləri və hissələri qızılbaş əmirləri və döyüşçüləri arasında bölündü, təmir işləri onlara tapşırıldı. Bu qalanın öz divarları çox hündür idi. Təmir zamanı da bu hündürlük gözlənilməli idi. On iki gün ərzində şah qoşunları Mübarəkabad qalasının təmirini başa çatdırdılar. Şah Abbas həm də bölgədə davamlı bir sabitliyin yaradılması yolları haqqında düşünməyə başladı. Onun fikrincə, bölgədə mər-

kəzi hakimiyyətin aradan qaldırılmasından təxminən 20-25 illik bir vaxt keçmişdi. Yəni bu bölgədə formalaşmış olan yeni nəsil Səfəvi hakimiyyətini görməmişdi və onlarda başqa təsəvvürlərin olduğu istisna deyildi. Ona görə də Şah Abbas yerli qəbilələrlə ehtiyatla davranmağı lazım bilirdi ki, onlarda şah hakimiyyətinə qarşı barışmaz müxalifətçilik baş verməsin. Mübarəkabad qalasının təmiri başa çatdıqdan sonra Şah Abbas yerli qəbilələrin əmir və sərdarlarını yanına topladı və onlara belə bir müraciət etdi: “Bu məmləkət artıq neçə ildir ki, layiqli hakimdən xali olmuş, buranı hiyləgərliklə zəbt etmişlər. Siz öz qayğınıza qalıb, rəiyyət olmaq yolundan uzaqlaşmış, döyüşkənlik meydanına qədəm atmısınız. Bir-birinizin qorxusundan və türkmanların basqınından qorunmaqdan ötrü siyahpuşları toplayaraq, qızılbaş əmirlərinə qarşı hörmətsiz hərəkətlər etmisiniz. İndi isə, öz keçmiş əməllərinizdən peşman olub üzrxahlıq və bizə bağlılıq məqamına gəlmisiniz. Biz sizin hərc-mərclik zamanı vaqe olmuş, ya olmamış əməllərinizi əfv etmişik. Hal-hazırda İlahinin inayəti və şahın qüvvəti sayəsində bu məmləkətin hər tərəfi (həvaşi) əmin-amanlıq içərisindədir və Təbəristan, Cürcan və Xarasan Murğab çayınadək bu güclü dövlət övliyalarının əlindədir. Xarəzm və Urgənc sultanları bizə itaət edirlər. Sayinxani ulus düşmənləri öz cəzalarını almış, qalanlar isə boyunlarını bizə bəndəlik həlqəsinə salmışlar. Məmləkəti idarə edən bir hakim lazımdır. Bundan sonra adamlar ərbabların cövr və zülmündən azaddırlar. Elə buna görə də, onların artıq [burada] qala saxlamaq ehtiyacı yoxdur. Siz gərək öz qalalarınızı dağıdıb, bütün silah-sursatınızı hakimin sərkarına verəsiniz ki, həmin silahlar Mübarəkabad qalasında işə yarayacaqdır. Siz özünüz isə xanə köçünüzü bu qalaya gətirib orada yaşayacaqsınız. Qədim vaxtlarda olduğu kimi gərək əkinçilik və rəiyyət işləri ilə məşğul olasınız, siyahpuşluğu tərk edəsiniz. Belə olan halda bu məmləkətin hakimi sizdən, siz isə hakimdən qorxmadan etibarlı şəkildə yaşayacaqsınız” (52).

Şah Abbas yanına topladığı əmirlərə və sərdarlara qarşı çox sərt tələblər irəli sürdü. Bu tələblər bölgədə davamlı sabitliyin ya-

radılması zərurətindən irəli gəlirdi. O bildirdi ki, kimsə öz evində silah saxlamamalıdır. Beləlləri dərhal edam edilməli idilər. Əmir və sərdarların bu tələbi qəbul etməkdən başqa çarələri qalmamışdı. Ona görə də onlar Şah Abbasın tələbi ilə razılaşdılar. Bundan sonra Şah Abbas qızılbaş əmirlərindən birini bölgənin hakimi təyin etdi. Yerlərdə olan qalalar dağıdıldı. Həmin qalalardan və qəbilə üzvlərindən toplanan silahlar Mübarəkabad qalasına daşındı. Bu qalada minlərlə tüfəng, zirehli geyim, qılınc və digər silahlar toplandı. Nüfuzlu sərdarların ailələri də bu qalaya yerləşdirildi. Baş verənlərdən bir neçə gün sonra Şah Abbas Astrabad şəhərinin seyrinə çıxdı. Məqsəd şəhərin vəziyyəti və əmin-amanlığı ilə tanış olmaq idi. Amma o bu seyrində acı səhnələrlə qarşılaşmalı oldu. Şah Abbasın tələblərini qəbul edənlər olduğu kimi, qəbul etməyənlər də var idi. Nəzarətsiz həyat sürməyə, özbaşına hərəkətlər etməyə öyrəşmiş olan bəzi insanlar şəhər sakinlərinin evlərinə basqınlar edir, ailələri var-yoxdan çıxarırdılar. Ona görə idi ki, şəhərin çox yerində insanların ah-naləsi göylərə ucalırdı. Talanlara məruz qalan sadə insanlar isə talançıların sərt əməllərindən qorxduqları üçün şikayət etməyə və müqavimət göstərməyə də cəsarət etmirdilər. Məsələn, mərkəzi hakimiyyəti tanımayan Xacə Şərəfəddin Savəri adlı birisi ətrafına topladığı silahlı dəstə ilə iki dəfə xanımlar hamıma basqın etmiş, hamam işçilərini oradan uzaqlaşdırmış və hamamda yuyunan xanımları əsir götürmüşdülər. “Dünyanı bəzəyən Abbasın tarixi” əsərində yazılana görə, bu zaman onlar kafirlərdən də qəddarcasına hərəkət edirdilər. Bu adamlar əsir götürdükləri xanımları sonradan böyük pul əvəzində yenidən öz ailələrinə satırdılar. Bu xəbər Şah Abbas tərəfindən sonsuz qəzəblə qarşılandı və adi insanlara belə zülm edənlərə qarşı sərt cəzaların həyata keçirilməsini lazım bildi. O qərara aldı ki, həm bölgəni, həm də bütünlükdə səltənəti belə rəzil əməl sahiblərindən büsbütün təmizləsin (53).

Öz qərarının həyata keçirilməsi üçün Şah Abbas özünəməxsus bir addım atdı. Belə ki, o, seyidlərin, üləmanın, din adamlarının və soyurğal sahiblərinin işləri ilə məşğul olduğu bir gün, onların və

övladlarının öz keçmiş xasiyyətlərini tərk edib-etməyəcəkləri, yaxud yenə də quldurlar kimi üsyankarlarla əlaqədar olub-olmayacaqları barədə məlumat almaqdan ötrü qanun-qaydaları gözləməyən sərdarlarını da şah məclisinə gətirdilər. Şah Abbas bu toplantıda dövlətçilik məsələlərinin müzakirəsini tamamladıqdan sonra Xacə Şərəfəddin Savəridən bəzi suallar soruşdu. Məqsəd Savərini danışdırmaq və onun düşündüklərini öyrənmək idi. Savəri isə sorulan sorğuya cavab verməklə bərabər, Savəri güman etdi ki, onun günahları artıq şah tərəfindən bağışlanmışdır. Ona görə də o, şah sualına cavab olaraq vaxtilə camaata və qızılbaş qazilərinə qarşı etdiyi zülm və əxlaqsız hərəkətlərdən də danışdı. Şah Abbas bu yolla Savəri və onun həmfikirlərinin gördükləri qanunsuz işlər barəsində kifayət qədər məlumat ala bildi. Bundan sonra Şah Abbasın əmri ilə Savərini və onun tay-tuşlarının hamısını həbsə aldılar, onları çox sərt cəzalandırdılar ki, insanlara qarşı mərhəmətsiz davrananlar da bundan dərs alsınlar. Savəri doğranıb-şaqqalandı və bədəninin hər şaqqasını şəhərin məhəllələrində, hamamın qarşısında asdılar. Digər cinayətkarlar da ölüm hökmünə layiq görüldülər və onların bir neçəsi şəhər darvazaları qarşısında başı aşağı asıldı. Bir neçə cinayətkarın isə gözləri çıxarıldı (54).

İsgəndər bəy Münşi öz əsərində haqq yolundan azmışların Şah Abbas tərəfindən cəzalandırılmasının insanlar arasında necə qarşılanmasını belə təsvir edirdi: “Xülasə, o zülmkarların hər biri, öz əməllərinin heç kimin hələ görmədiyi cəzasına çatdılar. Camaatın fərəh sədaları, sevinc və şadlıqlarının avazı Keyvan səyyarəsinədək ucaldı və onlar gündən-günə böyüyən bu dövlətə dua etməyə başladılar, hürkmüş ürəklər yenidən aram oldu, ürəklərin yaraları tamamilə sağaldı. Cah-cəlal ordusu İraqa getdikdən sonra Astrabad hakimi Hüseyn xan da hümayun işarə alaraq, üsyankarların axtarışı ilə məşğul oldu, dövlətə qarşı çıxanların hamısını aradan götürdü. Elə cəza üsullarına əl atdı ki, bundan sonra heç kim qarşı çıxmağa cürət edə bilmədi” (55).

Bununla Astrabadda başlanmış olan itaətsizlik hallarına da son qoyuldu. Yuxarıda qeyd edildiyi ki, Astrabaddan sonra Şah Abbas

Əlvənd Div itaətsizliyinin aradan qaldırılmasına yollandı. Bu bölgədə həyata keçirdiyi qətiyyətli tədbirlərdən sonra Şah Abbas Xorasandan Rəştə qədər olan ərazilərdə mərkəzi hakimiyyəti kifayət qədər möhkəmləndirə bildi. Doğrudur, mərkəzi hakimiyyətə qarşı itaətsizlik halları bu və ya digər dərəcədə bu bölgədə özünü göstərmişdi. Lakin Şah Abbas göstərilən bölgədə mərkəzi hakimiyyətə müxalifətçilik edə biləcək qüvvələrə ağır zərbə vurmuş və davamlı sabitlik üçün möhkəm bir baza qura bilmişdi.

### 4. Fərhad xanın qətlə yetirilməsi

Miladi tarixi ilə XVI əsrin sonlarında Səfəvi dövləti və tarixi üçün maraq və diqqət cəlb edəcək hadisələrdən biri də Fərhad xanın qətli məsələsi oldu. Şah Abbas hakimiyyətinin möhkəmləndirilməsində və səltənət idarəçiliyində, habelə Səfəvi dövrü hərb tarixində xüsusi yeri olan Fərhad xanın qətli mənbələrdə gözlənilməz bir hadisə kimi təsvir edilmişdir. Bu gözlənilməzlik onunla bağlı idi ki, Şah Abbasla Fərhad xan arasında qırılmaz bir bağlılıq var idi. Fərhad xan Şah Abbasın ən yaxın və etibarlı silahdaşlarından birinə çevrilmişdi. O, şah hakimiyyətinə sədaqətli olduğu kimi, Şah Abbas da onu özünün etibarlı əmirlərindən biri hesab edirdi və buna görə Fərhad xan çox yüksək vəzifələrə də layiq görülmüşdü. Fərhad xan Azərbaycanın Osmanlı işğalı altında olmayan ərazilərinin hakimi idi. Bundan başqa, Astara, Qızılağac, Kəsgər və Talış vilayətləri də onun hakimliyi altına verilmişdi. Gilanda Xan Əhməd itaətsizliyi yatırılandan sonra Biyəpiş də bir müddət Fərhad xanın hakimliyi altında oldu. Özbək qoşunlarına qarşı, səltənətin müxtəlif vilayətlərində baş qaldırmış itaətsizlik hallarına qarşı mübarizədə Fərhad xanın böyük xidmətləri var idi. Sonralar Fərhad xana Fars vilayətinin və Mazandaranın da hakimliyi həvalə olunmuşdu. Fərhad xan həm də şah tərəfindən xan dərəcəsinə və rüknüssəltənə ləqəbinə də layiq görülmüşdü (56). Bütün bunlara görə, Fərhad xanın qətl edilməsi saray çevrəsində və səl-

tənət daxilində təəccüblə qarşılandı. Bununla belə, onun qətli heç şübhəsiz ki, səbəbsiz deyildi.

İsgəndər bəy Münşi bu barədə yazarkən öz fikirlərini belə açıqlayırdı: "Dünyanın aqil adamlarına və bilik sahiblərinə aşkardır ki, sultanlarla yaxınlıq etməyin mənəvi ünsürü qanla qarışmışdır və padşahların qəlb aləmi başqa bir aləmdir. Ayıq ürəkli, hüşyar başlı adam gərək böyüklük badəsinin nəşəsindən məst olmasın, sultanlara yaxın cövlangahda onun fikir və əndişə ayağı sürüşməsin. Sultanların xidmətində o qədər rəy və tədbir sahibləri olmuşlar ki, onlar ali rütbələrə çatmış, sonradan yaxınlıq şəraitində ikən sədaqət yolundan dönmüş, dövranın şilləsinə tuş olmuş, onun savadsızlıq ətəyi yaxınlıq atəşi ilə odlanmış və nəticədə həmin odla da yanmışdır. Xoş o adamın halına ki, elə vəziyyətdə ona İlahinin köməyi yetişmiş, bu sətirlər müəllifinin rübaisində deyildiyi kimi, özünə sultanla yaxınlıq sərmayəsi qazanmışdır" (57).

Sonra İsgəndər bəy öz əsərində Fərhad xanın qətli səbəbinə də toxunmuşdur. Onun fikrincə, Fərhad xanın qətlinin səbəbi ona göstərilən etimadı və etibarı lazımınca qiymətləndirə bilməməsi, yüksək vəzifələrə sahib olduqdan sonra öz nəfsini saxlaya bilməməsi və bunun nəticəsi kimi şaha sədaqət yolundan çıxması idi. Fərhad xan həmişə Şah Abbasın yanında deyərmiş ki, o, iştirak etdiyi döyüşlərdə öz həyatını Şah Abbasın yolunda verməyə hazırdır. Şah Abbas da bu sözləri eşidirdi və ona elə də əhəmiyyət vermirdi. Xorasan üzərinə təşkil edilmiş yürüş zamanı şah qoşunlarına rəhbərlik edən Fərhad xan özbək xanı Din Məhəmməd xanın rəhbərliyi altında olan qoşun dəstəsinə qalib gələ bilmədi. Bu uğursuzluğu Şah Abbas heç də xoşluqla qarşılamadı və hətta müəyyən nigarançılıq da keçirdi. İsgəndər bəy Münşinin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Şah Abbas bu uğursuzluğa görə Fərhad xanın canını onun yolunda qurban etməyə hazır olması barəsində söylədiklərinin doğru olmadığına əmin oldu. Çünki həyatını şaha qurban etmək istəyən bir sərkərdə şahın tapşırığının icrası yolunda heç də bütün gücünü ortaya qoymamışdı. Bildirilir ki, şah Fərhad xanın sözü ilə əməli bir olmadığı üçün onun

cəzalandırılması və bununla digərlərinə də dərs verilməsi qərarına gəldi (58).

İsgəndər bəy Münşi öz əsərində Fərhad xanın qətlə yetirilməsinin başqa bir səbəbinə də toxunuşdur: "Vaxt ötdükcə əlahəzrətin xana qarşı şəkk-şübhəsi artır və şah onu sınayırdı. Xanın hərəkətlərini müşahidə etdikcə həmin şəkk get-gedə çoxalıb, yəqinlik sərhədinə çatdı. Elə Fərhad xanın özü də bunu hiss etmişdi. Öz rəyi, hüşyarlığı, əqli olan xan hadisələr burulğanında ruzigar tərəfindən cəzaya məruz qaldı. Şahın sayəsində bu qədər cah-cəlala və ucalığa yetən xan şahanə şəfəqqətlərin qədrini bilmədi, şeytan onu öz yolundan döndərdi, ona qismət olan nemətin qədr-qiymətini anlamadı" (59).

Bir məlumata görə isə Fərhad xan səltənət daxilində ən yüksək vəzifələrə yiyələnmişdi. O, ölkə daxilində şahdan sonra ikinci adama çevrilmişdi. Belə güman edilirdi ki, Fərhad xan gələcəkdə aşağı vəzifələrə təyin olunmağa razı olmazdı. Malik olduğu vəzifələrdən yuxarı olan isə səltənət taxt-tacı idi. Ona görə Fərhad xan gələcəkdə daha çox taxt-tacın ələ keçirilməsi barəsində düşünə bilərdi. Belə bir halın baş verməməsi üçün isə Şah Abbas onu aradan götürməyi qərarlaşdırdı (60).

Bir sözlə, Şah Abbas nəhayət ki, Fərhad xanın qətlinə fərman verdi. Heç şübhəsiz ki, Şah Abbas bu qətlin həyata keçirilməsini də öz hakimiyyətinin möhkəmləndirilməsi yolunda atılmalı olan bir əməl kimi qiymətləndirirdi. O, Fars hakimi və səltənət sipəhsaları Allahverdi xana Fərhad xanın qətli barəsində fərman verdi. Bir məlumata görə, Fərhad xanın qardaşı olan Azərbaycan əmirilümərası Zülfüqar xan bu qətlin icrasına mane olmaq istədi. Lakin Şah Abbas onun istəyini qəbul etmədi və şah fərmanının icrasına qarşı mövqe tutduğu üçün isə onu cəzalandırmadı. Allahverdi xan şah fərmanını alandan sonra bir neçə silahlı ilə Fərhad xanın evinə yollandı. Bu vaxt o, hamamdan çıxırmış. Allahverdi xan əlini uzadıb Fərhad xanın belindən onun qılıncını açanda ana (türk) dilində bu sözləri söylədi: "İşimiz belə oldu?". Onun həyatını qorumaq üçün müqavimət göstərib-göstərmədiyi haqqında mənbələrdə mə-

lumat yoxdur. Bəlli olan odur ki, Fərhad xan elə evindəcə qətlə yetirildi, Allahverdi xanın Xosrov bəy adlı qulamı onun başını bədənindən ayırdı və sonra da nizəyə keçirərək Şah Abbasın hüzuruna apardı. Daha sonra isə şah xidmətçiləri Fərhad xanın başını bu qətlin icra edildiyi Herat şəhərinin küçə və bazarında gəzdirdilər (61).

Şah Abbas belə bir qətlin icrasına fərman versə də, sonradan bu əməlinə heç də sevinmədi. Əvvəla, ona görə ki, Fərhad xan onun yaxın silahdaşı idi və onun köməyi ilə öz hakimiyyətini möhkəmləndirmiş və öz iltifatı ilə Fərhad xanı yüksək vəzifələrə irəli çəkmişdi. Digər tərəfdən isə Şah Abbas ehtiyat edirdi ki, Fərhad xanın qətlinin səbəbləri barəsində dəqiq xəbəri olmayan digər əmirlər öz həyatlarını qorumaq üçün səltənət idarəçiliyində məsuliyyət göstərməkdən uzaqlaşa bilərlər.

1598-ci ildə Xorasan vilayətinə həyata keçirilmiş növbəti səfəri başa vurduqdan sonra Şah Abbas Qəzvinə qayıtdı. Baxmayaraq ki, səltənət paytaxtı artıq İsfahana köçürülmüşdü, Şah Abbas Qəzvinə üz tutdu. Çünki aldığı məlumata görə, orada iki ölkənin elçiliyi onun intizarında idi. Bu elçiliyin biri Osmanlı dövlətindən, digəri isə Ser Antoni Şerlinin rəhbərliyi ilə Avropadan gəlmişdi. On iki gün Qəzvində qaldıqdan sonra Şah Abbas İsfahana yola düşdü və Şerlinin elçilik heyətini də özü ilə paytaxta apardı. Amma Şah Abbas bir başa şəhərə daxil olmadı. O bir neçə gün Dövlətabadda qaldı və münəccimlərə tapşırdı ki, İsfahana daxil olmaq üçün münasib vaxtı müəyyənləşdirsinlər. Münəccimlər də bu işi gördülər və onların müəyyən etdiyi saatda Şah Abbas İsfahana daxil oldu. Şah Abbas Xorasan səfərindən çox razı qalmışdı və bu vilayətin özbək qoşunlarından təmizlənməsi sahəsində ciddi nəticələr əldə edilmişdi. Bu nəticələr münasibətilə Şah Abbas İsfahanda bayram şənlikləri təşkil etdi. Əldə etdiyi uğurlar münasibətilə Şah Abbas həm Xorasan əhalisi üçün, həm də İsfahan sakinləri üçün bir sıra vergiləri bağışlamaq haqqında qərar qəbul etdi (62).

## 5. Bəhreynin və Lar vilayətinin fəthi

Miladi tarixlə XVI əsrin sonuncu illərini Şah Abbas Xorasan yürüşləri ilə və ya Xorasana aid olan məsələlərin həlli ilə keçirdi. Özbək qoşunlarının bölgəyə yürüşünün qarşısının alınması və bölgədə mərkəzi hakimiyyətin möhkəmləndirilməsi Şah Abbasın diqqət mərkəzində idi və bütün bu məsələlər onun tərəfindən uğurla həll edildi (bu barədə aşağıda danışılacaqdır). Həmin illər ərzində 1597-ci ildə səltənətin paytaxtı elan edilmiş İsfahan şəhərinin abadlaşdırılması üçün kifayət qədər gərgin və səmərəli işlər aparıldı. 1600-cü ilin sonunda Şah Abbas dərin etiqad sahibi kimi İmam Rzanın məzarının ziyarət edilməsi üçün İsfahandan Məşhədə piyada səfər etdi və bununla öz niyyətini uğurla başa vurdu. Mövcud olan məlumata görə, Şah Abbas hələ iki il əvvəl Xorasan vilayətinin özbək qoşunlarından azad olunacağı təqdirdə belə bir ziyarəti həyata keçirəcəyinə söz vermişdi. Şah Abbas öz ətrafından və xidmətçilərindən kimsəyə onunla piyada Məşhədə yollanmaq əmri vermədi. Ancaq belə bir ziyarətə yollanmaq istəyənlər xeyli çox idi və Şah Abbas onların heç birini bu ziyarətdən çəkindirmədi. Şah Abbas və onunla birlikdə Məşhəd ziyarətinə yollanmaq istəyənlər İsfahan kənarındakı Tuğçu məscidinə toplandılar və oradan hərəkətə başladılar. Bu zaman şah karvanında olan xüsusi adamlar əllərindəki kəndirlə gedilən yolun uzunluğunu da ölçürdülər. Burada məqsəd ziyarət üçün piyada gedilən yolun uzunluğunun hesablanması idi, həm də bununla Şah Abbasın getməli olduğu gündəlik məsafə müəyyənləşdirilirdi. Şah Abbas bütün məsafəni piyada getdi və yalnız yorğunluq hiss olunanda qısa müddətli istirahətə dayandı. Bu hesabla o, 28 gündən sonra Məşhəd ziyarətgahına yetişə bildi (63).

1601-ci ilin Novruz bayramına kimi Şah Abbas Məşhəddə qaldı. Bu aylar ərzində o, Məşhəddə dua və ibadətlərini davam etdirməklə bərabər, həm də bölgənin idarəçilik işləri ilə yaxından məşğul oldu. Elə Məşhəddə olarkən Şah Abbas səltənətin cənub əraziləri və Bəhreyn haqqında maraqlı xəbərlər aldı. Həmin məlu-

matları görə, Portuqaliyanın nəzarəti altında olan Hörmüzün hakimi Firuz şah dünyasını dəyişdikdən sonra onun tabelində olan Bəhreyn hakimi Rüknəddin özünün istiqlalını elan etdi. O, portuqalların hərbi təcavüzündən qorxduğu üçün Fars hakimi Allahverdi xana müraciət etdi və ondan kömək istədi. Bu məlumat Allahverdi xana çatandan sonra o, baş verənləri təhlil etdi və belə bir qərar qəbul etdi ki, elə Bəhreyni fəth etmək daha doğru olardı. Ona görə də Allahverdi xan xüsusi qoşun dəstəsi təşkil etdi və ona rəhbərliyi Xacə Moinəddin Fali adlı birisinə həvalə etdi. Xacə Moinəddin də böyük hissəsini tüfəngçilər təşkil edən qoşun dəstəsi ilə Bəhreynə yola düşdü. Zahirdə Xacə Moinəddin Bəhreyn hakiminə kömək göstərmək üçün Bəhreynə gəlmişdi. Əslində isə o, Bəhreyni işğal etmək üçün gəlmişdi və bunun üçün münasib an gözləməli oldu. Bəhreyndə olduğu günlərin birində Xacə Moinəddin öz əmisi oğlu Rəis Mənsur ilə birlikdə bir dəstə silahlı adamla Rüknəddinin evinin qapısına yaxınlaşdı və dərhal da içəri daxil oldu. Nəticədə Rüknəddin hələ yatağında ikən bir neçə qohum-qardaşı ilə birlikdə qətlə yetirildilər. Yerli əhali məsələnin nə yerdə olmasından xəbər tutub şah qoşunlarına qarşı çıxmaq istəsələr də, sonradan Rüknəddinin öldürüldüyünü eşidib sakitləşməyə məcbur oldular. Sonradan Hörmüz valisi Firuz şah portuqalların köməyi ilə Bəhreyn üzərinə qoşun çəkdilər və orada öz hakimiyyətlərini yenidən bərpa etməyə cəhd göstərdilər. Tərəflər arasında həm quruda, hm də döyüşdə gərgin keçən bir döyüş baş verdi. Döyüşün gedişində qızılbaş qoşun dəstəsinə rəhbərlik edən Xacə Moinəddin və onun silahdaşlarından bəziləri öldürülsələr də, Bəhreyni qoruyub saxlamaq mümkün oldu. Beləliklə, Bəhreyn də Şah Abbasın şah olduğu səltənətə birləşdirildi (64).

Bəhreyn fəth edildikdən dərhal sonra Fars vilayətinin qoşunları Lar vilayətinin fəthinə yollandılar. Bu vilayət də irsi şəkildə idarə edilirdi və orada hakimliyin qədim bir tarixi də var idi. Mənbələrdə hələ islamdan əvvəl Lar sülaləsi burada hakimliyə başlamışdı. Şah İsmayılın rəhbərliyi altında Səfəvi dövləti yaradılandan sonra Lar vilayəti də bu dövlətin hüdudlarına daxil olmuşdu.

Amma şah xəzinəsinə vergi verən bu vilayətdə irsi hakimiyyət də saxlanmışdı. Şah Təhmasibin hakimiyyəti illərində Nurəddin xan ibn İbrahim xan ibn Ənuşirəvan Lar vilayətinin hakimi idi. Onun dünyasını dəyişməsindən sonra Ların hakimliyi oğlu Mirzə Əlaülmülkə keçdi. Şah Məhəmməd Xudabəndə tərəfindən o, İkinci İbrahim xan çağırılırdı. Şah Abbasın taxta çıxdığı zaman da o, Lar hakimi vəzifəsində idi. Amma İkinci İbrahim xan Şah Abbasa itaətini bəyan etməyə heç də tələsmədi. Şah Abbasın rəhbərliyi ilə şah qoşunları Yaqub xan itaətsizliyinin yatırılması üçün Fars vilayətinə gələndə saray çevrəsi İkinci İbrahim xanın Şah Abbasın hüzuruna gələcəyini və ona öz itaətini bəyan edəcəyini gözləyirdi. Amma bu baş vermədi və bununla İkinci İbrahim xan vilayət hakimliyi üçün şah tərəfindən zəmanət almaq şansını da əldən verdi. İkinci İbrahim xan "özünün cəhaləti və nadanlığından, həmçinin Lardakı pis məsləhətçiləri, xüsusilə ixtiyar sahibi olan dərgah əmirinin sözlərinə uydu, özünü elə səadət uğuruna çatdırmadı, qafillik etdi. Buna görə də, şahın mübarək məzacı İbrahim xan barəsində dəyişildi və onun gəlişini gözləməyə başladı. Xan isə, yalan vədlərlə kifayətlənərək öz gəlişini təxirə salırdı. Şahın ona olan inamı olduqca zəiflədi. Dərgah əmirinin Lar vilayətindən bac və xərac almaq üçün göndərilən saray mülazimləri ilə pis rəftar etməsi də şahın qəzəbinə səbəb oldu. [Buna görə də,] fərman alan Allahverdi xan onları cəzalandırmağa yollandı. O, Lara yaxınlaşdığı vaxt İbrahim xan üzrxahlıq fikrinə düşərək boyun oldu ki, bundan sonra şahın mübarək razılığına yetmək üçün çalışacaq və ona yaxşı qulluq göstərəcəkdir" (65).

Görəndə ki, şah qoşunlarının gəlməsindən sonra vəziyyəti ağırlaşıbdır, İbrahim xan çıxış yolunu mərkəzi hakimiyyətə sədaqəti olmağını bəyan etməkdə gördü. Allahverdi xan da onun vədinə inandı və qoşunu geri çəkməklə yenidən Şiraza qayıtdı. İbrahim xan bundan heç də lazımi nəticə çıxarmadı. Əksinə, o, bir daha Şah Abbasın təqdir etmədiyi əməllər törətməyə başladı. O cümlədən, İbrahim xan talanları, insanların var-yoxunu əlindən almağı daha da genişləndirdi.

Məsələn, Lardan keçən tacirlər və yolçular çoxlu sayda əziyyətlə qarşılaşır və burada onların var-dövlətləri talan edilirdi. Vilayət ərazisində bu adamlardan zorla pul toplanırdı. Ona görə bu vilayətdən yolu düşən tacirlərin şikayətləri çoxalmağa başladı və bu şikayətlər şah sarayına da çatdı. Həm ticarət əhlinin incidilməsinin, həm də vilayətin mərkəzi hakimiyyətdən qopmasının qarşısını almaq üçün Şah Abbas Lar vilayətinə yenidən qoşun göndərilməsi barəsində qərar qəbul etdi. Allahverdi xan yenidən qoşun dəstəsi ilə Lara tərəf hərəkətə başladı. İbrahim xan bu barədə məlumat alanda bir daha bağışlanması üçün cəhd göstərdi. O öz adamını Allahverdi xanın yanına göndərərək şah hakimiyyətinə sədaqətini bəyan etdi. Allahverdi xan bu dəfə onun sözlərini qəbul etmədi və ona belə bir xəbər göndərdi: "Bu yerlərdə nifaq baş alıb getməkdədir. Əgər İbrahim xan özünü şah dərgahının bəndələrindən hesab edirsə və öz sözünə sadiqdirsə, münasibdir ki, qorxuhürküsüz gəlsin və tərəflər arasında görüş başlansın. Əgər belə olmazsa, mənim yenidən geri qayıtmağım bizim padşahın dövlətinə qarşı nalayiq iş olmuş olar" (66).

Allahverdi xan ondan tələb etdi ki, əgər doğrudan da şah hakimiyyətinə sədaqətlidirsə, onda Şah Abbasın dərgahına yollansın və ona öz itaətini bəyan etsin. İkinci İbrahim xan isə bu təklifə əməl etmədi, mərkəzi hakimiyyətə müxalifətdə qalmaqla Allahverdi xanın qoşun dəstəsinə müqavimət göstərmək yolunu tutdu. Qoşun dəstəsi Lar qalasını mühasirəyə aldı və onun fəthi üçün mühasirə döyüşlərinə başlandı. Amma Lar qalası daxilində olanların heç də hamısı İbrahim xanın şah qoşunlarına müqavimət göstərmək qərarını dəstəklədilər. Onlardan biri də Ların mötəbər əyanlarından olan Qazi Əbülqasım idi. O, şah hakimiyyətinə sədaqət yolunu tutaraq qardaşı ilə birlikdə qalanı tərk etdi və Allahverdi xanın yanına yollandı. İbrahim xan bu hadisədən ciddi təşvişə düşdü və özünün Növşad adlı sipəhsalarını qalanı tərk edənlərin saxlanmasına və geri qaytarılmasına göndərdi. Həmin sipəhsalar və onun yanında olanlar Allahverdi xanın yanına getdilər və məsələ ilə bağlı onunla söhbət etdilər. Xan düşərgəsində olarkən

aşkar oldu ki, İbrahim xanın göndərdikləri adamların paltarları altında zirehli geyim vardır. Allahverdi xan bunu gördükdə həmin adamların məkrli plana malik olması qənaətinə gəldi və onları həbs etdirdi. Bu hadisədən sonra Allahverdi xan qala daxilindəkilərə də xəbər göndərdi, təslim olacaqları təqdirdə onların malına və canına toxunulmayacağı barəsində vəd verdi. Bu vəddən sonra Lar sakinləri arasında şah hakimiyyətinə meyllilik xeyli gücləndi. Bunu görən İbrahim xan Lar qalasını tərk etdi və bir tərəfi dağa birləşən bir qalaya sığındı. Bundan sonra Allahverdi xanın qoşun dəstəsi də Lar qalasına daxil oldu (67).

İbrahim xan isə yaxşı bilirdi ki, onun şah qoşunlarına qarşı döyüşmək üçün nə gücü, nə də qabiliyyəti vardır. Belə olanda onun aman istəməkdən başqa bir yolu yox idi. Ona görə də qərara aldı ki, Allahverdi xanın yanına yollansın və onun vasitəsilə Şah Abbasın da iltifatını əldə etsin. Bu məqsədlə o, yaxın ətrafı ilə birlikdə sığındığı qalanı tərk etdi və Allahverdi xanın yanına yollandı. Allahverdi xan onu və yanındakıları mehribanlıqla qarşıladı və o da belə bir qərara gəldi ki, İbrahim xanı şah sarayına çatdırına qədər onunla xoşluqla dolansın. Sonradan Şah Abbasın nə qərar qəbul edəcəyi isə artıq ona aid olan məsələ deyildi. Bununla belə, Allahverdi xan lar camaatı arasında fitnə-fəsad törədən bəzi adamların həyatına son qoydu, bir çoxlarını isə şah iltifatı ilə ümidləndirdi. İbrahim xanın sığındığı qala da şah qoşunlarına təslim oldu. Təhvil alınan qalanın idarəçilik işləri etibarlı adamlara tapşırıldı. Vilayətin hakimliyi isə Qazi Əbülqasıma həvalə olundu. İbrahim xana gəldikdə, onun var-dövləti əlindən alındı, özü isə Şiraz şəhərinə gətirildi. Bundan sonra Allahverdi xan həm Bəhreynin fəthi, həm də Lar vilayətinin fəthi ilə bağlı Şah Abbasa xəbər göndərdi. Bu zaman Şah Abbas şah qoşunları ilə birlikdə hələ də Məşhəddə idi. Burada o, Bəlx şəhəri üzərinə yürüşə hazırlaşırdı. Həmin hazırlıq işlərinin getdiyi bir vaxtda belə xoş xəbər alınması Şah Abbasın əhval-ruhiyyəsini daha da şadlandırdı. Bu fəthlərə nail olmuş Allahverdi xan Şah Abbas tərəfindən qiymətli mükafatlara layiq görüldü. Sonra isə həm Allahverdi xan, həm də

onun rəhbərliyi altında olan bütün qoşun dəstəsi Xorasana çağırıldı (68).

Allahverdi xan da Lardan Xorasana doğru istiqamət götürdü. Şah Abbas və onun rəhbərliyi altında olan qoşunlar Herat və Badğıs ətrafında olarkən Allahverdi xan öz qoşun dəstəsi və İbrahim xanla birlikdə ona dərgahına yetişdilər. Allahverdi xan əsir götürdüyü İbrahim xanı, onun bütün var-dövlətini, sərvətlərini, qiymətli əşyalarını Şah Abbasa təqdim etdi. İbrahim xandan ələ keçirilmiş qiymətli əşyalardan biri tac idi. Bu tac qiymətli dürr və yaqutlarla bəzədilmişdi və Keyxosrov tacı adlandırılırdı. Həmin tac İbrahim xana əcdadlarından yadıgar qalmışdı və o, Şah Abbasın xəzinəsinə qismət oldu. Şah Abbas İbrahim xanın həyatına toxunmadı. Qərara alındı ki, şah qoşunları Heratda olduğu müddətdə İbrahim xan Allahverdi xanın qayğısı və nəzarəti altında olsun. Bu vaxt şah qoşunları arasında xəstəlik yayıldı və İbrahim xan da bu xəstəliyə mübtəla oldu. Həkimlər onun müalicəsinə çalışdılarsa da bir nəticə hasil olmadı və o, şah qoşunları arasında dünyasını dəyişdi. Onun dünyasını dəyişməsindən sonra Larda irsi hakimiyyətə də son qoyuldu və bu vilayət mərkəzi hakimiyyətə birbaşa bağlı olan vilayətlərdən birinə çevrildi (69).

### 6. Nəhavənd qalasının nəzarət altına alınması

1602-ci ildə Şah Abbas yenidən Xorasan vilayətinə hərbi yürüş etdi. Bu yürüşdən əsas məqsəd Bəlx şəhərinin ələ keçirilməsi və vilayət daxilində dövlətçilik işlərinin sahmana salınması idi (bu barədə aşağıda danışılacaqdır). Bəlx şəhəri üzərinə hücumdan sonra Şah Abbas bir müddət Heratda qaldı. Herat darülsəltənəsində olduğu bir neçə gün ərzində Şah Abbas oranın idarəçilik işlərinin tənzimlənməsi ilə məşğul oldu, sonra isə müqəddəs Məşhədə yollandı. Orada da bir neçə gün Xorasan hakimlərinin, sahiblərinin və əyanlarının mətləb və mübahisəli məsələləri ilə məşğul olaraq, şahanə nəvazişlər və xələtlər verməklə hamını sevindirdi. Şah Abbas bir neçə gün ərzində müqəddəs Astanaya (İmam Rza

rövzəsinə ) gedərək rövzə sərkarının, ərizə verənlərin, seyidlərin, xidmətçilərin, vəzifə sahiblərinin qayğılarının və başqa işlərin qaydaya düşməsinə vaxt ayırdı, oradan İraqa (İraqi-Əcəm) tərəf yollandı, bir neçə gün Radkan Ələngində dayandı. Həmin günlərdə Şah Abbas əzəmətli qorçuları və sərkare-şərifə mülazimlərini qəbul etdi və sonra daha bir neçə gün ov mərasimlərinə qatıldı. Bu səfərdə ləyaqətlə xidmət göstərənlərin bir dəstəsi ənamlarla mükafatlandırıldı, bir neçə müqəssir isə xidmətdən kənarlaşdırıldı. Bu işləri yerinə yetirdikdən sonra Şah Abbas Xəbuşan yolu ilə ov edə-edə mənzilə tərəf üz tutdu. O, qoşunların əsas hissəsini Bəstamın Hənəkməğz yolu ilə göndərdi, özü isə demək olar ki, tənha halda (subay) az miqdar müqəddəs qoşun mülazimiylə Dərun qalasına təşrif apardı, Dərun qalasının əgər-əskik işlərinə nəzər yetirdi. Mirçeşmgəzəkin xasseyi-şərifə qulamı olan Şahqulu Sultana yüksək əyalət və xan rütbəsi verməklə sevindirdi və Dərun hakimliyini ona həvalə etdi. Şah Abbas o yerin də işlərindən xatircəm olandan sonra Xar adlanan ərazidə yola salmış olduğu ordu ilə birləşdi və İsfahana doğru hərəkəti davam etdirdi (70).

Şah Abbas yolüstü Kaşanda dayandı. Yerli əhali onu böyük sevinc və təntənə ilə qarşıladı. Bu şəhərdə üç gün qaldıqdan sonra Şah Abbas qoşunlarla birlikdə İsfahana doğru yolunu davam etdirdi. 1602-ci ilin son və 1603-cü ilin ilk aylarını Şah Abbas İsfahanda keçirdi və həmin vaxt ərzində dövlətçilik işlərinə daha çox vaxt ayırdı. 1603-cü ilin Novruz bayramı İsfahanda xüsusi bir təntənə ilə qeyd edildi. Şah Abbasın göstərişi ilə həmin günlər şəhərdə böyük bir bayram əhval-ruhiyyəsi yaradıldı. İsfahanın küçələrində çıraqban təşkil edildi, şəhərin küçələri gecələr də gündüzə çevrildi. Şah Abbas da bu bayram şənliklərinə qoşuldu. Səltənətin əmir və əyanları, qoşun əhli, adi sakinləri üç gün ərzində bayram sevinclərini yaşadı. Həmin vaxtlarda Şah Abbasın oğlan övladı dünyaya gəldi və şah tərəfindən ona İmamqulu Mirzə adı verildi (71).

Novruz şənlikləri sona çatandan sonra Şah Abbas Nəhavənd qalasının nəzarət altına gətirilməsi məsələsinə daha ciddi diqqət yetirməyə başladı. Bu qala 1590-cı ildə Osmanlı dövləti ilə sülh

anlaşması əldə edilən gündən Osmanlı nəzarəti altına düşmüşdü. Əslində isə bu qala Səfəvi dövlətinə aid olan ərazi daxilində tikilmişdi. Sülh anlaşması qəbul ediləndə tərəflər belə razılaşdırmışdılar ki, bu dövlətlərin nəzarəti altında olan ərazilər toxunulmaz olaraq qalacaqdır. Yəni Osmanlı qoşunlarının Səfəvi hüdudlarında ələ keçirdiyi ərazilər Osmanlı ərazisi kimi təsbit olunmalı idi. Bu sülh anlaşması əldə edilməzdən əvvəl Osmanlı əmirləri Həmədan vilayətində qızılbaş tayfalarının çox məskunlaşdığı Nəhavənd qəsəbəsində bir qala tikmişdilər. Bu qala Osmanlı qüvvələri tərəfindən mühafizə olunurdu və qalanın xərcləri də Osmanlı dövləti tərkibində olan Bağdadın hakimi tərəfindən ödənilirdi. İki dövlət arasında əldə edilmiş sülh razılaşmasının pozulmaması üçün Şah Abbas bu qalanın nəzarət altına gətirilməsini məqsədəuyğun saymırdı. Amma Nəhavəndin Osmanlı nəzarəti altında olması o bölgədə yaşayan qızılbaş tayfaları üçün bir sıra çətinliklər yaradırdı. Çünki Osmanlı qüvvələri Nəhavəndə daxil olmaq üçün qızılbaş tayfalarının məskunlaşdığı ərazilərdən keçir və bu da yerli əhali üçün müəyyən narahatçılıqlarla müşayiət olunurdu. Bu qalanın məsələsi ilə bağlı bir neçə dəfə Osmanlı vəzirləri və mənsubları qarşısında məsələ qaldırılmışdı və Səfəvi ərazisi daxilində olan bu qalanın təhvil verilməsi təklif olunmuşdu. O da Osmanlı sarayına çatdırılmışdı ki, bu qala ətrafında yaranan söhbətlər iki dövlət arasında əldə edilmiş anlaşmanın pozulmasına da gətirib çıxara bilər. Səfəvi ərazisi daxilində olan bu qalanın Səfəvi dövləti tərəfindən nəzarət altına alınması sülh anlaşmasının pozulması demək olardı. Səfəvi mənsubları onu da təklif edirdilər ki, narazılıqların aradan qaldırılması üçün həmin qalanın dağıdılmasına baxılsın. Amma Osmanlı sarayı bu təklifləri qəbul etmədi. Osmanlı sültanı III Muradın dünyasını dəyişməsindən sonra Nəhavənd qalası ətrafında vəziyyət daha da pisləşdi. Yeni sultanın hakimiyyəti dövründə Osmanlı daxilində özbaşınalıqlar, qanunsuz hərəkətlər daha çox özünü göstərməyə başladı. Saray nəzarətindən uzaq olan sərhəd bölgələrində də belə hərəkətlərin sayı çoxalmağa başladı. Hətta Bağdadın özündə də Osmanlı sarayının nüfuzu zəifləməyə

başladı. Belə ki, fərdi iddialarını ortaya qoyan bir dəstə adam bu şəhərin qanuni hakimini vəzifəsindən uzaqlaşdırdılar və özləri Uzun Əhməd adlı birisini Bağdad hakimi elan etdilər. Bağdadın bu yeni hakimi Nəhavənddə olan Osmanlı mənsublarının maliyyələşdirilməsini dayandırdılar. Belə olanda Nəhavənd qalasında olan Osmanlı mənsubları özlərinin dolanışığını təmin etmək üçün ətraf yaşayış məntəqələri üzərinə hücuma başladılar. Talanlara məruz qalan əhalinin şikayətləri o qədər artdı ki, bu barədə hətta Bağdadın yeni hakiminə də xəbər çatdırıldı. Bağdad hakimi də bu narazılıqların aradan qaldırılması məqsədilə Nəhavənd qalasına Məhəmməd ağa adlı birisini yeni Osmanlı əmiri təyin etdi. Amma Məhəmməd ağa Nəhavənd qalasında haqq yolundan azmış Osmanlı mənsublarını düz yola gətirə bilmədi. Həmin insanlar Məhəmməd ağanı bir əmir kimi qəbul etmədilər və hətta onun əmlakını da talan etdilər. Məhəmməd ağa düşdüyü ağır vəziyyətdən çıxmaq üçün Şah Abbasa müraciət etdi, ondan kömək istədi və hətta Səfəvi təbəəliyini qəbul etməyə hazır olduğunu da bəyan etdi. Şah Abbas bu müraciətdən sonra Nəhavənd qalasında olan Osmanlı mənsublarına bir məktub göndərdi, onları itaətsizlikdən əl çəkməyə, ətraf məntəqələrin talan edilməsini dayandırmağa çağırdı. Şah Abbasın tapşırığı ilə Əlişəkər sərhəd bölgəsinin hakimi Həsən xan və sərhəd bölgəsinin digər bir sıra əmirləri Məhəmməd ağanın köməyinə yollandılar. Ancaq bu köməyin gəlməsi ərəfəsində Nəhavənd qalası ətrafında olan məntəqələrin adamları rastlaşdıqları talanları aradan qaldırmaq üçün Nəhavənd qalası üzərinə hücum etdilər. Bu adamların ətrafında toplaşmış qüvvə Nəhavənd qalasını mühasirəyə aldı. Həsən xanın rəhbərliyi altında köməyə göndərilmiş qüvvə gəlib yetişəndən sonra qalanın mühasirəsi daha da gücləndirildi. Qala əmiri Məhəmməd ağa tutduğu vəzifədən əl çəkdiyini bildirdi və bununla, qala daxilindəkiləri başsız qoydu. Bundan sonra qala daxilində olanlardan da bəziləri müqavimət göstərməyi əbəs bilib şah hakimiyyətinə sığındığını bəyan etdi. Belələrinin köməyi ilə hətta qala bürclərindən biri Səfəvi qüvvələrinin ixtiyarına verildi. Qala daxilindəkilər bundan xəbər tutub şah

hakimiyyətinə sığınanları cəzalandırmağa çalışdılar. Nəticədə bir neçə adam qətlə yetirildi. Bununla belə, qalanı qoruyub saxlamaq mümkün olmadı. Qalanın mühasirəsi daralanda qala daxilindəkilər çıxılmaz vəziyyətə düşdülər. Həsən xan xəbər göndərərək onlara aman veriləcəyini bildirdi. Bundan sonra qalanın daxilində müdafiə işləri xeyli zəiflədi və tezliklə Nəhavənd qalası Səfəvi qüvvələrinin nəzarəti altına düşdü. Şah Abbasdan aldığı tapşırığa əsasən, Həsən xan Nəhavənd qalasını ələ keçirdikdən sonra onu dağıtdı (72).

Nəhavənd qalası dağıdılsa da Şah Abbas istəyirdi ki, Osmanlı-Səfəvi anlaşması pozulmasın. Lakin çox tezliklə iki dövlət arasında müharibə başlandı və bu anlaşma da pozulmalı oldu.

## 7. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən tərcümə Şahin Fazil. Bakı, 2010, s. 875
2. Dünyanı bəzəyən Abbasın tarixi, s. 876; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi, Ankara, 2011, s .94
3. Dünyanı bəzəyən Abbasın tarixi, s. 877; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi, Ankara, 2011, s. 94
4. Dünyanı bəzəyən Abbasın tarixi, s. 878; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi, Ankara, 2011, s. 95; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, Tehran, 1391, s. 631; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, Tehran, 1388, s. 247
5. Dünyanı bəzəyən Abbasın tarixi, s. 879; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 247
6. Dünyanı bəzəyən Abbasın tarixi, s. 879
7. Yenə orada, s. 880-881
8. Dünyanı bəzəyən Abbasın tarixi, s. 881; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 247
9. Dünyanı bəzəyən Abbasın tarixi, s. 882
10. Yenə orada, s. 929

11. Yenə orada, s. 930
12. Yenə orada, s. 989
13. Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 248
14. Dünyanı bəzəyən Abbasın tarixi, s. 990
15. Yenə orada, s. 991
16. Yenə orada, s. 993
17. Yenə orada, s. 994
18. Dünyanı bəzəyən Abbasın tarixi, s. 802; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 422;
19. Dünyanı bəzəyən Abbasın tarixi, s. 886
20. Dünyanı bəzəyən Abbasın tarixi, s. 883; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 422; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 95
21. Dünyanı bəzəyən Abbasın tarixi, s. 884; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 422-423
22. Dünyanı bəzəyən Abbasın tarixi, s. 885; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 96
23. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 423
24. Yenə orada, s. 424
25. Yenə orada
26. Dünyanı bəzəyən Abbasın tarixi, s. 885
27. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 160
28. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s. 160; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s.425; Belan L. Zendegi-ye Şah Abbas, s. 96
29. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s.426
30. Dünyanı bəzəyən Abbasın tarixi, s. 888
31. Yenə orada
32. Yenə orada, s. 928-929
33. Dünyanı bəzəyən Abbasın tarixi, s. 929
34. Dünyanı bəzəyən Abbasın tarixi, s. 930; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 248
35. Dünyanı bəzəyən Abbasın tarixi, s. 932
36. Yenə orada, s. 933

37. Yenə orada, s. 934-935
38. Yenə orada, s. 985
39. Yenə orada, s. 986
40. Yenə orada, s. 987-988
41. Yenə orada, s. 983-984
42. Dünyanı bəzəyən Abbasın tarixi, s. 945-946; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 250
43. Dünyanı bəzəyən Abbasın tarixi, s. 996; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 250
44. Dünyanı bəzəyən Abbasın tarixi, s. 997
45. Yenə orada, s. 998
46. Yenə orada, s. 1071
47. Yenə orada
48. Yenə orada, s. 1061
49. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1064; Parsadust M. Şah Abbas-e əvvəl. Cild I, s. 252
50. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1065
51. Yenə orada
52. Yenə orada, s. 1068
53. Yenə orada, s. 1069
54. Yenə orada, s. 1070
55. Yenə orada, s. 1070
56. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 608
57. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1053
58. Yenə orada, s. 1054
59. Yenə orada
60. Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 124
61. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1055; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 610
62. Belan L. Zendegi-ye Şah Abbas, s. 131
63. Yenə orada s. 145
64. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II Kitab. Fars dilindən tərcümə Şahin Fazil. Bakı, 2014, s. 1121-1122; Belan L. Zendegi-ye Şah Abbas, s. 147

65. Dünyanı bəzəyən Abbasın tarixi. II Kitab, s. 1123
66. Yenə orada, s. 1124
67. Yenə orada
68. Yenə orada, s. 1125
69. Yenə orada, s. 1127
70. Yenə orada, s. 1149
71. Yenə orada, s. 1175
72. Yenə orada, s. 1157-1158

# IV FƏSİL
# SƏFƏVİ-ÖZBƏK MÜHARİBƏLƏRİ

## 1. Özbək qoşunlarının Herat üzərinə hücumu

Səfəvi dövlətinin əsası qoyulduğu vaxtlardan bu dövlətin şərq sərhədləri davamlı olaraq özbək hakimlərinin hərbi yürüş təhlükəsi altında idi. Özbək hakimləri ənənəvi olaraq Xorasan vilayətini, onun paytaxtı Herat şəhərini ələ keçirməyi və həmin vilayətdə möhkəmlənməklə qərbə doğru irəliləməyi arzulayırdılar. Bu dövlətlər arasında hələ Şah İsmayılın vaxtında başlanan müharibələr Şah Təhmasibin hakimiyyəti illərində də davam etdi. Onun dünyasını dəyişməsindən sonra Səfəvi dövləti daxilində qızılbaş əmirlərinin hakimiyyət uğrunda çəkişmələrinin güclənməsi, bununla dövlətin kifayət qədər zəifləməsi özbək xanlarına yeni hücum üçün əlverişli fürsət yaratdı və bu fürsətdən istifadə etməklə özbək qoşunlarının Səfəvi hüdudlarına hücumlarının yeni bir dövrü başladı.

Şah Abbasın hakimiyyəti illərində də özbək xanlarının Xorasan üzərinə hücumları davamlı xarakter aldı. Əslində, Şah Abbas hakimiyyətə gələndə özbək qoşunları artıq Xorasan vilayəti daxilində idi. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas (Abbas Mirzə) uşaq yaşlarından Herat hakimi idi və onun adından bu vilayəti Əliqulu xan Şamlı idarə edirdi. Əliqulu xan Şamlı Abbas Mirzənin lələsi idi və bu lələlik onun səltənət daxilindəki nüfuzunu da xeyli artırırdı. Abbas Mirzə mövcud hakimiyyətin mümkün varislərindən biri idi. Onun hakimiyyətə gələcəyi təqdirdə Əliqulu xan Şamlının səltənət daxilindəki hökmü də kifayət qədər arta bilərdi. Amma məlumdur ki, 1586-cı ilin yayında Tərşiz ətrafında Əliqulu xan Şamlı ilə Məşhəd hakimi Mürşüdqulu xan Ustaclı arasında baş verən döyüşdə Mürşüdqulu xan üstün gəldi və fürsət taparaq Abbas Mirzəni də ələ keçirdi. Mürşüdqulu xan Abbas Mirzəni, yəni şahzadəni ələ keçirməklə öz mövqelərini xeyli möhkəmləndirmiş oldu. Əliqulu xan isə əksinə, Abbas Mirzəni əldən ver-

məklə öz mövqelərini və hökmünü zəiflətmiş oldu. Tərşiz yaxınlığında uğursuzluğa düçar olan Əliqulu xan öz yaxın ətrafı və ona sədaqətli olan əmirlərlə birlikdə tez-tələsik Herat qalasına qayıtdı və orada möhkəmlənmək qərarına gəldi. Abbas Mirzənin əldən verilməsi Əliqulu xanın dərin kədərinə və qəzəbinə səbəb oldu. Onun gələcəyə olan bütün ümidləri, əslində, Abbas Mirzə ilə bağlı idi. Əliqulu xanın mövcud vəziyyətdə Mürşüdqulu xanın üstünə qoşun çəkməklə Abbas Mirzəni geri qaytarmaq imkanı və gücü yox idi. Amma Əliqulu xan Abbas Mirzənin geri qaytarılması fikrindən də əl çəkmədi. Bu məsələnin həllinə nail olmaq üçün Əliqulu xan özbək xanı Abdulla xana müraciət etdi və onun yanına öz elçisini göndərdi (1).

"Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşinin yazdığına görə, Abbas Mirzə kimi bir sərmayəni əldən verdiyi üçün Əliqulu xan dərin təəssüf keçirirdi. Abbas Mirzənin Mürşüdqulu xanın girovluğundan xilas etmək üçün Əliqulu xanın şah sarayından kömək ala biləcəyinə ümidi yox idi. Ona görə də o, bir məktub Qəndəhar hakiminə, başqa bir məktub isə özbək xanı Abdulla xana yazdı. Qəndəhar hakimindən kömək gəlməyəcəyi bəlli olanda Əliqulu xan Şamlı bütün ümidlərini Abdulla xanın göstərəcəyi köməyə bağladı (2).

"Rövzətüs-səfəviyyə" müəllifinin yazdığına görə, Əliqulu xanın özbək xanına yazdığı məktubu Pirhacı bəy adlı birisi apardı. Həmin məktubda yazılmışdı ki, əgər özbək xanının sərdarları öz yolunu bu tərəfə salsalar Xorasan vilayəti onların nəzarəti altına düşə bilər. Bu vilayətə özbək xanının nümayəndəsi hakim təyin edilər. Əliqulu xanın yazdığına görə, Xorasan vilayətinin ələ keçirilməsindən sonra Kaşanın və İraqın (İraqi-Əcəm) ələ keçirilməsi məsələsi də asanlaşa bilərdi. Məktubla bərabər, özbək xanına çoxlu sayda qiymətli hədiyyələr də göndərildi (3).

Abdulla xan Heratdan gələn elçini mehribanlıqla qarşıladı və Əliqulu xanın kömək almaq üçün göndərdiyi məktubla tanışlıqdan sonra öz əmir və əyanlarını yanına topladı. Onların arasında Məhəmməd Baqi xan, Mirqulu baba Kukəltaş, Şah Məhəmməd Mirzə

kimi əmir və əyanlar da var idi. Əliqulu xandan gələn məktubun məzmunu bu əmir və əyanlarla müzakirə edildi. Toplantıda iştirak edən bütün əmirlər və əyanlar yekdil şəkildə Xorasana qoşun çıxarmağa tərəfdar oldular. Özbək əmir və əyanları da yaranmış vəziyyəti Xorasanın işğal edilməsi üçün bir fürsət kimi dəyərləndirdilər. Qərar qəbul olunandan sonra özbək xanı Türküstandan, Fərqanə vilayətindən, Ceyhun bölgəsindən, Sənd, Səmərqənd, Buxara, Qaragül, Hisari-Şadman, Bağlan, Qunduz, Bədəxşan, Bəlx, Təharistan və digər vilayətlərdən çoxlu sayda qoşun toplanması haqqında göstəriş verildi. Nəticədə, Xorasan vilayətinə hücum edilməsi üçün çox böyük sayda qoşun dəstəsi toplandı (4).

Bir məlumata görə, özbək xanının cavabının ləngidiyini görəndə Əliqulu xan yaxın ətrafından olan Əliqulu bəy Sarığçıbaşını yenidən özbək xanının yanına göndərdi (5). Abdulla xan isə Xorasana yenidən hücum etmək fürsətinin əlinə düşməsindən çox sevindi və qoşun toplanması hazır olan kimi, həmin vilayətə tərəf istiqamət götürdü. Abdulla xan saysız-hesabsız qoşunlarla Bəlxə gəldi və bir neçə gün orada düşərgə saldı. Sonra isə özbək qoşunları Mərv, Şahcan, Sərəxs marşrutu ilə Herata tərəf irəlilədi. Herat şəhərinə yetişməzdən əvvəl Abdulla xan öz elçisi vasitəsilə Əliqulu xana məktub göndərdi və niyyətinin Əliqulu xana kömək etmək yox, Xorasanı ələ keçirmək olduğunu bildirdi. Əliqulu xana təklif olundu ki, Herat qalasını müqavimət göstərmədən özbək qoşunlarına təhvil versin. Əvəzində, Mavərənnəhr, Türküstan və Bədəxşanda Əliqulu xanın arzu etdiyi ərazi onun hakimliyi altına verilə bilərdi (6).

Özbək qoşunlarından kömək almaq istədiyi halda bu qoşunlar tərəfindən Heratın və bütünlükdə Xorasanın işğal edilməsinə şərait yaratmasından Əliqulu xan çox peşman oldu. Əliqulu xan bir daha anladı ki, özbək xanlarının Xorasan vilayəti haqqında ənənəvi maraqları vardır və ona görə onların qızılbaş əmirləri ilə ittifaqa girməsi elə də gözlənilən bir məsələ deyil. O, Abdulla xanın təklifini qəbul etmək və Herat şəhərini özbək qoşunlarına təslim etmək fikrindən də uzaq idi. Ona görə də Əliqulu xan qalaya çə-

kilmək, qalanı möhkəmləndirmək və özbək qoşunlarına qarşı müdafiə olunmaq yolunu tutdu. Mövcud olan məlumatlara görə, Abdulla xanın qoşun dəstəsi 80 min nəfərdən ibarət idi. Herat ətrafına yetişəndən sonra özbək qoşunları əvvəlcə şəhərin Firuzabad qapısını hücuma məruz qoydular. Sonra isə bütün şəhər mühasirəyə alındı. Herat qalası dövrünün və bölgənin kifayət qədər möhkəm qalalarından biri idi. Onu adi bir hücumla almaq elə də asan deyildi. Onun üçün idi ki, Heratın uzun sürən bir mühasirəsi başladı (7).

Özbək qoşunlarının hücumu ciddi bir təhlükəyə çevrildiyi üçün Əliqulu xan çarəsizlik üzündən Qəzvin sarayına da məktub göndərdi və şah qoşunlarının köməyini istədi. Amma şah və onun ətrafındakılar daha çox daxili çəkişmələrin girdabında qalmışdılar və ona görə də Əliqulu xana kömək göndərilməsi imkanı yox idi. Abbas Mirzəyə gəldikdə isə o da Mürşüdqulu xanın girovuna çevrilmişdi və onun da əvvəlki lələsinə kömək göstərmək imkan mövcud deyildi. Ona görə də Əliqulu xan təklikdə Herat qalasını müdafiə etmək məcburiyyətində qaldı (8).

Herat qalasının mühasirəsi kifayət qədər uzandı və tarixdən məlumdur ki, bu mühasirə on bir aya qədər davam etdi (9). Heratın mühasirəsinin belə uzanması Əliqulu xan tərəfindən qalanın müdafiəsinin etibarlı şəkildə təşkil edilməsi ilə bağlı idi. Onun tərəfindən Herat qalasının mühasirəsi üçün konkret işlər görüldü, qala divarları qızılbaş əmirləri arasında bölüşdürüldü və divarların həmin hissəsinin qorunmasının məsuliyyəti bu əmirlərə həvalə olundu. Bundan başqa Əliqulu xan tərəfindən xüsusi qruplar təşkil edildi və onlara şəhər qalası ətrafında müdafiə xəndəklərinin qazılması tapşırıldı. Müdafiənin etibarlılığını artırmaq üçün ilk günlər Əliqulu xan qala xaricində özbək qoşun dəstələri ilə döyüşlərə girdi. Hətta bəzi istiqamətlərdə özbək qoşun dəstələri geri çəkilmək məcburiyyətində qaldılar. Amma kifayət qədər qüvvə üstünlüyünə malik olan özbək qoşunları bir neçə gündən sonra döyüşlərinin xarakterini dəyişə və şəhər ətrafında hərbi təşəbbüsü ələ ala bildilər. Abdulla xan 30 min nəfərlik qoşun dəstəsi ilə Heratın

Məlik qapısı istiqamətindən hücuma qoşuldu. Bu hücum Əliqulu xanın qətiyyətli müdafiəsi ilə qarşılaşdı. Tərəflər arasında gərgin bir döyüş baş verdi. Doğrudur, Əliqulu xan geri çəkilməli oldu. Lakin onun rəhbərliyi altında olan qızılbaş qoşun dəstəsinin şücaəti və fədakarlığı Abdulla xanda bir təşviş yaratdı. Mənbələrdə olan məlumata görə, həmin gün Abdulla xanın rəhbərliyi altında olan özbək qoşunlarına dəhşətli bir gün yaşadıldı. Yəni bu döyüşün nəticəsi Heratın fəth edilməsinin mümkünlüyü barəsində Abdulla xanda bir şübhə yaratdı. Ona görə də o, öz adamlarından birini elçi kimi Əliqulu xanın yanına göndərdi və ona öz sözlərini çatdırdı: "Sənin cəsarətin və ərliyin tərəfımızdən bilindi və sənə olan sevgimiz və məhəbbətimiz artdı. Ən yaxşısı budur ki aramızdaki çatışmaya və düşmənçiliyə son verəlim. Sən adamlarım arasında yerini al, mən də sənə Xorasan hakimliyini verim. Sözümün doğruluğuna inan. Bu iş nəticələnərsə sən bölgədəki bütün xaqan və sultanların başı olacaqsan. Bizdən başqa heç kimsə sənə bu qədər iltifat etməz" (10).

Əliqulu xan bu məktubda yazılanları qəbul etmədi. Həyatının və eləcə də qalada yaşayanların vəziyyətinin mürəkkəbləşməsinə baxmayaraq o, mərkəzi hakimiyyətə üzü dönüklük etmədi və özbək xanının şirnikləndirici təklifi ilə razılaşmadı. Əliqulu xan son nəfəsə qədər Herat qalasını müdafiə etmək qətiyyəti nümayiş etdirdi. Mənbələrdə olan məlumata görə, Əliqulu xan əynindəki paltarını kəfənə çevirdi və silahlanaraq yenidən özbək qoşunlarına qarşı döyüşə atıldı. O, rəhbərliyi altında olan qoşun dəstəsini də bu döyüşə səfərbər etdi və özü bütün qoşun üçün döyüşkənlik nümunəsi göstərdi. Özbək qoşunlarının say üstünlüyündən çəkinməyən Əliqulu xan onlarla qeyri-bərbər döyüşə girişdi, xeyli sayda özbək döyüşçüsünü o dünyalıq etdi. Ancaq nə qədər özbək döyüşçüsü qırılsa da, onların sayı-hesabı bilinmirdi. Əliqulu xanın döyüşkənliyini və fədakarlığını görüncə özbək döyüşçüləri onu mühasirəyə aldılar. Belə vəziyyətdə də Əliqulu xan silahını yerə qoymadı, onun üstünə şığıyan özbək döyüşçülərinə ciddi müqavimət göstərdi. Yalnız yaralarının sayı artanda və gücdən düşdü-

yünü hiss edəndə Əliqulu xan mühasirədən çıxmaq və qala divarlarına sığınmaq qərarına gəldi. Bu zaman da Əliqulu xan öz gücü ilə mühasirə dairəsini parçaladı və qala daxilinə çəkildi (11).

Əliqulu xan və Heratda məskunlaşmış olan şamlı tayfası bütün çətinliklərə baxmayaraq özbək qoşunlarına qarşı müqaviməti dayandırmadı. Mənbə məlumatlarına görə, Herat qalası ətrafında hər gün döyüş baş verirdi. Herat mühasirədə olduğu zaman Abbas Mirzə şahlıq taxtına çıxdı və hakimiyyətə sahib oldu. Əliqulu xan lələliyini etdiyi Abbas Mirzənin şahlıq taxtına çıxmasına çox sevindi və bu xəbəri həm də Herata mümkün köməyin göstərilməsinə bir ümid işartısı kimi qəbul etdi. Doğrudur, Mürşüdqulu xanın səltənət idarəçiliyində böyük səlahiyyətlər ələ keçirməsi Əliqulu xana yaxşı bir şey vəd etmirdi. Bununla belə, Əliqulu xan müqavimətini dayandırmamaqla həm də Şah Abbas hakimiyyətinə olan sədaqətini nümayiş etdirirdi. Davamlı şəkildə aparılan döyüşlərdə özbəklərin hətta şəhər divarlarına qalxdığı vaxtlar da olurdu. Amma hər dəfə onlar qala müdafiəçiləri tərəfindən vurulub geri qaytarılırdı. Belə əks-hücum döyüşlərində çoxlu sayda təcrübəli özbək bahadırı da qətlə yetirilmişdi (12).

Mühasirənin uzanması ilə əlaqədar olaraq Herat daxilində ərzaq əşyaları da qıtlaşmağa başladı. Mənbələrdə olan məlumata görə, bir xarvar buğdanın qiyməti yüz Xorasan təngəsinə qədər artdı. Bununla belə, yenə də şəhər daxilində buğda tapmaq mümkün deyildi. Çünki özbək qoşunları tərəfindən şəhər elə dar mühasirəyə alınmışdı ki, kiminsə gəlməsi və getməsi mümkün deyildi. Aclıq və ehtiyac o dərəcədə artdı ki, insanlar hətta heyvanların ətini yeməyə başladılar (13).

Özbəklər isə mühasirəni gücləndirməklə şəhərin təslim olacağına əmin idilər. Ona görə də onlar şəhərin mühasirəsindən əl çəkmədilər. Abdulla xan da yaxşı bilirdi ki, Herat şəhərini fəth etmədən bütün Xorasana yiyələnmək çətin olacaqdır. Əliqulu xanın şah tərəfindən hər hansı bir kömək göndriləcəyinə bağladığı ümid isə günü-gündən sönməkdə idi. Yuxarıda yazılanlardan bəllidir ki, Şah Abbas əslində belə bir köməyi göndərmək istəyirdi və

bununla həyatının uzun bir dövrünü bağladığı Əliqulu xanı düşdüyü çətin vəziyyətdən çıxarmaq istəyirdi. Bununla bağlı, Şah Abbas hətta Mürşüdqulu xana göstəriş də verdi. Amma Mürşüdqulu xan yaxşı bilirdi ki, Əliqulu xan özbək mühasirəsindən çıxıb Qəzvinə gəlsəydi, Şah Abbas ona daha böyük səlahiyyətlər verəcəkdi. Bu isə Mürşüdqulu xanın istəyincə deyildi. Ona görə də o, şah qoşunlarının Xorasan istiqamətində hərəkətə başlamasını hər vasitə ilə ləngitməyə çalışdı. Xorasan səfəri üçün hazırlıqlar aparılması görüntüsü yaratsa da, Mürşüdqulu xan əslində, bu səfərin ləngidilməsi ilə məşğul idi. Mərkəzi hakimiyyət tərəfindən hər hansı bir köməyi gələcəyinə ümidini kəsməkdə olan Əliqulu xan Herat qalasının təslim olmasından təxminən iki ay əvvəl öz elçilərini şəhər kənarına, Abdulla xanın yanına göndərdi. Onun şəhərin mühasirəsini dayandırmaq barəsində təklifləri Abdulla xan tərəfindən böyük qəzəblə qarşılandı. Əliqulu xanın elçiləri parça-parça doğrandı və sonra da bu elçilərin şaqqalanmış bədən üzvləri top lüləsinə yerləşdirilərək şəhər daxilinə atıldı. Bununla, Abdulla xan Herat qalasının alınmasında bir daha israrlı olduğunu nümayiş etdirdi (14).

Qala ətrafında cərəyan edən hadisələr və Əliqulu xan elçilərinin topa qoyulması məsələsi "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində belə təsvir olunmuşdur: "Mühasirə müddəti çox uzandı və heç yandan imdad küləyi əsmədi. Azuqənin çatışmaması və havanın üfunətindən şəhərdə bərk xəstəlik yarandı, mülki adamlar və ləşkər də xəstəliyə yoluxdular. Türk və taciklərdən hər gün dəstə-dəstə adam yoxluq yoluna yollanırdı. Buna görə də qaladakıların arasına çaxnaşma düşdü, savaşa bilmədilər. Qalada olan bəzi xorasanlılar, xüsusilə illərlə bu dövlətin çörəyini yeyən Molla Mir Baxərzi haramnəməklik edərək, qorunması ona tapşırılan şəhər bürclərindən birini boş qoydu, gedib qala eşiyindəkilərə qoşuldu. Qalanın idarə olunması, döyüşçülərin acizlik və iztirabları, qüvvət və qüdrətin yoxluğu onların yadına Abdulla xanı saldı. Onlar özbəklərə dövlətxahlıq izhar etdilər. Qalanın fəth edilməsinə cəhd artdı. Əliqulu xan şamlı tayfası əyanlarından Pir Budaq Sultanı

özünə yaxın adam olan müstövfi Əbu Talib bəy Ordubadi və daha bir neçə nəfərlə birlikdə Abdulla xanla sülh bağlamaqdan ötrü qaladan eşiyə çıxardı, qızılbaşlara məmləkətdən çıxmaları üçün yol verməsini və əhl-əyalları ilə çıxıb getmələrini xahiş etdi. Buraya hücumunun ilk vaxtlarında bunu istəyən Abdullah xan indi Molla Mirin və haramnəmək fəsad əhlinin təhriki, xüsusən ərbabların mirzəsi və Əbülhəsən Ğuryaninin təsiri ilə bu təkliflə razılaşmadı. ... Hər zaman elçilərin öldürülməsi yolverilməz sayılmış, şövkətli sərkərdələrin heç biri bu işə baş qoşmamış, bunu edənləri məzəmmət etmişlər. Amma, Abdulla xan isə bu qəbahətli əmələ iqdam edərək qaladan yanına göndərilən adamları topun ağzına qoyub, qalaya tərəf atdı, o biçarələrin ömür xərməninə zülm atəşi vurdu, əslində belə hərəkətlə öz namusunu yandırmış oldu" (15).

Abdulla xanın bu qəddarlığına baxmayaraq, Əliqulu xan və onun ətrafına toplanmış şamlı döyüşçüləri yenə də təslim olmadılar və Heratın müdafiəsini davam etdirdilər. Bu minvalla Herat qalasını daha iki ay müdafiə etmək mümkün oldu. Həmin müddət ərzində qala müdafiəçilərinin həm sayı, həm də vəziyyəti daha da ağırlaşdı. Bir tərəfdən də şəhər daxilində xəstəlik yayılmağa başladı. Bu da həm şəhər əhli, həm də müdafiəçilər arasında itkiləri artırdı. Heratın təslim edildiyi gün Əliqulu xan gecəni istirahət üçün öz evinə getmişdi. Müdafiənin ağırlığı onu əldən salmışdı və bir qədər istirahət etmək istəyirdi. Xeyli sayda qızılbaş döyüşçüsü də həmin gün müdafiə postlarını tərk edərək dincəlmək üçün evlərinə yollanmışdılar. Belə bir zamanda rastlaşdığı sınağa sona qədər təpər gətirə bilməyən bir döyüşçü qala divarları üstündən özbəklərə səsləndi və yaxınlıqdakı bürcün kimsə tərəfindən qorunmadığını söylədi. Özbəklər də dərhal bundan istifadə etdilər. Döyüşə daim hazır vəziyyətdə olan özbək bahadırlarından bir neçəsi kəndirlə müdafiəsiz qalmış bürcə dırmaşdılar. Sonra isə onlar digər özbəklərin yuxarı dırmaşmasına kömək etdilər. Beləliklə müdafiəsiz qalmış qala bürclərindən biri özbəklərin əlinə keçdi. Sonradan isə daha iki qala bürcü də ələ keçirildi. Əliqulu xanın və qızılbaş əmirlərinin bundan xəbəri yox idi. Onlar özbək döyüş-

çülərinin kərənay səsinə yuxudan ayıldılar və özbək qoşunlarını şəhər daxilində gördülər. Bu iş elə bir sürətlə həyata keçirildi ki, qala müdafiəçiləri şəhər küçələrinə axışan çoxsaylı özbək döyüşçülərinə müqavimət göstərməyi lazımsız bildilər. Özbək qoşunlarının cəzasından ehtiyatlanan çoxlu sayda qızılbaş döyüşçüsü Heratın daxilində tikilmiş İxtiyarəddin qalasına sığındılar. Şəhər isə özbək qoşunlarının əlinə keçdi. Özbəklər bütün şəhəri qılıncdan keçirdilər, əhalini soyub-taladılar. Mənbələrdə olan məlumata görə, zülm ərşə qalxdı və mühasirənin uzun çəkməsindən qəzəblənmiş özbək qoşunları şəhər əhalisindən öz qisaslarını aldılar. Herat əhalisindən 60 min nəfərin qılıncdan keçirilməsi və xeyli sayda insanın isə əsir alınması haqqında mənbələrdə məlumat vardır. O da bildirilir ki, əsir alınanlardan 40 min nəfəri sənətçi və peşə sahiblər idilər. Onlar Mavərannəhrə aparıldılar (16).

Əliqulu xan da İxtiyarəddin qalasına pənah aparmışdı. O da, onun yanında olan digər şamlı əmirləri də iki gün ərzində İxtiyarəddin qalasında qaldılar. Bu qalanın sahəsi kifayət qədər məhdud idi və onun daxilində ərzaq ehtiyatları da yox idi. Ona görə Əliqulu xanın və onun ətrafındakıların bu qalada uzun müddət müdafiə olunmaq imkanı yox idi. Amma bundan Abdulla xanın xəbəri yox idi. Onun gümanında İxtiyarəddin qalası daxilində yaşamaq üçün kifayət qədər ehtiyatlar mövcud idi. Abdulla xan bu qalanın da mühasirəsinin uzun sürməməsi üçün Əliqulu xanla danışıqlar aparılmasını lazım bildi. Özbək əmirlərindən olan Məhəmməd Baqi və Qulbaba Kukəltaş elçi kimi Əliqulu xanla əlaqə saxladılar və Abdulla xanın təklifini ona çatdırdılar. Təklif isə belə idi: “Əgər qaladarlıqdan əl çəkib qalanı təslim etsə, ona bütün var-yoxunu peşkəş verəcək, qızılbaşlarla birlikdə istədiyi yerə getməsindən ötrü izn almış olacaqdır. Şərt isə budur ki, yanımıza gəlib bizimlə görüşsün” (17).

Əliqulu xan onun və yanındakıların həyatına zəmanət verilməsi barəsində Abdulla xanın sözlərinə etibar etmirdi. Ancaq onun başqa bir yolu da yox idi. Ona görə İxtiyarəddin qalasının mühasirəsinin üçüncü günü Əliqulu xan yanındakılarla birlikdə

qalanı tərk etdilər və Abdulla xanın dayandığı Sultan Hüseyn Mirzə mədrəsəsinə yollandılar. Burada Əliqulu xana və onun yanındakılar deyildi ki, Abdulla xanın yanına silahla girilməsi düzgün deyildir. Təklif olundu ki, qızılbaş əmirləri öz qılınclarını təhvil versinlər. Özbəklərdən biri isə əlini Əliqulu xanın çalmasına atdı. Onu çıxarmaq istəyəndə qızılbaş əmiri Qazi Sultan Şamlı xəncəri ilə onun qarşısını almaq istədi. Belə olanda orada olan özbəklər də qılınca əl atdılar və qızılbaşların qarşısını kəsdilər. Əliqulu xan da, onun yanındakılar da anladılar ki, artıq onların həyatının sonu çatmışdır. Ancaq onların artıq müdafiə olunmaq şansı da yox idi. Əliqulu xan və onun yanında olan şamlı əmirləri qətlə yetirildilər. Bir məlumata görə, Əliqulu xanın bədənini qılıncla parça-parça etdilər. Bu hadisə 1588-ci ilin əvvəllərində baş verdi və bununla Herat qalasının özbək qoşunları tərəfindən işğal edilməsi də başa çatdırıldı (18).

Əliqulu xanın qətlə yetirilməsindən sonra Herat daxilində qətl və qarətlərin yeni bir dalğası başladı. Abdulla xan şəhərdə olan bütün qızılbaş türklərinin qətl olunması barəsində fərman verdi. Özbəklər də böyük bir həvəslə bu fərmanın icrasına başladılar. Onlar hətta qarşılarına çıxan tacikləri (farsları) da qılıncdan keçirdilər. Xüsusilə, şiə məzhəbinə mənsub olan insanların heç birinə rəhm edilmədi. Kiminsə kimdənsə ədavəti vardısa onlara şiə adı qoyaraq qətlə yetirdilər. Bunun üçün iki nəfəri şahid kimi qazi yanına aparır və hənəfi məzhəbinə mənsub olan qazi isə dərhal günahlandırılan adam haqqında ölüm hökmü verirdi. Kimin azacıq sərvətə malik olması haqqında məlumat alınan kimi, özbəklər onu divana çəkirdilər. Bu vəziyyət şəhərə yeni hakim təyin edilənə kimi davam etdi. Herat hakimi vəzifəsi isə Səmərqənd əyanlarından olan fəzilət və qabiliyyət sahibi, öz xidmətləri ilə Abdulla xanın etibarını qazanmış, özbək xanlığının ali sədarət vəzifəsinə irəli çəkilmiş Mir Qulbaba Kukəltaşa həvalə olundu. O isə etiqadlı və təcrübəli bir insan kimi yavaş-yavaş Herat daxilində vəziyyəti nizamlamağa müvəffəq oldu, insanların talan edilməsinə, zülmə məruz qalmasına son qoyuldu, məzhəb fərqliliyinə görə təqib ara-

dan qaldırıldı, fəqir və sadə insanlara qarşı qayğı artırılmağa başlandı. Herat alınandan sonra Abdulla öz qoşun dəstəsi ilə Məşhədin fəthinə yollandı (19).

Məşhəd şəhəri bu zaman Mürşüdqulu xanın qardaşı İbrahim xanın hakimliyi altında idi. Yuxarıda yazılanlardan bəllidir ki, İbrahim xan ağıllı hərəkət edərək Abdulla xana məktub yazdı, ona çoxlu sayda qiymətli hədiyyələr göndərdi. Bununla İbrahim xan onu Məşhəd üzərinə qoşun çəkməkdən çəkindirə bildi. Abdulla düşünüb-daşındıqdan sonra İbrahim xanın təklifini qəbul etməyi məqsədəuyğun saydı. Çünki bir tərəfdən özbək qoşunları da Herat ətrafında uzun zaman çəkən mühasirədən əldən düşmüşdülər. Bu qoşunla Məşhəd daxilində toplanmış olan qoşun dəstəsinə üstün gəlmək elə də asan deyildi. Digər tərəfdən Şah Abbasın 1588-ci ilin aprel ayında artıq 12 min nəfərlik qoşun dəstəsi ilə Xorasana doğru hərəkətə başlaması haqqında xəbər alınmışdı. Geri qayıtmağa başlamazdan əvvəl isə özbək qoşunları Məşhəd ətrafında və istiqamətində olan yaşayış məntəqələrinin talan edilməsi niyyətinə düşdülər. Onlar asan yolla var-dövlət əldə etmək imkanını əldən vermək istəmirdilər. Talan edilməsi nəzərdə tutulan məkanlar içərisində İmam Rza ziyarətgahına məxsus olan məkanlar da var idi. Buna yol verməmək üçün Məşhədin nəqibləri və ağsaqqalları Abdulla xana məktub yazdılar və onu müqəddəs məkana və bu məkanda xidmətdə olanların əmlakının talan edilməsinə son qoyulmasına çağırdılar. Bu müraciətdən sonra Məşhəd ətrafının talan edilməsi dayandırıldı və özbək qoşunları tədricən geri çəkildilər (20).

Xorasana doğru səfərə başlaması Şah Abbasın hakimiyyətə gəlməsindən sonra ilk böyük hərbi yürüşü idi. O, həm bu yürüşü təşkil etməli, ona rəhbərlik etməli və həm də qarşıya qoyulan vəzifənin icrasına nail olmalı idi. Kifayət qədər gənc yaşlarında olsa da Şah Abbas belə bir səfərin təşkilini və icrasını öz üzərinə götürdü. Şah Abbas onu müşayiət edən saray məiyyəti və qoşun dəstəsi ilə Lar yaylağına yetişib orada bir neçə gün dayanmalı oldu. Bu dayanacaqda Şah Abbas vilayətlərdə toplanan qoşun dəstələrinin

gəlib yetişməsini gözlədi. Eyni zamanda bir neçə gün həm də istirahət üçün yaxşı fürsət oldu. Sonradan qoşunlar bir qədər də hərəkət edib Damğanda dayanacaq etdilər. Bu dayanacaq bir tərəfdən qoşunların toplanmasının və hazırlığının təkmilləşdirilməsi ilə bağlı idisə, bir tərəfdən də Osmanlı dövləti ilə sülh bağlanması məsələsi ətrafında görüləsi işlərin müəyyənləşdirilməsi ilə bağlı oldu. Burada olarkən Şah Abbas qərara aldı ki, Osmanlı sarayına öz elçilərini göndərsin və iki dövlət arasında sülh anlaşmasının əldə edilməsinə nail olsun. Bu məsələ ilə bağlı uyğun olan fərman da verildi. Sonra Şah Abbas qoşunu ilə birlikdə Əsfəreynə gəldi və təxminən 40 gün orada qaldı və sonra Məşhədə yollandı. O, İmam Rzanın məqbərəsini ziyarət etdi və bir müddət Məşhədin idarəçilik işlərinin sahmana salınması ilə məşğul oldu. O cümlədən, Məşhəd hakimi İbrahim xan bu vəzifədən azad edildi və onun yerinə Ümmət xan Ustaclı təyin edildi (21).

Sonra Şah Abbas qoşunla Herata doğru hərəkətə başladı. Bu şəhər hələ də özbək qoşunlarının nəzarəti altında idi. Şah Abbas bu şəhəri özbək qoşunlarından azad edərək yenidən səltənət hüdudlarına qatmaq istəyirdi. Herat yolunda olarkən Şah Abbas məlumat aldı ki, Osmanlı qoşunları iki istiqamətdən yenidən səltənət hüdudlarına hücum etmişlər. Belə olanda o, Heratın azad edilməsini təxirə saldı və səltənət paytaxtına tərəf istiqamət götürdü. Çünki Şah Abbas Herat qalasının qısa bir zamanda ələ keçiriləcəyini ehtimal etmirdi. Səfəvi qoşunlarının uzan zaman səltənətin şərqində ilişib qalması isə Osmanlı qoşunlarının asanlıqla səltənətin içərilərinə doğru irəliləməsinə yol aça bilərdi. Şah qoşunlarının Herata yetişmədən geri qayıtması xəbərini Abdulla xan da aldı. Onun da artıq xəbəri var idi ki, özünü müttəfiq saydığı Osmanlı dövlətinin qoşunları Səfəvi hüdudlarına hücumu başlamışdır.

### 2. Abdulla xanın Xorasan vilayətinə hücumu

Özbək xanı Abdulla xan Səfəvi daxilində baş verənlərdən öz niyyətlərinin həyata keçirilməsi üçün bir fürsət kimi qəbul etdi.

Xüsusilə, Osmanlı qoşunlarının səltənətin qərbinə hücumu və Şah Abbasın da öz qoşunları ilə Xorasandan geri çəkilməsi bu vilayətin ələ keçirilməsi üçün əlverişli imkanlar açırdı. Səfəvi taxt-tacına yenicə sahib olmuş Şah Abbas üçün də səltənətin şərqindən və qərbindən hücumlara məruz qalması onun üçün ciddi sınaqları ortaya qoydu. Ölkə daxilində mütləq sabitliyin yaradılamsına nail olmadan bu ağır sınaqlarla qarşılaşmaq Şah Abbasdan təcili və səmərəli addımların atılmasını tələb edirdi. Belə təcili və səmərəli addımlardan biri Osmanlı dövləti ilə sülh danışıqlarına getməsi oldu. Bu danışıqlar nəticəsində Şah Abbas müvəqqəti olaraq Səfəvi ərazilərinin müəyyən bir hissəsinin itirilməsi ilə razı oldu. Lakin bununla o, dövlətinin gücləndirilməsi üçün fürsət əldə etdi. Özbək hücumlarının qarşısının alınması üçün isə onun Abdulla xanla müəyyən razılaşmaya gəlməyə çalışması haqqında məlumatlar mövcuddur. Şah Abbasın hazırda elmi-tarixi dövriyyədə olan məktublarından birinin Abdulla xana məhz özbək qoşunlarının Xorasan vilayətinə yeni hücumunun baş verdiyi dövrdə yazıldığı güman edilir (22).

Həmin məktubun üzərində yazılmış tarix oxuna bilmədiyi üçün onun məzmunundan yazılma tarixini təxmin etmək mümkündür. Məktubda haqqında danışılan hadisələr və faktlar onların məhz Əbdülmömün xanın rəhbərliyi altında özbək qoşunlarının 1589-cu ildə baş vermiş hücumu dövründə və ya ərəfəsində baş verdiyini güman etməyə əsas verir. İstənilən halda bu məktub Səfəvi-özbək münasibətlərinin yeni dövrünün mahiyyətinin dəyərləndirilməsi baxımından tarixi əhəmiyyət kəsb edir. Məktubun məzmunundan aydın olur ki, özbək qoşunlarının işğalı altında olan Herat şəhərinə hakim təyin edilmiş Mir Qulbaba Kukəltaş məktubla Şah Abbasa müraciət etmiş və ondan Herat sakinlərinin Məkkə və Mədinə ziyarətlərinə yollanması üçün yardım göstərməsini istəmişdi. Çünki Heratın özbək qoşunları tərəfindən işğalından sonra bu məsələdə müəyyən çətinliklər ortaya çıxmışdı.

Baxmayaraq ki, özbək xanı Səfəvi sələtənətinə qarşı ərazi iddialarını həyata keçirmək üçün təcavüz yoluna əl atmaqdan çəkin-

mirdi, bununla belə Şah Abbas ona hörmət və ehtiramla yanaşır, nəcib ifadələrlə müraciət edirdi. O cümlədən, dünya əzəmətli, Firudin kimi möhtəşəm, səltənət və cəlal sahibi, cahan iqtidarlı, böyük şövkətli, ədalət şüarlı, xoşbəxt xaqan, ağıllı və ədalətli ölkə qəhrəmanı, dünyanın cahangir şəhriyarı, böyük Xosrov, günəş taxtının sahibi, Əfrasiyab mülkünü tutmağa haqqı olan, zəfərlər xaqanı, izzət və təmkin təmsilçisi, Çingiz xan taxtının davamçısı və s. Şah Abbas bu sözlərlə bir tərəfdən Abdulla xanı zəmanəsinin böyük hökmdarlarndan biri, Əfrasiyab taxtının davamçısı, Çingiz xan taxtına layiq bir xan kimi tərif edir və bununla bir növ onun padşahlığına hörmətlə yanaşdığını nümayiş etdirirdi. Səfəvi şahı eyni zamanda Abdulla xanım hakimiyyətinin və şövkətinin qiyamət gününə qədər davam etməsini arzu edirdi. Şah Abbas bu sözlərlə özbək xanına qarşı xoş niyyətini, onunla münasibətlərin xoş niyyətlər üzərində qurulmasına tərəfdar olduğunu bəyan edirdi. Bu niyyət Şah Abbasın daxili istəyi idi və qarşılıqlı təcavüzdən imtina edilməsinin ikitərəfli münasibətlərin əsasında dayanması onun xarici siyasət maraqlarına daxil idi (23).

Özbək xanını nəcib və təm-təraqlı ibarələrlə vəsf etdikdən sonra Şah Abbas səltənət idarəçiliyi ilə bağlı öz fikirlərini və tövsiyələrini qələmə alırdı. Bu mənada Şah Abbas xüsusilə şahların malik olmalı olduğu keyfiyyətləri diqqət mərkəzinə çəkirdi. Onun fikrincə, ölkə şahı ədaləti bir insan olmalı, səltənət idarəçiliyini haqq-ədalət üzərində qurmalı və bununla Allahın yer üzündəki kölgəsi haqqını özünə qazanmalı idi. Ədalətli şahın hansı keyfiyyətlərlə fərqlənməli olduğu da məktubda öz ifadəsini tapmışdı. Şah Abbasa görə, ədalətli şah tamahdan uzaq olmalı, nəfsini idarə etməyi bacarmalı, öz xalqına qarşı hər zaman şəfaətçi və səxavətli olmalı idi. Bundan başqa şah çalışmalı idi ki, dünyanın bürümüş olan fitnə-fəsada, pis əməllərə son qoyulsun. Şah Abbas əslində, iki ölkə arasındakı münasibətlərin də bu sonuncu keyfiyyətlər üzərində qurulmasını arzu edirdi. Çünki uzun illər idi ki, Səfəvi-özbək münasibətlərində təcavüz meylləri özünü göstərməkdə idi. Şah Abbasın hakimiyyətindən əvvəl təcavüz üzərində qurulan

ənənə onun dövründə də davam etməkdəydi. Şah Abbasa görə dövlətlərarası münasibətlərin xoş məram üzərində qurulması, fəsad və pisliklərə son qoyulması Allahın rizasının qazanılması demək idi. Özbək xanlığı ilə qarşılıqlı münasibətlərin də bu dəyərlər üzərində qurulması Şah Abbasın istəyi idi (24).

Heratın özbək hakimi Qulbaba Kukəltaş Şah Abbasa göndərdiyi məktubunda məzhəb məsələlərinə, Səfəvi mənsublarının şiə-sünni məsələlərinə münasibətinə aid bir sıra məqamlar barəsində öz mülahizələrini yazmış və bu zaman Səfəvi dövlətinin sünniliyə qarşı kəskin davranışından şikayətlənmişdi. Məktubdan anlaşılır ki, Kukəltaş öz ittihamlarında səfəvilər tərəfindən Xorasan vilayətində müsəlmanların evlərinin dağıdılması, sünnilərin əmlakının yağmalanması məsələlərinə toxunmuşdu. Şah Abbas isə bu ittihamlarla razılaşmırdı və yazırdı ki, səfəvilər nəzarət altına aldıqları ərazilərin müsəlman sakinlərinə ziyan yetirmirlər. Onlar tərəfindən ələ keçirilmiş əsirlər isə tez bir zamanda azad buraxılırdı və bu zaman qızılbaş döyüşçüləri tərəfindən onlara hər hansı bir əziyyət verilmirdi. Şah Abbas bəyan edirdi ki, müsəlmanlara zərər verməklə var-dövlət qazanmağı doğru saymır. Əksinə, müsəlmanların rihafı naminə mübarizə aparmaq onun da qarşısına qoyduğu hədəflərdən biridir. Yəni Şah Abbas məzhəb fərqliliyinin islam daxili parçalanma kimi qəbul edilməsi ilə razılaşmırdı və bu mənada Səfəvi-özbək münasibətlərinin məzhəb prizmasından dəyərləndirilməsini düzgün saymırdı (25).

Qeyd edildiyi kimi, Səfəvi qoşunlarının Xorasandan geri qayıtması xəbərini eşidən özbək xanları yenidən bu vilayəti işğal etmək həvəsinə düşdülər. Bu dəfə özbək qoşunlarına rəhbərliyi Abdulla xanın oğlu Əbdülmömin xan öz üzərinə götürdü. Onun rəhbərliyi altında özbək qoşunlarının Xorasan vilayətinə yürüş etməsi 1589-cu ilin yazına təsadüf edirdi. Əbdülmömin xan bu zaman Bəlx hakimi idi. Bu yürüşdə Əbdülmömin xanı "Yetim sultan" kimi tanınan Din Məhəmməd Sultan və Herat hakimi Qulbaba Kukəltaş müşayiət etməli idi. Din Məhəmməd Sultan özbək xanı Abdulla xanın bacısı oğlu idi. Adları çəkilən əmirlər Bəlx, Ənd-

xod, Şibirğan, Çiçəknov, Meymənə, Faryab və Qıpçaq həzarələri ilə birlikdə, ona köməyə yollandı. Əbdülmömin xan Xorasan hüdudlarına yetişəndə onun səfərbər etmək istədiyi qoşunların hamısı hələ gəlib toplanmamışdı. Ona görə də Əbdülmömin xan yanında olan qoşunlarla Nişapur şəhəri üzərinə hücum etdi. Nişapur hakimi olan Mahmud xan Sufioğlu və ustaclı qaziləri özbək sərdarının ləşkərinin vəziyyət, keyfiyyət və kəmiyyətindən xəbərsiz halda qoşun bəzəyib şəhərdən çıxdılar. Qala divarları kənarında tərəflərin qoşunları bir-birinə qarışdı və onlar arasında döyüş baş verdi. Qızılbaş dəstəsi igidlik və şücaət nümayiş etdirərək özbəklərin bir neçə məşhur bahadırı və mötəbər döyüşçüsünü əsir götürdülər. Bundan sonra qızılbaş döyüşçüləri hərbdən əl çəkib, özlərini qalaya çatdırdılar, qala qapılarını möhkəmləndirdilər, bürc və barıların üstünə qalxdılar. Əbdülmömin xan şəhərin ətəyinə gəlib dayandı və özbək qoşunları dəstə-dəstə yetişərək bir yerə toplaşdılar. Qaladarlıq ləvazimatını hələ toplaya bilməyən Mahmud xan əsir düşən özbəklərlə onların şəhər xaricindəki mötəbər qohumlarına bir qədər peşkəş yollayıb, onlara belə ərz etdi: "Nişapur müqəddəs Məşhədin tabeliyindədir. Siz əgər o müqəddəs yeri hərb yoluyla tuta bilsəniz, biz bu vilayəti müharibəsiz sizə verərik" (26).

Bu xəbəri yollamaqla bərabər, Mahmud xan əsir götürdüyü bütün özbək döyüşçülərini də azad etdi və Əbdülmömin xana qarşı bir xoş niyyət də nümayiş etdirdi. Əbdülmömin xan bu təklifi qəbul etdi və onu məntiqli saydı. Ona görə də Nişapur ətrafında cəmləşmiş qoşunu Məşhədə tərəf istiqamətləndirdi. Bu zaman da toplanması nəzərdə tutulan özbək qoşunlarının heç də hamısı gəlib yetişməmişdi. Yanında yetərli sayda qüvvə olmadığı üçün Əbdülmömin xan Məşhədin kənarında düşərgə saldı və şəhərin mühasirəyə alınmasını gözləməyi qərar aldı. Bu düşərgə Məşhəddən yarım fərsəx məsafədə olan Tunu hovuzu adlanan bir məntəqədə quruldu. Herat hakimi Mir Qulbaba, özbək əmiri Din Məhəmməd Sultan öz qoşun dəstələri ilə gəlib yetişdikdən sonra Əbdülmömin xan Məşhəd ətəklərinə doğru irəliləmək haqqında göstəriş verdi.

Məşhəd şəhəri özbək qoşunları tərəfindən mühasirəyə alındı və özbək əmirləri tərəfindən şəhərin fəthi yollarının axtarışına başlandı. Məşhəd hakimi bu zaman Ümmət xan idi. Şəhər özbək qoşunları tərəfindən mühasirəyə alınandan sonra Ümmət xan yaxın ətrafını, şəhərdə olan qoşun dəstəsinin əmirlərini, şəhər əyanlarını yanına topladı, özbək qoşunlarına qarşı mübarizə yollarını onlarla müzakirə etdi. Məşhəd əmirlərinin və əyanlarının ilkin təklifi belə oldu ki, qızılbaş qoşun dəstəsi şəhər xaricinə çıxmaqla özbək qoşunları ilə döyüşə girsin. Amma Ümmət xan bunu lazım bilmədi. Çünki qüvvələr nisbəti bərabər deyildi. Qərara alındı ki, şəhər daxilində şəhərin müdafiəsi təşkil edilsin. Şəhərin qala divarları qızılbaş əmirləri arasında bölündü və həmin hissələrin mühafizəsinin məsuliyyəti onların üzərinə qoyuldu. Eyni zamanda Ümmət xan Şah Abbasa məktub göndərdi və həmin məktubda Məşhədin özbək qoşunları tərəfindən mühasirəyə alınması, şəhər daxilində sıxıntıların olması, ərzaq ehtiyatlarının kifayət qədər olmaması kimi məsələlər Səfəvi şahının çatdırıldı (27).

Ümmət xan ümidini yalnız şah qoşunlarının gəlişinə bağlamamışdı. O eyni zamanda özbək qoşunlarına qarşı fəal müdafiə mövqeyi tutmuşdu. Onun rəhbərliyi və təşkilatçılığı altında şəhərdə olan qızılbaş dəstəsi şəhəri mühasirə etmiş özbək qoşunlarına qarşı həmlələr təşkil edir və şəhər əhalisi də onlara öz köməklərini göstərirdi. Mənbələrdə olan məlumata görə, bu həmlələr və döyüşlər davamlı olaraq baş verirdi. Həmin döyüşlərdə qızılbaş dəstəsinin də üstün olduğu vaxtlar olurdu. Bu döyüşlər özbək qoşunları ilə bərabər elə qızılbaş dəstəsinə də itkilər gətirirdi. Özbək qoşunlarının çox böyük sayda olması, həm də artilleriyaya malik olması Məşhəddəki qızılbaş dəstəsinin əsaslı uğuruna imkan vermirdi. Şəhər qarnizonunun ciddi müqavimətini görəndə özbək əmirləri toplardan daha fəal şəkildə istifadə etməyə başladılar. Bu topların fəaliyyətinin qoşunların həmlələri ilə qarşılıqlı əlaqələndirilməsi nəticəsində özbək qoşunları müəyyən nəticələrə nail ola bildilər. Altı-yeddi aydan sonra özbək qoşunları Məşhədin kənar divarlarını ələ keçirə bildilər. Belə olanda Ümmət xan bütün diqqəti

daxili divarların mühafizəsinə yönəltdi. Şəhər daxilində olan qüvvə və vəsaitlər yenidən bölüşdürüldü və divarların mühafizəsi üçün konkret məsuliyyət sahələri müəyyənləşdirildi. Şəhər daxilində isə ərzaq qıtlığının yaranması sakinlərin vəziyyətini xeyli çətinləşdirdi. Bu çətinliyə dözə bilməyən sakinlərdən çoxu şəhəri tərk etmək məcburiyyətində qaldı (28).

Şah Abbas Məşhəd şəhərinin özbək qoşunları tərəfindən mühasirəyə alınması xəbərini eşidəndə qoşunlara Xorasan istiqamətində hərəkət əmri verdi. Qısa zaman ərzində qoşunlar səfər vəziyyətinə gətirilərək Məşhədə doğru hərəkətə başladılar. Tehran ətrafında bir neçə günlük dayanacaq edildi. Məqsəd də digər vilayətlərdən gəlməli olan qoşun dəstələrini gözləmək idi. Həmin günlərdə Tehran daxilində yayılmış olan xəstəlik qoşunlara da sirayət etdi. Hətta Şah Abbas da xəstəliyə tutuldu. Şah Abbas xəstəliyi üzündən Tehranda ləngiməli olsa da, qoşunlara öz hərəkətlərini davam etdirmək və Bəstam çəməninə qədər irəliləmək əmri verdi. Qoşunlar orada düşərgə salaraq Şah Abbasın gəlib çatmasını gözləməli idilər. Bu müddət ərzində təbiblər də Şah Abbasın müalicəsi ilə məşğul oldular. Amma bu müalicə bir qədər uzandı. Mənbələrdə olan məlumata görə, özbək əmirlərinin Şah Abbasın Məşhədə tərəf gələrkən yolda xəstələnməsi və yayılmış xəstəliyin Səfəvi qoşunlarında müəyyən itkilərə səbəb olmasından xəbərdar idilər. Onlar bu xəbəri sevinclə qarşılamışdılar. Özbəklər çalışırdılar ki, Səfəvi qoşunların yetişməzdən əvvəl nəhayət ki, Məşhəd şəhərini ələ keçirsinlər. Ümmət xan və şəhər əhalisi isə əksinə, Şah Abbasın xəstələnməsindən və buna görə də şah qoşunlarının gəlişinin ləngiməsindən çox pərişan oldular. Şah Abbasın xəstəliyə tutulmasından sonra Məşhəd şəhəri daha dörd ay mühasirəyə davam gətirə bildi. Şah qoşunlarının gəlişinin ləngiməsi, şəhər daxilində isə aclığın və qıtlığın artması müqavimət gücünü tükəndirdi. Belə olanda Ümmət xan və onun ətrafında olanlar çıxış yolunu özbək əmirləri ilə danışıqlara başlamaqda gördülər. Bu danışıqlarım aparılması ilə heç olmasa şəhər əhalisinin sağ-salamat qalmasına ümid edilirdi. Ümmət xan tərəfindən Xudaverdi xan

Cəlayiri özbək xanının yanına danışıqlara göndərildi. Şəhərin müdafiəsinin uzanmasından və şəhər əhalisinin müqavimətinin davam etməsindən Əbdülmömin xan son dərəcə qəzəblənmişdi. Ona görə də o, Ümmət xanın sülh təklifini qəbul etmədi. Xudaverdi xan Cəlayiri də onun qəzəbinə tuş gəldi və o, qətlə yetirildi. Bundan sonra şəhər üzərinə güclü bir hücum başlandı. Özbək döyüşçüləri qala divarları üzərinə çıxmağa müvəffəq oldular. Sonra onlar ox atəşləri ilə qala müdafiəçilərini divarlardan uzaqlaşdıra bildilər (29).

Özbək döyüşçüləri bundan sonra şəhərə axışdılar. Şəhər onların nəzarəti altına düşdü. Müqavimət gücündə olmayan Ümmət xan, ustaclı əmirləri və başqaları İmam Rzanın türbəsi ətrafında çəkilmiş divarların daxilində özlərinə sığınacaq tapmağa çalışdılar. Şəhərdə yaşayan bütün seyidlər, üləmalar, müdərrislər, digər əməlisaleh adamlar bir yerə toplaşaraq xilas olmaları üçün dua etməyə başladılar. Nicat yolunun tükəndiyini görən qızılbaş döyüşçüləri isə son nəfəsə qədər silahı yerə qoymadılar. Hətta Əbdülmömin xan və Din Məhəmməd Sultan özbək qoşunları ilə Məşhədin məscid meydanına toplaşanda belə qızılbaş döyüşçüləri müqavimətdən əl çəkmədilər. Ümmət xan özü də silahını əlinə alıb qızılbaş döyüşçülərinə qatıldı. O da son nəfəsə qədər mübarizə apardı və elə bu mübarizədə də həyatını itirməli oldu. Qızılbaşların bu mübarizliyi Əbdülmömin xanın qəzəbini daha da artırdı. Hətta İmam Rza məqbərəsinə pənah aparmış insanlara da rəhm edilmədi. Oradakı mömin insanlar bir-bir küçəyə çıxarılaraq qətlə yetirildilər. Şəhər daxilində ölçüyə gəlməz bir qırğın başladı. Sakinlərindən kimsə özbəklərin qılıncından qurtula bilmədi. Özbəklər qarşılarına çıxanların hamısını qılıncdan keçirdilər. Onlar qadına, qocaya, uşağa rəhm etmədilər və bir neçə gün ərzində şəhər sakinlərinin axırına çıxdılar. Sonra da şəhər evlərinin talanmasına başlandı. Bu qətl və qarətlər üç gün davam etdi. Özbək döyüşçüləri şəhər evlərində gizlənməyə müvəffəq olmuş insanları bir-bir taparaq onlara əziyyət verir, onların var-dövlətini əllərindən alır və sonra da qətlə yetirirdilər. Üç-dörd gündən sonra isə

şəhərin salamat qalmış sakinlərini qətlə yetirmək qadağan olundu. Bu sakinlər canlarını qurtara bilsələr də onlara ağır vergilər qoyuldu. Həmin adamların vergi vermək imkanı olmayanda onların kiçik uşaqlarını özbəklər əllərindən alırdılar. Şəhərdə salamat qalmış sakinlər arasından xeyli sayda qadın və uşaq da özbəklər tərəfindən əsir alınmışdı. Bu qadın və uşaqları özbəklər öz yurdlarına göndərdilər və orada onları qula çevirdilər (30).

Özbək xanları və əmirləri Məşhəddəki şiə müctəhidlərin və üləmanın qətlinə xüsusi canfəşanlıq göstərirdilər. Onların nəzərində yad məzhəbə mənsub olan insanların qətli savab idi və ona görə bu sahədə sorğu-sual etmədən qarşılarına çıxan şiə ruhanilərini dərhal qətl edirdilər. O cümlədən, İmam Rzanın türbəsində xidmətdə olan xeyli sayda ruhaninin həyatına son qoyuldu. Dövrünün tanınmış müctəhidi və etiqad adamı kimi tanınan Mövlana Abdulla Şüştəri tutularaq Əbdülmömin xanın yanına aparıldı. O isə bu tanınmış Mövlananı atası Abdulla xanın sərəncamına yolladı (31).

Məşhədin fəth olunması eyni zamanda Nişapurun taleyinin həll olunması demək idi. Çünki bu şəhərin hakimi olan Mahmud xan Sufioğlu vəd etmişdi ki, Məşhədin özbək qoşunları tərəfindən alınacağı təqdirdə şəhəri özbəklərə verməyə hazır olacaqdır. Mahmud xan həm Məşhədin müqavimət göstərəcəyinə, həm də şah qoşunlarının köməyə gələcəyinə ümid etsə də, onun gümanları doğrulmadı. Nəticədə o, şəhəri təslim etmək məcburiyyətində qaldı. Əbdülmömin xandan bununla bağlı xəbər alandan sonra Mahmud xan da, şəhər əhalisi də şəhəri tərk etməli oldu. Bu şəhərdə məskunlaşanlar arasında rumlu tayfasından xeyli adam var idi. Onlar şəhəri tərk edərək Qəzvin istiqamətində hərəkətə başladılar. Şəhərin təslim edilməsi ilə bağlı verilən vədə əməl olunduğu üçün Əbdülmömin xan rumlulara və digər sakinlərə xətər yetirmədi və onları sağ-salamat başqa vilayətə köç etmələrinə mane olmadı. Bundan sonra Nişapur şəhərinə özbək əmirlərindən biri hakim təyin edildi. Nişapurun ardınca Tərşiz də özbəklərin nəzarəti altına düşdü. Bu məntəqənin hakimi olan İmamqulu xan Qacar özbək qoşunlarına müqavimət göstərmək gücündə olmadığını gördükdə

şəhər əhalisinin həyatını qorumaq üçün onu təhvil verməli oldu (32).

Məşhəd daxilindəki qırğınlardan və talanlardan gözü doyandan sonra Əbdülmömin xan Sərəxsə tərəf üz tutdu. Bundan qabaq isə o, yaxın adamlarından birini Məşhəd hakimi təyin etdi. Şah Abbasın və Səfəvi qoşunlarının ləngiməsindən bəhrələnməyə çalışan Əbdülmömün xan Məşhədə yaxın olan şəhərləri də nəzarət altına almağa, bu şəhərləri talamağa qərar verdi. Sərəxs üzərinə hücum zamanı Əbdülmömün xan ciddi müqavimətlə rastlaşmalı oldu. Bu şəhərin hakimi olan Mir ibn Hüseynxan şəhərdə məskunlaşmış olan cığatay tayfasının döyüşçüləri ilə birlikdə özbək qoşunlarına qarşı müqavimətə başladı. Tərəflər arasında bir neçə gün döyüşlər davam etdi. Göstərdikləri bütün cəhdlərə baxmayaraq özbək qoşunları Sərəxsi ələ keçirə bilmədilər. Əksinə, xeyli sayda özbək bahadırı və döyüşçüsü bu döyüşlər zamanı həyatlarını itirdilər. Əbdülmömün xan Sərəxs ətrafında təsəvvürünə gətirə bilməyəcək bir müqavimətlə rastlaşdı. İtkilərinin artdığı bir vaxtda bu şəhəri ələ keçirə bilməyəcəyini anlayan Əbdülmömin xan öz diqqətini Xorasananın digər məntəqələrinə tərəf istiqamətləndirdi. O, Sərəxsin ələ keçirilməsini isə növbəti ilə qədər təxirə salmağı qərarlaşdırdı. Özbək qoşunlarına qarşı digər mahallarda isə güclü müqavimət göstərmək mümkün olmadı. Nəticədə Xorasanın əksər mahalları, o cümlədən Cam, Xaf, Baxərz, Kusaviyə, Ğuryan və Fuşənc qızılbaşlar tərəfindən boşaldıldı və onlar özbəklərin əlinə keçdi. (33).

Xorasan vilayəti daxilində özbək qoşunlarının törətdiyi özbaşınalıqlar şah sarayında və elə Şah Abbasın özündə ciddi təşviş və nigarançılıqlar yaratdı. Şah Abbasın xəstələnməsi və bu xəstəliyin də uzun sürməsi üzündən Xorasana kömək göstərmək mümkün olmadı. Şah Abbasın səhhəti düzələndə isə Əbdülmömin xan artıq Xorasanı tərk edərək Bəlxə çəkilmişdi. Ona görə şah qoşunlarının Xorasana yürüş etməsi də lazım bilinmədi. Şah Abbas səhhətini bərpa edəndən sonra Rey şəhərinə gəldi. O, bir neçə gün də burada qalmaqla orada dəfn edilmiş müqəddəslərin məzarlarını ziyarət

etdi, onların türbələrində dua və ibadətlə məşğul oldu. Sonra isə Şah Abbas Qəzvinə yola düşdü (34).

### 3. Fərhad xanın rəhbərliyi altında Səfəvi qoşunlarının Xorasan vilayətinə hərbi yürüşü

Şah Abbasın Xorasan üzərinə yürüşünün təxirə salınmasının bir səbəbi də ölkə daxilində mərkəzi hakimiyyətdən qopma və itaətsizlik hallarının çoxalması idi. Hakimiyyətinin ilk illərində Şah Abbas bu məsələyə kifayət qədər böyük vaxt ayırmaq məcburiyyətində qaldı. Çünki mərkəzi hakimiyyətin möhkəmləndirilməsinə nail olmadan Xorasan vilayəti üzərinə uğurlu yürüşün təşkil edilməsi də sual altında idi. Ona görə də Şah Abbas Xorasan məsələsi ilə 1591-ci ilin Novruz bayramından sonra məşğul olmaq fürsəti əldə etdi.

Bu dəfə Xorasanın azad edilməsi işində Şah Abbas Xarəzm padşahı Hacı Məhəmməd xanın köməyindən bəhrələnmək imkanına da malik idi. Belə ki, Xarəzm padşahı Hacı Məhəmməd xanla Mavərənnəhr padşahı Abdulla xan arasında bir ixtilaf mövcud idi. Konkret tarixi şəraitdə Abdulla xan kifayət qədər böyük gücə malik idi və buna görə Hacı Məhəmməd xan da ondan ehtiyatlanırdı. Abdulla xana qarşı mübarizədə Hacı Məhəmməd xan Səfəvi dövlətinə arxalanmağa çalışırdı. Ona görə də Hacı Məhəmməd xan hələ Şah Təhmasibin hakimiyyəti dövründən başlayaraq Səfəvi sarayı ilə əlaqələr saxlamağa çalışırdı və oğlu Məhəmmədqulu sultanı da girov kimi Səfəvi sarayına göndərmişdi. Özbək qoşunlarının Xorasan vilayəti üzərin hücumları zamanı Hacı Məhəmməd xan Səfəvi sarayına bir neçə elçi göndərmiş və Abdulla xana qarşı birgə mübarizə üçün bəzi təkliflərini vermişdi. Hacı Məhəmməd xan göndərdiyi məktubların birində Şah Abbasa təklif edirdi ki, o, özbəklərlə mübarizə üçün Xorasana qoşun dəstəsi göndərsin. Bu zaman o, Səfəvi qoşunlarına kömək göstərəcəyini vəd edirdi. Hacı Məhəmməd xan özbək qoşunlarının Xorasandan çıxarılmasında maraqlı idi. Onun fikrincə, özbək qoşunları Xora-

sanda möhkəmlənəcəkləri halda Xarəzm üzərinə də qoşun çəkə bilərdilər. Buna yol verilməməsi üçün Hacı Məhəmməd xan özbək qoşunlarının tezliklə Xorasandan çıxarılmasını istəyirdi. Şah Abbas belə bir təkliflə razılaşdı və qərara aldı ki, Fərhad xanı qoşun dəstəsi ilə birlikdə Xorasan üzərinə göndərsin. Fərhad xan həm Xorasanın əmirləri və əyanları ilə, həm də Hacı Məhəmməd xanın adamları ilə əlaqəyə girərək özbək qoşunlarına qarşı mübarizəni təşkil etməli idi. Əgər Abdulla xan və Əbdülmömin xan qoşunlarla birlikdə Xorasana gələrdilərsə, onda Fərhad xan bu barədə şah sarayına məlumat ötürməli və özbək xanı ilə döyüşə girməkdən çəkinməli idi. Çünki mövcud olan qaydalara görə əmirlərin padşahla döyüşməsi qəbul edilmirdi. Yəni bir ölkənin padşahının rəhbərlik etdiyi qoşunlara qarşı bir qayda olaraq digər ölkənin padşahı öz qoşunu ilə çıxırdı. Abdulla xana qarşı döyüşlərin aparılması üçün Şah Abbas özü Xorasana hərəkət etməli idi. Şah tapşırığını alandan sonra Fərhad xan Xorasan istiqamətində hərəkətə başladı və Bəstam çəmənliyinə çatanda gəlişi barəsində Hacı Məhəmməd xana xəbər göndərdi (35).

Şah Abbas tərəfindən Fərhad xanın rəhbərliyi altına 30 min nəfərlik yaxşı silahlanmış və təchiz olunmuş qoşun dəstəsi verilmişdi. Bu qoşun dəstəsi ilə Fərhad xan tez bir zamanda özbək qoşunlarını Xorasandan qovmalı və bu vilayəti yenidən səltənət hüdudlarına qaytarmalı idi. Xorasana yaxınlaşarkən bir sıra vilayətlərin qoşun dəstələri, o cümlədən Əbu Müslüm xan Ustaclının rəhbərliyi altında Əsfəreyn, Qubad sultan Qacarın rəhbərliyi altında Səbzəvar, Məhəmməd sultan rəhbərliyi altında Zavə və digər vilayətlərdən və mahallardan olan qoşun dəstələri Fərhad xana birləşdilər. Nəticədə Fərhad xanın rəhbərliyi altında olan qoşun dəstəsi daha da artdı və gücləndi. Məşhədə özbək xanları tərəfindən hakim təyin edilmiş Qasım Hacı bəy qızılbaş qoşun dəstəsinin yaxınlaşması xəbərini alınca Əbdülmömin xanın yanına öz çaparını göndərdi və onu vəziyyətlə bağlı məlumatlandırdı. Məşhədi və Xorasanı itirmək istəməyən Əbdülmömin xan da dərhal

qızılbaş qoşununun hücumunu dayandıracaq qoşun dəstəsinin yığılması haqqında göstəriş verdi (36).

Fərhad xanın Bəstama gəlməsi xəbərini eşidib Hacı Məhəmməd xan da ora yollandı. Münasib bir yerdə çadır quran Fərhad xan hörmətli qonağın qarşılanması üçün xüsusi bir hazırlıq da görmüşdü. Hacı Məhəmməd xan o məkana yaxınlaşanda Fərhad xan bir neçə fərsəx irəli gedərək onu qarşıladı. Bu qarşılanmadan sonra onlar birlikdə Fərhad xanın çadırına gəldilər. Bir daha bu xanlar arasında özbək qoşunlarına qarşı birgə mübarizə məsələləri müzakirə edildi və onlar razılaşdılar ki, bu mübarizədə Xarəzm qoşunları ilə qızılbaş qoşunları birlikdə olacaqlar. Bu müzakirələrdən və razılaşmadan sonra Hacı Məhəmməd xan öz qoşunlarının yanına qayıtdı (37).

Əbdülmömin xan şübhə etmirdi ki, onun ləngiməsi Məşhədin və sonra da bütün Xorasanın itirilməsi ilə nəticələnə bilər. Ona görə də o, Bəlx, Bədəxşan, Hisari-Şadman, Əndxod və Şibirqandan topladığı qoşun dəstəsi ilə sürətlə Məşhədə tərəf hərəkətə başladı. Əbdülmömin xan eyni zamanda belə bir şayiə yaydırdı ki, Abdulla xan da özbək qoşunları ilə Xarəzm üzərinə hücuma başlamışdır. Bununla o, Xarəzm hakimi Hacı Məhəmməd xanı Fərhad xana kömək göstərməkdən məhrum etdi. Çünki Abdulla xan tərəfindən təhlükə yarana biləcəyi üçün Hacı Məhəmməd xan öz qoşunları ilə Xarəzmə çəkildi. Fərhad xan isə Əbdülmömin xanın böyük bir qoşun dəstəsi ilə Məşhədə gəlməsi xəbərini alanda onunla döyüşə girməyə tərəddüd etdi. Aydın bir qərar qəbul edilməsi üçün o öz əmir və əyanlarını yanına topladı və məsələ ilə bağlı onların rəyini soruşdu. Bu toplantıda iştirak edən əmirlər və əyanlar arasında daha təcrübəlisi sayılan Qazi Sultan Türbəti özbək qoşunları ilə döyüşə girməyi düzgün hesab etmədi. Onun fikrincə, qoşunlar geri çəkilməli və şahın bölgəyə gəlişini gözləməli idi. Qazi Sultan Türbəti onu da əlavə etdi ki, Əbdülmömin xan padşahdır və onun qarşısına da padşah çıxmalıdır. Bəzi əmirlər isə özbək qoşunları ilə döyüşə girməyi lazım bildilər. Əslində, Şah Abbas da Abdulla xanın və Əbdülmömin xanın bölgəyə gələcəyi təqdirdə onlarla

döyüşə girməməyi tapşırmışdı. Fərhad xanın döyüşə girmək və ya girməmək haqqında düşündüyü bir vaxtda çaparlar özbək qoşunlarının artıq Məşhədə yaxınlaşmaqda olduğunu çatdırdılar. Fərhad xan bu xəbərdən sonra döyüşə girməmək haqqında son qərarını qəbul etdi. Bundan sonra Xorasan vilayətinin mahallarından qoşun dəstəsi ilə gəlmiş hakimlər öz yerlərinə döndülər. Fərhad xan isə Bəstama qayıtdı və oradan vəziyyət barəsində Şah Abbasa məlumat göndərdi. Şah Abbas da özbək qoşunları ilə döyüşmək fürsəti olmadığı üçün Fərhad xana Qəzvinə qayıtmaq əmri verdi (38).

Əbdülmömin xan isə qızılbaş qoşunlarının Məşhədə doğru hərəkət xəbərini alınca dərhal qoşunla yola düşdü və Nişapur yaxınlığına yetişdi. O bir neçə gün orada dayandı. Nəzərdə tutulan qoşun dəstələrin hamısının gəlib çatması da orada başa çatdı. Bundan sonra Əbdülmömin xan qoşunları Nişapur və Bölükmədən ətrafında yaşayan bayat tayfaları üzərinə göndərdi. Bayat tayfasının ağsaqqalları kənardan hər hansı bir kömək olmadığı üçün özbək qoşunlarına təslim olmaq seçimi etməli oldular. Onlar öz nümayəndələrini Əbdülmömin xanın yanına göndərdilər və ondan aman istədilər. Əbdülmömin xan isə bayat tayfasına qarşı qəzəbli olduğu üçün elçiləri dərhal qətlə yetirdi. Ardınca bayat tayfasının üzvləri də qətl və qarətlə qarşılaşdılar (39).

Qızılbaş qoşunlarının Məşhəd istiqamətində yürüşə başlaması və bu yürüşün qarşısının alınması üçün Əbdülmömin xanın Xorasan vilayətinə qoşun çəkməsi Mavərənnəhr (Buxara) xanı Abdulla xanın ciddi təşvişinə səbəb oldu. O, xüsusilə Əbdülmömin xanın qızılbaş qoşunlarına qarşı mübarizə aparmaq qabiliyyətində olmadığından narahatçılıq keçirdi. Ona görə də Abdulla xan da qoşuna hərəkət əmri verməklə Xorasana doğru yol aldı. Bununla, Abdulla xan bir tərəfdən Əbdülmömin xana kömək göstərmək, digər tərəfdən də Xorasanı qızılbaş qoşunlarından qorumaq niyyətində idi. Abdulla xan öz qoşunu ilə Mərvdən keçməklə Xorasana doğru irəliləyirdi. Mərvə yaxınlaşanda bu vilayətin hakimi Nur Məhəmməd xan onun qarşılanmasına çıxdı. Abdulla xan Mərvə daxil olduqdan sonra bu vilayəti Nur Məhəmməd xanın əlindən

aldı və Şah Məhəmməd Mirzə adlı birisini Mərv hakimi təyin etdi. Amma Fərhad xanın rəhbərliyi altında olan qoşun dəstəsinin geri çəkilməsindən sonra Abdulla xan Xorasan vilayətinin dərinliklərinə doğru hərəkət etməyi lazım bilmədi. Quşxana adlanan mahalda Abdulla xan ovla məşğul olmağa başladı. Rəhbərliyi altında olan qoşunun bir dəstəsini isə Məşhədə yola saldı ki, bu qoşun dəstəsi Əbdülmömin xana kömək göstərsin (40).

Əbdülmömin xan isə Xorasana başlanan yeni yürüşdən bəhrələnməklə bu vilayətin işğal altına düşməmiş şəhər və mahallarını da tutmaq qərarına gəldi. Bu məqsədlə o, Əsfəreyn qalasına yaxınlaşaraq bu qalanı mühasirəyə aldı. Əsfəreyn hakimi olan Əbu Müslüm xan qalada məskunlaşmış qızılbaş və digər tayfaların nümayəndələri ilə birlikdə qalanın müdafiəsini möhkəmləndirməyə başladı. Görülən əlavə tədbirlər nəticəsində qalanın möhkəmləndirilməsi üçün səmərəli işlər görmək mümkün oldu. Bunun nəticəsi idi ki, özbək qoşunlarına qarşı ciddi müqavimət göstərildi. Əbdülmömin xan isə qoşun dəstəsi ilə Əsfəreyni mühasirəyə alıb onun fəthi yollarını axtarmağa başladı. Bir neçə dəfə qala üzərinə kütləvi hücum təşkil edildi. Bu hücumlar uğursuzluğa düçar oldu. Özbəklər qalanın fəth edilməsinə hətta toplar da cəlb etdilər. Amma özbək qoşunlarının hər hücumu onları xeyli sayda döyüşçünün və bahadırın qətlə yetirilməsi ilə nəticələndi. Mənbələrdə olan məlumata görə, Əsfəreyn qalasının mühasirəsi zamanı özbək qoşunlar 4 min nəfər itki verməli oldular. Amma Əsfəreyn müdafiəçiləri də itkilər verməkdəydilər və qalanın müdafiəsi də zəifləməkdə idi. Özbək qoşunlarının sayı və imkanları isə çox böyük idi. Onun üçün idi ki, özbək qoşunları dörd aylıq mühasirədən sonra da öz güclərini qoruyub saxlaya bilmişdilər. Bu da imkan verdi ki, özbək döyüşçüləri qalanın müdafiəsinin zəifləməsindən istifadə etməklə qala divarları üstünə dırmaşdılar və sonra da şəhərə daxil oldular. Əbu Müslüm xan qala bürclərinin birində özünə mövqe tutaraq özbək qoşunlarına qarşı üç gün döyüşdü. Yalnız Əbu Müslüm xanın tüfəng gülləri, kaman üçün oxları tükənəndən sonra özbəklər həmin bürcün üstünə atıldılar. Belə vəziyyətdə

də Əbu Müslüm xan təslim olmadı və yanındakı qılınc və xəncərlə əlbəyaxa döyüşə girişdi. Əbdülmömin xan bir neçə digər şəhər və mahalı da ələ keçirdi. 1591-ci ilin sonu yaxınlaşdığından Şah Abbas özbək təcavüzünə qarşı mübarizənin başlanmasını növbəti ilin baharına qədər təxirə salmağı qərara aldı (41).

### 4. Şah Abbasın özbək şahzadəsi Əbdülmömin xanla yazışmaları

Şah Abbas hələ şahzadə kimi Xorasanı tərk etdiyi vaxtlardan bu vilayətin əksər əraziləri özbək işğalı altına düşmüşdü. Vilayət səltənət üçün strateji əhəmiyyətli bir vilayət olmasından əlavə həm də Şah Abbas üçün xüsusi əhəmiyyət kəsb edən bir məkan idi. O, kiçik yaşlarından bu vilayətin hakimi vəzifəsində idi və şahlıq taxt-tacına da bu vilayətdən yüksəlmişdi. Ona görə də bu vilayətin özbək işğalı altında qalması Şah Abbasın ciddi narahatçılığına səbəb olurdu. O özü bir dəfə bu vilayəti özbək təcavüzündən azad etmək üçün səfərə başlasa da, Osmanlı təhlükəsinə görə bu səfəri yarımçıq dayandırıb geri qayıtmalı olmuşdu. 1591-ci ildə Fərhad xanın rəhbərliyi altında vilayətə göndərilən qoşun dəstəsi də verilən tapşırığı yerinə yetirmədən geri qayıtmalı olmuşdu. Ona görə Şah Abbas özü bu vilayətə yürüş etmək üçün münasib bir fürsət gözləyirdi və belə bir fürsət onun əlinə 1592-ci ilin yazında düşdü.

Həmin ilin baharında Gilan itaətsizliyi yatırıldıqdan sonra Şah Abbas Xorasana səfər hazırlığı barəsində göstəriş verdi. Şah Abbas tərəfindən bütün vilayət hakimlərinə fərman göndərildi ki, qoşun dəstələri ilə birlikdə Bəstam çəməninə gəlsinlər. Bəstam çəməninin toplanış yeri elan olunması Səfəvi qoşunlarını məhz Xorasan istiqamətində yürüş edəcəklərinə bir nişanə idi. Şah Abbas da Lar və Firuzkuh yaylaqlarından keçməklə Bəstam çəməninə gəldi. O, bir ay həmin çəməndə qaldı və vilayət qoşunlarının toplanmasını gözlədi. Mənbələrdə həmin dövrdə özbək hakimləri arasında daxili çəkişmələrin getməsi barəsində məlumatlar vardır.

Amma bu çəkişmələrə baxmayaraq Əbdülmömin xan öz qoşun dəstəsi ilə Nişapura gəldi və oradan Şah Abbasa ədəbdən uzaq olan bir məktub göndərdi. Həmin məktubun məzmunu belə idi: “Padşahların arasında ya sülh olur, ya da cəng. Biz bunun hər ikisinə hazırıq. Əgər o həzrət sülhə razıdırsa, qoy Xorasanı bizə verib İraqa getsin, qədim vaxtlarda İraq və Azərbaycan padşahı Həsən padşah Türkmanla (Uzun Həsən Ağqoyunlu – red.) Bəlx və Xorasan padşahı Sultan Hüseyn Mirzə arasındakı sülh qayda-qanununa əməl etsin. Yox, əgər hərb etmək istərsə, tez gəlsin, çünki fəth və qələbə Allahtaalanın istəyi ilədir və ləşkərin azlığı və çoxluğunun buna dəxli yoxdur” (42).

Bu məktubun ardınca Əbdülmömin xan başqa bir məktubu da Şah Abbasa yolladı. Həmin məktubu özbək xanının elçisi Pir Məhəmməd Qənqərat Şah Abbasa çatdırdı. Əbdülmömin xan bu məktubda Astrabadda yaşayan qızılbaş tayfalarının ətraf bölgələrə yürüşlər etməsini və bununla əlaqədar onların cəzalandırılmasını haqlı sayırdı. Onun fikrincə, Astrabad tayfalarının bu özbaşınalıqları da Səfəvi dövləti ilə özbəklər arasında münasibətlərin pisləşməsinin səbəblərindən biri idi. “Əsgəri mənsurənin gəldiyi və xidmətə uğrayıb fərara etdiyi duyuldu. Orada bulanan Astrabad türkmanlarından bir qismi ki, bunlar gəraylı, ərəb, təkə, yəmut və kukəlan idilər və hamısı fəsad çıxarmaq və yol kəsməklə məşğuldurlar, mallarını və canlarını qorumaq və əmniyyətə almaq üçün iki tərəfə də təcavüz edirdilər. Bu camaat fitnə və fəsad çıxarmaqdan başqa bir şey etmirlər. Bu da tərəflər arasında dostluq və ittifaqı zədələyirdi” (43).

Əbdülmömin xan məktubunda Astrabad tayfaları ilə Xarəzm özbəklərinin bölgə müsəlmanlarının həcc ziyarəti səfərlərinə və ticarət karvanlarının talan edilməsi məsələsinə xüsusilə toxunurdu. O bu halların qarşısının alınması üçün Xorasan vilayətinə özbək qoşunlarının çıxarılmasına haqq qazandırmağa da çalışırdı. Əbdülmömin xan məktubunda daha sonra Şah Abbasa bunları yazırdı: “Hüseyn Baykara və Uzun Həsən zamanında tacirlər və yolçular Kəbədə toplanmaq üçün gəlib-gedirlərdi. Bizim dövlətimiz

zamanında bu müqəddəs şəhərlərə gediş-gəlişlərə izin verilsin. Hacılar və tacirlər çətinlik çəkmədən və təhlükəsizlik şəraitində yaşasınlar və biz də tərəflər olaraq onlara kömək göstərək. Yol kəsən və fəsad çıxaran insanları isə aradan qaldıraq. Bundan sonra iki tərəf arasında dostluq və məhəbbət güclənsin və heç bir zaman dövlətimizə ziyan dəyməsin. Dostluq və məhəbbət yolunu açan bu məktubla düşmənlik aramızda birliyə çevrilsin və bu münasibətlər sona qədər belə davam etsin. Səltənətimizin istəyi budur ki, iki ölkə torpaqlarında yaşayan müsəlmanlar təhlükəsizlik içində olsunlar. Tacirlər ilə Məkkə və Mədinəyə ziyarətə gedən hacılar bu dostluq sayəsində rahatlıqla yolçuluqlarını tamamlasınlar və iki ölkənin duası da onların üzərində olsun" (44).

Bu məktubla bərabər Əbdülmömin xan Şah Abbasa nəfis şəkildə tərtib olunmuş bir Quran kitabı da göndərdi. Birinci məktubdan fərqli olaraq Əbdülmömin xanın Şah Abbasa olan ikinci məktubu daha yumşaq və barış ruhunda yazılmışdı. Göründüyü kimi, özbək xanının məktubunun əsas məzmunu sülh təklifinin Şah Abbasa qəbul etdirilməsi idi. Amma onun nəzərində tərəflərin qəbul edəcəyi sülh özbək qoşunları tərəfindən işğal edilmiş Səfəvi ərazilərinin geri qaytarılmaması şərti üzərində qurulmuşdu.

Əbdülmömin xanın məktubunun yetişməsindən əvvəl Şah Abbas qoşunlarla birlikdə hərəkətə başladı və Honək və Cacərm yolu ilə Xorasan vilayətinə tərəf irəliləməyə başladı. Cacərmdə olarkən Əbdülmömin xanın məktubu Şah Abbasa yetişdi. Şah Abbas məktubun məzmunu ilə tanış olduqdan sonra Əbdülmömin xana ədəb-ərkan çərçivəsində bir cavab yazdı və öz qətiyyətli mövqeyini ona çatdırdı. Şah Abbas bəyan etdi ki, sülhə də, hərbə də hazırdır və elə hərb eləmək üçün də Xorasan vilayəti yaxınlıqlarına gəlmişdi. Həmin məktubun məzmunu belə idi: "Biz İlahinin lütfü ilə bu dudmanın yüz illik irsi mülkü olan Xorasanı taqətimiz olduqca qoruyacağıq, ondan əl çəkməyəcəyik. Cığatay sultanlarından olan Sultan Hüseyn Mirzənin və türkman padşahlarından Həsən padşahın sülhnamələrinin bizə və sizə dəxli yoxdur. O ki, qaldı Bəlx valisi Kəskən Qara Sultan Özbək və bizim hümayun babamız

mərhum cənnətməkan şah arasındakı sülh [müqaviləsinə, orada yazılmışdı ki, özbəklər] Xorasandan əl çəksinlər və oranı bizə versinlər. Elə biz özümüz də sülhə razıyıq, əks təqdirdə cəngə də hazırıq. Biz elə bu arzu və şövq ilə İraqdan bu vilayətə gəlmişik. Harada istəsəniz orada da qarşılaşa bilərik. Qoy qeyb aləminin istəyi həyata keçsin” (45).

Bu sətirlər İsgəndər bəy Münşinin “Dünyanı bəzəyən Abbasın tarixi” əsərindən götürülmüşdür. Əslində isə Şah Abbasın Əbdülmömin xana yazdığı cavab məktubu böyük bir məktubdur və orada bir sıra digər mətləblərə də toxunulmuşdu. Məsələn, Şah Abbas Xarəzm özbəkləri haqqında Əbdülmömin xan tərəfindən irəli sürülən iddialarla razılaşmırdı. Onun yazdığına görə, hələ keçmiş zamanlardan Səfəvi dövləti ilə Xarəzm özbəkləri arasında dostluq münasibətləri var idi və hər iki tərəf bu münasibətlərin qorunub saxlanmasında maraqlı idi. Bu münasibətlər həm Şah İsmayılın, həm də Şah Təhmasibin hakimiyyəti illərində davam etmişdi. Ona görə Əbdülmömin xanın Xarəzm özbəklərinin sözünə etibar olmaması haqqında yazdıqlarını Şah Abbas qəbul etmirdi. Bu barədə Şah Abbas belə yazırdı: “Urgənc sultanları haqqında yazmısınız ki, onların sözünə etimad yoxdur. Bu xüsusda düşüncəniz zahir olsun ki, dövlətimizin günəşi doğduğu andan bəri bizim əba və əcdadımız ilə sözü keçən sultanlar arasında dostluq və ittihad vardır. Bu sultanlar və orada yaşaya xanzadələrin böyük bir qismi hər zaman hakimiyyətimizə bağlı olmuşlar. Səltənət və mərhəmət pənah Din Məhəmməd xan ilə səltənət və şövkətpənah əzimət və cəlalət dəstgahı Hacı Məhəmməd xan uzun müddət qələbəlik ordusuyla şükuhi-nəvvab cənnət məkan şah babamın əmirləri arasında yer almışdılar. Yenə səltənət və məğfirətpənah Əbül Məhəmməd xan, ya Hacim xan, Məhəmmədqulu sultan öz xəlifələrini şah babamın sarayına göndərib onun lütf və şəfqətinə məzhər olmuşdular. Bu zaman ərzində də Urgənc sultanlarından dostluq və məhəbbətə zidd olan bir əməl görməmişdilər. Bizim adı çəkilən sultanlarla aramızdakı dostluq elə bir səviyyəyə yüksəldi ki, heç bir şəkildə ona xələl gələ bilməz” (46).

Başqa sözlə, Şah Abbas Xarəzm xanlığı ilə Səfəvi dövləti arasındakı münasibətlərin korlanmasına çalışan Əbdülmömin xanın iddiaları ilə razılaşmadı və bu dostluq münasibətlərinin davamlı olacağına işarə etdi. Şah Abbas eyni zamanda Astrabad türkmanları haqqında Əbdülmömin xanın yazdıqlarını qəbul etmirdi. O birmənalı şəkildə bildirirdi ki, Astrabad əhalisi Səfəvi dövlətinin təbəələridir və onlara qarşı tətbiq edilən gücə müvafiq cavab veriləcəkdir. Şah Abbas bu insanların müdafiəsinə qalxırdı və bununla Əbdülmömin xanı da Astrabad türkmanlarına qarşı güc tətbiq etməkdən çəkindirməyə çalışırdı. Şah Abbasın yazdığına görə "bilinsin ki, o camaatın bütün mənsubları bizim dərgahımızdandır. Onları qətl və ya yəğma etmək üçün gələnlər bu türkmanlar tərəfindən dəf ediləcəkdir" (47).

Əbdülmömin xanın Şah Abbasa göndərdiyi məktubda toxunduğu məsələlərdən biri Sultan Hüseyn Mirzə Bayqara ilə Uzun Həsən arasındakı münasibətlərin təqdir edilməsi və bu münasibətlərin təkrarlanması istəyi idi. Şah Abbas açıq şəkildə bildirdi ki, cığatay türklərindən olan Sultan Hüseyn Mirzə ilə Ağqoyunlu Uzun Həsən arasında mövcud olmuş sülh münasibətlərini də yeni şərait üçün meyar kimi qəbul etmir. Bir tərəfdən həmin sülh münasibətlərdən xeyli vaxt ötmüşdü. Digər tərəfdən Şah Abbasın təmsil etdiyi Səfəvi dövləti heç də Ağqoyunlu dövlətinin varisi deyildi. Sultan Hüseyn Mirzə Bayqara cığatay sultanı olmaqla Buxara xanlığına heç bir bağlılığı yox idi. Eləcə də Ağqoyunlu dövlətinin Səfəvi dövlətinə hüquqi bağlılığı yox idi. Özbək xanları ilə sülh münasibətlərinin əsasını Şah Abbas bu xanların rəhbərliyi altında olan qoşunların Xorasan vilayətindən çıxmasında görürdü. Şah Abbas müsəlmanlara bəxş olunmuş həyatın müharibə qovğasında keçməsi ilə razı deyildi və bunu Əbdülmömin xanın da nəzərinə çatdırırdı. Şah Abbas onu da bəyan edirdi ki, bölgəyə gəlməkdə məqsədi Əbdülmömin xanla qarşılaşmaq və onu Xorasan vilayətindən çıxarmaq idi. Məktubda da deyilirdi ki, Bəstam çəməninə çatdıqda özbək qoşunlarının Əsfəreynə gəlib çatmaları haqqında məlumat alınmışdı. Şah Abbas da bu xəbəri eşidəndən

sonra Əsfəreynə tərəf hərəkət etmək istəyirdi. O yazırdı ki, özbək qoşunları ilə qarşılaşmaq istəyirdi ki, bununla məsələ aydınlaşmış olsun. Səfəvi qoşunları Əsfəreyn istiqamətində hərəkətə başlayanda isə özbək qoşunlarının oradan çəkilməsi xəbəri alınmışdı. İmamqulu bəy Türkman vasitəsilə göndərilmiş bu məktubda Şah Abbas qətiyyətli şəkildə Xorasana vilayətinin məsələsinin hərb meydanında həll etməyə hazır olduğunu Əbdülmömin xanın nəzərinə çatdırırdı (48).

Şah Abbas məktubunda aşağıdakıları yazmışdı: “Bizim bu keçici dünyada və iki günlük səltənətimizdə müsəlman xalqı yəğma və qətl etməyimiz doğru deyildir. Sizin tərəfinizdən göndərilən elçi Pir Məhəmməd Qənqərat hüzurumuza çıxmış və dostluğumuzu sağlamlaşdırmaq məqsədilə gətirdiyi bir cüt Quranı bizə hədiyyə etmişdir. İstədik ki, Bəstam çəməninə gələk və uca hüzurunuza çıxaq. Xəbər gəldi ki, Əsfəreyn ölkəsinə getmişiniz. Biz də bu xəbər üzərinə sürətlə o tərəfə getdik ki, siz oradan getmədən sizinlə qarşılaşaq və beləcə tərəflər arasında anlaşma saxlansın, düşmənlik və savaşlar bərtərəf olsun. Biz Əsfəreynə çatanda gördük ki, xan anlaşma haqqında bir qərar vermədən sürətlə geri dönmüşdür. Bunun üzərinə Əsfəreyndən birini sizin yanınıza göndərdik ki, əgər sülhə meyliniz varsa, biz də sizinlə sülh yaratmaq istəyirik. Ancaq siz Xorasandan əl çəkməsəniz sülhə imkan yoxdur. Əgər istəyiniz savaşmaqdırsa, bu da aşkar olsun ki, biz də dostluqdan əl çəkək” (49).

Şah Abbas çox aydın şəkildə özbək xanları ilə sülh münasibətlərinin qurulmasına tərəfdar olduğunu, lakin bu münasibətlərin Xorasan vilayətinin özbəklərdən təmizlənəcəyi halda mümkünlüyünü bəyan edirdi. Əbdülmömin xanın sülh haqqında israrla təklif irəli sürməsi heç şübhəsiz ki, həm də Şah Abbasın qoşunla bölgəyə gəlməsi ilə bağlı idi. O, bu qoşunlara qarşı uğurlu müqavimət göstərəcəyinə əmin deyildi və ona görə də mövcud olan vəziyyəti olduğu kimi saxlamağa çalışırdı.

Əbdülmömin xanın ikinci məktubuna da Şah Abbas tərəfindən cavab yazılmışdı. Bu məktubda verilən cavablarla birinci məktu-

bun məzmunu arasında müəyyən oxşarlıq mövcuddur. Əslində, Əbdülmömin xanın da Şah Abbasa ünvanladığı ilk iki məktubun məzmununda bir oxşarlıq görmək mümkündür. Şah Abbas yazırdı ki, Mazandaranda olarkən Əbdülmömin xanın rəhbərliyi altında olan özbək qoşunlarının Nişapura gəlməsi və oradan gəraylı tayfası üzərinə qoşun dəstəsi göndərməsi haqqında məlumat almışdır. Bu xəbəri alandan sonra Şah Abbas Bəstam çəməninə doğru irəliləməyə başladığını bildirirdi. O yazırdı ki, Qarapalçıq adlanan məntəqədə özbək qoşunları ilə qarşılaşacağı ümidində idi. Amma bu baş vermədi. Çünki, Əbdülmömin xan qoşun dəstəsi ilə Məşhədə tərəf çəkilmişdi. Daha sonra bu məktubda Uzun Həsənlə Sultan Hüseyn Mirzə Bayqara arasındakı münasibətlərə və həmin münasibətlərin yeni şəraitdə Səfəvi-Özbək münasibətləri üçün meyar ola bilməməsinə, özbək qoşunlarının Xorasan vilayətində qalacağı halda iki tərəf arasında sülhün əldə edilməsinin mümkün olmayacağına toxunulurdu. "Cığatay sultanlarından olan Hüseyn Mirzənin sizinlə bir əlaqəsi yoxdur və türkmən sultanlarından olan Uzun Həsənin bizimlə əlaqəsi yoxdur. Əgər ikimiz arasında dostluğa qərar veriləcəksə babam Şah Təhmasib ilə Çingizli sultanlarından Kəskin Qara və Pir Məhəmməd arasında qərarlaşdırılan andlaşma əsas götürülməlidir" (50).

Həmin andlaşmaya görə isə, Xorasan vilayəti Səfəvi dövlətinin hüdudlarına daxil idi. Şah Abbas özbək xanını da ikitərəfli münasibətlərdə bu andlaşmanın əsas götürülməli olduğunu yazırdı. Nəhayət sonda Şah Abbas iki dövlət arasında münasibətlərin aydınlaşdırılması üçün istənilən məkanda hərbi qarşıdurmaya da hazır olduğunu bildirirdi. Şah Abbas öz məktubunu nəzm parçası ilə bitirirdi və həmin nəzmdə də o, münasibətlərin aydınlaşdırılması üçün Əbdülmömin xanı döyüş meydanına dəvət edirdi. Şah Abbas bu məktubunda özbək xanına hansı şücaət və cəsarətə malik olduğunu da ortaya qoydu. O, Əbdülmömin xana ikilikdə döyüşə çıxmağı təklif etdi. Şah Abbas yazırdı ki, sülh məsələsi onunla Əbdülmömin xan arasında olan durumdan asılıdır. O, sülh şəraitinin əldə edilməsi üçün qoşunları hərəkətə gətirib çoxsaylı

qırğınlara yol verilməsinə heç bir ehtiyac görmürdü. O, təklif edirdi ki, ikilikdə qoşunların qarşısına çıxsınlar, qoşunların müdaxiləsi olmadan vuruşsunlar və bununla münasibətləri də aydınlaşdırsınlar. Şah Abbasa görə bu savaşda qalib gələn şəxs qarşı tərəfin ölkəsinə və qoşunlarına sahib ola bilərdi (51).

Şah Abbas məktubunda daha sonra yazırdı: "Hər birimiz öz atamızın sünnətilə hərəkət edək. Çatışma və zorakılığı aradan qaldırıb müsəlmanların rifahı üçün heç vaxt çatışma və düşmənlik məqamında olmayaq. Möhkəm sülhə nail olunmazsa gah Şah İsmayıl, gah da Şahibəy xan və Şah Təhmasib ilə Übeyd xan arasında olduğu kimi bizim aramızda da savaş olacaq və bu savaş Allahın köməyi ilə sonuclanacaqdır. Əsgər sayının az və ya çox olmasının zəfər qazanmaqda heç bir əhəmiyyəti yoxdur. Dövlət günəşimiz çıxdığından bəri heç bir xaqanın və ya sultanın dəstəyinə möhtac olmadıq. Allahın, peyğəmbərlərin və on iki imamın şəfaətiylə məqsədimizə çatacağıq" (52).

Şah Abbas tərəfindən bu məktub 1592-ci il sentyabr ayının 6-da yazılmışdı. Əbdülmömin xan bu məktubu cavabsız qoymadı və həmin ayın 21-də cavab məktubu yazdı. Özbək xanı böyük iddialarla Xorasana gəlsə də, kiminlə qarşılaşmalı olacağının fərqində idi. Ona görə də həmin cavab məktubunu yazandan sonra o, Xorasandan uzaqlaşmağa başladı. Məktubunda isə o yazdı ki, məsləhətləşmələrdən sonra Cama tərəf çəkilməyə qərar vermişdir. Əbdülmömin xan sonra Şah Abbası da Cama gəlməyə və orada qarşılaşmağa çağırırdı. Amma sonradan məlum oldu ki, Əbdülmömin xan heç Camda dayanmamış və Bəlxə çəkilmişdir. Oradan isə Əbdülmömin xan ədəb-ərkan daxilində yazılmış olan daha bir məktubu Şah Abbasa göndərdi (53).

Əbdülmömin xanın bu məktubunun bir maraqlı tərəfi onda idi ki, o öz fikirlərini Şah Abbasa qəbul etdirmək üçün şiə inancına müraciət etmişdi. Məktub "Kim ki Əli ilə düşməndir yox olacaqdır" sözləri ilə başlayırdı (54). Bu sözlərlə bir qayda olaraq Səfəvi padşahları, mənsubları, şiə ruhaniləri sünni mənsublarına müraciət edir və onları şiəliyə qarşı mövqe tutmaqdan çəkindirməyə çalı-

şırdı. İndi isə sünni məzhəbinə mənsub olan, Xorasan vilayətində şiə ruhanilərinə və etiqad adamlarına divan tutan Əbdülmömin xan şiə inancı ilə Şah Abbasa müraciət edirdi. Məktubda nə üçün bu ifadəyə müraciət edilməsinin izahı yoxdur. Amma güman oluna bilər ki, bununla Əbdülmömin xan qarşı tərəfin fəaliyyətinin şiə dəyərlərindən uzaq olmasına, Şah Abbasın və onun ətrafının Həzrət Əli yolundan kənar çıxaraq hərbə meydan verməlerinin düzgün olmamasına işarə etmək istəyirdi. O da ola bilərdi ki, Əbdülmömin xan özünün də Şah Abbasın etiqad bəslədiyi şiə inanclarına biganə olmadığını və bununla öz sözlərinə qarşı müəyyən bir müsbət münasibət oyadılmasını istəyirdi.

Məktubun əsas məzmunu isə Şah Abbası Xorasan vilayəti üzərinə hücumdan çəkindirmək idi. Onun yazdıqlarından belə bir qənaət hasil olur ki, guya Səfəvi dövləti bölgənin əhalisinə qarşı qəddar münasibətdə olmuşdu və buna görə də vilayət əhalisi Səfəvi dövlətinə rəğbətlə yanaşmırdı. Misal olaraq Əbdülmömin xan hələ Şah Təhmasibin hakimiyyəti dövründə qızılbaş qoşunlarının Cama hücum etməsi və Cam əhalisinə divan tutmasını göstərirdi. Ona görə də özbək şahzadəsi Şah Abbasa Məşhəddə dayanmamağı və şəhərdən uzaqlaşmağı məsləhət görürdü. Əbdülmömin xan Şah Abbasa təklif edirdi ki, o yalnız ziyarət üçün bölgəyə gəlsin və o cümlədən Camdakı müqəddəs məkanları ziyarət etsin. Şah Abbasın Məşhəddən uzaq qalmasını istəməklə Əbdülmömin xan heç də Səfəvi mənsublarına qarşı düşmən mövqedə olmadığını və Xorasanı tərk etməklə həm də Səfəvi qoşunlarından çəkinmək mövqeyində olmadığını bəyan edirdi. O yazırdı ki, özü Məşhəddən uzaqlaşsa da, Məşhəddə onun qüvvələri qalmaqdadır. Əbdülmömin xan bu məktubun bir neçə yerində Şah Abbasa "qardaş" deyə müraciət edirdi və bununla bir növ Şah Abbası da yazdıqlarının səmimiyyətinə inandırmaq istəyirdi.

Şah Abbas Əsfəreyndə olduğu vaxt Səbzəvar əhalisi Əbdülmömin xan tərəfindən bu şəhərə hakim təyin edilmiş Quydaş bahadıra qarşı qiyam qaldırdılar, onun başını bədənindən ayıraraq Şah Abbasın hüzuruna göndərdilər. Bu hadisədən sonra

Səbzəvarda olan özbək döyüşçülər şəhəri tərk edib qaçmağa üz qoydular. Səbzəvarın ardınca Cacərm, Əsfəreyn, Şəğan və Nişapur da özbək qoşunlarının nəzarətindən azad oldular. Şah Abbas təxminən bir aya yaxın Əsfəreyn çəmənində qaldı, Nişapur hakimliyinə Dərviş Məhəmməd Rumlunu təyin etdi, bu qalanın müdafiəsinin təşkili üçün Mir Fəttah minbaşının rəhbərliyi altında İsfahan tüfəngçilərindən ibarət 300 nəfərlik bir dəstə təşkil etdi. Əsfəreyn qalanın hakimliyi Məhəmməd Sultan Bayata, Səbzəvar qalasının hakimliyi isə Məhəmməd Sultana həvalə olundu. Sonra isə şah qoşunları Məşhədə doğru hərəkətə başladı (55).

Əbdülmömin xanın yuxarıda haqqında danışılan məktubunu isə Şah Abbas  cavabsız qoymadı və öz fikirlərini kağız üzərində ifadə edərək Əbdülmömin xana göndərdi. Bu məktub bir beytlik nəzmlə başlayırdı və həmin nəzmin məzmunu Əbdülmömin xanın qasidinin ondan müşk ətirli məktub gətirməsinə işarə edirdi. Çox güman ki, bu yazışmaların davam etməsi ilə Şah Abbas özbək qoşunlarının Xorasanı tərk edəcəyinə və bu vilayətin özbək hakimləri tərəfindən Səfəvi əraziləri kimi qəbul ediləcəyinə inanırdı. Ona görə də Şah Abbas yazışmaları davam etdirirdi. Növbəti məktubunun əvvəlində Şah Abbas  uzun-uzadı Əbdülmömin xanı vəsf etmiş və onu qulağa xoş çatan ibarələrlə və ləqəblərlə xatırlamışdı. Şah Abbas özbək şahzadəsinin öz məktubunun başlanğıcında “Kim ki Əli ilə düşməndir yox olacaqdır” ifadəsinə istinad etməsinə öz məmnunluğunu bildirirdi və bu istinada özünəməxsus bir dəyər verirdi. Onun yazdığına görə, sanki Əbdülmömin xan da şiə inanclarının doğruluğuna öz meylini göstrəmişdi. Ona görə Şah Abbas yazırdı ki, Həzrət Əli yolunu seçən uğur qazana bilər və bu yoldan üz döndərənin isə sonu yoxdur: “Əlhəmdülillah ki, siz də bu sözə etibar etdiniz. Bilinsin ki, Əhli-beyt Nuhun gəmisi kimidir. Kim onu seçsə qurtuluş tapar, kim yanlış yolu seçsə həlak olub gedər” (56).

Şah Abbas məktubunda xüsusi olaraq qabardırdı ki, əhli-beyt övladına inananların və onların yolu ilə gedənlərin, onların buyurduqlarına əməl edənlərin aqibəti də xoş keçər, öz həyatlarında

uğur qazana bilərlər. Bu mənada Şah Abbas Səfəvi xanədanı və elə o cümlədən də onu özü ilə ittifaqda və ittihadda olan hakimlərin uğur qazanmalarını da deyilənə sübut kimi göstərirdi. Belələrinə nümunə olaraq o, Babur padşahın, Sultan Hüseyn Mirzə Bayqaranın və onun övladlarının, Şirvan və Xarəzm hakimlərinin adını çəkirdi. Əhli-beyt övladlarına qarşı çıxanların isə torpağa çevriləcəklərinə Şah Abbas şübhə etmirdi. Sonra Şah Abbas özünün də siyasətini əcdadlarının siyasətinin davamı kimi qələmə verirdi. Yəni kim Səfəvi dövləti ilə xoş münasibətlər qurmaq istəyirdisə ona xoş münasibət göstərilir və dostluq əlaqələri yaradılırdı: "Biz atalarımızın sünnətini icra etməyə mükəlləfik və hər kim ki səltənətimizə gəlib səmimiyyətini bildirib, yaxşı münasibətlər istərsə onun bu tələbini yerinə yetirməyə və istədiyi yardımı göstərməyə çalışırıq" (57).

Bununla, Şah Abbas özbək şahzadəsini də inandırmağa çalışırdı ki, sülhsevər qarşılıqlı münasibətlər və əlaqələr qurmağa çalışdığı halda onun istəkləri cavabsız qalmayacaqdır. Şah Abbas vəd edirdi ki, belə münasibətlərin qurulduğu təqdirdə Səfəvi sarayı da qarşı tərəfə lazım olan köməklikləri göstərəcək və bu da qarşı tərəfin maraqlarına cavab verəcəkdir. Sonra da Şah Abbas dostluq və düşmənçilik arasında seçim edilməsini Əbdülmömin xanın ixtiyarına buraxırdı. Məktubda Əbdülmömin xanın guya bəzi məsləhətlərə görə Cama çəkilməsinə, həmin vilayətin Şah Təhmasib tərəfindən fəth edilməsinə, Şah Abbasa isə Məşhədi tərk etməsi ilə bağlı özbək şahzadəsi tərəfindən verilən məsləhətə də toxunulurdu. Şah Abbas birmənalı şəkildə bildirmək istəyirdi ki, onun Məşhədə gəlməsi və ya şəhəri tərk etməsi üçün Əbdülmömin xanın məsləhətinə ehtiyac yoxdur və onun Məşhədə gəlməkdə məqsədi bu şəhərin yenidən Səfəvi nəzarəti altına qaytarılmasıdır. Bu məsələnin birdəfəlik həlli üçün Şah Abbas özbək qoşunları ilə qarşılaşmaqdan çəkinmədiyini də Əbdülmömin xanın nəzərinə çatdırırdı. Ona görə Şah Abbas yazırdı ki, əgər Əbdülmömin xan Camda dayanarsa, onda Səfəvi qoşunu ilə ora gəlməyə və özbək qoşunları ilə qarşılaşmağa hazırdır. Şah Abbas

həm də özbək xanının öz fikrini dəyişməyəcəyi halda dərhal həmin məntəqəyə yönəlməyə hazır olduğunu yazırdı (58).

Şah Abbas daha sonra məktubunda belə yazırdı: "Ancaq öyrəndik ki, Çingiz xanədanının bu nəsli o yerdə durmamış və məqsədi özbəklərlə görüşmək olan bizin əsakiri-mənsurəmizlə bir araya gəlməmişdi. Əgər bizimlə savaşmağa meyllisinizsə tez bir zamanda önə çıxın. Əgər məhəbbət və dostluq məqamında olmağı istəyirsinizsə iki-üç gün öncə İmamqulu bəy Türkman sizə yazdığı məktubunda bildirmişdi ki, nə zaman bizim məmləkətimizdən əl çəkib bütün Xorasanı bu övliya dövlətin ixtiyarına verəcək olsanız, biz də küdurət və qırğınlardan əl çəkərək sizinlə əlaqələrimizi dostluq və məhəbbət əsasları üzərində sağlamlaşdırarıq" (59).

Bundan sonra Şah Abbas bir daha yazırdı ki, münasibətlərin normallaşması ilə Əbdülmömin xan həm də lazım olan köməyi Səfəvi sarayından ala biləcəkdi. Belə xoş münasibətlərin davamlı olması üçün Şah Abbas həm də ara qarışdırmağa çalışan insanların məsləhətlərindən uzaq olmağı tövsiyə edirdi. Səfəvi şahı özbək şahzadəsinə yazdığı təkliflərin səmimi olmasına inandırmaq üçün hətta Məşhədin mühasirə edilməsindən də əl çəkdi. Həmin vaxt Məşhəd daxilində özbək qarnizonu var idi və Məşhədin nəzarət altına alınması üçün bu qarnizon zərərsizləşdirilməli idi. Şah Abbas isə Əbdülmömin xanla başlanan yazışmaların məntiqi sonluğa çatdırılması və qarşılıqlı anlaşma şəraitində özbək qoşunlarının Xorasanı tərk edəcəyi ümidi ilə Məşhəd ətrafında dayanmayıb yenidən Bəstam çəməninə tərəf üz tutdu. Onun yazdığına görə, Məşhəd məsələsini buraxaraq Astrabadla Darülmərzdəki itaətsizliklərin aradan qaldırılması üçün ora yollanmışdı. Şah Abbas onu da qeyd edirdi ki, dostluq münasibətlərinin yaradılması üçün Əbdülmömin xan tərəfindən hər hansı bir addım atılacağı təqdirdə, bu münasibətlərin gücləndirilməsi üçün o özü də daha səmərəli tədbirlər həyata keçirəcəkdir (60).

Şah Abbasın bu yazdıqlarından belə bir qənaət hasil olur ki, o, Məşhədin mühasirəsindən məqsədyönlü şəkildə əl çəkmişdir və bununla o, Səfəvi-özbək münasibətlərinin yaxşılaşdırılmasına

meylli olduğunu nümayiş etdirməyə çalışmışdır. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşi isə qızılbaş qoşunlarının Məşhəd ətrafından çəkilməsini bir qədər fərqli şəkildə şərh etmişdir. "Müzəffər ordu qələbə və iqballa Əsfəreyndən çıxıb, Cəhan və Əyan yoluyla müqəddəs Məşhədin Sultan Meydanı adlı yerinə təşrif gətirdi, həmin ürəkaçan çəmənlikdə zəfər çadırları quruldu. O yerdə Gəncəli xan Özbək tərəfindən əsir alınmış olan bir neçə özbəyin sözlərindən məlum belə oldu ki, bu vilayətdəki özbək camaatı gedib müqəddəs Məşhəddə toplaşmış, qaladarlıq etmək barədə qərar vermişlər. Payız fəsli sona çatdığı və qiyamət təhdidli (nəhib) şaxta qoşunu göründüyü üçün, habelə özbəklərin gediş-gəlişlərinə görə vilayətə dağıntılar üz verdiyindən, heç yerdə ərzaq və başqa məhsullar qalmamışdı. Müzəffər əsgərlər korluq çəkirdilər. Buna görə də, həmin qış fəslində müqəddəs Məşhədin mühasirəsinə başlamaq əsgərlərin pərişan hala düşmələrinə səbəb ola bilərdi. Həmçinin, o şərafətli büqəni hərb evinə (darülhərb) çevirmək və səkkizinci həzrət imamın pak rövzəsi yerləşən həmin şəhərə top-tüfəng yığıb-gətirmək, hal-hazırda [hərçənd ki, qızılbaşlara] batil yer kimi olsa da, şahın ürəyindən deyildi və özbəklərin inadkarlıqlarından o şərafətli şəhər əhalisinə xeyli zərər deyə bilərdi" (61).

Şah qoşunlarının Məşhəd ətrafından geri çəkilməsindən əvvəl Tun qalası ətrafında özbək qoşunları ilə qısamüddətli bir toqquşma baş verdi. Özbək qoşunları Xorasan üzərinə hücum edəndə Tun qalasını da ələ keçirərək ora Quzi Mirzə adlı birisini hakim təyin etmişdilər. Şah Abbas tərəfindən isə bu qalaya Mustafa bəy Kəngərli təyin olunmuşdu. Şah qoşunlarının Xorasan istiqamətində hərəkətə başlaması xəbərini eşidəndə Mustafa xan Kəngərli ustaclılardan və digər tayfa nümayəndələrindən təşkil edilmiş qoşun dəstəsi Tun qalası üzərinə hücum etdi. Nəticədə Tun qalasının ətrafı ələ keçirildi və qala mühasirəyə alındı. Qalada mühasirədə qalan özbək əmirləri və döyüşçüləri öz nümayəndələrini Herata göndərdilər və oranın özbək hakimindən kömək istədilər. Yoxsa Tundakı özbək qarnizonunun qızılbaş dəstəsinə müqavimət gös-

tərmək gücü yox idi. Buxara hakimi olan Abdulla xanın bacısı oğlu Din Məhəmməd sultan belə bir xahişi alınca Tun qalasının köməyinə bir min nəfərlik bir dəstə göndərdi. Bu dəstəyə özbək qoşunlarının tanınmış və təcrübəli bahadırları da daxil edilmişdilər. Dəstənin rəhbəri vəzifəsinə isə Naculi bahadır adlı birisi təyin edilmişdi. Tunun Səfəvi hakimi olan Mustafa xan özbək qoşunlarını çoxluğundan heç də qorxuya düşmədi. O, hətta öz dəstəsini gücləndirməyi belə lazım bilmədi və yanındakı döyüşçüləri ilə çoxsaylı özbəklərin döyüşünü qəbul etdi. Bununla belə, özbək döyüşçülərinin sayca çox olması və yaxşı silahlanması öz sözünü dedi və Mustafa xan dəstəsi ilə bərabər ağır bir durumla qarşılaşdı. Mustafa xan qeyri-bərabər döyüşdən geri çəkilmək məcburiyyətində qaldı. O, atından yerə düşdü və atın arxasında daldalanmaqla geri addımlamağa başladı. Bu zaman o, tüfəngi və ox-kamanı ilə özbək döyüşçülərinin də yaxına gəlməsinə imkan vermədi. Beləcə döyüşə-döyüşə Mustafa xan Tunun Aysək adlı məntəqəsinə gəlib çıxdı. Özbəklər də onun ardınca həmin məntəqəyə gəldilər. Hava qaralandan sonra tərəflər arasında döyüş də dayandırıldı. Mustafa xanın vəziyyətindən xəbər tutan əfşar əmirləri və Kirman döyüşçüləri dərhal onun ardınca Aysəkə yollandılar. Bu köməyin gəlməsi özbəklərin də vəziyyətinin mürəkkəbləşməsinə yol açdı. Mustafa xan köməyə gəlmiş əfşar döyüşçüləri ilə yenidən özbəklərin üstünə atıldı. Elə ilk həmlədə özbəklər ağır zərbə aldılar və onlardan salamat qalanların qaçmaqdan başqa çarəsi qalmadı. Aysək ətrafında özbək dəstəsinin ağır məğlubiyyətə uğraması xəbərini alanda Tun qalasındakı özbək döyüşçüləri orada qalmağı təhlükəli hesab etdilər və qalanı tərk etdilər. Mustafa xan bu qalanın hakimliyi vəzifəsini yenidən öz üzərinə götürdü. Amma elə həmin vaxtlarda xəbər alındı ki, Şah Abbas da Məşhəd ətrafında dayanmayaraq geri çəkilmişdir (62).

Qızılbaş qoşunlarının Məşhəd ətrafından geri çəkilməsinə baxmayaraq Şah Abbasla Əbdülmömin xan arasındakı yazışmalar sonra da davam etdi. Növbəti məktub Əbdülmömin xan tərəfindən gəldi. Bu məktub Şah Abbasın yuxarıda toxunulan məktubuna ca-

vab idi. İki beytlik nəzmlə başlanan bu məktub kifayət qədər müxtəsər bir məktub idi və burada Şah Abbasın Məşhədlə bağlı mövqeyinə münasibət bildirilmişdir. Şah Abbasın könüllü şəkildə Məşhəd ətrafından çəkilməsinə Əbdülmömin xan fərqli qiymət verirdi. O, Şah Abbasın bu qərarını təqdir etmirdi, əksinə onu qorxutmağa çalışırdı ki, Məşhədi gərək tərk etsin. Əbdülmömin xan yazırdı ki, Heratda toplanmış olan qoşun dəstəsi, orada olan qazaxlar və Dəşti-Qıpçaq adamları Məşhəddə dayanan qızılbaş qoşunları üzərinə hücum edə bilər. Yəni Əbdülmömin xan sanki Şah Abbasa dostcasına məsləhət görürdü ki, Məşhəd ətrafından geri çəkilsin, yoxsa qızılbaş qoşun dəstəsi Herat istiqamətindən hücuma məruz qala bilər. Məktubun sonunda Əbdülmömin xan qızılbaş qoşunlarının Tun qalası ətrafında olmasına da toxunurdu. Əbdülmömin xan artıq Tun qalası ətrafında özbək qoşun dəstəsinin ağır məğlubiyyətə uğramasından da xəbər tutmuşdu. O, məktubunda iki tərəf arasında belə halların baş verməsini münasib saymırdı (63).

Bu məktubda da qarşılıqlı dialoqun yumşaq bir şəkildə qurulması görüntüsü qalsa da, mövqelər heç də bir-birinə yaxın deyildi. Əbdülmömin xan öz fikrini məsləhət və təklif şəklində ifadə etsə də, əslində Şah Abbasdan qızılbaş qoşunlarının Xorasandan çıxarılmasını tələb edirdi. Yəni özbək şahzadəsi xoş münasibətlərin qurulması məsələsində Xorasanın tərk edilməsini qəbul etmirdi və bunu Şah Abbasa da çatdırmağa çalışırdı. Şah Abbas isə hələlik bu məsələyə səbir və dözümlə yanaşırdı. Çox güman ki, səltənət daxilində itaətsizlik hallarının bütünlüklə aradan qalxmaması onu özbək qoşunlarının təcavüzünə qarşı daha təmkinli mövqe tutmağa sövq edirdi. Hətta növbəti məktubunda da Şah Abbasın özbək şahzadəsinə qarşı mülayim, təmkinli münasibətini, sülhə daha çox meylli olmasını müşahidə etmək mümkündür. Eyni zamanda Şah Abbas öz mövqeyindən çəkinmədiyini və Xorasan vilayəti ilə bağlı güzəştə getmək fikrindən uzaq olduğunu bəyan edirdi. Məktubun məzmunundan o da gorunu ki, Şah Abbas dinc yolla Xorasanı özbək qoşunlarından təmizləmək istəyir. Ona görə də Şah

Abbas özbək şahzadəsinin nəzərinə çatdırırdı ki, Məşhəd şəhəri onun əcdadları dövründə Səfəvi dövlətinə məxsus olsa da, bölgəyə yürüşü zamanı təmkin göstərdi, Herat üzərinə qoşun göndərmədi, Məşhəddə olan özbək dəstəsini mühasirəyə almadı. Şah Abbas təkidlə bildirirdi ki, özbək qoşunlarının vilayətdən çıxarılması iki tərəf arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə yol açacaqdır. O şübhə etmirdi ki, bu yolla yaranmış olan dostluq münasibətləri bu ərazilərdən səfər edən bütün müsəlmanların və yolçuların da xeyrinə olacaqdır. Şah Abbas onu da əlavə edirdi ki, belə dostluq hər iki tərəfin möhkəmlənməsinə zəmin yaradacaqdır. Amma Şah Abbas onu da xatırladırdı ki, irəli sürülən təkliflər qəbul olunmazsa, onda çıxış yolu hərbi qarşılaşmaya qalacaqdır (64).

Şah Abbasın məktubunda bunları görək mümkündür: “Bizim bu il Xorasanı ələ keçirmək kimi bir istəyimiz yoxdur. Ancaq Darül-mərzdəki işlərimizi başa vurduqdan sonra sürətlə Xorasana gəldik. Dəfələrlə qarşılıqlı şəkildə bəyan edilən sülh üzərinə Darül-mərzə geri dönüb orada qışlamağı qərarlaşdırdıq. ...Aramızdakı ittifaqı heç bir sultan öz əməlləri ilə poza bilməz. Əsas yaradılan bu dostluqda müsəlmanların və yolçuların rifahı və təhlükəsizliyi üçün yaradılan bu dostluq eyni zamanda iki dövlətin səbatı və davamı üçün də gərəkdir. Əgər bəzi vaxtlar məktublarda yazılanlara müxalif davranılsa və özbəklər Xorasanın bəzi məhəllərinin tutulmaşından əl çəkməzlərsə ayəti-Kərimdə bildirildiyi üzrə “Allah Sizə yardım edərsə, Sizə kimsə üstün gələ bilməz”. Ona görə Allah kiməsə zəfər və fəth verərsə o da fəth sahibi olacaqdır” (65).

Məktubun sonunda Şah Abbasın Qurandan istinad etdiyi bu son cümlə, sözsüz ki, Xorasan məsələsində onun qətiyyətinin göstəricisi idi. Onun Səfəvi ərazilərini özbək xanlarına güzəştə getməyəcəyini Əbdülmömin xana ünvanladığı növbəti məktubunda da görmək mümkündür. Həmin məktub kifayət qədər geniş məktubdur və onun mətnində beş dəfə nəzmdən də istifadə olunmuşdur. Məktubun əvvəlində isə Əbdülmömin xanın vəsfinə xeyli yer

.verilmişdir. Sonra isə məktubda qısaca olaraq Səfəvi-özbək qonşuluğunun tarixinə toxunulmuşdur. Şah Abbas xatırladırdı ki, Çingiziyyə soyundan olan özbəklər Mavərənnəhrdə yerləşməklə həm də son dövrlərdə Səfəvi dövlətinə qonşu olmuşlar. Bu qonşuluq tərəflər arasında həm də savaşlarla müşayiət olunmuşdu. Şah Abbas qəbul edirdi ki, bu hücumlar zamanı Xorasanın müəyyən əraziləri özbək qoşunlarının işğalı altına düşmüşdü. O cümlədən ona da işarə olunurdu ki, son zamanlar özbək qoşunları bir-iki dəfə Xorasana hücum etmiş və bəzi şəhərləri ələ keçirmişdilər. Şah Abbas bunu məntiqi hesab etmirdi və özbək qoşunlarının bu nəticələrini Səfəvi qoşunlarının başqa bir istiqamətdə savaşlara qatılması ilə bağlayırdı. Bu savaşlar bir tərəfdən səltənət daxilində, qızılbaş tayfaları arasında aparılırdı. Digər tərəfdən isə Şah Abbasın yazdığına görə, sayı-hesabı bilinməyən Osmanlı qoşunları Səfəvi hüdudlarına hücum etmişdi. Səfəvi qoşunları da ilk növbədə Osmanlı qoşunlarının hücumunun qarşısının alınmasına göndərildi. Şah Abbas sonra da əlavə edirdi ki, hakimiyyətə gəldikdən sonra səltənət daxilində parçalanmalara səbəb olmuş qızılbaş tayfalarına qarşı ciddi mübarizə apardı və onları layiqli cəzasına çatdırdı. Bundan sonra məlumdur ki, Şah Abbas Osmanlı sarayı ilə sülh anlaşmasının əldə edilməsinə ciddi diqqət yetirdi və bu məsələni də o, Əbdülmömin xana yazdığı məktubunda qeyd etdi. Şah Abbas daha sonra yazırdı ki, Osmanlı dövləti ilə sülh anlaşması əldə edildikdən sonra qızılbaş qoşunları ilə Xorasan istiqamətində hərəkətə başladı. Lakin Xorasana gəldikdən sonra Əbdülmömin xan onun qarşısına çıxmadı və geri çəkilərək Bəlx və Buxara istiqamətində hərəkət etdi. Bununla Şah Abbas özbək şahzadəsinin qızılbaş qoşunları ilə qarşılaşmağa cəsarəti çatmadığına işarə edirdi. Şah Abbas isə yazdığına görə, yalnız qışın yaxınlaşdığı üçün daha Xorasanda dayanmağa bir lüzum görmədi və özbək qoşunları ilə qarşılaşmadan Qəzvinə qayıtdı. Şah Abbas onu da yazırdı ki, Səfəvi qoşunlarının başqa vəzifələrin icrası ilə məşğul olmasından istifadə edərək özbək qoşunları sonrakı ildə Xorasan üzərinə yürüş

həyata keçirmiş və müqavimətlə rastlaşmadan Nişapur qalasını nəzarət altına ala bilmişdi (66).

"Mən səltənət taxtına çıxdığımda qızılbaş tayfası arasında nifaqa son verdim. Günahkarları cəzalandırdım və dövlətdə sabitlik yaratdım. Ayrıca bizimlə Osmanlı padşahı arasında sülh yaradıldı. Biz də sizinlə görüşmək ümidi ilə o tərəfə hərəkət etdik. Ancaq siz qarşımıza çıxmadınız, Bəlx və Buxara tərəfə yönəldiniz. Bu zaman qış fəsli yaxınlaşmışdı və əsgərlərimizin Xorasanda qışlaması mümkün deyildi. Buna görə biz də İraq [İraqi-Əcəm] tərəfə geri döndük. Bir il sonra dövlətimiz Ərəbistan və Luristan bölgəsindəki sıxıntıları aradan qaldırmaq və buraya məsul adamları təyin etməklə məşğul idi. Bunu fürsət bilən özbək xanı təkrar Xorasana gəldi və Nişapur qalasını bizim qüvvələrin əlindən aldı. Ancaq bizim Xorasan istiqamətində hərəkətimizdən xəbər tutanda cəsarət göstərib qarşımıza çıxmadı. Hətta Xorasanda da dayanmayıb geri çəkildi. Ancaq Səfəvi ordusunun Xorasana gəlməyəcəyini bilincə özbək xanı Xorasana gəlmiş və Əsfəreyn qalasını mühasirə etmişdir. Səfəvi ordusu iyirmi gün ərzində Bəstam çəmənində toplandı və zilhəcə ayının 5-də Bəstam çəmənindən Xorasan üzərinə hərəkətə başladı" (67).

Bu sözlərin ardınca Şah Abbas bir beytlik nəzm parçası da əlavə etmişdi. Həmin beytin tərcüməsi belədir: Yenə gəldim və yenə qaçdın, mən gedəndən sonra isə fitnə yaratdın (68).

Şah Abbas sonra yazırdı ki, ötən il Əbdülmömin xan Xorasana yürüş etməmişdi və ona görə güman edirdi ki, özbək şahzadəsi daha bir də bu vilayət üzərinə hücum etməyəcəkdir. Səfəvi şahı da özbək qoşunlarının Xorasan üzərinə gəlməyəcəyini bildiyi üçün özü də bu vilayətə yürüş etməyi lazım bilməmişdi. Əbdülmömin xan isə bundan istifadə edərək Xorasana yenidən qoşun çıxarmış və Əsfəreyn qalasını da mühasirəyə almışdı. Şah Abbas da bundan sonra yuxarıda deyildiyi kimi, qoşunu ilə Qəzvindən hərəkətə başlamış və Bəstam çəməninə gəlib çıxmışdı. Şah Abbas açıq şəkildə ona işarə edirdi ki, Xorasan vilayətinə yiyələnmək istəyirsə onunla qarşılaşamqdan çəkinməsin və bu qarşılaşmada

aydın olsun ki, Xorasan vilayəti uğrunda aparılan mübarizədə zəfər kimin tərəfində olacaqdır. Şah Abbas təkid edirdi ki, Əbdülmömin xan məqsədini ortaya qoysun, Xorasan vilayəti uğrunda mübarizəyə qoşulmaq istəyirsə bu işi ləngitməsin. Çünki məsələ aydınlaşmayana qədər hər iki tərəfdən qoşunların Xorasana gəlməsi və sonra geri qayıtması bir tərəfdən yerli əhalinin talan olunmasına, digər tərəfdən də qoşunların özünün əldən düşməsinə səbəb olacaqdır. Bu işlərin günahı isə Şah Abbasa görə onların hər ikisinin boynunda qalacaqdı. Tərəflərin marağında olan məsələnin hərb meydanında həll edilməsini Şah Abbas namus məsələsi sayırdı. Məktubunun sonunda Şah Abbas yazırdı ki, başında dünya cahangirliyi və fatehliyi iddiaları oynayan Əbdülmömin xanın az sayda olan qızılbaş qoşunlarından qaçması və üzünü başqa istiqamətə yönəltməsi heç də ona layiq olan bir iş deyildir. Şah Abbasa görə əgər özbək şahzadəsi əvvəlki ildə olduğu kimi hərəkət edərək namus və ar məsələsini unutsa, onda gərək dünya cahangirliyi və fatehliyi xülyalarını da başından çıxarsın. Şah Abbas məktubunu belə bitirirdi: “Bundan artıq sözü uzatmağa ehtiyac yoxdur. Öz səltənətinin adına və namusuna layiq nə bilirsə onu da etsin” (69).

Şah Abbasın bu məktubu yumşaq müraciət üslubunda yazılsa da burada Əbdülmömin xana qarşı bir istehzanı və şəxsiyyətinin aşağılanmasıı görmək mümkündür. Əslində, Şah Abbas onun ar və namusunu itirməkdə, dünya cahangirliyi kimi cəfəng iddiaya düşməkdə və onun bu iddiasının arxasında əməlin dayanmamasında ittiham edirdi. Sonda Şah Abbas tərəf müqabili ilə dil tapa bilmədiyi üçün bir növ ona ciddi müraciətin mənasız olduğunu dilə gətirir və bəyan edirdi ki, artıq onun tərəfindən hər cürə əməli gözləyə bilər.

Əbdülmömin xan bu məktubun ruhunu düzgün dəyərləndirə bildi və Şah Abbasın yazdıqlarından doğan qəzəbini cavab məktubunda kobud şəkildə ifadə etməyə çalışdı. Həmin cavab məktubunun elə əvvəlində özbək şahzadəsi Şah Abbasa “Mirzə Abbas” kimi müraciət edirdi. Sonra da Əbdülmömin xan onun dünya ca-

hangirliyi iddiası ilə bağlı Şah Abbasın tikanlı sözlərinə cavab olaraq hansı vilayətlərin özbək xanlığının tabeliyində olmasını sadalayırdı. Həmin vilayətlərə və ərazilərə Dəşti-Qıpçaq, Mürğab, Kaşğar, Bədəxşan, Mavərənnəhr, Əndican, Xorəzm və Xorasan daxil idi. Onun yazdığına görə, yer üzü özbək qoşunlarının cövlanqahı idi, ətraf vilayətlərin sultanları və melikləri özbək xanlarının qarşısında boyun əyməli olmuşdular və onlar hər zaman itaətə hazırdırlar. Bu məktubun məzmunundan belə bir qənaətə gəlmək mümkündür ki, Əbdülmömin xan da Şah Abbasla yazışmaları davam etdirməklə onun tərəfindən Xorasan vilayətinin özbək xanına güzəştə gedəcəyi ümidində idi. Eyni fikri Şah Abbas haqqında da söyləmək mümkündür. O da özbək şahzadəsi ilə yazışmaları davam etdirməklə Xorasan vilayətinin dinc yolla geri alacağı ümidində idi. Amma Əbdülmömin xanın bu cavab məktubu əslində, hər iki tərəfin ümidlərinin üstündən xətt çəkdi. Əbdülmömin xan Şah Abbas tərəfindən qaldırılan təkliflərə birbaşa cavab vermək əvəzinə bəyan edirdi ki, bir il ərzində aparılan yazışmalar, tərəflərin bir-birinə qiymətli hədiyyələr göndərməsi nəticəsiz qalmışdır. Onun fikrincə, fitnə-fəsad tərəfdarı olan bəzi qüvvələr Şah Abbasa bu və ya digər dərəcədə təsir göstərirdi və o da bu təsirin və təhrikin nəticəsində Xorasana doğru hərəkətə başlamışdı. Əbdülmömin xanın nəzərincə, Şah Abbas təhrikçi qüvvələrin təsiri ilə Xorasana qoşun çəkməli deyildi. Təhrikçi qüvvələrdən danışarkən Əbdülmömin xan ilk növbədə Urgənc valisi Nur Məhəmməd xanın adını çəkirdi. Onun yazdığına görə, Nur Məhəmməd xan öz yolunu azmışdı və öz niyyətlərinin həyata keçirilməsi üçün Şah Abbasa müraciət etmişdi. Bu təhrikçiliyin aradan qaldırılması üçün Əbdülmömin xan məktubunda Şah Abbas qarşısında bu işə qol qoyanların, Səfəvi sarayına pənah aparan özbək xanlarının tutularaq özbək şahzadəsinə təhvil verilməsini təklif edirdi. Ya da ki, Əbdülmömin xan təklif edirdi ki, həmin xanlar həbs edilməyəcəyi təqdirdə Səfəvi ərazisindən çıxarılsınlar. Yəni Buxara xanlığına itaət etməyən xanlar Səfəvi ərazisində özlərinə pənah tapmasınlar. Əbdülmömin xan bununla

da kifayətlənmirdi və Şah Abbasa qarşı başqa tələb də irəli sürürdü. Onun fikrincə, Semnan vilayəti əvvəllər Xorasana vilayətinin tərkibində idi. Xorasanı nəzarət altında saxlayan Əbdülmömin xan Semnanın da Xorasanın bir parçası kimi özbək xanına verilməsi tələbini irəli sürürdü. Əbdülmömin xan tələb edirdi ki, Şah Abbas mənsubları və məmurları Semnan vilayətinə gediş-gəliş etməsinlər, o vilayətə müdaxiləni dayandırsınlar. Sonra isə o yazırdı ki, Şah Abbas və onun adamları İraqın (İraqi-Əcəm, İraqi-Ərəb) ələ keçirilməsi ilə kifayətlənməlidirlər. Yəni Şah Abbas öz iddialarını məhdudlaşdırsın və bununla öz camaatının firavan yaşayışına zəmin yaratsın (70).

Əbdülmömin xan bu məktubunda Nur Məhəmməd xanın adını çəkməklə, təhrikçilər haqqında da söz açırdı. Urgənc hakimi olan Nur Məhəmməd xan Buxara hakimi Abdulla xanın bacısı oğlu olmaqla Əbdülmömin xanın da bibisi oğlu idi. Yuxarıda qeyd edildiyi kimi, o, Yetim Sultan kimi də tanınırdı. 1593-cü ildə onunla Buxara hakimləri arasında ciddi ixtilaflar yarandı. Nur Məhəmməd xan Əta və Nisa vilayətlərini ələ keçirmək istəyirdi. Bu vilayətlərin ələ keçirilməsi üçün onun Xarəzm padşahı Hacı Məhəmməd xanla qarşıdurması yaranmışdı. Nur Məhəmməd xan güman edirdi ki, bu vilayətlərin ələ keçirilməsi üçün Buxara hakimi Abdulla xan ona kömək göstərə bilər. Çünki Xarəzm hakiminin Səfəvi sarayı ilə xoş münasibətlərdə olması Buxara xanını heç də xoşuna gəlmirdi. Ona görə Abdulla xanın Hacı Məhəmməd xana qarşı qoşun çıxara biləcəyi məntiqli görünürdü. Adları çəkilən vilayətlərin ələ keçirilməsi üçün Nur Məhəmməd xan Buxara hakimindən kömək istədi. Bu köməyin əvəzində Mərv vilayətinin Buxara xanına hədiyyə ediləcəyi vəd olundu. Amma Abdulla xan ona kömək göstərmədi. Əksinə, istədi ki, Nur Məhəmməd xanla Hacı Məhəmməd xan arasında düşmənçilik daha da qızışsın və onlar öz güclərini itirsinlər. Digər tərəfdən də Abdulla xan adı çəkilən vilayətlərin hamısını, Xarəzmi, o cümlədən də Xorasanı özü ələ keçirmək niyyətində idi. Bu məqsədlə o, 1593-cü ildə Xarəzm üzərinə qoşun çəkdi. Əbdülmömin xan isə qoşun dəstəsi ilə Əbi-

vərd, Əta və Nisa üzərinə göndərildi. Mərv qalasına yaxınlaşanda Nur Məhəmməd xanın dəstəsində olan özbək döyüşçülərinin çoxu Əbdülmömin xan tərəfə keçməyi qərara aldılar. Belə olanda Nur Məhəmməd xan ağır bir duruma düşdü və Mərv qalasını tərk etməkdən başqa çıxış yolu qalmadı. O qərara aldı ki, Şah Abbasa pənah aparsın və bu məqsədlə Qəzvin istiqamətində hərəkətə başladı. Şah Abbas onun Səfəvi sarayına pənah gətirməsi xəbərini sevinclə qarşıladı və böyük övladı olan və Səfi Mirzə kimi tanınan Məhəmməd Bağır Mirzəni onun qarşılanmasına yola saldı. Fərhad xan və bir neçə digər nüfuzlu əmirlər də Məhəmməd Bağır Mirzə ilə birlikdə bu qarşılanma mərasimində iştirak etdilər. Həmin dəstə Qəzvindən bir fərsəx məsafədə Nur Məhəmməd xanı qarşıladı. Şah sarayında da Nur Məhəmməd xan xüsusi qonaqpərvərliklə qarşılandı. Şah Abbas ona hörmət və ehtiramını bəyan etdi, onunla qardaşcasına davrandı. Nur Məhəmməd xan şahın xüsusi məclisinin iştirakçısına və onun həmsöhbətinə çevrildi (71).

Qeyd edildiyi kimi, Xarəzm hakimi Hacı Məhəmməd xanın da Səfəvi sarayı ilə yaxşı münasibətləri var idi. Əbdülmömin xan həbs edilməli olan təhrikçi xanlar deyəndə həm də onu nəzərdə tuturdu. Özbək şahzadəsi Əbivərd, Mərv qalaları üzərinə başlanan hücumu sonra daha da genişləndirdi və bir müddətdən sonra Nişapur qalasını mühasirəyə aldı. Bu hücum 1593-cü ilin yazının sonlarına təsadüf edirdi. Yeni ilin məhsulları yetişmədiyi üçün qala daxilində ərzaq qıtlığı mövcud idi. Bu isə qala müdafiəçilərinin vəziyyətini mürəkkəbləşdirirdi. Bununla belə, qala hakimi təyin edilmiş Dərviş Məhəmməd xan onun tabeçiliyinə verilmiş İsfahan tüfəngçilərini səfərbər etməklə qala divarlarının və bürclərinin müdafiəsini təşkil etdi. Bununla belə, çoxsaylı özbək qoşunları qarşısında qala daxilindəki qüvvələrin müqavimət imkanı elə də böyük deyildi. Şah Abbas bu barədə xəbər tutanda Nişapur qalasının müdafiəsinə dərhal lazımi kömək göndərə bilmədi. Çünki bu zaman qızılbaş qoşunlarının böyük bir hissəsi Fərhad xanın rəhbərliyi altında Gilanda Xan Əhməd itaətsizliyinin aradan qaldırıl-

masına göndərilmişdi. Bunu Şah Abbas özbək şahzadəsinin yuxarıda haqqında danışılan məktubunda da qeyd etmişdi (72).

Amma Əbdülmömin xandan fərqli olaraq Şah Abbas ədəb daxilində, xoş müraciətlə başlanan bir məktub yazdı. Məktubun elə ilk cümlələrində Əbdülmömin xana qarşı nəzakətli və onu vəsf edən cümlələr yer almışdı. Şah Abbas onu adlı-sanlı şahzadə, dünya iqtidarlı, ay və günəş təbiətli, səltənət şəhriyarı, xoşbəxtlik ulduzu, bahadır xan adlandırırdı. Sonrakı cümlədə isə bildirirdi ki, bu xanın Nurəli bəy Salur vasitəsilə göndərdiyi məktubu vaxtının ən xoş anlarında aldı və məmnunluqla da onu mütaliə etdi (73).

Məktubun əsas hissəsinə keçid edəndə də Şah Abbas özbək şahzadəsinə "səltənət pənaha" deyə ehtiramla müraciət etmişdir. Sonra da o, Əbdülmömin xanın öz nəzarəti altında olan vilayətləri sadalamasına cavab olaraq bildirirdi ki, hökmü altında olan ərazilərlə bağlı heç bir təşvişi yoxdur. Sonra o da öz hakimiyyəti olan ərazilərin hüdudlarını sadalayırdı. Şah Abbas yazırdı ki, əvvəldən də Əbdülmömin xanla görüşmək arzusunda idi. Amma ki, buna fürsət əldə edilmirdi. Şah Abbas bunun səbəbini də açıqlayırdı. Yazırdı ki, ötən il Gilan vilayətinin hakimi Xan Əhməd xan itaətsizlik yolundan çıxmışdı və bu itaətsizliyin aradan qaldırılması üçün etimadüddövlə Fərhad xanın rəhbərliyi altında həmin bölgəyə qızılbaş qoşun dəstəsini göndərməli oldu. Fərhad xan da qısa müddət ərzində şah tərəfindən alınan tapşırığı yerinə yetirdi. Şah Abbas əlavə edirdi ki, bundan sonra qoşun dəstəsini Mazandaran, Bəstam və Astrabad istiqamətinə göndərməli oldu. Çünki mərkəzi hakimiyyətdən qopma halları orada da baş vermişdi. Şah Abbas yazırdı ki, həmin vilayətlərdə itaətsizlik yolunu tutanlar ələ keçirilərək boyunları vuruldu və onların var dövləti də həmin vilayətlərə yeni təyin edilmiş hakimlərə verildi. Bununla Şah Abbas bildirmək istəyirdi ki, Xorasan istiqamətinə hərbi yürüşünün ləngiməsi səltənət daxilindəki itaətsizliklərin aradan qaldırılması və mərkəzi hakimiyyətin möhkəmləndirilməsi istəyi ilə bağlı idi (74).

Dərviş Məhəmməd xan isə ixtiyarında olan imkanlardan istifadə etməklə özbək qoşunlarına qarşı müqavimətdən heç də əl

çəkmədi. Bunun nəticəsi idi ki, Əbdülmömin xanın Nişapur qalasını almaq üçün göstərdiyi bir neçə cəhdi uğuruzluğa düçar oldu. Bu cəhdlər zamanı xeyli sayda özbək döyüşçüsü də həyatını itirməli oldu. Lakin özbəklərin qala bürclərindən birinin altına lağım ataraq partlatmaları nəticəsində həmin bürc dağıldı. Bundan istifadə edən təxminən 300-400 nəfər özbək döyüşçüsü uçulmuş divarlardan aşaraq şəhərə daxil ola bildilər. Dərviş Məhəmməd xan bundan xəbər tutan kimi dərhal rumlu döyüşçüləri və İsfahan tüfəngçiləri ilə birlikdə uçulmuş bürc istiqamətinə yollandılar və orada müdafiə mövqeləri tutdular. Qala qarnizonu bütünlüklə bu istiqamətə səfərbər edilənə kimi Dərviş Məhəmməd xan və onun ətrafında olan döyüşçülər fədakarlıqla qalanı müdafiə etdilər, özbək döyüşçülərinin yaxınlaşmasına imkan vermədilər və qalanı qoruya bildilər. Bundan sonra özbək döyüşçülərindən kimsə daha qala daxilinə yol tapa bilmədi. Qalaya daxil olmuş özbək döyüşçülərinin çoxu isə əsir alındılar. Şəhər daxilində gecə yarısına qədər döyüş davam etdi və şəhərə daxil olmuş bütün özbəklər zərərsizləşdirildilər. Əsir götürülmüş özbəklər arasında 20-30 nəfər təcrübəli və nüfuzlu bahadırlar var idi. Onların bir neçəsi hətta sultan övladları idi. Eyni zamanda Dərviş Məhəmməd xanın rəhbərliyi altında qala müdafiəçiləri və qala əhli gecə ikən qalanın uçulmuş bürcünü bərpa etdilər. İsgəndər bəy Münşi qala müdafiəçilərinin müdafiə zamanı göstərdikləri fədakarlığı belə təsvir edirdi: "[Qızılbaşlar] o gecə sübhədək işlədilər və bürcü təmir edib möhkəmləndirdilər. Abdulla xan bu vaqiədən narahat oldu. Dost-düşmənlər isə Dərviş Məhəmməd xanın və isfahanlıların mərdanəliklərinə və qaladarlıqlarına "afərin" dedilər. Həqiqətən də, qədim vaxtlardan indiyənəcən baş vermiş az hadisələrdəndir ki, dörd ay müddətində qalanı mühasirəyə alan və onun bürcünü yıxıb yürüşə hazır olan bir padşah üç yüz nəfərlə həmin qalaya daxil ola, hücuma keçənlər oranı yenidən ələ keçirə, mühafizə etməyə və o böyüklükdə şəhəri yenidən düşmən şərindən qorumağa başlaya " (75).

Bu hadisələr baş verəndə Şah Abbasın başı Luristan hakimi Şahverdi xan tərəfindən başlanan itaətsizliyin aradan qaldırılma-

sına qarışmışdı. Xüsusilə, Şahverdi xanın Uğurlu Sultan Bayatın üstünə hücum çəkməsi və onu qətlə yetirməsi Şah Abbasın dərin qəzəbinə səbəb olmuşdu. Ona görə də qızılbaş qoşunları bölgəyə göndərildi və bölgədə baş qaldırılan itaətsizliyin aradan qaldırılması üçün ciddi tədbirlərin həyata keçirilməsinə başlandı. Bu isə Xorasan istiqamətində qoşun göndərilməsini yenidən təxirə saldı. Yaxın günlərdə belə bir köməyin mümkün olmayacağı üçün Şah Abbas Nişapur hakimi Dərviş Məhəmməd xana məktub göndərdi və yaranmış vəziyyətlə əlaqədar olaraq ona öz göstərişlərini verdi: "Bizim Xorasana gəlib-çıxmağımız məlum deyildir. Rumlu qazilərinin, isfahanlıların və qızılbaşların ailə üzvləri və namusları Nişapurda qalmışdır. Öz ağıl və düşüncən ilə hərəkət edib Əbdülmömin xanla barışaraq, sülh yarat, hansı yolla olur-olsun özünü İraqa çatdır, əhl-əyalları oradan çıxar, Nişapurla [hələlik] işin olmasın, o yer, Allahın köməyi ilə, yenidən asanlıqla əlimizə geri qayıdar" (76).

Mövcud tarixi şəraitdə Şah Abbasın başqa yolu yox idi və Nişapurda kütləvi qırğın və talanların qarşısının alınması üçün o, bu şəhərin müvəqqəti olaraq təslim edilməsini də mümkün sayırdı. Dərviş Məhəmməd xana yazılmış məktubun çatdırılmasını isə Şah Abbas onun qardaşı Şahqulu Xəifəyə tapşırdı və onu Nişapura yola saldı. Şahqulu Xəlifə üçün gizli deyildi ki, belə bir tapşırığın verilməsi heç də Şah Abbasın ürəyincə deyil. Ona görə də bu tapşırığın həyata keçirilməsinə və Şah Abbasın istəmədiyi bir işin icra olunmasına elə də rəğbətlə yanaşmadı. "Şahqulu Xəlifə isə bu fikri qəbul etməyərək, məktubun göndərilməsini istəmədi, dedi: "Biz sədaqət və sufilik yolu ilə gedərək, hətta canımızı da siz vəlinemətin və mürşidi-kamilin yolunda verərik. Nə qədər ki, bədənində can və canında damar var, mənim qardaşım çalışıb qalanı qoruyacaqdır. Əgər zəifləşərək qalanı hifz etməkdən aciz qalarsa, din və dövlət yolunda şəhadət şərbəti içəcək və cahanda yaxşı ad qoyub gedəcəkdir". Nəvvab şah öz gövhərlər yağdıran dili ilə dedi: "Əgər bu səylər məni razı salmaqdan ötrüdürsə və əgər mən elə bir iş etsəm, bilin ki, vəlinemətin razılığını almaq ən yüksək

səadət yoludur. Xorasan paytaxtı Herat darüssəltənəsi, müqəddəs Məşhəd isə həzrət səkkizinci İmam Rzanın (ə) aramgahıdır, amma [o yerlərin] mahallarının əksəriyyəti özbəklərin işğalı altındadır. Buna görə də, Nişapurdan ötrü bu qədər təlaşa düşmək və əhl-əyalı bada verməkdən nə çıxa bilər? Əgər Allah-təala istəsə, bütün Xorasan məmləkətləri asanlıqla, özü də heç kimin əqlinə gəlməyən bir şəkildə bizim əlimizə gələ bilər. Əksinə, faydasız səy fələklə dava-dalaş etmək deməkdir" (77).

Dərviş Məhəmməd xan da Şah Abbasın verdiyi tapşırığın hansı zərurətdən doğduğunu görürdü. Ona görə o da bu tapşırığı alanda onun icrasına heç də tələsmədi. Nə qədər ki, Nişapur qalası daxilində ərzaq ehtiyatları mövcud idi, Dərviş Məhəmməd xan müqavimət göstərməkdə davam etdi. Qala daxilindəki ərzaq ehtiyatları qurtarandan sonra Dərviş Məhəmməd xan nəhayət ki, Əbdülmömin xanla sülh danışıqlarına başladı. Bu işdə əsir götürülmüş özbək bahadırlarının birindən istifadə olundu. Bu təklif Əbdülmömin xan tərəfindən də məmnunluqla qarşılandı. Çünki Nişapur qalasının mühasirəsinin uzanması onu və onun qoşun dəstəsini də əldən salmışdı və belə bir durumda Dərviş Məhəmməd xanın sülh təklifini o, qənimət kimi qəbul etdi. Əbdülmömin xan qalanın təhvil verilməsi ilə bağlı irəli sürülən təklifə yazılı razılıq da verdi. Onun imzaladığı sənəddə deyilirdi ki, Dərviş Məhəmməd xan Nişapur qalasını təhvil verib geri çəkilərsə, özbək qoşunları tərəfindən qızılbaşların malına və canına heç bir xətər gələməyəcəkdir. Bu sənədə əsasən əsir götürülmüş qızılbaş döyüşçülərinin azad edilməsi də mümkün sayılırdı. Bununla belə tərəflər arasında danışıqlar bir-neçə gün davam etdi. Danışıqların belə uzanmasına səbəb Nişapur sakinlərinin və qızılbaş döyüşçülərinin özbəklərə inamının qalmaması idi. Çünki özbəklərin istər Nişapur, istərsə də digər məntəqələr üzərinə yürüşləri zamanı çoxlu sayda itki verməsi onların qəzəbini hər zaman artırırdı. Nişapur əhlində belə bir inam yox idi ki, özbəklər öz qəzəblərini nümayiş etdirməsinlər. Buna baxmayaraq, şəhər əhli sonda Əbdülmömin xanın verdiyi sözün doğruluğuna güvənib şəhəri tərk etməyə razı oldular. Ona

görə də tərəflər arasında Nişapurun təhvil verilməsi barəsində peyman şərtləri imzalandı. Bundan sonra Dərviş Məhəmməd xan da, şəhərdəki qoşun dəstəsi də və şəhər əhalisi də Nişapuru tərk edib səltənətin qərbinə tərəf üz tutdular (78).

Əbdülmömin xan doğrudan da qala müdafiəçilərinə divan tutmaq fikrinə düşmüşdü. Şəhərin mühasirəsi davam etdiyi günlərdə yaxınlarını itirmiş olan çoxlu sayda özbək döyüşçüsü də ələ düşən fürsətdən istifadə etməklə qızılbaş dəstəsindən intiqam almaq arzusunda idi. Əbdülmömin xan bu məsələ ilə bağlı qərar qəbul edilməsi üçün yaxın ətrafı və ağsaqqallarla məsləhətləşdi və onların təkliflərini öyrəndi. Xanın yaxın ətrafı qızılbaşlara qarşı silaha əl atılmasını məsləhət bilmədilər. Özbək ağsaqqalları bildirdilər ki, Dərviş Məhəmməd xanın ətrafında bir min nəfər silahlanmış döyüşçü var. Onların arasında mahir tüfəngçilər də az deyil. Hücum ediləcəyi təqdirdə özbəklər ən azı yenidən 2-3 min nəfər itki verməli olacaqdı. Çünki qızılbaşlar son nəfəsə qədər vuruşacaqdılar. Ona görə də məsləhət bilindi ki, əhd-peyman pozulmasın. Əbdülmömin xan bu məsləhəti qəbul etdi. Lakin öz adamlarından birini Dərviş Məhəmməd xanın görüşünə göndərdi və onu öz yanına dəvət etdi. O istəyirdi ki, son dəfə Dərviş Məhəmməd xanla salamatlaşsın. Rumlu camaatı və tüfəngçilər onun Əbdülmömin xanın yanına getməsinə razı olmadılar. Dərviş Məhəmməd xan isə onun dəvəti qəbul etməməsini qorxaqlıq əlaməti kimi qəbul edilməməsi üçün 3-4 nəfərin müşayiətində Əbdülmömin xanın yanına yollandı. Onlar arasında gözlənilən görüş baş tutdu. Əbdülmömin xan onun igidliyinə və cəsarətinə öz məftunluğunu gizlədə bilməyərək Dərviş Məhəmməd xana əhsən dedi. Xüsusilə, onun öz şahına olan sədaqəti, onun yolunda fədakarlıqla vuruşması Əbdülmömin xanın təəccübünü oyatdı. Görüş başa çatanda Əbdülmömin xan Dərviş Məhəmməd xanın atına gözü düşdü, ona başqa bir at verərək həmin atı və bu atın üstündəki daş-qaşla bəzədilmiş yəhəri özünə götürdü. Dərviş Məhəmməd xan sağ-salamat Nişapurdan ayrıla bildi və Şah Abbas öz qoşunu ilə Luristandan dönüb Qəzvinə gələndə, o da bu şəhərə yetişdi. Şah Abbas onu razılıqla

qarşıladı və göstərdiyi xidmətlərə görə Gilanın və Lahicanın əmirül-ümərası vəzifəsini ona həvalə etdi (79).

Əbdülmömin xan Nişapurda çox uzun müddət dayanmadı. Bu şəhərin ələ keçirilməsinə nail olduqdan sonra o, Səbzəvar şəhərinə yollandı. Bu şəhərin hakimi Məhəmməd Sultan ətrafında olan qüvvələri səfərbər etməklə şəhərin müdafiəsinə qalxdı. Qış fəsli yaxınlaşdığı üçün Əbdülmömin xan Səbzəvar ətrafında dayanmadı və Məşhədə yollandı. Səbzəvarın mühasirəsinə rəhbərlik isə təcrübəli özbək bahadırlarına tapşırıldı. Səbzəvar hakimi Məhəmməd Sultan özbək qoşunlarının gəlməsi ərəfəsində qala daxilinə müəyyən qədər ərzaq ehtiyatları toplamışdı. Bu da imkan verdi ki, müəyyən müddət üçün qalanın müdafiəsini təşkil etmək mümkün olsun. Amma Şah Abbas bilirdi ki, Səbzəvar əhalisini özbək qoşunları tərəfindən böyük qırğınlar və talanlar gözləyir. Ona görə Səbzəvar hakiminə və Səbzəvar əmirlərinə xəbər göndərdi ki, Əbdülmömin xanla dil tapsınlar və şəhərin dağıdılmasına bəhanə verməsinlər. Belə olanda qarşılıqlı razılaşma əsasında belə qərara gəlindi ki, Əbdülmömin xan tərəfindən Səbzəvar hakimi təyin edilmiş Nədr bahadır şəhər daxilinə buraxılsın. Belə bir qərarın icrasına başlandı. Nədr bahadır şəhərə buraxıldı və onunla razılaşdırıldı ki, o, şəhərin qızılbaş əmiri tərəfindən idarə edilməsinə müdaxilə etməyəcəkdir. Nədr bahadırın yanında təxminən 50 nəfərlik bir özbək dəstəsi var idi. Qalan özbək qoşunları isə qalanın mühasirəsini tərk edərək Məşhəd ətrafına yollandı. Qoşun dəstəsi Əbdülmömin xanın yanına yetişdikdən sonra Səbzəvarla bağlı əldə edilmiş qarşılıqlı razılaşma haqqında ona məlumat verildi. Əbdülmömin xan bu razılaşmanı qəbul etmədi. Amma geri də qayıtmadı (80).

İlk baxışdan Səbzəvar əhalisi və böyükləri də bu razılaşmanı qəbul edirdilər. Əslində isə Səbzəvar əhalisi ilə şəhərdə olan özbək hakimlər və onların yaxınları arasında bir qarşıdurma yarandı. Bir tərəfdən məzhəb fərqliliyi, digər tərəfdən isə özbəklərin göstərişlərinin qəbul edilməməsi vaxt ötdükcə onlar arasındakı qarşıdurmanı daha da kəskinləşdirdi. Özbəklər sözləri düz gəlməyəndə

isə qılınclarını çıxarıb insanlara öz güclərini nümayiş etdirməkdən də çəkinmirdilər. Məhəmməd Sultan bir neçə dəfə Nədr bahadırdan insanlara qarşı kobud hərəkətlərə son qoyulmasını istədi. Nədr bahadır isə əksinə, Səbzəvar əhalisinin özbəklərə qarşı sərt hərəkətlər etdiklərini iddia etdi. Tərəflər arasındakı barışmazlıq o dərəcəyə çatdı ki, özbəklər şəhəri tərk etmək məcburiyyətində qaldılar. Onlar Səbzəvardan dörd fərsəx kənarda yerləşən bir kənddə məskən saldılar, oranı möhkəmləndirib bir qalaya çevirdilər. Bununla da tərəflər arasındakı ixtilaf aradan qalxmadı və nəticədə səbzəvarlılar hücum edərək özbəklərin hamısını əsir götürdülər. Bu xəbər Şah Abbasa da gəlib çatdı. O isə səbzəvarlıların bu hərəkətini xoşlamadı və Səbzəvar hakimlərini razılaşmanı pozmaqda ittihamlandırdı. Şah Abbasın tapşırığı əsasında əsir götürülmüş özbəklərin hamısı Məşhədə aparıldı və oradakı özbək hakiminə təhvil verildi. Əbdülmömin xan bu məsələdən xeyli qəzəbləndi və bununla bağlı səbzəvarlıları cəzalandırmaq qərarına gəldi. Amma bu qərarın icrasını təxirə saldı (81).

Səbzəvar hadisələrinin davam etdiyi vaxtlarda Xarəzm padşahı Hacı Məhəmməd xan da Buxara hakimi Abdulla xaın hücumunun qarşısını ala bilməyərək Qəzvinə qaçmış və Şah Abbasa sığınmışdı. Bu hadisə də özbək-Səfəvi münasibətlərinin gərginləşməsinə əlavə bir təkan verdi. Onlara sığınacaq verilməsi Qəzvin sarayı ilə Buxara hakimi Abdulla xan arasındakı münasibətlərinin pisləşməsi demək idi. Şah Abbas isə Abdulla xanın bölgədə zəiflədilməsi üçün Nur Məhəmməd xanla Hacı Məhəmməd xanın əvvəlki vəzifələrinə bərpa edilməsini istəyirdi. O bu niyyətini gizlətmirdi və fürsət düşən kimi bu niyyətini həyata keçiriləcəyini bəyan edirdi (82).

### 5. Şah Abbasın Əsfəreyn-Səbzəvar istiqamətində hərbi yürüşü

1594-cü ildə daxili itaətsizliklərin aradan qaldırılması, Luristana, Ərəbistana, Mazandarana qoşun çıxarılması, Kəcur və Rüs-

təmdardakı qiyamların yatırılması və digər hadisələr Xorasan məsələsini yenə də bir qədər kölgədə saxladı. Şah Abbas bu bölgəyə qoşun çıxarmaq üçün əsaslı hazırlıqlar apara bilmədi və onun nəticəsi kimi həmin vilayət özbəklərin işğalı altında qalmaqda davam edirdi. Belə bir fürsət bir də 1595-ci ilin Novruz şənliklərindən sonra yarandı. Şah Abbas bu şənlikləri yüksək səviyyədə təşkil etdirdi və ali qonaqlarla birlikdə özü də bu bayram günlərində istirahət etdi. İsgəndər bəy Münşi bu Novruz bayramının necə keçirildiyini öz əsərində belə təsvir edirdi: “Bu cahanı bəzəyən ilin novruzu bu ilin rəcəb ayının onuna (10 mart) təsadüf etdi. Dördüncü fələyin ulduzları və günəşi həməlin şadlıq taxtını (ovrəng) öz işıqlarına qərq etdi, bahar nəsimi çəmənin cürbəcür güllərini (rəyahin) oxşamağa başladı. Əlahəzrət zillələllah şah Qəzvin darüssəltənəsində və cənnət ayinli dövlətxananın Çehelsütun qəsrində xosrovanə məclis və padşahanə bayram bəzədi. Xarəzm padşahı Hacı Məhəmməd xan, Şahican Mərvinin valisi Nur Məhəmməd xan, Ərəbistan valisi Seyid Mübarəkin oğlu, Gürcüstan sultanzadələri, rus elçiləri və başqa yerlərin sultanları və sultanzadələri [o zaman] ali sarayda idilər. Onlar behişt ayinli məclisə dəvət olundular, ilin və novruzun gəlişini təbrik etməkdən ötrü bir neçə gün eyş və şadyanalıqla məşğul oldular. Şəhərin bazarlarını bəzədilər, Səadətabad meydanında çovkan və qəbəq atmaq oyunlarını nümayiş etdirdilər. Bütün əhali on-on iki gündə seyr, söhbət və istirahət etdilər. Nişat və şadyanalıq [günləri] bitdi” (83).

Novruz şənlikləri başa çatandan sonra özbək qoşunlarının Xorasan vilayətindən keçməklə yenidən səltənətin qərbinə doğru irəliləməsi haqqında xəbərlər alındı. Əvvəlki illərin bir sıra uğursuz hadisələrindən daha da qəzəblənmiş olan özbək əmirləri və bahadırları öz qoşunları ilə birlikdə keçdikləri bütün əraziləri böyük talanlara məruz qoydular, insanları soyub-taladılar. Bu qoşunlar yenidən Əsfəreynə qədər gəlib çıxdılar. Bu zaman qızılbaş qoşunları daxili savaşlardan çıxmışdı və kifayət qədər yorğun idi. Bu qoşunların sıralarının bərpasına və təchizatının təkmilləşdirilməsinə ehtiyac var idi. Xorasana doğru ağır səfər isə qoşunları daha

da əldən sala bilərdi. Lakin müqavimət göstərilməməsi də özbək qoşunlarının dağıntılarının miqyasını xeyli genişləndirə bilərdi. Ona görə Şah Abbas qərara aldı ki, Fərhad xanın rəhbərliyi altında olan bir qoşun dəstəsini özbək qoşunlarının qarşısına çıxarsın. Özbək qoşunlarının hücumlarının qarşısının alınması işində Şah Abbas təcrübəli sərkərdə olan Fərhad xana böyük ümidlər bağlayırdı. İsgəndər bəy Münşi yazırdı ki, özbəklər " Xorasandan İraq yaxınlığına qədərki yerləri darmadağın etdilər. Qarşıya çıxan cürbəcür böyük işlər isə özbəklərin şərini dəf etməyə imkan vermirdi. Bu il cahanı bəzəyən rəy belə oldu ki, hal-hazırda bu dövlətin ali qədirli əmirlərindən olan və şahanə tərbiyət əsasında yüksək məqama sahiblənən, etibar və iqtidarının avazı yaxın-uzaq hər yerdə yayılan Fərhad xanı Xorasan şəhərinə göndərsin ki, o, mülkü dağıdanların önündə möhkəm sədd kimi dayansın, özbək dəstələrinin şərini dəf etməklə məşğul olsun, əgər özbəklərin əlləri yenə də başqa məmləkətlərə uzanarsa, onların fitnə atəşini kəskin qılıncı ilə söndürsün. Fərhad xan uğurlu bir saatda bu xidmətə layiq görüldü. Onun sabiq ülkasına Xar, Semnan, Damğan, Bəstam, Firuzguh, Biyarcmənd və Hezarcərib də əlavə olundu. Keçən il talan məqsədiylə gələn özbəklərin dəf olunması zamanı igidlik və mərdanəlik göstərməyən Damğan və Bəstam hakimi Fərrux xan Pornakı vəzifədən kənar edərək, onun qoşun və ləşkərini Fərhad xana təslim etdilər. [Həmçinin] Xorasanın bütün işlərinin din və dövlətin məsləhəti ilə tənzimlənməsindən ötrü iqtidar qundağını (qəbze) onun əlinə verdilər" (84).

Fərhad xan 1595-ci ilin aprel ayında Xorasan istiqamətində hərəkətə başladı. Bu zaman özbək qoşunları da artıq səltənətin qərbinə doğru irəliləməkdə idi. Fərhad xanın Xorasan istiqamətində hərəkətə başlamasından bir müddət sonra Əbdülmömin xan tərəfindən Əsfəreyn qalasının mühasirəyə alındığı xəbəri gəldi. Həmin xəbər Fərhad xana Firuzkuh yaylağında olarkən yetişdi. Böyük iddialarla Səfəvi hüdudlarına hücum etmiş Əbdülmömin xanın bu şəhər-qalanı ələ keçirməsi özbək qoşunlarının Qəzvinə doğru yolunun açılması demək idi. Bu isə səltənətin vəziyyətini

daha da mürəkkəbləşdirə bilərdi. Ona görə də Şah Abbas yalnız Fərhad xanın bölgəyə göndərilməsi ilə kifayətlənmədi və özü də özbək qoşunlarına qarşı çıxmaq qərarına gəldi (85).

Şah Abbas dərhal qoşun toplanması haqqında fərman verdi. Bu fərmanı verdikdən sonra Şah Abbas bir aya qədər Qəzvində qoşun toplanmasına gözlədi. Vilayətlərdə qoşun toplanması işinin tamamlanmasını gözləmədən Şah Abbas Xorasana doğru irəliləməyi məqsədəuyğun saydı. İsgəndər bəy Münşi bu zaman yalnız Zülfüqar xanın rəhbərliyi altında olan qoşun dəstəsinin Şah Abbas dəstəsinə qoşulduğunu yazırdı. Qoşunların hamısının toplanması başa çatmadan hərəkətə başlanmasının səbəbi isə Əsfəreyn qalası ətrafında vəziyyətin mürəkkəbləşməsi idi. Xəbər alınmışdı ki, əgər bir neçə gün ərzində kömək çatdırılmasa Əsfəreyn qalası özbəklərinə əlinə keçə bilər. Ona görə də Şah Abbas Qəzvində olan qoşun dəstəsi ilə hərəkətə başladı və Firuzkuh yaylağına gəldi. Burada Fərhad xan öz qoşun dəstəsi ilə ona qoşuldu. Sonra şah qoşunları Damğanın "Əli bulağı" yolu ilə Bəstam çəməninə gəldi. Həmin məkanda Şah Abbas Xorasan üzərinə hərəkət edən qoşunlarına sıra baxışı keçirdi. 20 min nəfərlik qoşun dəstəsi Şah Abbasın qarşısında düzüldü və bu qoşun dəstəsinin hazırlıq səviyyəsi şahı razı saldı. Şah Abbas əmin idi ki, bu qoşun dəstəsi ilə özbək qoşunlarına üstün gələ biləcəkdir (86).

Şah Abbas nəhayət ki, özbək qoşunları ilə qarşılaşmaq məsələsində qərarlı idi. O, istəyirdi ki, Əbdülmömin xan geri qaçmamış onun qoşunlarını haqlasın və bu qoşunlara ciddi bir zərbə vurmaqla onları Xorasan vilayətindən təmizləsin. Bununla bağlı Şah Abbas Bəstam çəmənində olarkən özbək şahzadəsinə məktub yazdı. Bu məktub kifayət qədər sərt məzmuna malik idi. Şah Abbas hər vasitə ilə Əbdülmömin xanı savaşa cəlb etmək və bu savaşda ikitərəfli münasibətlərə bir aydınlıq gətirilmək istəyirdi. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbasın özbək şahzadəsinə göndərdiyi məktubun məzmunu belə idi: "O ali nəsilli xanzadə artıq bir neçə dəfədir ki, Xorasanı və o hüduddakı məmləkətləri tutmaq diləyi ilə gəlmişdir. O, rəiyyəti və əlsiz-ayaqsız adamları

öz atlarının ayaqları altında əzmiş, qətl-qarətə başlamışdır. Hümayun ordu Xorasana gələn kimi, o, qarşıya çıxmır, fərardan ar etmir və hərb etmədən çıxıb gedir. Bu il hümayun şaha xəbər gəldi ki, o cənab özbək döyüşçüləri ilə Əsfəreynə gəlib oranın qalasını tutmağa yollanmışdır. Biz, onunla görüş arzusu ilə müzəffər əsgərlərin toplanışını gözləmədən, saraydakı azacıq adamla döyüş əzmi ilə gəlib Bəstama çatmışıq və kamkar xanla döyüş intizarındayıq. Mərdanəliyin qanun-qaydası belədir ki, ali nəsilli o xan bu dəfə fərarı özünə ar bilib qaçmasın, səbat ayağını yerə dirəsin, döyüş meydanına igidliklə qədəm bassın ki, İlahinin istəyi ilə nə olacaqsa-olsun, Allah bəndələri hər iki tərəfin gediş-gəlişlərindən dəyən ziyandan qurtulsun” (87).

Şah Abbasın bu məktubu çegəni tayfasından olan Qütbəddin ağa adlı birisi ilə özbək düşərgəsinə göndərildi. Bu elçinin hərəkətə başlamasından sonra isə Şah Abbas qoşun dəstəsi ilə yoluna davam etdi. Əsfəreyn qalasına çatmağa yeddi mənzil qalmış Şah Abbas bu qalanın hakiminə xəbər çatdırdı ki, qoşunlar gəlmək üzrədir və bu qoşunlar yetişənə kimi qalanı qorumağa çalışsın. Əbdülmömin xan isə Şah Abbasın məktubunu alanda onun şah tərəfindən yazılmasına inanmadı. Belə bir güman var idi ki, həmin məktub Fərhad xan tərəfindən tərtib edilib və məqsəd də şah qoşunlarının gəlişi xəbəri ilə Əbdülmömin xanı qorxutmaq idi. Ona görə də özbəklər Qütbəddin ağanı yalan danışmaqda ittihamlandırdılar və onu qətlə yetirdilər. Bununla belə, bu xəbər Əbdülmömin xanın ciddi təşvişi ilə qarşılaşdı və ona bəlli idi ki, Şah Abbas qoşun dəstəsi ilə bölgəyə gələcəyi halda ağır bir duruma düşəcəkdilər. Əbdülmömin xanın ətrafında olan bahadırlar və əmirlər də bu təşvişə ortaq olmuşdular. Özbək şahzadəsi onları ətrafına toplayaraq məsləhətləşmə apardı. Əbdülmömin xan qərar qəbul etməli idi ki, Şah Abbasın qoşun dəstəsi ilə gələcəyi təqdirdə savaşı qəbul etsin, yoxsa savaşa girmədən bölgəni tərk edib oradan uzaqlaşsın. Özbək xanlığının mötəbər əyanlarından biri olan Şahməhəmməd İləçiyan şah qoşunları ilə savaşa girməyi məsləhət bilmədi və özbək qoşunlarının şah qoşunları ilə qarşılaş-

madan geri çəkilməsini məsləhət bildi. Geri çəkilmənin şah qoşunları qarşısında qorxaqlıq kimi yozulacağını istəməyən Əbdülmömun xan göstəriş verdi ki, şah qoşunlarının hərəkəti güman edilən istiqamətə adamlar göndərilsin və bu qoşunların gəlib-gəlməməsi haqqında məlumat toplansın. Ona görə də özbək əmirlərindən bir neçəsi, o cümlədən Məhəmmədqulu Durmən, Bədəxşan hakimi Canməhəmməd Qarovul, Nisa və Əbivərd hakimi "Sevinc Türkman" adı ilə məşhur olan Sevinc Məhəmməd üç yüz nəfər təcrübəli və döyüşkən bahadırla Bəstama tərəf göndərildi ki, qızılbaş qoşunlarının hərəkətindən bir xəbər gətirsinlər. Əsfəreyn qalasının mühasirəsi isə davam etdirildi. Əbdülmömin xan bütün gücünü səfərbər edərək qısa müddət ərzində bu qalanın ələ keçirilməsinə cəhd göstərdi. Bu zaman Əsfəreyn hakimi Məhəmməd Sultan qızılbaş qoşun dəstəsinin yolda olması xəbərini aldı. Ona da məlum idi ki, yeddi gündən sonra şah qoşunları Əsfəreynə yetişəcəkdir. Qalanın müdafiəsi işi günü-gündən çətinləşdiyi üçün Məhəmməd Sultan özbək xanları və bahadırları ilə danışığa getdi. O öz adamlarından birini Əbdülmömin xanın yanına göndərdi və qalanın təhvil verilməsi üçün bir həftə vaxt istədi. Bildirildi ki, bir həftə ərzində qala daxilindəkilər öz işlərini sahmana salsınlar və sonra da qalanı tərk edərək onu özbəklərə təhvil versinlər. Özbəklər bu təklifi qəbul etdilər və qala daxilindəkilərə bir həftə vaxt verildi (88).

Şah Abbas isə Bəstamda qızılbaş qoşunlarına sıra baxışı keçirəndən üç gün sonra Əsfəreynə doğru hərəkətə başladı. Belə qərara gəlindi ki, Fərhad xan və Azərbaycan hakimi Zülfüqar xan şah qoşunlarının bir dəstəsi ilə öndə hərəkət etsinlər. Bəstəmdan hərəkətə başlanandan üç gün sonra şah karvanı Cacərmə yetişdi. Özbək şahzadəsi tərəfindən kəşfiyyata göndərilmiş özbək əmiləri də şah qoşunları ilə burada rastlaşdılar. Aydın oldu ki, şah qoşunlarının bölgəyə gəlməsi xəbəri heç də yalan deyil. Məsələdən hali olandan sonra özbək kəşfiyyat dəstəsi geri qayıtmaq yolunu tutsa da, buna bütünlüklə müvəffəq ola bilmədilər. Çünki onların kəşfiyyat aparması qızılbaş döyüşçüləri tərəfindən artıq müşahidə

olunmuşdu. Özbək dəstəsi əvvəlcə qızılbaş döyüşçülərinin sayca az olduğunu güman edərək onlarla döyüşə atıldılar. Lakin sonradan qızılbaş çərxçiləri də bu döyüşə qatıldılar. Az sonra qızılbaşların sayı daha da artdı. Belə olanda özbəklər döyüşdən çıxıb o yerləri tərk etməyə çalışdılar. Lakin onlar qızılbaş döyüşçülərinin əzmkarlığı ilə qarşılaşmalı oldular. Özbək döyüşçüləri ələ keçirmiş olduqları bir neçə qızılbaş döyüşçüsünü əsirlikdən azad edərək bütün diqqətlərini döyüşə istiqmətləndirdilər. Vəziyyətin mürəkkəbləşməkdə olduğunu görəndə özbəklər dağlar istiqamətində geri çəkilmək yolunu tutdular. Kəşfiyyata göndərilmiş olan özbək dəstəsinin üzvlərinin çoxu qətlə yetirildi. Onlardan bir neçəsi isə əsir edildi və Şah Abbasın yanına gətirildi. Həmin əsirlərin dindirilməsi ilə Şah Abbas özbək qoşunlarının niyyətləri barəsində ətraflı məlumat əldə edə bildi. Bəzi özbək əsirləri isə azad edildi ki, onlar Əbdülmömin xanın yanına qayıtsınlar və şah qoşunları ilə bağlı müşahidə etdiklərini onlara çatdırsınlar. Bundan sonra Şah Abbas öz qoşunları ilə Əsfəreynə doğru hərəkəti davam etdirdi. Şah Abbas çalışırdı ki, tezliklə qoşunlar Əsfəreynə yetişsin və qala ələ keçirilməmiş şəhər sakinlərinə kömək çatdırılsın (89).

Cacərmdə şah qoşunlarının gəlməkdə olduğunu müşahidə zamanı baş verən döyüşdən canlarını qurtara bilən bir neçə özbək döyüşçüsü Əsfəreyn ətrafına gələrək gördüklərini Əbdülmömin xana çatdırdılar. Əbdülmömin xan kəşfiyyat üçün göndərilmiş dəstənin də məhv edilməsindən xəbər tutdu. Özbək şahzadəsi kimi, özbək qoşunlarının bütün əmirləri və bahadırları da bir-birinə dəydilər, onların arasında nizamsızlıq baş qaldırdı, geri qaçmaq haqqında fikirləşməyə başladılar. Bu xəbər alınanda qala sakinlərinə verilən yeddi günlük möhlətin altıncı günü idi. Bəzi özbək başbilənləri Əsfəreyn ətrafından uzaqlaşmazdan əvvəl bu şəhərin talan edilməsi fikrinə düşdülər. Onun üçün də Əbdülmömin xanın adamları qala darvazaları ətəyinə gəldilər və öz nümayəndələrini qala hakimi Məhəmməd Sultan Bayatın yanına göndərdilər. Məhəmməd Sultana çatdırıldı ki, əgər qala bir gün əvvəl təhvil verilsə, Əsfəreyn sakinləri özbək xanının daha böyük inayətinə layiq

görülərlər. Məhəmməd Sultan isə artıq şah qoşunlarının yaxında olmasından xəbərdar idi. Ona görə özbək xanının elçisinə bildirildi ki, əgər özbək qoşunları sabaha qədər burada qalası olsalar, onda öz vədlərinə xilaf çıxmayacaqlar. Əbdülmömin xanın adamlarına bəlli oldu ki, Məhəmməd Sultan tərəfindən yeddi günlük möhlət istənilməsi əvvəlcədən planlaşdırılmış bir məsələdir. Əsfəreyn qalasının fəthinin artıq mümkün olmayacağı üçün özbəklər Əbdülmömin xana da mühasirəni dayandırmağı və geri çəkilməyi məsləhət bildilər. Əbdülmömin xanın da bu məsləhəti qəbul etməkdən başqa bir çarəsi yox idi. Elə həmin gün də özbək qoşunları Radkan yolu ilə Məşhəd şəhərinə geri çəkildilər (90).

Özbək qoşunlarının geri çəkildiyi günün sabahısı Şah Abbas da öz qoşunu ilə Əsfəreyn ətrafına yetişdi. Şəhər əhli şah qoşununun gəlişini böyük sevinclə qarşıladı. Şah Abbasın yaxın ətrafında olan əmir və əyanların bəziləri özbək qoşunlarının təqib edilməsini istəyirdilər. Onların fikrincə, özbək qoşunları güclü olsaydılar, Əsfəreyn ətrafından geri çəkilməzdilər. Beləəri şübhə etmirdilər ki, özbək qoşunlarına güclü zərbə vurmaq mümkün idi. Xüsusilə, qarşıdakı döyüşdən sonra Məşhəd şəhərinin özbək işağlından nəhayət ki, azad ediləcəyinə bir inam var idi. Fərhad xan isə bu təkliflə razılaşmadı və özbək qoşunlarının təqib edilməsinin Məşhəd şəhərinə böyük dağıntılar gətirə biləcəyini bildirdi: “O, dedi: “Biri budur ki, bu yürüşdən mətləb Əsfəreyndə mühasirədə qalanların xilas olunmaları idi ki, bu iş yerinə yetirildi, özbəklər böyük məğlubiyyətə uğradılar, onların əzəmətli əmirləri əsir düşdülər, padşahları isə bədnamlıqla qaçdı. Gərək bir neçə gün burada gözləyərək bu vilayətin işlərini yoluna qoyaq və sonra geri qayıdaq. İkincisi isə budur ki, qarşıdan çıxıb getməyin din və dövlətə nöqsan gətirən başqa görüntüsü ola bilər. Fərz edək ki, Əbdülmömin xan Məşhədi boşaldıb oradan fərar etdi. [O, belə olan halda] bizə abadan bir şəhər verməyəcəkdir. Çünki, Məşhəddə çoxlu qətl və qarətkarlıq törədəcək, bizim olmamağımıza görə müqəddəs Məşhəd şiələri cürbəcür əzab-

əziyyətə düçar olacaqlar. Amma, getməyimizdən dinə və dövlətə heç bir nöqsan yetişməyəcəkdir" (91).

Şah Abbas özbək qoşunlarının təqib edilməməsi ilə bağlı Fərhad xanın təklifini qəbul etdi. O, qoşunlarla birlikdə bir neçə gün Əsfəreyndə qalmaq qərarına gəldi. Bu şəhərdə olduğu günlərdə Şah Abbas şəhərin idarəçiliyinin təşkili məsələləri ilə də məşğul oldu. Şah Abbas tərəfindən Məhəmməd Sultan Bayat Əsfəreynin hakimi vəzifəsindən azad edildi. Məhəmməd Sultanın qala müdafiəsinə böyük təcrübəsi yox idi və bu da onun tutduğu vəzifədən azad edilməsinə səbəb oldu. Onun yerinə Budaq xan Çegəni Əsfəreyn hakimi təyin edildi. Budaq xan da dərhal Əsfəreyn qalasının müdafiəsinin gücləndirilməsinə başladı. Onun təşkilatçılığı altında qala divarlarının möhkəmləndirilməsi, divarlar ətrafında xəndəklər qazılması işləri aparıldı (92).

Həmin vaxt ərzində Şah Abbasla Əbdülmömin xan arasında yazışmalar da davam etdi. Onlar arasında mübadilə olunmuş son məktublar məhz həmin dövrə aid edilir. Şah Abbas tərəfindən yazılan və elmi-tarixi dövriyyədə olan son məktubların birinin məzmunundan aydın olur ki, həmin məktub Əbdülmömin xanın Əsfəreyn ətrafından geri çəkilməsindən sonra yazılmışdı. Səfəvi şahı yazırdı ki, mövcud çətinliklərə baxmayaraq Əbdülmömin xanla qarşılaşmaq şərəfinə nail olmaq üçün qoşun dəstəsi ilə Əsfəreynə doğru hərəkətə başlayıb. Onun sözlərinə görə, Əbdülmömin xan isə bu qarşılaşmadan qaçdı və qızılbaş qoşunlarının gəlməsi xəbərini alınca Əsfəreyni tərk edərək Nişapura yollandı. Şah Abbas əlavə edirdi ki, Əbdülmömin xanla qarşılaşmaq arzusunu həyata keçirmək üçün onun ardınca Nişapura tərəf irəliləməyə başladı. Özbək şahzadəsi isə bu dəfə də qaçmağa üstünlük verdi və Məşhəd şəhərinə çəkildi (93).

Şah Abbas bu qarşılaşmanın baş tutmasına inadkarlıq göstərirdi. Əbdülmömin xan isə hətta Məşhəddə də uzun müddət dayanmadı və yenidən geri çəkilmək haqqında əmr verdi. Onun rəhbərliyi altında olan özbək qoşunları Cam yolundan keçməklə Bəlxə doğru istiqamət götürdü. Şah Abbasa görə, Fərhad xan və onun

dəstəsində olan qızılbaş əmirləri özbək qoşunları ilə qarşılaşa bilmədikləri üçün pərişan hala düşdülər və onlar da geri qayıtmalı oldular. Bütün bunları yazmaqla özünü əsassız olaraq təriflәyən, böyük ərazilərə malik olması ilə öyünən Əbdülmömin xanın məqsədi nəyə qadir olduğunu onun nəzərinə çatdırmaq idi. Şah Abbas eyni zamanda onu da özbək şahzadəsinin nəzərinə çatdırmaq istəyirdi ki, qızılbaş dəstələri ilə qarşılaşmaq cəsarəti olmayan Əbdülmömin xanın Xorasan vilayətini işğal altında saxlamaq gücü yoxdur. Amma Şah Abbas ümid edirdi ki, özbək xanı ilə dostluq münasibəti yaratmaq və Xorasanı dinc yolla geri qaytarmaq olar. Onun sözlərinə görə, həmin vaxtlarda Əbdülmömin xanın göndərdiyi sonuncu məktubda dostluq münasibətləri haqqında yazdıqlarını ciddi qəbul edərək Xorasandan geri çəkilmişdi. Şah Abbas özbək qoşunlarının da geri çəkiləcəyini ehtimal edirdi. Lakin Əbdülmömin xan özbək qoşunlarını öz rəhbərliyi altına almaqla yenidən Nişapura hücum çəkdi. Şah Abbas "Məmləkət pənah" deyə müraciət etdiyi Əbdülmömin xana məsləhət bilirdi ki, məmləkətlər fəthi fikrinə düşübsə, onda səbir və təmkini gərək əldən verməsin və bununla öz mətləbinə yetişsin. Sonra da Şah Abbas özünün qarşıya qoyduğu məqsədə çatmaq əzmində olduğunu yazırdı. Yəni bildirirdi ki, Əbdülmömin xanın rəhbərliyi altında olan qoşun dəstəsi ilə qarşılaşmaq üçün yürüşə çıxmışdır. Ona görə də Şah Abbas bir daha özbək şahzadəsinə tövsiyə edirdi ki, ötən illərdəki kimi hərəkət etməsin. Onun fikrincə bu iki qoşun arasında qarşılaşmanın baş verməsi zəruri idi. Şah Abbas bildirirdi ki, bu il Bəlxdə də olsa, ya harada olsa qızılbaş qoşunları ilə özbək qoşunları qarşılaşmalı olacaqlar (94).

Məktubunda Şah Abbas özbək şahzadəsinə "Ey məşhur günəş" kimi də müraciət etmişdi. Bu müraciətdən sonra Şah Abbas özbək şahzadəsinin məktubunda öz əksini tapmış "Allah ayağını həddindən artıq yuxarı tutmayan və öz qədrini və məqamını bilən kişiyə rəhmət eləsin" fikrinə də münasibətini bildirmişdi. Şah Abbas yazırdı ki, hər hansı bir cahil, qafil, aqibətsiz bir işan əhlibeytdən üz çevirsə, Səfəvi xanədanına itaətdən əl götürsə onun

dünyası və axirəti yoxdur. Burada Səfəvi şahı öz xanədanını da əhli-beyt müqəddəslərinin davamçısı kimi təqdim edirdi. Sonra da əlavə edirdi ki, Əliyə düşmən olan yox olacaqdır (95).

Şah Abbas onun qarşısına çıxmaq iqtidarında olmayan Əbdülmömin xandan yalnız Xorasan vilayətindən çəkilməsini tələb etmirdi. O eyni zamanda Buxara hakimlərinin təzyiqi ilə qarşılaşmış və Səfəvi sarayına sığınmış ətraf özbək hakimlərinin də ərazilərinin geri qaytarılmasını tələb edirdi. Məktubda adı çəkilməsə də, bəlli olur ki, burada söhbət Xarəzm xanından söhbət gedir. Şah Abbas yazırdı ki, didərgin düşmüş özbək xanları hələ Şah Təhmasibin hakimiyyəti dövründən Səfəvi sarayı ilə yaxşı münasibətlərə malik idilər. O bildirirdi ki, həmin xanların öz torpaqlarının hakimi vəzifəsinə bərpa etmək qətiyyətindədir. Şah Abbas özbək şahzadəsinə məsləhət görürdü ki, hər hansı bir macəraya yol vermədən didərgin salınmış özbək xanlarının əraziləri onlara geri qaytarılsın. Bu işin ləngiyəcəyi təqdirdə Şah Abbas vəd edirdi ki, onun 20 min nəfərlik seçmə qoşun dəstəsi Xarəzmin geri qaytarılması üçün göndəriləcəkdir. Səfəvi şahı bu qoşun dəstəsinin ən təcrübəli və ən cəsarətli döyüşçülərdən təşkil olunduğunu və özbək qoşunlarının da onların qarşısında dayana bilməyəcəyini yazırdı. Məhəmmədqulu Sultanın rəhbərliyi altında təşkil olunacaq bu qoşun dəstəsi Hacim xanın (Hacı Məhəmməd xan) köməyinə yollanmalı idi. Şah Abbas şübhə etmirdi ki, bu qoşun dəstəsi qarşılaşacağı özbək dəstəsini məhv edəcək, özbək əmir və sərdarlarını, onların ailələrini əsir alaraq Qəzvin sarayına gətirəcəkdi. Başqa bir qızılbaş dəstəsini isə Şah Abbas Buxara xanlığı istiqamətinə, Abdulla xanla onun oğlu Əbdülmömin xanın üzərinə göndəriləcəyini yazırdı. Onun sözlərinə görə, Nur Məhəmməd xanın rəhbərliyi altında olacaq həmin dəstəyə İraqın, Farsın, Kirmanın, Xuzistanın, Gilanın, Mazandaranın, Azərbaycanın, Dağıstanın, Kürdüstanın, Luristanın və Xorasanın qoşunları daxil olacaqdı. Şah Abbas əmin idi ki, bu qoşun dəstəsi Buxara xanlığında sonsuz qətl və qarətlər, talanlar törədəcək və böyük dünyanı bu xanların başına dar edəcəkdi. Şübhə edilmirdi ki, bu hücumdan sonra

Əbdülmömin xan da zəncirlənəcək və əl-qolu bağlı şəkildə Şah Abbasın hüzuruna gətiriləcəkdi (96).

Bununla, Şah Abbas bir daha Əbdülmömin xanı xəbərdar edirdi ki, Xorasanı tərk etməyəcəyi halda onu hansı aqibət gözləyir və məktubu belə tamamlayırdı ki, deyilən deyildi. İndi o özü bilsin nə edəcəyini: “Əgər sənin istəyin savaşmaqdırsa, əsgərimin qılıncından qorx, onlar hücuma keçib dünyanı sənə dar edəcəklər. Əgər qaçaraq Hindistana sığınsan, Hindistan hakiminə məktub yazacağam və sənin zəncirlə bağlanıb əsir edilməni və hüzuruma göndərilməni istəyəcəyəm. Əgər mənim fərmanın və itaətimdən üz çevirməsən, o diyardakı fəqirlər və qəriblər əsgərlərimin ayaqları altında qalıb qətl edilməyəcəklər. Özünü Xorasan qalasında bir neçə qızılbaş mənsubunu əsir etməklə çətin vəziyyətə salınmasına və iaşələrinin tükənmələrinə görə xoşbəxt sayma. Mənim dediklərim yaxşılıq üçündür. Sənsə öz bildiyini elə. Vəssalam” (97).

Şah Abbasın bu məktubu cavabsız qalmadı. Bu məktuba yazılan cavab Əbdülmömin xan tərəfindən Şah Abbasa göndərilən son məktub idi. Məktubun əvvəlində Əbdülmömin xan özbək qoşunlarının Urgəncə göndərilməsinin səbəbi barəsində xatırlatma etmişdi. Onun sözlərinə görə məqsəd Nisa, Dərun və Əbivərd vilayətlərini nəzarət altına almış Urgənc hakimlərini tənbih etmək və bununla Nur Məhəmməd xana kömək göstərmək idi. Belə bir köməyin göstərilməsindən sonra Əbdülmömin xan qoşun dəstəsi ilə Qoçana yollandığını və orada ovla məşğul olduğunu yazırdı. Qızılbaş qoşunlarının Xorasana gəlişini Əbdülmömin xan təşviş və narahatçılqıla qarşılayırdı. O, bu vilayəti belə asanlıqla qızılbaş qoşunlarının ixtiyarına vermək istəmirdi. Əbdülmömin xan yazırdı ki, ötən il onun tərəfindən Xorasana qoşun çıxarılmamışdı. Bununla Əbdülmömin xan ona işarə edirdi ki, Şah Abbas qoşunları ilə qarşılaşmalı olduğunu o da yaxşı başa düşürdü və ona görə belə bir qarşılaşma üçün hazırlıq görürdü. Nəticədə, Əbdülmömin xanın sözlərinə görə, qızılbaş qoşunları ilə müharibə aparmaq üçün üç illik silah-sursat və təchizat hazırlığı görülmüşdü. Özbək şahzadəsinin yazdığına görə o, qızılbaş qoşunlarının bölgəyə gəl-

məsini heç də gözləmirdi. Aparılan hazırlıqlar isə ona görə idi ki, özbək qoşunları qərbə doğru irəliləsinlər və qızılbaş qoşunlarını taparaq onlarla döyüşə girsinlər. Ona görə Əbdülmömin xan Şah Abbasın qoşunla Xorasana tərəf gəlməsi xəbərindən məmnunluğunu da ifadə edirdi. Əbdülmömin xan hətta Şah Abbasa meydan da oxuyurdu, onun döyüş meydanından qaçmayacağına ümid etdiyini bildirməklə bəxtin kimin üzünə güləcəyi vaxtının çatdığına da işarə edirdi. Başqa sözlə, Əbdülmömin xan Xorasan vilayətinin qorunması üçün Şah Abbasla döyüşə girməyə hazır olduğunu və belə bir günün gəlib çatacağına inandığını bəyan edirdi. Onun sözlərinə görə, Şah Abbasın belə bir döyüşdən çəkinərək geri çəkilməsi Səfəvi dövləti üçün heç bir fayda gətirməyəcəkdi. Əbdülmömin xan onu da bildirirdi ki, Şah Abbas geri çəkiləcəyi təqdirdə Mavərənnəhrin bütün qoşunlarını toplayaraq onu təqib edəcəkdir. Özbək şahzadəsi Şah Abbasın bu qarşılaşmadan geri durmasını məsləhət bilmirdi və bəyan edirdi ki, belə bir addım atılsa bu, heç də elm və zəka insanları tərəfindən yaxşı qarşılanmayacaqdır. Əbdülmömin xan məktubunu belə tamamlayırdı: “Bundan artıq çox danışmağa ehtiyac yoxdur. Adınıza və namusunuza nəyi layiq bilsəniz elə də buyurun” (98).

Şah Abbasla Əbdülmömin xan arasında aparılan yazışmalar, əslində onların xarakterinin qarşılaşması idi. Doğrudur, bu yazışmalarda yumşaq bir münasibətin ifadəsi ilə qarşılaşmaq mümkündür. Lakin bu yumşaq münasibətin ifadəsi ilə hər iki tərəf bu qarşılaşmada xarakter, qətiyyət göstərməyə çalışırdı. Hər iki tərəf öz məntiqi ilə qarşıya qoyulan məqsədə çatmaq istəyirdi və bunun üçün müxtəlif vasitələrə də əl atırdı. Amma Şah Abbas birmənalı şəkildə bəyan etdi ki, səltənət hüdudlarının güzəştə gedilməsi mümkün deyildir və itirilən ərazilərin geri qaytarılması üçün istənilən məkanda savaş qurmağa hazırdır. Əbdülmömin xan bu çağırışdan kənar durmağa çalışsa da, sonda o da Şah Abbasla hərb meydanında qarşılaşmağa hazır olduğunu bəyan etdi. Əbdülmömin xanın bu məktubu 1595-ci ilin sentyabrında Şah Abbasa Əsfəreyndə olarkən yetişdi. Əbdülmömin xanın bir il əvvəl

qızılbaş qoşunları ilə savaşa girməməyini və bu savaş üçün hazırlıq işləri aparması haqqında yazdıqlarını Şah Abbas istehza ilə qarşılayırdı. Bunu o belə ifadə edirdi: “Hansı zamandır ki, yer üzünün sultanı olmaq istəyən kəsin başında sultan və cahandarlıq etmək sövdası yer tapsın, amma o, düşməninin qarşısından qaçsın və desin ki, siz burada dayanın, mən də gedim öz qoşunlarımı və əsgərlərimi toplayım və sonra gəlib sizinlə savaşa başlayım. Başına tac qoymaq istəyən kişi bu yolda öz başını verməyə də hazır olmalıdır (99).

Şah Abbas qətiyyətli şəkildə tələb edirdi ki, Əbdülmömin xan ya Xorasan vilayətindən çəkilsin, ya da qızılbaş qoşunları ilə döyüşə girsin və bu döyüşdə Xorasan vilayətinin də taleyinə bir aydınlıq gətirilsin. Şah Abbasa görə Əbdülmömin xan əslində, öz əməllərinə görə üzr istəməli idi. Səfəvi şahı yazırdı ki, özbək qoşunlarının qızılbaş qoşunları qarşısında duruş gətirmək imkanı yoxdur və bu məsələ Fərhad xanın qoşun dəstəsi ilə Əsfəreynə yürüşü zamanı da bəlli olmuşdu. Şah Abbas qeyd edirdi ki, qaçmaq şərəfsizliyini öz üzərinə götürmək istəməyən Əbdülmömin xan onun qarşısına çıxa və öz hünərini göstərə bilərdi. Amma Əbdülmömin xan eşidəndə ki, özbək qarovulları qızılbaş qarovulları tərəfindən əzilib, onda Əsfəreyndən çəkilmək qərarını vermişdi. Şah Abbas ona işarə edirdi ki, Əbdülmömin xan qızılbaş qoşunları qarşısına çıxmağa cəsarət etmir. O, məktubunda da buna işarə edirdi və özbək şahzadəsinin nəzərinə çatdırırdı ki, mənzil-mənzil Məşhədə yaxınlaşmaqdadır. Şah Abbas ümid edirdi ki, Əbdülmömin xan öz hünəri haqqında yazdıqlarının təsdiqi üçün və söylədiklərinin üstündə dayanmaq üçün bu dəfə Məşhəd ətrafından hərəkətə başlayaraq başqa bir yerə üz tutmayacaqdır. Şah Abbas ona da ümid etdiyini bildirirdi ki, Məşhəd ətrafında iki tərəfin qoşunlarının qarşılaşması baş verəcəkdir. O, özbək şahzadəsinə təklif edirdi ki, bu qarşılaşmaya razıdırsa, Məşhəd ətrafında onun seçdiyi döyüş meydanına gəlməyə hazırdır (100).

Şah Abbasın yazdığına görə, Əbdülmömin xan çox böyük iddialara düşmüşdü. O, yalnız Xorasan vilayətinin işğalı ilə kifayət-

lənmək istəmir və Əsfəreyndən keçməklə Səfəvi dövlətinin qərbinə doğru irəliləmək niyyətində idi. Bu niyyətini həyata keçirmək üçün Əbdülmömin xan Əsfəreynə qədər irəliləyə bilmişdi. Əslində, Şah Abbas 1595-ci ildə Xorasan istiqamətində hər hansı bir hərbi yürüş həyata keçirmək niyyətində deyildi. Amma özək qoşunlarının Əsfəreyn üzərinə hücumu xəbəri alınandan sonra Şah Abbas da öz qərarını dəyişməli oldu. Şah Abbas lazım olan sayda qoşun toplanmasını gözləmədən tez-tələsik Əsfəreynə tərəf hərəkətə başladı və 25 günlük yoldan sonra bu şəhərə yetişə bildi. Əbdülmömin xan isə yenə də şah qoşunlarının gəlməsi xəbərini eşidib Əsfəreyndən geri çəkilmək məcburiyyətində qaldı. Şah Abbas bir daha onun bu əməlini istehza ilə qarşıladı və yazdı ki, özbək şahzadəsi gərək təpər və dirəniş göstərəydi, öz səltənəti naminə qeyrət və namus yolunu tutaydı. Daha sonra isə Şah Abbas onun geri qaçmağını şahzadəyə layiq olmayan bir əməl kimi qiymətləndirirdi. Şah Abbasa görə, əgər Əbdülmömin xan bahadırlıq iddiasında idisə gəlsin, savaşa girsin, bu savaşda hər şey aydın olsun və qalib tərəf məğlub tərəfin mülkünə və səltənətinə sahib olsun. Səfəvi şahı məktubunu bu sözlərlə bitirirdi: “Artıq danışmağa ehtiyac yoxdur. Səltənət işlərinə layiq olanlara uyğun əməl edilsin” (101).

Elmi-tarixi dövriyyədə Şah Abbas tərəfindən Əbdülmömin xana yazılmış daha bir məktub mövcuddur. Bu məktub Şah Abbasın Əbdülmömin xana ünvanladığı son məktub hesab olunur. Həmin məktubda da Şah Abbasın Xorasana tam nəzarətin təmin edilməsi qətiyyəti özünü göstərməkdədir. Şah Abbas yazırdı ki, son illərdə səltənət daxilində baş verən qiyamların yatırılmasına xeyli vaxt ayrılması qızılbaş qoşunlarının Xorasan vilayəti üzərinə yürüşünü təxirə salmışdı. Bu yürüş ləngisə də Xorasana vilayətinin səltənət hüdudlarına qaytarılmasının Şah Abbasın yadından çıxmadığı məktubda öz əksini tapmışdı. Şah Abbas yazırdı ki, mübarizə meydanı fil cüssəli şirlərdən, yüksəklikdə qanad çalan qartallardan, meşələr şirlərdən boş qalmışdır və belə bir zamanda tülkülər ayaq tutaraq şirlərin yoxluğunda nərə çəkməyə başla-

mışlar. Şah Abbasa görə, belə bir durumda Xorasan vilayətinin işğalına əl uzadılmış, bu vilayət dağıdılaraq talan edilmişdi. Səfəvi şahı bir daha Əbdülmömin xanı xəbərdar edirdi, Xorasan vilayətinin taleyinin savaş meydanında həll edilməli olduğunu bildirirdi. O yenidən özbək qoşunlarını savaş meydanına səsləyirdi və bu qoşunlardan qorxmadığını bəyan edirdi. Şah Abbas sonda belə bir ifadə işlədirdi ki, minlərlə çırağı bir yerə toplasan da, sübh işığı yanında onlar son dərəcə zəifdirlər (102).

Xarəzm padşahı Hacı Məhəmməd xan da Abbas Mirzəni Xorasan üzərində yürüşdə müşayiət edirdi. Əsfəreyndə olarkən o, Şah Abbasdan xahiş etdi ki, onun Astrabada getməsinə icazə versin. Hacı Məhəmməd xanın mənsub olduğu sayinxani eli Astrabadda məskunlaşmışdı. O, güman edirdi ki, bu elin əhalisini öz ətrafında birləşdirməklə yenidən Xarəzm padşahlığını özünə qaytara biləcəkdir. Şah Abbas onun bu xahişini qəbul etmək istəmirdi. Çünki Buxara xanı olan Abdulla xan hələ kifayət qədər güclü idi və Hacı Məhəmməd xanın onun müqavimətini qırmağa gücü çatmazdı. Amma Hacı Məhəmməd xan təkid edəndə Şah Abbas da onun xahişi ilə razılaşmalı oldu. Bu fürsətdən istifadə edərək Şah Abbas ona həm də Astrabadda idarəçiliyin tənzimlənməsini tapşırdı. Bu vilayətdə də mərkəzi hakimiyyətdən qopma meyli özünü göstərməkdə idi. Astrabad hakimi şah fərmanına uyğun olaraq qoşun dəstəsi ilə onun yanına gəlməmişdi və bununla bağlı bir səbəb də ortaya qoymamışdı. Şah Abbasın göstərişi belə oldu ki, əgər Astrabad hakimi Əlixan şah icrasından yayındığına görə üzr istəsə, Hacı Məhəmməd xan onun üzrünü qəbul etsin və özünə yoldaş etsin. Əks təqdirdə isə Əlixan tutduğu vəzifədən kənarlaşdırılmalı idi. Şah Abbas bölgədə olmasından istifadə edərək Astrabadın məsələsini də həll etmək istəyirdi. Bunun üçün Şah Abbas hətta Astrabad istiqamətinə əlavə qoşun dəstəsi də göndərdi. Lakin elə bu vaxt Əbdülmömin xanın Səbsəvar qalası üzərinə qoşun çəkməsi haqqında məlumat alındı (103).

Özbək qoşunlarının Səbzəvar üzərinə hücum etməsi əslində, Şah Abbas üçün gözlənilməz oldu. Əbdülmömin xanın Əsfəreyn

ətrafından Məşhədə qaçmasından sonra Şah Abbas da, onun ətrafı da güman etmirdilər ki, o cəsarət taparaq şah nəzarəti altında olan Səbzəvara hücum etsin. Bu gümanın nəticəsi idi ki, Şah Abbas hətta qoşunun böyük bir hissəsinin geri qayıtmasına icazə vermişdi və nəzərdə tutulmuşdu ki, bir neçə gündən sonra Şah Abbas özü də Qəzvinə tərəf hərəkətə başlasın. Xorasan vilayəti üzərinə hücum edilməsi və bu vilayətin özbək işğalından qurtarılması isə hələ məqsədəuyğun bilinmirdi. Ola bilsin ki, qızılbaş qoşunlarının bir hissəsinin buraxılması haqqında Əbdülmömin xana hər hansısa bir xəbər çatdırılmışdı. Digər tərəfdən Əbdülmömin xan döyüşə girmədən qızılbaş qoşunları qarşısından çəkilməsindən də məmnun deyildi. Ona görə qısa müddət ərzində qoşunları daha da təkmilləşdirdi, Bəlxdən və Mavərənnəhrdən əlavə qoşun dəstələri gəlməsinə nail oldu. Bu arada Əbdülmömin xan həm də Şah Abbasın Astrabada tərəf hərəkət etməsi haqqında məlumat almışdı. Ona görə o, əmin olmuşdu ki, Şah Abbasın Məşhəd üzərinə hücum etmək niyyəti yoxdur və bu da ona imkan verdi ki, Səbzəvar üzərinə rahatlıqla hücum etsin. Mövcud olan məlumata görə, Əbdülmömin xanın hətta yenidən Əsfəreyn üzərinə hücum etmək niyyəti də varmış. Lakin ona bəlli oldu ki, Əsfəreyn qalasının müdafiəsinin möhkəmləndirilməsi istiqamətində lazımi işlər görülüb və o qalanı ələ keçirmək mümkün olmayacaqdır. Onda Əbdülmömin xan Səbzəvar üzərinə hücum etmək qərarına gəldi. Özbək qoşunlarının gücləndiyi üçün bir çox qızılbaş əmir və əyanları Səbzəvara hücum edilməsini heç də məqsədəuyğun saymırdılar. Bu barədə hələ aydın bir qərar qəbul edilməzdən əvvəl Səbzəvarın artıq özbək qoşunlarının əlinə keçdiyi xəbəri alındı. Özbəklər şəhər əhalinin qətlini və talanmasını da həyata keçirmişdilər. Səbzəvar hakimi Mirzə Məhəmmədmömün sultan şəhərin iç qalasına çəkilmişdi və məlum idi ki, qala müdafiəsinin təşkili sahəsində onun elə də böyük təcrübəsi yoxdur (104).

Özbək qoşunlarının hücumu Səbzəvar sakinləri üçün də gözlənilməz olmuşdu. Ona görə şəhərin müdafiəsinin təşkilində də bir çaşqınlıq mövcud idi. Nəticədə özbək qoşunları çox tezliklə şəhə-

rə daxil ola bildilər. Özbək döyüşçüləri xüsusi bir qəddarlıqla şəhər sakinləri üzərinə hücum çəkdilər, uşaq və qadın bilmədən qarşılarına çıxan insanları qılıncdan keçirdilər. Əbdülmömin xan Əsfəreyn qalasını ala bilməməsinin qisasını Səbzəvar əhalisindən aldı. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərinin müəllifi İsgəndər bəy Münşi bölgədə olan şah qoşunlarının tərkibində idi. Sonradan o da şah qoşunları ilə birlikdə Səbzəvara daxil ola bilmişdi. Şəhərdə gördüyü qırğınlar və dağıntılar onu dəhşətə gətirmişdi və bunu öz əsərində də təsvir etmişdi. Səbzəvar şəhəri talan və viranəliklərə məruz qaldıqdan sonra Əbdülmömin xan bir dəstəni şəhər qalasının ələ keçirilməsinə yolladı. Qala daxilindəkilər fədakarlıqla müdafiə olunmağa başladılar və qərar tutduqları vəziyyət haqqında Şah Abbasa da xəbər göndərdilər (105).

Şah Abbas bu xəbəri alandan sonra Səbzəvara doğru istiqamət götürdü. Şah qoşunları bu şəhərə yaxınlaşanda özbək bahadırları və əmirləri qızılbaş qoşunları ilə üzbəüz gəlməkdənsə yenidən geri çəkilməyə üstünük verdilər. Əbdülmömin xan şah qoşunları ilə döyüşə girmək barəsində heç düşünmədi və yalnız geri qaçmaq yolunu tutdu. O, bir özbək dəstəsini Nişapur qalasının müdafiəsinin gücləndiirlməsinə göndərdi və özü isə Bəlx istiqamətində geri çəkildi. Şah Abbas Səbzəvara yetişib bu şəhərin faciələrlə üzləşmiş əhalisini ovundurmağa, onlara mümkün qayğını göstərməyə çalışdı. Sonra da bu qalanın hakimliyini daha böyük döyüş təcrübəsinə malik olan Budaq sultan Qacara tapşırdı və özü isə qoşunla birlikdə Nişapura doğru istiqamət götürdü. Əbdülmömin xan Səbzəvarı əlində saxlaya bilməsə də, heç olmasa bu şəhəri qorumaq niyyətində idi və ona görə də bu şəhərdəki özbək qoşun dəstəsini gücləndirdi. Nişapur yaxınlıqlarına yetişəndə Şah Abbas bir daha Əbdülmömin xanın savaşa girmədən geri qaçması haqqında xəbər tutdu. O, Nişapur qalasında da dayanmağı özünə təhlükəli hesab etdi və ona görə də oradan uzaqlaşmağı məqsədəuyğun bildi. Şah Abbas bu dəfə də onu təqib etməyi lazım bilmədi. Çünki 1595-ci ilin qışı artıq başlamaq üzrə idi. Bir tərəfdən havaların soyuması, digər tərəfdən də ərzaq ehtiyatlarının tükənməsi

Şah Abbası məcbur etdi ki, Qəzvinə qayıtsın və Xorasan üzərinə hərbi yürüşü bir başqa vaxta təxirə salsın (106).

### 6. Şah Abbasın Xorasan yürüşü

Şah Abbas Xorasan üzərinə hərbi yürüşün həyata keçirilməsi üçün münasib fürsəti bir də 1598-ci ildə əldə etdi. Bu yürüşə başlanana kimi bölgədə də ciddi proseslər baş verdi. Buxara xanı olan Abdulla xan dünyasını dəyişdi. Onun ölümündən sonra Buxara xanı məqamını onun yeganə oğlu olan Əbdülmömin xan tutdu. Lakin Əbdülmömin xan atasının hakimiyyəti illərində mövcud olan idarəçilik sistemini qoruyub saxlaya bilmədi. Abdulla xanın yaxın adamları yüksək vəzifələrdən uzaqlaşdırıldı və onların yerinə yeniləri təyin edildi. Vəzifədən uzaqlaşdırılan özbək əmirləri və xanları isə Əbdülmömin xana qarşı düşmənçilik yolunu tutdular. Herat hakimi olan Mir Qulbaba Kukəltaş bu müxalifətin liderlərindən birinə çevrildi. Daxili çəkişmələr elə bir şiddət aldı ki, Əbdülmömin xan altı aylıq hakimiyyətdən sonra qətlə yetirildi və onun yerini Abdulla xanın bacısı oğlu Din Məhəmməd xan tutdu (107).

Şah Abbas Xorasan üzərinə yürüş hazırlayanda Abdulla xan hələ sağ idi. Yəni belə bir yürüş üçün artıq qərar verilmişdi. Amma bu yürüş hazırlıqları hələ başa çatmamışdı ki, Abdulla xanın ölüm xəbəri gəldi. Şah Abbas şübhə etmirdi ki, Abdulla xanın ölümündən sonra bölgədə müəyyən proseslər başlayacaq və bu da Xorasan üzərinə hərbi yürüşün həyata keçirilməsini daha da asanlaşdıracaqdır. 1598-ci il aprel ayının əvvəllərində Şah Abbas öz qoşunu ilə səltənətin yeni paytaxtı olan İsfahanı tərk edib Xorasana doğru hərəkətə başladı. Amma bu yürüş zamanı Şah Abbas yolunu Mazandarandan saldı. Şah Abbas bu vilayətlə tanı olmaq və orada bir müddət ovla məşğul olmaq istəyirdi. Bu yürüşə başlamazdan əvvəl Şah Abbas vilayət hakimlərinə fərman göndərdi və onlardan yerli qoşunlarla gəlib şah qoşunlarına qoşulması tələb olundu. Nəzərdə tutulmuşdu ki, səltənət qorçubaşısı bütün qorçu-

larla, Fars vilayətinin hakimi Allahverdi xan öz qulam və döyüşçüləri ilə, Gəncəli xan da Kirmanın qoşun dəstəsi ilə şah qoşunlarına birləşsin. Bu qoşun dəstələri Bəstam çəməninə toplanmalı idi. Belə də oldu və verilən fərman vaxtında icra edildi. Şah Abbas isə bir neçə gün Mazandaranda ovla məşğul olduqdan sonra Bəstama gəldi və orada toplanmış olan qoşunlarla birləşdi. Öz yurdlarından didərgin düşmüş özbək xanları, o cümlədən, Hacı Məhəmməd xanla Nur Məhəmməd xan da bu yürüşdə Şah Abbas düşərgəsində idilər. Şah Abbas bir neçə gün də Bəstam çəmənində dayandı. Sonra oraya toplanmış olan qoşunlara sıra baxışı keçirildi, qoşunların yürüşə hazırlıq səviyyəsi yoxlanıldı. Ondan sonra qoşunlara Xorasan istiqamətində hərəkət əmri verildi (108).

Şah Abbasın yaxın ətrafında olan bəzi əmir və əyanlar Xorasan vilayəti üzərinə hərbi yürüşün keçirilməsinin əleyhinə idilər. Onlar təklif edirdilər ki, şah qoşunları Astrabada yollansın, orada mərkəzi hakimiyyəti bərpa etsin və sonra da geri qayıtsın. Belə güman edilirdi ki, Xorasan vilayəti üzərinə hücum üçün münasib fürsət hələ də yetişməmişdir. Şah Abbas isə bu təklifləri qəbul etmədi və Xorasanın özbək işğalından azad edilməsində qətiyyətli olduğunu nümayiş etdirdi. Bununla da Şah Abbasın Xorasan vilayəti üzərinə hərbi yürüşü başladı (109).

Mənbələrdə Xorasan yürüşü üçün Şah Abbasın ətrafında toplanan qoşunların sayının 30-40 min arasında olması göstrərilmişdir (110). “Rövzətüs-Səfəviyyə” əsərində isə daha böyük rəqəmdən xəbər verilir. Bu əsərin müəllifinin yazdığına görə, Əbdülmömin xan hakimiyyətə gəldikdən sonra qısa müddət ərzində öz hakimiyyətini xeyli möhkəmləndirdi. Ona qarşı müxalif ola biləcək hakimlər və əyanlar vəzifələrindən kənarlaşdırıldı və cəzalandırıldı, bir sıra yeni bölgələr işğal altına alındı. Əbdülmömin xanın ətrafında kifayət qədər güclü bir qüvvə formalaşdı və belə bir qüvvənin yaranmasından sonra o, yenidən Xorasan üzərinə yürüş etmək və niyyət etdiyi əraziləri öz hakimiyyəti altına gətirmək fikrinə düşdü. Bunun üçün o, Türküstandan, Mavərənnəhrdən, Cənddən, Xocənddən, Seyhundan, Daşkənddən, Fərğanədən,

Səmərqənddən, Buxaradan, Hisari-Şadmandan, Qunduzdan, Bağlandan, Bədəxşandan, Bəlxdən, Təharistandan, Ceyhundan, Xarəzmdən və Xorasandan qoşun dəstələri topladı və Səfəvi hüdudlarına yürüş üçün hazırlıq əmri verdi. Həmin qüvvələrin ümumi sayının 80 min atlı olduğu bildirilir. Bu xəbər Şah Abbasa çatanda o da Xorasan üzərinə hərbi yürüşün başlanması qənaətinə gəldi. O da bu yürüşün həyata keçirilməsi üçün vilayət hakimlərinə qoşun toplanması haqqında fərman göndərdi. Adı çəkilən mənbədə olan məlumata görə, Fərhad xan onun tabeliyində olan Azərbaycan, Gilan, Fumən, Mazandaran, Astrabad, Bəstam, Damğan və Semnandan 30 min nəfərlik qoşun dəstəsi topladı. Allahverdi xan qullarağası da Fars, Əhvaz, Kuh-Giləviyyə, Lar, Gərmsirat, Oman dənizi sahili ərazilər, Bəhreyn, Şulistan, Kazerun, Reyşəhr, Oman limanlarından, habelə lur və kürd tayfalarından 30 min nəfərlik qoşun dəstəsi topladı. Sonra Kirmandan, Həmədandan, Əlişgərdən, Qumdan və sair vilayətlərdən isə 40 min nəfərlik bir dəstə toplandı. Nəhayət şah ətrafında olan qüvvələrin 30 min nəfər olduğu bildirilir. Yəni Şah Abbas Xorasan yürüşünə 130 min nəfərlik bir qoşun dəstəsi ilə hərəkətə başlamışdı (111).

Bəstam çəmənində Şah Abbas qərara aldı ki, əvvəlcə Astrabadda mərkəzi hakimiyyət bərpa edilsin və sonra Xorsan üzərinə yürüş davam etdirilsin. Astrabad istiqamətinə həm Fərhad xan tərəfindən qoşun dəstəsi göndərildi. Həm də Xarəzm padşahı Hacı Məhəmməd xan Astrabaddan keçməklə öz vətəninə yola salındı. Hacı Məhəmməd xan ona verilmiş qoşun dəstəsi ilə Xarəzmdə öz hakimiyyətini bərpa etməli idi. Onun Xarəzm üzərinə öncəki yürüşü uğursuzluqla nəticələnsə də, bu dəfə Xarəzmin Əbdülmömin xanın nəzarəti altından çıxarılacağına ümid edilirdi. Bu yürüşün uğurla başa çatması üçün Şah Abbas Gürgan və Ətrək çayları kənarında yaşayan sainxani elinin ağsaqqallarına məktub göndərdi, onlara öz nəvazişini izhar etməklə Hacı Məhəmməd xana kömək göstərmələrini istədi. Hacı Məhəmməd xan isə yola düşməzdən əvvəl Şah Abbasa sədaqətli qalacağına zəmanət kimi iki nəvəsini onun yanında saxladı (112).

Şah Abbas Cacərm yolu ilə Xorasana doğru hərəkətini davam etdirdi. Onun tapşırığı əsasında Fərhad xan, Azərbaycan bəylərbəyi olan qardaşı Zülfüqar xanın rəhbərliyi altındakı 10 min nəfərlik bir dəstəni qoşunların avanqardı təyin etdi və həmin dəstə bir mənzilik məsafə uzaqlığında irəli göndərildi. Bununla belə, Şah Abbas yenə də özbək qoşunlarının dinc yolla Xorasandan çəkilməsinə cəhd göstərdi. Bununla bağlı o, Əbdülmömin xana məktub yazdı və onu Ruhulla bəy Zülqədər adlı yasovulu ilə özbək düşərgəsinə göndərdi. Həmin məktubun məzmunu belə idi: "Əbdülmömin xan bir neçə ildir ki, mülklər tutmaqdan ötrü hər il Xorasana tərəf yürüşlər edir. Mənim başım İraqda və sərhəd yerlərində bəzi işlərə qarışdığı üçün o, fürsət tapıb müqəddəs Məşhədi və Xorasanın bəzi mahallarını işğal edib və daha bir neçə yeri əlinə keçirdi. Mənim, onunla qarşılaşmaqdan ötrü, hər dəfə uzaq yol qət edib İraqdan Xorasana gəldiyim vaxt o, müzəffər əsgərlərimin önünə çıxmayır və özünə fərar qərarı verirdi. O, belə bəhanə edirdi ki, onun padşah olan atası (Abdulla xan –red.) qızılbaş padşahı ilə müharibə etməyə icazə vermirmiş. Həmin get-gəllər nəticəsində Xorasan vilayəti hər iki tərəf ləşkərlərinin at təpikləri altında qalmış, rəiyyət və yoxsul əhali didərgin və ev-eşiksiz olmuşlar. İndi, sizin möhtərəm atanız fani dünyaya vida etmişdir və Mavərənnəhr, Türküstan, Bəlx və Bədəxşan səltənəti siz böyük nəsildən olan şəxsin əlinə keçmişdir. Siz artıq sizə qarşı olanları və əmi oğlanlarınızı dəf etmişsiniz və başqa düşməniniz qalmamışdır. Artıq taxta tam əyləşmiş və müstəqil olmuşunuz. Bütün özbək qoşunları sizin əmrinizə tabedirlər. Biz isə, indi irsi mülkümüz olan Xorasanın xilası üçün gəlmişik və bundan ötrü belimizə himmət kəməri bağlamışıq. Əgər, inşallah, bu dəfə oranı tutmaq bizə müyəssər olmazsa, dövlət mərkəzimizə qayıtmaq imkanımız olmayacaqdır. Siz əgər bizim şəfəqqətli nəsihətlərimizi razılıq qulağı ilə dinləsəniz, yaxşısı budur ki, qədimdən bəri İrana daxil olan və bu xanədanın irsi mülkü kimi tanınan Xorasandan əl çəkib birlik, ülfət və üzrxahlıq məqamına gələsiniz ki, biz də didərginlərin geri qayıtmaları və Xorasan diyarındakı biçarələrin asudəli-

yindən ötrü "uzaq keçmişdə olduğu kimi", hərb və intiqam büsatı qurmayaq, sizinlə məhəbbət, dostluq və ülfət edək, dövlətinizin düz yola düşməsinə çalışaq, malımıza və ləşkərimizə köməkçi olaq. Siz indi məsləhət qulağınıza qəflət pambığı salmayın, dostluq qapılarını bağlamayın, müxalifət və inadkarlıqda israr etməyin, keçən illərdə olduğu kimi məkr və hiylə məqamında olmayın. İstiqlal və iqtidar mövcud olduğu bir vaxtda fərar etmək aləm tərəfindən bəyənilməz bir işdir. Bu barədə fikirləşərək, yubanmadan döyüş meydanına mərdanəlik qədəmi at ki, daha bəhanəyə yer qalmamışdır. Haranı məsləhət bilsən, oranı da, illərdən bəri bütün aləmin intizar gözü ilə gözlədiyi tərəflərimizin qarşılaşmasına qərar ver ki, İlahinin istəyi örtülü pərdədən çıxıb cilvələnmiş olsun, xalqlar hər iki ləşkərin get-gəlindən xilas olsunlar. Yoxsa, bunu [da] bil ki, biz Xorasanın viranəyə çevrilməsinə dözməyib, Allahtəalanın köməyi ilə öz iti fikrimizi sən alinejadla hərəkətə gətirərək, Bəlxə və Buxaraya qədər atımızın cilovunu çəkməyəcəyik. Allah özü bilir ki, qiyamtəsər ləşkərin zərbəsindən o diyarda bəla tufanı necə [şiddətlə] qalxacaqdır!" (113).

Amma bu məktuba cavab alınmadı. Çünki Əbdülmömin xan qətlə yetirildi və onun yerini yuxarıda qeyd edildiyi kimi, Din Məhəmməd xan tutdu. Şah Abbas 1598-ci ilin iyul ayında Bəstamı tərk etdi və Nişapura doğru hərəkət başladı. Bu hərəkətə başlamazdan əvvəl Şah Abbas kiçik yaşda olan oğlu Məhəmməd Bağır Mirzəni İsfahana yola saldı. Şahın yaxın ətrafında olan əmir və əyanlar Xorasan vilayəti üzərinə planlaşdırılan ağır səfərə kiçik şahzadənin aparılmasını məsləhət bilmədilər. Şah Abbas da bu məsləhəti qəbul etdi. Mövcud olan məlumata görə, Nişapurun özbək hakimi Əhməd sultan Həccə getmək adı altında şəhəri tərk etdi. O, Şah Abbasın qoşunla Xorasan istiqamətində hərəkətə başlayacağı halda əvvəldən məlumat almışdı. Onun qızılbaş qoşunlarına müqavimət göstərmək gücü yox idi. Amma şəhəri tərk edərək Əbdülmömin xanın yanına yollanmağa da cəsarət etmirdi. Ona görə də Həccə getmək bəhanəsini ortaya atıb şəhəri tərk etdi. Şəhər başsız qaldı və Nişapur müqavimət olmadan qızılbaş qo-

şunlarının nəzarəti altına keçdi. Şəhərdə olan özbək döyüşçüləri isə qaçıb ətrafa dağılışdılar. Şəhər əhalisi Şah Abbasın ora gəlişini böyük şadyanalıqla qarşıladı. Qızılbaş qoşunları bu şəhərdə çox da dayanmadan Şəqan yolu ilə Məşhədə doğru hərəkətini davam etdirdi (114).

Şah qoşunları Əsbahi adlanan məntəqəyə çatıb orada düşərgə saldılar. Bu zaman Fərhad xanın çaparları şah dərgahına yetişərək Əbdülmömin xanın qətlə yetirilməsi və Məşhədin də artıq Fərhad xanın nəzarəti altına keçməsi xəbərini çatdırdılar. Şah Abbas və qızılbaş qoşunları bu xəbəri çox böyük sevinclə qarşıladılar və bu müqəddəs şəhərin özbək qoşunlarından azad edilməsi münasibətilə şükür və dua etdilər. Dərhal da qoşunlar Məşhədə doğru hərəkəti davam etdirdilər və 1598-ci il iyul ayının 28-də Tus şəhəri ətəklərinə gəlib yetişdilər. Məşhədə nəzarəti ələ keçirmiş Fərhad xan, Məşhədin əyanları, qızılbaş əmirləri Şah Abbası həmin məkanda qarşıladılar və Məşhəd şəhərinin azad edilməsi münasibətilə öz təbriklərini və dualarını ona çatdırdılar. Səhəri gün Şah Abbas və onun yanında olan qoşunlar Məşhədə doğru hərəkətlərini davam etdirdilər. Şəhərə yaxınlaşanda və səkkizinci imamın rövzəsi uzaqdan görünəndə Şah Abbas atdan yerə düşdü və dua edəedə həmin rövzəyə qədər piyada getdi. "İlahi nurunun təcəlla etdiyi mübarək günbəzin aləmi işıqlandıran şüaları parlamağa başlayanda əlahəzrət zilləllah şah atdan düşdü, Allahın bu töhfəsinə şükranlıq əlaməti kimi alnını onun torpağına sürtdü, gözlərindən şadimanlıq yaşları axıtdı. Oradan cahan-cahan sədaqət və aləm-aləm ehtiyacla, ayaqyalın, alnıaçıq halda rövzəyə məsafə qət etdi. ... Bütün əhali bu ayin ilə yola qədəm basdı, onların ayaqlarının altı tikanlardan güllər açdı, sanki gül-çiçəklər sadiq qazilərin sipərinin arxasınca boylanmaqdaydılar. Xülasə, [şah] böyük şövq ilə pak rövzəyə gəlib çatdı, müqəddəs məzarı ziyarət edib öz ixlas üzvünü həmin pak torpağa sürtdü" (115).

Şah Abbas Məşhəddə olduğu günlərdə bölgədəki özbək qoşunlarının vəziyyəti ilə də maraqlanmağa başladı. Çünki başladığı bu yürüşlə o, bütün Xorasanı Səfəvi nəzarəti altına gətirmək is-

təyirdi. Herat hakimi olan Din Məhəmməd xan özünü özbək hakimi elan etmişdi və alınan xəbərlərə görə onun ətrafında 20 min nəfərlik bir qoşun dəstəsi var idi. Amma Xorasan əhalisi bu rəqəmi təsdiq etmirdi və bildirilirdi ki, Din Məhəmməd xanın yanında 6-7 mindən artıq döyüşçü yoxdur. İstənilən halda Fərhad xan qoşun dəstəsi ilə Herata doğru yola salındı. Ona tapşırıq verildi ki, Din Məhəmməd xan Herat qalasının möhkəmləndirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsinə başlamamış ora yetişsin və qalanı nəzarət altına alsın. Eyni zamanda özbək əsirləri vasitəsi ilə Şah Abbas Din Məhəmməd xanı qarşılıqlı anlaşmaya dəvət etdi və onu da bildirdi ki, əks təqdirdə, harada olsa ora da gələcəkdir (116).

Şah Abbas üç gün Məşhəddə qaldı. Həmin günlər ərzində həm İmam Rza rövzəsində dualar etdi, həm də şəhərin idarəçiliyinin nizama salınması ilə məşğul oldu. O, şəhərin yeni hakimini, İmam Rza rövzəsinin yeni mütəvəllisini təyin etdi. Sonra da ona pənah gətirmiş özbək xanı Nur Məhəmməd xanı Mərv, Əsa və Əbivərdi ələ keçirərək orada yenidən öz hakimliyini bərpa etməyə göndərdi. Şah Abbasın əmrinə əsasən bəzi qızılbaş əmirləri də Nur Məhəmməd xanla birlikdə yola düşdülər. Şah Abbas özü də Herata getmək məqsədilə Məşhədi tərk etdi. O, Cam vilayətinin Fərhadcerd adlı məntəqəsinə çatanda Heratdakı vəziyyət haqqında yeni məlumatlar əldə etdi. Bildirilirdi ki, Din Məhəmməd xan Xorasanı heç bir vəchlə əldən vermək istəmir. Onun rəhbərliyi altında 12 min döyüşkən özbəklərdən təşkil olunmuş qoşun dəstəsi və hezarələrdən ibarət 2-3 min nəfərlik əlavə dəstə vardı. Amma Din Məhəmməd xanın Mavrənnəhrlə olan əlaqəsi istənilən vaxt bu qoşun dəstəsinin sıralarını genişləndirilməsinə imkan verirdi. Şah Abbasın bölgəyə gəlməsindən Din Məhəmməd xanın xəbəri yox idi. Onun gümanında yalnız Fərhad xanın dəstəsi ilə qarşılaşmalı olacaqdı. Bu məlumatı əldə edəndən sonra Şah Abbas Heratla bağlı öz planlarını dəqiqləşdirməli oldu. O, yaxın ətrafını toplayaraq onlarla məşvərət etdi. Bu toplantıda Şah Abbas Heratın işğaldan təmizlənməsi ilə bağlı öz fikrini belə bəyan etdi: "Özbək ləşkərinin

böyük hissəsi Heratdadır. Əgər irəliyə getmiş Fərhad xan və əmirlərlə özbəklər qorxmazcasına döyüşərlərsə, bu bizim dövlətimizə layiq iş olmaz, çünki onların padşahı onlarla birlikdədir. Özbək döyüşçülərinin müharibəsi və padşahla birgə döyüş meydanına qədəm basmalarına heç də əmir və sərdarların müharibəsi demək olmaz. Elə olan halda qızılbaş qoşununa böyük zərər dəyə bilər, düşmən isə ürəklənər. Əgər müzəffər ordu [gedib Fərhad xan və əmirlərə çatan vaxta qədər] onları ləngidə bilsə, özbəklər qaladarlıq ləvazimatı hazırlığına başlayaraq, qalada ləşkər saxlayıb Mavərənnəhrə gedəcəklər. Yox, əgər qala mühasirəyə məruz qalarsa, qalanın möhkəmliyinə və qaladarlıq məharətinə görə, ehtimal ki, məsələ çox uzana bilər. Buna görə də, gərək Fərhad xanın yanına adam göndərib ona bir mənzil geriyə çəkilməsini tapşıraq, qoy o, belə söz yaysın ki, guya rumilərin əlinə fürsət düşdüyü və onların bizim məhrusə məmləkətlərimizə gəldikləri barədə İraq və Azərbaycandan qorxulu xəbərlər gəldiyindən, hümayun şah məiyyəti pərişan olub İraqa tərəf qayıtmışdır. Əgər qızılbaşların məcburiyyət üzündən geri qayıtma xəbəri özbəklərə çatarsa, qaladarlıq etmək fikrindən daşınarlar, heç şübhəsiz onlar əmirləri təqib etmək, Məşhədi və ətraf yerləri tutmaq əzmi ilə tez-tələsik Heratdan çıxarlar, biz də yorğun atları olan əğrəq qoşununu orada saxlayıb, kutəl atları olan dəstə ilə hücuma keçərək Fərhad xana birləşərik, Fars və Kirman ləşkərinin gəlib-çatmasını gözləmədən hücuma keçərik, onlara qaladarlıq etmək imkanı verməik, inşallah, əgər Allah-təala istərsə və bizim tədbirimiz baş tutarsa, ehtimal ki, işlər istədiyimiz kimi yerinə yetər" (117).

Şah Abbası yaxın ətrafı onun bu fikrini qəbul etdi. Bundan sonra Fərhad xana məktub yazıldı və ondan tələb olundu ki, qərar tutduğu məkandan bir mənzil geriyə çəkilsin. Elə həmin günlərdə Fars və Kirman vilayətlərində toplanmış olan qoşun dəstəsi də Xorasana yetişmişdi. Bu vilayətlərin qoşunlarına rəhbərlik edən Allahverdi xanla Gəncəli xanın yanına da adamlar göndərildi və onlara çatdırıldı ki, birbaşa Herat istiqamətinə deyil, şah düşərgəsinin qərar tutduğu məkana gəlsinlər. Bununla onlar özbək ha-

kimlərini də şübhələndirməsinlər. Şah Abbas isə qoşunlara birlikdə Herata doğru hərəkətini davam etdirdi və 1598-ci il avqust ayının 8-də Heratdan dörd fərsəx məsafədə olan Salar körpüsünə çatdı. Fərhad xan, habelə Allahverdi xanla Gəncəli xan da həmin məkanda şah qoşunlarına qatıldılar. Şah Abbas Herat şəhərinə ziyan dəyməməsi üçün özbək qoşunlarını qaladan çıxarmağa çalışırdı. Onun yuxarıda bəyan edilən planı bu niyyətin həyata keçməsinə yol açdı. Din Məhəmməd xan yayılan şayiələrə inandı. O eşitdiyi xəbərlərə görə əmin idi ki, Şah Abbas Xorasandan geri çəkilmişdir və Salar körpüsü yaxınlığa gələn qüvvələr isə Fərhad xanın rəhbərliyi altında olan qoşun dəstəsidir. Ona görə o da öz qoşun dəstəsi ilə Herat qalasını tərk edib Salar körpüsünə tərəf istiqamət götürdü. Din Məhəmməd xan öz dəstəsi ilə Salar körpüsünə yetişərək orada dayandı və Fərhad xanla döyüş hazırlıqlarına başladı. Bu zaman ona xəbər çatdırıldı ki, Şah Abbas da bölgəyə gəlmişdir. Din Məhəmməd xan bu xəbərə inanmaq istəmədi. Verilən məlumata görə, Şah Abbas kiçik bir dəstə ilə öndə hərəkət edirdi. Onun rəhbərliyi altında olan qızılbaş qoşunları isə arxadan gəlirdi və Din Məhəmməd xana verilən məlumata görə bu qoşunların sayı-hesabı bilinmirdi. Özbək əmirləri və ağsaqqalları bu xəbəri alandan sonra qorxuya düşdülər və belə təklif etdilər ki, Şah Abbasla savaşa girməkdən imtina edilsin, özbək dəstəsi geri çəkilsin və Herat qalasına sığınsın. Hətta o da məsləhət bilindi ki, Şah Abbasa məktub göndərilsin, ona barışıq elan edilsin və hərbi qarşıdurmaya son qoyulsun. Din Məhəmməd xan bu təklifləri qəbul etmədi və öz fikrini belə açıqladı: "Bu fikir tərəfimizdən bəyənilir, amma vaxt olduqca azdır. Qızılbaşlar çox yaxınlaşmışlar. Əgər bu gecə buradan çıxıb şəhərə üz tutsaq, ləşkərimizin yarısı dağılacaq, biz cəng etmədən fərar arına giriftar olacağıq. Yaxşısı budur ki, mərd-mərdanə halda döyüş meydanına gedək. Əgər qalib gəlsək mətləbimiz yerinə yetmiş olar, yox, əgər məğlub olsaq, elə bir alişan padşah tərəfindən məğlubiyyətimizin heç bir eybi olmaz" (118).

Din Məhəmməd xan yaxşı başa düşürdü ki, artıq fürsət onun əlindən çıxmışdır və geri qayıtmağa vaxtı çatmayacaqdır. Qızılbaş qoşunları o dərəcədə yaxında idilər ki, özbəklərin geri çəkiləcəyi halda onlar tərəfindən haqlana bilərdilər. Ona görə də o, qızılbaş qoşunları ilə döyüşə girmək qərarını qəbul etdi. Döyüşə başlamazdan əvvəl özbək döyüşçüləri qızılbaş döyüşçülərindən birini əsir götürərək Din Məhəmməd xanın yanına gətirdilər. Ondan alınan məlumat da təsdiq etdi ki, Şah Abbas doğrudan da böyük bir qoşun dəstəsi ilə Xorasan vilayətinə gəlmişdir. İsgəndər bəy Münşinin yazdığına görə, Din Məhəmməd xan həm də vəziyyəti real şəkildə qiymətləndirə bilmədiyi və çox qürrələndiyi üçün döyüşə girməyi qərar aldı. O, bu döyüşü çətinlik çəkmədən uğurla başa vuracağına da inanırdı. Səhəri gün qızılbaş qoşunları uzaqdan görünəndə Din Məhəmməd xan öz qoşun dəstəsini döyüş aparılması üçün qruplaşdırdı. Döyüşü başlamalı olan çərxçilər müəyyənləşdirildi, Din Məhəmməd xanın oğlu və bir neçə təcrübəli özbək əmiri qoşun dəstəsinin sağ cinahına göndərildi. Din Məhəmməd xan cinah hücumları taktikasını tətbiq etməklə qızılbaş qoşunlarına zərbə vurmağı planlaşdırırdı. Ona görə o özü də qoşun dəstəsinin sol cinahında qərar tutdu. Din Məhəmməd xanın yanında bir min nəfər sayında seçilmiş döyüşçü var idi və onların döyüşkənliyinə xüsusi bir ümid bağlanılırdı (119).

Conabedinin verdiyi məlumata görə, qızılbaş qoşunlarının gəlməsi xəbərini eşidəndə Din Məhəmməd xanın yanında olan qoşundan 12 min nəfəri Heratı tərk edib Məşhədə tərəf üz tutdu. Çünki onların ailələri, var-dövlətləri orada idi və onları qızılbaşların əlinə keçə biləcəyindən ehtiyat edirdilər. Adı çəkilən müəllif onların Məşhədə çatıb-çatmadığına bir aydınlıq gətirmədən, sonradan ümumiyyətlə Xorasanı tərk edib Mavərənnəhrə yollandıqlarını yazırdı. Conabedinin məlumatına görə, özbək qoşun dəstəsinin döyüşqabağı qruplaşdırılması aparılarkən Din Məhəmməd xan mərkəzdə qərar tutdu. Onun qardaşları isə cinahlarda döyüşə qoşuldular (120).

Beləliklə, 1598-ci il avqust ayının 9-da tərəflər Rübati-Pəryan adlanan məntəqədə qarşı-qarşıya gəldilər. Verilən məlumata görə, bu zaman qızılbaş qoşunlarının heç də hamısı gəlib həmin məntəqəyə yetişməmişdilər. Buna baxmayaraq Şah Abbas döyüşü qəbul etmək qərarını verdi. Bundan əlavə, havaların çox isti olması üzündən qızılbaş döyüşçülərinin atlarının çoxu əldən düşmüşdü, qoşunlardan isə cəmin 3-4 min nəfərlik bir dəstə Şah Abbasın yanında idi. Buna baxmayaraq, Fərhad xanın rəhbərliyi altında olan qoşun dəstəsi həmin məntəqəyə yetişən kimi, Şah Abbas döyüşə başlamaq əmri verdi. Bu əmrə əsasən, Fərhad xan, Zülfüqar xan və çərxçi əmirləri 4-5 min nəfərlik dəstə ilə döyüş meydanına göndərildi. Şah Abbas qoşun dəstəsinin mərkəzində yer tutdu. Qoşunların sağ və sol cinahlarına isə tanınmış və təcrübəli qızılbaş əmirləri təyin edildilər. İlkin olaraq tərəflərin çərxçiləri irəli atıldılar və döyüşü başladılar. İsgəndər bəy Münşi tərəflərin çərxçilərinin bu qarşılaşmasında qızılbaş döyüşçülərinin üstün gəldiyini yazmışdır. Özbək çərxçiləri geri çəkilmək məcburiyyətində qaldılar. Amma özbək əmirləri özlərini toparlaya və döyüşü yenidən təşkil edə bildilər. Ona görə də onlar döyüşün ilkin mərhələsində ciddi bir uğur da əldə edə bildilər (121).

İsgəndər bəy Münşi bu döyüşün gedişini belə təsvir edirdi: “Çərxçi ləşkərinin basıldığını müşahidə edən Baqi xan [Din Məhəmməd xanın qardaşı]öz atını cəvanğar qoşunu ilə birlikdə irəli sürdü. Qızılbaşların çərxçi döyüşçüləri isə o ləşkərin hücumuna tab gətirməyərək geri qayıtdılar. Ləşkər sərdarının əlaməti olan bayraq (ələm) Fərhad xanın yanında olmadığı üçün, çərxçi əsgərləri o mərəkədə Fərhad xanı tapmadılar ki, onun başına toplaşsınlar. Bu vaxt, özbəklər hücuma keçdiklərindən, qızılbaş [çərxçiləri] böyük məğlubiyyətə uğradılar. Onların məğlub edilmələri xəbəri hümayun qola gəlib çatdıqda bu məsələ az qalmışdı ki, qolun çaxnaşmaya düşməsinə səbəb olsun. Döyüş meydanında bir neçə nəfərlə qalan Fərhad xan hərbə başladı, tutuşma zamanı yaralandı, məğlub edildi, həmkarları arasında fərar və məğlubiyyət damğası ilə töhmətləndirildi, üzünə fərar tozu qondu. Fərhad xa-

nın, çərxçi əmirlərinin və Azərbaycan ləşkərinin məğlub olduqlarını müşahidə edən əlahəzrət Allahverdi xan Qorçibaşıya, əzəmətli əmirlərə, qorçilərə və sağ və sol qulamlarına hərbə başlama icazəsi verdi. Onlar ali əmrə əməl edərək, düşmən ləşkərinə hücuma keçdilər. Qarşı tərəfdən də cəvanğar və bərənğar ləşkərləri cəng meydanına tərəf cumdular. Hər iki qoşun bir-birinə qarışdı, döyüş meydanının toz-torpağı iti fırlanan fələyədək ucaldı. O gün özbəklərin əksəriyyətinin müzəffər şah məiyyətinin buraya gəlişini bilərək məyus olmalarına baxmayaraq, onlar irəli çıxaraq mərdanə cənglər etdilər. Nəhayət hümayun qol və müqəddəs məiyyət tərəfindən cəngə çıxarılan dilavərlərin qorxunc zərbələrindən özbəklərin arasına çaxnaşma düşdü, döyüşdən aciz olub məğlubiyyətə məruz qaldılar, fəth və zəfər küləyi isə canfəda qazilər tərəfə əsməyə başladı” (122).

Özbək qoşunlarının döyüşün gedişində müəyyən üstün mövqe tutmaları qızılbaş qoşunlarının hamısını gəlib çatmaması ilə bağlı idi. Conabedi də yazırdı ki, döyüşün gedişində özbək dəstələri dəfələrlə üstünlük nümayiş etdirib qızılbaş dəstələrinə ağır zərbələr endirdilər və onlar qızılbaş qoşunlarının içərilərinə doğru xeyli irəliləyə bildilər. Bu döyüşdə Din Məhəmməd xanın qardaşlarının yaxşı vuruşmaları barəsində də məlumatlar vardır. Özbək qoşunları geri çəkilməyin onlar üçün daha ağır nəticə verə biləcəyindən qorxaraq bütün güclərini ortaya qoymuşdular. Nəticədə hər iki tərəfdən xeyli sayda itkilər oldu. Conabedi yazırdı ki, Fərhad xan hətta bütün dəstəsi ilə geri çəkilmək məcburiyyətində qaldı. Yəni qızılbaş qoşunları belə güclü bir müqavimətlə rastlaşmalı oldu. Din Məhəmməd xanın da fədakarlıqla döyüşə qatılması qızılbaşların vəziyyətini daha da ağırlaşdırdı. Conabedinin yazdığına görə, döyüşün gedişində bir qızılbaşı əsir edib Din Məhəmməd xanın yanına gətirdilər. Məlum oldu ki, həmin adam Fərhad xanın vəziri Xacə Mirzə Şəfidir. Din Məhəmməd xan ondan lazımi məlumatlar almaq istəsə də buna nail ola bilmədi. Əksinə, Mirzə Şəfi davamlı olaraq onu Səfəvi şahı ilə xoş münasibətlərə, tərəflər arasında savaşın dayandırılmasına dəvət etdi. Din Məhəmməd xan müəy-

yən tərəddüd keçirsə də, yenidən döyüşə atıldı. Ətrafında 3-4 min ox-kamanla silahlanmış özbək döyüşçüsü olan Din Məhəmməd xan xeyli irəliləyə bildi. Şah Abbasın ətrafında dayanmış qüvvələr Din Məhəmməd xanın dəstəsinin döyüşə-döyüşə irəliləməsini görüncə özlərini irəli atdılar. Bununla döyüş yenidən qızışdı, qılınc səsi, tüfənglərin gurultusu ərşə qalxdı. Bu zaman şah təbillərinin səsi eşidilməyə başladı. Bundan sonra Şah Abbasın göstərişi ilə ehtiyatda dayanan qızılbaş qüvvələri də döyüşə çıxarıldı və onların fədakarlığı və əzmkarlığı nəticəsində döyüş meydanında özbəklərin taqətini qırmaq mümkün oldu (123).

İsgəndər bəy Münşi isə Din Məhəmməd xanın özbək qoşunlarının sol cinahında şah qoşunlarına qarşı döyüşə girməsini yazırdı. Bu zaman o, şah qoşunlarının sağ cinahını hədəf almışdı. Bu zaman Din Məhəmməd xan müəyyən qədər irəliyə gedə bildi. Şah Abbas ətrafında olan iki yüz nəfərlik bir dəstə ilə döyüşün gedişini izləyirdi. Şah yanında dayanmış əmirlərdən biri ona qamışlıq olan istiqamətdən papaqları və paltarları parıldayan bir dəstə özbək döyüşçüsünün onlara tərəf hərəkət etmək istədiyini ərz etdi. Şah Abbas diqqət yetirdikdə həmin istiqamətdə irəliləyən dəstənin Din Məhəmməd xanın dəstəsi olmasını təxmin etdi. Şah yanında dayanmış qızılbaş dəstəsinə çağırış etdi və onları mərdanəliklə döyüşə qatılmağa səslədi: “Nə durmusunuz? Fərarın arı barədə duşunün və döyüş meydanına mərdanəliklə qədəm atın. Mərdanəliklə öldürülmək binamus yaşamaqdan yaxşıdır (124).

Şah Abbasın bu çağırışından sonra qızılbaş əmirləri və döyüşçüləri irəli atıldılar. Onlar qarşılarına çıxan özbək döyüşçülərinə faciəli anlar yaşatdılar və bir-bir onları vurub atlarından yerə saldılar. Bunun nəticəsi kimi, özbək döyüşçülərinin irəli hərəkəti dayandırıldı və onlara ağır zərbə vuruldu. Din Məhəmməd xan özü də döyüş meydanında vəziyyətin dəyişdiyini görüncə nə edəcəyini bilmədi. Tədricən özbəklər bu döyüşü uduzduqlarının şahidi oldular və geri çəkilmək yolunu tutdular. Şah Abbas özü də döyüşə qatılaraq Din Məhəmməd xanla şəxsən qarşılaşmaq fikrinə düşdü. Bu zaman qızılbaş döyüşçülərindən biri xəbər gətirdi ki, özbək-

lərin kifayət qədər ehtiyat qüvvəsi var və onlar da döyüşə qatıla bilərlər. Ona görə də Şah Abbasın döyüşə girməsi məsləhət bilinmədi. Döyüş meydanında olan özbəklər vəziyyəti heç cürə düzəldə bilmədilər. Hətta Din Məhəmməd xan da nizə yarası aldı və döyüş meydanını tərk etdi (125).

Özbək mənbələri Din Məhəmməd xanın Şah Abbas üzərinə hücum etmək cəhdinin bəzi məqamlarını toxunmuşdur. Bu mənbələrə görə, Din Məhəmməd xan doğrudan da Şah Abbasın olduğu cinaha hücum etmək istəyirmiş və bunun üçün qarşısındakı qamışlıq ərazidən keçməklə irəli hərəkət etməli imiş. Bu qamışlıq ərazini adlayanda Din Məhəmməd xanın yanındakı döyüşçülərin sırası artıq xeyli seyrəlmişdi. O, Şah Abbasın güman edildiyi əraziyə yönəlmək istəyəndə uzaqdan yaxınlaşmaqda olan qoşun dəstəsinin qaraltısını gördü. Özbək döyüşçülərinə elə gəldi ki, yaxınlaşmaqda olan dəstə Şah Abbasın qoşunlarındandır. Yəni onlar elə güman elədilər ki, gəlməkdə olan dəstə Şah Abbasın döyüş meydanında olan qüvvələrini gücünü daha da artıracaqdır. Özbək əmirləri qorxuya düşüb Din Məhəmməd xana geri çəkilməyi təklif etdilər. Onlar bildirdilər ki, döyüş meydanında olan qüvvələr artıq tükənmək üzrədir. Belə bir vaxtda Şah Abbas qoşunları onları əhatə edə bilərlər. Özbək bahadırları şübhə etmirdilər ki, Şah Abbasın yaxınlaşmaqda olan qüvvələri ilə qarşılaşmaq artıq mümkün olmayacaqdır. Bu qoşun dəstəsinin yaxınlaşması bütün özbək dəstəsinin bütünlüklə məhv olması demək idi. Son təklif bundan ibarət oldu ki, Din Məhəmməd xan aradan çıxmasa bu döyüşdə məhv olacaqdır. Belə olanda Din Məhəmməd xan da anladı ki, özbək dəstəsi artıq döyüşü davam etdirmək fikrində deyil. Onda o da geri çəkilmək qərarı verdi. Amma bu zaman özbək döyüşçüləri arasında nizamsızlığın və tərəddüdün baş verməsi müəyyən vaxt itkisinə səbəb oldu və qızılbaş dəstəsi də yaxınlaşaraq onları haqladı. Özbək döyüşçüləri hərəsi bir tərəfə qaçdı. Din Məhəmməd xanın yanında hətta onu mühafizə etməyə yetərli olacaq qədər döyüşçü qalmadı və elə bu qarışıqlıqda o da nizə yarası aldı. Belə

bir yara almasına baxmayaraq, Din Məhəmməd xan həyatını xilas edə bildi (126).

Şah Abbasın rəhbərliyi altında olan qoşun dəstəsi bu döyüşdə gözlənilən qələbəni qazandı. Bu döyüşdə iştirak edən çoxlu sayda özbək bahadırlarının böyük əksəriyyəti həyatlarını itirdilər. Qızılbaş qoşunları özbək dəstələrini döyüş meydanından Kəhdestan adlanan məntəqəyə çatana qədər təqib etdilər. Din Məhəmməd xanın qardaşları olan Baqi Mirzə ilə Vəli Məhəmməd xan da geri qaçanların sırasına qatıldılar. Çoxlu sayda özbək döyüşçüsü qətlə yetirildi. İsgəndər bəy Münşi onların sayının dörd minə çatdığını yazırdı. Xeyli sayda özbək döyüşçüsü əsir götürüldü. Bildirilir ki, Din Məhəmməd xan yaralı halda özünü Badğis vilayətinə yetirdi və mənsub olduğu qıpçaq elinə sığındı. Havanın qaralması ilə özbəklərin təqibi də dayandırıldı. Geri qaçan özbəklər özlərini şəhərə ataraq ailə üzvləri və var-yoxlarını götürüb Mavərənnəhr tərəfə üz tutdular. Şəhərdə yaxınları olmayanlar isə elə birbaşa Mavərənnəhrə tərəf üz tutdular (127).

Şah Abbas və onun məiyyəti əldə edilən uğurdan sonra Herat istiqamətində irəlilədi və Herata məxsus olan Pəryan karvansarasında düşərgə saldı. Burada əldə edilmiş uğur münasibətilə Şah Abbas da, onun ətrafı da Allaha dua mərasimi təşkil etdilər. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas burada dayandığı zaman xeyli sayda özbək əsirini bağışladı. Xüsusilə, yanında ailə üzvləri, qadınlar, uşaqlar olan özbək döyüşçüləri Şah Abbasın iltifatna layiq görüldülər. Şah Abbas özbəklərə qarşı aparılan döyüşdə fədakarlıq və qəhrəmanlıq göstərmiş qızılbaş döyüşçülərinin hamısını layiqincə mükafatlandırdı. Əldə edilmiş qələbə münasibətilə Herat daxilində şadyanalıqlar təşkil edildi. Şah Abbas eyni zamanda Heratın və bütünükdə Xorasan vilayətinin idarəçiliyinin tənzimlənməsi ilə də məşğul oldu. Herat şəhərinin hakimliyi və Xorasan vilayətinin əmirül-üməralığı əvvəlcə Fərhad xana tapşırıldı. Yuxarıda qeyd edildiyi kimi, elə həmin vaxtlarda Fərhad xan qətlə yetirildi. Bundan sonra Şah Abbas Herat hakimliyini və

Xorasan vilayətinin əmirül-üməralığını şəmşir qorçusu Hüseyn xan Şamlıya həvalə etdi (128).

Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas hələ Məşhəddə olarkən keçmiş Mərv hakimi Nur Məhəmməd xanı Nisa, Əbivərd və Mərvin ələ keçirilməyə və orada hakimliyini bərpa etməyə göndərdi. Onu müşayiət edən qızılbaş dəstəsinə Şah Abbasın əmri ilə Budaq xan rəhbərlik edirdi. Bu dəstə əvvəlcə Bağdad (bölgədə yerləşən şəhərdir) şəhərinə yaxınlaşdı. Qızılbaş dəstəsi bura yetişəndə Bağdadın özbək hakimi və sakinləri artıq Şah Abbasın rəhbərliyi altında qızılbaş qoşunlarının Məşhədi azad etməsi, Herat istiqamətində irəliləməsi haqqında məlumat aldı. Ona görə də Bağdad və ardınca da Nisa və Əbivərd qızılbaş dəstəsinin nəzarəti altına düşdü. Sonra isə Nur Məhəmməd xan və qızılbaş dəstəsi Mərv şəhərinə yaxınlaşdı. Mərvin hakimləri sözsüz ki, Nur Məhəmməd xanın böyük qüvvə ilə öz hakimliyini geri qaytarmaq üçün şəhər ətrafına gəlməsindən heç də xoşlanmadılar. Amma şəhər sakinləri arasında Nur Məhəmməd xana köhnə hakim kimi rəğbətli münasibət bəsləyənlər də çox idi. Bu da şəhər hakimlərini narahat edirdi. Onlar anlayırdılar ki, Nur Məhəmməd xanın Mərv ətrafına yürüş etməsi həm də Şah Abbasın Xorasana qoşun çəkməsi ilə dəstəklənir. Şəhər hakimləri çıxış yolunun olmadığını gördükdə şəhəri tərk etməyi üstün tutdular. Mərv hakimləri əvvəlcə Herata yollanmaq və orada Din Məhəmməd xana qoşulmaq istədilər. Amma xəbər tutdular ki, Şah Abbas qoşunları artıq Herat ətrafındadırlar. Ona görə də onlar Mərvi tərk edib Buxaraya üz tutdular. Mərv əhalisi şəhər divarları kənarına çıxaraq Nur Məhəmməd xanı və qızılbaş dəstəsini böyük sevinclə qarşıladı. Bununla Şah Abbasın lütfünə sığınmış olan özbək Nur Məhəmməd xan qızılbaş qoşun dəstəsinin köməyi ilə öz əvvəlki hakimliyini geri qaytardı. O, Mərv hakimliyinə yiyələndikdən sonra Şah Abbasın adına xütbə oxutmaqla sikkə də kəsdirdi. Şah Abbasa pənah gətirmiş Xarəzm padşahı Hacı Məhəmməd xan da qızılbaş qoşun dəstəsinin köməyi ilə öz əvvəlki vəzifəsini geri qaytara bildi. Bununla bağlı o, Şah Abbas hələ Xorasan vilayətində olarkən ona

məktub göndərdi, Səfəvi şahının köməyi nəticəsində Xarəzm padşahlığını bərpa etməsini ona çatdırdı (129).

Xorasanın özbək qoşunlarından azad edilməsi məsələsi Şah Abbası hakimiyyətinin elə ilk günlərindən ciddi narahat edirdi. Lakin səltənət daxilində cərəyan edən hadisələr Şah Abbasa imkan vermirdi ki, bu məsələnin həlli ilə məşğul olsun. Herat ətrafında əldə edilən qələbə ilə Şah Abbas irsən ona əmanət edilmiş səltənətin müdafiəsində qətiyyətli olduğunu nümayiş etdirməklə Xorasan vilayətini şah hakimiyyətinin nəzarəti altına qaytardı. O eyni zamanda Xorasan vilayətinə qonşu olan özbək xanlıqlarında və vilayətlərində də Səfəvi sarayı ilə xoş münasibətlərdə keçmiş olan hakimiyyətləri bərpa etdirdi və bununla Xorasan vilayətinə iddialı olan özbək hakimlərinə ciddi zərbə vuruldu.

Uzun müddət həyat sürdüyü Herat şəhərində yenidən Səfəvi hakimiyyətini təşkilatlandırdıqdan, bu şəhərin sakinlərini qayğılandıran məsələlərə aydınlıq gətirdikdən sonra Şah Abbas Məşhəd şəhərinə döndü. "Oraya çatıb bir ayadək həmin cənnətnişan yerdə dayandı, müqəddəs astana sərkarının işlərinə əl yetirdi, oranın xidmətçilərinə, müdərrişlərinə, heffazlarına, başqa əmələ və xidmətkarlarına, kasıblara və təqaüdçülərə (ratebexar) cənnətməkan şahın hakimiyyəti vaxtında olduğu kimi kömək olundu. Sərkar üçün zəruri olan hər şeyi onun sərəncamına tapşırdı, ona qiymətli daşqaşlar, qızıl və gümüşlə işlənmiş qəndillər, şamdanlar, gözəl Kirman xalıları və qab-qacaq verildi, müqəddəs rövzənin gözəlləşməsinə çalışdı. O, müqəddəs Məşhəddə olduğu hər gün ərzində həmişə ziyarət səadətinə yetişdi, istəyi və etiqadı hədsiz olduğu üçün vaxtının çoxunu şəxsən xadimlik, fərraşlıq və sair işlərdə iştirakını əsirgəmədi, bu işləri görməklə iftixar etdi. Xorasanda daha heç bir görüləsi iş qalmadığından, müqəddəs rövzəyə əlvida dedi və zəfər ayəli ordu Radkan və Xəbuşan yoluyla Astrabada getməkdən ötrü Dəşte-Bəhryana doğru hərəkətə başladı" (130).

Məşhəddən sonra Şah Abbas Astrabada getmək və orada mərkəzi hakimiyyəti möhkəmləndirmək istəyirdi. Onun Astrabada uzanan yolu Radkan adlanan bir məntəqədən düşdü. Bu məntə-

qədə çoxlu sayda ov və çöl heyvanları mövcud idi. Ona görə Şah Abbas orada dayanıb ov etmək niyyətinə düşdü. Bu mərasimin keçirilməsi üçün ov ediləcək ərazilər əhatəyə alındı və həmin ərazilərə yayılmış olan bütün heyvanlar mərkəzə doğru sıxışdırılmağa başlandı. Nəticədə Şah Abbasın ova çıxacağı əraziyə çoxlu sayda heyvanlar sıxışdırıldı. Şah Abbasın və onun ətrafındakıların təsəvvür edə bilmədiyi qədər ov heyvanları bu məkana toplaşdılar. Əhatə olunmuş ərazinin eni təxminən bir fərsəx idi və bu ərazidə toplanmış olan ov heyvanları arasında çoxlu sayda çöl eşşəyi də var idi. Bu çöl eşşəkləri Şah Abbasın diqqətini cəlb etdi və əvvəlcə təklikdə ov meydanına atıldı. Şah Abbas bu mərasimdə bir daha necə bacarıqla at çapdığını və ox atdığını nümayiş etdirdi. Bir gün səhərdən axşama qədər Şah Abbas bu işlə məşğul oldu. "O, ... atını həmin nişat artıran meydanda çövlana gətirərək cilovu o gurxərlərə tərəf çevirdi, onları bir qədər qovduqdan sonra ox və qılınc ilə hamısını yaralayıb yerə yıxdı. Döyüş meydanının get-gedə genişləndiyi sübh çağından axşama qədər şah at sürməkdə və ov ovlamaqda oldu. İzzət büsatının cəmisi iki-üç yaxın adamı şahın yanında şikara çıxmışdısa da, onlara ov ovlamaq icazəsi verilməmişdi. O həzrət bəhrami kamanı hər dəfə işə saldıqca cilovdarlar iti qanadlı qartallar kimi ona dəstə-dəstə iti oxlar gətirirdilər. Qanadlarını geniş açmış o həzrətin çəkdiyi yayın səsindən ahular və başqa heyvanlar çaxnaşmaya düşürdülər. Əlahəzrətin ovladığı hər bir heyvan ona yaxın olan adamlar tərəfindən sayılırdı. ... Nadir hadisələrdəndir ki, bir neçə heyvanda qəribə hallar müşahidə olundu. Belə ki, həmin biçarələr başqa çarə tapmayıb qeybdən onlara gələn bir istək (elham) hissi ilə özlərini əlahəzrət dayanan yerə çatdırıb, oranı təhlükəsiz yer sandılar, o həzrətin dövrəsində dayandılar. Sonra bir neçə dövrə hərlənərək, hamısı o izzət və məqam sahibinə pənah gətirib, elə oradaca dizləri üstə çökdülər. Onların belə hərəkəti qoyunların "yataq" ("yətaq") etmələrinə bənzədi. Əlahəzrət bunu müşahidə edib ovu dayandırdı və hamıya bir daha heyvanlara toxunmağı qadağan etdi" (131).

Ov başa çatdıqdan sonra Şah Abbas Astrabada baş verən itaətsizlik hallarının aradan qaldırılması üçün həmin vilayətə tərəf hərəkətə başladı. Astrabaddakı itaətsizliklərina aradan qaldırılmasından sonra Şah Abbas qoşunu ilə Mazandarana yollandı. Burada şah hakimiyyətinə qarşı qiyam başlamışdı. Şah Abbas bu vilayətdəki işləri də sahmana salıb 1598-ci ilin sonlarında Qəzvinə doğru hərəkətə başladı. Məlumdur ki, güclü yağan qar Şah Abbasın keçməli olduğu yollarda ağır vəziyyət yaratmışdı. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbasın keçməli olduğu Dəmavənd dağının döşündə qarın hündürlüyü bir nizə boyunca idi. Buradakı ensiz dağ yolunda Şah Abbas atından yerə düşməli oldu və addım-addım qar tutmuş dar cığırla irəlilədi. Bu mürəkkəb dağ yollarını adladıqdan sonra Şah Abbas Qəzvinə doğru hərəkətini davam etdirdi: "...səltənət paytaxtı yenidən zəfərnişan məiyyətin gəlişindən gözəlləşib şadlandı, əhali hümayun məiyyətin istiqbalına çıxdı, şadimanlıq nağaraları ucadan səsləndi, Xorasan fəthinin səs-sorağı, dünyanı tutan şəhriyarın cahangirlik üsulları haqqında deyilənlər hər tərəfə gedib-çatdı, işrət əsaslı o şəhərdə abadlıq işləri başlandı, şəhər sevinc aləminin zinətini daha da artırdı. [Əlahəzrət] müzəffər əsgərlərə özlərinin məskən və vətənlərinə getmək icazəsi verdi, səfər cilovunu Qəzvindən İsfahan darüssəltənəsinə tərəf çevirdi, iki ulduz parıltısının (neyreyn) iki xoşbəxt ulduzla qarşı-qarşıya gəlib eyniləşəcək (məqarene) dörd hissəyə bölünməkdən (tərbi) uzaq olduğu bir saatda Nəqşe-cahanın "Bağe-cəhanara"sı dünyanı gəzən şah atının dırnaqlarından qopan tozlardan təmizlənib, ətirlənməyə başlayanda qışı olduqca böyük şadyanalıqla həmin cənnətnişan şəhərdə başa vurdu" (132).

**7. Şah Abbasın Xorasana yeni hərbi yürüşü**

1599-cu ilin Novruz bayramını Şah Abbas İsfahanda qeyd etdi. Əvvəlki illərdə olduğu kimi yenə də bu bayram çox böyük təntənə və şadyanalıqla təşkil olundu. Novruz bayramından sonra isə Şah Abbas yenidən Xorasan vilayətinə hərbi yürüş etmək qərarını

verdi. Bu yürüşün məqsədi bir tərəfdən Xorasanaın idarəçiliyinin təkmilləşdirilməsi, başa çatmamış işlərin yekunlaşdırılması, digər tərəfdən də Səfəvi hakimiyyəti ilə əməkdaşlıq istəyində olan özbək xanlarına kömək çatdırılması idi. Yuxarıda deyildiyi kimi, həm Hacı Məhəmməd xan, həm də Nur Məhəmməd xan Şah Abbasın əməli köməyi ilə öz əvvəlki vəzifələrinə bərpa olunmuşdular. Hacı Məhəmməd xan Xarəzm padşahlığını, Nur Məhəmməd xan isə Mərv xanlığını özünə qaytara bilmişdi. Amma Nur Məhəmməd xanın yenidən bu vəzifəyə gəlməsi bir çox özbək xanlarını və əyanlarını razı salmadı. Xüsusilə, Nur Məhəmməd xanın Səfəvi xanədanı ilə bağlılığı özbək xanlarının qəzəbini daha da artırırdı. Özbək xanlarının bu narazılıqlarının artması isə Nur Məhəmməd xanla birlikdə elə Səfəvi maraqlarına da bir təhlükə yaradırdı. Ona görə də Nur Məhəmməd xan öz hakimiyyətini möhkəmləndirmək üçün yenidən Şah Abbasın bölgəyə hərbi yürüş etməsini istəyirdi.

Şah Abbasın Xorasana yeni yürüşü ərəfəsində Nur Məhəmməd xandan məktub aldı. Məktubda yazılmışdı ki, Buxara xanlığının mərhum padşahı Canı bəy Sultanın soyundan, Abdulla xanın isə nəslindən olan Məhəmməd İbrahim sultan adlı birisi şah xidmətçiləri tərəfindən həbsə alınmışdır. Nur Məhəmməd xan bu adamın həbsdən azad edilməsini Şah Abbasdan iltimas edirdi. O, İbrahim xanı özünün oğulluğu, daha geniş mənada isə varisi kimi qəbul edirdi və istəyirdi ki, Məhəmməd İbrahim xan dinc həyata qayıtsın və idarəçilik işlərində ona kömək göstərsin. Ona görə də onun azad edilməsini Nur Məhəmməd xan Şah Abbas tərəfindən ona göstərilmiş böyük bir mərhəmət kimi qəbul edirdi. Nur Məhəmməd xan sonra da yazırdı ki, Buxara əmirləri ona qarşı cəbhə yaradıblar. Onun sözlərinə görə, Mavərənnəhr hakimliyi ona qismət olsa da, əslində, irsilik baxımından bu vəzifəyə daha çox Məhəmməd İbrahim sultan layiqdir. Nur Məhəmməd xanın fikrincə, Məhəmməd İbrahim sultanın azad edilməsi Şah Abbasa olan hörmət və ehtiramı daha da artıracaqdı (133).

Şah Abbas bu xahişi qəbul etdi və Məhəmməd İbrahim sultan həbsdən azad olundu. Onun Mavərənnəhrdə hakimiyyət başına gətirilməsi əslində, Səfəvi dövlətinin də maraqlarına cavab verirdi. Ona görə də Şah Abbas belə bir qərara gəldi ki, Məhəmməd İbrahim sultanı Məşhədin qızılbaş əmirlərinin birinin müşayiəti ilə birlikdə Mərv vilayətinə, Nur Məhəmməd xanın yanına göndərsin. Əgər özbək əmirləri doğrudan da Məhəmməd İbrahim sultanı dəstəkləyirdilərsə, onda onlar onu qarşılanmasına çıxmalı idilər. Bundan sonra isə Məhəmməd İbrahim sultanın sonrakı taleyinə aydınlıq gətirmək olardı. Amma çox keçmədi ki, Pir Məhəmməd xanın qətli xəbəri alındı. Onunla Baqi sultan arasında mövcud olan nifaq nəticəsində Pir Məhəmməd xan həyatını itirdi və Baqi sultan da Mavərənnəhr hakimliyini öz əlinə aldı. Şah Abbas özbək xanları arasında cərəyan edən proseslərdən daha ətraflı məlumat almaq üçün Mərv hakimi Nur Məhəmməd xana tapşırdı ki, Xudanəzər bəyi onun yanına göndərsin. Onun məlumatı dinlənildikdən sonra Məhəmməd İbrahim sultanın taleyi haqqında da uyğun qərar qəbul edilməli idi. Bir sözlə Mavərənnəhrdə cərəyan edən hadisələr Məhəmməd İbrahimin bölgəyə göndərilməsini bir müddət ləngitməli oldu (134).

Amma bu səfər təxirə salınmadı. Xorasana doğru irəliləyərkən Şah Abbas Semnandan keçdi və sonra Kalpus yolu ilə irəlilədi. Bu bölgəyə daxil olan Xəbas adlı məntəqədə Şah Abbasın səhhətində problemlər yarandı və ona görə də orada düşərgə salmalı oldu. Onun qızdırması qalxdı. Həkimlər müalicə işlərinə başlasalar da Şah Abbasın xəstəliyi bir aya qədər uzandı. Şahın xəstəliyinin sağalması üçün yaradana dualar edildi, kasıblara nəzir və sədəqələr paylandı. Təxminən bir aydan sonra şahın vəziyyəti düzəlməyə başladı. Özünü yaxşı hiss etməyə başlayandan sonra Şah Abbas məiyyəti və yanındakı qoşun dəstəsi ilə birlikdə Əsfəreynə tərəf hərəkətə başladı. O, həmin məntəqədə də daha 20 gün dayandı və orada da təbiblər onun müalicəsini davam etdirdilər. Şah Abbasın xəstə olduğu günlərdə Xudanəzər bəy də onun hüzuruna gəlib yetişdi və Mavərənnəhrdə cərəyan edən hadisələr haqqında ona

məlumat verdi. Elə həmin günlərdə Məhəmməd İbrahim sultan da Şah Abbasın dərgahına yetişdi. Şah Abbas onu sevinclə qarşıladı, ona xan ləqəbi verdi və onu "fərzənd" adlandırdı. Şah Abbasın əmri ilə Xudanəzər bəy Məhəmməd İbrahim sultanın atalığı və divanbəyi oldu. Sonra da onların birlikdə Bəlxə göndərilməsi qərara alındı. Şah Abbas Bəlxdə hakimiyyəti ələ keçirmiş Əbdüləmin xana nəvaziş dolu bir məktub yazdı, onu da fərzənd adlandıraraq Məhəmməd İbrahim sultanın Mavərənnəhr hakimliyinə daha çox haqqı olduğunu bildirdi. Həmin məktubun məzmunu belə idi: "Mavərənnəhr məmləkəti mərhum padşah Canı bəy xan övladının qədimdən bəri irsi yurdu və məskənidir. Hazırda onun adlı-sanlı övladından uca nejadlı Məhəmməd İbrahim [sağ] qalmışdır, və o, bizim hər ikimiz üçün izzətli fərzənd kimidir. Bizim qüdsnişan xanədanımız vəlayət və kəramət dudmanından olduğu üçün Məhəmməd İbrahim xan Allahın təqdirinə görə bu dudmana gəlmişdir. O uca nejadlı [Əbdüləmin xan] da biz hümayun nəvvaba (Şah Abbasa – red.) qarşı sədaqət və dostluq məqamındadır və bu dudmanla birlikdədir. Elə biz də yaxşılıqdan ötrü sabiq kobudluğu öz yaddaş aynamızdan silib, onların ailəsinin (Canı bəy xan ailəsinin – red.) ehya olunması ilə məşğuluq, sizə imdad və həmrahlıq etməkdə mümkün qədər (həsəbül-məqdur) diqqət yetirib, yaxamızı bu məsələdən kənara çəkməyəcəyik. Bizim yaxşılıq etməkdən başqa mətləbimiz yoxdur. Qeyrət və mərdanəlik bunu tələb edir ki, bir-birimizlə qardaşlıq ittifaqına girərək, irsi mülkü geri qaytarmağa çalışaq, məmləkəti tutan biganələrin saxtakarlıq əllərini ata-babaların yurd və məskənlərindən uzaqlaşdıraq" (135).

Şah Abbas açıq şəkildə Bəlx hakiminin diqqətinə çatdırdı ki, Mavərənnəhr hakimliyinə daha çox haqqı olan Məhəmməd İbrahim xanı dəstəkləməkdədir və onun bu vəzifəyə sahib olmasını istəyir. Bu niyyətin həyata keçirilməsini asanlaşdırmaq üçün Şah Abbas eyni zamanda Bəlx əmirlərinə və böyüklərinə də məktub göndərdi, onları da Məhəmməd İbrahim xanın Mavərənnəhr taxtına çıxarılmasına dəstək verməyə çağırdı. Şah Abbasın belə fəal mövqeyi Məhəmməd İbrahim xanı da fəal hərəkətə keçməyə

ruhlandırdı və Səfəvi şahından xahiş etdi ki, Mavərənnəhrin və Türküstanın onun adına yazılması barəsində hökm versin. Şah Abbas da onun bu xahişini qəbul etdi. Həmin hökm Şah Abbasın münşisi olan İsgəndər bəy Münşi tərəfindən yazıldı və Şah Abbasın möhürünün vurulmasından sonra onu Məhəmməd İbrahim xana təqdim edildi. Şah düşərgəsi Əsfəreyndə olarkən Məhəmməd İbrahim xan Şah Abbasdan icazə alaraq Bəlxə doğru hərəkətə başladı. Məşhəd hakimi olan Budaq xan da öz qoşun dəstəsi ilə onunla birlikdə yola düşdü. Amma Şah Abbasa bəlli deyildi ki, Məhəmməd İbrahim xan Bəlxdə hansı bir şəraitlə qarşılaşmalı olacaqdır. Ona görə də, Şah Abbas qərara gəldi ki, Məhəmməd İbrahim xanın tez-tələsik Bəlxə getməsinə ehtiyac yoxdur. O, Məhəmməd İbrahim xana xəbər göndərdi ki, bir müddət gözləsin. Şah Abbas istəyirdi ki, Məhəmməd İbrahim xan da onunla birlikdə Herata getsin və Heratda dayandığı günlərdə onu Bəlxə yola salsın. Bəlx Herata yaxın idi və zərurət yarandığı halda Heratdan Bəlxə kömək çatdırmaq daha asan ola bilərdi. Şahın göstərişinə əsasən, Məhəmməd İbrahim xan Məşhəddə dayanıb gözləməli idi. Bundan sonra Şah Abbas özü də Məşhədə doğru hərəkətini davam etdirdi (136).

Şah Abbas Məşhədə yetişən kimi İmam Rzanın rövzəsinə yollandı, onun məqbərəsini ziyarət etdi. O, burada xeyli müddət dayanmalı oldu və 1599-cu ilin sonunu 1600-cü ilin ilk aylarını Məşhəddə keçirdi. Həmin müddət ərzində Şah Abbas davamlı şəkildə İmam Rza rövzəsində oldu, dua və ibadət etdi, orada özünə daxili bir rahatlıq tapdı. Məşhəddə dayanarkən Şah Abbas eyni zamanda yerli idarəçilik işlərinin tənzimlənməsi, habelə ov işləri ilə də məşğul oldu. Səfəvi şahı Novruz bayramını da Məşhəddə qeyd etdi, bu şəhərdə şah adına layiq olan bayram şənlikləri təşkil etdirdi. Novruz şənlikləri başa çatandan sonra isə Şah Abbas Herata yola düşdü. Bu şəhərə çatmamış Bağe-şəhr adlanan məntəqədə düşərgə salındı. Herat hakimi olan Hüseyn xan Şamlı və şəhər nümayəndələri burada şahın istiqbalına çıxdılar. Herata yetişdikdən sonra  Şah Abbas həm Xarəzm hakimi Hacı Məhəmməd xana,

həm də Mərv hakimi Nur Məhəmməd xana məktub göndərdi, Mavərənnəhr məsələlərinin həlli ilə bağlı məsləhətləşmələr aparmaq üçün onları yanına çağırdı. Xarəzm hakimi Hacı Məhəmməd xan şah məktubunu alan kimi dərhal onun yanına yola düşdü. Lakin yolda ikən onu xəstəlik tutdu və səhhəti yaxşılaşmadığı üçün üzr istəyərək geri qayıtmalı oldu. Şah Abbas onun bu üzrünü qəbul etdi. Nur Məhəmməd xana gəlincə isə o, müxtəlif bəhanələr irəli sürməklə Şah Abbasın hüzuruna gəlməkdən imtina etdi. Bu isə heç də Şah Abbasın xoşuna gəlmədi və onun Nur Məhəmməd xana olan etibarını aradan qaldırdı (137).

Heratda olarkən Şah Abbas məlumat aldı ki, Bəlx əhalisinin bir hissəsi Məhəmməd İbrahim xanın geri qayıtmasını istəyir. Bu şəhərin əhalisinin başqa bir hissəsi isə vilayətin o zamankı hakimi Əbdüləmin xanın tərəfində idilər. Həmin insanlar Məhəmməd İbrahim xanım Bəlxə gəlməsini istəmirdilər. Belə olanda Məhəmməd İbrahim xanın Bəlxə göndərilməsi məsələsi ətrafında tərəddüd yarandı. Şahın yaxın ətrafının toplantısında aparılan məsləhətləşmələrdən sonra qərara alındı ki, Bəlx vilayətinin birdən-birə Məhəmməd İbrahim xanın hakimliyi altına verilməsi fikrindən əl çəkilsin. Təklif olundu ki, bu məsələnin ehtiyatlı həlli üçün cəhd göstərilsin. Belə ki, Məhəmməd İbrahim xan Bəlxə yollanaraq oranın hakimi Əddüləmin xanı özünün böyük qardaşı kimi qəbul etsin, onun hakimliyi ilə razılaşsın. Əbdüləmin xan vilayətin hansı məntəqəsini məsləhət bilsə Məhəmməd İbrahim xan orada hakimliyə başlasın, Əbdüləmin xanın bütün əmr və tapşırıqlarını da icra etsin. Mavərənnəhrin fəthinə qədər Məhəmməd İbrahim xan bu vəziyyətlə barışmalı idi. Mavərənnəhr fəth ediləndən sonra isə Məhəmməd İbrahim xan bu diyarın hakimi taxtına otura bilərdi (138).

Yola düşməzdən əvvəl Şah Abbas bir daha Məhəmməd İbrahim xanı qəbul etdi, ona öz nəsihət və məsləhətlərini verdi və Xudanəzər bəyi də ona qoşdu. Şah, Məhəmməd İbrahim xana təkidlə məsləhət bildi ki, Xudanəzər bəyin sözlərinə qulaq assın və Əbdüləmin xanla da mülayim dolansın. Sonra şah tərəfindən Məhəm-

məd İbrahim xana qiymətli hədiyyələr bağışlandı və o, Məşhəd hakimi Budaq xanın müşayiəti ilə yola saldı. Eyni zamanda İmamqulu xan Pakizə Türkman vasitəsilə Əbdüləmin xana Şah Abbasın məktubu göndərildi. Şah Abbas bu məktubunda Bəlx hakiminə xoş məzmunlu sözlər yazdı və bildirdi ki, əgər öz hakimiyyətinin möhkəmləndirilməsi üçün qızılbaş qüvvələrinin köməyinə ehtiyac duyarsa, belə bir köməyin təqdim olunması mümkündür. İmamqulu xan Bəlxə Məhəmməd İbrahim xandan əvvəl çatmalı idi ki, onun gəlişi barədə şəhər sakinlərinə, əmir və əyanlarına vaxtında xəbər verilsin. Amma Bəlx əmirləri və əyanları əvvəlcə Əbdüləmin xanın icazəsi olmadan Məhəmməd İbrahim xanın qarşılanmasına yollanmağı mümkün saymadılar. Lakin sonradan şəhər ağsaqqallarının məsləhəti ilə Məhəmməd İbrahim xanın qarşılanması mümkün sayıldı və bir sıra adamlar onu qarşılamağa çıxdılar. Bununla belə, Məhəmməd İbrahim xanın gəlişi heç də böyük sevinclə qarşılanmadı. Xüsusilə, Məhəmməd İbrahim xanı müşayiət edən qızılbaş dəstəsinin Bəlxə daxil olması məsələsi narazılıqla qarşılandı. Bəlx əmirləri və əyanları bildirdilər ki, onların qızılbaş dəstəsinin köməyinə ehtiyacı yoxdur. Amma o da bildirildi ki, Məhəmməd İbrahim xan təklikdə Bəlxə gəlsin və özbəklər onunla özləri bildiyi kimi rəftar etsinlər. Budaq xanla Xudanəzər bu təklifi qəbul etmədilər və Məhəmməd İbrahim xanın təklikdə Bəlxdə qalması ilə razılaşmadılar. Belə olanda qərara alındı ki, məsələ Şah Abbasa ərz olunsun və onun qərarı öyrənilsin. Şah Abbasdan xəbər gələnə qədər isə Məhəmməd İbrahim xan və onun yanında olanlar bir neçə mənzil geri çəkilmək qərarına gəldilər. Məhəmməd İbrahim xanı Bəlxə buraxmadıqları üçün bu şəhərin böyükləri Şah Abbasın narazı qalmasndan da qorxu keçirməyə başladılar. Şah qəzəbindən nicat tapmaq üçün onlar öz nümayəndələrini Şah Abbasın dərgahına yolladılar və Məhəmməd İbrahim xanın Bəlxə deyil Buxara üzərinə qoşun çəkməsini istədiklərini bildirdilər. Bununla belə, sonda Məhəmməd İbrahim xanın Bəlxə buraxılması məsləhət bilindi. Hətta Əbdüləmin xan özü də Məhəmməd İbrahim xanın qarşılanmasına çıxmağı lazım bildi.

Qarşılanma mərasimi icra olunduqdan sonra Məhəmməd İbrahim xan şəhərə daxil oldu. Elə həmin günlərdə Əbdüləmin xana edilən sui-qəsddən sonra Məhəmməd İbrahim xan Bəlx vilayətinin hakimi vəzifəsinə yüksəldi (139).

Şah Abbas eyni zamanda onun görüşünə gəlməkdən imtina etmiş Mərv hakimi Nur Məhəmməd xanın məsələsi ilə də məşğul olmağa vaxt tapdı. O, Nur Məhəmməd xanın bu saymazyanalığını qəbul etmədi. Amma qəzəbini də birdən-birə ortaya qoymaq istəmədi. Şah Abbas onun yanına öz elçisini göndərdi, şah hüzuruna gələ bilmədiyi üçün onun günahlarını bağışladığını bildirdi. Şah Abbas həm də Nur Məhəmməd xana məktub göndərdi. Bu məktubunda Şah Abbas bir daha Nur Məhəmməd xanı öz yanına dəvət etdi. Əks təqdirdə isə Şah Abbas özünün Mərvə gələcəyini onun nəzərinə çatdırdı. Həmin məktubda deyilirdi: "Hümayun məiyyətin Xorasana bu dəfəki yürüşü o qardaşa (yəni Baqi xan Özbəkin qardaşı Nur Məhəmməd xana – red.) yardım etmək idi. Bizim aramızda daim mövcud olan bir neçə illik yaxınlaşma (məaşirət və həmsöhbəti) tələb edirdi ki, bizim tərəfimizdən görüş xahişi olunan kimi gərək o qardaş dərhal hümayun məiyyəti Damğan və Bəstamda qarşılayaydı. Sən əgər indiyəcən Baqi xanın qəzəbindən qorxursansa [bu qorxu əbəsdir], çünki, biz hazırda dövlət və iqbalın gücü ilə Xorasandayıq, Bəlxdə hakimiyyətə çıxmış Məhəmməd İbrahim xandan isə sənə heç bir zərər dəyməz. Əgər [bu dəfə] aramızda görüş baş tutmazsa, adamlar bizim əlaqəmizin kəsilməsini düşünərlər və başqa fikrə düşərlər. Özlərini sənin tərəfdarın kimi göstərən və səni bizim yanımıza gəlməyə qoymayan adamlar isə, həqiqətdə sənin tərəfdarın deyillər və sənin pisliyinə çalışırlar. Belə bir vəziyyətdə, yaxşısı budur ki, bu məsələ xüsusunda heç kimə qulaq asmayıb, sədaqətli bir dost kimi yanımıza gələsən, bir neçə günlük görüşdən sonra izzət və ehtirama layiq olub geri qayıdasan. Xülasə, biz sizinlə hökmən görüşmək istəyirik. Əgər sən gəlməsən, bizi tezliklə qarşıla ki, şikar edə-edə Mərvə gəlib səninlə görüşəcəyik. Bu iki şərtdən hansını qəbul etsən, biz ona əməl edəcəyik" (140).

Məktubu çatdıran Çaryar ləqəbli Xosrov bəy Nur Məhəmməd xanla görüşündə onun Şah Abbasın hüzuruna getməsini məsləhət bildi. Nur Məhəmməd xan da baş verənləri və verə biləcəkləri dəyərləndirdikdən sonra Şah Abbasın hüzuruna yollanmağı daha düzgün qərar hesab etdi. Amma yaxın ətrafında olan bəzi əyanlar onun şah hüzuruna getməsini məsləhət bilmədilər. Həmin adamlar Nur Məhəmməd xanı inandıra bildilər ki, şah hüzuruna yollanması onun üçün təhlükəli ola bilər. Belə olanda Nur Məhəmməd xan şah məktubunu gətirmiş Xosrov bəyə üzrxahlıq edib öz əvvəlki fikrindən döndü. Əyanları Nur Məhəmməd xanı inandıra bilmişdilər ki, Şah Abbas Mərv vilayətini ələ keçirmək istəyir. Ona görə də çalışır ki, Nur Məhəmməd xanı ələ keçirsin və Mərv vilayətindən uzaqlaşdırsın. Amma Nur Məhəmməd xanın ətrafında olanların heç də hamısı onun şah hüzuruna yollanmasının əleyhinə deyildilər. Lakin bu fikrin tərəfdarları Nur Məhəmməd xanı inandıra bilmədilər və o, şah hüzuruna getməkdən imtina etdi (141).

Nur Məhəmməd xan Mərv hakimliyinə qızılbaş qoşunlarının gücü ilə sahib olsa da, Səfəvi sarayına sədaqətli qalmamışdı. Elə həmin günlərdə o da məlum oldu ki, Nur Məhəmməd xan Bəlx hakimi Əbdüləmin xana da dəfələrlə məktub yazmış və onu da Şah Abbasa qarşı itaətsizlik yoluna çəkməyə çalışmışdı. Həmin məktubları Məhəmməd İbrahim xan ələ keçirərək Şah Abbasa göndərmişdi. Bütün bunlar Şah Abbas tərəfindən qəzəblə qarşılansa da, o öz qəzəbini üstələyə bildi və çalışdı ki, Nur Məhəmməd xanla münasibətləri dinc yolla qaydaya salsın. Nur Məhəmməd xan isə şah hakimiyyətindən uzaqlaşmaq niyyətində olduğunu açıq şəkildə nümayiş etdirdi. O, hətta şaha sədaqətini kəsməyən Əbivərd hakimi Mirzə Xacə Kəlana qarşı düşmənçilik əməllərinə meydan verdi. Mirzə Xacə Kəlan isə bir dəfə Əbivərd qalasını yaxın hesab etdiyi Mürşüdqulu sultan Cəlayir adlı birisinə tapşıraraq Şah Abbasın himayəsində yaşamaq qərarına gəldi. Mürşüdqulu sultan isə Şah Abbasın fərmanı olmadan Əbivərd qalasının hakimliyini öz üzərinə götürmək istəmədi. Nəhayət bu barədə razılığa gəlinəndən sonra Mirzə Xacə Kəlan Herata yollandı və

orada Şah Abbasla görüşdü, şaha Nur Məhəmməd xanın itaətsizlik yolunu tutması barəsində yetərli dəlillər çatdırdı. Bu məlumatdan sonra Şah Abbasda artıq şübhə yeri qalmadı ki, Nur Məhəmməd xan ona qarşı itaətsizlik yolunu tutub və onun qarşısını yalnız silah gücünə almaq olar (142).

Nur Məhəmməd xan isə biləndə ki, Əbivərd qalasına Mürşüdqulu sultan rəhbərlik edir, onda bu qalanı ələ keçirmək fikrinə düşdü. O öz adamlarından birini Mürşüdqulu sultanın yanına göndərdi və ondan tələb etdi ki, Əbivərd qalasını tərk etsin. Nur Məhəmməd xanın fikrincə, Mürşüdqulu sultan onun ərazisinə müdaxilə etmiş və şah fərmanı olmadan Əbivərd qalasına hakimliyi ələ keçirmişdi. Mürşüdqulu sultan isə bildirdi ki, onun Əbivərd qalasına gəlməsindən Şah Abbasın xəbəri vardır. Əbivərd qalasına rəhbərlik etmək haqqında şah fərmanı isə hələ gəlib çatmamışdı. Mürşüdqulu sultan onu da əlavə etdi ki, Şah Abbasın hökmü olmadan o, Əbivərd qalasını tərk edə bilməz. Amma Nur Məhəmməd xan fənd işlədərək Mürşüdqulu xanı qaladan çıxara bildi və həmin qalanı öz nəzarəti altına aldı. Bu xəbər də Şah Abbasın Nur Məhəmməd xan itaətsizliyini aradan qaldırmaq qərarını qətiləşdirdi. O, məiyyəti və yanındakı qoşun dəstəsi ilə Heratı tərk edərək Sərəxs yolu ilə Mərvə tərəf üz tutdu. Şah qoşunlarının gəlməsi xəbərini eşidəndə Nur Məhəmməd xan Mərv və Əbivərd qalalarını etibarlı olan adamlara tapşırdı və özü isə müqavimət göstərməyə hazırlaşmağa başladı. Şah Abbas isə hələ də Nur Məhəmməd xan itaətsizliyinin aradan qaldırılmasının dinc yolunu kənara qoymamışdı. O, fikirləşirdi ki, Nur Məhəmməd xan şah dəstəsinin qarşılanmasına gəlsə, şaha öz itaətini bildirsə və şahın xidmətində dayansa onun bütün günahları bağışlana bilər. Şah Abbas nəzərdə tutmuşdu ki, belə olduğu təqdirdə Nur Məhəmməd xanın bütün günahlarını bağışlayacaq və onu öz vəzifəsində saxlayacaqdır. Şah özü isə bölgədə bir qədər ov edəndən sonra yenidən Məşhədə qayıda bilərdi. Əks təqdirdə isə Nur Məhəmməd xanın cəzalandırılması qaçılmaz idi (143).

Şah Abbas özü də yanında olan 460 nəfərlik bir dəstə ilə Əbivərdə tərəf yola düşdü. O, yolu üzərindəki bəzi məntəqələrdə ovla da məşğul oldu və sonra da Əbivərd qalasını mühasirəyə aldı. Başqa bir qoşun dəstəsi isə Mərvə tərəf yola düşdü. Həmin qoşun dəstəsinin tərkibinə Xorasan bəylərbəyi Hüseyn xan Şamlı, Maruçaq hakimi Bəktaş sultan, Ğuryan hakimi Qənbər xan Şamlı, Sərəxs hakimi Hüseyn xan da verilmişdilər. Mərvdə də Nur Məhəmməd xanın rəhbərliyi altında böyük bir qoşun dəstəsi toplanmışdı. Bu dəstənin sayı Mərv üzərinə hücum edən qızılbaş qoşun dəstəsinin sayından da çox idi. Buna baxmayaraq qızılbaş dəstəsinin yaxınlaşması xəbərini eşidəndə Nur Məhəmməd xan qorxuya düşdü. Qala daxilindəkilər isə şah qoşunlarının qorxusundan qaçıb dağılmağa da başladılar. Nisa, Dərun və Bağdadda (Mərv yaxınlığında olan məntəqə nəzərdə tutulur) məskunlaşmış beş min nəfərlik cəlayir, əli eli və sainxani oymaq adamları dərhal Mərvdən ayrılıb öz yurdlarına döndülər. Nur Məhəmməd xanın yanında cəmi 2-3 min nəfərlik bir dəstə qalmışdı. Bu dəstənin üzvlərinin də çoxu sonradan onun yanında qalmaqdan imtina etdilər (144).

Mərvin tezliklə ələ keçirilməsinin təmin edilməsi üçün Şah Abbas bu şəhərə göndərilmiş şah qoşunlarının gücləndirilməsinə qərar verdi. Onun əmri ilə Məşhəd hakimi Budaq xan və Nişapur hakimi Mirzə Məhəmməd sultan Bayat Mərv ətrafındakı qoşun dəstəsinin gücləndirilməsinə göndərildi. Sonra Astrabad hakimi Hüseyn xan Qacara tapşırıq verildi ki, tabeliyində olan qoşun dəstəsi ilə Nisa qalasının alınmasına yollansın. Əsfəreyn və bəzi məntəqələrin hakimləri də Hüseyn xan Qacarın köməyinə verildi. Fars hakimi Allahverdi xan və Kirman hakimi Gəncəli xan isə Əbivərd qalasının alınması üçün Şah Abbasın yanında olan qoşun dəstəsinin gücləndirilməsinə çağırıldılar. İsgəndər bəy Münşinin yazdıqlarından belə aydın olur ki, Əbivərd qalası kifayət qədər möhkəmləndirilmiş bir qala idi və onun alınması üçün şah qoşunları ciddi tədbirlər həyata keçirməli oldular. O cümlədən, qala divarları altından lağımlar atıldı, qala divarları üzərinə yol tapmaq üçün dolu çuvallar bir-birinin üstünə qalaqlandı, qalavurma alət-

ləri işə salındı. Əbivərd qalasının mühasirəsi iyirmi dörd gün davam etdi. Qala ətrafındakı qüvvələrin artmasını və mühasirənin güclənməsini görəndə Əbivərd hakimi Qasım bəy Şah Abbasdan aman istədi və onun yanına gələrək əfv olunmasını xahiş etdi. Şah da onun üzrünü qəbul etdi və Əbivərd qalası qızılbaş qoşunlarının nəzarəti altına keçdi (145).

Əbivərd qalası özbək dəstəsindən təmizləndikdən sonra Şah Abbas yanındakı qoşunlarla Mərv ətrafına yola düşdü. Bir tərəfdən Əbivərd qalasının alınması, digər tərəfdən də Şah Abbasın rəhbərliyi ilə əlavə qoşun dəstələrinin Mərv ətrafına gəlməsi Nur Məhəmməd xanın vəziyyətini daha da çətinləşdirdi. O anladı ki, artıq onun nicat tapmaq fürsəti qalamamışdır. Şah Abbasa qarşı sədaqətsizlik nümayiş etdirən Nur Məhəmməd xan yenidən onun lütfünə sığınmaq qərarına gəldi. Onun artıq başqa bir yolu da qalmamışdı. Günahlarının bağışlanmasına nail olmaq üçün Nur Məhəmməd xan öz adamlarından birini şah qoşunları düşərgəsinə göndərdi və etimadüddövlə Hatəm bəylə Bəstam ağa Türkmanı danışıqlar aparmaq üçün qala daxilinə dəvət etdi. Onlar da məsələni Şah Abbasa çatdırdılar və onun icazəsini aldıqdan sonra qala daxilinə yollandılar. Nur Məhəmməd xan onlardan şah qarşısında günahlarının bağışlanmasına vasitəçi olmağı xahiş etdi. Hatəm bəylə Bəstam ağa Şah Abbasın etdiyi yaxşılıqlar qarşısında onu naxələf və sədaqətsiz olmasına görə xeyli töhmətləndirdilər. Nur Məhəmməd xan bu deyilənlərlə razılaşdı və öz taleyini şahın lütfünə bağladığını bildirdi. Adları çəkilən əmirlər də ixtilafların dinc yolla həllinə hər zaman üstünlük verən Şah Abbasın qarşısında onun bağışlanması haqqında məsələ qaldıracaqlarını bildirdilər və ona təklif etdilər ki, birlikdə Şah Abbasın hüzuruna yollansınlar. Nur Məhəmməd xanın əyanlarından bəziləri, o cümlədən onun vəziri Mir Qiyas və rüknüddövləsi Qazi Nədr onu şah hüzuruna getməkdən çəkindirməyə çalışdılar. Çünki onlar özləri də şah hakimiyyətinə itaətsizlik göstərdiklərinə görə haqlı cəzadan qorxurdular. Amma Nur Məhəmməd xan başqa bir çıxış yolunun olmadığı üçün şah hüzuruna getməyi qəbul etdi. Şah Abbas onu qəbul etdi,

onunla söhbət etdi və göstərdiyi bütün sədaqətlisliklərə baxmayaraq onun günahını bağışlayaraq həyatına toxunmadı. Əksinə, Şah Abbas ona qiymətli hədiyyələr verdi, gecə keçənə kimi onu yanında saxlayıb xeyli söhbət etdi. Yalnız gecə keçəndə Nur Məhəmməd xan qalaya qayıtmaq haqqında şahdan icazə istədi (146).

Amma Nur Məhəmməd xan qala daxilinə qayıtmadı. Ona yanındakı ağıllı və müdrik adamlar belə məsləhət gördülər və Nur Məhəmməd xan da həmin məsləhəti qəbul etdi. Mərv qalasının təhvil verildiyi günün sabahı cümə günü idi. Şah Abbas qala daxilinə yollandı və şəhərin məscidinə getdi. Həmin gün Mərv məscidində Şah Abbasın iştirakı ilə on iki imamın adına xütbə oxundu. Mərv əhalisi sünni təriqətinə mənsub idi və ona görə də vilayət məscidlərində imamlar adına xütbə oxunmazdı. Sonuncu dəfə burada imamlar adına xütbə Şah İsmayılın hakimiyyəti dövründə oxunmuşdu. Sonradan Mərv şəhəri Səfəvi nəzarətindən kənar qalmışdı və vilayətin əhalisi də öz ənənəvi təriqətlərinə riayət edirdilər. Şah Abbas tərəfindən Mərv yenidən fəth ediləndə bu şəhərin məscidində sonuncu dəfə imamların adına xütbə oxunmasından səksən illik bir müddət ötmüşdü. Mərv əhalisi qızılbaş əmirlərinin və qoşunlarının fərqli məzhəbə mənsub olmalarından qorxuya düşmüşdülər. Şah Abbas Mərvin böyüklərini və ağsaqqallarını arxayın etdi ki, onlar əvvəlki qaydada öz məzhəblərini davam etdirə bilərlər və məzhəb fərqliliyinə görə qorxmaya biləlsər. Bununla bağlı, Şah Abbas Mərvin idarəçiliyində qalacaq qızılbaş əmirlərinə də müvafiq göstəriş verdi (147).

Şah Abbas lütfkarlıq göstərib Nur Məhəmməd xanı bağışlasa da, onu öz vəzifəsində saxlamadı. Mərv vilayətinin idarəçiliyi Maruçaq hakimi Bəktaş xan Ustaclıya tapşırıldı. Hökm verildi ki, Nur Məhəmməd xanın hakimliyi dövründə Mərvin qoşun dəstəsində xidmət edənlər öz silahlarını təhvil verməklə istədikləri yerə gedə bilərlər. Onların Mərvdə qalması qadağan edildi. Şəhərin adi sakinləri isə can və mal toxunulmazlığı aldılar və onlar azad şəkildə Mərvdə qalıb öz həyatlarını davam etdirə bilərdilər. Bundan sonra Mərv qalasının divarlarının möhkəmləndirilməsinə

başlandı. Şah Abbas şəxsən qala divarlarını nəzərdən keçirdi, onu qızılbaş əmirləri arasında bölüşdürdü və həmin əmirlərə qala divarlarının bərpası və möhkəmləndirilməsi tapşırıldı. Bu işlər başa çatandan sonra şəhər daxilində olan ərzaq ehtiyatları artırıldı, qala daxilinə yeni silahlar gətirildi. Nur Məhəmməd xan isə Mərvdən uzaqlaşdırıldı. Ona icazə verildi ki, Fars vilayətinə yollansın və həyatını Şiraz şəhərində davam etdirsin. Nur Məhəmməd xanın dolanışığının təmin edilməsi üçün ona Şah Abbas tərəfindən illik maliyyə yardımı ayrıldı. Bu yardım o qədər çox idi ki, onun hesabına çox yaxşı həyat qurmaq mümkün idi (148).

Hüseyn xan Qacarın rəhbərliyi altında göndərilmiş qoşun dəstəsi isə Nisa qalasını ələ keçirdi. Mərv hakimi təyin edilmiş Bəktaş xanın oğlu Mülkəş sultan Nisanın və Əbivərdin hakimi təyin olundu. Bununla, Şah Abbas Xorasana yürüş üçün qarşısına qoyduğu vəzifələrin həllinə nail oldu. O, bir müddət də Mərvdə qaldıqdan sonra oranı tərk etdi və Məşhəd şəhərinə qayıtdı. Bir neçə gün də Şah Abbas bu şəhərdə qaldı, səkkizinci imamın rövzəsini ziyarət etdi, orada dua və ibadətlə məşğul oldu. Sonra isə Şah Abbas Qəzvinə yola düşdü. Bir ay da bu şəhərdə qalandan sonra Şah Abbas İsfahana gəldi. O, İsfahanda olarkən Məhəmməd İbrahim xanın vəfat etməsi və Bəlx vilayətinin Baqi xan tərəfindən tutulması xəbərini aldı.

### 8. Şah Abbasın Bəlx yürüşü

Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas öz qərarı ilə Məhəmməd İbrahim xanı Bəlxə yola salanda Xudanəzər bəyi onun atalığı və divanbəyi etmişdi. Xudanəzər bəy ağıllı və zəkalı bir adam idi və Şah Abbas da əmin idi ki, o, idarəçilik məsələlərində Məhəmməd İbrahim xana faydalı kömək göstərə bilər. Amma Məhəmməd İbrahim xanın yaxın ətrafında olan əyanlardan bəziləri Xudanəzər bəyin böyük səlahiyyətlərə malik olması ilə heç də razı deyildilər. Belələrindən biri də Yar Məhəmməd Mirzə idi. Bu adam Məhəmməd İbrahim xanın işlərinin sahmana salınmasında

xeyli kömək göstərmişdi. Yar Məhəmməd davamlı şəkildə Məhəmməd İbrahim xana təsir göstərir və Xudanəzər bəy haqqında onun fikirlərini döndərməyə çalışırdı. Bu təsirlər nəhayət ki, öz nəticəsini verdi və Məhəmməd İbrahim xanın Xudanəzər bəydən üzü döndü. Məhəmməd İbrahim xan hətta Xudanəzər bəyin aradan götürülməsi qərarına da gəldi. Bununla bağlı o, bir neçə dəfə şah sarayına məktub göndərdi. Şah Abbas onun iddialarının doğruluğuna inanmırdı və ona görə də Xudanəzər bəyin qətlinə də icazə vermirdi. Nəhayət ki, o da Şah Abbası bu məsələdə inandıra bildi. Məhəmməd İbrahim xan növbəti dəfə öz məktubunu və elçilərini Şah Abbasın hüzuruna göndərəndə onu inandıra bildi ki, vilayət işlərinin sahmana salınması və bölgənin özbək xanları ilə normal münasibətlərin qurulması Xudanəzər bəyin mövcudluğu şəraitində mümkün deyil. Şah Abbas isə ona belə bir məktub yazdı: “Bizim əsl məqsədimiz o səadətli fərzəndin (yəni Məhəmməd İbrahim xanın – red.) dövlət çırağını yandırmaqdır ki, qoy həmin çıraq iş bilən adamların səyi ilə kamkarlıq məclisinin işığını artırsın. İş adamı olan o şəxsi (Xudaynəzər bəyi – red.) biz o fərzəndin dövləti naminə zəruri bilmişdik. Bu haqda yaxşı-yaxşı fikirləş. Dövlətin əmin-amanlığı naminə yol seçməkdə müstəqilsən” (149).

Şah Abbas əslində, birmənalı şəkildə Xudanəzər bəyin qətlinə razılıq vermədi və bu səlahiyyəti Məhəmməd İbrahim xanın öz seçiminə buraxdı. Məhəmməd İbrahim xan da əlinə düşən fürsətdən istifadə edərək Xudanəzər bəyi qətlə yetirdi. Onun yerinə Yar Məhəmməd Mirzə təyin edildi və vilayətin idarəçiliyi də elə ona tapşırıldı. Məhəmməd İbrahim xan vaxtının çoxunu yüngül əyləncələrlə, şərab içməklə keçirirdi. Bu da onun səhhətini xeyli pisləşdirdi və tezliklə dünyasını dəyişməli oldu. Mavərənnəhr hakimi Baqi xan onun dünyasını dəyişməsini Bəlxin nəzarət altına alınması üçün bir fürsət kimi qəbul etdi və dərhal da bu şəhər üzərinə qoşun dəstəsi göndərdi. Yar Məhəmməd Mirzə və onun ətrafında olan bir sıra özbək əmirləri və mötəbərləri güman edirdilər ki, Baqi xanın qoşununa müqavimət göstərə bilərlər. Bununla onlar Bəlxi öz əllərində saxlayaraq burada hakimliyi davam etdirmək istə-

yirdilər. Bu adamlar Bəlx qalasından kənarda Baqi xanın qoşun dəstəsinə müqavimət göstərmək istədilər. Amma bir nəticəyə nail olmadılar və qaçıb dağıldılar. Baqi xanın qoşunları həm Bəlxi, həm də Bəlx ətrafındakı əraziləri işğal altına aldılar. Baqi xan qoşunlarına müqavimət göstərmək istəyən özbək sultanzadələri, əmirləri və mötəbərləri Şah Abbas hakimiyyətinə sığınmaq üçün Herata üz tutdular. Onlar bir neçə gün burada qaldıqdan sonra Şah Abbasın görüşünü qazanmaq üçün İsfahana yola düşdülər (150).

Bəlx ətrafında cərəyan edən hadisələr 1600-cü ilin sonlarında baş vermişdi. 1601-ci ilin əvvəllərində Şah Abbas Bəlxdə Məhəmməd İbrahim xanın dünyasını dəyişməsi xəbərini aldı. Məhəmməd İbrahim xana xüsusi nəvaziş və qayğı göstərdiyi üçün Şah Abbas onun dünyasını dəyişməsindən xeyli kədərləndi. Elə həmin vaxtlarda Baqi xan qoşunlarına müqavimət göstərə bilməyən özbək sultanzadələri də gəlib İsfahana yetişdilər və Bəlxin işğal edilməsi haqqında ona ətraflı məlumatlar verdilər. İsfahana gələrkən üç yüzə yaxın adam tərəfindən müşayiət olunan özbək sultanzadələri arasında Xacə Nəqib, Yar Məhəmməd Mirzə, Şirəfkən Mirzə, Ərəb Məhəmməd Atalıq və başqaları var idilər. Bu sultanzadələrin İsfahana gəlməsi xəbərini alanda Şah Abbas onların qarşılanmasına xeyli ada göndərdi. Özü isə onları İsfahan dövlətxanasında çox böyük mehribanlıqla qarşıladı, onlara İsfahan sarayında rahat mənzillər verildi və onların dolanışığı üçün böyük miqdarda maliyyə vəsaiti ayrıldı. Ertəsi gün isə Şah Abbas onları öz hüzuruna qəbul etdi, onlarla söhbətləşdi. Özbək sultanzadələri Şah Abbasa öz hədiyyələrini təqdim etdilər. Bu hədiyyələr arasında bir ədəd almaz daşı da var idi. Həmin daşı vaxtilə özbəklər Məşhəd şəhərini işğal edəndə səkkizinci imamın rövzəsindən oğurlmışdılar. Şah Abbas biləndə ki, bu daş İmam Rza məqbərəsinin mülkiyyəti arasında olub, onda onu qəbul etməkdən imtina etdi. Bu daş şahın əmri ilə imam rövzəsinin işlərinə rəhbərlik edən sərkara təqdim olundu. Üləmaların və möminlərin məsləhəti ilə həmin daş Osmanlı hüdudlarında satıldı və əldə olunan pul isə İmam Rza rövzəsinin işlərinə yönəldildi (151).

İsfahana pənah gətirmiş sultanzadələr ümid edirdilər ki, Şah Abbasın köməyi ilə Bəlx vilayətini və bu vilayətdəki hakim mövqelərini geri qaytara biləcəklər. Əslində, Şah Abbas da onların Bəlxə qayıtmalarını və Bəlxin yenidən Səfəvi nəzarəti altına gətirilməsini istəyirdi. Şah sarayına sığınmış sultanzadələr Bəlxdə və ona yaxın ətrafda idarəçilik işlərinin sahmanlanmasında faydalı ola bilərdilər. Ona gör də Şah Abbas bu sultanzadələrə lazımi qayğı göstərdi, onların Qəzvində yerləşdirilməsinə və həyatlarının təmin edilməsinə göstəriş verdi. Bu sultanzadələrlə bağlı şahın hökmü belə oldu: "Qəzvinin bir neçə əlverişli yeri həmin özbəklərin ixtiyarına verilsin ki, o yerlərdən yığılan məhsul onların ehtiyaclarına sərf olunsun; qoy onlar həmin yerlərə gedib bir müddət rüzgarın möhnətindən uzaq olsunlar, əgər Allah izn versə bu dərgahın (Səfəvi sarayının –red.) köməyi ilə geri qayıdıb öz mətləblərinə yetişsinlər" (152).

Şah Abbas Xorasan yürüşündən yenicə geri qayıtsa da, Bəlxin özbək nəzarəti altına düşməsi heç də onu qane etmədi. O dərhal bu vilayətin özbək nəzarətindən çıxarılması və bölgədə Səfəvi hakimiyyətinin möhkəmləndirilməsi üçün yenidən Xorasana qayıtmaq qərarına gəldi. Amma Xorasana yollanmaqla Şah Abbas özünün daha bir niyyətini də həyata keçirmək istəyirdi. O, Din Məhəmməd xanla döyüş zamanı niyyət etmişdi ki, uğur əldə edərsə səkkizinci imamın ziyarəti üçün İsfahandan Məşhədə piyada yollansın. İmam Rza dəyərlərinə olan ehtiramın təsdiqi kimi Şah Abbas uzun bir yolu piyada getməyi özünə şərəfli bir niyyət sayırdı və 1601-ci ilin əvvəlində bu niyyəti həyata keçirmək üçün münasib bir fürsət də yarandı. Şah Abbas həmin niyyətlə Məşhədə doğru hərəkətə başlayanda yaxın ətrafından və onu müşayiət edən məiyyətindən kimsəni piyada hərəkət etmək məcburiyyəti qarşısında qoymadı. Bu niyyətini o, uğurla başa vuraraq 28 gündən sonra piyada getməklə Məşhədə çatdı və İmam Rzanın ziyarətinə yetişdi (153).

Məşhəddə olarkən Şah Abbas həm də Bəlx məsələsinin çözülməsinə diqqət yetirdi. O, üç ay ərzində Məşhəddə dayanaraq gün-

lərini imam rövzəsində dua və ibadətlə keçirdi. Həmin günlərdə Şah Abbas Mərv hakimi olan Bəktaş xandan məktub aldı. Bəktaş xan bildirirdi ki, Bəlxi işğal etmiş Mavərənnəhr hakimi Baqi xan ona məktub yazıb. Bu məktubda Baqi xan Səfəvi şahına qarşı xoş münasibətini ifadə etmiş və Bəktaş xandan ona iki baş cins atın bağışlanmasını xahiş etmişdi. Şah Abbas bu xəbəri xoşluqla qarşıladı və Səfəvi-özbək münasibətlərinin dinc yolla nizamlanması üçün fürsət yarana biləcəyini ümidlə qarşıladı. O, Bəktaş xana tapşırıq verdi ki, öz adından Baqi xana xoş məramlı bir məktub yazsın və ona bir neçə baş yaxşı at göndərsin. Bəktaş xan da bu tapşırığı alandan sonra ustaclı tayfasının tanınmış nümayəndələrindən biri olan Bayraməli bəyi elçi kimi Baqi xanın yanına göndərdi. Bayraməli bəy özü ilə Baqi xanın arzusunda olduğu atları və başqa hədiyyələri də apardı. Baqi xan bu elçiliyi mehribanlıqla qarşıladı, elçilərə yüksək qonaqpərvərlik göstərdi və onları qiymətli hədiyyələrlə geri yola saldı (154).

Şah Abbas isə yaranmış fürsətdən istifadə etməklə Baqi xanla qarşılıqlı münasibətlər yaradılmasını əhəmiyyətli sayırdı. Onun üçün də o qərara aldı ki, Baqi xanın yanına öz adamlarını göndərsin, ona öz məsləhətlərini və təkliflərini çatdırsın. Baqi xanın dünyasını dəyişmiş qardaşı Din Məhəmməd xanın divanbəyisi olmuş Canməhəmməd bəy adlı birisi Səfəvi əsirliyində idi. Şah Abbas onu yanına çağırdı, onu əsirlikdən azad edərək sözlərinin Baqi xana çatdırılmasını tapşırdı. Səfəvi şahı Canməhəmməd bəy vasitəsilə Baqi xana belə bir ismarıc göndərdi: “Bütün dünya insanlarına məlumdur ki, Canı bəy sülaləsindən olan özbəklərlə bu sülalə arasında həmişə düşmənçilik və savaş olduğundan onların arasında həmişə ixtilaf düşmüş, həmin sülalədən Məhəmməd İbrahim xan bu xanədan mənsubları tərəfindən tutulmuşdu. Biz ləngimədən qədim ədavəti sülh, ülfət, dostluqla əvəz etdik və öz zahiri və batini diqqətimizi o sülalədən olanlara yönəltdik, Məhəmməd İbrahim xanı Bəlxə tərəf göndərdik və onun işlərini qaydaya salmaqdan (təmşiyət) ötrü bərk çalışdıq, bu dövlət adamlarının köməyi ilə Bəlx onun tərəfindən tutuldu və İbrahim xan bizim

hümayun əmrimizə tabe oldu. [Amma,] Məhəmməd İbrahim xanın başına gələn qaçılmaz vaqiədən (yəni onun vəfatından – red.) sonra, heç də münasib deyildi ki, Baqi xan hümayun şahın əmr və işarəsi olmadan həmin vilayətə dəxalət etsin. Hal-hazırda bizim o vilayətə heç bir tamahımız yoxdur. Biz istəyirik ki, Məhəmməd İbrahim xanın mülkü olan Bəlx vilayəti və oranın ətraf yerləri İbrahim xanın əqrəbasından və Abdulla xanın dudmanından olub bizim xanədana pənah gətirən həmin iki tifil oğlana çatsın. Abdulla xanın Baqi xana xeyirxahlığı çox keçmişdir və o, uzun müddət xanın ata və qardaşlarına qarşı rəhmdillik məqamında olmuş, onları öz tərbiyəsi ilə böyütmüşdür. Amma, hal-hazırda Allahın iradəsi və təqdiri ilə o sülalənin əhvalı pozulmuş, onların dudmanına xas olan Mavərənnəhr və Türküstanın bütün səltənəti və mülkiyyəti Baqi xanın ixtiyarına keçmişdir. Belə olan halda duzçörək haqqına riayət olunması, habelə alicənablıq (fotovvət), insaf və insanlıq tələb edir ki, Baqi xan Abdulla xanın neçə illik haqqını unutmayıb, onun əqrəba və sülalənin yetimlərinə yaxşılıq etsin, onlara öz mehribanlıq və şəfqət kölgəsini salsın, onları öz fərzənd və qardaşları bilsin, Bəlx vilayətini və çayın bir tərəfini onlara versin, özü isə Allah-təalanın ona nəsib etdiyi Mavərənnəhr və Türküstanla kifayətlənsin, İlahinin ona əta etdiyi nemətlərlə razılaşsın, özünün atalıq və qardaşlıq şəfəqqətini o yetimlərdən əsirgəməsin ki, onlar da xanı öz ataları və böyük qardaşları bilib, itaət və tabelik məqamında dayansınlar. Əgər Baqi xan şahın istəyi ilə razılaşaraq o kiçik (mohəqqər) vilayəti onlara verərsə, bu iş həzrət Allahın razılığına, onunsa şöhrətinə (niknami) səbəb olar. Elə biz də onu özümüzə qardaş sanıb, hər bir işdə ona hər cür imdad göstərər, hər sahədə onunla həmrah olarıq. Yox, əgər Baqi xan cəhalət və qürur yolunun yolçusu olarsa, bizim şəfqətli nəsihətlərimizi razılıq qulağı ilə dinləməzsə, insafsızlıq edib bizim fikrimizə qarşı çıxarsa, öz düşmənçiliyində israrlı olarsa, uca varlıq tərəfindən təklif olunan bizim o padşahzadələrə imdad və köməyimiz Allah-təalanın istəyinə uyğun şəkildə yerinə yetiriləcəkdir” (155).

Şah Abbas Bəlx vilayətinin könüllü şəkildə Məhəmməd İbrahim xanın varislərinə qaytarılmasını istəyirdi və Baqi xana da bunu təklif edirdi. Səfəvi şahı ona da işarə edirdi ki, Baqi xan Bəlxdən könüllü şəkildə əl çəkməzsə, onda Səfəvi sarayına pənah gətirmiş özbək sultanzadalərinə həmin vilayətin geri qaytarılması üçün öz köməyini əsirgəməyəcəkdir.

Canməhəmməd, şahın buyuruqlarını dinlədikdən sonra icazə alıb Buxaraya doğru üz tutdu. Baqi xan onun geri qayıtmasına çox sevindi və onu özünün əmirləri sırasına daxil etdi. Canməhəmməd də Şah Abbasdan eşitdiklərini ona çatdırdı. Sonra da o, Şah Abbasa bir məktub göndərdi. Həmin məktubda Canməhəmməd əvvəlcə Şah Abbasın ona qarşı xoş münasibətinə görə öz təşəkkürünü bildirdi. Sonra isə məktubda Baqi xanın Səfəvi sarayına pənah aparmış özbək sultanzadələri haqqında fikirləri açıqlandı. Məktubda deyilirdi: "Bizdən qorxan (xayef) Yarməhəmməd xan bir dəstə adamı da öz əlaltısı edərək siz tərəfə apardı, amma bizim onlara iltifat və atalıq şəfqətindən başqa bir münasibətimiz olmamışdır. Buna görə də, əgər həzrət şah onları bu tərəfə yollayarsa, tərəfinizdən edilən ali işarəyə əməl edib, ehtiram göstərər, başqa qardaşlarımız və fərzəndlərimiz kimi onlara münasib yerlərdə yurd və məqam verər, maaş həm təyin edərik" (156).

Əslində isə, Baqi xan özbək sultanzadələrinə qarşı hər hansı bir xoş münasibət göstərmək istəmirdi. Onları aldadaraq geri qaytarmaq və sonra da onları cəzalandırmaq üçün Baqi xan fürsət axtarırdı. Canməhəmmədlə birlikdə Bəktaş xanın mülazimlərindən biri də Buxaraya qayıtmışdı. Onu geri yola salan zaman Canməhəmməd bu məsələni gizlicə ona anlatmışdı. Bu məlumat Şah Abbasa da çatdırıldı. Ona görə Baqi xanın təklifi Şah Abbas tərəfindən qəbul edilmədi və məsələnin öz yoluna qoyulması üçün Bəlxə hərbi yürüş hazırlığı haqqında göstəriş verdi. Yetərincə qoşun toplanması üçün vilayət hakimlərinə şah fərmanı göndərildi. Eyni zamanda Qəzvində məskunlaşmış özbək sultanzadələrinə də çatdırıldı ki, onlar da şah qoşunlarının tərkibində Xorasana hərəkət etmək üçün hazır olsunlar (157).

Baqi xandan gələn xəbərlər də onun Səfəvi dövləti ilə qarşılıqlı münasibətlər qurmaqda maraqlı olmadığını göstərirdi. O öz əməlləri ilə təsdiq edirdi ki, Bəlxdən geri çəkilmək və bu vilayəti Məhəmməd İbrahim xanın varislərinə təhvil vermək istəmir. Bundan əlavə, Baqi xan Ciçəktu və Meymənə sərhədi boyunca sərhədlərin möhkəmləndirilməsinə də xüsusi diqqət yetirirdi və xeyli sayda qıpçaq əhalini köçürərək bu ərazilərdə yerləşdirmişdi. Baqi xan öz əmirləri və əyanları arasında belə bir şayiə yayırdı ki, qardaşı Din Məhəmməd xanın qisasını qızılbaşlardan alacaqdır. O eyni zamanda, yuxarıda deyildiyi kimi, Səfəvi sarayına sığınmış özbək sultanzadələrinin geri qayıtması ilə razı deyildi. Bütün bu məqamları təhlil edəndən sonra Şah Abbasa da aydın oldu ki, Baqi xanın iddialarının qarşısı alınmalıdır. Yoxsa, o öz iddialarının ardınca daha geniş ərazilərin işğalı sövdasına düşə bilər. Şah Abbasın əmrinə əsasən, Xorasan vilayəti üzərinə nəzərdə tutulan hərbi yürüşdə topların, zərbzənlərin və digər təchizat əşyalarının daşınması üçün 300 ədəd araba toplanmalı idi. Qoşunların tərkibində isə on min nəfər tüfəngçinin olması planlaşdırılırdı. Yəni Şah Abbas özbək qoşunlarına qarşı güclü bir zərbə qüvvəsi toplamaq qərarında idi. Bir məlumata görə, Şah Abbas Bəlx məsələsinin həlli üçün 40 min nəfərlik qoşun dəstəsi toplamışdı. Əlavə olaraq bu qoşuna 10 min nəfər tüfəngçinin və 300 ədəd topun cəlb edildiyi güman olunur. Mövcud məlumata görə, bu qoşunların xidmət heyətinin sayı-hesabı isə bilinmirdi. Belə böyük sayda olan qoşun dəstəsi hərəkət zamanı o qədər toz-duman qaldırırdı ki, yaxın məsafədə olan döyüşçülər bir-birini görə bilmirdilər. Bu döyüşçülər öz dəstələrinin yerini yalnız kərənayların tanış səsi ilə müəyyənləşdirə bilirdilər. Onların sayı isə qoşunun tərkibində xeyli çox idi və qoşunları hərəkəti zamanı davamlı olaraq kərənayların səsini eşitmək mümkün idi (158).

İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbasın Bəlxin yenidən nəzarət altına alınması üçün əməli fəaliyyətə başlaması 1602-ci ilə təsadüf edirdi. O yazırdı ki, qoşun toplanması üçün vilayət hakimlərinə fərman göndərilməsi haqqında qərar Məşhəddə

verildi. Novruz bayramını Məşhəddə qeyd edən Şah Abbas xalq şənliklərindən sonra Baqi xana qarşı yürüşün hazırlıqlarına başladı. Elə həmin vaxtlarda Baqi xan da Meymənə ətrafında xeyli fəallaşdı ki, bu da Şah Abbası daha qətiyyətli addımlar atılmasına sövq etdi (159).

Şah Abbas hələ Məşhəddə ikən eşikağası Əliqulu xan Şamlını və xasseyi-şərifə qulamı Qərçəqay bəyi bir qoşun dəstəsi ilə Meymənə və Ciçəktuya tərəf yola saldı. Qeyd edildiyi kimi bu bölgələrdə özbək qoşunları xeyli fəallıq göstərirdilər və onların həmin məntəqələrdən təmizlənməsi qızılbaş qoşunlarının Bəlx üzərinə hərəkətini də asanlaşdıra bilərdi. Bundan sonra Şah Abbas bir daha İmam Rzanın məqbərəsini ziyarət etdi və Bəlx yürüşünün uğurlu olması üçün orada dualar etdi. Sonra isə Şah Abbas və onun yanında qalan qoşunlar Herata doğru hərəkətə başladı. Məqsəd burada Bəlx üzərinə yürüşdə iştirak etməli olan bütün qoşunların gəlib çatmasını gözləmək idi. Amma hələ Məşhəddən çox da uzaqlaşmamış Şah Abbas ova yollandı və bir neçə gün də vaxtını ovda keçirdi. Bu mərasimin başa çatması ilə Şah Abbas Herata yollandı. O, Heratda vilayət qoşunlarının gəlib toplanmasını iki ay gözləməli oldu. Bu qoşunların təchizatı və təminatı istiqamətində lazım olan işlər görüldü. Güman edilir ki, məhz Herata toplanan qüvvələr Şah Abbasın rəhbərliyi altında olan qoşunlarının sayını 50 min nəfərə çatdırdı. Özbək sultanzadələri də şah qoşunlarına Heratda qoşuldular. Şah Abbas Heratda olarkən Ciçəktu və Meymənə istiqamətinə göndərilmiş Əliqulu xanla Qərçəqay bəy də tapşırılan vəzifəni icra edib geri qayıtdılar. Onlar gördükləri iş barəsində Şah Abbasa məlumat verdilər. Əliqulu xanla Qərçəqay bəy adları çəkilən məntəqələrdə toplanmış özbəklərə güclü zərbə vurdular, onları qılıncdan keçirdilər. Sağ qalanlarını, o cümlədən qadın və uşaqları, habelə özbəklərin əmlakını toplayıb özləri ilə Herata gətirdilər (160).

Qoşunların toplandığı müddətdə Şah Abbas Badğis yaylağında da oldu, orada istirahət etdi. Qoşunların toplanması da elə orada başa çatdırıldı. Bəlx məsələsinin başa çatdırılması üçün Şah

Abbas tərəfindən sultanzadə Cahangir sultana xan ləqəbi verildi və o, Bəlxin hakimi elan edildi. Yarməhəmməd Mirzə isə onun atalığı adlandırıldı. Bəlx üzərinə yürüş uğurla başa çatacağı halda Cahangir xan bu vilayətin hakimliyini icra etməli idi. Qoşunların toplanması uzun bir vaxt aldığından onların yerli əhaliyə ziyan yetirməməsi Şah Abbasın diqqət mərkəzində idi. Qoşunların davranışına nəzarət həyata keçirmək üçün şah tərəfindən yasağçıbaşı Nəzər bəy xüsusi olaraq vəzifələndirildi. Nəzər bəy və onun tabeliyində olan adamlar qoşun əhlinin hər hansı bir səbəblə kəndlilərə, təsərrüfat adamlarına yaxınlaşmasına, qoşun əhli tərəfindən əkin sahələrinin ayaqlanmasına birmənalı şəkildə icazə vermirdilər. Kimsə haqqını ödəmədən kəndlilərdən heç bir məhsul və əşya ala bilməzdi, kimsə təsərrüfat adamını narazı sala bilməzdi. Bir dəfə Şah Abbasın tanıdığı yaxın adamlardan ikisi icazəsiz olaraq əkin sahəsində yerləşən ağacın kölgəsində əyləşiblərmiş. Nəzər bəy onların bu hərəkətini müəyyən edilmiş qaydaların pozulması kimi qiymətləndirdi və cəza kimi onların hər iksinin qulağını kəsdirdi. Şah Abbas ona yaxın olan bu iki adamın qulağının kəsilməsi xəbərini eşidəndə, Nəzər bəyin doğru hərəkət etdiyini bildirdi və nizam-intizamı qoruyan Nəzər bəyin bu hərəkətini doğru qəbul etdi (161).

Hərəkətə başlamazdan əvvəl qızılbaş qoşunları Mürğab çayı kənarında toplandılar. Burada qoşunlara Şah Abbas tərəfindən sıra baxışı keçirildi. Sonra isə Şah Abbasın əmri ilə qoşunların Ciçəktu istiqamətində hərəkəti başladı. Qoşunların önündə hərəkət üçün çərxçi dəstəsi müəyyən edildi. Bu dəstə on iki min nəfərdən ibarət olan bir qüvvə idi və bu dəstənin tərkibində piyada və atlılardan əlavə tüfəngçilər də var idi. Herat hakimi Hüseyn xan Şamlı, Mərv hakimi Bəktaş xan, Xaf və Baxərz hakimi Mehrab xan, Fərah hakimi İsmayıl xan Alplı, Qayin hakimi Nəcəfqulu xan və başqaları çərxçi dəstəsinin tərkibinə verildi. Bu dəstə qoşunların əsas hissəsindən yarım fərsəx irəlidə hərəkət etməli idi. Göstəriş verilmişdi ki, çərxçi dəstəsindən də qarovul ayrılsın və çərxçi dəstəsi tərkibinə verilmiş əmirlər növbə ilə bu qarovula rəhbərlik et-

sinlər. Çərxçi dəstəsinin ardınca topçular və tüfəngçilər dəstəsi və bu dəstəyə aid olan arabalar hərəkət etməli idilər. Tüfəngçilər arabaların arxasınca sıra ilə düzülməli idilər. Qoşunların topxana əmirliyi, bütün topçulara və tüfəngçilərə rəhbərlik etmək Qərçəqay bəyə tapşırıldı. İsgəndər bəy Münşinin verdiyi məlumata görə, Qərçəqay bəyin tabeliyinə 10 min nəfər döyüşçü verilmişdi. Bu dəstənin tərkibində tüfəngçilərdən başqa qulamlar da daxil idi. Həmin döyüşçülərin hərəkət qaydası var idi və bu qaydaya uyğun olaraq onlar nizamla öz yerlərini tutmuşdular. Eşikağasıbaşı Mehdiqulu xana və bəzi digər əmirlərə topçular dəstəsinə yardım göstərmək tapşırılmışdı. Topların və tüfəngçilərin ardınca isə Şah Abbas və onun məiyyəti yer almışdı. Şahın ətrafında bayraq daşıyanlar da hərəkət edirdilər. Tanınmış və təcrübəli əmirlər olan Allahverdi xan, Qorçubaşı Əliqulu xan Şamlı, Nədr xan Möhürdar, Kirman hakimi Gəncəli xan və digər böyük əmirlər qoşunların sağ və sol cinahlarında irəliləyirdilər. Bir daha qeyd edilməlidir ki, Şah Abbasın rəhbərliyi altında Bəlxə doğru irəliləyən qoşunun 50 min nəfəri döyüşən qüvvə idi. Onlardan əlavə qoşuna xidmət heyəti, ordubazar, qulluqçular və digərləri əlavə edilmişdi. Nəticədə çox böyük bir qoşun dəstəsi formalaşmışdı (162).

Şah Abbas əvvəlcə Əndxod şəhəri üzərinə qoşun çəkilməsi qərarına gəldi. Bu istiqamətdə hərəkət kifayət qədər ağır keçirdi. Havaların xeyli isti olması qoşunun və qoşun heyvanlarının hərəkətini çətinləşdirirdi. Bundan başqa hərəkət yalnız gündüzlər icra olunurdu. Ehtiyat edilirdi ki, gecə vaxtı özbəklərin ərazisi ilə hərəkət etmək təhlükəli ola bilər. Ona görə də gün ərzində iki-üç fərsəx hərəkət etmək mümkün olurdu. Əndxod yaxınlığındakı Qətləs adlanan bir məntəqədə qızılbaşlarla özbək döyüşçülərinin ilk qarşılaşması oldu. Tanınmış özbək bahadırı olan Qaraca Qeyqan adlı birisi qızılbaş qarovulu ilə rastlaşanda qarovul rəhbəri olan Mehrab xanın yanındakı döyüşçülər onu əsir götürdülər. Qaraca Qeyqanın dindirilməsi zamanı aydın oldu ki, Baqi xan 20 min nəfərlik qoşun dəstəsi ilə Qərşi adlanan məntəqədədir. Baqi xan artıq qızılbaş qoşunlarının Bəlxə doğru hərəkətə başlaması

haqqında məlumat  əldə etmişdi. O bilirdi ki, qızılbaş qoşunlarının qarşısında özünün 20 min nəfərlik dəstəsi ilə lazım olan müqaviməti göstərə bilməyəcəkdir. Bu zaman Bəlx hakimi onun qardaşı Vəli Məhəmməd xan idi. Baqi xan onun yanına bir nəfər göndərdi və ona çatdırdı ki, qızılbaş qoşunlarının sayı xeyli çoxdur və belə böyük sayda olan qoşunlarla vuruşmaq məsləhət deyil. Yəni Baqi xan təklif edirdi ki, Bəlx qalası tərk edilsin və qızılbaş qoşunları geri qayıdandan sonra onun məsələsinə yenidən baxılsın. Vəli Məhəmməd xan isə qızılbaş qoşunlarının sayının çox olması haqqında danışılanlara şübhə ilə yanaşdı və ona görə də şəhərin tərk edilməsini qəbul etmədi. Digər tərəfdən onun fikrincə, şah qoşunlarının Bəlxə gəlməsi də hələ tam şəkildə bəlli deyildi. Baqi xan bu sözləri ciddi qəbul etdi və qızılbaş qoşunlarının hərəkət istiqamətini və dəqiq sayını müəyyənləşdirmək üçün Qaraca Qeyqamı bir neçə nəfərlə birlikdə Cicəktuya tərəf göndərdi. Qaraca Qeyqam da qızılbaş qarovulları ilə Qətləsdə qarşılaşmış və onların əlinə keçmişdi. Ona görə də Baqi xanın qızılbaş qoşunları haqqında ətraflı məlumat toplamaq cəhdi nəticəsiz qaldı (163).

Qətləsdə baş verən ilk qarşılaşmanın ardınca qızılbaş qoşunları Əndxoda doğru hərəkətlərini davam etdirdilər və tezliklə bu şəhər-qalanın ətəklərinə çatıb orada düşərgə qurdular. Bu qalaya Baqi xanın etibarlı adamlarından biri olan Mömin bəy adlı birisi rəhbərlik edirdi. Mömin bəy qızılbaş qoşunlarının sayından və imkanlarından xəbərdar olsa da, qalaya sığınıb müdafiə olunmağı qərara almışdı. Uzunmüddətli mühasirəyə davam gətirmək üçün qala daxilində müəyyən ehtiyat tədbirləri də həyata keçirilmişdi. Yəni bu qalanın mühasirəyə davam gətirmək imkanları yüksək idi. Ona görə də Şah Abbasın yaxın ətrafından bəzi əmir və əyanlar məsləhət gördülər ki, qızılbaş qoşunları Əndxod ətrafında vaxt itirmədən Bəlxə doğru irəliləsin. Onların fikrincə, Bəlx qalası ələ keçirildiyi təqdirdə onun yaxın ətrafında olan qalalar müqavimətsiz təslim olacaqdılar. Şah Abbas bu təkliflə razı olmadı və təkid etdi ki, Əndxod qalası ələ keçirilsin. Əndxod qalası Xorasandan Bəlxə gedən yolun üstündə idi. Ona görə Şah Abbas belə hesab

edirdi ki, Əndxod qalası özbəklərin əlində qalacağı təqdirdə Bəlx-də olan qızılbaş qüvvələri ilə Xorasan arasında təmasları yaratmaq çətin olacaqdır (164).

Bu fikir şah əmirləri və əyanları tərəfindən də bəyənildi. Ona görə də şah qoşunları Əndxod qalasına daha da yaxınlaşdılar və bu qalanı mühasirəyə aldılar. Mühasirənin səmərəliliyinin artırılması üçün qala divarlarının müxtəlif hissələri ayrı-ayrı qızılbaş əmirlərinə həvalə olundu və onlara həmin hissəni ələ keçirmək tapşırıldı. Qalanın mühasirə edilməsi ilə bərabər, divarlar boyu qazılmış xəndəklərdəki su kənara axıdıldı, divarlar altından lağımlar atılmasına başlandı. Münasib məqam yetişəndə 300 top və 10 min ədəd tüfəngdən qala divarları atəşə tutuldu. Bu atəşlər ildırım səsini xatırladırdı və qala ətrafında böyük bir gurultu yaradırdı. Bir gün sonra qızılbaşlar hücumu davam etdirərək qala divarlarına xeyli yaxınlaşa bildilər və bir müddətdən sonra isə divarlar üzərinə dırmaşa bildilər. Qala daxilindəkilər böyük təhlükənin yaxında olduğunu görüb Mömin bəyin yanına yollandılar, ona qalanın təhvil verilməsinin daha məqsədəuyğun olduğunu xatırlatdılar. Aparılan müzakirələrdə qızılbaş qoşunları ilə əlaqə yaradılması məsələsi ortaya atıldı. Mömin bəy bu təkliflə razı olmaq məcburiyyətində qaldı. Əzizan adı ilə məşhur olan şeyxdən xahiş olundu ki, qızılbaşlarla əlaqə yaradılması ağsaqqallığını öz üzərinə götürsün, qaladan çıxaraq şah düşərgəsinə yollansın. Əzizan da əvvəlcə öz adamlarından ikisini seçib şah düşərgəsinə göndərdi. Həmin adamlar əfv olunacaqları təqdirdə sakinlər tərəfindən qala darvazalarının açıla biləcəyini Şah Abbasa ərz elədilər. Şah Abbas bu xahişi razılıqla qarşıladı, şah qoşunlarına qarşı müqavimət göstərilməsinə baxmayaraq Şah Abbas Əndxod qalasının məsələsinin dinc yolla həllinə meylli olduğunu nümayiş etdirdi. O vəd etdi ki, qala təhvil veriləcəyi təqdirdə sala sakinlərinin canına və malına toxunulmayacaqdır. Şah Abbas tərəfindən qala sakinləri adına yazılmış məktubda nəinki onların malına və canına toxunulmayacağı vəd edildi. Hətta qala sakinlərinin məzhəbinə də hörmətlə yanaşılacağı bildirildi: "Bizim sizə tərəf hümayun yürüşümüzün

səbəbi Canı bəy sultanzadələrinə imdad etmək olmuşdur. Biz bu vilayətə tamah etmirik, əhalinin və ibadullahın rifahından və rahatlığından başqa heç bir istəyimiz yoxdur, bütün tayfalara qarşı sülh məqamındayıq, həmçinin bizim heç kimin məzhəb və milliyyəti ilə [də] işimiz yoxdur. Buna misal olaraq, bilməlisiniz ki, Mərv, Nisa və Əbivərd bu qüvvətli dövlət övliyalarının əlinə keçəndən bəri, məscid və məbədlərdə sünni əhli ilə şiəməzhəb camaatın hərəsi öz şivə və şüarlarına uyğun şəkildə həyat tərzi keçirirlər. Onların heç birinə istəkləri əleyhinə heç nə təklif olunmamışdır və olunmayacaqdır da. Hər həs hara getmək istəsə, buyurub getsin. Rəiyyət və kasıb adamlar qoy asudə tərzdə öz işləri ilə məşğul olsunlar, onlara əsgərlər tərəfindən heç bir ziyan dəyməyəcəkdir" (165).

Əndxod sakinlərinin elçiləri şah düşərgəsində qonaqpərvərliklə qarşılandı və onlar hədiyyələrlə geri qaytarıldı. Bu elçilərin geri qayıtması və ümumi əfv barəsində şah məktubunu da özləri ilə gətirməsi qala daxilində də böyük sevinclə qarşılandı. İnsanlar əmin oldular ki, onlar daha şah qəzəbinə düçar olmayacaqlar və rahat yaşaya bilərlər. Qala sakinlərinin yeni və daha böyük bir nümayəndə heyəti də məsələnin birdəfəlik həlli üçün şah düşərgəsinə yollandı. Bu dəstədə xeyli sayda ağsaqqal var idi Şah Abbas onları da çox böyük ehtiramla və mehribanlıqla qarşıladı və bir daha bəyan etdi ki, onun qala sakinləri haqqında dedikləri həqiqətdir. Qarşılıqlı etimadın daha da gücləndirilməsi üçün qala ağsaqqalları divarlar üzərinə qalxmış qızılbaş döyüşçülərinin geri qayıtmaları haqqında Şah Abbasdan xahiş etdilər. O da bildirildi ki, ertəsi gün Mömin bəy, qala ərbabları, şəhər əhlinin nümayəndələri hədiyyələrlə qalanı tərk edəcəklər. Şah Abbasın Mömin bəyə etimadı və etibarı olmadığından qala üzərinə hücumun dayandırılması ilə razı olmadı. Əksinə, qaladan gələnlərə dedi ki, Mömin bəyin qızılbaşlar üçün hədiyyə toplamasına ehtiyac yoxdur. Əgər doğrudan da qalanı təslim etmək və qala əhlinin canına və malına zəmanət almaq istəyirsə, dərhal, gecikmədən qalanı tərk etsin. Eyni zamanda şah tərəfindən qoşun əmirlərinə tapşırıq

verildi ki, qala divarları altından lağım atılamsını davam etdirsinlər və sübh vaxtı qala üzərinə hücum üçün yenidən işarə verilsin. Şah Abbası elçi kimi gələnlərə Mömin bəy haqqında son sözü belə oldu: "Əgər öz dediklərinə sadiqdirlərsə, qaladan elə bu ləhzə eşiyə çıxsınlar, bizim isə heç bir peşkəşə ehtiyacımız yoxdur. Əks təqdirdə sübh vaxtı hərbə hazır olsunlar" (166).

Əndxod elçiləri Şah Abbasdan rüsxət alıb geri qayıtdılar və onun şərtini Mömin bəyə çatdırdılar. Mömin bəy fürsəti əldən vermədən dərhal elə həmin anda Şah Abbasın yanına yollanmaq qərarına gəldi. Yaxın ətrafından olan bir neçə nəfərlə Mömin bəy qaladan çıxdı və Şah Abbasın hüzuruna yollandı. Şah Abbas onları mehribanlıqla qarşıladı və onlara qiymətli hədiyyələr təqdim olundu. Mömin bəy qalanı təslim etməyə hazır olduğunu bildirdi. Amma o, Şah Abbasdan xahiş etdi ki, ona və yanındakılara geri qayıtmaq izni verilsin. Mömin bəy gecəni qalada keçirib səhəri yenidən şah düşərgəsinə gəlməyi vəd etdi. Şah Abbas bu xahişi qəbul etdi və onların geri dönməsinə izn verdi. Mömin bəy və onun yanındakılar canlarına və mallarına zəmanət aldıqları üçün böyük sevinclə qalaya qayıtdılar. Səhəri gün səhər tezdən isə Mömin bəy Əndxod darvazalarının şah qoşunları üzünə açılması haqqında göstəriş verdi. Bundan sonra Mömin bəy başda olmaqla Əndxodun seyidləri, qaziləri, üləmaları, əyan-əşrəfləri şah düşərgəsinə gəldilər, Şah Abbasa sadiq qalacaqlarını vəd etdilər. Şah Abbas onların hamısını qiymətli hədiyyələrlə mükafatlandırdı, onlara hörmət və qayğısını nümayiş etdirdi. Onun tərəfindən qərara alındı ki, Əndxodun əvvəlki hakimləri nəslindən olan Məhəmmədsəlim sultan bu şəhərin hakimi vəzifəsinə təyin edilsin. Şah qoşunları əmirlərindən biri olan Məhəmmədqulu bəy Eşikağası Ərəbgirli atlı və tüfəngçilərdən ibarət olan 150 nəfərlik bir dəstə ilə Əndxodun müdafiəsinin təmin edilməsi üçün saxlandı. Mömin xan isə Baqi xanın yanına yollanmaq arzusunda olduğunu bildirdi. Şah Abbas onun istəyinə qarşı çıxmadı. Ona şah adından xüsusi qiymətli hədiyyələr bağışlandı. Əndxod özbəklərinə isə yeni təyin edilmiş hakim yanında qalıb çalışmalarına icazə verildi (167).

Mömin bəy yola düşməzdən əvvəl yenidən Şah Abbas tərəfindən qəbul edildi. Onlar əvvəlcə ziyafət məclisində oldular, sonra isə ayrıca söhbət etdilər. Şah Abbas bu söhbətdə də qarşılıqlı düşmənçilikdən uzaq olmaq istədiyini və Baqi xanla dil tapmağa çalışdığını bəyan etdi. O, Mömin bəyə müraciət edərək ismarıclarının Baqi xana çatdırılmasını xahiş etdi. Şah Abbasın Baqi xana olan ismarıcı isə belə idi: "Baqi xana bizim duamızı çatdır. Ona de ki, bundan əvvəl biz Məhəmməd Divanbəyi vasitəsiylə öz dostanə sözlərimizi yazıb göndərmişdiksə də, o, cəhalət və qürur üzündən bizim şəfqətli nəsihətlərimizi razılıq qulağı ilə dinləmədi və elə buna görə də bu tərəfə hümayun yürüşümüz vacib bilindi. İndi də biz söylədiyimiz sözlərin üstündə

dururuq və mübahisənin aradan qalxması üçün təkrar edirik: Hamıya məlumdur ki, bu gün Abdulla xan məmləkətlərinin səltənət taxtının və padşahlığının varisi olan hər iki tifil o dudmandan yadigar qalmışdır. İndi heç də mürüvvət və mərdliklərdən deyil ki, mərhum padşah Abdulla xanın sizin dudmana olan haqqını unudub, onun sülaləsinə mənsub iki yetimi öz irsi mülklərindən uzaqlaşdırasınız və özünüz isə saxtakarlıqla onların bütün irsi mülklərinin sahibi olasınız. Keçmiş vaxtlarda bizim və sizin sülalələr arasında həmişə qətl və hərb atəşi şölələnmişdi. İndi biz bizə pənah gətirən o şahzadələrə yüz il davam edən düşmənçilik gözü ilə baxmayıb, onlara kömək etmək qərarındayıq, ona görə ki, bizdən rüzgarın səhifəsində yaxşılıq etmək niyyəti yadigar qalsın. Yaxşısı budur ki, Baqi xan Bəlxdən və oraya tabe olan yerlərdən öz tamahını kəssin, oranı o şahzadələrə versin, onun əlinə keçən Mavərənnəhr və Türküstan məmləkətləri ilə kifayətlənsin, Allah-təalaya şükr etsin, qədəmini insaf dairəsindən çıxarmasın. Əgər o dudmandan baqi qalan həmin iki padşahzadəyə öz əcdadlarına xas geniş məmləkətlərdən bircə vilayət verilməsinə razı olarlarsa, onlardan müzayiqə etmək ancaq insafsızlıq ola bilər. Yox, əgər insafsızlıq edib həmin mülkün varislərini tamamilə özlərinin irsi hüquqlarından məhrum etmək istəsələr də, belə əməl xuda və xalq tərəfindən bəyəniləcəkdir. Elə insafsızlığın nəticəsi o sülaləyə qar-

şı duz-çörək haqqını unutmaq deməkdir və qeyb aləmi tərəfindən bəyənilməyəcəkdir. Əgər Baqi xan bu məsləhətlə razılaşarsa və həmin sultanzadələrlə iltifat və ata-oğul münasibətində olarsa, məni də qoy qardaş məqamında bilsin. Bizim qardaşlıqda qürurumuz olmayacaqdır" (168).

Şah Abbas Baqi xana qardaşlıq münasibətləri təklif edirdi. Bu münasibətlərin yaradılmasının şərti isə onun Bəlxi tərk etməsi və bu şəhərin özbək sultanzadələrinə təhvil verilməsi idi. Şah Abbas tövsiyə edirdi ki, Baqi xan Mavərənnəhr və Türküstan əraziləri ilə kifayətlənsin və Bəlxə olan iddilarından əl çəksin.

Beləliklə, Əndxod qalası Şah Abbas tərəfindən fəth olundu. Bu şəhərin əhalisinin qayğılarını yüngülləşdirmək üçün Şah Abbas insanlar üzərinə qoyulmuş bəzi vergiləri ləğv etdi ki, bu da insanların böyük sevinci və razılığı ilə qarşılandı. Sonra isə Şah Abbas qoşunla birlikdə Bəlx istiqamətində hərəkətə başladı. Əndxoddan bir mənzil aralıda şah qoşunları ilk düşərgəni saldılar. Bəlx istiqamətində hərəkətin ikinci günü daha iki fərsəx irəliləmək mümkün oldu. Bu zaman belə bir məlumat alındı ki, Baqi xan 20 minlik qoşunla Ceyhun çayını adlayaraq Bəlx istiqamətində getmişdir. Şah Abbas belə güman etdi ki, Baqi xan böyük bir qoşun dəstəsi ilə Bəlxə yollanmaqda məqsədi şah qoşunlarına müqavimət göstərməkdir. Belə olanda şah tərəfindən qoşunlara qruplaşmaq və döyüş vəziyyətində irəliləmək əmri verildi. Qoşunların çərxçi dəstəsi, sağ və sol qolları müəyyənləşdirildi, silahların və nəqliyyat vasitələrinin, habelə digər təchizat əşyalarının nizamlanmasına qərar verildi. Ehtimal edilirdi ki, şah qoşunları hərəkət zamanı Baqi xanın dəstələrinin basqınlarına məruz qala bilər. Ona gör də göstəriş verildi ki, qoşunlar mənzil-mənzil irəliləsinlər, döyüş səflərini qorusunlar, hər zaman özbək dəstələrinin hücumlarının qarşısını almağa hazır olsunlar. Qoşunlar bu nizamla öz hərəkətlərini davam etdirdilər. Amma hərəkət marşrutu üzərində su mənbələri və ehtiyatlarının az olması qoşunların hərəkətinə bir ağırlıq gətirdi. Şah Abbas qoşunların tərkibində olan özbək sultanzadələrini və özbək ağsaqqallarını yanına dəvət edərək onlardan

su mənbələri bol olan yolların müəyyənləşdirilməsi ilə maraqlandı. Özbək sultanzadələri və ağsaqqalları isə söhbət əsnasında ümumiyyətlə, bu yürüşün sürətlə deyil, təmkinlə, səbirlə həyata keçirilməsini təklif etdilər. Bir tərəfdən havanın istiliyi, su mənbələrinin olmaması bunu tələb edirdi ki, qoşunlar əldən düşməsin. Digər tərəfdən isə ümid edilirdi ki, vaxt ötdükcə şah qoşunlarının bölgəyə gəlişinin məqsədi daha çox özbəyə bəlli olacaq və onların şah qoşunlarına qarşı müqaviməti də zəifləyəcəkdir. Özbəklərin sözlərinə görə, bölgədə yaşayan özbəklər öz həyatlarının qorunması üçün Baqi xanla yaxşı müansibətdədirlər və ona itaəti qəbul etmişlər. Həmin özbəklərin çox bilmirdi ki, şah qoşunları bölgəyə nə üçün gəlmişdir. Bu özbəklər qızılbaş təhlükəsinə görə Baqi xan ətrafında daha sıx birləşə bilərdilər. Onlar qızılbaş qəzəbi ilə qarşılaşmamaq üçün Baqi xanın rəhbərliyi altında şah qoşunlarına mümkün müqaviməti göstərə bilərdilər. Amma bölgədə yaşayan özbəklər şah qoşunlarının gəlişinin məqsədinin onların cəzalandırılması olmadığını bildikdə onda yavaş-yavaş Baqi xandan uzaqlaşacaqlar. Bu da şah qoşunlarının işini daha da asanlaşdıracaqdı. Yəni tədricən şah qoşunlarının gəlişinin məqsədi haqqında xəbərlər ətrafa yayıldıqca, bu qoşunlara qarşı düşmən münasibət də aradan qalxacaqdı (169).

Şah Abbas bu məsləhətlə razı deyildi və daha çevik bir şəkildə məsələnin həll olunmasını istəyirdi. Vaxtın uzanması yeni çətinlikləri ortaya çıxara bilərdi. Bununla belə, Şah Abbas özbək ağsaqqallarının və bir sıra qızılbaş dövlətxahlarının istəyini də yerə salmadı. O, eyni zamanda onu da nəzərə aldı ki, Baqi xanın Bəlxə yollanmaqda məqsədi orada müqavimət təşkil etmək deyil, qardaşını oradan çıxarmaqdır. Ona görə də Şah Abbas sürətlə getməkdən imtina etdi və sonrakı günlər ərzində qoşunlar xeyli yavaş hərəkət etdilər. Elə həmin günlərdə özbək sultanzadəsi Yarməhəmməd Mirzənin Bəlxdə qalmış qohumlarından biri onun yanına gəldi və o da təsdiq etdi ki, qoşunların yavaş-yavaş hərəkət etməsi daha doğru imiş. Gözlənilirdi ki, özbəklər dəstə-dəstə şah qoşunlarına yaxınlaşaraq öz razılıqlarını bildirəcəklər. Yarməhəmməd

Mirzə də özbək əmir və əyanlarına məktub göndərirdi və onları da qızılbaş qoşunlarının gəlişindən narahat olmamağa çağırırdı. Bu da öz növbəsində özbəklərə müəyyən təsir göstərirdi. Bununla belə, yavaş-yavaş hərəkət etməyin bəzi fəsadları da üzə çıxdı ki, Şah Abbas onların üzərində də düşünməli oldu. Bir tərəfdən qızılbaş qoşunlarının yavaş hərəkəti özbəklərdə bu qoşunların gücünə və qüdrətinə olan düşüncələri aradan qaldırdı. Belə güman edilirdi ki, qızılbaş qoşunları güclü və qüdrətli olsaydılar onlar bu qədər ləngimələrə yol verməzdilər. Digər tərəfdən hərəkət uzandıqca hava şəraitinin çətinlikləri də artırdı. Havanın hərarətinin yüksək olması qoşunları əldən salırdı. Hərəkət marşrutu üzrə su mənbələri isə yox idi. Qoşun əhli bulanıq sudan içmək məcburiyyətində qalırdı ki, bu da döyüşçülər arasında xəstəlikləri artırırdı. Qoşunların Bəlx yaxınlığına gəlib çıxması iyirmi gün çəkdi. Bəlx qalası isə heç də güman edildiyi kimi, qızılbaş qoşunlarının gəlişi ilə təhvil verilmədi. Şah Abbas isə qoşunların gəlib çatması ilə heç də dərhal Bəlx üzərinə hücuma başlamadı. Onun bu qərarı qızılbaş qoşunları arasında xəstəliyin geniş yayılması ilə bağlı idi. Yəni qızılbaş qoşunları döyüş gücünü müəyyən qədər itirmişdi. Şah Abbasa görə özbək qoşunları ilə mübarizənin uzun bir tarixi var idi və bu qoşunlar əllərinə düşən fürsəti boşa verməzdilər. Ona görə də Şah Abbas dərhal döyüşə başlamağı təxirə salmalı oldu (170).

Baqi xan özü də Bəlxin təhvil verilməsinə heç də razı deyildi. Doğrudur, Əndxod hakimi olan Mömin bəy öz qalasın təhvil verdikdən sonra gəlib qızılbaş qoşunları haqqında təəssüratlarını Baqi xana çatdırmışdı. Mömin bəy həm Şah Abbasın cah-cəlalı, həm də qızılbaş qoşunlarının sayı və gücü haqqında ona yetərincə məlumat vermişdi. Verilən məlumatın məzmunu ondan ibarət idi ki, qızılbaş qoşunlarına qarşı müqavimət göstərilməsi mümkün deyildir. Ona görə Mömin bəy qızılbaş qoşunlarına qarşı müqavimət göstərilməsini mənasız saydı. Baqi xan bu məlumatı alınca çaşqınlıq içərisində qaldı. Bilmədi ki, Bəlxə doğru hərəkət etsin, yoxsa geri qayıtsın. Amma görəndə ki, Mömin bəyin səxavətlə haqqında danışdığı qızılbaş qoşunları son dərəcə ləng hərəkət

edirlər, onda Baqi xanın bu qoşunun gücü haqqında eşitdiklərinə şübhələri meydana gəldi. Ətraf bölgələrin özbəkləri də qızılbaş qoşunlarının belə ləngliyindən heyrətə gəldilər və onlar arasında da şah qoşunlarına qarşı yaranmış qorxu aradan qalxmağa başladı. Beləcə, Baqi xan sanki dirçəldi və onda belə bir güman yarandı ki, hərəkətində xeyli ləng olan qızılbaş qoşunlarına qarşı müqavimət də göstərmək mümkündür. Baqi xan özbək qoşunlarında da bir toxtaxlıq yaratdı, ətraf bölgələrdən xeyli sayda özbək döyüşçüsü gələrək Baqi xana qoşuldu. İlkin olaraq Baqi xan Bəlx yaxınlığında yerləşən bir qalaya yol aldı və orada yerləşdi. Bu qalanın divarları qarşısında Baqi xan atəş mövqeləri yaratdı, ixtiyarında olan topları və tüfəngçiləri həmin mövqelərdə yerləşdirdi və döyüşə hazır vəziyyət aldı. Onun fikrincə bu mövqelərdə qızılbaş qoşunlarına güclü müqavimət göstərməklə həm sığındığı qalanı, həm də Bəlx şəhərini müdafiə edə bilərdi. Şah Abbas görəndə ki, Baqi xan qızılbaş qoşunlarına qarşı müqavimət göstərmək qərarına gəlib, onda o da qoşunlara döyüş əmri verdi. İlkin olaraq tərəflər arasında döyüşə qarovul döyüşçüləri qatıldılar. Baqi xanın bütün cəhdlərinə və ümidlərinə baxmayaraq, özbəklər üçün bu döyüş uğursuz oldu. Qızılbaş qarovulları döyüşdə üstün olmaqla özbək dəstəsinin 24 nəfər məşhur bahadırını da ələ keçirdilər. Döyüşdə salamat qalan özbək döyüşçüləri isə qaçaraq Bəlx ətrafına yollandılar. Sonrakı günlərdə isə fəal döyüşlər aparılmadı. Təxminən bir aya yaxın qoşunlar bir-biri ilə üzbəüz dayanaraq silaha əl atmadılar.

İlk döyüşün nəticəsini görəndən sonra Baqi xan qızılbaş qoşunları ilə açıq sahədə döyüşə girmək istəmədi. Şah Abbas özbək qoşunlarını açıq döyüşə cəlb etməyə çalışsa da, buna müvəffəq olmadı. Qala mühasirəsinə isə Şah Abbas getmək istəmirdi. Çünki Baqi xan da kifayət qədər tədbirli bir taktika seçmişdi. O dayandığı qalanın divarlarından müəyyən məsafədə xəndəklər qazdıraraq onu su ilə doldurmuşdu. Bu xəndəklərin qarşısında torpaqdan yaradılmış hündürlük isə özbək döyüşçüləri üçün əlverişli döyüş mövqelərinə çevrilmişdi. Özbək qoşunları qala divarları ilə xən-

dəklər arasında yer alaraq qızılbaş qoşunlarından müdafiə olunurdular. Qızılbaş qoşunlarının xəndəkləri aşması böyük itkilərlə müşayiət oluna bilərdi. Xəndəklərin aşıldığı təqdirdə isə özbəklər qala daxilinə çəkilməklə daha etibarlı müdafiə imkanları əldə edə bilərdilər. Qalanın mühasirəsinə Şah Abbas qərar vermək istəmirdi. Çünki belə bir taktikaya əl atılması döyüşün daha da uzanmasına gətirib çıxara bilərdi. Döyüşün uzanması qeyri-münasib hava şəraitində şah qoşunlar arasında ərzaq ehtiyatlarının tükənməsinə, xəstəliklərin isə artmasına gətirib çıxara bilərdi (171).

Vaxtın uzanması isə qızılbaş qoşunları üçün çətinlikləri xeyli artırdı. Ərzaq qıtlığı, təmiz su çatışmazlığı ilə bərabər, xəstəlik üzündən qoşunlar arasında itkilər də çoxaldı. Belə bir vəziyyətin davam etməsi daha ağır vəziyyətə gətirib çıxara bilərdi. Şah Abbas yaxın ətrafını toplayaraq qoşunları vəziyyəti ilə bağlı onlarla məsləhətləşmələr apardı. İrəli sürülən təklif və mülahizələri dinlədikdən sonra Şah Abbas öz fikrini belə bəyan etdi: "Bu yürüşdən bizim məqsədimiz sultanzadələrə köməklik göstərmək və yaxşılıq etməkdir. Əgər, həmişə lovğalıq edən Baqi xan hümayun orduya tərəf irəli çıxarsa, biz də döyüş səflərini bəzəyərdik və bu hərb ilahinin istəyi ilə əncama yetərdi. Bir halda ki, xan üzbəüz vuruşdan çəkinib öz işinin sərfəsinə çalışır, bəs biz niyə fikirləşmədən ləşkəri hasar və səngərə yürüdüb top və tüfəng qarşısında qalaq? Ləşkərimizdə isə xəstəlik şiddətlənir, hər gün bir dəstə əsgər ədəm yoluna yollanır. Biz əgər cəhalətə və qürura qapanarsaq, dünyanın şərəf (həmiyyət) və qeyrətini çəkərsək, belə hərəkət müzəffər əsgərlərin və dövlət işlərinin bərk sarsılmasına səbəb olar. Məsləhət belədir ki, bu şəraitdə ləşkərin qorunmasından ötrü uzaqgörənlik edib, geri qayıdaq. Əgər Baqi xan bizi təqib etməkdən ötrü xandaq arxasından çıxarsa, cilovu geri döndərib müdafiəyə başlayarıq, əks halda isə sağ-salamat qayıdıb, Allah-taalanın köməyi ilə ordunu arxayın bir yerə çıxararıq və istəyimiz İlahinin istəyi ilə gözəl şəkildə cilvələnər" (172).

Mənbə məlumatlarına görə, özbəklər şah qoşunları düşərgəsinə yaxın axan çayın da xəstəlik mənbəyinə çevilməsi üçün mü-

əyyən vasitələrə əl atdılar. Onlar ölmüş heyvanların leşlərini çuvallara dolduraraq çayın daha yuxarı hissəsində su axarının içərisində yerləşdirdilər. Bu heyvanların parçalanmaqda olduğu leşlərindən yayılan xəstəliklər çay aşağı qızılbaş düşərgəsinə tərəf gəlirdi və bu sudan istifadə edən qızılbaş döyüşçüləri arasında xəstəliklər də artırdı (173).

Şah Abbas qoşunların xəstəlik yolu ilə məhvinin qarşısının alınması üçün nəhayət ki, geri çəkilmək əmri verdi. Bir gün sonra, 1602-ci il iyun ayının 29-da şah qoşunları Xətəb çayı kənarına yetişdilər. Həmin gün aşura gününə təsadüf etmişdi. Şah Abbasın göstərişi ilə elə orada Kərbəla şəhidlərinə təziyə mərasimi təşkil edildi. Şah Abbas aşura günü qoşunların hərəkətə başlamasını lazım bilmədi və Xətəb çayı kənarında düşərgə salındı. Elə orada bəlli odu ki, qoşunların üçdə biri müxtəlif xəstəliklərə mübtəla olublar. Qoşunların daha üçdə biri isə xəstələnənlərə qayğı və kömək göstərilməsi ilə məşğuldurlar. Yəni, əslində, qızılbaş qoşunları öz döyüş qabiliyyətini müvəqqəti olaraq itirmişdi və bu qoşunla Baqi xanın dəstəsinə qarşı ciddi döyüşün aparılması da mümkün deyildi. Ona görə, həm düşərgədə, həm də hərəkət zamanı qoşunların təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər həyata keçirildi. Şah Abbasın tapşırığına əsasən, qoşunların önündə hərəkət etməli olan çərxçi dəstəsi qoşunların arxasında yer tutdu. Bu dəstə gecə istirahəti zamanı qoşunların əsas dəstəsindən yarım fərsəx geridə dayanmalı və qoşunları qəfil hücumladan mühafizə etməli idi. Çünki gecə vaxtları da özbək qoşunlarının qəfil hücum edə biləcəyi istisna deyildi. Eyni zamanda cinah təhlükəsizliyinin təmin edilməsi üçün də qüvvələr müəyyənləşdirildi. Belə tərtibdə qızılbaş qoşunları üç fərsəx yol getdikdən sonra dayanmalı oldu. Arxada hərəkət edən çərxçi əmirlərindən biri Şah Abbasa məlumat çatdırdı ki, uzaqdan özbək qoşunlarının yaxınlaşması müşahidə olunmuşdur. Şah Abbas arxada qalmış çərxçi dəstəsinə belə bir tapşırıq verdi: “Əgər müxalif qoşun cəng əzmi ilə gəlib hərbə başlayarsa, ön dəstə müdafiəyə başlayaraq bizi döyüşün gedişatı haqda məlumatlandırsın, yox, əgər özbəklərin cəng

etmək fikirləri yoxdursa, qoy bizim döyüşçülər özlərini qorumaq məqsədi ilə hərbi ehtiyatkarlığı əldən verməsinlər və qazilər hərb etməyib özlərini ahəstə-ahəstə hümayun orduya çatdırsınlar" (174).

Çox tezliklə məlum oldu ki, özbək qoşunları qızılbaş qoşunları ilə döyüşə girmək üçün yaxınlaşmaqddır. Çox güman ki, qızılbaş qoşunları daxilindəki vəziyyət Baqi xana da bəlli olmuşdu və o yaranmış vəziyyətdə qızılbaş qoşunlarına ağır zərbə vurmaq imkanının əldən qaçırmaq istəmədi. Şah Abbas da bu döyüşü qəbul etdi və qoşunları döyüş üçün qruplaşdırdı. Onun tapşırığı əsasında İbn Hüseyn xana və onun rəhbərliyi altına verilmiş dəstəyə qoşunların yanlardan mühafizəsi tapşırıldı. Sonra isə toplar yüklənmiş arabalar və tüfəngçilər dəstəsi özbək qoşunlarının yaxınlaşdığı istiqamətdə qoşunların ön xəttinə çıxarıldı. Qoşunların sağ və sol cinahları müəyyənləşdirildi və bu cinahlara təcrübəli əmirlər yerləşdirildi. Şah Abbas özü də döyüşə qoşulmaqla özbək qoşunlarının qarşılanması əmrini verdi. Qoşunların çərxçi dəstəsi ilkin olaraq döyüşü qəbul etmək üçün əsasən dəstədən bir fərsəx yarım irəli çıxarıldı. Bu dəstə Şah Abbasın əmri ilə təcrübəli qızılbaş əmirləri ilə daha da möhkəmləndirildi. Çərxçi dəstəsinin ardınca isə qoşunların əsas dəstələri döyüşə atıldılar (175).

İrəli atılmış qızılbaş çərxçiləri bir özbək bahadırını əsir götürərək qoşunların içərisinə gətirdilər. Onun dindirilməsi ilə özbək qoşunları arasında nə baş verməsi haqqında lazımi məlumat almaq mümkün oldu. Həmin bahadırın sözlərinə görə, qızılbaş qoşunlarının gözlənilmədən geri çəkilməsi Baqi xan tərəfindən təəccüblə qarşılanmışdı. Ona bəlli olmuşdu ki, qızılbaş qoşunlarının geri çəkilməsinə ərzaq qıtlığı, xəstəliklərin geniş yayılması öz təsirini göstərmişdir. Baqi xan belə bir qənaətə gəlmişdi ki, qızılbaş qoşunları kifayət qədər zəifləmişdir və bu qoşunlarla döyüşə girmək mümkündür. Amma onun yanında olan təcrübəli özbək ağsaqqalları qızılbaş qoşunlarının təqib edilməsinə razı olmadılar və hələ vaxtilə Şah İsmayılın geri çəkilməklə Şahi bəyi tələyə salmasını Baqi xana xatırlatdılar. Özbək əmirləri və ağsaqqalları Şah

Abbasın da geri çəkilməsini onun taktiki gedişi ola biləcəyini ehtimal edirdilər. Ona görə də onlar Baqi xanı da vəziyyəti daha yaxşı götür-qoy etməyə çağırırdılar. Baqi xan isə bu məsləhəti qəbul etmədi. Bir çox özbək bahadırları da onun qərarını dəstəklədilər və bunun nəticəsi kimi, özbək qoşunları şah qoşunlarını təqibinə atıldılar. Qarşılaşdıqları ağır duruma baxmayaraq qızılbaş döyüşçüləri mərdanəliklə özbəklərə qarşı döyüşə atıldılar. Şah qoşunlarının çərxçi dəstəsi, habelə qoşunların önündə vuruşan Bəktaş xan Ustaclı özbək qoşunlarının Xətəb çayını adlamış ilk dəstələrinə güclü zərbə vurdular və onları yenidən çayın o biri sahilinə geri çəkilməyə məcbur etdilər (176).

Çərxçilərin ardınca şah qoşunlarının əsas dəstələri də döyüş meydanına yetişdilər. Bundan ruhlanan Bəktaş xan və Nəcəfqulu xan Şamlı rəhbərlikləri altında olan qoşun dəstəsi ilə Xətəb çayının qarşı sahilinə adladılar və özbək dəstələrinin üzərinə hücum çəkdilər. Özbək qoşunları belə bir müqavimətlə rastlaşacaqlarını gözləmirdilər. Baqi xanın və onun bahadırlarını gümanında şah qoşunlarının ciddi döyüş qabiliyyəti də qalmamışdı. Amma çayın o biri tərəfinə adlamış olan qızılbaş dəstələri nəyə qadir olduqlarını nümayiş etdirdilər. Bütün gün ərzində döyüş davam etdi. Özbək dəstələrinin üstünlüyü ələ almaq cəhdləri heç bir nəticə vermədi. Onlar heç bir cəhdlə qızılbaş dəstələrinin müqavimətini qıra bilmədilər. Bu döyüş axşama qədər davam etdi. Hava qaralana yaxın özbək dəstələri şah qoşunlarının qarşısından qaçmaq yolunu tutdular. Şah Abbas çayın o biri tərəfində döyüşə qatılmış qızılbaş əmirlərinə əmr göndərdi ki, havanın qaralması ilə əlaqədar geri qayıtsınlar və gecəni şah düşərgəsində keçirsinlər. Çünki o tayda qalmaq təhlükəli ola bilərdi və özbək dəstələri gecə basqınlarına əl ata bilərdilər. Bu döyüşün gedişində xeyli sayda özbək döyüşçüsü qətlə yetirildi. İsgəndər bəy Münşinin yazdığına görə, gecədən xeyli keçənə qədər şah düşərgəsində qətlə yetirilmiş özbəklərin kəsilmiş başları müşahidə olunmuşdu. Onların arasında xeyli sayda özbək əmir və bahadırlarının kəlləsi də var idi. Şah qoşun-

ları tərkibində isə tanınmış əmirlərdən yalnız Mehrabxan Qacarın qardaşı Şərif bəyin qətlə yetirildiyi bəlli olmuşdu (177).

Conabedi yazırdı ki, şah qoşunları geri çəkilməyə başlayanda özbək dəstələrinin onları təqib edəcəkləri istisna edilmirdi. Belə bir təhlükənin aradan qaldırılması üçün Şah Abbasın göstərişi ilə Mərv hakimi Bəktaş xan Ustaclı, Tun və qayin hakimi Mehrab xan Qacar və Maruçaq hakimi Yusif xan Çegəni (o, Məşhəd hakimi Budaq xanın oğlu idi) Xətəb çayı ətrafında müdafiə mövqelərində dayandılar. Bəktaş xan öz dəstəsi ilə Xətəb çayının Bəlx tərəfindəki sahili boyunca mövqe tutdu. Onun ixtiyarında iki min nəfərlik bir qızılbaş dəstəsi var idi. Mehrab xanla Yusif xan isə çayı adlayandan sonra gizli bir yerdə müdafiədə dayanmalı idilər. Şah qoşunları hərəkətə başlayandan sonra Baqi xan da beş min nəfərlik bir özbək dəstəsi ilə onların təqibinə başladı. Adı çəkilən müəllifin yazdığına görə, özbək qoşunları qızılbaş qoşunlarını təqib etmək üçün Xətəb çayını da adladılar. Belə olanda çayın o biri üzündə gizlində mövqe tutmuş Bəktaş xan öz mövqeyini tərk edib çayın kənarına gəldi və özbəklərin geri yolunu bağladı. Çayın o biri tərəfinə adlamış özbək dəstəsi isə bir qədər də irəliləyəndən sonra Yusif xanla Mehrab xan onların qarşısına çıxdılar. Bununla da özbək dəstəsi iki tərəfli qızılbaş dəstələrinin təzyiqi altına düşdü. Özbək dəstəsi gözləmədiyi halda şah qoşunlarının mühasirəsi ilə üzləşməli oldular. İrəli getməyin mümkün olmadığını görəndə özbəklər geri çəkilmək istəsələr də Bəktaş xan onların yolunu bağladı. Conabedinin yazdığına görə, özbəklər gözləmədiyi zərbəni aldılar və onlardan üç min nəfərinin kəlləsi qızılbaş döyüşçülərinin nizəsində yer aldı. Döyüş başa çatandan sonra özbək döyüşçülərinin üç min kəlləsi Şah Abbasın hüzuruna gətirildi. O isə bu döyüşdə fərqlənən bütün əmirləri və döyüşçüləri səxavətlə mükafatlandırdı (178).

Aparılan döyüşün gedişində özbəklər güclü bir zərbə aldılar və qızılbaş düşərgəsindən belə bir fikri var idi ki, Bəlxə tərəf yenidən hərəkət başlansa Baqi xan orada davam gətirə bilməyib qaçacaqdır. Bu fikir Şah Abbasa da çatdırıldı. Amma Şah Abbas bu fikirlə

razılaşmadı və geri qayıtmaq qərarını dəyişmədi. Çünki qoşunlar arasında xəstəlik xeyli çoxalmışdı və ötən hər gün onların sayını daha da artıra bilərdi. “Buna görə də, şah zəfər ehtimalı ilə batində danışanların sözlərinə qulaq asmayıb ehtiyat yolunu tutdu və bu fikirdən dönmədi. Hərbi işlərdə və qərardan dönməməkdə bu qədər fəth və zəfər qazanan şah öz fikrini dəyişmədi. Həqiqətən də, o vaxt bu qələbədən də üstün olan başqa bir fəth olmamışdı. Gecə yarısına yaxın idi ki, mərəkə meydanının ad-sanlı əmirləri geri qayıdıb, şaha təbriklərini təqdim etdilər, şahanə nəvazişlərlə sərəfraz olub, öz ordularına qayıtdılar” (179).

Özbək təhlükəsi aradan qalxandan sonra şah qoşunları geriyə hərəkətlərini davam etdirdilər. Bu zaman həm təhlükəsizlik tədbirləri görülmüşdü, həm də xəstələrə yardım tədbirləri nəzərdə tutulmuşdu. Təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi üçün önə çıxarılmış dəstələr daha da gücləndirildi. Bundan əlavə qoşunların sağ və sol cinahlarına əlavə qüvvələr verildi. Ön dəstə yarım fərsəx qoşunlardan irəlidə olmalı idi. Bu dəstə yolun və ətrafın müşahidəsini aparmalı idi. Özbək dəstələri göründüyü halda bu dəstə onlara qarşı müqaviməti göstərməli idi. Xəstə olanlara dərhal kömək göstərilməli və onların geridə qalmasına yol verilməməli idi.

Hərəkət zamanı döyüşçülər arasında xəstəlik üzündən dünyasını dəyişənlər də olurdu. Həmin döyüşçülər dünyasını dəyişdikləri məkanda da dəfn olunurdular. Bu dəfn mərasimi elə keçirilirdi ki, özbəklər qəbirlərin yerini müəyyənləşdirə və dünyasını dəyişənlər üzərində təhqiredici əməllər edə bilməsinlər.

Bir neçə gündən sonra şah qoşunları Əndxoda çatdılar. İsgəndər bəy Münşi yazırdı ki, şah qoşunları Əndxoda çatandan sonra bu şəhərə ilk gəlişdən fərqli olaraq yerli əhalinin əmlakının talan edilməsi və əsir götürülməsi haqqında verilmiş olan qadağa aradan qaldırıldı (180). Başqa bir mənbə məlumatına görə isə şah qoşunlarının gəlməsi xəbərini alan Əndxod sakinlər bu qoşunlara müqavimət göstərmək yolunu tutdular və bunun üçün küçələrdə barrikadalar qurdular. Şah Abbasın tapşırığı ilə əvvəlcə bu barri-

kadalar yox edildi və sonra da müqavimət göstərən əhalinin cəzalandırılması yolu tutuldu (181).

Qarşılaşdığı çətin duruma görə şah qoşunlarının ağır psixoloji durumda olması təbii sayıla bilərdi. Xəstəliyin tüğyan etdiyi, yorğunluğun xeyli artdığı qoşunların Əndxodda əlavə müqavimətlə rastlaşması qoşun əhlini yerli əhaliyə qarşı sərt addımlar atmağa sövq edə bilərdi. Əndxod sakinlərinə qarşı sərt tədbirlərin meydan verilməsində bu məqamı istisna etmək olmazdı. Şah Abbasın iştirak və rəhbərlik etdiyi döyüşlərdə ilk dəfə idi ki, qızılbaş qoşunları tərəfindən yerli əhaliyə qarşı kütləvi talanların həyata keçirilməsi baş verirdi. İsgəndər bəy Münşi də belə bir məqama toxunurdu ki, Şah Abbas tərəfindən qadınların və uşaqların əsir götürülməsi düzgün sayılmırdı. Amma bu hal qonşu dövlətlərin təcrübəsində geniş yer tutmuşdu və Əndxod sakinlərinə münasibətdə Şah Abbas da belə addımın atılmasına etiraz etmədi. Adı çəkilən müəllif bu məsələni belə təsvir edirdi: “Təcrübəli aqillərin işıqlı yaddaşlarından və rüzgarın agah adamlarından gizli qalmasın ki, keçmiş zamanlarda özbək sultanlarının Xorasana, rum xaqanlarının isə Azərbaycana o yerləri tutmaq, yaxud qarət etməkdən ötrü gələn döyüşçülərinə müsəlmanların əyalını və uşaqlarını əsir götürmək cayiz deyildi. Onlar şiəməzhəb ölkələrdən əsir aparmırdılar. Qızılbaş ləşkəri də heç vaxt o pis (məzmum) işə qurşanmırdı. Amma, Rum xandgarı Sultan Murad xanın dövründə rum və tatar ləşkəri bu işi Azərbaycanda və Şirvanda etdilər. Belə ki, Təbrizin fəthi zamanı Haşimi peyğəmbərinin nəslindən olan seyid uşaqlarını əsir götürüb, İstanbulda firəng kafərlərinə satırdılar. Abdulla xanın və onun oğlu Əbdülmömin xanın zamanında da, özbəklər Xorasanda o pis əməli görməyə başladılar. Müqəddəs Məşhəddə həzrət imaməl-cin və-n nasin, habelə məşhur adamların, üləmaların, zahidlərin, namuslu ərbabların, hərbçi şəxslərin və rəiyyətin bir neçə min təbəəsi əsir aparılaraq, Türküstanın və Mavərənnəhrin uzaq yerlərində (əqsa) satılıb Kabul və Hindistana qədər aparıldılar. Dünya mükafat evi olduğundan və həqiqi qənimət sahibi olan Haqq-təalanın iradəsi ilə (məşiyyət) özbəklər

tərəfindən elə bir iyrənc işə əməl edildiyindən, fələyin və asimani hadisələrin tələbatı (eqteza) ilə pis işlərə göz yumulduğu (eğmaz) üçün qəzavü-qədər icraçılarının təhriki ilə bu yürüşdə də bir neçə min adam əsirliyə giriftar olub öz vətənlərindən ayrı düşdü" (182).

Sonra Əndxoddan geri hərəkətə başlandı. İsgəndər bəy Münşi yazırdı ki, Şah Abbas bu hərəkət zamanı ehtiyat tədbirlərinə diqqətlə əməl edirdi. Çünki havanın istiliyi son dərəcə yüksək idi və bu da qoşunlar üçün mövcud olan çətinlikləri saxlamaqda idi. Şah Abbas həm qoşunların hərəkətini təşkil edirdi, həm də qoşunların qayğısına qalırdı. Eyni zamanda özbək təhlükəsi də yaddan çıxmırdı. Qətləsə yaxınlaşanda özbək dəstəsi yenidən görünməyə başladı. Tezliklə bu dəstənin də niyyətinin şah qoşunları üzərinə hücum etmək olduğu aşkara çıxdı. Özbəklər qoşun karvanının sol cinahını qoruyan ustaclı qorçuları üzərinə hücuma keçdilər. Görünür, şah qoşunlarının bəzi əmirləri Əndxoddan uzaqlaşdıqca özbək hücumunun ola biləcəyini ehtimal etmirdilər. Ona görə elə sol cinahı qoruyan qorçular arasında bir sərbəstlik mövcud idi. Onlar dağınıq halda hərəkət edirdilər. Özbək döyüşçüləri onları belə bir dağınıq halda yaxalaya bildi və bu vəziyyətdə qızılbaş qorçularına güclü zərbə vuruldu. Qorçular toparlanana qədər onların bir neçəsi özbək döyüşçülərinin hədəfinə çevrildilər. Doğrudur, sonradan özbək hücumunun qarşısı alındı. Amma Şah Abbas laqeydliyə yol vermiş qorçuları ciddi cəzalandırdı. Xüsusilə ustaclı döyüşçüləri göstərdikləri intizamsızlığa görə qınağa düçar oldu (183).

Şah qoşunları sonra da Ciçəktu və Maruçaqdan keçməklə Herata yolandılar. Qoşunlar Cicəktuda olarkən Şah Abbas oranın qalasını dağıtmaq əmri verdi. Maruçaqda isə əksinə yerli qalanın möhkəmləndirilməsi işləri aparıldı. Bu qala Səfəvi-özbək hüdudunda yerləşən bir qala idi və bu qala özbək hücumlarının qarşısının alınmasında əhəmiyyətli rol oynaya bilərdi. Şah tərəfindən bu qalanın hakimliyi Məşhəd hakimi Budaq xanın oğlu Yusifqulu xana həvalə edildi. Yusifqulu xanın qardaşı Bayraməli sultan da sərhəd bölgəsində hakim təyin edildi ki, onlar lazım olanda biri-

birinə kömək edə bilsinlər. Özbək təhlükəsinə qarşı müqavimət imkanlarının gücləndirilməsi üçün Şah Abbasın tapşırığı ilə Yusifqulu xana əlavə maliyyə vəsaiti, silah və ərzaq ehtiyatları və digər zəruri əşyalar verildi. Özbək təhlükəsinin ola biləcəyi ilə bağlı Şah Abbas öz gümanlarında heç də yanılmamışdı. O, Heratda olarkən Baqi xanın öz dəstəsi ilə Ciçəktu üzərinə hücuma hazırlaşması haqqında məlumat aldı. Şah Abbas bu hücumun qarşısını almaq üçün Ciçəktu istiqamətinə hazırlıqlı biq qızılbaş dəstəsi göndərdi. Həmin dəstə də hücuma cəhd edən özbəklərə zərbə vuraraq onları qaçıb-dağılmağa məcbur etdi (184).

Hava şəraiti səbəbindən Bəlx üzərinə hərbi yürüş kifayət qədər mürəkkəb bir yürüş oldu. Böyük sayda qoşunların təchizat mənbələrindən uzaqlaşması, su mənbələrinin olmaması, havanın son dərəcə isti olması və nəhayət kütləvi xəstəliyin yayılması qızılbaş qoşunlarının vəziyyətini günü-gündən ağırlaşdırdı. Açıq döyüşlərdə özbək qoşunlarına uğur qazanmaq fürsəti verilməsə də, təbii çətinliklərin aradan qaldırılması imkanlarının olmaması qızılbaş qoşunlarını geri qayıtmağa məcbur etdi. Təbii itkilərin qarşısının alınması üçün Şah Abbas geri çəkilməyi məsləhət gördü. İsgəndər bəy Münşi yazırdı ki, Şah Abbasın özü də bu hərbi yürüş zamanı xeyli çətinliklərə qatlaşmalı oldu. Elə bir vəziyyət yarandı ki, qızılbaş döyüşçüləri ölüm ayağında olan yoldaşlarını özbəklərin əlinə keçməməsi üçün son nəfəsi çıxmamış onları torpağa tapşırmalı olurdular. Qızılbaşlar istəmirdilər ki, xəstə yoldaşları və eləcə də dəfn olunmuş yoldaşları özbəklərin əlinə keçsin və onların başlarını kəsib özləri ilə aparsınlar. Buna görə hətta dünyasını dəyişənlər elə yerlərdə dəfn edilirdi ki, onların qəbirlərinin yerini müəyyənləşdirmək mümkün olmasın (185).

Bu yürüşün gedişində müəyyən sayda əmir və əyanlar öz həyatlarını itirməli oldular. Bu itkilər də əsasən yayılmış xəstəliklə bağlı idi. İsgəndər bəy Münşi öz əsərində onların bir çoxunun adlarını da qeyd etmişdi (186).

Doğrudur, bu hərbi yürüş zamanı Şah Abbas qarşısına qoyduğu məqsədə tamamilə nail ola bilmədi və Bəlx qalasını ələ ke-

çirmək mümkün olmadı. Bununla belə, bu yürüşü bütünlükdə uğursuz bir yürüş adlandırmaq da doğru olmazdı. Çünki bu yürüşün gedişində Baqi xan qızılbaş qoşunlarının gücünə və qüdrətinə bir daha əmin oldu O, anladı ki, Səfəvi dövləti ilə münasibətləri düşmənçilik və işğalçılıq üzərində qurmaq onun üçün heç də faydalı ola bilməz. Əslində, Şah Abbas özü də bu yürüşü uğurlu bir yürüş kimi dəyərləndirirdi və bu barədə Osmanlı hökmdarı III Sultan Murada göndərdiyi məktubunda da qeyd edirdi. Səltənət padşahlarının apardığı hərbi yürüşlər haqqında qonşu dövlətlərin padşahlarına fəthnamələr göndərməsi dövrün ənənəsindən irəli gələn bir təcrübə idi. Bəlx üzərinə yürüş başa çatandan sonra Şah Abbas bu yürüşün uğurla başa çatması haqqında III Sultan Murada məktub yazdı. Bu məktub kifayət qədər geniş bir məktub idi. Məktubun əvvəlində öz xeyir və dualarını ifadə edən Şah Abbas Osmanlı sultanını sahibqiran, günəş papaqlı, aləmpənah, İsgəndər şanlı və Süleyman məkanlı padşah, cahangir xaqan deyə vəsf edirdi. Məktubda 21 dəfə Quran ayələrinə müraciət olunmuş və 12 nəzm parçası istifadə olunmuşdu. Sonra isə Şah Abbas həm Din Məhəmməd xana, həm də Baqi xana qarşı aparılan döyüşlər haqqında məlumat verirdi. Səfəvi şahı bu özbək xanlarının Səfəvi hüdudlarına hücum etməsi və özbək qoşunlarının soyğunçu əməllərinin qarşısının alınması üçün Xorasana qoşun çıxarması haqqında məlumat verirdi. Şah Abbasa görə, əgər Baqi xanda mərdlik və mərdanəlik olsaydı elə öz torpaqlarında qızılbaş qoşunlarının qarşısına çıxardı. Məktubda bildirilirdi ki, Baqi xan qızılbaş qoşunlarının qorxusundan Ciçəktunu, Ğərcistanı, Meymənəni, Faryabı və Şibirğanı ataraq geri çəkilməyə üstünlük verdi. Əndxod qalasının mühasirəyə alınması və fəthi barəsində də Şah Abbasın məktubunda məlumat vardı. Şah Abbas bu qalanı müdafiə edə bilməyən Baqi xanı istehza ilə xatırlayırdı. O, yazırdı ki, bu qalanın hakimini Baqi xanın ardınca göndərdi və öz ismarıcını ona çatdırdı. Onun sözlərinə görə, Baqi xan qızılbaş qoşunlarının gəlməsi xəbərini alınca bölgədən qaçmağa başladı və müqavimət göstərməyə gücü çatmayaraq qala divarlarına sığındı. Şah Abbas onu da

yazırdı ki, Bəlx qalasını mühasirədə saxladığı günlərdə dəfələrlə qala kənarında özbək dəstələri ilə qızılbaş dəstələri arasında qarşılaşma olmuş və qarşılaşmaların hamısında özbəklərə ağır zərbə vurulmuşdu. Bəlx qalasının 20 gün ərzində mühasirədə saxlandığı və bu zaman özbək döyüşçülərinə xeyli itki verildiyi də Osmanlı sultanının nəzərinə çatdırılırdı. Yəni belə bir təsəvvür yaradılırdı ki, özbək qoşunları və Baqi xan qızılbaş qoşunlarına qarşı müqavimət göstərə bilməyəcəklərindən qalanı tərk edib bayıra çıxa bilmədilər. Qala divarları dışına çıxmaq istəyən dəstələrə isə ağır zərbə vuruldu. Şah Abbas bildirirdi ki, yalnız ərzaq qıtlıqları yaranandan, xəstəliklər artandan və Baqi xan da qarşılıqlı münasibətlər yaradılması üçün öz elçilərini onun yanına göndərəndən sonra Bəlx qalasının mühasirəsini dayandırmaq qərarını verdi. Onun yazdığına görə bu mühasirənin dayandırılması həm də ağsaqqal əmir və əyanların təkidi ilə baş verdi. Ona görə də qızılbaş qoşunları Bəlx qalasının mühasirəsindən geri çəkildilər. Bəlx yürüşünü fəth kimi dəyərləndirən Şah Abbas bu məktubunu Əbdülqasım bəy Qorçu Evoğlu adlı bir əmiri vasitəsilə Osmanlı sarayına göndərdi (187).

Baqi xan isə doğrudan da özbək qoşun dəstələrinin geri çəkilən qızılbaş qoşunlarından Xətəb çayı ətrafında ağır zərbə almasından çox pərişan olmuşdu. Onun nəzərində Şah Abbas bu uğurlarını təkrarlaya bilərdi. Ona görə də ətrafının adamlarını toplayaraq Mavərənnəhrə tərəf qaçmaq istəyirdi. Yalnız yanındakı ağsaqqalların məsləhəti ilə Baqi xan geri qaçmadı. Səhərisi gün isə xəstəliyin genişlənməsinə görə qızılbaş qoşunlarının geri çəkilməsi xəbərini aldı. Bundan sonra Baqi xan sakitləşdi və qızılbaş təhlükəsinin uzaqlaşmasına görə, Mavərənəhrə qaçmağı təxirə saldı. Sonrakı ildə Şah Abbasın diqqəti əsasən Osmanlı qoşunlarına tərəf yönəldiyi üçün Xorasan üzərinə şah qoşunlarının gəlməsi baş vermədi. Bu isə Baqi xanın və onun ətrafındakıların sevincinə səbəb oldu (188).

Şah Abbas Heratda uzun müddət dayanmadı. “Qələbə ayəli ordu Bəlx səfərindən qayıdıb, Herat darülsətlənəsində olduğu bir

neçə gün ərzində əlahəzrət oranın tənzimlənmə işləri ilə məşğul oldu, sonra isə müqəddəs Məşhədə təşrif apardı. Orada [da] bir neçə gün Xorasanın qiymətli hakimlərinin, sahiblərin və əyanların mətləb və mübahisəli məsələləri ilə məşğul olaraq, şahanə nəvazişlər və xələtlər verməklə hamını sevindirdi və sərəfraz etdi, onlara geri qayıtmaq icazəsi verdi. O, iki-üç gün də müqəddəs Astanaya (İmam Rza rövzəsinə – red.) gedərək öz şərif vaxtını rövzə sərkarının, ərizə verənlərin, seyidlərin, xidmətçilərin, vəzifə sahiblərinin və başqa işlərin qaydaya düşməsinə sərf etdi, oradan İraqa tərəf yollandı, bir neçə gün Radkan Ələngində iqamət çadırı qurdu, əzəmətli qorçiləri və sərkare-şərifə mülazimlərini qəbul etdi, daha bir neçə gün də şikar nəşəsinə daldı. Bu səfərdə ləyaqətlə xidmət göstərənlərin bir dəstəsini ənamlarla sərəfraz etdi, bir neçə müqəssir isə xidmətdən kənarlaşdırıldı. Bu işləri yerinə yetirdikdən sonra, Xəbuşan yolu ilə ov edə-edə mənzilə tərəf üz tutdu. Əzəmətli ordunu ağrəqlə (hərbi yüklər-red) birlikdə Bəstamın Hənəkməğz yoluyla göndərdi, özü isə demək olar ki, tənha halda (subay) az miqdar müqəddəs qoşun mülazimiylə Dərun ülkasına təşrif apardı, Dərun qalasının əgər-əskik işlərinə nəzər yetirdi" (189).

Şah Abbas Dərunda da bir neçə gün qaldı, oranın idarəçilik işlərini qaydaya saldı, bu məntəqəyə yeni bir hakim təyin etdi. Sonra isə Şah Abbas Kaşana yollandı. Bu şəhərin əhalisi Şah Abbası çox böyük sevinclə qarşıladı, üç gün bu şəhərdə şənliklər keçirildi. Oradan da Şah Abbas İsfahana yol aldı. 1602-ci ilin payızını və qışını Şah Abbas səltənət paytaxtında keçirdi və səltənət işləri ilə məşğul oldu (190).

### 9. Səfəvi-özbək münasibətlərinin davamı

Xorasan səfəri zamanı Şah Abbas qarşıya qoyduğu məqsədə bütünlüklə nail ola bilmədi. Bəlli olduğu kimi, o, Bəlxi Baqi xandan geri almaq və bu şəhəri özbək sultanzadələrinin hakimiyyəti altına vermək istəyirdi. Yuxarıda qeyd edildiyi ki, özbək sul-

tanzadələrindən olan Cahangir bəy də Şah Abbas tərəfindən xan məqamına yüksəldilərək Bəlxin hakimi təyin edildi. Bəlx geri alındıqdan sonra o bu vilayətin hakimliyini icra etməli idi. Bəlx üzərinə yürüş zamanı şah sarayına pənah gətirmiş özbək sultanzadələri də iştirak edirdilər və Bəlxin alınacağı təqdirdə orada qalmalı idilər. Lakin Bəlx şəhərini Baqi xandan azad etmək mümkün olmadı və özbək sultanzadələri də şah qoşunları ilə birlikdə geri qayıtmalı oldular. Bəlli olduğu kimi Yarməhəmməd Mirzə də Cahangir xanın atalığı təyin olunmuşdu. Sultanzadələr şah qoşunları ilə birlikdə geri qayıdandan sonra tərk etdikləri yurdlarının geri qaytarılması üçün hansısa bir fəallıq göstərmək fikrinə düşdülər. Yarməhəmməd Mirzə belə bir təklif irəli sürdü ki, Bəlxin alınması təxirə düşdüyü üçün özbək xanlıqları ilə sərhəd bölgəsində yerləşən Ğərcestan Cahangir xanın hakimliyi altına verilsin. Bu vilayət həm zəngin bir vilayət idi, həm də möhkəm qalalara malik idi. Yarməhəmməd Mirzə istəyirdi ki, özbək sultanzadələri orada möhkəmlənsinlər, həm sərhəd bölgəsinin təhlükəsizliyinin təmin edilməsində iştirak etsinlər, həm də orada özbək tayfalarının arasında iş aparsınlar, özbəkləri öz tərəflərinə çəksinlər. Yarməhəmməd Mirzə onu da istəyirdi ki, yeni qoşun dəstələri toplasınlar və sonra da özləri Bəlx üzərinə hücum etsinlər. Özbək sultanzadələri bu fikirlərini Şah Abbasa da çatdırdılar. Bu məsələ 1605-ci ildə baş verdi. XVII əsrin ilk illərində Osmanlı dövləti ilə müharibə aparılması və Səfəvi hüdudlarının Osmanlı qoşunlarından təmizlənməsi Şah Abbas üçün xüsusi əhəmiyyət kəsb edirdi. Belə bir durumda Şah Abbas Xorasan istiqamətində yeni bir cəbhənin açılmasını heç də istəmirdi və ona görə də özbək sultanzadələrinin təklifi onu razı salmadı. Şah Abbas Xorasan istiqamətində fəal işlərin görülməsini başqa bir vaxta təxirə saldı və öz fikrini belə aydınlatdı: "İnşallah, asimanın köməyi və iqbalın gücü ilə Azərbaycan və Şirvanın işləri nizama düşər, rahat olarıq və [o vaxt] hümayun yürüş Xorasan istiqamətinə başlayar və sizin səfəriniz [tərəfimizdən] təsdiqlənər" (191).

Bu vaxt artıq Baqi xan dünyasını dəyişmişdi və Yarməhəmməd Mirzənin fikrincə onun dünyasını dəyişməsi özbək ərazilərinin geri alınması üçün əlverişli şərait yaratmışdı. Baqi xanın dünyasını dəyişməsindən sonra onun yerini qardaşı Vəli Məhəmməd xan tutdu. O, əvvəlcə Bəlxin hakimi vəzifəsində idi. Vəli xanın daha böyük əraziləri idarə etmək təcrübəsi yox idi və Yarməhəmməd Mirzə də onun təcrübəsizliyindən bəhrələnməyi məqsədəuyğun bilirdi. Onun fikrincə, bu işdə ləngliyə yol vermək heç də onların xeyrinə deyil. Ona görə də Yarməhəmməd Mirzə Xorasana yollanmağı israr etdi. Şah Abbas bu məsələyə yenidən münasibətini bildirməli oldu. Bu dəfə isə o, Yarməhəmməd Mirzənin fikri ilə razılaşdı. Şah Abbas özbək sultanzadələrinə həm bahalı hədiyyələr, həm də zəruri təchizat əşyaları bağışladı. Sonra da o, Xorasan bəylərbəyi Hüseyn xan Şamlıya məktub yazdı və ona hərbi yürüşlərin həyata keçirilməsi üçün özbək sultanzadələrinə kömək olmağı tapşırdı: "Sultanzadələrə izzət və ehtiram göstərilsin, layiqli xidmətlər olunsun. Bu dərgaha aid cəmşidi və başqa tayfaların əllərindəki bütün Ğərçestanın ülka və qalaları onlara verilsin, ehtiyaclarının rəfi üçün kömək olunsun və onlar həmin vilayətə getsinlər" (192).

Bu məsələ həll olunanda sultazadələr Naxçıvan ətrafında olan şah qoşunları düşərgəsində idilər. Şah Abbasın icazəsini alandan sonra onlar şah düşərgəsindən ayrıldılar və böyük sevinclə Xorasana doğru hərəkətə başladılar. Özbək sultanzadələri arasında olan Şah Xacə adlı birisi bu səfərə yollanmaqdan imtina etdi. O, şahın pənahı altında qalmağa üstünlük verdi. Yarməhəmməd Mirzə və onun yoldaşları buna etiraz etmədilər. Onların fikrincə, Şah Xacə şahın məiyyətində qalmaqla həm də onların şah sarayı ilə əlaqələrini təmin edə bilərdi. Özbək sultanzadələri isə ailələrini Qəzvində saxladılar və özləri Herata yolandılar. Xorasan bəylərbəyi Hüseyn xan Şah Abbasın tapşırığına əsasən onları mehribanlıqla qarşıladı, bir neçə gün Heratda qonaq saxladı və bu günlər ərzində onların bütün ehtiyaclarını aradan qaldırdı. Bundan əlavə Hüseyn xan qızılbaş döyüşçülərindən ibarət bir dəstə də təşkil edərək öz-

bək sultanzadələrinin ixtiyarına verdi. Bu dəstənin əsasını təcrübəli şamlı döyüşçüləri təşkil edirdilər. Həmin dəstə özbək sultanzadələri ilə birlikdə Ğərcestan vilayətinə yolandı. Özbək sultanzadələrinin rəhbərliyi altında bu dəstə Ğərcestan vilayətini nəzarət altına aldı, bu vilayətin böyük qalalarını ələ keçirdi. Vilayətin ağsaqqalları, əhalisinin nümayəndələri Cahangir xanın yanına gələrək ona itaət edəcəklərini boyunlarına götürdülər. Özbək sultanzadələrinin güman etdiyi kimi, Ğərcestan vilayətində olduqları zaman onların qoşun dəstəsinin də sıraları genişlənməyə başladı. Qoşun dəstəsinin sırasının genişlənməsi isə özbək sultanzadələrində Bəlx üzərinə uğurlu hücum üçün bir ümid işığı yandırdı (193).

Nəhayət, Cahangir xanla Yarməmməd Mirzə Bəlx üzərinə hücum qərarı verdilər. Çünki onlar artıq kifayət qədər güclənmişdilər. Amu-Dərya çayının sahillərində məskunlaşmış özbək tayfaları da onlara itaət edirdilər. Onlar hücum ərəfəsində 12 min nəfərədək qoşun toplamağa müvəffəq olmuşdular. Tezliklə bu qoşun dəstəsi Bəlx ətrafına yetişdi və bu şəhəri mühasirəyə aldı. Baqi xanın yerinə Mavərənnəhr və Türküstan hakimi olmuş qardaşı Vəli Məhəmməd xan özbək sultanzadələrinin Bəlx üzərinə hücumu xəbərini alanda həmin şəhərdəki özbək qarnizonunun köməyinə 20 min nəfərlik qoşun dəstəsi göndərdi. Cahangir xanla Yarməhəmməd Mirzə eşidəndə ki, Bəlx üzərinə əlavə özbək qoşunları gəlir, onda onlar Bəlxin mühasirəsindən əl çəkib özbək qoşunlarını qarşılamağa yollandılar. Qoşunlar bir-birinə yaxınlaşdıqda əvvəlcə ön dəstələr döyüşə qoşuldular. Sonra isə qoşun dəstələri hamılıqla döyüşə atıldılar. Bəlx hakiminin köməyinə gəlmək istəyən qoşun dəstəsi Cahangir xanla Yarməhəmməd Mirzənin dəstəsi qarşısında acız duruma düşdü. Həmin dəstənin adlı-sanlı bahadırları geri çəkilmək məcburiyyətində qaldılar. Onlar və onların rəhbərliyi altında olan qoşun dəstəsi Ceyhun çayını geri adlayaraq səngərlər qurdular və müdafiə mövqeləri tutdular. Cahangir xanın dəstəsi bu döyüşün gedişində kifayət qədər şücaət göstərdi və təşəbbüsü ələ aldı. Əslində, bu döyüşün taleyinin həll edildiyi gü-

man olunurdu. Bu zaman Yarməhəmməd Mirzə ehtiyatsızlıq edərək Vəli Məhəmməd xanın göndərdiyi dəstəyə tərəf at sürdü, lovğalıq edərək öz hünərini nümayiş etdirməyə çalışdı. Bu ehtiyatsızlığı onun həyatı bahasına başa gəldi və qarşı tərəfdən ələ keçirilərək qətlə yetirildi. Onun qətli xəbəri Cahangir xanın dəstəsində bir qarışıqlıq yaratdı. Hətta bu dəstədə olan özbək sultanzadələri də öz döyüşçüləri ilə döyüş meydanını tərk etdilər. Cahangir xanın yanında çox az sayda döyüşçü qaldı və o anladı ki, bu dəstə ilə qarşı tərəfin müqavimətini qırmaq mümkün deyil Belə olanda Cahangir xan da döyüş meydanını tərk edib Ğərcistana yollandı. Bu xəbər Mavərənnəhr hakimi Vəli Məhəmməd xan tərəfindən sevinclə qarşılandı. Onda belə bir güman yarandı ki, əgər Cahangir xana üstün gəlibsə, deməkXorasan vilayətini də ələ keçirə bilər. Ona görə də o, Xorasan vilayəti üzərinə hücum əmri verdi (194).

Vəli Məhəmməd xanın göndərdiyi qoşun dəstəsi bir neçə istiqamətdə hərəkətə başladı. Bu dəstələrdən biri Maruçaq və Badğis üzərinə göndərildi. 3 min nəfərlik başqa bir özbək dəstəsi Mərvə doğru istiqamət götürdü ki, həmin şəhəri soyub-talasın. Xorasan əmirül-ümərası Hüseyn xan Şamlı özbək qoşunlarının bu hücumundan xəbər tutanda dərhal vilayət daxilində olan qalaların hamısının hakiminə göstəriş verdi ki, öz yaxınlarını və əmlaklarını qaladan çıxarsınlar, təhlükəsiz bir yerə göndərsinlər, özləri isə qalaların müdafiəsinin möhkəmləndirilməsi ilə məşğul olsunlar. Hüseyn xan özü də qoşunu hazırladı, təchizatını təkmilləşdirdi və özbək qoşunlarının hücumunun qarşısını almaq üçün lazım bildiyi tədbirləri həyata keçirməyə başladı. Amma elə həmin günlərdə son dərəcə şiddətli qar yağdı, ətraf aləm bir-birindən ayrı düşdü, yollar kəsildi, havalar son dərəcə soyudu. Badğis vilayətində olan özbək döyüşçülərinin bir hissəsi qar uçqunlarının altında qalıb həyatlarını itirdilər. Digər istiqamətlərə yollanmış özbəklər də belə bir mürəkkəb vəziyyətlə qarşılaşdılar. Onların çoxu talanla yığdıqları sərvətləri də ataraq geri qayıtmaq məcburiyyətində qaldılar. Bu zaman onlar qızılbaş döyüşçülərinin təqibi ilə qarşılaşdılar. Mərv hakimi olan Bəktaş xan Ustaclı şəhərin müdafiəsi üçün kiçik

bir dəstə saxlayaraq özü 1200 nəfərlik bir dəstə ilə özbək dəstələrinin təqibinə başladı. Bəktaş xan əvvəlcə öz dəstəsindən 300 nəfərlik bir qüvvəni irəli göndərdi. Özü isə 900 nəfərlik dəstə ilə onların arxasınca yolunu davam etdirdi. Qarət etdikləri sərvətlə hərəkətdə olan özbək dəstəsi görünəndə əvvəlcə Bəktaş xanın irəli göndərdiyi 300 nəfərlik dəstə onların üzərinə hücuma keçdi. Bu hücum el bir sürətlə baş verdi ki, özbəklər pərən-pərən düşdülər və bu halda onlar xeyli itki verdilər. Özbək bahadırları nəyin baş verdiyini görüb toparlanmağa çalışanda isə Bəktaş xan əsas dəstə ilə özünü yetirdi və bununla da özbək bahadırları ümidlərini hər şeydən üzərək öz döyüşçüləri ilə birlikdə qaçmağa üz qoydular. Onlar neçə gün ərzində taladıqları sərvətləri də ataraq yalnız öz canlarının hayına qaldılar. Bununla özbəklərin yenidən Xorasan üzərinə hərbi yürüş etmək cəhdləri uğursuzluğa düçar oldu. Bəktaş xan isə özbəkləri təqib etməyi lazım bilmədi. O, geri qayıtdı və baş verən döyüş haqqında məlumat çatdırmaq üçün öz çaparını Şah Abbasın yanına göndərdi (195).

Vəli Məhəmməd xan isə qoşunların Xorasan üzərinə göndərməsindən və onun nəticələrindən heç də razı qalmadı. Görünür, o başa düşdü ki, Şah Abbasa qarşı çıxmaq gücündə deyil və ona görə də Səfəvi dövləti ilə xoş münasibətlərdə olmaq onun da işinə yarayar. Ara-bir Xorasan üzərinə talançı yürüşlər isə özbək xanları üçün daha ağır nəticələrə gətirib çıxara bilərdi. Şübhə edilmirdi ki, Şah Abbas belə talançı yürüşləri cavabsız qoymayacaqdır və Səfəvi şahının qətiyyətli addımları Vəli Məhəmməd xan üçün heç də ürəkaçan olmazdı. Ona görə də, Vəli Məhəmməd xan iki dövlət arasında xoş münasibətlərin bərqərar olması yolunu tutdu. Bununla əlaqədar 1610-cu ildə o öz elçilərini əvvəlcə Xorasan əmirülümərası yanına göndərdi, Səfəvi sarayı ilə xoş münasibətlər yaratmaq istəyini ona çatdırdı. Xorasan əmirül-ümərası da Vəli Məhəmməd xanın elçilərinin gəlməsini və onun adından dostluq münasibətləri yaradılmasının təklif edilməsini Şah Abbasa çatdırdı. Şah Abbas bu xəbəri məmnunluqla qarşıladı və o da Mavərənnəhrlə xoş münasibətlər yaradılmasına tərəfdar olduğunu bildirdi.

Şah Abbas dərhal da Vəli Məhəmməd xana xoş məzmunlu bir məktub yazdı və onu Mirzə Əli Yüzbaşı Türkmanla Buxaraya göndərdi. Səfəvi elçisinin gəlişi və onun Şah Abbasdan məktub gətirməsi Vəli Məhəmməd xanı da son dərəcə sevindirdi. O da xoş məzmunlu bir məktub yazdı və onu saray əyanlarından olan Məhəmməd Mirzə Xəzanəçi vasitəsilə Şah Abbasa göndərdi. Məktubla bərabər, Səfəvi şahına qiymətli hədiyyələr də göndərildi. Şah Abbas özbək elçisini mehribanlıqla qarşıladı, onun əmri ilə özbək elçisinin şərəfinə zəngin bir ziyafət təşkil edildi (196).

Tezliklə Vəli Məhəmməd xanın daxili vəziyyəti də pisləşdi və ona qarşı müxalifətçilik xeyli gücləndi. Bu vəziyyət özü də Vəli Məhəmməd xanın Şah Abbasa tərəf meylini daha da gücləndirdi. Vəli Məhəmməd xan Mavərənnəhr və Türküstan hakimliyi taxtına yiyələnəndən sonra səltənətinin mühüm vəzifələrini özünə yaxın saydığı qardaşı övladlarına həvalə etdi. Vaxtilə Mavərənnəhr və Türküstan hakimi olmuş böyük qardaşı Din Məhəmməd xanın böyük oğlu İmamqulu sultana Səmərqənd hakimliyi, Din Məhəmməd xanın digər oğlu olan Nədr Məhəmməd xana isə Bəlx, Əndxod və Şibirğan hakimliyi verildi. Bu adları çəkilən sultan və xan da bir neçə il ərzində Vəli Məhəmməd xana lazımınca itaət etdilər və onun xidmətində dayandılar. Amma vaxt keçdikcə vəziyyət dəyişməyə başladı. Əvvəlcə, İmamqulu sultan, sonra isə Nədr Məhəmməd xan daha böyük səlahiyyətlər iddiasına düşdülər və Vəli Məhəmməd xana qarşı müxaliflik yolunu tutdular. İmamqulu xan ona Vəli Məhəmməd xan tərəfindən atalığ təyin edilmiş özbək əmirini qətlə yetirdi və bununla da əmisi Vəli Məhəmməd xana qarşı olduğunu əməli şəkildə ortaya qoydu. İmamqulu sultan bir tərəfdən vəzifə düşkünü idi, digər tərəfdən isə onun ətrafına toplaşan insanların təhriklərinə uyurdu. Güman edilirdi ki, bu yolla onlar Vəli Məhəmməd xanın nəzarətindən çıxaraq müstəqilləşə biləcəklər. Təyin etdiyi atalığın qətlə yetirilməsi sözsüz ki, Vəli Məhəmməd xanın xoşuna gəlmədi və o, İmamqulu xan tərəfindən başlanan müxalifətçiliyin böyüməməsi üçün onu cəzalandırmaq qərarına gəldi. Bu məqsədlə də Vəli Məhəmməd xan Səmərqəndə

yollandı. Onun gəlişindən xəbər tutan İmamqulu sültan müqavimət göstərmək gücündə olmadığı üçün Bəlxə, kiçik qardaşı Nədr Məhəmməd xanın yanına qaçdı. Nədr Məhəmməd xan da Vəli Məhəmməd xana qarşı müxalifətçiliyi dəstəklədi və o da Vəli Məhəmməd xan tərəfindən təyin edilmiş atalığını qətlə yetirdi. Bundan sonra o da qardaşı İmamqulu sultana birləşərək Vəli Məhəmməd xana qarşı müxaliflik yolunu tutdu. Vəli Məhəmməd xan bu müxalifətçiliyin qarşısının alınması üçün lazımi qətiyyət göstərə bilmədi. Bu da İmamqulu sultan ətrafında birləşənlərin sırasının genişlənməsinə yol açdı. Hətta Vəli Məhəmməd xan sarayının bir sıra əyan və əmirləri də gizli şəkildə İmamqulu sultanla əlaqə saxlayır və onu mərkəzi hakimiyyətin ələ alınmasına təhrik edirdilər. Vəli Məhəmməd xanla Şah Abbas arasında məktub və elçi mübadiləsi həyata keçiriləndə özbək hakiminə qarşı müxalifətçilik yüksələn xətlə inkişaf etməkdə idi (197).

Vəli Məhəmməd xan ona qarşı başlanan müxalifliyin qarşısını almaq üçün əvvəlcə onun sarayında İmamqulu sultanla əməkdaşlıq edən əmirləri və əyanları bir yerə topladı və sonra da onların hamısını qətlə yetirdi. Eyni zamanda İmamqulu sultanla əlaqəsi olan digər əmirlərin təqibinə və axtarışına başlandı. Qətl olunmaq təhlükəsindən qorxan xeyli sayda özbək əmiri və əyanı Buxaradan qaçaraq İmamqulu sultana sığındılar. İmamqulu sultanın ətrafında birləşənlərin və toplananların sayı artanda o, əmisinə qarşı silahlı üsyana əl atdı və böyük bir qoşun dəstəsi ilə Buxaraya tərəf hərəkətə başladı. Vəli Məhəmməd xan da öz qoşun dəstəsi ilə ona qarşı hərəkətə başladı və Amu-Dərya çayının yaxınlığında tərəflərin qoşun dəstələri üz-üzə gəldilər. Döyüşə başlamazdan əvvəl tərəflərin qoşunları bir-birindən müəyyən məsafədə düşərgə saldılar. Vəli Məhəmməd xan hətta bu vəziyyətdə də qardaşı oğlu ilə müxalifətçiliyin dinc yolla həllinə tərəfdar idi. Əgər İmamqulu sultan etdiyi müxalifliyə görə üzr istəsəydi, Vəli Məhəmməd xan onun üzrünü qəbul etməyə və onu Bəlxə hakim təyin etməyə hazır idi. Amma bu baş vermədi və adi bir təsadüf Vəli Məhəmməd xanın taxtdan məhrum olmasına gətirib çıxardı. Gecələrin birində Vəli

Məhəmməd xanın düşərgəsinin yaxınlığındakı qamışlıqdan bir neçə qaban düşərgə daxilinə gələrək özlərinə yem axtarmağa başladılar. Onların yaratdığı səs-küydən qorxan döyüşçülər belə güman etdilər ki, İmamqulu sultanın adamları düşərgə üzərinə hücuma keçiblər. Bu, düşərgə daxilində təşviş və çaşqınlıq yaratdı. Döyüşçülər atlanaraq döyüşə hazır vəziyyətə gəldilər. Bir çoxları isə ata minən kimi canlarını xilas etmək hayına qaldılar. Beləcə, Vəli Məhəmməd xanın döyüşçüləri anlaşılmazlıq içində qaçıb-dağılmağa başladılar. Vəli Məhəmməd xan da bu qarışıqlıq içində daha çox öz həyatını düşünməyə başladı. Nə baş verdiyinin fərqinə varmayan Vəli Məhəmməd xan düşərgə daxilində ona qarşı ola biləcək əmirlərin xəyanətindən və məkrindən sığortalanmaq üçün atına minib yaxın ətrafı ilə birlikdə çox da uzaqda olmayan bir təpənin üstünə qaldı. O, buradan düşərgədə nə baş verdiyini anlamağa çalışırdı. Döyüşçülər isə Vəli Məhəmməd xanı öz çadırında tapa bilməyəndə daha çox çaşqınlıq içinə düşdülər. Başsız qalan döyüşçülər belə güman etdilər ki, Vəli Məhəmməd xan ya öldürülüb, ya da İmamqulu sultanın adamları tərəfindən oğurlanıb. Başsız qaldıqları üçün Vəli Məhəmməd xanın qoşunu dəstə-dəstə İmamqulu sultanın düşərgəsinə yollanaraq ona itaətini bildirdilər (198).

Vəli Məhəmməd xan səhər açılan kimi yanındakı az saylı adamlarla Buxaraya yollandı ki, orada qala daxilinə sığınsın. Amma Buxara hakimi onu şəhər daxilinə buraxmadı. Onun artıq baş verənlərdən məlumatı var idi və o da İmamqulu sultanı artıq Mavərənnəhr hakimi kimi qəbul edirdi. Buxara hakimi yaxşı bilirdi ki, Vəli Məhəmməd xanın artıq yanında qoşun qalmayıb. Onun Buxaranı almaq və İmamqulu sultana (xana) müqavimət göstərmək gücü yoxdur. Ona görə də Buxara hakimi Vəli Məhəmməd xana xəbər göndərdi ki, şəhərdən uzaqlaşsın və öz aqibətini düşünsün. Vəli Məhəmməd xan bu tələblə razılaşmalı oldu. O, şəhər daxilində qalmış ailə üzvlərini, oğlu Rüstəm Məhəmməd xanı, ona sədaqətli qalmış 400-500 nəfəri yanına alaraq Səmərqənd şəhərinə tərəf yola düşdü. Amma Vəli Məhəmməd xan sonra düşündü ki,

Səmərqənd hakimləri, əmir və əyanları da ona qarşı sədaqətsizlik göstərsələr vəziyyəti heç də yaxşı olmaz. Ona görə Vəli Məhəmməd xan Səfəvi hüdudlarına doğru hərəkət etməyə və Səfəvi şahına sığınmağa qərar verdi. Çaharcu keçidini adlayandan sonra Vəli Məhəmməd xan oğlu Rüstəm Məhəmmədi Herata göndərdi. Eyni zamanda Mərv hakimi Mehrab xanın yanına öz adamını göndərdi və başına gələnləri ona çatdırdı. Bir neçə gündən sonra Vəli Məhəmməd xan Mərvə yetişdi. Mehrab xan onun mehribanlıqla qarşıladı və ona mümkün olan qayğını göstərdi. Mehrab xan həm də Şah Abbasa məktub göndərdi və özbək xanının Mərvə gəlməsi haqqında ona məlumat yolladı. Vəli Məhəmməd xan bir neçə gün Mərvdə qaldı. Həmin müddət ərzində Mərv hakimi tərəfindən yüksək qonaqpərvərlik göstərilməklə həm də ona çoxlu sayda qiymətli hədiyyələr verildi. Sonra isə Vəli Məhəmməd xan Məşhədə yola salındı. Orada da o, eyni qonaqpərvərliklə qarşılandı. Bölgənin vilayət hakimləri onun yüksək səviyyədə qarşılanması üçün Şah Abbasdan lazımi tapşırıq almışdılar. Vəli Məhəmməd xan 20 gün də Məşhəddə qaldı və bu günlər ərzində vaxtının çoxunu istirahətdə keçirdi. Bəstama yetişəndə Şah Abbasdan tapşırıq almış Astrabad hakimi Firudin xan onun qarşılanmasına çıxdı. Xar yaxınlığında olarkən isə Vəli Məhəmməd xanı qarşılamaq Şah Abbas tərəfindən göndərilmiş Əliqulu xan Can gəlib ona yetişdi (199).

Yəni Vəli Məhəmməd xan padşaha layiq bir şəkildə qarşılanırdı. Bu qarşılanma mərasimlərinin səviyyəsi Şah Abbasın Vəli Məhəmməd xana olan münasibətinin ifadəsi idi. Əliqulu xanın müşayiəti ilə özbək xanı Kaşana, oradan da İsfahana gəldi. İsfahanda isə Vəli Məhəmməd xanın xüsusi və çox təntənəli bir qarşılanma mərasimi keçirildi. Şah Abbas tapşırıq vermişdi ki, Vəli Məhəmməd xanın Kaşana gəlişi xəbəri alınanda İsfahanda qarşılanma hazırlıqlarına başlansın. Şahın fərmanına əsasən 20 min nəfər tüfəngçi İsfahan sarayından Dövlətabada qədər olan üç fərsəxlik yol boyu iki sırada düzülməli idilər. İsfahan şəhəri də yüksək qonağın qarşılanması üçün təmtəraqla bəzədilmişdi. Vəli Mə-

həmməd xanın şəhərə yaxınlaşdığı xəbəri alınanda Şah Abbas ata mindi və Allahverdi xanın, Allahqulu xan Orçubaşının, Nədr xan Möhürdarın və digər əmir və əyanların müşayiəti ilə Dövlətabada qədər irəlilədi, orada Vəli Məhəmməd xanla mehribanlıqla görüşdü və sonra da birlikdə İsfahana tərəf hərəkəti davam etdirdi. Şəhərə çatandan sonra isə onlar köhnə dostlar kimi bir-biri ilə söhbət etdilər. İsfahanda Vəli Məhəmməd xan üçün ayrıca bir iqamətgah ayrıldı, onun xidmətinə çoxlu sayda adamlar verildi, şairlər və qələm adamları onun gəlişi ilə bağlı nəzm əsərləri qoşdular (200).

Vəli Məhəmməd xanın gəlişinin səhəri gün Şah Abbas onun iqamətgahına yollandı, orada onunla görüşdü, söhbətləşib qarşılaşdığı sınaqları unutdurmağa çalışdı. Bir neçə günlük istirahətdən sonra Vəli Məhəmməd xanın şərəfinə şah xəlvətxanasında xüsusi bir ziyafət təşkil edildi. Həmin ziyafətdə həm Şah Abbas, həm də Vəli Məhəmməd xan öz yaxın adamları ilə iştirak edirdilər. Vəli Məhəmməd xan bu ziyafətdə heç vaxt görmədiyi xoş bir mənzərə ilə qarşılaşdı və rastlaşdığı bütün ağrı-acını da unutdu. Bu ziyafət məclisi həm yemək-içmək məclisi idi, həm də istirahət məclisi idi. İsgəndər bəy Münşi bu ziyafəti təsvir edərkən yazırdı: "...bu cənnətə bənzər məclisi müşahidə edən Vəli Məhəmməd xanı heyrət bürümüş və o, olduqca şənlənmişdi. Əlahəzrət zillələllah şah belə tədbirlər vaxtı hamının bəyəndiyi irəkaçan sözlər demək və mehribanlıq etməklə xanın dağınıq düşmüş fikirlərini cəmləşdirir və ona təsəlli verirdi. O, xanın əmir və yaxın adamlarına da əhdi, vəfadarlığı, yaxşılığı unutmamağı təlqin edir, onlara yaxşı vədlər edirdi. Padşahanə söhbət səhərədək davam etdi, özbəklərə qarşı bir dəqiqə də olsa insanpərvərlik və mehmannəvazlıqdan qalmadılar. Xülasə, bu yemək-içmək (nəzl), dincəlmək və mizbanlıqdan sonra o qədər pul (noqud) verildi, libaslar, ev ləvazimatı (zəruriyyatebyutat) və başqa şeylər təqdim olundu ki, qələm onların kəmiyyət və keyfiyyətini yazmaqdan dayanası oldu. Əlahəzrət zillələllah şah o günün əksər vaxtını zahiri (suri) nigazıstan və mənəvi baharıstan olan Nəqşe-Cahan meydanında yaxın adamlar ilə çovkanbazı, qəbəqəndazi və mahir atəşbazlar tərəfindən qəribə tərzdə

hazırlanan atəşbazi  oyunlarında xeyli şənləndi. Bu istək və söhbət vaxtı Vəli Məhəmməd xan son dərəcə heyrətləndi, çovkanbazi və gəbəqəndazi oyunları bitdikdən sonra isti əl-qollu atəşbazlar onlara xanın heç vaxt müşahidə etmədiyi qəribə atəşli oyunlar göstərdilər. Atəşbazlıq şeylərinin bəzilərini padşah fillərinin ən böyüyünün belində ayaq üstə dayanıb nümayiş etdirirdilər. Atəş yandırmaq və top atmaq vaxtı həmin iri cüssəli fil yerə yıxıldı, elə qəribə hərəkətlər etdi ki, cənab xan və şah məclisinin bütün iştirakçılarının həzz almalarına səbəb oldu. Tamaşaçılar meydanın hər yerini tutaraq, tamaşa etməkdə idilər. Mərasimin bitməsindən sonra xoş əhvali-ruhiyyə ilə par-par yanan Çahar Bazara, qeysəriyyəyə və evlərə təşrif aparıb hər məkanda söhbət, hər şəbistanda işrət məclisləri qurulurdu. Əlahəzrət hər dəm, hər saat xanı məşğul edir, onu öz isti ixtilatları ilə məşğul edirdi. Elə isti söhbətlər və Nəqşe-Cahandakı məclislər ard-ardınca təşkil olundu” (201).

Bir neçə günlük istirahət və əyləncələrdən sonra nəhayət ki, Şah Abbasla Vəli Məhəmməd xan Mavərənnəhrdə baş verən hadisələr haqqında da müzakirələr aparmağa başladılar. Vəli Məhəmməd xan qardaşının övladlarının hakimiyyəti ələ keçirmək üçün ona qarşı itaətsizlik göstərmələri, saray əyan və əmirlərinin onun tərəfini saxlaması, xanlıq daxilində yaranmış qarışıqlıq və anlaşılmazlıq haqqında ətraflı məlumat verdi. Bu məlumatları eşidəndən sonra Şah Abbas bunları söylədi: “Cənab xana imdad etmək bütün qızılbaşların alicənablığı (hemmət) olduğu üçün münasibdir ki, müzəffər şah ordusu alicənab xanla birlikdə Xorasana tərəf hərəkət etsin, cənab xan isə ağır qoşunla öz diyarına getsin ki, əgər hümayun yürüşə nəsə bir ehtiyac olarsa, tez-tələsik mədəd göstərilsin. Amma, [bu da məlumdur ki,] Rum sərdarı keçən il Təbrizə gəlib-qayıtdı və Diyarbəkrdə qışladı, bu il isə qarşıda rumilərlə sülh danışıqları durur və onların sözünə heç bir etimad yoxdursa da, dövlət işlərinin tənzimi üçün Azərbaycana səfər etmək qərara alınmışdır və bu səfəri icra etməmək böyük fəsadlar törədə bilər. Yaxşısı budur ki cənab xan qoy bu evi öz evi bilsin, hökmümüz altında olan (məhrusə) hansı yeri istərsə oraya da get-

sin, bir müddət istirahətlə məşğul olsun, inşallah, bu il zəruri sərhəd işləri tənzimləndikdən və o tərəfdən xatircəmlik hasil olunduqdan sonra gələn il Allahın köməyi ilə xanla birlikdə qarşıdakı məqsədə doğru yürüş baş tutar və fəth bayrağını göyə qaldırarıq" (202).

Şah Abbas birmənalı şəkildə Vəli Məhəmməd xana kömək göstərməyə hazır olduğunu bildirdi. Lakin bu köməyin növbəti ilə təxirə salınmasını təklif etdi. Çünki Osmanlı dövləti ilə sərhəd xəttində yaranmış təhlükənin təcili şəkildə aradan qaldırılmasına ehtiyac var idi. Bu təhlükə aradan qalxandan sonra Şah Abbas özü də Xorasana yollanacağını bidirirdi. Vəli Məhəmməd xan isə yaranmış vəziyyətdə Şah Abbasdan məsələyə dərhal müdaxilə etməsini xahiş etdi. Onun fikrincə, Şah Abbasın razı olacağı təqdirdə Xorasanda olan qızılbaş qoşun dəstəsi Vəli Məhəmməd xanla onun qardaşı oğlu arasındakı ixtilafı həll edə bilərdi. Vəli Məhəmməd xan Şah Abbasa öz xahişini və iltimasını belə çatdırdı: "Ürəyində qərara aldığı Azərbaycan yürüşünün ləğvi əlahəzrətin dövlətinə layiq iş olmazdı. Amma [özbək] atalıqları və bahadırları ilə məşvərəti vaxtı şah buyurmuşdu ki, Vəli Məhəmməd xanın tez zamanda Mavərənnəhrə qayıtması zəruridir və bu işin yubadılması münasib deyildir, çünki əksər özbək əmir və hakimləri o ölkədədirlər (vilayət) və onlar Vəli Məhəmməd xan tərəfindən iş başına gətirilən adamlardır, indiyəcən İmamqulu xanın yanına getməyib öz ehtiyac gözlərini xanın yoluna dikmişlər. O adamlar [İmamqulunun] itaətinə gəlməmişlər və [İmamqulunun] şövkət və iqtidarı süstdür. Buna görə də hadisəni qabaqlamaq gərəkdir ki, onun öz yerini dövlət taxtında möhkəmlətməsindən sonra bizim işimiz çətinləşəcəkdir. [Qızılbaş] döyüşçülərinin yoldaşlıq və həmrahlıqları özbəkləri ruha gətirir və əhali, əgər onlar oraya gedərlərsə, qorxuya düşməz. Baş vermiş hadisələrdən məlum olur ki, bu müqəddəs və kəramət xanədanının özbək və cığatay sultanlarının hər biri bizə bel bağlayırlar və bizi istəyirlər. Bizim bu tərəfə gəlməyimizdən məqsədimiz budur ki, sağ-salamat şah ilə görüşək, öz himmət kəmərimizi bu dövlətə bağlayaq və məqsədimizə çataq. İndi bizim

xahişimiz budur ki, bizə olan zahiri və batini diqqətimizdən imtina etməyib elə həmin dost (yar) və köməkçi (mədədkar) kimi qalasınız. Ümidvarıq ki, bu yüksək dudmanın bizim ilə birliyi, əlahəzrətin zahiri diqqəti və batini imdad sayəsində məqsədimizə çatacaq və dövlətimizi ələ alacayıq. Yox, əgər işlər başqa cür olarsa və dostların fikirlərində olan məsələ baş tutmazsa, həmçinin qızılbaşların mədəd və köməyinə ehtiyac olarsa, bizə təkcə Xorasanın əmir və döyüşçüləri kifayət edər. Belə olan təqdirdə işarə edərsiniz ki, Xorasan bəylərbəyi qızılbaş döyüşçüləri ilə birlikdə köməyə hazır olsunlar. Əgər lazım olarsa, onlar [indi] Heratda olan əziz fərzəndim Rüstəm Məhəmməd ilə yola rəvan olarlar" (203).

Şah Abbas yaranmış vəziyyətdə Vəli Məhəmməd xanın təklifinə rəğbətlə yanaşdı və çevik hərəkət edilməsinin düzgünlüyünü qəbul etdi. Onun rəyi əsasında Vəli Məhəmməd xanın ətrafında olan özbək əmir və əyanları bir yerə toplaşıb məsləhətləşdilər. Şah Abbasa görə, Vəli Məhəmməd xanın düşdüyü durum, ona arxa-dayaq olacaq qüvvələrin azlığı nəzərə alınmaqla qərar qəbul edilməli idi. Özbək əmir və əyanlarının da fikri belə oldu ki, qızılbaş dəstələrinin köməyi ilə Vəli Məhəmməd xan təcili şəkildə geri qayıtmalı və öz hakimiyyətini bərpa etməlidir. Həmin günlərdə Xorasan tərəfdən də məlumatlar gəlirdi ki, özbək xanları Vəli Məhəmməd xanın geri dönüşünün intizarındadırlar. Şah Abbas irəli sürülən təkliflərini qəbul etdi və Vəli Məhəmməd xanın geri dönməsi ilə razılaşdı. Yola düşməzdən əvvəl Vəli Məhəmməd xan və onun ətrafında olan əmir və əyanlar, xidmət personalı zəruri olan təchizatla, maliyyə vəsaiti ilə, silah və sursatla təmin edildilər. Hərəkətə başlamazdan əvvəl Vəli Məhəmməd xan bir daha Şah Abbasın hüzurunda oldu. Onların arasında yenidən dostcasına söhbət baş verdi. Görüşdən sonra Şah Abbas saray əmirlərindən olan Zeynalxan bəy Şamlıya Vəli Məhəmməd xanı müşayiət etməyi tapşırdı. Şah Abbasla vidalaşdıqdan sonra Vəli Məhəmməd xan daha iki gün İsfahanda qaldı. Sonra isə Kaşandan keçməklə Məşhədə yola düşdü (204).

Məşhəddə olarkən Vəli Məhəmməd xan seçim qarşısında qaldı. Bir tərəfdən o, Herata yollanmaq və orada oğlunu da yanına alıb qızılbaş dəstəsinin köməyi ilə Bəlxi öz nəzarəti altına gətirmək istəyirdi. Digər bir seçim isə ondan ibarət idi ki, Mərvə və oradan da Buxaraya hərəkət etsin və Mavərənnəhr hakimliyini yenidən ələ keçirsin. Rüstəm Məhəmmədlə birləşmək Vəli Məhəmməd xanın gücünü və inamını daha da artıra bilərdi. Amma Buxaradan onun yanına gəlmiş bir neçə yaxın adamı bu şəhərin müdafiəsiz olduğunu və Vəli Məhəmməd xanın o tərəfə hərəkət edəcəyi təqdirdə öz hakimiyyətini asanlıqla bərpa edəcəyini bildirdilər. Məsləhət bilinirdi ki, Buxaraya yollanmaqla həm hakimliyi asanlıqla geri qaytarmaq olar, həm də Vəli Məhəmməd xanın qoşunla Buxaraya gəlməsi İmamqulu xan tərəfində olan əmir və əyanların arasında bir parçalanma yarada bilərdi. Belə bir parçalanmanın yaranması isə İmamqulu xanın gücünü zəiflədər və ona üstün gəlmək xeyli asan olar. Vəli Məhəmməd xan bu məsləhəti qəbul etdi və birbaşa Buxara üzərinə hərəkət etdi. O, əvvəlcə Mərvə gəldi və orada Mərv hakimi Mehrab xanla görüşdü. Mehrab xan ona yüksək qonaqpərvərlik göstərdi və Buxaraya doğru onu xeyli müşayiət etdi. Sonra da özünün ən yaxşı döyüşçülərindən və atıcılarından ibarət beş yüz nəfərlik bir dəstəni Vəli Məhəmməd xanın tabeçiliyinə verdi. O bu dəstənin rəhbərinə tapşırdı ki, yalnız Vəli Məhəmməd xan icazə verəndən sonra geri qayıda bilər. Buxaraya doğru hərəkət zamanı Vəli Məhəmməd xan yol üzərində olan Çaharcu qalasını ələ keçirdi. Qızılbaş döyüşçülərinin də iştirak etdiyi sürətli bir hücumla bu qalanı almaq mümkün oldu və onun ələ keçirilməsi Vəli Məhəmməd xanı və onun ətrafında olanları Buxara üzərində uğur əldə ediləcəyinə daha da ümidləndirdi (205).

Buxara şəhəri doğrudan da müdafiəsiz qalmışdı. Vəli Məhəmməd xanın gəlişi ərəfəsində İmamqulu xan bu şəhərə gəlmişdi ki, xəstə olan anasına baş çəksin. Amma onun yanında kifayət qədər qüvvə yox idi. Ona görə də Vəli Məhəmməd xanın gəlişi xəbərini alanda İmamqulu xan Buxaranı tərk etdi və Qərşiyə yönəldi. 1611-ci il avqust ayının son günlərində Vəli Məhəmməd xanın

irəliyə göndərdiyi adamları heç bir müqavimətsiz Buxaraya daxil oldular. Bir gün sonra isə Vəli Məhəmməd xan Buxaraya gəldi. O, yenidən Mavərənnəhrin və Türküstanın hakimi taxtına əyləşdi, adına sikkələr vuruldu. Vəli Məhəmməd xan Buxarada İmamqulu xana tərəfdarlıq edən bir çox əyanları ciddi şəkildə cəzalandırdı. İsgəndər bəy Münşinin yazdığına görə, Vəli Məhəmməd qızılbaş dəstələrinin köməyi ilə hakimiyyətini geri qaytara bilsə də, səltənət işlərini lazım olan səviyyədə qura bilmədi. Bu da tezliklə özünü göstərməyə başladı. Bir çox özbək tayfaları Vəli Məhəmməd xana itaətlərini bildirsələr də, əslində onların daxilində ona qarşı bir barışmazlıq var idi və onlar münasib anın yetişməsini gözləyirdilər (206).

Vəli Məhəmməd xan yenidən öz hakimiyyətini bərpa etməsi haqqında Şah Abbasa məktub göndərdi. O, yanında olan qızılbaş döyüşçülərinin az bir hissəsini yanında saxladı, qalanlarına isə geri qayıtmaq icazəsi verdi. Bir neçə gündən sonra bəlli odu ki, İmamqulu xan, Qərşi qalasında gizlənməkdədir. Bu məlumatı alan kimi, Vəli Məhəmməd xan dərhal Qərşiyə qoşun çıxarmaq əmri verdi. Bu əmrə əsasən 17 min nəfərlik bir qoşun dəstəsi toplandı və İmamqulu xanın başqa yerə qaçmasına yol verməmək üçün dərhal hərəkətə başladı. Hərəkət zamanı özbək ağsaqqalları Vəli Məhəmməd xana məsləhət bildilər ki, əvvəlcə Səmərqənd üzərinə getsin, bu şəhəri nəzarət altına alsın və orada yaşayanların dəstəyini qazansın. Vəli Məhəmməd xan isə bu məsləhəti qəbul etmədi. Onun qərarı belə idi ki, əgər ləngisə, onda İmamqulu xan Qərşidən qaçar və ondan sonra onu tapmaq daha da çətinləşər. Bu qərarı Vəli Məhəmməd xan yanındakı qızılbaş əmiri Budaq bəy Qacarın təklifi ilə qəbul etmişdi. Amma Vəli Məhəmməd xan öz qərarını həyata keçirə bilmədi və özbək ağsaqqalları onu öz fikrindən döndərdilər. Vəli Məhəmməd xan da qoşunlar Qərşiyə deyil, Səmərqəndə tərəf üz tutdu. Səmərqənddə olan əmir və əyanların yarısı Vəli Məhəmməd xanın gəlişini istəyirdilərsə, yarısı da İmamqulu xanın hakimliyinə tərəfdar idilər. Ona görə Vəli Məhəmməd xan hərəkətə başlayanda Səmərqənd daxilində vəziyyət

hələ tam şəkildə aydın deyildi. İmamqulu xanın tərəfdarları öz adamlarını Qərşiyə göndərdilər və İmamqulu xanı inandıra bildilər ki, tezliklə Səmərqəndə gəlsin. Onun Səmərqəndə gəlişindən sonra şəhərdə Vəli Məhəmməd xan tərəfdarları öz nüfuzlarını itirdilər. İmamqulu xanın mövqeyi isə bu şəhərdə xeyli gücləndi. Vəli Məhəmməd xan Səmərqənd daxilində baş verənlərdən xəbər tutanda xeyli əsəbiləşdi. Bununla belə, o, bu şəhər üzərinə hücum etmək qərarından da əl çəkmədi. Onda belə bir əminlik var idi ki, İmamqulu xanla müqayisədə qoşun üstünlüyünə malikdir və bununla qarşıdurmanı da öz xeyrinə həll edə biləcəkdir (207).

Göstərdiyi bütün cəhdlərə baxmayaraq, Vəli Məhəmməd xan qardaşı oğlu İmamqulu xanla qarşılaşmada üstünlüyü təmin edə bilmədi. O özü də bu qarşılaşmada həyatını itirdi və bununla Mavərənnəhr və Türküstan hakimliyi yenidən İmamqulu xanın əlinə keçdi. Belə olanda Budaq bəyin rəhbərliyi altında olan qızılbaş döyüşçüləri də artıq nəyin uğrunda döyüşəcəklərini bilmədikləri üçün geri qayıtmaq qərarını verdilər. Amma onlar İmamqulu xanın adamları tərəfindən təqib olunurdular. Ona görə də qızılbaş döyüşçülər öz libaslarını dəyişdilər, bəziləri tacir geyimində, bəziləri isə adi geyimdə Bəlxdən uzaqlaşdılar. Çox hallarda isə onlar gecə vaxtı hərəkət etdilər ki, kimsə tərəfindən tanınmasınlar. Budaq bəy Şah Abbasla Təbrizdə görüşə bildi və baş verənlər haqqında ona ərz elədi. Şah Abbas bu hadisədən çox kədərləndi. Sonra da Herata adam göndərərək Vəli Məhəmməd xanın orada olan oğlu Rüstəm Məhəmməd sultana atasının qətli ilə bağlı başsağlığı çatdırdı. Rüstəm Məhəmməd sultanla bağlı Şah Abbas Xorasan bəylərbəyi Hüseyn xan Şamlıya belə bir tapşırıq verdi: “Atasının vaqiəsi xüsusunda ona təsəlli ver. İnşallah onun işləri Allahın qisməti (moqəddər) və padşahın zəhməti (məysur) ilə nizamlanacaqdır. Onu yaddan çıxartmayacağıq” (208).

Rüstəm Məhəmməd sultanın ətrafında bir dəstə özbək döyüşçüsü var idi ki, onlar heç də etibarlı insanlar deyildilər. Bu döyüşçülər Rüstəm Məhəmmədin iradəsinə tabe olmur, daha çox ətraf məntəqələrin talan edilməsi barəsində düşünürdülər. Bu düşüncə-

lərinə görə onları Xorasan bəylərbəyi Hüseyn xan Şamlı Herat daxilinə buraxmırdı və onları şəhərdən kənar bir yerdə yerləşdirmişdi. Rüstəm Məhəmməd sultan isə şəhər daxilində qalırdı. Amma o, tez-tez öz döyüşçülərinin yanına gedirdi. Bir dəfə özbək döyüşçüləri Rüstəm Məhəmməd sultanı da özləri ilə götürüb Ğərcestan üzərinə yürüş etdilər. Hüseyn xan Şamlının bundan xəbəri yox idi. Ona görə də o, təşvişə düşdü. Çünki Şah Abbas ona tapşırmışdı ki, Rüstəm Məhəmməd sultandan muğayat olsun. Hüseyn xan qorxurdu ki, Rüstəm Məhəmməd sultanın itkin düşməsinə görə Şah Abbas onu cəzalandıra bilər. Ğərcestan əhalisi də Şah Abbasın Rüstəm Məhəmməd sultana olan xüsusi diqqətindən xəbər tutublarmış. Şahın bu münasibətinə görə bu vilayətin əhalisi də Rüstəm Məhəmməd sultana ehtiramla yanaşdılar. Özbək döyüşçülərini isə belə bir münasibət heç də qane etmirdi. Onlar daha çox varlanmaq haqqında düşünürdülər. Bu düşüncələr də onları Bəlx üzərinə basqın etməyə sövq etdi (209).

1613-cü ildə Rüstəm Məhəmməd sultanın Bəlx üzərinə yürüşü yenə də təkrarlandı. İsgəndər bəy Münşi öz əsərində onu artıq xan kimi təqdim edirdi. Rüstəm Məhəmməd xan Ğərcestanda idi və Bəlxin ələ keçirilməsi ümidi ilə yaşayırdı. 1613-cü ildə bu niyyətinin həyata keçməsi üçün münasib bir fürsət yarandı. Belə ki, həmin ildə qazax qoşun dəstələri Daşkəndi tutub Səmərqənd üzərinə hücuma hazırlaşırdılar. Mavərənnəhr hakimi İmamqulu xan da qazax qoşunlarının hücumlarının qarşısını almaq üçün Səmərqənd ətrafına qoşun çəkməyi planlaşdırırdı. Bu hücumun uğurla başa çatması üçün İmamqulu xan o zaman Bəlxdə hakim olan qardaşı Nədr Məhəmməd xanın onun köməyinə çatmasını istədi. Nədr Məhəmməd xan isə ona bildirdi ki, Rüstəm Məhəmməd xan Ğərcestanda dayanıb Bəlx üzərinə hücum fürsətini gözləyir. Bununla o, Səmərqəndə yollanmaqdan imtina etməyə çalışsa da, qardaşının inadından sonra qoşunu ilə Bəlxi tərk etmək məcburiyyətində qaldı. Bunu eşidəndə Rüstəm Məhəmməd xan Bəlx üzərinə hücum etdi. Lakin bu hücum zamanı Rüstəm Məhəmməd xan öz dəstəsini toparlayıb döyüşçülərinə lazımınca nəzarət edə bilmədi.

Dağınıqlıq və özbaşınalıq Rüstəm Məhəmməd xanın bu yürüşünü uğursuzluğa düçar etdi. O, Bəlxi tutsa da onu əlində saxlaya bilmədi və geri qaçmaq məcburiyyəti ilə qaşılaşdı. Rüstəm Məhəmməd xan Ğərcestanda da dayanmayıb Herata gəldi və yenidən Hüseyn xanın yanında özünə məskən saldı. Hüseyn xan onu qarşıladı. Lakin onun əməlləri barəsində Şah Abbasa da məlumat göndərdi (210).

Özbək hakimləri və dəstələri Xorasan üzərinə basqınlar həyata keçirməkdən dayanmırdılar. Doğrudur, bu basqınlar arasında müəyyən fasilə də görmək mümkündür. Amma fürsət yaranan kimi, özbək dəstələri varlanmaq və çoxlu var-dövlət ələ keçirmək üçün Xorasan vilayətinin müxtəlif məntəqələrini talanlara məruz qoyurdular. 1615-ci ildə belə basqınlardan biri də həyata keçirildi. Bu vaxt Şah Abbasın da, qızılbaş qoşunlarının da əsas diqqəti Azərbaycan və Cənubi Qafqaza yönəlmişdi və özbək hakimləri və dəstələri də qızılbaş təhlükəsinin olmayacağı üçün Xorasan üzərinə yeni bir basqına rəvac verdilər.

Qaraboğma adında bir özbək əmiri 1615-ci ildə Xorasana üzərinə basqın etdi. Bu basqın talanların həyata keçirilməsi üçün edilmişdi. Qaraboğma kimi əmirlər Xorasan üzərinə basqını varlanmaq mənbəyi kimi görürdülər və bu niyyətlə Qaraboğmanın ətrafına beş min nəfərə yaxın adam toplaşmışdı. Bu əmir əvvəllər də Xorasan üzərinə basqın edərək talanlarla məşğul olmuşdu. Güclü müqavimətlər rastlaşmadığı üçün Qaraboğma yenidən Xorasan üzərinə basqın etmək qərarına gəldi. Bu basqın zamanı da onun dəstəsi yerli əhaliyə yeni faciələr gətirdilər, insanların var-yoxunu əllərindən aldılar. Cam, Xaf və Baxərz məntəqələrindən çoxlu qənimət toplandı. Qaraboğma və onun dəstəsi Xorasanın Kərəx qalasına qədər irəlilədilər. Lakin özbəklər burada müqavimətlə qarşılaşdılar. Kərəx qalasının müdafiəçiləri və sakinləri özbəklərlə döyüşə çıxdılar. Hər iki tərəf bu döyüşdə itki verdi. Özbəklər qalanı ala bilməyərək Herat istiqamətinə yollandılar. Herat ətrafındakı məntəqələri talan edəndən sonra özbək dəstəsi Kuhdastana tərəf yola düşdü. Özbək talanlarının qarşısının alınması üçün

Xorasan bəylərbəyi Hüseyn xan bir silahlı dəstəni Bayram bəy Şamlının rəhbərliyi altında onların üstünə göndərdi. Bayram bəyin rəhbərliyi altına 700-800 adam verilmişdi. Hüseyn bəy sonradan 200 nəfərlik başqa bir dəstəni də Bayram bəyin köməyinə göndərdi. Bayram bəy özbək dəstəsinin Kuhdastanda olması barədə xəbər alandan sonra onların düşərgəsi istiqamətində hərəkətini davam etdirdi. Qızılbaşlar səhər açılana yaxın özbək düşərgəsi üzərinə hücum etdilər. Özbəklər qəfil hücumdan sonra çaşqınlıq içinə düşsələr də tezliklə toparlana bildilər. Onlar sayca Bayram bəyin dəstəsindən xeyli çox idilər. Bu say nisbətindəki fərqə görə, Bayram bəy də özbəklərin üzərinə hücum etmək barədə tərəddüd içində qalmışdı. Bununla belə, bu hücuma qərar verdi və Bayram bəyin gümanınca qəfil hücum say nisbətinin verdiyi üstünlüyü aradan qaldıra bilər. Bayram bəyin dəstəsi irəli atılsa da, özbəklər tədricən özlərinə gəldilər. Belə bir vaxtda Hüseyn xan tərəfindən göndərilən ikinci dəstə də gəlib yetişdi. Özbəklər belə fikirləşdilər ki, yaxınlaşmaqda olan dəstə Xorasan bəylərbəyi Hüseyn xanın qoşun dəstəsidir. Ona görə də, özbək dəstəsi tez-tələsik döyüşdən çıxaraq qaçmağa üz qoydu. Bu döyüşdə əldə edilən uğur özbək dəstələrinin uzun müddət Xorasan üzərinə basqınlarının qarşısını aldı (211).

Xorasan vilayətinin talan edilməsi üçün özbəklər tərəfindən növbəti böyük cəhd 1617-ci ildə göstərildi. Bu dəfə Mavərənnəhr hakimi İmamqulu xan da bu basqının həyata keçirilməsində iştirak etdi. Onun əmrinə əsasən divanbəyi Nədr Toğanın rəhbərliyi altında 30 min nəfərlik özbək qoşunu Xorasan vilayəti ərazisinə göndərdi. Bu qoşunlar Mərv yaxınlığından adlamaqla Əbivərdə gəldilər və Dərgəzdən başlayaraq Nişapura qədər olan əraziləri talan etdilər. Bu ərazilərdə yerləşən qızılbaş və digər tayfalar böyük ziyan gördülər. Özbək qoşunları hətta Məşhədi də talan etmək istəyirdilər. Özbəklərin böyük sərvətlər ələ keçirməsindən xəbər tutan Hisari-Şadman özbəkləri də sərvət toplamaq üçün Nədr Toğanın dəstəsinə qoşulmaq istədilər. Bu bölgədə 1500 nəfərlik özbək dəstəsi toplandı və həmin dəstə Tülək Bahadır və Dostu

Mirzə adlı özbək əmirlərinin rəhbərliyi altında Məşhəd istiqamətində hərəkətə başladılar. Həmin dəstə Mərv yaxınlığından adlayanda Mərv hakimi Mehrab xan bundan xəbər tutdu bir min nəfərlik seçmə qızılbaş dəstəsini özbəklərin ardınca göndərdi. Mehrab xanın dəstəsinin tərkibində təcrübəli tüfəngçilər də var idi. Onun dəstəsi yaxınlaşanda özbəklər çadırlar quraraq istirahətə dayanmışdılar. Özbəklər görəndə ki, qızılbaşlar yaxınlaşırlar, onda elə düşərgə ətrafında mövqe tutdular, atları ön sıraya düzərək qızılbaşların irliləməsinə mane olmağa çalışdılar. Mehrab xan özbəklərin bu taktikasına qarşı öz taktikasını müəyyənləşdirdi. O, tüfəngçiləri irəli verdi və onlara tapşırdı ki, özbəklərin ön xəttə çıxardığı atları gülləyə tutsunlar. Bununla xeyli sayda özbək atı məhv edildi. Tüfəng atəşlərindən həm də xeyli sayda özbək döyüşçüsü qətlə yetirildi. Əlbəyaxa döyüşdə isə özbəklərin itkiləri daha da artdı. Təxminən 500 nəfərə yaxın özbək döyüşçüsü qətlə yetirildi və 250 nəfəri də əsir götürüldü. Dəstə başçıları olan Tülək Bahadırla Dostu Mirzə də qızılbaşlar tərəfindən əsir alındı. Sağ qalıb canlarını qurtarmağa çalışanların isə təqibi başlandı. Mehrab xan özbək dəstəsindən kimsənin salamat qalmasına aman vermək istəmirdi. Tülək Bahadırla Dostu Mirzə acizanə şəkildə Mehrab xandan xahiş etdilər ki, salamat qalan özbəklərə toxunulmasın. Mehrab xan özbək dəstəsini məğlubiyyətə uğratması haqqında Şah Abbasa məktub göndərdi. Özbək əmirləri həmin məktubla birlikdə şah hüzuruna göndərildi. Heratda məskunlaşmış olan Rüstəm Məhəmməd xan müraciət edərək Şah Abbasdan özbək əmirlərinin bağışlanmasını və onun ixtiyarına verilməsini xahiş etdi. Şah Abbas bu xahişi qəbul etdi və Tülık Bahadırla Dostu Mirzəni Herata göndərdi. Həmin əmirlər bir neçə gün Rüstəm Məhəmməd xanın yanında qaldılar. Sonra isə onlar gizlicə Heratdan qaçaraq öz yurdlarına üz tutdular (212).

1621-ci ildə Şah Abbas hind hakimlərinin nəzarəti altında olan Qəndəharın yenidən Səfəvi hüdudlarına geri qaytarılması və Xorasan vilayətinə vaxtaşırı hücumlar edən özbək tayfalarnın cəzalandırılması üçün həmin vilayətə qoşun çəkmək qərarına gəldi. Bu

səfərə başlamazdan əvvəl Şah Abbas qızılbaş tayfalarına əmr göndərdi və onların qoşun dəstələrinin də Xorasana gəlməsini tələb etdi. Elə həmin günlərdə Şah Abbasın səhhəti korlandı və bir neçə gün xəstə yatağında qaldı. Saray həkimləri onun müalicəsinə başladı. Şaha sədaqətli olan insanlar isə onun sağalması üçün yaradana dualar etdilər. Bir müddətdən sonra Şah Abbasın səhhəti yaxşılaşdı. Belə bir göstəriş verildi ki, şah hərəkətə başlamazdan əvvəl İsa xan Qorçubaşı, sarayın ağa və mülazimlərinin rəhbəri Əliqulu xan Divanbəybaşı, qulamlar yüzbaşısı Mənuçöhr bəy Xorasana yollansınlar, Nişapurda qışlasınlar və şah qoşunlarını orada qarşılasınlar. Bu əmrə uyğun olaraq adları çəkilən əmir və əyanlar, habelə yerlədə toplanan qoşun dəstələri Nişapura yollandılar (213).

Şah Abbasın böyük qoşun dəstəsi ilə Xorasana gəlməsi özbək xanları və hakimləri arasında çox böyük təşvişə səbəb oldu. Çünki ötən illər ərzində onlar Xorasan üzərinə çoxlu yürüşlər həyata keçirmiş və bu yürüşlər zamanı yerli əhaliyə böyük faciələr yaşatmışdılar. Ona görə də onlar qorxurdular ki, Şah Abbas həmin əməllərin qisasını almaq fikrinə düşərsə, vəziyyətləri xeyli pisləşəcəkdir. Bu təşvişin aradan qaldırılması üçün Bəlx hakimi Nədr Məhəmməd xan öz qorçubaşısı Payəndə Mirzə ilə Şah Abbasa məktub göndərdi. Həmin məktubun məzmunu belə idi: "Əgər [şah tərəfindən] öz əmisi oğlu Rüstəm Məhəmməd xanla etdiyi kobudluq və dalaşa görə əziz fərzəndinin təqsirləri üzərindən əfv qələmi çəkilərsə və arada ülfət məqamı yaranarsa, mən bütün ömrüm boyu dostluq, sədaqət yolundan dönmərəm" (214).

Payəndə Məhəmməd elçilik missiyası ilə İsfahana gəldi. O burada əvvəlcə saray əyanları ilə görüşdü, Nədr Məhəmməd xanın adından gətirdiyi hədiyyələri və onun xahişlərini saray əyanlarına çatdırdı. Payəndə Məhəmməd elə həmin günlərdə Şah Abbasın da hüzurunda ola bildi. Nədr Məhəmmədin Şah Abbasa göndərdiyi hədiyyələr arasında 45 baş hisari, qərqəzmi və bədəxşi atları var idi. Bu atlar bölgədə ad çıxarmış cin atlar idi. Payəndə Məhəmməd eyni zamanda Nədr Məhəmmədin üzrxahlığını və səfəvi sa-

rayı ilə dostluq münasibətlərində olması istəyini də Şah Abbasa çatdırdı. Payəndə Məhəmmədlə birlikdə Mavərənnəhr hakimi İmamqulu xanın nümayəndəsi kimi Əbdülrəhim Xacə adlı birisi də gəlmişdi. O, şah hüzurunda olarkən İmamqulu xanın fikirlərini belə bəyan etdi: "Bizim ata-babalarımız və tayfalarımız ilə o əzəmətli sultanlar arasında həmişə qarşılıqlı anlaşma (elteyam) olmuş, fitnə atəşi nəsihət zülalı ilə söndürülmüş, xəlqullahın asudəliyinə səbəb olan sülh bağlanmışdır. Hal-hazırda da ittifaq və asimani təqdir nəticəsində bu xeyirxah [bəndə] gəlib şah ilə görüş səadətinə yetişdi. Amma, üz vermiş xəstəlik nəticəsində mənim Məkkeye-moəzzəməyə səfər etməyim və Beytullahül-həram səadətinə yetişməyim mümkün olmadığı üçün, Mavərənnəhrə qayıtmaq istərdim. Əgər Allahın istəyi olarsa və bəxt yardım edərsə, müvəffəq olaram, "hər işin öz vaxtı var" misalına uyğun olaraq niyyətim başqa bir vaxt həyata keçər. Mənim o əlahəzrətin tərifi və bəyənilən sədaqəti barədə eşitdiklərim [gördüklərimin] mində biridir ki, özüm öz gözlərimlə müşahidə etmişəm. Hər iki aləmin rəhmətini qazanmaqdan və ibadullahın asudəliyini bərqərar etməkdən başqa o həzrətin hərəkətlərində qeyri bir iş yoxdur. Sizdən xahişim budur: Ülfət və dostluq yolçusu olan Nədr Məhəmməd xan öz sədaqətini izhar etmiş və etməkdədir. Əlahəzrət zilləllah şah "olan olmuş, keçən keçmişdir" misalının tələbinə uyğun olaraq, sabiq əməllərinə görə qoy özbəklərə güzəştə getsin. Elə İmamqulu xan da öz etdiyindən peşmandır. Əlahəzrət hər iki qardaşın naqis əməlləri üzərindən qoy əfv qələmi çəksin və məhəbbət məqamındı olsun. Bu xeyirxah dost (mohebb) söz verir: Mən aramızdakı sülhü və dostluğu elə möhkəmləndirəcəyəm ki, bundan sonra hər iki tərəfin əhalisi asudə olsunlar, o əbədi dövlətin (əbədqərin) davamı üçün dua etsinlər. Bu yürüş zamanı Mavərənnəhrin zəif və miskin adamları bu xeyirxah duaçının (İmamqulu xanın – red.) xahişi nəzərə alındığı üçün qiyamət təsirli qızılbaş ləşkərindən zərərə düçar olmadılar ki, bu hal bu dövlətxah bəndənin göstərdiyi yaxşılığın nəticəsidir. Bu yürüşdən məlum oldu ki, sultanlar arasındakı düşmənçilik əhali qanının axıdılması, qarət-

karlıq, müsəlmanların əsir götürülməsi, aciz və miskin adamların əzilməsi ilə nəticələnmir. Beytullah Həccinin ziyarət səadəti mənə (Əbdülrəhim Xacəyə – red.) qismət olmadısa da, şahın mərhəməti sayəsində xeyirxahlıq edə bildim. [Qoy hamı] xəlqullahın sonsuz rahətliyi və dostluğunun məkanı böyük Həccin savabından bəhrələnsin" (215).

Özbək qoşunlarının Xorasan üzərinə çoxsaylı basqınlarına baxmayaraq Şah Abbas ona çatdırılan dostluq təkliflərini razılıqla qarşıladı. Hərbi qarşıdurmaya gətirib çıxara biləcək məsələlərin dinc yolla həllinə daha çox üstünlük verən Şah Abbas özbək hakimlərinin yarada biləcəyi təhlükələrin də dinc yolla aradan qaldırılmasına rəğbətlə yanaşdı. Şah Abbas özbək elçisinin söylədiklərinə belə bir cavab verdi: "Biz bu bir neçə il ərzində Azərbaycanda və Gürcüstanda bərk məşğul olduğumuzdan, sizin təbəqəniz fürsət tapıb [bizə qarşı] əliuzunluq və olmazın əməllər etdi ki, bunun qarşısını almaq üçün şahanə qeyrət və səy göstərmək vacib və zərurətdir. Hal-hazırda [tərəfimizdən] qərara alınmışdır ki, xeyirli Xorasan səfərinə hərtərəfli və birdəfəlik başlamaq lazımdır. Nədr Məhəmməd xan elçi yollayaraq öz sədaqətini izhar etmiş, üzrxahlıq məqamına gəlmişdir. Dostlara güzəştə getmək (rafət) bizim fitri (cəbəli) və saf ayinimizdir. [Nədr Məhəmmədin] iffətli anasının bizim mənsub olduğumuz sülaləyə aidiyyəti vardır və o, bu diyarın əhalisindəndir, buna görə də, gərək biz də elçi göndərib, dostlarla birlik və dostluq məqamında olaq. Əgər İmamqulu xan da dostluq məqamında olarsa, bundan yaxşı nə ola bilər ki ? [O zaman] müsəlmanlar bu hümayun dövlətin və bu əbədi səltənətin dövründə rahətlik və dostluqda olarlar, inşallah. Vaxtın tələbinə görə Xorasanda vəziyyət yaxşılaşar, dövlət ləyaqətli olar və səltənət namusu qorunar" (216).

Özbək hakimlərinin elçiləri şah sarayında səxavətlə mükafatlandırlıldılar və onlara qiymətli hədiyyələr verildi. Şah Abbas eyni zamanda özü də özbək hakimlərinə məktub yazdı və bir vaxtlar Şirvanın vəziri olmuş Məhəmməd Saleh bəyi elçi kimi Bəlxə göndərdi. O, Şah Abbasın məktubunu bu vilayətin hakimi Nədr Mə-

həmməd xana çatdırmalı idi. Elçilər yola salınandan sonra, 1621-ci il fevral ayının 25-də Şah Abbas da İsfahandan Xorasan istiqamətində hərəkətə başladı (217).

Bu səfərin nəticələrindən biri Qəndəharın Səfəvi hüdudların qaytarılması oldu. Qəndəhar şəhəri Səfəvi dövlətinin mühüm fəthlərindən biri idi və bu şəhərin mənsub olduğu vilayət uzun müddət Şah İsmayılın oğlu Bəhram Mirzənin və onun övladlarının hakimliyi altında olmuşdu. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində Bəhram Mirzənin varisləri daxili çəkişmələr üzündən Hindistan şahına tərəf meyllənməklə göstərməklə vilayətin də Səfəvi dövlətindən yadlaşmasına yol açdılar. Şah Abbas bu vəziyyətlə razılaşmaq istəmirdi və o, Qəndəharı itirilmiş Səfəvi ərazisi kimi qəbul edirdi. Xorasana bu dəfəki səfərində Şah Abbas bu məsələyə də xüsusi diqqət ayırdı. İsgəndər bəy Münşinin yazdığına görə, əslində Qəndəharın geri qaytarılması məsələsi Şah Abbasın hakimiyyətə gəldiyi gündən diqqət mərkəzində idi. Lakin Şah Abbas bu məsələyə səbirlə yanaşırdı və məsələnin sülh yolu ilə həllinə də ümid bağlayırdı. Hindistan padşahı Cəlaləddin Məhəmməd Əkbərin dünyasını dəyişməsindən sonra isə bu məsələyə diqqət bir qədər artdı. Belə ki, Hindistan hakiminin dünyasını dəyişməsindən sonra onun övladları arasında hakimiyyət uğrunda daxili çəkişmələr artmağa başladı. Bundan bəhrələnməyə çalışan Fərəh və Sistan hakimləri Herat qoşunlarının bir hissəsinin köməyi ilə Qəndəhar qalası üzərinə hücuma keçdilər. Şah Abbas o zaman Azərbaycan istiqamətində Osmanlı qoşunlarına qarşı döyüşlərdə idi və Qəndəhar qalası üzərinə hücum edilməsindən xəbəri yox idi. Amma Şah Abbas bu hücumu dəstəkləmədi. Onun fikrində, Hindistanın padşahının dünyasını dəyişməsi ilə bağlı Səfəvi sarayı tərəfindən baş sağlığı verilməyincə belə bir işin görülməsi doğru deyildi. Ona görə də Şah Abbas Qəndəhar üzərinə hücumun dayandırılmasını tələb etdi. Şah Abbas Qəndəharın o zamankı hakimi, Hindistan padşahı tərəfindən bu vəzifəyə təyin edilmiş Şahibəy Cığataya xoş məramlı bir məktub yazdı və Hüseyn bəy adlı bir qızılbaşla bu məktubu ona göndərdi. Həmin məktubda deyi-

lirdi: "Bizimlə o ali məqamlı həzrət padşah arasında məhəbbət və qardaşlıq əlaqəsi mövcud olduğu üçün həmin ülka və məmləkətlərdən keçirik. Qoy o (Şahıbəy xan Cığatay – red.), arxayınlıqla həmin mülki idarə etməklə məşğul olsun" (218).

Yəni Şah Abbas hələ ki, Qəndəhara qarşı ciddi addımlardan uzaq olduğunu və iki dövlət arasında xoş məramlı münasibətlərin qalması üçün mövcud vəziyyəti qəbul etdiyini bəyan edirdi. Bununla belə, Səfəvi sarayında belə hesab edirdilər ki, Şah Abbas Qəndəharın Hindistanın nəzarəti altında qalması ilə barışmayacaqdır. Şah Abbas isə hələlik iki dövlət arasında etimadın gücləndirilməsi məsələsinə daha çox diqqət yetirirdi. Bununla bağlı Hindistana bir neçə elçilik heyəti də göndərilmişdi. Həmin elçiliklərin mənsubları Hindistanda olarkən üstüörtülü şəkildə Qəndəharın əslində, Səfəvi dövlətinə məxsus olmasına işarə etmişdilər. Hindistan sarayı bu sözlərə hər hansı bir cavab vermir və Qəndəharın geri qaytarılması məsələsi gündəliyə gətirilmirdi. Səfəvi sarayı isə Qəndəharın qoşun tətbiqi ilə geri qaytarılması məsələsini hələlik qəbul etmirdi. Şah Abbas qoşunların tətbiqinə əl atmasa da, Qəndəharın Hindistan tərkibində qalması ilə də razı deyildi və onda belə bir ümid var idi ki, ikitərəfli münasibətlərin yaxşılaşması Hindistan sarayının Qəndəhardan əl çəkməsinə gətirib çıxara bilər. Hindistanın böyük üləmalarından bir olan və bu ölkənin sarayında böyük hörmət və ehtiram sahibi olan və Xanaləm kimi tanına Mirzə Barxudar elçi kimi Səfəvi sarayına gələndə Şah Abbas söhbət zamanı Qəndəhar məsələsinə də toxundu. Şah Abbas Xanaləmə qardaş deyə müraciət edirdi və ona xoş

münasibəti var idi. Şah Abbas onun nəzərinə çatdırdı ki, Səfəvi sarayının Qəndəharın geri qaytarılması məsələsində tutduğu xoş məramlı mövqeyinə baxmayaraq, Hindistan sarayı hər vasitə ilə bu məsələdən uzaq qaçmağa çalışır. Xanaləmlə söhbəti zamanı Şah Abbas öz fikirlərini belə açıqladı: " Bizimlə, o uca məqamlı həzrət padşah arasındakı yaxınlıq və birlik hər şeydən artıq bununla əlamətdardır ki, biz bir-birimizə ülka və məmləkəti də müzayiqə etməyi bacarmalıyıq. Amma, Qəndəhar Xorasanın

daxilindədir və bizim irsi mülkümüzdür. Baş verən zahiri ənənəvi məsələləri yaxın və uzaq adamlar görməkdədirlər. Müxtəlif məclislərdə nəyəsə nəsə bir məna vermək aləmində olanlar dilə mənasız sözlər gətirir və bu məsələyə başqa rəng verirlər. [İndi] məhəbbətə layiq olan və tərəflərarası münasibətləri tənzimləyəcək yol budur: O kamkar qardaş (yəni Məhəmməd Səlim – red.) düşmənlərin tənələrinə cavab olaraq qoy Hindistan vilayətindən olduqca uzaq olan və aramızdakı məhəbbətə maneçilik edən o mülkü (yəni Qəndəharı – red.) bu məhəbbət arzulayan qardaşa geri qaytarsın ki, həm səbəblər aləmini zahirən seyr edən və hərzə-hərzə bihudə sözlər danışanların dilləri qısalsın, həm də bütün aləmdə öz birlikləri ilə məşhur olan bu iki sülalə arasında ülfət və ədalət yenidən möhkəmlənsin, qonşuluğumuzdakı sultanlara, xüsusilə bizə maneçilik edən özbək tayfalarına cığatay və qızılbaşların bir-biriləri ilə müttəfiq olmaları zahir olsun bu məsələnin faydalı olması  görünsün. Yox, əgər Qəndəharın geri qaytarılması o həzrətin şərafətli təbinə çox çətin gələrsə, biz onun razılaşmamağının səbəbini ali dünyəvi məsələlərlə məşğul olması kimi başa düşərik. Belə olan halda seyr və şikar məqsədi ilə biz bir neçə günlüyə o həzrətin adamları ilə birlikdə o vilayətin şikargahlarında seyrə və şikara qurşanmaqdan ötrü siz tərəfə gələcəyik və sonra geri qayıdacağıq. Qoy o həzrət öz mizbanlığına başlasın. Qoy hamıya məlum olsun ki, o mülkdən geri qayıtmaq məhz bizim birliyimizin sayəsindədir, aramızda ögeylik və ayrılıq yoxdur" (219).

Xanaləm geri dönəndə Şah Abbas ona Zeynal bəy Beqdeli adlı bir əyanını da qoşdu ki, Hindistan sarayına yollansın və şahın fikirlərini Hindistan hakimlərinə çatdırsın. Zeynal bəy Beqdeli də Hindistan sarayına Şah Abbasın fikirlərini çatdırdı və Səfəvi sarayının Qəndəharın dinc yolla geri qaytarılması intizarında olduğunu bəyan etdi. Amma Hindistan sarayının bir sıra mənsubları Qəndəharın yenidən Səfəvi dövlətinin tərkibinə qaytarılması ilə razı olmadıqlarını bildirdilər. Onların fikrincə, bu, Hindistanın səl-

tənət maraqlarına uyğun deyildi. Yəni məsələ həll edilməmiş qaldı.

1621-ci ilin yazında Şah Abbas öz məiyyəti ilə gəzinti və ov etmək məqsədilə Qəndəhar istiqamətinə üz tutdu. Fərəhdə olarkən Şah Abbas Qəndəharın hakiminə və bu vilayətin əmir və əyanlarına bir məktub yazdı, həmin məktubu Vüsal bəy Evoğlu adlı bir qızılbaşla Qəndəhara göndərdi. Həmin məktubda deyilirdi: "Bəzi mülki işləri yoluna qoymaqdan ötrü xeyirli Xorasan səfəri başlandı və biz indi Fərəhi keçib o hüdudda seyr və şikar etməyə yollanırıq. Siz gərək hümayun qoşunun sizə tərəf gəlişinin məhz seyr və şikar məqsədi daşıdığını biləsiniz, bizi səmimiyyətlə qarşılayasınız, bizimlə görüş səadətinə yetəsiniz ki, burada olacağımız bir neçə gün müddətində sizlər də şahın məiyyətində olasınız, bizə qardaşlıq münasibəti bildirəsiniz, mizbanlıq edəsiniz. Arxayın olun ki, bizim o uca məqamlı həzrət padşahın mülazimlərinə izzət, ehtiram və qardaş münasibət ərz etməkdən başqa bir işimiz yoxdur. Bu yürüşə çıxmağımızın əsil məqsədi, Xanaləmə dediyimiz kimi, belədir: Qoy hər iki tərəfin sərhədində yaşayan insanlara, xüsusilə bizə müxalif olan özbəklərə məlum olsun ki, bizim və sizin məmləkətiniz vahiddir, birdir, aramızda heç bir ayrı-seçkilik yoxdur, qoy bu sözlərdə başqa məna axtarmasınlar" (220).

Bu məktubda da Şah Abbas hind hakimlərinə qarşı öz xoş məramını nümayiş etdirdi. Məktubda yazılanlar zahiri xarakter daşımırdı və Şah Abbas əməlində də hind hakimlərinə qarşı xoş məramda olduğunu nümayiş etdirirdi. Qəndəhar istiqamətində hərəkət edərkən Şah Abbas Hirməd çayı sahilində düşərgə saldı. Həmin vaxt yaxınlıqdakı məntəqələrdən birinin hakimi Qəndəhar hakiminə məxsus olan bir neçə döyüşçünü əsir alaraq Şah Abbasın hüzurun gətirdi. Həmin hakim güman edilirdi ki, Şah Abbas bu əməli təqdir edəcəkdir. Şah Abbas isə əksinə, Qəndəhar hakiminin döyüşçülərinin əsir götürülməsini qəbul etmədi və fikrini belə açıqladı: "Uca məqamlı və əzəmətli həzrət padşahın mülazimləri elə bizim özümüzün mülazimləridir. Sizin belə özbaşına hərəkətinizin səbəbi nədir?" (221).

Şah Abbas əsirləri azad etdi, onlara qiymətli hədiyyələr bağışladı və sonra da onlara tapşırılan işin arxasınca getməyə icazə verdi. Qəndəhar hakimi də Şah Abbasın həm bu qərarını, həm də onun məktubunu məmnunluqla qarşıladı. Amma Qəndəhar hakimi də, onun ətrafındakılar da Şah Abbasın qoşunla yaxınlaşması ilə bağlı təşvişlərini də gizlədə bilmədilər. Onlar Şah Abbasın Qəndəhar istiqamətində hərəkət etməsinə narazılqılarını ifadə etdilər. Onların bu narazılıqları Şah Abbasa göndərilən məktubda da öz əksini tapdı. Məktubda Şah Abbasın geri qayıtması istəyi yazılmışdı. Qəndəhar hakimi yazırdı ki, Şah Abbas irəliyə hərəkət etmək fikrindən daşınsın və elə dayandığı yerdən də geriyə doğru hərəkətə başlasın. Onun yazdığına görə, əks təqdirdə Hindistan qoşunları qızılbaş qoşunlarına qarşı savaşa başlamalı olacaqdı. Qəndəhar hakimi əslində, Şah Abbasa qarşı tələb irəli sürdü və onun geri qayıtmalı olduğunu bildirdi. Şah Abbas bu məktubun məzmunundan heç də xoşlanmadı. Onun iki dövlət arasında münasibətlərin möhkəmləndirmək istəyinə qarşı belə bir tələbin irəli sürülməsi ədəb normalarından kənara çıxan bir hərəkət kimi qəbul edildi. Belə olanda Şah Abbas Qəndəharı ələ keçirmək və onu yenidən Səfəvi dövləti hüdudlarına qaytarmaq üçün qoşunun istifadəsi üçün əmr verdi. Onun bu əmrinə əsasən, bir qızılbaş qoşun dəstəsi yaxınlıqda yerləşən Zəmindavər qalası üzərinə göndərildi. Qoşunların əsas qüvvələri isə Qəndəhar qalasının ətəklərinə yollandı (222).

Qəndəharın o zamankı hakimi Əbdüləziz xan və onun yaxın ətrafı savaşa girmək fikrindən əl çəkmədilər. Onlar qala ətrafına yaxınlaşmış olan qızılbaş dəstələrini qala divarları üzərindən top və tüfəng atəşinə tutdular. Buna baxmayaraq, Şah Abbas hələ də mövcud olan ixtilafın dinc yolla aradan qaldırılması ümidində idi. Ona görə də bir neçə gün ərzində Qəndəhar qarnizonunun atəşlərinə qarşı qızılbaş dəstələri tərəfindən cavab verilmədi. Şah Abbas bir neçə dəfə Qəndəhar hakimləri ilə təmas saxladı, onları qarşılıqlı dostluq münasibətlərinə dəvət etdi. Amma Qəndəhar hakimi və onun ətrafı Şah Abbasla xoş münasibətlər qurulmasını qeyri-

mümkün saydılar. Belə olanda Şah Abbas da daha qətiyyətli hərəkət etmək əmri verdi. Bununla da Qəndəhar qalası üzərinə qızılbaş qüvvələrinin hücumu başladı. Mövcud olan məlumatlar da onu göstərir ki, Şah Abbasın Qəndəharı hücumla ələ keçirmək planı yox idi. Çünki qala müharibəsinin aparılması üçün zəruri olan toplar, qalavuran qurğular və s. gətirilməmişdi. Ona görə də Qəndəhar adi silahlarla ələ keçirilməli idi. Qızılbaş döyüşçüləri qalanı mühasirəyə almaqla bərabər, qala divarları altından lağım atılmasına da başladılar. Bu işin görülməsi üçün də zəruri olan silahlar və alətlər gətirilməmişdi. Qızılbaş döyüşçüləri əllərinə keçən vasitələrdən istifadə etməklə qala divarları altından lağım atmağa çalışırdılar. Bu işlər 17 gün davam etdi. Nəticədə qalanın bir neçə bürcünü uçurmaq mümkün oldu. Hətta belə bir məqamda da Şah Abbas səbirlə və təmkinlə hərəkət etməyə üstünlük verdi. Qala divarları uçurulduqdan sonra da Şah Abbas istəmirdi ki, qızılbaş dəstələri sürətlə şəhərə daxil olsunlar və bu zaman şəhər sakinləri ziyanlarla qarşılaşsınlar. Qala divarlarının uçurulması xəbərini alanda Qəndəhar hakimi də, onun yaxın ətrafı da Şah Abbasa qarşı inadkarlıq mövqeyində olmasının bir fayda vermədiyini anladılar. Qala daxilində isə qızılbaş qoşunlarına müqavimət göstərə biləcək qüvvə yox idi. Belə bir durumda xilas olmağın ən etibarlı vasitəsi Şah Abbasın lütfünə sığınmaq idi. 1621-ci ilin iyun ayının sonlarına yaxın Şah Abbas Qəndəhar qalasını fəth etdi. Lakin o, şəhərdə dağıntılar törədilməsinə, qızılbaş qoşunlarına qarşı cəbhə tutanlara cəza verilməsinə razı olmadı. Onun hökmü ilə Qəndəhar böyükləri və sakinləri əfv olundular. Hətta bir çox əmir və əyanlar istəyirdilər ki, ox qabını boyunlarından asaraq bu vəziyyətdə Şah Abbasın hüzuruna gəlsinlər. Şah Abbas isə onların belə vəziyyətdə dərgaha gəlməsinə razı olmadı. Qəndəhar əyanları və böyükləri şahın bu qərarını təşvişlə qarşılasalar da, sonradan bu təşviş aradan qalxdı. Çünki Şah Abbas Qəndəhar sakinlərinə, böyüklərinə mərhəmət göstərdi, qaladan kənara çıxanların qalaya qayıtmasına, öz işləri ilə məşğul olmasına icazə verdi. Bununla insanlar arasında bir sakitlik və arxayınçılıq yarandı (223).

Üç gündən sonra qala daxilində olan 3-4 min nəfərlik qoşun dəstəsi şəhəri tərk etdi və onlar Şah Abbas düşərgəsi yaxınlığında düşərgə saldılar. Bununla bu qoşun əhli iltifat göstərildiyinə görə Şah Abbasa öz minnətdarlıqlarını bildirdilər və onun qoşununa qoşulmağa hazır olduğunu bildirdilər. Qoşun əhli şəhəri tərk edəndən sonra, 1621-ci il iyun ayının sonlarında Şah Abbasın məiyyəti, yaxın ətrafı şəhərə daxil oldular, Qəndəharın mərkəzi məscidinə yollandılar və orada namaz qıldılar. Təxminən 25 illik bir müddətdən sonra Qəndəhar məscidində şiə imamlarının adına dualar səsləndi. Qəndəhar hakimi və onun yaxın ətrafı Şah Abbasla dostluq münasibətlərini qoruya bilməmələrindən çox peşman oldular. Amma Şah Abbasın lütfkarlığı onları sevindirdi və onlar qiymətli hədiyyələr əvəzində Hindistana yollanmalarına Şah Abbasdan icazə istədilər. Şah Abbas isə onların qiymətli hədiyyələrini qəbul etməyərək, özlərinə qaytardı. Əksinə, özü onları qiymətli hədiyyələr bağışladı, at verdi, ailələri ilə birlikdə sağ-salamat Hindistana yollanmaları üçün şərait yaratdı. Bundan başqa Şah Abbas Hindistan padşahına məktub yazdı, Məktubda Şah Abbas bir daha xoş məramını ifadə etməklə, Qəndəhar üzərinə hücum etməsinə görə öz üzrxahlığını da bildirdi. Yəni Qəndəhara görə Şah Abbas Hindistanla münasibətlərin korlanmasını istəmədiyini bildirdi. Səfəvi şahının Hindistan padşahına göndərdiyi məktubda yazılmışdı: “O həzrətin adamlarının ağıllarının dayazlığı və qafillikləri üzündən bizim aramızda ayrılıq və biganəlik yarandı, illərlə açıq olan aşinalıq və birlik qapıları qapandı ki, bütün bunlar [Allahın] təqdiri ilə baş verdi. İndi ixtiyar ali mülazimlərə verilmişdir. Allahın evindən bu qardaşa verilmiş bütün İran vilayətlərini bir qala şəklində təsəvvür edərək, onların ixtiyar açarının özünüzün iqtidarı altında olduğunu güman edin, bu sözləri rəsmi təklif və təvazökarlıq saymayın. Sübhanallah, ülfət və birlik (elteyam) necə də uca mərtəbədir ki, şan-şöhrətli hökmdarlar özlərinin hökmdarlıq etmələrinə (təsəllot) və iqtidarlı olmalarına rəğmən səbəblər aləmində hər biri cahanı qarışdıra biləcək vəhşət yaratmaları üzündən (movəccəbat) on iki imam həzrətlərinin köməyi və

ədalətli padşahların kamil sifatlarının zatında olan əzəli vəhdət tələbi (moqtəza), həmçinin bilik sultanı və ağıl hökmranının hökmü ilə öz şan-şöhrətlərini əldən vermirlər" (224).

Qəndəhar şəhəri nəzarət altına alındıqdan sonra Şah Abbas bir müddət bu vilayətin idarəçilik işlərinin tənzimlənməsi ilə məşğul oldu. Vilayətin hakimi dəyişdirildi və bu vilayət dövlətin böyük və qədim əmirlərindən biri olan Gəncəli xana həvalə olundu. Qorxmazlığı və şücaəti ilə məşhur olan Gəncəli xan Kirmanda hakim vəzifədə olan əmirlərdən biri idi. Şah Abbas da onu sədaqətli və bacarıqlı əmirlərdən biri kimi tanıyırdı və əmin idi ki, onun rəhbərliyi altında sakitliyi yaratmaq mümkün olacaqdı. Onun fəaliyyətinin səmərəliliyini artırmaq üçün Şah Abbasın əmri ilə qızılbaş qoşunlarının tərkibində olan kürd dəstələri də Qəndəharda yerləşdirilidi. Bu vilayətin idarəçilik işlərinin tənzimlənməsi başa çatdıqdan sonra Şah Abbas 1621-ci il iyul ayının ilk günlərində Məşhədə doğru hərəkətə başladı. Bu hərəkət yayın isti günlərinə təsadüf etdi. Digər tərəfdən də Məşhədə aparan yolun mürəkkəb coğrafi ərazilərdən keçməsi böyük sayda olan qızılbaş qoşunlarının irəliləməsini kifayət qədər çətinləşdirdi. Bu çətinliyin müəyyən qədər yüngülləşdirilməsi üçün Şah Abbas qoşunları bir neçə dəstəyə böldü. Həmin dəstələr müəyyən məsafədə bir-birinin ardınca düzülərək hərəkəti davam etdirdilər. Hərəkət şəraitinin kifayət qədər mürəkkəbliyinin nəticəsi idi ki, Herata çatmaq üçün qoşunlar 27 gün yol getməli oldular. Firuzkuh yaxınlığında bu bölgənin hakiminin dəstələri qızılbaş qoşunları üzərinə basqınlar da etdilər. Şahın tapşırığı ilə bir qızılbaş dəstəsi bu qüvvələrə göndərildi və həmin qüvvələr geri çəkilməyə məcbur edildi. Herata gəlib çatanda qoşun dəstəsi tamamilə əldən düşmüşdü. Ona görə də Heratda qoşunları bir neçə gün istirahət verildi (225).

Bütünlükdə isə, Şah Abbas iki ay yarım Heratda qaldı və bu müddət ərzində vilayətdə və bölgədə səltənət maraqlarının tənzimlənməsi məsələləri ilə məşğul oldu. Bu müddət ərzində Şah Abbasın həyata keçirdiyi tədbirlərdən biri də, keçmiş Bəlx hakimi Vəli Məhəmməd xanın oğlu Rüstəm Məhəmməd xanın Səfəvi-

özbək sərhədlərindən uzaqlaşdırılması oldu. Rüstəm Məhəmməd xan bəlli olduğu kimi, Şah Abbasın qayğısı altında idi və onun Bəlxə qaytarılması şah sarayının maraqları çərçivəsində idi. Bu adam Heratda məskunlaşmışdı və Şah Abbas da yuxarıda qeyd edildiyi kimi, Xorasan bəylərbəyinə ona qayğı göstərməsi tapşırılmışdı. Şah Abbasın Xorasan üzərinə yeni yürüşünün həyata keçirilməsi Mavərənnəhr hakimi İmamqulu xanla onun Bəlxdə hakimlik edən qardaşı Nədr Məhəmməd xanı ciddi təşviş salmışdı. Ona görə də onlar Şah Abbasla xoş münasibətlərin yaradılmasına çalışırdılar. Bəlx hakimi Nədr Məhəmməd xan belə xoş münasibətin yaradılması üçün Şah Abbasdan Rüstəm Məhəmməd xanın sərhəd bölgəsindən uzaqlaşdırılmasını və onun səltənətin başqa bir ərazisində yerləşdirilməsini xahiş etdi. Nədr Məhəmməd xanın bildirdiyinə görə, Rüstəm Məhəmməd xanın sərhəd bölgəsində olması fitnə-fəsada səbəb olurdu və onun ətrafına soyğunçu bir dəstə toplanmışdı. Bu dəstənin də əsas məqsədi ətraf məntəqələri talan etməklə varlanmaq idi. Nədr Məhəmməd xan sonra onu da əlavə edirdi ki, Rüstəm Məhəmməd xanın məsələsi həll edilməsə özbək xanlıqlarının əhalisi daim təşviş içində qalacaqdılar. Onun sözlərinə görə, Rüstəm Məhəmməd xana qarşı özbək dəstələri də göndərmək mümkün idi. Lakin həmin qüvvələrin göndərilməsi Səfəvi hüdudlarına təcavüz kimi qiymətləndirilə bilərdi. Ona görə də Şah Abbasdan xahiş olunurdu ki, iki dövlət arasında münasibətlərin yaxşılaşdırılması xatirinə Rüstəm Məhəmməd xan sərhəd bölgəsindən uzaqlaşdırılsın. Şah Abbas bu xahişi qəbul etdi və Heratdan geri qayıdarkən Rüstəm Məhəmməd xanı da qoşunların tərkibinə aldı. Bu zaman da Rüstəm Məhəmməd xana xüsusi qayğı əskik olmadı. Şah Abbasın tapşırığı ilə onun xidmətinə etimadlı mülazimlərdən ibarət bir dəstə verildi. Eyni zamanda Dərcəzin məntəqəsini onun hakimliyi altına verdi ki, orada öz həyatını və dolanışığını qura bilsin (226).

İki ay yarım Heratda qaldıqdan sonra Şah Abbas qoşunlarla birlikdə Məşhədə tərəf hərəkətə başladı. Şah karvanı Quryana yetişəndə Xorasan vilayətinin vəziri Xacə Cəlaləddin Əkbər Qur-

yani qiymətli hədiyyələrlə şahın qarşılanmasına çıxdı və ona öz xidmətini göstərdi. Məşhəddə də şah karvanı bir neçə gün dayanmalı oldu. Həmin günlər ərzində Şah Abbas İmam Rzanın məqbərəsinin ziyarətində oldu, orada dualar edib ziyarətlə məşğul oldu.

Şah Abbas Məşhəd ziyarətini başa çatdırdıqdan sonra geri qayıtmaq yolunu tutdu. Bu səfərin mühüm nəticələrindən biri Qəndəharın səltənət hüdudlarına qaytarılması oldusa, digəri də özbək hakimləri ilə xoş münasibətlərin qurulması oldu. Özbək hakimləri anladılar ki, Səfəvi dövlətinə qarşı ərazi iddiaları və talançı yürüşlər ümidində olduqları nəticəni verməyəcəkdir. Çünki onlar Şah Abbas kimi qüdrətli bir hökmdarla hesablaşmalı olacaqdılar. Ona görə də onlar sülh və anlaşma yolunu tutdular. Şah Abbas bu siyasəti qəbul etdi və özbək xanlarına qarşı xoş məramlı bir siyasətin həyata keçirilməsinə üstünlük verdi. Bu siyasəti Şah Abbas həyatının sonuna qədər davam etdirdi və onun hakimiyyəti illərində iki dövlətin sərhəd bölgələrində də sabit bir həyat quruldu.

## 10. İstifadə olunmuş mənbə və ədəbiyyat


1.Conabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 663; Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar. Tehran,1373, s. 291; İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən tərcümə Şahin Fazil. Bakı, 2010, s. 655; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri (1524-1630). Doktora tezi. Afyonkarahisar, 2011, s. 190

2. Dünyanı bəzəyən Abbasın tarixi, s. 655

3. Conabedi M. Rövzətüs-səfəviyyə, s. 663

4. Yenə orada, s. 663-664

5. Yenə orada, s. 664

6. Dünyanı bəzəyən Abbasın tarixi, s. 656; Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 291

7. Dünyanı bəzəyən Abbasın tarixi, s. 656

8. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 292
9. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi. Tehran, 1366, s. 142
10. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 297; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 192
11. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 297-299
12. Dünyanı bəzəyən Abbasın tarixi, s. 730
13. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 300
14. Belan L.L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s.69
15. Dünyanı bəzəyən Abbasın tarixi, s. 731
16. Dünyanı bəzəyən Abbasın tarixi, s. 732; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s.193
17. Dünyanı bəzəyən Abbasın tarixi, s. 732; Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 30; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 193
18. Dünyanı bəzəyən Abbasın tarixi, s. 733; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s.193
19. Dünyanı bəzəyən Abbasın tarixi, s. 734
20. Yenə orada, s. 735
21. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl, s.135; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 71
22. Bax: Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi. Tehran, 1366, s.181-187
23. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl, s. 181-182; Karadağ Şinar G. Safevi-özbek siyasi ilişkileri və Osmanlının tesiri (1524- 1630). Doktora tezi. Ayfon-Karahisar, 2011, s. 203
24. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl, s.182; Karadağ Şinar G. Safevi-özbek siyasi ilişkileri və Osmanlının tesiri, s. 204

25. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl, s.182; Karadağ Şinar G. Safevi-özbek siyasi ilişkileri və Osmanlının tesiri, s. 204
26. Dünyanı bəzəyən Abbasın tarixi, s. 775-776
27. Dünyanı bəzəyən Abbasın tarixi, s. 776; Conabedi M. Rövzət üs-səfəviyyə, s. 685; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 206
28. Conabedi M. Rövzət üs-səfəviyyə, s. 685
29. Dünyanı bəzəyən Abbasın tarixi, s. 777; Conabedi M. Rövzət üs-səfəviyyə, s. 686
30. Dünyanı bəzəyən Abbasın tarixi, s. 779-780; Conabedi M. Rövzətüs-səfəviyyə, s. 686
31. Conabedi M. Rövzətüs-səfəviyyə, s. 687
32. Yenə orada, s. 687-688
33. Dünyanı bəzəyən Abbasın tarixi, s. 777-778; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 74
34. Dünyanı bəzəyən Abbasın tarixi, s. 781
35. Yenə orada, s. 832-833
36. Conabedi M. Rövzətüs-səfəviyyə, s. 700-701
37. Dünyanı bəzəyən Abbasın tarixi, s. 833
38. Dünyanı bəzəyən Abbasın tarixi, s. 834; Conabedi M. Rövzətüs-səfəviyyə, s. 701
39. Dünyanı bəzəyən Abbasın tarixi, s. 834; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s.210; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 171
40. Conabedi M. Rövzətüs-səfəviyyə, s. 702
41. Dünyanı bəzəyən Abbasın tarixi, s. 835; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s.210
42. Dünyanı bəzəyən Abbasın tarixi, s. 846-847
43. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 211; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 215

44. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 211; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 216
45. Dünyanı bəzəyən Abbasın tarixi, s. 847
46. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 213; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 217
47. Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 218
48. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, 212-215
49. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, 213; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 219
50. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, 217; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 220
51. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, 219
52. Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 220
53. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, 220; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi, s. 174
54. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 442; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 220
55. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 149
56. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar, 445; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 224; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 223

57. Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 225
58. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 225-226
59. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 226; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 224
60. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 226; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 225
61. Dünyanı bəzəyən Abbasın tarixi, s. 849
62. Yenə orada, s. 852
63. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Əbdülhüseyn Nəvayi, s. 229-230
64. Yenə orada, s. 231-232
65. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 232
66. Yenə orada, s. 235
67. Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 228
68. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 236
69. Yenə orada, s. 237-238
70. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s.239-240; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 231
71. Dünyanı bəzəyən Abbasın tarixi, s. 867; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 149
72. Dünyanı bəzəyən Abbasın tarixi, 867
73. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 242
74. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 242;

Umut Ülvi Türk. Safevi devletinin özbek hanlıkları ve Babur devleti ile siyasi ilişkileri (1526-1722). Doktora tezi. Ankara, 2017, s. 76
75. Dünyanı bəzəyən Abbasın tarixi, s. 868
76. Yenə orada, s. 869
77. Yenə orada, 869-870
78. Yenə orada, s. 870
79. Yenə orada, s. 871
80. Yenə orada, s. 872
81. Dünyanı bəzəyən Abbasın tarixi, s. 873-874; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 151
82. Dünyanı bəzəyən Abbasın tarixi, s. 875
83. Dünyanı bəzəyən Abbasın tarixi, s. 937-938
84. Yenə orada, s. 938
85. Umut Ülvi Türk. Safevi devletinin özbek hanlıkları ve Babur devleti ile siyasi ilişkileri (1526-1722), s. 77; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 152
86. Dünyanı bəzəyən Abbasın tarixi, s. 939
87. Yenə orada, s. 940
88. Yenə orada, s. 941
89. Yenə orada, s. 942
90. Yenə orada, s. 943
91. Yenə orada, s. 944
92. Yenə orada
93. 93. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi s. 244
94. Yenə orada, s. 244
95. Yenə orada, s. 245
96. Yenə orada, s. 246-247
97. Yenə orada, s. 247
98. Yenə orada, s. 249-250
99. Yenə orada, s. 252

100. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s.252; Barton, Odəri. Keşməkeşha-ye siyasi-ye Səfəviyan və özbəkan (dövre-ye Şah Abbas və Əbdülmömin), s. 29// Name-ye tarix pəjuhan, N-5, 1385, s.2-35
101. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 252; Barton, Odəri. Keşməkeşha-ye siyasi-ye Səfəviyan və özbəkan (dövre-ye Şah Abbas və Əbdülmömin), s. 30
102. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 252;
103. Dünyanı bəzəyən Abbasın tarixi, s. 945; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 246
104. Dünyanı bəzəyən Abbasın tarixi, s. 946
105. Yenə orada, s. 947
106. Yenə orada, s. 948
107. Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 249-250
108. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1034-1035
109. Yenə orada s. 1035
110. Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 251
111. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s.736-737
112. Dünyanı bəzəyən Abbasın tarixi, s.1036
113. Yenə orada, s. 1037-1038
114. Dünyanı bəzəyən Abbasın tarixi, s.1040; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s.252
115. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1041
116. Yenə orada, s. 1042
117. Yenə orada, s. 1043-1044
118. Yenə orada, s. 1046

119. Dünyanı bəzəyən Abbasın tarixi, s.1047; Conabedi M. Rövzətüs-Səfəviyyə., s. 742; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 254
120. Conabedi M. Rövzətüs-Səfəviyyə., s. 742
121. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1047
122. Yenə orada, s. 1047-1048
123. Conabedi M. Rövzətüs-Səfəviyyə., s. 744-745
124. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1048
125. Yenə orada s. 1049
126. Yenə orada, s. 1050
127. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1050; Conabedi M. Rövzətüs-Səfəviyyə., s. 745
128. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1052-1053
129. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1057; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 161
130. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1058-1059
131. Yenə orada, s. 1059-1060
132. Yenə orada, s. 1073
133. Yenə orada, s. 1079
134. Yenə orada, s. 1080
135. Yenə orada, s. 1090
136. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1091; Parsadust M. Şah Abbas əvvəl. Cild I, Tehran 1388, s. 382; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 156
137. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1093
138. Yenə orada
139. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1094-1097; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 382
140. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1098-1099
141. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1099; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 383
142. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1100

143. Yenə orada, s. 1101-1102
144. Yenə orada, s. 1102
145. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1103; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 166; Parsadust M. Şah Abbas əvvəl. Cild I, Tehran 1388, s. 384;
146. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1104; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 166; Parsadust M. Şah Abbas əvvəl. Cild I, Tehran 1388, s. 384;
147. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1104
148. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1104-1105; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild əvvəl. Tərtibçi: Ə. Nəvayi, s. 167; Parsadust M. Şah Abbas əvvəl. Cild I, Tehran 1388, s. 384-385
149. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1106
150. Yenə orada, s. 108-109
151. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Tərcümə edən – Şahin Fərzəliyev. Bakı, 2014, s. 1112
152. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1113
153. Yenə orada, s.
154. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1117; Parsadust M. Şah Abbas əvvəl. Cild I, Tehran 1388, s. 389
155. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1118-1119
156. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1119; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 147
157. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1119; Parsadust M. Şah Abbas əvvəl. Cild I, Tehran 1388, s. 390
158. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1129; Туманович Н.Н. Герат в XVI-XVIII веках. Москва, 1989, с.144
159. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1128; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 151; Çinar, Karadağ

Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 260
160. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1129; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 201; Туманович Н.Н. Герат в XVI-XVIII веках, с. 144;
161. Parsadust M. Şah Abbas əvəl. Cild I, s. 391
162. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1131; Çinar, Karadağ Gülay. Safevi-Özbek siyasi ilişkileri ve Osmanlının tesiri, s. 260; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 202; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 391
163. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1132
164. Yenə orada
165. Yenə orada, s. 1133
166. Yenə orada, s. 1134-1135
167. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1135; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 392; Туманович Н.Н. Герат в XVI-XVIII веках, с.144
168. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, 1136
169. Yenə orada, s. 1138
170. Yenə orada, s. 1140
171. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, 1140; Parsadust M. Şah Abbas əvvəl. Cild I,
s. 393
172. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1141
173. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 755
174. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1142; Parsadust M. Şah Abbas əvvəl. Cild I,  s. 394
175. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, 1143
176. Yenə orada
177. Yenə orada, s. 1144
178. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 756-757
179. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, .s. 1144
180. Yenə orada, s. 1145

181. Molla Cəlaləddin Münəccim. Tarix Abbasi ya ruzname-ye Molla Cəlal. Tehran, 1366,
s. 229; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 395
182. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1145-1146
183. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1146; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 395
184. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1147
185. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1147;
186. Yenə orada, s. 1148
187. Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild dov-vom Tərtibçi: Ə. Nəvayi. Tehran, 1366, s. 282-291
188. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1150
189. Yenə orada, s. 1149
190. Yenə orada
191. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1276-1277
192. Yenə orada, s. 1277
193. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1278; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 399
194. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1340
195. Yenə orada, s. 1342-1343
196. Yenə orada, s. 1462-1463
197. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1493; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 401
198. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1495; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s .401
199. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1497
200. Yenə orada, s. 1499
201. Yenə orada, s. 1503
202. Yenə orada, s. 1504
203. Yenə orada, s. 1505
204. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1506; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 407
205. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, 1509
206. Yenə orada, s. 1510-1511

207. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1513-1514; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 409
208. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1519
209. Yenə orada, s. 1535
210. Yenə orada, s. 1548-1549
211. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1595; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 413
212. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1652-1653; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 413
213. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1595
214. Yenə orada, s. 1710
215. Yenə orada, s. 1712-1713
216. Yenə orada, s. 1713
217. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1714; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 417
218. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1725
219. Yenə orada, s. 1726-1727
220. Yenə orada, s. 1727-1728
221. Yenə orada, s. 1728
222. Yenə orada, s. 1729
223. Yenə orada, s. 1730.
224. Yenə orada, s. 1731-1732
225. Yenə orada, s. 1739
226. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1747; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 418

# V FƏSİL
# SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ

## 1. İstanbul sülh razılaşması

Şah Abbasın hakimiyyətə gəlməsindən sonra həll etməli olduğu ciddi məsələlərdən biri də Osmanlı dövləti ilə münasibətlərin normallaşdırılması məsələsi idi. Bu münasibətlərin səltənət maraqlarına uyğun formalaşdırılması üçün hələ Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində müəyyən addımlar atılmasına cəhd göstərilmişdi. Bəllidir ki, şahzadə Həmzə Mirzə iki dövlət arasında müharibələrə son qoyulması üçün Səfəvi dövləti üçün ağır ola biləcək şərtlər çərçivəsində də sülh razılaşmasının əldə edilməsinə razı idi. Bunun üçün danışıqlar da aparılırdı. Həmzə Mirzənin qətlə yetirilməsi ilə iki dövlət arasında aparılan müzakirələr də təxirə düşdü. Şah Abbas hakimiyyətə gələndə bu dövlətlər arasında qeyri-müəyyən bir münasibət hökm sürməkdə idi. Taxta yenicə çıxmış Şah Abbasın öz hakimiyyətini möhkəmləndirməsi üçün dinc zamana ehtiyacı var idi. Lakin səltənət daxilində cərəyan edən gərgin çəkişmələr, habelə özbək qoşunlarının Xorasan üzərinə hücumu Səfəvi taxtının gənc şahını mürəkkəb sınaqlar qarşısında qoydu.

Şah Abbas səltənətin xarici təhlükədən müdafiəsinin möhkəmləndirilməsi məqsədilə ilkin olaraq Xorasan vilayəti üzərinə hərbi yürüş həyata keçirilməsini lazım bildi. Bu vilayətə doğru hərəkət zamanı Şah Abbas Damğanda dayanacaq etdi və orada Osmanlı dövləti ilə münasibətlərin sahmana salınması üçün uyğun qərar qəbul etdi. Onun göstərişi ilə Osmanlı sarayına elçilər göndərildi. Bu elçilər Osmanlı saray mənsubları ilə müzakirələr apararaq iki dövlət arasında sülh anlaşmasının əldə edilməsinə nail olmalı idilər. Şah Abbasın vəkili vəzifəsini icra edən Mürşüdqulu xan da bu istiqamətdə bəzi addımlar atdı. O, sülh müzakirələrinin aparılması üçün Səfəvi sarayına gəlmiş olan Osmanlı elçisi Vəli ağa Çaşnigirbaşını yanına dəvət edib bu məsələnin sürətləndirilməsi yolla-

rını onunla məsləhətləşdi. Lakin Mürşüdqulu xanın qətlə yetirilməsi onun da bu sahədəki cəhdlərini nəticəsiz qoydu (1).

Damğandan sonra Şah Abbas və onun rəhbərliyi altında olan qoşun dəstəsi öz yoluna davam etdi. Şah qoşunları Məşhədi adlayıb Herat yolunda olarkən Osmanlı qoşunlarının yenidən Səfəvi hüdudlarına hücum etməsi xəbəri alındı. Şah Abbas Herata doğru səfərini yarımçıq qoyaraq geri qayıtmaq və Osmanlı dövləti ilə münasibətləri yoluna qoymaq haqqında qərar qəbul etdi. İsgəndər bəy Münşinin fikrincə, Osmanlı sarayı Şah Abbasın və qızılbaş qoşunlarının Xorasanda olmasından yararlanaraq səltənətin yeni-yeni ərazilərini ələ keçirmək planının icrasına başladı. Bildirilir ki, Ərzrumda olan Fərhad paşa Qarabağlı ələ keçirmək üçün Səfəvi hüdudlarına hücuma başladı. Bəzi məlumatlara görə, guya Osmanlı qoşunları hətta Qəzvinə qədər hərəkət etmək niyyətində idi. Yəni Qəzvinin ələ keçirilməsi üçün də münasib biz şərait var idi və Osmanlı sarayı da bu şəraitdən yararlanmaq istəyirdi. Çünki, qızılbaş qoşunları Qəzvindən xeyli uzaqlaşmışdı və Səfəvi dövlətinin paytaxtının müdafiəsində güclü bir qüvvə yox idi (2).

Osmanlı mənbələri və bu mənbələrə əsaslanan araşdırmalarda isə əskinə, Osmanlı qoşunlarının Səfəvi hüdudlarına yeni hücumu yeni Səfəvi şahının Osmanlı sarayına qarşı tutduğu kəskin münasibətlə əlaqələndirilmişdir. Bu mənbələrdən birində deyilir: "996-cı il rəbiüləvvəl ayının axırında (1588-ci il fevral ayının axırı) qələbə çalan əsgərlər sərdarının Asitanəyə müfəssəl ərzlər və məktubları gəlib, məlun qızılbaşların Qəzvinə toplanması, şah adında olan Abbas Mirzə atası Sultan Məhəmməd Xudabəndəni tutub həbs etmək fikrində olub və pozğun qızılbaşlardan neçə min məlun baş endirib "Gedək osmanlılardan Saad Çuxurunu və Rəvan qalasını alaq. Mənə xanlığı inayət elə" – deyib. Şahdan himmət diləyib və məluna tabe olanlar birləşib qəflətən Rəvana daxil olan qalanı mühasirə etdilər" (3).

Bəzi araşdırmalarda yer almış məlumata görə isə, Şah Abbas hakimiyyətə gələndən sonra Osmanlı dövləti ilə sülh müzakirələrinə son qoydu, hətta Osmanlı dövləti ilə sülh bağlanmasına tə-

rəfdar olanları qətlə yetirdi, Osmanlı nəzarəti altında olan Təbriz şəhərinin geri qaytarılması üçün Ərdəbil ətrafında qoşun da toplamağa başladı (4).

Əslində isə, Şah Abbasın belə tezliklə Osmanlı qoşunlarına qarşı qoşun çıxarmaq planı yox idi və o, səltənət maraqları üçün böyük əhəmiyyət kəsb edən başqa məsələlərin həlli ilə məşğul idi. Şah Abbasa görə, Osmanlı qoşunlarına qarşı fəaliyyət göstərmə-yin vaxtı hələ çatmamışdı və ona görə də o, Osmanlı sarayı ilə hətta ağır şərtlərlə sülh sazişi imzalamağa hazır idi.

Səfəvi ərazilərinə yeni hücumu həyata keçirmək tapşırığı alan Fərhad paşa 1588-ci il iyul ayının 30-da Ərzrumdan hərəkətə baş-ladı (5). Başqa bir məlumata görə isə, Fərhad paşanın rəhbərliyi altında olan Osmanlı qoşunları iyul ayının 5-də hərəkətə başladı. İyul ayının 25-də isə bu qoşun dəstəsi Qarsa yetişdi və burada dü-şərgə salındı. Qərar verildi ki, qoşunlar on gün ərzində Qarsda qalsın. Bu zaman həm istirahət edilməli, həm də qoşunların təchi-zatı təkmilləşdirilməli idi. Qoşun dəstəsi Qarsda ikən Əyyub ça-vuş adlı birisi ilə Osmanlı sultanının fərmanı gətirildi və Fərhad paşaya təqdim edildi. Həmi fərmanda deyilirdi: "Gəncə və Qara-bağ tərəfinə getməyib, əmrim çatan yerdən Qəzvin üstünə gedəsən və buna görə də heç bir üzrün məqbul deyil" (6).

Osmanlı sultanının bu fərmanından göründüyü kimi, Gəncə və Qarabağ üzərinə yürüş Fərhad paşaya verilmiş ilkin tapşırıq idi. Yeni fərmanla isə Fərhad paşadan tələb olunurdu ki, birbaşa Sə-fəvi paytaxtı üzərinə yürüş etsin. Çox güman ki, Osmanlı sarayı-nın qızılbaş qoşunlarının Xorasan yürüşündə olmasından xəbəri var idi. Digər tərəfdən Şah Abbasın kifayət qədər gənc olması və dövlət idarəçilik təcrübəsizliyi Osmanlı sarayında asan uğur əldə ediləcəyinə bir ümid yaratmışdı. İki dövlət arasında sülh müzaki-rələrinin nəticəsiz qalması isə Osmanlı hücumu üçün əlverişli für-sət ortaya çıxarmışdı.

Bu fərman Fərhad paşa və onun yaxın ətrafı tərəfindən nara-hatçılıqla qarşılandı. Çünki qoşunlar tərəfindən Gəncə və Qarabağ üzərinə yürüş hazırlığı görülmüşdü. Bununla bağlı Osmanlı sulta-

nının da müvafiq fərmanı var idi. Qəzvin istiqamətinə isə yürüş planlaşdırılmamışdı. Əslində, Qəzvin üzərinə yürüş variantı nəzərdən keçirilmiş və bunun üçün lazım olan məlumatlar da toplanmışdı. Məlum olmuşdu ki, Qəzvinə qədər 52 mənzillik yol var idi və bu məsafənin 12 mənzili çöl ərazilərdən keçirdi. Həmin çöl ərazilərdə su mənbələri yox idi. Bundan əlavə qoşunlar üçün ciddi təchizat çətinlikləri ortaya çıxa bilərdi. Bu məsələ ilə bağlı Osmanlı mənbələrində Şah Təhmasibin Osmanlı qoşunlarına qarşı tətbiq etdiyi taktika da xatırlanırdı və bildirilir ki, Şah Təhmasib Qəzvini paytaxt seçəndə də onun təhlükəsiz məkanda olmasını nəzərə almışdı. Qəzvinə aparan yollar da kifayət qədər abad deyildi və bu yollarla böyük sayda qoşun hərəkət edə bilməzdi. Fərhad paşa və onun sərdarları belə hesab edirdilər ki, Qəzvin ətrafında Osmanlı qoşunları heç üç gün də davam gətirə bilməyəcəklər. Məsələdən xəbərdar olan qoşun əhli də Qəzvin üzərinə hərəkətin çətinlikləri barəsində şikayətlənməyə başladılar. Qəzvin üzərinə yürüş Osmanlı qoşunları üçün çox ağır nəticələrə gətirib çıxara biləcəyindən Fərhad paşa sultan fərmanının icra edilməsini düzgün bilmədi və özü Gəncə üzərinə hərəkəti davam etdirməyi məqsədəuyğun saydı. Öz qərarını isə Fərhad paşa belə açıqladı: "Uğurumuzdan dönməzik, istixarəmiz dürüstdür, bu zəfər rəhbər səfərdə qalib və müzəffərik. İnşallah gələcək il padşahın əmri üzrə tədarük görüb, Qəzvinə gedərik, hələ isə Gəncə vilayətində sakin olan Ziyadoğlu Məhəmməd xan üstündə on min döyüşən Qacar oymağı ki, məlum qızılbaşların yarayındadır, qələbə çalan əsgərlərlə üstünə gedək" (7).

Fərhad paşa Gəncə istiqamətində hərəkətini davam etdirməklə bərabər, Qəzvin üzərinə yürüşün çətinlikləri barəsində Osmanlı sultanına məktublar yazıldı və həmin məktublar Təkə oğlu Həsən Çavuş adlı birisi ilə Osmanlı sarayına göndərildi. Həmin məktublarda o da yazılmışdı ki, qoşunlar Osmanlı sultanının ilk fərmanının icrası üçün lazımi hazırlıqlar görüb yola çıxmışdır. Əminliklə bildirilirdi ki, bu yürüşün uğuru üçün böyük imkanlar vardır. Ona görə də Osmanlı sultanından xahiş olunurdu ki, qoşunların Qəzvin

istiqamətində deyil, Gəncə-Qarabağ istiqamətində hərəkəti üçün öz icazəsini və fərmanını versin. Qoşunlar Gürcüstana doğru hərəkətdə ikən Həsən çavuş geri qayıtdı və sultan fərmanını Fərhad paşaya çatdırdı. Bu fərmanla Osmanlı sultanı qoşunların Gəncə-Qarabağ istiqamətində hərəkətinə icazə verirdi. Həmin fərman avqust ayının 19-da Fərhad paşaya çatdı (8). Bu xəbər Osmanlı düşərgəsində böyük sevinclə qarşılandı və qoşunlar artıq sultan fərmanına uyğun olaraq öz hərəkətlərini davam etdirdilər.

Ərzrumdan başlanan yürüş zamanı Qarabağa hərəkət edən Osmanlı qoşunları Gürcüstan ərazisindən keçməli idi. Amma Gürcüstan hakimləri ilə Osmanlı dövləti arasında heç də normal münasibətlər yox idi. Ona görə bu yürüş zamanı Osmanlı qoşunları Gürcüstan qoşunlarının müqaviməti ilə qarşılaşa bilərdi. Fərhad paşa Gürcüstan hakimi Simona xəbər göndərdi, Osmanlı qoşunlarının xətərsiz Gürcüstan ərazisindən keçməsini onunla razılaşdırmağa çalışdı. Bununla bağlı Simona qiymətli hədiyyələr və faydalı əməkdaşlıq təklif olundu. Gürcüstan hakiminin bu təklifi qəbul etməkdən başqa çarəsi yox idi. Çünki onun çox böyük sayda olan Osmanlı qoşunlarının qarşısını almaq imkanı yox idi. Gürcü qoşunlarının müqavimət yolunu tutması Gürcüstana böyük fəlakətlər gətirə bilərdi. Səfəvi sarayından isə qısa zaman ərzində kömək almaq imkanı yox idi. Simona məlum idi ki, Şah Abbas və qızılbaş qoşunları Xorasandadır və yaxın günlər ərzində qızılbaş qoşunlarının Xorasandan Gürcüstana yetişməsi də mümkün deyildi. Ona görə də, Simon əməkdaşlıq təklifi ilə razılaşdı və Osmanlı qoşunlarının maneəsiz Gürcüstan ərazisindən keçməsinə yol verdi (9).

Gürcüstan qoşunları tərəfindən müqavimətlə rastlaşmayacağına əmin olan Fərhad paşa çətinlik çəkmədən Qarabağ vilayətinə doğru hərəkətini davam etdirdi. Osmanlı qoşunlarının gəlməsi barəsində artıq Qarabağ vilayətində də məlumat əldə edilmişdi. Ona görə vilayət daxilində bu hücumdan müdafiə olunmaq üçün imkanlar səfərbərliyə alınırdı. Bu vilayətin hüdudları Gürcüstan sərhədinə qədər uzanırdı və məlum olanda ki, Osmanlı qoşunlarına

müqavimət göstərmək imkanlardan xaricdir, onda yerli əhali öz ailəsini, əmlakını yığışdırıb daha təhlükəsiz ərazilərə çəkilməyə üstünlük verdi. Osmanlı mənbə məlumatına görə, vilayət hakimi Məhəmməd xan Ziyadoğlu Fərhad paşanın rəhbərliyi altında olan qoşunların yaxınlaşdığını görüncə öz rəiyyətlərinə mal-qarasını da toplayaraq dağların zirvələrində özlərinə sığınacaq tapmalarını tapşırmışdı. Bu təhlükədən sovuşmaq üçün Qarabağ əhalisinin bir hissəsi hətta öz ailəsi, mal-qarası ilə Arazın cənubuna adlamışdı. Nəticədə hətta Gəncə kimi böyük bir şəhər boşalmışdı. Fərhad xanın kəşfiyyat üçün irəli göndərdiyi adamlar gəlib ətrafda kimsənin qalmadığı, qızılbaş qoşunlarının isə görünmədiyi xəbərini gətirdi. Osmanlı qoşunlarının boşaldılmış Gəncə şəhərinə daxil olduğu bildirilir. Osmanlı mənbələrindən birində bu barədə belə yazılmışdır: "Şəvval ayının doqquzuncu günündə (1.IX.1588) Gəncə şəhərinə gəlib, əsgərlər cəmi ətraflarını əhatə etdilər. Adəm oğullarından bir nəfər də tapılmayıb boş şəhərdə dayandılar. Aparmağa qadir olmadıqları şeyləri və ərzaqları pünhan etdikləri yerlərdə əsgər xalqı əliylə qoymuş kimi tapıb dövlətləndilər. Allah haqqı, Əcəm vilayətində Gəncə kimi nazənin və gözəl yer görülməmişdir. Bağbostanları, ab-i rəvanı və şəhər yanında iki münasib körpüləri, nəzərə çarpan bütün dağları, ağac və meyvələri, gül və çiçəklərin həddindən artıq çoxluğu heç bir diyara bənzəməz. Elə bil ki, Allah, sübhanahu, ləzzətli meyvələrin növlərinin başqa vilayətlərə buradan bəxş etmişdir. Buranın suyunun dadlı ləzzətini heç yerdə tapmazsan" (10).

İsgəndər bəy Münşinin yazdığına görə isə o zaman Qarabağ hakimi olan Məhəmməd xan Ziyadoğlu Qacar vilayət idarəçiliyində təcrübəsi olmayan və zəmanənin işlərindən lazımınca baş çıxara bilməyən bir insan idi. Ona görə də, o hətta mövcud olan imkanları səfərbərliyə alaraq Osmanlı qoşunlarına qarşı müqavimət təşkil edə bilmədi. Məsələn, vilayət əmirlərindən biri olan Nəzər Sultan Qazaqlar belə bir vəziyyətdə Osmanlı hakimiyyətini qəbul etməyə üstünlük verdi. O özü ilə birlikdə mənsub olduğu eli də Səfəvi itaətindən çıxararaq Osmanlı itaəti altına gətirdi. Bu hərə-

kətinə görə, Nəzər Sultan Osmanlı paşası rütbəsinə də layiq görüldü. Vilayət daxilində məskunlaşmış olan qacar tayfası, habelə digər el və oymaqlar Osmanlı təhlükəsi qarşısında birləşə bilmədilər. Bu isə Osmanlı qoşunlarının işini daha da asanlaşdırdı. Osmanlı təhlükəsindən nicat tapmaq üçün isə Qarabağda məskunlaşmış qızılbaş tayfa, el və oymaqları Arazın cənubuna köçmək məcburiyyətində qaldılar. Yəni Fərhad paşa müqavimətlə rastlaşmadan Qarabağı nəzarət altına aldı, vilayəti tərk edib qaçan insanların aparılmamış sərvətləri isə qarət edildi (11).

Osmanlı mənbələrinin verdiyi məlumata görə, Gəncə ətrafında məskunlaşmış olan qacar, türkman, iyirmi dördlər tayfaları Məhəmməd xan Ziyadoğlu tərəfindən köçürülərək Araz kənarına cəmləşdirilmişdi. Burada 40-50 min ailənin toplaşdığı bildirilirdi. Osmanlı hücumu ərəfəsində bu ailələr daşınması mümkün olan bütün əmlakını da özləri ilə gətirib Araz kənarına yığmışdılar. Araz ətrafı ərazilər Osmanlı hücumlarından müdafiə olunmaq üçün daha etibarlı ərazilər sayılırdı. Təhlükənin yarandığı vaxt isə bu ərazilərdən Arazın cənubuna çəkilmək də mümkün idi. Məlumata görə, Məhəmməd xan Ziyadoğlunun rəhbərliyi altında 10 min nəfərlik bir qoşun toplanmışdı. İddia olunur ki, Məhəmməd xan Qarabağın hər bir evindən bir döyüşçü almaqla qoşunun sayını 100 min nəfərə çatdırmaq və bundan sonra Gəncə üzərinə hücum etməklə bu şəhəri yenidən geri qaytarmaq istəyirdi. Belə bir məlumatı alandan sonra Fərhad paşa Araz kənarına hücum etmək və orada formalaşmaqda olan təhlükəni aradan qaldırmaq qərarına gəldi. Ona görə də, Araz kənarı boyunca qızılbaş tayfalarının toplaşdığı məntəqələr üzərinə hücum təşkil edildi. Osmanlı qoşunları böyük bir qüvvə ilə hücuma keçdilər. Bu hücum çox böyük qüvvə ilə həyata keçirildiyindən Araz kənarına toplanmış qızılbaş dəstələrinin və əhalisinin müqavimət göstərmək imkanı olmadı. Hətta bölgədən qaçaraq canlarını qurtarmağa çalışan döyüşçülərə də aman verilmədi. İnsanlar arasında da xeyli itki oldu. Qızılbaşların müəyyən hissəsi yalnız Arazın cənubuna adlamaqla həyatlarını xilas edə bildilər. Saysız-hesabsız dəvələr üzərinə yüklənmiş olan

əmlak Osmanlı döyüşçülərinin əlinə keçdi. Ələ keçirilmiş mal-qaranın sayının yüz mindən çox olduğu bildirilirdi (12).

Osmanlı mənbə məlumatına görə, Gəncə şəhəri Fərhad paşanın da çox xoşuna gəldi. Bunun üçün idi ki, onun əmri ilə şəhər bağlarındakı ağacların kəsilməsinə qadağa qoyuldu. Bundan başqa şəhər daxilində olan bazarların, karvansaraların hamamların dağıdılması da dayandırıldı. Sonra da Gəncədə qala tikintisinə qərar verildi. Fərhad paşa tərəfindən Gəncə şəhərində yeni bir qala tikintisinin aparılması İsgəndər bəy Münşi tərəfindən də təsdiq olunur (13).

Osmanlı mənbə məlumatına görə, bu qalanın tikintisi qırx gün davam etdi. Bunun üçün yer şumlandı, barı və bürclər tikildi, xəndəklər qazıldı. 1588-ci il oktyabr ayının 9-da silahdarlar bölüyü sahəsində iki yüksək bürcün tamamlanması başa çatdırıldı. Sonra sipahilər sahəsindəki bürclər, yeniçərilər sahəsindəki iki darvaza və bürclər tikilib tamamlandı. Qala divarlarının və bürclərinin tikilib başa çatdırılması ayrı-ayrı hakimlərə və qoşun başçılarına tapşırılmışdı. Bu hakimlər və sərkərdələr tapşırılan işi vaxtında yerinə yetirdilər və qalanın tikintisi başa çatdırıldı. Amma bu qalanın inşasından sonra da Osmanlı qoşunlarında qızılbaş qoşun dəstələrinin hücum təhlükəsi qalmaqda idi. Alınan məlumatlara əsasən, qızılbaş dəstələri Araz çayı kənarında toplanmaqda idilər və Osmanlı sərkərdələri şübhə etmirdilər ki, həmin dəstələr fürsət yarandığı halda yeni tikilmiş qalanı da uçurub dağıdacaqlar. Ona görə Osmanlı əmirləri belə qərara gəldilər ki, Araz çayına qoşun çəkib orada toplaşmaqda olan qızılbaş dəstələrinə güclü zərbə vursunlar. Bu məqsədlə 30 min nəfərdən ibarət güclü bir Osmanlı dəstəsi təşkil edildi və bu dəstə Araz çayı kənarında təşkilatlanmaqda olan qızılbaş dəstələri üzərinə göndərildi (14).

Fərhad paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının Gəncəyə gəlməsi Təbrizdə yerləşmiş Osmanlı qoşunlarının da fəallaşmasına səbəb oldu. Bu şəhərdə olan Osmanlı qoşun dəstəsinin rəhbəri olan Cəfər paşa ətraf bölgələrin və məntəqələrin də Səfəvi nəzarətindən çıxarılması və Osmanlı nəzarəti altına salınması

üçün hücumlar təşkil etməyi qərara aldı. Cəfər paşa Ərdəbilə tərəf istiqamət götürdü və oradan da Səraba yollandı. Bu məntəqəyə çatanda Cəfər paşa anladı ki, onun bölgədə olan qızılbaş qüvvələrinə üstün gəlmək imkanı yoxdur. Ona görə də dəstəsi ilə birlikdə yenidən geri qayıtdı. Amma onun bu yürüşü nəticəsiz də qalmadı. Belə ki, Qaracadağ hakimi Şahverdi xan Osmanlı himayəsini qəbul etməyi qərar aldı. Bununla bağlı, onunla Cəfər paşa arasında bir sövdələşmə oldu və Şahverdi xan oğlunu da girov kimi Cəfər paşanın yanına göndərdi. Şahverdi xanın bu sədaqətsizliyi bir sıra qızılbaş əmirlərini Təbriz ətrafından geri çəkilməyə sövq etdi. Cəfər paşa da bundan istifadə edərək Təbriz ətrafında olan əraziləri Osmanlı nəzarəti altına gətirdi. Belə bir vaxtda Bağdad hakimi olan Cığaloğlu Sinan paşa da böyük bir qoşun dəstəsi ilə Səfəvi hüdudlarına qoşun çəkdi. Cığaloğlunun məqsədi Əlişəkər qalasını tutmaq idi. Həmədan hakimi Qorxmaz xan Şamlı vilayətin yerli hakimlərinə xəbər göndərib onlardan qoşun toplanmasını tələb etdi. Həmədan hakimləri qoşun toplayana qədər Cığaloğlu öz qoşun dəstəsi ilə Həmədan ətrafına yetişə bildi. Belə olanda Qorxmaz xan qızılbaş qoşunlarının toplanmasını gözləmədən yanındakı dəstə ilə Osmanlı qoşunlarının qarşısına çıxdı. Luristan hakimi Şahverdi xan Abbasi hər vasitə ilə Qorxmaz xanı bu savaşdan çəkindirməyə çalışdı. Amma Qorxmaz xan onun təklifini qəbul etmədi və savaşa girməyi qərara aldı. Osmanlı qoşunları qısa bir zaman ərzində Qorxmaz xanın dəstəsini mühasirəyə aldılar. Qorxmaz xan və onun dəstəsi fədakarlıqla döyüşsə də Osmanlı qoşunlarının müqavimətini sındırmaq mümkün olmadı. Tezliklə Qorxmaz xan özü də əsir alındı. Onun əsir alınmasından sonra isə qızılbaş döyüşçüləri arasında bir qarışıqlıq yarandı və onlar qaçaraq ətrafa yayıldılar. Cığaloğlu Sənan paşa isə Həmədanı adlayaraq Nəhavəndə tərəf irəlilədi. O, Nəhavənddə yeni bir qala tikmək əmri verdi. Bu qalada möhkəmlənməklə Osmanlı qoşunları həm Nəhavəndi, həm Əlişəkəri, həm də Luristanı nəzarət altında saxlaya bilərdilər (15).

Cığaloğlu Sənan paşa Nəhavənddən əlavə Səəd Vəqqasda da əlavə bir qala tikdirdi. O bu qalaların hər ikisini möhkəmləndirdi, bu qalalara silah-sursat, habelə ərzaq ehtiyatları topladı. Nəhavəndin əhalisinin çoxu şiə məzhəb olduğu üçün bu insanlar osmanlılarla bir yerdə qalmaq istəmədilər. Onlar bu qalanı tərk edib başqa məntəqələrə dağıldılar. Qorxmaz xanı isə Sənan paşa özü ilə Bağdada apardı. Sonra o, gördüyü işlər haqqında Osmanlı sultanına məktub yazdı. Osmanlı sultanı da onun etdiklərini təqdir etdi (16).

Şah Abbas Xorasan səfərindən geri döndükdən sonra Osmanlı sarayı ilə sülh anlaşmasının əldə edilməsi məsələsinin həlli ilə daha ciddi məşğul olmağa başladı. O qərara aldı ki, Osmanlı sarayına öz elçiliyini göndərsin. Bu elçiliyə rəhbərlik Ərdəbil hakimi Mehdiqulu xan Çavuşluya tapşırıldı. Şah Abbas öz elçisi vasitəsilə Osmanlı sultanına məktub da göndərdi. Onun tərəfindən Mehdiqulu xana verilən tapşırıq belə idi ki, Osmanlı sarayı ilə sülh əldə edilməsinə nail olunsun. Bunun üçün Şah Abbas Osmanlı sarayının irəli sürə biləcəyi ağır şərtləri də qəbul etməyə hazır idi. Eyni zamanda Şah Abbas qardaşı Həmzə Mirzənin oğlu Heydər Mirzəni də sülhə zamin kimi Osmanlı sarayına göndərdi. Osmanlı sultanına yazdığı məktubunda Şah Abbas açıq şəkildə sülhün əldə edilməsi üçün güzəştə getməyə hazır olduğunu bəyan etdi. Səfəvi şahı son on il ərzində Osmanlı qoşunlarının yürüşləri nəticəsində Səfəvi hüdudları daxilində insanlar böyük əziyyətlərlə qarşılaşdığını, bu əhalinin isə müsəlmanlardan ibarət olduğunu, minlərlə insanın qılınca hədəf olduğunu, böyük sayda müsəlmanın namusuna təcavüz edildiyini yazırdı. Şah Abbas qardaşı oğlunun Osmanlı sarayına göndərilməsini həm özünün sülhə sadiq olması, həm də Osmanlı sultanında Səfəvi dövlətinin sülh istəyinə şübhə qalmamasının təsdiqi kimi qələmə verirdi. Səfəvi şahı Osmanlı nəzarəti altına keçmiş Səfəvi ərazilərini Osmanlı ərazisi olaraq tanıdığını bəyan edir və xahiş edirdi ki, həcc ziyarətinə yollanan Səfəvi əhalisinin üzünə bütün qapılar açılsın. Şah Abbas hətta iki dövlət arasında sərhəd xəttinin də Osmanlı məmurlarına həvalə edilməsi ilə razılaşırdı (17).

Mehdiqulu xanla bərabər Səfəvi sarayında günlərini keçirən Osmanlı elçisi Vəli ağa Çaşinigirbaşını da geri göndərildi. Səfəvi məmurları ilə aparılan fikir mübadiləsi zamanı Vəli ağa Çaşinigirbaşı bəyan etdi ki, Sənan paşanın Nəhavəndə qədər irəliləməsindən və orada qala tikdirməsindən Osmanlı sultanının xəbəri yoxdur. Şah Abbas da bu məlumatdan istifadə etməyə çalışdı. Yəni bir halda ki, Nəhavənd Osmanlı sultanının xəbəri olmadan alınıb, demək onun geri qaytarılması da sultanın etirazına səbəb olmaya bilərdi. Ona görə də Şah Abbas istədi ki, sülh anlaşması əldə edilənə kimi Nəhavənd geri qaytarılsın ki, bu qala sülh anlaşmasında Osmanlı ərazisi kimi təsbit olunmasın. Şah Abbas tərəfindən Təhmasibqulu Sultan Ərəşli Həmədan hakimi təyin edildi və Nəhavəndin azad edilməsi ona tapşırıldı. Təhmasibqulu Sultanın rəhbərliyi altında qızılbaş dəstələri Nəhavənd qalasını mühasirəyə aldılar. Amma bu qalanı ələ keçirmək mümkün olmadı. Elə həmin günlərdə Özbək qoşunlarının Əbdülmömin xanın rəhbərliyi altında yenidən Xorasan vilayəti üzərinə hücum etməsi haqqında məlumat alındı. Bu hadisə 1589-cu ildə baş verdi. Buna görə də Şah Abbas yenidən əsas diqqəti özbək hücumunun qarşısının alınmasına istiqamətləndirməli oldu (18).

Məhəmməd xan Ziyadoğlu Qacar və onun kimi bir sıra əmirlər və əyanlar Osmanlı qoşunlarının yenidən Səfəvi hüdudlarına hücum etməsi və bütünlükdə Səfəvi ərazilərinin Omanlı nəzarəti altında qalması ilə razı deyildilər. Qarabağ hakimi kifayət qədər böyük qoşuna malik olmasa da, Osmanlı qoşunlarının Qarabağı nəzarət altına alması qarşısında fəaliyyətsiz dayanmaq fikrində də deyildi. Məhəmməd xan Qacar bilirdi ki, Gəncənin yenidən geri qaytarılması və bütünlükdə Osmanlı qoşunlarının Qarabağdan sıxışdırılması üçün yaxın vaxtlarda şah qoşunlarının köməyindən istifadə edə bilməyəcəkdir. Çünki şah qoşunları yenidən Xorasana yollanmalı olmuşdu. Ümumiyyətlə, məlum idi ki, Şah Abbas Osmanlı qoşunlarına qarşı savaşa girməyin əleyhinə idi. Onun üçün idi ki, Osmanlı qoşunlarına qarşı savaş planlaşdırılmasının vaxta ehtiyacı var idi.

İki dövlət arasında sülh danışıqları başlayanda Gəncə və Qarabağ Səfəvi nəzarəti altında idi. Məhəmməd xan Ziyadoğlu və onun ətrafında olan Qarabağ əmirləri belə bir fikrə malik idilər ki, iki dövlət arasında sülh anlaşması əldə edilənə qədər Gəncə və bütün Qarabağ Osmanlı nəzarətindən çıxarılsın və sülh anlaşması razılaşdırılanda bu ərazilər Səfəvi əraziləri kimi təsbit edilsin. Görünür, bu planın həyata keçirilməsi üçün Məhəmməd xan Ziyadoğlu böyük qüvvə toplaya bilmişdi. Çünki onun Gəncə üzərinə hücum etməsi planından xəbərdar olanda Gəncədəki Osmanlı əmirləri Təbrizin Osmanlı hakimi Cəfər paşa ilə əlaqə yaratdılar və ona Gəncə üzərinə gözlənilən hücum barəsində xəbər verdilər. Cəfər paşa da Şah Abbasın yanına öz elçisini göndərdi və Səfəvi şahına bu ismarıcını çatdırdı: "Sülh şərtlərinin hələ tam olaraq möhkəmlənmədiyi bir vaxtda, sizin əsgərlərinizdən belə yolverilməz hərəkətlərin baş verməsi yolverilməz bir əməldir, buna görə də, bu gün Ale-Osman döyüşçülərinin əllərində olan məmləkətlərə toxunulmamalıdır" (19).

Bu zaman şahın Osmanlı sarayına göndərdiyi elçilik heyəti hələ yolda idi və Şah Abbas ehtiyat edirdi ki, Məhəmməd xan Ziyadoğlunun Gəncə üzərinə hücum cəhdi elçilik heyəti yetişənə kimi iki dövlət arasındakı sülh imkanlarını da aradan qaldıra bilər. Ona görə də, Şah Abbas dərhal Məhəmməd xan Ziyadoğluna və digər Qarabağ əmirlərinə fərman göndərdi və onlara Osmanlı qoşunları ilə savaşa girməyi qadağan etdi. "O gözəl vilayət öz havasının lətafəti, otunun bolluğu, gül-çiçəyinin çoxluğu, köçərilərin (səhraneşinan) yoxluğu və yaylaq-qışlaqlarının gözəlliyi ilə məşhur olduğundan qacar tayfasına xas el və oymaqlar artıq neçə il idi ki, həmin təmiz vilayətdə məskən salaraq, orada çoxlu əmlaka və mənfəətli bağlara sahiblənmişdilər. Onlar həmin torpaqdan asanlıqla əl çəkmək istəmir, öz qədim vətənlərindən əlaqəni üzmək barədə düşünmürdülər və buna görə də şahın hökmündən narazı qaldılar, mühasirədən əl götürmədilər. Bu xəbər sülh işinin banisi və səbəbkarı olan və o vaxt Ərzrum sərhədində dayanan Fərhad paşaya çatdıqda, onun tərəfindən danışıq aparmaq üçün elçi göndə-

rildi. Əlahəzrət şahın adamları qacar elinin etibarlı adamı olan “Çolaq” adı ilə tanınan Şahverdi bəyi, Məhəmməd xan Ziyadoğlu və o tayfa ağsaqqalarının yanına yollayıb dedilər: “Sizin atalarınız öz sədaqətlərini bizim xanədana izhar etdiklərindən, bizim ata-babalarımızın ali şəfqətinə nail olmuşlar və biz Qarabağ mülkünü onlara vermişik. Hal-hazırda bizim məsləhətimiz belədir ki, mülk üstündə münaqişə etməyək. Əgər onlar bu dövlətlə əlbirdirlərsə və bizim onlardan razı qalmağımızı istəyirlərsə, dava-dalaşdan əl çəkib bizim yanımıza gəlsinlər ki, onlara Qarabağın əvəzinə başqa torpaqlar verək. Qarabağ mülkü isə, əlbəttə, heç yana gedən deyil. Əgər Allah istəsə yenidən asanlıqla ələ gələr, yox əgər Allah istəməsə, fələklə döyüşmək olmaz. Ümidvarıq ki, İlahinin razılığı ilə yaxın günlərdə haqq iş öz yerini tutacaqdır” (20).

Bu məlumatdan göründüyü kimi, Məhəmməd xan Ziyadoğlu ətrafına topladığı qoşun dəstəsi ilə Gəncə qalasını mühasirəyə ala bilmişdi. İsgəndər bəy Münşinin yazdığına görə, Şahverdi bəy Çolaq açıqladığı təklifin Qarabağ əmirləri tərəfindən qəbul olunmayacağından ehtiyat edirdi. Ona görə də o, Gəncə qalasına, Osmanlıların yanına getdi, Osmanlı əmirlərinə nə məqsədlə gəldiyini çatdırdı. O, qala daxilindən yenidən Məhəmməd xana və onun ətrafında olan əmirlərə məktub göndərdi, Şah Abbasın fərmanının onlara çatdırdı. Məhəmməd xan şahın istəyinin mahiyyətini anlayınca Gəncə qalasını mühasirədə saxlamaqdan əl çəkdi. Amma onun ətrafına toplanmış olan qoşun dəstələri Məhəmməd xanın bu qərarını narazılıqla qarşıladılar. Qazaxdan, Şəmşəddindən və Qaramandan gəlmiş qoşun dəstələri Gəncədən ayrılıb öz yurdlarına yollandılar. Qarabağda isə bir sabitlik bərqərar olmadı. Şah Abbasa sədaqətli qalan el və oymaqlar Qarabağdan köç edib Səfəvi nəzarəti altında olan ərazilərə yollandılar. Bəzi el və oymaqlar isə köç çətinliklərini öz üzərinə götürməyərək Osmanlı asılılığını qəbul etdilər (21).

Osmanlı qaynağında olan məlumata görə isə, Məhəmməd xan Ziyadoğlu və digər Qarabağ əmirləri Gəncə qalasını mühasirəyə alanda ətraf bölgələrdə və sərhəd xəttində yerləşmiş olan Osmanlı

bölmələri bundan xəbər tutdular. Həmin qüvvələr Gəncədəki Osmanlı qarnizonunun köməyinə gəldilər və onların yaxınlaşaraq arxadan vurduğu zərbə qızılbaş dəstələrini geri çəkilməyə məcbur etdi. Məhəmməd xanın bu döyüşdən çıxaraq Gürcüstan hakimlərinə sığındığı bildirilir (22).

Məhəmməd xanın Gəncə qalasının mühasirəsindən əl çəkməsindən sonra Gürcüstana yollanmasını İsgəndər bəy Münşi də təsdiq edirdi. Gürcüstan hakimləri isə onu həbs edərək Osmanlı sarayına təhvil verdi. Məhəmməd xan Osmanlı daxilində həbsdə saxlanıldı və bir də iki dövlət arasında sülh anlaşması əldə ediləndən sonra həbsdən azad edildi (23).

Qeyd edildiyi kimi, Şah Abbas tərəfindən Osmanlı sarayına elçilik heyəti göndərilmişdi. Ərdəbil hakimi Mehdiqulu xan tərəfindən rəhbərlik edilən və tərkibində Şah Abbasın qardaşı oğlu Heydər Mirzənin də olduğu bu elçilik yüz nəfərdən ibarət idi. Elçilik heyətinin tərkibinə Heydər Mirzənin lələsi Şahqulu Xəlifə, şahzadənin həkimi Təbib Əbutalib, Əliqulu Əlican Sultan, Mehdiqulu sultan və başqaları daxil idi. Bu elçilik heyəti Osmanlı hüdudlarına daxil olduqdan sonra müxtəlif vilayətlərdən və şəhərlərdən keçdilər və hər yerdə də onlar üçün qarşılanma mərasimləri təşkil edildi. Ona görə də elçilik heyəti İstanbula yetişənə qədər xeyli vaxt ötdü. 1589-cu ilin yayında yola düşən həmin heyət bir də 1590-cı ilin yanvar ayında İstanbula yetişdi. Mövcud olan məlumata görə, baş vəzirdən başqa bütün saray əyanları Səfəvi elçiliyinin qarşılanmasına çıxmışdı. Bu elçilik heyətinin keçdiyi küçələrə o qədər insan yığışmışdı ki, bu insan kütləsini yararaq irəliləmək də çətinləşmişdi (24).

Osmanlı mənbələrindən birində bu elçilik heyətinin gəlməsi belə təsvir edilirdi: “998-ci ilin səfərində (10.XII.1589- 07.0I. 1590) sədr-əzəm Sinan paşa qullarına buyurub dedi ki, “Şərq diyarından Əcəm şahının oğlu elçilər ilə Asitanaya gəlir, mindən çox qızılbaş hiyləgəri də özü ilə gətirir. Sülhün tələbi ilə gəlib barışıqlığa niyyət edirlər. Gələn elçi Mehdiqulu xana iki oda bahalı şeylərlə döşənib və Heydər Mirzəyə iki mükəlləf oda döşənib, bir

oda dayəyə, bir oda iki sultana və bir oda həkimə ayrıldı. Rəbiül-əvvəlin on ikinci günü (19.I.1590) gələn şahzadə qəbul olundu və Anadolu bəylərbəyi Mehmed paşa oğlu Həsən paşa yanaşıb qarşıladı. Gələnlərə yük-yük ağcalar xərclik verildi. Karvansaraya o gecə 1500 baş atları bağlanıb, yem və yerləri və sairə dəvə və çətirləri, yükləri və ağırlıqları ilə üç yüz otuz altı baş Üsküdarda yemləndi. Hər gün yüz baş qoyun, yüz kəllə qənd və yüz bardaq bal və mətbəxləri üçün darçın, qərənfil, zəncəfil, qara istiot, səbzə, yumurta və balıq məsrəf kitablarına verildi" (25).

Burada Səfəvi elçilik heyətinin bir min nəfər olmasından söhbət açılır. Amma bu rəqəm qeyri-real görünür. Başqa bir Osmanlı qaynağında Səfəvi elçilik heyətinin 600 nəfərdən ibarət olduğu göstərilmişdir. Səfəvi mənbələrində isə bu heyətin yüz nəfərdən ibarət olduğu bildirilmişdir. Elçilik heyətinin İstanbulda kifayət qədər istirahət etmək imkanı oldu. Yanvarın sonlarına qədər onlar Osmanlı sultanının qəbulunu gözləməli oldular. 1590-ci il fevral ayının 2-də Səfəvi elçiliyi nəhayət ki, Osmanlı sultanı tərəfindən qəbul edildi. Mehdiqulu xan Səfəvi şahı adından gətirdiyi məktubu və çoxlu sayda qiymətli hədiyyələri Osmanlı sultanına təqdim etdi. Bu hədiyyələr arasında 1500 baş at var idi. Elçilik heyəti Osmanlı sultanı tərəfindən də mehribanlıqla qarşılandı və belə münasibət heyətin İstanbulda qaldığı vaxt ərzində nümayiş etdirildi. Bundan sonra sülh müzakirələri başladı və bu müzakirələr iki aya yaxın davam etdi (26).

Osmanlı qaynaqlarında olan məlumata görə, Səfəvi elçilik heyətinin İstanbula yetişməsi 1590-cı il yanvar ayının 14-nə təsadüf edirdi. Bu heyətin qarşılanmasına sultan sarayını böyük vəzirləri, saray əyanları və əmirləri çıxmışdlar. Onlar hamısı bayram libası geyinmişdilər. Qaynaqda olan məlumata görə, o vaxta qədər heç bir sərdar bu dərəcədə xüsusi diqqətə layiq görülməmişdi. Bu xüsusi diqqət və qayğının Heydər Mirzənin gəlişi ilə bağlı olduğu bildirilirdi. Yanvar ayının 18-də elçilik heyəti Fənərbaxça yaxınlığındakı Üsküdara gəldi. Burada da bu heyəti böyük əyanlar, saray mənsubları, üzəngiağası, bölükağası, çavuşbaşı, cəbəçibaşı və di-

gər vəzifə sahibləri qarşıladılar. Bu vəzifə adamları, habelə yeniçərilər, qapıqulu heyəti rəsmi geyimdə qonaqların qarşısına çıxmışdılar. Qarşılanma mərasiminə çıxanların göz oxşayan geyimləri və təchizatı qonaqlarda həm də sultan səltənətinin əzəməti haqqında təəssürat yaratmalı idi. Qonaqların qarşılanma mərasiminə çoxlu sayda insan da toplaşmışdı. Qaynaq məlumatına görə. Bu izdiham sanki məhşər günün xatırladırdı. Küçələri doldurmuş olan insan kütlələri elçilik heyətinin irəliləməsinə də çətinlik yaradırdı. Təntənəli qarşılanma mərasimi zəngin bir ziyafətlə davam etdirildi. Elə həmin gün də elçilik heyətinin rəhbəri Mehdiqulu xan sədr-əzəm Sinan paşa tərəfindən qəbul edildi. Bu görüşdə elçilik heyətinin üzvlərinə sədr-əzəm tərəfindən qiymətli hədiyyələr bağışlandı (27).

1590-cı il yanvar ayının 28-də isə Osmanlı sultanı Səfəvi elçilik heyətini qəbul etdi. Bunun üçün də saray daxilində xüsusi hazırlıqlar görüldü. Bu protokol hazırlıqları başa çatdıqdan sonra sağ ulufəçi başı və çavuşbaşı at belində elçilik heyətinin yerləşdiyi iqamətgaha yollandılar. Elçilik heyətinin sultan sarayına doğru hərəkəti də müəyyən edilmiş protokol üzrə baş verdi. Bu heyət üzvlərinin hər birinin sırada öz yeri var idi və onlar rəsmi müşayiət altında sultan sarayına tərəf hərəkət etdilər. Sultan sarayında da elçilik heyətinin yüksək səviyyədə qarşılanma mərasimi keçirildi. Bildirilir ki, bu zaman xəzinənin qapısı açıldı və qonaqların və toplaşanların başlarına o qədər pullar səpələndi ki, çoxları öz ciblərini bu pulla doldura bildilər. Saray vəzirləri və əyanları elçilik heyətini salamlaşdıqdan sonra hər biri öz yerini tutdu. Mehdiqulu xan və şahzadə Heydər Mirzə saray vəzirləri ilə üzbəüz sırada əyləşdilər. Saray protokoluna əsasən, əvvəlcə heyət üzvlərinə qiymətli hədiyyələr bağışlandı. Sonra Mehdiqulu xan Şah Abbasın məktubunu sərd-əzəmə təqdim etdi. O isə həmin məktubu sultanın taxtının kənarına qoydu və bildirdi ki, Mehdiqulu xan şifahi şəkildə də öz sözlərini səsləndirə bilər. Mehdiqulu xan da Şah Abbas adından gəlişinin məqsədini sultana çatdırdı. Onun sözlərinə görə, Şah Abbas Osmanlı nəzarəti altında olan ərazilərin və hətta

lazım gələrsə digər ərazilərin də Osmanlı hüdudlarına qatılmasına razıdır. Mehdiqulu xanın sözlərinə görə, belə olduğu təqdirdə Şah Abbas hakimiyyətdən əl çəkməyə və əcdadları kimi həyatını ibadətlə keçirməyə hazırdır (28).

Bir məlumata görə isə Osmanlı sultanı ilə görüşündə Mehdiqulu xan Şah Abbasın məktubunu təqdim etdi və ardınca əlavə etdi: "Şah Abbas müxlisləri rica edirlər ki, qüvvəti-qahirəyi-xosrovanələri ilə bu anadək zəbt və qəhz etdikləri mülki məvrusumuz ki, daxili darül xilafət-kübra olmuşdur, haqq-sübhanehü və təala həzrəti mübarək eyləyə". Cavabında isə bu sözləri eşitdi: Osmanlıların "atları ayağı basdığı yerlərdən əsla bir vəchilə fərağət etmək qaydamız deyildir" (29).

Bu fikirlər iki dövlət arasında aparılan sülh müzakirələrinin ümumi məzmunu təşkil etdi. Osmanlı sarayı bildirdi ki, bu dövlətin qoşunlarının nəzarəti altında olan ərazilər Osmanlı əraziləri hesab edilməlidir. Şah sarayı da bəyan etdi ki, Osmanlı qoşunlarının nəzarəti altında olan ərazilərin güzəştə gedilməsinə razıdır. Osmanlı mənbələrində Şah Abbas tərəfindən Osmanlı sultanına göndərilən qiymətli hədiyyələrin siyahısı da verilmişdir. Siyahıda olan hədiyyələrin adları belədir: üç cüzv müqəddəs Quran. Onların biri kiçik ölçüdə idi və hər üçü də qiymətli daşlarla bəzədilmiş cildə malik idi; Firdövsinin "Şahnamə" əsəri; Nizami Gəncəvinin cildi qiymətli daşlarla bəzədilmiş və miniatürlərlə zinətləndirilmiş "Xəmsə"si; Xaqanının əsərlərinin toplusu; qiymətli daşlarla və miniatürlərlə bəzədilmiş "Yusif və Züleyxa" əsəri; Hafizin divanı; "Məxzənül-əsrar" (Sirlər xəzinəsi) əsəri; Hatifinin "Həft mənzər" poeması; Xəyyamın rübailəri; "Cəmşid və Xurşid" əsəri; Əhlinin əsərləri toplusu; "Kitabi Xülasüt üləhyar" əsəri; Şeyx Sədinin divanı; "Kitabi-mürəqqəs" əsəri; qızılla süslənmiş süfrə; xaqan çalması; qızıl ilə işlənmiş doqquz dəst əba; dörd ədəd xalça. Bu xalçaların hamısı qızıl ilə işlənmişdi; bir top ipək; iki top yeddi rəngdə olan məxmər; dörd top qızılı-lacivərdi rəngli sap; qızılı-lacivərdi rənglə işlənmiş ipək parçası; ipək kəndirləri və atlas

astarı olan çadır; zəhərlənməyə qarşı istifadə olunan padzəhr daşları; möhürlənmiş kisədə mumiya (30).

Tərəflər arasında müzakirələrin nəticəsi kimi 1590-cı il mart ayının 21-də İstanbulda iki dövlət arasında sülh anlaşması imzalandı. Bu anlaşma tarixdə I İstanbul anlaşması kimi tanınmışdır. Həmin tarixdə sultanın müəllimi Xoca Sadəddin əfəndi tərəfindən Osmanlı sultanı III Muradın adından Şah Abbasın adına sultan məktubu yazıldı və həmin məktubda anlaşmanın şərtləri də öz əksini tapdı (31).

Məktubun bir yerində Osmanlı sarayı ikitərəfli münasibətlərin korlanmasının səbəbini Səfəvi şahlarında görür və bu belə açıqlanırdı: "dörd yüz ilə qəribdir ki, imdadi-ilahi ilə Osmanlılar düşmənlərə qalibdir. Atalarımız Tanrının lütfünə mail olduqlarından hamısı qazidirlər. Xilafət sırası mənə gəlmiş və kafir üzərinə savaşa niyyət etmişkən, əmminiz Şah İsmayıl taxta keçincə kötülərə uyaraq barışı pozdu, xalqın vəbalını üzərinə aldı və çox yaşamadı. Babanız Xudabəndə Əcəm taxtına keçincə yenidən dostluq yollarını aradı. Lakin əsakiri müxtəlifə və əşayiri qeyri-mütəlifəsi anlaşma vasitələrini pozub qaldırdılar və aykırılıq göstərdilər. Babanız da bunlara əngəl olmaya qüdrəti və zəbti-rəbtlərinə cürəti olmadığı cəhətdən izhari-təmərrüd edən oymaqlara uymaq lazım gəlib, oturduqları yerlər ölkəmizə qatıldığndan fəth edilən yurdlarını savaşla geri almaq qüdrətləri yox ikən və çəkilib gedərək iraqdan baxarkən, siz taxta keçdiniz və sülh yapısını qurmağa niyyətləndiniz. Və əmmi-pedərinizdən sudur edən əhvala hüsnü-itizar üçün pək gözəl bir məktub ilə Heydər Mirzə tərbiyəyi-müstəhsənəmiz ilə sərbülənd olmaq üçün göndərilib, ədayi-rəsmi-risalət üçün adları anılan dörd kişini göndərdiniz. Məktubunuzda cümləyi-ənama cəlbi-rahat və cəzbi rifahiyyət səbəbilə müsalimət sualı idi. Cavabı hüsnü-qəbul olundu, şol şərtlə ki, denilip maddələri sayılır" (32).

Əldə edilmiş razılaşmanın əsas məzmunu aşağıdakı maddələrdə öz əksini tapmışdı:

"1.Əshabi-güzin və eimmyi müctəlifin ilə möminlər anası siddiqeyi-kübra həzrət Aişə haqlarında şetmü-iəən və kəzfü-təən

olunmayıb, dədəniz Şah Təhmasib 1555 Amasiya barışında təqəbbül və təəhhüd etdiyi üzrə, təbərra rəsmi (törənlə həzrət Əbu Bəkr, Ömər və Osmanı söymə) məslub və təbərrailərin açıqca söymələrinin önünə keçilib ağızlarının tutaraq heç kimsəyə təklifi nifrin və anda bulanan əhli-sünnət və camaatla səbbi qəbih təlqin olunmaya;

2. Hicri 998, Novruzi firuzi (21 mart 1590) tarixinədək Osmanlı dövlətinin təsərrüfünə keçən və əhalisi intiyad və itaət edib qızılbaş əlindən alınaraq məmaliki-məhrusəmizdə olan hüdud, ərzən və tulən hər məhəllə ki, Osmanlı igidləri əl qoymuşlar, adları anılan beş kişilik elçinin ittifaqla uyaraq möhürlədikləri vəsiqə vəqfincə gərək Təbriz və Qaracadağ və nəvahisi və gərək Gəncə və Qarabağ və həvalisi və gərək Şirvan və ləvahiki və gərək Gürcüstan və mürafiqi və gərək Nəhavənd və mülhəqatı və gərək Luristan və müzafaatı osmanlıların təsərrülərində baqi və sair ədalət sərmayəmiz olan əmakin dəxi təsəddi və təəddidən amani-vafi üzərə ola. Qısacası, çəri gücü ilə və ya əhalisi inqiyad edərək zəbt olunub qızılbaşlardan alınan məvazii-qəribə və bəidəyə bir canibdən əl uzatma, saldırma, yəğma və zabitəyi-sülhü-səlah təqafül müamiləsiylə təamül olunmaya;

3. Barışı yapılmasından sonra baş qaldırmaq, ayaqlanma və düşmənlik üzündən qaçaraq iltica edənlərə sığınaq və qurtuluş yeri verilməyə və xabəsət ilə həris olanlara siyanət olunmaya;

4. Bu üslübi-məslubin nəqz üzrə sınırları kəsmək üçün osmanlılar tərəfindən Rəvan bəylərbəyi Xızır paşa və dərgahi-ali mütəfərriqlərindən Hüseyn təyin olunub” (33).

Xızır paşa ilə Hüseyn Osmanlı sarayı tərəfindən iki dövlət arasında sərhəd xəttinin müəyyənləşdirəcək nümayndə kimi təyin edilirdilər. Səfəvi sarayı tərəfindən isə bu işin həyata keçirilməsinə Həsən ağa Çavuşlu ilə Bəstam ağa Türkman təyin edildilər. Sərhəd xəttinin müəyyənləşdirilməsi iki ildən sonra həyata keçirildi (34).

Yuxarıdakı şərtlərdən belə bir qənaətə gəlmək mümkündür ki, tərəflər arasında ciddi muzakirələr olmuş və bu müzakirələr za-

manı yalnız ərazi məsələləri diqqət mərkəzində olmamışdır. Osmanlı sarayı malik olduğu hərbi-siyasi üstünlükdən istifadə etməklə məzhəb məsələsini də müzakirəyə çıxara bilmiş və islam xəlifələrinə və islam peyğəmbərinin həyat yoldaşına qarşı Səfəvi daxilində hörmətsiz münasibətə son qoyulmasını sülh anlaşmasına daxil etmişdi. Çox güman ki, Səfəvi elçiliyi məcburiyyət qarşısında qalaraq belə bir şərtin sülh anlaşmasına daxil edilməsinə razı olmuşdu. Çünki Səfəvi hüdudları daxilində bu şərtə bütünlüklə riayət ediləcəyi reallıqdan kənar olardı. Sülh anlaşmasının əsas şərti kimi, Səfəvi sarayı Təbriz və Qaracadağın, Gəncə və Qarabağın, Şirvanın, Gürcüstanın, Nəhavəndin və Luristanın Osmanlı nəzarəti altına keçməsini tələb edirdi. Bununla, Səfəvi sarayı Cənubi Qafqazı, Arazdan cənubda olan Azərbaycan torpaqlarının az qala yarısını itirmiş olurdu. Eyni zamanda qarşılıqlı şəkildə razılaşdırılmışdı ki, yerli hakimiyyətə qarşı itaətsizlik edib qiyam qaldıranlar qarşı tərəfdən qəbul edilməyəcək və onlara sığınacaq verilməyəcəkdir.

Qəbul edilmiş sülh anlaşmasında habelə əsirlərin qarşılıqlı şəkildə mübadilə edilməsi və sülhün pozulmayacağına zəmanət kimi Heydər Mirzənin Osmanlı sarayında qalması məsələsi də təsbit olunmuşdu (35).

Sülh anlaşması razılaşdırılandan sonra Osmanlı sultanının icazəsi ilə Mehdiqulu xan və Səfəvi elçiliyi İstanbulu tərk etdi. Bu heyət 1591-ci il fevral ayının sonunda Qəzvinə yetişdi. Mehdiqulu xan Qəzvinə yetişəndən üç gün sonra Şah Abbas tərəfindən qəbul edildi və İstanbul sülh anlaşmasını özündə əks etdirən məktub ona təqdim olundu. Mehdiqulu xan ona verilən tapşırığı icra edərək geri qayıtmışdı. Onun iştirakı ilə razılaşdırılan sülh anlaşmasına görə, səltənətin böyük əraziləri Osmanlı nəzarəti altına keçirdi. Bu məsələ Şah Abbasın təkidi ilə qəbul olunmuş bir məsələ idi. Amma Mehdiqulu xanın Qəzvinə qayıtmasından 40 gün sonra Şah Abbas onun qətlinə fərman verdi. Bu qətlin səbəbi ilə bağlı tarixi araşdırmalarda müəyyən fikirlər irəli sürülməkdədir. Güman edilir ki, Mehdiqulu xan İstanbulda olarkən Osmanlı sultanının iltifatına

və ehtiramına layiq görülmüşdü və Şah Abbas da onun Osmanlı sarayının iltifatına layiq görüldüyü üçün qətlinə fərman vermişdi. Bu məqam dövrə aid olan bəzi mənbələrdə də öz əksini tapmışdır. O da güman olunur ki, Mehdiqulu xanı gözü götürməyən bəzi əmirlər və əyanlar onun haqqında Şah Abbasa xoşagəlməz xəbərlər çatdırmaqla məşğul olmuşdular. Bir tərəfdən Mehdiqulu xanın Osmanlı sarayının ehtiramını qazanması, digər tərəfdən Şah Abbasın Mehdiqulu xanın mənsub olduğu çavuşlu tayfasına qarşı bədgüman olması sonra qətl fərmanının verilməsinə gətirib çıxarmışdı (36).

Bu anlaşmanın əldə edilməsi Şah Abbas üçün strateji bir məqsəd idi və Osmanlı dövlətinə qarşı savaş başlamaq gücünü özündə toplayana qədər bu anlaşmanın qüvvədə qalmasını lazım bildi. Bu sülh anlaşması əldə ediləndə Şah Abbasın cəmi iyirmi yaşı var idi və Səfəvi taxt-tacına da yenicə çıxmışdı. Bununla belə, Şah Abbas Osmanlı dövləti ilə yeni münasibətlərin qurulmasında müdriklik nümayiş etdirdi, öz strategiyasını dəqiqliklə müəyyənləşdirə bildi, səltənət maraqlarına cavab verən doğru bir siyasətin başlanğıcını qoydu. Qüdrətli bir dövlətin qurulması və Səfəvi ərazilərinin yenidən geri qaytarılması üçün Şah Abbasa vaxt lazım idi. Ona yaxın əcdadlarından ağır bir miras qalmışdı. Səfəvi dövlətinin əzəmətini yenidən özünə qaytarmadan Osmanlı dövləti kimi qüdrətli bir dövlətlə qarşı-qarşıya gəlmək Şah Abbasın gücündə deyildi. Tarixin gedişi də göstərdi ki, Şah Abbasın seçdiyi strategiya səltənət maraqlarına cavab verirdi və o, son nəhayətdə öz istəklərinə nail ola bildi. Şah Abbas əldən gedən ərazilərin geri qaytarılmasını heç zaman yaddan çıxarmamışdı. Bununla belə, o özünü sülh anlaşmasına sədaqətli olduğunu da ortaya qoydu. Sülh anlaşmasının qüvvədə qaldığı dövr ərzində Şah Abbas Osmanlı sarayı ilə xoş münasibətləri qoruyub saxladı və heç bir əməli ilə bu anlaşmaya qarşı olduğunu göstərmədi.

Belə bir anlaşma əslində, Osmanlı dövlətinə də sərf edirdi. Çünki Osmanlı dövləti artıq kifayət qədər əraziləri nəzarət altına ala bilmişdi. Bu ərazilərin genişləndirilməsi və ya həmin ərazilər-

də qızılbaş qoşunlarına müqavimət göstərilməsi Osmanlı sarayından çox böyük xərclər tələb edirdi. Sülh anlaşmasının qüvvədə qaldığı zaman isə Osmanlı dövləti öz diqqətini başqa mühüm məsələlərin həllinə yönəldə bilərdi. Qeyd edilməlidir ki, Osmanlı sarayı sülh anlaşmasına riayət edilməsində maraqlı idi və hətta yaxın münasibətlər qurulduğu özbək hakimlərinə də İstanbul anlaşması ruhunda hərəkət etmələri tövsiyə olunurdu. Bu məsələ ilə bağlı Fərhad paşa Mavərənnəhr hakimi Abdulla xana göndərdiyi məktubda yazırdı: "Xani-müəzzəm və xani-əzəm Abdulla xan. Elçiniz Hafiz Xətayinin gətirdiyi məktubunuzu padşah aldı. Öncələri padşaha göndərdiyi məktuba görə, əhli-fəsad və zümreyi-rəfzi-ilhadın kökünü kəsməyə qoyuldunuz. Herat şəhəri ilə vilayəti-Bəstam və Damğan nam qəsəbələr dəxi fəth olunub, ta Qəzvinə nüfuzları müqərrər olduğunu bildirdi. Bəridən isə İrandan çox yerlər alınıb yağmalandı. Fəqət Şah Abbas aqibət əndişəlik edib izhari-übudiyyətlə qardaşı oğlu Heydər Mirzəni İstanbula göndərdi. Rəaya və bəraya rahəti üçün əhdi-aman verilmişdir. Madam ki, ol canib caddeyi-itaətdən üduli-inhiraf göstərməyə, səadətli padşahi-cahanpənah həzrətləri canibindən dəxi şəraiti-əhdi-amana riayət olunur. Və canibi səadətməabınız dəxi bir naşayəstə vəzi-hərəkət zahir olmayıb, qüvvəti-qahirə və savləti-bahirə ilə fəth etdiyiniz vilayətlər kəmakan əlinizdə duraq üzrə cənabi-səadət-nisabınızdan sayir yerlərinə təcavüz olunmayıb qənaət oluna. Əgər alınan vilayətlərin geri dəxli-təcavüz edib üzərlərinə əsgər göndərirsə səadətli padşahi-rübi-məskun və münaqid olan müvalat və müsafətiniz səddi-sədidi-İsgəndər kimi sabit və üstüvar olduğu, məhəlli-iştibah deyildir. Sizə müxalifət edən bu canibə dəxi ədəmi-itaət etmiş olur" (37).

Yəni özbək hakiminə də tövsiyə olunurdu ki, ələ keçirilən ərazilərlə kifayətlənsin və yeni Səfəvi ərazilərinin işğal edilməsinə meyl etməsin. Amma özbək hakimləri bu tövsiyəni qəbul etmədilər və bəllidir ki, özbək hakimləri davamlı olaraq Səfəvi ərazilərini təcavüzə məruz qoydular.

Qeyd edilməlidir ki, Mehdiqulu xanın Qəzvinə qayıtmasından az sonra qətlə yetirilməsi İstanbul sülh müqaviləsinin şərtlərinin icrasını da bir müddət ləngitdi. Lakin tezliklə iki dövlət arasında sərhəd xəttinin dəqiqləşdirilməsinə başlandı. Çünki bu məsələ konkret zamanda hər iki tərəfin marağında idi və bunun nəticəsi idi ki, sərhəd xəttinin dəqiqləşdirilməsi işinə rəhbərlik etməli olan nümayəndələr Təbriz yaxınlığındakı Eşqəmbər yaylağında görüşdülər və sərhəd xəttinin müəyyənləşdirilməsi üzrə əməli işlərə başlandı. Təbriz və ona aid olan məntəqələr Səfəvi dövlətinin qərb sərhədlərini təşkil edirdi. Konkret olaraq bu bölgədə Marağa vilayətinin sərhədindən başlayaraq Araz çayından cənubda yerləşən Dəlikdaş Dərbəndinə qədər uzanan xətt Təbriz vilayətinin sərhəd xətti kimi qəbul olundu. İkitərəfli razılaşmaya əsasən dövlətlər arasındakı sərhəd xətti belə müəyyənləşdirildi: Təbriz vilayətinin sərhədi Marağanın şimalındakı Surluq, Qıltapan yaylaqları, Köhnə Ucan, Ucan çayı, Acısu, İlıqlı və Çabukdurma dağları, Eşqənbər yaylağı, İlkanə gədiyi, Ağdaş və Sütən çayları boyunca Dəlikdaş Dərbəndindən Araz çayına qədər uzanan xətt üzrə davam edirdi. Dəlikdaş Dərbəndindən Araz və Kür çayları boyunca Xəzər dənizinə qədər uzanan xətt isə Osmanlı dövlətinin nəzarəti altında qalmış İrəvan, Gəncə və Şirvanın cənub sərhədini təşkil etməli idi (38).

Sərhəd xəttinin müəyyənləşdirilməsi zamanı Nəhavənd qalasının kimin nəzarəti altında olması məsələsi müəyyən müzakirələrə səbəb oldu. Bu qala Səfəvi hüdudlar daxilində idi və şah sarayı onun Səfəvi nəzarəti altında qalmasını istəyirdi. İstanbul anlaşmasının şərtlərinə görə isə bu qala Osmanlı nəzarəti altına verilməli idi. Nəhavəndin Səfəvi hüdudları daxilində qalmasını razılaşdırmaq üçün Şah Abbas Osmanlı sarayına xüsusi elçilik heyəti göndərdi. Bu elçilik heyətinə rəhbərlik qorçu Qara Əhmədə həvalə olundu. Qara Əhməd sultan özü ilə Osmanlı sultanına Şah Abbasın məktubunu da apardı. Şah Abbasın Nəhavənd qalasının geri qaytarılmasından əlavə, Osmanlı sarayında yaşamalı olan Heydər Mirzənin ləlesinin də dəyişdirilməsi haqqında sultan qarşısında

məsələ qaldırdı. Osmanlı sultanın 1591-ci il sentyabr ayının 9-da Qara Əhməd sultanı qəbul etdi. Bu zaman əldə edilmiş olan İstanbul sülh anlaşmasının əhəmiyyəti qeyd edilsə də, Sultan III Murad irəli sürülən təklifi qəbul etmədi. O cümlədən, Heydər Mirzənin lələsinin dəyişdirilməsi xahişi də qəbul olunmadı. Bir məlumata görə isə, Osmanlı vəzirləri Qara Əhmədə tövsiyə etdilər ki, sultanla görüşəndə Nəhəvand məsələsini heç səsləndirməsin (39).

İstanbul müqaviləsinin əldə edildiyi zaman Gilanda Şah Abbas hakimiyyətinə qarşı Xan Əhməd xanın rəhbərliyi altında itaətsizlik geniş vüsət almışdı. Xan Əhməd xan şah ailəsi ilə nikah qohumluğuna baxmayaraq müstəqilləşmək üçün müxalifətçilik yolunu tutmuşdu və qarşısına qoyduğu niyyətə nail olmaq üçün o, Osmanlı sultanından yardım almağa ümid edirdi. Xan Əhməd xan özünün Osmanlı sarayına sədaqətli olacağını bildirməklə, hətta Gilanın bir hissəsinin də Osmanlı dövlətinə bağışlanmasını vəd edirdi. Osmanlı sarayı da bu məsələdə Xan Əhməd xana kömək göstərilməsini və onun Səfəvi hakimiyyətindən qopmasını mümkün sayırdı. Osmanlı sarayı ilə Xan Əhməd xan arasında formalaşmaqda olan münasibətlər Səfəvi maraqlarına heç də cavab vermirdi. Bu isə şah sarayı ilə sultan sarayı arasında münasibətlərin gərginləşməsinə yol açdı. Səfəvi sarayı bu zaman Osmanlı sarayına çatdırırdı ki, Gilan şah hakimiyyəti altında olan ərazilərə daxildir və Osmanlı sarayınınbu vilayətin müstəqilləşməsinə kömək göstərməsi İstanbul sülh anlaşmasının şərtlərinə ziddir. Osmanlı dövlətinin Xan Əhməd xana kömək göstərməsinin və bununla da Səfəvi ərazilərinin yadlaşmasının qarşısının alınması üçün 1592-ci ilin əvvəlində Şah Abbas tərəfindən Osmanlı sarayına elçilik heyəti göndərildi. Həmin elçilik heyətinə saray eşikağası Seyid bəy Şıxavənd rəhbərlik edirdi. Bu heyət özü ilə həm Şah Abbasın qiymətli hədiyyələrini, həm də onun sultana ünvanladığı məktubu aparırdı (40).

Sultan sarayı Xan Əhməd xana faydalı kömək göstərmək niyyətində olsa da, Şah Abbasın qətiyyətli fəaliyyəti nəticəsində bunun qarşısını almaq mümkün oldu. Məlumdur ki, Şah Abbas Gi-

landa baş qaldıran itaətsizlik hərəkatının qarşısının alınması üçün yalnız diplomatik fəallıqlardan istifadə etmədi. O, həm də Gilana qoşun dəstəsi göndərdi və orada Xan Əhməd qiyamına son qoydu (bu barədə III fəsildə geniş danışılmışdır). Xan Əhməd Osmanlı sarayına sığınaraq yenidən Gilana qayıtmaq cəhdləri göstərsə də, Şah Abbas buna imkan vermədi. 1595-ci ildə dünyasını dəyişən Sultan III Muradın hakimiyyəti illərində İstanbul anlaşmasının qüvvədə qalmasını qoruyub saxlamaq mümkün oldu. Şah Abbas da buna çalışırdı və bəllidir ki, Sultan III Muradın hakimiyyəti illərində Şah Abbas itirilmiş ərazilərin geri qaytarılması üçün yetərli gücə və qüvvəyə malik deyildi. Ona görə də Şah Abbas bu anlaşmanın qüvvədə qalmasını istəyirdi və bu anlaşmanın pozulmaması üçün hətta Osmanlı sultanı ilə xoş münasibətlər qurulmasına da çalışırdı.

Osmanlı sarayı ilə xoş münasibətlər Sultan III Məhəmmədin hakimiyyətə gəlməsindən sonra da davam etdi. Sultan III Məhəmməd 1595-ci ilin ortalarında özünün Osmanlı taxtına çıxmasını rəsmi şəkildə bəyan etmək üçün Səfəvi sarayına elçilik heyəti göndərdi. Həmin elçilik 1595-ci oktyabr-noyabr aylarında Şah Abbasın hüzuruna yetiş bildi. O zaman Şah Abbas Kaşanda idi və Osmanlı elçiliyini də burada olarkən qəbul etdi. Osmanlı elçiləri Sultan III Məhəmmədin məktubunu və qiymətli hədiyyələrini Şah Abbasa təqdim etdilər. Belə bir heyətin gəlməsini Şah Abbas razılıqla qarşıladı və Osmanlı dövləti ilə xoş münasibətlərin qorunmasına maraqlı olmasının təsdiqi kimi öz elçiliyini Osmanlı sarayına göndərdi. Həmin elçilik heyətinə Zülfüqar xan Qaramanlı rəhbərlik edirdi. Bu elçilik heyəti Sultan III Muradın dünyasını dəyişməsi ilə bağlı baş sağlığını və yeni sultanın taxta çıxması ilə bağlı təbriklərini Sultan III Məhəmmədə çatdırmalı idi. Zülfüqar xanın rəhbərliyi altında olan elçilik heyətinin İstanbula doğru hərəkətə başlaması 1596-cı may ayının sonlarına təsadüf edirdi (41).

İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas bu elçilik heyətini bir qədər əvvəl göndərmək istəyirdi və Lahican hakimi həmin elçilik heyətinin rəhbəri təyin edilmişdi. Hətta Osmanlı sul-

tanına Şah Abbasın məktubu və qiymətli hədiyyələri də hazırlanmışdı. Lakin Şah Abbas Xorasana hərbi yürüş etməli olduğundan bu elçilik heyətinin səfəri təxirə salındı. Şah Abbas həmin yürüşdən geri qayıtdıqdan sonra isə Osmanlı sarayına daha böyük bir elçili heyətinin göndərilməsi və Ərdəbil hakimi Zülfüqar xanın bu elçiliyə rəhbər təyin edilməsi haqqında qərar qəbul etdi. İsgəndər bəy Münşi onu da yazırdı ki, Zülfüqar xanın elçi kimi təyin edilməsi onun qardaşı Fərhad xanın təklifindən sonra qəbul edilmişdi. Elçilik göndərilməsi məsələsi ortaya çıxanda Fərhad xan bildirdi ki, Şah Təhmasibin hakimiyyəti dövründə Osmanlı dövlətinə elçi bu dövlətlə sərhəd xəttinin hakimləri arasından seçilirdi. İstanbul anlaşmasına görə, Ərdəbil də iki dövlətin sərhəd bölgəsində yerləşən bir vilayət idi və bu vilayətin hakimi kimi Zülfüqar xanın İstanbula göndərilməsi məqsədəuyğun sayıldı. Şah Abbas da bu təklifi qəbul etdi (42).

Zülfüqar xanın rəhbərlik etdiyi elçilik heyəti 300 nəfərdən ibarət idi. Bəzi araşdırmalarda heyətin tərkibində bu sayda vəzifəli adamlardan başqa daha 700 nəfər xidmətçi də var idi (43). Osmanlı mənbələrində də elçilik heyətinin ümumi sayının bir min nəfərdən artıq olduğu göstərilmişdir (44).

Səfəvi elçiliyi bu dəfə də İstanbulda çox böyük təntənə ilə qarşılandı. Amma bu elçilik İstanbula yetişəndə Sultan III Məhəmməd Avropa səfərində idi. İsgəndər bəy Münşinin yazdığına görə, Sultan III Muradın hakimiyyəti illərində fəth edilmiş Avropa ərazilərinin geri qaytarılması üçün Avropa dövlətləri çox böyük sayda qoşun təşkil etmişdilər (45). Görünür, Osmanlı taxtına yeni sultanın keçməsi Avropa hakimlərində itirdikləri ərazinin asanlıqla geri qaytara biləcəkləri gümanını yaratmışdı. Sultan III Murad da atasından qalmış fəthlərin itirilməsi ilə razı olmadığını nümayiş etdirmək üçün Avropaya qoşun çəkmişdi. Zülfüqar xan bir müddət İstanbulda gözlədikdən sonra elçilik heyətinin üzvlərindən olan Haqverdi bəyi məktubla Osmanlı sultanını yanına göndərdi. Bu məktubla Zülfüqar xan Osmanlı sultanına ərz elədi ki, Şah Abbasın məktubu və hədiyyələri ilə İstanbula gəlmişdir. Zülfüqar xan

bilmək istəyirdi ki, Osmanlı sultanının gəlişini gözləsin, yoxsa geri dönsün. Mənbələrdə olan məlumata görə, Haqverdi bəy Avropa cəbhəsinə yetişib Osmanlı sultanının hüzurunda oldu və onun istəyi ilə burada Avropa qoşunlarına qarşı döyüşlərdə də iştirak etdi (46).

İsgəndər bəy Münşi Osmanlı sultanının Avropaya hərbi yürüşünü belə təsvir edirdi: "onunla (Sultan Məhəmməd xanla – red.) Avropa sultanları arasında qarşılaşma oldu. Əvvəlcə, rumilər məğlub edildilər. Firənglər əzəmətli orduya qarşı dəstə-dəstə hücuma keçib qarətkarlıqla məşğul olurdular. İsa Peyğəmbər əleyhüssalam millətinin başçısı (xəlifə) və Avropa padşahlarının itaət etdikləri (mota) şəxs olan Roma (Rim) papasının adamları ilə macar padşahı arasında xandgarın xəzinəsi üstündə savaş başladı, çünki onların hər biri özünü həmin xəzinənin sahibi hesab edir, onu öz haqqı bilirdi. Bu vaxt İlahinin inayət nəsimi islam qoşunu üzərində əsməyə başladı, kafirlərin küfr və zülm bayraqları yerə endi. Rum ordusunun süvari üzvləri hücuma keçib, dəyənək və çomaqlarla o qəddarları (ərbabe-şeqaq) qovub qələbə çaldılar, o qarabəxtlərin çoxu o biri dünyaya yollandı. Firəng padşahları əzildilər və onların cəmiyyətləri parçalandı, hər tayfaları öz vilayətlərinə çəkildilər. Sultan Məhəmməd xan zəfərlə İstanbula qayıtdı" (47).

Sultan III Məhəmməd qısa zamandan sonra Avropa cəbhəsindən geri qayıtdı. Qayıtmazdan əvvəl isə Zülfüqar xana xəbər göndərdi ki, İstanbulda onu gözləsin. Zülfüqar xan da onu gözlədi və səfərdən geri qayıdarkən onun qarşılanması üçün xüsusi bir münasibət nümayiş etdirdi. Osmanlı sultanı şəhərə daxil olarkən Zülfüqar xan yaşadığı iqamətgahdan başlayaraq sultan sarayına qədər küçəyə ipək, məxmər və digər qiymətli parçalar döşətdi və Sultan III Məhəmməd də bu bəzənmiş küçə ilə hərəkət etdi. Sultanın əmri ilə küçəyə döşənmiş parçaların bir hissəsi saraya gətirildi, bir hissəsi isə sultan xidmətçiləri arasında paylandı. Mənbə məlumatına görə, Zülfüqar xanı qəbul edəndə Osmanlı sultanı qızılbaşlar arasında hansı yeməklərin daha çox yayıldığı barəsində soruşdu və sonra da öz istəyini ona çatdırdı ki, Zülfüqar xan hə-

min yeməklərdən hazırlatdırıb sultana göndərsin. Zülfüqar xan da İstanbulda olduğu günlərdə ləziz yeməklərdən hazırlatdırıb Osmanlı sultanına göndərdi (48).

Osmanlı mənbələrinin birində Zülfüqar xanın İstanbula gəlişi, yerləşməsi və Osmanlı sultanının hüzurunda olması belə təsvir edilmişdir: "Bu vaxt Əcəm mülkünün və Şərq vilayətinin valisi Şah Abbas tərəfindən Ərdəbil xanı Qaramanlı Fərhad xanın qardaşı Zülfüqar xan taxta oturan Sultan Mehmet üçün namə ilə elçi təyin olunub sərhəddən keçib yaxınlaşması haqa xəbər gəldi. Dedilər ki, min nəfərdən çox adamla gəlir. ...1005-ci il rəbiüləvvəl ayının axırında, cümə axşamı günü (21.XI.1596) hava gah açıldı, gah da yağmurlu oldu. Şərq vilayəti Əcəm mülkünün valisi Şah Abbasdan təbriklər və mübarək cülus-i səltənətin cahan və mərhum Sultan III Murad xanın ehsanı üçün namə ilə töhfələr və hədiyyələr gətirən Ərdəbil xanı Zülfüqar xan ki Qaramanlı oymağından qızılbaş səltənətinin dövlət vəkili olan Fərhad xanın qardaşıdır, min nəfərdən çox xan və sultan nökəri ilə gəldiklərindən, Üsküdarda iki gün oturub, İstanbulda mərhum Yusif paşanın divanxanasında yerləşdi. ...Cəmadiyuləvvəl ayının ortalarında (1597-ci ilin yanvarı) Şərq vilayətinin valisi Şah Abbas Mirzənin elçisi Zülfüqar xan gətirdiyi namə, peşkəş, töhfə və hədiyyələrlə Divana gəldi. Çoxlu adam gəlmiş idi. Qədim qanun üzrə ikram və ehtiram olunub, böyük ziyafət oldu. ...Şah Abbasa qızıl yəhərli və zəncirli bir bəzənmiş at və gümüş yəhərli və zəncirli mükəmməl bir at, elçiyə fəxri xələtlər verildi. Və əlli nəfər gələn adamlarına fəxri xələtlər geydirildi" (49).

Osmanlı mənbələrinə əsasən, Sultan II Məhəmmədə təqdim olunan məktubda Şah Abbasın bu fikirləri öz əksini tapmışdı: "Padşahlığını təbrik edirəm. Əslində, bizim zati-alinizin taxta oturması səbəbi ilə təmsilçimizi sizə göndərməmiz gərəkirdi. Amma özbəklər Xorasanda qarşıqlıq çıxardığından bizim oraya tələsik müdaxilə etməyimiz gərəkdi. Böyləcə dərhal bölgəyə hərəkət etdik. Bu üzdən üzür diləyiriz. İran dövlət olaraq elçimizlə birlikdə saygı və hörmətlərimizi bildiririk. Sizin sonsuz mərhəmə-

tiniz bizim suçumuzu əfv edəcəkdir. Bizim qüsurlarımızı zatialiniz bağışlayacaqdı. Sizin xilafətə başlamağınızla bizə də Xorasan tərəfindən yaxşı xəbərlər gəlməkdədir. Əbdülmömin xan Xorasana girmişdi. Amma orada tutanamayıb qaçmağa üstünlük verdi. Bizim ordumuz onun ordusuna ulaşıb ağır bir zərbə endirdi. Çoxunu qılıncdan keçirdi. Daha sonra özbək təmsilçiləri Qəzvinə gəlib əfv və bağışlama tələb etmişlərdi. Mən güvəndiyim bir yaxınımı (Zülfüqar xan Qaramanlı) sizə göndərirəm. Ən qısa zamanda iki böyük ölkə arasındakı tədirginliklərin qalxmasını arzulayıram. Çünki barış və hüzur hər şeydən önəmlidir. Bu müsəlmanların daha yararınadır" (50).

Sonrakı bir neçə il ərzində iki dövlət arasında kifayət qədər fəal diplomatik yazışmalar aparıldı. Yüksək səviyyədə yazılmış olan məktublar xüsusi elçilik heyəti ilə göndərilir və ünvana çatdırılırdı. Tərkibində xeyli sayda nümayəndə olan elçilik heyətlərinin qarşılıqlı səfərləri də ikitərəfli münasibətlərin şəffaflığına müsbət təsir göstərirdi. Şah Abbas tərəfindən Osmanlı sarayına növbəti elçilik heyəti 1598-ci ildə göndərildi. Bu elçilik heyətinin göndərilməsində məqsəd qızılbaş qoşunlarının Xorasan istiqamətində özbək qoşunları üzərində əldə etdiyi uğurlar barəsində Osmanlı sultanına məlumat vermək idi. Elçilik heyətlərinin qarşılıqlı səfərləri həm də qarşılıqlı münasibətlərin mövcudluğuna xoş məramın çatdırılması ilə müşayiət olunurdu. Bu elçilik heyətinə rəhbərlik şah sarayının eşikağası Məhəmmədqulu bəy Ərəbgirliyə həvalə olunmuşdu. Elçilik heyəti Osmanlı sarayına Şah Abbasın Sultan III Məhəmmədə ünvanladığı məktubu və şah hədiyyələrini aparırdı. Bundan başqa, Şah Abbas Xorasan vilayətində özbək qoşunlarından geri aldığı 24 şəhər və qalanın açarlarını da Osmanlı sultanına göndərmişdi (51). Bununla Şah Abbas həm də hakimi olduğu dövlətin gücünü və qüdrətini Osmanlı sultanına nümayiş etdirmək istədi.

Məhəmmədqulu bəy Ərəbgirlinin rəhbərlik etdiyi elçilik heyəti 1599-cu il iyul ayının 11-də İstanbula çatdı və burada Osmanlı saray mənsubları tərəfindən yüksək səviyyədə qarşılandı. Bu hey-

ətin Osmanlı sultanı tərəfindən qəbul edilməsi isə həmin ilin avqust ayında baş verdi. Həmin qəbul zamanı Şah Abbasın qiymətli hədiyyələri ilə bərabər, məktubu da Osmanlı sultanına təqdim olunmuşdu. Şah Abbasın məktubunda deyilirdi: "Bəlx və Buxara hakimi Abdulla xan özbək tatar qoşunu ilə Xorasan taxtgahı olan Herat və Məşhəd şəhərləri ilə bilikdə məmləkətin böyük hissəsini min döyüş və hərblər nəticəsində qızılbaşların əlindən almışdı. Abdulla xan vəfat etdikdən sonra oğlu Əbdülmömin xan adı çəkilən məmləkətlərdə səltənət canişini olub hökumətinin zamanı uzun olmadı və özbək tayfası tərəfindən vücudu ortadan götürüldü. Bunun ardınca səltənətə sahib olan Pir Məhəmməd xan dinc oturmadı və qızılbaş məmləkətinin başına fəsadlar açmağa başladı. Biz də "mülk bizim mirasımızdır" – deyib qızılbaş qoşunu ilə Xorasan məmləkətinə hücum edib, oranı yenidən fəth etdik. Buna görə də öz məmnunluğumuzu və sevincimizi Ali Səltənətə bildirir və aldığımız 24 qalanın açarını bir qızıl və bir gümüş sancaqlarda sultan həzrətlərinə göndəririk. Çünki "qalalarımız və özümüz padşah cahan-pənah həzrətlərininik..." (52).

Şah Abbasın öz fatehliyi haqqında məlumat çatdırmaq üçün elçilik heyətini göndərməsi Osmanlı sarayında müəyyən bir təşvişlə qarşılandı. Səfəvi dövlətinin güclənməsi və itirilmiş torpaqların geri qaytarılması gələcəkdə Səfəvi-Osmanlı münasibətlərini müəyyənləşdirəcək ciddi bir məsələyə çevrilə bilərdi. Özünü göstərməkdə olan təşvişlərin aradan qaldırılması məqsədilə Osmanlı sarayı Səfəvi sarayına yeni bir elçilik heyəti göndərdi. Həmin elçilik heyətinə Məhəmməd ağa adlı birisi rəhbərlik edirdi. Elçilik heyəti vasitəsilə Osmanlı sarayı Səfəvi şahının iki dövlət arasında imzalanmış olan sülh anlaşmasına bağlılığını müəyyənləşdirməyə çalışmaqdan əlavə, həm də Səfəvi sarayı qarşısında yeni tələblər qoydu. Bu tələblərdən biri qızılbaş qoşunlarının Xorasan vilayətində özbək qoşunlarından azad etdiyi ərazilərin yenidən özbəklərə təhvil verilməsi, Osmanlı hüdudlarından Səfəvi hüdudlarına köç etmiş 20 min nəfərlik kürd tayfasının geri qaytarılması və Şah Abbasın böyük oğlu Məhəmməd Bağır Mirzənin (Səfi Mirzənin)

girov kimi Osmanlı sarayına göndərilməsi idi. 1595-ci ildə Heydər Mirzənin İstanbulda xəstələnərək dünyasını dəyişməsindən sonra Səfəvi sarayının Osmanlı sarayında hər hansı bir girovu qalmamışdı. Bu məsələ Səfəvi sarayının Osmanlı sarayı qarşısındakı sərbəstliyini kifayət qədər artırmışdı. Osmanlı sarayı bu məsələdə də müəyyən qədər narahatçılıq keçirirdi və həmin narahatçılığın aradan qaldırılması üçün Səfəvi şahının böyük oğlunun girov göndərilməsini tələb edirdi. Şah Abbas Osmanlı elçisi tərəfindən səsləndirilən bu təkliflərin heç birini qəbul etmədi. O, oğlunun girov göndərilməsi tələbinə münasibətini isə belə bildirdi: "Mənim oğlum mənim vəliəhdimdir. Bir gün Səfəvi şahı olacaqdır. Mən bir padşahı digər bir padşaha girov olaraq göndərmə haqqına malik deyiləm" (53).

Bu cavab bir daha göstərdi ki, Osmanlı sarayının Şah Abbasdan narahatçılıq keçirməyə başlaması heç də əbəs deyildi. İstanbul sülh anlaşmasının əldə edilməsindən sonrakı dövrün qarşılıqlı əlaqələri zamanı Şah Abbas ilk dəfə idi ki, Osmanlı sarayının tələblərinə qarşı belə cəsarətli cavab verirdi. Amma Şah Abbas hələlik Osmanlı dövləti ilə xoş münasibətlərin pozulmaması üçün elə həmin 1599-cu ildə Osmanlı sarayına yeni bir elçilik heyəti göndərdi. Bu elçilik heyətinə şah sarayının eşikağası rəhbərlik edirdi. Heyətin tərkibinə Həmzə Mirzənin lələsi ilə dayəsi də daxil edilmişdi. Elçilik heyəti Osmanlı sarayında yüksək məqamlı əyanlarla, sultan hərəminin təmsilçiləri ilə görüşdülər və nəhayət Osmanlı sultanını qəbulunda oldular. Bu qəbul zamanı Osmanlı sultanına yenə də Şah Abbas tərəfindən göndərilmiş qiymətli hədiyyələr təqdim olundu. Osmanlı sarayının icazəsi ilə Səfəvi elçiləri Heydər Mirzənin qəbrini də ziyarət etdilər. Bir məlumata görə, bu elçilər sonra gizli şəkildə Heydər Mirzənin nəşinin qalıqlarını qəbirdən çıxardaraq özləri ilə apardılar. Osmanlı sarayı bundan vaxtında xəbər tuta bilmədi və ona görə də Heydər Mirzənin qalıqlarının oğurlanmasının qarşısını almaq mümkün olmadı (54).

Miladi tarixi ilə 1590-cı ildə İstanbul sülh anlaşmasından ötən 10 il ərzində Səfəvi-Osmanlı münasibətlərində hərbi qarşıdurmaya

əl atılmadı. Həmin dövr ərzində Şah Abbas həm özbək hakimlərinin davamlı yürüşlərinin qarşısının alınması istiqamətində səmərəli işlər gördü, həm də daxili sabitliyin təmin edilməsi və mərkəzi hakimiyyətə qarşı yönəldilmiş itaətsizliklərin, qiyamların yatırılmasında qətiyyətli tədbirlər həyata keçirdi. Başqa sözlə, Şah Abbasın izlədiyi siyasət nəticəsində Səfəvi dövləti kifayət qədər möhkəmləndi və bunun nəticəsi idi ki, XVII yüzilliyin başlanğıcında Osmanlı qoşunlarının nəzarəti altında olan ərazilərin geri qaytarılması haqqında hazırlıqların aparılmasını görmək mümkündür. XVII yüzilliyin əvvəllərində Osmanlı dövləti də əvvəlki qüdrətə və əzəmətə malik deyildi. Çünki bir tərəfdən Avropa cəbhəsində aparılan müharibələr, digər tərəfdən də Osmanlı daxilində vüsət almış Cəlaliyyə hərəkatının yatırılması Osmanlı dövlətinin zəifləməsinə yol açmışdı. Bu isə qızılbaş qoşunlarının Osmanlı qoşunlarına qarşı uğuruna əlavə bir müsbət zəmin yaratdı. XVII yüzilliyin ilk illərində Şah Abbasın Avropa dövlətləri ilə münasibətlərin qurulması istiqamətində də bəzi addımlar atıldı. Bu münasibətlərin yaradılmasında da əsas məqsədlərdən biri qərb ölkələrinin imkanlarından Osmanlı dövlətinə qarşı müharibə hazırlıqları üçün istifadə edilməsi idi.

## 2. Səfəvi-Osmanlı müharibələrinin yeni dövrü

Səfəvi qoşunlarının Osmanlı qoşunlarına qarşı müharibəyə başlamasının ilk işartısı özünü Nəhavənd qalası ətrafında göstərdi. Yuxarıda qeyd edildiyi kimi, bu qala ilə bağlı tərəflər arasında bir anlaşılmazlıq mövcud idi. Şah Abbas bu qalanın Osmanlı nəzarəti altında olması ilə razı deyildi. Çünki qala Səfəvi əraziləri daxilində, Səfəvi əraziləri əhatəsində tikilmişdi. Osmanlı qüvvələri və mənsubları bu qala ilə əlaqə saxlamaq üçün Səfəvi ərazilərindən keçib getməli idilər. Səfəvi sarayı tərəfindən dəfələrlə Osmanlı sarayına çatıdırılmışdı ki, Səfəvi ərazilərinin daxilində yerləşən Nəhavənd qalasının Osmanlı nəzarəti altında olması ikitərəfli münasibətləri də kölgə altına alır: “O dörd divarın (yəni Nəhavənd qa-

lasının – red.) aramızda qalmağı son nəticədə sülhün və birliyin pozulmasına səbəb olacaqdır. Lap tezliklə tərəflərin bəzi cahil adamları tərəfindən elə bir iş baş verə bilər ki, sülhün pozulmasına gətirib-çıxarar. Əgər arada olan əhd-peymana sadiqdirlərsə, yaxşısı budur ki, o qala dağıdılsın” (55).

Amma İstanbul sülh anlaşmasına görə, Şah Abbas Nəhavəndin Osmanlı nəzarəti altında olmasını qəbul etməli oldu. İsgəndər bəy Münşinin yazdığına görə, Cəlalilər hərəkatının vüsət tapması Osmanlı dövləti daxilində səltənət idarəçiliyinin zəifləməsinə və özbaşınalıqlara da yol açdı. Bildirilir ki, bu hərəkatın genişlənməsi Nəhavənd qalasının idarəçiliyinə də əks təsir göstərdi və bu da son nəhayətdə bu qalanın Osmanlı nəzarətindən çıxarılması ilə nəticələndi. Belə ki, Cəlalilər hərəkatının genişlənməsinin nəticəsi kimi, Bağdadda da yerli qulamlar Osmanlı sultanı tərəfindən təyin edilmiş hakimi şəhərdən qovdular. Onun yerinə isə Uzun Əhməd adlı birisi hakim elan olundu. Yeni hakimin gəlişi ilə Nəhavənd qalasının Bağdad tərəfindən maliyyələşdirilməsi dayandırıldı və Nəhavənd üçün ayrılmalı olan maliyyə vəsaitini Bağdadın yeni hakimləri özlərinə götürdülər. Nəhavənddə olan sakinlər Bağdaddan maliyyə dəstəyi almayınca özləri qanunsuz şəkildə Səfəvi nəzarəti altında olan yaşayış məntəqələrinə basqınlar edir və bu məntəqələrin sakinlərini talayırdılar. Bu isə şah təbəələrinə böyük əziyyətlər yetirirdi. Nəhavənd sakinlərinin qanunsuz əməllərinin qarşısının alınması üçün Səfəvi mənsubları tərəfindən Bağdad hakiminə şikayət edildi. Bağdad hakimi də Nəhavəndin idarəçiliyinin qaydaya salınması üçün Məhəmməd ağa Qiyəsaqqal adlı birisini həmin qalanın əmiri təyin etdi. Məhəmməd ağa Nəhavəndə gəlsə də burada vəziyyəti düzəldə bilmədi. Qala sakinləri onun sözünü və hakimliyini qəbul etmədilər. Hətta Məhəmməd ağa özü də qala sakinlərinin talanlarına məruz qaldı. Belə olanda Məhəmməd ağa 1603-cü ilin əvvəllərində şah sarayına yollandı və Şah Abbasdan Nəhavənd itaətsizliyinin aradan qaldırılması üçün kömək istədi. Şah Abbas bu xahişi qəbul etdi. O, Əlişəkər hakimi Həsən xana və sərhəd bölgələrində yerləşmiş bəzi əmirlərə göstəriş verdi ki, Mə-

həmməd ağaya əməli kömək göstərsinlər və Nəhavənd qalasında vəziyyəti normal hala gətirsinlər. Eyni zamanda Şah Abbas Nəhavənd qalasının Osmanlı təbəələrinə nəvaziş dolu bir məktub göndərdi, onları qanunsuz əməllərdən əl çəkərək itaət altına gəlməyə çağırdı (56).

Qızılbaş qüvvələri Nəhavənd qalası ətrafına yetişməzdən əvvəl ətraf məntəqələrin sakinləri Osmanlı təbəələrinin qanunsuz hərəkətlərinə son qoymaq üçün qala üzərinə hücuma başlamışdılar. Qızılbaş qüvvələrinin yetişməsindən sonra isə qala üzərinə hücum daha da şiddətləndi. Bu qala kifayət qədər möhkəm bir qala idi və ona görə də qalanın mühasirəsi bir müddət davam etdi. Qaladakılar arasında bəziləri mühasirədən çıxmağın çətin olduğunu görüncə qızılbaş qüvvələri ilə əməkdaşlığa üstünlük verdilər. Onların köməyi ilə əvvəlcə qala bürclərindən birini, sonra isə bütün qalanı ələ keçirmək mümkün oldu. Qala daxilində olan Osmanlı döyüşçüləri canlarını qurtarmaq üçün qaçıb ətrafa dağılışdılar. Əlişəkər hakimi Həsən xanın göstərişi ilə Nəhavənd qalası dağıdıldı və bununla, burada Osmanlı nəzarətinə də son qoyuldu. İsgəndər bəy Münşi yazırdı ki, Nəhavənd qalasının ələ keçirilməsi ilə Səfəvi sarayı heç də İstanbul anlaşmasının pozulmasını istəmirdi. Lakin tezliklə Azərbaycan üzərinə hücum başlanması ilə İstanbul sülh anlaşması da pozulmuş oldu (57).

İsgəndər bəy Münşinin yazdığına görə, Azərbaycanın və Osmanlı nəzarəti altında olan digər Səfəvi ərazilərinin geri qaytarılması hər zaman Şah Abbasın diqqətində idi. Onun yazdığına görə, Şah Abbas "Təbriz dalüssəltənəsinin yenə də əvvəllərdə olduğu kimi bu xanədan tərəfindən geri alınmasını istəyirdi, amma bu barədə dillərdə müxtəlif fikirlər söylənməkdə idi. Bəzi dövlətxah və ağah adamlar Rum sultanının qeysərlik şan-şövkəti, qoşununun çoxluğu və əzəmətindən şah məclisində sözlər danışıb ona rum tüğyanı ilə savaşa başlamağı məsləhət bilmir, şahın hümayun yürüş atəşini nəsihətamiz kəlmələrlə soyudub hərb tonqalını alovlanmağa qoymurdular. Şahın özü də yuxarıdakı ali istəyin baş tutmasını arzu edirdi. Lakin arada sülh sazişi olduğundan müqəddəs

ayədə buyurulduğu kimi "İmana gəldikdən sonra imanınızı pozmayın" fikrinə əməl edərək o, bağlanmış əhd-peymanı pozmaq istəmirdi. Bu məsələnin tikanı hümayun yürüşün ətəyinə batır və o qeybdən gələn bir hadisə intizarında qalmaqda idi. Bu mətləbin yerinə yetiriləcəyi təqdir qələmi ilə qəza lövhəsində artıq yazıldığı üçün məsələ qeyb aləminin iş görənləri tərəfindən başa çatdırılmaqda idi. Amma, qarşı tərəfin adamlarından bəzi işlər baş verdi ki, müzəffər ordunun o tərəfə yürüşü vacib bilindi. Belə ki, yuxarıda yazıldığı kimi, rum alçaqları və kürd aqibətsizləri öz üsyan və fitnə-fəsad başlarını yuxarı qaldırdığından onların hər birinin beynində özbaşınalıq və mənəm-mənəmlik sevdası baş qaldırmışdı. Sərhəd paşa və hakimləri cəlalilər kimi hərəkət edib, üsyan və tüğyana başlayaraq bu tərəfin adamları ilə pis rəftar etməyə başladılar, bir sıra ədəbsiz hərəkətlərə yol verdilər" (58).

Şah sarayının narazılığı ilə qarşılaşan bu hadisələrdən biri ondan ibarət idi ki, Van hakimi Əhməd paşanın göstərişinə əsasən Səfəvi tacirlərindən biri tutularaq qətlə yetirilmiş və onun mal-dövləti də qarət edilmişdi. Şirvan ərazisində Dağıstana yollanmaq istəyən şah mülazimləri tutularaq qətlə yetirilmişdilər. Bu hadisə xoşagəlməz bir hal olsa da, Şah Abbas onu cavabsız qoyub iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının qorunmasını lazım bildi. Belə halların baş verməsi və onların qarşısının alınması üçün dəfələrlə Osmanlı sarayı qarşısında da məsələ qaldırılmışdı. Lakin Osmanlı sarayı tərəfindən bu məsələlərlə bağlı əməli bir addım atılmamışdı. Nəhayət, 1603-cü ildə Təbrizin Osmanlı hakimi ilə bölgə kürdləri arasında münasibətlərin kəskinləşməsi şah sarayını daha qətiyyətli addımlar atmağa sövq etdi. Həmin il Qazi bəy Kürd Səlmasa yaxın olan Qarnıyarıq qalasını ələ keçirdi və bu qalanı Osmanlı qüvvələrinin nəzarətindən çıxardı. O zaman Təbrizin Osmanlı hakimi olan Əli paşa Qarnıyarıq qalasını geri qaytarmaq, Qazi bəyi və onun ətrafına toplaşan qüvvələri cəzalandırmaq üçün hücuma qərar verdi. Bu hücumun uğurla başa çatması üçün Əli paşa Təbriz, İrəvan və Naxçıvanda yerləşdirilmiş hərbi qüvvələri bir yerə topladı və Qarnıyarıq qalası üzərinə hücuma keçdi. Böyük

sayda olan Osmanlı qoşunlarına qarşı müqavimət göstərilməsinin çətin olacağını görən Qazi bəy oğlu Xan Abdalı şah sarayına göndərdi və Şah Abbasdan kömək göstərilməsini xahiş etdi. Şah Abbas da bölgədə yaranmış vəziyyəti Osmanlı nəzarəti altında olan Səfəvi torpaqlarının geri qaytarılması üçün əlverişli bir fürsət kimi qiymətləndirdi. Çünki Osmanlı qoşunları Təbrizdən çıxarılaraq Qarnıyarıq qalasına tərəf aparılmışdı. Sürətli bir hücumun həyata keçirilməsi ilə Osmanlı qoşunları geri qayıtmaq imkanı tapmamış Təbrizi ələ keçirmək mümkün olardı (59).

İsgəndər bəy Münşinin yazdığına görə, Qazi xandan kömək xahişi gələndə Şah Abbasın xəyalından belə bir fikir keçdi: "Oğlu Xan Abdalı ali saraya göndərən Qazi bəy [şahdan] kömək istədi. [Əlahəzrətin] nurlu beyninə belə bir fikir gəldi: "Rumilər onların torpaqlarında nifaq törədib çox halda qızılbaşların qəzəbinə səbəb olduqlarından (xüsusilə Nəhavənd qalasının dağıdılmasında), hətta öz qüvvələrinə güvənib üzrxahlıq belə etmədikləri bir vaxtda bizim irsi hümayun mülkümüz olan Azərbaycan və Şirvan məmləkətlərini öz padşahları ilə üsyan məqamında olan bir dəstə cəlalilər kimi zavalı adamın ixtiyarında qoymaq və fürsəti əldən vermək ağıllı insana xas rəftar ola bilməz. Əgər bir neçə gün ərzində Təbriz bəylərbəyisi ilə əsgərlərin kürdlər üzərinə hücuma keçdikləri və qalada heç kimin olmadığı bir vaxtda bizim hümayun yürüşümüz o istiqamətə başlayarsa və biz Əli paşanın geri dönməsindən əvvəl Təbrizə gedəriksə, ehtimal ki, qala asanlıqla alınar, beləliklə də irsi mülkümüz olan Azərbaycanı fəth etmək və düşmənləri cəzalandırmaq bizə qismət olar" (60).

Şah Abbas öz fikrini yaxın ətrafı ilə məsləhətləşdi, saray əmir və əyanlarının qərarını da öyrəndi. Saray əmir və əyanları da Şah Abbasın bu fikrini bəyəndilər və onlar da Azərbaycan üzərinə qoşun çıxarılması vaxtının çatdığını bildirdilər. Nəticədə qərara alındı ki, Osmanlı qoşunlarının nəzarəti altında olan ərazilərin geri qaytarılması məqsədilə Təbriz üzərinə hücum edilsin.

Belə bir hücumun başlaması üçün sözsüz ki, Osmanlı mənsublarının, əmir və əyanlarının sərhəd bölgəsində etdiyi xoşagəlməz

əməllər nəzarət altında olan ərazilərin azad edilməsinə başlanmasına bir təkan verdi. Əslində isə Şah Abbas hakimiyyətə gəldiyi gündən Şah İsmayılın və Şah Təhmasibin dövründə mövcud olmuş hüdudların bərpa edilməsi arzusunda və istəyində idi. Sərhəd bölgələrində Osmanlı mənsubları tərəfindən törədilən xoşagəlməz hallar olmasaydı belə, Şah Abbas Osmanlı qoşunlarının Səfəvi ərazilərindən sıxışdırılması fikrindən daşınmayacaqdı. Bunun üçün əlverişli məqam gözlənilirdi və 1603-cü ildə də belə bir məqam yetişdi.

Şah Abbas hələ Xorasanda ikən İspaniya padşahının elçisi Antoniyo de Quea onun görüşündə oldu. Məşhəddə baş tutmuş həmin görüş zamanı ispan elçisi də Şah Abbası Osmanlı dövləti üzərinə hücum səslədi. İspan elçisinin yazdığına görə, Şah Abbas həmin görüşdə Osmanlı dövləti ilə heç də barışda olmadığını və ispan elçisinin Səfəvi hüdudlarını tərk edəcəyi vaxta qədər bu dövlətə qarşı müharibəyə başlayacağını da bildirdi (61). Yəni XVII yüzilliyin başlanğıcında Şah Abbas artıq Osmanlı nəzarəti altında olan ərazilərin azad edilməsi vaxtının çatdığı qənaətinə gəlmişdi.

Conabedinin yazdığına görə, əslində, Osmanlı əmirləri və hakimləri də Şah Abbasın Səfəvi ərazilərinin nəzarətdən çıxması ilə barışmayacağına şübhə etmirdilər. Təbriz hakimi və Azərbaycanın Osmanlı bəylərbəyi Əli paşa da Şah Abbasın belə bir qətiyyətdə olacağına əmin idi. Ona görə də o, vaxtından qabaq müdafiə tədbirlərinin görülməsini lazım bildi. Bu məqsədlə Əli paşa Ucan çəməninin başlanğıcında yerləşən Türkmən kəndi adlı məntəqədə güclü və möhkəm bir qala tikdirdi. Bu qala qızılbaş qoşunlarına qarşı müdafiənin ilkin xətti rolunu oynamalı idi. Yalnız bu qalanı alandan sonra qızılbaş qoşunları Təbriz üzərinə hərəkət edə bilərdilər. Əli paşanın əmri ilə bu qalaya çoxlu sayda silah, sursat, artilleriya, ərzaq ehtiyatları gətirildi, müdafiənin gücləndirilməsi üçün zəruri olan işlər görüldü. Əli paşanın bu işi heç də qızılbaş əmirlərinin diqqətindən qaçmadı. Ərdəbil hakimi olan Zülfüqar xan 500 nəfərlik təcrübəli döyüşçülərdən ibarət bir dəstə ilə Türk-

mən kəndində tikilmiş qala üzərinə hücum etdi. Osmanlı qarnizonu bu qalada hələ kifayət qədər möhkəmlənməyə imkan tapmamış Zülfüqar xanın dəstəsinin güclü zərbəsinə məruz qaldı. Osmanlılar tərəfindən tikilmiş bu qala ələ keçirildi və dağıdıldı. Qala daxilindəki Osmanlı döyüşçüləri qətlə yetirildi, qalanın əmlakı isə Zülfüqar xanın göstərişi ilə Ərdəbilə daşındı (62).

Adı çəkilən müəllif sonra yazırdı ki, Zülfüqar xan Osmanlı qalasını dağıtması haqqında Şah Abbasa məlumat göndərdi. Şah Abbas da bu əməli bəyəndi və Zülfüqar xana göstəriş verdi ki, öz adamlarını Təbriz daxilinə yerləşdirsin və onların vasitəsilə Osmanlı hakimlərinin və qoşunlarının hərəkətlərini davamlı nəzarət altında saxlasın. Münasib anın yetişməsi haqqında məlumat alınan kimi, Təbriz üzərinə hücum başlamalı idi. Conabedi də Təbriz bəylərbəyi Əli paşa ilə Səlmas kürdləri arasında münasibətlərin kəskinləşməsini iki dövlət arasında müharibənin başlaması səbəbi kimi şərh etmişdir. Amma onun əsərində kürdlərin hakimi kimi Əmir xanın adı çəkilmişdir. Bildirilir ki, Əmir xanın və onun ətrafına toplanmış olan qüvvələrin cəzalandırılması üçün Əli paşa 12 min nəfərlik qoşun dəstəsi ilə Səlmasa doğru hərəkətə başladı. Nəticədə Təbriz şəhəri müdafiəsiz qaldı. Zülfüqar xanın Təbrizdə olan adamları Osmanlı qoşunlarının şəhəri tərk etməsi xəbərini xana çatdırdılar. Zülfüqar xan da bu barədə Şah Abbasa məlumat göndərdi və nəticədə Təbriz üzərinə qoşun çıxarılması haqqında şah qərarı qəbul olundu (63).

Qərar veriləndən sonra Təbriz şəhəri üzərinə hücum hazırlıqlarına başlandı. Hücumun nə vaxt başlanması məsələsində Şah Abbas münəccimlərin fikirlərini öyrəndi. Dövrünün tanınmış münəccimi olan Mövlana Cəlaləddin Məhəmməd Münəccim Yəzdi saraya dəvət edildi və məsələnin mahiyyəti ona çatdırıldı. Mövlana Cəlaləddin Məhəmməd də ulduzların seyrindən sonra şah qoşunlarının Azərbaycan üzərinə hərbi yürüşə başlaması üçün ən münasib tarixi müəyyənləşdirdi. Şah Abbas münəccimin fikri ilə razılaşdı. Amma Şah Abbas belə bir qərarı da məqsədəuyğun saydı ki, hərbi yürüşə başlanması Osmanlı hakimlərindən gizli sax-

lansın və onlar qızılbaş qoşunlarının yürüşə başlamasından duyuq düşməsinlər. Əvvəlcə belə bir şayiə yayıldı ki, guya Portuqaliya qoşunları Bəhreyn üzərinə hücum etdikləri üçün qızılbaş qoşunları həmin istiqamətdə hərbi yürüşə hazırlaşırlar. Bu şayiənin yayılmasından 4-5 gün sonra başqa bir şayiə yayıldı ki, Fars hakimi Allahverdi xanın adamları gələrək portuqal qoşunlarının Bəhreyn üzərinə hücumdan imtina etdiklərini və ona görə də şah qoşunlarının Fars körfəzi istiqamətində hərəkətinə ehtiyac olmadığı bildirildi (64).

Bundan sonra Osmanlı hakimlərinin və əmirlərinin diqqətinin yayındırılması üçün başqa bir bəhanə ortaya atıldı. "Əlahəzrət belə buyurdu: "İqbal ordusu mülazimlərinin səfər niyyətilə bir yerə toplaşdıqları belə bir vaxtda, artıq çoxdan bəri behiştə bərabər Mazandaranı seyr və orada şikar etmədiyimizdən, bir neçə gün o ürəkaçan vilayətdə eyş-işrət etməkdən ötrü həmin istiqamətə getməliyik" (65).

Şah Abbasın əsas məqsədindən çox az adamın adı var idi. Bu adamlar da onun yaxın ətrafı və məsləhətləşdiyi qızılbaş əmirləri idi. Onlardan biri səltənət vəziri və etimadüddövləsi olan Hatəm bəy Ordubadi idi. O, Şah Abbasın ən etibar etdiyi insanlardan biri idi. Eyni zamanda qorçubaşı Mehdiqulu bəy Qacarın və şah dəftərxanasının darğası Bəstam ağa Türkmanın da bu məsələdən xəbəri var idi. Digərləri isə qızılbaş qoşunlarının Mazandaran adı ilə İsfahandan nə məqsədlə çıxmasından xəbərsiz idilər. Əslində, saray mənsubları da həmin vaxtda qızılbaş qoşunlarının Osmanlı qoşunlarına qarşı çıxa biləcəyini təsəvvür etmirdilər. Ona görə də ortaya atılan bəhanə çoxları tərəfindən qəbul edilirdi (66).

Bununla belə, İsgəndər bəy Münşinin yazdığına görə, Təbrizdəki Osmanlı hakimləri haradansa qızılbaş qoşunlarının bu şəhər üzərinə hücuma hazırlaşmaları haqqında məlumat əldə etmişdilər. Belə ki, Təbrizin Osmanlı hakimi Əli paşanın vəkili bu şəhərin tanınmış münəccimi Mövlanə Səburi ilə görüşərkən ondan qızılbaş qoşunlarının hücuma hazırlaşmaları xəbərinin nə dərəcədə doğru olmasını soruşdu. Mövlanə Səburinin bu barədə məlumatı

yox idi və cavabı da belə oldu. Osmanlı əmiri bu sözə də inanmadı və hətta fala baxmaqla qızılbaş qoşunlarının hücuma hazırlaşmalarının doğru olub-olmadığını yəqinləşdirməyə çalışdı. Bu zaman Hafizin divanı üzərinə açılan falda Təbrizin adı gəldi (67). İsgəndər bəy Münşi sonra osmanlıların bu xəbəri necə qəbul etmələri barəsində məlumat vermir.

Beləliklə, Şah Abbas qoşunla birlikdə münəccimlərin məsləhət bildiyi tarixdə, 1603-cü il sentyabr ayının 9-da İsfahanı tərk etdi. Qərarının icrasında çevikliyə nail olmaq üçün Şah Abbas yalnız gecələmək üçün dayanacaq etdi və heç yerdə düşərgə salmadı. Hərəkətə başlanan günün axşamı Şah Abbas və qoşunlar Dövlətabadda, ikinci gün isə Kaşanda dayandı. Kaşanda olarkən Şah Abbas Ərdəbil hakimi Zülfüqar xana öz fərmanını göndərdi. Həmin fərmanında Şah Abbas bildirirdi ki, Osmanlı dövləti ilə əldə edilmiş sülh anlaşması pozulmuşdur və onun bərpa edilməsi artıq mümkün deyildir. O, sonra yazırdı ki, belə bir şəraitdə yaradanın və müqəddəs imamların lütfünə arxalanaraq Azərbaycanın ələ keçirilməsi üçün İsfahanı tərk etmişik və hazırda Kaşandayıq. Bu fərmanda Şah Abbasın və qoşunların hərəkət marşrutu və qrafiki də göstərilmişdir. Həmin qrafikə əsasən günaşırı istirahətə dayanmaqla qoşunlar Qasımabaddan, Savə çayından, Xöşkəruddan, Qəzvin Şükürabadından, Əbhərdən, Zəncandan, Camalabaddan, Pərvanə çayından, Ucandan keçməklə Təbrizə yetişməli idi. Şah Abbas özü də yazırdı ki, heç bir məntəqədə vaxt itirmədən Təbrizə doğru irəliləyəcək ki, Əli paşa geri qayıdana kimi Təbriz şəhərini tuta bilsin. Zülfüqar xanın nəzərinə bir daha çatdırılırdı ki, şah qoşunlarının Mazandaran istiqamətinə hərəkət xəbərləri yayılsa da, əslində məqsəd Təbrizə doğru irəliləməkdir. Şah Abbas tələb edirdi ki, Azərbaycan əmirləri, xüsusilə də Seyid Sultan Xınıslı və İmamqulu sultan Bayburdlu öz yerlərində olsunlar və şah qoşunlarının gəlişinə hazır olsunlar. Eyni zamanda şah fərmanında vilayətin bütün qoşunlarının hazırlıq vəziyyətinə gətirilməsi və şah qoşunlarının Azərbaycan tərəfinə irəliləməsi xəbərinin məxfi saxlanması tələb olunurdu. Şah qoşunlarının 10 gün sonra Kaşandan

Azərbaycana yetişəcəyi nəzərdə tutulmuşdu və həmin müddət ərzində Zülfüqar xan da bu qoşunların gəlişinə və dərhal Təbriz üzərinə hücuma hazır olmalı idi (68).

Qəzvində olarkən Şah Abbas oranın hakimindən tələb etdi ki, öz qoşun dəstəsi ilə şah qoşunlarının tərkibinə qatılsın. Burada o, saray nədimlərindən olan İsfəndiyar bəy Ərəbgirliyə tapşırdı ki, 30 atlı ilə Təbriz ətrafına getsin və şəhərə giriş-çıxış yolunu bağlasın. Bu o məqsədlə edilirdi ki, qızılbaş qoşunları artıq şəhərə yaxınlaşmaqdaydı və bu qoşunların hərəkətini müşahidə edən adamların şəhərə girişi bağlansın. Yəni bu adamlar qoşunların hərəkəti ilə bağlı məlumatları şəhər daxilində yaya bilməsinlər. Ucan çəmənliyinə yaxınlaşanda Ərdəbil hakimi Zülfüqar xan tabeliyində olan 3 min nəfərlik qoşun dəstəsi ilə şah qoşunlarına qatıldı (69). Bununla da şah qoşunlarının sayı və gücü xeyli artdı.

Qızılbaş qoşunları Təbriz yaxınlığındakı Şəbli karvansarasına çatanda Osmanlı döyüşçüləri ilə qarşılaşmalı oldular. Bu karvansarada dayanan Osmanlı döyüşçüləri və mənsubları müxtəlif istiqamətlərə hərəkət edən yolçulardan yol haqqı alırdılar. Şah Abbas bu karvansarada osmanlı mənsublarının dayanmasından xəbər tutanda geyimini dəyişib ora yollandı. Osmanlı mənsubları Şah Abbası və onun yanındakıları yolçu bilərək dayandırdılar və onlardan yol haqqı tələb etdilər. Şah Abbas da Zülfüqar xana işarə etdi ki, onlara yol haqqı versin. Osmanlı mənsublarının başı yol haqqı almağa qarışanda qızılbaş döyüşçüləri onların üstünə atıldılar və karvansarada olan bütün Osmanlı mənsubları qətlə yetirdilər (70).

Şah qoşunları Təbriz ətrafındakı Fəhusfənc kəndində göründükdə yerli əhali baş verənlərdən xəbərdar olub bu qoşunları çox böyük sevinclə qarşıldılar. Şah Abbasın da bu qoşunların tərkibində olmasını bilincə yerli sakinlər şahsevənlik şüarları söyləməyə başladılar. Sonra isə Osmanlı təqibindən qorxaraq gizlində saxladıqları qızılbaş papaqlarını çıxarıb başlarına qoydular. Şah qoşunlarının gəlişindən sevincə bürünən yerli sakinlər adı çəkilən kənddə olan Osmanlı döyüşçülərinin üzərinə hücum çəkdilər və onları qətlə yetirdilər. Bu kənddə olarkən şah əmrinə əsasən qo-

şunların bir dəstəsi Təbriz ətrafına göndərildi. Həmin dəstə Təbriz ətrafına çatanda şəhər əhalisinin bir hissəsi qaladan kənara çıxaraq bazarda alış-veriş edirdi. Qızılbaş qoşun dəstəsi müşahidə ediləndə bazarda olan insanlar güman etdilər ki, talançı dəstələr yenə də Təbriz üzərinə hücuma başlamışlar. Ona görə də bazarda olan insanların çoxu dərhal özlərini şəhər daxilinə yetirdilər və güman etdikləri təhlükəni önləmək üçün qala darvazalarını da bağladılar. Amma məlum olanda ki, şəhərə yaxınlaşan şah qoşunudur, onda Təbriz sakinlərinin çoxu bu qoşunların qarşılanmasına çıxdı. Qızılbaş əmirləri və döyüşçüləri Təbriz şəhərini kifayət qədər dağılmış bir vəziyyətdə gördülər. Bu şəhərin Osmanlı nəzarəti altına düşməsindən iyirmi ilə qədər bir vaxt keçmişdi. Həmin müddət ərzində şəhər təsərrüfatının inkişaf etdirilməsi istiqamətində səmərəli işlərin görülməməsi şəhərin mənzərəsini xeyli ağırlaşdırmışdı. Osmanlı nəzarəti altında olan ərazilərdən toplanmış olan bəzi talançı dəstələr də şəhərə daxil olaraq insanların talan edilməsi ilə məşğul olurdular. Yəni kimdə pul olduğu güman edilirdisə, onun üstünə hücum çəkilirdi. Ona görə şəhərdəki evlərin çoxu da dağıntılara məruz qalmış və bu dağıntıların aradan qaldırılması üçün lazım olan işlər görülmürdü. İsgəndər bəy Münşinin yazdığına görə, Təbriz şəhəri əvvəlki gözəlliyini və əzəmətini itirmişdi. Şəhər o dərəcədə dağıdılmışdı ki, hətta Şah Abbas bu şəhərə daxil olanda onun üçün uyğun bir iqamətgah tapmaq mümkün olmadı. Ona görə də Şah Abbas şəhər kənarındakı Şənbi-Qazana yollandı və orada düşərgə saldı (71).

Qızılbaş qoşunları Şənbi-Qazanda olarkən yerli və ətraf əhali gözə görünən Osmanlı döyüşçülərinə və təbəələrinə qarşı kütləvi qətllərə başladılar. Bu qətllər bir tərəfdən yerli əhalinin Osmanlı qarnizonuna qarşı barışmaz münasibəti ilə bağlı idisə, bir tərəfdən də insanların çoxu Səfəvi şahına olan sədaqətini göstərmək üçün qarşılarına çıxan Osmanlı mənsublarını qətlə yetirir və sonra da onların kəsilmiş başlarını şah qoşunları düşərgəsinə gətirirdilər. Bu məsələ elə bir kütləvi hal aldı ki, hətta on illərlə yerli xanım-

larla nikah kəsdirmiş və hətta böyük yaşda uşaqları olan Osmanlı mənsubları da tutulub qətlə yetirildilər (72).

Conabedinin yazdığına görə, Təbriz ətrafına yetişəndə Şah Abbasın yanında altı min nəfərdən ibarət qulam və qorçu atlısı, üç min nəfərdən ibarət Zülfüqar xanın dəstəsi və iki min nəfərlik Xorasan topçuları var idi (73). Şənbi-Qazanda olarkən Şah Abbas qoşunlara sıra baxışı keçirdi və elə oradaca bu qoşunları bir neçə dəstəyə böldü. Hər bir dəstəyə də uyğun tapşırıqlar verildi. Bu dəstələrdən biri mülki paltar geyməklə şəhərə daxil olmalı idi. Həmin dəstə müəyyən edilmiş vaxtda şəhərdə var-gəl edən Osmanlı qarovullarını üstünə hücum çəkərək onları zərərsizləşdirməli idi. Sonra isə Şah Abbas əsas qüvvələrlə şəhər üzərinə irəlilədi. Bu zaman onun tapşırığına əsasən iki dəstə də digər istiqamətlərdən şəhər üzərinə hərəkət etdi (74).

Qeyd edildiyi kimi, Təbrizin Osmanlı qarnizonu şəhər hakimi Əli paşanın rəhbərliyi altında Qarnıyarıq qalasının alınmasına yollanmışdı. Ona görə Təbrizdə Osmanlı qüvvələri qalmamışdı. Qızılbaş qoşunları hər hansı bir müqavimətlə rastlaşmadan Təbriz şəhərini nəzarət altına aldılar. Təbriz əhalisi də qızılbaş qoşunlarını sevinclə qarşılamaqla, şəhərin nəzarət altına alınması işində şah qoşunlarına öz köməklərini göstərdilər. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas İsfahandan hərəkətə başlayandan on iki gün sonra Təbrizə daxil oldu (75). Conabedi qızılbaş qoşunlarının Qum şəhərini keçməsindən on iki gün sonra Təbrizə yetişdiyini yazırdı (76). Bir başqa məlumata görə isə, Şah Abbas qoşunla birlikdə İsfahanı 1603-cü il sentyabr ayının 14-də tərk etdi və on dörd gün sonra, yəni sentyabrın 27-də Təbrizə daxil oldu (77).

Qızılbaş qoşunları şəhərə daxil olandan sonra da şəhərdə olan Osmanlı döyüşçüləri Təbrizin şah qoşunları tərəfindən ələ keçirildiyini güman etmirdilər. Yəni onlar inana bilmirdilər ki, şah qoşunları gözlənilməz bir şəkildə hücum çəkərək Təbrizi ələ keçirmişlər. Onların nəzərində ətraf bölgələrdə formalaşmış talançı dəstələr Təbrizə hücum etmişlər və bu dəstələrin məqsədi də talan

və soyğunçuluqdur. Hətta Əli paşanın yanına göndərilən çapar da ona talançıların və soyğunçuların şəhərə hücum etməsi xəbəri çatdırdılar. Əli paşanın gümanında da Təbrizə basqın etmiş talançılar dəstəsini şəhərdən uzaqlaşdırmaq heç də çətin olmayacaqdı. Ona görə də bir qədər arxayın şəkildə Təbrizə tərəf hərəkətə başladı. Mərənd yaxınlığında Əli paşaya qoşulmuş olan Naxçıvan və İrəvandan gəlmiş Osmanlı dəstələri ondan ayrılıb öz yerlərinə yollandılar. Yalnız Təbrizə yaxınlaşmaq ərəfəsində şəhərdən gələn başqa bir qasid Ərdəbil hakimi Zülfüqar xanın öz qoşun dəstəsi ilə Təbriz üzərinə hücum etməsi xəbərini verdi. Bu xəbəri alınca Əli paşa yaxın ətrafının toplantısını təşkil etdi və nə etmək barəsində onlarla məsləhətləşməyə başladı. Amma Osmanlı döyüşçüləri Təbrizə hücum xəbərini alınca tələsik şəhərə yollanmağa cəhd göstərdilər. Çünki Osmanlı döyüşçülərinin ailələri və topladıqları sərvət Təbrizdə müdafiəsiz qalmışdı. Döyüşçülər də özlərini tez bir şəkildə şəhərə çatdırmaqla ailələrini və əmlaklarını qorumağa üstünlük verdilər. Ona görə də beş min nəfərlik Osmanlı dəstəsi Təbrizə doğru hərəkətə başladı (78).

Təbrizin nəzarət atına alınmasının üçüncü günü şəhər daxilində qalmış Osmanlı döyüşçülərinə şəxsən Şah Abbasın özünün qızılbaş qoşunlarına rəhbərlik etməsi bəlli oldu. Dərhal da bu barədə Əli paşaya xəbər göndərildi. Əli paşa bu xəbəri təşvişlə qarşıladı. Lakin Şah Abbasın Təbrizə gəlməsi xəbərini qoşun əhlindən gizlətdi. Osmanlı qoşun dəstəsi Təbrizdən altı fərsəx məsafədə olan Sufiyana gəlib çatandan sonra Əli paşa qızılbaş qüvvələrinə qarşı savaş hazırlıqlarını görməyə başladı. Conabedinin yazdığına görə, Əli paşa şah qoşunlarının Təbrizi almasını çox böyük qəzəblə qarşıladı. Əli paşanın gümanında Zülfüqar xan öz dəstəsi ilə Təbriz üzərinə hücum etmişdi. Ona görə də Əli paşa qarşıdakı savaşda uğur qazanacağına və qızılbaş qoşun dəstəsinin Təbrizdən sıxışdırılacağına ümid edirdi. Amma sonradan o, Şah Abbasın Təbrizə gələn qoşun dəstəsinə rəhbərlik etməsi barəsində məlumat aldı. Bu məsələ onun təşvişini artırsa da, Əli paşanın qızılbaş qoşunlarına qarşı savaşa girməkdən başqa bir seçimi yox idi (79).

Əli paşanın Təbrizin itirilməsi ilə barışmayacağı və bu şəhərin yenidən nəzarət altına gətirilməsi üçün cəhd göstərəcəyi şah düşərgəsində də hamı üçün aydın idi. Ona görə də Əli paşanın hərəkətləri və nə edəcəyi şah adamları tərəfindən nəzarət altında saxlanılırdı. Şah Abbas onun qəbul etdiyi qərardan vaxtında xəbər tutmaq istəyirdi və bunun üçün məlumat toplaya biləcək adamlar Osmanlı qoşunları istiqamətində göndərilirdi. Bu tədbirin nəticəsi kimi, Əli paşanın yanında nə qədər qoşun olması, qoşunun təchizat vəziyyəti haqqında yetərli məlumat əldə edilmişdi. Bəlli olmuşdu ki, Əli paşanın rəhbərliyi altında beş-altı mindən ibarət bir dəstə vardır. Osmanlı qoşunlarının Sufiyana yetişərək orada döyüşə hazırlaşması haqqında da Şah Abbasa vaxtında məlumat çatdırıldı. Şah Abbas təxminən qızılbaş qoşun dəstəsinin sayına yaxın olan Osmanlı qoşunu ilə qarşılaşmalı olacaqdı. Conabedinin verdiyi məlumata görə isə, Osmanlı qoşunlarının sayı on iki minə çatırdı. Yəni Osmanlı qoşunları say üstünlüyünə malik idilər (80).

Osmanlı qoşunlarının Sufiyana gəlməsi xəbərini alınca Şah Abbas da qoşuna həmin istiqamətə irəliləmək əmri verdi. O, Təbriz şəhərinin taleyini həll edəcək savaşın şəhərdən kənarda baş verməsini qərarlaşdırdı və şəhərdən iki fərsəx məsafədə olan Hacı Hərami adlı yerdə qızılbaş qoşunları dayanacaq etdilər. Burada Şah Abbas tərəfindən qızılbaş qoşunlarının qarşıdakı döyüş üçün qruplaşdırılması aparıldı. İsgəndər bəy Münşinin yazdığına görə, say baxımından üstünlüyə malik olmasına baxmayaraq Şah Abbas döyüşə ciddi hazırlaşdı, Osmanlı qoşunlarına qarşı laqeydlik nümayiş etdirmədi. Onun qərarı ilə Ərdəbil hakimi Zülfüqar xan qoşunların çərxçisi təyin edildi və onun rəhbərliyi altında olan qoşun dəstəsi Osmanlı qoşunları istiqamətində irəli göndərildi. Bundan sonra qüvvələr bölüşdürüldü, hər bir dəstəyə təcrübəli və döyüşkən əmirlər verildi. Qoşunların sağ və sol cinahları müəyyənləşdirildi, bu cinahlar da təcrübəli əmirlərin rəhbərliyi altına verildi. Şah Abbas özü isə qoşunların mərkəzində qərar tutdu. Sonra da musiqi alətlərinin sədaları altında döyüş meydanına doğru hərəkət başladı: “Kərənay, nəfir, gəbərkə və kus sədaları fələyin mavi

rəngli kümbəzinədək ucaldı. Əli paşa da qarşı tərəfdən rumilərin döyüş qaydasına uyğun olaraq top arabalarını və zərbzənləri bir-birinə bağladı, topçu və yeniçəriləri irəli atdı, özü Mahmud paşa ilə birlikdə qəlbdə dayandı. Əzm ilə irəliləyən mübarizlər bir-birinə çatdılar, qızılbaş və rumi döyüşçüləri qılınc və nizə ilə döyüşməyə başladılar. Döyüşün başlanğıcında rumilər igidlik göstərib, ardı-ardınca cəsarətli həmlələr edirdilər. Dərya dalğalı qızılbaş çərxçiləri hümayun qoldan (şahın dayandığı yerdən – red.) aralı olduqlarından hələ rumilərlə möhkəm döyüşə başlamırdılar. Qoşunun qabağında gedən Kürd Ulamənin oğlu Əyyubə Sultan rumilər tərəfindən öldürüldü. Hümayun qol dəstəsinin döyüş meydanında görünməsindən sonra, müzəffər şah məiyyətinin aləmi yandıran qələbə nişanlı əsgərləri hamılıqla şığıyıb müxaliflərin üstünə atıldılar. Hərb atəşi göyə ucaldı. Qızğın atların təpiklərindən göyə qalxan toz su kimi onların başlarına tökülürdü. Rumiyyə döyüşçüləri döyüş meydanı igidlərinin hücumuna tab gətirməyib padşahın bayraqlarını görərək titrətməyə düşdülər, süstləşdilər, qaçmağa başladılar" (81).

Göründüyü kimi, döyüş meydanında qarşılaşma Osmanlı qoşunlarının ilkin uğurları ilə başlasa da, onlar şah qoşunları qarşısında davam gətirə bilmədilər və döyüş meydanını tərk edərək qaçmağa üz tutdular. Qızılbaş döyüşçülərinin fədakarlığı nəticəsində tezliklə Osmanlı dəstəsinin müqaviməti qırıldı və Osmanlı döyüşçüləri geri çəkilmək məcburiyyətində qaldılar. İsgəndər bəy Münşinin verdiyi məlumata görə, Osmanlı paşalarından Mahmud paşa ilə Xəlil paşa bu döyüşdə həyatlarını itirdilər. Əli paşa özü isə əsir götürüldü və onu Şah Abbasın hüzuruna gətirdilər. Şah Abbas ona ehtiramla yanaşdı, ona ürək-dirək verərək həyatına toxunulmayacağını bəyan etdi. Bu döyüşdə Əli paşanın oğlu Məhəmməd Əmin bəy də iştirak edirmiş. Əli paşa oğlunun həyatı üçün narahat olduğu bir vaxtda onu tapıb sağ-salamat yanına gətirdilər. Döyüş meydanından çıxmalı olan Osmanlı döyüşçüləri Mərənd tərəfə üz tutdular. Qızılbaş döyüşçüləri onları xeyli təqib etdilər və yaxalaya bildiklərini qılınca tutdular. Əldə edilmiş uğu-

ru Şah Abbas böyük sevinclə qarşıladı və bu uğura görə yaradana dualar etməyə başladı. Açıq meydanda əldə edilmiş uğurdan sonra Şah Abbas qoşunların üzünü Təbriz qalasına tərəf çevirdi (82).

Təbriz şəhəri daxilində az sayda olsa belə Osmanlı qüvvəsi qalmışdı və bu qüvvə şəhərin təhvil verilməsinə elə də meylli deyildi. Şah Abbas Təbriz divarları kənarına yetişdikdən sonra qala daxilində olan Osmanlı döyüşçülərinə ismarıc göndərdi və bu ismarıcda onlara vəd olundu ki, Təbriz daxilində və ətrafında ev-eşik sahibi olan Osmanlı döyüşçüləri burada qalaraq arxayın şəkildə öz həyatlarını davam etdirə bilərlər. Əks təqdirdə isə onlara salamat şəkildə çıxıb getmək haqqı saxlanırdı: "Özünüzü əbəs yerə həlak etməyin və qalanı təslim edin. Təbriz vilayətindən olan hər kəs dərgah mülazimləri silkinə daxil olunaraq rumiyyə [üsul-idarəsi] dövründə olduğu kimi öz ülufə və başqa imtiyazlarına sahib olacaqdır. Amma, kim ki, çıxıb getmək istəyir, öz əhli-əyalı, var-dövləti ilə birlikdə sağ-salamat, müzəffər əsgərlərdən heç bir zərər görmədən qalanı tərk edə bilər" (83).

Qala daxilindəki Osmanlı döyüşçüləri bu təklifi qəbul etmədilər və onlar qalanı təhvil verməyəcəklərini bildirdilər. Belə olanda Şah Abbas Əli paşanı qaladakı Osmanlı döyüşçüləri ilə danışıqlar aparmağa göndərdi. Lakin bu da bir nəticə vermədi. Qala daxilindəki Osmanlı döyüşçüləri öz sərkərdələrinin sözünü də qəbul etmədilər və qalanı müdafiə etmək üçün qərarlı olduqlarını bildirdilər. Bundan Şah Abbas xəbər tutduqda Təbriz qalasının mühasirəyə alınması haqqında əmr verdi. Onun üçün də qızılbaş dəstələri qala ətrafına gətirildilər və qala divarları onlar arasında bölüşdürüldü. Qala daxilindəki Osmanlı döyüşçüləri qalanın mühasirəsi üçün qızılbaş qüvvələri tərəfindən həyata keçirilən işləri müşahidə etdikdən sonra müqavimət göstərmək gücündə olmadıqlarını anladılar. Həm də qala daxilində azuqə ehtiyatlarının az olması Osmanlı döyüşçüləri üçün yaxşı heç nə vəd etmirdi. Kənardan əlavə Osmanlı qüvvələrinin gələcəyi isə elə də inandırıcı deyildi. Vəziyyətin çıxılmaz olduğunu gördükdə Osmanlı döyüşçüləri bir yerə toplaşıb məsləhətləşməyə başladılar. Bu məsləhətləş-

mələrin nəticəsi də o oldu ki, Osmanlı döyüşçüləri müqavimət göstərmədən Təbriz qalasının təhvil verilməsinə razı oldular. Onlar tərəfindən Şah Abbas düşərgəsinə nümayəndə heyəti göndərildi və bildirildi ki, Osmanlı döyüşçülərinin canlarına və mallarına toxunulmayacağı halda onlar qalanı təhvil verməyə hazırdırlar. Şah Abbas bu xahişi qəbul etdi və Osmanlı döyüşçülərinə sağ-salamat çıxıb getmək imkanı verildi. Təbrizdə qalmaq istəyən Osmanlı döyüşçüləri şah qayğısı ilə qarşılaşdı. Onların malik olduqları imtiyazlar saxlanıldı və onlar sərbəst şəkildə Səfəvi hüdudlarında yaşamaq hüququ əldə etdilər (84).

Bununla, Təbriz şəhəri yenidən Səfəvi hüdudlarına qaytarıldı. Səltənətin ilk paytaxtı olmuş bu şəhərin azad edilməsi münasibətilə ətraf bölgələrin hakimlərindən və əhalisindən çoxlu sayda təbriklər gəldi. Şah Abbas Təbrizin azad edilməsindən sonra şəhərin və ətraf məntəqələrin idarəçilik məsələlərini tənzimlədi, Təbriz şəhərinin hakimliyi Zülfüqar xana tapşırıldı. Ətrafdakı bir sıra yaşayış məntəqələri də qızılbaş əmir və əyanlarının idarəçiliyi altına verildi. Təbriz hakimi və Azərbaycan bəylərbəyi olmuş Əli paşa Səfəvi hüdudlarında qalmağı qərara aldı. Onun qorxmaz və bacarıqlı bir döyüşçü olması Şah Abbasın təqdirinə layiq görüldü. Əli paşanın Bəstam ağanın evində yerləşdirilməsi və qayğılarının da Bəstam ağa tərəfindən həll edilməsinə qərar verildi. İsgəndər bəy Münşinin yazdığına görə, Əli paşa söhbətləri və davranışları ilə şahın ehtiramını və etibarını qazandı və sonradan şah məclislərinə yol tapdı (85).

Conabedinin yazdığına görə isə, Təbrizin hakimliyi Pir Budaq xan Pornaka tapşırıldı. Əvvəllər Təbrizin hakimliyi və onun mühafizəsi türkman tayfasının təmsilçilərinə həvalə edilərdi. Şah Abbas bu ənənədən kənara çıxdı. Pir Budaq xanın türkman tayfası arasında elə də böyük nüfuzu yox idi. Bunu Şah Abbas da bilirdi. Buna baxmayaraq Şah Abbas Təbriz hakimliyini ona həvalə etdi. Bu vəzifəyə təyin edilməzdən əvvəl ona xan məqamı, habelə bayraq və təbil də verildi. Eyni zamanda ona tapşırıldı ki, türkman tayfasına qarşı xoş münasibətdə olsun və bu tayfanın qayğılarını

vaxtında həll etsin. Pir Budaq xan bu yolla türkman tayfasının da rəğbətini qazanmağa çalışmalı idi (86).

Şah Abbas hələ Təbrizdə ikən Çıraq Sultan Kərəmpa Ustaclı adlı birisini Naxçıvan və İrəvan istiqamətinə göndərdi və ona tapşırıldı ki, həmin bölgələrdə yerləşən Osmanlı qoşunlarının sayı və təchizatı haqqında məlumatlar toplasın. Təbriz şəhərinin azad edilməsi uğurla başa çatdırıldıqdan sonra Şah Abbas Naxçıvan və İrəvan istiqamətinə irəliləmək və həmin bölgələri də Osmanlı nəzarətindən azad edərək yenidən səltənət hüdudlarına daxil etmək istəyirdi. O vaxtlar İrəvan və Naxçıvan bəylərbəyi Şərif paşa adı ilə məşhur olan Seyid Məhəmməd paşa idi. Əli paşanın Qarnıyarıq qalası üzərinə hücumunda Naxçıvandan olan qoşun dəstəsi də iştirak edirdi. Həmin dəstə hücumu başa çatdırandan sonra Mərənd yaxınlığında Əli paşadan ayrıldı və Naxçıvana yollandı. Bu dəstənin üzvləri heç Naxçıvana çatmamışdılar ki, Əli paşanın qızılbaş qoşunu ilə döyüşdə uğursuzluğa düçar olmasından xəbər tutdular. Belə olanda dəstə üzvləri öz həyatları üçün qorxaraq İrəvan qalasına yollandılar. Orada daha böyük Osmanlı qarnizonu var idi və bu qarnizona daha əminliklə arxalanmaq olardı. Şərif paşa özü də İrəvan qalasında yerləşmişdi. Bununla belə, Şərif paşa Naxçıvanı mühafizəsiz də qoymadı. O, yüz əlli nəfərlik bir dəstəni Naxçıvanın müdafiəsinin gücləndirilməsinə göndərdi. Eyni zamanda İrəvan qalasının möhkəmləndirilməsi üçün əlavə tədbirlər həyata keçirildi. Bu zaman Şərif paşanın yanında on iki min nəfərlik bir qoşun dəstəsi var idi. Bu sayda olan bir qoşun dəstəsinin yerləşdirilməsi üçün İrəvan qalası darlıq edirdi. Ona görə, Şərif paşa qərara aldı ki, Naxçıvan qarnizonun əvvəllər qərar tutduğu yerdə yeni bur qala tikdirsin. İrəvan qarnizonu və İrəvan ətrafında yaşayan əhali bu qalanın tikilməsinə cəlb edildi. Şah Abbasın Təbrizdə qaldığı iyirmi gün ərzində həmin qalanı tikib başa çatdırmaq mümkün oldu. Sonra isə bu qala daxilinə iki-üç ilin azuqə ehtiyatları, habelə silah və təchizat ehtiyatları toplandı (87).

İrəvan üzərinə hücum başlamaq qərarı qəbul olunanda Şah Abbasın tapşırığı ilə Zülfüqar xan yenə də qoşunların çərxçisi

təyin edildi və bir qızılbaş dəstəsi ilə irəli göndərildi. Bu qoşun dəstəsi tezliklə Naxçıvana yetişdi. Qeyd edildiyi kimi, Naxçıvanda olan Osmanlı döyüşçüləri şah qoşunlarının hücum təhlükəsini ehtimal etdikləri üçün İrəvana çəkilmişdilər. Naxçıvanın müdafiəsində elə də böyük bir qüvvə yox idi. Zülfüqar xanın öz dəstəsi ilə yetişməsi Naxçıvan sakinləri və ətraf məntəqələrin əhalisi tərəfindən böyük sevinclə qarşılandı. Bu şəhərdə olan Osmanlı döyüşçüləri isə çıxılmaz vəziyyətlə qarşılaşdılar. Onların qızılbaş dəstəsinə müqavimət göstərmək imkanı yox idi. Osmanlı döyüşçüləri Zülfüqar xanın yanına öz nümayəndələrini göndərdilər. Onlar canlarına və mallarına zəmanət verildiyi halda Naxçıvanı təhvil verməyə hazır olduqlarını bildirdilər. Zülfüqar xan da Osmanlı döyüşçülərinə aman verdi. Şah Abbas qoşunların əsas qüvvələri ilə Naxçıvana yetişəndə bu şəhər artıq qızılbaş dəstəsinin nəzarəti altında idi. Bununla, bölgənin böyük şəhər-qalalarından biri olan Naxçıvan şəhəri də müqavimət olmadan yenidən Səfəvi hüdudlarına qaytarıldı (88).

Conabedi isə qızılbaş dəstələrinin Naxçıvan ətrafında müqavimətlə rastlaşdığını yazırdı. Bunu müəllif onunla izah edirdi ki, Naxçıvanda sünni məzhəbinə mənsub olan insanlar çox idi. Digər tərəfdən Naxçıvan və İrəvan bəylərbəyliyinin (Çuxursəəd) hakimi olan Şərif paşa Naxçıvanda yerləşmişdi. Ona görə Naxçıvanda və onun ətrafında Osmanlı təəssübkeşi olan insanların sayı da artmışdı. Bu insanlar qızılbaş dəstələri yaxınlaşanda müqavimət yolunu tutdular və qızılbaş dəstələrinə qarşı mübarizəni "böyük cihad" adlandırdılar. Şah Abbas əmr etdi ki, Naxçıvanda müqavimət göstərən qüvvələr zərərsizləşdirilsin və Naxçıvan qalası da dağıdılsın. Bu əmrin icrası kimi Naxçıvan qalası qızılbaş dəstələri tərəfindən dağıdıldı. Həmin vaxt Culfa ətrafında bir miqdar erməni də yaşayırdı və onlar əsasən, ticarətlə məşğul olurdular. Bu kütlənin səltənət ticarətinin təşkilində müəyyən fəaliyyəti ola bilərdi. Ona görə Şah Abbas onları Naxçıvan ətrafından köçürməyi və səltənət paytaxtına yaxın bir yerdə məskunlaşdırmağı qərara aldı. Şah Abbas bu məsələ ilə bağlı İsfahan vəziri Mirzə Məhəmməd

Nişapuriyə hökm göndərdi və ona tapşırdı ki, şəhərin Abbasabad xiyabanı tərəfdə, Zayəndərud çayının sahilində ermənilərin məskunlaşdırılması üçün yer ayırsın. Şah Abbas onu da tapşırdı ki, ermənilərin məskunlaşdığı yer də Culfa adlandırılsın (89).

Naxçıvan qalasının məsələsi həll edildikdən sonra Şah Abbas qoşun dəstəsi ilə İrəvana doğru irəlilədi. Bu zaman Şah Abbas və onun ətrafı müəyyənləşdirə bildilər ki, bölgədən təxminən 12 min nəfərlik əlavə qoşun dəstəsi toplamaq mümkündür. Həmin ehtiyatlardan toplanan qoşun dəstələri də İrəvan ətəyinə gətirildi və bu şəhər üzərinə hücuma cəlb edildi. İsgəndər bəy Münşinin yazdığına görə, ilk qızılbaş dəstələri İrəvana yaxınlaşdıqda qaladakı Osmanlı qüvvələrindən bir dəstə qala kənarına çıxdı və tərəflər arasında kiçik bir qarşıdurma baş verdi. Həmin qarşıdurmada öldürülən olmasa da, bir neçə nəfər yara aldı. Ertəsi gün isə şah qoşunlarının əsas qüvvələri İrəvan qalası ətrafına gəldi. Bu hadisə 1603-cü il oktyabr ayının ortalarında baş verdi. Şah qüvvələrə şəhərə yaxınlaşaraq ətrafda olan yüksəkliklərdə, bağlarda mövqe tutdular. Amma bu qüvvələri Osmanlı qoşunlarının toplarının, badliclərinin sürəkli atəşləri qarşıladı. Qala divarları üzərində qurulmuş olan toplar sürəkli şəkildə qızılbaş qüvvələrini atəşə tutdular. Bu atəş o qədər sürəkli və güclü idi ki, qızılbaş döyüşçüləri müdafiə mövqelərində dayanmaqla səbir etməyə üstünlük verdilər ( 90).

Conabedi isə yazırdı ki, Osmanlı qüvvələrinin çoxlu topları var idi və bu qüvvələr toplardan sərrast atəş açmaqda böyük təcrübə qazanmışdılar. Qızılbaş dəstələri İrəvana yaxınlaşanda Osmanlı topları hamılıqla işə salındı və şah qoşunları güclü atəşə tutuldu. Belə olanda Şah Abbas əmr verdi ki, qoşunlar qaladan top atəşlərinin təsir göstərməyəcəyi məsafədə qərar tutsunlar. Beləcə şah qoşunları Osmanlı toplarının təsir edə bilməyəcəyi məsafədə dayandılar. Hava qaralandan sonra isə Şah Abbasın tapşırığı ilə qızılbaş döyüşçüləri irəli hərəkət etdilər, şəhər ətrafındakı yüksəkliklərdə mövqe tutdular. Şah qoşunları daxilində də toplar, badliclər var idi. Conabedi onlardan Xorasandan olan tüfəngçiləri və topçuları xüsusilə qeyd edirdi. Bu topçular və tüfəngçilər uyğun

mövqeləri tutduqdan sonra İrəvan qalasını sürəkli atəşə tutdular. Müəllifin yazdığına görə, qızılbaş topçuları və tüfəngçiləri gecə-gündüz atəşi davam etdirdilər. Həmin vaxt top atəşlərinin himayəsi altında nəqəbçilər də qala divarları altından lağım atmağa başladılar. Nəqəbçilərin fəaliyyətinə təcrübəli qızılbaş əmirləri rəhbərlik edirdilər. Şah Abbas tez-tez topçuların yanına gəlir və onların fəaliyyətini diqqət altında saxlayırdı. Onun xüsusi qayğısı topçuları daha da ruhlandırır və onlara əlavə gec verirdi (91).

İsgəndər bəy Münşinin yazdığına görə, İrəvan üç qaladan ibarət idi. Onlardan birincisi və daha qədimi Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində Osmanlı qoşunlarının İrəvan üzərinə hücumu zamanı tikilmişdi. Bu qala Zəngi çayının kənarında yerləşmişdi və onun divarlarının kənarları boyu dərin xəndəklər qazılaraq içərisi su ilə doldurulmuşdu. İrəvan qalasının cənub-qərbindəki təpəlik üzərində daha bir qala tikilmişdi. Bu qala kiçik bir qala idi və onun daxilində yaşayış üçün zəruri olan bütün imkanlar yox idi. Məsələn, bu qalada olanlar suyu böyük qaladan gətirirdilər. Böyük və kiçik qalalar arasındakı məsafə də çox böyük deyildi. Həmin qala Gözçü qalası adlanırdı. Üçüncü qala isə Şərif paşa və Osmanlı qüvvələri tərəfində yenicə tikilmiş olan qala idi. Bu qalanın ətrafına xəndəklər qazılması üçün vaxt çatmasa da, onun kifayət qədər digər müdafiə imkanları var idi. Osmanlı qüvvələri qala daxilində etibarlı şəkildə müdafiə olunmağı bacarırdılar. Ona görə istər Osmanlı qüvvələrində, istərsə də bölgə insanlarında şah qoşunlarının bu qalaları fəth edə biləcəyinə böyük bir şübhə var idi (92).

İrəvan qalasının güclü müdafiə imkanlarına malik olması Şah Abbası heç də ehtiyatlandırmadı və qalanın fəth edilməsi üçün öz planının icrasına başladı. Onun tapşırığı əsasında qala divarları qızılbaş əmirləri və sərkərdələri arasında bölüşdürüldü Gözçü qalasının alınması isə Zülfüqar xana və Azərbaycan qoşunlarına həvalə olundu. Qalanın fəth edilməsi ilə bağlı təcrübəli əmirlər konkret tapşırıqlar aldılar. Bununla belə, İrəvan qalasının alınması elə də asanlıqla başa gəlmədi. Şərif paşa yalnız müdafiə mövqelərində

dayanmaqla kifayətlənmədi. O, fəal müdafiə taktikasını seçdi və bununla bağlı davamlı şəkildə qoşun dəstələrini qala xaricinə göndərdi. Həmin dəstələrlə qızılbaş dəstələri arasında döyüşlər baş verdi. Qızılbaş döyüşçülərinin müəyyən hissəsi qürur və arxayınçılıq hissləri ilə kifayətlənərək lazım olan əzmkarlığı nümayiş etdirə bilmirdilər. Osmanlı döyüşçüləri isə əksinə, daha ehtiyatla, daha məntiqli şəkildə vuruşmağa çalışırdılar. İrəvan qalasının divarları qoşun dəstələrinin arxa xəttinin təhlükəsizliyinə kömək edirdi. Bundan daha səmərəli faydalanmağa çalışan Osmanlı döyüşçüləri qala divarları ətrafında pusqular qurur və qızılbaş döyüşçülərinə hiss ediləcək itkilər yetirirdilər. Belə taktikanın seçilməsi Osmanlı tərəfini qane edirdi. Çünki bu taktikanın tətbiqi ilə şah qoşunlarına hiss ediləcək itkilər yetirmək mümkün idi. Ona görə də Şah Abbas bu taktikadan əl çəkdi. O, göstərişi ilə qala darvazaları yaxınlığında bir körpü tikildi. Həmin körpüdə qızılbaş döyüşçüləri yerləşdirildi. Onların arasında tüfəngçilər də var idi. Bu döyüşçülər qala darvazalarını hədəf alaraq oradan Osmanlı döyüşçülərinin kənara çıxmasının qarşısını almalı idilər. Osmanlı qüvvələri qaladan kənara çıxmağın mümkün olmadığını görüncə elə qala daxilində müdafiə olunmaq məcburiyyətində qaldılar (93).

Digər qalalar ətrafında da döyüş gedirdi. O qalaları da ələ keçirmək mümkün olmamışdı. İsgəndər bəy Münşi həmin günlərdə top tökülməsinə başlandığını da yazırdı. Bu işə Topçubaşı Bəxtiyar bəy rəhbərlik etməli idi (94). Görünür, döyüşlərin gedişindən İrəvan qalasının mühasirəsinin uzun müddət davam edəcəyi güman edilirdi.

Tərəflər arasında davam edən top atışmaları zamanı mərmilərdən biri su bürcünün borularını dağıtdı və su ətrafa yayıldı. Elə bu zaman Zülfüqar xanın mülazimləri yaranmış vəziyyətdən istifadə edərək qalalar arasındakı dərəyə doluşdular. Onların bura gəlişi Gözçü qalasındakı Osmanlı qüvvələrinin vəziyyətini çətinləşdirdi. Çünki onlar su mənbələrindən məhrum oldular və köhnə qaladan onların su gətirmək imkanlarının da qarşısı alındı. Belə bir şəraitdə qalada uzun müddət müqavimət göstərməyin mümkün

olmayacağını gördükdə Gözçü qalasındakı Osmanlı döyüşçüləri fürsət tapıb özlərini yeni tikilmiş qalaya çatdırdılar. Bununla, Gözçü qalası qızılbaş döyüşçülərinin əlinə keçdi. Bu qalanın ələ keçirilməsi qızılbaş döyüşçülərini xeyli ruhlandıra bildi. Amma havaların soyuması və hava şəraitinin mürəkkəbləşməsi şah qoşunlarının digər qalalar üzərinə də uğurlu hücumlar etməsini təxirə saldı. Yaranmış vəziyyətdə qızılbaş döyüşçüləri yalnız tutduqları mövqelərin möhkəmləndirilməsi qeydinə qalırdılar. Osmanlı qüvvələri bundan istifadə edib dəstə-dəstə qalanı tərk edərək qızılbaş dəstələrinin üzərinə hücumlar etdilər. Bu hücumlar qızılbaş döyüşçülərinə müəyyən itkilər yetirsə də, Osmanlı qüvvələri də itkisiz ötüşə bilmədilər. Ona görə də Osmanlı qüvvələrinin qızılbaş mövqeləri üzərinə sürətli hücumlarına son qoyuldu (95).

Qala xaricinə edilən yürüşlərin təhlükəli olduğunu görəndə Osmanlı qoşun rəhbərliyi yenidən qala üzərinə top atəşlərinin gücləndirilməsinə diqqəti artırdılar. Bunun nəticəsində şah qoşunlarına, xüsusilə qoşunların ordubazarına əlavə itkilər gətirmək mümkün oldu. Qış soyuqlarının başlaması isə İrəvanın mühasirəsinin uzanmasına gətirib çıxardı. Mühasirənin davam etdiyi günlərdə hind padşahı Cəlaləddin Məhəmməd Əkbərin elçisi Mir Məhəmməd xan Məsum Mokri Şah Abbasın qəbuluna gəldi. Hind elçisi hələ yeddi il əvvəl Səfəvi sarayı tərəfindən təmsil etdiyi ölkəyə elçi kimi göndərilmiş Mənuçöhr bəy Eşikağası ilə birlikdə gəldi və Şah Abbasa hind padşahı adından çoxlu sayda qiymətli hədiyyələr təqdim etdi. Hədiyyələr arasında bir ədəd qılınc və çoxlu sayda qiymətli metal və daşlarla bəzədilmiş zirehli geyim də var idi. Bu qılınc Şah Abbasın başladığı hərbi yürüşün qələbə rəmzi kimi qəbul edildi və şah tərəfindən o qılıncdan başqa digər bütün hədiyyələr əmir və əyanlar arasında bölüşdürüldü (96).

İrəvanın mühasirəsinin davam etdiyi günlərdə Kaxet valisi Aleksandr xan da Şah Abbasın hüzuruna gəldi və ona öz itaətini bildirdi. Aleksandr xan hələ Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi sarayına itaəti qəbul etmişdi və hər il vaxtlı-vaxtında bac-xəracını Səfəvi sarayına göndərirdi. Şah Təhmasibin dünya-

sını dəyişməsindən sonra Osmanlı qoşunları Şirvan vilayətini tutmaq üçün hərbi yürüşə başlayanda onların yolu Gürcüstandan keçdi. Kartli valisindən fərqli olaraq Kaxet valisi Aleksandr xan Osmanlı qoşunlarının gücü ilə hesablaşmağı məqsədəuyğun saydı və Osmanlı sarayına itaəti qəbul etdi. Bundan sonra o, Osmanlı xəzinəsinə bac-xərac göndərdi. Bununla belə, Aleksandr xan Səfəvi sarayı ilə də əlaqələrini kəsmirdi, Osmanlı xəzinəsinə bac-xərac verməsinə baxmayaraq Səfəvi sarayına da davamlı olaraq qiymətli hədiyyələr göndərirdi. Şah Abbas qoşunları İrəvan ətrafında olanda Aleksandr xan onun dərgahına gələrək Səfəvi sarayına sadiq qalacağını bəyan etdi. Onun şah düşərgəsinə gəlişi xüsusi bir mərasimlə qarşılandı. Şah tərəfindən Səfəvi sarayının nüfuzlu əmirləri və əyanları onun qarşılanmasına göndərildi. Aleksandr xan şahın hüzurunda olarkən başındakı tacını çıxarıb ona təqdim etdi. Şah Abbas da ona qarşı xüsusi bir mehribanlıq nümayiş etdirdi, Kaxet valisi şah məclislərinin üzvlərindən birinə çevrildi (97).

İrəvan mühasirədə olduğu zaman, yəni 1603-cü il dekabr ayının 22-də Sultan III Məhəmməd dünyasını dəyişdi və onun on dörd yaşında olan oğlu I Əhməd Osmanlı sultanı elan edildi. İrəvanın mühasirəsinin davam etdirilməsi və azad olunması da Sultan I Əhmədin hakimiyyəti zamanı baş verdi.

İrəvanın alınması üçün şah qoşunlarının fəallaşması 1604-cü ilin yazında başladı. Novruz bayramı şənlikləri başa çatandan sonra Şah Abbas da bütün diqqətini İrəvanın alınmasına yönəltdi. İrəvanın qədim qalasının və Osmanlı qüvvələri tərəfindən yenicə tikilmiş qalanın divarlarının dağıdılması üçün Şah Abbasın tapşırığı ilə iki ədəd xüsusi qala vuran toplar töküldü. Bu topların hər biri təxminən yüz kilo ağırlığında olan daşları müəyyən məsafəyə atmaq gücünə malik idi. Bu toplarla əvvəlcə yeni tikilmiş qalanın divarlarının vurulmasına başlandı. Sonra isə həmin toplar qədim İrəvan qalasının divarları ətəyinə gətirildi. Qala divarlarının top atəşinə tutulması ilə bərabər, səngər qazma və lağım atma işləri də davam etdirildi. Şah Abbasın tapşırığı ilə bu işlər hətta gecələr də

şam işığında davam etdirilirdi. Həmin işlər eyni zamanda yeni tikilmiş qala ətrafında da aparıldı. Qala divarları davamlı şəkildə müşahidə edilərək onun alınması üçün yeni-yeni qüvvələr və vəsaitlər cəlb olundu. Xüsusilə, qədim İrəvan qalasının alınmasına ən təcrübəli əmirlər yönəldildi. Məsələn, Zülfüqar xan Qaramanlıya qədim qalanın şimal divarları həvalə olundu. Onun rəhbərliyi altında olan Azərbaycan qoşunları da həmin istiqamətə səfərbər edildi. Qalanın şərq divarları Təbriz və Bafqi tüfəngçilərinə tapşırıldı. Beləliklə, qala divarlarını digər hissələrinin alınması üçün də yeni qüvvələr ayrıldı. Şahın tapşırığı ilə qədim və yeni qalanın alınması işləri eyni vaxtda aparılırdı. İrəvan qalasının yalnız qərb tərəfi Zəngi çayının kənarında yerləşdiyi üçün qızılbaş qüvvələri tərəfindən mühasirəyə alınmadı. Qalanın digər istiqamətlərində isə mühasirə dairəsi daha da daraldıldı (98).

İrəvan qalasının ələ keçirilməsi işinin daha da sürətləndirilməsi üçün Şah Abbas qala divarları qarşısında hündür bir təpənin yaradılması barəsində göstəriş verdi. Bu təpə qala divarlarından da hündür olmalı idi. Belə bir təpənin yaradılması ilə qala divarları üzərində qurulmuş Osmanlı toplarının atəşindən qızılbaş döyüşçülərinin atəşə tutulmasının qarşısını almaq olardı. Digər tərəfdən də bu təpənin üstündə qurulmuş toplarla qala daxilini atəşə tutmaq olardı. Belə bir təpənin yaradılması işinə qızılbaş döyüşçülərindən əlavə böyük sayda yerli əhali də cəlb edildi (99).

Xarici müşahidəçilərin biri öz xatirələrində yazırdı ki, Şah Abbas qoşunların yerləşdiyi düşərgə ilə İrəvan qalası arasında qala divarlarından hündür olan bir təpənin yaradılması haqqında göstəriş verdi. Həmin işin görülməsi üçün qızılbaş döyüşçülərindən əlavə ətraf məntəqələrin əhalisi də cəlb edildi. İşə cəlb edilən yerli insanların sayı 13-14 min nəfər arasında idi. Bu insanlar dəstələrə bölündü və onların hər biri qızılbaş əmirlərindən birinin rəhbərliyi altına verildi. Əzəmətli bir təpənin yaradılması işi həm böyük sürətlə, həm də səliqə və sahmanla görüldü. İşlər elə qurulmuşdu ki, hər bir adam öz vəzifəsini bilirdi və kimsə digərinin işinə mane olmurdu. Hətta kimsənin haqqı yox idi ki, öz yerini

dəyişsin və kimsədən bir addım irəli getməyə tələssin. Bu işlər Osmanlı döyüşçülərinin davamlı atəşləri altında aparılırdı. Osmanlı gülləsinin qurbanı olanların da dərhal dəfni təşkil edilirdi. Süni təpənin yaradılması işi gecə-gündüz davam etdi. Osmanlı qüvvələri bu təpənin yaradılmasının qarşısını almaq üçün bir neçə dəfə qala xaricinə çıxdılar və xeyli sayda işçini qətlə yetirdilər. Amma işçilərin sayı xeyli çox idi. Ona görə də süni təpənin yaradılması işinin qarşısını almaq mümkün olmadı. Süni təpə üzərində iş aparılmaqla bərabər, həm də İrəvan qalası üzərinə hücum da davam etdirilirdi. Şah Abbas öz əmirlərinə göstəriş vermişdi ki, hər gün qala üzərinə həlledici hücum üçün hazır olsunlar. Əslində, bununla Şah Abbas özünəməxsus bir taktika işlətmək istəyirdi. Onun göstərişi əsasında, xüsusi işarədən sonra qızılbaş dəstələri təbilləri və şeypurları səsləndirməklə qala üzərinə hücuma başlanması görüntüsü yaratmalı idilər. Dəstələr qala divarları yanına yürüş edib sonra geri qayıtmalı idilər. Bununla, qalanın Osmanlı qarnizonu daim gərginlikdə saxlanılırdı. Həmin gərginlik isə Osmanlı qarnizonunu əldən salırdı (100).

İrəvan qalası ətrafında süni təpə hazır olduqdan sonra Şah Abbas yaxın ətrafını yanına topladı və onlarla həlledici hücumun başlanması barəsində məsləhətləşmələr apardı. Bu məsləhətləşmələr on günə qədər davam etdi. Qızılbaş əmirlərinin bəziləri həlledici hücumun başlanmasına tərəfdar idilərsə, digərləri buna etiraz edirdilər. Etiraz da onunla bağlı idi ki, həlledici hücumun gedişində xeyli sayda qızılbaş döyüşçüsü Osmanlı döyüşçülərinin gülləsinə hədəf ola bilərdi. Qızılbaş əmirləri döyüşçülər arasında böyük sayda itkinin olmasını qəbul etmək istəmirdilər. Nəhayət, 1604-cü il may ayının 26-dan 27-nə keçən gecə eyni vaxtda həm qədim, həm də yeni qala üzərinə həlledici hücumun başlanması qərara alındı. Qəbul olunmuş qərara görə, qədim qala top və tüfəng atəşlərinə tutulmalı, yeni qala üzərinə isə qızılbaş dəstələri hücuma başlamalı idi. Həlledici hücum kərənay, şeypur və təbillərin səsləndirilməsindən sonra başlamalı idi (101).

Həlledici hücumla bağlı qərarın qəbul edilməsindən əvvəl Şah Abbas qala divarları ətrafına yollandı və qala divarları ətrafında yaranmış vəziyyəti şəxsən müşahidə etdi. Baxmayaraq ki, qala divarları ətrafına getmək kifayət qədər təhlükəli idi və divarların ətrafı Osmanlı tüfəngçiləri tərəfindən davamlı şəkildə müşahidə olunurdu, bununla belə Şah Abbas bu təhlükədən çəkinmədi. İsgəndər bəy Münşi öz əsərində bu barədə belə yazırdı: “Nəhayət, belə qərara alındı ki, əlahəzrətin özü seybələrin yanına gedərək, hər şeyi öz gözü ilə müşahidə etsin və o hər nəyə əmr edərsə, iqbal fədailəri itaət kəmərlərini bellərinə bağlayıb o işə başlasınlar. Baxmayaraq ki, belə hərəkətlər padşahlara dəxli olan məsələlərdən deyildir və ehtiyatkarlıq tələb edir ki, hökmdarların və nejad sahiblərinin şərafətli vücudları yeddi dəmir qala içərisində qorunsun, lakin əlahəzrət şah inanırdı ki, asimanın razılığı olmasa, heç bir iş sirr pərdəsi altından çıxaraq cilvələnməz. Buna görə də, o, qala ayağına getməkdən çəkinmədi. Tayı-bərabəri olmayan bədənini Allah himayəti ilə bəzəyib, qələbə əzmi ilə mübariz döyüşçülərin murçəllərinə tərəf təşrif apardı. Onlara tapşırılan hər işi yerinə yetirməkdən ötrü dərgah bəndələrinin hər biri bundan xəbər tutaraq seybələrin vəziyyətini bir daha yoxladı. Hazırlıq işləri bitdiyindən yürüş əmri verildi” (102).

Şah Abbas qala ətrafında səngərlərin və süni maneələrin hazırlanıb tamamlandığını müşahidə etdikdən sonra həlledici hücum qərarı verdi. Bu qərar döyüşçülər tərəfindən də sevinclə qarşılandı və dərhal da həlledici hücum üçün hazırlıqlar başlandı. Səngərlərə o qədər döyüşçülər toplandı ki, onlar hətta biri-digərinə maneçilik yaratmağa başladılar. Bu hücumun necə başlanması haqqında isə Şah Abbas qoşunlara belə bir göstəriş verdi: “Yürüş başlayan vaxt seybədəki döyüşçülər Ətiq qalası səmtinə hay-küy salsınlar və çoxlu top və oraya tüfəng güllələri atılsın. Amma öz yerlərindən tərpənməsinlər ki, Ətiq qalasının mühafizəçiləri özlərini itirsinlər, Yeni Qalaya kömək yollaya bilməsinlər. Sübhi-sadiq başlayan vaxt kərənay və sürənlər çalınsın, müzəffər döyüşçülərin hər biri öz mürcəllindən çıxıb bürc və barılara tərəf hücuma keçərək di-

varlarda yaranmış yarıqların arasından qalaya daxil olsunlar" (103).

Hücum başlanmalı olan gün səhər açılan kimi qızılbaş döyüşçüləri tərəfindən güclü hücum görüntüsü yaradıldı, onların səs-küyləri ətrafa yayıldı. Qala daxilindəki Osmanlı döyüşçüləri doğrudan da qızılbaş qüvvələrinin həlledici hücumunun başlandığını güman etdilər. Ona görə də onlar hazır və gərgin vəziyyətdə bütün günü qala divarları üzərində keçirdilər. Gecə isə güclü yağışın başlanması onları daha da əldən saldı. Bu güclü yağış qızılbaş döyüşçüləri üçün müəyyən çətinliklərə yol açsa da, onların uğurlu hücum üçün əlverişli bir fürsət də yaratdı. İsgəndər bəy Münşi həmin gecə baş verənləri belə təsvir edirdi: "Allahın razılığı ilə baş verən gözəl bir təsadüf nəticəsində belə bir əməl həyata keçdi: Gecə yarısına yaxın göy üzü tamamilə qaraldı və qapqara buludlar fələyin üstünü zil qaranlığa qərq etdilər, şiddətli yağış yağmağa başladı. Mürcəllərə və seybələrə elə sel axdı ki, gil və palçığın çoxluğundan qalibiyyətli qoşunun hərəkət etmək macalı belə olmadı. Buna görə də, belə düşündülər ki, yürüş [bir neçə günlüyə] təxirə salınsın, çünki belə hövlnak bir gecədə yürüşə keçmək mümkün ola bilməz. Sürət aləminin zahirpərəst adamları həmin tufanın zəfər yolu üçün sədd olduğunu və qalaya hücumun dayanacağını güman etdilər, amma məna cahanının uzaqgörən şəxslərinə məlum idi ki, o yağışın hər bir qətrəsi yerə iqbal buludundan düşməkdədir. Buna görə də, Allahın məsləhəti ilə ertəsi gecə həmin ayın iyirmi səkkizində cümə günü, yuxarıda qərara alınan tərzdə qalibiyyət nişanlı əsgərlər mürcəllərə yığılıb yürüşə hazır oldular. Rumilər keçən gecə olduğu kimi gecə yarısına qədər döyüşə hazır vəziyyətdə gözlədilər, amma gecə yarısından sonra bütün əlamətlərinə görə bürclərdə və barıların üstündə az adamın qaldığı, əksər adamların isə yuxuladığı hiss olundu Düşmənlərin bəxt ulduzunun qürubu olan sübhi-sadiqin başlanmasına yaxın saatda qızılbaş sərdarları bir-birini xəbərdar etdilər. Əvvəlcə qorçilər tərəfdən kərənay çalındı, hər tərəfdən sürən səsləndi və [qızılbaşlar] qala üzərinə tökülüşdülər. Ətiq qalası istiqamətindən də

sürən çalındı, şadimanlıq nağaraları nəvazişlə döyülməyə başladı. Rumilər xəbərdar olub özlərini bürc və barıların yanına çatdırdılar, döyüş başlandı. Hər tərəfdən yayılan top-tüfəng səsləri yeri-göyü titrətdi. Bu tərəfdən ucalan kərənay sədaları fələyin qulağını kar etdi. Qızılbaş ləşkərinin qızılbaşları düşmənlərdən qətiyyən qorxmayaraq özlərini səməndər kimi cəng atəşinin içərisinə atdılar. Məğlubedilməz qoşunun mərdanə döyüşünü görən rumilərin iqamət ayaqları sustaldı, əlləri hərəkətdən qaldı. Bəlanın hər tərəfdən gəldiyini müşahidə etdilər və qalanı artıq qızılbaş dəstələri ilə dolu gördülər. Döyüşü davam etdirə bilməyib, zərurət üzündən pərişanlıqla Ətiq qalasına tərəf üz tutdular. Əcəli hələ gəlib çatmayan hər bir rumi özünü qalaya çatdırıb yarımcan halda canını nicat sahilinə çatdıra bildi" (104).

Bununla, İrəvanın qədim qalası yaxınlığında olan yeni qalası qızılbaş döyüşçüləri tərəfindən ələ keçirildi. İsgəndər bəy Münşinin məlumatına görə, yeni qalanın ələ keçirilməsi üçün aparılan döyüşdə iki min nəfərədək Osmanlı döyüşçüsü ya qətl edildi, ya da əsir götürüldü. Yeni qala daxilində Osmanlı döyüşçülərinə məxsus olan bütün əmlak da qızılbaş döyüşçülərinin əlinə keçdi. Yeni qala ələ keçirildikdən sonra Şah Abbasın tapşırığı ilə bütün qüvvələr qədim qalanın ələ keçirilməsinə istiqamətləndirildi. Bunun nəticəsində, qədim İrəvan qalasının mühasirəsi daha da daraldıldı, qala üzərinə qurulan hücumun gərginliyi xeyli artdı. Bunu qala daxilindəkilər də müşahidə etdilər. Vəziyyətin daha da mürəkkəbləşdiyini görən Osmanlı qoşun rəhbərləri də müqavimət gücünün səmərəliliyinin artırılmasına cəhd göstərdilər. Amma qızılbaş qüvvələrinin fədakarlığı vaxt ötdükcə qalanın ələ keçirilməsini daha da yaxınlaşdırdı. Xüsusilə, qala divarlarının şimal və şərq hissəsində qala müdafiəçilərinə ciddi zərbələr vuruldu. Şah Abbas tərəfindən artıq İrəvan hakimi təyin edilmiş Əmirgünə xan qacar tayfasının döyüşçülərinin fədakarlığı nəticəsində İrəvan qalasının Ağ bürc adlanan bürcünü ələ keçirildi. Qalanın əsas bürclərindən birinin ələ keçirilməsi hücumun gedişinə də həlledici təsir göstərdi. Bu bürcün ələ keçirilməsi qala divarları üzərinə qızılbaşların

yolunu açdı ki, bu da bütünlükdə qalanın taleyinin müəyyən edilməsi üçün ciddi əhəmiyyət kəsb etdi. Qala daxilindəkilər artıq şübhə etmədilər ki, qızılbaş qoşunlarının hücumunun qarşısını saxlamaq mümkün deyildir. Ona görə qala daxilindəkilər müqavimətin dayandırılmasını və Şah Abbasdan qala daxilindəkilərin salamat qalmasına zəmanət verilməsini və bundan sonra qalanın təhvil verilməsini təklif etdilər. İrəvanın Osmanlı hakimi Şərif paşa da bu təkliflə razılaşdı və öz nümayəndəsi vasitəsi ilə Şah Abbasa belə bir ismarıc çatdırdı: "Əgər şəhriyarlıq inayəti mühasirəyə düşənlərin halına şamil edilsə, onlar tərəfindən mühasirə vaxtı çarəsizlik üzündən baş verən təqsirlərinin üzərinə əfv qələmi çəkilsə və bütün qala əhli padşahın mərhəmətinə layiq görülsə, qalanı təslim edərəm" (105).

Şah Abbas əlavə qan axıdılmasının qarşısını almaq üçün Şərif paşanın bu xahişini qəbul etdi. Sonra da Şərif paşanın adına iltifat məktubu, qala daxilindəkilərin adına isə bir amannamə yazdırdı. Həmin sənədlər yüzbaşı Mirzəli bəy Türkman vasitəsilə qala daxilində göndərildi. Mirzəli bəy Türkman həm də Osmanlı əmirləri ilə danışıqlar aparmalı və qalanın təhvil verilməsini onlarla razılaşdırmalı idi. Qala daxilinə yol tapandan sonra Mirzəli bəy bu müzakirələrə başladı. Lakin onun apardığı müzakirələr nəticəsiz qaldı. Bəzi Osmanlı əmirlərində belə bir ümid var idi ki, tezliklə yeni Osmanlı qüvvələri onların köməyinə gələcək və həmin qüvvələr qızılbaş mühasirəsini aradan qaldırmağa kömək edəcəkdir. Şərif paşa da bu deyilənlərlə razılaşmalı oldu. Bunun nəticəsi kimi, Mirzəli bəy Türkman iki gün qalada saxlandıqdan sonra geri qayıtmaq icazəsi aldı. Onun vasitəsilə Şah Abbasdan İrəvan qalasının təhvil verilməsi üçün on gün vaxt istənildi. Osmanlı əmirləri ümid edirdilər ki, həmin on gün ərzində yeni qüvvələrin gəlib-gəlməməsi də bəlli olacaqdır. Şah Abbas bu təklifi qəbul etmədi. Onun üçün aydın idi ki, qala daxilindəkilərin on gün möhlət istəmələri vaxtın uzadılmasına və bununla da qalanın təhvil verilməsinin qarşısının alınmasına hesablanıbdır. Şah Abbasın qərarı belə

oldu ki, İrəvan qalası üzərinə hücum daha ciddi şəkildə və daha əzmkarlıqla davam etdirilsin (106).

Bu qərardan sonra bütün qızılbaş qüvvələri yenidən irəli atıldılar. Toplardan açılan atəşlər tezliklə qalanın digər bürclərində də çatlar yaratdılar və divarların dağılması ehtimalı daha da artdı. Yenidən davam etdirilən hücum daha bir neçə gün davam etdi. Qala daxilindəkilər artıq əmin oldular ki, İrəvan qalasının qorunması mümkün deyildir. Qala divarlarını qoruyan döyüşçülərin sıraları da seyrəlməyə başladı. Çıxış yolunu olduğunu görməyən qala sakinlər qala divarlar üzərindən özlərini yerə atır və qızılbaş qüvvələrinə sığınmaqla canlarını qurtarmağa çalışırdılar. Həmin günlər məhərrəm ayına təsadüf edirdi. Aşura gecəsi qoşunların ordubazarında təşkil olunan mərasim zamanı ətrafa yayılan fəryad səsləri qala daxilindəkilərdə yeni hücumun başlanması təəssüratı yaratdı. Ona görə də hətta qalanın təhvil verilməsinə razı olmayanlar da Şərif paşanın yanına gəldilər və ondan yenidən öz elçisini Şah Abbasın yanına göndərməsini xahiş etdilər. Şərif paşa bu xahişləri qəbul edərək öz adamını yenidən Şah Abbasın yanına göndərdi (107).

Şərif paşanın elçisi şah qoşunları düşərgəsinə gələn gün orada Aşura mərasimi keçirilirdi. Şah Abbas da təziyə libası geyinərək bu mərasimə qatılmışdı. Aşura gününün olmasına baxmayaraq Şah Abbas onun görüşünə gələn Osmanlı nümayəndəsini qəbul etdi. Bu nümayəndənin dediyinə görə, Şərif paşa qala daxilindəkilərinin Kərbəla şəhidlərinin ruhuna bağışlanmasını Şah Abbasdan xahiş edirdi. Həmin xahiş qəbul olunduğu halda Şərif paşa qalanın dərhal təhvil veriləcəyini vəd edirdi. Aşura günündə Şah Abbas belə bir xahişi qəbul etməyi lazım bildi. Osmanlı paşasının xahişinin icrasının mümkünlüyünü yoxlamaq üçün Şah Abbas da Qərçəqay bəyin rəhbərliyi altında qala daxilinə qulam dəstəsi göndərdi. Qərçəqay bəy osmanlıların xahişinin qəbul olunduğunu Şərif paşaya çatdırmalı idi. Şərif paşa da şərtinə əməl edəcəyi təqdirdə öz adamları ilə qalanı tərk etməli və qala kənarında çadır qurmalı idi. Şah Abbasın qərarına əsasən, Səfəvi hüdudlarında ya-

şamaq istəyənlər sərbəst şəkildə öz həyatlarını davam etdirə bilərdilər. Səfəvi itaətini qəbul etməyən osmanlılar isə dinc şəkildə öz yurdlarına qayıda bilərdilər. Mövcud olan məlumata görə, bu razılaşma 1604-cü il iyun ayının 9-da əldə edildi (108).

Şərif paşa və onun ətrafında olanlar qalanı təhvil verməyə hazır olduqlarını nümayiş etdirdilər. Onlar Şah Abbasın qərarına uyğun olaraq İrəvan qalasını tərk etdilər və qala kənarında özlərinə çadırlar qurdular. Qızılbaş qüvvələri İrəvan qalasına daxil oldular və bu qalanı nəzarət altına aldılar. Qalada olan bütün Osmanlı qarnizonu isə Şah Abbas tərəfindən əfv olundu və hətta onlara topladıqları sərvəti və əmlakı da özləri ilə aparmağa icazə verildi. Onlardan kimsə təqibə məruz qalmadı və hamısına qarşı xoş münasibət göstərildi. Təslim olduqdan sonra şahın lütfü ilə qarşılaşan Osmanlı döyüşçüləri onlara göstərilən qayğının qarşılığı kimi öz aralarında 12 min İraq tüməni məbləğində pul topladılar və onu Şah Abbasın hüzuruna göndərdilər. Şah Abbas isə Osmanlı mənsublarının canına və malına zəmanət sözü verdiyi üçün həmin toplanan vəsaiti qəbul etmədi. Osmanlı mənsubları belə düşündülər ki, onların topladıqları maliyyə vəsaiti yetərli həcmdə deyil və ona görə də Şah Abbas tərəfindən qəbul edilməyib. Belə olanda onlar daha böyük məbləğ toplamağa hazır olduqları barəsində Şah Abbasa məlumat çatdırdılar. Şah Abbas bir daha bildirdi ki, Osmanlı mənsublarından toplana biləcək pul vəsaitlərinin intizarında deyil. Belə olanda, Şərif paşa və onun ətrafında olan Osmanlı qoşun başçıları, əmirləri Şah Abbasa at, at təchizatı və başqa qiymətli hədiyyələr gətirdilər. Şah Abbas ümumiyyətlə, Osmanlı mənsublarından hər hansı bir hədiyyəni gözləmirdi. Amma onların xahişini yerə salmamaq üçün Şah Abbas gətirilən hədiyyələrin bəzilərini qəbul etdi, qalanlarını isə geri qaytardı (109).

İsgəndər bəy Münşinin yazdığına görə, Şərif paşa İsfahanda anadan olmuşdu. Kiçik yaşlarında olarkən Osmanlı hüdudlarına düşmüş və orada da yaşamışdı. Şərif paşa Osmanlı qoşunlarında xidmətə başlamış, öz işgüzarlığı və qabiliyyəti ilə tədricən yüksək vəzifələrə sahib olmuşdu. Nəhayət, Şərif paşa Osmanlı sultanının

inayəti ilə paşalığa da layiq görülmüşdü. Ona görə də onda Səfəvi hüdudlarına bir bağlılıq var idi. Şərif paşa İrəvan qalasının təhvil verəndən sonra Səfəvi hüdudlarında qalmaq qərarına gəldi. O, Şah Abbasdan xahiş etdi ki, ona İmam Rza rövzəsinə getməyə və qalan ömrünü orada mücavirlik etməklə keçirməyə icazə versin. Şah Abbas da onun bu istəyini qəbul etdi. Şərif paşa Osmanlı hüdudlarına qalmış ailə üzvlərindən də əl çəkərək Məşhədə yollanmaq qərarına gəldi. Onun yanında olan yüz nəfərədək xidmətçisi və mülazimi də Şərif paşa ilə birlikdə Məşhədə yollanmağa razı oldu. Şərif paşanın və yanındakıların həyatının təmin edilməsi üçün isə Şah Abbas tərəfindən ona illik üç yüz İraq tüməni pul və beş yüz xarvar taxıl ayırdı. Osmanlı hüdudlarına qayıtmaq istəyən Osmanlı paşalarına və mənsublarına isə lazım olan şərait yaradıldı. Şah Abbasın əmri ilə geri qayıtmaq istəyən Osmanlı mənsublarının təhlükəsizliyinin təmin edilməsi üçün müşayiət dəstəsi təşkil olundu. Həmin dəstə Osmanlı mənsublarını iki dövlətin sərhəd xəttinə qədər müşayiət etməli idi.

### 3. Səfəvi qoşunlarının Bağdad üzərinə hücumu

Şah Abbas hələ Azərbaycan üzərinə hərbi yürüşə başlamazdan əvvəl Fars vilayətinin əmirül-ümərası Allahverdi xana hökm göndərdi ki, vilayət qoşunları ilə Bağdad üzərinə hücum etsin və bu şəhəri Osmanlı qoşunlarından təmizləsin. Bu zaman Bağdadda Uzun Əhməd paşa adlı birisi hakimlik edirdi. O bu vəzifəyə Osmanlı sultanı tərəfindən təyin edilməmişdi. Osmanlı sultanı tərəfindən bu vəzifəyə bir başqası təyin edilmişdi. 1602-ci ildə Uzun Əhməd paşa həmin hakimlə nifaqa girərək onu öz vəzifəsindən uzaqlaşdırdı və bütün İraqi-Ərəbin hakimliyini öz əlində cəmlədi. Uzun Əhməd paşa sonra da Şah Abbasa məktub göndərdi və yazdı ki, o, Bağdad bölgəsinin hakimliyini ələ keçirsə də bu bölgəni şah hakimiyyəti altına verməyə hazırdır. Uzun Əhməd paşa yazırdı ki, şah sarayından və şah adından gələn olarsa Bağdadın hakimliyini ona təhvil verə bilər. Şah Abbas Azərbaycan üzərinə hərbi yürüşə

hazırlaşdığı üçün Fars əmirül-üməraası Allahverdi xana hökm göndərdi və ondan tələb etdi ki, vilayət qoşunları ilə Şüştər və Həvizədən keçməklə Bağdada doğru irəliləsin. Şah hökmünə əsasən, əgər Uzun Əhməd paşa öz vədinə əməl edərək Bağdadı təhvil versəydi, Allahverdi xan bu şəhəri və onun ətrafını təhvil alaraq onu mühafizə etməli idi. Əks təqdirdə isə Allahverdi xan şəraitin tələbinə uyğun hərəkət etməli idi (110).

Allahverdi xan da bu tapşırığı alandan sonra onun icrasına başladı. O, vilayət qoşunlarını hazırlayaraq Bağdad istiqamətində hərəkətə başladı. Kuh-Giləviyyə və Xuzistan vilayətlərinin qoşunları da onun rəhbərliyi altına verildi. Bundan başqa Həmədan hakimi Həsən xan Ustaclı, Luristan hakimi  Hüseyn xan və Əlişəkər sərhəd xəttində yerləşən əmirlər də öz dəstələri ilə birlikdə Allahverdi xanın dəstəsinə qoşuldular. Bütünlükdə, Allahverdi xanın rəhbərliyi altında on iki min nəfərlik bir qoşun dəstəsi formalaşdı və bu qoşun dəstəsi səfər marşını başa vurub Bağdad ətrafına yetişdi. Bu şəhərin ətrafına gəlib çatandan sonra Allahverdi xan bir nəfəri Uzun Əhməd paşanın yanına göndərdi və ona belə bir ismarıc çatdırdı: “Biz ali əmrə itaət edib, şah dərgahının adamlarına etdiyiniz vədə görə sizin yanınıza gəlmişik. Əgər vədə vəfa etsəniz və verdiyiniz söz ilə əməliniz bir olsa, hər vaxt şah xidmətində məqsədlərinizə çatacaq, mətləblərinizə yetməklə şərəflənəcəksiniz. Əks təqdirdə hər şey İlahinin istədiyi kimi olacaqdır” (111).

Uzun Əhməd paşa Səfəvi sarayına vəd etdiyi sözün üstündə dayanmadı. Bağdadın və bütün İraqi-Ərəbin hakimliyini icra edən və buna qarşı Osmanlı sarayı tərəfindən hələlik ciddi bir etirazın olmadığını görən Uzun Əhməd paşa görünür bu vəzifənin ondan alınacağına inanmırdı. Ona görə də bu vəzifədən könüllü surətdə imtina da etmədi. Uzun Əhməd paşa özündə elə bir arxayınçılıq hiss etdi ki, hətta Allahverdi xan tərəfindən göndərilmiş elçini də qətlə yetirdi və bununla Bağdadın Səfəvi sarayına təhvil verilməsi haqqında söylədiyi vədin arxasında dayanmadığını nümayiş etdirdi. Uzun Əhməd sadəcə vədinə xilaf çıxmaqla kifayətlənmədi. O, eyni zamanda Allahverdi xana müqavimət göstərmək və bu-

nunla da öz hakimliyini silah gücünə qorumaq fikrinə də düşdü. Ona görə də şəhərdə olan qoşun dəstələri və şəhər əhli şəhər divarlarından kənara çıxaraq qızılbaş qoşunlarına qarşı mövqe tutdular. Allahverdi xanın göstərişi ilə qızılbaş dəstələri də dərhal irəli atıldılar və Uzun Əhməd paşanın güvəndiyi dəstələrə ağır zərbələr vurdular. Xüsusilə, Həmədan hakimi Həsən xanla Luristan hakimi Hüseyn xanın rəhbərliyi altında olan dəstələr sürətli manevr həyata keçirərək qarşı tərəfdə dayanan qüvvələri ağır vəziyyətə saldılar. Bu dəstələr parça-parça olaraq geri çəkildilər. Həmin dəstələr nicat yolunu qala daxilinə qaçmaqda və qala divarlarına sığınmaqda gördülər. Qızılbaş döyüşçüləri onları şəhər darvazalarına qədər təqib etdilər və bir çoxlarını yaxalayaraq qətlə yetirdilər. Allahverdi xan da hücum edən dəstələrin ardınca Bağdad darvazalarının yanına gəldi və elə bura çatarkən ona Şah Abbasdan məktub çatdırıldı. "Bəlağətli, xitabla başlayan, asimanın işarəsi ilə özündə minlərlə əməli hikməti ehtiva edən, qeyb sirlərinin üstündən pərdəni götürən, təqdir qələmi və əzəmətli padşahların tədbir sözləri ilə qələmə alınan həmin məktubda belə yazılmışdı: "Əgər Uzun Əhməd verdiyi vəddən peşman olub müxalifət və qaladarlıq məqamına gələrsə, siz qalanın mühasirəsini tərk edin, Bağdadda dayanıb qala mühasirəsi ilə məşğul olmayaraq Azərbaycana gəlin və qalibiyyət nişanlı məiyyətə qoşulun, çünki biz özümüzün irsi Azərbaycan, Şirvan və Gürcüstan vilayətlərini fəth etməyə yollanmışıq, hal-hazırda isə özüm şəxsən İrəvan qalasını mühasirədə saxlamaqdayam. Ehtimal ki, mühasirədə qalanları xilas etmək və [sizinlə] savaşmaqdan ötrü Rum padşahı tərəfindən böyük bir ləşkər gələcəkdir. [Buna görə də,] iki hadisə ilə qarşı-qarşıya dayanmaq hələlik məsləhət deyildir". [Bəli] o vaxt Bağdad mülkünün fəthi Allah təqdirinin nihanxanasında niqab altında gizli qaldığı üçün, adı çəkilən xan zaman hökmranının fərmanını qəbul etdi, qalanın mühasirəsini davam etdirmədi və qayıdış təbilini döydü" (112).

Şah Abbas Osmanlı dövləti kimi qüdrətli bir dövlətə qarşı iki cəbhədə savaşmağı məqsədəuyğun bilmədi. Ona görə də, Şah Ab-

bas Bağdad şəhəri üzərinə hücumu dayandırmaq haqqında qərar verdi. Allahverdi xan şah tərəfindən İrəvan qalasının alınmasına çağırıldı və o, İrəvan qalasının fəthi günlərində şah qoşunları düşərgəsinə yetişdi (113).

Allahverdi xanın rəhbərliyi altında Həmədan hakimi Həsən xan Ustaclı da İrəvan ətrafına yollanmalı oldu. Buna görə də Həmədan ətrafında qızılbaş qüvvəsi qalmamışdı. Özünü Bağdad hakimi elan etmiş Uzun Əhməd paşa bundan xəbər tutan kimi böyük iddialara düşdü və Həmədanı ələ keçirmək qərarına gəldi. Əslində, bu iddianın həyata keçməsi üçün münasib bir fürsət yaranmışdı. Sərhəd bölgəsindəki qızılbaş qüvvələrinin də İrəvan ətrafına cəlb edilməsi Uzun Əhməd paşanın uğurlu yürüşü üçün zəmanət verə bilərdi. Belə bir hücumun həyata keçirilməsi ilə Uzun Əhməd paşa həm də Osmanlı sarayının şəfqətini qazanmaq istəyirdi. Onun fikrincə, Həmədan üzərinə hücumla həm o bölgədəki azsaylı qızılbaş qüvvələrindən qisas ala bilərdi, həm də Şah Abbasın diqqətini Azərbaycan daxilindəki fəthlərdən yayındırıb digər istiqamətə cəlb edə bilərdi. Qızılbaş qüvvələrinin parçalanması isə Osmanlı sarayının maraqlarına uyğun idi. Ona görə Uzun Əhməd paşa bu hərəkətinə görə Osmanlı sarayının ehtiramını qazanacağına ümid edirdi. Başlayacağı hücumun ümidində olduğu nəticələrə gətirib çıxarması üçün Uzun Əhməd paşa əlavə qoşun dəstələri də toplaya bildi. Onun Səfəvi ərazilərinə talançı basqına hazırlaşdığını biləndə lur və kürd atlı dəstələri də onun dəstəsinə qoşuldular. Bununla Uzun Əhməd paşa on min nəfərlik bir qoşun dəstəsi formalaşdıra bildi. Sonra da o, oğlu Məhəmməd bəyi öz yerinə qoyaraq Həmədana doğru hərəkətə başladı (114).

O zaman qızılbaş əmirləri olan Qasım Sultan İmanlı Əfşar və Hərseyn hakimi Şah Əli Sultan Xudabəndəli sərhəd bölgəsində idilər. Onlar Uzun Əhməd paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının və onlara qoşulan dəstələrin Səfəvi hüdudlarına müdaxilə etməsi xəbərini alınca Luristan hakimi Hüseyn xanın yanına adam göndərdilər və ondan nə etmək lazım olduğunu soruşdular. Hüseyn xan da dərhal bu basqının qarşısının alınmasını zəruri

bildi və yanında olan bir min nəfərlik Lur dəstəsi ilə Qasım Sultan Əfşarın yanına tələsdi. Bu əmirlər eyni zamanda Ələşəkərdəki tayfa və ulus başçılarına da xəbər göndərdilər ki, Osmanlı dəstəsinə qarşı vuruşmaq istəyənlər atlanıb onlara qoşulsunlar. Nəticədə, təxminin üç min nəfərlik bir qoşun dəstəsi formalaşdırmaq mümkün oldu. Bu dəstənin başçıları bir yerə toplaşaraq öz fəaliyyət planlarını müzakirə etdilər və belə qərara gəldilər ki, mövcud qüvvələrlə Uzun Əhməd paşanın dəstəsinə cavab vermək lazımdır. Qüvvələr nisbətindəki fərqə baxmayaraq qızılbaş əmirləri Uzun Əhməd paşanın dəstəsinə qarşı hərəkətə başladılar. Əlişəkərə aid olan Zəhab adlı məntəqədə tərəflər arasında döyüş baş verdi. Qızılbaş əmirləri ilkin olaraq qoşun dəstəsinin sayı barəsində qarşı tərəfdə yanlış təsəvvür yaradılmasına cəhd göstərdilər. Bununla bağlı, qızılbaş düşərgəsi istiqamətində tozanaq yaratdılar, səs-küy qaldırdılar və sonra da döyüş meydanına atıldılar. Döyüş meydanına atılmazdan əvvəl isə qoşun dəstəsinin qruplaşdırılması aparıldı. Qızılbaş tayfalarından təşkil olunmuş qoşun dəstəsi Qasım Sultanın rəhbərliyi altında, lurlardan təşkil olunmuş dəstə isə Luristan hakimi Hüseyn xanın rəhbərliyi altında irəli atıldı (115).

Uzun Əhməd paşa qoşunların say üstünlüyünə arxalanaraq döyüş meydanına daxil oldu. O, tüfəngçilərdən və oxatanlardan təşkil etdiyi dəstəni önə çıxardı və güman etdi ki, bu dəstənin köməyi ilə Səfəvi qoşunlarına ağır zərbə vura biləcəkdir. Lakin elə qarşılaşmanın əvvəlində Uzun Əhməd qoşunları ciddi zərbə ilə qarşılaşmalı oldu. Uzun Əhməd döyüşçüləri gözləmədikləri zərbədən çaşqınlıq içərisinə düşdülər və onlar bir daha özlərini toparlaya bilmədilər. Nəticədə, Səfəvi qoşunlarının zərbəsinə duruş gətirə bilməyən Uzun Əhməd dəstəsi döyüş meydanından qaçmaq yolunu tutdu. İsgəndər bəy Münşinin məlumatına görə, bu döyüşün gedişində Uzun Əhməd dəstəsindən iki minə qədər döyüşçü həyatını itirdi və xeyli sayda döyüşçü də əsir götürüldü. Onların arasında Uzun Əhməd paşa da var idi. Döyüşün gedişində o, çeviklik nümayiş etdirə bilmədi və nəticədə əsir düşdü. Bununla da böyük iddialarla Səfəvi hüdudlarına daxil olmuş Uzun Əhmədin

dəstəsinə qarşı döyüş qısa bir zamanda başa çatdı. Uzun Əhmədin əsir götürülməsi və onun dəstəsinin dağıdılması ilə sərhəd bölgəsində davamlı təkrar olunan basqınlara da son qoyuldu və bölgədə nisbətən sabit bir həyat formalaşdı (116).

Uzun Əhməd dəstəsi ilə qarşılaşma baş verən zaman İrəvan qalası artıq qızılbaş qoşunları tərəfindən fəth olunmuşdu və Şah Abbas da qoşunlarla birlikdə Göyçə gölünün ətrafındakı yaylaqlardan biri olan Qırxbulaqda düşərgə salmışdı. Uzun Əhməd qolları bağlı şəkildə burada Şah Abbasın hüzuruna gətirildi. Zəhab döyüşündə ələ keçirilmiş bir neçə baş cins at da şah düşərgəsinə gətirilənlər arasında idi. Şah Abbas bu atları müşahidə etdikdən sonra Uzun Əhmədin qollarının açılmasını əmr etdi. Qarşısında aciz vəziyyətdə dayanan bu insana Şah Abbas belə dedi: “Sən bizə söz verib demişdin ki, şahın dövlətxah bəndəsiyəm və Bağdadı o həzrət üçün zəbt etmişəm, hər kimə istərsə ona da verərəm. Biz də vəd etmişdik ki, əgər sən hərgah imtahandan təmiz çıxa bilsən şahanə nəvazişə layiq görüləcəksən. Sən öz dediyindən peşman olub vədinə vəfa etmədin, amma biz öz iltifat vədimizdən peşman deyilik. Səndən bizə qarşı baş verən cürət və cəsarətə baxmayaraq öz vədimizə vəfa edib səni təzədən Bağdada göndəririk” (117).

Şah Abbas vədəxilaf olmasına baxmayaraq Uzun Əhmədə toxunmadı və onu sərt cəzalandırmadı. Bəzi məlumata görə, Şah Abbas Bağdadda ona itaətdə olacaq birisinin hakim olmasını istəyirdi. Ona gör də o, Uzun Əhmədin geri qayıtmasına icazə verdi. Hətta ona qiymətli xələt də bağışladı. Uzun Əhməd qolları açılandan sonra Şah Abbasa belə cavab verdi: “Əgər şahanə inayət bu günahkar bəndənin əməlləri üzərindən əfv qələmi çəkərək bizi sağ qoyarsa, bütün ömrüm boyu bunu şükranlıqla xatırlayacaq, itaət boyunbağını boynumdan çıxarmayacağam. Özü də Bağdadı kimə desələr ona verib, oğlanlarımla birlikdə şahın ordusunda qulluq edərək xidmət mərasimini sədaqətlə yerinə yetirəcəyəm” (118).

Uzun Əhmədlə döyüşdə fədakarlıq göstərmiş qızılbaş əmirləri və döyüşçüləri də Şah Abbas tərəfindən səxavətlə mükafatlandırıldı və onlara qiymətli hədiyyələr təqdim olundu. Bundan sonra

Uzun Əhməd Bağdada yola salındı. Amma Bağdada yetişmək ona qismət olmadı. Zəncan yaxınlığında olarkən Uzun Əhməd öz əcəli ilə dünyasını dəyişdi. Bu barədə Şah Abbasa ərz olundu. Şah Abbas da onun ölümü ilə əlaqədar Bağdaddakı oğlu Məhəmməd bəyə başsağlığı məktubu ünvanladı. Uzun Əhmədin nəşinin Bağdada çatdırılması ilə bağlı da Şah Abbas lazımi göstərişlər verdi (119).

### 4. Qarabağda Səfəvi-Osmanlı döyüşü

Şah Abbasın İrəvan ətrafında olduğu vaxtlarda Qarabağda da Osmanlı və Səfəvi qoşun dəstəsi arasında döyüş baş verdi. Bu döyüş yerli qoşun dəstəsinin iştirakı ilə məhəlli döyüş xarakteri daşısa da, əslində Şah Abbasın Azərbaycanı geri qaytarmaq planının tərkib hissəsi idi. Bu döyüşə Hüseyn xan Qarabağinin rəhbərliyi altında olan qızılbaş dəstəsi qatılmışdı. Hüseyn xan Qarabağda doğulmuş və burada böyümüş bir türk idi. O, hünəri, cəsarəti, döyüşgənliyi ilə bölgədə ad çıxarmışdı. Onun hünərli bir insan olması haqqında xəbərlər Şah Abbasa da çatmışdı. Şah Abbas da onun bu keyfiyyətlərini nəzərə alaraq Astrabadın hakimi vəzifəsinə təyin etmişdi. Şah Abbas Təbriz-İrəvan istiqamətində hərbi yürüşə başlayanda Hüseyn xan Qarabağiyə xəbər göndərdi ki, o da Qarabağa yollansın və Qarabağın Araz kənarı ərazilərini Osmanlı qüvvələrindən təmizləyərək öz nəzarəti altına alsın. Hüseyn xan Qarabaği Şah Abbasın bölgəyə gəlməsindən əvvəl ona tapşırılan vəzifəni icra etməli və şah qoşunları bölgəyə gələndə o da öz dəstəsi ilə bu qoşunlara qatılmalı idi. Hüseyn xanın Qarabağa getməsindən əvvəl isə Əmirgünə xan o bölgəyə göndərildi. Sonradan Şah Abbas tərəfindən İrəvan hakimi təyin edilən Əmirgünə xan Qarabağ ərazisinə daxil olmalı, oradakı Osmanlı qüvvələrinin sıxışdırılması imkanını nəzərdən keçirməli və Qarabağda məskunlaşmış tayfa və oymaqlardan qoşun dəstəsi toplayaraq İrəvan üzərinə hərəkət edən şah qoşunlarına qoşulmalı idi. Əmirgünə xan bu tapşırığı alandan sonra Qarabağa yollandı, Xudafərin körpüsündən keçərək Qarabağ ərazisinə daxil oldu. Onun gəlişi Qarabağda məskunlaşmış

olan qacar, tərəkəmə, otuz iki və digər el və oymaq əhli tərəfindən sevinclə qarşılandı və bu elatlar Əmirgünə xanın ətrafında birləşdilər. Kifayət qədər tədbirli və təcrübəli bir əmir olan Əmirgünə xan da onların ehtiramını qazandı və o bölgədə iqtidar sahibinə çevrildi. Əmirgünə xan eyni zamanda ətraf bölgədə olan Osmanlı qüvvələri üzərinə də hücumlar təşkil edir və Osmanlı qüvvələrini sıxışdırmağa çalışırdı. Bu işi o, son dərəcə planlı və tədbirli şəkildə görürdü. Çünki Osmanlı qüvvələri ilə qarşılaşmada Əmirgünə xan itkisiz ötüşə bilmişdi. Hüseyn xan Qarabaği Qarabağ ərazisinə daxil olanda Şah Abbasın əmri ilə Əmirgünə xan oradan geri çəkildi və öz dəstəsi ilə şah qoşunlarına qoşuldu (120).

Hüseyn xan bölgəyə gəldikdən sonra Qozluçay adlanan məntəqədə düşərgə saldı və ona tapşırılan işin icrasına başladı. O, qısa müddət ərzində Qarabağın nəzarət altında olan ərazilərində möhkəmlənə bildi. Hünərli olmasına baxmayaraq, Hüseyn xan həm də təkəbbürlü, özündən razı bir insan idi. Özünü yeri gəldi-gəlmədi öymək, təcrübəli və tanınmış əmirlərlə təkəbbürlü davranmaq onun adətinə çevrilmişdi. Ehtiyatlılıq xasiyyətini kənara qoyaraq Hüseyn xan bölgədəki Osmanlı qüvvələrini saya salmır və bu qüvvələrə qarşı laqeydlik nümayiş etdirirdi. Bu da sonradan onu çətin vəziyyətlə üzləşdirdi. Belə ki, şah qoşunları İrəvan qalasını mühasirəyə alanda Qarabağın Osmanlı bəylərbəyi və Gəncə hakimi Davud paşa Qarabağda və ətraf bölgədəki Osmanlı qoşunlarının başçılarını bir yerə topladı və Səfəvi qoşunlarına qarşı fəallıq göstərilməsini onlarla məsləhətləşdi. Qərara alındı ki, bölgədə hərbi təşəbbüsü qorumaq üçün Qozluçayda dayanmış olan Hüseyn xan Qarabağinin dəstəsi üzərinə hücum edilsin. Bu hücumun təşkili üçün Şirvandakı Osmanlı qoşunlarının bir hissəsi də cəlb edildi. Nəticədə yeddi min nəfərlik qoşun dəstəsi toplandı və bu dəstə ilə Qozluçaya tərəf hərəkət əmri verildi. Osmanlı qoşun dəstəsinin yaxınlaşması xəbərini alanda Hüseyn xan Qarabaği lazımi hazırlıq görmədən bu dəstənin qarşısına çıxdı. Öz gücünə yersiz şəkildə arxayın olan Hüseyn xan qarşı tərəfin hansı saya və gücə malik olması ilə heç maraqlanmadı və ona görə qatılacağı döyüş üçün

özü ilə yetərli sayda qüvvə götürmədi. Lakin tərəflərin qüvvələri üz-üzə gələndə Hüseyn xan anladı ki, ehtiyatsızlığa yol verib. O, döyüşə girmədən geri çəkildi, yaxın adamlarını başına topladı və döyüşün aparılması ilə bağlı onların məsləhətini dinlədi. Onun əmirlərindən bəziləri dedilər ki, Şah Abbasın əmri və razılığı olmadan Qarabağda Osmanlı qüvvələrinə qarşı döyüşə girmək düzgün deyildir. Çünki, bu, şahın xoşuna gəlməyə də bilər. Bəzi əmirlər isə bildirdilər ki, döyüşdən boyun qaçırmaq artıq gecdir. İndi döyüşə girməmək, qızılbaş dəstəsinin qorxaqlıq göstərərək meydandan qaçması kimi qəbul olunacaqdır. Bu isə qoşunların parçalanmasına və məhv olmasına gətirib çıxara bilərdi (121).

Hüseyn xan döyüşə girməyə cəsarət etmədi. O, ətrafına toplaşan elatı müdafiə etmək gücündə olmadığını da etiraf etməli oldu. Ona görə də elat camaatına icazə verildi ki, Araz çayına tərəf geri çəkilsin və təhlükəsizliklərinin təmin edilməsi üçün lazım gələrsə Araz çayının cənubuna adlasın. Hüseyn xan özü də Araza tərəf geri çəkilməkdə qərarlı olduğunu bildirdi. Çox tezliklə Osmanlı qoşun dəstəsinin yaxınlaşması haqqında xəbərlər alındı. Bu xəbər Hüseyn xanın ətrafında olan elat camaatı arasında bir çaxnaşma yaratdı və insanların çoxu əşya və əmlakını ataraq təhlükəsiz bir yerə çəkilməyə çalışdı. Qoşun əhli arasında da geri çəkilənlər var idi. Ona görə Hüseyn xanın ətrafında olan qoşunun sayı müəyyən qədər azaldı. Osmanlı qoşunu isə çox münəzzəm bir şəkildə Hüseyn xanın olduğu məkana yaxınlaşdı. Osmanlı qoşunlarının belə nizamlı düzülüşü və sayı Hüseyn xanda və onun ətrafında bəlli bir təşvişə yol açdı. Döyüşə qatılıb-qatılmamaq barəsində bir tərəddüd yarandı. Hüseyn xanın əmirlərindən olan Rüstəm Sultan Sugələn istənilən halda döyüşə girməyə tərəfdar olduğunu bildirdi. O təklif etdi ki, yaradanın köməyinə və lütfünə arxalanaraq qızılbaş dəstəsi döyüşə qatılsın və hansı nəticə qismətdirsə, o da ortaya çıxsın. Onun sözlərinə görə, döyüşsüz meydandan geri çəkilmək bədnamçılıq olmaqla bərabər, həm də şahın da qəzəbinə səbəb ola bilərdi. Hüseyn xan bu təkliflə razılaşdı. Amma onu da bildirdi ki, atına və özünə arxayın olmayanlar döyüşə qatılmaya

bilərlər. O təklif etdi ki, beləlɘri varsa geri çəkilsinlər və özlərinə təhlükəsiz bir yer tapsınlar. Bu təklifdən sonra Hüseyn xanın yanında dörd-beş yüz nəfərlik bir dəstə qaldı və o bu dəstə ilə yeddi minə yaxın olan bir qoşuna qarşı döyüşə atıldı. Dəstənin cəsur əmirlərindən olan Rüstəm Sultan Sugələn tezliklə döyüşdə yaralandı və Osmanlı döyüşçüləri tərəfindən əsir alındı. Bu isə qızılbaş dəstəsinin gücünü daha da zəiflətdi. Hüseyn xan Qarabaği anladı ki, bu döyüşdən qalib çıxmaq ona qismət olmayacaqdır. Ona görə də o, döyüşdə olan qızılbaşlara geri çəkilmək əmri verdi. Özü isə geri çəkilən döyüşçülərin təqibinə yol verməmək üçün döyüşü davam etdirdi. Sonradan Hüseyn xan özü də döyüşə-döyüşə savaş meydanından uzaqlaşa bildi. İsgəndər bəy Münşinin məlumatına görə, bu döyüş zamanı qızılbaşlar yalnız dörd-beş nəfər itki verdilər. Onun sözlərinə görə, belə az itki verilməsi qızılbaşların məharətlə döyüşməsi ilə bağlı idi. O daha sonra yazırdı ki, qızılbaşların fədakarlıqlarının şahidi olandan sonra Osmanlı döyüşçüləri yalnız Rüstəm Sultanın əsir alınması ilə kifayətləndilər və digərlərinin əsir götürülməsindən əl çəkdilər. Osmanlı döyüşçüləri də döyüşdən çıxmaq qərarına gəldilər və savaş meydanından uzaqlaşdılr. Əsir götürülmüş Rüstəm Sultan Osmanlı düşərgəsində ehtiramla üzləşdi, onun yaraları sarıldı və sonra da Gəncə qalasına aparıldı (122).

Geri çəkilməli olan Hüseyn xan isə Araz çayının kənarında dayandı. Səhəri gün Osmanlı qoşunlarının da geri çəkilməsi xəbəri alınanda Hüseyn xan və onun yanındakılar yenidən Qozluçaya tərəf yollandılar. Bu adamlar itkin düşmüş mülklərinin və əşyalarının axtırılmasına başladılar. Bəzi şeyləri tapmaq mümkün oldu. Bəzi əşyalar isə tapılmadı. Hüseyn xan baş verənlərə görə xəcalətlə qarşılaşdı və özünü bu hadisənin baş verməsində günahkar bildi. Hadisə barəsində Şah Abbasa da xəbər göndərildi. Hüseyn xan isə günahının yuyulması üçün ona fürsət verilməsinə, Gəncəyə yollanaraq Osmanlı qüvvələri ilə haqq-hesab çəkilməsinə icazə istədi. Hüseyn xanı cəsur və şücaətli bir əmir kimi tanıyan Şah Abbas onun başına gələnlərə anlaşıqlı yanaşdı, döyüşlər za-

manı belə halların baş verməsini mümkün saydı. Ona görə də o, Hüseyn xanın günahını bağışladığını bildirdi. Şah Abbas onun Gəncəyə yollanmasını isə məsləhət bilmədi. Bu zaman hələ İrəvan qalası ələ keçirilməmişdi. Şah Abbas istəyirdi ki, əvvəlcə İrəvan qalasının taleyi aydınlaşsın və bundan sonra şah qoşunlarının gələcək fəaliyyəti ilə bağlı planlar qursun. Hüseyn xana tapşırıldı ki, hələlik Qarabağda qalsın və orada məskunlaşmış qızılbaş elatının işlərinin nizamlanması ilə məşğul olsun (123).

İrəvan qalası azad edildikdən sonra Şah Abbas qoşunlarla birlikdə, yuxarıda qeyd edildiyi kimi Göyçə yaylaqlarına yollandı və orada düşərgə saldı. Onun Qarabağa yollanmaq və orada düşərgə salmaq fikri də var idi. Lakin Göyçə gölü ətrafında havanın daha münasib olduğu üçün o bölgəyə yollanmaq seçimi edildi. Amma bütün Qarabağın və Gəncənin azad edilməsi də onun planlarına daxil idi. Şah Abbas əvvəlcə qərara gəldi ki, Qarabağ vilayətinə bir qoşun dəstəsi göndərsin. Osmanlı qüvvələrinin irəli çıxacağı təqdirdə qızılbaş dəstəsi bu qüvvələrlə döyüşə girməli və həmin dəstəyə ağır zərbə vurmağa çalışmalı idi. Osmanlı qüvvələri döyüşə girməkdən imtina edəcəkləri təqdirdə isə, qızılbaş dəstəsi Qarabağda və Gəncə ətrafında Osmanlı hakimləri ilə əməkdaşlıq edən məntəqələrə talançı basqınla kifayətlənməli və sonra da geri qayıtmalı idi. Bütünlükdə, Şah Abbasın planı belə idi ki, əgər Osmanlı dövləti tərəfindən bölgəyə əlavə qoşunlar göndərilməsə və İrəvanın təhlükəsizliyinə hər hansı bir təhdid olmasa gələcəkdə qoşunlar yenidən Qarabağ istiqamətinə yönəldilsin.

Qarabağ istiqamətinə göndərmək üçün xüsusi bir dəstə təşkil edildi və həmin dəstəyə rəhbərlik qacar qorçubaşısı Allahqulu bəyə tapşırıldı. Onun rəhbərliyi altına verilən qoşun dəstəsi on beş min nəfərdən ibarət idi. Müəyyən edilmiş vaxtda bu qoşun dəstəsi ilə Allahqulu bəy Qarabağa doğru hərəkətə başladı. Bu dəstə Gəncə yaxınlığına qədər irəlilədi. Qızılbaş dəstəsinin gəlməsi xəbərini alınca Gəncədə yerləşdirilmiş Osmanlı qüvvələri də silahlanıb qala kənarında döyüş mövqeləri tutdular. Allahqulu bəy bu döyüşün keçirilməsinə böyük məsuliyyətlə yanaşdı. O öz dəstəsini döyüş

üçün qruplaşdırdı, qoşun dəstəsinin çərxçisini, sağ, sol qanadlarını və mərkəzdə vuruşacaq qüvvələri müəyyənləşdirdi. Osmanlı döyüşçüləri irəli çıxarılmış qızılbaş çərxçi dəstəsini görüncə onun üstünə atıldılar. Amma biləndə ki, onların döyüşdükləri dəstə yalnız irəli çıxarılmış dəstədir və əsas qüvvələr arxadan gəlməkdədir, onda geri çəkilib qalaya daxil oldular. Bununla belə, baş verən toqquşmada bir neçə Osmanlı döyüşçüsü qətlə yetirildi və bir neçəsi də əsir götürüldü. Allahqulu bəy üç gün ərzində Gəncə ətrafında qaldı və Osmanlı hakimləri ilə əməkdaşlıqda olan ətraf məntəqələrə basqınlar həyata keçirdi. Burada çoxlu sayda at, mal-qara ələ keçirildi və onlar hamısı şah düşərgəsinə gətirildi. Şah düşərgəsi isə hələ də Göyçə yaylaqlarında qərar tutmuşdu. Allahqulu bəy Gəncə üzərinə edilən hücumun gedişi və nəticələri haqqında Şah Abbasa ərz etdi. Şah Abbas onun rəhbərliyi altında olan dəstənin verilən tapşırığı yerinə yetirməsindən məmnun qaldı. Yalnız Gəncə ətrafındakı məntəqələrdən qadınların əsir götürülməsini Şah Abbas bəyənmədi. O bildirdi ki, müsəlman qadınların əsir götürülməsi şəriət normalarına ziddir. Ona görə onların hamısını azad etdirdi. Əsir götürülmüş qadınları gizlətməyə çalışanlar isə Şah Abbas tərəfindən ciddi cəzalandırdı (124).

### 5. Cığaloğlunun rəhbərliyi altında Osmanlı qoşunlarının Azərbaycan üzərinə yürüşü

İrəvan qalasının azad edilməsindən sonra Şah Abbas yuxarıda qeyd edildiyi kimi, Göyçə ətrafına yollandı və 1604-cü ilin payızına qədər orada qaldı. Bu bölgədə Şah Abbas istirahət etməklə bərabər, dövlət işləri ilə də məşğul olurdu. Bölgənin təmiz ab-havası və ov ehtiyatlarının bol olması da vaxtın xoş keçməsi üçün yaxşı imkanlar açırdı. Göyçə ətrafında dayanarkən Şah Abbas hind padşahının elçisini, habelə yenicə Kaxet hakimi olmuş Davud xanı da hüzuruna qəbul etdi. Şah Abbasın istirahət aylarında Səfəvi qoşunları ilə Osmanlı qoşunları arasında bir məhəlli döyüş də baş verdi. Bu döyüş Allahverdi xanın qoşun dəstəsi ilə bir

vaxtlar Van hakimi olmuş Əhməd paşanın qoşun dəstəsi arasında oldu. Əhməd paşa Təbrizin Osmanlı hakimi olmuş Cəfər paşanın mülazimlərindən biri idi və onun xahişi əsasında Osmanlı sultanı tərəfindən Van hakimi təyin edilmişdi. Ancaq o bu vəzifədə uzun müddət çalışa bilmədi. Şah Abbas öz qoşunları ilə Azərbaycan üzərinə hərbi yürüşə başlayanda Əhməd paşa artıq Van hakimliyi vəzifəsindən uzaqlaşdırılmışdı. Əhməd paşa vəzifədən alınması qərarı ilə barışmadı və ətrafına toplaya bildiyi qoşun dəstəsinin gücünə arxalanaraq Van hakimliyini davam etdirməkdə idi. O, hətta Vanın hakimliyi ilə də kifayətlənməyərək silah gücünə ətraf vilayətləri və əraziləri də öz hakimiyyəti altına gətirmişdi. Əxlat, Adilcəvaz və Əlbostan məntəqələri bu yolla onun nəzarəti altına düşmüşdü. Əhməd paşa bununla da kifayətlənmir, nəzarəti altında olmayan ətraf məntəqələri basqınlar edərək, həmin məntəqələri talan edirdi. Sultan III Məhəmmədin hakimiyyətinin son illərində Əhməd paşanın bu əməllərinə göz yumulur və ciddi qarşılayıcı tədbirlər görülmürdü. Sultan I Əhməd taxta çıxandan sonra isə Əhməd paşa ona sadiq olacağını, ona itaət edəcəyini vəd etdi. I Əhmədin hakimiyyətə gəlməsindən dərhal sonra Əhməd paşanın qanunsuz əməllərinin qarşısının alınması üçün hər hansı bir tədbirin həyata keçirilməməsi isə onu daha da azğınlaşdırdı. Əhməd paşa Osmanlı hüdudlarından keçən Səfəvi ticarət karvanlarına və tacirlərinə də basqınlar etməyə başladı. Bu isə Səfəvi sarayının narahatçılığı ilə qarşılaşdı. Şah Abbas belə halların davam etməsini istəmirdi. Ona görə də Səfəvi şahı fürsət yaranan kimi Əhməd paşanı törətdiyi qanunsuz əməllərinə görə cəzalandırmaq fikrində idi (125).

Şah Abbas Göyçə gölü yaylaqlarında düşərgə saldığı zaman Əhməd paşanın Ərciş qalasına hücum etməsi barəsində xəbər alındı. Həmin qala Göyçə gölündən təxminən altı-yeddi günlük bir məsafədə idi. Qızılbaş dəstələri sürətlə hərəkət edəcəkləri təqdirdə həmin qalaya üç gün ərzində çata bilərdilər. Şah Abbas qərara aldı ki, bu fürsətdən istifadə edilsin və Əhməd paşaya təsirli bir zərbə vurulsun. Əslində, Əhməd paşanın ələ keçirilməsi haqqında fikir-

lər mövcud idi. Şah Abbasa görə, Əhməd paşanı ələ keçirmək mümkün olmasa da, ən azı onun qoşun dəstəsinə, bu qoşunun əmir və rəhbərlərinə güclü zərbə vurmaq mümkün olardı. Güclü qoşundan məhrum olduğu halda Əhməd paşanın ətrafa basqınları da səngiyə bilərdi. Ona görə də qızılbaş döyüşçülərindən ibarət bir dəstə təşkil edildi və həmin dəstəyə rəhbərlik Fars hakimi Allahverdi xana tapşırıldı. Allahverdi xan da böyük sürətlə Ərciş qalasına tərəf istiqamət götürdü və üç gündən sonra özünü ora yetirdi. Amma Allahverdi xan heç də Əhməd paşanın qoşunu ilə qarşılaşa bilmədi. Çünki Əhməd paşa Ərciş qalası istiqamətinə gələndə Şah Abbasın İrəvan ətrafında olmasından xəbər tutdu. O özünün bir neçə adamını İrəvan istiqamətinə yolladı ki, onlar şah qoşunlarının harada olması, Ərciş qalası istiqamətinə şah qoşunlarının gəlib-gəlməməsi barəsində məlumatlar toplasınlar. Həmin adamlar da heç İrəvan qalasına yetişməmiş Allahverdi xanın rəhbərliyi altında olan qoşun dəstəsinin Ərcişə tərəf gəlməsi haqqında məlumat aldılar və sonra da bu məlumatı gəlib Əhməd paşaya çatdırdılar. Əhməd paşa bu xəbəri eşidəndə qorxuya düşdü və dərhal da Ərcişi tərk edib Muş səhrasına tərəf qaçmağa başladı. O daha oradan geri qayıtmağa cəsarət etmədi. Onun başsız qalan dəstəsinin döyüşçüləri də qaçıb ətrafa səpələndilər. Allahverdi xan yetişəndə Ərciş qalası ətrafında artıq Osmanlı qüvvələri qalmamışdı. Əhməd paşa dəstəsinin izlənməsi və təqib edilməsi haqqında Allahverdi xan göstəriş almamışdı. Ona görə də Allahverdi xan Ərcişdən geri qayıtdı (126).

Şah qoşunları Göyçə gölü ətrafında olduğu günlərdə qızılbaş dəstələrinin Şuragöl qalası üzərinə də hücumu baş verdi. Bu qala da Osmanlı qüvvələrinin nəzarəti altında idi. Qalada yerləşdirilmiş adamlar davamlı olaraq ətraf məntəqələrə basqınlar edir və sakinləri talan edirdilər. Şah Abbasın qərarı ilə həm bu talanlara son qoyulması, həm də Şuragöl qalasının nəzarət altına alınması üçün ora qoşun dəstəsi göndərildi. Qaladakı Osmanlı silahlıları qızılbaş dəstəsinə müqavimət göstərə biləcəklərini güman edib döyüş mövqeləri tutdular. Qızılbaş dəstəsi isə qalanı mühasirəyə aldı. Bu

zaman İsfahandan olan tüfəngçilər dəstəsi ön xəttə çıxarıldı və qala müdafiəçiləri şiddətli atəşə tutuldu. Qızılbaş döyüşçüləri uğurla irəliləyərək qala divarlarının ətəklərinə qədər yaxınlaşdılar. Qala daxilindəkilərin bütün cəhdlərinə baxmayaraq qızılbaş döyüşçülərinin irəliləməsinin qarşısını almaq mümkün olmadı. Qızılbaş döyüşçüləri qala divarlarını bir neçə yerdən uçuraraq qala daxilinə yol tapa bildilər. Osmanlı mənsubları qızılbaşların hücumunun qarşısını ala bilməyərək geri çəkildilər və qala daxilində olan qalın divarlı kilsəyə sığındılar. Amma qızılbaş döyüşçüləri bu kilsənin divarlarını da deşərək içəri daxil oldular və Osmanlı mənsublarının müqavimətinə son qoydular. Bununla Şuragöl qalasına nəzarət də qızılbaş qüvvələrinin əlinə keçdi (127).

Şah Abbas şübhə etmirdi ki, Təbrizin, sonra isə Naxçıvan və İrəvanın itirilməsi ilə Osmanlı sarayı asanlıqla barışmayacaqdır. Həmin şəhərlərin və onların mənsub olduğu ərazilərin geri qaytarılması üçün yaxın zamanlarda Osmanlı sarayının hərəkətə keçəcəyi istisna edilmirdi. Bundan vaxtında xəbər tutmaq üçün Şah Abbas öz adamlarını İstanbula yollamışdı ki, onlar öz müşahidələrini aparsınlar və lazımi məlumatları toplayıb şah sarayına göndərsinlər. Tezliklə həmin adamlardan Osmanlı sarayının Azərbaycan üzərinə qoşun göndərmək planları haqqında məlumat alındı.

Sultan III Məhəmmədin yerinə taxta çıxan I Əhməd yenicə itirilmiş ərazilərin geri qaytarılması üçün Azərbaycan üzərinə böyük bir qoşun dəstəsinin göndərilməsi qərarına gəldi. Toplanacaq qoşun dəstəsinə isə sultanın əmri ilə Sinan paşa kimi tanınan Cığaloğlu (Cığalzadə) təyin edildi. Bu adam əslində, avropalı idi və Siciliyada doğulmuşdu. O, bir dəfə gəmi ilə Siciliyadan İspaniyaya gedərkən Osmanlı dənizçilərinə əsir düşmüş və sonradan Osmanlı qulamları arasında yer almışdı. O, kifayət qədər döyüşkən keyfiyyətlərə malik idi və ona görə də Osmanlı qoşunları arasında özünə etibarlı bir mövqe qazana bilmişdi. Cavanlıq yaşlarında islam dinini qəbul etmiş Cığaloğlu Osmanlı qüvvələrinin Avropaya yürüşləri zamanı böyük şücaət göstərmiş və qoşun daxilində yüksək vəzifələrə irəli çəkilmişdi. O, dəniz qüvvələrinin rəhbəri vəzifə-

sinə qədər yüksəlmişdi. Osmanlı sultanı tərəfindən o, paşa məqamına da layiq görülmüşdü. Səfəvi qoşunlarına qarşı qoşun göndərilməsi zərurəti meydana gələndə bu işə rəhbərliyi Osmanlı sultanı saray vəziri vəzifəsinə yüksəltdiyi Sinan paşa Cığaloğluya həvalə etdi. Verilən ağır tapşırığın öhdəsindən gəlmək üçün Sinan paşaya çoxu sayda yeniçəri və qapıqulu döyüşçüləri verildi. Habelə Bursa, Qaraman, Sam, Səlm, Trablis, Diyarbəkr, Ərzrum, Van, Kürdüstan və başqa ərazilərdə Sinan paşa üçün qoşun toplanmalı idi. Bu qoşunların toplanması və yürüş hazırlıqlarının aparılması üçün Sinan paşa 1604-cü il may ayının 16-da İstanbulu tərk etdi və Muş səhrasına yollandı (128).

Əlavə məlumatlarla Şah Abbas Osmanlı qoşunlarının doğrudan da Azərbaycan üzərinə hücuma hazırlaşmasına əmin oldu və o da bu qoşunların qarşılanması üçün hazırlıq işlərinə başlanması haqqında göstəriş verdi. Qeyd etmək lazımdır ki, Cığaloğlunun rəhbərliyi altında Osmanlı qoşunlarının toplanması işi xeyli uzandı və 1604-cü ilin sonlarına qədər davam etdi. Şah Abbasın Osmanlı qoşunları ilə qarşılaşmağa başladığı hazırlıq işlərindən birini də həmin qoşunların hərəkət marşrutu üzrə çətinliklərin yaradılması idi. Onun göstərişi əsasında 1604-cü ilin payızında qızılbaş dəstələri Qars istiqamətinə göndərildi. Qızılbaş dəstələri hətta Ərzrumun yaxınlığında olan Həsən qalasına qədər irəlilədilər. Bu yürüşdə Şah Abbasın özü də iştirak edirdi. Qoşunlara verilən tapşırıq ondan ibarət idi ki, Osmanlı qoşunlarının hərəkət marşrutu üzrə bütün məntəqələr talan edilsin, ərzaq ehtiyatları məhv edilsin, yollar dağıdıldı, yerli əhali Səfəvi hüdudlarına köçürülsün. Həmin ərazilərdə Osmanlı qoşunları üçün dözülməz bir şərait yaradılmalı idi. "Qalibiyyət nişanlı əsgərlər fərmana boyun əyib Qars və Ərzrumun arasında yerləşən Həsənqalası adlı yerə qədərki torpaqları qarət və talan edib hər yanı dərhal yandırdılar, ot və taxıldan əsər-əlamət qoymadılar. Onlar həmin vilayətlərdə yaylaqları olan iki-üç min erməni və başqa tayfaları ailəliklə bu tərəfə köçürüb, İraqa yolladılar. Şüarı zəfər olan əsgərlərin əlinə xeyli heyvan və başqa qənimət keçdi. Onlar sair millətdən olan iyirmi minədək əsiri tu-

tub gətirdilər və həmin adamlar qızılbaşların yanında islamı qəbul etmək şərəfi ilə feyziyab oldular. Cah-cəlallı, zəfər ayəli ordu hümayun şah məiyyətindəki iqbal əsgərləri ilə birlikdə o ətrafda dayandı. Onlar rum əsgərlərinin bu vilayətə gəlmələrini gözləyirdilər ki, zamanın məsləhətinə əsasən düşmənlə döyüşərək, qəza-qədər pərdəsi altında örtülü qalan hadisələri gerçəkləndirə bilsinlər" (129).

Şah qoşunları osmanlıların "Qasım günü" adlandırdıqları günə qədər Qars vilayətində qaldılar. Qasım günü bir qayda olaraq dekabr ayının ilk günlərinə, yəni qışın başlanğıcına düşürdü. Həmin günün yetişməsindən sonra Osmanlı qoşunlarının hərbi yürüşləri havalar qızana qədər təxirə salınırdı. Bu məsələ, əslində, hərbi əməliyyatların və yürüşlərin mövsümi xarakter daşıması ilə bağlı idi. Səfəvi qoşunları da bir qayda olaraq havaların soyumasından sonra əməliyyatları təxirə salırdı. İsgəndər bəy Münşinin yazdığına görə, Qaşım günü Osmanlı qoşunlarında artıq pozulmaz bir qayda şəklini almışdı. Qoşunlar həmin gün savaş meydanında olsaydılar, yeniçərilər sultan çadırının qarşısında dalğalanan bayrağı alıb sultan çadırının arxasından asardılar. Bununla sultan da bilərdi ki, artıq Qasım günü yetişib və savaşı dayandırmaq lazımdır. Qəbul olunmuş qaydanı sultan da pozmazdı və Qasım gününün sabahı qoşunlar artıq geri hərəkətə başlayardılar. Bəzi hallarda qoşun sərkərdəsi ona tapşırılan vəzifəni sona çatdırmaq üçün savaşı Qasım günündən sonra da davam etdirmək istəyərdilər. Belə olanda yeniçərilər sərdarın çadırının kəndirlərini kəsir, çadırı onun başına endirir və onu məcbur edirdilər ki, savaşı dayandırıb geri qayıtsınlar. Yeniçərilər isə qoşunlar daxilində xüsusi mövqeyə malik idilər və ona görə onların istəyinə qarşı çıxmaq da olmurdu. Şah Abbasın Osmanlı qoşunlarındakı bu qaydadan xəbəri var idi. O, əmin idi ki, havaları soyumağa başladığı bir vaxtda Osmanlı qoşunları artıq Azərbaycan üzərinə hücum etməyəcəkdir. Havaların soyuması qızılbaş qoşunları üçün də böyük çətinliklər yaradırdı. Ona görə də Şah Abbas da qoşunlara geri çəkilmək əmri verdi. Şah əmrinə əsasən tüfəngçilər, qorçular, seçilmiş qoşun dəstəsi is-

tisna olmaqla digər qoşun əhlinə istirahət və öz evlərinə qayıtmaq icazəsi verildi. Yəni qoşun əhlinin çoxu havalar qızana qədər öz evlərinə yollandılar (130).

Şah qoşunları istirahətə buraxılsa da, Cığalzadə heç də qışın keçməsini gözləmədi və Ərzruma doğru hərəkətə başladı. Ərzrumda olarkən Cığalzadə Əhməd paşa ilə əlaqə saxladı və onun dəstəsini öz yanına dəvət etdi. Yuxarıda qeyd edildiyi kimi, Allahverdi xanın rəhbərliyi altında qızılbaş dəstəsinin yaxınlaşmasına görə Ərciş qalasından qaçaraq Muş səhrasında gün keçirən Əhməd paşa bu təklifi qəbul etdi və Cığaloğlunun qoşun dəstəsinə qatıldı. Cığaloğlu Ərzrumda olarkən yaxın ətrafda mövcud olan Osmanlı dəstələri də bu qoşuna qatıldılar. Ərzrumdan sonra Cığaloğlu sürətlə Qarsa tərəf irəliləməyə başladı. Doğrudur, Şah Abbasın əmri Qarsdan başlayaraq Naxçıvan və İrəvana qədər olan ərazilərdəki ərzaq ehtiyatları məhv edilmiş, yaşayış məntəqələri dağıdılmış, yollar və körpülər xarab edilmişdi. Buna baxmayaraq, Cığaloğlu Osmanlı qoşunları ilə Azərbaycana tərəf irəliləməsini dayandırmadı. Belə olanda Şah Abbas Osmanlı qoşunları ilə savaş məcburiyyəti qarşısında qaldı. O, qoşun əmirlərini və rəhbərlərini yanına topladı və vəziyyətlə bağlı onların məsləhətlərini dinlədi. Əmir və əyanların fikirləri və təklifləri dinlənildikdən sonra Şah Abbas belə bir fikir ortaya qoydu: “Rumilər bir neçə müddətdir ki, ləşkəri yaraqlandırıb, çoxlu döyüşçü və güclü silahlarla [üstümüzə] gəlmiş, müzəffər qızılbaş döyüşçülərinin əksəriyyəti isə mürəxxəs olub, öz yurd və məskənlərinə getmişlər. Belə olan halda, ləşkərimizin azlığı səbəbindən döyüşə başlamaq dövlətin məsləhəti deyildir” (131).

Şah Abbas sayca və təchizat baxımından çox böyük üstünlüyə malik olan Osmanlı qoşunlarının qarşısına çıxmağı məqsədəuyğun saymırdı. İstirahət üçün buraxılmış olan qoşunlar geri qayıtmadığı halda Osmanlı qoşunlarına qarşı savaşa başlamaq ağır nəticələrə də gətirib çıxara bilərdi. Lakin Şah Abbasın yanındakı toplantıda iştirak edən qızılbaş əmirlərinin və əyanlarının heç də hamısı Osmanlı qoşunları qarşısında geri çəkilmək fikri ilə razı olmadı. On-

lar bunu şahın yanında da səsləndirdilər. Belə olanda Şah Abbas belə bir fikir söylədi: "Hal-hazırda dayandıqları yerdən köçüb başqa bir səmtə yollansınlar, orada bir neçə gün dayanıb, Cığaloğlunun Araz çayını keçməsini gözləsinlər. Əgər dövlətin məsləhəti olarsa döyüş qoy çayın bu tərəfində başlasın" (132).

Şah Abbas qoşunlarla geri çəkildi və Ağcaqalada dayandı. Məqsəd buradan Osmanlı qoşunlarının hansı istiqamətdə gedəcəyini müəyyənləşdirmək idi. Bir neçə gündən sonra bəlli oldu ki, Cığaloğlu öz qoşun dəstəsi ilə Naxçıvan və İrəvan istiqamətində irəliləməkdədir. Naxçıvanın və İrəvanın savaş meydanına çevriləcəyi təqdirdə bu bölgələrin əhalisinin böyük fəlakətlərlə üzləşməsinin qarşısını almaq üçün Şah Abbas həmin əhalinin səltənətin başqa ərazilərinə köçürülməsi qərarını verdi. "Bu yerin rəiyyəti köçürülsün və uzaq bir yerə göndərilsin ki, müxalif ləşkər hücumundan kənar və dövran hadisələrindən arxayın olsunlar. Qızılbaş ləşkəri özləri ilə apara biləcəyi qədər azuqə götürüb, yerdə qalan hər şeyi oda yaxıb yox etsinlər ki, rumilərin əlinə heç nə düşməsin. Hümayun ordu ilə öz ləşkərləri isə rumilərin olduqları yerin həndəvərində dayanıb gözləsilər ki, rumilər irəli gəlib Araz çayını keçsinlər, rum ləşkərinin əksəriyyəti özləri azuqədən, atları isə yemdən məhrum olmaqla, pis vəziyyətə salınsın və belə olan halda fəth nişanlı əsgərlər harada məsləhət bilinsə orada da onların dəf olunmalarına başlasınlar" (133).

Şah Abbas Osmanlı qoşunlarının hərəkət istiqamətində mövcud olan əhalinin köçürülməsi ilə fəal müdafiə taktikası tətbiq etməyə başladı. Onun hökmünə əsasən, yerli əhali öz yurdlarından köçürüldü və başqa ərazilərdə məskunlaşdırıldı. İsgəndər bəy Münşinin yazdığına görə, əlçatmaz məkanlarda məskunlaşan əhalidən başqa digər əhali öz yerlərindən köçürüldü və səltənətin içərilərinə aparıldı. Şah qoşunlarında olan Əmirgünə xan İrəvan camaatının köçürülməsinə göndərildi və o da İrəvan camaatını Qaracadağ istiqamətinə köçürdü. Ümumi köçə Naxçıvan əhalisi və Naxçıvan yaxınlığında məskunlaşmış ermənilər də məruz qaldılar. Məlumdur ki, erməni əhalisi İsfahan ətrafına köçürüldü. Əhalinin

köçürülməsindən sonra Naxçıvan da dağıdıldı ki, Osmanlı qoşunları burada özlərinə sığınacaq tapa bilməsinlər. Başqa bir məlumata görə isə, Osmanlı qoşunlarının Azərbaycan istiqamətində hərəkət edəcəyi xəbəri alınanda Şah Abbas tərəfindən Təvəkkül xan Gəraylıya, Şahqulu sultan Bayata və Əlixan Sufi Ustaclıya əmr olundu ki, beş min nəfərlik qoşun dəstəsi ilə Osmanlı qoşunlarının hərəkət marşrutuna çıxsınlar və həmin istiqamətlərdə qalan əhalini də başqa ərazilərə köçürsünlər. Bundan əlavə, əhalinin özü ilə apara bilmədiyi ərzaq ehtiyatları, digər əşyalar, habelə onların yaşadıqları evlər yandırılmalı idi ki, Osmanlı qoşunları onlardan istifadə edə bilməsinlər. Bildirilir ki, şah əmrinin icra edilməsi nəticəsində Səlmasdan Təbrizə qədər olan ərazidə heç bir yaşayış nişanəsi qalmadı və hər şey məhv edildi (134).

Ətraf bölgədə Osmanlı qoşunlarının işinə yarayacaq hər şey məhv edildikdən və ya daşındıqdan sonra Şah Abbas Osmanlı qoşunlarını Araz çayının dar keçidlərindən birində qarşılamağı qərara aldı. Bunun üçün lazımi hazırlıqlar aparılmaqla bərabər, Şah Abbas kəşfiyyatçılar vasitəsilə həm də Osmanlı qoşunlarında nələrin baş verdiyini müşahidə altında saxlayırdı. Bu kəşfiyyatçılar məlumat toplanması üçün bir neçə Osmanlı döyüşçüsünü əsir götürərək şah düşərgəsinə gətirmişdilər. Osmanlı döyüşçülərinin atları çox arıq olduğundan onların ərzaq və azuqə baxımından çətinliklərlə qarşılaşdığı məlum oldu. Şah Abbasın köçürmə taktikası doğrudan da Osmanlı qoşunlarını çətin bir duruma salmışdı. Osmanlı döyüşçüləri ərzaq baxımından çətinliklərlə qarşılaşdığı kimi, qoşun atlarını da yemlə təmin etmək çətinlikləri özünü göstərməkdə idi. Osmanlı əsir döyüşçülərinin verdiyi məlumata görə, ərzaq çətinlikləri o dərəcədə artmışdı ki, yeniçərilər və Osmanlı döyüşçüləri Cığaloğlunun çadırına hücum çəkərək yaranmış vəziyyətə görə onu ittihamlandırmışdılar. Yeniçərilər bildirirdilər ki, Qasım gününə əməl edilsəydi, Osmanlı qoşunları da Səfəvi hüdudlarında çoxlu sayda çətinliklərlə də qarşılaşmazdılar. Yeniçərilər ondan da ehtiyat edirdilər ki, Osmanlı qoşunları ciddi çətinliklərlə üzbəüz qaldıqları bir vaxtda qızılbaş qoşunlarının hücumu

başlana bilər. Belə olduqda Osmanlı qoşunları daha acınacaqlı bir durumla qarşılaşa bilərdilər (135).

Cığaloğlunun bu etirazları qəbul etməkdən başqa çarəsi yox idi. Ona görə qərara gəldi ki, Vana çəkilsin və qışı orada keçirsin. Osmanlı qoşunları Maku yolu ilə Vana doğru hərəkətə başladılar. Maku ətrafında çoxlu qar yağdığından Osmanlı qoşunları əlavə çətinliklərlə qarşılaşdılar və bu da onlara yeni itkilər gətirdi. Şah Abbas isə Təbrizə qayıtdı. 1604-1605-ci ilin qışını da orada qarşıladı. Ona yaxşı məlum idi ki, Cığaloğlu havaların qızmağa başlaması ilə yenidən geri qayıdacaqdır. Ona görə də Şah Abbas bölgədən uzaqlaşmadı və növbəti ilin müharibə hazırlıqlarını da elə burada aparmağa başladı. Şah Abbas eyni zamanda idarəçilik işlərinin nizamlanması ilə də məşğul oldu. O, xüsusilə öz yurdlarından köçürülməli olmuş əhalinin həyatlarının qurulması işlərinə ciddi diqqət ayırdı, bu əhalinin ehtiyaclarının aradan qaldırılması istiqamətində əməli addımlar atdı. Bu insanlara şah ehtiyatlarından azuqə və qış tələbləri olan digər əşyalar ayrıldı. Eyni zamanda Şah Abbas müharibəyə hazırlıq istiqamətində də lazımi addımlar atdı. O, yanında olan bəzi vilayət hakimlərini öz vilayətlərinə göndərdi ki, həm orada qışı keçirsinlər, həm də havalar qızana kimi yerli qoşunları hazırlayıb şah qoşunlarına qatılsınlar. Bundan əlavə, Şah Abbasın tapşırığı ilə tayfaların və oymaqların rəhbərlərinə, ağsaqqallarına xəbər göndərildi ki, onlar mənsub olduqları tayfa və oymaqların xanlarının siyahısını tutsunlar, həmin xanlar baharın başlanğıcında şah ordusuna qoşulsunlar. Şah Abbas Şirvan vilayətinin hakimliyini Kaxet hakimi Aleksandrın oğlu Kustandil Mirzəyə həvalə etdi. Kustandil Mirzə Osmanlı qoşunlarının nəzarəti altında olan bu vilayəti aldıqdan sonra öz hakimlik vəzifəsinin icrasına başlamalı idi. Şirvanın Osmanlı qüvvələrindən təmizlənməsi üçün isə Kustandil Mirzəyə şah tərəfindən lazımi köməklər göstərildi, bir sıra xanlar və ağalar onun rəhbərliyi altına gətirildi və belə bir fərman verildi ki, Kustandil Mirzə ilə birgə fəaliyyət göstərmək istəyən əmirlərə kimsə mane olmasın. Kustandil Mizə də belə bir tapşırıq alandan sonra Kaxetə, atasının

yanına yollandı. Məqsədi onun rəhbərliyi altına verilmiş qızılbaş dəstələrinə gürcü dəstələrini də qoşaraq Şirvanı osmanlıların nəzarətindən çıxarmağa yollanmaq idi (136).

Cığaloğlu Azərbaycan üzərinə yeni qoşun çəkməkdən əvvəl ona tapşırılan vəzifənin sülh yolu ilə həll edilməsinə cəhd göstərdi. O istəyirdi ki, Şah Abbas azad etdiyi şəhərləri və əraziləri yenidən Osmanlı nəzarəti altına qaytarsın və İstanbul anlaşmasının şərtlərinə qayıdılsın. Bu məsələ ilə bağlı əvvəlcə şah sarayının etimadüddövləsi Hatəm bəylə əlaqə saxlandı və iki dövlət arasında sülhün qorunması haqqında ona təklif göndərildi. Hatəm bəy bu sülhün hansı şərtlər daxilində olacağı ilə maraqlandı. Bundan sonra Cığaloğlu tərəfindən 1605-ci il fevral ayının ortalarında Şah Abbasa məktub yazdı. Həmin məktubda təklif olunan sülhün şərtləri də açıqlandı. Cığaloğlu ilk şərt kimi tələb edirdi ki, Şah Abbas tərəfindən azad edilmiş Təbriz, Naxçıvan və İrəvan qalaları geri qaytarılsın. Onun ikinci şərti bu qalalarda ələ keçirilmiş topların, tüfənglərin, bütün müharibə təchizatının Səfəvi qüvvələri tərəfindən geri qaytarılması idi. Üçüncü şərt isə döyüşlər gedən ərazilərdə əldə edilmiş sərvətlərin, habelə müharibə əsirlərinin geri qaytarılması idi. Mənbələrdə olan məlumata görə, bu şərtlər Şah Abbasın hüzurunda oxunanda onun məclisinə toplanmış olan əyan və əmirlərin gülüşünə səbəb oldu. Şah Abbas özü də bu təklifləri gülüşlə qarşıladı və sonra da bildirdi ki, yaxşı ki, bizdən ölənlərin dirilməsini istəmirlər. Şah Abbas onu da bəyan etdi ki, o, Şah İsmayılın hakimiyyəti illərində olan əraziləri geri qaytarmaq istəyir. Onun sözlərincə, Şah Abbas heç Şah Təhmasibin hakimiyyəti illərində olmuş sərhədlərlə də razılaşmırdı. Şah Abbasın fikrincə, sülh istəyən belə şərtlər də irəli sürməz (137).

İsgəndər bəy Münşinin yazdığına görə isə, Cığaloğlu tərəfindən bu şərtlər irəli sürüldü: “Təbriz darüssəltənəti və Araz çayının bu tərəfində qızılbaşların əlinə keçən yerlər onların ixtiyarında qalsın, amma çayın o tərəfindəki yerlər rumilərin olsun, tərəflər həmin yerlərə bir daha dəxalət etməsinlər, Araz çayı isə sərhəd təyin edilsin” (138).

Şah Abbas tərəfindən isə Cığaloğluna belə bir cavab göndərildi: “Uca şahın qəti qərarı belədir ki, mərhum cənnətməkan şah və Rum xandgarı Sultan Süleyman arasında yazılmış sazişdən sonra o cənnətməkanın ixtiyarındakı məmləkətlər, şəhərlər və sərhədlər [osmanlılar tərəfindən] zəbt olunmuşdur. Artıq, cənnətməkan şaha mənsub olan əkilən və əkilməyən torpaqların yarım zər sahəsi belə başqalarının əlində qalmayacaqdır və bunun yerinə yetirilməsindən ötrü bütün cəhdlərə əl atılacaqdır” (139).

Şah Abbasla Osmanlı paşası arasında əlaqələr sonra da davam etdi. Lakin bu əlaqələr və yazışmalar bir nəticə vermədi və Osmanlı paşasının irəli sürdüyü təkliflər qəbul olunmadı. Osmanlı qoşunlarının rəhbərliyi sadəcə sülh danışıqlarına cəhd göstərməklə kifayətlənmədilər. Cığaloğlu eyni zamanda qızılbaş dəstələri üzərinə hücumlar da təşkil etdi. Məsələn, məlumdur ki, Osmanlı dəstələri ilə kürd dəstələri Xoy və Mərənd üzərinə basqın həyata keçirdilər. Bu birləşmiş dəstəyə rəhbərlik Mustafa paşaya həvalə edildi. Mustafa paşa bilirdi ki, Şah Abbas Təbrizdədir və lazım gələrsə o, üç günlük yolu bur gecəyə başa vurub Mərəndə gələ bilər. Ona görə də Mustafa paşa qorxusundan Mərəndə getmədi. O özü Xoyda qaldı və Mərənd istiqamətinə isə əsasən kürdlərdən ibarət olan dəstəni göndərdi. Həmin dəstənin rəhbəri Süleyman bəy Mahmudi idi. Mərənd hakimi Cəmşid Sultan Dünbüli Osmanlı və kürd qüvvələrinin hücumu xəbərini dərhal Şah Abbasa çatdırdı. Şah Abbas da bu müraciəti cavabsız qoymadı və Osmanlı qüvvələrinin bölgədəki fəallıqlarının qarşısını almaq üçün qorçubaşı Allahqulu bəyin rəhbərliyi altında həmin istiqamətə qüvvə göndərdi. Kürdlər Mərənd üzərinə basqın etsələr də, onlar da qızılbaş qüvvələrinin onları haqlaya biləcəyindən çox ehtiyat edirdilər. Ona görə onlar Mərənd ətrafındaki bir neçə məntəqəni talayıb dərhal geri dönmək yolunu tutdular. Cəmşid xan isə Şah Abbas tərəfindən göndərilən köməyin gəlib çatmasını gözləmədən kürd dəstəsinin üzərinə hücum etdi. Onun yanında cəmi üç yüz atlı var idi və bu qüvvə ilə Cəmşid bəy kürdləri altı fərsəx təqib etdi. Basqına məruz qalan məntəqədəki kürdlər də Cəmşid xanın

dəstəsinin gəlməsi xəbərini eşidib oradan qaçmağa başladılar. Bu adamların qaçmağa başlaması Cəmşid xanda öz qüvvəsinə bir arxayınçılıq yaratdı və basqınçı qüvvələrin təqibini davam etdirdi. Süleyman bəy Mahmudi və Mustafa paşa isə geri qaçmaqda olan dəstələrini toparlaya bildilər. Bu da onlara imkan verdi ki, Cəmşid xanın dəstəsinə qarşı səmərəli müqavimət göstərmək mümkün olsun. Cəmşid xan isə bu zaman huşyarlığını itirdi və ətrafında nə baş verdiyini vaxtında qiymətləndirə bilmədi. Bir zaman hiss etdi ki, artıq onun dəstəsi Osmanlı və kürd dəstələri tərəfindən mühasirəyə alınmışdır. Bu vəziyyətdən çıxmaq üçün onun yetərincə gücü yox idi. Ona görə Cəmşid xan geri çəkilmək yolunun tutdu. Amma bu zaman onun dəstəsi yaxalandı, döyüşçülərinin bir hissəsi qətlə yetirildi, bir hissəsi isə əsir götürüldü. Cəmşid xanın qardaşı da əsir alındı. Cəmşid xan çətinliklə özünü Mərəndə çatdıra bildi. Elə bu zaman Şah Abbasın göndərmiş olduğu qorçubaşı Allahqulu bəy gəlib ona yetişdi. Biləndə ki, nə baş verib Allahqulu bəy daha orada dayanmağı mənasız bildi və Təbrizə qayıtdı (140).

Elə həmin vaxtlarda İrəvan hakimi Əmirgünə xandan şaha bir məktub çatdırıldı. Məktubda bildirilirdi ki, Osmanlı qoşun dəstəsi İrəvan xanlığı üzərinə hücuma başlamışdır və bu dəstə artıq Araz çayı kənarlarına gəlib çatmışdır. Həmin dəstənin hücumunun qarşısını almaq üçün Şah Abbasdan kömək istənilirdi. Cığaloğlu bununla yeni bir fəallıq göstərmək və bölgənin hərbi şəraitində özünə bir üstünlük qazanmaq istəyirdi. İrəvan xanlığı üzərinə hücumun uğurla başa çatacağı təqdirdə Şah Abbasın vəziyyəti xeyli çətinləşə bilərdi. O, Osmanlı qoşun dəstəsinin İrəvan ətrafına çatmasından əvvəl onu haqlamağı və bu dəstəyə güclü zərbə vurmağı qərara aldı. Şah Abbasın gümanında, bu hücumun qarşısının alınmasında ləngliyə yol vermək peşmançılığa gətirib çıxara bilərdi. Ona görə də Şah Abbas elə gecə ikən Səlmas istiqamətində hərəkətə başladı. Şah Abbas heç yerdə dayanmadan, böyük bir sürətlə özünü həmin şəhərə çatdırdı. Amma bu şəhərə yetişəndə Şah Abbasa xəbər gətirdilər ki, Osmanlı dəstəsi geri qayıtmışdır. Osmanlı dəstəsi doğrudan da İrəvan üzərinə hərəkətə başlamışdı. Lakin bu

dəstənin rəhbərləri biləndə ki, Şah Abbas da Səfəvi qoşunları ilə hərəkətə başlamışdır, onda Osmanlı dəstələri də Səfəvi şahı ilə döyüşə girməyi məqsədəuyğun saymayaraq geri qayıtdılar (141).

Azərbaycanın qərb ərazilərinə çoxlu qar yağmışdı və bu qar hətta Novruz bayramından sonra da əriyib yox olmadı. Ona görə də, yeni Səfəvi-Osmanlı savaşı da müəyyən vaxta qədər təxirə salındı. 1605-ci ilin Novruz bayramından sonra Şah Abbasın fərmanı ilə Təbrizdə yeni bir qala ucaldıldı. Məlumdur ki, Osmanlı qoşunlarının hücumunun qarşısının alınması üçün Şah Abbas tərəfindən Azərbaycan ərazisində xeyli sayda dağıntı işləri həyata keçirilmişdi. O cümlədən də Təbriz qalası dağıdılmışdı. Bu şəhərdə Osmanlı müqavimətinin əsaslı şəkildə qırılması üçün Şah Abbas bu qalanın dağıdılmasını lazım bilmişdi. Onun sözlərinə görə, əvvəlki Səfəvi şahlarının hakimiyyəti illərində Təbrizdə qala yox idi. Ona görə onun olmaması elə də əhəmiyyətli deyildir. Amma bu qalanın dağıdılması insanlar içərisində müəyyən söz-söhbətlərə səbəb olmuşdu. Bunu İsgəndər bəy Münşi də müşahidə etmişdi. Onun yazdığına görə, Osmanlı qüvvələri hara hücum edirdilərsə, orada mütləq şəkildə qala tikirdilər. Qala tikilməsi mümkün olmayan yerdə isə osmanlılar qərar tuta və ya düşərgə sala bilmirdilər. Ortaya çıxan bəzi söhbətlər də elə bununla bağlı idi ki, osmanlılar hara gedirlərsə qala tikirlər, Şah Abbas isə Təbrizə gələn kimi qalanı dağıtdı. Osmanlı mənsubları və kürdlər də təhrikedici şayiələr yayırdılar ki, qızılbaşların Təbrizə qarşı xoş münasibəti olsaydı, bu şəhərin qalasını dağıtmazdı. Belə şayiələr də yayılırdı ki, bölgə əhalisinin başqa yerə köçürülməsi də Şah Abbasın bu bölgəyə olan münasibətinin nəticəsidir. Belə şayiələrə son qoyulması və yerli əhalinin şah siyasətinə inamının artırılması üçün Şah Abbas Təbrizdə yeni bir qalanın tikilməsini qərara aldı. Bu qalanın eni, uzunluğu, divarlarının hündürlüyü də Şah Abbas tərəfindən müəyyən edildi. Münəccimlərin müəyyən etdikləri bir gündə bu qalanın tikintisinə başlandı. Qalanın tikiləcək divarları əmirlər və əyanlar arasında bölüşdürüldü. Bu qalanın tikintisi 1605-ci il may ayının ortalarında başladı.

Tikintinin davam etdiyi günlərdə Şah Abbas Ərdəbilə yollanmağı, orada əcdadlarının məzarını ziyarət etməyi qərara aldı. O həm də Şeyx Səfi türbəsində ibadətlə məşğul olmaqla yaradana ona Osmanlı qoşunları ilə savaşda yardımçı olmasını dua etmək istəyirdi. Şah Abbas həmin səfəri başa vurub 1605-ci ilin iyun ayında Təbrizə qayıtdı (142).

Yeni Təbriz qalasının tikintisi 20 gün davam etdi. Sonra da bu qalanın divarları boyunca dərin xəndək qazıldı, qala daxilinə yetərli sayda müdafiə vasitələri, o cümlədən, top, tüfəng, barıt, qurğuşun, neft və digər sursat və təchizat əşyaları toplandı. Bu ehtiyatlar vasitəsilə Təbriz qalasını üç il müdafiə etmək mümkün idi (143).

Təbriz qalasının tikintisi başa çatdıqdan sonra Şah Abbas artıq Osmanlı qoşunları ilə yeni savaşa başlamaq məsələlərini də ortaya gətirdi. Cığaloğlunun rəhbərliyi altında olan Osmanlı qoşun dəstəsi Vanda dayanmaqda idi. Bəlli idi ki, bu qoşunun Vanda dayanmaqda məqsədi münasib şərait yaranan kimi Şah Abbasın azad etdiyi qalalar üzərinə hücum etmək və həmin qalaları geri qaytarmaqdır. Osmanlı paşasının planlarını pozmaq üçün Şah Abbas Vana bir qoşun dəstəsi göndərmək qərarına gəldi. Onun gümanında Vana göndərilmiş güclü bir qızılbaş dəstəsi Osmanlı qoşunlarına qəfil zərbə vurmaqla onu mühasirəyə almaq mümkün idi. Ya da Osmanlı qoşunları qəfil zərbədən sonra Vanı tərk edib geri çəkilə bilərdi. Bu halda da Osmanlı qoşunları ağır zərbə almış olardı. Bununla, Osmanlı qoşunlarının bölgədən uzaqlaşdırılması da həll edilə bilərdi. Van üzərinə hücuma rəhbərlik Fars vilayətinin bəylərbəyi Allahverdi xana tapşırıldı. Onun özünün qoşun dəstəsi on iki min nəfərdən ibarət idi. Bundan başqa Azərbaycan hakimi Zülfüqar xan Qaramanlı, Kirman hakimi Gəncəli xan, Əlişəkər hakimi Həsən xan, Təbriz hakimi Pir Budaq xan və digər tanınmış və təcrübəli əmir və əyanlar da öz qoşun dəstələri ilə birlikdə Allahverdi xanın rəhbərliyi altına verildi. Nəticədə 30 min nəfərlik bir qoşun dəstəsi təşkil olundu. Mövcud olan məlumata görə, Şah Abbas bu qoşun dəstəsini xeyli müşayiət etdi. Geri qayıtmaq

istəyərkən Şah Abbas bu dəstənin rəhbəri olan Allahverdi xana dedi ki, sənə nəyi isə xatırlatmağa ehtiyac yoxdur. Amma yaddan çıxarmaq lazım deyil ki, bu səfərin çox böyük əhəmiyyəti vardır. Onun sözlərinə görə, bu səfər Allahverdi xanın həyata keçirdiyi bütün səfərlərdən daha əhəmiyyətli idi. Çünki Allahverdi xanın uğursuzluğa düçar olacağı təqdirdə Osmanlıdan geri alınmış ərazilərin hamısı əldən çıxacaqdı. Bunun baş verməməsi üçün Şah Abbas ən yaxşı sərdarlarını Allahverdi xanın rəhbərliyi altına vermişdi. Şah Abbas onu da bildirdi ki, o, Allahverdi xanın yürüşünə böyük ümid bağlayır (144).

Allahverdi xanın rəhbərliyi altında olan qızılbaş dəstəsi iyirmi gündən sonra Van ətrafına yetişdi. Bu dəstənin gəlişi elə bir gözlənilməz halda baş verdi ki, Cığaloğlu da təəccüb içərisinə düşdü. O, qızılbaş qoşunları ilə yeni savaşa son dərəcə arxayın şəkildə hazırlaşırdı. Bir tərəfdən o, qızılbaş dəstələrinin qəfil şəkildə Van ətrafına gəlib çatacağını gözləmirdi. Digər tərəfdən isə Cığaloğlu Osmanlı vilayətlərindən gələcək əlavə qoşun dəstələrinin çatmasını gözləyirdi və belə bir plana malik idi ki, həmin qüvvələr Vanda toplandıqdan sonra qızılbaş dəstələri ilə qarşılaşmaq üçün hərəkətə başlasın. Allahverdi xan isə Van ətrafına yetişdikdən sonra savaş hazırlıqlarına başladı. O, qoşunları döyüş üçün qruplaşdırdı, qoşunların çərxçi dəstəsini müəyyənləşdirdi, sağ və sol qanadları təyin etdi. Beləliklə, Allahverdi xan Osmanlı qoşunları ilə döyüşə hazır vəziyyət aldı. Amma Cığaloğlu onunla döyüşə girməyə cəsarət etmədi. Çünki qış istirahətinə buraxılmış qoşunların heç də hamısı qayıdıb gəlməmişdi. Cığaloğlunun yanında 10-15 min nəfərlik bir qoşun dəstəsi var idi. Bu qoşunla qızılbaş dəstəsinə qarşı çıxmaq Cığaloğluna heç bir uğur gətirməzdi. Ona görə də Cığaloğlu qalaya çəkilmək və qala divarlarına sığınmaq qərarına gəldi. Bununla belə, bəzi Osmanlı paşaları qızılbaş dəstəsi ilə döyüşə girməyi qərara aldılar. Bu məqsədlə həmin paşalar öz dəstələri ilə qala xaricində döyüş mövqeləri tutdular, qızılbaş dəstəsinin yetişməsini gözlədilər. Qızılbaş dəstəsi yetişəndən sonra Allahverdi xan öz qüvvələrini qruplaşdırdı, sonra da musiqi alətlərinin səda-

ları altında döyüşə başladı. Allahverdi xanın dəstəsinin çərxçiləri özlərini irəli atdılar və osmanlılarla döyüşü başladılar. Çərxçilərin fədakarlığı və qorxmazlığı qarşı tərəfin sıralarını pozdu və Osmanlı dəstəsinə ağır zərbə vuruldu. Qızılbaş döyüşçüləri hətta Osmanlı dəstəsində istifadə olunan topların atəşlərindən də geri çəkilməyərək nəyə qadir olduqlarını nümayiş etdirdilər. İsgəndər bəy Münşinin yazdığına görə, bu döyüşdə qətlə yetirilən Osmanlı döyüşçülərinin sayı min nəfərdən artıq idi. Xeyli sayda Osmanlı mənsubu isə əsir götürüldü. Allahverdi xan və bütün qızılbaş dəstəsi Van ətəklərinə çataraq qala divarları yaxınlığında çadırlar qurdular və əldə etdikləri uğuru qeyd etdilər (145).

Elə bu zaman məlumat alındı ki, Cığaloğluna kömək göstərilməsi üçün Məhəmməd paşanın rəhbərliyi altında olan bir Osmanlı dəstəsi Vana tərəf irəliləməkdədir. Bu dəstədən əlavə, Sivasdan və Osmanlı dövlətinin digər ərazilərindən də Vana kömək göndərilmişdi. Məhəmməd paşanın dəstəsinin Vana çatmazdan əvvəl qarşılanması üçün Allahverdi xan tərəfindən bir qızılbaş dəstəsi irəli göndərildi. Həmin dəstəyə rəhbərlik Qərçəqay bəyə tapşırıldı və bu dəstə Vandan altı fərsəx aralıda Məhəmməd paşanın dəstəsi ilə qarşılaşdı. Bu qarşılaşma zamanı da qızılbaş döyüşçüləri nəyə qadir olduqlarını ortaya qoydular. Onlar bütün gücü ilə Osmanlı dəstəsinin üzərinə atılaraq onlara ağır zərbələr vurdular. Xeyli sayda Osmanlı döyüşçüsü qətlə yetirildi. Hətta Məhəmməd paşa da əsir götürüldü. Lakin o, aldığı yaradan tezliklə dünyasını dəyişdi. Verilən tapşırığı uğurla icra edən Qərçəqay bəy öz dəstəsi ilə yenidən geri qayıdıb Van qalası ətrafına gəldi (146).

Qərçəqay bəyin dəstəsinin Van ətrafından uzaqlaşması qala daxilindəkilərdə belə bir güman yaratdı ki, ətrafda qızılbaş qüvvələrinin sayı azalıb və onlarla savaşa girmək mümkündür. Ona görə də Osmanlı qüvvələri qalanı tərk edərək yaxın ətrafdakı bağlarda mövqe tutdular və döyüşə hazır vəziyyət aldılar. Osmanlı tüfəngçiləri ön mövqelərdə yerləşdirildilər ki, qızılbaşlara daha çox itki vermək mümkün olsun. Amma Osmanlı qüvvələrinin bütün yerdəyişmələri qızılbaşlar tərəfindən müşahidə edilirdi və onlar

döyüşə hazır vəziyyətdə idilər. Osmanlı döyüşçüləri şəhər ətrafında yer tutan kimi qızılbaşlar irəli atıldılar. Əvvəldən lazımi hazırlığa malik olan qızılbaşlar bu döyüşdə də üstünlüyü əldə etdilər və Osmanlı döyüşçülərinə heç bir şans verilmədi. Qala ətrafında mövqe tutan Osmanlı döyüşçülərini qala divarları üzərində dayanan Osmanlı tüfəngçiləri öz atəşləri ilə himayə edirdilər. Buna baxmayaraq, qızılbaş döyüşçülərinin yüksək sürəti, məharəti nəticəsində döyüş üstünlüyünü təmin etmək mümkün oldu. Osmanlı döyüşçüləri geri qayıdıb qalaya girmək istədilər. Bu zaman onların keçidi üçün qala darvazası darlıq etdi. Osmanlı döyüşçülərindən bir qrupu başqa bir darvazaya yol alanda onların arasında çaxnaşma yarandı və bu da onların əlavə itkilərlə qarşılaşmasına gətirib çıxardı. Mənbə məlumatlarına görə, qızılbaş dəstəsinin ordubazarının adamları da bu döyüşdə iştirak etdilər və küncdə-bucaqda gizlənib qalmış Osmanlı döyüşçülərini ələ keçirib onları düşərgəyə apardılar. Bu döyüş Osmanlı dəstəsində ağır təəssürat yaratdı. Cığaloğlu anladı ki, Vanda qalmaq həm onun üçün, həm də dəstəsi üçün təhlükəlidir. Bir qədər də vaxt keçsə o öz dəstəsini bütünlüklə itirə bilərdi. Ona görə də Cığaloğlu Vandan geri çəkilməyi qərara aldı. Ancaq şəhərdən çıxan yolla hərəkət etmək kifayət qədər təhlükəli olduğu üçün Cığaloğlu qayıqlarla Van qalasının kənarında olan Van gölündən keçməklə oradan uzaqlaşmağı qərara aldı. Osmanlı dəstəsinin oradan uzaqlaşmasından sonra Allahverdi xan aparılan döyüşlər və onların nəticələri haqqında Şah Abbasa məlumat göndərdi (147).

Şah Abbas Osmanlı qoşunlarına qarşı Allahverdi xanın apardığı döyüşlərin nəticələrini məmnunluqla qarşıladı. Osmanlı qoşunlarının bölgədən birdəfəlik sıxışdırılıb çıxarılması üçün Şah Abbas özü də qoşunla Təbrizi tərk edərək həmin istiqamətə yollanmağı qərarlaşdırdı. Şah Abbası görə, Cığaloğlu Vanı tərk edəndən sonra Adilcəvaz və Ərciş istiqamətində hərəkət edə bilərdi. Cığaloğlunun rəhbərliyi altında olan dəstənin yaxalanması üçün Şah Abbas da həmin istiqamətə yola düşdü. Amma həmin istiqamətdə Osmanlı dəstəsini tapmaq mümkün olmadı və Cığaloğlu-

nun hansı istiqamətə yollanması da bilinmədi. Allahverdi xanın rəhbərliyi altında olan qoşun dəstəsi Ərciş ətrafında Osmanlı dəstəsini tapa bilmədikdə geriyə üz tutdu və bu dəstə Xoyun Salmanabad məntəqəsində düşərgə salmış şah qoşunlarına qoşuldu. Şah Abbas qoşunlarla birlikdə bir neçə gün həmin məntəqədə qaldı, orada ov mərasimləri təşkil etdi. Sonra qoşun Salmanabadı tərk etdi və Çaldıran düzünə hərəkət etdi. Şah Abbas bir müddət də Çaldıran düzündə qaldı. O vaxtilə Şah İsmayıl ilə Sultan Səlim arasında böyük döyüşün məhz burada baş verdiyi üçün Şah Abbas həmin məkana xüsusi bir həssaslıqla yanaşdı. Orada düşərgə salındı və Allahverdi xan tərəfindən Osmanlı qüvvələrinə qarşı aparılan döyüşün nəticələri, bu döyüş zamanı əldə edilmiş çoxlu sayda qənimətlər Şah Abbasa təqdim olundu. Çaldıran düzünün havası Şah Abbasın çox xoşuna gəldi. Bura həm də Səltənət hüdudlarının müdafiəsi üçün əhəmiyyət kəsb edən bir məkan idi. Ona görə də Şah Abbas qərara gəldi ki, Xoyda da bir qala tikilsin. Bu qalanın tikilməsi işi Qənbər bəy Ustaclıya, qala tikintisinin təşkili məsələləri isə Təbriz hakimi Pir Budaq xana həvalə olundu. Xoy qalasının tikintisi üçün yetərli sayda qüvvə cəlb olundu, əmir və əyanlar üçün fəaliyyət sahələri müəyyənləşdirildi. Ona görə də bu qalanın da tikintisi qısa bir zamanda başa çatdı. Qalaya müdafiə üçün lazım olan miqdarda ərzaq və müdafiə təchizatı yığıldı. Seydi Sultan Xəbuşlu adlı birisi də bu qalanın rəhbəri təyin edildi. Xoy qalasının əhalisi bu qalanın tikilməsini sevinclə qarşıladı. Çünki bu qalanın mövcudluğu əhalinin müdafiəsinin təşkilini də etibarlı bir səviyyəyə qaldıra bilərdi (148).

Xoy ətrafında Şah Abbas və bütün qoşunlar müəyyən müddət istirahət də etdilər. Şah Abbas orada olarkən ətrafda məskunlaşmış qiyamçı və talançı qüvvələrin cəzalandırılması ilə bağlı addımlar da atdı. Bəlli idi ki, Maku və Pəcək məntəqələri ətrafında məskunlaşmış olan mahmudi kürdləri vaxtaşırı ətraf məntəqələrin talanması ilə məşğul olurdular. Şah Abbas Xoyda olarkən mahmudi kürdlərinin hakimləri şah hüzuruna gəlib öz itaətlərini bəyan etmədilər. Amma bu kürdlərin bir hissəsi şaha itaət yolunu tutdu və

şah hüzuruna gələrək öz sədaqətlərini bildirdilər. Şah Abbasın fərmanı ilə həmin kürdlər itaətsizlik yolunda olan kürdlərdən ayrıldı və onlar səltənətin içərilərinə köçürüldü. Pəcək ətrafında qalmış digər kürdlərə isə dərs verilməsi üçün həmin məntəqələrə qızılbaş dəstəsi göndərildi. Şah Abbas qoşunla birlikdə Maku istiqamətində irəlilədi. Maku hakimi olan Mustafa bəy də şah sarayına qarşı itaətsizlik yolunu tutmuşdu. Hətta Şah Abbasın böyük bir qoşunla gəlməsi də onu bu yoldan döndərə bilmədi. Digər tərəfdən də Mustafa bəyin qardaşları və yaxın ətrafı onu şaha qarşı təhrik edirdilər. Ona şah qoşunlarının gəlməsi xəbəri alınanda Mustafa bəy Miyanədərə dağının ətəyində tikilmiş olan Maku qalasına yollandı. Bu qala son dərəcə möhkəm bir qala idi və malik olduğu müdafiə imkanlarına görə onun fəth edilməsi qeyri-mümkün bilinirdi. Mustafa bəy də bu qalanın imkanlarına arxayın idi. Bu qaladan başqa, bölgədə başqa bir qala da var idi. Həmin qala da möhkəm qala sayılırdı. Mustafa bəy öz əmlakını və var-yoxunu həmin qalaya göndərdi (149).

Amma bu qalaların möhkəmliyi də kürdləri qızılbaş döyüşçülərinin əlindən qurtara bilmədi. Qaradağlı və müqəddəm tayfalarına mənsub olan döyüşçülər Maku qalası ətrafındakı kürd mühafizəçiləri qətlə yetirdikdən sonra qala divarlarına yaxınlaşdılar və bir müddətdən sonra həmin divarlarda dəliklər açılmasına müvəffəq oldular. Amma digər qalanın alınması mümkün olmadı. Bu qala ətrafında ləngimək məqsədəuyğun olmadığı üçün onun alınması da lazım bilinmədi. Bundan sonra ətraf məntəqələrdə məskunlaşmış olan kürdlərin cəzalandırılması, onların var-yoxunun talanması başlandı. Talan və basqınları həyat tərzinə çevirmiş olan kürdlərə ağır zərbə vuruldu, onların əmlakları kütləvi şəkildə talan edildi (150).

Şah qoşunları təxminən on gün Maku ətrafında qaldı. Sonra isə şah tərəfindən Naxçıvan istiqamətinə gedilməsi məqsədəuyğun bilindi. Şah Abbas bu qərarını belə əsaslandırırdı: "Van və Ərzrum arasında yerləşən və rum ləşkərinin keçid yeri olan Naxçıvana gedib, Araz çayı kənarında dayansınlar. Əgər bu il rum sərdarı

adam toplayıb Azərbaycana hücum etsə, qızılbaşlar hər iki yol arasında mövqe tutub müdafiəyə hazır olsunlar, yox əgər sərdar bu il gəlməsə, hümayun qışlaq Qarabağda olsun və Allahın köməyi ilə [qızılbaşlar] Gəncə qalası və Şirvan məmləkətini ələ keçirsinlər" (151).

Şah Abbas özlüyündə belə bir qərara gəldi ki, Osmanlı qoşunları yenidən Azərbaycan üzərinə hücum edəcəyi təqdirdə Naxçıvan istiqamətində irəliləyə bilərdilər. Ona görə də Naxçıvan yaxınlığında düşərgə salmaqla Osmanlı qoşunlarını daha asanlıqla qarşılamaq olardı. Bu qərardan sonra qoşunların hərəkəti başladı və Naxçıvan yaxınlığındakı Yəzdabad keçidindən Araz çayını adlayan şah qoşunları Araz çayı yaxınlığında düşərgə saldı. Sonrakı hadisələr göstərdi ki, Şah Abbas gümanında yanılmamışdır. Araz çayı kənarında olduğu günlərdə Şah Abbas məlumat aldı ki, Osmanlı qoşunları Əlbaq və Səlmas yolu ilə yaxınlaşmadadırlar.

Cığaloğlu Van şəhərini tərk edəndən sonra bölgədən çox da uzaqlaşmadı. Çünki Osmanlı sərdarı ona tapşırılmış vəzifəni hələ icra etməmişdi və o, yeni qoşun dəstəsi toplamaqla Azərbaycan üzərinə hücumu davam etdirməli idi. Cığloğlu Muş səhrasında düşərgə saldı və orada yeni və daha böyük sayda olan qoşun dəstəsinin formalaşdırılmasını davam etdirdi. Muş səhrasında dayanarkən Cığaloğlu ətraf bölgələrin hakimlərinə, habelə bölgədə məskunlaşmış olan kürd tayfalarının rəhbərlərinə məktublar göndərdi və onları qoşun dəstələri ilə birlikdə yanına dəvət etdi. Bu dəvətdən sonra onun ətrafında böyük bir qoşun dəstəsi toplandı. 1605-ci ilin payızının sonlarına yaxın Cığaloğlu ətrafına topladığı qoşun dəstəsi ilə Səlmas istiqamətində hərəkətə başladı. Osmanlı qoşunlarının gəlməsi barədə məlumat alanda Şah Abbas qoşunları hərəkətə gətirdi. Şah qoşunları yenidən Araz çayının cənubuna adladılar və Xoy yaxınlığında düşərgə saldılar. Şah Abbas Təbriz hakimi Pir Budaq xana göstəriş verdi ki, Osmanlı qoşunlarının hərəkət istiqamətində olan məntəqələrin əhalisini səltənətin içərilərinə köçürsün, bu əhalinin özü ilə apara bilmədiyi əmlaka isə od vurulsun. Pir Budaq xan eyni zamanda Təbriz qalasının möh-

kəmləndirilməsi üçün əlavə tədbirlər görməli və bu şəhəri Osmanlı qoşunlarının hücumundan müdafiəyə hazırlamalı idi. Bu tapşırığı alandan sonra Pir Budaq xan Təbrizə qayıtdı və şahdan aldığı tapşırığın icrasına başladı. Amma şəhər daxilində bəzi adamlar Pir Budaq xanın göstərişlərindən boyun qaçırdılar və onlar şəhər daxilində nizamsızlıqlar törətməyə başladılar. Hətta Pir Budaq xanın tabeliyində olan qoşun dəstəsinin bəzi döyüşçüləri də intizamsızlıqlar göstərdilər. Pir Budaq xan onlardan bəzilərini qətlə yetirdi və bununla da şəhər daxilində nizam və əmniyyəti bərpa etmək mümkün oldu (152).

Şah qoşunları Xoy ətrafında cəmi iki gün dayandı. Osmanlı qoşunlarının yaxınlaşmasını müşahidə altında saxlamaq üçün Şah Abbas irəli qarovullar göndərmişdi. Bu qarovullar yollandıqları məntəqədə Osmanlı qoşunlarının yaxınlaşdıqlarını müşahidə etdilər. Həmin qoşunların sayı və təchizat imkanları haqqında yetərli məlumat əldə etmə üçün qızılbaş döyüşçüləri bir neçə Osmanlı döyüşçüsünü əsir götürüb düşərgəyə gətirdilər. Onların sorğu-sual edilməsi nəticəsində bəlli oldu ki, Cığaloğlunun rəhbərliyi altında yüz min nəfərlik bir qoşun dəstəsi səltənət sərhədlərinə yaxınlaşmaqdadır (153).

Cığaloğlu Azərbaycan üzərinə bu dəfə də havaların soyumağa doğru getdiyi bir vaxtda yürüşə başlamışdı. Görünür, o bu dəfə də qış fəslində ona tapşırılan vəzifənin icrasına nail olmayacağını bilirdi. Ona gör də Cığaloğlu qərara almışdı ki, birbaşa Ərdəbilə yollansın və sonra da oradan Qızılağaca istiqamət götürsün. Osmanlı sərdarı 1605-ci ilin sonunu və 1606-cı ilin ilk aylarını orada keçirmək niyyətində idi.

Osmanlı qoşunlarının hərəkətə başlaması haqqında məlumat daxil olandan sonra Şah Abbas təcrübəli qızılbaş əmirlərindən olan Təvəkkül xan Gəraylını, Şahqulu sultan Bayatı, Əlixan Sufilər Ustaclını və Çəlmə Sultan Cığatayı beş min nəfərlik qoşun dəstəsi ilə irəli göndərdi. Bu dəstə Osmanlı qoşunlarının irəliləməsi ehtimal olunan marşrut üzrə məntəqələri dağıtmalı, yerli əhalini səltənətin içərilərinə köçürməli, insanların özləri ilə apara bilmə-

dikləri ehtiyatları yandırmalı idilər. Hətta evlərin tikilməsi üçü istifadə edilmiş ağac materiallar da sökülərək yandırılmalı idi ki, Osmanlı mənsubları onlardan ocaq düzəldilməsi üçün istifadəsinə imkan qalmasın. Yəni yol üstündə qərar tutan məntəqələrdə Osmanlı döyüşçülərinin istifadəsinə yaraya biləcək hər şey məhv edilməli idi. Bu tapşırığı alandan sonra adları çəkilən əmirlər qoşun dəstəsi ilə birlikdə Səlmasa yollandılar. Təbrizlə Səlmas arasında qırx fərsəxlik bir məsafə var idi. Qızılbaş əmirləri bu məsafədə yerləşən əhalini öz yurdlarından köçürdülər və həmin fasilə daxilində yaşayış üçün mövcud olan bütün ehtiyatlar da məhv edildi. Bildirilirdi ki, Təbrizlə Səlmas arasındakı ərazidə insanların bir gün də olsa vaxt keçirməsi üçün heç bir şərait və ehtiyat tapmaq mümkün deyildi (154).

Osmanlı qoşunlarının Təsuc yolu ilə irəliləməsi xəbərini alanda Şah Abbas qızılbaş qoşunlarını hərəkətə gətirdi və Mərəndə tərəf istiqamət götürdü. Qərara alınmışdı ki, əlverişli bir məkanda Osmanlı qoşunlarının qarşısı kəsilsin və bu qüvvələrə güclü bir zərbə vurulsun. Bu zaman hücumun daha kəsərli və səmərəli təşkili üçün Şah Abbas şəxsən irəli getməyi və Osmanlı qoşunlarını müşahidə etməyi lazım bildi. Şah Abbas Osmanlı qoşunlarının irəlilədiyi marşrut üzərində qərar tutan dağ yüksəkliklərindən birinə qalxdı və oradan Osmanlı ordusunu yaxşıca müşahidə etdi. Bununla da, Osmanlı qoşunlarının kəmiyyəti və keyfiyyəti barəsində onda aydın bir təsəvvür yarandı (155).

Həmin müşahidəni apardıqdan sonra Şah Abbas qoşunları döyüş aparılması üçün qruplaşdırmağa başladı. Onun tapşırığı ilə Allahverdi xanın rəhbərliyi altında bir qoşun dəstəsi irəliyə göndərildi. Bu dəstənin sayının 25 min nəfərdən ibarət olduğu bildirilir. Güman edilirdi ki, bu dəstə irəli çıxarılmaqla həm də Təbrizin müdafiəsinə kömək verilə bilər. Şah Abbas ehtiyat edirdi ki, Osmanlı qoşunları ilə döyüş apardığı zaman Cığaloğlu öz qüvvəsinin bir hissəsini Təbrizə göndərə bilər. Bu zaman Təbrizin müdafiəsi qeyri-mümkün olardı. Qoşunlarının çox olması Cığaloğluna belə bir hücumu həyata keçirməyə imkan verirdi. Allahverdi xanın irəli

çıxarılması bu şəhərin müdafiəsinin gücləndirilməsinə öz təsirini göstərə bilərdi (156).

Şah Abbas Osmanlı qüvvələrinə qarşı çıxacaq qızılbaş qoşunlarının mərkəzində qərar tutmağı qərarlaşdırdı. Onun əmri əsasında Zülfüqar xan, Gəncəli xan və Mir Müqəddəm qızılbaş qüvvələrinin çərxçisi təyin edildilər. Qoşunların sağ cinahı Əmirgünə xana həvalə edildi. Onun köməyinə bir neçə təcrübəli qızılbaş əmiri də verildi. Qoşunların sol cinahına da təcrübəli və etibarlı əmirlər təyin edildilər. Şah Abbas Sonra cinah rəhbərlərinə ehtiyatla Sufiyana tərəf irəliləmək əmri verdi. Şah Abbas həm də qoşun başçılarından tələb etdi ki, tələsgənliyə yol verməsinlər, vaxtından qabaq irəli çıxmasınlar və Osmanlı qoşunları ilə döyüşə girməyə də tələsməsinlər. Bu hadisə 1605-ci il noyabr ayının ilk günlərinə təsadüf edirdi (157).

Conabedinin yazdığına görə, Şah Abbas tərəfindən qızılbaş qoşunları Osmanlı qoşunlarına qarşı döyüşə girmək üçün belə qruplaşdırılrı: qoşunların sağ cinahı Əliqulu xan Şamlıya həvalə olundu və onun rəhbərliyi altına bir neçə təcrübəli qızılbaş əmiri də verildi. Sol cinaha rəhbərlik qorçubaşı Allahqulu bəyin oğluna həvalə olundu. Onun rəhbərliyi altında bir neçə təcrübəli qızılbaş əmiri bu cinahda vuruşmalı idi. Qoşunların mərkəzində isə şah özü dayanmalı idi. Allahverdi xanın rəhbərliyi altında olan 25 min nəfərlik qoşun dəstəsi irəli çıxarılmaqla qoşunların avanqardı vəzifəsi bu dəstəyə həvalə olundu. Həmin dəstə döyüş meydanı ehtimal olunan məkandan yarım fərsəx aralıda mövqe tutmalı idi. Allahverdi xan da nəzərdə tutulan əraziyə yetişdikdən sonra öz dəstəsini qruplaşdırdı, dəstənin çərxçiləri, sağ, sol və mərkəz qüvvələri təyin edildi. Allahverdi xanın dəstəsindən yarım fərsəx irəlidə isə Qərçəqay bəyin dəstəsi yerləşdirildi. Bu dəstə də icra edəcəyi vəzifə etibarilə, əslində, Allahverdi xan dəstəsinin avanqardını, yəni irəli çıxarılmış dəstəsini təşkil edirdi. Allahverdi xanla Qərçəqay bəyin dəstələri arasında isə Zülfüqar xanın rəhbərliyi altında olan dəstə mövqe tutdu. Bu dəstə zərurət yaranacağı halda ya Allahverdi xanın dəstəsinə, ya da Qərçəqay xanın

dəstəsinə kömək göstərməli idi. Kirman hakimi Gəncəli xanın rəhbərliyi altında olan dəstə də Qərçəqay xan dəstəsinin yaxınlığında yer aldı. Bu dəstəyə də Qərçəqay xanın dəstəsinə verilən tapşırıq həvalə olunmuşdu. Ehtiyac duyulanda Gəncəli xan öz müdaxiləsi ilə Allahverdi xana və ya Qərçəqay xana kömək yetirməli idi (158).

Conabedi əsərinin bir yerində Osmanlı qoşunlarının 80 min, digər bir yerində isə 150 min nəfər olduğunu bildirirdi. Osmanlı mənbələrinə istinad edən türkdilli araşdırmalarda isə qoşunların sayı 100 min nəfər göstərilmişdir (159). Yuxarıdakı qeydlərdən göründüyü kimi, İsgəndər bəy Münşi də qoşunların sayının 100 min nəfər olması üzərində dayanmışdı.

Qoşunların əsas qüvvələri irəli hərəkət edəndən sonra Şah Abbas onun yanında qalan böyük əmirlərin, qorçuların, qulamların, tüfəngçilərin əhatəsində Təbriz yolu üzərində qərar tutan yüksəkliklərdən birinin üstünə qalxdılar. Buradan onlar qızılbaş dəstələrinin irəli hərəkətini izlədlər. Nəzərdə tutulmuşdu ki, Osmanlı qoşunlarına qarşı ilkin olaraq çərxçilər döyüşə qatılsınlar. Şah Abbasın tapşırığı ilə Qərçəqay bəy xassə qulamlar və tüfəngçilər dəstəsi ilə irəli hərəkət etdi. Çərxçi dəstəsi Osmanlı qüvvələri tərəfindən təzyiqə məruz qaldığı halda Qərçəqay bəy həmin dəstəyə öz köməyini göstərməli idi. Şah Abbas tərəfindən hətta Qərçəqay bəyin dəstəsinin fəaliyyəti də sığortalanmışdı. Yəni Qənbər bəy Gözüböyüklüyə tapşırıq verilmişdi ki, Qərçəqayın dəstəsinə yaxın məsafədə olsun və zərurət yaranarsa ona kömək çatdırılsın. Bu isə öz növbəsində bütün qoşunların uğuruna bir zəmin yaratmalı idi (160).

Osmanlı qoşunları isə Şəbüstərdən keçərək Təbrizdən altı fərsəx aralıda olan Cəbəs adlı kəndin yanında dayandı. Cığaloğlu bu məntəqəyə yetişəndən sonra qoşunları döyüş üçün qruplaşdırmağa başladı. Onun əmri əsasında, qızılbaş qoşunlarının yerləşdiyi istiqamətdə qoşunların ön hissəsinə arabalar düzüldü, zəncirlər çəkildi. Bu arabaların arxasında isə yeniçəri dəstələri düzüldülər. Qoşun dəstələri üçün də müvafiq mövqelər müəyyənləşdirildi. Os-

manlı qoşunlarının tərkibində öz şücaəti və məharəti ilə ad-san çıxarmış Ərzrum bəylərbəyi Kosa Səfər, Şam bəylərbəyi Osman paşa, habelə Əli paşa Zəncirqıran kimi sərdarlar var idi. Bu sərdarlar qızılbaş qoşunlarından heç də qorxmadılar. Hətta onlar qızılbaş qüvvələrinə qarşı bir laqeydlik də nümayiş etdirdilər. Eşidəndə ki, qızılbaş qoşunları yaxınlaşmaqdadır, adları çəkilən sərdarlar öz dəstələri ilə düşərgədən ayrıldılar, qoşunlardan da önə çıxaraq döyüşə hazır vəziyyətə gəldilər (161).

Conabedi isə adları çəkilən Osmanlı paşalarının əsas qüvvələrdən ayrılmasını başqa bir səbəblə izah edirdi. Onun yazdığına görə, Cığaloğlunun başladığı hərbi yürüşdə ciddi bir nəticə əldə edə bilməməsi və Van qalası ətrafında isə uğursuzluğa düçar olması onun qəzəbinə yol açmışdı. Baş verənlərin təsadüf olduğunu göstərmək üçün o öz paşaları yanında qızılbaş qoşunlarına qarşı yüksəkdən danışır, onların gücünə şübhə ilə yanaşır və özünün igidliyi haqqında bol-bol söhbətlər açırdı. Bildirilir ki, Osmanlı qoşunları Şəbüstər yaxınlığında düşərgə salanda Cığaloğlu bu düşərgənin ətrafında güclü müdafiə xətti yaratmağa çalışdı. Bu məqsədlə toplar, arabalar düşərgənin dövrəsinə düzüldü, arabalar zəncirləndi. Çox böyük sayda qoşun toplanmasına baxmayaraq Cığaloğlunun belə müdafiə xətti qurmasını Osmanlı paşaları onun öz igidliyi haqqında gen-bol söhbətlərinin əsassız olması, qorxaqlığı kimi qəbul etdilər. Şam valisi Zəncirqıran (Conabedi onun adını Səfər paşa kimi göstərmişdir) Cığaloğlunun bu hərəkətindən qəzəbləndi və qızılbaş qoşunlarından bu dərəcədə ehtiyatlanmağı lazım bilmədi. Kifayət qədər qürurlu və təkəbbürlü olan Zəncirqıran paşa da bildirdi ki, Şam və Misir mübarizləri qarşısında qızılbaşlar ciddi bir iş görə bilməzlər və ona görə onlardan ehtiyatlanmağa da dəyməz. Zəncirqıran sonra da əlavə etdi ki, indi qızılbaşların başına nə gətirəcəyimizi siz özünüz də müşahidə edəcəksiniz (162).

Osmanlı sərdarlarının bu arxayınçılığı, habelə qarşı tərəfin qoşunlarının çoxluğu Şah Abbası fərqli bir taktikaya əl atmağa sövq etdi. Bu taktika Osmanlı qoşunları üçün üzücü olacaq bir taktika idi. Dövrün döyüş taktikasında qarşıya qoyulan məqsədin bir əsas

döyüşdə həll edilməsi təcrübəsi var idi. Şah Abbas isə Osmanlı qoşunlarını üzücü döyüşlərə cəlb etməklə əsas döyüşü təxirə salmağı qərarlaşdırdı. Bununla, həm tədricən Osmanlı qoşunlarına itkilər yetirmək, həm də Osmanlı qoşunlarını əldən salmaq mümkün idi. Sonra isə həlledici və əsas döyüşlə müharibənin taleyini də həll etmək olardı. Şah Abbasın yaxın ətrafı onun Osmanlı qoşunlarına qarşı seçdiyi taktikanın mahiyyətini belə qiymətləndirirdi: "Şahın qərarı belədir ki, qoy bir neçə gün tərəflər arasında "cəngi-sultanı" [şahın da iştirak etdiyi əsas döyüş – red.] baş verməsin və müharibə bircə cəng ilə bitməsin, qoy iqbal qoşunlarının dilavərləri fürsət taparaq özlərini onlara vurub tez-tez hücumlar etsinlər və belə vəziyyət müxaliflərin Təbrizə daxil olmalarınadək davam etsin. Şəhərə daxil olandan sonra onlar, əgər qalanı mühasirəyə alsalar, gediş-gəliş yollarını bağlasınlar, havalar soyuyub qar mövsümü yetişəndə və onların ordusunda ərzaq ehtiyatı tükənəndə qəhrli döyüşçülər qadir Allahın iradəsi ilə daxildən və xaricdən hücumlar edib işlərini bitirsinlər. Yox, əgər rumilər qalanı almaga baş qoşmayıb Ərdəbilə və Qızılağaca tərəf getsələr, Sərab və Ərdəbil arasında müqəddəs imamların və şeyxlərin ruhlarından kömək diləyərək, "cəngi – sultaniyə" başlasınlar və beləliklə də qoy nəticə Allahın istədiyi kimi olsun" (163).

Şah Abbas əvvəlcə qorçubaşının rəhbərliyi altında olan qüvvədən bir dəstəni irəli göndərdi. Bu dəstə Osmanlı qüvvələrinə yaxınlaşaraq döyüşə girmək niyyətini nümayiş etdirməli idi. Osmanlı qoşunları rəhbərliyi də bu dəstəyə qarşı öz dəstəsini göndərə bilərdi. Əgər döyüş baş versəydi, Şah Abbas güman edirdi ki, bu zaman Osmanlı qüvvələrinin sayının azalması başlamış olardı. Bununla belə, Şah Abbas tez-tələsik Osmanlı qoşunlarına qarşı döyüşə başlamağın da tərəfdarı deyildi. Ona görə də Şah Abbas qoşunlardan müəyyən məsafədə irəli çıxarılmış Allahverdi xanın yanına çapar göndərdi və ondan Osmanlı qoşunlarına qarşı döyüşə başlamaq məsələsində təmkinli olmağı tələb etdi. Amma bu çapar gəlib yetişəndə irəli çıxarılmış qızılbaş döyüşçüləri artıq meydana atılmışdılar. Qərçəqay bəyin rəhbərliyi altında olan tüfəngçilər və

döyüşçülər Osmanlı döyüşçülərinin qərar tutduğu yüksəklikləri əhatə etmək üzrə idilər. Belə bir vaxtda Şah Abbasın təmkinli olmaq tapşırığı bu döyüşçülərə çatdırıldı. Qərçəqay bəyin dəstəsi şah əmrinin icrası məqsədilə əhatə edilməsinə çalışdıqları yüksəklikdən geri çəkilməyə başladılar. Yüksəklik üzərində mövqe tutmuş Osmanlı döyüşçüləri qızılbaşların geri çəkilməsini onların qorxaqlığı kimi qəbul etdilər. Ona görə də onlar irəli atıldılar və qızılbaş döyüşçülərini hücuma məruz qoydular. Tərəflər arasında gərgin bir döyüş baş verdi. Qızılbaşların geri çəkilmək niyyətində olması və onların döyüşdən çıxmağa çalışması Osmanlı döyüşçülərini daha da ilhamlandırırdı. Qərçəqay bəyin dəstəsində olan bir sıra əmirlər  və tüfəngçilər yaralandılar və dəstənin nizamı pozuldu. Yəni vəziyyətin belə davam edəcəyi təqdirdə Qərçəqay bəyin dəstəsi daha ağır vəziyyətlə üzləşə bilərdi. Osmanlı tüfəngçilərinin xüsusi fəallığı bu təhlükəni daha da ciddiləşdirirdi. Doğrudur, qızılbaş tüfəngçilər də qarşı tərəfin fəallığının qarşısını almaq üçün öz məharətlərini göstərirdilər. Lakin qüvvə üstünlüyü Osmanlı dəstəsi tərəfində idi. Ona görə də Qərçəqay bəyin dəstəsinin vəziyyəti getdikcə daha da ağırlaşırdı.  Bu vəziyyətdən xilas olmaq üçün Qərçəqay bəy öz adamını Allahverdi xanın yanına göndərdi və vəziyyəti ona çatdırdı. Qərçəqay bəyə görə, qızılbaş qüvvələri tərəfindən hamılıqla fəal döyüşün başlanmayacağı təqdirdə vəziyyət daha da mürəkkəbləşəcəkdi. Ona görə Allahverdi xana da təklif edilirdi ki, dayandığı mövqedən hərəkətə gəlsin və döyüşün aparılmasına qatılsın. Bu zaman şahın tələbini dəstə rəhbərlərinə çatdırmaq üçün gəlmiş carçıbaşı Məlikəli bəy də Osmanlı qüvvələrinin hücuma başlaması ilə vəziyyətin ağırlaşmasını geri qayıdan kimi Şah Abbasa çatdırdı (164).

Conabedinin yazdığına görə, Qərçəqay bəyin dəstəsini ağır duruma salan Cığaloğlunun qeyri-fəallığı ilə razılaşmayan və Osmanlı qoşunlarının düşərgəsindən ayrılan Səfər paşa Zəncirqıran idi. Müəllifin yazdığına görə, Səfər paşanın dəstəsi 30 min nəfərdən ibarət idi. Elə dəstənin topçularının 8 min nəfər olduğu bildirilirdi. Səfər paşa Şəbüstər yaxınlığındakı bir yüksəklik üzərindən

Qərçəqay bəyin rəhbərliyi altında olan qızılbaş dəstəsini müşahidə etmiş və sürətli hücumla bu dəstənin üzərinə atılmışdı. Səfər paşanın dəstəsində olan topların və tüfəngçilərin davamlı atəşləri Qərçəqay bəyin dəstəsini ağır duruma saldı. Adı çəkilən müəllifin məlumatına görə, Qərçəqay bəyin dəstəsi yeddi min nəfərdən ibarət idi və bu dəstə müqavimət göstərməyə çalışsa da, Osmanlı qüvvələri addım-adım qızılbaş döyüşçülərinin mövqelərinə yaxınlaşırdılar. Müəyyən sayda itki verən Qərçəqay bəy ağır vəziyyətdən çıxmaq üçün hətta geri çəkilmək məcburiyyətində də qaldı. Qərçəqay bəyin dəstəsində olan topçubaşı Şahnəzər xan Təvəkkülü, Mirfəttah İsfahani, Mövlanazadə ona məsləhət bildilər ki, qızılbaş tüfəngçilərini atlardan düşürsünlər və onlar piyada kimi ərazidə mövqe tutub döyüşü davam etdirsinlər. Çünki güman edilirdi ki, qızılbaş tüfəngçiləri təhlükənin daha da artdığını gördükdə atlarını çapıb döyüş meydanından uzaqlaşacaqdılar. Qərçəqay bəy də bu təklifi qəbul etdi. Onun göstərişi ilə bütün tüfəngçilər piyada oldular və onların atları da münasib bir yerə toplanaraq mühafizə altına alındılar. Bu yolla Qərçəqay bəy bir daha Osmanlı döyüşçülərinin hücumuna qarşı daha səmərəli müdafiənin təşkil edilməsinə cəhd göstərdi (165).

Carşıbaşı Məlikəli bəydən Qərçəqay bəyin dəstəsinin ağır vəziyyətə düşməsi haqqında məlumat alandan sonra Şah Abbas təcili şəkildə döyüşə müdaxilə edilməsi zəruriliyini qəbul etdi. O, carçıbaşı Məlikəli bəyi yenidən Qərçəqay bəyin yanına göndərdi və ona çatdırdı ki, şah qoşunları tezliklə döyüş meydanına atılacaqdır. Şah Abbas tərəfindən Allahverdi xanın da yanına carçılar göndərildi və ondan tələb edildi ki, fəal şəkildə döyüşə qoşulsun, çərxçilər Osmanlı dəstələri ilə döyüşə atılsınlar. Allahverdi xana çatdırıldı ki, şah qoşunlarının əsas dəstələri də tezliklə döyüşə qoşulacaq və irəli çıxarılmış dəstələr tərəfindən başlanan döyüş əsas qüvvələr tərəfindən dəstəklənəcəkdir. Şah Abbas şübhə etmirdi ki, əsas qüvvələrin döyüşə başlaması barəsində xəbər göndərməsi həm Allahverdi xanın, həm də Qərçəqay bəyin dəstəsinin döyüşçülərini ruhlandıracaqdı (166).



Şah qoşunlarının Nəqşi-cahan meydanında toplanması



Osmanlı-Səfəvi döyüşündən bir səhnə (Şamaxı döyüşü)



Osmanlı-Səfəvi döyüşündən bir səhnə

Şah Abbas qoşunların sol cinahındakı dəstələrdən biri Osmanlı qoşunlarının üzərinə göndərdi. Səfəvi şahının məqsədi Osmanlı qoşunlarının qüvvələrini parçalamaq, Qərçəqay bəy tərəfə istiqamətlənmiş zərbəni zəiflətmək idi. Şah Abbas ümumiyyətlə, qızılbaş dəstələrinin hamısının artıq döyüşə qoşulmalı olduğu qənaətinə gəldi. Döyüşün coğrafiyasını genişlənməsi Osmanlı qüvvələrinin də bir istiqamətdə cəmlənməsinin qarşısını ala bilərdi. Şah Abbas eyni zamanda sağ cinahda mövqe tutmuş Əliqulu xan Divanbəyibaşı Şamlını da həmin cinahdakı şamlı qorçuları ilə Osmanlı dəstələrinə qarşı göndərdi. Əliqulu xanın arxasınca qorçubaşı Allahqulu bəy Qacar da döyüşə atıldı. O da öz qüvvələri ilə Əliqulu xana kömək göstərməli idi. İsgəndər bəy Münşi bu döyüşün iştirakçısı idi. O, döyüş meydanında baş verən hadisələri təsvir etməklə bərabər, həm də öz hisslərini ifadə etməyə çalışmışdı: “Meydandan gələn iqbal küləyi dövlətxahların burnuna zəfər rayihəsi gətirdiyindən əlahəzrət qeybdən gələn bir ilhamla öz məqsədini həyata keçirməyə başlayaraq, bütün şamlı tayfasını özünə yaxın (müqərrəbül-həzrət) şəxslərdən və xoşagələn şamlı böyüklərindən olan Məhəmməd bəy Biqdelini bir neçə ildırım səsli kərənay və sağ qol döyüşçülərinin bir dəstəsi ilə Əliqulu xanın köməyinə göndərdi. O, başqa bir qəhrli dəstəni Qərçəqay bəyin və çərxçi əmirlərinin köməyinə yollayaraq sağ və sol qol döyüşçülərini ardıcıl şəkildə döyüşə rəvan etdi, fələk ucalıqda bayraqlar kölgəsində olan ordunun hər cinahını, imkan olduqca, təzətəzə köməklərlə möhkəmlətdi. [O zaman] şahın məiyyət xidmətdə (mülazim) olan bu sətirlər müəllifi [yəni İsgəndər bəy Münşi] öz kitablarının məqsəd səhifələrini ilhamlı qələmləri və bəlağətli sözləri ilə bəzəyən tarixçilər kimi həqiqəti bəyan edərək belə məlumat verir: O gün zilləllah əlahəzrət şah Allah-taalanın məsləhəti və iqbalının qüvvəti ilə elə yüksək tərzdə sipəhdarlıq [komandanlıq – red.] etmək və döyüşü lazımi şəkildə tərtib etməklə məşğul oldu ki, qətiyyət, uzaqgörənlik və igidlikdən bir dəqiqə də olsa uzaqlaşmadı, düşündüyü hər bir tədbiri ilahinin təqdiri ilə yerinə yetirdi. Əgər bu zaman öz şücaəti, sərdarlığı və hüsni-tədbiri ilə

kamyab sultanlar üçün örnək və adlı-sanlı xaqanlardan ötrü dəsturüləməl olan böyük Əmir Teymur sağ olsaydı və bu elm və sənət cahanını müşahidə etsəydi, ondan cahandarlıq və döyüş təlimi öyrənərdi" (167).

İsgəndər bəyin fikrincə, bu döyüş Şah Abbas tərəfindən aparılan ən yaxşı döyüşlərdən biri idi. O bir tərəfdən döyüşü təşkil etdi, digər tərəfdən isə özü də bir döyüşçü kimi döyüşə qatıldı. Şah Abbasın təşkilatçılığı, sərkərdəliyi və onun əmirlərinin də fədakarlığı qızılbaş qoşunlarının hünərini tamamladı və döyüş meydanında cəsurluq nümunələri ortaya qoyuldu. İsgəndər bəy Münşi sonra döyüşün gedişini belə təsvir edirdi: "Xülasə, əlahəzrət ləşkərləri göndərdikdən sonra özü ilahinin lütfü sayəsində hümayun qoldakı bütün müzəffər döyüşçülərlə irəli gedib döyüş meydanına çevrilən təpəyə qalxdı. İqbal mübaşiri [xəbərgətirəni – red.] dəmbədəm fəth xəbəri və zəfər sorağı çatdırmaqdaydı. Qərçəqay bəy və çərxçi əmirləri cəngə başlayıb kömək əsər-əlaməti gördükləri üçün, Əliqulu xan və qorçibaşı rumi dəstələrinin və sərdar ordusunun arasına girib hərb atəşini alovlandırırdılar. Meydanın tozu fələyədək ucaldı. Əlahəzrətin gözəl tədbiri Allahın istəyinə müvafiq oldu, rum ordusunun yaxınlığındakı tozanağı və savaşı müşahidə edən rum ləşkərinin paşa və sərdarları müzəffər şah ləşkərinin sərdar ordusuna hücum etdiyini düşünüb bərk həyəcana düşdülər, istədilər ki, o yüksəklikdən aşağı enərək öz sağ qol döyüşçülərini qızılbaşların önünə göndərsinlər, özləri də ləşkərlərini orduya yaxınlaşdırıb hər iki tərəfin əməliyyatlarından xəbərdar olsunlar. Onlar belə bir əzmlə hərəkətə başladılar. Qalibiyyətli qoşunun mübarizləri o hərəkəti görərək, yerbəyerdən uca təbəqəli qızılbaşların şüarı olan "Allah-Allah" sədalarını ucaldıb öndən, arxadan, cərənğardan və bərənğardan hücumlar etdilər, hər tərəfdən düşmənlərin üstünə tökülüşdülər. İqbal döyüşçülərinin şücaətli sədəmələrindən və mərdanə həmlələrindən rumilərin əhvali-ruhiyyəsinə həyəcan və ziddiyyət qalib gəldi, onlar daha müdafiə və səf düzəltmək imkanı tapmadılar, şan-şövkət binaları birdən-birə lərzəyə düşdü" (168).

Şah Abbas öz tədbirliliyi ilə daha əhəmiyyətli olan döyüş istiqamətdə qüvvə üstünlüyü yarada bildi. Bu da imkan verdi ki, Osmanlı qoşunlarının nizamı və sırası pozulsun, onların arasında bir vahimə yaşansın. Nəticədə, Osmanlı qüvvələri toparlana bilmədilər və bu da onların müqavimət gücünü xeyli zəiflətdi. Şah Abbas həm də Osmanlı dəstələri arasında olan əlaqəni kəsə bildi. Nəticədə bir-birindən kömək ala bilməyən Osmanlı dəstələri döyüş meydanından uzaqlaşmaq yolunu tutdular. Osmanlı qüvvələrinin çoxu qızılbaş dəstələrinin güclü zərbəsi altına düşməmək üçün Təsuc və Səlmas istiqamətində geri çəkilməyə başladılar. İsgəndər bəy Münşinin yazdığına görə, Osmanlı dəstələri bir-birindən aralı düşdülər. Qızılbaş qoşunları hər gün bir Osmanlı dəstəsini təqib edir və həmin dəstəyə güclü zərbə vururdu. İsgəndər bəy Münşi həm də Osmanlı qoşunları arasında itkilərin böyük olması, ölənlər və əsir götürülənlər arasında adlı-sanlı sərdarların, vilayət başçılarının olması haqqında məlumat verirdi. Əsir alınan və qətlə yetirilən qoşun əmirlərinin sayı yetmişə çatırdı (169).

Döyüş gün ərzində davam etdi və axşama yaxın sona çatdı. Xeyli sayda Osmanlı döyüşçüsü nizamsız vəziyyətə düşdükləri üçün qaçıb ətrafa səpələndilər. Qızılbaş döyüşçüləri əldə etdikləri üstünlüklərdən istifadə edərək Osmanlı döyüşçülərini xeyli təqib etdilər. Yalnız havanın qaralması ilə bu təqiblərə son qoyuldu. Səhəri gün qızılbaş döyüşçüləri ətrafda gizlənmiş olan Osmanlı döyüşçülərinin ovuna çıxdılar. Ələ keçirilən Osmanlı döyüşçüləri əsir götürüldü və onların əmlakları əllərindən alındı. Bütünlükdə, ələ keçirilmiş əsirlər və toplanmış olan böyük miqdarda qənimətlər döyüş meydanında bir yerə toplandı. Şah Abbas da bu məkana gəldi, atdan yerə enərək həm əldə edilən böyük qələbənin nəticələrini gözdən keçirdi, həm də bu döyüşdə fədakarlıq göstərmiş qızılbaş əmirlərinə öz lütfkarlığını göstərdi. Elə həmin məkanda böyük qələbə münasibətilə ziyafət təşkil edildi və qızılbaş dəstələri bütün günü qələbə sevincini yaşadılar.

Osmanlı mənbələrinə görə, Osmanlı qüvvələrinin uğursuzluğa düçar olmasının başlıca səbəbi paşalar tərəfindən sərdarın tapşı-

rıqlarına və tələblərinə qulaq asılmaması olmuşdu. Bildirilir ki, pusquya yerləşdirilmiş olan qızılbaş topçularının və tüfəngçilərinin qəfil şəkildə döyüşə qoşulması ilə Osmanlı qüvvələrinin nizamı dağıldı və bununla da uğursuzluğa yol açıldı (170).

Osmanlı qoşun dəstələrinin qızılbaş topçularının və tüfəngçilərinin pusqusuna düşməsini Conabedi də təsdiq edirdi. O yazırdı ki, Xorasan tüfəngçiləri dayanmış olduqları pusqu qarşısında bir dəfəyə 500 nəfər Osmanlı topçusunu məhv etdilər. Bütünlükdə isə, 2 min nəfər Osmanlı topçusunun qətlə yetirildiyi Conabedinin əsərində öz əksini tapmışdır. Müəllifin yazdığına görə, həmin pusqu qurulan məkanda döyüşlər sonradan daha da qızışmış və Şah Abbasın vaxtında etdiyi müdaxilələri nəticəsində daha da şiddətlənmişdi. Döyüş günün sonuna qədər davam etdi. Qızılbaş qüvvələrini ciddi qəbul etməyən Zəncirqıran paşa və digərləri bu döyüşün gedişində əsir düşdülər, salamat qalanlar isə qaçmaqla canlarını qurtara bildilər. Osmanlı qüvvələri döyüşdən çıxıb Səlmas tərəfə çəkilməyə başladılar. Döyüş meydanından Səlmasa kimi on beş fərsəx məsafə var idi. Conabedinin verdiyi məlumata görə, Səlmasa gedən yolu hər iki tərəfi qətlə yetirilmişlərin cəsədləri ilə dolu idi (171).

Səfəvi tədqiqatçılarından birinin yazdığına görə, 1605-ci il noyabr ayının 2-də başlanan bu döyüşün əvvəlində Təbriz-Təsuc yolu boyunca yerləşmiş mövqelər Qərçəqay bəyin rəhbərliyi altında olan qulamlar və tüfəngçilər dəstəsi tərəfindən tutulmuşdu. Sonradan Şah Abbas bu qüvvələrin möhkəmləndirilməsinə qacar və mülazim dəstəsi də göndərildi. Osmanlı qoşunları isə qarşıya qoyulan məqsədə çatmaq üçün dayandıqları mövqelərdən Təbriz istiqamətində hərəkətə başladılar. Piyadalar və topçu qüvvələri bu qoşunların ön hissəsində hərəkət edirdi. Onlardan sonra isə atlı dəstələr sıralanmışdılar. Qərçəqay bəy Osmanlı qüvvələrini müşahidə etdikdə onlara tərəf hərəkət etdi və Şah Abbasın ehtimal etdiyi vaxtdan əvvəl Qərçəqay bəy döyüşə girməli oldu. Qızılbaş dəstəsi Osmanlı qoşunlarının sol cinahında idilər və Osmanlı paşaları güman etdilər ki, Qərçəqay bəyin dəstəsi qızılbaş qoşunla-

rının əsas qüvvələridir. Osmanlı qüvvələri bir qədər şimal tərəfə meyllənməklə Qərçəqay bəyin dəstəsi üzərinə hücum etdilər. Çoxsaylı Osmanlı qoşunları qarşısında Qərçəqay bəyin dəstəsi əvvəlcə ağır bir durumla qarşılaşmalı oldu. Xüsusilə, Osmanlı toplarının və tüfəngçilərinin davamlı atəşləri Qərçəqay bəyin dəstəsinin vəziyyətini xeyli mürəkkəbləşdirdi. Amma belə bir vəziyyətdə Qərçəqay bəy özünü itirmədi, dəstəni toparladı, tüfəngçiləri xüsusi mövqelərə yerləşdirdi. Məhz tüfəngçilərin səmərəli fəaliyyəti ilə döyüşün gedişində müqaviməti bir qədər gücləndirmək mümkün oldu. Bununla belə, Qərçəqay bəy mürəkkəb vəziyyətdə qalmaqda davam edirdi. Onun dəstəsinin hətta Osmanlı qoşunları tərəfindən mühasirə olunmaq təhlükəsi də yaranmışdı. Şah Abbas əsas döyüşün təxirlə başlamasını planlaşdırsa da, yaranmış olan vəziyyət onu daha qətiyyətli qərarlar qəbul etməyə sövq etdi. O, bir tərəfdən Qərçəqay bəyin dəstəsini gücləndirdi, qulamlardan, tüfəngçilərdən, mülazimlərdən və atlılardan ibarət dəstələri köməyə göndərdi. Eyni zamanda Osmanlı qüvvələrinin hərəkəti boyunca sağ cinahda mövqe tutmuş Allahverdi xana döyüşə girmək əmri verdi. Allahverdi xan da böyük sürətlə döyüşə qoşuldu, Osmanlı qüvvələrinin ikinci xəttinə ağır zərbə vurdu. Yəni Osmanlı qüvvələri ikitərəfli zərbə altında qaldılar. Qərçəqay bəyin dəstəsi üzərinə hücum etmiş Osmanlı dəstəsi Allahverdi xan təhlükəsini görəndə öz nizamını itirdi. Hətta Osmanlı qüvvələrinin mühasirə vəziyyətinə düşmək təhlükəsi yarandı. Belə olanda Osmanlı qüvvələrinin bir hissəsi təslim oldu, bir hissəsi isə Təsuc istiqamətində geri çəkilməyə başladı (172).

İsgəndər bəy Münşinin yazdığına görə, döyüşün uğurla başa çatması münasibətilə təşkil edilmiş ziyafətdə Şah Abbasa qarşı sui-qəsd cəhdi oldu. Həmin cəhd əsir götürülmüş bir Osmanlı döyüşçüsü tərəfindən edildi. Bu hadisənin şahidi olan İsgəndər bəy Münşi baş verən bu sui-qəsd cəhdini belə təsvir edirdi: “Həmin şadyanalıq məclisində olduqca qəribə bir əhvalat baş verdi və az qaldı ki, əmin-amanlığa və aləm adamlarının dincliyinə səbəb olan hümayun zata [şah Abbasa – red.] bərk göz dəysin və o, xətaya

düçar olsun. Allahın inayəti sayəsində əmin-amanlıq sərmayəsi [sayılan] və insanların rifahına səbəbkar olan mübarək zata göz dəydisə də, amma o misilsiz zatı ilahinin inayəti hər cür məkr və zərərdən qoruduğu üçün həmin hadisənin mənfi təsiri olmadı, əlahəzrət barədə düşünülmüş hiylə [keyd] və xətanın [zənb] axırı yaxşılıqla bitdi. O ibrətamiz hadisənin şərhi belədir: Meydanda güclü döyüş gedərkən bu dövlətin gücü və qəhrli şah qüvvəsi tərəfindən zillət torpağına sərilən əjdahaya [səban] bənzər yekəpər və yoğun əndamlı bir adamı kiçik cüssəli bir ustaclı qorçisi əsir tutub şahın yanına gətirmiş, lakin onun yaşının azlığına və təcrübəsizliyiə aldanıb əllərini başqa əsirlər kimi arxasına bağlamamışdı. Əlahəzrət onun adını, nəsəbini və tayfasını soruşduqda "mən mokri qəbilələrindənəm" dedi. O tayfa nümayəndələrindən bir dəstə adam şahın mülazimətində olaraq bu səadətlə şərəfləndikləri üçün həmin bədneyad [ustaclı qorçisi] düşünmüşdü ki, mokrilərin köməyi və xahişi ilə ölümdən nicat tapa biləcəkdir. O camaatın böyüklərindən biri olan Rüstəm bəy qəzəblə buyurdu: "Bizimlə onların arasında heç bir əlaqə yoxdur və arada qədim ədavət mövcuddur, qan axıdılmışdır". Əlahəzrət qorçiyə öz gövhərnişan dili ilə əmr edib dedi: "Onun cəzasını verməkdən ötrü Rüstəm bəyə ver, qoy istədiyi kimi hərəkət etsin. Rüstəm bundan imtina edib buyurdu: "And içib əhd etmişəm ki, acizliyə mübtəla olan düşməndən intiqam almayım və əlibağlı adamı öldürməyim".

Belə nifaqlı söz-söhbətdən şahın müqəddəs məzacı dəyişildi. O, baxmayaraq ki, məsələnin əvvəlində həmin gözünü qan tutan adamın qətli barədə fərman verməmişdi, lakin nifaqın aradan götürülməsindən ötrü qorçiyə onu qətl etməsini tapşırdı. Qorçi həmin adamı müqəddəs zatın yanından bir qədər kənara aparmaqdan ötrü əlini onun belinə aparanda "qətl" sözünü eşidən o qəddar və kinli adam dərhal yanında saxladığı xəncəri çəkdi, mübarək zatı öldürmək məqsədi ilə yüyürüb özünü o həzrətə çatdırdı və xəncərini işlətdi. Əlahəzrət öz mübarək əlini açaraq, əcdadından ona miras qalan qorxmazlıq və mərdanəliklə, onun xəncərli əlini möhkəm sıxıb özünə tərəf çəkdi, mübarək dizini əlinin üstünə qoydu.

Orada olanlar bu hadisəni müşahidə edib bir-birinə dəydilər və hər tərəfdən qılınclarını çəkərək o idbarın üstünə hücuma keçdilər. İzdihamın çoxluğundan və qarma-qarışıqlardan məşəllərin işığı azalmışdı və adamlar iztirab və şaşqınlığın çoxluğundan əlahəzrət və həmin idbar şəxsi bir-birlərindən seçə bilmirdilər, çünki onunla əlahəzrətin zirehi eyni rəngdəydi və bu səbəbdən də qılınc çalmağa cürət etmirdilər. Arada bir müddət vaxt keçdi. Hamı həyəcanlı idi. Nəhayət əlahəzrət öz mərdanəlik qolunun və iqbal gücünün təsiri ilə xəncəri onun əlindən aldı Bəzi qulamlarsa onu bir qədər kənara aparıb, hər tərəfdən qılınc işlətməklə... bədənini tikə-tikə doğradılar" (173).

İsgəndər bəy Münşi yazırdı ki, bu hadisə baş verəndə döyüş meydanında sanki qiyamət qopdu, aləm bir-birinə qarışdı, qoşun əhli Şah Abbasa bir xətər yetişə biləcəyindən qorxub həyəcanlı anlar yaşadılar. İsgəndər bəy Münşi özü də belə həyəcanla anlar keçirmişdi. Yalnız şahın səsi qulağına çatanda İsgəndər bəy Münşi də təskinlik tapmışdı. İnsanlar şaha xətər dəymədiyini görəndə Allaha səcdə və şükür etdilər. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas bu hadisədən elə də ciddi bir təşviş keçirmədi. O, ətrafındakı insanlara təsəlli verib öz işlərini davam etdirdi. Bu hadisədən sonra Şah Abbas əldə edilmiş uğuru sona çatdırmaq üçün Allahverdi xana göstəriş verdi ki, öz mövqelərini tərk etməsin. Ehtiyat edilirdi ki, sabahı gün Osmanlı qoşunları yenidən toparlanaraq qızılbaş dəstələri üzərinə hücuma keçsin. Eyni zamanda Təbriz hakimi Pir Budaq xana məktub göndərildi. Bu məktubda şah qoşunlarının əldə etdiyi qələbə haqqında Pir Budaq xana xəbər çatdırıldı. Bununla şah istəyirdi ki, Pir Budaq xan və Təbriz əhalisi Osmanlı qoşunlarının hücum təhlükəsindən xilas olduqlarını bilsinlər. Həm də Pir Budaq xandan tələb olundu ki, Təbrizdəki qoşun dəstəsi ilə Osmanlı qoşunlarına qarşı döyüşdə iştirak etməyə hazır olsun. Osmanlı qoşunları yenidən hücuma başlayacağı təqdirdə Təbrizdəki qoşun dəstəsi də bu hücumun qarşısının alınmasında iştirak etməli idi (174).

Mənbə məlumatlarından belə aydın olur ki, Cığaloğlu məğlub durumda döyüşdən çıxsa da, hələ bölgənin tamamilə tərk etmək barəsində qərar qəbul etməmişdi. Doğrudur, qızılbaş qüvvələrinin üstünlüyü onda ağır bir təəssürat yaratmışdı. O, bütün gecəni qəm-qüssə içərisində keçirməli oldu. Səhər açılan kimi Cığaloğlu əvvəlcə özünün təhlükəsizliyi barəsində düşündü, yanında qalan yeniçərilərə, qoşun dəstələrinə müvafiq tapşırıqlar verdi, qoşunların sağ və sol cinahlarının möhkəmləndirilməsinə çalışdı. Lakin sonradan baş verən hadisələr Cığaloğlunun vəziyyəti dəyişmək ümidlərini alt-üst etdi. Bu hadisələrdən biri onun rəhbərlik etdiyi qoşunlar tərkibində olan Mir Şərəfin rəhbərliyi altındakı kürd dəstəsinin özbaşına qoşunları tərk etməsi idi. Mir Şərəf hakimi olduğu Cəzirə bölgəsindən toplanmış kürd dəstəsi ilə Osmanlı qoşunları sırasında idi. Bu dəstə ilk döyüşdə iştirak etməmişdi və Cığaloğlu yeni döyüşün başlanması üçün bu dəstəyə böyük ümid bağlayırdı. Mir Şərəfin Səfəvi sarayı ilə normal münasibətləri var idi və Şah Abbas da bu münasibətlərə dayaqlanaraq onun rəhbərliyi altında olan kürd dəstəsini zərərsizləşdirməyə çalışdı. Şah Abbas əsir alınmış kürd döyüşçüləri ilə Mir Şərəfə məktub göndərdi. Həmin məktubda deyilirdi: “Bu vaxtadək aradakı məsafənin uzaqlığından qızılbaşlarla Cəzirə kürdləri arasında heç bir dava-dalaş baş verməmiş, ədavətin şiddətlənməsinə səbəb olan qanlar axıdılmamışdır. Onun (Mir Şərəfin – red.) sədaqət şüası müqəddəs zatın alnında işıqlandığından bu cəng zamanı onun adamlarından ələ keçən hər döyüşçünü sağ saxlayaraq, oğlunun barəsində qətl hökmü çıxarmamışıq. Əgər imkan tapsa gəlib ya özünü ordunun aman evinə çatdırsın, yaxud qoy bu mərəkəyə girməsin və Cəzirəyə yollansın ki, ona və adamlarına heç bir xətər toxunulmasın” (175).

Yəni Mir Şərəfə təklif olundu ki, itkilərlə qarşılaşmamaq üçün Osmanlı qüvvələrinin tərk etsin və öz yurduna qayıtsın. Mir Şərəf də ona edilən təklifi qəbul etdi və Osmanlı düşərgəsini tərk edərək öz dəstəsi ilə geri qayıtdı. Onun geri qayıtması Cığaloğlunun qüvvəsinin zəifləməsinə gətirib çıxardı və sərdarın vəziyyətini daha da çətinləşdirdi. Digər bir hadisə isə Osmanlı dəstəsinə köməyə

gələn Hələb hakimi Canpoladoğlunun öz dəstəsi ilə geri qayıtması oldu. Bu dəstə Cığaloğlunun dəstəsinə qoşulmaqla Osmanlı qüvvələrinin gücünü daha da artırmalı idi. Şah Abbas bu dəstənin yaxınlaşması haqqında əvvəldən xəbər tutmuşdu. Qızılbaş əmirləri və əyanları təklif etdilər ki, Canpoladoğlunun dəstəsi üzərinə hücum edilsin və hələ yolda ikən bu dəstəyə ağır zərbə vurulsun. Şah Abbas məsələyə təmkinlə yanaşdı. Vaxtsız hücum bir xeyli itkilərə gətirib çıxara bilərdi. Xüsusilə, Canpoladoğlunun dəstəsində olan topların atəşləri bu itkiləri daha da artırardı. Sonradan da aydın oldu ki, Şah Abbasın tələsgənliyə yol verməməsi doğru qərar imiş. Çünki Canpoladoğlu Təsuca yetişəndə Cığaloğlunun rəhbərliyi altında olan qoşun dəstəsinin uğrusuzluğa düçar olması haqqında məlumat aldı. Bu məlumatdan sonra Canpoladoğlu Cığaloğlunun dəstəsinə qoşulmadan geri qayıtdı. Bununla, Cığaloğlu başqa bir köməkdən də məhrum oldu (176).

Bu hadisələr Osmanlı qoşun əhlinə də ağır təsir göstərdi. Osmanlı döyüşçüləri qızılbaş qoşunlarına qarşı yeni döyüşün uğuruna ümid etmədikləri üçün dəstə-dəstə geri qayıtmaq yolunu tutmağa başladılar. Cığaloğlu qoşunların dağılması prosesinin qarşısını ala bilmədi. O, qoşun başçılarını, qazi və müftini yanına topladı, nə etmək lazım olduğu barəsində onlarla məsləhətləşdi. Həmin adamların da məsləhəti belə oldu ki, qoşunlar geri qayıtsın. Cığaloğlu da bu təkliflə razılaşmalı oldu. Qızılbaş qüvvələrinin yeni hücumları ilə qarşılaşmamaq üçün geriyə hərəkətin gecəliklə başlanması məsləhət bilindi. Osmanlı qoşunlarının geri çəkilməsi xəbəri tezliklə Şah Abbasa da çatdırıldı. Bu xəbərin doğruluğunu yoxlamaq üçün onun tərəfindən Əliqulu xan adlı birisi Osmanlı düşərgəsinə tərəf göndərildi. Əliqulu xan da Osmanlı düşərgəsinə yetişdikdə qüvvələrin doğrudan da düşərgəni tərk etməsinin şahidi oldu. O öz adamlarından birini şah düşərgəsinə göndərdi ki, məlumat Şah Abbasa çatdırılsın. Osmanlı qoşunlarının tez-tələsik geri çəkilməsi onların çaşqınlıq içərisində olması demək idi. Bu çaşqınlıqdan istifadə etməklə onları yaxalamaq və ağır zərbə vur-

maq mümkün idi. Lakin Şah Abbas gecə ikən Osmanlı qoşunlarının təqib edilməsini məsləhət bilmədi (177).

Osmanlı qoşunlarının təqib edilməsi həm çoxlu qənimətin və əmlakın ələ keçirilməsinə imkan verə bilərdi. Ona görə də, qızılbaş döyüşçülərinin bəziləri icazəsiz olaraq geri çəkilməkdə olan Osmanlı qüvvələrinin təqibinə yollandılar. Onların məqsədi geri qaçan Osmanlı döyüşçülərini yaxalamaq və onların var-yoxunu əllərindən almaq idi. İsgəndər bəy Münşi bu adamları alçaq və quldur adam kimi xarakterizə edirdi. Onun sözlərinə görə, Osmanlı döyüşçüləri arasında da tamahkarlar var idi və onların tamah məqsədilə topladıqları sərvətləri əllərindən almaq fürsəti yaranmışdı. Geri çəkilməkdə olan Osmanlı dəstələrinə qarşı başqa məqsədlərlə yanaşan qızılbaşları İsgəndər bəy Münşi ümumiyyətlə, idbar əməllərlə məşğul olmaqda günahlandırırdı. Yolunu azmış Osmanlı dəstəsinin qızılbaşlar tərəfindən aldadılaraq Təsuca gətirilməsi və burada onların qətlə yetirilməsini də İsgəndər bəy Münşi belə əməllərdən biri kimi qiymətləndirirdi. Onun yazdığına görə, təxminən beş yüz nəfərlik bir Osmanlı dəstəsi gecə geri çəkilərkən yolunu azmışdı. Bu dəstə üzvləri bir yerli adama qızıl verərək onlara bələdçi olmasını xahiş etmişdi. Həmin adam da Osmanlı dəstəsini aldadaraq Təsuc gətirmiş və orada şəhər sakinlərinin əlinə vermişdi. Yerli sakinlər də Osmanlı dəstəsini məhv edərək bu dəstənin bütün əmlakını mənimsəmişdi (178).

Dövrün ənənələrinə uyğun olaraq, Osmanlı döyüşçüləri səfər zamanı özləri ilə böyük həcmdə əmlak aparırdılar. Bu əmlaka qiymətli əşyalar da daxil idi. Bundan əlavə hərbi yürüşlərin gedişində döyüşçülər böyük həcmdə qənimət də toplayırdılar. Nəticədə, hər bir döyüşçünün yanında böyük miqdarda əmlak yığılırdı. Azərbaycan üzərinə yürüş etmiş Osmanlı döyüşçülərinin də hər birinin ayrı-ayrılıqda çoxlu əmlakı, atları, yüklərin daşınması üçün dəvələri var idi. Cığaloğlu isə özü ilə zəngin bir xəzinə gəzdirirdi. Şahidlərdən biri Cığaloğlunun çadırında gördüklərini belə təsvir edirdi: “Sərdara xas olan xərgaha girdim. Orada qırmızı və ağ sikkəli qızıllar yerə tökülmüşdü. Sərdarın üzüyü taxtının kənarına

düşmüş, qayda-qanuna görə əmirlərin belindən asılan qiymətli daş-qaşlı qılıncı isə yerə düşmüşdü. Sərdarın xəzinəsini açdım. Böyük və uzun bir xeymə idi. Xeymənin dövrəsinə sandıqlar düzülmüş, üstlərinə isə məxmərlə və zərlə işlənmiş sandıq örtükləri sərilmişdi. Sandıqların əksəriyyəti qıfıllı idi. Açdığım bir-iki sandıq cürbəcür əşya və qumaş parçalarla doluydu. Yanımda bir nəfərdən artıq adam olmadığından, dəvəçidən (şotorxan) bir qatar dəvə gətirib, üstlərinə on dörd qapağı bağlı sandıq yüklədim və onları həmin qılıncla bərabər xeymədən çölə çıxardım" (179).

Əlavə olaraq Osmanlı qoşunlarından yüz ədəd top da ələ keçirildi. Bu qədər topun ələ keçirilməsi şah topxanasını xeyli zənginləşdirdi. Cığaloğlu isə geri çəkilərək əvvəlcə Vana, sonra isə Diyarbəkrə üz tutdu. Şah qoşunları da Təsuca daxil odu. Sonra isə bu qoşunlar Təbrizdən keçməklə Səlmas istiqamətindən irəlilədilər. Bu bölgədə məskunlaşmış olan kürd tayfalarının rəhbərləri Şah Abbasın hüzuruna gələrək ona yenidən öz sədaqətlərini bəyan etdilər (180).

### 6. Səfəvi qoşunlarının Gəncə və Qarabağ üzərinə hücumu

Qış fəslinin yetişməsi qoşunların fəaliyyətini xeyli çətinləşdirsə də, Şah Abbas yürüşü dayandırmadı. Şah qoşunlarında olan vilayət hakimlərinin çoxu hərbi yürüşün dayandırılması və qoşunların buraxılması arzusunda idi. Amma kimsə cəsarət edib bu barədə Şah Abbas qarşısında təklif qaldırmadı. Şah Abbas da əslində, qış fəslində hərbi yürüşdə olmağın çətinliklərini bilirdi. Amma Şah Abbas qazanmış olduğu hərbi üstünlükdən istifadə etməklə Gəncə istiqamətində hərbi yürüşü davam etdirmək niyyətində idi. 1605-ci ilin sonlarında bölgəyə çoxlu qar yağmışdı. Buz bağlamış yollarla hərəkət etmək də həm insanlar üçün, həm də heyvanlar üçün xeyli çətinləşmişdi. Kimsə inanmırdı ki, belə bir hava şəraitində Şah Abbas yenidən hərbi yürüşə başlaya bilər. Şah Abbas isə öz qətiyyətindən dönmədi və havaların son dərəcə soyu olduğu bir gündə Qarabağ istiqamətində hərəkətə başlamaq əmrini

verdi. Bununla belə, bəzi qoşun əmirləri öz vilayətlərinə qayıtmaq, lazımi hazırlıqlar görüləndən sonra yazın başlanğıcında şah qoşunlarına qatılmaq üçün icazə ala bildilər. Allahverdi xan da bu icazə alanlar arasında idi. Ondan başqa Xorasanın da bəzi əmirlərinə vilayətə qayıtmaq və qışı orada keçirmək icazəsi ala bildilər. Bağdad ətrafında olan Həmədan hakimi Həsən xan Ustaclı isə geri qayıdaraq şah qoşunlarına qatılmaq əmri aldı. Təbriz-Bağdad arasındakı əsasən dağlıq olan ərazilərə isə daha çox qar yağmışdı. Həsən xan Ustaclı və onun qoşun dəstəsi keçilmə qar ilə örtülmüş yollarda son dərəcə ağır sınaqlarla qarşılaşsalar da, əmri icra edib şah qoşunlarına qoşuldular. Şah qoşunları isə Təbrizdən Ərdəbilə yollandılar. Şah Abbas qoşunla birlikdə bir neçə gün bu şəhərdə qaldı, Şeyx Səfiəddinin türbəsini ziyarət etdi, başladığı hərbi yürüşdə uğur qazanılması üçün dualarını səsləndirdi (181).

Şah qoşunları Arazbarda düşərgə saldı. Bu məntəqə öz havasına görə daha münasib idi və Şah Abbas qərara gəldi ki, elə qışı da orada keçirsin. Həmin vaxt həm də ramazan ayına təsadüf edirdi. Şahın fikrincə, Arasbarda ramazan ayını da rahat şəkildə başa vurmaq olardı (182).

Arazbarda olarkən Şah Abbas Gəncə qalasındakı Osmanlı qarnizonu rəhbərlərinə məktub göndərdi və Gəncə qalasının təhvil verilməsi ilə bağlı Osmanlı paşaları qarşısında məsələ qaldırıldı. Həmin məktubda deyilirdi: “Azərbaycan və Şirvan məmləkətləri bizim hümayun şahlarımızın irsi mülkləridir və cənnətməkan şahın vəfatından sonra [rumilər] sabiq əhd-peymanı pozaraq həmin yerləri işğal etmişlər. İndi isə biz Allahın köməyi ilə o torpaqların geri alınmasına başlayıb heç bir vəchlə əlimizi öz məqsəd ətəyimizdən çəkməyəcəyik. İndiyədək hücuma keçdiyimiz hər yerdə mətləbimizə çatmış, fəth və zəfər qazanmışıq. Rum sultanı tərəfindən sərdar olan Cığaloğlu ağır qoşunla bu diyara gəlib çatmışdı, lakin hamıya məlum olduğu kimi o, qeybdən gələn döyüşçülərin köməyi ilə əzildi. Daha bu il sizə heç yandan kömək gələ bilməz. Buna görə də, siz bizə müxalif olmaqdan və qala hifz etməkdən əl çəkin və bu işi həyata keçirmək şərən-əqlən sizə la-

zımdır. Düzgün yol budur ki, öz taleyinizi düşünərək, işinizdə aqilanə hərəkət edib həyatınızı əldən verməyəsiniz. Əgər kim bu diyarda qalmaq istəsə, şahanə mərhəmətə nail olmaqdan ötrü arxayınlıqla cahanpənah dərgaha gəlməyə tələssin, çıxıb getmək istəyənsə qalibiyyətli əsgərlərdən heç bir zərər görmədən var-dövləti və əhl-əyalı ilə öz diyarına tərəf getsin. Yox əgər bizim faydalı nəsihətimizi qəbul etməyib qala qapılarını hümayun üzümüzə bağlasanız və müzəffər əsgərlərimizə top-tüfəng atəşləri yağdırsanız cəng, savaş və inadkarlığınız nəticəsində əziləcəksiniz və o zaman sizlərə ümidsizliyin imanı olan aman verilməyəcəkdir, qaladakılara qiyamətəsər ləşkərimiz tərəfindən hər cür zərər yetiriləcəkdir ki, bunun günahı (vəbal) sizin öz boynunuza olacaqdır" (183).

Şah Abbasın Gəncə qalasının dinc yolla təhvil verilməsi təklifi Osmanlı qarnizonu tərəfindən qəbul olunmadı. Heç şübhəsiz ki, Osmanlı qarnizonu Gəncə qalasının möhkəmliyinə istinad edərək onun təhvil verilməsindən imtina etdilər. Belə olanda Şah Abbas da bütün qoşunla bərabər Gəncə qalasına tərəf hərəkət etməyə başladı. 1606-cı ilin yazında qızılbaş qoşunları Gəncə ətrafına yetişdi Şeyx Nizami Gəncəvinin məqbərəsi ətrafında düşərgə saldı. Görünür, Şah Abbas da Gəncə ətrafına yetişdikdən sonra bu qalanın kifayət qədər möhkəm qala olduğunun şahidi oldu və elə ona görə də bəzi işlərin elə yerləşdikləri düşərgədə aparılması haqqında göstəriş verdi. O cümlədən, şahın əmri ilə qoşunların topçubaşısı hazır olan qəliblərdə yeni toplar tökülməsinə başladı. Şah Abbasın digər bir tapşırığı ilə Qərçəqay bəy və digər bəzi qızılbaş əmirləri Gəncə qalasının müfəssəl kəşfiyyatının aparılmasına göndərildilər. Bu əmirlər həm qalanın imkanlarını araşdırmalı, həm də qala mühasirəsi zamanı qızılbaş dəstələrinin harada yerləşməsini müəyyənləşdirməli idilər. Qala darvazalarının önündə qızılbaş qüvvələri tərəfindən yeni bir divar ucaldıldı. Qızılbaş döyüşçüləri bu divara istinad etməklə qalaya giriş-çıxışı nəzarət altına almalı idilər (184).

1606-cı ilin Novruz bayramını şah qoşunları Nizami Gəncəvinin məqbərəsi ətrafında keçirdilər. Həmin vaxt artıq hava da

qızmağa başlamışdı. Ona görə istirahət icazəsi almış vilayət qoşunları da tədricən gəlib şah qoşunlarına qatıldılar. Novruz bayramından sonra Gəncə qalasının mühasirəsi istiqamətində də konkret addımlar atılmağa başlandı. Qoşun dəstələri dayandıqları düşərgədən hərəkət edərək qala ətrafına gəldilər və hər bir dəstə onun üçün müəyyənləşdirilmiş sahədə döyüş mövqeyi tutdu. Qızılbaş qoşunlarının bu yerdəyişmələri və fəallıqları Osmanlı döyüşçülərinin top və tüfəng atəşləri ilə davamlı şəkildə müşayiət olunurdu. Bununla, Osmanlı qarnizonu bir daha göstərirdi ki, qalanı dinc yolla təhvil verməyəcəkdir. Öz qərarlarında təkidli olduğunu bildirmək üçün Osmanlı qoşun başçıları qala daxilində əsir saxlanılan qızılbaşları nümayişkaranə şəkildə qətl edirdilər. Onların arasında ana tərəfdən Şah Abbasa qohumluğu çatan bir Mazandaran seyidi də var idi. Sonra başları kəsilmiş olan bu insanların cəsədləri qala divarları üzərinə qaldırıldı ki, qızılbaşlar tərəfindən müşahidə edilsin (185).

Şah qoşunlarında Gəncə ətrafında tökülməli olan toplara böyük ümidlər bağlayırdılar. Həmin toplar hazır olana qədər isə qızılbaş dəstələri əsasən, qala divarları ətrafında səngərlər qazılmasına, mühasirənin möhkəmləndirilməsinə daha çox diqqət yetirirdilər. Bəzi məlumatlara görə, bir neçə çatlamış topdan və bir neçə ədəd də kiçik topdan iki böyük top hazırlandı. O toplardan birinə “Fəth”, digərinə isə “Nəsrət” adı verildi. Sonra da həmin toplar qala divarları ətəyinə gətirildi. Bu topların Gəncə qalası divarları kənarına gətirilməsinin 1606-cı ilin may ayına təsadüf etdiyi ehtimal olunur (186).

Mühasirənin davam etdiyi üç ay ərzində Osmanlı qüvvələri bir neçə dəfə şəhəri mühasirə etmiş qızılbaş dəstələrinin üzərinə hücumlar etdilər. Məsələn, bir dəfə Osmanlı döyüşçüləri Zülfüqar xan Qaramanlının dəstəsi üzərinə hücum etdilər. Bu hücum qəfildən baş verdiyi üçün onlar Zülfüqar xanın dəstəsindən bir neçə döyüşçünü qətlə yetirə bildilər. Lakin Zülfüqar xanın dəstəsinin müqavimətini qırmaq mümkün olmadı və Osmanlı döyüşçüləri yenidən qala daxilinə çəkilmək məcburiyyətində qaldılar. Bir neçə

dəfə də Həmədan hakimi Həsən xan Ustaclının mövqeləri hücuma məruz qaldı. Osmanlı dəstələri yenə arzusunda olduqları nəticəni əldə edə bilməyərək geri çəkilməli oldular. Mühasirənin dördüncü ayında qızılbaş ustaları hazırladıqları böyük topları da qala divarları kənarına gətirdilər. Həmin topların davamlı atəşləri Gəncə qalasının divarlarında müəyyən dağıntılar yarada bildi. Topların işə salındığı günlərdə Allahverdi xan da öz dəstəsi ilə gəlib Gəncə qalası ətrafına yetişdi. Bu dəstə qalanın şərq tərəfində mövqe tutdu. Allahverdi xanın dəstəsinin gəlişi ilə Gəncə qalasının mühasirəsini daha da gücləndirmək mümkün oldu. Mühasirənin yarılması üçün qızılbaş qüvvələri xüsusi taktika da işlətməli oldular. Əvvəlcə, qızılbaş dəstələri səngərləri qala divarlarına qədər uzatdılar və qala müdafiəçilərinin aramsız atəşlərinə baxmayaraq onlar özlərini qala divarlarına yetirdilər. Sonra da divarlar kənarında iki hündür sütun dikəldib onlara od vurdular. Sütunların yanması qala divarlarında çatlar yaratdı. Yaranmış çatlar həm qızılbaş topları, həm də qızılbaş tüfəngçiləri tərəfindən davamlı atəşə tutuldu. Osmanlı döyüşçülərinin bütün cəhdlərinə baxmayaraq qızılbaşların irəliləməsinin qarşısını almaq mümkün olmadı. Şah qoşunlarının qorçular dəstəsi döyüşdə əldə edilmiş üstünlüyü inkişaf etdirərək Gəncə qalasının möhkəm bürclərindən biri olan Çahartaq bürcü üzərinə hücuma keçdilər. Bu bürcün süqutunun çox ciddi nəticələrə gətirib çıxara biləcəyindən Osmanlı döyüşçüləri bütün gücünü həmin bürcə tərəf istiqamətləndirdilər. Osmanlı döyüşçüləri tüfəng atəşlərindən başqa neft və barıt fitillərini qızılbaşların üstünə yağdırmağa başladılar. Amma qızılbaşların qətiyyətli hücumunun qarşısını almaq mümkün olmadı. Doğrudur, Osmanlı döyüşçülərinin güclü müqaviməti qorçular arasında itkilərə də səbəb oldu. Onların bəzilərinin üzü, saqqalı və geyimləri neft və barıt fitillərinin atəşindən yansa da, qızılbaşları öz inadından döndərmək mümkün olmadı (187).

Gəncə qalasının alınmasında qorçular xüsusi məharət və əzmkarlıq göstərdilər. Qala bürcləri uğrunda döyüşlər axşama qədər davam etsə də, qorçular nəhayət ki, öz məqsədlərinə nail oldular.

Şah Abbas qorçuların ifrat fəallığına heç də meylli deyildi. O bilirdi ki, bu fəallıq qorçular arasında itkilərin çoxalması ilə tamamlana bilər. Şah Abbas isə öz qorçularının həyatını itirməsini istəmirdi. Ona görə qorçubaşı Allahqulu bəy də Şah Abbasın məzəmməti ilə qarşılaşdı. Bununla belə, Gəncə qalası ətrafında şah qorçuları özlərinin ən yaxşı döyüşlərindən birini keçirdilər və nəhayət axşama yaxın onlar qala divarları üzərinə yüksələ bildilər. Əsas bürcdən əlavə, qorçular qalanın daha üç bürcünü  ələ keçirdilər. Mövcud olan məlumatlara görə, hətta qızılbaş və osmanlı döyüşçüləri arasında əlbəyaxa döyüşləri də oldu. Bununla belə, qızılbaşların sürətli hücumunun qarşısını almaq mümkün olmadı. Onlar bürclərdə möhkəmləndikdən sonra kərənayları səsləndirdilər və bununla da qələbə sədasını ətrafa yaydılar. Həmin bürclər ələ keçirildikdən sonra qızılbaş qüvvələri qala divarlarını uçurmağa başladılar. Belə olanda Osmanlı əmirləri müqaviməti davam etdirməyin mənasızlığı qənaətinə gəldilər (188).

Gəncənin Osmanlı hakimi Məhəmməd paşa və qoşun başçıları çıxış yolu axtarmağa başladılar. Adı çəkilən paşa 1606-cı il iyul ayının 5-də 300 nəfər atlının müşayiəti ilə şah düşərgəsinə gəldi. Məhəmməd paşa Gəncə qalasını təhvil verməyə hazır olduğunu bildirdi. O, sonra şahın icazəsi ilə qalaya qayıtdı. Şah Abbasın əmri ilə Qərçəqay bəy qalanı təhvil aldı və onun mühafizəsini öz üzərinə götürdü (189).

Gəncənin ələ keçirilməsi ilə bütün Qarabağ nəzarət altına alınmış oldu. Şah Abbas Gəncənin və Qarabağın idarəçilik işlərinin nizama salınması ilə də məşğul oldu. Osmanlı qüvvələrinin gəlişindən əvvəl Gəncə hakimi Hüseyn xan idi. Gəncə və Qarabağ əhalisi onun hakimliyindən narazı idi. Şah Abbas bunu bilirdi və ona görə də, Gəncə və Qarabağ hakimliyi Məhəmməd xan Ziyadoğlu Qacara həvalə olundu. Gəncə və Qarabağın yenidən səltənət hüdudlarına qaytarılması başa çatandan sonra Şah Abbas üzünü Şirvan tərəfə deyil, Gürcüstan tərəf tutdu. Məqsəd Lori, Tiflis və Tumanis qalalarının yenidən Səfəvi nəzarəti altına gətirilməsi idi. Səfəvi dövlətinin zəifliyi dövründə bu qalalar da Osmanlı qüvvə-

lərinin nəzarəti altına düşmüşdü. Adı çəkilən qala-şəhərlərin nəzarət altına alınması məqsədilə şah qoşunları Gürcüstan istiqamətində irəliləməyə başladı. Bir neçə gündən sonra şah qoşunları Ehsanabad adlanan məntəqədə düşərgə saldı. Lori qalasının Osmanlı hakimi olan Məhəmməd paşa şah qoşunlarının yaxınlaşması xəbərini eşidəndə müqavimət göstərməyi mənasız saydı. Şah qoşunlarının böyük sayda olması və bu qoşunların Gəncə qalası ətrafında göstərdiyi fədakarlıqlar Məhəmməd paşanı çıxış yolu axtarmağa sövq etdi. O, yaxın adamlarından biri olan Məhəmməd bəy Biqdeli Şamlını şah düşərgəsinə göndərdi və onun vasitəsilə Şah Abbasa öz müraciətini belə çatdırdı: "Əgər bu məzlumun sabiq günahları xilaskar şəhriyar tərəfindən əfv olunarsa, başımı ayağa çevirərək o dərgahın torpağını öpməyə gələrəm". Şah Abbas da onun iltimasını qəbul etdi. Məhəmməd bəyin göndərdiyi elçilər şah tərəfindən qiymətli hədiyyələrə layiq görüldü. Sonra isə Məhəmməd bəy özü Şah Abbasın hüzuruna gəldi, ona itaətini şəxsən bəyan etdi. Şah da ona qiymətli hədiyyələr, daş-qaşla bəzədilmiş kəmər, qızıl tac, at və başqa əşyalar bağışladı. Məhəmməd paşa Lori qalasının açarlarını şahın adamlarına təhvil verdi. Şah Abbas öz adamlarını qalaya göndərdi və qalanın mühafizəsini həmin adamlara tapşırdı (190).

Lori qalasının məsələsi uğurla həll edildikdən sonra şah qoşunları Tumanis və Tiflis qalalarına tərəf istiqamətləndi. Tumanis qalasının hakimləri onları nə gözlədiyindən yaxşı xəbərdar idilər. Ona görə də Tumanis hakimləri də şah qoşunlarına qarşı müqavimət göstərilməsini məqsədəuyğun saymadılar. Bu qalanın hakimi şah düşərgəsinə belə bir məktub göndərdi: "Əgər müzəffər qızılbaş ləşkəri tərəfindən onlara bir xətər dəyməzsə və biz qiyamət təsirli şahanə qəzəbə düçar olmasaq qalanı təslim edib, öz acizlik üzümüzü başı fələyə çatan iqtidar dərgahına tərəf tutub gələrik". Şah Abbas bu iltiması qəbul etdi və o da öz növbəsində Tumanis hakiminə belə bir cavab göndərdi: " Rumilərdən kimsə orada qalmaq istərsə, rumiyyə hakimiyyəti vaxtında onlara verilən ülufə və başqa qayğılarla yenə də təmin olunacaqlar, yox əgər Rum

diyarına qayıtmaq istəyən olarsa, qoy öz əhl-əyalı, ərzağı və malları ilə rəvan olsun. Onlara ləşkər əhli tərəfindən heç bir zərər toxunulmayacaqdır". Yəni Şah Abbas Tumanis qalasındakı Osmanlı mənsublarının canına və malına zəmanət verdi. Qala daxilindəkilər Şah Abbasın bu zəmanətini məmnunluqla qarşıladılar. Osmanlı mənsublarından geri qayıtmaq istəyənlərə lazımi şərait yaradıldı, onlar Osmanlı sərhədinə qədər müşayiət edildi. Tumanisdə qalıb öz həyatlarını davam etdirmək istəyənlərə isə toxunulmadı (191).

Tiflis şəhər-qalası da oxşar vəziyyətdə Səfəvi hakimiyyəti altına gətirildi. Bu şəhərin hakimi olan Əbdüllətif paşa və onun ətrafında olan sərdarlar və ağalar Lori və Tumanis qalalarının taleyindən xəbər tutub şah itaətinin qəbul edilməsini məqsədəuyğun saydılar. Bu yolla onlar Osmanlı mənsublarının həyatını da qoruya bilərdilər. Ona görə də Əbdüllətif paşa öz elçisini və məktubunu Şah Abbasa göndərdi, qalanı təhvil verməyə hazır olduğunu bildirməklə ondan iltifat göstərməsini xahiş etdi. Şah Abbas da ona qarşı iltifat göstərdi. O, Tiflis qalası hakimlərinin, ağalarının, bütün Osmanlı mənsublarının həyatına və əmlakına zəmanət verilməsi barəsində məktub imzaladı və həmin məktubu carçıbaşı Hüseyn bəy Qorzulqədər vasitəsilə qala daxilinə göndərdi. Əbdüllətif paşa və qaladakı Osmanlı ağaları bu məktubu məmnunluqla qarşıladılar. Bununla belə, onlar daha etibarlı zəmanət əldə edilməsi üçün böyük qızılbaş əmirlərindən birinin qala həndəvərinə göndərilməsini xahiş etdilər. Bu böyük əmirdən də əlavə zəmanət alandan sonra qalanın ona təhvil verilməsi nəzərdə tutulmuşdu. Şah Abbas bu xahişi də qəbul etdi və Əliqulu xan Şamlını Tiflis qalasına göndərdi. Əliqulu xan qalaya yaxınlaşanda Əbdüllətif paşa və Osmanlı ağaları onun qarşılanmasına çıxdılar, ona və onun şəxsində Şah Abbasa öz itaətlərini bəyan etdilər. Əliqulu xan şah fərmanına əməl edərək qalanı təhvil aldı, bir dəstə şamlı tüfəngçisini və döyüşçüsünü qalanın mühafizəsi üçün saxladı. Özü isə paşa və Osmanlı ağaları ilə birlikdə şah düşərgəsinə qayıtdı. Əbdüllətif paşa və Osmanlı ağaları Şah Abbas tərəfindən mehribanlıqla qarşılandı və onların hamısı qiymətli şah hədiyyələrinə layiq görül-

dülər. Qalıb Tiflisdə yaşamaq istəyənlərə təminat verildi. Öz yurdlarına qayıtmaq istəyənlər isə yola salındı, onların müşayiət edilməsinə adamlar təyin olundu. Bundan sonra Şah Abbas özü də Tiflis qalasına yollandı və şəhərlə tanışlıq əldə etdi (192).

Tiflis qalasının alınması Şah Abbasın yaddaqalan tarixi uğurlarından biri idi. Çünki bu qala çox güclü müdafiə imkanlarına malik idi. Qala üç tərəfdən hündür dağlarla, bir tərəfdən isə Kür çayı ilə əhatə olunmuşdu. Qalanın divarları da xeyli hündür idi və onun daxilində müdafiə olunmaq imkanları da böyük idi. Onun üçün idi ki, Tiflis qalası alınmaz bir qala kimi ad çıxarmışdı. Şah Abbas isə döyüşsüz bu qalanı ala bilmişdi. Bu da imkan verirdi ki, Şah Abbas Gürcüstanda öz mövqelərini daha da möhkəmləndirsin. Dəli Məhəmməd adı ilə məşhur olan Məhəmməd sultan Şəmsəddinli Tiflis hakimi təyin edildi və şəhərin mühafizəsinin etibarlı şəkildə təmin edilməsi üçün onun tabeliyinə yetərli sayda tüfəngçilər dəstəsi verildi. Tiflisin də idarəçilik işləri və mühafizəsi sahəsində əməlli addımlar atıldıqdan sonra Şah Abbas İrəvan istiqamətində hərəkətə başladı. Şah Abbas istəyirdi ki, İrəvan qalasını təmir etsin, bu qalanı daha da möhkəmləndirsin. Eyni zamanda o istəyirdi ki, İrəvanda olduğu vaxt Osmanlı qoşunlarının bölgəyə hücum edib-etməyəcəyi barəsində də məlumat toplasın. İrəvanın möhkəmləndirilməsi işləri tamamlandıqdan sonra isə Şah Abbas Şirvan üzərinə yürüş etmək istəyirdi. Şah Abbas Əxtabad dağından keçməklə Göyçə gölünə tərəf üz tutdu. Bu dağ kifayət qədər çətin keçilən bir dağ idi. Böyük sayda olan qoşunlarla bu dağı adlamaq mümkün deyildi. Ona görə Şah Abbas qoşunları dəstələrə böldü ki, həmin dəstələr biri-digərinə mane olmadan dağ aşırımlarını adlaya bilsin. Şah Abbas on günlük yoldan sonra Göyçə gölü kənarına çatdı və orada düşərgə saldı. Sonrakı günlər ərzində arxada qalmış qoşun dəstələri də gəlib şah düşərgəsinə yetişdi. Şah Abbas özü Göyçə gölü kənarında dayandı. Qoşun dəstələri isə İrəvan qalasının təmirinə göndərildi. Bu qalanın təmiri işlərinə rəhbərlik Allahqulu bəy Qorçubaşıya tapşırıldı. Şah Abbasın yanında isə Allahverdi xanın rəhbərliyi altında kiçik bir dəstə qaldı (193).

İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas qoşunları İrəvan qalasının təmirinə göndərdikdən sonra özü Naxçıvana gəldi. Naxçıvana qədər olan əraziləri Şah Abbas həm seyr etdi, həm də o ərazilərdə ovla məşğul oldu. Elə bu vaxtlar Osmanlı sarayından Şah Abbasa sülh razılaşması əldə edilməsi üçün məktub gətirildi. Məktub Osmanlı sultanı I Sultan Əhmədin Validə xanım adlanan anası və Osmanlı sədr-əzəmi Dərviş paşa tərəfindən göndərilmişdi. Məktubu gətirən isə Gülçöhrə adlı əslən gürcü olan bir xanım idi. Gülçöhrə xanım Osmanlı qoşunları tərəfindən Gürcüstan üzərinə hücum zamanı əsir götürülərək İstanbula aparılmış bir qadın idi. Sultan sarayında xidmətə cəlb edilən bu xanım sonradan Osmanlı sultanının anasına yol tapa bilmiş və onun etibarlı adamlarından biri olmuşdu. Şah Abbas qızılbaş qoşunları ilə Osmanlı qoşunlarının nəzarəti atında olan əraziləri azad etməyə başlayanda Sultan Əhmədin anası sülh münasibətlərinin yenidən bərpası və Şah Abbasın yeni döyüşlərdən çəkindirilməsi fikrinə düşdü. O bu məqsədə nail olmaq üçün Gülçöhrə xanımın xidmətinə əl atdı. Həmin vaxtlarda Gülçöhrə xanımın əri də İstanbulda həyat sürməkdə idi. Validə xanım Gülçöhrə xanıma vəd etdi ki, əgər o, elçilik missiyasını öz üzərinə götürüb Şah Abbasın düşərgəsinə yollansa, onda ərini azad etdirəcək və onunla birlikdə yola salacaqdır. Gülçöhrə xanım da bu şərtlə razı oldu və Validə xanımın Zeynəb bəyimə yazdığı məktubu da götürüb Şah Abbasın düşərgəsinə yola düşdü. Zeynəb bəyim Şah Abbasın bibisi olmaqdan əlavə, həm də onun məsləhətçisi idi və səltənət işlərinin aparılmasında Şah Abbas onunla məsləhətləşərdi. Amma yolda ikən Gülçöhrə xanımın əri İstanbula geri çağırıldı. Bəzi məlumata görə, o, Sultan Əhməd tərəfindən qəsdən geri çağırıldı ki, Osmanlı dövlətinin ağır günləri barəsində Şah Abbasa məlumat verməsin. Bildirilir ki, Gülçöhrə xanım Üçkilsə yaxınlığında şah düşərgəsinə yetişdi və gətirdiyi məktubları ünvanlarına yetirdi (194).

Gülçöhrə xanımın Şah Abbasın bibisi Zeynəb bəyimə gətirdiyi məktubda deyilirdi: “Dünyanın əmniyyətini və xalqın rahatlığını istəyən ədalətli sultanlar həmişə ali dünya qanunlarına riayət et-

mişlər və onları hər şeydən üstün tutmuşlar. İki ali məqamlı padşah arasındakı düşmənçilik məmləkətin viran olmasına, aciz adamların narahatlığına və xalqlar arasında qan tökülməsinə səbəb olmuşdur. Dünya işlərinin yaxşılaşması və üqba aləminin savabından ötrü möhtərəm məqamlı Rum padşahı ilə gərək danışığa başlayasınız. Bu tərəfin adamları da, xüsusilə baş vəzir Dərviş paşa sülh niyyətindədir və onlar şahın ürəyi necə istəyirsə bu xeyirli işin əncamına çalışacaqlar" (195).

Şah Abbas iki dövlət arasında sülh münasibətlərinin olmasına heç də biganə deyildi. Lakin o, belə münasibətlərin Səfəvi ərazilərinin itirilməsi bahasına qurulmasına da razı deyildi. Bu mövqe Şah Abbas tərəfindən Gülçöhrə xanımın gətirdiyi məktuba yazılmış cavabda da öz əksini tapdı: "Ona və ale-Osman sülaləsinin ağsaqqallarına məlumdur ki, həzrət cənnətməkan şahla mərhum padşah Sultan Süleyman və oğlu Sultan Səlim arasında nəsilbənəsil müxalifət baş verməməsindən ötrü əhd-peyman münasibətləri möhkəmləndirilmişdi. Cənnətməkan şahın qaçılması mümkün olmayan vəfatından sonra qızılbaş tayfaları arasında baş verən azacıq çaxnaşmadan istifadə edən rumilər fürsət əldə edərək, bica yerə əhd-peymanı pozmuş və bizim irsi məmləkətimizi qəzəblə zəbt etmişlər. İndi isə biz öz irsi haqqımızı tələb edirik. Əgər Rum hökmdarı ataların əhd-peymanını nəzərə alıb dostluq məqamına gəlsə və sərhədlər o zamanlarda olduğu vəziyyətə gətirilsə, biz də xalqların və Allah bəndələrinin rahatlığı naminə düşmənçilik və inaddan vaz keçib dostluq və birlik yolunda olacağıq. Yox, əgər inad göstərib yenə də ədavət saxlasanız, Allahın iltifatına təvəkkül edib öz irsi haqqımızın tələbindən əl çəkməyəcəyik. Qoy həzrət Allah-təala necə istərsə, o cür də olsun! Çünki olacağa çarə yoxdur və ümidvarıq ki, Haqqınköməyi ilə biz öz mətləbimizə çatacağıq" (196).

Şah Abbas Gəncə üzərinə qoşun çəkdiyi günlərdə bir Osmanlı qoşun dəstəsi İrəvan vilayəti ərazisinə basqın edərək Göyçə gölü kənarına qədər irəliləyə bilmişdi. İrəvan hakimi Əmirgünə xan Osmanlı dəstəsinin bu qarətkar basqınını cavabsız qoymadı. Şah

Abbasın Naxçıvanda olduğu vaxtlarda Əmirgünə xan rəhbərliyi altında olan qoşun dəstəsi ilə Van və Adilcəvaza qədər olan yaşayış məntəqələri üzərinə basqın etdi, o ərazilərdə yerləşmiş Osmanlı yaşayış məntəqələrini talanlara məruz qoydu. Bu basqından və Şah Abbasın döyüş uğurlarından xəbər tutan ətraf bölgənin hakimləri qızılbaş dəstələrinin qətiyyətli hücumlarının qarşısını almaq və öz mənsəblərini qorumaq üçün Əmirgünə xanla əlaqələr yaratdılar və onun vasitəsilə Səfəvi dövlətinə itaətə hazır olduqlarını bəyan etdilər. O cümlədən, mahmudi kürdlərinin məskunlaşdığı Xoşabın hakimi Abdulla bəy, Qarahisar hakimi Zeynal xan, Maku hakimi Mustafa bəy, Curəs hakimi Zeynal bəy və digərləri əvvəlcə Əmirgünə xanla görüşdülər. Sonra da adları çəkilən hakimlər Əmirgünə xanın vasitəçiliyi ilə Naxçıvan yaxınlığında Şah Abbasın hüzurunda oldular. Bu hakimlər hamısı Şah Abbas hakimiyyətinə itaət edəcəklərini boyunlarına götürdülər. Şah Abbas da onların bu vədlərini qəbul etdi, onları öz vəzifələrində saxlamaqla hər birinə qiymətli hədiyyələr verdi (197). Bu da imkan verdi ki, Osmanlı dövləti ilə təmas xəttində Səfəvi dövlətinin mövqeləri daha da möhkəmlənin.

Səltənətin qərbindəki bir sıra hakimlərlə münasibətləri öz yoluna qoyduqdan sonra Şah Abbas Ordubada yollandı. Bu şəhərin və ətrafının ab-havası, təbiəti Şah Abbasın çox xoşuna gəldi. Bu barədə yazan İsgəndər bəy Münşi öz əsərində Ordubadın təbiətinin təsvirinə xeyli yer ayırmışdır. Məsələn, öz əsərinin bir yerində İsgəndər bəy Münşi Ordubadı belə vəsf edirdi: “Ordubad Qapan dağının ətəyində yerləşmişdir və suyunun təmizliyi, bağ və bostanının meyvəsi və çeşmələrinin gözəlliyi ilə bütün aləmdə məşhurdur. Dünyada elə bir yer və ölkə yoxdur ki, bu lətafətdə və sırinlikdə su çeşməsinə malik ola bilsin. Oranın camaatı möhkəm şiə (təsəyyö) xislətdirlər, kəramətli səfəviyyə xanədanına sadiq olmaları ilə məşhurdurlar. Belə ki, məhz buna görə də rumiyyənin ağalığı vaxtı bir neçə dəfə qətli-am olundular, həmin cənnətməkan yer tamamilə dağıdıldı, əhalisinə, xüsusilə ustadülbəşər və nəsirülmillət vəd-din olan Xacə Tusinin nəslindən yüksək nəsiriyyə tu-

siyyə təbəqəsinə böyük sədəmə dəydi. Həmin pərişanlığın iqbal qüvvəsi ilə aradan qaldırıldığı bu vaxtlarda Ordubad şahanə inayətə layiq görüldü, bütün divan vergilərindən azad olundu, Azərbaycan vilayətində ona bənzər başqa bir yerə bu imtiyazlar verilmədi" (198).

Şah Abbas Ordubadda qaldığı günlərdə buranın hörmətli adamları və ağaları tərəfindən xüsusi mehribanlıq və qonaqpərvərliklə qarşılandı. Bu insanlar onun hüzuruna gələrək şaha sədaqətli xidmətlərini və itaətlərini nümayiş etdirdilər. Həmin adamların da müşayiəti ilə Şah Abbas Ordubadın səfalı guşələrinin gəzintisində oldu, onun qarşısına ən ləziz yeməklər və Ordubadda yetişən dadlı meyvələr gətirildi. Eyni zamanda Şah Abbas özü də Ordubadda olduğu günlərdə şahanə süfrələr açdırdı, saray əyanlarını, qoşun əmirlərini bu süfrəyə dəvət etdi. Şah Abbasa xidmət göstərənlər, ona sədaqət nümayiş etdirənlər qiymətli hədiyyə və xələtlərlə mükafatlandırıldılar. İsgəndər bəy Münşi Şah Abbasın Vənənd adlı yaşayış məntəqəsinə səfər etməsindən də söz açmışdır. Bu səfər gəzinti və istirahət məqsədilə edilmişdi. Görünür, Şah Abbas bu məntəqənin də səfalı bir məkan olması haqqında məlumat almışdı. Bu məntəqə elə bir yer idi ki, orada müsəlmanlardan əlavə digər dinlərə mənsub olan insanlar da yaşayırdılar. Şah Abbas onlara da öz ilftifatını göstərdi, həm müsəlman əhalini, həm də qeyri-müsəlmanları öz nəvazişi ilə əhatə etdi (199).

Qeyd edildiyi kimi, Şah Abbasın Ordubadda dayanmasının məqsədi qısa müddətli istirahətdən sonra Şirvan vilayəti üzərinə hücuma keçmək və bu vilayəti də Osmanlı qoşunlarının nəzarətindən azad etmək idi. Nəhayət ki, bir müddət Ordubadda qaldıqdan sonra Şah Abbas Şirvan istiqamətində hərəkətə başlamaq əmri verdi. Ordubaddan Şirvana aparan yol Əli dərəsi adlanan bir dağ keçidindən keçirdi. Bu keçid son dərəcə ensiz bir keçid idi. Həmin keçidlə iki atlının yanaşı hərəkət etməsi çox çətin idi. Ona görə də böyük sayda qoşunun bu keçiddən adlaması xeyli vaxt apara bilərdi. Şah Abbasın əmri belə oldu ki, şah düşərgəsində olan qoşun dəstələri tədricən həmin keçiddən adlamağa başlasınlar və sonra

Çuldər və Bərgüşad adlanan məntəqədə toplansınlar. Qoşun dəstələrinin Əli dərəsindən adladığı müddətdə Şah Abbas Ordubadda qaldı. Şah Düşərgəsində olan qoşunların Əli dərəsini adlaması isə on gün davam etdi. Həmin günlər ərzində Şah Abbas istirahət məclisləri qurdu, vaxtını mənalı keçirməyə çalışdı. Düşərgədə olan qoşunlar Əli dərəsini adladıqdan sonra Şah Abbas da qoşunların ardınca Çuldərə yollandı. İrəvana göndərilmiş qoşun dəstələri də geri qayıdaraq Çuldərdə şah qoşunlarına qatıldılar. Allahqulu bəyin rəhbərliyi altında həmin qoşunlar İrəvan qalasını təmir etdilər. Qala divarları qızılbaş qoşun dəstələri arasında bölündü və hər dəstəyə məsul olduğu divar hissəsinin möhkəmləndirilməsi tapşırıldı. Qısa müddət ərzində İrəvan qalasının bərpası və möhkəmləndirilməsi başa çatdı. Qala daxilinə yetərli miqdarda silah və ərzaq ehtiyatları da toplandıqdan sonra qoşunlar Çuldərə yollandılar.

### 7. Səfəvi qoşunlarının Şirvan üzərinə yürüşü

İrəvan qalasının möhkəmləndirilməsi Şirvan üzərinə uğurlu yürüşün təşkil edilməsi üçün hərbi əhəmiyyət kəsb edirdi. Çünki İrəvan qalasının yenidən Osmanlı qüvvələri tərəfindən ələ keçirilməsi Şirvanda olan qızılbaş qüvvələrini çətin vəziyyətə sala bilərdi. İrəvan qalasının möhkəmləndirilməsi təmin edildikdən sonra Şah Abbas arxayın şəkildə Şirvan istiqamətində hərəkətə başladı. Həm də Şah Abbasın Şirvana doğru hərəkətə başlaması 1605-i ilin sonlarına, yəni havaların soyumağa başladığı bir dövrə təsadüf edirdi. Şah Abbas əmin idi ki, havaların soyumağa başladığı vaxtlarda Osmanlı qoşunları hərbi yürüşə başlamayacaqlar. Ələ düşmüş olan münasib imkanlardan istifadə etməklə Şah Abbas Şirvan vilayətini də səltənət hüdudlarına qaytarmaq istəyirdi.

Amma Şirvan üzərinə hərbi yürüşün həyata keçirilməsi ilə bağlı Şah Abbas müəyyən çətinliklərlə də qarşılaşmışdı. Havaların soyumağa başlaması, qışın yaxınlaşması qızılbaş qoşunları üçün təminat çətinliklərini ortaya çıxarırdı. Osmanlı qoşunlarının Azər-

baycan üzərinə yürüşlərinin başladığı vaxtlarda elə şah fərmanı ilə bu bölgənin böyük sayda məntəqələri dağıdılmış, ərzaq ehtiyatları məhv edilmişdi. Bölgədə həyat şəraiti olmadığından insanlar da başqa ərazilərə köçürülmüşdü. Bütün bunlar Şirvan üzərinə yürüşü daha da çətinləşdirirdi. Şah qoşunlarının bəzi başçıları və saray əyanları belə bir şəraitdə Şirvan üzərinə hücumu düzgün saymırdılar (200).

İsgəndər bəy Münşi Şirvan vilayətinə yürüş ərəfəsində qızılbaş qoşunlarının qarşılaşdığı çətinliklər və bu yürüşün həyata keçirilməsi üçün şah qoşunlarında olan fikir müxtəlifliyini belə təsvir edirdi: "...iki il olar ki, taxıl qıtlığı yarandığı üçün Azərbaycanın hər bir mahalında aclıq tüğyan edirdi. Taxılın qiyməti sürətlə [təsir] qalxmışdı. Ləşkərin zəif adamları mal yeminin çatışmazlığı [əliqəd-dəvab] səbəbindən at-ulaqsız qalmış, xidmətlərini piyada yerinə yetirirdilər. Qoşun başçıları tövlələrin çoxunu səhra otu [yığmaq] üçün hazır vəziyyətdə saxlamışdılar. Heyvanlarda güc qalmamışdı. Yasaq dövrünün uzanması nəticəsində ləşkərdə yaranan nizamsızlıq gəlib elə bir həddə çatmışdı ki, aqil adamların nəzərincə Şirvana o zaman yürüşə başlamaq münasib görünmürdü. Dövlət əyanlarının heç birisi də bu vaxt Şirvana getməyi məsləhət bilmirdi. Amma ötən illərin təcrübəsi onu göstərirdi ki, rumilərdən bu il hərəkət görünmədiyi üçün, onlar, şübhəsiz ki, bol tədarük görərək gələn baharda buraya lazımi səviyyədə gəlib çıxacaqlar. Şirvan yasağı isə ləşkərin nizamsızlıq və pərişanlığına səbəb olduğundan müxaliflər gəlib-çıxan zaman onlarla qarşılaşmaq qalib əsgərlərin qüdrət və qüvvətindən xaric bir hal olacaqdı. Buna görə də, İraqa qayıtmağı, sursat yığmağı və gələcək yasaq ləvazimatını hazırlamağı münasib bilirdilər. Amma qeybdən gələn bir səda və gözəgörünməz xəbər gətirənlərin verdikləri xəbərin təsiri ilə Şirvan fəthinin müjdəsinə yetişmək əlahəzrət şahın ilhamlı beynində özünə möhkəm yer tutmuşdu, amma bu yürüşün bu il zəfərlə nəticələnəcəyi ehtimalı qətiyyən yox idi. Çünki, rum ləşkərinin geriyə qayıdışına görə fürsət əldən çıxmış, qalaların rum hakimiyyətinə və qoruyucularına heç yandan kömək gözlənilmirdi. Hal-hazırda

fürsəti əldən vermək hərb işindən uzaq bir məsələdir. Buna görə də, İlahinin inayətinə bel bağlayıb [qızılbaşlar] o tərəfə hərəkətə başladılar" (201).

Şirvan üzərinə hücumu başlamazdan əvvəl Şah Abbas bu vilayətin Osmanlı hakimi Əhməd paşaya məktub yazdı və bu məktubu Məhəmməd bəy Rumlu adlı bir qızılbaş əmiri ilə Şamaxıya göndərdi. Şah Abbas həmin məktubda Əhməd paşanı Gəncə qalasının taleyindən xəbərdar etdi, bu qalada, habelə Lori, Tumanis və Tiflis qalalarındakı Osmanlı qarnizonunun taleyi ilə bağlı onu məlumatlandırdı. Səfəvi şahı Əhməd paşanı dinc şəkildə Şamaxını təslim etməyə çağırdı. Şah Abbasın Şirvan hakimi Əhməd paşaya yazdığı məktubda deyilirdi: "Biz cahanı gəzən fikir atımızı irsi mülkümüz olan Azərbaycan və Şirvanı fəth etmək üçün yürüş meydanına doğru hərəkətə gətirdiyimiz gündən bu günədək fütuhat qapıları açan Allahın icazəsi ilə bizim dövlətimizin övliyalarının üzünə açıq olmuşdur və bunun nəticəsidir ki, o məmləkətlərin fələyədək ucalan bütün qalaları az bir vaxtda əlimizə qayıtdı. Amma bu il rum ləşkəri hərəkətə başlamadı, gələn il də sizə kömək yetişəcəyi təsəvvürə sığmır. İndi siz öz halınızı və əhvalınızı düşünüb ağıl və düşüncəyə tabe olaraq gərək müqayisə edəsiniz ki, Gəncə qalasını mühasirəyə alan rumilərin inadkarlığı onlara nə verdi, Tiflis və Tumanis qalalarındakı rumilərin qala tutmaq inadından əl çəkmələri necə əmin-amanlıq yaratdı? Bu sözlərdən bizim məqsədimiz budur ki, əgər onlar müxalifətə və qala tutmağa yenə də israr edərlərsə, Allahın köməyi ilə bizə fəth və zəfər üz verdikdən sonra bir daha bizdən aman istəməsinlər. Belə olan halda mühasirədəkilərin qanının günahı sizin öz boynunuzda qalacaqdır" (202).

Məhəmməd bəy Rumlunun Şamaxıya gedib qayıtması bir neçə gün çəkdi. Həmin günlər ərzində Şah Abbas düşərgə qurulan ərazidə ovla məşğul oldu. Amma Məhəmməd xan ümid edilən xəbəri gətirmədi. Əhməd paşa Şamaxını təhvil verməkdən imtina etdi və ona belə bir qərar qəbul etməsini Şəmsəddin paşa adlı birisi tövsiyə etdi. Şəmsəddin paşa əslən Şirvandan idi və Osmanlı hakim-

lərinə göstərdiyi xidmətlərin əvəzində Osmanlı qoşunları daxilində yüksək mənsəblərə sahib ola bilmişdi. O, hətta paşa rütbəsinə qədər yüksəlmişdi. Şəmsəddin bəy yiyələnə bildiyi mənsəb və məqamlardan məhrum olmaq istəmirdi və ona görə Şamaxının təhvil verilməsinin əleyhinə idi. Ona görə də Şəmsəddin bəy Əhməd paşaya tövsiyə etdi ki, Şah Abbasın təklifini qəbul etməsin. Şəmsəddin bəy öz fikirlərini Məhəmməd bəyə belə çatdırdı: "Şirvan vilayəti İran padşahının mülazimlərinə aiddir. Amma bizim və ev ləvazimatları olan rum ləşkərinin bu qışın soyuğunda buradan çıxıb getməyi olduqca çətindir. Biz indi Şamaxı qalasından kənar ola bilmərik. Xahiş edirik ki, həzrət şah üç-dörd ay da bizə möhlət versin, qoy Arasbarda və oraya yaxın yerlərdə seyr və şikarla məşğul olsun. Gediş-gəliş yollarının açılacağı bahar günlərində isə biz, əgər şahın mübarək razılığına müvafiq hərəkət etməsək, nə istəsələr onu da etsinlər" (203).

Yəni Şəmsəddin bəy vaxt qazanmağa çalışırdı. Havalar qızana kimi isə Osmanlı sarayından kömək gəlib çatacağı istisna deyildi. Şəmsəddin bəy də buna ümid edirdi. Sonradan bəlli oldu ki, Şəmsəddin bəy doğrudan da Osmanlı qoşunlarının tezliklə gəlməsi istəyindədir. Bu istəyin həyata keçirilməsi üçün o, hətta şah elçisi ilə görüşdükdən sonra İstanbula yollanmışdı. Özü də Şəmsəddin bəy Şimali Qafqazdan və Krımdan keçməklə İstanbula yollandı ki, Səfəvi qüvvələrinin əlinə keçməsin. Bu barədə səltənət tərəfdarı olan şamaxılılar Şah Abbasa məktub göndərmişdilər. Həmin məktubda deyilirdi: "Əhməd paşa və rumiyyə ağaları onlara kömək göstərilməsindən ötrü Şəmsəddin paşanı artıq İstanbula göndərmişlər. Onların məqsədi Şirvan qalası və bu məmləkətdən əl çəkib, möhkəmlik baxımından bütün dünyada məşhur olan Dərbənd qalasına gedərək Dağıstana arxalanmaq, bu qışı orada keçirmək, sonra isə gələn bahar fəslində kömək gözləyib, vaxtın tələbinə görə hərəkət etməkdir" (204).

Şəmsəddin bəy İstanbulda saray mənsubları ilə görüşdü, Şirvan üzərinə Səfəvi qoşunlarının yürüş hazırlıqlarından məlumat çatdırdı və kömək istədi. Osmanlı sarayı da Şirvana kömək gön-

dəriləcəyini vəd etdi və həmin vəd Şirvan ağalarına və böyüklərinə göndərilən məktubda da öz əksini tapdı. Bu məktubda yazılmışdı: "Sizin köməyinizə bir neçə min yeniçəri yollanıb, artıq Kəffəyə gəlib-çıxmışlar, yaxın vaxtlarda burada olacaqlar. Böyük bir orduya sərdar da təyin olunmuşdur ki, baharın əvvəlində gələcək, tatar valisi Qazi Gəray xan isə öz tayfası ilə birlikdə Şirvana yürüşə başlayacaqdır. Belə ki, saysız-hesabsız rum ləşkəri iki tərəfdən gəlməkdədir" (205).

Şəmsəddin bəyin təhrikedici sözləri və vədlərinə inanan Şamaxı böyükləri Şah Abbas tərəfindən gələn təklifi rədd etdilər və onlar Səfəvi qoşunlarına qarşı müqavimət göstərmək üçün hazırlıqlara başladılar. Şamaxıdakı Osmanlı mənsubları və onların nəzarəti altında olan insanlar doğrudan da havaların qızmasından sonra Osmanlı qoşunlarının vilayətə gələcəyinə inanırdılar. Eyni zamanda ümid edilirdi ki, Şah Abbas da Şamaxı qalasının baharda təhvil veriləcəyinə inanacaq və Şamaxı üzərinə qoşun çəkməyəcəkdir. Şah Abbas isə bahara qədər gözləmək təklifi ilə razılaşmadı. O da mövcud şəraitin Osmanlı qüvvələrinin xeyrinə olmadığını və havaların qızması ilə şəraitin dəyişə biləcəyini yaxşı anlayırdı. Ona görə də Şah Abbas qətiyyətli və çevik addımların atılmasına qərar verdi. İrəli sürdüyü təklifin qəbul edilmədiyini bilincə Şah Abbas Şamaxıya doğru hərəkət əmri verdi. Şah qoşunları Arazbarın Xanarxı adlanan məkanından hərəkətə gələrək tezliklə Kür çayı sahilinə gəlib çatdı. Kür çayı üzərində Şirvana tərəf ən yaxşı keçid sayılan Cavad körpüsü Osmanlı qoşunlarının ciddi nəzarəti altında olduğu üçün qızılbaş dəstələri başqa bir keçid axtardılar. Keçidin asan olmayacağı üçün qızılbaş qüvvələri öz əşyalarının, təminat və təchizat əşyalarının böyük hissəsini Kürün cənubunda saxladılar və daha az əşyalarla çayı adladılar. Qoşunların atları və yük heyvanları üzərək çayı keçdilər. Bildirilir ki, havanın və suyun həddən artıq soyuq olması, çayın bir çox yerlərdə buz bağlaması və buz üstünə qar topaların qalaqlanması həm qoşun əhlinə, həm də qoşundakı heyvanların Kür çayını keçməsinə böyük çətinliklər yaratdı. Çoxlu sayda heyvanlar ya suya qərq oldu-

lar, ya da çətinliklərə dözməyərək qaçıb oradan uzaqlaşdılar. Ona görə də xeyli sayda heyvan tələf oldu. Mənbə məlumatlarına görə, bu çətinliklər üzündən Kür çayını adlamaq on günə qədər vaxt apardı. Qoşun adamları isə ağaclardan və qamışdan sal düzəltdilər və onun köməyi ilə çayı adlaya bildilər. Kür çayını adlamaq xeyli vaxt apardı və sonra da şah qoşunları Qarasu adlanan məntəqədə toplandılar. Oradan da şah qoşunları Üqbə və Yasamal yolu ilə Şamaxıya yollandılar (206).

Kür çayını adladıqdan sonra şah qoşunları nizama salındı və Şamaxı qalası istiqamətində hərəkət başlandı. Bu hadisə 1606-cı il yanvar ayının 9-na təsadüf edirdi. Şah qoşunları Şamaxı qalasının qərbindəki iki dağ arasında toplaşdılar. Sonra qala divarlarının və ətrafının müşahidəsi aparıldı. Məlum oldu ki, həmin vaxt Şamaxı qalasında dörd min nəfərlik Osmanlı qarnizonu vardır. Bu qarnizon qala daxilində müdafiə mövqeləri tutaraq şah qüvvələrinə müqavimət göstərmək əzmində idilər. Şah qoşunları Şamaxı qalası ətrafına toplandığı gün yeni bir sınaqla qarşılaşmalı oldu. Həmin gün son dərəcə güclü bir yağış yağdı. Bu yağış yolları, qoşunların düşərgə saldığı ərazini palçığa çevirdi. Bu palçıq o qədər çox idi ki, hətta çadırlar arasındakı məsafəni keçmək belə çətin olurdu. Ona görə qoşun əhlinin Şamaxı qalası ətrafında hərəkəti də xeyli çətinləşdi. Hətta Şamaxıya gediş-gəliş yolları ilə hərəkət də məhdudlaşdı. Bundan əlavə, heyvanları yemlə təmin etmək çətinlikləri də ortaya çıxdı. Şamaxı ətrafında qoşunun yük və minik heyvanlarını yemlə təmin etmək günü-gündən çətinləşdi. Belə olanda Şah Abbas qərara aldı ki, qoşunun bir hissəsi atlar və yük ulaqları ilə birlikdə Kür çayı sahilinə göndərilsin. Orada heyvanlar üçün daha asan bir şəraitdə ot tapmaq mümkün idi. Səfəvi qoşunlarının Şamaxı ətrafında olduğu ilk üç ay müddətində hava əsasən buludlu və yağışlı oldu. Şah qoşunları Şamaxı ətrafında Ramazan ayını da keçirdilər. Həmin ay başa çatandan sonra, yəni Şah Abbas 1606-cı ilin fevralında Şamaxı şəhər-qalasının ələ keçirilməsi üçün daha qətiyyətli addımlar atmağı qərarlaşdırdı. Doğrudur, havanın soyuqluğu davamlı hücumlar üçün çətinlik yaradırdı. Bununla belə,

Şah Abbas Şamaxını tez bir zamanda öz nəzarəti altına almaq istəyirdi (207).

Şamaxı şəhəri o zaman üçün çox işlək olan yolun kənarında, dərə boyunca uzanıb gedən bir ərazidə qərar tutmuşdu. Şəhərin kasıb və orta təbəqəsi əsas cənub hissədə məskunlaşmışdı. İmkanlı təbəqə, keçmiş hakim və sultanlar isə öz evlərini şəhərin şimal hissəsində tikmişdilər. Şəhərin bu hissəsi cənub hissəsinə nisbətən daha hündürdə idi. Bu da şəhərin şimal hissəsinin müdafiə imkanlarını artırırdı. Həmin evlərin bir çoxunda Osmanlı mənsubları yerləşmiş və bu evləri yenidən quraraq onları az qala alınmaz bir qala şəklinə salmışdılar. Qala divarları da şəhərin şimal hissəsində daha hündür idi. Divarların bu hissəsində həm də hündür bürclər mövcud idi. Bu da divarların müdafiə imkanlarını xeyli artırırdı. Qalanın şimal hissəsində səngərlər qurmaq və lağım atmaq imkanları da çox məhdud idi. Ona görə bu istiqamətdən qalanın fəth edilməsi də kifayət qədər çətin bir iş idi. Qızılbaş əmirləri istər şəhərin şimal divarlarını, istərsə də qala divarlarının digər hissələrini müfəssəl şəkildə öyrəndilər. Bundan sonra qala divarlarının ayrı-ayrı hissələrinin alınması ayrı-ayrı əmirlərə tapşırıldı. Qala divarlarının ən çətin hissəsi sayılan şimal hissəsinin ələ keçirilməsi Allahverdi xana həvalə olundu. Şəhər divarlarının qərb hissəsinin alınması isə əvvəlcə şah qorçularına tapşırıldı. Qorçular həmin istiqamətdə yerləşməklə mühasirə işlərinə başladılar. Şah düşərgəsi də qeyd edildiyi kimi, Şamaxını qərb tərəfində yerləşmişdi. Görünür, bu istiqamətdən qala divarlarının ələ keçirilməsi imkanları daha yüksək idi. Çünki sonradan bu istiqamətdə olan qüvvələr xeyli gücləndirildi. Əvvəlcə Zülfüqar xanın rəhbərliyi altında olan Azərbaycan qoşunları bu istiqamətə gətirildi. Daha sonra Qərçəqay bəy, qulamlar və tüfəngçilər, Gəncəli xanın rəhbərliyi altında Kirman qoşun dəstəsi, eşikağası Əliqulu xan Şamlının rəhbərliyi altındakı qoşun dəstəsi də qala divarlarının qərb sahəsinə istiqamətləndirildi. Mühasirə qurğularını yağışlı havada qala divarları həndəvərinə gətirmək çətin olduğundan əsas diqqət qala divarları altına lağım atılmasına yönəldildi. Qızılbaş dəstələri

lağım işlərini divardan xeyli uzaqda başlamaq məcburiyyətində qaldılar. Bu da qalanın ələ keçirilməsi üçün əlavə bir çətinlik yaratdı. Ustalar tədricən lağım atır və müəyyən məsafədən sonra bürclər qurulurdu ki, ona arxalanmaqla qala mühafizəçilərindən qorumaq mümkün olsun. Bu işlər həm də qala mühafizəçilərinin atəşləri altında aparılırdı. Lağım atan qüvvələrin təhlükəsizliyinin təmin edilməsi oxla silahlanmış qızılbaşlara və tüfəngçilərə tapşırılmışdı. Onlar da xüsusi müəyyənləşdirilmiş mövqelərdə yerləşməklə qala mühafizəçilərinin fəallıqlarını məhdudlaşdırmağa çalışırdılar (208).

Lağım işlərinin aparılması aramsız şəkildə davam edən yağış altında icra olunurdu. Bu vəziyyət işləri çətinləşdirsə də, qızılbaş qüvvələri yavaş-yavaş qala divarlarına yaxınlaşırdılar. Şah qüvvələri tərəfindən Şamaxı qalasının cənub və şərq hissəsi mühasirəyə alınmamışdı. Həmin səmtlərdə qızılbaş qüvvələri yox idi. Osmanlı mənsubları da bundan istifadə edərək qalanın cənub və şərq səmtində şəhərdən kənara çıxır və hətta qızılbaş döyüşçüləri ilə döyüşə girməyə də cəhd göstərirdilər. Osmanlı qüvvələri əllərinə düşən fürsətlərdən yararlanmaqla qızılbaş qüvvələrini mümkün qədər zəiflətməyə çalışırdılar. Şəhər divarlarının iki tərəfdən mühasirə olunmaması və qızılbaş döyüşçülərinin də piyada qalması Osmanlı qüvvələrinə əlverişli imkanlar verirdi. Qızılbaş döyüşçüləri öz atlarını Kür qırağına göndərdikləri üçün Osmanlı atlıları qarşısında çevik hərəkət edə bilmirdilər. Osmanlı atlıları da bundan istifadə etməyə çalışırdılar. Nəticədə, Şamaxı qalasının Osmanlı qarnizonunun döyüşçüləri ilə şəhəri mühasirəyə almış qızılbaşlar arasında döyüşlər də baş verirdi. Osmanlı atlılarının qala xaricinə etdikləri yürüşlərin təkrarlanmasının qarşısının daha səmərəli şəkildə alınması üçün Şah Abbasın razılığı ilə Kür kənarına göndərilmiş atların geri qaytarılması qərara alındı. Atların gətirilməsi qızılbaş döyüşçülərinin çevikliyini xeyli artırdı. Bu da Osmanlı döyüşçülərinin qala xaricinə çıxışlarının məhdudlaşmasına gətirib çıxardı. Qalanın mühasirəsi isə daha da gücləndirildi. Qızılbaş döyüşçüləri bir neçə dəfə qala divarları üzərinə də qalxa

bilmişdilər. Amma güclü müqavimətlə qarşılaşdıqlarından geri çəkilmək məcburiyyətində qalmışdılar. Belə bir vəziyyətdə Şamaxı şəhərinin mühasirəsi xeyli uzandı. Şəhərin və onun ətrafının idarəçiliyinin nizamlanması üçün Şah Abbas hələ Şamaxı qalası ələ keçirilməzdən əvvəl Şamaxının və bütünlükdə Şirvan vilayətinin hakimi vəzifəsinə Zülfüqar xanı təyin etdi. Şamaxı qalasını alınmasına gəlincə isə, Şah Abbasın göstərişi ilə Gəncə qalasının alınmasında istifadə olunan böyük çaplı toplar Şamaxı ətrafına gətirildi və onlar vasitəsilə qala divarları atəşə tutuldu. Bununla belə, Şamaxının mühasirəsi xeyli uzanmalı oldu (209).

Böyük topların Gəncədən gətirilməsi də xüsusi zəhmət tələb edirdi. Bu topların daşınması üçün böyük arabalar hazırlanmışdı. Onların gətirilməsi İrəvan hakimi Əmirgünə xanın qardaşı Hüseynqulu bəy Qacara tapşırılmışdı. Toplar Şamaxı ətrafına gətiriləndən sonda onlardan biri Allahverdi xana, digəri isə Qərçəqay bəyə verildi. Şamaxının fəthinin başa çatdırılması üçün Şah Abbasın göstərişi ilə Təbriz hakimi Pir Budaq xan da rəhbərliyi altında olan qoşun dəstəsi ilə Şamaxı ətrafına gəldi. Qərara alındı ki, Pir Budaq xanın qoşun dəstəsi Şamaxının şərq hissəsində yerləşdirilsin və həmin hissə də mühasirəyə alınsın. Mühasirə işləri uzanmalı olduğundan Şah Abbas 1606-cı ilin Novruz bayramını da bu şəhərin divarları ətəyində keçirməli oldu. O öz divanxanasını bu şəhər ətrafında qurmuşdu və səltənət işlərinin idarəçiliyi də buradan aparılırdı. Şamaxının mühasirəsinin başa çatdırılması üçün Kaxetin gürcü qoşunları da şah düşərgəsinə çağırıldı. Həmin vaxt bu vilayətin hakimi Aleksandr xanın nəvəsi Təhmurəs xan idi. Təhmurəs xan Şah Abbasın bu göstərişini yerinə yetirməli oldu. Lakin şahın qorxusundan Təhmurəs xan şah düşərgəsinə gəlməkdən imtina etdi. Əvəzində isə o, anasını qoşun dəstəsi ilə şah düşərgəsinə göndərməyi qərarlaşdırdı və bu barədə Şah Abbasa da xəbər göndərdi. Şah Abbas isə onun bu qərarına münasibətini belə ifadə etdi: "Biz onun xahişinə etiraz etmirik, amma onun gəlməməyi səthi düşünən adamların nəzərində sədaqət bağlamaqdan sapma kimi görünə bilər, hamı onu üsyan etməkdə ittiham edər,

başqa hakimlərin də gəlib-çıxmalarına pis təsir edər. Münasibdir ki, onun özü əvvəlcə gəlib mülazimətə başlasın, sonra isə qayıdıb, istədiyi miqdar ləşkəri anası ilə buraya göndərsin” (210).

Bununla belə, Təhmurəs xan onun yaxın ətrafının təhrikçiliyi üzündən şah düşərgəsinə gəlməkdən imtina etdi. O, nəhayət ki, öz anasının rəhbərliyi altında təxminən bir min nəfərlik bir qoşun dəstəsini şah düşərgəsinə göndərdi. Şah Abbas Kaxet hakiminin hərəkətlərindən razı qalmasa da onun anasını ehtiramla qarşıladı, ona qonaqpərvərik göstərildi, və şah hərəminin xanımları ilə görüşmək imkanı verildi. Gürcü qoşun dəstəsinə isə heç bir döyüş tapşırığı verilmədi (211).

Şamaxının mühasirəsinin davam etdiyi günlərdə şah qoşunları Bakı və Dərbənd qalasını Osmanlı qoşunlarının nəzarəti altından çıxara bildilər (bu barədə aşağıda danışılacaqdır). Novruz bayramından az sonra şah sarayı elə Şamaxı ətrafında Qurban bayramını da qeyd etməli oldu. Həmin bayramın keçirilməsinin planlaşdırıldığı gün şah düərgəsində faciəli sonluğu olan bir hadisə baş verdi. Şah Abbas tərəfindən bu bayramın təntənəli şəkildə keçirilməsi haqqında göstəriş verilmişdi. Bununla əlaqədar olaraq, şah divanxanası kənarında ustalar tərəfindən xüsusi bir bina tikilmişdi. Bu binanın əsas dayaqları taxta və ağaclardan qurulmuş, üstü və yanı isə qamış və palçıqla tutulmuşdu. Bu tikilinin baş tərəfində Şah Abbas üçün şah adına layiq bir taxt da qurulmuşdu. Gözlənilirdi ki, məclis əhli toplandıqdan sonra Şah Abbas da gəlib öz yerini tutsun və bununla da bayram tədbiri davam etdirilsin. Vəzirlər, əmirlər, əzəmətli sədrlər, üləmalar, qoşun başçıları, Dağıstandan gəlmiş hakimlər bu tikilinin qarşısında Şah Abbasın məclisə gəlişini gözləyirdilər. Qonaqlar və məclis iştirakçıları toplandıqdan sonra onlar öz yerlərini tutmağa dəvət olundular. Eşikağasının rəhbərliyi altında bütün məclis əhli müəyyənləşdirilmiş yerlərdə əyləşdilər. Qonaqlar tikili daxilində hələ bütünlüklə öz yerlərini tutmamışdılar ki, həmin tikilinin bünövrəsi birdən titrəməyə başladı və az sonra bu tikili uçulub yerlə bir oldu. Dağıstandan gəlmiş hakimlər və əmirzadələr vaxtında binanın çökmə-

sindən xəbərdar olub özlərini bayıra ata bildilər. Ancaq qonaqların xeyli hissəsi uçmuş binanın altında qaldılar. Şah Abbas bir qədər gecikməsi nəticəsində bu hadisədən salamat qurtara bildi. Amma yüksək qonaqlardan bina uçuqları altında qalaraq həyatlarını itirənlər də oldu. Xeyli sayda qonaq isə bu uçuqların altında qalaraq müxtəlif dərəcəli xəsarətlər aldılar (212).

İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbasın xidmətində olan münəccimlər ulduzları seyr etdikdən sonra belə bir qənaətə gəliblərmiş ki, hadisə baş verən gün günorta üstü Səfəvi şahına ziyan dəyməsi ehtimalı vardır. Münəccimlər onu da bildirirdilər ki, xoşbəxtlik ulduzları Şah Abbasın tale ulduzlarına təsir göstərərək həmin ziyanların qarşısını ala biləcəklər. Guya ona görə də münəccimlər tərəfindən Şah Abbasın Qurban bayramı münasibətilə düzənlənən məclisə gəlməsi bir qədər ləngidilmişdi. Yəni münəccimlər belə güman edirlərmiş ki, ziyan törədə biləcək ulduzların təsirinin aradan qalxmasına qədər Şah Abbasın məclisə yollanmasının qarşısı alınsa, onda baş verə biləcək hadisəni də aradan qaldırmaq olardı. Ona görə də hələ xəlvətxanada ikən Şah Abbas müxtəlif söhbətlərə tutulur və hər vasitə ilə onun məclis taxtına yollanması ləngidilirdi. Şah Abbas da başı söhbətə qarışdığından məclisə gecikmə ilə yollandı. Nəticədə o, baş verən hadisədən sonra xəlvətxananı tərk etdi və bununla da Şah Abbas xətərdən salamat qurtardı. İsgəndər bəy Münşi həmin gün Şah Abbasın yanında olan Mövlana Əlirza Xoşnevisdən şəxsən eşitdiyinə görə belə yazırdı ki, məclisə yollanmaq istəyəndə birdən-birə Səfəvi şahının yuxusu gəldi. Şah Abbas yuxuya getdi və o yuxuda ikən məclis üçün tikilmiş bina uçulub dağıldı. İsgəndər bəy Münşiyə görə, şahın qəfildən yuxuya getməsi Allahın xoş qədər idi və bu qismət nəticəsində Şah Abbas məclis məkanına gecikmiş və bununla da bəladan nicat tapmışdı (213).

Məclis üçün tikilmiş böyük binanın uçulub-dağılması, onun qalıqları arasında bir neçə nəfərin həyatını itirməsi və xeyli sayda insanın da müxtəlif dərəcəli zədələr alması Şamaxı şəhərinin mühasirəsində dayanmış qızılbaş dəstələri tərəfindən böyük həyəcan-

la qarşılandı. Qoşun əhli arasında belə bir ehtimal var idi ki, Şah Abbas da binanın uçuqları altımda qalaraq həyatını itirmişdir. Bu ehtimal qoşun əhli və əmirlər arasında bir çaşqınlıq yaratdı. Həmin çaşqınlığın hətta kütləvi nizamsızlığa çevrilməsi təhlükəsi də var idi. Əmirlər və sərdarlar məsələyə aydınlıq gətirmək üçün dövlətxana qarşısında toplaşdılar. Bir müddətdən sonra şah onların qarşısına çıxdı. Əmirlər və sərdarlar onun sağ-salamat olduğunu görüncə əvvəlcə yaradana dualar etdilər, sonra da hər kəs öz qoşun dəstəsi yanına yollandı ki, döyüş tapşırıqlarının icrasını davam etdirsinlər.

Havalar qızmağa başladıqca Şamaxı qalasının mühasirəsi də gücləndirildi. Bir tərəfdən lağım və səngərlər yavaş-yavaş qala divarlarına yaxınlaşdırıldı. Digər tərəfdən böyük toplardan atılan ağır daşlar qala divarlarında çatlar yaratdı. Osmanlı döyüşçüləri nə qədər çalışsalar da qızılbaş qüvvələrinin qala divarlarına yaxınlaşmasının qarşısını ala bilmədilər. Əksinə, qızılbaş qüvvələrinin divarlara xeyli dərəcədə yaxınlaşması onların təşvişini daha da artırdı və çoxlarında qalanı mühafizə edə biləcəklərinə olan ümidlər də aradan qalxdı. Mühasirə işləri güclənsə də Şah Abbas qala üzərinə qətiyyətli hücumun başlanması haqqında qərar verməsini müəyyən qədər təxirə saldı. O, istəmirdi ki, bu hücum zamanı hər iki tərəfdən xeyli sayda döyüşçü öz həyatlarını itirsinlər. Qoşun əmirləri də uğurlu hücum imkanının olmasına baxmayaraq şahın əmri olmadan belə bir addımı atmadılar. 1606-cı il iyun ayının 12-də Qərçəqay bəyin qərar tutduğu sahədə ona aid olan böyük topdan açılan atəş qala bürclərinin birində böyük uçuq yaratdı. Qərçəqay bəyin dəstəsindəki döyüşçülər həmin uçuqdan qala daxilinə adlamağa cəhd göstərdilər. Bu döyüşçülərin qala divarları üzərində görünməsi digər dəstələrdə qala üzərinə ümumi hücumun baş verməsi təəssüratı yaratdı. Ona görə də qızılbaş döyüşçülərinin çoxu irəli atıldılar. Qərçəqay bəy əmr olmadan döyüşçülərin qala divarları üzərinə qalxmasına və hətta şəhərə daxil olmasına görə təşviş keçirdi və bu icazəsiz əmələ görə şah

tərəfindən cəzalandırıla biləcəyindən qorxaraq bütün döyüşçüləri geri çağırdı (214).

Nizamsız şəkildə baş verən döyüşlər zamanı qızılbaş döyüşçülərindın də həyatlarını itirənlər var idi. Belə halların baş verməsi onu göstərirdi ki, Şamaxı qalasının alınacağı vaxtı artıq yaxınlaşmaq üzrədir. Əslində, şəhər əhalisi də uzun müddət mühasirədə qalmaqdan yorulmuşdu və onlar da belə bir vəziyyətin başa çatması arzusunda idilər. Mühasirənin uzanmasından ümidsizliyə qapılmış olan Osmanlı döyüşçüləri də yaranmış vəziyyətdən çıxmaq üçün yollar arayırdılar. 1606-cı il iyul ayının 3-də Zülfüqar xanın dəstəsinin qərar tutduğu sahənin önündəki qala bürcündə dayanan iki Osmanlı döyüşçüsü aşağı enib onun yanına gəldilər. Onlar Zülfüqar xana bildirdilər ki,  endikləri qala bürcündə kimsə yoxdur və əgər qızılbaşlar qala daxilinə girmək istəyirlərsə burada onlara kimsə mane olmayacaqdır. Həmin bürcdə Zülfüqar xanın döyüşçüləri tərəfindən əslində, dağıntılar yaradılmışdı və bu dağıntılardan adlamaqla qala daxilinə keçmək mümkün idi. Osmanlı döyüşçülərinin gəldiyi vaxt Zülfüqar xanın döyüşçüləri artıq ondan xəbərsiz uçurulmuş yerlərdən qalaya daxil olmağa başlamışdılar. Zülfüqar xanın bundan xəbəri yox idi. Qalaya təxminən yüz əlli nəfər döyüşçü daxil ola bilmişdi. Zülfüqar xan biləndə ki, bu qədər sayda döyüşçü artıq qalaya daxil olmuşdur, onda müəyyən narahatçılıq keçirməyə başladı. Çünki kömək olmayacağı təqdirdə qalaya daxil olanlar məhv edilə bilərdilər. Qala daxilində başlanan döyüş də bundan xəbər verirdi. Qalaya daxil olanların qorunması məqsədilə Zülfüqar xan bütün dəstəsinə qala üzərinə hücum əmri verdi. O özü də bu hücuma qoşuldu və qala divarları üzərinə qalxdı. Zülfüqar xan qala divarları üzərində haray çəkdi və onun bu harayı qalanın mühasirəsində olan digər dəstələrə də çatdı. Qoşun dəstələri daxilində başlanan səs-küy Qərçəqay bəyin qulağına çatanda bildi ki, Zülfüqar xanın dəstəsi artıq şəhərə daxil olmuşdur. Belə olanda Qərçəqay bəy də öz dəstəsi ilə top atəşləri nəticəsində uçulmuş bürclərin birindən şəhərə hücuma başladılar. Kütləvi hal alan qızılbaş hücumu kərənayların və nağaraların səsi ilə qorxunc

bir əks-səda yaratdı. Şəhəri mühasirəyə alan bütün qüvvələr bu hücuma qatıldılar və şəhər üzərinə tökülüşdülər. Belə bir kütləvi hücumu gözləməyən Osmanlı döyüşçüləri qala divarları üzərində duruş gətirə bilməyərək şəhər küçələrinə axışdılar və mümkün olan yerlərdə özlərinə sığınacaq axtardılar.  Amma onlar qızılbaş döyüşçülərindən canlarını qurtara bilmədilər (215).

Qalanın şimal hissəsində mövqe tutmuş Allahverdi xanın dəstəsi həmin gün Şamaxı şəhəri üzərinə hücuma qoşulmadı. Bir tərəfdən Allahverdi xanla Zülfüqar xanın dayandığı mövqelər bir-birindən fərqlənirdi. Şəhərin şimal hissəsində qala divarları daha möhkəm və hündür idi və bu divarlar Osmanlı qüvvələri tərəfindən də daha yaxşı qorunurdu. Şəhər hakimi olan Əhməd paşa və Osmanlı ağalarının çoxu şəhərin bu hissəsində məskunlaşmışdılar və ona görə bu istiqamətin müdafiəsinə daha ciddi diqqət yetirilirdi. Zülfüqar xanın rəhbərliyi altında olan Azərbaycan dəstəsinin qarşısındakı qala divarları isə artıq zədələnmişdilər və bu divarları fəth etmək daha asan idi. Qalanın şimal hissəsində qızılbaş döyüşçüləri arasında itkilər də digər sahələrə nisbətən daha çox idi. Yəni bu istiqamətdə Osmanlı qüvvələri daha güclü idilər. Allahverdi xan eyni zamanda Şah Abbasın hücum əmri olmamasından ehtiyat edirdi. Ona görə də qala üzərinə hücuma müəyyən təmkinlə yanaşırdı. Qalanın şimal hissəsinin imkanları elə idi ki, aşağı hissə təslim olandan sonra da şimal hissədə müqavimət davam edirdi. Həmin hissədə hətta beş-altı gün müqavimət davam etdi. Bu günlər ərzində şəhərin aşağı hissəsində qızılbaş qoşunları şəhərə daxil oldular, qarşıya çıxan Osmanlı döyüşçülərinə qarşı kütləvi cəza tədbirləri tətbiq etdilər. Qalanın şimalında Osmanlı qüvvələrinin müqaviməti əzmkarlıqla davam etdirməsi də şəhərin aşağı hissəsindəki Osmanlı qarnizonuna qarşı kütləvi cəzaya təkan verdi. İsgəndər bəy Münşinin yazdığına görə, qətl edilən Osmanlı döyüşçülərinin sayı minlərlə oldu. Onun fikrincə, qızılbaş döyüşçüləri arasında həyatını itirənlərin sayı xeyli az idi (216).

Şamaxı qalasının aşağı hissəsi təslim olsa da, yuxarı hissəsi neçə gün ərzində müqaviməti davam etdirdi. Yəqin ki, Osmanlı

qarnizonu rəhbərliyi başqa bir seçimin qalmadığı üçün son nəfəsədək müqavimət göstərmək fikrində qərarlı idi. Ona görə də qalanın bu hissəsinin ələ keçirilməsi kifayət qədər ciddiləşmişdi. Qalanın şimalındakı iç qalanın alınması üçün qızılbaş qüvvələri hətta divarları altına lağım atmağa cəhd göstərdilər. Bu cəhd uğurla nəticələndi və şəhər daxilindən iç qala divarları altından lağım atıldı. Bundan əlavə aramsız icra olunan top atəşlərindən sonra iç qalanın bürclərindən biri də dağıdıldı. Həmin bürcün altından keçməklə iç qalaya girənlər də oldu. Lakin bürcün yuxarısı Osmanlı döyüşçülərinin əlində qalmaqda idi və onlar da tutduqları əlverişli mövqedən istifadə etməklə qızılbaş qüvvələrinin irəliləməsinin qarşısını saxlaya bilirdilər. Şəhər üzərinə hücumun beşinci günü Allahverdi xanın dəstəsindən olan yüz əlli nəfər döyüşçü iç qalanın uçurulmuş bürcünün yuxarı hissəsini də Osmanlı döyüşçülərindən təmizləməyə çalışdılar. Osmanlı döyüşçüləri onları tüfəng atəşləri, yuxarıdan aşağı atılan yandırılmış əşyalarla qarşıladılar. Bu bürc ətrafında tərəflər arasında gərgin bir döyüş oldu. Osmanlı döyüşçüləri bilirdilər ki, bu bürcün əldən verilməsi bütünlükdə döyüşün uduzulması idi. Ona görə də onlar bütün güclərini qızılbaş döyüşçülərinin qarşısını almağa yönəltdilər. İsgəndər bəy Münşi həmin döyüşü gedişini belə təsvir edirdi: “Həmin gün hərb atəşi elə şölələndi ki, qorxmaz əsgərlər özlərini səməndər [quşu] kimi atəş dənizinə atıb üzürdülər. Rum şücaətliləri müdafiə və atəş yağdırmaqda çox çalışdılarsa da, iqbal dəstələrinin mübarizləri öz mərdanəlik qədəmlərini yerə daha möhkəm dirəyib mərdanə döyüşdülər. İlahinin lütfünə nümunə olan zavalsız şah iqbalının gücü sayəsində bir neçə qorçi qılınclarını sıyırıb, başları üzərində qalxan tutdular, özlərini bürcün yuxarısına çatdırıb oranın gözətçiləri ilə əlbəyaxa oldular. Rumilər nəhayət vuruşmaqdan aciz qalıb bürcü tərk edərək aşağı düşdülər, evlərin damlarından qaziləri tüfəng atəşinə tutdular. Qazilər bürcün yuxarısında üzlərinə sipər tutaraq özlərini düşmən nişanından qoruyurdular. Rumiyyə əsgərlərinin qızılbaşları bürcdən uzaqlaşdırmaq səyləri baş tutmadı. Ard-ardınca irəli şığıyan qorçi cavanlar irəlidəkilərə birləşirdilər

və onların güc-qüvvəsi bürcün fəthindən saatbasaat çoxalırdı. Buna baxmayaraq, onlar rumiyyənin xəzinə və mallarının qarət olunmamasından ötrü qalaya daxil olmurdular" (217).
Osmanlı döyüşçülərinin əksəriyyəti görürdülər ki, artıq qızılbaş qüvvələrinə qarşı müqavimət göstərməyin bir nəticəsi olmayacaqdır. Ona görə də onlar silahı yerə qoydular və müqaviməti dayandırdılar. Əhməd paşa isə ətrafındakı dəstə ilə döyüşü davam etdirirdi. Hətta Əhməd paşanın ətrafında olan yeniçərilər, dəstə başçıları müqaviməti dayandırmaq qərarına gələndə də Əhməd paşa döyüşməkdə davam edirdi. O, fədakarlıqla son nəfəsə qədər vuruşmaq niyyətində idi. Yalnız yanındakı xidmətçilər silahı yerə qoyandan sonra Əhməd paşa da təslim olmaq məcburiyyəti qarşısında qaldı. Şamaxı hakimi silahı yerə qoymağın səbəbini belə açıqlayırdı: "Pul ilə satın aldığım bir qulamım vardı ki, həya və ədəbinin çoxluğundan mənimlə danışmağa belə cürət etmirdi. Mənimlə birgə olduğu vaxtdan bəri həmişə onun xidmətkarlıq və sədaqətini müşahidə edirdim. Qızılbaşlar bürcü ələ keçirən vaxt əsgərlər qalanı müdafiə etməkdən məyus oldular. Mənim və o qulamın əlində iki tüfəng vardı. O doldurur, mənsə atırdım. Birdənbirə o mənə dedi:

"Ey səadət sahibi, əcəb ağıl sahibisən ki, özünə bir belə əziyyət verir və özünü tələf edirsən. Sənin adamların cəngi tərk edib, qəzavü-qədər ilə razılaşmışlar. Ruzigarın gərdişi ilə bu nə döyüşdür ki, edirsən? Biz iki nəfərin əlindən nə gələ bilər? Bu günün ömrünü qənimət bil, sabahkı gün isə hələ məlum deyil". Bunları deyib üzünü məndən çevirdi. Doldurmaqdan ötrü verdiyim tüfəngi istədim, amma vermədi. Elə ki, etibar etdiyim qulamın mənim üzümə ağ olduğunu gördüm təqdir karxanəsinin işinə mat-məəttəl qaldım. Buna görə də əlimdəki tüfəngi buraxıb, asimanın qəzavü qədərinin rəyi ilə razılaşdım. Bürcə gələn qızılbaş döyüşçülərinə dedim: "Cəngdən əl çəkin, mən qaladan əl çəkirəm və bura həzrət şahındır". Sözün qisası, Əhməd paşa ox qabında bir ox qalanadək qızılbaşlarla döyüşdü, qazilərsə sinələrini sipər edib vuruşdular. Xülasə, paşa Allahverdi xanın yanına adam göndərib rica etdi:

“Siz bu gün əsgərlərin hücum əllərini qaladan çəkin, sabah şah necə istərsə elə də edərsiniz” (218).

Əhməd paşa Şamaxı şəhərinin təhvil verilməsi üçün bir gün vaxt istədi. Bu barədə Şah Abbasa ərz olundu. Şah Abbas da Əhməd paşanın xahişini qəbul etdi. Hökm olundu ki, şəhər üzərinə hücum dayandırılsın, kimsə şəhərə daxil olmasın, şəhərdə olanlar da geri dönsünlər. Eyni zamanda əmr olundu ki, şəhər ətrafı etibarlı şəkildə mühasirə olunsun, Osmanlı mənsublarından kimsənin şəhəri tərk etməsinə imkan verilməsin. 1606-cı il iyul ayının 8-də Əhməd paşa vəd etdiyi kimi, Şamaxı şəhərini təslim etdi. Həmin gün əldə edilmiş növbəti uğur münasibətilə şah qoşunları düşərgəsində zəngin bir ziyafət təşkil edildi. Əvvəlcə dua mərasimi keçirildi. Şah Abbas qazanılmış uğura görə yaradana dualar etdi. Sonra isə o, düşərgədə onun üçün qurulmuş dövlətxanadakı taxta qalxdı, musiqi sədaları ətrafa yayıldı. Şənliklərin təhlükəsiz keçməsi üçün Şamaxı darvazalarına mühafizəçilər təyin edildi. Onlar şəhər daxilindən Osmanlı döyüşçülərin gözlənilməz şəkildə çıxmalarının qarşısını almalı idilər. Bundan sonra bir neçə qızılbaş əmiri qala daxilinə, Əhməd paşanın və onun yanındakı adamların şah məclisinə gətitilməsinə göndərildilər. Əhməd paşa şah hüzuruna gəlməkdən imtina etdi. O öz qərarını belə izah etdi ki, Şah Abbasın istəyini yerinə yetirməmişdir və bunun üçün da o, şah yanında günahkar sayıla bilər. Əhməd paşa bəyan etdi ki, qoy şah adamları gəlib onu elə qala daxilində şah tərəfindən qəbul olunmuş qərara uyğun olaraq cəzalandırsınlar. Bu barədə eşidəndə Şah Abbas onu peşmançılığına görə bağışladı və xəbər göndərdi ki, heç bir təşviş keçirmədən şah məclisinə gələ bilər. Belə olanda Əhməd paşa, onu müqavimət göstərməyə təhrik edən Şəmsəddin paşa yanlarındakı adamlarla şahın hüzuruna gəldilər. Əhməd paşa təcrübəli və ağıllı bir insan idi və Şah Abbasla da çox nəzakətlə danışdı. Onun danışığı və davranışı Şah Abbasın xoşuna gəldi və ona görə də Əhməd paşaya hər hansı bir cəza verilmədi. Şəmsəddin paşaya isə sərt cəzalar tətbiq olundu. Şəmsəddin paşanın uzun saqqalı var idi. Elə Şah Abbasın hüzurunda onun saqqalını yol-

mağa başladılar. İsgəndər bəy Münşinin yazdığına görə, onun saqqalında bir dənə də olsa tük qalmadı, hamısı şah xidmətçiləri tərəfindən yonuldu. Sonradan isə Şəmsəddin paşa qətlə yetirildi (219).

Əhməd paşa şah sarayının qorçubaşısı vəzifəsinə layiq görülmüş İsaxan bəyə tapşırıldı. Bir neçə gün İsaxan bəyin qonağı olduqdan sonra Əhməd paşa xidmətçiləri ilə birlikdə Qəhqəhə qalasına göndərildi. Qala daxilində həbsə alınanlar arasında Şirvan sakinləri də var idi. Osmanlı qüvvələri Şirvanda olduğu vaxt onlar Osmanlı hakimləri ilə əməkdaşlıq etmək məcburiyyətində qalmışdılar. Şah tərəfindən bu insanlar da cəzalandırılmadı. Onlar həm icra etdikləri vəzifədə saxlanıldılar, həm də onların bəziləri hətta mükafatlandırıldılar da. Lakin sonradan həmin adamlar tədricən tutduqları vəzifələrdən uzaqlaşdırıldılar və səltənətin dərinliklərinə köçürüldülər. Bu adamlardan şah qoşunlarında xidmət etmək istəyənlərə münasib şərait yaradıldı. Eyni zamanda sağ qalmış Osmanlı döyüşçülərinin də öz yurdlarına dönmələri üçün şərait yarandı (220).

## 8. Bakı, Dərbənd və Qars qalalarının ələ keçirilməsi

Şamaxı şəhərinin mühasirəsi davam etdiyi vaxt şah qoşunları Dərbənd və Bakı şəhər-qalaları üzərinə də qoşun çəkdilər. Şamaxıda olan Osmanlı qüvvələrinin mühasirədən çıxaraq həmin şəhərlərə sığınmaq ehtimalı var idi. Digər tərəfdən həmin şəhərlər azad edilmədən Şirvanın bütünlüklə nəzarət altına alınması da mümkün deyildi. Bu qalaların hər ikisi kifayət qədər möhkəm qala idi. Onların hər ikisi Xəzər dənizi kənarında yerləşməklə həm də dəniz suları ilə qorunurdular. Hər iki şəhərin üç tərəfini hündür və möhkəm qala divarları, bir tərəfini isə dəniz suları mühafizə edirdi. Dərbənd şəhərinin divarları dənizin içərilərinə doğru gedib çıxmışdı. Bu da qalanın mühafizəsini daha etibarlı edirdi. Bakı qalasının sakinləri arasında da Osmanlı ağalığından qurtarmaq arzusunda olanlar var idi. Belələri şəhər sakinləri arasında da təbliğat xarakterli söhbətlər aparır və bununla onlar şah hakimiyyəti tərəf-

darlarının sıralarını da genişləndirirdilər. Şah hakimiyyəti tərəfdarı olanlar çoxalaraq ciddi bir qüvvəyə çevrildilər. Onlar hətta qalanın Osmanlı hakimi və onun adamları üzərinə hücum etdilər, onları əsir etdilər. Müqavimət göstərənlər isə məhv edildi. Şah tərəfdarları əsir götürdükləri Osmanlı mənsublarını və qətlə yetirdikləri Osmanlı döyüşçülərinin başlarını Şah Abbasın hüzuruna gətirdilər və Bakı daxilindəki vəziyyət barəsində ona ərz etdilər. Şah tərəfdarlarının gördükləri işlər Şah Abbas tərəfindən məmnunluqla qarşılandı və onlar şah tərəfindən qiymətli hədiyyələrə layiq görüldülər. Beləcə Bakı qalasının taleyi də həll olundu və güclü müqavimətə rast gəlmədən bu şəhəri də Səfəvi hakimiyyətinin nəzarəti altına gətirmək mümkün oldu (221).

Bir məlumata görə isə, şah qoşunları tərəfindən Şamaxı şəhəri mühasirəyə alınanda Bakı qalasının sakinləri də buradakı Osmanlı hakimliyinə qarşı üsyan qaldırdılar. Bakı sakinləri artıq şah qoşunları tərəfindən Gəncə və Qarabağın nəzarət altına alınması haqqında xəbər tutmuşdular. Üsyan edənlər qala hakimini qətlə yetirərək onun başını Şah Abbasın yanına apardılar. Bununla Bakı şəhəri Osmanlı nəzarətindən azad edildi (222).

Bakı sakinlərinin qətiyyət və əzmkarlıq göstərməsi xəbəri qısa bir zamanda bütün Şirvana yayıldı. Bu xəbər Dərbənd sakinlərində müqavimət əhval-ruhiyyəsini xeyli gücləndirdi. Dərbənd sakinləri arasında xeyli sayda insan Osmanlı hakimləri ilə əməkdaşlığa girərək şəhərdəki Osmanlı qarnizonu sıralarına daxil olmuşdular. Onların şah hakimiyyətini dəstəkləyəcəyi halda qaladakı Osmanlı qarnizonu xeyli zəifləyə bilərdi. Vaxtilə Səfəvi sarayının etibar etdiyi dərbəndlilərdən biri olan Xacə Məhəmməd Dərbəndinin oğlu Dərbənd sakinlərinin narazılıqlarını istiqamətləndirməklə onların rəhbərinə çevrildi. Qızılbaş qoşunları hələ Gəncə ətrafında olarkən Şah Abbas Dərbəndin azad edilməsi haqqında əməli addımlara əl atmağa başlamışdı. Belə ki, o, Dərbəndin hakimliyini Qaytaq hakimi Usmi xana həvalə etmişdi. Usmi xan şah sarayı ilə xoş münasibətlərdə idi və o, Şah Abbasa da öz sədaqətini çatdırmışdı. Şah Abbas Gəncə ətrafında olanda onun dəvəti ilə

Usmi xan onun yanına gəldi. Usmi xan bu zaman bir daha şaha sədaqətini bəyan etdi və şah da Dərbənd hakimliyini ona tapşırdı. Bu isə o demək idi ki, şah qoşunları ilə birlikdə Usmi xan da Dərbəndin alınması istiqamətində qətiyyətli addımlar atmalı və bu şəhər üzərində öz hakimiyyətini təmin etməli idi. Usmi xanın Dərbənd hakimi vəzifəsinə təyin edilməsi bu şəhərin sakinlərini də Osmanlı ağalığından qurtarmaq istiqamətində fəallaşmağa sövq etdi. Dərbənd hakimləri nəslindən olanlar da bu xəbəri məmnunluqla qarşıladılar və onlar xəbər göndərərək Usmi xanı Dərbəndə dəvət etdilər. Usmi xan da bu dəvəti qəbul edərək iki-üç yüz nəfərlik bir dəstə ilə Dərbənd ətrafına gəldi. Dərbənd sakinləri onu sevinclə qarşıladılar və darvazaları açaraq onu şəhər daxilinə gətirilər. Şəhərin Osmanlı hakimi olan Həsən paşa Kərəz şəhər əhalisinin şah hakimiyyətinə olan meylinin belə genişlənməsindən qorxuya düşdü. Onun yanında şəhər əhalisinin etirazlarını yatırmaq üçün yetərli olacaq qüvvə yox idi. Yuxarıda deyildiyi ki, Dərbəndin Osmanlı qarnizonunun xeyli hissəsini yerli sakinlər təşkil edirdilər ki, Həsən paşa da onların etibarına şübhə ilə yanaşırdı. Ona görə Həsən paşa yanında olan 60-70 nəfər Osmanlı döyüşçüsü ilə Narınqalaya çəkildi və oranın müdafiəsinə başladı. Dərbənd əhalisinin Osmanlı ağalığına qarşı çıxmış fəalları və Usmi xanın bir neçə mülazimi şəhərdə baş verənlər haqqında məlumat çatdırmaq üçün Şah Abbasın düşərgəsinə yollandılar. Həmin nümayəndələri Şah Abbas tərəfindən mehribanlıqla qarşılandı və onların hərəkətləri şahın razılığına səbəb oldu. Hüzura gələnlərin hamısı qiymətli hədiyyələrlə mükafatladırıldı, həmin adamlara aid olan mülklərin vergiləri soyurqal kimi onların özlərinə bağışlandı, şəhər camaatı isə divan vergilərindən azad edildilər. Şah tərəfindən Usmi xanın fəaliyyəti də yüksək qiymətləndirildi. Dərbənd qalasının tezliklə tam nəzarət altına alınması üçün Usmi xana əlavə kömək də göndərildi. Bu məqsədlə cığatay, xorasanlı, iraqlı və bafqi tüfəngçilərindən ibarət bir dəstə təşkil edildi. Həmin dəstə Mənuçehr bəyin rəhbərliyi altında Usmi xanın yanına göndərildi (223).

Dərbənd qalasının tezliklə nəzarət altına alınması üçün Usmi xanın köməyinə göndərilmiş kömək bununla yekunlaşmadı. Şahın əmri ilə Məşhəd hakimi vəzifəsinə təyin edilmiş Şahnəzər bəy Təvəkküli, habelə Şahqulu sultan Bayat, Nemətulla sultan Mirsufi və digərləri də Dərbəndin alınmasına vəzifələndirildilər. Bütün bu kömək Dərbənd ətrafına yetişdikdən sonra Usmi xanla birlikdə qalanın bütünlüklə nəzarət altına alınması məsələsi bir daha müzakirə edildi. Əlində, şəhərin başlıca olaraq Narınqala hissəsi Osmanlı dəstəsini nəzarəti altında idi. Ona görə bütün qüvvələr Narınqalanın ələ keçirilməsinə istiqamətləndirildi. İç qala olan Narınqala da möhkəm və hündür divarlara malik idi və bu divarları asanlıqla aşmaq mümkün deyildi. Belə olanda əsas diqqət divarlar altından lağım atılmasına yönəldildi. Tezliklə mühasirədəkilər gördülər ki, onların vəziyyəti getdikcə mürəkkəbləşməkdədir. Qala hakimi Həsən paşa çarəsiz vəziyyətə düşərək aman diləmək yolunu tutdu. Bu məqsədlə o öz adamlarını Usmi xanın və qızılbaş əmirlərinin yanına göndərdi. Həsən paşa bildirdi ki, əgər ona və onun adamlarına və onların mallarına toxunulmazsa, onda qalanı təslim edər və sonra da şah düşərgəsinə yollanaraq şaha xidmət yolunu tutmağa hazır olduğunu bəyan edər. Qızılbaş əmirləri Həsən paşanın istəklərini Şah Abbasa çatdırdılar. Şah Abbas onun həyatına toxunulmayacağı ilə bağlı sənəd imzaladı. Dərbənddə olan qızılbaş əmirlərinə də tapşırıldı ki, Həsən paşanı sakitləşdirsinlər və onu şah düşərgəsinə yollasınlar. Həsən paşa vəd etdiyi kimi qalanı təhvil verdi və Şah Abbasın hüzuruna yollandı (224).

Bununla, Dərbənd qalası da ciddi bir çətinlik olmadan qızılbaş qüvvələrinin nəzarəti altına düşdü. Bu qala şəhərin alınması Səfəvi dövləti üçün strateji əhəmiyyət kəsb edirdi. Çünki bu qala şimaldan gələ biləcək təhlükənin qarşısının alınmasında böyük müdafiə imkanlarına malik idi. Ona görə Dərbəndin alınması Şah Abbasın rəhbərliyi altında qızılbaş qüvvələrinin əldə etdiyi tarixi uğurlardan biri idi. Şah Abbas dərhal da bu qalanın daha da möhkəmləndirilməsi, divarların bərpa edilməsi haqqında göstəriş verdi. Bu işlərin aparılması üçün ustalar toplandı, tikinti dəstəsi

yaradıldı və Qənbər bəy Silahdarbaşı da bu işlərin rəhbəri təyin edildi. Tikinti dəstəsinə Şah Abbasın verdiyi tapşırıq belə oldu: "Dənizin quru ilə bitişdiyi heyvanlar keçən bu az sulu yerdən irəli gedib heç kimin keçə bilməməsi üçün uca bir ali bürc inşa etsinlər, sonra dənizin uc tərəfinə mümkün qədər çox girib bürcün kənarınadək uzanan hündür divarı çəksinlər və onları bir-birinə birləşdirsinlər; həmin bürcdən Əlbürz dağının ətəyinədək bütün bürc və barıları təmir edib, onları elə möhkəmləndirsinlər ki, tamamilə nöqsansız olsun; o ali bürcdə və başqa bürclərdə yuxusuzluğa dözümlü mühafizəçilər yerləşdirilsin, onlar keşik və mühafizə ilə məşğul olsunlar" (225).

Şah Abbas tikinti dəstəsi qarşısında kifayət qədər çətin bir vəzifə qoydu. Onun tapşırığı ilə Dərbənd qalasının divarları dənizin dərinliklərinə doğru uzadılmalı və bununla da dənizdən kiminsə şəhərə daxil ola bilməsinin və ya adlamasının qarşısı alınmalı idi. Bu tapşırığın icrası üçün tikinti dəstəsi dəniz suyunun dərinliklərində yeni bir bürcün və divarların əsasını qoydular. Bu divar və bürc ucaldıldı və sonda da qalanın dənizə uzanan köhnə divarlarına birləşdirildi. Bununla, Dərbəndin qala divarlarının dənizə olan çıxışı xeyli uzadıldı. Dövrün çox da inkişaf etməmiş texnoloji imkanlarına görə, dəniz suları daxilində bürcün və ya divarın tikilməsi üçün əvvəlcə həmin məkanda suyun kənarlaşdırılmasına və özülün qoyulacağı məkandakı suyun məhdudlaşdırılmasına ehtiyac var idi. Şah Abbas tərəfindən təşkil edilmiş tikinti dəstəsi belə mürəkkəb bir tapşırığın öhdəsindən bacarıqla gələ bildi. Bu zaman tikinti dəstəsi maraqlı bir faktla qarşılaşmalı oldu. İsgəndər bəy Münşi bu hadisəni öz əsərində belə təsvir edirdi: "Nadir hadisələrdən biri barədə belə söyləyirlər: Bürcün inşası üçün təyin olunan yerdə memarlar, mühəndislər və təcrübəli ustadlar qəribə fənlərə əsaslanaraq bina atılan yeri sudan xalı etdilər və bürcün bünövrəsi inşa olundu. Dənizin içərisində daşdan, kərpicdən, dəmir millərdən tikilmiş bir imarətin qalıqları göründü və məlum oldu ki, qədim zamanlarda, hələ islamın zühurundan əvvəl orada əzəmətli bir bürc tikilmişdir. Dövr ötdükcə ya dövranın sədəmələri,

həmçinin suyun və tufanın zərbələri nəticəsində həmin bürc uçulub dağılmış, ya da şövkətli padşahlar və müxtəlif ölkə hökmdarları yad ləşkərin gəlib-keçməyinə mane olmaq məqsədi ilə bürcü viran etmişlər. Sonradan həmin məkanda hökmranlıq eləmiş padşahlar o bürcü təmir etmək fikrinə düşməmişlər" (226).

Şamaxı qalasının mühasirəsinin davam etdiyi günlərdə qızılbaş qüvvələri tərəfindən ələ keçirilən böyük qalalardan biri də Qars qalası oldu. Bu qala İrəvan hakimi Əmirgünə xanın fədakarlıqları nəticəsində Osmanlı qüvvələrindən təmizləndi və qızılbaş dəstələrinin nəzarəti altına düşdü. Əmirgünə xan Şamaxı qalasının mühasirəsinə cəlb edilməmişdi. O isə heç də fəaliyyətsiz dayanmadı və İrəvan ətrafında olan məntəqələrin, habelə ətraf bölgədə məskunlaşmış oymaqların və camaatın səltənət hüdudlarına cəlb edilməsi istiqamətində bir sıra addımlar atdı. Əmirgünə xan bir tərəfdən dağıdılmış İrəvan qalasının təmir və bərpasını davam etdirdi. Digər tərəfdən də etibar etdiyi nüfuzlu əmirləri və onların ətrafında olan qüvvələri İrəvanda yerləşdirdi. İrəvan qalası ətrafına da yeni oymaqlar və uluslar gətirildi və onların orada məskunlaşması və yaşayışı üçün lazımi şərait yaradıldı. İrəvanın abadlaşdırılması üçün Əmirgünə xan hətta səltənətin daxili əyalətlərindən də xeyli sayda qızılbaş camaatını şəhər ətrafına köçürə bilmişdi. Əmirgünə xan İrəvan vilayəti daxilində əkin-biçin işlərinin aparılmasına da Şah Abbasdan icazə ala bilmişdi. Osmanlı dövləti ilə başlanan müharibənin hələ başa çatmadığı bir vaxtda Şah Abbas Osmanlı qoşunlarının keçə biləcəyi yerlərdə əkin-biçin aparılması və abadlıq işlərinin görülməsi ilə razı deyildi. İrəvan da Osmanlı qoşunlarının Azərbaycana hərəkə marşrutu üzərində yerləşirdi. Burada becərilən məhsul Osmanlı qoşunlarının əlinə keçə bilərdi. Əmirgünə xan isə şahdan xahiş etdi ki, təsərrüfat işlərinin aparılmasına razılıq versin. Onun fikrincə, becərilən məhsul yetişəndən sonra Osmanlı qoşunlarının İrəvan ətrafından keçmək təhlükəsi olacağı halda toplanmış məhsulu məhv etmək elə də çətin deyildi. Bu təhlükənin olmayacağı halda isə əldə edilmiş məhsulu qoşun dəstələrinin təminatına yönəltmək olardı. Şah Abbas da bu

xahişi qəbul etdi və İrəvan ətrafında əkin işlərinin aparılmasına icazə verdi (227).

Əkin-biçin işlərinə icazə verilməsi İrəvan ətrafında, gözdən uzaq yerlərdə məskunlaşmış insanların da üzə çıxmasına və fəallaşmasına səbəb oldu. Nəticədə 1605-ci ilin yayında və payızında İrəvan ətrafındakı əkin yerlərindən xeyli məhsul götürmək mümkün oldu. Həmin il Osmanlı qoşunlarının İrəvan ətrafından keçməməsi isə həmin məhsulun bütünlüklə toplanmasına və anbarlara yığılmasına imkan verdi. Əmirgünə xan yalnız təsərrüfat işlərini nizamlamadı. O, eyni zamanda yaxın ərazilərdə Osmanlı nəzarəti altında olan qala və məntəqələr üzərinə də hücumlar təşkil etdi. Əmirgünə xanın üz tutduğu ilk məntəqə İrəvanla Qars arasında yerləşən Məğazird qalası oldu. Bu qalada olan Osmanlı qarnizonu İstanbuldan əlavə kömək almadığı halda Əmirgünə xanın günü-gündən fəallaşmasının şahidi olurdu. İrəvan hakiminin qoşun dəstəsi artıq Məğazird qalası ətrafındakı ərazilərə də ayaq açmışdı. Bu da Məğazirddəki Osmanlı mənsublarının vəziyyətini günü-gündən çətinləşdirirdi. Bir müddət qala daxilindəkilər qala divarlarına sığınaraq özlərini mühafizə etdilər. Amma bu da onları xilas etmədi. Çünki Əmirgünə xanın dəstəsinin təhlükəsi hər gün artmaqda idi. Belə bir durumda qala daxilindəkilər Qars və Ərzrumdan da hər hansı bir kömək ala bilmirdilər. Çıxış yolu tapa bilməyən qala mühafizəçiləri öz adamlarını Əmirgünə xanın yanına göndərdilər və onlar Səfəvi hakimiyyətini qəbul etməyə hazır olduqlarını bildirdilər. Əmirgünə xan onların xahişini qəbul etdi. Qarşılıqlı razılaşma əldə ediləndən sonra qala hakimi Əli bəy və onun ətrafında birləşənlər Əmirgünə xanın yanına gəldilər. Səfəvi hakimiyyətini qəbul etmək istəməyənlər isə qalanı tərk edib özlərinə sığınacaq axtarmağa başladılar. Sonradan Əmirgünə xan Məğazird qalasının nümayəndələrini Şah Abbasın hüzuruna göndərdi. Şah Abbas onları mehribanlıqla qarşıladı, hər birinə məvacib təyin etdi və Əmirgünə xanın yanında xidmətə qəbul etdi (228).

Məğazird qalasından sonra Becənkürd qalası da qızılbaş dəstələrinin nəzarəti altına gətirildi. Bu qala əvvəllər Çuxursəəd vila-

yətinə məxsus idi və sonradan Osmanlı qüvvələrinin nəzarəti altına düşmüşdü. Həmin qalanın mühafizəçiləri də İstanbul sarayının diqqətindən kənarda qalmışdı. Qala müdafiəçilərinə çox az məvacib verilirdi. Bu da onların heç xərclərini ödəmirdi. Qızılbaş qoşunlarının ətrafdakı fəallaşmalarını görəndə Becənkürd qalasının mühafizəçiləri yaxınlaşmaqda olan təhlükədən nicat tapmaq üçün özləri qalanı tərk etdilər. Əmirgünə xanın qoşun dəstələri heç bir müqavimətə rast gəlmədən Becənkürd qalasını da nəzarət altına gətirdilər (229).

Qars qalasında yerləşmiş Osmanlı qarnizonu üzvləri görəndə ki, qızılbaş dəstələri addım-addım yaxınlaşmaqdadır, onda onlar bu təhlükəni önləmək üçün hərəkətə keçmək qərarına gəldilər. Qars qalasındakı dəstə əvvəlcə Ərzrum hakimindən kömək istədi. Ərzrum qalasından elə də böyük olmayan bir dəstə Qars qalasındakıların köməyinə gəldi. Nəticədə üç yüz nəfərlik bir dəstə alındı və bu dəstə İrəvana doğru hərəkətə başladı. Yəni Qars dəstəsi Əmirgünə xanın rəhbərliyi altında olan qızılbaş dəstəsinə zərbə vurmaqla bölgədə hərbi təşəbbüsü də əlinə almaq istəyirdi. Lakin Qarsdan hərəkətə başlayan dəstə bu istəyinə nail ola bilmədi. Belə ki, bu dəstə Məğazird qalası yaxınlığında Əmirgünə xanın dəstəsi ilə qarşılaşdı. Əmirgünə xanın dəstəsi Osmanlı dəstəsi ilə qarşılaşacağını ehtimal etmirdi. Ona görə də dəstənin döyüş üçün toparlanmasına bir xeyli vaxt keçdi. Bununla belə, qızılbaş dəstəsi böyük ümidlə irəli atılan qarslılara ağır zərbə vurdu. Qars dəstəsindən yüzə yaxın döyüşçünün qətlə yetirildiyi bildirilir. Qalanlar isə geri qayıdaraq Qars qalasına sığındılar. Qars qalasının mühafizəçilərinə ağır zərbə vurulması barəsində xəbər Şamaxı ətrafında düşərgə salmış Şah Abbasa da çatdırıldı. Şah Abbas Əmirgünə xan dəstəsinin bu əzmkarlığını təqdir etdi və həmin döyüşdə fərqlənənləri qiymətli hədiyyələrlə mükafatlandırdı (230).

Qars qalası iki dövlət arasında yerləşməklə bir müddət neytral ərazi kimi tanınmışdı. Sərhəd xəttində yerləşdiyindən bu qala hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edirdi. Bu qala hər iki səltənət hüdudları üçün başlanğıc nöqtəsi idi. Səfəvi səltənəti üzərinə

hücum niyyətinə düşən Osmanlı sarayı ilk növbədə Qarsda möhkəmlənməklə öz hücumunu genişləndirə bilərdi. Səfəvi dövləti üçün isə Osmanlı təhlükəsindən qorunmaq üçün bu qalada möhkəmlənmək zərurət kəsb edirdi. 1555-ci ildə Amasiya sülh anlaşması əldə ediləndə Osmanlı sarayı ilə Səfəvi sarayı tərəfindən qarşılıqlı razılaşdırıldı ki, Qars qalası uçurulub dağıdılsın və bu qala tərəflərdən heç birinə məxsus olmasın. Ona görə də Qars qalası dağıdılmışdı. Iki dövlət arasında Amasiya sülh anlaşması qüvvədə olduğu vaxt Qars qalası uçurulmuş vəziyyətdə idi və tərəflərdən heç biri bu qalanı ələ keçirməyə tələsmirdi. Amasiya sülh anlaşması pozulandan sonra isə Osmanlı sarayı Qars qalasının təmirinə başladı. Qala təmir və bərpa ediləndən sonra ora Osmanlı qarnizonu yerləşdirildi, ətraf bölgələrdən də əhali bu qala ətrafına gətirildi ki, Qars qalasında və ətrafında həyat yenidən canlanmağa başlasın. Əmirgünə xan Qars qalası ətrafında fəallaşmağa başlayanda bu qala artıq otuz ilə yaxın idi ki, Osmanlı qüvvələrinin nəzarəti altında idi (230).

Qızılbaş qüvvələri Azərbaycan ərazilərini Osmanlı qüvvələrindən təmizləməyə başlayanda Qars vilayətinə aid olan məntəqələrə basqınlar edilmiş, vilayət məskənləri dağıdılmışdı. Bu basqınlar Osmanlı qüvvələrinin Azərbaycan istiqamətində hərəkətinin çətinləşdirilməsinə hesablanmışdı. Əmirgünə xanın bu qala üzərinə hücumu ərəfəsində Osman paşa adlı birisi oranın hakimi idi. Amma Qars qalasının və ətrafının həyatı pozulduğu üçün Osman paşanın orada rahat yaşayışı yox idi. Ona görə də o, Qarsı tərk edib Ərzruma yollandı. Qala sakinləri isə başsız və köməksiz qaldı. Ümid edilənlərin əksinə olaraq Ərzrumdan Qarsa hər hansı bir kömək göstərilmədi. Yuxarıda qeyd edildiyi kimi, Qars mühafizəçiləri İrəvanın qızılbaş dəstəsi tərəfindən gözlənilən təhlükənin aradan qaldırılması üçün göstərdiyi cəhd isə bir nəticə vermədi. Əksinə, İrəvan dəstəsi ilə döyüşdə baş verən uğursuzluq Qars əhalisinin və eləcə də Qarsda olan Osmanlı qoşun dəstəsinin vəziyyətini daha da pisləşdirdi. Çoxları Qars qalasını tərk edərək daha münasib ərazilərə köç etdilər. Qarsın özündə isə mühafizəçilər, onların xid-

mətçiləri, yerli sakinlər cəmi iki-üç yüzdən artıq deyildi. İrəvan hakimi Əmirgünə xan yaxın ətrafda Osmanlı qoşunlarının nəzarəti altında olan məntəqələri azad etməyə başlayanda, Qarsa da qoşun çıxarmaq qərarına gəldi. Əslində, Əmirgünə xan bu qalanın nəzarət altına alınması üçün hər hansı bir müqavimətlə rastlaşmadı. Qızılbaş dəstəsinə Qars qalasında müqavimət göstərə biləcək bir qüvvə də qalmamışdı. Əmirgünə xan öz dəstəsi ilə yaxınlaşanda qala əhli onun yanına öz adamlarını göndərdilər və Səfəvi hakimiyyətini qəbul etməyə hazır olduqlarını bildirdilər. Bu təklif Əmirgünə xan tərəfindən qəbul edildi və Qars əhalisinə qarşı hücumdam imtina edildi. Qars əhalisi bütünlüklə İrəvana köçürüldü. Qalada olan toplar, zərbzənlər, digər silah və sursatlar da İrəvana daşındı. Bundan sonra Qars qalası yenidən uçurulub yerlə bərabər edildi. Qars qalasının məsələsi bütünlüklə həll edildikdən sonra bu barədə Şah Abbasa da məlumat göndərildi (231).

### 9. Şah Abbasın Azərbaycan yürüşünün başa çatması

Osmanlı qüvvələrindən təmizlənən Şamaxı şəhərində qızılbaş qüvvələri böyük sayda qənimətlər ələ keçirdilər. Bu qənimətlərə böyük maliyyə vəsaitləri daxil idi. Bundan başqa 150 ədəd böyük çaplı top, 500 ədəd kiçik çaplı top və 8 min ədəd dayandoldurum tüfənglər də qənimət kimi götürüldü (232).

Şamaxı şəhərinin ələ keçirilməsi ilə bütün Şirvanın yenidən Səfəvi hüdudlarına qaytarılması başa çatdırıldı. Geri qaytarılmış şəhərlərin və vilayətin idarəçilik işləri sahmana salındıqdan sonra Şah Abbas geri qayıtmaq hazırlıqlarının görülməsi üçün göstəriş verdi. Bu məqsədlə şah tərəfindən Əli xan Cavanşir Cavada göndərildi ki, orada qoşunların adlaması üçün Kür çayı üzərində körpü qursun. Əli xan da onun ixtiyarına verilmiş tikinti dəstəsi ilə Cavada yollandı və qısa müddət ərzində orada etibarlı bir körpünün hazırlanmasına başa çatdırdı. Kür çayı üzərində körpünün tikintisi başa çatdıqdan sonra qoşunlara geri qayıtmaq işarəsi verildi. Qoşunlar bütün yükləri ilə birlikdə Əhər yolu ilə Təbrizə doğru

istiqamət götürdülər. Şah Abbas isə bir neçə yaxın adamları və xidmətçiləri ilə birlikdə Ərdəbilə yollandı. O bu şəhərdə ulu əcdadı Şeyx Səfiəddinin məzarını ziyarət etdi və bir neçə gün orada dua və ibadətlə məşğul oldu. Şah Abbas Təbrizdən Dərbəndə qədər uzanan hərbi yürüş zamanı əldə edilən uğurlara və keçmiş Səfəvi torpaqlarının yenidən səltənət hüdudlarına qaytarılmasına görə yaradana uzun-uzadı dualar etdi. Ulu əcdadların məzarlarının ziyarəti bir neçə gün çəkdi və bu mərasimdən sonra Şah Abbas Təbrizə yollandı. Burada Şah Abbas bir müddət Azərbaycanın idarəçilik işlərinin sahmana salınması ilə məşğul oldu, əmir və əyanları narahat edən məsələləri həll etdi, sərhəd təhlükəsizliyinin təmin edilməsi məsələləri ilə maraqlandı. Şah Abbas Təbrizdə olarkən bir sıra vilayətlərin hakimləri onun qəbuluna gəldilər, Şirvan yürüşünün uğurla başa çatdırılması münasibətilə ona təbriklərini və qiymətli hədiyyələrini çatdırdılar (233).

Təbrizdə olarkən yeni vəziyyəti nəzərə almaqla Osmanlı dövləti ilə yeni bir sülh anlaşmasının imzalanması söhbətləri ortaya çıxdı. Belə bir təklif Şah Abbasa onun həbsdən azad etdiyi Xəndan ağa adlı birisi tərəfindən edildi. Xəndan ağa Krım xanı Qazi Gəray xanın yaxın dostlarından biri idi. O, Cığaloğlunun Azərbaycan üzərinə yürüş başladığı zaman Osmanlı ordusunun tərkibində idi. Van ətrafında baş verən döyüş zamanı Xəndan ağa və onun iki oğlu qızılbaş qoşunları tərəfindən əsir götürülmüşdü və Qəhqəhə qalasında saxlanılırdı. Krım xanının xahişi əsasında Şah Abbas onu həbsdən azad etdi. Xəndan ağa kifayət qədər ağıllı və təcrübəli bir insan idi və Şah Abbasın hüzurunda olarkən Krım xanı ilə birlikdə yeni sülh anlaşmasının əldə edilməsi üçün Osmanlı sarayında vasitəçi olmağa hazır olduğunu bildirdi. Şah Abbas da Şah Təhmasibin hakimiyyəti dövründə Osmanlı sarayı ilə əldə edilmiş sülh anlaşması şərtləri çərçivəsində yeni bir sülh anlaşmasının əldə edilməsinə meylli olduğunu nümayiş etdirdi. Bundan sonra Xəndan ağa yola salındı. Xəndan ağa Krıma yetişdikdən sonra Krım xanı ilə sülh məsələsini müzakirə etməli və Osmanlı sarayına nümayəndə heyəti göndərilməli idi. Xəndan ağa yolda

olduğu zaman Krım xanı dünyasını dəyişdi. Xəndan ağa isə çərkəzlərin yaşadığı bölgədə yerli hakimlər tərəfindən qətlə yetirildi. Bununla da, Xəndan ağanın Osmanlı sarayı ilə sülh əldə edilməsinə vasitəçilik cəhdi sona çatdı (234).

Təxminən beş il davam edən hərbi yürüşlər nəticəsində əldə edilən çoxsaylı uğurlar münasibətilə Təbriz şəhərində qoşunların sıra baxışı təşkil edildi. Bu sıra baxışının keçirilməsinə Şah Abbas özü göstəriş verdi. Belə bir sıra baxışının keçirilməsi şah qoşunlarının əzəmətli qələbələrinə verilən qiymət demək idi. Sıra baxışı həm də beş il davam edən hərbi yürüşdə qızılbaş qoşunlarının şücaətinə, fədakarlığına və mübarizliyinə şah ehtiramının nümayişi demək idi. Şah Abbas nəzərdə tutmuşdu ki, bu sıra baxışı zamanı qızılbaş əmirlərinə, qoşun əhlinə göstərdikləri qətiyyət və əzmkarlığa görə öz ehtiramını bəyan etsin və sonra da vilayət qoşunlarına öz yerlərinə qayıtmağa icazə versin. Belə bir sıra baxışı keçiriləndən sonra qoşun dəstələri istirahət üçün öz vilayətlərinə getmək icazəsi aldılar: “Təbrizdə əsgərlərin rəsmi-keçidinə (san) yollanmış əzəmətli əmirlər və dövlət başçıları həmin işi yerinə yetirmiş, müzəffər ləşkər əsgərlərinin adlarını bir-bir siyahıya almışdılar. Bu beş il müddətində hümayun məiyyətdən qətiyyən aralanmayan və həmişə səadətli ordunun mülazimi olan bir dəstə adam, habelə bu səfərdə igidliklər və gözəl xidmətlər göstərən min nəfər şəxs özlərinin xidmətkarlıqları və sədaqətləri baxımından başqalarından fərqlənməkdən ötrü qiymətli hədiyyələrlə şərəfraz oldu, onlar üçün sənədlər yazılıb əzəmətli müstövfilərə verildi. Döyüşçülər icazə alıb öz məskən və yerlərinə getdilər, hər bir əzəmətli əmir isə öz tiyul və iqtalarına yollandı” (235).

Şah Abbas isə Təbrizdən Məşhədə istiqamət götürdü. O qazandığı böyük uğurları yaradanın lütfü və imamların şəfaətinin nəticəsi hesab edirdi. Ona görə də Şah Abbas ağır hərbi yürüşün yorğunluqlarını çıxmamış əvvəlcə Məşhədə yollanmağı və orada yaradana və imamların ruhuna dualar etməyi vacib saydı. Şah Abbas öz ətrafı ilə əvvəlcə Qəzvinə gəldi, bir neçə gün orada istirahət etdi və sonra da Məşhədə yollandı. Məşhəd ziyarətini də başa

vurduqdan sonra Şah Abbas səltənət paytaxtı olan İsfahana istiqamət götürdü. Şah Abbas bir müddət dövlət işlərinin nizamlanması ilə məşğul oldu. Həmin günlər ərzində o həm də istirahət etdi. Bir neçə gündən sonra Şah Abbas saray əyanlarını, mənsəb sahiblərini İsfahanda saxlayıb özü Mazandarana yollandı. Mənbə məlumatlarına əsasən, Şah Abbas 1607-ci ilin qışını və yazını Mazandaranda oldu. Mazandaranın səfalı təbiəti Şah Abbasın xoşuna gəlirdi. Ona görə də, Şah Abbas həm bu vilayətin səfalı yerlərini seyr etdi, həm də ov mövsümü zaman ov mərasimləri təşkil etdi. Şah Abbas bu vilayətdə yalnız özü üçün xoş günlər keçirmədi, həm də vilayət insanlarının həyatının xoşluqla keçməsi üçün lazım olan qərarları qəbul etdi (236).

Şah Abbas 1607-ci ilin yazında Mazandaranı tərk edib İsfahana doğru hərəkətə başladı. Təbiətin gözəl günləri olduğu üçün Şah Abbas yol üstündə yerləşən Kehizələng və Fəridun yaylaqlaında da istirahətə dayanmağı qərara aldı. Bu yaylaqlarda olduğu zaman Şah Abbas Bağdadda qarışıqlıqlar yaranması və həmin şəhərin də nəzarət altına alınması üçün münasib fürsət yaranması barəsində məlumat aldı. Bağdad daxilində baş verən qarışıqlıqlar əslində, yerli hakimlərin və onların tərəfdarlarının arasında baş verən çəkişmələrdən qaynaqlanırdı. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbasın hakimiyyətinin əvvəllərində bu şəhərin hakimi olan Uzun Həsən adlı birisi ilk vaxtlar özünü Səfəvi hakimiyyətinə meylli kimi göstərirdi. Sonradan isə o öz fikirlərindən döndü. Onun dünyasını dəyişməsindən sonra Bağdad və ətrafı onun övladları arasında bölündü və onların hakimliyi Osmanlı sarayı tərəfindən də tanındı. Bağdad şəhəri Məhəmməd paşaya, Hillə sancağı isə onun qardaşı Mustafa paşaya həvalə edildi. Amma Məhəmməd paşa Bağdadın idarəçiliyini bütünlüklə öz əlində toplaya bilmədi. Yaxın ətrafı onun idarəçiliyindən narazı idi və ona görə də onu tezliklə qətlə yetirdilər. Bu sui-qəsddə iştirak edən əmir və əyanlar Mustafa paşanın yanına yollanıb onu Bağdada dəvət etdilər. Osmanlı sarayı isə Mustafa paşa tərəfindən Bağdad hakimliyinin ələ keçirilməsini qəbul etmədi. Ona görə Mahmud ağa Cığaloğlu yeni

Bağdad hakimi təyin olundu və qoşun dəstəsi ilə birlikdə Bağdada göndərildi. O da tabeliyində olan qoşunla Bağdad ətrafına gəldi. Yeni hakimin gəlişi xəbərini alanda Mustafa paşanın ətrafındakı insanlar Mahmud paşa ilə əlaqə yaratdılar və onun hakimliyini qəbul etdiklərini bildirdilər. Belə olanda Mustafa paşa çətin vəziyyətə düşdü və yerli əyanların dəstəyindən məhrum oldu. Mustafa paşa Bağdadın Narınqalasında ona sədaqətli qalan insanlarla müdafiəyə çəkildi və Şah Abbasa müraciət etmək qərarına gəldi. Bağdadda olan Bayram xan adlı bir qızılbaş əyanı Mustafa paşanın məktubu ilə Şah Abbasın hüzuruna göndərildi. Mustafa paşa bu məktubda Şah Abbasa məlumat verirdi ki, onun tərəfindən bir qızılbaş dəstəsi Bağdada göndərilərsə, Bağdadı həmin dəstəyə təslim edə bilər. Yəni Mustafa paşa Şah Abbasa itaət etməyə hazır olduğunu bildirirdi (237).

Mustafa paşa eyni zamanda Səfəvi dövlətinin qərb sərhədi boyunca yerləşən vilayət hakimlərinə də məktublar göndərdi və onlardan da kömək istədi. Bu xahişə cavab kimi, Əlişəkər bəylərbəyi rəhbərliyi altında olan qoşun dəstəsi ilə Mahidəşt çayı kənarına gəldi. Amma o, sərhədi keçmədi və gözlədi ki, Mustafa paşanın məktubuna Şah Abbas tərəfindən hansı cavab veriləcəkdir. Mustafa paşanın məktubu Şah Abbasa İsfahana doğru hərəkət zamanı Fəridun yaylağında olarkən çatdırıldı. Bağdadın yenidən nəzarət altına gətirilməsi imkanı Şah Abbas tərəfindən maraqla qarşılandı və onun tərəfindən Mustafa paşaya ümidverici bir cavab göndərildi. Həmin cavabda deyilirdi: “Qoy öz işində mərdanə olsun, qalanı qorumağa çalışsın ki, tezliklə hümayun fallı şah məiyyəti qələbə və iqballa gəlib çatacaqdır” (238).

Şah Abbas eyni zamanda sərhəd bölgəsindəki vilayət hakimlərinə də öz əmrini göndərdi və onlardan tələb etdi ki, Bağdad üzərinə yürüşə hazır olsunlar. Şah qoşunları sərhəd bölgəsinə gəlməmişdən qabaq vilayət dəstələri Bağdad üzərinə hərəkətə başlamalı idilər. Şah Abbas tərəfindən Mustafa paşanın dəstəklənməsi, şah qoşunlarının Bağdad istiqamətində hərəkətə başlayacağı xəbərinin gəlməsi Mahmud paşa Cığaloğlunu bir qədər təşvişə

saldı və şah qoşunlarından ehtiyatlanaraq Bağdad şəhəri üzərinə hücum etməyə və bu şəhərə hakimliyi ələ almağa cəsarət etmədi. Qızılbaş hərbi köməyi yetişməzdən əvvəl Mahmud paşa Cığaloğlu böyük bir kömək aldı. Onun köməyinə yeni bir qoşun dəstəsi gələndən sonra Osmanlı qüvvələri Bağdad üzərinə hücum etdi. Mustafa paşa ağır bir duruma düşdü. Çünki onun üzərinə hücuma keçən osmanlı qüvvələrinin qarşısını almağa yetərli olan gücə malik deyildi. Mustafa paşa qala daxilində müdafiə imkanlarına malik olsa da, çətin duruma düşdüyünü özü də anladı. Bununla belə, Mustafa paşa bir neçə gün müqavimət göstərə bildi. Həmin günlər ərzində onun köməyinə qızılbaş qoşun dəstəsi də yetişdi. Qızılbaş dəstəsinin gəlib çıxması Mustafa paşanın gücünü bir qədər artırdı. Bununla belə, Mustafa paşa uzun müddət Osmanlı qüvvələrinə müqavimət göstərə bilməyəcəyini də bilirdi. Ona görə Mustafa paşa öz elçilərini Mahmud paşa Cığaloğlunun yanına göndərdi və ona sülh təklif etdi. Mustafa paşa bildirdi ki, Osmanlı sultanı tərəfindən Hillə hakimliyi ona verilmişdir. O, Mahmud paşaya çatdırdı ki, indiki halda Hillənin hakimi olmağa və Bağdadı təhvil verməyə razıdır. Mahmud paşa bu təkliflər razılaşdı. Qarşılıqlı razılaşma əldə ediləndən sonra Mustafa paşa Bağdadı təhvil verərək Hilləyə yollandı və Bağdadı Mahmud paşaya təhvil verdi. Bağdad ətrafında cərəyan edən bu proseslər çox sürətlə cərəyan etdiyindən Şah Abbas qoşunları ilə gəlib o bölgəyə yetişə bilməmişdi. Bağdadın Mahmud paşaya təhvil verilməsi xəbəri Şah Abbasa Həmədan ətrafında olduğu zaman çatdırıldı. Şah Abbas bir neçə gün Həmədan ətrafında qaldı və bölgənin idarəçilik işlərinin sahmana salınması ilə məşğul oldu. Eyni zamanda, Şah Abbas havaların kifayət qədər isti olduğu bir vaxtda qoşunların Bağdad üzərinə yürüşü məsələlərinə də vaxt ayırdı. Bu yürüşün həyata keçirilməsi ərəfəsində cəlalilərin səltənətə pənah gətirməsi xəbəri alındı. Bununla əlaqədar Bağdad yürüşü təxirə salındı (239).

## 10. Cəlalilər hərəkatı və onun Osmanlı-Səfəvi münasibətlərinə təsiri

Cəlalilər 1595-ci ildə taxta çıxmış Sultan III Məhəmmədin hakimiyyəti dövründə Osmanlı ərazisində meydana gəlmiş bir üsyançı hərəkat idi. Bu hərəkata Qara Yazıçı adlı birisi rəhbərlik edirdi. Qara Yazıçı öz ətrafına bir dəstə toplayaraq hakimiyyət qaydalarına tabe olmur, talançılıq və soyğunçuluqla məşğul olurdu. Qanunsuz yolla böyük sərvət toplamaq imkanı tezliklə Qara Yazıçının ətrafına yığışan insanların sayanı xeyli artırdı. Qısa bir zamandan sonra onların sayı beş min nəfərə çatdı. Bu insanlar talan və soyğunçuluqla məşğul olmaq üçün kifayət qədər silaha da malik idilər. Onlar hətta ayrı-ayrı vilayətləri talanlara məruz qoyur və bununla öz sərvətlərini də artırırdılar. Bu üsyançı hərəkat sonradan Cəlali hərəkatı adı aldı. Cəlali hərəkatının genişlənməsi Osmanlı dövlətinin müəyyən qədər zəiflədiyi bir dövrə təsadüf edirdi. Ona görə də sıraları genişlənmədə olan cəlalilərin qarşısının alınması üçün yetərli sayda qoşun da ayırmaq mümkün olmurdu. Bir müddət sonra Qara Yazıçı dünyasını dəyişdi və üsyançılar dəstəsinə rəhbərlik onun qardaşı Həsən bəyin əlinə keçdi. İsgəndər bəy Münşinin yazdığına görə, Həsən bəy kifayət qədər qorxmaz, təcrübəli və şücaətli bir insan idi. Osmanlı sarayının fəaliyyətsizliyi şəraitində Həsən bəy də qorxmaz bir insan kimi səltənət daxilində ad qazanmışdı. Həsən bəy qardaşından fərqli olaraq ticarət karvanlarının soyulmasına xüsusi diqqət yetirmirdi. Amma Həsən bəy Osmanlı məmurlarına, qoşun əhlinə qarşı qəddarlıq nümayiş etdirirdi. Onun qarşısına çıxan Osmanlı döyüşçüləri və əyanları canlarını salamat qurtarmazdılar. Cəlalilər hərəkatı elə geniş bir vüsət almışdı ki, hətta vilayət hakimləri də bu hərəkatdan çəkinməyə başlamışdılar. Bəzi vilayətlərin hakimləri Həsən bəyə hədiyyə və töhfələr göndərməklə özlərini talanlardan qoruyur, bəziləri isə çıxış yolunu qalalara sığınmaqda görürdülər. Həsən bəyin ətrafında artıq on-on beş min nəfərlik bir silahlı dəstə toplanmışdı ki, onlar hamısı silahlı və döyüş təcrübəsinə malik insanlar

idi. vilayət hakimləri belə bir qüvvəyə qarşı çıxmağa cürət etmirdilər (240).

Həsən bəyin ətrafında toplanan soyğunçu və talançı dəstənin mövcudluğu və əməlləri sözsüz ki, ətraf vilayətlərin hakimlərini, əmir və əyanlarını narahat edirdi. Sultan sarayının fəaliyyətsizliyi vaxtı bu yerli hakimlər, əmirlər və paşalar öz qüvvələrini birləşdirərək Həsən bəyin dəstəsini dağıtmaq qərarına gəldilər. Həsən bəy bundan xəbər tutub həmin hakimlərin, paşaların üstünə hücum etdi, onlara zərbə vurmaqla var-dövlətlərini də əllərindən aldı. Həsən bəyin bu əməli nəhayət ki, Osmanlı sarayını da hərəkətə gətirdi və Xosrov paşa adlı bir sərdarın rəhbərliyi altında böyük bir qoşun dəstəsini Həsən bəyin dəstəsi üzərinə göndərdi. Bu qoşun dəstəsi də Həsən bəy dəstəsinin öhdəsindən gələ bilmədi və Xosrov bəy döyüş meydanından qaçıb uzaqlaşmaqla canını ölümdən qurtara bildi. Bundan sonra Osmanlı sarayının qərarı ilə Nəsən bəy üzərinə daha böyük bir qoşun dəstəsi göndərildi. Həsən paşa adlı birisi həmin dəstənin rəhbəri təyin edildi. Həsən paşanın dəstəsinə bir neçə vilayətin hakimləri və onların qoşun dəstələri də qoşuldu. Toqat yaxınlığında Osmanlı qoşunları ilə Həsən bəyin dəstəsi arasında gərgin bir döyüş baş verdi. Həsən bəy bu dəfə Osmanlı qoşunlarının gücünə laqeydlik nümayiş etdirdi. Onun gümanında, cəlalilər dəstəsi bu dəfə də döyüşdə uğur qazana biləcəkdi. Ona görə də Həsən bəy özü döyüşə yollanmadı və qoşuna rəhbərliyi dəstə əmirlərinə tapşırdı. Lakin Osmanlı saray qoşunları bu döyüşdə uğur əldə etdilər, cəlalilər dəstəsinə ağır bir zərbə vuruldu, bu hərəkata məxsus olan qoşun əhlinin çox böyük hissəsi Həsən paşanın rəhbərliyi altında olan saray qoşunları tərəfindən məhv edildi (241).

Qeyd etmək lazımdır ki, bununla heç də Cəlali hərəkatına son qoyulmadı. Həsən bəy Toqatı tərk edib qaçsa da, sonradan öz adamlarını yenidən toparlaya bildi və Cəlali hərəkatı yenidən Osmanlı hüdudları daxilində öz çevrəsini genişləndirdi. Dəfələrlə Osmanlı dövlətinin tanınmış sərkərdələrinin rəhbərliyi altında cəlalilərin üstünə qoşun göndərildi. Hər dəfə də saray qoşunları

uğursuzluğa düçar oldular. Osmanlı taxtına çıxmış Sultan Əhmədin hakimiyyəti illərində də bu hərəkat qalmaqda davam edirdi. Cəlali hərəkatının rəhbəri Həsən bəyin dünyasını dəyişməsindən sonra Canpolad adlı birisi bu hərəkata rəhbərliyi öz üzərinə götürdü. Yalnız 1607-ci ildə bu hərəkatın mövcudluğuna son qoymaq mümkün oldu. Cəlalilər üzərinə göndərilmiş olan İbrahim paşanın rəhbərliyi altındakı 20 min nəfərlik qoşun dəstəsi əvvəlcə cəlalilərlə döyüşdə uğursuzluğa düçar oldu. Lakin İbrahim paşa sonradan qüvvələri toparlayaraq cəlalilərə ağır zərbə endirə bildi.

Döyüşdən çıxmağa müvəffəq olan Cəlali dəstələri özlərini Səfəvi sərhədlərinə yetirdilər. Osmanlı qoşunları isə Səfəvi sərhədini adlamağı lazım bilməyərək cəlalilərin təqibini davam etdirmədilər. Cəlalilərin geri qayıtmaq yolu olmadığından Səfəvi dövlətinə sığınmaq qərara alındı. Bu məqsədlə onlar öz adamlarını Əmirgünə xanın yanına göndərdilər. Onun razılığı ilə cəlalilər dəstə-dəstə İrəvana yollandılar. Bu dəstələr İrəvan ətrafında toplandıqdan sonra Əmirgünə xan məsələ barəsində Şah Abbasa da məlumat göndərdi. Bundan sonra cəlalilərin rəhbərləri Şah Abbasa da məktub göndərdilər. Həmin məktubda şah hakimiyyətinə itaət və sədaqət bəyan edildi və ondan Səfəvi hüdudlarında sığınacaq istənildi. Şah Abbas cəlalilərin nümayəndələrini mehribanlıqla qarşıladı, onları qiymətli hədiyyələrlə mükafatlandırdı. Qərara alındı ki, şah sarayı tərəfindən bir nəfər cəlalilərin yanına göndərilsin və həmin adamın müşayiəti ilə cəlalilərin rəhbərləri Şah Abbasın hüzuruna gələrək ona öz itaətlərini bildirsinlər (242).

Cəlali rəhbərlərini birbaşa yanına dəvət etməməkdə Şah Abbas müəyyən ehtiyatlılıq nümayiş etdirirdi. Kifayət qədər döyüş təcrübəsinə malik olan cəlalilərdən Osmanlı qoşunların qarşı istifadə olunması mümkün idi. Lakin Şah Abbas ilk növbədə bu insanların məqsəd və məramlarını dərindən araşdırmaq istəyirdi. Ona görə də Şah Abbas cəlalilərin yanına təcrübəli və tədbirli bir əmirin göndərilməsini məqsədəuyğun saydı. Bu seçimində o, etimadüddövlə Hatəm bəy Ordubadinin üzərində dayandı. Şah Abbasın "aləmi bəzəyən rəyi belə oldu: "Bu il cəlalilər ləşkərinin Azərbay-

can vilayətində qışlamasını müəyyənləşdirmək və Məhəmməd paşanı sərdarları ilə orduya gətirmək üçün ağıl və tədbirlə bəzənmiş, qorxmazlıq, səxavət və şücaətlə zinətlənmiş bir dərgah üzvünü onların yanına göndərsin". Hər bir əmir, dövlət başçısı və əyanını diqqətlə öyrənən alicənab həzrət şah yuxarıda sadalanan cəhətləri özündə birləşdirən və bütün zahiri və mənəvi dəyərlərə malik olan Asəf məqamlı Hatəm bəy Ordubadini bu vəzifəni yerinə yetirməyə layiq bilib, həmin xidmətin icrasına yolladı" (243).

Hatəm bəy Ordubadi cəlalilərlə görüşərək onların məqsəd və məramlarını aydınlaşdırmalı və onların Səfəvi hüdudlarında qalması məsələsini nizamlamalı idi. İsgəndər bəy Münşi də şah tərəfindən onun sərəncamına verildi və o da cəlalilərlə görüşə göndərildi. Zəncan hakimi olan Ağa sultan Müqəddəm də cəlalilərin məsələlərinin həlli ilə ağlı Hatəm bəyə kömək etməli idi. Əlavə olaraq Hatəm bəyin rəhbərliyi altına bir sıra qorçular və qulamlar da verildi. Lazımi tapşırıqları alandan və hazırlıq işlərini görəndən sonra Hatəm bəy şah düşərgəsindən ayrılaraq Təbrizə yola düşdü (244).

Cəlalilər Əmirgünə xanın tapşırığı ilə Üçkilsə yaxınlığında qarşılandılar. Onların qarşılanması üçün Əmirgünə xan tərəfindən xüsusi dəstə göndərildi. Cəlalilər elə Üçkilsədə də yerləşdirildilər. Dərhal da onların dolanışığı üçün lazım olan tədbirlər həyata keçirildi. Əmirgünə xanın göstərişi ilə cəlalilərin şərəfinə Üçkilsədə böyük bir ziyafət verildi. Bunun üçün qala xaricində, düzənlik bir meydanda çadırlar quruldu, yerə xalçalar sərildi. Əmirgünə xan bu ziyafətdə ev sahibi kimi iştirak etdi və orada cəlalilərin rəhbərləri ilə də görüşdü. Həmin görüşdə Əmirgünə xan cəlalilərin rəhbərlərinin nəzərinə çatdırdı ki, şahın iznini ala bilmədiyi üçün onların istiqbalına gələ bilməmişdi. Əmirgünə xan cəlalilərə böyük bir mehribanlıq və qonaqpərvərliklə yanaşdı və onların şərəfinə təşkil edilən ziyafət bir neçə gün davam etdi. Cəlalilərin rəhbərini və onun xidmətçilərindən ibarət olan üç yüz nəfərlik bir dəstəni Əmirgünə xan özü ilə İrəvana da apardı. Cəlali dəstələrinin yüzbaşıları isə qızılbaş əmirləri və əyanlarının evində qonaq oldular.

İrəvan hakiminin göstərişi ilə cəlalilər üçün xüsusi hamam günü təyin edildi və həmin hamamdan sonra onlara yeni geyimlər paylandı. Hatəm bəy də burada cəlalilərlə görüşdü. O da öz evində xüsusi məclis təşkil etdi və cəlalilərin bir dəstəsini həmin məclisə dəvət etdi. Bu tədbirlərdə iştirak edən İsgəndər bəy Münşi onu da yazırdı ki, cəlalilər nizam və intizamdan uzaq insanlar idilər. Onlar böyük kiçiyə, yanlarında yüksək məqamlı insanların olmasına baxmayaraq mübahisələr edir, hətta biri-digəri ilə savaşmaqdan belə çəkinmirdilər. Üçkilsədə bir neçə günlük istirahətdən sonra cəlalilərin Təbrizə yollanması məsləhət bilindi (245).

Cəlalilərə şah tərəfindən xüsusi diqqət yetirildiyi üçün idi ki, Təbriz hakimi Pir Budaq xan və Azərbaycan vəziri Xacə Məhəmməd Rza da onların qarşılanmasına çıxdılar. Onların göstərişi ilə cəlalilər öz məqamlarına görə Təbrizdə yerləşdirildilər, onların ehtiyaclarının ödənməsi üçün lazım olan tədbirlər həyata keçirildi. Pir Budaq xan və Xacə Məhəmməd Rza ayrı-ayrılıqda cəlalilərə ziyafətlər təşkil etdilər. İsgəndər bəy Münşi yazırdı ki, Cəlali sərdarlarından bəziləri öz adamları ilə birlikdə "Təbrizdən çıxıb İrana üz tutdu". Elə bu vaxt xəbər gəldi ki, Hatəm bəy də cəlalilərin işləri ilə məşğul olmaq üçün Təbrizə gəlməkdədir. Belə bir xəbər alınandan sonra cəlalilərin Təbrizdə qalmış böyükləri Hatəm bəyin gəlişini gözləməyə başladılar. Hatəm bəy şah tapşırığına əsasən, cəlalilər üçün böyük sayda silah, sursat, geyim, əsləhə, ərzaq və s. ehtiyatları hazırlamışdı və bütün bu ehtiyatlar Təbrizdə onlara paylandı. Sonradan ətraf bölgələrə və şəhərlərə dağılmış olan cəlalilər də gələrək Təbrizdə Hatəm bəylə görüşdülər. Bütün bu dəstələr Hatəm bəy tərəfindən lazım olan silah və əşyalarla təmin edildilər, onlar üçün qışlaq yerləri müəyyənləşdirildi. Şah Abbas tərəfindən də cəlalilərə hədiyyələr göndərilmişdi. Bu hədiyyələrin sayı o qədər çox idi ki, onların paylanması üçün xeyli sayda qorçuları, yasavulları və mehmandarları vəzifələndirmək lazım gəldi. Keçirilən görüşlər zamanı qərara alındı ki, Cəlali dəstələri onlar üçün müəyyən edilmiş ərazilərdə qışı keçirsinlər. 1608-ci ilin

Novruz bayramından sonra isə dəstə rəhbərləri toplaşaraq Şah Abbasın görüşünə yollanmalı idilər (246).

Bir məlumata görə, Təbriz hakimi Pir Budaq xan cəlalilərin hamısının Təbrizdə qalmasını istəmirdi. Ona görə də o, bu qüvvələrin dəstələrə bölünməsini və ətraf bölgələrə yerləşdirilməsini məqsədəuyğun bildi. Bununla da cəlalilərin hamılıqla Təbrizdə toplanmasının qarşısını da almaq mümkün oldu (247).

Səltənətin sədr-əzəmi və etimaddüddövləsi Hatəm bəy cəlalilərin işləri ilə məşğul olmaq üçün Təbrizdə qalarkən Azərbaycan vəziri xacə Məhəmməd Rzanın evində qonaq qaldı. Hatəm bəy şah tərəfindən ona tapşırılmış işləri görməklə bərabər, həm də ehtiyat tədbirləri ilə məşğul oldu. Cəlalilər Osmanlı təbəələri idilər və böyük sayda olan bu insanların Səfəvi ərazilərinə pənah aparması Osmanlı sarayının diqqətindən qaçmaya bilərdi. Hatəm bəy cəlaliləri təqib edən İbrahim paşanın (Yazıçıoğlu) qoşun dəstəsi ilə Səfəvi ərazilərinə daxil olmasını az ehtimal edirdi. Bununla belə, Hatəm bəyin tapşırığı ilə Pir Budaq xan Xoy və Səlmas istiqamətinə yollandı ki, cəlalilərlə bağlı Osmanlı qoşunlarının və sərhəd hakimlərinin planlarından məlumat əldə etsin. Hatəm bəyin Təbrizdə olduğu vaxt ora toplaşan cəlalilərin sayı 13 min nəfərdən artıq idi. Onların çox hissəsi atlılardan ibarət idi. Cəlalilər arasında piyadalar və tüfəngçilər də var idi. Pir Budaq xan isə bir neçə gündən sonra geri qayıtdı. Onun gətirdiyi məlumata əsasən, İbrahim paşa cəlaliləri təqib etməkdən əl çəkərək geri qayıtmışdı (248).

Hatəm bəy də Təbrizdə cəlalilər üçün ayrıca böyük bir ziyafət təşkil etdi. Bu ziyafətə cəlalilərin rəhbərlərindən olan Məhəmməd paşa, Qara Səid və digərləri, habelə dəstə üzvləri dəvət edilmişdilər. Bu ziyafətdə aparılan söhbətlər zamanı qərara alındı ki, Təbrizdə olan cəlalilərin siyahısı tutulsun. Bu siyahı əsasında cəlalilərin dəqiq sayını və onların ehtiyaclarının həcmini daha dəqiq müəyyənləşdirmək mümkün idi. Hatəm bəy tərəfindən aparılmış siyahıya alma nəticəsində Təbrizdə 13 min 605 cəlalilinin olması dəqiqləşdirildi. O da müəyyənləşdirildi ki, bu sayda olan cəlalilərdən 10 min nəfəri döyüş aparmağa yararlı, silahla təchiz olunmuş

adamlardır. Qalanları isə xidmət personalına aid olan insanlar idilər. Ziyafət zamanı cəlalilərin sərdarlarına, dəstə başçılarına və digər böyüklərinə ayrı-ayrılıqda qiymətli hədiyyələr bağışlandı. İsgəndər bəy Münşinin yazdığına görə, Hatəm bəyin təşkil etdiyi ziyafət başa çatandan sonra cəlali dəstələrinin müxtəlif məntəqələr üzrə bölüşdürülməsi və yerləşdirilməsi məsələləri müzakirə edildi və qərar qəbul edildi. Bu məsələlər öz həllini tapandan sonra Hatəm bəy geri qayıtmaq yolunu tutdu. Cəlalilərin rəhbəri olan Məhəmməd paşa və onunla birlikdə beş yüz nəfərlik dəstə də Hatəm bəylə birlikdə İsfahana yollandılar. Yol boyu da cəlalilərə xüsusi diqqət və qayğı göstərildi, onlar hər tərəfli qayğı ilə əhatə olundular. Cəlali dəstəsinin Hatəm bəylə birlikdə İsfahana gəlib çatması təxminən bir ay çəkdi və İsfahana yetişdikdən sonra cəlalilər Nəqşi-cahan sarayında Şah Abbasın hüzuruna yetişə bildilər (249).

Cəlalilər Şah Abbas tərəfindən də mehribanlıqla qarşılandılar. Bu insanlara İsfahanda rahat və münasib mənzillə ayrıldılar və onlar xeyli müddət bu mənzillərdə sakit həyat keçirdilər. Şah Abbas təşkil etdiyi məclislərə cəlalilərin rəhbərlərini də dəvət edir və onlarla söhbətlər də aparırdı. O, da cəlalilərin təqib edilməsi ilə bağlı Osmanlı qüvvələrinin Səfəvi hüdudlarına hücum edə biləcəyindən ehtiyat edirdi. Ona görə də Şah Abbas xasseyi-şərifə qulamlarından olan Laçın bəyin rəhbərliyi altında bir min nəfərlik tüfəngçi dəstəsini Təbrizə göndərdi. Bu dəstə Təbrizdə dayandı və qışı da orada keçirdi. Osmanlı qüvvələrinin hücumunun baş verəcəyi təqdirdə bu dəstə həmin hücumun qarşısının alınmasında iştirak etməli idi (250).

İsfahana gəlmiş Cəlali dəstəsi 1608-ci ilin baharına kimi həmin şəhərdə qaldı. Novruz bayramından sonra Şah Abbas onların hansı istiqamətə göndərilməsi barəsində qərar qəbul etdi. Belə məsləhət bilindi ki, bu dəstə Kürdüstan sərhədinə göndərilsin və kürd tayfalarının səltənət hüdudlarına vaxtaşırı basqınlarının qarşısının alınmasında onların gücündən istifadə edilsin. Cəlali dəstəsinin yanına bir qızılbaş dəstəsi də verildi və bu dəstələr birlikdə müştərək fəaliyyətlərini qurmalı idilər. Eyni zamanda belə bir mə-

qam nəzərə alınmışdı ki, sərhəd bölgəsində qərar tutmaları cəlalilər arasında mövcud olan ixtilafların qarşısının alınmasına da kömək edə bilərdi. Belə ki, sərhəd bölgəsində mövcud olan daimi təhlükə ehtimalı cəlaliləri daxili çəkişmələrdən əl çəkməyə və birlikdə təhlükəyə qarşı səfərbər olmağa zəmin yarada bilərdi. Cəlalilər arasında ixtilafın olması Şah Abbasa da bəlli idi. O, İsfahandakı dəstə üzvlərini yanına tələb edərək onları nəsihətləndirdi, onlara məsləhətlərini verdi və sonra da Məhəmməd paşanın onların əmirül-ümərası təyin edildiyini bildirdi. Şah Abbas cəlalilər qarşısında belə bir tapşırıq qoydu: "Məhəmməd paşanı öz böyüyünüz və ən üstün adamınız bilin, onun dövlətin məsləhətinə uyğun gələn rəy və təkliflərinə əməl edin, sözündən və məsləhətlərindən çıxmayın" (251).

Şah Abbasın hüzurunda olan bütün cəlalilər onun buyruqlarına əməl edəcəklərinə söz verdilər. Qəbul edilmiş qərara əsasən, cəlalilər Azərbaycana yollanmalı və müvəqqəti olaraq Marağa yaylaqlarında yerləşməli idilər. Bu yaylaqların insanları qışlaqda olduqlarından orada qısa müddətə məskunlaşmaq mümkün idi. Lazımi hazırlıq işləri görüləndən sonra cəlalilər İsfahandan yola salındı. Bu zaman cəlalilərin zəruri ehtiyacları aradan qaldırıldı və onlar xoş əhval-ruhiyyə ilə Təbrizə doğru istiqamət götürdülər. Nəzərdə tutulmuşdu ki, bir sıra məntəqələrin hakimləri də rəhbərlikləri altında olan qoşun dəstələri ilə cəlalilərə birləşsinlər. Bununla bağlı Şah Abbas xüsusi bir hökm də verdi. Həmin hökmün məzmunu belə idi: "Həmədan və Əlişəkər sərhədinin bəylərbəyi Həsənxan özünün min adamı və sərhəd əmirləri ilə, İsgəndər Sultan Mirmüqəddəm öz elinin min adamı ilə, dörd yüz adamın sahibi olan Nemətulla Sultan Mirsufi, pazuki boynökərlərinin miri olan Xosrov Sultan yeddi yüz adamla, Kavrud və Sarı Qərğan hakimi Qəban Sultan Bigdeli dörd yüz nəfərlə, Silsir miri Xəlil Sultan öz üç yüz adamıyla Marağaya gedib Məhəmməd paşa Cəlaliyə birləşsinlər, Marağa hakimi Qubad xan Mokrini özlərinə birləşdirib, həmin yol ilə Kürdüstan vilayətindən Diyarbəkr və hüdudlara qədər getsinlər, onlarla ellik (ili) və birlik (enqeyad) etmək istəyən kürd əmir-

ləri öz adamları ilə onlara birləşsinlər, heç kimin onların ülkəsi və tayfası ilə işi olmasın, amma müxalifətdə olan və qızılbaşların itaətindən baş qaçıran hər kəsin, el və tayfasının yağma olunmasına başlanılsın, elə adamın ülkəsi zəbt olunsun və cəlali əmirlərinə verilsin. Qoy həmin yol ilə Ərzruma getsinlər və Çuxur-Səəd bəylərbəyisinə və o vilayətin qarətinə yollanmış əmirlərə [birləşsinlər]" (252).

### 11. Yeni sülh axtarışında

1609-cu ildə havalar qızmağa başlayandan sonra Şah Abbas qoşunlarla birlikdə Sultaniyyəyə yollanmaq qərarına gəldi. O, qoşunlarla İsfahandan çox da uzaq olmayan Fəridun yaylağına gəldi. Bir neçə gün orada istirahət etdi. Sonra isə qoşunlara bütün yükləri və təchizatı ilə birlikdə Sultaniyyəyə doğru hərəkəti davam etdirmək göstərişi verdi. Şah Abbas özü isə ətrafındakı az saylı qoşun dəstəsi, yaxın ətrafı ilə yenidən İsfahana qayıtdı və bir neçə gün yenə İsfahanda qaldı. Onun İsfahana qayıtmaqda məqsədi məhəlli bayramlardan birinin qeyd edilməsi ilə bağlı idi. Həm də bəlli idi ki, qoşunların ağır yüklə, təchizatla Sultaniyyəyə çatması üçün xeyli vaxt lazımdır. Həmin günlər ərzində Şah Abbas İsfahanda odlu. O, sonradan Kaşan yolu ilə Qəzvinə gəldi. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas qırx gün də Qəzvində qaldıqdan sonra Sultaniyyə çəməninə yollandı və orada qoşunlara qoşuldu. Həmin günlərdə onun yanına Osmanlı elçisi gəldi. Xeyrəddin adlanan həmin elçi Osmanlı sarayının yeni sədr-əzəmi Murad paşa tərəfindən göndərilmişdi. Osmanlı elçisini iki il əvvəl şah sarayı tərəfindən İstanbula elçi kimi göndərilmiş Məhəmməd bəy Rumlu da müşayiət edirdi (253).

Murad paşa göndərdiyi elçiyə belə bir tapşırıq vermişdi ki, imkan tapıb şəxsən, kimsənin iştirakı olmadan Şah Abbasla görüşsün, onunla söhbət etsin və iki dövlət arasında yeni sülh anlaşmasının əldə edilməsi ilə bağlı Şah Abbasın fikir və mülahizələrini dinləsin. O, Şah Abbasın yeni sülh bağlanmasına razı olub-olma-

dığını müəyyənləşdirib geri qayıtmalı idi. Eyni zamanda Osmanlı elçisinə tapşırılmışdı ki, Şah Abbasın ikitərəfli sülhə münasibəti müsbət olarsa, ondan Osmanlı sultanının adına ehtiram ifadə olunmuş bir məktub alınmasına çalışsın. Güman edilirdi ki, Şah Abbasın belə bir məktubu ikitərəfli münasibətlərin yaxşılaşmasına öz təsirini göstərə bilərdi. Vaxtilə Osmanlı sarayına elçi kimi göndərilmiş Məhəmməd bəy şah adından heç bir məktub aparmamışdı. Şah tərəfindən Osmanlı sultanına məktub yazılmasının nə üçün vacib olduğunu Murad paşa öz fikirlərində açıqlamışdı. Onun sözlərinə görə, Sultan III Muradın hakimiyyəti illərində ələ keçirilmiş olan Səfəvi əraziləri Şah Abbas tərəfindən geri qaytarılmışdı. Yəni iki dövlət arasında baş verən müharibədə Şah Abbas üstün olmuşdu. Aparılan döyüşlərin gedişində xeyli sayda Osmanlı döyüşçüsü qətlə yetirilmiş, azad edilmiş qalalardakı çoxsaylı Osmanlı topları, silahları, təchizatı qızılbaş qüvvələrinin əlinə keçmişdi. Murad paşanın fikrincə, belə bir vəziyyətdə Osmanlı sultanının sülh istəməsi hökmdarlara və səltənət sahiblərinə xas olacaq bir iş deyildi. Ona görə Şah Abbasın sülh təşəbbüsü ilə çıxış etməsi daha düzgün sayılırdı. O da bildirilirdi ki, tərəflər arasında düşmənçiliyin davam etməsi islam aləmi üçün heç də faydalı deyildi. Əksinə, bu düşmənçiliyin davam etməsindən Avropa dövlətləri daha böyük fayda götürə bilərdilər. Çünki islam dövlətlərinin zəifləməsi həmin dövlətlərin maraqlarına cavab verirdi. Murad paşa şübhə etmirdi ki, Şah Abbasın dostluq ruhunda Osmanlı sultanına məktub göndərməsi iki dövlət arasında danışıq yolunu açar və düşmənçilik dostluqla əvəz olunardı (254).

Şah Abbas Osmanlı sədr-əzəmi Murad paşanın fikirlərini yüksək qiymətləndirdi, onu xeyirxah düşüncəli bir insan adlandırdı. Yəni Murad paşa tərəfindən qaldırılan məsələlər Şah Abbas tərəfindən məmnunluqla qarşılandı. Onun göstərişinə əsasən, osmanlı elçisinə böyük mehribanlıq göstərildi və Şah Abbas iki dövlət arasında sülhə tərəfdar olduğunu bəyan etdi. Bu məsələ ilə bağlı o öz fikirlərini belə açıqladı: "O uca dövlət sülaləsinin çırağı qəza və cəhad yağı ilə yandırılmışdır. Biz hərəmeyne – mohtərə-

meyni – Allah onların şərəf və məqamını uca etsin – ziyarət etmək səadəti ilə şərəflənmişik, buna görə də sultanlar arasında möhtərəm və üstün sayılırıq. Şübhə yoxdur ki, bütün islam əhlinə kömək olunması zəruridir. Dəfələrlə sizə deyilmişdir ki, Sultan Murad xan fürsət tapıb nəsilbənəsil imanları dolaşdırılan və yerləri cənnət olan ataların əhd-peymanını səbəbsiz yerə (məğləte) pozaraq, bizim bəzi irsi məmləkətlərimizi zəbt etmişdi. Hazırda isə ilahi fəzilətin [üstümüzə düşən] işığı ilə haqq öz yerini tutmuş və tutacaqdır da. Əgər həzrət xandgar bizim irsi mülkümüzdən əl çəkib ülfət və dostluq məqamına gələrsə, biz də müsəlmanların rifahından ötrü dava-dalaşdan əl çəkərək məhəbbət və birlik yolundan dönməyəcəyik. Bundan yaxşı nə ola bilər ki? Qoy islam padşahları arasında sülh və dostluq yaransın, pak dinimizin düşmənləri isə zəlil (məxzul) olsunlar. Qərara alınmışdır ki, bu xeyirxah işin səbəbkarları olan baş vəzir Murad Paşa və başqa xeyirxah düşüncəli səadətli adamların xahişi ilə bir dostluq məktubu yazılsın, sədaqət və birlik qapıları açılsın" (255).

Şah Abbas Səfəvi hüdudlarının bərpa edilməsi istiqamətində ciddi nəticələr əldə edə bilmişdi. Ona görə də o, sülhün tərəfdarı idi və Murad paşadan alınan məktub da buna bir ümid verirdi. Bu məktub Şah Abbasda həm də belə bir fikir yaratdı ki, Osmanlı sarayı dövlətin zəiflədiyini anlayır və Osmanlı dövləti tərəfindən sülh istənilməsi o demək idi ki. bu dövlətin qoşunlarının yaxın vaxtlarda Səfəvi hüdudlarına hücum etməsi az ehtimal ediləndir. Bununla belə, Şah Abbas Osmanlı elçisini dərhal geri göndərmədi və onu təxminən bir il sarayda saxladı (256). Osmanlı elçisinin Səfəvi daxilində qaldığı müddət ərzində Səfəvi dövləti üçün əhəmiyyət kəsb edən bəzi hadisələr baş verdi.

Şah Abbas Osmanlı elçisi ilə görüşdükdən sonra bir neçə gün də Sultaniyyə çəmənində qaldı. Osmanlı təhlükəsi müvəqqəti də olsa sovuşduğu üçün qoşunların döyüş hazırlıqlarına da ehtiyac qalmadı. Həmin ilin payızını və qışını Şah Abbas Azərbaycan ərazisində keçirdi. Sultaniyyədən sonra şah karvanı Ərdəbilə doğru istiqamət götürdü. Şah Abbas yenidən əcdadı olan və sultanül-

övliya kimi insanların yaddaşlarında qalan Şeyx Səfiəddinin və onun yaxın ətrafının məzarlarının ziyarətinə yollandı. O, eyni zamanda Şeyx Səfiəddinin ustadı və piri Şeyx Zahid Gilanının məzarını da ziyarət etdi. Şeyx Zahid Gilanı islam aləmində sayılıb-seçilən etiqad adamı olmaqla bərabər, həm də Şeyx Səfiəddinin piri və ustadı olmuşdu. Bu ziyarətin ardınca Şah Abbas Qızılağaca yollandı, bir müddət orada qalaraq ovla məşğul oldu. Daha sonra Şah Abbas Təbrizə, oradan Ordubada və oradan da Qarabağa yol aldı. 1609-1610-cu ilin qışını da Şah Abbas orada keçirməyi qərarlaşdırdı (257).

Şah Abbas Ərdəbil ziyarətində olduğu günlərdə Urmiya və ətrafında məskunlaşmış bəradust kürdlərinin hakimi Əmir xanın dövlətə qarşı itaətsizlik yolunu tutması və qiyam qaldırması haqqında məlumat aldı. Hələ Şah İsmayılın hakimiyyəti illərində bəradust kürdlərinin nümayəndələri onun yanına gələrək şah hakimiyyətini tanıdıqlarını bildirdilər. Şah da bunu xoş məramla qarşıladı. Onun əmri ilə Tərkur və Mərkur adlı məntəqələr də Urmiyə birləşdirilərək bəradust kürdlərinin hakimiyyəti altına verildi. Osmanlı qoşunları Azərbaycan üzərinə hücum edəndə kürdlər də Osmanlı dövlətinin nəzarəti altına düşdülər. Amma Şah Abbasın rəhbərliyi altında qızılbaş qoşunları Azərbaycan üzərinə hərəkət edəndə bəradust kürdlərindən olan Əmir adlı birisi Şah Abbasın yanına gəldi və ona öz itaətini bildirdi. Şah Abbas da ona xan məqamı verdi, onu bəradust kürdlərinin rəhbəri və bu kürdlərin məskunlaşdığı ərazilərin hakimi təyin etdi. Əmir xan hakim olmazdan əvvəl ona düşmən olan dəstələrlə döyüş zamanı qolunun birini itirmişdi. Ona görə də onu Əmir xan Çolaq adlandırırdılar. Şah Abbas tərəfindən dəstəklənməklə bərabər, Əmir xan özü də cəsarətli və fərasətli bir insan idi. Ona görə də Əmir xan hakimi olduğu ərazilərdə kifayət qədər möhkəmlənə bildi və hətta Osmanlı nəzarəti altında olan bəzi əraziləri də öz nəzarəti altına gətirə bildi. Sonrakı vəziyyət göstərdi ki, Əmir xan Çolaq heç də sabit və səbatlı bir insan deyil. Belə ki, Cığaloğlunun rəhbərliyi altında olan Osmanlı qoşunları Təbrizə ətrafına gəlib çıxanda Əmir xan qızıl-

baş qoşunlarının köməyinə yollanmadı. Cığaloğlu geri çəkiləndən sonra Əmir xan yenidən Şah Abbasın hüzuruna gəldi və bağışlanmasını istədi. Şah Abbas da onun günahından keçdi və tutduğu vəzifədən azad etmədi. Əmir xan isə bundan da dərs çıxarmadı. Vəziyyəti bir qədər yaxşılaşdıqdan sonra Əmir xan artıq Səfəvi dövlətindən qopmaq və müstəqil olmaq xülyalarına düşdü. Bu niyyətini həyata keçirmək üçün Əmir xan Urmiyədə yeni və daha möhkəm bir qalanın tikintisi istəyini ortaya atdı. Bəhanəsi də o oldu ki, Urmiyanın əvvəlki qalası köhnəlib, müdafiə imkanları azalıb, onun təmirindənsə yenisinin tikilməsi daha yaxşı olar. Şah sarayı, qızılbaş hakimləri bu istəyə qarşı çıxanda məsələ Şah Abbasın nəzərinə də çatdırıldı. Şah Abbas isə Əmir xanın qala tikmək istəyinə razılıq verdi (258).

Təbriz hakimi Pir Budaq xan Əmir xanın dövlətə sədaqətinə inanmırdı və şübhə etmirdi ki, yeni qala tikməkdə də onun məqsədi dövlətdən qopmaqdır. Bu fikrini o, Şah Abbasa da çatdırdı və bildirdi ki, Əmir xan öz ayağını sədaqət yolundan kənara çıxarmışdır və onun başında üsyan havası vardır. Ona görə Pir Budaq xan Əmir xan tərəfindən yeni bir qalanın tikintisini məsləhət bilmədiyini açıqladı. Şah Abbas Pir Budaq xanın məsləhətini diqqətlə dəyərləndirdi və Əmir xanın tikdiyi qala ilə bağlı lazımi qərar qəbul edilməsini elə onun öz öhdəsinə buraxdı. Bu məsələ ilə bağlı Şah Abbasın hökmü belə oldu: “Pir Budaq xan o sərhədin əmirülümərası olduğundan, mülkün bütün işlərinin idarəsi onun öhdəsinə qoyulmuşdur. Qoy bir adam yollayıb qalanının inşasını dayandırsın” (259).

Əmir xanın tikmək istədiyi qala ilə bağlı lazımi qərarın qəbul edilməsi səlahiyyətini alandan sonra Pir Budaq xan onun yanına adam göndərdi və ona belə bir ismarıc çatdırdı: “O, şahın əzəmətli əmirlər silkinə mənsub olduğundan, daim sadiqlik və bəndəlik iddiasındadır. Baxmayaraq ki, aləmin pənahı olan şah onu o yerlərin etibarlı adamı kimi tanıyır, amma orada qala tikilməsi hərzə adamların dillərinin açılmasına səbəb ola bilər. Əgər qalanın inşasına səbəb rumiyyə müxaliflərinin hücumundan qorunmaqdırsa və

əgər rumilər bu vilayətə gəlsələr belə, Təbriz və İrəvan kimi möhtəşəm qalalar olduğu halda, onlar elə kiçik qalalara diqqət yetirməzlər. Yox, əgər kürd qəbilə əmirləri tərəfindən təhlükə olarsa və ona hücum edərlərsə, sərhədi qorumağa təhkim olunan biz şah dərgahının bəndələri baş verə biləcək bütün hadisələri dəf' edərik. Buna görə də, bir neçə gün qorunmaqdan ötrü Urminin qədim qalası onun özü, bəradüst eli və qəbiləsi üçün kifayətdir. Sən, yaxşısı budur ki, qala tikmək işindən vaz keçib bəd danışan dilləri öz üstünə qaldırmayasan. Sən gərək bizim dostanə məsləhətimizə, öz dövlətinə verilən zəmanət kimi, razılıqla qulaq asasan, özünü töhmət altına salmayasan, nifaq və üsyan yaratmayasan" (260).

Pir Budaq xanın ciddi xəbərdarlığına baxmayaraq Əmir xan Çolaq onun sözlərinə qulaq asmadı. Əksinə, o hətta Pir Budaq xanın sözlərini çatdıran adamları da qətlə yetirdi, qala tikintisini tezliklə başa çatdırıb onun daxilinə yığışdı. Əmir xan artıq açıq şəkildə müxalifətçilik yolu tutduğundan qala daxilində silah və ərzaq ehtiyatlarının toplanmasına da başlandı. Onun üçün gizli deyildi ki, mühasirə olunan qalada uzun müddət davam gətirmək üçün ona silah və ərzaq ehtiyatları lazımdır. Əmir xanın müxaliflik yolunu tutmasını eşidəndə ətrafdan bir sıra adamlar da gördükləri əməllərə görə şah cəzasından qorxaraq onun yanına gəldilər. Bu da Əmir xanın ətrafında birləşənlərin sayının artmasına gətirib çıxardı. Bununla belə, Əmir xan Şah Abbasa sədaqət məktubu göndərməklə özünün əsil niyyətini də gizlətməyə çalışırdı. Şah Abbasın hökmü ilə cəlalilərin dəstələri Səfəvi-Osmanlı sərhədinə göndəriləndə Pir Budaq xanın dəstəsi də onların dəstəsinə qoşuldu və ümumi rəhbərlik Pir Budaq xana tapşırıldı. Pir Budaq xan isə Əmir xanın əməllərindən razı deyildi. Əmir xan şübhə etmirdi ki, Pir Budaq xan bölgədəki qoşunların rəhbəri kimi ona qarşı ciddi tədbirlərə əl ata bilər. O özünü bu təhlükədən qorumaq üçün Şah Abbasa müraciət etməyi lazım bildi. Əmir xan Şah Abbasa göndərdiyi məktubunda ərz etdi ki, onunla Pir Budaq xan arasında ədavət və düşmənçilik şiddətlənməkdəir və ona görə də onunla hər hansı bir münasibət yaradılması mümkün deyil. Şah

Abbas növbəti dəfə Əmir xana qarşı mülayimlik nümayiş etdirdi. Bunun nə ilə bağlı olduğunu söyləmək çətindir. Ola bilsin ki, Əmir xana qarşı mübarizədə qızılbaş döyüşçülərinin yersiz itkilərinin qarşısının alınması, həmçinin belə məsələləri dinc yolla həll etməkdə maraqlı olması Şah Abbası sərt tədbirlərin həyata keçirilməsindən çəkindirirdi. O, Pir Budaq xanı bölgəyə göndərilən qoşunların rəhbəri vəzifəsindən kənarlaşdırdı və onun yerinə xoş rəftarlı və qərəzsiz bir adam kimi tanınan Həsən xanı təyin etdi. Şah Abbas bu barədə Əmir xana xəbər çatdırdı və ondan tələb etdi ki, Həsən xanla əməkdaşlıq qurmağa çalışsın. Belə bir əməkdaşlığın alınmayacağı təqdirdə Əmir xan övladlarından birini iki-üç yüz adamla Həsən xanın yanına göndərməli idi. Bununla da o, ətrafındakılara da nümayiş etdirməli idi ki, Səfəvi sarayı ilə onun hər hansı bir nifaqı yoxdur. Belə olduğu təqdirdə Pir Budaq xanın bölgədən uzaqlaşdırılması haqqında lazımsız şayiələrə də yer qalmazdı (261).

Şah Abbasın bu inayəti və lütfkarlığı qarşısında Əmir xan yenə öz inadından və tutduğu yoldan dönmədi. Pir Budaq xanın yerinə təyin edilmiş Həsən xan rəhbərliyi altında olan qızılbaş dəstəsi ilə Marağaya gələrək Məhəmməd paşanın Cəlali dəstəsi ilə birləşdi və oradan da ona verilən tapşırıqların icrasına yollandı. Həsən xan eyn zamanda Əmir xana xəbər göndərdi və onu da rəhbərliyi altında olan dəstəyə qoşulmağa dəvət etdi. Onun özünün gəlməyəcəyi təqdirdə dəstə göndərməsi də mümkün sayıldı. Lakin Əmir xan bu dəvəti də qəbul etmədi və Həsən xanın dəstəsinə qoşulmamasını əsaslandırmaq üçün bəhanələrə də əl atdı. Onun sözlərinə görə, Həsən xanın rəhbərliyi altında olan cəlalilərə etibar yox idi. Bu insanların kobudluğunun və etibarsızlığının Əmir xan tərəfindən qəbul edilmədiyi bildirilirdi. Əmir xan xəbər göndərdi ki, Həsən xan öz dəstəsi ilə Kürdüstan istiqamətinə hərəkətə başlasın. O özü isə Həsən xanın dəstəsinin ardınca gələcəyini vəd edirdi. Həsən xan və onun əmirləri şübhə etmədilər ki, Əmir xan bəhanə edir və onun qızılbaş dəstəsinə qoşulmaq niyyəti yoxdur. Onun bu mövqeyi qızılbaş əmirləri tərəfindən təəccüblə qarşılan-

dı. Onların fikri belə oldu ki, şah sarayına itaətini bildirən Əmir xanın belə bir müxalifətçiliyi qəbul edilən deyil. Ona görə qızılbaş əmirləri və qoşun rəhbərləri Həsən xana məsləhət bildilər ki, onlar öz yollarını davam etdirsinlər Bu dəstənin yolu Əmir xanın hakim olduğu ərazilədən keçməli idi. Təklif olunurdu ki, qoşun dəstəsi Urmiyə ətrafından keçərkən Əmir xan dəstəyə qoşulmağa məcbur edilsin (262).

Əmir xan yenə müxaliflik yolundan dönmədi. Həsən xanın rəhbərliyi altında olan qoşun dəstəsi onun hakim olduğu ərazilərə yaxınlaşanda bəradust kürdlərinin silahlı bir dəstəsi qoşunların qarşısına çıxdı. Həsən xan dəstəsinin önündə gedən cəlalilər onlarla döyüşə girdilər. Həsən xan bundan xəbər tutan kimi dərhal döyüşü dayandırdı və öndə olan döyüşçüləri geri aldı. Qoşun dəstəsi isə hərəkətini davam etdirib Əmir xanın tikdirdiyi qalanın yarım fərsəxlik məsafəsində dayandı. Əmir xanın adamları qala divarları üzərindən toplarla Həsən xanın dəstəsini atəşə tutdu. Həsən xan yenə cavab verməzdən əvvəl öz nümayəndəsini Əmir xanın yanına göndərdi və müqavimət göstərməyin səbəblərini ondan soruşdu. Əmir xan qaneedici bir cavab vermədi. Əksinə, qala ətrafında tərəflər arasında başlanın kiçik toqquşmalar sonradan daha da böyüdü və döyüşlərə çevrildi. Belə bir vaxtda cəlalilər arasından bir dəstə Məhəmməd paşaya tabe olmaqdan imtina etdi və bu dəstə qalaya yollanaraq Əmir xanın dəstəsinə qoşuldu. Həsən xan qala ətrafında Əmir xanın müxalifətçilikdən əl çəkməyəcəyini görüncə, qala istisna olmaqla onun hakim olduğu bütün əraziləri nəzarət altına götürdü. Bundan sonra isə o, Əmir xanın şaha qarşı itaətsizliyi və onun qala ətrafında etdikləri barəsində Şah Abbasa məlumat göndərdi. Şah Abbas bu zaman Ərdəbil ziyarətində idi və Əmir xanın asiliyi haqqında Həsən xanın məlumatı da ona burada çatdırıldı. Şah Abbas bu məlumatı alandan sonra yenidən məsələnin dinc yolla həllinə üstünlük verdi və bu istiqamətdə mümkün olan imkanlardan istifadə edilməsini məqsədəuyğun saydı. O, Əmir xan məsələsinin həll edilməsi, habelə Osmanlı dövləti ilə sərhəddə sabitliyin təmin edilməsi məqsədi ilə sədr-əzəm və eti-

maddüdövlə Hatəm bəyi sərhəd istiqamətinə göndərdi. Şah Abbas tapşırdı ki, Hatəm bəy "öz bəsirət gözü ilə o sərhədin vəziyyətinə nəzər yetirsin, əgər Əmir xanın hərəkətlərindən sədaqət rayihəsi gələrsə, qoy gün-gündən artan dövlət nəşəsindən həzz alsın, şahın şəfqətinə layiq görülsün, onun biixtiyar baş verən hadisədən qorxuya düşmüş ürəyinə təskinlik versin, xanı hicab pərdəsi altından çıxarsın, cəlali camaatını qala ayağından uzaqlaşdırsın, keçən il olduğu kimi özünün məsləhətinə uyğun bir yerdə onlara qışlaq yeri təyin etsin, dövriyyədə olan (rayec) şahi zərindən beş min tümən nağd qızıl [pulu] xəzinədən götürüb, cəlalilərin xərclərinə sərf etsin, yox, əgər Əmir xanın işi islaholunmaz olarsa, yaxud ondan müxalifət və üsyankarlıq əlaməti görünərsə, xanın tüğyan atəşini tənbeh və cəza suyu ilə yatırıb ülkasını yaşayış məskəni kimi cəlalilərin arasında bölsün, başqa üsyankar kürdlərin də cəzalandırılmaları ilə məşğul olsun" (263).

Bu tapşırığı alan kimi Hatəm bəy dərhal Təbrizə yola düşdü. Onu İsgəndər bəy Münşi də müşayiət edirdi. İsgəndər bəy bu səfər zamanı nələrin baş verməsini şəxsən müşahidə etmişdi. Ona görə də onun əsərində bu səfərin gedişi daha təfərrüatlı şəkildə öz ifadəsini tapmışdı. Hatəm bəyin rəhbərliyi altına böyük bir qüvvə verildi. Təbrizdə bu şəhərin hakimi olan Pir Budaq xan və onun qoşun dəstəsi, Bəxtiyar bəy Ənis Topçubaşı və onun rəhbərliyi altında olan topçular, İsfahan, Xorasan, Təbriz və Bafqi tüfəngçiləri Hatəm bəyə birləşdi. Səltənətin qərb sərhədi boyunca yerləşən bəzi məntəqələrin hakimləri də öz dəstələri ilə birlikdə Hatəm bəyin dəstəsinə qatıldılar. Bütün bu qüvvələrlə Hatəm bəy Əmir xanın qalası ətrafına gəlib yetişdi. Həsən xan və cəlalilərin rəhbəri Məhəmməd paşa Hatəm bəyin və onun dəstəsinin gəlişindən çox sevindilər. Hatəm bəyin dəstəsinin Əmir xanın Dəmdəm adlandırılan qalası ətrafına 1609-cu ilin noyabr ayının sonlarında gəlib çıxması ehtimal olunur. Hatəm bəy vəziyyətlə yerində tanış olduqdan sonra Ağaməmməd Təsuci adlı birisini elçi kimi Əmir xanın yanına göndərdi. Bununla, Əmir xan itaətsizliyinin dinc yolla aradan qaldırılması üçün növbəti bir cəhd göstərildi. Hatəm

bəy xəbər çatdırdı ki, qala ətrafında Əmir xanla görüşmək, vəziyyət barəsində onunla söhbət etmək, fikrini bilmək və məsləhətləşmək istəyir. Yəni Hatəm bəy ona öz xoş niyyətini çatdırdı. Əmir xan da bu təklifi qəbul etdi. Onlar qala ətrafında, razılaşdırılmış bir yerdə görüşdülər və xeyli söhbət etdilər.

Əmir xan bu görüşdə də şaha itaət görüntüsü yaratmağa cəhd göstərsə də, əslində, öz mövqeyindən yenə əl çəkmədi. O özünün kobud hərəkətlərini Həsən xana və cəlalilərə olan inamsızlıqları ilə əlaqələndirməyə çalışdı. Onun sözlərinə görə, cəlalilərin rəhbəri olan Məhəmməd paşa onun hakimi olduğu əyaləti ələ keçirmək istəyir və ona görə də onu şaha qarşı müxalifətdə olmağa məcbur təhrik edir. Əmir xan Hatəm bəydən xahiş etdi ki, şah qarşısında onun günahının əfv olunması barəsində məsələ qaldırsın və qarşıdan gələn qış mövsümündə ona fürsət verilsin. O vəd edirdi ki, qışdan sonra ya özü şəxsən şahın hüzuruna gəlib sədaqətini bildirəcək, ya da övladlarından birini qiymətli hədiyyələrlə şahın hüzuruna göndərəcəkdir. Mövcud olan ixtilafın sülh yolu ilə həllinə ümid yarandığı üçün Hatəm bəy bu təklifi qəbul etdi. Eyni zamanda o da öz təklifini irəli sürdü. Onun istədiyi bu idi ki, Hatəm bəyin şah hakimiyyətinə qarşı müxalif olmadığını nümayiş etdirmək üçün tərəflər arasında etimad münasibətləri mümkün olduğu qədər möhkəmləndirilsin. Bu məqsədlə o təklif etdi ki, Hatəm bəylə Əmir xan arasında gediş-gəliş artırılsın. Bir dəfə Hatəm bəy qala daxilinə yollansın və Əmir xanın qonağı olsun. Digər dəfə isə Əmir xan Hatəm bəyin düşərgəsinə gəlsin və onun qonağı olsun. Belə olduğu halda tərəflər arasındakı xoş münasibətlər daha da möhkəmlənə bilərdi. Əmir xan bu təklifə etiraz etmədi və sabahı gün Hatəm bəyin qonağı olacağına söz verdi (264).

Hatəm bəy bu razılaşmaya uyğun olaraq sabahı günü düşərgə saldıqları ərazidə böyük bir ziyafət təşkil etdi. Həmin ziyafətə cəlalilərin rəhbəri olan Məhəmməd paşa və bir neçə cəlali əmiri də dəvət edilmişdi. Gözlənilənlərin əksinə olaraq, Əmir xan bu ziyafətə gəlmədi. Əvvəlcə belə güman edildi ki, bəlkə o, ziyafətə gecikir. Ona görə Ağaməhəmməd Təsuci yenidən qala daxilinə göndə-

rildi ki, ziyafət təşkil olunması Əmir xana xatırladılsın. Amma bəlli oldu ki, Əmir xanın gecikməsi heç də təsadüfi deyilmiş. Əmir xan ziyafətə yollanmaqdan imtina etdi və bəhanəsi də bu oldu ki, Məhəmməd paşa və cəlalilər ziyafətdən uzaqlaşdırılsın. Ağaməhəmməd Təsuci ilə aparılan uzun-uzadı söhbətdən sonra Əmir xan qətiyyətli şəkildə Hatəm bəyin təşkil etdiyi ziyafətə gəlməkdən imtina etdi. O bildirdi ki, bəradust kürdlərinin ağsaqqalları heç Hatəm bəyin özünə də etibar etmirlər. Ona görə də həmin ağsaqqallar onun ziyafətdə iştirak edilməsinə razı deyildirlər. Əmir xan onu da əlavə etdi ki, məsləhət olarsa nə vaxtsa oğlunu hədiyyələrlə şahın hüzuruna göndərə bilər. Hansısa bir planın olacağını eşitdiyi təqdirdə isə Əmir xan qala daxilinə çəkiləcəyini və müdafiə olunacağını bildirdi. Hatəm bəyə də aydın oldu ki, Əmir xanın şah hakimiyyətinə itaətsizlik yolundan əl çəkəcəyi inandırıcı görünmür. Ona görə də Hatəm bəy yanında olan qoşunların böyüklərini və əmirlərini yanına topladı və onlarla məsləhətləşmə apardı. Qızılbaş əmirləri və böyükləri Əmir xanla danışıqların davam etdirilməsini lazım bilmədilər. Eyni zamanda onlar şah tapşırığını yerinə yetirmədən geri qayıtmağı da düzgün saymadılar. Şah qüvvələrinin qalanı mühasirə etmədən geri qayıtması Əmir xanı və onun ətrafını daha böyük itaətsizliklərə təşviq edə bilərdi. Bu barədə Şah Abbasa məlumat göndərildi və eyni zamanda qala mühasirəsinə hazırlıq işləri başlandı (265).

Əmir xanın Şah Abbas kimi əzəmətli bir hökmdara qarşı meydan oxuması heç də təsadüfi deyildi. Çünki onun sığındığı Dəmdəm qalası çox böyük müdafiə imkanlarına malik idi və Əmir xana da yaxşı məlum idi ki, bu qalanı asanlıqla ələ keçirmək mümkün olmayacaqdır. Bu qala uca bir dağın zirvəsində tikilmişdi Qalanın şimal və cənub divarları çox dərin bir dərəyə söykənirdi. Həmin dərələrdən yuxarı dırmanmaq və qala divarları üçün təhlükə törətmək imkanlar xaricində idi. Qalanın şərq divarı isə hündür bir yerdə olmaqla meşəyə birləşirdi. Həmin istiqamətdən qalanın üç divarı var idi. Qalanın qərb hissəsi nisbətən aşağı idi və həmin istiqamətdə də iki divar var idi. Bu divarların bir darvazası var idi

və həmin darvazadan aşağı bir yol düşürdü. Bu yol qala ilə kənar aləmi birləşdirən yol idi və bu yol o qədər dar idi ki, onun üzərindən hətta bir atlının keçməsi belə çox çətin idi. Qalanın şərq hissəsində divar ətrafı sahələr daşlıq sahələr idi və bu sahələrdən qala divarları altına lağım atılması çox çətin idi. Şərq tərəfdə qala divarlarına yaxın bir ərazidə böyük və olduqca hündür bir bürc də tikilmişdi. Bu bürc əslində, kiçik bir qalanı xatırladırdı. Həmin bürc düşmən qüvvələrin bu istiqamətdən qala divarları altına lağım işlərini aparılmasını nəzarət altında saxlamaq üçün tikilmişdi. Bu bürcü ələ keçirmədən onun ətrafında səngər qazılması və lağım atılması mümkün deyildi. Dəmdəm qalasının tikintisində dövrün ən qabaqcıl hərbi təfəkkürü ortaya qoyulmuşdu və bu qalanın həm qorunması, həm də yaşayış üçün çox geniş imkanlar nəzərdə tutulmuşdu. İstifadəyə zəruri olan suyun toplanması üçün böyük bir hovuz düzəldilmişdi və həmin hovuz yağış suyu ilə doldurulurdu. Qalanın şimal tərəfində bir çeşmə də var idi. Bu çeşmənin üstündə də xüsusi bir hovuz tikilmişdi. Bu hovuz bütün gecə çeşmə suyu ilə doldurulur, gün ərzində isə həmin hovuzun suyu qala sakinlərinin istifadəsinə verilirdi. Hovuzun üstündə bir kümbəz də düzəldilmiş və onun arxası torpaqla doldurulmuşdu. Bu yolla su mənbələri kənar nəzərlərdən gizlədilirdi. Hovuz və onun üstündəki kümbəz qala sakinləri tərəfindən Suluq adlandırılırdı. Hovuzxananın və su mənbəyinin mühafizəsi üçün qala divarlarına bitişik olan hündür bir bürc də tikilmişdi. Qalanın cənub tərəfində isə buzxana hazırlanmışdı. Qış fəslində bu buzxana qar və buzla doldurulurdu. Yayda onun suyu əridikcə buzxananın altında olan hovuzu doldururdu. Həmin sudan da sakinlər istifadə edə bilirdilər. Buzxana da xüsusi bir tikinti idi və onu Buzluq adlandırırdılar. Buzxana və onun ətrafı da daimi mühafizə altında idi. Amma bütün bunlar Hatəm bəyi heç də çəkindirmədi və o, qalanın mühasirəyə alınması haqqında əmr verdi (266).

Görünür, Hatəm bəy bu qalanın möhkəmliyi barəsində Şah Abbasa məlumat çatdırmışdı. Çünki qala mühasirəsinin başladığı günlərdə Şah Abbas tərəfindən Hatəm bəyin köməyinə əlavə qüv-

vələr də göndərildi. Həmin qüvvələrə Səfərqulu bəy Yüzbaşının rəhbərliyi altında 500 nəfərlik Mazandaran tüfəngçisi və çegəni tayfa qorçuları, habelə Gəncəli xanın rəhbərliyi altında Təbriz dəstəsi daxil idi. Mühasirə işinin daha səmərəli aparılması üçün qoşun dəstələrinə konkret vəzifələr müəyyənləşdirildi və qala divarlarının müxtəlif hissələri onlar arasında bölüşdürüldü. Qalanın şərq tərəfinin ələ keçirilməsi Həsən xana və Mirfəttahın rəhbərliyi altında olan İsfahan tüfəngçilərinə tapşırıldı. Qalanın aşağı hissəsi hesab edilən qərb tərəfinə Pir Budaq xanın rəhbərliyi altında olan qoşun dəstəsi göndərildi. Xorasan və Bafqi tüfəngçiləri də onun köməyinə verildi. Qalanın cənub hissəsində yerləşmiş Buzluq qalaçasının ələ keçirilməsi Muradxan sultan Çini, Xəlil xan Silsüpür və Məmmədtağı bəyin rəhbərliyi altında olan Azərbaycan tüfəngçilərinə tapşırıldı. Həmin istiqamətdə yerləşən qala darvazasının ələ keçirilməsi isə Gəncəli bəyə tapşırıldı. Səfərqulu bəyin rəhbərliyi altında olan Mazandaran tüfəngçiləri çegəni qorçuları ilə birlikdə Suluq bürcünün yerləşdiyi şimal tərəfə göndərildilər. Qala ətrafına gətirilmiş bütün toplara rəhbərlik Qəban sultana tapşırıldı və ona göstəriş verildi ki, qala vuran toplar atəş üçün döyüş vəziyyətinə gətirilsinlər. Mühasirənin başladığı günlərdə cəlalilərin rəhbəri olan Məhəmməd paşa xəstələnmişdi. Buna baxmayaraq, onun tapşırığı əsasında cəlalilər də qalanın alınmasına cəlb edildilər (267).

Hatəm bəy tərəfindən qalanın alınması üçün əsaslı işlər görülməsi Əmir xanı ciddi təşvişə saldı. Qala ətrafında güclənməkdə olan təhlükənin sovuşdurulması üçün o öz adamlarını Hatəm bəyin yanına göndərdi, həmin adamlar vasitəsilə şah hakimiyyətinə bağlılığını, habelə xoş sözlərini çatdırdı. Amma artıq Əmir xana etibar qalmamışdı və ona görə Əmir xanın söylədikləri onun növbəti hiyləsi kimi qəbul olundu. Əmir xan artıq çıxış yolunun qalmadığını görəndə qalanın müdafiəsi üçün əməli işlər görməyə başladı. Bununla belə, qala daxilində Əmir xanı dəstəkləməyən sakinlər də var idi. Onlardan bir neçəsi özlərini qala divarlarından aşağı ataraq Hatəm bəyin düşərgəsinə gəldilər. Bu insanlar qala

daxilindəki vəziyyət haqqında məlumat verərkən bildirdilər ki, sakinlər sudan əziyyət çəkməkdədirlər. Çünki havalar quraqlıq keçdiyindən su hovuzlarına yetərincə su yığılmamışdı. Hovuzların birindəki su köhnəldiyindən onu yalnız heyvanlara verirdilər Suluq adlanan bürcdə az miqdarda içməli su qalmışdı ki, onu da sakinlərə qab-qab paylayırdılar (268).

Hər iki tərəf xüsusi bir inadkarlıqla qala döyüşlərinə başladılar. Hatəm bəyin rəhbərliyi altında olan qüvvələr yalnız qalanın mühasirə edilməsi ilə kifayətlənmədilər. Onlar qala divarları üzərinə davamlı hücumlar təşkil etdilər. Qaladakı bəradust kürdlərinin qarnizonu da fəal müdafiə mövqeləri tutdular. Onlar da yalnız qala daxilində müdafiə olunmaqla kifayətlənmir, tez-tez qala xaricinə çıxaraq qızılbaş dəstələri üzərinə hücumlar edirdilər. Qızılbaş dəstələrinin qala xarıcında olan bütün mövqeləri tez-tez kürd dəstələrinin hücumuna məruz qalırdı. Bəzən qızılbaş döyüşçüləri qala daxilindən atılan oxlardan və güllərdən başlarını qaldırmağa imkan tapa bilmirdilər. Belə ciddi müqavimətin olmasına baxmayaraq, qızılbaş döyüşçüləri bir addım da olsa geri çəkilmədilər. İsgəndər bəy Münşinin yazdığından bəlli olur ki, qala daxilindəkilər bir dəfə hətta qızılbaşların səngərinə də daxil ola bildilər. Bu səngərdəki qızılbaş döyüşçüləri qəfil hücum qarşısında toparlanınca itkilərlə qarşılaşmalı oldular. Səngərdəki qızılbaşlar qətlə yetirilsə də onları yeniləri əvəzlədi və bununla da səngərin kürd döyüşçülərinin əlinə keçməsinə imkan verilmədi. Qızılbaşların fədakarlığı nəticəsində həmin səngər ətrafında kürdlər daha çox itki verməli oldular (269).

Qalanın tezliklə fəth edilməsinə nail olunması üçün Hatəm bəy əsas diqqəti Suluqun, yəni qalanın su anbarının ələ keçirilməsinə yönəltdi. Su hövzəsinin ələ keçirilməsi ilə qala qarnizonunu diz çökməyə məcbur etmək olardı. Ona görə də qalanın mühasirəsinin davam etdiyi bir neçə ay ərzində əsas döyüşlər də elə Suluq ətrafında cərəyan etdi. Qala daxilindəkilər su çatışmazlığı ilə qarşılaşdıqları üçün qadınları və uşaqları müxtəlif yollarla qaladan uzaqlaşdırmağa müvəffəq oldular. Qala ətrafındakı döyüş-

lərin necə gərgin keçdiyini bu döyüşlərin şahidi olmuş İsgəndər bəy Münşinin təsvirlərindən də görmək mümkündür. O, qala ətrafında baş verən döyüşlərdən birini belə təsvir edirdi: “O əsnada kürdlər hücum etdilər, qəflətən qazilərin arxa tərəfindən tökülüşdülər və tərəflər arasında qılınc cəngi başlandı. Bürcün və qalanın üstündən tüfəng gülləlləri yağmaqdaydı. Bina görə də qazilərə heç yandan kömək gəlmirdi. Qazilərin əlləri işdən və döyüşdən soyudu, onlar geri qayıtdılar, [amma] bu yürüş zamanı bir çox igid və cavan döyüşçü öldürüldü və yaralandı, Həsən xan isə etdiyi cahilanə döyüşdən (cəladət) xəcalətli və pərişanxatır oldu. Daha işişdən keçdiyi üçün, alicənab [Hatəm bəy] ona təsəlli verdi, əlbəttə, qala fəthi zamanı qoşunçəkmə (sepahigəri) aləmində belə işlərsiz keçinmək olmur. Çahxuların işlədikləri vaxtdan bir neçə gün keçdikdən sonra hələ yolun altı ilə gedib çeşmə başına (sərçeşmə) çata bilmirdilər. Heyrətdə idilər ki, lağımı hansı tərəfə atsınlar. Məcbur olub irəlilədikləri hər qədəmdə bir dəlik açır, lağımın üstünə bir nişan (əlamət) qoyub, onun hansı tərəfə istiqamət götürdüyünü müəyyən etmək istəyirdilər. Buna görə də kürdlər həmin nişanları görərək, Suluq məsələsindən xəbərdar oldular. Onlar su azlığından tab-taqətsiz olaraq, balıq kimi iztirab toruna düşüb çapalamağa başladılar, hər gecə lağıma tərəf tökülüşüb Mazandaran tüfəngçiləri, çegəni qorçiləri və lağımın sərkarı və qoruyucusu olan Səfərqulu bəylə cəngə girir, böyük ciyqələşlər (?) edirdilər. Bir gecə də hərbsiz ötmür, çahxular işləməkdən ötrü fürsət tapmırdılar. Üç aya qədər-ramazan, şəvval və zilqədə aylarınadək (28 noyabr, 1609 – 24 fevral 1610) çarpışma belə davam etdi” (270).

Amma Dəmdən qalasının mühasirəsi heç də 1610-cu ilin fevralında başa çatmadı. Bir tərəfdən yaz qabağı yağan yağışlar qala daxilində su ehtiyatlarını artırdı və bu da qala daxilindəkilərin təminat vəziyyətini yaxşılaşdırdı. Digər tərəfdən Səfəvi hakimiyyətinə itaətini bildirmiş cəlalilər arasında baş verən parçalanma və onların müəyyən hissəsinin yenidən Osmanlı hakimiyyətinə meyl etməsi qızılbaş qüvvələri arasında da müəyyən anlaşılmazlıqlara yol açdı.

Osmanlı daxilində cəlalilər hərəkatının yatırılması və onların Osmanlı ərazisindən qovulması müəyyən daxili qüvvələri razı salsa da, müəyyən qüvvələri də razı salmamışdı. Sultan Əhməd də cəlalilərin böyük bir hissəsinin sağ qalaraq Səfəvi hüdudlarına pənah aparması ilə razı deyildi. Bu hərəkatın yatırılmasında sədrəzəm Murad paşanın böyük xidmətləri var idi. Cəlalilər Səfəvi hüdudlarına pənah apardıqdan sonra Osmanlı daxilində onların təəssübkeçləri də tapılıb məhv edildi və bununla da cəlali söhbətlərinə Osmanlı daxilində son qoyuldu. Amma saray mənsubları və eləcə də Sultan Əhməd üçün Səfəvi hüdudlarına pənah aparmış on mindən artıq cəlali potensial təhlükə kimi qəbul olunurdu. Sultan Əhməd cəlalilərlə bağlı öz münasibətini Murad paşaya belə bildirdi: "Üsyankarların dəfi xüsusunda etdiyin çoxlu səylərə baxmayaraq, nəticə etibarilə məsələ yaxşı sonluqda bitməmişdir və sən on iki min xunxar döyüşçünü qızılbaşlara birləşdirmisən. Bu məsələnin həll yolu bu idi ki, gərək sən bütün cəlalilərə qalıb gəldikdən sonra onları əfv edərək öldürülməyəcəkləri barədə arxayınlaşdıraydın. Belə olan halda, onların əzəmətli böyüklərindən yalnız bir neçəsi əfv olunacaqlarına inanmayıb [qızılbaşlar] tərəfə gedə bilərdi, amma öldürülməyəcəklərinə inanan bütün cəlali qoşunu öz vətənlərini tərk etməzdi" (271)

Sultan Əhmədin razılığı ilə Səfəvi hüdudlarına pənah aparmış cəlalilər arasında təbliğat aparılmasına və onların yenidən Osmanlı daxilinə cəlb edilməsi işlərinə başlandı. Bu məsələdə sərhəd vilayətlərinin hakimləri xüsusilə fəallıq göstərdilər. Çünki aydın idi ki, cəlalilərin basqınları ilk növbədə sərhəd vilayətlərinə yönələcəkdi. Diyarbəkr hakimi Nəsuh paşa öz adamlarını cəlalilərin yanına göndərdi, onlara yazılı vədlərini çatdırdı. Cəlalilərə təklif olundu ki, öz vətənlərinə qayıtsınlar. Bu zaman onlara sözsüz ki, can və mal zəmanəti də vəd olunurdu. Nəsuh paşanın təklifləri cəlalilərin rəhbərləri olan Məhəmməd paşa ilə Qara Səidə də çatdırıldı. Məhəmməd paşa ilə Qara Səid Osmanlı dövlətinə qarşı etdikləri cinayətlər qarşısında irəli sürülən təklifləri qəbul etmədilər. Cəlalilərin əsas kütləsi isə Osmanlı hüdudlarına qayıtmağa razı ol-

duqlarını nümayiş etdirdilər. İlkin olaraq Ağa Çidan Pir adlı bir cəlali dəstə rəhbəri beş yüz nəfərlik dəstəsi ilə gizli şəkildə Səfəvi ərazisini tərk etdi və Bağdad ətrafına yollandı. Hatəm bəy bu xəbəri eşitdikdə Məhəmməd pasağı yanına dəvət etdi, baş verən hadisə və bu hadisənin törədə biləcəyi fəsadlar barəsində onunla məsləhətləşdi. Hatəm bəy digər cəlali dəstələrinin də gizli şəkildə yenidən Osmanlı ərazisinə qayıda biləcəyindən ehtiyatlanırdı. Məhəmməd paşa, Kökəc Məhəmməd adlı başqa bir dəstə rəhbərinin də öz adamları ilə birlikdə qaça biləcəyini söylədi. Digər dəstə rəhbərlərinin isə qaça biləcəyini Məhəmməd paşa ehtimal etmədi. Bununla belə, Hatəm bəy baş verən hadisə haqqında Şah Abbasa məlumat göndərdi. Cəlalilərin geri qayıtmalarının qarşısını almaq üçün Şah Abbas da Kökəc Məhəmmədə bir məktub yazdı, ona öz şəfqətini və qayğısını bəyan etməklə onu saraya dəvət etdi. Kökəc Məhəmməd bu dəvəti qəbul etdi və dəstəsinin bəzi nümayəndələri ilə birlikdə şah hüzuruna yollandı. Şah tərəfindən digər cəlali dəstə rəhbərlərinə də məktub ünvanlandı. Həmin məktubda da bütün cəlalilərə hörmət və ehtiram bəyan edildi. Məktubda deyilirdi: "Onlar qərib adamdırlar, bu məmləkətə gəlib bizim mehmanlarımız olmuşlar və ölkəmizdə yaşayırlar. Biz gərək onlardan öz mehmannəvazlığımızı əsirgəməyək. Əgər bu vilayətdə yaşamaq istəməsələr, məşhur zərbülməsəldə deyildiyi kimi, "mehmanın gəlməyi öz istəyi, getməyi isə icazə ilədir", biz onların istəyinə qarşı çıxa bilmərik və onları incitmək bir mizban kimi bizə çayiz deyildir. Buradan çıxıb getmək istəyən hər kəsin fərar arını bəyənib, qızılbaş tayfasını mehmannəvazlıqda taxsırlandırıb bədnam etmək məgər lazımdırmı? Xəbərdarlıq etməklə və sərhəd hakimlərinin müşayiəti (bədrəqe) ilə əgər sağ-salamat çıxıb getsəniz bizim tərəfimizdən sizə heç bir maneçilik olmayacaqdır" (272).

Şahın bu məktubunu alınandan sonra Hatəm bəy bütün cəlali əmirlərini və dəstə başçılarını yanına topladı və şahın inayəti onlara çatdırıldı. Məclisdə olanlar hamısı bir ağızdan şaha öz təşəkkürlərini çatdırmaqla bərabər, qarşılaşdıqları mehribanlıq və qayğıdan sonra Səfəvi ərazilərini tərk etmək niyyətində olmadıqlarını

bildirdilər. Bütün cəlalilər bildirdilər ki, onların geri getməsinə heç bir səbəb yoxdur və kiminsə geri qayıtması onların da xəcalətli olmasına yol aça bilər. Lakin sonrakı hadisələr göstərdi ki, bu verilən vədlər heç də səmimi deyilmiş. Məhəmməd paşa da şiddətlənən xəstəliyi üzündən cəlaliləri artıq öz nəzarəti altında saxlaya bilmirdi. Hatəm bəyin yanında baş verən toplantıdan bir neçə gün sonra cəlalilərin daha iki min nəfəri Səfəvi hüdudların tərk etdi və Diyarbəkr hakimi Nəsuh paşanın yanına üz tutdu. Xəstəliyin şiddətlənməsi üzündən Məhəmməd paşa Urmiyəyə yollanmaq istəyəndə onun ətrafında olmuş bir min nəfərədək mülazim də Səfəvi ərazisini tərk edib yenidən Osmanlı hüdudlarına döndülər. Onların getməsindən iki gün sonra Məhəmməd paşanın ən etibarlı adamlarından biri olan İbrahim ağa da ətrafında olan yeddi-səkkiz yüz nəfərlik bir dəstə ilə geri qaçmaq yolunu tutdu. İbrahim ağa yola düşməzdən əvvəl Məhəmməd paşaya məxsus olan atları da ələ keçirib özü ilə apardı. Məhəmməd paşa atlarının qarət olunması xəbərini eşidəndə ona sadiq olan iki-üç yüz nəfərlik bir dəstə ilə onların təqibinə yollandı. İbrahim ağanın dəstəsinə yetişəndə  o dəstədən bəziləri Məhəmməd paşanın yanına gəldilər və ona dedilər ki, səninlə duz-çörək kəsdiyimiz üçün döyüşə girmək istəmirik. Məhəmməd paşaya təklif olundu ki, özünü və digərlərini əziyyətə salmadan geri dönsün, döyüşə girməsin. Yoxsa bu döyüşün nəticəsi heç də onun xeyrinə olmaz. Məhəmməd paşa bu təklifi qəbul etmək məcburiyyətində qaldı. Çünki Məhəmməd paşanın dəstəsi İbrahim ağanın dəstəsindən az idi və həmin dəstəyə üstün gəlmək imkanı yox idi. Məhəmməd ağa qarət edilmiş atlarını geri qaytara bilmədən Dəmdəm qalasına tərəf üz tutdu. Burada o, son günlərini keçirdi. Aparılan türkəçarə müalicələr heç bir nəticə vermədi və bir müddətdən sonra Məhəmməd paşa dünyasını dəyişdi. Onun ölümündən sonra cəlalilər arasında çaxnaşmalar daha da artdı. Qara Səid ilə bir neçə yüz cəlali Səfəvi hüdudlarında qalmağı və şah hakimiyyətini qəbul etməyi qərarlaşdırdılar. Qalan cəlalilər isə qaçıb dağılışdılar (273).

Beləliklə, şah sarayı tərəfindən qarşılanmaları və məskunlaşmaları üçün böyük xərclər çəkilən cəlalilərdən Osmanlı dövlətinə qarşı müqavimət göstərilməsində istifadə edilməsinə bəslənən ümidlər özünü doğrultmadı. Kifayət qədər sabit marama malik olmayan cəlalilər gəldikləri kimi də dönüb geri qayıtdılar və yenidən Osmanlı hüdudlarında məskunlaşdılar. Bununla belə, Dəmdəm qalasının mühasirəsi davam etdirildi. Çünki bir tərəfdən şah hakimiyyətinə qarşı itaətsizliyin aradan qaldırılması hakimiyyətin möhkəmləndirilməsi baxımından əhəmiyyət kəsb edirdi. Digər tərəfdən isə Dəmdəm qalası Osmanlı sərhədlərinə yaxın strateji bir mövqedə yerləşirdi. Dəmdəm qalasının nəzarət altına alınması Osmanlı sərhədləri yaxınlığında möhkəmlənmək baxımından da hərbi əhəmiyyət kəsb edirdi.

Görünür, Həsən xanın tutduğu mövqe qalanın tutulması üçün daha böyük əhəmiyyət kəsb edirdi. Ona görə də Hatəm bəy onun mövqelərinə doğru hərəkət etdi. Hatəm bəy əvvəlcə Səfərqulu bəyin səngərində dayandı. Burada olarkən, Hatəm bəy səngərlərin qurulmasına və mövqelərin qala divarlarına yaxınlaşdırılmasına diqqəti daha da artırdı. Qalanın ətrafı daşlıq və qayalıq ərazi olduğu üçün səngər qazılması mümkün deyildi. Ona görə də şah qoşunlarında olan ustalar tərəfindən böyük səbətlər toxunur və sonra da kənardan döyüşçülərin daşıyıb gətirdikləri torpaqla doldurulurdu. Qızılbaş döyüşçüləri qala müdafiəçilərinin top və tüfəng atəşlərindən bu səbətlərdəki torpağa arxalanmaqla qoruna bilirdilər. Qala divarlarının fəth edilməsi üçün qızılbaşlar yuxarıdan atılan atəşlərindən müdafiə olunmaqla bərabər, həm də səbətləri divarlara yaxınlaşdırmağa çalışırdılar. Bununla, qızılbaş döyüşçüləri özləri də qala divarlarına yaxınlaşırdılar. Səbətlərin irəli hərəkət etdirilməsi üçün də xüsusi bir fədakarlıq göstərilməsinə ehtiyac var idi. Bir dəstə qalın taxtaların və ya ağac parçalarının üzərinə dəmir çəkməklə onlardan qalxan kimi istifadə edib irəliləyir və bununla digər qızılbaşlara səbətlərin irəli sürüklənməsinə şərait yaratmağa çalışırdılar. Qarşı tərəfin açdığı atəşlərə tuş gəlməmək üçün mövqelərin irəli çəkilməsi əsasən, gecə vaxtlarında baş ve-

rirdi. Bu yolla bir neçə gündən sonra qala divarlarına xeyli yaxınlaşmaq mümkün oldu. Qızılbaş döyüşçüləri qala divarlarında kərpiclə gil təbəqələri arasına yerləşdirilmiş ağac parçalarını çıxararaq onlara od vurdular. Həmin günlərdə qalanın dərə tərəfdəki divarını bir hissəsini uçurmaq mümkün oldu. Bu divar üzərindəki qala müdafiəçiləri də divarla birlikdə dərəyə yuvarlandılar. Divarın uçurulmasından xəbər tutan kimi Hatəm bəy həmin istiqamətdəki bürc üzərinə hücum əmri verdi. Qızılbaş döyüşçüləri də dərhal irəli atıldılar. Qala müdafiəçilərinin bütün cəhdlərinə baxmayaraq həmin bürcü qorumaq mümkün olmadı və qızılbaş döyüşçüləri bu bürcü ələ keçiridilər (274).

Qala bürcünün birinin alınması və qala daxilinə yol açılması bütünlükdə qalanın ələ keçirilməsinə zəmin yaratdı. Amma qala qarnizonu heç də müqavimətdən əl çəkmədi. Bu qarnizonun döyüşçüləri yaxşı bilirdilər ki, qalanın ələ keçməsi onların həyatının sona çatması deməkdir. Ona görə də onlar bütün güclərini sərf edərək müqavimət göstərirdilər. İlk bürcün dağıdılmasından sonra qızılbaş qüvvələri on gün ərzində qala ətrafındakı səngərlərin qala divarlarına yaxınlaşdırılması ilə məşğul oldular. Bu cəhdlərin böyük toplardan aşılan atəşlərlə tamamlanması isə Əmir xanı çıxılmaz vəziyyətə saldı. Qala qarnizonunun bir sıra kürd döyüşçüləri və Əmir xanın tərəfinə keçmiş bir dəstə cəlali fürsət taparaq qala xaricinə çıxdılar və şah qoşunları tərəfinə keçməyə hazır olduqlarını bildirdilər. Hatəm bəy onların bu istəyini xoş məramla qarşıladı və onları hətta qiymətli hədiyyələrlə mükafatlandırdı da. Artıq qalanın təslim olmasının qaçılmazlığı bəlli oldu. Qala daxilindəkilərin müqavimətinin çox da uzun çəkməyəcəyi göz qarşısında idi. Onun təslim alınması kimsədə şübhə doğurmadığı bir vaxtda Hatəm bəy gözlənilmdən, elə qala divarları kənarında dünyasını dəyişdi. Bu hadisənin 1610-cu ilin may ayının ortalarına yaxın, bəzi məlumatları görə isə 1609-cu ilin may ayında baş verdiyi bildirilir (275).

Hatəm bəyin dünyasını dəyişməsi Şah Abbas tərəfindən dərin hüzn və təəssüflə qarşılandı. Bu insan Şah Abbasın ən yaxın silah-

daşlarından birinə çevrilmişdi. Şah Abbas onun zəkasına, biliyinə, qabiliyyətinə və idarəçilik təcrübəsinə böyük hörmət və etimadla yanaşırdı. Şah tərəfindən bu böyük dövlət adamının dəfninin təşkili üçün lazımi göstərişlər verildi. Hatəm bəyə olan ehtiramının qarşılığı olaraq Şah Abbas onun övladlarına və yaxınlarına böyük qayğı ilə yanaşdı. Hatəm bəyin Mirzə Tahir xan adlı oğlu şah tərəfindən onun yerinə təyin olundu. Mirzə tahir xanın yaşı elə də çox deyildi. Amma gənc olmasına baxmayaraq, o, dövrünün ən savadlı, biliklə, nəsr və nəzmdə seçilən, ədəb və kamalda kimsədən geri qalmayan birisi idi. Ona görə də Şah Abbas onu öz vəziri vəzifəsinə təyin etdi (276).

Hatəm bəyin qəflətən dünyasını dəyişməsi, yəni qoşunların başsız qalması qızılbaş döyüşçüləri arasında bir ruh düşgünlüyü ilə qarşılandı. Bu barədə Şah Abbasa da xəbər göndərildi. Hatəm bəy dəfn üçün Təbrizə aparıldı. Qalanın tutulması isə bir neçə günlüyə təxirə salındı. Dəmdəm qalası ətrafındakı şah qüvvələrinə yeni bir rəhbər təyin edildi. Bu vəzifə Məhəmməd bəy Biqdeli Şamlıya həvalə olundu. Qala ətrafındakı fəallıqların zəifləməsini görən bəzi qala sakinləri oradan uzaqlaşmaq niyyətindən əl çəkərək yenidən geri qayıtdılar. Məhəmməd bəy Biqdeli qala ətrafına yetişdikdən sonra əvvəlki fəallıqlar yenidən bərpa olundu. Məhəmməd bəy vəziyyətlə tanış oldu, qalanın tutulması imkanlarını araşdırdı və qətiyyətli hücuma başlamaq haqqında əmr verdi. Qala ətrafındakı səngərlərin hamısının divarlar yaxınlaşdırılması davam etdirildi, böyük toplar yenidən atəşlərini bərpa etdilər və onların atəşləri qala divarlarında dərin çatlar yaratdılar. Nəticədə qalanın yuxarı hissəsindəki bir neçə bürcü ələ keçirmək mümkün oldu. Buzluğu müdafiə edən qala döyüşçüləri isə müqavimət göstərməyin əbəs olduğunu gördükləri üçün qızılbaş döyüşçüləri ilə əlaqə qurdular və Buzluq bürcünü də təhvil verməyə hazır olduqlarını bildirdilər. Bununla, qalanın əsas hissəsi ələ keçirildi. Əmir xan isə narın qalaya çəkilərək orada müdafiə olunmaqda idi. O da artıq çıxış yolu qalmadığını görüncə Məhəmməd bəy Biqdelinin yanına adam göndərdi və təslim olmağa hazır olduğunu bildirdi. O, Mə-

həmməd bəydən xahiş etdi ki, özü onun yanına gəlsin, onu və oğlanlarını Şah Abbasın hüzuruna aparsın. Məhəmməd bəy bu xahişi qəbul etdi və qala daxilinə yollandı. Əmir xan da dediyi kimi, onun qarşısına çıxdı, özünü və böyük oğlunu ona təslim etdi. Əmir xanın yanında qalmış yüz nəfərə qədər zireh geyimli və tüfənglərlə silahlanmış döyüşçülər də təslim oldular (277).

Məhəmməd bəy göstəriş verdi ki, istər Əmir xana, istər onun yaxınlarına, istərsə də qala sakinlərinə qarşı kəskin hərəkətlər edilməsin, onlara qarşı cəza tədbirləri həyata keçirilməsin. Aydın idi ki, neçə aydan bəri qala divarlar yanında mühasirədə dayanan və qala müdafiəçiləri tərəfindən çoxlu əziyyətlərə məruz qalan qızılbaşlarda qisas hissləri və əməlləri özünü göstərə bilərdi. Şəhər sakinlərinə qarşı əl qaldırılması qadağan edildi. Əmir xana Məhəmməd bəy tərəfindən çadırlar ayrıldı, onun mühafizəsi təmin edildi. Məhəmməd bəyin Əmir xana göstərdiyi iltifat qızılbaş əmirləri tərəfindən heç də məqbul sayılmırdı. Konkret olaraq, Həsən xan məsləhət bildi ki, Əmir xanı, onun övladlarını və yaxın adamlarını Məhəmməd bəy öz yanında saxlamasın, bu insanların ona qarşı silah qaldırmaq imkanını düzgün dəyərləndirsin. O təklif etdi ki, Şah Abbasdan göstəriş alınana kimi Əmir xan öz adamlarından ayrı saxlansın, onun yaxın adamları da hissə-hissə qızılbaş əmirlərinin nəzarəti altına verilsin. Belə olduğu halda Əmir xanın adamlarının birləşərək hansısa bir təxribata əl atmalarının qarşısını almaq mümkün olar. Məhəmməd bəy bu təklifin məqsədəuyğunluğunu qəbul etdi. Əmir xan da bu təklifi qəbul etmək və öz adamlarından ayrı qalmaq məcburiyyətini qəbul etməli oldu (278).

Amma təslim olmuş qala qarnizonu döyüşçülərinin özlərini dinc aparmamaları, adi bir anlaşılmazlıq üzündən onların qızılbaş əmirlərinə və onların xidmətçilərinə qılınc çəkmələri şah düşərgəsində Əmir xana və onun bütün adamlarına qarşı qəzəbi aşıbdaşdırdı. Kürd döyüşçülərinin isə əllərində qılınc ortaya atılmaları tərəflər arasında çox gərgin bir qarşıdurmanın baş verməsinə gətirib çıxardı. Qızılbaş döyüşçüləri onların heç birinə rəhm etmədilər. Hətta vaxtilə şah qoşunları tərəfinə keçmiş qala sakinləri də

qızılbaşların qılıncından qurtara bilmədi. Əmir xan da bu qarşıdurmada öz həyatını itirməli oldu (279).

Dəmdəm qalası ətrafında baş verənlər Şah Abbasa da çatdırıldı. Şah Abbas bu zaman şah qoşunları ilə Marağanın Gavdul adlanan məntəqəsində düşərgə salmışdı. Onun hökmünə əsasən, Gəncəli xan bir tüfəngçi dəstəsi ilə Dəmdəm qalası ətrafında qaldı. Oradakı digər qızılbaş qüvvələri isə geri qayıtdılar və Qaraçuq çəmənində şah qoşunlarına qoşuldular. Dəmdəm qalasının hakimliyi Məhəmməd bəy Biqdelinin qardaşı Qəban xana tapşırıldı. Qəban xan dərhal qalaya göndərildi. Onun yanında olan dəstənin xərclərinin ödənilməsi və qala daxili işlərin tənzimlənməsi üçün kifayət qədər maliyyə vəsaiti də ayrıldı. Qəban xan Dəmdəm qalasına yetişdikdən sonra Gəncəli xan oranı tərk edib şah düşərgəsinə qayıtdı.

Qeyd edildiyi kimi, Dəmdəm qalasının ələ keçirildiyi zamanlarda Şah Abbas da qoşun dəstəsi ilə bölgədə idi. Osmanlı sarayından elçi gəlməsi, sülh anlaşmasının əldə edilməsi üçün qarşılıqlı meylin özünü göstərməsi Şah Abbasın qərb sərhədləri üzərinə yürüşünü təxirə salsa da, o bölgəni tərk etmədi. Dəmdəm qalası ətrafında baş verənləri də Şah Abbas bölgədə olarkən izlədi və qalanın alınması ilə bağlı lazım olan vaxt öz müdaxilələrini də etdi. Dəmdəm qalası da, sərhəd bölgəsində məskunlaşmış kürd əhalisinin itaət altına gətirilməsi də Şah Abbasa görə Osmanlı dövləti ilə əldə edilə biləcək sülh anlaşmasını daha möhkəm və etibarlı edə bilərdi. Bölgədə isə Dəmdəm qalasından başqa digər məntəqələrdə də şah hakimiyyətindən qopmaq cəhdləri mövcud idi və həmin cəhdlərin aradan qaldırılmadığı təqdirdə Osmanlı dövləti ilə danışıqların daha arxayınçılıqla aparılması çətinləşə bilərdi. Sərhəd əyalətlərində şah hakimiyyətindən qopmaq cəhdlərinin biri də mokri tayfası tərəfindən edilmişdi. Bu tayfa Çavdul, Gavdul, Marağa, Sulduz, Miyanduab məntəqələrində məskunlaşmışdılar. Mokri tayfası Şah İsmayılın hakimiyyəti illərində Səfəvi hüdudlarına daxil edilmişdi və yalnız Şah Təhmasibin dünyasını dəyişməsindən sonra bu tayfanın rəhbərləri də şah hakimiyyətindən qop-

maq niyyətinə düşdülər. Şah Təhmasiblə Şah Abbas hakimiyyəti arasındakı qərarsızlıq dövründə mokri tayfasının rəhbərləri öz niyyətlərinə çata bildilər və onlar şah sarayına tabe olmaqdan imtina etdilər. Mokri tayfasının rəhbəri Əmirə bəy, Səfəvi sarayına deyil, Osmanlı sarayına tabe olmağı üstün tutdu. O hətta onun yanına göndərilmiş Səfəvi elçilərini də qətlə yetirməklə şah hakimiyyətindən qopmaq niyyətinin ciddi olduğunu ortaya qoydu. Onun dünyasını dəyişməsindən sonra Şeyx Heydər adlı oğlu tayfa əmirliyini öz üzərinə götürdü və o da şah sarayına qarşı itaətsizlik yolunu davam etdirdi (280).

Sonradan Şeyx Heydər, Səfəvi sarayı ilə yeni əlaqələr qurulmasını meyl etdi. Xüsusilə, Şah Abbas hakimiyyətə gələndən sonra Şeyx Heydər Səfəvi sarayı ilə əlaqələri daha da möhkəmləndirdi, bir neçə dəfə məktub yollamaqla Şah Abbasa öz sədaqətini ifadə etdi. Şah Abbas Azərbaycan üzərinə yürüş edəndə Şeyx Heydər də öz qoşun dəstəsi ilə şah qoşunlarına qoşuldu, Osmanlı nəzarəti altında olan ərazilərin azad edilməsində iştirak etdi. Onun bu hərəkətinə görə Şah Abbas bütünlükdə mokri tayfasının əvvəlki itaətsizliklərini bağışladı, hətta qızılbaş əmirləri tərəfindən idarə olunan Marağanı da Şeyx Heydərin hakimliyi altına verdi. Şeyx Heydər İrəvan qalası ətrafında Osmanlı qüvvələrinə qarşı aparılan döyüşlərdə həyatını itirdi. Şah Abbas ona olan ehtiramının qarşılığı olaraq mokri tayfasına rəhbərliyi və Şeyx Heydərin vəzifəsini onun kiçik yaşlı oğlu Qubad xana həvalə etdi. Qubad xan böyüyənə kimi isə onun işlərinin aparılmasını qızılbaş tayfalarından olan anasına tapşırıldı. Şah Abbas tayfa üzvlərinə də tapşırdı ki, kimsə Qubad xanın anasını sözündən çıxmasın. Qubad xan isə yaşa dolduqca böyük iddialara düşdü və nəticədə o, hər vasitə ilə şah sarayına bağlılıqdan uzaqlaşmağa çalışdı. Vaxt keçdikcə Qubad xanın itaətsizlikləri, özbaşınalıqları daha aydın şəkildə məlum oldu. Bu barədə xəbərlər Şah Abbasa da çatdırılırdı. Şah Abbas Qubad xanın bu hərəkətlərinə dözümlü şəkildə yanaşır və atasına olan ehtiramına görə ona ciddi cəzalar tətbiq edilməsindən çəkinirdi. Amma Qubad xanın itaətsizlikləri daha aydın və qaba şə-

kildə üzə çıxmağa başladı. Belə ki, 1609-cu ildə Hatəm bəy Dəmdəm qalası ətrafına göndəriləndə Qubad xandan tələb olundu ki, qoşun dəstəsi ilə bu qala ətrafına yollansın və qalanın ələ keçirilməsi işində Hatəm bəyə öz köməyini göstərsin. Qubad xan isə bu tələbi yerinə yetirməkdən imtina etdi. Bundan başqa o da məlum oldu ki, Qubad xanın göstərişi ilə onun adamları Osmanlı mənsubları ilə görüşür və Osmanlı sarayı ilə daha yaxın əlaqələr qurulmasına çalışır. Şah Abbas belə xəbərlərə də dözümlü yanaşırdı. Hətta Qubad xanın Dəmdəm qalası ətrafına yollanmaqdan imtina etməsinə qarşı da Şah Abbas sərt münasibət göstərmədi (281).

Şah Abbasa o da məlum oldu ki, Qubad xan Marağanın ətrafında məskunlaşmış olan şiə məzhəb sakinlərə qarşı ayrı-seçkilik edir, bu sakinlərə yersiz əziyyətlər verir, onların var-yoxunu əllərindən alır. Mokri tayfasının adamları da Marağanın şiə məzhəb sakinlərinə qarşı özbaşına hərəkətlərdən əl çəkmirdilər. Bütün bunlar isə Marağa əhalisinin böyük qəzəbi ilə qarşılanırdı və bu məsələ Şah Abbasa da bəlli olmuşdu. Şah Abbas Qubad xanın və onun mənsub olduğu tayfanın üzvlərinin qanunsuz hərəkətlərinə dözümlə yanaşsa da, belə əməllərin davam etməsini də istəmirdi. Mokri tayfasının belə əməlləri Səfəvi-Osmanlı münasibətlərinin sahmana salmasına da əngəl yarada bilərdi. Ona görə də Şah Abbas Dəmdəm qalası ələ keçirildikdən sonra Marağaya tərəf hərəkətə başladı. Məqsəd mokri tayfasının itaətsizik yolunu tutmuş üzvlərinə lazımi cəzanı vermək, bu tayfanın məskunlaşdığı ərazilərdə Səfəvi hakimiyyətini bütünlüklə bərpa etmək, Qubad xana dərs vermək idi. Göstərilən qayğının və dözümün qarşılığında qanunsuz əməllərini davam etdirən mokri tayfası Şah Abbasın qəzəbi ilə qarşılaşdı və Şah Abbas onlara qarşı qətiyyət nümayiş etdirdi. Bir müddətdən sonra şah qoşunları Qubad xanın məskunlaşdığı Gavdul qalası ətrafına gəlib çatdı. Qubad xan görəndə ki, Şah Abbas bu dəfə öz qətiyyətini göstərmək əzmindədir və onun çıxış yolu yoxdur, onda özü təxminən yüz əlli nəfərlik bir dəstə ilə onu hüzuruna yollandı. O, güman edirdi ki, Şah Abbasdan güna-

hının bağışlanmasını xahiş etməklə işləri öz yoluna qoya biləcəkdir. Bu isə baş vermədi. Qubad xanın dəstəsi şah dövlətxanasına gələndə onun bir neçə nəfərlə içəri daxil olmasına icazə verildi. Qubad xan və onun yanındakı iki-üç adam içəri daxil olan kimi, şah xidmətçiləri tərəfindən qətlə yetirildilər. Sonra növbə ilə Qubad xanın müşayiət edənlər bir-bir, iki-iki içəri buraxılmaqla dışarıdakıların xəbəri olmadan qətlə yetirildilər. Bundan sonra şah ordusu Gavdul qalasına daxil oldu və orada da itaətsizlik yolunda olan qala sakinlərinə qarşı ciddi cəza tədbirləri həyata keçirildi. Mokri tayfasına rəhbərlik və bu tayfanın məskunlaşdığı ərazilərə hakimlik şah hakimiyyətinə sədaqətli olan tayfa üzvlərindən birinə tapşırıldı (282). Bununla, qərb sərhədləri boyunca məskunlaşmış olan mokri tayfasının itaətsizliyi, mərkəzi hakimiyyətdən qopmaq cəhdi aradan qaldırıldı.

Şah Abbas təxminən bir aya qədər Marağa ətrafında qaldı. Bu məntəqənin hakimliyi Ağa bəy Müqəddəmə tapşırıldı. Onun mənsub olduğu müqəddəm tayfasının üzvləri əvvəllər Marağa ətrafında məskunlaşmışdılar. Amma bu bölgə mokri kürdlərinə həvalə olunandan sonra mokrilər orada xeyli çoxalmışdı. Müqəddəm tayfasının Marağada və onun ətrafında məskunlaşdığı zamanlar orada şah hakimiyyətinə bağlılıq daha güclü idi. Mövcud olan məlumata görə, kürd tayfalarından böyük əziyyətlər görən müqəddəm tayfasından on iki min ailə Marağa ətrafını tərk etməli olmuşdu. Bu ailələr şah sarayının qərarı ilə Qızılüzəndə, Zəngənərud çayı hövzəsində yerləşdirilmişdi. Ağa bəy Müqəddəm Marağa hakimi təyin olunandan sonra bu ailələr yenidən Marağa ətrafına köçməyə başladılar. Müqəddəm tayfasının Marağa ətrafında yenidən üstünlük təşkil etməsi isə öz növbəsində bu məntəqədə şah hakimiyyətinin sabitliyi demək idi.

Marağa hakimi təyin olunduqdan sonra Əli bəy Müqəddəm tayfadaşları ilə birlikdə bu şəhərin abadlaşdırılması istiqasmətində səmərəli işlər görməyə başladı (283).

## 12. Səfəvi-Osmanlı münasibətlərinin yenidən gərginləşməsi

Marağa istiqamətində hakimiyyətin möhkəmləndirilməsi işləri tamamlandıqdan sonra Şah Abbas Təbrizə qayıtdı. Elə həmin vaxtda da Osmanlı sarayı ilə sülh müzakirələrinin canlandırılması yenidən diqqət mərkəzinə gəldi. Osmanlı sarayından təxminən bir il əvvəl sədr-əzəm Murad paşanın məktubunu gətirmiş Xeyrəddin Çavuş bu zaman hələ də Səfəvi hüdudlarında qalmaqda idi və onun geri qayıtması üçün şah tərəfindən icazə verilməmişdi. Sülh anlaşmasının əldə edilməsinin sürətləndirilməsi üçün qərara alındı ki, Xeyrəddin Çavuşun geri qayıtmasına icazə verilsin və Osmanlı sarayı ilə danışıqlar aparmaq üçün Məhəmməd bəy Rumlu da Səfəvi sarayının elçisi kimi Xeyrəddin Çavuşla birlikdə İstanbula göndərilsin. Sədr-əzəm Murad paşanın xahişinə uyğun olaraq Şah Abbas da Osmanlı sultanına xoş məramlı bir məktub yazdı. Şah Abbasın həmin məktubunda belə bir fikir öz əksini tapmışdı: "Əgər o tərəf (osmanlılar – red.) mürüvvət və dostluq yolu (məsluk) ilə gedərsə, bu tərəf də bəyənilən (mərziyye) hərəkət, həmrəylik (vəfaq) və hüsni-ittifaq yolundan çıxmayacaqdır" (284).

Şah Abbas bir daha göstərdi ki, Osmanlı dövləti ilə sülh anlaşmasının əldə edilməsinə meyllidir. Lakin bu zaman onun şərti də var idi. Həmin şərt də ondan ibarət idi ki, Şah Təhmasibin hakimiyyəti dövründə mövcud olmuş sərhədlər bərpa edilsin və bu da sülh anlaşmasında öz əksini tapsın. Şah Abbas elçisi Məhəmməd bəy Rumluya da tapşırdı ki, Osmanlı sarayında danışıqları bu şərt əsasında aparsın. Bu şərtlə sülh anlaşmasının imzalanması üçün Məhəmməd bəy Rumluya şah tərəfindən lazım olan səlahiyyətlər də verildi. Lazımi tapşırıqlar alandan sonra Məhəmməd bəy Rumlu və Xeyrəddin Çavuş Təbrizi tərk edərək İstanbula doğru istiqamət götürdülər. Diyarbəkr şəhərinə yaxınlaşanda Məhəmməd bəy Rumluya xəbər yetişdi ki, Osmanlı qoşunları Murad paşanın rəhbərliyi altında Səfəvi hüdudlarına doğru hərəkətə başlamışdır. Belə olanda Osmanlı sarayına getməyin bir mənası da qalmırdı. Diyarbəkr bəylərbəyi Nəsuh paşanın köməyi ilə Məhəmməd bəy

Rumlu Ərzrumda Murad paşa ilə görüşə bildi, qoşunlarla Səfəvi sərhədlərinə doğru irəliləməsinin səbəbini soruşdu. Murad paşa da Səfəvi elçisinə belə bir cavab verdi: "Osmanlı əsgərlərinin [indi] bu tərəfə gəlişlərinə səbəb Ərzrum bəylərbəyisinin davranışı (esteğase) olmuşdur. O, bizə qasidlər göndərib belə ərz etmişdi ki, qızılbaş ləşkəri [Diyarbəkr] qalasına hücum edib oranı mühasirəyə almışdır. Bizim yürüşümüz elə bu səbəbdən lazım bilindi. Hal-hazırda, biz padşahın xəzinəsini ləşkərin cer-cehizinə (yəni təchizatına – red.) gen-bol xərcləyib əsgər toplayaraq [sizin] sərhədə yaxınlaşmışıq. Səlnətətin namusunu qorumaq və dost-düşmən söhbətlərinə son qoymaqdan ötrü bu səfəri başa yetirmək lazımdır. İnşallah sizin torpaqlara yaxınlaşdığımız zaman hər iki tərəfin adamları vəziyyətə müvafiq tərzdə danışıq aparacaqlar" (285).

Murad paşa Səfəvi dövləti ilə Osmanlı dövlətinin maraqlarına cavab verəcək bir anlaşmanın əldə edilməsi üçün təzyiq vasitəsinə əl atmışdı. Böyük sayda qoşunla Səfəvi sərhədlərinə doğru irəliləmək də bu məqsədə xidmət edirdi. Yəni Murad paşa öz təkliflərinin əksinə olaraq müharibə yolunu tutmuşdu. Belə olan halda sülh danışıqlarının aparılması mənasız bir tədbirə çevrilirdi. Şah Abbas bu xəbəri eşidən kimi, Osmanlı qoşunlarının hücumunun qarşılanması üçün lazımi tədbirlərin həyata keçirilməsi qərarına gəldi. Şah Abbas bu məsələ ilə bağlı belə bir fikir ortaya qoydu: "Gərək əmirlər və müzəffər əsgərlərdən ibarət bir qoşun yürüşə cəlb edilsin, Ərzrumadək gedərək, rum ləşkərinin keçəcəyi yerlərin otları yandırılsın, o vilayətin taxıl məhsulları daşınılsın, elə olsun ki, on günlük İrəvan yolunda bircə mən də buğda-arpa, saman və ot tapılmasın" (286).

Bu tapşırığın icrası Çuxursəəd bəylərbəyi Əmirgünə xana tapşırıldı. Verilən tapşırığın vaxtında və bütünlüklə icra edilməsi üçün Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu Qacar da vilayətin qoşun dəstəsi ilə birlikdə Əmirgünə xanın köməyinə verildi. Ondan başqa Əli xan Cavanşirin rəhbərliyi altında bir dəstə tüfəngçi, habelə sərhəd məntəqələrinin bəzilərinin hakimləri öz qoşun dəstələri ilə birlikdə Əmirgünə xanın sərəncamına göndəril-

di. Bütün bu dəstələr bir yerə toplaşdıqdan sonra Ərzrum istiqamətində hərəkətə başladılar. Ərzrum hakimi Həsən paşa qızılbaş qüvvələrinin yaxınlaşması xəbərini alınca vilayət qoşunlarının toplanması əmrini verdi. Bu qoşun toplandıqdan sonra Həsən paşa Ərzrumu tərk edib Həsənqalasına tərəf gəldi. Yəni Həsən paşa istəyirdi ki, şah qoşunları ilə Ərzrumdan kənarda qarşı-qarşıya gəlsin. Amma hadisələrin gedişi göstərdi ki, Həsən paşa qızılbaş qüvvələri ilə döyüşə girməyə heç də tələsmirdi. Çünki onun dəstəsi qızılbaş qoşunlarına yaxınlaşanda Həsən paşa geri çəkilmək əmri verdi. Çünki qızılbaş qüvvələri irəli getsələr də, Həsən paşa geri çəkilməyi üstün tutdu. Ona görə tərəflər arasındakı döyüş iki gün təxirlə baş tutdu. Həsən paşa bu döyüşdə qarşıya qoyulan məqsədə çatmaq üçün öz qüvvələrini qruplaşdırdı. O özü qoşunların sol cinahında mövqe tutdu. İlkin olaraq qoşunların ön dəstələri döyüşə başladılar. Bu dəstələrin döyüşü kifayət qədər gərgin keçdi. Osmanlı dəstələri döyüşün əvvəlində üstünlüyü ələ keçirə bildilər və nəticədə onlar bir qədər də irəlilədilər (287).

Bir məlumata görə, bu döyüş baş verəndə Məhəmməd xan Ziyadoğlu Qacarın rəhbərliyi altında olan Qarabağ qoşunları hələ gəlib çatmamışdı. Ona görə də Əmirgünə xan döyüşə girməyə bir qədər ehtiyatla yanaşırdı. Amma döyüşdən kənar qalmaq da ağır nəticələrə gətirib çıxara bilərdi. Çünki Osmanlı qüvvələrinin ilkin üstünlüyünün genişləndirilməsi qızılbaş qüvvələrini daha ağır duruma gətirib çıxara bilərdi. Bununla belə, Əmirgünə xan döyüşə girməyi qərara aldı. O da yanında olan bir min nəfərlik dəstəsi ilə ilkin olaraq Həsən paşanın qoşunlarının önə çıxarılmış dəstələri ilə qarşılaşmalı oldu. Əmirgünə xan özü də şəxsən iştirak etməklə bu döyüşlərdə nəyə qadir olduqlarını nümayiş etdirilər və müəyyən nigarançılığa malik olmasına baxmayaraq Əmirgünə xan rəhbərlik etdiyi dəstə ilə istəyində olduğu uğuru qazana bildi. Sonra isə Əmirgünə xan Həsən xanın əsas qüvvələri ilə qarşı-qarşıya gəldi. Elə həmin əsnada Qarabağın qoşun dəstəsi də özünü döyüş meydanına yetirdi. Bu dəstənin gəlişi ilə Əmirgünə xan daha əzmkarlıqla irəli atıldı və döyüşlər yenidən qızışdı. Həsən paşa öz dəs-

təsi ilə qızılbaşların qarşısında müqavimət göstərə bilməyərək geri çəkilmək məcburiyyətində qaldı. Döyüşdə üstünlüyü əldə edən qızılbaş qüvvələri Osmanlı dəstəsini Ərzruma qədər təqib etdi. Əmirgünə xan qızılbaş dəstələri ilə birlikdə bir neçə gün Ərzrum yaxınlığında düşərgə saldı. Həmin günlər ərzində qoşun dəstələri bölgədə olan ərzaq ehtiyatlarını məhv etdilər, yolları dağıtdılar, şah tərəfindən verilən tapşırığı icra etdilər və sonra da qələbə bayrağını qaldıraraq geri qayıtdılar (288).

Murad paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının Səfəvi sərhədlərinə doğru irəliləməsi xəbəri alınanda Şah Abbas Təbrizin yaxınlığındakı yaylaqlardan birində idi. O, Əmirgünə xanı Ərzrum istiqamətinə yollamaqla yanaşı həm də Murad paşanın qoşunları qarşısına çıxarılması üçün yetərli sayda qoşunun toplanması əmrini də verdi. Bu xəbər alınanda artıq 1610-cu ilin sonları yaxınlaşmaqda idi. Şah Abbas belə ehtimal edirdi ki, havaların soyuması ilə əlaqədar olaraq Murad paşanın Səfəvi hüdudlarına yürüşü təxirə də salına bilər. Lakin tezliklə Murad paşanın Səfəvi hüdudlarına doğru irəliləməkdə olması xəbəri alındı. Şah Abbas tərəfindən Murad paşa üzərinə gedəcək qoşunların Təbriz yaxınlığında sıra baxışı keçirildi. Bundan sonra Şah Abbas Osmanlı qoşunlarının hansı marşrutla irəliləyəcəyini müəyyənləşdirmək üçün Mərəndə adamlar göndərildi. Bu adamlar kəşfiyyat məlumatları toplayaraq şaha çatdırmalı idilər. Şah Abbas özü isə Təbrizə gəlib orada öz hazırlıqlarını davam etdirdi (289).

Təbrizdə olarkən Şah Abbas bir daha Murad paşadan məktub aldı. Murad paşa həmin məktubunda Şah Abbası inandırmağa çalışırdı ki, iki dövlət arasında sülh anlaşmasının əldə edilməsi niyyətindən hələ də əl çəkilməyib və qoşunları sərhəd xəttinə yaxınlaşması da bu sülhün əldə edilməsi istəyi ilə bağlıdır. Murad paşa öz fikrini Şah Abbasa belə çatdırmışdı: “Bu yürüşün əsas məqsədi faydalı sülh barədə qərar hazırlamaqdır, həzrət xandgar sülh və cəng barədə bir fikrə gəlinməsi məsələsini bu dövlətxahın məsləhət və rəyinə etibar etdiyindən, hər iki tərəfin əmniyyəti naminə gərək sülh təklifi hazırlanıb həyata keçirilsin. Biz şahın elçisini

ona görə yanımızda saxlamışıq ki, sülh danışıqları barədə tərəflər arasında saziş imzalansın və bundan sonra onu sizə qaytaraq" (290).

Mənbə məlumatlarına görə, Murad paşa bu məktubu özünün nüfuzlu əmirlərinin biri vasitəsi ilə Şah Abbasa göndərdi. Şah Abbas tərəfindən elçi göndərilmiş Məhəmməd Rumlu isə Osmanlı sarayına yola salındı. Osmanlı elçisi şah düşərgəsində mehribanlıqla qarşılandı. Bu elçi Şah Abbasın hüzurunda oldu, onun qiymətli hədiyyələri ilə mükafatlandırıldı (291). Şah Abbas dərhal Murad paşanın göndərdiyi məktuba cavab yazdırdı və onu Osmanlı elçisi ilə Murad paşaya göndərdi. Şah Abbasın məktubunun məzmunu belə idi: "O əzəmətli sərdar xeyrxahlıq edərək sülh danışıqları məsələsini ortaya gətirdiyi üçün biz də, Allah bəndələrinin (ibadullah) vəziyyətinin yaxşılaşmasından ötrü bu işə razılıq verib, o cənabın xahişi müqabilində sizə dostanə və sülhamiz bir namə göndərdik. Sözümüzü Məhəmməd bəy vasitəsilə sizə demişik. Əgər o tərəfdən rəhmətlik padşahlarımız arasında mövcud olmuş inamlı sülh sazişi yenidən bağlanarsa, biz də bu tərəfdən düşmənçiliyi aradan götürüb sizinlə sülhə gələrik. Belə olmayacağı halda hər iş Allahın iradəsi altında olduğundan, məsələ qeybdə olanlar (məkmən) tərəfindən həyata keçiriləcəkdir. Töhfə göndərilməsi barədə sizin etdiyiniz işarəyə gəldikdə isə, [deyə bilərik ki,] hələ sülh sazişi bağlanmadığından və belə bir düşmənçilik və cəng zamanı töhfə göndərmək [bizə] layiq hərəkət sayılmaz. Bir halda ki, indi sizin əzəmətli rəyiniz belə istəyir, biz istəmədik [sülh] məsələsinin əvvəlində sizin məsləhətinizi rədd edək. Buna görə də, dərhal (əcalətən) Hindistan məmləkətlərinin uca məqamlı hökmdarı Səlim şah tərəfindən bizə töhfə göndərilmiş və vəzni min səkkiz yüz misqal olan və hind zərgərlərinin nadir işi sayılan bir ənbər qoxulu qəribə bir şəmmaməni yeddi min ağırlığında qırmızı qızıldan qəribə şəkildə düzəldilmiş şəbəkəli (möşəbbək) bir qaba (zərf) qoyub sizə göndəririk. Bu ağırlıqda olan və qətiyyən atəş görməyən xam əşhəb olduqca az tapılır, ondan heç bir fateh məlik və sultanların xəzinəsində yoxdur. Məktubun boş qaytarıl-

mamasından ötrü biz [bu töhfəni] uca məqamlı Rum padşahına göndəririk. Əgər siz tərəfdən də bizə məhəbbət və birlik (ettehad) rayihəsi gələrsə və arada ülfət və aşınalıq qapıları açılarsa, [əlbəttə] sədaqət və dostluq yaranar. Bundan sonra göndəriləcək elçilər və başqa adamlar layiqli töhfə və hədiyyələrlə gələcəklər" (292).

Bu məktublaşmadan sonra bəlli oldu ki, Murad paşa İrəvan yolundan geri dönüb Çaldırana tərəf hərəkətə başlayıb. Xoya çatandan sonra Murad paşa üzünü Səlmasa tərəf çevirdi. Səlmas isə Təbriz yolunun üzərində idi. Murad paşa Təbrizə yetişmək üçün fərqli bir marşrut seçmişdi və şahidlərin ifadəsindən belə məlum olur ki, onun məqsədi heç də müharibəyə girmək deyildi. Belə bir şayiə yayılmışdı ki, guya Murad paşa hətta müharibə etmədən belə Təbrizə qədər getməyin mümkün olduğunu kimlərə isə sübut etmək istəyirmiş. Belə güman edilir ki, Murad paşa dinc şəkildə Təbrizə gəlmək və orada sülh danışıqlarını aparandan sonra dinc şəkildə də geri qayıtmaq istəyirmiş. Şah Abbas isə belə şaiyələr və gümanları ciddi qəbul etmədi və Murad paşanın rəhbərliyi altında olan böyük sayda Osmanlı qoşununu qarşılamaq üçün lazım olan hazırlıqlara da başladı. Bu məqsədlə Mərənd istiqamətində olan şah qoşunları geri çağırıldı. Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu Qacara və Çuxursəəd bəylərbəyi Əmirgünə xana göstəriş verdi ki, onlar məskunlaşdıqları qalaları etibarlı adamlara tapşıraraq öz qoşun dəstələri ilə şah düşərgəsinə gəlsinlər. Murad paşa tərəfindən Təbriz qalası üzərinə edilə biləcək hücumun qarşısının alınması üçün bu qalanın da möhkəmləndirilməsi işləri aparıldı. O cümlədən qalaya əlavə silah və ərzaq ehtiyatları toplandı. Qızılbaş qoşunlarındakı təkəli və türkman döyüşçüləri, qorçular Təbrizə çağırıldılar və onlar bu şəhərin müdafiəsinə vəzifələndirildilər. Pir Budaq xan da tapşırıq aldı ki, Təbrizin müdafiəsi işinə rəhbərlik etsin. Şəhərin müdafiəsinin gücləndirilməsi üçün Şah Abbasın göstərişi ilə bir neçə tüfəngçi dəstəsi də qalada yerləşdirildi. Şah tərəfindən eyni zamanda Təbriz ətrafındakı Şənbi-Qazanın müdafiəsi üçün də lazımi tədbirlər həyata keçirildi. Orada çoxlu sayda imarətlər, böyük tikililər, mədrəsə və xanəgah var idi.

Osmanlı qoşunları buranı ələ keçirməklə həm orada böyük dağıntılar yarada bilərdilər, həm də orada Təbriz üzərinə hücum üçün əlverişli mövqelər ələ keçirə bilərdilər. Şənbi-Qazana da əlavə qoşun dəstələri və tüfəngçi dəstələri göndərildi. Şah Abbasın tapşırığı ilə Osmanlı qoşunlarının Təbriz üzərinə hərəkət yolu üzərində olan əhali də başqa yerlərə köçürüldü. Bu insanlar malik olduqları ərzaq ehtiyatlarını da özləri ilə aparmalı idilər. Onların apara bilmədikləri ərzaq ehtiyatları şah anbarlarına daşınmalı və bu ərzağın dəyəri onun sahiblərinə ödənməli idi (293).

Osmanlı qoşunları Təbriz şəhərinə bir neçə günlük məsafəyə çatanda Şah Abbas və onun yaxın ətrafı şəhəri tərk etdi. Onlar Surxab dağından keçərək Acıçayın kənarında düşərgə saldılar. Bütün şah qoşunları buraya toplanmalı və gərək olduğu təqdirdə buradan hərəkətə başlamalı idilər. Nəzərdə tutulmuşdu ki, qoşunlar toplanana kimi, Osmanlı qoşunlarının müşahidəsi aparılsın, onların sayı, silahları, imkanları, hara hərəkət edəcəkləri barəsində məlumatlar toplansın və bu məlumatlara uyğun da qərar qəbul edilsin. Şah qoşunlarının toplaşmaqda olduğu günlərdə Rumeli bəylərbəyi Əli paşadan da şah düşərgəsinə məktub gətirildi. Həmin məktubun məzmunu belə idi: "Bizim buraya gəlməyimizin əsl məqsədi şahın yanında sülh şərtlərinin necə olacağı barədə danışıq aparmaqdır. Artıq qızılbaşlarla savaş unudulmuşdur. Bunun təsdiqinə misal bu yerlərdən keçib gəldiyimiz zaman qızılbaşların əllərindəki qalalardan bizə heç bir xəsarət yetirilməməsidir, həmçinin rum qoşunundan da heç kimə daha zərər sədəmə toxunmur. Məsləhətdir ki, Məhəmməd bəyin elçiliyi davam etdiyindən, yeni bir elçi də təyin edərək, onu töhfə və hədiyyələrlə rum sarayına göndərəsiniz" (294).

Məktubu gətirən Osmanlı elçisi şah düşərgəsində onu da çatdırmalı idi ki, Osmanlı tərəfi müharibə etməkdən əl çəkir və xahiş olunurdu ki, qızılbaş dəstələrinin Osmanlı dəstələri ilə döyüşə girməməsi üçün Şah Abbas tərəfindən göstəriş verilsin. Şah mənsubları tərəfindən bu məktuba da cavab yazıldı. Şah Abbasın razılığı ilə yazılmış bu məktubda da şah sarayının sülhə yönəlik iradəsi bir

daha öz ifadəsini tapdı. Məktubda deyilirdi: “Söz birdir! Bizim tərəfimizdən elçi göndərilən Məhəmməd bəy qızılbaş tayfasının mötəbər şəxslərindən və şahın etimadlı adamlarındandır. Əgər həzrət xandgar, dəfələrlə yazdıqları kimi, sülhə meyllidirsə, biz də buna razıyıq. Əks təqdirdə tərəflər arasındakı vəziyyət Allahın istədiyi kimi, olacaqdır. Qızılbaş döyüşçülərinin zəbt etdikləri yerlər və rumiyyəyə qarşı qızılbaş hücumlarının qadağan olunmasına dair təklifiniz işıqlı məsləhəti üçün şaha ərz olundu. Məşhur qızılbaş tayfalarının ixtiyarı yoxdur ki, onlar hümayun əmr və işarə olmadan ələ silah götürsünlər və cəngə başlasınlar. Amma, biz aciz adamların və rəiyyətin təhlükəsizliyindən ötrü hər tərəfə əmir və əsgərlər göndərmişik. Qarət və ehtiyat azuqə ələ keçirmək üçün müxtəlif yerlərə gedən sizin əsgərlərlə zərurət üzündən, əlbəttə, cəng olacaqdır. Əgər siz cəng etmək istəmirsinizsə öz adamlarınızın yollara çıxmalarını və ordunu tərk etmələrini qadağan edin. Töhfə və hədiyyələrin göndərilməsi üçün etdiyiniz işarə xüsusunda deyirik ki, inşallah sülh yaranan təqdirdə, həmçinin düşmənçilik məhəbbət və dostluqla əvəz olunacağı halda hər iki tərəfə layiq olan hədiyyələr göndərilməsi həyata keçiriləcəkdir” (295).

Bu hadisələr 1610-cu il noyabr ayının sonlarına təsadüf edirdi. Osmanlı qoşunları Təbriz yaxınlığına yetişdikləri vaxt şah qoşunları da artıq toplanmışdı. Əmirgünə xanın, Məhəmməd xan Ziyadoğlu Qacarın və digər hakim və əmirlərin rəhbərliyi altında olan qoşun dəstələri də gəlib şah düşərgəsinə yetişmişdilər. Osmanlı qoşunları rəhbərləri gəlişlərinin məqsədinin heç də hərb etmək olmadığını bildirsələr də, hər gün tərəflərin döyüşçüləri arasında silahlı qarşıdurma baş verirdi. Ərzaq ehtiyatlarının toplanması üçün yaşayış məntəqələrinə üz tutan Osmanlı döyüşçüləri qızılbaşların müqaviməti ilə rastlaşırdılar. Bu zaman ölən və yaralananlar da olurdu. Bütün bunları Murad paşa da müşahidə edirdi. Lakin Murad paşa dərhal qətiyyətli bir mövqe ortaya qoymadı və tərəflər arasındakı gərginliyə heç də son vermədi. O, bir tərəfdən istəyirdi ki, şah sarayına hansısa təzyiq göstərməyə müvəffəq olsun və bununla qarşıya qoyduğu məqsədə çatsın. Digər tərəfdən,

o, böyük sayda qızılbaş qoşunlarının toplanmaısndan da xəbəri var idi. Bu qoşunlar Şah Abbasın gücünü göstərirdi və Murad paşa da bu güc qarşısında çətin vəziyyətə düşə biləcəyindən ehtiyatlanırdı. Şah qüvvələrinin gücü qarşısında Murad paşa hətta geri çəkilməkdən də ehtiyat edirdi. Çünki geri çəkilmə zamanı qızılbaş dəstələrinin təqibi Osmanlı qoşunlarına əlavə itkilər yetirə bilərdi. Çıxış yolunu Murad paşa yenə sülh razılaşmasının əldə edilməsində gördü. Ona görə Rumeli bəylərbəyi Əli paşaya yenidən öz adamlarından birini elçi kimi şah düşərgəsinə göndərməyi tapşırdı. Həmin elçi Əli ağa adlandırırdı. Onun vasitəsi ilə göndərilən məktubda bildirilirdi ki, məktubu gətirən Əli ağa Osmanlı sultanı tərəfindən sülh müzakirələrinin aparılması üçün səlahiyyət almış bir adamdır. Xahiş olunurdu ki, şah sarayı tərəfindən də belə səlahiyyətlərə malik olan birisi təyin edilsin və bu səlahiyyətli adamlar öz işlərinə başlasınlar. Şah Abbas bu xahişə çox aydın və qətiyyətli bir cavab göndərdi: “Kişilərin sözü bir olar. Aradakı vəziyyətin nizamlanmasından ötrü verilən hökm hər iki tərəfin namus işidir. Dəfələrlə danışdığımız və yazdığımız [şərtlər] gərək yerinə yetirilsin” (296).

Şah Abbas birmənalı şəkildə bildirdi ki, öz şərtləri üzərində israr edir. Onun şərtləri isə iki dövlət arasında sərhəd xəttinin Şah Təhmasib dövründə olduğu kimi qəbul etmək idi. Bu şərt daxilində Şah Abbas iki dövlət arasında yeni sülh anlaşmasının əldə edilməsinə razı idi. Osmanlı tərəfindən bu şərtə aydın cavab verilməsi isə ləngidilirdi. Qoşunların Təbriz yaxınlığında dayanması da bundan xəbər verirdi. Burada Osmanlı qüvvələri ərzaq çətinlikləri ilə də rastlaşmalı oldular. Bu çətinliyi aradan qaldırmaq üçün bir neçə Osmanlı paşası və sancaq bəyi ətraf məntəqələrə göndərildi. Onların rəhbərliyi altına qoşun dəstələri də verildi. Həmin dəstələrin hərəkətləri qızılbaş qüvvələri tərəfindən müşahidə olunurdu. Bütünlükdə, Şah Abbasın göstərişi ilə Osmanlı qüvvələrinin yerdəyişmələri nəzarət altında saxlanılırdı. Xosrovşah adlı məntəqəyə çatanda qızılbaş dəstələri gizləndikləri mövqelərdən çıxıb Osmanlı dəstələri üzərinə hücum etdilər. Qəfil hücumdan toparlana bil-

məyən Osmanlı döyüşçüləri çaş-baş vəziyyətə düşdülər. Onlar qızılbaş döyüşçülərinə müqavimət göstərə bilməyərək geri qayıtmaq yolunu  tutdular. Acıçayın kənarına çatana qədər Osmanlı dəstələri güclü təqibə məruz qaldılar. Bu zaman onlar xeyli sayda itki də verməli oldular. Qızılbaş təhlükəsi ilə qarşılaşmalarına baxmayaraq Osmanlı paşaları və sərkərdələri ərzaq problemini həll etmək məcburiyyəti qarşısında qalmışdılar. Ona görə də onlar yenidən ətraf məntəqələrə reydlər təşkil etdilər. Növbəti dəfə ərzaq toplanması üçün göndərilən Osmanlı dəstəsinə qorxmazlığı ilə ad çıxarmış Cil paşa rəhbər təyin edildi. Bu dəstə Miyankuha tərəf irəlilədi və orada xeyli miqdarda ərzaq ehtiyatları ələ keçirə bildi. Həmin dəstə geri qayıdarkən qızılbaş qüvvələri ilə qarşılaşmalı oldular. Qızılbaş qüvvələrinə Həsən xan rəhbərlik edirdi. O, döyüşü elə təşkil etdi ki, əvvəlcə Cil paşanın öndə gedən dəstəsi məhv edildi. Sonra Həsən xanın tapşırığı ilə tüfəngçilər dəstəsi xüsusi mövqe tutdu və Osmanlı dəstəsinə sürəkli atəşə açdı. Cil paşanın bütün səylərinə baxmayaraq, qızılbaş dəstəsinin mühasirəsindən salamat çıxmaq mümkün olmadı. Dəstə döyüşçülərinin xeyli hissəsi, o cümlədən də elə Cil paşa bu döyüşdə həyatlarını itirdilər. Mühasirədən çıxmağa müvəffəq olan Osmanlı döyüşçüləri isə yenə Acıçaya qədər təqib olundular (297).

Cil paşanın və onun rəhbərliyi altında olan dəstənin döyüşçülərinin xeyli hissəsinin qızılbaş qüvvələri tərəfindən qətlə yetirilməsi Osmanlı düşərgəsində çox ciddi bir həyəcanla qarşılandı. Şübhə edilmirdi ki, Təbriz ətrafında dayanmaq bütün qoşunlar üçün ağır nəticələrə gətirib çıxara bilər. Qoşun rəhbərləri, sərkərdələri təkid etdilər ki, Təbriz ətrafından uzaqlaşmaqla daha təhlükəsiz bir yerə çəkilsinlər. Bu məsələ o dərəcədə ciddi hal aldı ki, şah düşərgəsinə elçi kimi göndərilmiş Əli ağa hələ geri qayıtmamış Osmanlı qoşunları Təbriz yaxınlığındakı düşərgəni tərk edib geri çəkilməyə başladılar. Osmanlı qoşunların çaşqınlıq içərisində geri çəkilməsini qızılbaş əmirləri də müşahidə edirdilər. Onların fikrincə, tez-tələsik geri çəkilməkdə olan Osmanlı qoşunları üzərinə sürətli hücumların həyata keçirilməsi ilə onlara böyük itkilər

yetirmək mümkün idi. Qızılbaş əmirləri toplaşaraq öz fikirlərini Şah Abbasa da çatdırdılar. Onlar dedilər: "Rum sərdarı Təbrizə gələrək məmləkəti dağıtmış, əsgər və rəiyyətə cürbəcür xəsarət vurmuş, onları pərişan etmişdir. Bir halda ki, indi burada böyük ordu toplaşmışdır, gərək intiqam almaqdan ötrü onların ardınca gedək, harada məsləhət olarsa elə orada da cəng edərək onları məhv edək (estisal). Ümidvarıq ki, dəfələrlə gördüyümüz və sınaqdan keçirdiyimiz Allah lütfü və şahın iqbal gücü sayəsində düşmənə qalib gələcəyik, çünki hal-hazırda rumilər belə pis hala düşdüklərinə və atlarının yorğunluğuna görə müqavimət taqətinə malik deyillər. Əgər Pərvərdigarın köməyi ilə o qoşun aradan götürülərsə, rumilər [hələ] iki-üç il [sonra da] bu böyüklükdə qoşun toplaya bilməyəcəklər" (298).

Qızılbaş əmirləri Osmanlı qoşunları üzərinə hücum etməyi haqq bilirdilər. Bu hücumda uğur ələ edilməsinə isə şübhə edilmirdi. Şah Abbas da buna şübhə etmirdi. Amma Şah Abbas belə bir hücumun həyata keçirilməsinə icazə vermədi və o öz fikrini belə əsaslandırdı: "Rumiyyə adamları öz məkr və hiyləgərlikləri ilə məşhurdurlar. Murad paşa əvvəldən axıracan ortaya sülh danışıqları gətirib, ülfət və aşinalıqdan danışdı, guya ki, cəng və savaşdan qaçırdı. Biz də nizam-intizamın xatirinə onların batini xəbisliyinə göz yumur, sülhə razılıq verirdik. İndi, dediyimiz sözləri və yazdıqlarımızı özümüzə layiq bilmirik. Hal-hazırda müqəddəs ay olan mübarək ramazan ayı başlamışdır. Bu iki ordudan əgər hansısa cəngə başlayarsa, məlumdur ki, nə qədər qan töküləcəkdir. Biz istəmirik ki, cəngin qadağan olunduğu bu mübarək ayda qan tökmək günahına (vəbal) bataq" (299).

Bununla belə, xoşagəlməz halların qarşısının alınması üçün Şah Abbas Osmanlı qoşunlarının müşayiət edilməsinə göstəriş verdi. Qızılbaş dəstələri Osmanlı dəstələrini müşayiət edir, lakin onlarla döyüşə girmirdilər. Şah düşərgəsində olan Xoy hakiminə Şah Abbas tərəfindən tapşırıq verildi ki, Xoya qayıtsın və mümkün ola biləcək Osmanlı təhlükəsinin önlənməsi üçün Xoyun müdafiəsini gücləndirsin. Osmanlı qoşunlarının geriyə qayıdışı Xoy

yaxınlığından keçməli idi. Şah Abbas da ehtiyat edirdi ki, geri qayıtmaqda olan qoşunlar bu şəhərə ziyan yetirə bilərlər. Şah Abbasın döyüşə girməmək barədə qətiyyətli tələbinə baxmayaraq, yol boyu tərəflər arasında müəyyən qarşıdurmalar da baş verirdi. Bu zaman tərəflərdən əsir götürülmə halları da baş vermişdi. Şahidlərin verdiyi məlumata görə, Osmanlı qüvvələri böyük gərginlik və qorxu içərisində geri çəkilirdilər. Ona görə idi ki, qoşunlara yaxınlaşan qızılbaş döyüşçüləri xüsusi olaraq izlənilirdi. Hələ yolda ikən Murad paşa bir də Şah Abbasın yanına öz elçisini göndərdi və hərəkət zamanı tərəflərin döyüşçüləri arasında baş vermiş hadisələrə görə öz təəssüfünü bildirdi. Osmanlı qoşunlarının geri hərəkəti zamanı əlli nəfərə yaxın yeniçəri qızılbaş döyüşçüləri tərəfindən əsir götürüldü. İki dövlət arasında sülh münasibətlərinin qurulmasında qətiyyətli olan Şah Abbas xoş məramın ifadəsi kimi həmin əsirləri də azad etdi. Osmanlı qoşunları Vana yaxınlaşanda qızılbaş dəstələri onların müşayiət edilməsini dayandırdılar. Bu dəstələr yenidən şah düşərgəsinə qayıtdılar. Osmanlı qoşunlarının geri çəkilməsi ilə öz evlərindən köçürülmüş insanlar da qayıdıb gəldilər. Məcburi köçürməyə məruz qalmış insanların çətinliklərinin azaldılması və həyat şəraitinin yaxşılaşdırılması üçün onlar iki il üçün malcehat və divan vergilərindən azad edildilər (300).

Osmanlı mənbələrinin verdiyi məlumata görə, Murad paşa ilə Şah Abbas arasında gizli bir razılaşma da olmuşdu. Bildirilir ki, Şah Abbas müharibənin qarşısının alınması üçün Osmanlı qoşunlarının nəzarətindən azad etdiyi ərazilərdən toplanan böyük həcmdə ipəyin Osmanlı sarayına verilməsinə razı olmuşdu. Murad paşa isə həm belə sərfəli bir təklifə görə, həm də havaların soyumaqda olmasına görə Səfəvi hüdudlarını tərk edərək Diyarbəkrə çəkildi (301). Amma bu fikrin doğruluğu müəyyən şübhə doğura bilər. Çünki Səfəvi mənbələrində belə bir məlumatla rastlaşmaq çətin olduğu kimi, Şah Abbasın həmin dövrdə qətiyyətli hərəkətləri də belə bir sövdələməyə gediləcəyini inandırıcı göstərmir.

Osmanlı qoşunları uzaqlaşdıqdan sonra qızılbaş qoşunlarının Təbriz yaxınlığında dayanmasına da ehtiyac qalmadı. Şah Abbas

yaxın ətrafı ilə Təbriz şəhərin qayıtdı. Burada o, bütün qoşunların sıra baxışını keçirdi. Sıra baxışına sərhəd bölgələrinin qoşun dəstələri də cəlb edildi. Bu tədbirin gedişində qoşun rəhbərləri, əmirlər və əyanları qoşunların təşkilatlandırılması, təmin və təchiz edilməsi ilə bağlı şah qarşısında lazım olan məsələləri qaldırdılar. Şah Abbas da qaldırılan bütün məsələlərin həlli istiqamətində lazım olan göstərişləri verdi. Sonra Şah Abbas İsfahana qayıtdı.

Murad paşa öz qoşunları ilə Diyarbəkrə çatandan sonra orada olan Səfəvi elçisi Məhəmməd bəylə görüşdü və özünün etibar etdiyi çavuşlardan biri ilə birlikdə onu Osmanlı sarayına yola saldı. O, eyni zamanda Sultan Əhmədə məktub da yazdı və sülh anlaşmasının əldə edilməsi ilə bağlı öz mülahizələrini ona çatdırdı. Sülh anlaşmasının əldə edilməsinin əhəmiyyətinə toxunan həmin məktubda deyilirdi: "Həzrət alicah şah düşmənçilikdən dönüb, məhəbbət və dostluq izhar etməkdədir, indiyədək mərhum padşahların sülh sazişi haqqında müəyyən olunmuş sərhəd xəttindən bu yana keçməmişdir Osmanlı dövləti üçün də məsləhətdir ki, bu tərəf ilə düşmənçiliyi və inadı dostluğa və birliyə çevirsin, yeni sülh sazişi sabiq mərhum sultanların dövründə olduğu kimi dəyişilməz qalsın" (302).

Murad paşa iki dövlət arasında sülh anlaşmasının Şah Abbasın şərti əsasında qəbul edilməsini təklif edirdi və bu sülhün Osmanlı dövlətinin də maraqlarına cavab verdiyini bildirirdi. Osmanlı sultanı Murad paşanın təklifini qəbul etdi və bəyan etdi ki, Səfəvi dövləti ilə sülh anlaşmasının əldə edilməsi səlahiyyətləri Murad paşaya verilmişdir və Murad paşanın təklifi saray tərəfindən də qəbul olunacaqdır. Səfəvi elçisi İstanbulda Osmanlı sultanının qəbulunda olduqdan sonra yenidən Diyarbəkrə qayıtdı və Murad paşa ilə görüşdü. Murad paşa onu yenə də yanında saxladı. Amma onun xidmətçilərindən birini şah sarayına göndərdi ki, Osmanlı sarayından alınan məlumatlar şah sarayına çatdırılsın. Məhəmməd bəy isə sülh anlaşması və bu anlaşmada təsbit edilmiş olan sərhəd xəttinin müəyyənləşdirilməsi üçün bir müddət Murad paşanın yanında qalmalı oldu (303).

Murad paşa Səfəvi sarayına öz elçilərini də göndərdi. Onlar İsfahanda Şah Abbas tərəfindən qəbul edildi. Elçilərin gətirdiyi məktubda bir daha sülh anlaşması ilə bağlı olan məsələlərə toxunulmuşdu. Şah sarayı tərəfindən həmin məktuba cavab yazıldı, bu məktubda bir daha şah sarayının mövqeyi təsbit edildi və sonra Osmanlı elçiləri geri yola salındı. Həmin elçilər hələ Diyarbəkrə çatmamış Murad paşanın dünyasını dəyişməsi xəbəri alındı. Bu hadisənin 1611-ci ilin avqustunda baş verdiyi bildirilir. Onun dünyasını dəyişməsi iki dövlət arasında sülh anlaşmasının əldə edilməsini bir qədər təxirə saldı. Çünki bu işləri Murad paşa tərəfindən aparılırdı. Sülh müzakirələrinin aparılması üçün yeni bir səlahiyyətli Osmanlı mənsubunun təyin edilməsinə, həmin adamın da bu işlərə bələd olmasına müəyyən vaxt lazım idi (304).

### a) II İstanbul sülh anlaşmasının əldə edilməsi ərəfəsində Şah Abbasın Mazandaran səfəri

İsfahanda olduğu vaxt Şah Abbas bu şəhərin Nəqşi-cahan meydanında böyük məscidin tikintisi qərarını verdi. Osmanlı dövləti ilə sülh müzakirələrinin getdiyi vaxt Mavərənnəhr və Türküstan hökmdarı Vəli Məhəmməd xan da Şah Abbasın görüşünə gəldi (bu barədə yuxarıda geniş danışılmışdır). Vəli Məhəmməd xan geri yola salındıqdan sonra Şah Abbas yaxın ətrafı ilə Fəridun və Ağ Ələng yolundan keçməklə yenidən Azərbaycana tərəf istiqamət götürdü. Ağ Ələngdə olarkən Şah Abbas qoşunlardan ayrıldı. Qoşunlar Sultaniyyəyə yollandı. Şah Abbas isə yaxın ətrafı ilə birlikdə Nəhavəndə üz tutdu. Məqsəd  burada təmir olunmuş Nəhavənd qalasını nəzərdən keçirmək idi. Həmin qala Şah Abbasın tapşırığı ilə Həsən xanın və cığatay əmiraxurbaşısı Mehdiqulu bəyin rəhbərliyi altında təmir və bərpa olunmuşdu. Şah Abbas bu qalanı nəzərdən keçirib görülən işlərdən razı qaldı. Bu qalanın təmir edilməsinə və möhkəmləndirilməsinə Şah Abbas xüsusi əhəmiyyət verirdi. Qala uzun müddət Osmanlı qüvvələrinin nəzarəti altında qalmışdı. Bu qalanın yenidən Osmanlı nəzarəti altına düş-

məməsi üçün Şah Abbas onun müdafiə imkanlarının artırılmasını lazım bilirdi. Sonra Şah Abbas bir neçə gün bölgədə qaldı, orada ovla məşğul oldu, vaxtını istirahətdə keçirdi. Bir neçə gündən sonra isə Şah Abbas Sultaniyyəyə qayıtdı və şah qoşunları ilə birləşdi. Şah qoşunları burada dayanarkən Fars hakimi Allahverdi xan da öz qoşun dəstəsi ilə Sultaniyyəyə gəldi. Şah Abbas və qoşunlar Sultaniyyəni tərk etdikdən sonra Təbriz yaxınlığındakı Ucana yetişdi. Burada Şah Abbas yenə də qoşunlardan ayrıldı, ulu əcdadlarının məzarlarını ziyarət etmək üçün Ərdəbilə yollandı. Şah Abbas bir neçə günü də Ərdəbildə ziyarət və ibadətlə keçirdi. Sonra yenidən geri qayıdıb Ucanda olan şah qoşunlarına qoşuldu. Şah Abbas qoşunla Təbriz ətrafında Osmanlı sarayından xəbər gözləyirdi. O, ehtiyat edirdi ki, Osmanlı sarayına yollanmış Səfəvi elçiləri müharibə xəbərini də gətirə bilərlər. Ona görə Şah Abbas qoşunları da döyüşə hazır vəziyyətdə yanında saxlayırdı.

Çünki sülh istiqamətində başlanan danışıqlarda bir aydınlıq yox idi. Xüsusilə, Murad paşanın dünyasını dəyişməsi də qeyri-müəyyənliyi saxlamaqda idi. Bir müddətdən sonra Osmanlı sultanı sədr-əzəmlik vəzifəsini və Səfəvi dövləti ilə sülh müzakirələrinin aparılmasını Diyarbəkr hakimi Nəsuh paşaya verdi. O da Mardin şəhərinin qazısını elçi kimi Şah Abbasın yanına göndərdi. Nəsuh paşa ona yazdığı məktubda bildirdi ki, Osmanlı sultanının hökmünə əsasən sülh danışıqlarının aparılması üçün bütün səlahiyyətlərə malikdir.

Nəsuh paşa tərəfindən elçi kimi göndərilən Mardin qazisi də Şah Abbasın qəbuluna Ucan çəmənində düşdü. Nəsuh paşanın iki dövlət arasında sülh anlaşmasının əldə edilməsi ilə bağlı mövqe aşağıdakı kimi idi və həmin mövqe Ucan çəmənində Şah Abbasa da çatdırıldı: "Xandgar tərəfindən sərdarlığın və qızılbaşlarla sülh, ya cəng məsələsinin ixtiyarı Murad paşaya verilməsindən sonra həmin səlahiyyət bu xeyirxah bəndəyə (yəni Mardin qazisinə – red.) verildi. Sülh müqaviləsi (qərardad) bu şərtlərlə hazırlanmalıdır: Tərəflər müsəlmanların yaxşı yaşamalarından ötrü sülh işini gərək Murad paşanın sağlığında razılaşdırıldığı kimi davam etdir-

sinlər. Allaha şükr olsun ki, yaxşılıq etmək istəyən bu adam (yəni Mardin qazisi – red.) iki ali məqamlı padşah arasındakı düşmənçiliyin bitməsi və bu xeyir işin ruzigarın həyat səhifəsində yadigar qalması məqsədilə buraya gəlmişdir. Mən gərək ətəyimi çırmayıb faydalı sülh işini möhkəmlədim. Hazırda xahişim budur: Sabiq elçi Məhəmməd bəyin gedişi-gəlişi uzandığından, gərək bu məsələnin nizamlanmasından ötrü şan-şöhrətli bir qızılbaş əmiri təyin olunsun, habelə məhəbbət üslublu və dostanə bir məktub da yazılıb verilsin ki, elçi İstanbula getsin, sülh müamiləsini şahın istəyinə uyğun şəkildə həyata keçirə bilək" (305).

Nəsuh paşa Şah Abbasdan xahiş etdi ki, Osmanlı sarayına yeni bir elçi göndərsin və həmin elçi ilə Şah Abbasın istəyi və şərtləri Osmanlı sarayına çatdırılsın. Güman edilirdi ki, yenidən belə bir elçinin Osmanlı sarayına göndərilməsi sülh müzakirələrini daha da sürətləndirə bilər. Şah Abbas da bu təklifi qəbul etdi və dini işlər üzrə səltənət sədri Qazi xan Hüseynini məktubla birlikdə İstanbul sarayına göndərdi. Bu səfərdə Qazi xanı Səfəvi dövlətinin beş nəfər nüfuzlu üləması da müşayiət edirdi. Bütünlükdə isə bu elçilik heyəti kifayət qədər böyük bir heyət idi və bu heyət Şah Abbasın məktubunu və çoxlu sayda qiymətli hədiyyə aparırdı. Qazi xan öz elçilik heyəti ilə əvvəlcə Diyarbəkrə yollandı (306).

Şah sarayı tərəfindən Osmanlı sarayının qazılarının və din adamlarının adına da bir məktub yazıldı. Bu məktubda iki dövlət arasında sülh anlaşmasının əldə edilməsinin lazımlılığına diqqət yönəldildi. Məktubda deyilirdi: "Həzrət Allahtəala bütün islam əhlini şəriət yollarına və millətin məsləki istiqamətinə yönəltdiyi üçün, gərək islam hövzəsinin bütün padşahları öz diqqətlərini müsəlmanların vəziyyətinin yaxşılaşmasına yönəltsinlər. Qoy arada olan düşmənçilik və dava-dalaş şəriətə uyğun rəf olsun, islam qüvvətlənsin, kədər və zülm bayraqları müsəlmanların dincliyi naminə hər iki tərəfdən dalğalansın" (307).

Mənbə məlumatlarına görə, Nəsuh paşanın Şah Abbasın yanına göndərdiyi Mərənd qazısı kifayət qədər etiqadlı, tanınmış din alimi idi. Onun vasitəsilə Nəsuh paşa Şah Abbasdan xahiş etdi ki,

o da tanınmış, nüfuzlu və zəkalı bir insanı öz elçisi kimi təqdim etsin. Bu elçi elə bir adam olmalı idi ki, o, Səfəvi şahını təmsil etməyə, onun fikirlərini çatdırmağa və Osmanlı sultanı qarşısında söz deməyə layiqli birisi olsun. Şah Abbas da ona görə Qazi Hüseynini öz elçisi kimi müəyyənləşdirdi və onu müşayiət etməyi tanınmış üləmalara tapşırdı. Onların arasında Qazı Müəzzəddin Məhəmməd İsfahani və böyük Mövlana Sultan Hüseyn Dehdəşti də var idi. Bu tanınmış üləmalar Səfəvi sarayını təmsil etməklə iki dövlət arasında sülh anlaşmasının əldə edilməsi istiqamətində müzakirələr aparmalı idilər. Şah tərəfindən bu iki böyük mövlananın səfər xərclərinin ödənməsi üçün onların hər birinə yüz Təbriz tüməni məbləğində pul vəsaiti ayrıldı. Bu vəsait kifayət qədər böyük vəsait idi və mənbə məlumatlarına görə, o mövlanalar həyatları boyu o miqdarda maliyyə vəsaiti görməmişdilər. Çünki bu mövlanalar öz həyatlarını dua və elm öyrənməkdə keçirmişdilər. Ayrılan bu maliyyə vəsaiti o qədər çox idi ki, onların çoxluğu hətta mövlanalar üçün bir çətinlik də yaratmışdı. Mövlanalar bilmirilər ki, bu vəsaiti necə qorusunlar, onların xərclənməsini necə planlaşdırsınlar. Onlar çox arzu edirdilər ki, bu maliyyə vəsaitlərinin idarə edilməsi üçün onlara bir mustövfi verilsin. Belə bir müstövfinin olmaması isə onlara müəyyən səfər çətinlikləri yaşadırdı (308).

Yola düşməzdən əvvəl Qazi xan Şah Abbas tərəfindən qəbul edildi. Qazi xanın əsil adı Əmir Müəzzəddin əl-Hüseyni idi və dərin bilikli din alimi olduğu üçün Qazi xan kimi məşhurlaşmışdı. O, Qəzvinin tanınmış seyidlərindən idi və Şah Təhmasiblə Sultan Süleyman arasında sülh müzakirələrinin necə aparılmasını şəxsən müşahidə etmişdi. Yəni o, bilikli alim olmaqdan əlavə, həm də sülh müzakirələrinin aparılmasında təcrübəsi olan bir insan kimi qəbul edilirdi. Şah Abbas ona tapşırdı ki, əgər İstanbul sarayında ikitərəfli anlaşmanın pozulması haqqında söhbət açmasalar, o da bu məsələyə toxunmasın. Yox, əgər Osmanlı sarayı bu məsələni qaldırardısa, onda söylə ki, Şah Təhmasiblə Sultan Süleyman arasında sülh əldə edilmişdi. Şah Təhmasib dünyasını dəyişəndə Osmanlı sarayından kimsə gəlib başsağlığı vermədi. Şah Abbas bil-

dirdi ki, heç II Şah İsmayılın və sonra da Şah Məhəmməd Xudabəndənin vəfatından sonra da Osmanlı sarayından kimsə baş sağlığı verməyə gəlmədi. Səfəvi şahı sonra əlavə etdi ki, iki dövlət arasında mövcud olan sülh anlaşmasını osmanlı tərəfi pozmuşdur. Nəticədə Osmanlı qoşunları Azərbaycanı, Çuxursəədi, Gəncəni, Şirvanı və Nəhavəndi nəzarət altına almışdı. Şah Abbasın dediyinə görə, o, taxta çıxanda da kimsə Osmanlı sarayından onu təbrik etmədi. Sonra da Qazi xana sərhəd boyu yerləşən Osmanlı hakimlərinin Səfəvi hüdudlarına qarşı etdiyi təxribatlar, Osmanlı ərazisində Səfəvi ticarət karvanlarının talan edilməsi barədə məlumat çatdırıldı. Qazi xan daha sonra Osmanlı sarayına çatdırmalı idi ki, indi Şah Abbasın qoşunları kifayət qədər güclənib və bunun nəticəsində Azərbaycanı, Çuxursəədi, Gəncəni, Şirvanı və Nəhavəndi geri qaytarmaq mümkün olmuşdu. Şah Abbasın tapşırığı ilə Qazi xan Osmanlı sarayına çatdırmalı idi ki, Səfəvi qoşunları öz uğurlarını davam etdirərək Osmanlı ərazilərinə müdaxilə etmək imkanı olsa da, bunu etmədi və şah sarayının sülhə tərəfdar olduğunu nümayiş etdirdi (309).

Conabedinin yazdığına görə, Qazi xanın rəhbərlik etdiyi elçilik heyəti yola salındıqdan sonra Şah Abbas Təbrizdə yeni bir qalanın tikilməsi barəsində göstəriş verdi və dərhal da bu işə başlandı (310). Ola bilsin ki, mövcud olan Təbriz qalasının müdafiə və həyat imkanları Şah Abbası tamamilə qane etmirdi. Ona görə də belə bir qalanın inşasına fərman verildi. Çünki mövcud olan qala Mehranrud çayının yaxınlığında yerləşirdi. Bu çayın qarşısını kəsib onun suyu qala divarları üzərinə yönəldilsəydi, qala divarlarının tez bir zamanda uçması ehtimalı var idi. Əslində, Şah Abbas özü də tez-tez bu məsələyə toxunurdu. Yeni qalanın başqa bir yerdə tikilməsi məqsəduyğun sayıldı. Ən münasib yer kimi isə Sorxab dağının ətəyində olan Rəbe-Rəşidi adlanan məntəqə seçildi. Şah Abbas yeni bir qalanın tikilməsi qənaətinə hələ əvvəllərdən gəlmişdi. Amma Osmanlı qoşunlarının hücum təhlükəsinin mövcudluğu yeni qalanın tikintisini təxirə salırdı. Murad paşanın öz qoşunları ilə Təbriz ətrafından geri çəkilməsindən sonra yeni qala-

nın tikintisinə başlanması yenidən diqqət mərkəzinə gəldi. Şah Abbas əmin idi ki, yaxın zamanlarda Osmanlı qoşunları Səfəvi hüdudlarına hücum edə bilməyəcəkdir. Bu isə imkan verirdi ki, yeni bir qalanın tikintisinə başlansın. Şah Abbas bu qalanın tikintisini çox qısa bir zamanda başa çatdırmağı planlaşdırmışdı. O bu işə təcrübəli iş adamı, hələ Şah Təhmasibin dövründən tikinti işlərinin aparılmasına cəlb edilən Mənuçöhr bəy eşikağası qala tikintisinin rəhbəri təyin edildi. Qərara alındı ki, 1612-ci ilin baharının əvvəlinədək Təbrizin xaraba evlərindən, xüsusən viran vəziyyətdə olan Şənbi-Qazandan tikinti məmulatları Rəbe-Rəşidiyə daşınsın, havaların isinməsindən sonra isə qala inşasına başlanılsın. Bununla əlaqədar belə bir hökm də verildi: "Bənnalar, daşyonanlar, əmələ və fəhlələr İraqdan və hər tərəfdən Təbrizə gəlib, qalanın inşasını tezliklə başa çatdırsınlar". Bu hökm Şah Abbas tərəfindən verilmişdi və həmin hökmə əsasən, səltənət daxilindən çoxlu sayda ustalar, mütəxəssislər Təbrizə gətirildi. Mənucöhr bəy Eşikağası şah fərmanına əməl edərək, havaların qızması ilə qalanın tikintişinə, onun divarları boyunca uca bürclərin, habelə böyük bir su anbarının inşasına başladı. Az vaxt içərisində elə möhkəm bir qala tikildi ki, öz ucalığı və möhkəmliyi ilə çox qalalardan fərqlənirdi. Bu qalanın tikintisində Təbriz sakinləri də yaxından iştirak etdilər. Qalanın ortasında gözəl bir hamam və imarət də tikildi, Təbriz hakimi oraya köçdü, təzə qalanın hazır olmasından sonra köhnə qala Şah Abbasın əmri ilə dağıdıldı (311).

İstanbul sarayından sülh anlaşması haqqında hər hansı bir xəbər gəlib çatana kimi Şah Abbas Mazandaran istiqamətində gəzinti səfərinə çıxmağı qərara aldı. Bu səfərlər bir tərəfdən Mazandaranda və ətraf bölgələrdə səltənət idarəçiliyi işlərinin nizamlanması ilə məşğul olmaq və həm də istirahət etmək üçün əlverişli bir fürsət idi. Şah Abbas yol boyunca qarşıya çıxan mənzərəli yerlərdə dayanır, bir neçə gün orada vaxt keçirir, ovla əylənirdi. O çalışırdı ki, bu səfər və gəzinti onu müşayiət edən qoşun dəstəsi və xidmət personalı üçün də mənalı bir istirahətə çevrilsin. İsgəndər bəy Münşi də yazırdı ki, bu gəzinti zamanı Şah Abbas onu müşa-

yiət edən qala adamlarına, nədimlərə, musiqiçilərə, qorçulara öz qonaqları kimi qayğı göstərir və onların bütün ehtiyaclarının vaxtında ödənməsi üçün lazımi göstərişlər verirdi. İsgəndər bəy yazırdı ki, Şah Abbas öz yaxın ətrafına qayğı göstərməklə yanaşı, onlara qarşı hər zaman səxavətli olurdu (312).

Bu gəzinti zamanı Şah Abbasın düşərgə saldığı məkanlardan biri Fərəhabad adlanırdı. Əvvəllər Tahan kimi tanınan bu məkan Mazandaranın ən səfalı guşələrindən biri idi və elə təbiətinin səfalı olması da Şah Abbasın diqqətini cəlb etdi. İsgəndər bəy Münşinin yazdığından belə bir qənaət hasil olur ki, həmin məkanın Fərəhabad adlandırılması da elə Şah Abbasın təşəbbüsü idi. Bura elə bir məkan idi ki, orada bir yaşayış məntəqəsi də salmaq mümkün idi. Bunun üçün lazım olan şərait mövcud idi. Fərəhabadın kənarından Təcinərud çayı axırdı. Bu məkana yaxın olan ərazilərdə digər çaylar da var idi. Eyni zamanda Fərəhabad Xəzər dənizinə yaxın idi. Ona görə Şah Abbas Fərəhabadı səfalı bir məkan olmaqdan əlavə, həm də yaşayış üçün əlverişli bir məkan kimi qəbul edirdi. Onun fərmanı ilə də burada yeni bir yaşayış məntəqəsinin tikintisinə başlandı. Şah Abbasın orada olduğu zaman bu işlər başlansa da, yaşayış məntəqəsinin tikintisi və abadlaşdırılması sonrakı illərdə də davam etdi. Dərhal da Fərəhabadın imarətlərinin, bazarlarının, hamamlarının, məscidlərinin, karvansaralarının əsası qoyuldu. Fərəhabaddan Sari şəhərinə qədər dörd fərsəxlik bir məsafə var idi. Şah Abbas qərara aldı ki, bu iki məntəqə bir-biri ilə birləşdirilsin. Onun tapşırığı əsasında bu iki məntəqəni birləşdirən xiyabana daş döşəndi ki, yağıntılar zamanı bu xiyabanla hərəkət etmək çətin olmasın. Bu iki məntəqəni birləşdirən xiyaban boyunca isə çoxlu sayda yaraşıqlı binalar tikildi. Fərəhabad genişləndikcə bura axışanların sayı da çoxaldı. Bəzi tayfalar və oymaqlar Fərəhabadda öz məhəllələrini tikib genişləndirdilər. Şəhər elə planlaşdırıldı ki, Təcinərud çayı Fərəhabadın ortasından keçdi. Bu çayın üzərindən göz oxşayan bir körpü də quruldu (313).

Mazandaranda olduğu müddət ərzində Şah Abbas bütünlükdə bölgənin abadlaşdırılması işlərinə xüsusi diqqət yetirdi. Onun bu

zaman gördüyü maraqlı işlərdən biri də Mazandaranın Savadkuh yolunun yenidən qurulması və abadlaşdırılması oldu. Bu yol bölgənin əsas karvan yollarından biri idi. Havalar soyuyandan bu yol ilə hərəkət etmək xeyli çətinləşirdi. Yük karvanlarının bu yol ilə hərəkət etməsi, satlıq mal-qaranın bu yol ilə sürülməsi qışda yolun palçığını xeyli artırırdı. Ona gör bu yol ilə hərəkət etmək də xeyli çətinləşirdi. Şah Abbas bu yolun yenidən qurulmasını Mazandaranın vəziri Mirzə Təqiyə tapşırdı. Bu tapşırığa əsasən, Savadkuh yolunun tikintisinə çoxlu sayda insan cəlb edilməli və bu insanların məvacibi vilayətdən toplanan vergilər hesabına ödənməli idi. Yolun tikintisi üçün uzaq yerlərdən tikinti materialları daşındı, yol üzərində bir neçə möhkəm körpü salındı. Savadkuh yolundan başqa bölgənin bir sıra digər yolları da yenidən quruldu, palçıqlı yollar qurudulda, ensiz yollar genişləndirildi, eniş-yoxuş yollar hamarlandı. Görülən bütün bu işlər yerli əhalinin məmnunluğu ilə qarşılandı (314).

Fərəhabadda bir müddət qaldıqdan sonra Şah Abbas yolunu Gilanın Rudesər məntəqəsinə tərəf istiqamət götürdü. Görünür, bu məntəqə də bölgənin səfalı məntəqələrindən biri idi və ona görə də Şah Abbas orada da bir müddət qalmaq qərarı verdi. Rudesərdə olduğu günlərdə Şah Abbas həm də idarəçilik işlərinin tənzimlənməsi ilə məşğul oldu. O, Gilanın vəziri Behzad bəyi öz vəzifəsindən kənarlaşdırdı. Behzad bəy tutduğu vəzifədən sui-istifadə edərək xəzinəyə verilməli olan vergiləri özü mənimsəmişdi. Şah Abbas xəzinə üçün toplanmalı olan vergilərin borc qalıqlarının müəyyənləşdirilməsi və toplanması işlərini etibarlı saray əyanlarına tapşırdı. Özü isə bir neçə gündən sonra Qəzvinə yola düşdü. Burada olarkən də Şah Abbas idarəçilik məsələlərinin təşkili ilə məşğul oldu. Qəzvinə hakimlik həmin zaman Şah Abbasın bacısının nəvəsi olan Salman xan tərəfindən edilirdi. Yaxın qohumu olmasına baxmayaraq Şah Abbas onun xalqı narazı salan əməlləri ilə barışmadı və insanları incitdiyinə görə onu vəzifəsindən kənarlaşdırdı. Salman xanın zülmü, haqsızlıqları, acgözlüyü insanları ağır bir vəziyyətə salmışdı və geniş narazılıqlara səbəb olmuşdu.

Şah Abbas insanlara edilən haqsızlıqlardan xəbər tutduğu üçün idi ki, Salman xanı vəzifəsindən azad etdi, onu həbs etdirib zəncirlətdi və iki il onu zəncirdə saxladı. Qəzvində olduğu vaxt Şah Abbas dövlətxana üçün böyük və əzəmətli bir binanın tikintisinə də göstəriş verdi və bu bina da qısa müddətdən sonra hazır oldu (315).

Qəzvini tərk etdikdən sonra Şah Abbas Dəmavəndə tərəf hərəkətə başladı. Məqsəd Lar və Firuzkuh yaylaqlarından keçməklə Məşhədə yetişmək və İmam Rzanın məqbərəsini ziyarət etmək idi. Şah Abbas səkkizinci imamın məzarını ziyarət etdikdən sonra o məkanın abadlaşdırılması üçün də əməli addımlar atmağa başladı. İmamın məzarının yerləşdiyi rövzə həm kiçik bir sahədə yerləşirdi, həm də layiqli bir görünüşə malik deyildi. Şah Abbas bu məkanı ətraflı şəkildə müşahidə etdikdən sonra konkret bir plan müəyyənləşdirdi və o plana uyğun olaraq da tikinti işlərinə başlandı. Həmin plan belə idi: Artıq dağıntılara məruz qalan və sahənin şərq tərəfində yerləşən evləri söküb o torpaqları rövzə sahəsinə əlavə etsinlər və elə olsun ki, rövzənin yerləşdiyi qəsr sahənin tam ortasında qalsın; sahənin şimalında olan və üzü cənuba yerləşən və həmçinin şərq və qərb istiqamətlərdə mövcud olan yerlərində başqa qəsrlər tikilsin; orada dörd uca qəsrdən ibarət ikinci bir yeni sahə salınsın; şəhərin qərb darvazasından şərqə doğru elə bir xiyaban çəkilsin ki, hər tərəfdən mübarək sahəyə uzansın və qəsrlərin ortasından keçsin (316).

Məşhəd sakinləri həm də su təminatı sahəsində müəyyən çətinliklərlə qarşılaşmışdılar. Bu çətinliklər Məşhədə gələn zəvvarlar üçün də narahatçılqılar törədirdi. Şah Abbas bu məsələnin həlli üçün də lazımi işlər görülməsinə tapşırıq verdi. Şəhərə əlavə su çəkilməsi ilə bağlı Şah Abbasın tapşırığı belə oldu: Çaylardan qollar ayrılsın, yeni kanallar (qənəvat) çəkilsin, onlar şəhərə istiqamətləndirilsin, xiyabanlardan ayrılan yollar arasında-sahənin düz ortasında böyük bir hovuz inşa olunsun ki, həmin hövuzdan axan su xiyabanın şərqində mübarək rövzənin aşağı tərəfində cari olsun, mühəndis-memarlar və diribaş ustalar işə başlayraq, az vaxt

içərisində bütün əməlləri müqəddəs Məşhəd hakimlərinin sərkarlıqları ilə şahın istəyinə uyğun yerinə yetirsinlər, [sahənin görünüşü] olduqca gözəl və yaraşıqlı şəkil alsın (317).

Şah Abbas doqquz gün Məşhəddə qaldı. Həmin günlər ərzində o vaxtının çoxunu İmam Rza rövzəsində dua və ibadətdə keçirdi, insanlarla görüşdü, dərdi olanların dərdinin həlinə köməklik göstərdi. Bu müddət ərzində Şah Abbas Məşhədin bir fərsəxliyində olan Xacə Rəbiül-Xeysamın məzarının və türbəsinin bərpası üçün göstəriş verdi. Eyni zamanda Nişapurdakı Qədəmgah binası təmir olundu. Bu bina əzəmətli bir bina olmaqla müəyyən aşınmalara məruz qalmışdı. Bina həm də çox səfalı bir yerdə yerləşirdi. Şah Abbası bu binanın elə təmir olunmasını istəyirdi ki, binanın əzəməti ilə təbiətin əzəməti bir-birini tamamlasın. Orada görülən təmir işləri Şah Abbası o dərəcədə məmnun etmişdi ki, bir neçə dəfə özü şəxsən həmin məkana baş çəkmişdi (318).

Doqquz gündən sonra Şah Abbas Məşhədi tərk etdi və Dəşti-Büryan yolu ilə Astrabada doğru istiqamət götürdü. O, bir neçə gün Astrabadda qaldı və orada olanda da insanların dərdlərinə kömək etmək yolunu tutdu. Şah Abbas Astrabadda uzun müddət dayanmadı. Sonra o yenidən Mazandaranın Fərəhabadına üz tutdu. Osmanlı sarayından gələcək xəbərin intizarında olan Şah Abbas qışı da Fərəhabadda keçirməyi qərara aldı. Şah Abbas Astrabad yaxınlığında əzəmətli bir imarət tikilməsi haqqında göstəriş verdi. Həmin imarət Əşrəf adlanan bir məntəqədə tikildi. Bu məkan da öz coğrafi xüsusiyyətlərinə görə şahın diqqətini cəlb etmiş bir məkan idi və nəzərdə tutulmuşdu ki, şahın və onun məiyyətinin bu imarətdə qalması və yaşaması üçün hər cürə şərait mövcud olsun. İmarətin ətrafında yaşıl bağlar və meşələr var idi. Şah tərəfindən isə rahat yaşayışın təmin edilməsi üçün həmin imarət ətrafında hamamlar, bostanlar, hovuzxanalar tikildi. İmarət tikilən məkana üç dağdan çay axıb gəlirdi. Sənətkarların əli ilə bu imarət ətrafında tikilən hovuzlarda fəvvarələr bir neçə metr yuxarı qalxırdı. Bu fəvvarələr təbii yolla su şırnaqları yarada bilirdilər. İmarət ətrafında şahın xidmət personalının yaşaması üçün də xeyli sayda abad

binalar inşa edilmişdi. Əşrəfdə elə bir rahatlıq yaradılmışdı ki, Şah Abbas orada vaxt keçirməkdən böyük zövq alardı və ona görə də həmin məkana tez-tez səfər edərdi (319).

### b) II İstanbul sülh anlaşması

Sülh anlaşması müzakirələrinin aparılması üçün Diyarbəkrə gəlmiş olan Qazi xan orada bu vilayətin hakimi Nəsuh paşa ilə görüşdü. Sonra da Səfəvi elçiliyi Nəsuh paşanın müşayiəti ilə İstanbula yola düşdü. Mənbə məlumatlarına görə, Qazi xanın bilikli, təcrübəli, müdrik və ağsaqqal bir insan olması İstanbul səfəri zamanı da özünü göstərdi. Şah Abbasın əmri ilə elçilik heyətinə qızılbaş cavanları da daxil edilmişdi və bu cavanlar xidmət işlərini icra edirdilər. Onlar ədəb və ərkanına görə Qazi xana böyük hörmətlə yanaşırdılar və onun göstərişlərini böyük məmnuniyyətlə yerinə yetirirdilər. Elçilik heyəti Qazi xanın yanında olmaqdan çox sevinirdilər və belə bir zəka sahibi ilə tanışlıq və ünsiyyət onlara sevinc və məmnunluq gətirirdi. Qazi xanın məclisində olmaq və onun söhbətlərinə qulaq asmaq isə elçilik üzvləri tərəfindən xüsusi bir maraqla qarşılanırdı. Qazi xan həm də səxavətli bir insan idi və səfər zamanı imkan verməzdi ki, kimsə pul xərcləsin (320).

Elçilik heyəti 1612-ci il sentyabr ayının 27-də İstanbul şəhərinə çatdı (321). Şəhərə yaxınlaşanda Nəsuh paşa elçilik heyətindən ayrıldı və təklikdə Osmanlı sultanının qəbuluna yollandı. O, İstanbula gəlmiş olan Səfəvi elçiliyi, bu elçiliyin məqsədi və istəkləri haqqında Osmanlı sultanına məlumat verdi. Osmanlı sultanı bu elçilik heyətinin mehribanlıqla və qonaqpərvərliklə qarşılanması haqqında göstəriş verdi. Səhəri gün Osmanlı sarayının nüfuzlu mənsubları, paşalar, əmirlər, şəhər əhalisinin nümayəndələri Səfəvi elçiliyinin qarşılanmasına çıxdı. Bu insanların iştirakı ilə təntənəli bir qarşılanma mərasimi keçirildi. Səfəvi elçiliyi bir müddət İstanbulda istirahət etdi və oktyabr ayının 17-də bu elçilik heyəti I Sultan Əhməd tərəfindən də qəbul edildi. Elçilik heyətinin İstanbulda olduğu vaxt Osmanlı sarayının əyanları, paşalar və di-

gərləri Qazi xanın görüşünə gəldilər, ona öz ehtiramını bildirməklə bərabər, həm də sülh anlaşmasına aid olan məsələləri müzakirə etdilər. Osmanlı sultanının qəbulunda olarkən ona Şah Abbasın məktubu, habelə şah adından gətirilmiş çoxlu sayda qiymətli hədiyyələr təqdim olundu. Bu qəbul zamanı Osmanlı sultanı da iki dövlət arasında sülh anlaşmasının əldə edilməsinə öz razılığını ifadə etdi. Nəticədə çox tezliklə iki dövlət arasında yeni bir sülh anlaşması əldə edildi ki, həmin anlaşma II İstanbul anlaşması kimi tanınmaqdadır (322).

Əslində, Osmanlı sultanının qəbuluna qədər artıq sülh anlaşmasının şərtləri müəyyənləşdirilmişdi. Osmanlı sarayı Şah Abbasın şərtini qəbul edərək 1555-ci ildə qəbul edilmiş Amasiya sülh anlaşması oxşarında yeni bir anlaşmaya razı olmuşdu. Bu anlaşmanın mahiyyəti Şah Abbas tərəfindən geri qaytarılmış ərazilərin Səfəvi əraziləri kimi tanınmasından ibarət idi. Bəzi məlumatlara görə, II İstanbul anlaşması aşağıdakı şərtləri özündə əks etdirirdi:

1. Səfəvi dövləti islamın ilk üç xəlifəsini lənətləməkdən çəkinəcək, islam peyğəmbərinin həyat yoldaşı Aişə haqqında pis sözlər danışılmasından imtina edəcək;

2. Amasiya sülh anlaşması ilə müəyyən edilmiş sərhədlər bərpa ediləcək, III Sultan Muradın hakimiyyəti illərində ələ keçirilmiş olan Səfəvi əraziləri geri qaytarılacaq;

3. Səncəroğlu tərəfindən ələ keçirilmiş ərazilər Osmanlı dövlətinin ərazisi kimi tanınacaq. Səfəvi sarayı öz öhdəsinə götürdü ki, Kürdüstan valisi Hülu xan Kürd tərəfindən əvvəllər Osmanlı ərazisi sayılmış Şəhrizor və ətraf ərazilərin işğalını dəstəkləməyəcəkdir;

4. Səfəvi hüdudlarında həcc ziyarətinə gedən zəvvarlar Hələb-Dəməşq-Mədinə-Məkkə marşrutu üzrə hərəkət edə biləcəklər. Əvvəllər zəvvarlar Bağdad-Bəsrə yolu ilə gedirdilər ki, bu marşrut təhlükəli idi.

5. Səfəvi sarayı Osmanlı sarayı ilə dostluq münasibətlərinə malik olan Dağıstan şamxallarını Osmanlıya qarşı təhrik

etməyəcək və onların Rusiya tərəfindən Terek çayı ətrafında tikilmiş qalanın uçurulmasına maneçilik yaratmayacaqdır;

6. Səfəvi dövləti hər il Osmanlı dövlətinə 200 tay ipək xərac verəcəkdir (323).

Göründüyü kimi, yeni əldə edilmiş sülh anlaşmasına da məzhəb məsələsi salınmışdı. Bəllidir ki, iki dövlət arasında məzhəb fərqliliyi məsələləri bu dövlətlərin siyasi həyatına öz təsirini göstərirdi. Amma məsələnin sülh anlaşmasında öz əksini tapması, çox güman ki, sülh anlaşmasının din xadimləri tərəfindən razılaşdırılması ilə bağlı idi. Sülh anlaşması razılasdırıldıqdan sonra Səfəvi elçiləri yenidən Osmanlı sultanı tərəfindən qəbul edildi və sultan tərəfindən onların geri qayıtmasına icazə verildi. Sultanın tapşırığı ilə Ərzrum bəylərbəyi Həsən paşa və İncili Mustafa Çavuş da Osmanlı elçiləri kimi Qazi xanla birlikdə İsfahana yola salındı (324).

Başqa bir məlumata görə isə, II İstanbul anlaşması aşağıdakı şərtlər əsasında imzalanmışdı:

1. Səfəvilər hər il Osmanlı padşahına iki yüz yük ipək xəraç verəcəkdir.

2. Qanuni Sultan Süleyman zamanında Osmanlı Dövləti ilə Səfəvi dövləti arasında Amasya Barış Antlaşması (1555) ilə bəlirlənən sərhəd xətti keçərli olacaqdır.

3. Hazırda Osmanlı hakimiyyəti nəzarəti altında olan ərazilər Osmanlılarda qalacaqdır.

4. İrak hududundakı asi bəylərə, Şəhrizor əyalətini istila edən Hülu xana və Seyyid Mübarəkə Səfəvilər tərəfindən yardım edilməyəcəkdir.

5. Şamxal və Dağıstan hakimləri üzərindəki Osmanlı hakimiyyəti davam edecəkdir.

6. Osmanlıların, ruslara qarşı həyata keçirəcəkləri hər hansı bir səfərdə Səfəvilər, Osmanlılara yardım edəcəklər, onlara əngəl olmayacaqlar.

7. İranlı hacılar, Bağdad və Bəsrə yoluyla deyil Hələb-Şam üzərindən həccə gedib gələ biləcəklər.

8. İranda şiələr əshabi kirama sebb-ü şetm etməyəcəklər.

9. Qanuni Sultan Süleyman zamanında təspit edilən hüdudlar dairəsində, Osmanlı-Səfəvi hüdudlarını təyin üçün Türkiyə tərəfini, Bağdad bəylərbəyi Mahmud Paşa və Van bəylərbəyi Mehmed Paşa təmsil edəcəklər (325).

Osmanlı mənbələrində II İstanbul anlaşmasının şərtləri ilə bağlı aşağıdkı qeydlərlə rastlaşmaq mümkündür: “Şol şərtlə ki, əcdad dadi itiyadımız sülh namələrində dərc olunduğu üzərə əhadisi-hatəmin Nəbiyyun olan əshabi-güzün əimmeyi-müctəhidin … və ümmül mömünin siddiqayi-kübra … ənha və əbiha haqlarında şetm və ləin və kəzb və tən olunmayıb … cəddiniz Şah Təhmasibin təyin və təəhhüd eylədiyi üslub üzərə təbərra rəsmi-məslub … və anda bulunan əhli-sünnət və camaata səbbi-kabih təlqin olunmaya və rical və nisa əhli-sünnətin iradətiylə bu tərəflərə əzimət edənlərə rüxsət verilib mənn və dəf ilə surəti ühraya təsvir olunmaya. Bilfil dəsti-təsərrüfü bəndəqani-asitaneyi- dövlət nişanımızda olan qala və behaa və məmalik və məsalik bu intifaya bi vəchi minəl-vücuh təərrüz olunmayıb illiyyini-aşiyani Sultan Süleyman xan cənnət məkan zamanı yümni iktiranında kəsilən sınır və nişani-tərəfeyn canibiyyənin rəsmi üzərə kəsilib əyaləti Darüssəlama təbii və qərib olub bəndəqani-asitanəmi ədədindən təədəd olunan Sincarın oğlu Mübarək əlində olan cümlə məmalik və məabid və məsalik və məsacidinə tabiyi-Bağdad olub ol asiman təədisi bi iznihi Sübhanehü-Təala qüvveyi-qahirəmizlə ol əmakindən rəf olunacağından anın himayəsindən əl çəkib müavinət üçün ləşgər çəkilməyə. …Və Şəhrizor əyalətinin müəzzəm beldanına istila dəstini diraz və babi-üsyanı baz edən Hülu xandan ol məmalik istixlas olunduqda mimaniatınız olmayıb yenə üslubu adiq üzərə ol vilayət məmaliki-meymənət ayətimiz ədədindən məhsub olmaqla ondan dəxi imdadınız məslub ola. Və vilayətinizdən iradeyi-həcci-şərif ilə gələn haciyan rahi-Hələb və Şamdan rəvan olub əmnü-əman üzərə olmayan Bağdad və Bəsrə yollarından übur və vadilərdən mürur olunmayıb tərki-qədim və şahrahi-müstəqimdən əmn və səlamət üzərə varıb gələlər. Və qədimdən asita-

neyi- rasidən nüvazımız bəndəqani-əddindən mədud olan sədaqət nişan Şamxal xan və sair hükemani Dağıstan yenə ədədi-ibad sədaqəti-itiyadıız zümrəsindən tədad olub məmləkətlərinə və kəndilərinə ki, zindü-ziyan irişdirilməyə. Bu üslub üzrə qati-hüdudvə mənni-südud üçün paşiyani-sərhəddən düsturu-mükərrəm hafiziəyaləti Bağdad olan Mahmud paşa və əmiri-ümərayi-kiramı olan Mehmed paşa tərəfindən adam təyin olunub hər biri qəbuli-etimad olan…" (326).

Sülh razılaşmasının əldə edilməsindən sonra hər iki tərəf sərhəd xəttinin müəyyənləşdirilməsi üçün məsul adamları təyin etdilər. Osmanlı dövləti tərəfindən bu iş Bağdad bəylərbəyi Mahmud paşaya və Van bəylərbəyi Məhəmməd paşaya həvalə olundu. Şah Abbas isə sərhəd xəttinin birgə müəyyənləşdirilməsini Çuxursəəd bəylərbəyi Əmirgünə xana tapşırdı. Bağdad istiqamətində sərhəd xəttinin müəyyənləşdirilməsini Səfəvi dövləti tərəfindən Cığatay miraxurbaşısı Mehdiqulu bəy öz üzərinə götürməli idi. Bəlli olduğu kimi, yeni sülh anlaşmasının əldə edilməsi üçün Şah Abbasın şərti Şah Təhmasibin hakimiyyəti illərindəki sərhəd xəttinin bərpa edilməsi idi. Lakin bu şərti bütünlüklə əldə etmək mümkün olmadı. Çünki Gürcüstan istiqamətində, o cümlədən də Bağdad istiqamətində vaxtilə Səfəvi dövlətinə məxsus olan ərazilərin heç də hamısı geri qaytarılmamışdı. İsgəndər bəy Münşi bu məsələni öz əsərində belə şərh edirdi: "Cənnət aşiyanlı mərhum padşahların [Şah Təhmasiblə Sultan Süleyman nəzərdə tutulur] imzaladıqları [əvvəlki] sazişdən uzun müddət keçdiyi üçün, hazırlanan yeni sənəd ilə əlaqədar çoxlu ixtilaf ortaya çıxdı. Məsələn, sabiq sülh sazişinə görə bütün Gürcüstandan Mesq və Axisqə qalaları bu tərəfin sərhədi kimi tanınmasına baxmayaraq, indiyədək rumiyyənin əlində qalmaqda idi. Ərəbistan və Bağdad tərəfində də bəzi qala və mahallar rumiyyə sərhədinə daxil olduğu halda, hal-hazırda bu tərəf adamlarının əlindədir və onların boşaldılıb bir tərəfdən başqa tərəfə verilməsi olduqca çətindir. Əvvəla, ona görə ki, sülh sazişində göstərilmişdi: İmzalanma zamanı hər iki tərəf adamlarının əlində mövcud olan yerlər heç bir dəyişikliyə

uğramadan saxlanılsın, tərəflər onlara şərik çıxmasınlar. Buna görə də tapşırıq verilən paşa və bəylərbəyiyə söylədilər ki, bu məsələni nəzərdə tutaraq sərhəd təyinini elə müəyyənləşdirsinlər ki, düşmənçilik tamamilə aradan qaldırılsın, xırda-para məsələləri ümumi məsələlərə şamil etməsinlər" (327).

Bu təsvirdən də göründüyü kimi, Şah Abbas sərhəd xəttinə aid olan detalların həllinə xüsusi bir təkid göstərmədi. Sülhün əldə edilməsi və dinc münasibətlərin qurulması xatirinə sərhəd xəttinin müəyyənləşməsində qarşılıqlı razılaşmanı əsas tutdu. Şah Abbasın tapşırığını alandan sonra Əmirgünə xan Səlmasa yollandı və orada Van paşası Məhəmməd paşa ilə görüşdü. Onlar sərhəd xəttinin dəqiqləşdirilməsinə başladılar. Məhəmməd paşa ilə Əmirgünə xanın rəhbərlik etdiyi iş iki aya yaxın davam etdi. Sərhəd xəttinin dəqiqləşdirilməsi başa çatandan sonra xüsusi sənəd hazırlandı. Sənədin bir nüsxəsi Məhəmməd paşa tərəfindən imzalanıb möhürləndikdən sonra Əmirgünə xana verildi. Osmanlı tərəfinə verilən sənəd isə Əmirgünə xan tərəfindən imzalanıb möhürləndi. Lakin Bağdad istiqamətində sərhəd xəttinin dəqiqləşdirilməsi təxirə salındı. Buna səbəb həmin bölgədə, Osmanlı daxilində sabitliyin olmaması ilə bağlı idi. Bağdad hakimi Mahmud paşanın başı daxili ixtilafların həllinə qarışdığı üçün sərhəd xətti dəqiqləşməmiş qaldı.

## 13. İstifadə olunmuş mənbə və ədəbiyyat

1. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən tərcümə Şahin Fazil. Bakı, 2010, s. 766; Şah Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild dovvom. Tərtibçi: Əbdülhüseyn Nəvayi. Tehran, 1366, s. 43
2. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, s. 766; Abbas. Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild dovvom, s. 43; Belan L.L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 72

3. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki. 1563-1600. Çevirəni Ziya Bünyadov. Bakı, 1992, s. 30-31
4. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi (1451-1590). Ankara, 1976, s. 360; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 128
5. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 360.
6. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 33
7. Yenə orada, s. 33-34
8. Yenə orada, s. 34-35
9.Dünyanı bəzəyən Abbasın tarixi, s. 767; Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild dovvom, s .43; Parsadust M. Şah Abbas əvvəl. Cild I, Tehran 1388, s. 437
10. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 35-36
11. Dünyanı bəzəyən Abbasın tarixi, s. 767;
12. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 38; Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 369
13. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 36; İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, s. 768
14. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 37
15. Dünyanı bəzəyən Abbasın tarixi, s. 768
16. Yenə orada
17. Parsadust M. Şah Abbas əvvəl. Cild I, s.439
18.. Dünyanı bəzəyən Abbasın tarixi, s. 773
19. Yenə orada, s. 785
20. Yenə orada, s. 786
21. Yenə orada
22. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 41
23. Dünyanı bəzəyən Abbasın tarixi, s. 786
24. Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əsr-e Səfəviyye.Tehran,1392, s. 346; Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 379; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, 2020, s. 101
25. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 40-41

26. Рахимизаде И. Гянджине-йи фатх-и Гянджа, с.185/Гусейн Ф. Османо-Сефевидская война 1578-1590 гг. Баку, 2005, с.165-192
Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əsr-e Səfəviyye.Tehran,1392, s. 347
27. Рахимизаде И. Гянджине-йи фатх-и Гянджа, с.188-189
28. Yenə orada, s. 190-191
29. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 379
30. Рахимизаде И. Гянджине-йи фатх-и Гянджа, с.191-192; Rahimizade İ. Gence fetihnamesi, s. 91/ Dündar H. Rahimizade İbrahim (Harimi) Çavuşun Gence fetihnamesi adlı eserinin trakskripsiyonu və kritizasyonu. Yüksek lisans tezi. Ayfon, 2006, s. 44-98
31. Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əsr-e Səfəviyye. Tehran,1392, s. 347; Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 380
32. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 380
33. Yenə orada, s.
34. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, 1981, с. 40; Məcmue-ye əsnad və məkatib-e tarixi. Cild dovvom, s. 45; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 102
35. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 381; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s. 441; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 102
36. Nətənzi M. Nəqavət ül-asar fi zikr ülxəyar. Tehran,1373, s.384; Parsadust M. Şah Abbas əvvəl. Cild I, s.441; Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əsr-e Səfəviyye, s. 350
37. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi, s. 382
38. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 103
39. Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əsr-e Səfəviyye, s. 350-351; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 104

40. Yenə orada, s. 353
41. Yenə orada, s. 357
42. Dünyanı bəzəyən Abbasın tarixi, s. 949
43. Dünyanı bəzəyən Abbasın tarixi, s. 949; Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əsr-e Səfəviyye, s.357
44. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 59
45. Dünyanı bəzəyən Abbasın tarixi, s. 949
46. Molla Cəlaləddin Münəccim. Tarix Abbasi ya ruzname-ye Molla Cəlal. Tehran, 1366, s. 147-148
47. Dünyanı bəzəyən Abbasın tarixi, s. 949-950
48. Molla Cəlaləddin Münəccim. Tarix Abbasi ya ruzname-ye Molla Cəlal. Tehran, 1366, s. 149
49. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki, s. 59
50. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 132
51. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 112-113; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 133
52. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 112-113
53. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 133; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 112-113
54. Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əsr-e Səfəviyye, s. 365; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 113
55. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Tərcümə edən – Şahin Fərzəliyev. Bakı, 2014, s. 1156
56. Yenə orada, s. 1157
57. Yenə orada, s. 1157-1158
58. Yenə orada, s. 1159
59. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1160; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 159; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 116
60. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1160

61. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom. Tehran, 1391, s. 987
62. Conabedi M. Rövzətüs-səfəviyye. Tehran, 1378, s. 766
63. Yenə orada, s. 767
64. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1161
65. Yenə orada
66. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1161; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 990
67. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1162
68. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.990-991
69. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1162; Conabedi M. Rövzətüs-səfəviyye, s. 768; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 992
70. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1162; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 992
71. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1163-1164
72. Yenə orada, s. 1164
73. Conabedi M. Rövzətüs-səfəviyye, s. 768
74. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.992-993
75. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1163
76. Conabedi M. Rövzətüs-səfəviyye, s. 768
77. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 116
78. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1165
79. Yenə orada, s.
80. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1166; Conabedi M. Rövzətüs-səfəviyye, s. 769
81. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1167
82. Yenə orada
83. Yenə orada, s. 1168
84 Yenə orada, s. 1169
85. Yenə orada
86. Conabedi M. Rövzətüs-səfəviyye, s. 771

87. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1171
88. Yenə orada
89. Conabedi M. Rövzətüs-səfəviyye, s. 772
90. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1172
91. Conabedi M. Rövzətüs-səfəviyye, s. 772
92. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1173
93. Yenə orada, s. 1174
94. Yenə orada
95. Yenə orada, s. 1175
96. Yenə orada, s. 1178
97. Yenə orada, s. 1179
98. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1186; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 165
99. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1186; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 165; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 999
100. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1000
101. Belan L.L. Zendegi-ye Şah Abbas, s. 166
102. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1187
103. Yenə orada
104. Yenə orada, s. 1187-1189
105. Yenə orada, s. 1189
106. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1190; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 165; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1000
107. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1190; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 166; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1001
108. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1191; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 167;
109. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1192
110. Yenə orada, s. 1180

111. Yenə orada, s. 1181
112. Yenə orada, s. 1182
113. Yenə orada, s. 1183
114. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1200; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 168
115. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1201; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 168
116. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1201; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 180; Belan L. Zendegi-ye Şah Abbas, s. 168
117. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1202
118. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1202; Belan L. Zendegi-ye Şah Abbas, s. 169
119. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1203
120. Yenə orada, s. 1194
121. Yenə orada, s. 1195
122. Yenə orada, s. 1196
123. Yenə orada, s. 1197
124. Yenə orada, s. 1198-1199
125. Yenə orada, s. 1204-1205
126. Yenə orada, s. 1206
127. Yenə orada
128. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1208; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1002; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 137
129. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1208; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1003; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 170
130. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1209
131. Yenə orada, s. 1211
132. Yenə orada
133. Yenə orada, s. 1212
134. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1213; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1004

135. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1214; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1003; Belan L.L. Zendegi-ye Şah Abbas, s. 174
136. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1217-1218
137. Molla Cəlaləddin Münəccim. Tarix Abbasi və ya ruznameye Molla Cəlal. Tehran, 1366, s. 273-274
138. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1219
139. Yenə orada
140. Yenə orada, s. 1227
141. Yenə orada, s. 1228
142. Yenə orada, s. 1234
143. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1005
144. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1236; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1006
145. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1237; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1006
146. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1238
147. Yenə orada, s. 1239
148. Yenə orada, s. 1240
149. Yenə orada, s. 1243
150. Yenə orada, s. 1244
151. Yenə orada
152. Yenə orada, s. 1257
153. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s.187
154. Conabedi M. Rövzətüs-səfəviyye, s. 784
155. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1258
156. Belan L.L. Zendegi-ye Şah Abbas, s. 181
157. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1259
158. Conabedi M. Rövzətüs-səfəviyye, s. 785
159. Yenə orada, s. 784, 786
160. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1259
161. Yenə orada, s. 1260

162. Conabedi M. Rövzətüs-səfəviyye, s. 786
163. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1260
164. Yenə orada, s. 1261
165. Conabedi M. Rövzətüs-səfəviyye, s. 787-788
166. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1262
167. Yenə orada, s. 1263
168. Yenə orada, s. 1263-1264
169. Yenə orada, s. 1265
170. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 138
171. Conabedi M. Rövzətüs-səfəviyye, s. 790
172. Belan L.L. Zendegi-ye Şah Abbas, s. 181
173. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1267-1268
174. Yenə orada, s. 1269
175. Yenə orada, s. 1270-1271
176. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1271; Belan L. Zendegi-ye Şah Abbas, s. 183
177. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1271-1272
178. Yenə orada, s. 1273
179. Yenə orada, s. 1273-1274
180. Belan L. Zendegi-ye Şah Abbas, s. 183-184
181. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1279; Conabedi M. Rövzətüs-səfəviyye, s. 793; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1012
182. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1280; Conabedi M. Rövzətüs-səfəviyye, s. 793
183. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1281
184. Yenə orada, s. 1283
185. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1289; Belan L. Zendegi-ye Şah Abbas, s.190
186. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s.190; Belan L. Zendegi-ye Şah Abbas, s. 190; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1013

187. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1290; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 190; Belan L. Zendegi-ye Şah Abbas, s. 191
188. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1290; Conabedi M. Rövzətüs-səfəviyye, s. 796
189. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1291; Conabedi M. Rövzətüs-səfəviyye, s. 796
190. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1293; Belan L. Zendegi-ye Şah Abbas, s. 191
191. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1294; Belan L. Zendegi-ye Şah Abbas, s. 192
192. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1295
193. Yenə orada, s. 1297-1299
194. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1299; Belan L. Zendegi-ye Şah Abbas, s. 193; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1014
195. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1299
196. Yenə orada, s. 1300
197. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1301; Belan L. Zendegi-ye Şah Abbas, s. 193;
198. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1302
199. Yenə orada, s. 1313
200. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1015; Belan L. Zendegi-ye Şah Abbas, s. 194
201. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1315
202. Yenə orada, s. 1316
203. Yenə orada, s. 1317
204. Yenə orada, s. 1317
205. Yenə orada
206. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1318; Belan L. Zendegi-ye Şah Abbas, s. 195
207. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1319
208. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1320; Belan L. Zendegi-ye Şah Abbas, s. 196

209. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1320; Belan L. Zendegi-ye Şah Abbas, s. 196
210. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1329
211. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1329; Belan L. Zendegi-ye Şah Abbas, s. 199
212. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1331
213. Yenə orada
214. Yenə orada, s. 1345
215. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1346; Belan L. Zendegi-ye Şah Abbas, s. 201
216. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1346; Belan L. Zendegi-ye Şah Abbas, s. 201
217. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1347
218. Yenə orada, s. 1348-1349
219. Yenə orada, s. 1349-1350
220. Yenə orada, s. 1353
221. Yenə orada, s. 1322
222. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s.191
223. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1323
224. Yenə orada, s. 1324
225. Yenə orada, s. 1325
226. Yenə orada, s. 1326
227. Yenə orada, s. 1334
228. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1335; Belan L. Zendegi-ye Şah Abbas, s. 203
229. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1335; Belan L. Zendegi-ye Şah Abbas, s. 203
230. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1337; Belan L. Zendegi-ye Şah Abbas, s. 203
231. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1338
232. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1016
233. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1356

234. Yenə orada, s. 1357
235. Yenə orada, s. 1359
236. Yenə orada, s. 1367
237. Yenə orada, s. 1376
238. Yenə orada
239. Yenə orada, s. 1377-1378
240. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1379; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1018
241. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1380; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1018
242. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1388-1389; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1020
243. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1389
244. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1389; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1020
245. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1391
246. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1392
247. Belan L. Zendegi-ye Şah Abbas, s. 212
248. Yenə orada, s. 213
249. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1396
250. Yenə orada, s. 1397-1398
251. Yenə orada, s. 1404
252. Yenə orada, s. 1405
253. Yenə orada, s. 1416
254. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1417-1418; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1020
255. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1418
256. Belan L. Zendegi-ye Şah Abbas, s .217
257. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1419
258. Yenə orada, s. 1422-1423
259. Yenə orada, s. 1424
260. Yenə orada

261. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1425; Belan L. Zendegi-ye Şah Abbas, s. 218
262. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1426
263. Yenə orada, s. 1428
264. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1429; Belan L. Zendegi-ye Şah Abbas, s. 219
265. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1430; Belan L. Zendegi-ye Şah Abbas, s. 219
266. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1431; Conabedi M. Rövzətüs-səfəviyye, s. 808; Belan L. Zendegi-ye Şah Abbas, s. 219
267. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1432; Belan L. Zendegi-ye Şah Abbas, s. 219
268. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1432
269. Yenə orada, s. 1433
270. Yenə orada, s. 1434
271. Yenə orada, s. 1439
272. Yenə orada, s. 1440
273. Yenə orada, s. 1441
274. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1450; Belan L. Zendegi-ye Şah Abbas, s. 221
275. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1451; Belan L. Zendegi-ye Şah Abbas, s. 222
276. Conabedi M. Rövzətüs-səfəviyye, s.818
277. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1453; Belan L. Zendegi-ye Şah Abbas, s. 222
278. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1453
279. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1455; Belan L. Zendegi-ye Şah Abbas, s. 222
280. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1456
281. Yenə orada, s. 1458
282. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1460; Conabedi M. Rövzətüs-səfəviyye, s. 822; Belan L. Zendegi-ye Şah Abbas, s. 223

283. Conabedi M. Rövzətüs-səfəviyye, s. 823
284. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1465; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1021; Belan L. Zendegi-ye Şah Abbas, s. 225
285. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1466
286. Yenə orada, s. 1467
287. Yenə orada
288. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1468; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 198; Belan L. Zendegi-ye Şah Abbas, s. 225
289. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1472-1473
290. Yenə orada, s. 1473
291. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s.198
292. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1473-1474
293. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1475; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 199
294. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1475-1476
295. Yenə orada, s. 1477
296. Yenə orada
297. Yenə orada, s. 1478
298. Yenə orada, s. 1479
299. Yenə orada
300. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1480; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s. 199; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1023
301. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 141
302. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1482-1483
303. Yenə orada, s.1483
304. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1488; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 142;
305. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1521
306. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1545; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1024; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan

dər əhd-e Səfəviyyə. Tehran, 1392, s.374; Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, 1981, с. 79
307. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1522
308. Conabedi M. Rövzətüs-səfəviyye, s. 838-839
309. Molla Cəlaləddin Münəccim. Tarix Abbasi ya ruzname-ye Molla Cəlal, s. 427-428
310. Conabedi M. Rövzətüs-səfəviyye, s. 838
311. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1481-1482
312. Yenə orada, s. 1523
313. Yenə orada, s. 1524
314. Yenə orada, s. 1525
315. Yenə orada, s. 1528-1529
316. Yenə orada, s. 1530
317. Yenə orada
318. Yenə orada, s. 1531
319. Yenə orada, s. 1532
320. Conabedi M. Rövzətüs-səfəviyye, s. 839
321. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 142; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 119
322. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1545; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 142; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 119; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 376
323. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 377
324. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 120
325. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran Siyasi Antlaşmaları. İstanbul, 2001, s. 167-168; Kılıc R. Osmanlılar ile Safeviler arasında Nasuh paşa (1612) ve Serav Antlaşması (1618). http://remzikilic.com/osmanlilar-ile-safeviler-arasinda-nasuh-pasa1612-ve-serav1618-antlasmalari.html?print=print

326. Bax: Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran Siyasi Antlaşmaları. İstanbul, 2001, s. 168-169
327. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1546-1457

## VI FƏSİL.
## SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ (davamı)

### 1. Səfəvi qoşunlarının Gürcüstan üzərinə yürüşü

Osmanlı dövləti ilə II İstanbul anlaşmasının əldə edilməsindən az sonra Şah Abbas Gürcüstan üzərinə qoşun çəkmək qərarına gəldi. Belə bir qərar verilməsinə əsas olan səbəblərdən biri Gürcüstan üzərində Osmanlı təsirinin azaldılması və bu bölgənin yenidən Səfəvi sarayının nəzarəti altına gətirilməsi idi. Konkret olaraq isə Şah Abbas bir tərəfdən Kartli çarı II Luarsabla Kaxet hakimi I Teymurazın (mənbə və elmi ədəbiyyatda Təhmurəs kimi də xatırlanır) Səfəvi nəzarətindən çıxmaq cəhdlərinin qarşısını almaq və Şah Təhmasibin vaxtında imzalanmış Amasiya sülh müqaviləsinə görə Səfəvi nəzarəti altında olmuş gürcü ərazilərinin Osmanlı nəzarəti altından çıxarmaq istəyirdi. Çünki II İstanbul anlaşması Amasiya anlaşmasının şərtlərinə istinad etsə də, Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi sarayının nəzarəti altında olan bəzi gürcü əraziləri Osmanlı nəzarəti altında qalmışdı. Bu məsələyə İsgəndər bəy Münşinin əsərində də bir işarə vardır. Bu müəllif yazırdı: "Cənnət aşiyanlı mərhum padşahların imzaladıqları [əvvəlki] sazişdən uzun müddət keçdiyi üçün, hazırlanan yeni sənəd ilə əlaqədar çoxlu ixtilaf ortaya çıxdı. Məsələn, sabiq sülh sazişinə görə bütün Gürcüstandan Mesq və Axisqə qalaları bu tərəfin sərhədi kimi tanınmasına baxmayaraq, indiyədək rumiyyənin əlində qalmaqda idi. Ərəbistan və Bağdad tərəfində də bəzi qala və mahallar rumiyyə sərhədinə daxil olduğu halda, hal-hazırda bu tərəf adamlarının əlindədir və onların boşaldılıb bir tərəfdən başqa tərəfə verilməsi olduqca çətindir. Əvvəla, ona görə ki, sülh sazişində göstərilmişdi: İmzalanma zamanı hər iki tərəf adamlarının əlində mövcud olan yerlər heç bir dəyişikliyə uğramadan saxlanılsın, tərəflər onlara şərik çıxmasınlar" (1).

II İstanbul anlaşmasının imzalanmasından sonra da göründüyü kimi, Mesxet və Axısqa qalaları Osmanlı nəzarəti altında qalmış-

dı. Gürcü mənbələrində bu ərazilər Samsxe-Saatabaqo kimi verilmişdir (2). Osmanlı sarayı ilə yeni anlaşma əldə edildikdən və bu iki dövlət arasında böyük müharibə ehtimalı aradan qalxdıqdan sonra Şah Abbas Gürcüstan tərəfə üz tutmağı və bu bölgə ilə bağlı olan narahatlıqları aradan qaldırmağı məqsədəuyğun saydı. Gürcüstan üzərinə qoşun çıxarılması həm də Kartli və Kaxet çarlarının cəzalandırılması və onların Osmanlı himayəsinə sığınmasının qarşısının alınması və həmin çarlıqlar üzərində Səfəvi nəzarətinin gücləndirilməsi idi. Bu çarlıqların hər ikisinin hakimi, yəni Luarsab da, Təhmurəs də bir vaxtlar Səfəvi sarayına bağlı olmuşdular və şah hakimiyyətini qəbul etmişdilər. Lakin Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumlarının başlanması adı çəkilən bu hakimlərdə Səfəvi sarayına yeni bir münasibət yaranmasına yol açdı. Təhmurəsin hətta Səfəvi ərazilərinə basqınlar etməsi haqqında da məlumatlar vardır (3).

Təbriz üzərinə qoşun çəkmiş Murad paşa ilə müəyyən münasibətlər qurmuş Təhmurəs və Luarsab sonradan Şah Abbasla münasibətlərin qırılmasının onlar üçün arzusunda olduqları nəticəyə gətirməcəyini yaxşı bilirdilər. Ona görə onlar Şah Abbasla əlaqə yaradaraq razı olacağı təqdirdə şahla birlikdə ov mərasimində istirak etmək arzusunu bildirdilər. Gürcü çarları Şah Abbasa göndərdikləri məktubda yazırdılar: "Əgər əlahəzrət behiştə bənzər Mazandaranda seyr və şikar etmək fikrinə düşərsə, onlar da həmin vilayətin tərifini çox eşitdikləri üçün şahla birlikdə seyr və şikarda iştirak etmək arzusundadırlar. Şah qoy onlara izn versin ki, özlərini hümayun orduya çatdırıb seyr və şikar üçün müqəddəs orduda olsunlar. Əgər şahın cahanı bəzəyən rəyi onların da iştirakına icazə verərsə, qoy bu barədə bir namə göndərib onları dəvət etsin ki, hər ikisi belə olan surətdə səfərə çıxıb özlərini iqbal qoşununa külək kimi çatdırsınlar" (4).

Şah Abbas bu təklifi qəbul etdi və gürcü çarlarının şah sarayına qarşı müxalifətçiliyinin dinc yolla aradan qaldırılması fürsətindən bəhrələnməyə çalışdı. Ona görə də 1612-ci ilin sonlarında Mazandaran istiqamətində hərəkətə başlayanda gürcü çarlarına da

hökm göndərdi. Həmin hökmü gürcü çarlarına Əmirqulu adlı bir cilovdar çatdırdı. Gürcü çarları isə Şah Abbasın bu iltifat və hökmünə əməl edilməsinə elə də xüsusi bir maraq göstərmədilər. Ona görə də, Əmirqulu cilovdar xeyli müddət Gürcüstan ərazisində ləngiməli oldu. Gürcü çarları arasında Şah Abbasın yanına yollanmaq və yollanmamaq haqqında aparılan müzakirələr o qədər uzandı ki, qış fəsli başa çatdı və havalar qızmağa başladı. Havaların qızması isə ov mövsümünə son qoydu. Gürcü çarları axırı ki, Şah Abbasın hüzurunda olmaq imkanından bəhrələnə bilmədilər. Havalar qızandan sonra gürcü çarları şah elçisini geri göndərmək məcburiyyətində qaldılar. Şah Abbasın hökmünə əməl edilməməsi gürcü çarlarının və bölgənin digər hakimlərinin dərin narahatçılığına səbəb oldu. Onlar şübhə etmirdilər ki, Şah Abbasa qarşı göstərilən hörmətsizlik cavabsız qalmayacaqdır. Ona görə onlar məsləhətləşmələrdən sonra öz aralarındakı inciklikləri unutmağı və birgə fəaliyyət üçün birləşməyi lazım bildilər. Gürcü çarları və hakimləri öz aralarında razılığa gəldilər ki, öz atalarının yolunu davam etdirməsinlər. Yəni onlardan fərqli olaraq birləşsinlər və öz mövcud təhlükə qarşısında öz yerlərini tərk etməsinlər (5).

Gürcü çarlarının itaətsizliyi və şah hökmünə laqeyd münasibət göstərmələri Şah Abbasın qəzəbi ilə qarşılaşdı. O, gürcü çarlarının bu hərəkətini cavabsız qoymaq istəmədi. Aydın idi ki, bu cəzasızlıq gürcü çarlarını Səfəvi sarayından daha da uzaqlaşdıra bilərdi. Ona görə də Şah Abbas qərara gəldi ki, Gürcüstan məsələlərinin sahmana salınması üçün əvvəlcə şah qoşunları ilə Qarabağa doğru hərəkətə başlasın. Qoşunların Qarabağa gəlişi gürcü hakimlərinə bir xəbərdarlıq olmalı idi. Əgər onlar Qarabağa gəlib Şah Abbasa öz itaətlərini bildirərdilərsə, onların təqsirləri bağışlana bilərdi. Belə olduğu təqdirdə Şah Abbas onların günahını bağışlaya və onları şah iltifatına layiq görərdi. Əks təqdirdə isə, Şah Abbas qoşunlarla Gürcüstana doğru yürüşünü davam etdirməli idi. Bu yürüş barəsində qərar 1613-cü ilin yayında qəbul edilmişdi. Amma yayda havaların isti keçməsinə görə, Şah Abbas bir müddət Fəridun və Porciş yaylaqlarında vaxt keçirdi və payızın gəlməsi ilə

şah qoşunlarına Qarabağa doğru hərəkət əmri verildi. Eyni zamanda bir sıra vilayət hakimlərinə də şah hökmü göndərildi ki, onlar da öz qoşun dəstələri ilə hərəkətə başlasınlar və şah qoşunlarına birləşsinlər. Şah qoşunları hərəkətdə ikən vilayətlərdən gələn dəstələr onlara qoşuldular. Vilayət qoşunlarının hamısının toplanmasına nail olunması üçün şah qoşunları ahəstə şəkildə hərəkət edirdilər. Bir müddətdən sonra bu qoşunlar Ərdəbil şəhərinə yetişdi. Şah Abbas burada qısa müddətə düşərgə saldı və həmin müddət ərzində ulu əcdadlarının və səfəviyyə şeyxlərinin məzarlarını ziyarət etdi (6).

Gürcüstan istiqamətində yürüş başlananda II İstanbul anlaşmasının şərtlərinə əsasən iki dövlət arasında sərhəd xəttinin dəqiqləşdirilməsi işləri hələ başa çatmamışdı. Bu məsələnin həlli ilə məşğul olmalı olan Osmanlı nümayəndəsi İncili Çavuş da hələ Səfəvi hüdudlarında qalmaqda idi. Şah Abbas Gürcüstan məsələlərinin sahmana salınmasına başlasa da, əslində, onun Gürcüstan yürüşünün Osmanlı sarayının narazılığına səbəb olmasını və bununla da əldə edilmiş yeni anlaşmanın pozulmasını da istəmirdi. Osmanlı sarayında yarana biləcək təşvişin aradan qaldırılması üçün Şah Abbas Ərdəbildə olduğu günlərdə Sultan Məhəmməd bəy Talış adlı əmirini Nəsuh paşanın yanına göndərdi. Onun vasitəsilə Nəsuh paşaya çatdırıldı ki, şah qoşunlarının Gürcüstana yürüşündə məqsəd orada Osmanlı nəzarəti altında qalmalı olan ərazilərin ələ keçirilməsi deyil, yeni İstanbul anlaşmasına əsasən Səfəvi nəzarəti altında olan gürcü ərazilərinin hakimlərini itaətsizliklərinə görə cəzalandırmaqdır. Qeyd edilməlidir ki, Osmanlı sarayı doğrudan da Şah Abbasın Gürcüstan üzərinə qoşun çəkməsinə görə müəyyən narahatçılıq keçirirdi və bu yürüşü II İstanbul anlaşmasının pozulmasına yönəlmiş bir yürüş kimi qiymətləndirirdi. Şah qoşunları isə bir neçə gündən sonra Ərdəbildən hərəkəti davam etdirərək Qarabağa yetişdi (7).

Şah qoşunlarının Qarabağa gəlməsi gürcü çarlarını heç də tutduqları yoldan döndərə bilmədi. Xüsusilə, Kaxet çarı Təhmurəs və onun ətrafına toplaşanlar belə güman etdilər ki, dağlara, meşələrə

səpələnməklə şah qoşunlarının hücumundan qoruna bilərlər. Şah Abbas Qarabağ ərazisindəki düşərgəsindən əvvəlcə Təbriz hakimi Pir Budaq xanın rəhbərliyi altında bir qoşun dəstəsini Gürcüstana yola saldı. Bu qoşun dəstəsinə bölgəni yaxşı tanıyan bəzi əmirlər də əlavə edildi. Pir Budaq xan şahın hökmünü gürcü çarlarına çatdırmalı və onları itaət yoluna dəvət etməli idi. Onun rəhbərliyi altında olan qoşun dəstəsi Kür çayını adlayıb Qabırrı (İori) çayı ətrafında düşərgə saldı. Kaxet çarı isə əvvəldən qərarlaşdırdığı kimi müqavimət yolunu tutmağa üstünlük verdi. Bu məqsədlə o, ətrafında olan qoşun dəstəsi ilə dağlara və meşələrə çəkildi və çıxış yolunu da şah qoşunlarından gizlənməkdə gördü. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas bir vaxtlar şah sarayına bağlı olmuş Təhmurəsin sərt cəzalandırılmasına elə də meylli deyildi. O istəyirdi ki, Təhmurəs tutduğu yoldan əl çəksin və bununla da mövcud olan gərginlik dinc yolla aradan qalxsın. Bu məqsədə nail olmaq üçün Şah Abbas bir vaxtlar şah sarayında Təhmurəslə xoş münasibətlərdə olmuş Zakir ağa Quşçini onun yanına göndərdi. Güman edilirdi ki, aralarında mövcud olmuş etimadlı münasibətə görə Təhmurəs Zakir ağanın sözlərini və məsləhətlərini eşidərək tutduğu yoldan çəkinəcək və yenidən şah sarayına itaət yoluna dönəcəkdir. Təhmurəs isə qorxdu və Zakir ağanın sözlərini qəbul etmədi. O bildirdi ki, göstərdiyi itaətsizliyə görə Şah Abbasın hüzuruna getməyə cəsarət etmir. Əvəzində isə, Təhmurəs anasını, iki kiçik yaşlı oğlunu, bir neçə din xadimini və hörmətli adamları Şah Abbasın yanına göndərdi ki, onlar Təhmurəsin günahının bağışlanmasını Şah Abbasdan xahiş etsinlər (8).

"Rövzətüs-Səfəviyyə" müəllifinin yazdığına görə, şah qoşunları hələ Kür çayını adlamazdan əvvəl Şah Abbas bir neçə nəfəri Təhmurəsin yanına göndərdi. Bu adamlar sırasına Boqrat Mirzə, İsfəndiyar bəy Ənis, şah tövləsinin əmiri Mehdiqulu bəy və digərləri daxil idilər. Onlar Təhmurəsi itaətsizlik yolundan çəkinməyə və Şah Abbasın hüzuruna gəlməsinə təşviq etməli idilər. Amma şah nümayəndələrinin tövsiyələri Təhmurəs tərəfindən qəbul olunmadı. Şah qoşunları Kür çayını adlayıb Tiflis yaxınlıqlarında dü-

şərgə salanda Boqrat Mirzə yenidən Təhmurəsin yanına göndərildi. Təhmurəs bu dəfə də şah hüzuruna yollanmağa cəsarət etmədiyindən anasını və 7-8 yaşlarında olan iki oğlunu şah düşərgəsinə yolladı (9).

Təhmurəs şah düşərgəsinə göndərdiyi adamlara tapşırmışdı ki, onun bağışlanması haqqında şahın iltifatını qazandıqdan sonra geri qayıtsınlar. Onlar geri qayıdandan sonra isə Təhmurəs özü Şah Abbasın hüzuruna yollanmalı və ona öz itaətini bildirməli idi. Bu adamlar Qabırrı çayının sahilində Şah Abbasın hüzuruna yetişə bildilər. Bu zaman Şah Abbas da artıq Qabırrı çayı sahilində idi. İsgəndər bəy Münşinin yazdığına görə, Şah Abbas bu adamları mehribanlıqla qarşıladı və Təhmurəsin anası oğlunun bağışlanmasını Şah Abbasdan xahiş etdi. Bildirilir ki, bu zaman Təhmurəsin bir məktubu ələ keçdi və həmin məktubun məzmunu Şah Abbasın qonaqlara olan mehriban münasibətini də aradan qaldırdı. İsgəndər bəy həmin məktubun kimdən və necə tapıldığını yazmamışdır. Bu məktub Kartli çarı Luarsabın əmisi oğlu Boqrat Mirzəyə ünvanlanmış bir məktub idi. Təhmurəs bu məktubunda separatçılıq yolundan əl çəkməyəcəyi barədə hansısa planlarından söz açırmış. Məktubun məzmunu Şah Abbası çox qəzəbləndirdi və ona görə də Təhmurəsin anasını və övladlarını həbs etdirərək səltənətin içərilərinə göndərdi (10).

Ermənilərin yazdığı xronikada mövcud olan bir məlumata görə, Şah Abbas öz nümayəndəsini Təhmurəsin yanına göndərdi və ondan girov tələb etdi. Təhmurəs də əvvəlcə övladlarından birini onun yanına göndərdi. Şah Abbas bununla kifayətlənmədi və yenə də girov tələb etdi. Onda Təhmurəs ikinci oğlunu Şah Abbasın düşərgəsinə göndərdi. Bildirilir ki, Şah Abbas bununla da kifayətlənmədi. Belə olanda Təhmurəs anasını da girov kimi Şah Abbasın düşərgəsinə göndərdi (11).

Bir məlumata görə isə, Şah Abbasın tələbinə cavab olaraq Təhmurəs anası Ketevanı və övladları Levonla Aleksandrı şah düşərgəsinə göndərdi. Amma Şah Abbas bununla kifayətlənməyib Təhmurəsin özünün gəlməsini tələb etdi (12).

Təhmurəs isə Şah Abbasın ona qarşı qəzəbli olduğunu görüb onun yanına getməkdən imtina etdi və Kartli çarı Luarsabın yanına pənah apardı. Luarsab baş verənlər haqqında ətraflı məlumat alandan sonra özü də təşviş içərisinə düşdü. Şah Abbasın qoşunla Kartli üzərinə gələ biləcəyindən qorxan Luarsab da öz vilayətini tərk etdi və Təhmurəslə birlikdə Osmanlı nəzarəti altında olan Başıaçığa yollandı. Başıaçıq hakimi Qorqin xan onları qəbul etdi və bir məlumata görə Başıaçıqda olarkən Təhmurəslə Luarsab Osmanlı sarayından himayə olunmaq xahişini etdilər (13). Osmanlı sarayına sığınmaqdan əlavə Başıaçığın coğrafi şəraiti, təbii müdafiə imkanlarının yüksək olması Təhmurəs və Luarsabda Şah Abbas qəzəbindən qorunmaq üçün bir ümid yaratdı. Şah Abbas isə onlarla bağlı qətiyyət nümayiş etdirdi və gürcü çarlarının tutulması üçün əməli addımlar atılmasına başlandı.

Şah Abbas dayandığı düşərgədən hərəkətə başlayaraq Gürcüstanın içərilərinə doğru istiqamət götürdü. Bu hadisə 1613-cü ilin sonlarında baş verdi. Şah Abbas qışlağı da Gürcüstan ərazisində keçirdi. 1614-cü ilin Novruz bayramının qeyd edilməsindən sonra isə Şah Abbas Gürcüstanın idarəçilik məsələlərinin sahmana salınması ilə bağlı lazımi qərarlar qəbul etdi. Təhmurəsin yerinə şahın hökmü ilə onun əmisi oğlu olan İsa xan Mirzə təyin edildi. İsa xan islam dinini qəbul etmişdi və şah sarayı ilə də yaxşı münasibətlərə malik idi. İdarəçilik işlərinin yaxşı qurulması üçün bir neçə təcrübəli gürcü əyan və əmirləri də İsa xanın köməyinə verildi. İsa xan xüsusi bir təntənə və ehtiramla gürcü taxtına əyləşdirildi, Şah Abbas tərəfindən ona böyük həcmdə qızıl bağışlandı. Şahın əmri ilə qızılbaş əmirləri və əyanları da İsa xana böyük miqdarda qızıl və qiymətli hədiyyələr bağışladılar, ona öz ehtiramlarını nümayiş etdirdilər. Təhmurəs xanın mövqeyini dəstəkləməyən yerli gürcü əmir və əyanları da İsa xanın ətrafına toplaşdılar və onların yaxından iştirakı ilə həyat və yaşayış yenidən canlandı. Şah Abbas tələb etdi ki, vilayət daxilində qanunçuluq və haqq-ədalət bərpa olunsun, insanların yersiz incidilməsinin qarşısı alınsın. İsgəndər bəy Münşinin yazdığına görə, Gürcüstan daxilində elə bir qanunçuluq

yaradıldı ki, kimsə cəsarət edib birisinin xırmanından bir saman çöpü belə götürə bilməzdi. Sahibsiz qalmış gürcü evlərini talamaq istəyən iki nəfər qoşun əhlinin qarşısında qılıncdan keçirildi, onların qarınları yarıldı və həyatlarına son qoyuldu. Belə bir cəzadan sonra insanlarda haqsız əməllərin ciddi cəzalanacağı qorxusu özünü göstərməyə başladı. Şah qoşunlarının gəlişindən qorxaraq dağlara və meşələrə səpələnmiş olan gürcülər şah idarəciliyinin kəsərini gördükdən sonra evlərinə geri döndülər (14).

Mövcud olan məlumatlara görə, Təhmurəslə Luarsab üzərinə qoşun göndərmək ərəfəsində Şah Abbasın Osmanlı sultanı və Osmanlı əyanları ilə yazışmaları davam edirdi. Bu məktublaşmanın aparılmasında da məqsəd şah qoşunlarının Gürcüstana çıxarılması ilə bağlı Osmanlı sarayının narahatçılıqlarını aradan qaldırmaq idi. Osmanlı sultanı I Əhmədə göndərdiyi məktubunda Şah Abbas başladığı hərbi yürüşün məqsədinin müsəlmanları sıxışdıran kafirlərin əzilməsi olduğunu bildirirdi. Səfəvi şahı müsəlmanların himayəsi üçün həyata keçirilən bu yürüşün nəticələrinin bir savab kimi islam xəlifəsi olan Osmanlı sultanının adına yazılacağını qeyd edirdi. Bu fikir şah tərəfindən Nəsuh paşanın adına yazılmış məktubda da təkrarlanmışdı. Şah Abbas məktubunda Başıaçıq hakimi Qorgin xana sığınmış Təhmurəslə Luarsabın tutulub ona təhvil verilməsi məsələsini də qaldırmışdı (15). Çünki əldə edilən anlaşmalara uyğun olaraq itaətsizlik göstərərək digər dövlətin ərazisinə qaçmış adamlar həbs edilərək qarşı tərəfə təhvil verilməli idi.

Başıaçığa doğru irəliləyərkən şah qoşunları Kirəm adlanan bir məntəqədə düşərgə saldılar. Bu məntəqə əyalət məntəqələrindən biri idi. Kifayət qədər səfalı olan bu məntəqə sakinləri arasında islamın yayılması Şah Abbasın diqqətindən qaçmadı. Sonra şah qoşunları hərəkətlərini davam etdirərək Alaverd (Alaverdi) adlı bir məntəqəyə gəldi. Bu məntəqədə əzəmətli bir kilsə var idi. Burada Şah Abbas məlumat aldı ki, dayandıqları məkanın şimal istiqamətində Torağan adlı bir qala vardır. Bu qalaya Təhmurəs tərəfində olan bir dəstə gürcü sığınmışdı və bu adamlar İsa xanın ha-

kimliyini qəbul etmək istəmirdilər. Şah Abbasın göstərişi ilə həmin qalanın alınmasına qızılbaş qoşun dəstəsi göndərildi. Bu dəstəyə azərbaycanlı tüfəngçilərin minbaşısı olan Məhəmmədtağı bəy Təbrizi adlı bir əmir rəhbərlik edirdi. Həmin dəstə qalaya yetişən kimi onu mühasirəyə aldı. Qaladakılar müqavimət göstərə bilmədilər. Onlar qaçıb ətrafa dağılışdılar və bununla Torağan qalası da qızılbaş qüvvələrinin əlinə keçdi (16).

Alaverd kilsəsində və onun ətrafında xristian dininin Alaverd məzhəbinə məxsus olan insanlar yaşayırdılar. Bu məzhəb haqqında məlumat verən İsgəndər bəy Münşi onun inancları barəsində heç nə yazmamışdır. Ancaq ona işarə olunmuşdur ki, Alaverd kilsəsi əzəmətli bir tikili idi və Şah Abbas qərara aldı ki, bu kilsə qalaya çevrilsin və onun ətrafına qala divarları çəkilsin. Alaverd ətrafında tikinti daşları və əhəngi mövcud deyildi. Ona görə bu tikinti materiallarını uzaqdan daşıyıb gətirmək lazım gəldi. Tikiləcək qala divarları qoşun əhli arasında bölündü, bu divarların hər hissəsi üçün məsul qüvvələr müəyyənləşdirildi və onlara işin icrası tapşırıldı. Qısa müddət ərzində qalanı tikib başa çatdırmaq mümkün oldu. Şah Abbasın göstərişi ilə İsmayıl bəy Tüfəngçibaşının rəhbərliyi altında iki yüz nəfərlik azərbaycanlı tüfəngçisi həmin qalanın mühafizəsinə vəzifələndirildi. Həmin qalanın tikintisi başa çatdıqdan sonra şah qoşunları Başıaçığa doğru hərəkəti davam etdirdilər. Bu zaman Kartlidən keçilməsi zərurəti ortaya gəldi. Kartli Başıaçığa aparan yolun üstündə idi. Luarsabın Təhmurəslə birlikdə Başıaçığa qaçmasından sonra bu vilayətdə də idarəçilik nizamı pozulmuşdu. Lakin Kartliyə aparan yol son dərəcə mürəkkəb bir coğrafi məkandan keçirdi. Yolun yerləşdiyi dərənin son dərəcə dərinliyi, ətrafdakı qayaların hündürlüyü, yol ətrafının qalın meşələrlə örtülməsi böyük sayda qoşunun oradan keçməsini qeyri-mümkün edirdi. Həmin yol o dərəcədə narahat idi ki, hətta yerli gürcü hakimləri də qoşunla birlikdə bu yol ilə hərəkət etməzdilər. Təbii şəraitinə görə isə bu yol ilin çox vaxtını yağış altında olurdu. Bu yoldan istifadə edilməsi açıq şəkildə təhlükə ilə qarşılaşmaq demək idi. Buna baxmayaraq Şah Abbas bu yoldan keç-

mək qərarını verdi. Şah qoşunları üç gün ərzində həmin dərəni adlamaqla yollarını davam etdirdilər. Görülən bütün ehtiyat tədbirlərinə baxmayaraq, qoşun əhli arasında, o cümlədən də ordubazar adamları arasında qayalardan sürüşən və həyatlarını itirənlər də oldu (17).

Üç gün davam edən dağ keçidindən sonra şah qoşunları səfalı bir məkana gəlib çıxdılar. Həmin məkan Qanıq və Qabırrı çaylarının mənbələrinin başlandığı bir yer idi.

"Rövzətüs-Səfəviyyə" əsərində hadisələrin gedişi bir qədər fərqli şəkildə təsvir edilmişdir. Bu əsərdəki təsvirdən belə bir qənaət hasil olur ki, Təhmurəsin ələ keçirilməsi üçün hələ onun Kaxet vilayətində olduğu zaman cəhd göstərilmişdi. Bildirilir ki, Təhmurəs xan anasını və iki övladını Şah Abbasın yanına göndərdikdən sonra Səfəvi şahında bir barışıq meyli yaranmışdı. Amma elə bu vaxtlarda Təhmurəs xanın itaət altına gəlməkdən birdəfəlik imtina etməsi xəbəri alındı. Belə olanda Şah Abbas da ona qarşı daha qətiyyətli hərəkətlərin edilməsi qərarına gəldi və onun üzərinə 20 min nəfərlik bir qoşun dəstəsi göndərdi. Təbriz hakimi Pir Budaq xan tərəfindən rəhbərlik edilən bu qoşun dəstəsinə Gəncə valisi Məhəmməd xan Qacarın, İrəvan hakimi Əmirgünə xanın, Kəskər hakimi Murtuza qulu xanın, habelə bir sıra digər əmirlərin rəhbərliyi altında olan qoşun dəstələri daxil idi. Qoşun dəstəsinin tərkibində xeyli sayda topçular və tüfəngçilər də var idi. Şah fərmanı alınan kimi bu qoşun dəstəsi Təhmurəs xanın qərar tutduğu məkana doğru hərəkətə başladı. Adı çəkilən əsərdəki məlumata görə, Təhmurəs xan öz vilayətində şah qoşunlarından qorunmaq üçün mühafizə divarları tikdirmişdi. Təhmurəs xan bu divarlara böyük ümidlər bağlayırdı. Lakin görəndə ki, onun üzərinə çox böyük sayda qızılbaş qoşunu gəlir Təhmurəs xan geri çəkilməyi üstün tutdu. O öz iqamətgahına yollandı və orada xanımını da yanına alaraq oradan uzaqlaşmaq qərarına gəldi. Təhmurəs xanın ilkin qərarı belə idi ki, vilayət daxilində olan bəzi qalalara sığınıb orada müdafiə olunsun (18).

Təhmurəs xanın qaçması xəbəri Şah Abbasa çatdırıldı. Şah Abbas da fərman verdi ki, səltənətin sipəhsaları olan Qərçəqay bəyin rəhbərliyi alında Xorasan topçuları, Qarabağ, Aran və Tiflis əmirləri öz qoşun dəstələri ilə birlikdə Təhmurəs xanı qabaqlasınlar və onun qaçmasının qarşısını alsınlar. Bu dəstəyə vilayəti yaxşı tanıyan insanlar da daxil edilmişdilər ki, onlar bələdçilik etməli idilər. Aparılan müşahidələrdən sonra Qərçəqay bəyin dəstəsində belə bir qənaətə gəlinmişdi ki, Təhmurəs xanın gizlənə biləcəyi yer Torağan qalası ola bilər. Ona görə də qızılbaş dəstəsi Torağan qalasına tərəf istiqamət götürdü və qala ətrafında düşərgə saldı. Təhmurəs xan isə Torağan qalasına gəlmədi və o, başqa yollarla başqa bir istiqamətə üz tutdu. Sonradan Qərçəqay xana bəlli oldu ki Təhmurəs xan yaxın ətrafı ilə Başıaçığa yollanmışdır. "Rövzətüs-Səfəviyyə" müəllifinə görə, Başıaçıq hakimi də Təhmurəs xanın tabeçiliyində olan hakimlərdən biri idi və ona görə Təhmurəs xan onun yanına üz tutmuşdu. Bu əsərdəki məlumata görə, Alaverd kilsəsi də Qərçəqay bəyin dəstəsi tərəfindən alınmışdı (19).

Şah Abbas qoşunları Başıaçıq istiqamətinə göndərməzdən əvvəl Qorgin xana məktub yolladı və onun nəzərinə çatdırdı ki, Osmanlı dövləti ilə əldə edilmiş son anlaşmaya əsasən dövlətlərin heç biri qarşı tərəfdən qaçan hakimləri və itaətsizlik göstərənləri qəbul etməsin, belələrinin olduğu halda onları geri təhvil versin: "Bizim hümayun padşahımızla möhtərəm Rum padşahı arasında sülh və dostluq sazişi bağlandığından, onun şərtlərinin biri aşağıdakı kimi idi: Gərək hər iki tərəfin adamına himayədarlıq olunmasın, qaçan kəslərə qaçmaq imkanı verilməsin və onlar mühafizə olunmasınlar. Bu şərtə görə iki nadan cahil adam olan və hər ikisi bizim padşah tərəfindən böyüdülüb boya-başa çatdırılan Təhmurəs və Luarsab özlərinin zəlalət və nadanlıqları üzündən vahiməyə düşərək, sizin məkana gəlmişlər. Gərək hər iki tərəfin adamları əhd və peyman şərtlərinə əməl etsinlər, sülhün və sazişin şərtlərinə zidd olan heç bir əmələ yol verməsinlər, qoy iqbalsız həmin iki cahili öz yanlarında saxlayıb, bu tərəfə göndərsinlər ki, padşah

onlarla özünə xas mərhəmət və məhəbbətlə davransın, əks təqdirdə qiyamət əsərli qızılbaş ləşkəri o iki qarabəxt adamı tutmaqdan ötrü [Başıaçıqa] gələcək. Elə etməyin ki, əməliniz peşimançılığa səbəb olsun" (20).

Bu məktubu çatdırmaq üçün Başıaçığa bir heyət göndərildi. Həmin heyətə rəhbərlik öz xahişi əsasında Azərbaycan vəziri Xacə Məhəmməd Rzaya tapşırıldı. Bu heyət də dərhal Başıaçığa yola düşdü. Başıaçıq hakimi Qorgin xan şah elçisini mehribanlıqla qarşıladı və ona imkan yaratdı ki, Təhmurəs və Luarsabla ətraflı söhbətlər apara bilsin. Qorgin xan dərhal Şah Abbası öz ehtiramını bəyan etdi və bildirdi ki, Təhmurəslə Luarsabı qəbul etməsi heç də Şah Abbasa qarşı müxalifətdə olması deyil. O eyni zamanda Təhmurəslə Luarsabın günahlarının bağışlanması haqqında Xacə Məhəmməd Rza ilə müzakirə etdi. Xacə Məhəmməd Rza da bildirdi ki, Təhmurəslə Lurasabın bağışlanması Şah Abbasa aid olan bir məsələdir. Bu adamlar gərək Şah Abbasın hüzuruna yollansınlar və ondan bağışlanmalarını xahiş etsinlər. Təhmurəslə Luarsab bu təkliflə razılaşdılar. Ancaq xahiş etdilər ki, onların salamat qalmalarına zəmanət verilsin və bundan sonra onlar şah hüzuruna yollansınlar. Xacə Məhəmməd Rza da onların təklifini qəbul etdi və həmin təklifi Şah Abbasa çatdırmağa söz verdi. Bundan sonra Xacə Məhəmməd Rza geri yola düşdü. Onunla birlikdə Təhmurəslə Luarsabın nümayəndələri də şah düşərgəsinə yola düşdülər. Bu nümayəndələr ağalarının sözlərinin doğruluğuna zəmanət verməli idilər. Xacə Məhəmməd Rza ona tapşırılan vəzifənin icrası haqqında Şah Abbasa məlumat verdi. Şah Abbası ona verilən tapşırığın bütünlüklə yerinə yetirilməsindən razı qaldı və onun zəhmətini yüksək qiymətləndirdi. Şah Abbasa görə Xacə Məhəmməd Rza təhlükəli bir səfəri öz üzərinə götürərək fədayilik və fədakarlıq nümayiş etdirmişdi. Ona görə də Şah Abbas ona Fədəvi ləqəbi verdi və bunu öz hökmü ilə də rəsmiləşdirdi. Şah Abbasın hökmünə görə, Xacə Məhəmməd Rza ilə bağlı olan yazışmalarda onun adının qarşısında "bu vilayətməkan dudmanın Xaceyi-Fədəvisi" sözü yazılmalı idi. Təhmurəslə Luarsabın nüma-

yəndələrinə isə Şah Abbasın cavabı belə oldu ki, Fədəvinin dediyi sözlərin üstündə dayanırıq. Onun qaçqın gürcü hakimlərinə verdiyi vədlər qəbul edilir. Yəni qaçqın gürcü hakimləri şah düşərgəsinə gəlib bağışlanmalarını xahiş etsələr, onların günahı bağışlanacaqdır (21).

"Rövzətüs-Səfəviyyə" əsərindəki məlumata görə isə, Xacə Məhəmməd Rza Başıaçıqda apardığı söhbətlərə, etdiyi məsləhətlərə baxmayaraq onun sözü eşidilmədi. Hətta onun həbs edilməsi də qərara alındı. Əsər müəllifi Xacə Məhəmməd Rzanın kim tərəfindən həbs edilə biləcəyini göstərməmişdir. Bununla belə, Xacə Məhəmməd Rza bu həbsdən canını qurtarıb Şah Abbasın yanına gələ bildi. Baş verənləri ona danışdıqdan sonra Şah Abbas göstərdiyi fədakarlıqlara görə Xacə Məhəmməd Rzaya "Fədəvi" ləqəbi verdi. Bundan sonra isə Şah Abbas qaçqın gürcü hakimləri üzərinə qoşun göndərməyi qərara aldı (22).

Təhmurəslə Luarsabın nümayəndələri geri yola salındı. Bu zaman Şah Abbasa məlumat verildi ki, Başıaçığa aid olan bir məntəqə var ki, oranın adamları nə xristian dininə, nə də islam dininə ehtiram qoyurlar. Onlar heç bir nizam və intizama riayət etmirlər, ciddi bir etiqada malik deyildirlər. Bu məntəqə Başıaçıq hakiminə tabe olsa da, oranın adamları kimsəyə tabe olmaq istəmirlər. Şah Abbas bu məntəqəyə qoşun dəstəsi yeridilməsi və həmin məntəqənin insanlarının islah edilməsi barəsində qərar verdi. Haqqında danışılan məntəqə Əlbürz (Elbrus) dağının çətin keçilən ərazilərində yerləşsə də, qızılbaş dəstəsi həmin məntəqəyə doğru üz tutdu. İsgəndər bəy Münşinin əsərində bu məntəqəyə qoşun dəstəsinin göndərilməsi cihad kimi qiymətləndirilmişdir. Qızılbaş dəstəsinə rəhbərlik Bəyverdi bəy Gürcüyə tapşırıldı. Dağlıq və meşəlik ərazilərə sığınmalarına baxmayaraq haqqında danışılan məntəqənin adamları canlarını qızılbaş döyüşçülərinin silahından qurtara bilmədilər. Onlardan xeyli sayda əsir, mal-qara götürüldü və şah düşərgəsinə gətirildi. Bu bölgədə möhkəmlənmək üçün Şah Abbas iki qalanın tikilməsinə fərman verdi. Həmin qalalardan biri Axısqa və Başıaçığa yaxın olan Səvəran adlı məntəqədə, digəri isə Kartli

hakimlərinin qədim paytaxtı olan Qoridə tikilməli idi. Bu fərmanın verilməsindən sonra hər iki qalanın tikilməsi işlərinə başlandı. İsgəndər bəy Münşinin yazdıqlarından belə qənaətə gəlmək mümkündür ki, Şah Abbas bölgədə olduğu vaxt bu qalaların tikintisi də başa çatdı (23).

Təhmurəslə Luarsab şah tərəfindən bağışlanmaq xəbərini alsalar da onun hüzuruna yollanmağa elə də tələsmədilər. Görünür, onlar etdikləri əməllərin qarşısında bağışlanacaqlarına elə də inanmırdılar. Bundan istifadə edən Başıaçıq hakimi Qorgin xanın xanımı Xacə Məhəmməd Rza ilə əlaqə yaratdı və ona öz xahişini çatdırdı. Bu xanımın təklifi ondan ibarət idi ki, şah hüzuruna yollanmaqdan və ona itaətini bildirməkdən imtina edən Luarsab bütünlüklə hakimlikdən uzaqlaşdırılsın və ona hakimliyi altında olan Kartli vilayətinin başıaçığa yaxın olan ərazilərə Qorgin xanın oğlu hakim təyin edilsin. Xacə Məhəmməd Rza da bu xahişi Şah Abbasa çatdırdı. Şah Abbas bu xahişi bəyəndi və onun qəbul edilməsini mümkün saydı. Məsələnin birdəfəlik həlli üçün o, ox-kaman qorçusu Yaqubxan bəy Qaramanlını bir qoşun dəstəsi ilə Başıaçığa göndərdi. Yaqubxan bəy bir daha şah dərgahına yollanmağı Luarsaba təklif etməli idi. Luarsab yenə də bu təklifdən imtina edəcəyi halda Qorgin xanın oğlu bütün Kartlinin hakimi elan edilməli və o, şah hüzuruna gətirilməli idi. Bu xəbəri eşidəndə Luarsab son tərəcə təşviş keçirdi və anladı ki, bir qədər də ləngisə hakimlik onun əlindən çıxacaqdır. Ona görə o, əvvəlcə Yaqubxan bəylə əlaqə saxladı, ona peşman olduğunu və şah hüzuruna yollanmağa hazır olduğunu bəyan etdi. Luarsab sonra da Xacə Məhəmməd Rza ilə əlaqə saxladı və peşmançılığını ona da çatdırdı. Xacə Məhəmməd Rza da ona fitnəkar adamların sözlərinə qulaq asmamağı, özünü məhvə yaxınlaşdırmamağı tövsiyə etdi (24).

Luarsab öz hakimiyyətini qoruyub saxlamaq ümidi ilə şah düşərgəsinə yollanmağı qərara aldı. O Yaqubxan bəylə birlikdə şah hüzuruna yola düşdü. 1614-cü il oktyabr ayının ortalarında Luarsab nəhayət ki, Şah Abbasla görüşə bildi. Bu zaman o, şah tərəfindən mehribanlıqla qarşılandı və ona iltifat göstərildi. Luarsabın

günahları bağışlandı və onun vəzifəsi də əlindən alınmadı. Buna baxmayaraq, Luarsab şah düşərgəsində qalmağa da ehtiyatla yanaşırdı. Ona gör idi ki, fürsət yaranan kimi o, şah düşərgəsindən qaçmağa cəhd göstərdi. Şah düşərgəsində ona mehmandarlıq etmək Xacə Məhəmməd Rzaya həvalə olunmuşdu. Xacə Məhəmməd Rza gürcü hakiminin qaçması xəbərini alan kimi onun ardınca atlılar göndərdi. Həmin atlılar Luarsabı haqlaya bildilər və onu tutub yenidən şah düşərgəsinə qaytardılar. Bu razılaşdırılmamış əməlinə görə, Luarsab yenidən şah tərəfindən bağışlandı və onun haqqında hər hansı bir cəza tətbiq edilmədi. Amma Şah Abbasa çatdırıldı ki, Luarsabın hakim olduğu Kartli əyan və əmirlərinin şah hakimiyyətinə qarşı müxalifətçiliyi davam etməkdədir. Həmin adamların şah hakimiyyətinə itaəti qəbul edəcəyi gözlənilmirdi. Güman edilirdi ki, Luarsab qaçıb onlara birləşməklə vilayət daxilindəki itaətsizliyə rəhbərliyi öz üzərinə götürəcəkdir. Bu xəbərləri eşitdikdən sonra Şah Abbas Luarsabın geri buraxılmasını məqsədəuyğun saymadı və onu düşərgədə saxladı. Bu zaman Kartli vilayəti Luarsabın vəzir və vəkilləri tərəfindən idarə olunurdu (25).

"Rövzətüs-Səfəviyyə"nin məlumatına görə, həmin ilin qışı Gürcüstanda çox soyuq keçdi. Ona görə də Şah Abbas qərara aldı ki, geri qayıtsın və Gürcüstan məsələlərinin birdəfəlik sahmana salınmasını növbəti ilə saxlasın. O, Gürcüstanda 20 min nəfərlik bir qoşun dəstəsi saxladı və həmin qoşun dəstəsinə rəhbərliyi Əliqulu xana həvalə etdi. Əliqulu xana tapşırıldı ki, Təhmurəsin Kaxet vilayətinə geri qayıtmasına imkan verməsin (26).

İsgəndər bəy Münşi də Şah Abbasın qoşunlarla Gürcüstandan Qarabağa geri qayıtdığını təsdiq edir. Onun yazdığına görə, Şah Abbas Gürcüstanda Bəktaş bəyin rəhbərliyi altında bir qoşun dəstəsi saxladı. Bildirilir ki, Təhmurəsin yerinə təyin edilmiş İsa xan yerli əyanlar və əmirlər tərəfindən qəbul edilmədi və onların artan narazılıqları qarşısında İsa xan vilayəti tərk edib Ərdəbilə qaçdı. Gürcüstan ərazisində saxlanılan qızılbaş dəstəsinin rəhbərinə tapşırıldı ki, əgər Təhmurəs şah hakimiyyətinə itaətini bildirib geri

qayıdarsa, onda onun Kaxet vilayətinə hakimlik edilməsinə icazə verilsin. Əks təqdirdə, Təhmurəsin geri qayıtmasını qarşısı alınmalı idi (27).

Şah Abbas Gürcüstan ərazisindən Qarabağa gəldi və bir müddət orada dayandı, boş vaxtlarında ovla məşğul oldu. Kaxetdə qiyam qaldırmış əmir və əyanların qorxusundan qaçıb Ərdəbilə gəlmiş İsa xan Qarabağda Şah Abbasın hüzurunda oldu. Şah Abbas onun üzrünü qəbul etdi və onu şah qoşunları sırasına daxil etdi. Araz çayının kənarında qurulmuş düşərgədə Şah Abbas bütün qoşunlara sıra baxışı keçirdi, qoşun rəhbərlərini, hərbçiləri dinlədi, onların qarşılaşdıqları çətinliklərin həlli ilə bağlı sərəncamlar verdi. Bundan sonra qoşun rəhbərləri şahın icazəsini alaraq qışlamaq üçün öz vilayətlərinə yollandılar. Şah özü isə qışı keçirmək üçün Mazandarana doğru istiqamət götürdü. O öz yolunu Astaradan salmaqla Kəsgər bölgəsinə çatanda halı pisləşdi və bir müddət orada xəstə yatağında qaldı. İsgəndər bəy Münşi yazırdı ki, varlı insanlar şahın sağalması üçün nəzir və niyaz payladılar və bu nəzir və sədəqələri alan insanlar şahın sağalması üçün davamlı olaraq dualar etdilər. Şah Abbas bir neçə gündən sonra sağaldı və sonra o, Rəşt şəhərinə gəldi. Şah Abbas həm bu şəhərdə, həm də bölgənin səfər etdiyi digər məntəqələrində qalmaqla qışı orada keçirdi (28).

1615-ci ildə Osmanlı dövləti ilə Səfəvi dövləti arasında yenidən gərginlik meydana gəldi. Səfəvi hakimiyyətini tanımaq istəməyən gürcü hakimləri, əmirləri və əyanları bundan istifadə edərək şah hakimiyyətinə son qoymaq üçün qiyamlara rəvac verdilər. Kaxet hakimi vəzifəsinə təyin edilmiş İsa xan (Təhmurəsin əmisi oğlu) yerli əmir və əyanların narazılıqları qarşısında vilayəti tərk edəndən sonra hakimlik onun vəziri vəzifəsində olan Davud bəy Gürcüyə həvalə olunmuşdu. Nə qədər ki, şah qoşunları bölgədə idi Davud bəy də şah sarayına itaətli olduğunu nümayiş etdirdi. Amma Osmanlı qoşunlarının bölgəyə yeni yürüşü xəbəri yayılanda Davud bəy də şah hakimiyyətinə itaətsizlik yolunu tutmaq fürsəti əldə etdi. Onun və digərlərinin təhriki ilə 1615-ci ilin xristian bayramlarının birində şah hakimiyyətinə qarşı qiyam qaldırıldı.

Bu qiyam Alaverd kilsəsində baş verdi. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbasın göstərişi ilə Alaverd kilsəsi ətrafında qala tikilmiş və bu qalanın mühafizəsi qızılbaş dəstəsinə tapşırılmışdı. Xristian bayramı günü çoxlu sayda gürcü dini mərasimin icra olunması üçün həmin qalanın daxilinə buraxıldılar. Qala müdafiəçiləri gürcülərin qiyam qaldıra biləcəyindən ehtiyatlanmadan onların kilsədə toplanmasına mane olmadılar. Bayram ibadətindən sonra kilsəyə toplaşan gürcülər Davud bəyin, Təhmurəsin yaxınlarından olan Təhmasib Mesqinin təhriki ilə qızılbaş dəstəsinin üzərinə hücum çəkdilər. Qəfil şəkildə hücuma məruz qalan qızılbaşlar müqavimət göstərməyə çalışsalar da, gürcülərin qarşısını ala bilmədilər. Onların hamısı qətlə yetirildilər. Sonra Davud bəy nümayəndəsini Təhmurəsin yanına göndərdi və onu baş verən qiyama rəhbərlik etmək üçün Kaxetə dəvət etdi. Təhmurəs də bu xəbəri eşidən kimi dərhal Kaxetə qayıtdı və bu vilayətin hakimliyini yenidən öz üzərinə götürdü. Sonra da toplanmış olan gürcü qoşun dəstəsini Davud bəyin rəhbərliyi altında Şah Abbas tərəfindən bölgədə saxlanılmış Bəktaş bəy Yüzbaşının rəhbərliyi altında olan qızılbaş qoşun dəstəsinin üzərinə göndərdi. Gürcü qiyamçıları kifayət qədər böyük qoşun dəstəsi toplaya bilmişdilər və ona görə də Bəktaş bəy Yüzbaşı bu qoşun dəstəsi ilə döyüşə girməyin bir nəticə verməyəcəyini görüb geri çəkilmək qərarına gəldi. Davud bəy isə malik olduğu qüvvə üstünlüyü ilə Bəktaş bəyin dəstəsini təqib etməyə başladı və həmin dəstəni yaxalamağa müvəffəq oldu. Baş verən döyüş zamanı Bəktaş bəyin dəstəsi uğursuzluğa düçar oldu və bu dəstənin döyüşçülərinin əksəriyyəti qətlə yetirildi (29).

Bu hadisə elə bir vaxtda baş verdi ki, Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücum etməsi artıq real hal almışdı. Belə olduğu təqdirdə həm Osmanlı qoşunlarına qarşı, həm də Gürcüstanda baş qaldıran qiyamın yatırılması üçün qoşun ayrılması obyektiv çətinliklərlə qarşılaşa bilərdi. Lakin elə 1615-ci ilin payızına doğru məlumat alındı ki, Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu növbəti ilin baharına kimi təxirə salınmışdır. Bu fürsətdən istifadə edən Şah Abbas Gürcüstan üzərinə qoşun göndərməyi

ləngitmədi. Bunun üçün iki qoşun dəstəsi formalaşdırıldı. Bu dəstələrdən birinə İsfəndiyar bəy Ovçubaşı Ərəbgirli rəhbərlik edirdi və onun dəstəsinə xeyli sayda tüfəngçi verilmişdi. İkinci qoşun dəstəsi isə Təbrizdə dayanmış Əliqulu xan Divanbəybaşı Şamlının rəhbərliyi altında idi. Bütün Azərbaycan qoşunları, habelə Məhəmməd xan Ziyadoğlunun rəhbərliyi altında olan Qarabağ qoşunları və Qarabağ əmirləri də Əliqulu xana birləşməli idilər. Hərəkət zamanı Əliqulu xan da rəhbərliyi altında olan qoşun dəstəsi iə İsfəndiyar xana birləşdi və birləşmiş qoşun dəstəsi Gürcüstana doğru hərəkəti davam etdirdi (30).

Nəzərdə tutulmuşdu ki, Əliqulu xanla İsfəndiyar bəy Gürcüstana doğru hərəkətə başlasınlar və Azərbaycan ərazisindən toplanmalı olan qoşun dəstələri də ayrı-ayrılıqda gələrək onlara birləşsinlər. Gürcüstan hüdudlarına yetişəndə Əliqulu xanla İsfəndiyar bəyin yanına 15 min nəfərlik bir dəstə toplaşmışdı. Əlavə qoşun dəstələri də gəlib bu dəstəyə birləşməli idi. O cümlədən tüfəngçilər dəstəsinin gəlişi də gözlənilirdi. Bildirilir ki, qızılbaş qoşun dəstəsi Tiflis yolu ilə hərəkət edərək Kaxetlə Kartli arasında olan bir məkana gəlib yetişdilər. Qızılbaş əmirləri keçdikləri yolların, keçidlərin mühafizəsi üçün müəyyən sayda qüvvə ayırdılar və bölgədə əhəmiyyət kəsb edən bir sıra yolları da nəzarət altına götürdülər. Bundan başqa ətrafa adamlar göndərildi ki, onlar gürcü qiyamçılarının hərəkətlərini müşahidə altında saxlasınlar, onların qərarlarından vaxtında xəbər tutsunlar. Aparılan müşahidələrdən sonra Təhmurəsin qoşun dəstəsi ilə qızılbaş qoşunları üzərinə hücum üçün hərəkətə başlaması barəsində məlumat alındı. Qızılbaş əmirləri tərəfindən bu xəbər şübhə ilə qarşılansa da, döyüşə girmək üçün ilkin hazırlıqlara başlandı. Qoşunlar döyüş qabağı mövqe tutdular. Belə vəziyyətdə xeyli gözləmək lazım gəldi. Lakin qarovullar və yol mühafizləri yaxın çevrədə gürcü qoşunlarının olmadığı xəbərin gətirdilər. Görünür, gürcülər öz hərəkətlərinin gizliliyinə nail ola bilmişdilər. Qızılbaş əmirləri gürcülərin döyüşə çıxmayacağını güman edib tutduqları mövqelərdən geri çəkildilər və qoşun istirahət üçün ətrafa dağılışdı. Elə bu zaman Təhmurəsin

rəhbərliyi altında olan qoşun dəstəsinin yaxınlaşması xəbəri alındı, döyüşə başlamaq üçün təbillər səsləndirildi. Sonradan məlum oldu ki, şah hakimiyyətinə sədaqətini bəyan etmiş bəzi gürcülər qızılbaş qarovullarını və mühafizəçilərini aldadaraq Təhmurəsin gəldiyi yolun deyil, başqa yolların müşahidəsinə aparmışdılar. Təhmurəs də bu zaman heç bir maneə ilə qarşılaşmadan qızılbaş düşərgəsinə doğru irəliləyə bilmişdi (31).

Bu xəbər alınan kimi, qızılbaş qoşunları yenidən atlandı və tələm-tələsik döyüş mövqelərinin tutulmasına başlandı. Kifayət qədər vaxt olmasa da, qızılbaş əmirləri qoşun dəstəsini qruplaşdırmağa cəhd göstərdilər. Qoşunların sağ və sol cinahları, mərkəz hissəsi təyin edildi, onların tərkibi və rəhbərləri müəyyənləşdirildi. Qərara alındı ki, Qarabağ bəylərbəyi Məhəmməd xan Qacar Ziyadoğlu qoşunların çərxçisi təyin edilməklə irəli çıxarılsın və döyüş də onun rəhbərliyi altında olan dəstə tərəfindən başlansın. Əlavə qoşun dəstələri ilə çərxçilər dəstəsi xeyli gücləndirildi ki, bu dəstə gürcü qoşunlarına müqavimət göstərə bilsin. Bütün bunlara baxmayaraq, vaxtın azlığı üzündən qızılbaş qoşunları lazımınca toparlana bilmədi, bütün qüvvələr vaxtında döyüş mövqelərinə çıxarıla bilmədi. Hətta onların çoxu heç atlana da bilməmişdilər Belə bir vaxtda Təhmurəs xanın rəhbərliyi altında olan beş min nəfərlik gürcü qoşunu döyüş meydanına daxil oldu və dərhal da Məhəmməd xan Qacar Ziyadoğlunun rəhbərliyi altında olan çərxçilər dəstəsinin üzərinə hücum etdi. Qızılbaş çərxçiləri bu hücumun qarşısını ala bilmədilər. İsgəndər bəy Münşinin yazdığına görə, çərxçilərin gücləndirilməsinə verilmiş olan bəzi əlavə dəstələr gürcülərin təzyiqinə davam gətirməyərək döyüşü tərk etdilər. Meydanda tək qalan Məhəmməd xan Ziyadoğlu isə müqavimət göstərməyə çalışsa da uğursuzluğa düçar oldu. O özü də bu döyüşdə qətlə yetirildi. Bu isə gürcü döyüşçülərini daha da ruhlandırdı. Gürcülərin ruhlanması isə qızılbaş döyüşçülərinin ruh düşgünlüyünə yol açdı. Xüsusilə, Məhəmməd xan Ziyadoğlunun öldürülməsi qızılbaş qoşunlarının sağ və sol cinahlarında bir çaşqınlıq yaratdı. Belə bir vəziyyətdə döyüş meydanının mərkəzində yerləş-

miş bəzi dəstələr də döyüş meydanını tərk etdilər. Onların döyüş meydanını tərk etməsi də bütünlükdə qızılbaş dəstəsinin ümumi vəziyyətini daha da çətinləşdirdi. Ona görə Əliqulu xanın yanında olan şamlı dəstəsinin göstərdiyi fədakarlıqlar da nəticəsiz qaldı və gürcü qoşunlarının hücumunun qarşısını dayandırmaq mümkün olmadı (32).

Bir sözlə, Əliqulu xanla İsfəndiyar bəy döyüşü qura bilmədilər. Onlar tərəfindən kəşfiyyatın düzgün aparılmaması, Təhmurəsin qüvvələrinin yerdəyişmələri haqqında vaxtında yetərli məlumatın əldə edilməməsi bütünlükdə qızılbaş dəstəsini ağır bir duruma saldı. Qoşunlar daxilində idarəetmə də itdi və döyüşçülər hər biri yalnız öz canını qurtarmaq üçün yollar axtarmağa başladılar. Əliqulu xanla İsfəndiyar bəy baş verənləri müşahidə etdikdən sonra nə edəcəklərini bilmədilər. Gürcü qoşunlarının döyüş meydanında cövlan etməsini qəbul edə bilməyən bu əmirlər bir müddət tək başına döyüşməyi davam etdirdilər. Amma onlar da başa düşdülər ki, meydanda tək vuruşmaqla gürcü qoşunlarına üstün gələ bilməyəcəklər. Ona görə onlar da döyüş meydanını tərk etdilər və Tiflisə doğru istiqamət götürdülər. Qızılbaş dəstəsinin təcrübəli əmirlərinin və döyüşçülərinin çoxu bu döyüşdə həyatlarını itirdilər və bu dəstənin düşərgəsi bütün əmlakı ilə birlikdə Təhmurəsin rəhbərlik etdiyi dəstənin əlinə keçdi. Təhmurəs də böyük səxavətlə onları öz döyüşçüləri arasında paylaşdırdı (33).

Gürcü mənbələrinə görə, bu döyüşdə Təhmurəsin rəhbərliyi altında beş min nəfərlik qoşun dəstəsi toplanmışdı. Həmin mənbələrdə qızılbaş qoşunlarının sayı isə 15 min nəfər göstərilmişdir (34). İsgəndər bəy Münşi də yuxarıda qeyd edildiyi kimi, qızılbaş dəstəsinin 15 min nəfərdən ibarət olmasını təsdiq edirdi. Qoşunların nisbəti haqqında olan bu məlumatların doğru olacağı təqdirdə gürcülər onlardan üç dəfə üstün olan qızılbaş dəstəsinin üzərinə hücum etmişdilər. Belə vəziyyətdə üstünlük əldə edilməsi yalnız döyüşün qəfil başlaması və ya gürcü qüvvələrinin daha əlverişli mövqelərdə olması ilə əlaqədar ola bilərdi. Yəni qızılbaş qüvvələri onlar üçün xarakterik olmayan bir uğursuzluqla qarşılaşmalı oldu.

Məlumdur ki, gürcü dəstəsi döyüş meydanından geri çəkilərkən Kəskər hakimi Murtəzaqulu xanın rəhbərliyi altıda olan qoşun dəstəsi onları təqib etməyə cəhd göstərdi. Doğrudur, Kəskər döyüşçüləri onlarla gürcü döyüşçüsünü məhv edə bildilər. Amma bütünlükdə onlar da geri çəkilmək məcburiyyətində qaldılar. Əliqulu xan, İsfəndiyar bəy və qoşunların salamat qalan hissəsi geri çəkilərək Tiflisə gəldilər. Lakin Əliqulu xan Tiflisdə uzun müddət dayanmadı. O bu qalanın mühafizəsini Məhəmməd xan Ziyadoğlunun oğlu Mürşüdqulu bəyə tapşırıb Gəncəyə yola düşdü. Mürşüdqulu bəyin köməyinə qacar döyüşçüləri dəstəsi ilə tüfəngçi dəstəsi də verildi. Gəncədən də Əliqulu xan başına gələnlər haqqında Şah Abbasa məlumat göndərdi. Qızılbaş dəstəsinin Gürcüstan ərazisində ağır məğlubiyyətə düçar olması Şah Abbası xeyli qəzəbləndirsə də, bu döyüşü uduzan əmirləri cəzalandırmağı məqsədəuyğun saymadı. Əksinə, Əliqulu xana və onun yanındakı əmirlərə təskinlik məktubu göndərdi. Həmin məktubda deyilirdi: "Qoşun çəkmək və müharibə etmək məsələsində qədimdən bu günədək məğlubiyyətlə zəfər yanaşı olmuşdur. Qəzavü qədər nəticəsində islam döyüşçülərinə dəyən bu nəzər yarasından kədərlənməyin, məsud ordunun gəlişini gözləyin ki, bu yaxınlarda döyüş cilovu sizin səmtinizə çevriləcək. Allahın köməyi və islamın qüvvəsi sayəsində qılıncımı intiqam qınından çəkib o bədməzhəblərin cəzası veriləcəkdir" (35).

Belə bir məktubu alandan sonra Əliqulu xan və onun yanında olan əmirlər bir qədər təskinlik tapdılar. Ağır məğlubiyyətə uğramaları Əliqulu xana və onun yanındakı əmirlərə ağır bir dərd olsa da, onlar şah qoşunlarının Gürcüstan üzərinə yeni yürüşünün başlanmasına qədər Gəncədə dayandılar. Şah Abbas qızılbaş dəstəsinin uğursuzluğu xəbərini Mazandaranda olarkən aldı. O, qışı Fərəhabadda keçirməyi qərarlaşdırmışdı. Amma gürcü hakimlərinin şah hakimiyyətinə və qoşunlarına qarşı dirəniş göstərməsi Şah Abbasın qəzəbini coşdurdu. Şah Abbas qərara gəldi ki, Təhmurəs xana ciddi bir zərbə vursun və bununla gürcü hakimlərinin şah hakimiyyətindən qopmaq cəhdlərinin qarşısı alınsın. Hələ 1616-cı

ilin novruz bayramı yetişməzdən əvvəl Şah Abbas Gürcüstanı üzərinə yürüş hazırlıqları barəsində fərman verdi. Həmin fərmanda bildirilirdi ki, əzəmətli əmirlər və qalibiyyətli əsgərlər Gürcüstan üzərinə yürüşə hazırlasınlar, o diyarın kafirləri ilə cihad etməyə hazır olsunlar. Bu yürüşə bir neçə min İsfahan tüfəngçisinin, habelə səltənətin digər vilayətlərindən olan tüfəngçilərin cəlb edilməsi də qərara alındı. Bu tüfəngçi dəstələri hazırlıq görərək şah düşərgəsinə gəlməli və şah qoşunlarına birləşməli idilər. Eyni zamanda vilayət hakimlərinə fərman göndərildi ki, onlar vilayət qoşunlarını toplayaraq şah qoşunlarına birləşsinlər. Gürcüstan üzərinə yürüşə başlamazdan əvvəl Kartli hakimi olmuş Luarsab Astrabada, Kaxet hakimliyini icra etmiş İsa xan isə Dəmavəndə göndərildi. Onların hər ikisi şahın yanında idilər. Şah onların gürcü qoşunları ilə yenidən əlaqə yarada biləcəyindən ehtiyatlanaraq səltənətin içərilərinə göndərdi. Şah Abbas Gürcüstanda başlamış olan qiyamın yatırılmasına xüsusi əhəmiyyət verirdi. Ona görə o, 1616-cı ilin novruz şənliklərinə də ciddi bir meyl göstərmədi və yanındakı qoşunlar yürüşə hazır olan kimi hərəkət barəsində fərman verdi. Şah qoşunları Xəzər dənizinin cənub sahilləri ilə irəliləyərək Qarabağa doğru istiqamət götürdü. Bir müddətdən sonra qoşunlar Gəncə şəhərinə yetişdilər və burada düşərgə saldılar. Əliqulu xanla İsfəndiyar bəy və digər əmirlər burada şahı və şah qoşunlarını qarşıladılar (36).

Gəncədə olarkən Şah Abbas gürcü hakimləri ilə aparılan uğursuz döyüş haqqında Əliqulu xandan və İsfəndiyar bəydən daha geniş məlumat aldı. Osmanlı qoşunlarının Səfəvi hüdudların hücum təhlükəsi mövcud olduğu üçün Şah Abbasın əmri ilə Gəncədə olan Təbriz hakimi Pir Budaq xanın və onun qoşun dəstəsinin Təbrizə qayıtmasına icazə verildi. Pir Budaq xan Osmanlı təhlükəsinin qarşısının alınması üçün verilən tapşırıqları yerinə yetirməli və sərhəd xəttinin mühafizəsini gücləndirməli idi. Sərhəd xətinin gücləndirilməsi üçün Kirman hakimi Gəncəli xan da öz qoşun dəstəsi ilə birlikdə Təbrizə göndərildi. Bundan sonra şah qoşunları Tiflisə doğru hərəkətlərini davam etdirdilər. Tiflisdə olarkən Şah

Abbas Kartli hakimliyini Luarsab nəslindən olan Mirzə xan adlı birisinə həvalə etdi. Mirzə xan islam dinini qəbul etmiş gürcü idi və şah hakimiyyətinə olan sədaqətinə görə bu vəzifəyə irəli çəkilmişdi. Gürcü mənbələrinə görə o, Davud xanın oğlu idi və onun əsil adı da Baqrat olmuşdu. Bir neçə gün Tiflisdə qaldıqdan sonra şah qoşunları Kaxetə tərəf hərəkətlərini davam etdirdilər. Təhmurəs şah qoşunlarının gəlməsi xəbərini eşidəndə həm təəccüb etdi, həm də qorxudan Kaxeti tərk edərək yenidən Başıaçığa (İmeretiyə) qaçdı. Təhmurəs şah qoşunlarının Gürcüstan ərazisinə gələ biləcəyinə inanmırdı. Onun nəzərində Şah Abbas həmin vaxt Osmanlı təhlükəsinin aradan qaldırılması ilə məşğul olmalı idi (37).

Şah Abbas Təhmurəsin ətrafında toplanmış qoşunlara, Kaxet ağalarına və əhalisinə ağır zərbə vurmaq üçün qoşunlarını bir neçə dəstəyə böldü. Bu dəstələrin hər birinə təcrübəli qızılbaş əmirləri rəhbər təyin edildilər və onlara müxtəlif istiqamətlərdən hərəkət etməklə Kaxetin mühasirəyə alınması tapşırıldı. Şah Abbas elə bir döyüş planı tətbiq etməyə çalışırdı ki, Kaxetdə qiyam qaldırmış qüvvələrin bölgədən uzaqlaşmaq imkanı olmasın və bu qüvvələr qızılbaş dəstələrinin zərbəsi altına düşsün. Kaxet qüvvələrinə ağır zərbə vurmaq məsələsində Şah Abbas son dərəcə qətiyyətli idi. Onun əmrinə əsasən, gözə görünən Kaxet döyüşçüləri məhv edilməli, silahsız əhali əsir götürülməli idi. Yerli əhalidən toplanan qənimət isə qızılbaş döyüşçüləri arasında bölüşdürülməli idi (38).

Qızılbaş dəstələrinin hər tərəfdən hücum təhlükəsini görən gürcülər canlarını qurtarmaq üçün dağlara, meşələrə səpələndilər. Bir çox yerlərdə onlar sığnaqlar yaratdılar. Bu adamlar elə məkanları seçirdilər ki, ora yetişmək üçün yalnız bir yol olsun. Həmin yolun da qarşısını gürcülər müxtəlif üsullarla bağlayırdılar ki, qızılbaş dəstələri həmin maneələri aşa bilməsinlər. Gürcülərin düzəltdikləri sığnaqların əksəriyyəti Qanıq çayının qarşı tərəfində idi. Havalar istiləşməyə başladığı üçün bu çayın suyu da xeyli artmışdı və onu adlamaq xeyli çətinləşmişdi. Bu məqamdan da gürcülər müdafiə işində istifadə etməyə çalışırdılar. Onlar çayı adladıqdan sonra bütün qayıqları və bərələri gizlətmişdilər ki, qızılbaş

dəstələri çayı adlamaq üçün vasitə tapa bilməsinlər. Qayıqların olmaması, çayda suyun bol olması doğrudan da qızılbaş dəstələrinə qarşı tərəfə adlamağı xeyli çətinləşdirdi. Döyüşçülər məcbur oldular ki, təchizatlarının əsas hissəsini çay kənarında saxlasınlar. Bununla belə, Qanıq çayını adlayan zaman qızılbaş dəstələrinə məxsus olan xeyli sayda yük və minik heyvanları suda boğularaq məhv oldular. Çayı adlayan döyüşçülər isə sığnaqlar üzərinə hücum çəkdilər, onlar xeyli sayda gürcü silahlısını qətlə yetirməklə, xeyli sayda da silahsız adamları əsir götürdülər. Bu əsirlər və onlara məxsus əmlak sonradan şah düşərgəsinə daşındı. Amma bu zaman ehtiyatsızlığa yol verən qızılbaşlar da tapıldı. Belə ki, zülqədər yüzbaşısı Hüseyn bəy Şəmşəddinli və onun rəhbərliyi altında olan qorçular dəstəsi təxminən on min nəfər gürcünün sığındığı sığnaq üzərinə hücum etmişdilər. Bu sığnaq həm möhkəmləndirilmişdi, həm də onun müdafiəsi daha yaxşı təşkil edilmişdi. Qızılbaş qorçularının isə bundan xəbəri yox idi və onlar ciddi bir müqavimətlə rastlaşacaqlarını da güman etmirdilər. Ona görə də onlar sığnağa daxil olan kimi ətrafa səpələndilər və əsir və qənimətlərin götürülməsi ilə bir-birilərindən ayrıldılar. Gürcü silahlıları da bundan istifadə etdilər. Onlar əvvəlcə sığnaqa gələn dar yolu dağıtdılar və qızılbaşların geri çəkilmək yolunu bağladılar. Sonra isə gürcülər səpələnmiş halda olan qızılbaş döyüşçülərinə arxadan zərbə endirməyə başladılar. Mühasirə vəziyyətində olan qızılbaşlar gülləsi və oxları qurtarana qədər müqavimət göstərdilər. Sonra isə onlar gürcü silahlıları qarşısında əli yalın qaldılar. Nəticədə bu qızılbaş dəstəsinin döyüşçülərinin mütləq əksəriyyəti məhv edildi. Yalnız bir neçə yaralı özlərini sığnaq ətrafına çəkilmiş olan su dolu xəndəklərə ataraq canlarını qurtara bildilər (39).

Bu hadisə də Şah Abbasın qəzəbinə səbəb oldu. Çünki adi bir ehtiyatsızlıq və döyüşün düzgün təşkil edilməməsi üçündən xeyli sayda qızılbaş döyüşçüsü həyatını itirmişdi. O, Hüseyn bəy Şəmşəddinlini yanına çağırdı və öz qəzəbini belə ifadə etdi: "Sən sığnaq cənginə göndərilməmişdin. Sığnağa çatdığın vaxt gərək hərbçi bir şəxs kimi onların az-çoxluğunu, giriş-çıxış yollarını və o

sığnağın başqa xüsusiyyətlərini öyrənərək, səni bu xidmətə yollayan Ağsaqqalına məlumat verəydin, sənə tapşırılan vəzifəni yerinə yetirəydin. Özbaşına halda, sığnağın keyfiyyət və kəmiyyətini öyrənmədən, oranın giriş-çıxış yolunu bilmədən niyə sərdarı olmayan adamları çığnağa apardın? Əgər onlar sənin icazən olmadan getsəydilər, gərək sən onların qayğısını çəkəydin, bir neçə yerdən sığnağa keçid düzəldəydin, döyüşçülərimizin müdafiəsi üçün adam ayırardın, özün isə qalan əsgərlərlə birgə sığnağa daxil olub, qaziləri cəngin qayda-qanunu əsasında döyüşə rəğbətləndirəydin ki, sənə güvənib döyüşəydilər. Yox əgər, döyüşə məsləhət olmazdısa gərək sənin hazırladığın giriş yolu ilə sağ-salamat halda geri qayıdaydılar" (40).

Yol verdiyi ehtiyatsızlığın böyük sayda döyüşçü itkisinə gətirib çıxardığı üçün Hüseyn bəy Şəmşəddinli ciddi şəkildə cəzalandırıldı. Onun özünə haqq qazandırmaq üçün söz deməsinə belə imkan verilmədi. Şahın əmri ilə Hüseyn bəy Şəmşəddinli qətlə yetirildi ki, onun ehtiyatsılığa yol verməsinin düzgün olmaması digər əmirlər üçün də dərs olsun. Sonra isə Qərçəqay bəyin rəhbərliyi altında olan başqa bir dəstə həmin sığnağın alınmasına göndərildi. Yola düşməzdən əvvəl Qərçəqay bəy şahın hüzurunda oldu və ondan döyüşün təşkili ilə bağlı təlimatlar aldı. Qərçəqay bəy də bu təlimatlar əsasında haqqında danışılan sığnağın ələ keçirilməsi üçün tədbirli bir plan qurdu. Sığnağ ətrafına yetişəndən sonra onun müşahidəsi aparıldı, giriş-çıxış yollarını müəyyənləşdirdi, sığnağ ətrafında qızılbaş dəstələri yerləşdirdi. Bu ehtiyat tədbirləri icra olunduqdan sonra Qərçəqay bəy döyüşçüləri sığnağın daxilinə göndərdi. Yeni qızılbaş dəstəsinin gələcəyini bu sığnağda olan gürcülər də şübhə etmirdilər. Ona görə onlar da Qərçəqay bəyin gəlişinə qədər sığnağı xeyli möhkəmləndirmişdilər. Gürcülər bir neçə yerdə möhkəm çəpərlər çəkdilər, mühafizə postları qurdular. Bu çəpərlər kifayət qədər güclü maneələr idilər və onları keçilməsi də xeyli çətin idi. Ona görə Qərçəqay bəy yersiz itkilərə yol verilməsinin qarşısını almaq üçün qızılbaş döyüşçülərinin bu çəpərlər üzərinə hücumunu dayandırdı. O, şah dü-

şərgəsi ilə əlaqə saxladı və Şah Abbasın razılığı ilə bir neçə topu sığnağ ətrafına gətirdi. Gürcülərin qurduğu çəpərlər top atəşləri vasitəsilə dağıdıldı. Bu çəpərlər dağılandan sonra gürcülər müqavimət göstərməyin mənasız olduğunu anladılar. Onlar günün sonunda müqaviməti dayandırdılar. Sığnağda olan gürcülərin az bir hissəsi tanıdıqları dağ yolları ilə oradan qaçmağa müvəffəq oldular. Sığnağda olan insanların çoxu isə ya məhv edildi, ya da əsir götürüldü. Hətta meşələrə, dağlara səpələnmiş olan gürcülər də qızılbaş döyüşçülərindən qaçıb canlarını qurtara bilmədilər. Müdafiə olunan gürcülərə ağır bir zərbə vurulandan sonra sığnağ dağıdıldı və sığnağda olan əmlak isə ələ keçirildi (41).

Gürcülərin sığınmış olduğu sığnağlar üzərinə hücum iyirmi gün davam etdi. Bu müddət ərzində bütün sığnağlar ələ keçirildi, silahlanmış gürcülər zərərsizləşdirildi, xeyli sayda əsir götürüldü və qənimət ələ keçirildi. Bütünlükdə, Kartli və Kaxet yenidən şah hakimiyyətinin nəzarəti altına gətirildi. Gürcüstan məsələləri həll edildikdən sonra Şah Abbas orada ləngiməyi lazım bilmədi. Çünki Osmanlı qoşunlarının hücum təhlükəsi qalmaqda idi və bu hücumun qarşısının alınması üçün şah qoşunlarının geri qayıtmasına ehtiyac var idi. Ona görə də Kaxet hadisələri başa çatandan sonra şah qoşunları Tiflisə gəldi və bir neçə günlük istirahətdən sonra bu qoşunlar Göyçə gölü ətrafına yola düşdülər. İsgəndər bəy Münşinin yazdığına görə, şah qoşunları Göyçə gölü ətrafında üç gün dayandıqdan sonra Osmanlı qoşunlarının Səfəvi hüdudlarına yeni hücumu haqqında məlumat alındı (42).

Şah Abbasın çalışırdı ki, Osmanlı hücumları başlanana kimi Gürcüstan məsələlərini həll edib sona çatdırsın. Çünki Osmanlı hücumlarının başlanacağı halda Gürcüstanda itaətsizlik halları daha da genişlənə bilərdi. Gürcüstanın Osmanlı nəzarəti altında qalması isə başlanacaq yeni müharibədə Osmanlı qüvvələrinin strateji üstünlüyünə əsaslı bir zəmin yarada bilərdi. Ona görə Şah Abbas bu kampaniyanı uğurla başa çatdırdı və sonra da bütün qüvvələrini və diqqətini Osmanlı hücumlarının qarşısının alınmasına istiqamətləndirə bildi.

## 2. Osmanlı qoşunlarının yeni hücumları və II İstanbul anlaşmasının pozulması

Səfəvi qoşunlarının Gürcüstan üzərinə yürüşü Osmanlı sarayı tərəfindən narahatçılıqla izlənilirdi. Şah Abbas Osmanlı sarayına məktub göndərərək bu yürüşün əldə edilmiş anlaşmanın pozulmasına yönəlmədiyini bildirsə də Osmanlı sarayı baş verənlərdən heç də razı deyildi. Şah sarayına elçi kimi göndərilmiş İncili Mustafa Çavuşun geri qayıtmasına icazə verilməməsi isə iki dövlət arasındakı gərginliyi bir qədər də artırırdı. Sərhəd məsələləri ilə məşğul olmalı olan İncili Mustafa Çavuşun şah sarayında saxlanılması şah sarayının II İstanbul anlaşmasının şərtlərinin həyata keçirilməsinə inamsız yanaşması kimi qəbul edilirdi. Şah qoşunlarının Gürcüstan üzərinə 1614-cü ildə baş verən yürüşü ərəfəsində Osmanlı sarayına elçi kimi göndərilmiş Məhəmməd bəy Talış da geri qayıdaraq müşahidə etdiklərini Şah Abbasa çatdırdı. O da bildirdi ki, İncili Mustafa Çavuşun şah sarayında saxlanması, şah qoşunlarının Gürcüstan üzərinə yürüş etmək planı Osmanlı sarayında təşvişlə izlənməkdədir. Osmanlı sarayının bir sıra mənsubları Osmanlı sultanı qarşısında Səfəvi dövləti ilə əldə edilmiş son anlaşmanın pozulması zəruriliyi məsələsini qaldırmışdılar. Şah qoşunlarının yürüşündən əvvəl Kartli və Kaxet hakimləri olan Luarsabla Təhmurəs də Osmanlı sarayına məktub göndərərək Osmanlı himayəsini qəbul etmək niyyətində olduqlarını bildirmişdilər (43).

Şah Abbas iki dövlət arasında əldə edilmiş anlaşmanın pozulmasını istəmirdi. Ona görə də adam göndərib İsfahanda olan İncili Mustafa Çavuşu yanına gətizdirdi, onunla söhbət etdi və geri qayıtmasına icazə verdi. Onunla birlikdə Zakir ağa Quşçu da şah elçisi kimi Osmanlı sarayına yola salındı. Zakir ağa vasitəsilə Şah Abbasın Osmanlı sultanına məktubu da göndərildi. Həmin məktubda deyilirdi: “Qəza (döyüş – red.) səadətinə yetmək və cəhad savabına çatmaq bizim həqiqət əsaslı beynimizə yazıldığı üçün, habelə qədim dövrlərdən başlamış indiyəcən bu xanədana tabe olan və xərac verən gürcü kafərləri başlarını üsyan və itaət cibin-

dən çıxardıqlarından, islam bayrağını ərşə qaldırmaq və aqibəti zəlalət olan üsyankarları cəzalandırmaq məqsədi ilə onların istiqamətinə yürüş etdik və cihad səadətinə yetdik. Xristian kilsələr və məbədlərin çoxu islam və iman əhlinin məscidlərinə çevrildi" (44).

Məktubun məzmunundan görünür ki, o, şah qoşunlarının Gürcüstan yürüşü zamanı yazılmışdı. İsgəndər bəy Münşinin yazdığına görə də, Osmanlı elçisi olan İncili Mustafa Çavuş İsfahandan Gürcüstana gətirildi və orada ona Şah Abbasla görüşmək imkanı verildi. Şah Abbas göründüyü kimi, məktubda Gürcüstan üzərinə yürüşün Osmanlı sarayı tərəfindən narahatçılıqla qarşılanmasını istəmirdi və bu yürüşü daha çox kafirlər üzərinə cihad kimi qələmə verirdi. Bu yürüş zamanı qənimət kimi götürülmüş qiymətli əşyalardan Osmanlı sarayına hədiyyə göndərildi. Eyni zamanda İncili Mustafa Çavuş yola düşəndə də böyük sayda qiymətli hədiyyələr hazırlandı və Osmanlı sarayına göndərildi. Osmanlı sarayına qarşı xoş niyyətdə olmasını göstərmək üçün Şah Abbas əsir götürülmüş Osmanlı döyüşçülərini də azad etdi və onları da geri göndərdi. Azad edilmiş əsrilərin sayı min nəfərə çatırdı. Nəhayət, iki tərəfin marağında olan sərhəd xəttinin müəyyənləşdirilməsini özündə əks etdirən sənəd imzalanaraq Osmanlı elçisinə təqdim edildi. Yəni II İstanbul anlaşmasının şərtlərini özündə əks etdirən tələblər bununla yerinə yetirilmiş oldu. Ona görə də Şah Abbas tərəflər arasında mövcud olan söz-söhbətlərin aradan qalxacağına və anlaşmanın pozulmaz qalacağına ümid edirdi (45).

Elə bu vaxtlarda Osmanlı sədr-əzəmi Nəsuh paşanın qətlə yetirilməsi və onun yerinə Qara Öküz adı ilə məşhur olan Misir bəylərbəyi Məhəmməd paşanın təyin edilməsi haqqında xəbər alındı. Məhəmməd paşa 1614-cü il oktyabr ayının 17-də sədr-əzəm elan edildi. O, Nəsuh paşadan fərqli olaraq İstanbul anlaşması ilə bağlı daha sərt mövqe tutdu. Bu anlaşmanın hazırlanmasında və əldə edilməsinə Nəsuh paşa fəal rol oynamışdı və o öz fəaliyyəti ilə də bu anlaşmanın qorunub saxlanmasını istəyirdi. Məhəmməd paşa sədr-əzəm elan olunandan sonra isə onun şah sarayı, Səfəvi döv-

lətinin yüksək vəzifəli mənsubları ilə sülh anlaşması ətrafında yeni yazışmaları başlandı (46).

Bu zaman tərəflər arasında anlaşılmazlığa səbəb olan məsələlərdən biri Axısqanın kimə məxsusluğu məsələsi idi. Şah sarayı bu vilayətin qanuni şəkildə Səfəvi dövlətinə məxsus olması üzərində israr edirdi. Osmanlı sarayı isə bunu qəbul etmirdi. Məhəmməd paşanın Şah Abbasa və İrəvan bəylərbəyi Əmirgünə xana göndərdiyi məktubda da bu məsələyə toxunulurdu. Bildirilirdi ki, hələ Sultan Süleymanın hakimiyyəti illərində Axısqa Osmanlı dövlətinə məxsus olmuşdu və o zamanlar Axısqa Səfəvi dövlətindən deyil, başqa hakimlərdən alınmışdı. Bundan əlavə Şah Abbasa göndərilən məktubda Bağdad ətrafında olan bəzi ərazilərin də Osmanlı dövlətinə təhvil verilməli olduğu halda, hələ də Səfəvi nəzarəti altında qaldığı bildirilirdi. Bu mənada şah sarayının sərhəd məsələləri ilə bağlı mövqeyinin Osmanlı sarayı tərəfindən qəbul olunmadığı bildirilirdi. Şah Abbasa yazılan məktubda ona işarə edilirdi ki, şah sarayının sərhəd məsələlərində öz mövqeyini dəyişməməsi iki dövlət arasında yeni bir müharibənin başlanmasına yol aça bilər (47).

Sədr-əzəm Məhəmməd paşa tərəfindən İrəvan bəylərbəyi Əmirgünə xana göndərilən məktubda da həmin məsələlər təkrar olundu. Açıq şəkildə bildirilirdi ki, Axısqa və Bağdadın şərqində olan qala Səfəvi nəzarətindən çıxarılaraq Osmanlı nəzarəti altına verilməlidir. Bu məktubun məzmunu ilə tanış olduqdan sonra Şah Abbas ona cavab yazdı və onu elçisi vasitəsilə Osmanlı sarayına göndərdi. Şah Abbas Axısqa vilayətinin Səfəvi dövlətinə məxsus olduğunu bir daha təkrar etdi. Onun bu israrı yenə də Osmanlı sarayı tərəfindən qəbul edilmədi. Şah Abbasın məktubunu alandan sonra Məhəmməd paşa yenidən həm Şah Abbasa, həm də Əmirgünə xana məktub yazdı. Osmanlı sədr-əzəmi adları çəkilən ərazilərlə bağlı Osmanlı sarayının mövqeyinin dəyişmədiyini bəyan etdi. Əlavə olaraq Məhəmməd paşa bildirdi ki, həmin məsələlərə görə iki dövlət arasında əldə edilmiş anlaşma artıq pozulmuşdur.

Bu anlaşmanın pozulmasına görə Məhəmməd paşa Səfəvi sarayını ittihamlandırdı (48).

Osmanlı sarayı iki dövlət arasında əldə edilmiş II İstanbul anlaşmasının pozulmasının günahını Səfəvi sarayının üzərinə atdı. Əslində isə elə Osmanlı sarayı daxilində bu anlaşmanın pozulmasını istəyən əmir və əyanlar çox idilər və onlar hər vasitə ilə iki dövlət arasında müharibənin yenidən başlanmasını istəyirdilər. Yəni Osmanlı sarayında elə bir təbəqə formalaşmışdı ki, onlar iki dövlət arasında yeni bir müharibəni təşviq edirdilər. Bu təbəqəyə daxil olan mənsublar Nəsuh paşanın iki dövlət arasında sülh axtarışlarına rəğbətlə yanaşmırdılar. Osmanlı sultanı I Əhməd də Nəsuh paşaya müxalifətdə olan qüvvələri dəstəkləyirdi və müharibənin başlanması üçün bir fürsət aranırdı. Nəhayət, Məhəmməd paşanın sədr-əzəm təyin edilməsindən sonra belə bir fürsət yaradıldı və o, sərdar təyin edilərək  Səfəvi hüdudları üzərinə yürüşün həyata keçirilməsinə vəzifələndirildi (49).

İsgəndər bəy Münşi isə əldə edilmiş anlaşmanın pozulmasının günahını Osmanlı sarayı üzərinə atırdı. Bu məsələni öz əsərində o belə təsvir edirdi: “Rum xandgarı Sultan Əhməd ibn Sultan Məhəmməd ibn Sultan Muradla sülh sazişinin bağlanmasına səbəb tədbirli, bacarıqlı adam olan baş vəzir Nəsuh paşanın qətlindən sonra, baxmayaraq ki, hər iki tərəfin elçiləri dostluq məktubları və layiqli hədiyyələrlə Ruma gedib-gəlirdilər, sülh pozuldu. Bunun səbəbi bu tərəfdən baş vermədi. Rum xandgarı iki cahil gürcünün yalan sözlərinə və şərhi aşağıda veriləcək bu ilki Gürcüstan və Şirvanda baş verən kiçik qarışıqlığa görə özünə yaxın olan və dövlət sarayında boya-başa çatan, hələ ruzigarın şilləsinə tuş gəlməyən, fitnəkarlığın eniş-yoxuşlu yollarında ayaqları qabar tutmayan və dünyadan bixəbər olan bir neçə adamın təhriki ilə hövsələsizlik edərək, əhd-peyman sazişini pozdu, Öküz Məhəmməd adı ilə məşhur olan baş vəziri orduya sərdar təyin edib əcəm diyarına tərəf yolladı. Əlahəzrət isə ehtiyat naminə divanbəyi Əliqulu xan Şamlını ali dərgahdan Təbriz darüssəltənəsinə göndərdi ki, Azərbaycan əmirləri ilə orada dayanıb, bu xəbərin düzgün

olub-olmadığını müəyyənləşdirsin. Əgər bu məlumat düzgün olarsa, dövlətin qərar çıxarmasından ötrü həqiqəti [saraya] ərz etsin" (50).

Əliqulu xanı apardığı müşahidələrdən sonra məlum oldu ki, Osmanlı qoşunları doğrudan da artıq Səfəvi sərhədinə doğru hərəkətə başlamış və sərhəd bölgəsinə yetişmişdilər. Osmanlı qoşunları rəhbərliyi qərara almışdı ki, qoşunlar Diyarbəkrdə və sərhəd xəttinə yaxın olan digər ərazilərdə qışlasınlar və növbəti ildə havaların istiləşməsi ilə Səfəvi hüdudlarına hücum başlansın. Osmanlı qoşunlarının Səfəvi sərhədlərinə doğru hərəkətə başlaması isə gürcü qiyamçı hakimlərinin şah qoşunlarına qarşı qiyam qaldırmalarına təkan verdi. Alaverd kilsəsində, sonra isə Təhmurəsin rəhbərliyi ilə Kaxetdə şah hakimiyyətinə qarşı qiyamın baş verməsi də həmin vaxta təsadüf edirdi.

Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas İncili Mustafa Çavuşun geri qaytarılmasına və onunla birlikdə şah elçisinin Osmanlı sarayına yollanmasına böyük ümidlər bağlayırdı. Bu heyətlər vasitəsilə Osmanlı sarayına xeyli sayda qiymətli hədiyyələr də göndərilmişdi. Osmanlı mənbələrinə görə, Şah Abbas tərəfindən hətta söz verilmiş ipək də Osmanlı sarayına göndərilmişdi. Amma bu heyətlər Osmanlı sarayına yetişəndə Məhəmməd paşa artıq İstanbulu tərk edərək Üsküdara gəlmiş (15 may 1615-ci il) və burada Səfəvi hüdudları üzərinə hücum hazırlıqlarına başlamışdı. İncili Mustafa Çavuşun və şah elçisinin gəlişinin Osmanlı sultanına ərz edilməsi də bir nəticə vermədi və sultan Səfəvi hüdudları üzərinə hazırlıqların davam etdirilməsinə tərəfdar oldu. Osmanlı sultanı Şah Abbasın elçisini isə heç qəbul da etmədi və bununla bir daha baş verən hadisələrə öz münasibətini bildirdi (51).

Məhəmməd paşa təxminən iyirmi gün Üsküdarda qaldı və səfər hazırlıqları ilə məşğul oldu. Bu hazırlıqlar başa çatdıqdan sonra Səfəvi sərhədlərinə tərəf hərəkət başladı. Məhəmməd paşanın rəhbərliyi altında olan Osmanlı qoşunlarının Səfəvi hüdudlarına doğru səfər hərəkəti təxminən iki ay çəkdi. Bu qoşun dəstəsi 1615-ci il avqust ayının əvvəllərində Hələb yaxınlığındakı Göy-

meydan adlanan yaylaya gəlib yetişdi. Burada qərara alındı ki, payız və qış aylarının yaxınlaşmasına görə Səfəvi vilayətləri üzərinə hücum növbəti ilin baharına qədər təxirə salınsın. Ona görə də Osmanlı qoşunları Hələb yaxınlığında qışlağa dayandı. Bəzi qoşun dəstələri isə yazın gəlişinə qədər öz vilayətlərinə geri göndərildi. Amma elə bu vaxtlarda da Məhəmməd paşa Səfəvi hüdudlarına ayrı-ayrı basqınların da həyata keçirilməsini məqsədəuyğun bildi. Bu məqsədlə o, Kərkük bəylərbəyi Qayış Məhəmməd paşaya və Mosul bəylərbəyi Zülfüqar paşaya Bağdad istiqamətində Həmədan hakimi Lur Hüseynin idarəçiliyi altında olan Səfəvi ərazilərinə basqın etmək əmri verdi. Lakin bu basqınlar gözlənilən nəticəni vermədi (52).

Əliqulu xanla İsfəndiyar bəyin rəhbərliyi altında olan qoşun dəstəsi üzərində qələbə əldə etdikdən sonra Təhmurəs xan bir daha Osmanlı paşaları ilə əlaqə yaratmağa və Omanlı qoşununun bölgəyə yürüşünü təşviq etməklə Səfəvi hakimiyyətindən birdəfəlik qopmağa cəhd göstərdi. O, şah qoşunları üzərində əldə etdiyi qələbə barəsində Hələbə gəlmiş sədr-əzəm Məhəmməd paşaya məlumat göndərdi. Təhmurəs xan ona eyni zamanda onu da çatdırdı ki, Şirvanda şah hakimiyyətinə qarşı qaldırılmış qiyam nəticəsində Dərbənd də Səfəvi nəzarətindən çıxarılmışdır və Krım xanı Canıbəy Gəray öz qoşunu ilə buradan Şirvana daxil olmaqla bu vilayəti bütünlüklə Səfəvi nəzarətindən çıxara bilər. Bu məsələ Sultan Əhmədə də çatdırıldı. Sultan Əhməd Şirvanın yenidən Osmanlı nəzarəti altına qaytarılması üçün belə bir planın icrasına maraq göstərdi. Bununla bağlı o, Krım xanına xəbər göndərdi ki, havaların qızması ilə Dərbənddən keçməklə Şirvan üzərinə hücum etsin və bununla da sədr-əzəm Məhəmməd paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının Səfəvi hüdudlarına uğurlu yürüşünə yardımçı olsun. Ancaq Şah Abbasın rəhbərliyi altında şah qoşunlarının Gürcüstana yeni yürüşü və bu bölgədə şah hakimiyyətinin yenidən möhkəmlənməsi Krım xanının Dərbənddən keçməklə Şirvan üzərinə yürüşünü mümkünsüz etdi. Krım xanı şübhə etmirdi ki, Gürcüstanda möhkəmlənmiş olan şah qoşunlarına Şirvanda

üstün gəlmək çətin olacaqdır. Ona görə də Canıbəy Gəray Trabzondan keçməklə Səfəvi hüdudlarına hücum etmək barəsində Osmanlı sarayından icazə istədi. Osmanlı sarayı isə belə bir icazə vermədi və təkid etdi ki, Krım xanı Dərbənddən keçməklə Şirvan üzərinə hücum etsin. Bu təkiddən sonra Krım xanı qardaşı Fatih Gərayın rəhbərliyi altında 20 min nəfərlik qoşun dəstəsinin Dərbənddən keçməklə Səfəvi hüdudlarına hücum etməsi barəsində göstəriş verdi. Lakin bu göstəriş də icra edilməmiş qaldı (53).

Osmanlı qoşunlarının Səfəvi sərhədlərinə yaxınlaşması sərhəd bölgəsində məskunlaşmış bəzi kürd əmirlərini də şah hakimiyyətinə qarşı itaətsizlik göstərməyə ruhlandırdı. Məsələn, məlumdur ki, Qazı bəy adlı birisinin övladları xüsusilə fəallıq göstərərək sərhəd bölgəsində yerləşən Qarnıyarıq qalasını ələ keçirmiş və oradan Səlmas bölgəsinin yaşayış məntəqələri üzərinə basqınlar etmişdilər. Təbriz hakimi bu özbaşınalıqların qarşısını almaq üçün qoşun dəstəsi ilə sərhəd bölgəsinə doğru istiqamət götürdü. Təbrizdə və ətrafında yaşayan bir neçə əmir də onlara tabe olan dəstələrlə Pir Budaq xanın dəstəsinə qoşuldular. Azərbaycan tüfəngçilərinin bir dəstəsi də bu qüvvələrə əlavə olundu. Bu qüvvələr Qarnıyarıq qalasına tərəf irəliləyəndə ora toplaşmış olan kürd əmirləri Van bəylərbəyi Məhəmməd paşa Təkəlinin yanına adam göndərdilər və ondan kömək istədilər. Məhəmməd paşa bu xahişi qəbul etdi və 6-7 min nəfərlik bir qoşun dəstəsi təşkil edərək Səlmas şəhəri ətrafına gəldi. Bölgəyə gəlmiş olan Pir Budaq xanın yanındakı qoşun dəstəsi isə, İsgəndər bəy Münşinin yazdığına görə, 5 min nəfərdən çox deyildi. Yəni Osmanlı qoşunları say üstünlüyünə malik idilər. Bu qoşunların nə zaman gəlib Səlmas ətrafına çatacağını müəyyənləşdirmək üçün Pir Budaq xan irəliyə qarovullar göndərdi və onların vasitəsilə Osmanlı qoşun dəstəsinin hərəkəti haqqında vaxtında məlumat əldə etdi. Osmanlı qoşun dəstəsinin sayca çox olmasından məlumat alınca Pir Budaq xan kömək üçün Təbrizə gəlmiş Kirman hakimi Gəncəli xana xəbər göndərdi, onu kömək üçün yanına çağırdı. Osmanlı qoşun dəstəsinin nə zaman Səlmas ətrafına gəlib çata biləcəyi Gəncəli xana çatdırılmışdı. Ona

görə də ondan xahiş edildi ki, Osmanlı qoşunları Səlmas ətrafına yetişənə qədər o da özünü çatdırsın. Osmanlı qoşunları Səlmasa yetişəndə Gəncəli xan bu şəhərdən çox da uzaq olmayan Təsuca çatmışdı (54).

Qarovullar gəlib Osmanlı qoşunlarının yaxınlaşması xəbərini verəndə Pir Budaq xanın dəstəsi də döyüşə hazırlaşmaq əmri aldı. Osmanlı qoşun dəstəsi Səlmasa o qədər yaxınlaşa bilmişdi ki, qızılbaş dəstəsi lazım olan səviyyədə döyüş hazırlığını ala bilmədi. Maqsud Sultan Kəngərlinin rəhbərliyi altına verilmiş bir dəstə qızılbaşların çərxçisi təyin edildi və irəli göndərdi. Bu dəstə irəli çıxan kimi də Osmanlı qoşunlarının zərbəsi altına düşdü. Onlar arasında baş verən döyüş elə bir sürətlə cərəyan etdi ki, heç Pir Budaq xanın rəhbərliyi altında olan digər qüvvələr lazım olan döyüş mövqeyinə çıxmağı vaxt tapmadılar. Yəni qızılbaş dəstəsi toparlanmamış, qruplaşmamış Osmanlı qoşunları onların başı üstünü aldı. Qızılbaş dəstəsinin sağ və sol cinahları elə döyüşün başlanğıcında ağır zərbə aldılar. Çoxları Osmanlı silahlarının hədəfi oldular. Sağ qalanlar isə döyüş meydanını tərk edib ətrafa səpələndilər. Pir Budaq xan vəziyyətin mürəkkəbliyini görsə də, döyüş meydanından qaçmağı özünə sığışdırmadı. O, yanında olan az saylı döyüşçülərlə özünü Osmanlı döyüşçülərinin qarşısına atdı. Osmanlı qüvvələri ilə birlikdə vuruşan kürd döyüşçülərindən biri döyüşün gedişində Pir Budaq xanı yaralaya bildi. Pir Budaq xanın mülazimlərindən biri özünü irəli atıb onu xilas etməyə çalışsa da, Pir Budaq xan aldığı yaradan dünyasını dəyişdi. Osmanlı qüvvələri bu döyüşdə uğur qazandılar. Səlmasda qalmış qızılbaş döyüşçüləri səhəri günü döyüş meydanına atıldılar. Lakin onlar da üstün Osmanlı qüvvəsi qarşısında geri çəkilməli oldular (55).

Gəncəli xan Təsucda olarkən Pir Budaq xanın qətlə yetirilməsi və qızılbaş dəstəsinin məğlubiyyətə uğraması haqqında məlumat aldı. Osmanlı qüvvələrinin say üstünlüyünə malik olması Gəncəli xanı döyüş meydanına yollanmaqdan çəkindirdi. O qərara aldı ki, Təbrizə qayıtsın, orada yeni bir dəstə formalaşdırsın və həmin dəstə ilə Osmanlı qüvvələri üzərinə hücum etsin. Gəncəli xan

Təbrizə yetişəndə artıq şəhər əhli də Pir Budaq xanın öldürülməsi xəbərini almışdı və bu əhali qorxu içində idi ki, Osmanlı dəstəsi tezliklə Təbriz üzərinə hücum edəcəkdir. Təbriz əhalisi çaşqınlıq və təşviş içində olduğu həmin günlərdə Osmanlı qoşun dəstəsinin geri çəkilməsi haqqında məlumat alındı. Bu xəbərdən sonra Təbriz daxilində bir qədər sakitlik yarandı. Osmanlı qoşun dəstəsi isə doğrudan da hücumu genişləndirməyərək geri çəkilməyə başladı. Buna səbəb Şah Abbasın uğurla başa çatdırdığı Gürcüstan səfərindən geri qayıtmaşı olmuşdu. Osmanlı paşaları şah qoşunlarının Gürcüstandan bir başa Təbriz ətrafına gələ bilməsi ehtimalından ehtiyat edərək Səfəvi hüdudlarını tərk etməyə üstünlük verdilər (56).

Şah Abbas Gürcüstan səfərindən geri qayıtdıqdan sonra Osmanlı qoşun dəstəsinin hücumu və Pir Budaq xanın dünyasını dəyişməsi haqqında xəbər tutdu. Pir Budaq xan onun sınanmış və fədakar əmirlərindən biri idi. Ona görə də Şah Abbas onun oğlunu Azərbaycan əmirül-ümərası təyin etməklə ona "xan" məqamı verdi. Şah Abbas Osmanlı qoşun dəstəsi ilə aparılan döyüşdə fədakarlıq göstərmiş əmirləri və döyüşçüləri də layiqincə mükafatlandırdı və onların da bəzilərini "xan" məqamına yüksəltdi. Bu döyüş Osmanlı qoşunlarının II İstanbul anlaşmasından sonra Osmanlı qoşunları ilə baş verən ilk ciddi döyüş idi və Şah Abbas gördü ki, Osmanlı təhlükəsi xeyli yaxındadır. Bu təhlükənin önlənməsi üçün Şah Abbasın atdığı ilk addımlardan biri Əlişəkər bəylərbəyi Həsən xanı qoşun dəstəsi ilə birlikdə Təbrizə göndərdi ki, sərhəd bölgəsinin müdafiəsinin gücləndirilməsinə kömək göstərsin. Bundan əlavə söhbət yasovulu Kəlbəli bəy Şamlı da sərhəd bölgəsinə göndərildi. Kəlbəli bəy Şamlı sərhəd bölgəsinin hakimləri və əmirləri ilə birlikdə sərhəd xətti boyunca müşahidələr təşkil etməli və Osmanlı qoşunlarının irəliləməsi haqqında məlumatlar toplayıb şaha çatdırmalı idi. Bu vəzifənin icrası üçün Kəlbəli bəy Səlmasa gələrək orada müşahidələri təşkil etdi. Məlumat alınanda ki, Osmanlı qoşunları Çuxursəəd vilayətinə doğru hərəkət edirlər, onda Kəlbəli bəy və onun ətrafında olan əmirlər də yollarını Çu-

xursəədə saldılar, Göyçə gölü ətrafında düşərgə salmış Şah Abbasın hüzurunda oldular və Osmanlı qoşunlarının irəliləməsi haqqında ona məlumat verdilər.

Sədr-əzəm Məhəmməd paşa Hələb yaxınlığında sadəcə qışlağa dayanmadı. Havaların istiləşməyə başlaması ilə o, Səfəvi hüdudlarına hücum hazırlıqları əmrini verdi və bununla da bu yürüşdə iştirak etməli olan qoşunların toplanmasına başlandı. Yürüşün uğurunu təmin edəcək qədər toplar düşərgəyə gətirildi, İstanbuldan qoşunların təminatı üçün zəruri olan təchizat və sursat Hələb yaxınlığına daşındı. Anadolu bəylərbəyi Məhəmməd paşa bütün sancaq və alay bəylərinə xəbər göndərib onların hamısını tabeliklərində olan qoşun dəstələri ilə 1616-cı il mart ayının sonuna qədər Əzruma gəlməyi əmr etdi. Həmin qüvvələr burada sədr-əzəm Məhəmməd paşanın dəstəsinə qoşulmalı idilər. Havaların qızması ilə sədr-əzəm Məhəmməd paşa da Göymeydandan hərəkətə başladı və 1616-cı i may ayının 20-də Əzruma gəldi. O, bir neçə gün bu şəhərdə dayandı və vilayətlərdən gələn qoşunun çatmasını gözlədi. İyun ayının əvvəllərində isə Məhəmməd paşa artıq Qarsda idi. Ərzrumdan hərəkətə başlamazdan əvvəl o, Ərzrum qalasındakı topların da sökülüb qoşunlara verilməsi haqqında sərəncam verdi. İyun ayının sonlarına qədər Osmanlı qoşunları Qars ətrafında dayandı. Bu fasilə Qars qalasının təmiri ilə bağlı idi. Məlumdur ki, bu qala iki dövlətin sərhəd xəttində yerləşirdi və hər iki tərəf bu qalanın yerləşdiyi ərazinin neytral olmasını, tərəflərdən birinə məxsus olmamasını istəyirdi. Osmanlı qüvvələri burada möhkəmlənmək istəsə də, 1604-cü ildə qala Səfəvi qüvvələri tərəfindən dağıdılmışdı ki, Osmanlı qüvvələri orada kök sala bilməsinlər. Yeni şəraitdə Qars qalası Osmanlı qüvvələri üçün arxa baza rolunu oynaya bilərdi. Ona görə Məhəmməd paşa onun təmiri barədə göstəriş verdi və 1616-cı il iyun ayının sonuna kimi bu qalanın təmiri başa çatdırıldı. Osmanlı mənbələrinə görə, Məhəmməd paşa və onun rəhbərliyi altında olan qoşunlar 1616-cı il sentyabr ayının 11-də İrəvan qalası ətrafına yetişdi (57).

Sədr-əzəm Məhəmməd paşa Səfəvi hüdudlarına başladığı yürüşdə uğur qazanmaq üçün çox böyük sayda qoşun toplamışdı. İsgəndər bəy Münşi konkret rəqəm göstərməsə də Osmanlı qoşunlarının çoxluğu haqqında belə yazırdı: "Rum padşahı Sultan Əhməd xan sülh sazişinin bağlanmasından sonra dostluğun yaranması və elçi gediş-gəlişinin başlandığı bir vaxtda zahirən səbəbsiz yerə, açıq aşkar isə qəddarlıqla əhd-peymanı pozdu, yuxarıda yazıldığı kimi, Öküz paşa kimi tanınan baş vəzir Məhəmməd paşanı orduya sərdar təyin etdi və Məhəmməd paşa keçən il Diyarbəkr və oraya yaxın yerlərdə qışladı. Bu il isə fərmana əməl edən Rum məmləkətlərinin ləşkərləri, o cümlədən Urum eli, Anadolu, Müntəşa eli, Misir, Şam, Hələb, Trablis, Trabzon, Cəzirə və Ərzrum şəhərlərinin qoşunları, habelə kürd tayfalarının sancaqbəyiləri gələrək, sərdara birləşdilər, heç bir əsrdə və heç bir zaman bu böyüklükdə ordunun İranda görünmədiyi əsgər izdihamı yarandı. Bütün vəzirlər, paşalar osmanlı sülaləsinin dövlət başçıları, hətta qanuna görə heç vaxt padşahın məiyyətindən aralanmayan yeniçəri ağası da orduya qoşuldu. Rumiyyə qoşunları çoxlu əsgər, saysız-hesabsız ləşkər, kiçik və böyük toplar, arabalar, saysız-hesabsız zərbzənlər və badliclərlə Ərzrumdan Təbrizə tərəf hərəkət etdilər" (58).

Osmanlı tarixinə aid olan araşdırmalarda Məhəmməd paşanın rəhbərliyi altında 90 min nəfərlik bir qoşunun olduğundan danışılır. Səfəvi qoşunlarının ümumi sayının isə 62 min nəfər olduğu bildirilirdi (59). "Rövzətüs-Səfəviyyə" müəllifi isə Osmanlı qoşunlarının 200 min nəfər olmasını göstərmişdir. Bu əsərdə ayrı-ayrı qızılbaş dəstələrinə işarə edilmişdir ki, onların da ümumi sayı 62 min nəfər təşkil edirdi. İsgəndər bəy Münşi isə Osmanlı qoşunlarının sayının 100 mindən artıq olduğunu yazırdı (60).

Mənbə məlumatlarından aydın olur ki, Şah Abbas Osmanlı qoşunlarının İrəvana çatması haqqında əvvəlcədən xəbər tutmuşdu. Ona görə də Osmanlı qoşunları gəlib yetməzdən əvvəl Şah Abbas İrəvan qalasının möhkəmləndirilməsi haqqında fərman verdi. İsgəndər bəy Münşinin yazdığına görə, qacar qorçuları, İsfahan və

Xorasan tüfəngçiləri və başqa döyüş dəstələri təcrübəli əmirlərin rəhbərliyi altında İrəvan qalasının müdafiəsinin möhkəmləndirilməsinə cəlb edildilər. Təcrübəli əmirlər arasında İsfahan tüfəngçilərinin minbaşısı Mirfəttah, habelə Əhməd Sultan Xorasani və digərlərinin adları çəkilmişdir. Bütünlükdə, qoşunlar arasından İrəvan qalasının möhkəmləndiriməsinə səmərəli kömək göstərə biləcək adamlar və dəstələr seçilərək qala daxilinə göndərildilər. İsgəndər bəy Münşi Osmanlı qoşunlarının 1616-cı il avqust ayının 26-da gəlib İrəvan qalası ətrafına yetişdiyini yazmışdır (61).

"Rövzətüs-Səfəviyyə" müəllifinin yazdığına görə isə Osmanlı qoşunlarının yaxınlaşması xəbəri alınanda Şah Abbas İrəvan bəylərbəyi Əmirgünə xanı 3 min nəfərlik qacar atlıları və İsfahan, Xorasan və Mazandaran topçularından ibarət 10 min nəfərlik digər atlı dəstəsini İrəvan qalası daxilinə göndərdi. Əmirgünə xana göstəriş verildi ki, qalanın möhkəmləndirilməsi ilə bərabər, onun daxilində silah-sursat ehtiyatı və 20 min adamın üç-dörd il qalada yaşaması üçün ərzaq yığmalı idi. Əmirgünə xan da dərhal bu əmrin icrasına başladı. Topçular qala daxilində lazım sayılan mövqelərə yerləşdirildilər, qala divarları və bürcləri möhkəmləndirildi, qala divarları ətrafında xəndəklər qazıldı və böyük miqdarda ərzaq ehtiyatları qala daxilinə daşındı (62).

Yəni Osmanlı qoşunları yetişənə qədər artıq İrəvan qalasının müdafiəsinin möhkəmləndirilməsi üçün müəyyən işlər görülmüşdü. Şah Abbas qoşunların əsas qüvvələri ilə qala xaricində idi və Osmanlı qoşunlarından müəyyən məsafədə olan döyüş xəttində dayanmışdı. Qoşun dəstələrindən biri dünyasını dəyişmiş Allahverdi xanın oğlu İmamqulu xanın rəhbərliyi altında idi. Bu qoşun dəstəsi Osmanlı qoşunlarının sağ cinahına yerləşdirildi. Həmin qoşun dəstəsi 20 min nəfərdən ibarət idi. Osmanlı qoşunlarının sol cinahı isə Qərçəqay bəyin rəhbərliyi altında olan qoşun dəstəsinə tapşırıldı. Bu qoşun dəstəsinin 12 min nəfər olduğu bildirilir. Döyüş xəttinin mərkəzi hissəsində isə Kirman hakimi Gəncəli xanın və Həmədan hakimi Qara Həsən xan Ustaclının rəhbərliyi altında 30 min nəfərlik qoşun dəstəsi mövqe tutdu (63).

Məhəmməd paşa İrəvan qalasının mühasirə edilməsi üçün qoşunları dörd böyük dəstəyə böldü. Onlardan üçü İrəvan qalasının mühasirəsinə vəzifələndirildi. Onlardan birinə Rumeli bəylərbəyi Davud paşa rəhbərlik edirdi. Onun rəhbərliyi altında olan dəstə İrəvan qalasının bir istiqamətinə yerləşdirildi və həmin istiqamətdən qala divarlarının fəth edilməsi Davud paşaya tapşırıldı. Başqa bir istiqamətə isə yeniçəru ağasının rəhbərliyi altında olan dəstə yerləşdirildi. Bu dəstənin əsasını yeniçərilər təşkil edirdilər və həmin dəstənin istifadəsinə 9 ədəd top da verilmişdi. Üçüncü istiqamət Diyarbəkr bəylərbəyinin rəhbərliyi altında olan dəstəyə həvalə olundu. Bu dəstənin istifadəsində 12 ədəd top var idi. Dördüncü dəstə isə qızılbaş dəstələrinin hücumlarının qarşısını almalı idi və bu dəstənin döyüşçüləri qızılbaş hücumlarının gözlənildiyi istiqamətlərə yerləşdirilmişdi. Osmanlı mənbələrindən birində dördüncü dəstəyə aid olan qüvvələrin fəaliyyəti belə təsvir olunmuşdur: "...Torpaq qaladan cənubda Van bəylərbəyi və Ərzrum bəylərbəyi Həsən paşa qarovullarda olub və Axısqa bəylərbəyi və Oltı və Ərdəhandan riayalar zahirələr gətirib füruxt edərlərdi. Və at oğlanları otluğa gedib hər vaxt bir bəylərbəyi və sancaq bəyləri məan getmədən, lakin şahi-bədfel dörd canibdən at oğlanları devşürüb hiylə ilə giriftar olurlardı" (64).

Osmanlı mənbələrinə əsasən, sədr-əzəm Məhəmməd paşa iyirmi gün ərzində İrəvan qalası ətrafında fəal mühasirə həyata keçirdi. O, sadəcə qalanı mühasirə etmədi, qalanın alınması üçün davamlı hücumlar təşkil etdi. Amma onun bütün cəhdləri ümidində olduğu nəticəni vermədi və İrəvan qalasını fəth etmək mümkün olmadı. Osmanlı döyüşçülərinin İrəvan qalasının bəzi yerlərini uçurması halları olurdu. Lakin İrəvanın müdafiəçiləri tez bir zamanda divarların uçurulmuş yerlərini bərpa edirdilər. Bəzi Osmanlı mənbələrində İrəvan qalasının fəthinin uzanması Məhəmməd paşanın bu mühasirəyə lazımınca hazırlaşmaması və İrəvan qalasının alınması üçün yetərli sayda topun gətirilməməsi ilə əlaqələndirilirdi. Bu məsələ belə şərh olunurdu: "Lakin "Qəle-yi Rəvan bir müstəhkəm hisar olmayıb ləşgəri-islamın ancaq üzərinə

varmasına mövqüfdür, sükanı olan sürxsəran bir bölük çoban tayfadır. Fil-hal təslimi-qala edərlər, zəhmətlər extiyar olunub minarə-bədən və ruyin-e tən toplar götürülmək lazım deyildir" deyib ol səfərdə yeniçərilər ağası bununan Musli ağa müqəddəmə sərdar və ayani-əsgər məhzərlərində dəlayil irad edib əzim bəhslər etməyə, candan qalagirlik əsbabı gedidilməmişdi" (65).

Bu yazılandan belə bir qənaət hasil olur ki, Osmanlı qoşunlarının sərdarları tərəfindən həm İrəvan qalasının müdafiə imkanları, həm də bütünlükdə qızılbaş qoşunlarının imkanları lazımınca qiymətləndirilməmişdi. Qızılbaşlar bu məlumatda "bir bölük çoban" adlandırılmışdır. Osmanlı mənbələrində öz əksini tapmış bir məlumata görə isə, qala mühasirəsinin 33-cü günündə qala daxilindəkilər xəbər göndərərək təslim olmağa hazır olduqlarını bildirmişdilər. Məlumata görə, qala daxilindəkilər Osmanlı sərdarlarından onlar üç gün möhlət verilməsini xahiş etdilər ki, Şah Abbasla əlaqə saxlayıb qalanın təslim edilməsini onunla razılaşdırsınlar. Osmanlı sərdarları bu xahişi qəbul etdilər. Amma sonra məlum oldu ki, atəşkəs əldə etməkdə İrəvan müdafiəçilərinin məqsədi heç də qalanı təhvil verməyə hazırlaşmaq deyil, əksinə, top atəşlərindən sonra qala divarlarında yaranmış uçuqların bərpa edilməsi imiş (66).

Şah Abbas Osmanlı qoşunlarına qarşı mübarizə üçün xüsusi bir taktika seçmişdi. Yuxarıdakı qeydlərdən göründüyü kimi, Şah Abbas Osmanlı qoşunlarına üstün gəlmək üçün üzücü və fəal bir taktikanı seçmişdi. O, Osmanlı qoşunları ilə əsas döyüşə girmədi. Belə bir qərarın qəbul edilməsi bir tərəfdən dövrün döyüş ənənələri ilə bağlı idi. Belə ki, bir qayda olaraq şah qarşı tərəfin şahının rəhbərlik etdiyi qoşunlarla döyüşə girirdi. Osmanlı qoşunlarına isə Osmanlı sultanı deyil, Osmanlı sədr-əzəmi rəhbərlik edirdi. Digər tərəfdən tətbiq olunan taktika ilə Şah Abbas daha az itki verməklə Osmanlı qoşunlarına üstün gəlmək istəyirdi. Ona görə də Osmanlı qoşunları İrəvan qalasını mühasirəyə almaq istədikləri halda, əslində, özləri mühasirəyə düşmüşdülər. Çünki bir tərəfdən İrəvan

qalası daxilindəki qüvvələr, digər tərəfdən də qala xaricindəki qızılbaş dəstələri Osmanlı qüvvələrini zərbə altına almışdılar.

"Rövzətüs-səfəviyyə" əsərində təsvir olunduğu kimi, qızılbaş qoşunları İrəvan qalası ətrafındakı Osmanlı qoşunlarını mühasirəyə aldılar. Bu mühasirə elə qurulmuşdu ki, Osmanlı döyüşçülərindən kimsə qızılbaş mühasirəsindən çıxıb uzaqlaşa bilmədi. Şah Abbas bu taktikası ilə bir tərəfdən Osmanlı qüvvələrinin hərəkət sərbəstliyini məhdudlaşdırdı. Digər tərəfdən də Osmanlı qüvvələrinin ətrafda ərzaq axtarışlarının qarşısını aldı. Bu da Osmanlı qüvvələrinin vəziyyətini mürəkkəbləşdirdi. Çünki ərzaq qıtlığı özünü göstərəndə Osmanlı qüvvələrinin ətraf aləmdə ərzaq tapmaq cəhdlərinin qarşısı alındı. Adı çəkilın mənbədə qeyd olunur ki, bir dəfə sədr-əzəm Məhəmməd paşa 40 min nəfərlik qoşun dəstəsini ərzaq toplamaq üçün yaxındakı məntəqələrə göndərmək istədi. Bu dəstə İmamqulu xanın rəhbərliyi altında olan qoşun dəstəsinin dayandığı istiqamətdən hərəkət etməli idi. Mənbə məlumatına görə, İmamqulu xanın dəstəsi Osmanlı dəstəsinin qarşısında dağ kimi bir möhkəm səddə çevrildi və həmin dəstənin kənara hərəkət etməsinə imkan vermədi (67).

İsgəndər bəy Münşi də təsdiq edirdi ki, Abbas Mirzə qızılbaş qoşunlarını bir neçə dəstəyə böldü və onların hər birini qala ətrafında bir istiqamətə göndərdi. Bu dəstələrə təcrübəli əmirlər rəhbər təyin edildilər və onlara fürsət yaranan kimi Osmanlı qoşunları üzərinə hücum etmək və onlara ağır itkilər yetirmək tapşırıldı. Elə həmin günlərdə xan rütbəsinə layiq görülmüş səltənət sipəhsaları və Şah Abbasın etimad göstərdiyi əmirlərdən biri olan "Qərçəqay bəyi [əlahəzrət] qorçilər, qulamlar və şah rikabının mülazimləri ilə ordudan yola saldı, Fars bəylərbəyi İmamqulu xanı rumiyyə ordusunun şərq tərəfinə göndərdi. Söhbət yasovulu Kəlbəli bəy Şamlı ilə birlikdə Təbrizdə olan Həsənxan, Gəncəli xan və sair əmirlər hümayun fərmana itaət edərək gəlib çıxdılar və İmamqulu xana birləşdilər. Dəli Məhəmməd Şəmsəddinlini qoşun və ləşkərlə Ərzrumdan gələn rumiyyə ordusunun qərb tərəfinə yolladılar ki, ar-

xadan ehtiyat sürsat çatdırılması üçün gediş-gəliş yolu qapanmasın" (68).

Şah Abbasın rəhbərliyi altında olan qızılbaş dəstələri daim hərəkətdə, yerdəyişmələrdə, fəal mühasirəsinin icrasında idilər. Bu manevrlərlə onlar həm mövqelərin yenilənməsini həyata keçirir, həm də Osmanlı qüvvələrini daim təşviş içərisində saxlayırdılar. Belə bir taktikanın icra edilməsində Qərçəqay xanın da böyük rolu var idi. Qərçəqay xan həm Osmanlı qüvvələrini, həm də öz qüvvələrini daimi müşahidə altında saxlamaqla dəyişən vəziyyətə uyğun qərarlar qəbul edirdi. Məsələn, onun tərəfindən Xələf bəy Süfrəçinin rəhbərliyi altında olan bir qızılbaş dəstəsi İrəvan qalasının şimal divarlarından bir fərsəxlik məsafədə olan Kənəgir adlı məntəqənin nəzarət altına alınmasına göndərildi. Bu məntəqənin nəzarət altına alınması ilə Qərçəqay xan istəyirdi ki, qala daxilindəkilərlə daha rahat bir əlaqə yaradılsın, qaladakı döyüşçülərin və sakinlərin qaladan kənara çıxması və ya qala daxilinə getməsi nəzarət altında saxlansın. Qərçəqay xan özü isə elə bir yerdə qərar tutmuşdu ki, oradan İrəvan qalası ətrafında baş verənləri müşahidə edə bilirdi. O eyni zamanda ətrafa qarovullar göndərir və onların vasitəsilə Osmanlı qoşunlarının fəaliyyəti haqqında lazımi məlumatları əldə edirdi. Bu məlumatlar əsasında da Qərçəqay xan Osmanlı qüvvələri üzərinə qəfil hücumlar təşkil edirdi. Osmanlı qüvvələri üzərinə təşkil edilən hücumlar həm sürəti, həm də kəsəri ilə fərqlənirdilər. Yəni belə hücumların nə dərəcədə faydalı olmasını Qərçəqay xan və onun ətrafındakılar da yaxşı başa düşürdülər. İsgəndər bəy Münşi İrəvan qalası ətrafında Osmanlı qüvvələri üzərinə çevik və təhlükəli reydlərin təşkili ilə bağlı İmamqulu xanın fəaliyyətini də yüksək qiymətləndirirdi. Adı çəkilən xan və digər əmirlər tətbiq edilən taktikanın mahiyyətini düzgün dəyərləndirirdilər. Ona görə də bu çevik hücumlar öz təhlükəliliyi ilə seçilirdi. Osmanlı qüvvələri daim qızılbaş dəstələrinin sürətli hücumlarının təşvişi içərisində idilər. Qızılbaş dəstələrinin sürətli hücumlarının qarşısının alınması üçün Osmanlı qüvvələrindən böyük bir dəstə ayrılmışdı. İsgəndər bəy Münşiyə görə, qızılbaş qüvvə-

lərinin xarici hücumlarından qorxduqları üçün Osmanlı sərdarları İrəvan qalasını tutmağa ehtiyatla yanaşırdılar (69).

Bununla belə, sədr-əzəm Məhəmməd paşa İrəvan qalasını ələ keçirmək planından heç də əl çəkməmişdi. Osmanlı əmir və sərdarları da bu planın icrası üzərində öz fəallıqlarını göstərirdilər. Xüsusilə, yeniçəri ağası İrəvan qalasını tezliklə ələ keçirmək üçün öz hücumlarına ara vermirdi. Qala divarlarının fəth edilməsi üçün bir neçə yerdə səngərlər qazılmış, top mövqeləri düzəldilmişdi. Qala divarları ətrafına daşatan qurğular da gətirilmişdi. Həmin qurğularla yanaşı toplar da davamlı olaraq qala divarlarını atəşə tuturdular. Bir dəfə Osmanlı topçuları qalanın bir neçə bürcünü və onların ətrafındakı divarları dağıda bildilər. Bundan ruhlanan Osmanlı dəstələri dərhal irəli atıldılar və dağılan bürclər istiqamətindən qala daxilinə girməyə çalışdılar. Lakin buna nail olmadılar. Çünki Əmirgünə xan tərəfindən İrəvan qalasının müdafiəsi etibarlı şəkildə təşkil olunmuşdu. Onun rəhbərliyi altında qala divarları üzərinə sərrast atıcılar yerləşdirilmişdi və düzgün qurulan müdafiə nəticəsində Osmanlı dəstələrinin qalaya daxil olmaq cəhdlərinin qarşısı alınırdı. Ona görə də Osmanlı qüvvələri böyük itki verərək geri çəkilmək məcburiyyətində qaldı (70).

Qala daxilində və ətrafında cərəyan edən döyüşlər Şah Abbas tərəfindən yaxından müşahidə edilirdi. Hər gün Şah Abbasın döndərdiyi əmirlər qala daxilinə gəlir və qala daxilindəki vəziyyətlə maraqlanırdılar. Eyni zamanda qala daxilindəkilərə lazım olan köməklik də göstərilirdi. Qala daxilindəkilər görürdülər ki, Osmanlı qüvvələrinə qarşı mübarizədə onlar tək qalmayıblar və qalanın vəziyyəti Şah Abbasın daimi nəzarəti altındadır. Bu da qala daxlindəkiləri daha fəal mübarizəyə ruhlandırırdı. Qalanın daxildən müdafiəsinin gücləndirilməsi üçün Şah Abbas tərəfindən konkret qərarlar qəbul olunurdu. O cümlədən onun tərəfindən göstəriş verildi ki, Süfrəçibaşının rəhbərliyi altında bir min nəfərdən ibarət olan tüfəngçilər dəstəsi qala daxilinə göndərilsin. Bunun üçün həmin dəstə Kənəgir istiqamətinə göndərildi. Orada tüfəngçilər dəstəsi mövqe tutub gözləməli və fürsət yaranan kimi qala daxilinə

yol tapmalı idi. Süfrəçibaşının rəhbərliyi altında olan tüfəngçilər dəstəsi Kənəgir istiqamətinə yollandı. Əvvəlcə bu dəstədən bir nəfər qala daxilinə göndərildi və Əmirgünə xana çatdırıldı ki, onun köməyinə gəlmək ərəfəsindədirlər. Ona görə də razılaşdırılmış günün sübh çağı Kənəgir istiqamətindəki qala darvazası açıldı və tüfəngçilər özlərini qala daxilinə yetirdilər. Min nəfərlik bir dəstənin Osmanlı mühasirəsindən gizli şəkildə qalaya daxil olması qala daxilindəkilərinin böyük sevincinə səbəb oldu (71).

Osmanlı əmirləri və sərdarları biləndə ki, qalanın müdafiəsinin gücləndirilməsi üçün tüfəngçilər dəstəsi qala daxilinə yol tapıb, onda öz təzyiqlərini gücləndirməyə çalışdılar. Bunun nəticəsi idi ki, qala divarları üzərinə Osmanlı toplarının atəşləri daha sürəkli xarakter aldı. Top atəşlərinin mövqeləri də irəli çəkildi və qala divarlarına daha da yaxınlaşdırıldı. İsgəndər bəy Münşi yazırdı ki, qala daxilindəkilər bu atəşlərin qarşısının alınması üçün cavab vermək məcburiyyətində qaldılar. Qala müdafiəçilərinin sərrast top atəşi nəticəsində yeniçəri ağası Türkcə Bilməz paşa öldürüldü. Onunla birlikdə bir neçə digər Osmanlı əmiri də öldürüldü və top mövqeyi dağıdıldı. Osmanlı mənbələrinin verdiyi məlumata görə, Türkcə Bilməz Həsən paşa yeniçəri ağası deyildi. O, tanınmış Osmanlı paşalarından biri idi və top atəşi ilə onun həyatına son qoyulmuşdu. Yeniçəri ağasının isə Muslu ağa olduğu bildirilir. Türkcə Bilməz paşa ilə birlikdə o da top atəşi ilə qətlə yetirilmişdi. Bu sərrast atəşi ardınca qala müdafiəçiləri qalanı tərk edərək Osmanlı qüvvələri üzərinə hücum çəkdilər. Nəticədə xeyli sayda Osmanlı döyüşçüsünün həyatına son qoyuldu, çoxlu silah ələ keçirildi və əsir götürüldü. Əsirlərin dindirilməsi zamanı bəlli oldu ki, Osmanlı qüvvələri İrəvan qalası üzərinə güclü bir hücum hazırlayırlar. Həmin hücumun tarixi də aşkarlandı və bu barədə Şah Abbasa da məlumat verildi. Şah Abbas bu barədə məlumat əldə edəndən sonra öz nümayəndələrini qala daxilinə göndərdi, Əmirgünə xanı və qala daxilindəki əmirləri Osmanlı qüvvələrinin yaxınlaşmaqda olan güclü hücumundan xəbərdar etməklə, onlara döyüşün düzgün təşkil edilməsini tapşırdı (72).

Osmanlı əsirlərinin dedikləri gün doğrudan da Osmanlı qüvvələrinin İrəvan qalası üzərinə hücumu başladı. Sədr-əzəm Məhəmməd paşa bütün qüvvələri səfərbərliyə alaraq müəyyənləşdirdiyi istiqamətlərdən qala üzərinə hücuma keçdi. Bu hücum Osmanlı toplarından atılan sürəkli atəşlərlə müşayiət olunurdu. Qala daxilində belə kütləvi bir hücumun olacağına artıq müəyyən hazırlıqlar görülmüşdü. Ona görə də Osmanlı qüvvələrinin hücumu qala divarları üzərində mövqe tutmuş döyüşçülərin ox və tüfəng atəşləri ilə qarşılandı. İsgəndər bəy Münşinin yazdığına görə, qacar döyüşçüləri bu döyüşdə xüsusilə məharət göstərdilər və onların şücaəti nəinki qızılbaşların, hətta qarşı tərəfin də heyrətinə səbəb oldu. Qala üzərinə hücum günortaya qədər davam etdi. Osmanlı qüvvələri göstərdikləri bütün cəhdlərə baxmayaraq, ümidində olduqları nəticəyə yetişə bilmədilər. Onlar itki verərək geri qayıtdılar. Lakin Osmanlı qüvvələri heç də döyüşdən çıxmadılar. Osmanlı sərdarlarının və əmirlərinin fikrincə, günortaya qədər davam edən döyüşdən sonra qala müdafiəçiləri yorularaq əldən düşmüşdülər. Onların fikrincə, qala üzərinə hücumu yenidən bərpa etməklə öz niyyətlərinə çata bilərdilər. Nəticədə Osmanlı qüvvələri bir daha böyük qüvvələri cəlb etməklə qala divarları üzərinə hücuma başladılar. Qala müdafiəçiləri ağır döyüşdən sonra xeyli yorulsalar da hələ öz mövqelərindən geri çəkilməmişdilər. Osmanlı qüvvələri yenidən hücuma başlayanda onlar öz döyüş mövqelərində idilər. Ona görə də onlar qısa müddət ərzində toparlana bildilər və Osmanlı qüvvələrinin hücumuna qarşı güclü müqavimət göstərdilər. Osmanlı qoşunları rəhbərliyinin bütün cəhdlərinə və fədakarlıqlarına baxmayaraq İrəvan müdafiəçilərinin iradəsini qırmaq mümkün olmadı. Osmanlı qüvvələri bir daha böyük itkilər verərək yenidən geri çəkilməli oldular (73).

"Rövzətüs-Səfəviyyə" əsərinin müəllifi də İrəvan qalası üzərinə təşkil edilmiş bu hücumun güclü bir hücum olduğunu yazırdı. O bildirirdi ki, Osmanlı sərdarı Məhəmməd paşa bütün toplardan qala divarları üzərinə atəş açılmasını əmr verməklə bərabər, qoşunları da qala divarları üzərinə istiqamətləndirildi. Onun əmri ilə

90 min nəfərlik qoşun dəstəsi hər biri 30 min nəfərdən ibarət olan üç böyük dəstəyə bölündü. Bu dəstələr ayrı-ayrılıqda İrəvan qalası üzərinə hücuma keçdi. Məhəmməd paşa bütün gücünü İrəvan qalasının zəif nöqtəsinə yönəltməyi lazım bildi. Topların aramsız atəşlərindən sonra dağılmağa məruz qalmış qala divarları hücum obyektinə çevrildi. Toplardan əlavə 10 min tüfəngçi də qala divarlarını atəşə tutdu. Bu hücum nə qədər ağır olsa belə, qala müdafiəçiləri öz mövqelərini təhvil vermədilər. Əksinə, onlar da hücumda olan Osmanlı döyüşçülərini atəşə tutdular və onlara qarşı müqaviməti planlı şəkildə gücləndirdilər. Osmanlı dəstəsi itkilər verib əldən düşəndə ardınca 30 min nəfərlik digər qoşun dəstəsi irəli atıldı. Qala müdafiəçiləri ikinci dəstənin hücumunu da mərdanəliklə qarşıladı. Qala divarlar üzərində yerləşdirilmiş olan tüfəngçilərin və zənburəklərin, habelə qala toplarının sərrast atəşləri Osmanlı qoşunlarının ikinci dəstəsinin də bütün cəhdlərini nəticəsiz qoydu. Nəhayət, Osmanlı qoşunlarının üçüncü dəstəsi də irəli atıldı. Qala müdafiəçiləri malik olduqları əlverişli mövqelərin üstünlüklərindən bəhrələnməklə sonsuz fədakarlıqlar göstərdilər, Osmanlı qüvvələrinin yaxınlaşmasına imkan vermədilər. Osmanlı qüvvələrindən fərqli olan və xaricdən kömək ala bilməyən qala müdafiəçiləri bütün güclərini ortaya qoydular. Onlar hətta fürsət taparaq qala xaricinə çıxa və açıq meydanda Osmanlı dəstəsi üzərinə hücum edə bildilər. Adı çəkilən mənbədə olan məlumata görə, döyüş günün sonuna qədər davam etdi və bu döyüşdə Osmanlı qüvvələrini 40 min adam itirdilər (74).

Qızılbaş qüvvələri yalnız qala ətrafında deyil, qaladan kənarda da Osmanlı qüvvələrinə qarşı döyüşlərdə təşəbbüsü öz əllərinə ala bilmişdilər. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas yanında olan qoşunları bir neçə dəstəyə bölərək Osmanlı qoşunlarını dövrəyə almışdı. Bu qüvvələr də fürsət yaranan kimi Osmanlı qoşunları ilə döyüşə girir və onlara xeyli itki yetirirdilər. Şah Abbas istəyirdi ki, Osmanlı qüvvələrinə itkilər yetirməklə bərabər, həm də onların diqqətini cəlb etsin, onların bir yerə toplanaraq rahat şəkildə bütün qüvvə ilə İrəvan qalası üzərinə hücuma keçməsinə imkan vermə-

sin. Qızılbaş dəstələrinin rəhbərləri bu vəzifənin öhdəsindən məharətlə gəlirdilər. Onlar da davamlı şəkildə Osmanlı qüvvələri üzərinə hücumlar təşkil edir və onlara müəyyən itkilər yetirirdilər. Belə döyüşlərdən birini İmamqulu xanın rəhbərliyi altında olan dəstə həyata keçirdi. Bu dəstə Osmanlı qüvvələri tərəfindən ərzaq toplanması üçün Naxçıvan yolu istiqamətinə göndərilmiş dəstəyə qarşı döyüşə girdi. İsgəndər bəy Münşinin yazdığına görə, Osmanlı dəstəsi kifayət qədər böyük bir dəstə idi. Bu dəstədə yalnız öldürülənlərin sayının 1500 nəfərə qədər olduğu bildirilir. Osmanlı dəstəsi qaladan bir qədər aralanıb yola çıxanda İmamqulu bəy həmin dəstənin üzərinə hərəkət etdi. Tərəflər arasında xeyli gərgin bir döyüş keçdi və qızılbaş döyüşçüləri Osmanlı dəstəsinin iradəsini qıra bildi. Həmin döyüş nəticəsində xeyli sayda yük və minik heyvanları da ələ keçirildi (75).

Qala kənarında Osmanlı qüvvələrinə qarşı aparılan başqa bir böyük döyüşün isə İmamqulu xanın rəhbərliyi altında baş verdiyi bildirilir. Qeyd olunur ki, bu zaman İmamqulu xan və onun dəstəsi Körpüçay adlanan bir çayın kənarında dayanmışdı. Təbrizdən köməyə gəlmiş Kəlbəli bəy Şamlı və onun dəstəsi, habelə İmamqulu xanın köməyinə verilmiş Həsən xanla Gəncəli xanın rəhbərliyi altında olan qoşun dəstəsi də həmin məkanda idi. Ola bilsin ki, Osmanlı sərdarları həmin qüvvələri qızılbaş qoşunlarının əsas qüvvələri kimi qəbul etmişdilər və ona görə də həmin qüvvələrin üzərinə hücum çəkdilər. Osmanlı sərdarları bu döyüşə çox böyük bir qüvvə cəlb etdilər və həmin qüvvələr 40 min nəfərdən az deyildi. Osmanlı qüvvələri hələ hərəkətə başlamazdan əvvəl Qərçəqay xanın qarovulları bu barədə İmamqulu xana xəbər çatdırdılar. İmamqulu xan da bütün qoşun əmirlərinə başlanan Osmanlı hücumu haqqında məlumat çatdırdı və onlara uyğun tapşırıqlar verdi. Qızılbaş əmirləri dayandıqları məkanın şəraitini dəyərləndirdikdən sonra qoşun dəstələrinin yerini döyüş üçün daha münasib olan bir yerə dəyişdirdilər. Dərhal da Osmanlı qoşunlarının hücumunun qarşısının alınması üçün bütün dəstələr döyüş vəziyyətinə gətirildi. Osmanlı qoşunlarının yaxınlaşması müşahidə edilən

kimi, qızılbaş qüvvələrinin çərxçiləri, o cümlədən Kirman hakimi Gəncəli xanın və İmamqulu xanın vəkili Bəyverdi bəyin rəhbərliyi altında olan çərxçilər irəli atıldılar. Elə ilk qarşılaşmada qızılbaş döyüşçüləri fədakarlıq və şücaət nümayiş etdirdilər. Amma tezliklə Osmanlı qoşunlarının əsas qüvvələri döyüş meydanına daxil oldular. Dəstəsi ilə irəli çıxmış Gəncəli xan əlavə itkilərdən qaçmaq üçün geri çəkilməyi məqsədəuyğun saydı. O, dağ ətəklərində özünə yeni döyüş mövqeyi tutdu və həm də orada əsas qüvvələrlə birləşdi. Bəyverdi bəy isə geri çəkilməyi lazım bilmədi və Osmanlı qüvvələri ilə döyüşü davam etdirdi. Bəyverdi bəyin döyüşü çox da uzun sürmədi. O, müəyyən itki verəndən sonra geri çəkildi və qızılbaş qoşunlarının əsas qüvvələrinə birləşdi. Bununla elə döyüş də başa çatdı. Osmanlı sərdarları döyüşü uzatmadan geri çəkildilər və döyüş meydanından uzaqlaşdılar (76).

"Rövzətüs-Səfəviyyə" əsərində bu döyüşün gedişi bir qədər fərqli şəkildə təsvir edilmişdir. Bildirilir ki, İmamqulu xanın dəstəsi üzərinə Osmanlı qoşunlarının hücum edəcəyi haqqında məlumat alınmışdı. Şah Abbas bu hücumun qarşısının uğurla alınması üçün Kirman hakimi Gəncəli xanı dəstəsi ilə birlikdə İmamqulu xanın köməyinə göndərdi. İmamqulu xan və Gəncəli xan dayandıqları məkanın müşahidə etdikdə sonra bir qədər geri çəkilməyi, dağ ətəklərinə sığınmaqla döyüşə girməyi məqsədəuyğun bildilər. Bu zaman Bəyverdi bəy etiraz etdi və yaxınlaşmaqda olan Osmanlı qüvvələrinə qarşı arxa çevirməyi igidlikdən kənar bir iş kimi dəyərləndirdi. Nəticədə, qızılbaş qüvvələri dayandıqları məkanda da Osmanlı qüvvələri ilə döyüşə girməyi qərara aldılar. Lakin döyüş heç də qızılbaş qüvvələri üçün uğurlu başlamadı. Elə döyüşün əvvəlində Bəyverdi bəy öldürüldü. Onunla birlikdə bir xeyli döyüşçü də dünyasını dəyişdi. İmamqulu xan vəziyyəti dəyərləndirdikdən sonra geri çəkilməyi və daha əlverişli mövqe tutmaqla döyüşü davam etdirməyi lazım bildi. Bildirilir ki, həmin ərazidə əlverişli mövqedə yerləşmiş olan lur və Kuh-Giləviyyə tüfəngçilərinin sərrast atəşləri ilə Osmanlı qüvvələrinə xeyli itki yetirmək və onları geri çəkilməyə məcbur etmək mümkün oldu (77).

Ümumiyyətlə, qala kənarında qalmış qızılbaş qüvvələri ilə Osmanlı qoşunları arasında xeyli sayda məhəlli döyüşlər olmuşdu. İsgəndər bəy Münşinin əsərində bu döyüşlərin bir neçəsinin təsviri verilmişdir. Bir daha qeyd edilməlidir ki, bu döyüşlərin baş verməsi Şah Abbasın seçdiyi taktikaya uyğun idi. Səfəvi şahı Osmanlı qoşunlarını əhatəyə alaraq davamlı şəkildə onların üzərinə sürətli hücumlar təşkil edirdi. Bu hücumlar isə Osmanlı qüvvələrinə itkilər yetirməklə onları gücdən salırdı. Həmin taktika uğurla seçilmiş bir taktika idi və bu taktikanın nəticəsində sədr-əzəm Məhəmməd paşanın rəhbərliyi altında olan Osmanlı qüvvələrinə çox ağır bir zərbə vuruldu.

Sədr-əzəm Məhəmməd paşa göstərdiyi bütün cəhdlərə baxmayaraq İrəvan ətrafında qızılbaş qüvvələrinə qarşı yeni başlanan döyüşdə hərbi təşəbbüsü öz əlinə ala bilmədi. O, malik olduğu qüvvə üstünlüyündən də faydalana bilmədi. Bir tərəfdən qala divarları ətəklərinə verilən böyük itkilər, digər tərəfdən də qala kənarında Şah Abbasın rəhbərliyi altında olan qoşunlar tərəfindən vurulan zərbə Osmanlı qoşunlarını əldən saldı. Ciddi ərzaq çətinliklərinin özünü göstərməsi, havaların soyumağa doğru getməsi Məhəmməd paşanın qələbəyə bağlanılan ümidlərini puça çevirdi. O yaxşı anlayırdı ki, vaxtın itirilməsi, İrəvan qalası ətrafında ləngimə daha fəlakətli nəticələrə gətirib çıxara bilər. Ona görə də sədr-əzəm Məhəmməd paşa döyüşləri dayandırmağı və Şah Abbasla anlaşma yolu tapmağı qərarlaşdırdı. Bu məqsədlə o, Xəlil ağa adlı birisini şah düşərgəsinə göndərdi və onun vasitəsilə Səfəvi dövlətini Nəsuh paşa tərəfindən əldə edilmiş anlaşmaya riayət etməməsində ittihamlandırmağa çalışdı (78).

Şah Abbas Osmanlı sərdarının bu fikri ilə razılaşmadı və Nəsuh paşa ilə Qazi xan arasında əldə edilmiş anlaşmanın pozulmasında Osmanlı ittihamlarını qəbul etmədiyini bildirdi. Şah Abbas Osmanlı elçisinə öz fikrini belə çatdırdı: “Bizim tərəfimizdən əhd-peymana müxalif olan heç bir iş baş verməmiş və sülh şərtlərinə əməl olunmuşdur. Rumilər isə sazişi pozaraq, tamamilə sönmüş olan fitnə atəşini [yenidən] alovlandırdılar. Bu yürüş zamanı in-

sanların qanının axıdılmasından başqa, dünya və axirət padşahlarından bu dövlətə hansı mənfəət yetişdi? Bir halda ki, siz halhazırda səhvinizin islah olunması məqamına gəlmisiniz, bizim fəqət bircə sözümüz vardır. Əgər sülh barədə sizin başqa sözünüz vardırsa buyurun deyin. Nəsuh paşa həyatda yoxdursa da, Qazi xan hələ sağdır. Sizinlə birgə olan paşalarınızdan Dilavər paşa, Baqi paşa və Hafiz Əhməd paşanın bu işlərdən xəbərləri vardır. Tərəflərin etimad sahibləri olan adamları tərəfindən müəyyənləşdirilmiş və möhürlənmiş Azərbaycan sərhədlərinə aid sənəd mövcuddur. Əgər məsləhət bilsələr, biz Qazi xanı həmin paşalarla danışıq aparmaq üçün göndərərik" (79).

Osmanlı elçisinin gəlməsinin ardınca Şah Abbas da öz nümayəndəsini sədr-əzəm Məhəmməd paşanın yanına göndərdi və Nəsuh paşa ilə əldə edilmiş sülh anlaşmasının oxşarının təkrar qəbul edilməsinə razı olduğunu bildirdi. Yəni Şah Abbas bir daha belə bir tələb irəli sürdü ki, Səfəvi hüdudları bərpa edilsin. Belə bir anlaşmanın razılaşdırılması üçün Şah Abbas tərəfindən Qazi xanın yenidən Ərzruma göndəriləcəyi bildirildi. Bu xəbər Məhəmməd paşaya çatdırıldı. Məhəmməd paşa bu xəbəri məmnunluqla qəbul etdi və Şah Abbasın bu vədini döyüşlərin dayandırılmasına bir əsas kimi qəbul etdi. Nəticədə təxminən iki ay davam edən İrəvan mühasirəsindən sonra Məhəmməd paşa 1616-cı il noyabr ayının 5-də bu mühasirəni dayandıraraq geri çəkilməyə başladı. Bundan əvvəl isə o, İrəvan hakimi Əmirgünə xana xəbər göndərərək Şah Abbasla əldə edilmiş razılaşmadan sonra İrəvanın mühasirəsini dayandırdığını bildirdi. Osmanlı qoşunları Qars qalasına çatanda Məhəmməd paşa hərəkətin yüngülləşdirilməsi üçün qoşunlardakı topların bir hissəsini orada saxlatdırdı. Sonra isə qoşunlar Ərzruma doğru hərəkəti davam etdirdi (80).

Osmanlı qoşunları dərhal hərəkətə başladılar və Şah Abbasın elçisi olan Qazi xan Osmanlı qoşunlarına İrəvandan geri çəkildikləri vaxt qoşula bildi. Onun gəlişi Osmanlı qoşunlarında xoşluqla qarşılandı. Güman edilirdi ki, Qazi xanın Osmanlı qoşunları tərkibində olduğu üçün hərəkət zamanı daha qızılbaş dəstələrinin tə-

qibi baş verməyəcəkdir. "Rövzətüs-Səfəviyyə" əsərindəki məlumata görə, Osmanlı qoşunları geri çəkilərkən sədr-əzəm Məhəmməd paşanın İrəvan qalasının mühasirəsinin nəticələri ilə bağlı Osmanlı sultanına yazdığı məktub qızılbaş döyüşçülərindən birinin əlinə keçdi. Həmin məktubdakı məlumata görə, İrəvan qalası üzərinə yürüş zamanı Osmanlı qoşunlarını ümumi itkisi 50 min nəfərə çatmışdı. Adı çəkilən əsərdə o da qeyd olunur ki, Osmanlı qoşunları tez-tələsik geri çəkilməli olduqlarından onların xeyli sayda mal-mülkü qızılbaş döyüşçülərinin əlinə keçdi (81).

İsgəndər bəy Münşi isə Osmanlı qoşunlarında dünyasını dəyişənlərin sayının 40 min nəfər olduğunu göstərmişdir. Onların arasında xəstələnərək ölənlərin də az olmadığı bildirilirdi. Yük və minik heyvanları arasında da çoxlu sayda tələfat var idi. Sağ qalan minik və yük heyvanları o dərəcədə əldən düşmüşdülər ki, onlar yük daşımaq gücündə deyildilər. Ona görə idi ki, böyük sayda Osmanlı döyüşçüləri öz yüklərini, çadırlarını yolda ataraq piyada getməli olurdular. Osmanlı qoşunlarının geri çəkilən hissəsinin az qala yarısı yük və minik heyvanlarından məhrum olduqları üçün piyada hərəkət etmək məcburiyyətində qalmışdılar. Belə bir vəziyyətdə sədr-əzəm Məhəmməd paşa tərəflər arasında sülh anlaşmasının əldə edilməsinə razılıq verilmişdi. Ərzrum şəhərində Qazi xanla onun arasında müzakirələr baş tutdu. Qərara alındı ki, II İstanbul anlaşması oxşarında yeni anlaşma qəbul edilsin. Bəzi məlumatlara görə, yeni anlaşmadakı fərq yalnız Səfəvi dövləti tərəfindən Osmanlı dövlətinə verilməli olan ipəyin miqdarının iki yüzdən yüz taya endirilməsi idi. Anlaşma razılaşdırıldıqdan sonra onun haqqında məlumat çatdırmaq üçün sədr-əzəm Məhəmməd paşa İstanbula, Qazi xan isə şah düşərgəsinə yola düşdü (82).

Osmanlı qoşunları geri çəkilməyə başlayandan sonra Şah Abbas İrəvan qalasına yollandı. O, bölgədə olmasından istifadə edərək İrəvan qalasını görməyi, bu qalanın müdafiə imkanlarını nəzərdən keçirməyi qərara aldı. Şah Abbas İrəvan qalasını yaxından müşahidə etdi, bu qalanın Osmanlı qüvvələrindən uğurla müdafiə olunmasında xüsusi xidmətlər göstərmiş qızılbaş əmirlərinin, o

cümlədən İrəvan hakimi Əmirgünə xanın fədakarlıqlarını yüksək qiymətləndirdi. Şah Abbas göstərdiyi şücaətə və qəhrəmanlıqlara görə Əmirgünə xana “Sarı Aslan” ləqəbi verdi (83).

Bu məlumatı verən İsgəndər bəy Münşi sonra qızılbaş qoşunları ilə Osmanlı qoşunlarının qala döyüşləri aparmaq məharətini müqayisə edirdi. İsgəndər bəy Münşi Osmanlı qoşunlarını bölgənin və Avropanın ən qüdrətli qoşunlarından biri hesab edirdi. Bu qüdrətin nümayişi kimi Osmanlı qoşunları Konstantinopol kimi əzəmətli bir qalanı fəth edə bilmişdilər. Osmanlı qüvvələri Avropanın da bir sıra əfsanəvi qalalarını fəth etmişdilər. Bu qüvvələr yalnız qala fəthində deyil, həmçinin möhkəm qalaların tikilməsində, qala müdafiəsinin etibarlı şəkildə qurulmasında da böyük təcrübəyə malik idilər. İsgəndər bəy bununla ona işarə edirdi ki, dünya əzəmətinə malik olan Osmanlı qoşunları İrəvan qalasının fəthində aciz qaldılar. Bu qalanın müdafiəsinin düzgün qurulması, Şah Abbas tərəfindən vəziyyət uyğun daha səmərəli taktikanın seçilməsi nəticəsində Osmanlı qoşunları böyük üstünlüyə baxmayaraq İrəvan qalasını qızılbaş qüvvələrinin əlindən ala bilmədilər. İsgəndər bəy Münşinin fikrincə, Şah Abbasın hakimiyyəti dövründə qızılbaş qüvvələri qala döyüşlərində daha yaxşı məharət göstərirdilər. Sözlərinin təsdiqi kimi, o, Gəncə, Şamaxı, Dərbənd və Tiflis kimi möhkəm qalaların ələ keçirilməsinə işarə edirdi. Konkret olaraq İrəvan qalasına gəlincə, İsgəndər bəy Münşi qeyd edirdi ki, qızılbaş qüvvələri on aydan da artıq bir müddətdə bu qalanı etibarlı şəkildə müdafiə etdilər və sayı yüz mindən artıq olan Osmanlı qüvvələrinə heç bir şans vermədilər (84).

İrəvan qalasının müşahidəsindən sonra Şah Abbas Qarabağa doğru üz tutdu. Naxçıvan ətrafında o, Osmanlı qoşunlarına qarşı döyüşlərə cəlb edilmiş qüvvələrin sıra baxışını keçirdi, qoşun başçıları ilə söhbət etdi, onların qayğıları ilə maraqlandı. Ondan sonra Şah Abbas bir çox əmirlərə  qoşunları ilə öz vilayətlərinə qayıtmaq icazəsi verdi. Şah Abbas özü isə bölgəni tərk etmədi. O, Gürcüstanda itaətsizlik yolundan hələ də dönməmiş bəzi əmirlərin və əyanların cəzalandırılması və Gürcüstan məsələsinin bir dəfəlik

həll edilməsi üçün havaların qızması ilə yenidən bu bölgəyə hərəkət etmək niyyətində idi. Bu məqsədlə Şah Abbas və onun yanında olan qoşun dəstəsi Gürcüstan hüdudlarına yaxın olan Donqi səhrasına gəldi. Şah Abbas qışı burada keçirməyi qərara almışdı. Osmanlı dövləti ilə yeni bir anlaşmanın razılaşdırılması üçün Ərzruma göndərilmiş Qazi xan Donqi səhrasında Şah Abbasın hüzurunda oldu və gördüyü iş barəsinə ona məlumat verdi. Qazi xanın iştirakı ilə əldə edilmiş yeni razılaşmanın şərtləri Şah Abbası razı saldı. Lakin o, Osmanlı sarayının bu şərtləri qəbul edəcəyinə və sonra da bu şərtlərə riayət edəcəyinə şübhə ilə yanaşdı. Ona görə də Şah Abbas Osmanlı qoşunlarının yeni hücumlarına qarşı ehtiyatı əldən verməməyi və belə hücumların qarşısının alınmasına hazır olmağı lazım bildi (85).

Şah Abbasın iki dövlət arasında yeni əldə edilmiş anlaşmaya riayət ediləcəyinə şübhə ilə yanaşması heç də əbəs deyildi. Çünki doğrudan da, Osmanlı sarayı sədr-əzəm Məhəmməd paşa tərəfindən razılaşdırılan yeni anlaşmanın şərtlərini qəbul etmirdi. Məhəmməd paşa razılaşdırılmış yeni anlaşma ilə İstanbul sarayına yollandı və anlaşma haqqında Sultan I Əhmədə məlumat verdi. Çox böyük qoşun dəstəsi və çox böyük xərclərlə İrəvan qalası üzərinə yürüş etməsinə baxmayaraq Məhəmməd paşanın tapşırılan nəticəni əldə edə bilməməsi, çox böyük sayda itkilərə yol verməsi saray mənsublarını və elə Osmanlı sultanının özünü də razı salmırdı. Saray mənsubları öz narazılıqlarını sultana çatdırmaqla onda Məhəmməd paşaya qarşı mənfi fikir də formalaşdıra bilmişdilər. Ona görə Osmanlı sultanı bir tərəfdən əldə edilmiş yeni razılaşmanı təsdiqləmədi, digər tərəfdən də Məhəmməd paşanı sədr-əzəm vəzifəsindən azad etdi. 1616-cı il noyabr ayının ortalarında Osmanlı dövlətinin sədr-əzəmi vəzifəsinə Xəlil paşa təyin edildi. Ona eyni zamanda Səfəvi hüdudlarına yenidən başlanacaq yürüşün sərdarı vəzifəsi həvalə olundu. Xəlil paşa da 1616-17- ci ilin qışında bu yürüşə hazırlıq işləri ilə məşğul oldu. O, Səfəvi hüdudlarına yeni yürüşü Krım qoşunları ilə birlikdə həyata keçirməli idi. Krım qoşunlarının da bu yürüşə hazırlaşdırılması üçün Krım

xanı Canıbəy Gəraya də lazım olan göstəriş və təlimat göndərildi (85).

### 3. Qərçəqay xanın rəhbərliyi altında olan qızılbaş dəstələrinin Osmanlı hüdudlarına hücumu

Xəlil paşanın Səfəvi hüdudlarına yeni yürüş üçün hazırlıqları xeyli uzandı və ona görə də bu yürüşü 1617-ci ildə həyata keçirmək mümkün olmadı. 1617-ci il ərzində Şah Abbasın rəhbərliyi altında qızılbaş qüvvələrinin Gürcüstan üzərinə yeni bir yürüşü oldu və eyni zamanda Şah Abbasın göstərişi ilə Qərçəqay xanın rəhbərliyi altında olan qızılbaş dəstələrinin Osmanlı hüdudlarına hücumu baş verdi. Şübhə etmək olmazdı ki, gürcü əmir və əyanlarının yenidən fəallaşması Səfəvi hüdudlarına yeni bir Osmanlı yürüşünün hazırlanması haqqında yayılan xəbərlərlə bağlı idi. Şah Abbasın rəhbərliyi altında Kaxet üzərinə son hücum zamanı Səfəvi dövlətinə qarşı müxalifətdə olan qüvvələrə ağır zərbə vurulsa da, onlar tamamilə zərərsizləşdirilməmişdi. Şah Abbas da bölgədə olmasından istifadə edərək bu qüvvələrin bütünlüklə zərərsizləşdirilməsini, Gürcüstanda şah hakimiyyətinin möhkəmləndirilməsini, Osmanlı qoşunlarının ehtimal oluna biləcək növbəti yürüşü ərəfəsində Gürcüstan istiqamətindən zərbə ehtimalının qarşısının alınmasını istəyirdi. Ona görə də Şah Abbas 1616-cı ilin son və 1617-ci ilin ilk aylarını Gürcüstan sərhədinin yaxınlıqlarında olan Donqi qışlağında keçirdi. Burada olarkən Şah Abbas məlumat aldı ki, Kaxet vilayətində artıq yeni bir itaətsizlik halı özünü göstərməkdədir. Bir sıra gürcü əyan və əmirləri bölgəyə səpələnmiş olan gürcü silahlılarını bir yerə toplayaraq şah hakimiyyətinə qarşı çıxmaq yolunu tutmuşdular. İsgəndər bəy Münşinin yazdığına görə, bu qüvvələr həm də bölgə məntəqələrinə basqınlar edir, əhalini var-yoxdan çıxarırdılar. Bu özbaşınalıqların qarşının alınması üçün Şah Abbas dayandığı Donqi qışlağından Kaxet istiqamətinə bir qızılbaş dəstəsi göndərdi. İsa xan Qorçubaşı tərəfindən rəhbərlik edilən həmin dəstəyə qorçular, qulamlar və tüfəngçilər daxil

idi. İsa xan itaətsizlik yolunu tutmuş qüvvələrin toplaşdığı məntəqəyə yollandı, orada-burada toplaşmış olan bəzi dəstələrə ağır zərbə endirdi. Sonra isə qızılbaş dəstəsi itaətsizlik yolunu tutmuş qüvvələrin rəhbərlərinin cəmləşdiyi məkana istiqamət götürdü. Bu məkan dağlıq və çətin keçilən bir ərazidə idi və ona görə də qızılbaş dəstəsi böyük bir çətinliklə həmin məntəqəyə gəlib çıxa bildi. Amma qızılbaşlar gürcü qiyamçılarına qarşı bu hücumda bir tələsgənliyə də yol verdilər. Bu da tapşırılan vəzifənin bütünlüklə icrasını mümkünsüz etdi. Belə ki, gürcü qiyamçıları qızılbaşların yaxınlaşmasını görüncə qadınları və uşaqları dağlardan keçməklə Dağıstan istiqamətinə göndərdilər. Onlar qadın və uşaqların təhlükəsiz yerə çatmasına əmin olduqdan sonra özləri münasib yerlərdə döyüş mövqeyi tutdular və qızılbaş döyüşçülərini sürəkli atəşlərlə qarşıladılar. Nəticədə bir neçə qızılbaş əmiri qətlə yetirildi. İrəliləmək isə qızılbaşlar üçün mümkün olmadı. Havanın qaralması da onların fəaliyyətini bir qədər məhdudlaşdırdı. Belə olanda onlar geri çəkilməli oldular. Qiyama rəhbərlik edən gürcülər isə həyatlarını qurtara bildilər. Bununla belə, qızılbaşlar çoxlu sayda gürcü əsirləri ələ keçirdilər. Havalar hələ yaxşı qızmadığından və yollar qarla örtülü olduğundan qiyam qaldırmış gürcülər və onları dəstəkləyən adamlar qaçıb canlarını qurtara bilmədilər və qızılbaşlar tərəfindən əsir götürüldülər (87).

1617-ci ilin əvvəllərində qızılbaş qoşunlarının əldə etdiyi uğurlardan biri də Gürcüstan ərazisində olan Qurlanquç qalasının fəthi idi. Qoşunlar hələ Donqi səhrasında qışlaqda olduqları vaxt bir dəstə gürcünün həmin qalaya çəkilərək şah hakimiyyətindən üz döndərmələri barəsində məlumat çatmışdı. Şah Abbas qızılbaş dəstələrindən birini də həmin qala üzərinə göndərməyi lazım bildi. Bu qala çox güclü müdafiə imkanlarına malik olan bir qala idi və hündür və sıldırım qayalardan birinin üstündə tikilmişdi. Bu qalaya kənarlardan hücum etmək mümkün deyildi və ona yalnız bir giriş var idi ki, həmin giriş də etibarlı şəkildə qorunurdu. Amma qala daxilindəki gürcülər yaxınlaşmaqda olan qızılbaşların döyüşgənliyindən və qala almaq məharətindən qorxaraq təslim ol-

maq qərarına gəldilər. Onlar Kartli hakimi Boqrat xandan xahiş etdilər ki, vasitəçilik etsin və onların toxunulmazlığı haqqında Şah Abbasdan təminat alsın. Şah Abbas qala sakinlərinin xahişini qəbul etdi və qalanı könüllü şəkildə təhvil verdikləri üçün onların həyatlarına toxunmadı. Qurlanquç qalasının mühafizəsi qızılbaş dəstəsinə tapşırıldı və bununla Şah Abbasın Gürcüstan üzərinə daha bir yürüşü sona çatdı. Bu yürüşün başa çatması 1617-ci ilin yay aylarına təsadüf edirdi. Şah Abbas qoşunla Tiflisə gəldi və oradan da yenidən Göyçə yaylaqlarına yollandı (88).

Göyçə gölü ətrafındakı yaylaqlarda olarkən Şah Abbas Osmanlı sarayında cərəyan edənlərdən, Məhəmməd paşanın sədrəzəm vəzifəsindən azad edilməsindən, onun yerinə təyin edilmiş Xəlil paşanın isə Səfəvi hüdudlarına növbəti yürüş üçün artıq hərəkətə başlamasından xəbər tutdu. Mövcud olan faktlar da onu göstərir ki, Xəlil paşa yürüş hazırlıqlarına başlamaq üçün 1617-ci il iyun ayının 13-də İstanbuldan Üsküdara gəldi və burada hazırlıq işlərini davam etdirdi. Xəlil paşa qərara almışdı ki, qoşunlarla hərəkətə gəlib Diyarbəkrə gəlsin və qışı orada keçirsin. Yaz havalarının istiləşməyə başlaması ilə Səfəvi hüdudlarına növbəti yürüş həyata keçirilsin. Xəlil paşa Üsküdarda iyirmi gün qaldı və sonra İzmitə doğru yolunu davam etdirdi (89).

Şah Abbas iki dövlət arasında yeni bir anlaşmanın imzalanacağına ehtiyatla yanaşırdı. Ona görə də belə bir xəbərin alınması ona elə də təəccüblü görünmədi. Şah Abbas Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hərbi yürüşünə çətinliklər yaratmaq üçün öncədən konkret tədbirlər həyata keçirilməsini lazım bildi. Yəni o, Osmanlı qoşunlarına qarşı önləyici bir taktika seçdi. Şah Abbas dərhal Osmanlı qoşunlarının keçməli olacaqları Ərzrum və Vanın hücuma məruz qoyulması, bu vilayətlərin yollarının dağıdılması, ərzaq ehtiyatlarının məhv edilməsi üçün qoşun dəstəsi göndərilməsini lazım bildi. Bunun üçün xüsusi bir qoşun dəstəsi təşkil edildi və Qərçəqay xan həmin dəstənin rəhbəri təyin edildi. Nəzərdə tutulan planın uğurla həyata keçirilməsi Osmanlı qoşunlarının Səfəvi hüdudlarına doğru irəliləməsini xeyli çətinləşdirə

bilərdi. Ona görə də bu dəstəyə rəhbərik Qərçəqay xan kimi təcrübəli bir sərkərdəyə tapşırıldı. Qərçəqay xan hərəkətə başlamazdan əvvəl Şah Abbas Göyçə gölü kənarında onun dəstəsinə sıra baxışı keçirdi, bu dəstənin hazırlıq səviyyəsi ilə əyani şəkildə tanış oldu. Qərçəqay xanın Ərzruma tərəf hərəkətə başlamasından sonra Şah Abbas Araz çayı kənarına gəldi, çayı adlayaraq Kəskər yolu ilə Əhərə yollandı. Onun məqsədi burada dövrünün tanınmış müqəddəslərindən olan Şeyx Şəhabəddin Əhərinin məzarını ziyarət etmək idi. Bu məqsədinə yetişdikdən sonra Şah Abbas Ərdəbilə yollanmaq və ulu əcdadlarının, Səfəvi şeyxlərinin məzarlarını ziyarət etmək fürsətini də əldən vermədi (90).

Qərçəqay xan isə döyüş tapşırığını alan kimi dərhal Ərzruma doğru istiqamət götürdü. O, heç yerdə uzunmüddətli istirahətə dayanmayaraq bir neçə gündən sonra özünü Ərzrum ətəklərinə çatdırdı. Ərzrum bəylərbəyi qızılbaş qoşun dəstəsinin hücum xəbərini alanda bütün gücünü və diqqətini qala daxilinə çəkilərək müdafiə olunmağa yönəltdi. Vilayətdəki Osmanlı qoşunlarından bir dəstə qala kənarında qızılbaş dəstəsinə müqavimət göstərmək istəsə də, bir nəticə alınmadı. Bundan sonra qızılbaş dəstəsi başqa bir müqavimətlə rastlaşmadan Ərzrum qalası ətəklərinə gəlib çatdı. Qərçəqay xan bir neçə gün orada dayandı, qızılbaş qüvvələrinə qarşı müqavimət göstərmək istəyən Osmanlı döyüşçüləri ya qətlə yetirildilər, ya da əsir götürüldülər. Qərçəqay xan ciddi bir müqavimətlə rastlaşmadığı üçün qızılbaş döyüşçülərini dəstə-dəstə ətraf məntəqələrə göndərdi. Onlara yolların dağıdılması, ərzaq və yem ehtiyatlarının toplanması və ya məhv edilməsi kimi vəzifələr tapşırıldı. Qızılbaş döyüşçüləri də bu tapşırıqları icra etdilər. Qısa zaman ərzində vilayət daxilində böyük dağıntılar törədildi, ərzaq və yem ehtiyatları məhv edildi (91).

Osmanlı sədr-əzəmi Xəlil paşa İzmitdə olarkən qızılbaş dəstəsinin Ərzrum üzərinə hücum etməsi xəbərini aldı. Osmanlı mənbələrində o da bildirilir ki, qızılbaş dəstəsi Ərzrum ətrafında yeniçəri ağası olan Hüseyn qızılbaş döyüşçülərinin bir dəstəsini pusquya saldı və məhv etdi. İsgəndər bəy Münşinin əsərində bu ba-

rədə hər hansı bir qeyd yoxdur. Əgər belə bir hal olsa belə, görünür, bu hadisə qızılbaş dəstəsinin fəaliyyətinə güclü təsir göstərəcək bir hadisə deyildi. Hətta belə bir xəbəri alandan sonra Xəlil paşanın qızılbaş dəstəsinin hücumunun qarşısının alınması ilə bağlı hər hansı bir qərar qəbul etməsi haqqında məlumat verilmir (92). Görünür, Xəlil paşanı qayğılandıran daha ciddi məsələlər var idi.

Ərzrum vilayətində öz işini bitmiş hesab edəndən sonra Qərçəqay xan Van vilayətinə istiqamət götürdü. Bu vilayət də Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hərəkət marşrutu üzərində yerləşirdi. Van bəylərbəyi Təkəli paşa adı ilə məşhur olan Məhəmməd paşa həm qoşunlarının çoxluğu, həm hərbi və döyüş təcrübəsi və həm də məqamının yüksəkliyi etibarilə digər paşalardan fərqlənirdi. O, qorxmaz bir paşa kimi ad çıxarmışdı. Bir il əvvəl Səkmas yaxınlığında Təbriz hakimi Pir Budaq xana üstün gələndən və onu qətlə yetirəndən sonra Məhəmməd paşanın şöhrəti daha da artmışdı. Pir Budaq xan üzərində əldə etdiyi qələbədən sonra Məhəmməd paşanın özünün də qüruru və özünə arxayınçılığı xeyli çoxalmışdı. Qızılbaş dəstəsində də Məhəmməd paşanın böyük döyüş imkanlarına malik olması haqqında məlumat əldə edilmişdi. Ona görə Qərçəqay xanın rəhbərliyi altında olan qızılbaş dəstəsindəki təcrübəli əmirlər və ağsaqqallar Məhəmməd paşa ilə döyüşə girməyə bir qədər ehtiyatla yanaşırdılar. Sözsüz ki, ilk növbədə Məhəmməd paşanın böyük hərbi gücə malik olması nəzərə alınırdı. Sonra da belə bir məqama diqqət yetirilirdi ki, Qərçəqay xanın rəhbərliyi altında olan qoşun dəstəsi artıq Ərzrum vilayətində döyüşlərə qatılıb, döyüşçülər və onların atları müəyyən qədər yorulublar. Məhəmməd paşanın qoşun dəstəsi hələ yorğunluqdan uzaq idi. Bu mənada dəstələr arasında bir fərq mövcud idi. Bu məqamı nəzərə almadan döyüşə girilməsi qızılbaş dəstəsini ağır vəziyyətə sala bilərdi. Bu dəstəsinin təcrübəli əmirləri nəhayət belə bir qərara gəldilər ki, qoşunun yorğun hissəsi Təbrizə qaytarılsın və onun əvəzində Təbrizdən daha gümrah olan bir dəstə gətirilsin və bundan sonra Van qoşunları üzərinə hücuma başlansın. Lakin elə

bu vaxt Məhəmməd paşa Təkəlinin ölüm xəbəri alındı və ona görə də Təbrizdən yeni qoşun dəstəsinin gətirilməsinə də ehtiyac qalmadı (93).

Qərçəqay xanın rəhbərliyi altında olan qoşun dəstəsinin Ərzrum vilayətinə hücum xəbəri alınanda Van bəylərbəyi Məhəmməd paşa da Təbriz üzərinə hücum etməyi və bu şəhəri talanlara məruz qoymağı qərar almışdı. Bu hücumun uğurla başa çatması Osmanlı hüdudlarına hücum etmiş Qərçəqay xanın vəziyyətini çətinləşdirə bilərdi. Məhəmməd paşa bölgədə məskunlaşmış olan kürd tayfa əmirlərini də bu hücuma cəlb etdi və Qərçəqay xanın başı Ərzrumda qarışdığı vaxt Məhəmməd paşa Təbriz istiqamətində hərəkətə başladı. Məhəmməd Təkəli paşa qoşun dəstəsi ilə Çaldıran yaxınlığında Qaradərə adlanan məkana çatanda Qərçəqay xanın Vana tərəf yürüşə başlaması haqqında məlumat aldı. Təkəli paşa və onun yanında olan dəstə rəhbərləri ondan da xəbər tutdular ki, Qərçəqay xanın dəstəsi Ərzrumda böyük dağıntılar törətdikdən sonra Van üzərinə hücuma başlamışlar. Təkəli paşanın dəstəsində olan kürd əmirləri bu xəbəri eşitdikdən sonra Təbriz üzərinə hücumu dayandırıb geri qayıtmaq qərarına gəldilər. Onlar şübhə etmirdilər ki, Qərçəqay xanın dəstəsi Van ətrafına yetişdikdən sonra mənsub olduqları kürd tayfaları da talanlara və hücumlara məruz qalacaqlar. Tayfa başçılarının yerində olmaması tayfa əhli arasında çaxnaşmanı və nizamsızlığı daha da artıra bilərdi. Kürd əmirləri belə bir fikirdə idilər ki, dərhal geri qayıtmaqla qızılbaş dəstəsi yetişənə qədər malik olduqları qalaları möhkəmlədə, tayfa əhlini öz ətraflarında səfərbər etməklə müqavimət təşkil edə bilərlər (94).

Əvvəlcə Bidlis hakimi Ziyaəddin xan icazəsiz olaraq öz dəstəsi ilə Təkəli paşanın dəstəsindən ayrıldı və geri qayıtdı. Onun ardınca isə hekari kürd tayfasının əmiri və sərdarı olan Zəkəriyya xanın oğlu Yəhya bəy də Təkəli paşadan ayrılmaq qərarına gəldi. O da öz dəstəsi ilə Təkəli paşanın dəstəsinə qatılmışdı. Təkəli paşa meydanda tək qalacağını görüb Yəhya bəyin geri qayıtmasına razılıq vermədi və çavuşlarından birini Yəhya bəyin yanına göndə-

rərək fikrini ona çatdırdı. Bu çavuş Yəhya bəyin yanında özünü kifayət qədər kobud apardı. Yəhya bəy öz ailəsini, tayfasını qorumaq istəyini daha vacib saydı və bir daha geri qayıtmaq əzmində olduğunu bəyan etdi. Belə olanda çavuş kobud sözlərlə onu söydü və hətta onu qılınca hədələdi. Əlini qılıncına atanda Yəhya bəyin adamları özlərini irəli atdılar və cahil sözlərinə və təhdidlərinə görə çavuşu qılıncla yaraladılar. Bu yaradan sonra çavuş tezliklə dünyasını dəyişdi. Təkəli paşa göndərdiyi çavuşun ölməsi xəbərindən son dərəcə qəzəbləndi. O, bir dəstə silahlını Yəhya bəyin ardınca göndərdi ki, onun tutub gətirsin. Bu dəstə deyilən yerə gələndə Yəhya bəy və onun dəstəsi artıq çıxıb getmişdi. Amma Yəhya bəy sonradan geri qayıtmaq fikrinə düşdü. Çünki o, Məhəmməd paşadan birdəfəlik uzaqlaşmağı da məqsədəuyğun saymadı. Görüşdükləri zaman Məhəmməd paşa yenidən öz qəzəbini ifadə etdi və o da əlini qılıncına apararaq Yəhya bəyi hədələdi. Bu görüşdə iştirak edənlərdən bəziləri Yəhya bəyin müdafiəsinə atıldılar və qılıncla Məhəmməd paşanı yaraladılar. Məhəmməd paşanın xidmətçiləri də Yəhya bəyi qılıncladılar. Yəhya bəy də yaralandı. Məhəmməd paşanın tərəfdarları ilə Yəhya bəyin tərəfdarları arasında əlbəyaxa qarşıdurma baş verdi. Bu qarşıdurmada bir neçə nəfər həyatlarını itirməli oldular. Məhəmməd paşa ilə Yəhya bəy də dünyalarını dəyişdilər. Onların ölməsi ilə qoşun dəstələri də başsız qaldı. Belə olanda Osmanlı döyüşçüləri arasında bir nizamsızlıq yarandı və onlar Təbriz istiqamətində hərəkəti dayandıraraq Vana tərəf üz tutdular. Kürd tayfalarını təmsil edən dəstələr də öz tayfalarının məskunlaşdığı ərazilərə qayıtdılar. Məhəmməd paşanın ölümü və Vanın qoşun dəstəsi arasında nizamsızlığın yaranması Qərçəqay xanın bu vilayət üzərinə hücumuna daha münasib bir şərait yaratdı. Qərçəqay xan yolda ikən Məhəmməd paşanın başına gələnlərdən xəbər tutdu. Onun rəhbərliyi altında olan dəstə Vanda da öz işlərini gördülər, vilayətin yollarını dağıtdılar, ərzaq ehtiyatlarını isə talan edərək geri qayıtdılar. Qərçəqay xan öz dəstəsi ilə ona həvalə olunmuş tapşırıqları yerinə yetirəndən sonra

geri qayıtdı. Şah Abbas Ərdəbil ziyarətini başa vurub Təbrizə gələndə Qərçəqay xan onun hüzuruna yetişdi (95).

Şah Abbas Təbrizdə olarkən bir daha Osmanlı qoşunlarının planları barəsində toplanmış məlumatlarla tanış oldu və bildi ki, bu qoşunlar Səfəvi hüdudları yaxınlığında qışlağa dayanıblar və onlar 1618-ci ilin baharında hücuma başlamalıdırlar. Əldə edilmiş məlumatlara görə, Xəlil paşa hətta Ərzrumda qışlamaq istəyirmiş. Amma bu vilayət Qərçəqay xanın dəstəsi tərəfindən talan edildiyi üçün Xəlil paşa Diyarbəkrdə dayanmalı oldu. Xəlil paşa və onun rəhbərliyi altında olan Osmanlı qoşunları 1617-ci il oktyabr ayının 12-də Diyarbəkrə yetişdi. Osmanlı qoşunları burada sadəcə olaraq qışlağa dayanmadı. Qoşunlar burada dayandığı müddət ərzində Səfəvi hüdudları üzərinə hücum üçün əsaslı hazırlıqlar aparılması davam etdirildi. Xəlil paşa Diyarbəkrdə olarkən Krım hakimi Canıbəy Gəray də öz qoşun dəstəsi ilə Trabzondan keçməklə Diyarbəkr ətrafına gəlib çıxdı. Bölgəyə yetişən kimi Canıbəy Gəray Səfəvi hüdudlarına talançı basqınlar edilməsi üçün Xəlil paşadan icazə aldı. Xəlil paşa da bu talançı basqınlara icazə verdi. Krım qoşunları sərhəd xətti boyunca olan Səfəvi ərazilərini basqınlara məruz qoydu. Mövcud olan məlumatlara görə, sayı 40 minə çatan Krım qoşunlarının bu basqınları hətta Naxçıvan və Culfaya qədər uzandı (96).

İsgəndər bəy Münşinin yazdığına görə, sərhəd bölgəsinə etdiyi basqınlara görə nəhayət ki, bir dəfə Krım xanının qoşunlarına yaxşı bir cavab verildi. Bu zaman Şah Abbas artıq Təbrizi tərk etmişdi. Xəlil paşanın rəhbərliyi altında olan qoşun dəstəsinin Diyarbəkrə gəlməsi xəbərini alandan sonra Şah Abbas qəfil hücumların qarşısının daha etibarlı şəkildə alınması üçün Qərçəqay xanı böyük bir qoşun dəstəsi ilə Təbrizdə saxladı. Şah Abbas özü isə qış aylarını keçirmək üçün Mazandarana yollandı. Şahın bölgədə olmadığı günlərdə Xəlil paşa tərəfindən sehran tayfasının sancaq əmiri olan Ömər bəyin rəhbərliyi altında olan bir qoşun dəstəsi ilə Krım qoşunlarının bir dəstəsi Əlişəkər hüdudlarının talan edilməsi məqsədilə Kərkuyə və Şəhrizor məntəqələrinə göndərildi. Bu qo-

şun dəstəsi Kərkuyədən keçməklə Şəhrizor hüdudlarına yetişdilər və orada böyük talanlara başladılar, yerli əhaliyə min bir əziyyət verdilər. Luristan hakimi Hüseyn xan və sərhəd xəttində olan Qasım Sultan İmanlı bu talanlardan xəbər tutub birlikdə onun qarşısını almaq qərarına gəldilər. Onların birləşmiş qüvvələri Mahidəşt yaxınlığında Osmanlı və Krım dəstələri ilə qarşılaşdılar. Qızılbaş qüvvələri bu qarşılaşmada üstün gəldilər və qarşı tərəfi geri çəkilməyə məcbur etdilər. Talançı yürüşün rəhbərlərindən biri olan sehran hakimi Ömər bəy əsir alındı, onun dəstəsinin çoxlu sayda döyüşçüsü qətlə yetirildi və qalanları isə qaçmaqla canlarını qurtara bildilər. Bu döyüşün nəticəsini Şah Abbas məmnunluqla qarşıladı. Onun tapşırığı əsasında Hüseyn xanla Qasım Sultan qiymətli hədiyyələrlə mükafatlandırıldı, əsir götürülmüş Ömər bəy isə saxlanmaq üçün Reyə göndərildi (97).

Elə bu vaxtlarda şah düşərgəsində Osmanlı sultanı II Əhmədin dünyasını dəyişməsi haqqında xəbər alındı. Bu hadisə 1617-ci il noyabr ayının sonlarında baş verdi. Sultan Əhməd xəstəliyə tutulmuşdu və onun müalicəsi üçün həkimlərin cəhdləri də bir nəticə vermədi. İsgəndər bəy Münşinin fikrincə, Osmanlı sultanı Allah tərəfindən pozulması qadağan olunan və insanlar tərəfindən də pislənən əhd-peyman sazişini pozmasına görə ilahi cəzaya layiq görülmüşdü. Dünyasını dəyişərkən onun iki az yaşlı oğlan övladı qalmışdı. Onlardan böyüyü olan Osmanın on iki, kiçiyi olan Muradın isə beş yaşı var idi. Sultan ailəsinin ağsaqqalları və saray mənsubları məsləhətləşmələrdən sonra hakimiyyətin Sultan Əhmədin qardaşı Sultan Mustafaya verilməsi qərarına gəldilər. Sultan Mustafa səltənət idarəçiliyindən uzaq olan və vaxtının çoxunu hərəmxanada keçirən bir insan kimi tanınırdı. Yayılan və şah sarayına çatan məlumatlara görə, Sultan Mustafa müharibələrin aparılmasına elə də rəğbətlə yanaşmırdı. Onun bu xarakteri Səfəvi dövləti ilə müharibə aparılmasına münasibətdə özünü göstərdi. Taxta çıxdıqdan sonra da Sultan Mustafa Səfəvi dövləti ilə müharibəyə tərəfdar olmadığını bildirdi. Bir ildən də artıq bir müddətdə Osmanlı həbsində olan şah elçisi Qasım bəy həbsdən azad edildi

və geri qayıtmasına icazə verildi. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas Gürcüstan səfərində olarkən İsfahanda saxlanılan Osmanlı səfiri İncili Çavuş Mustafanı yanına gətizdirmiş, onunla görüşdükdən sonra geri qayıtmasına icazə vermişdi. Şah Abbas tərəfindən Mazandaran sipəhsaları olan Qasım bəy də şah elçisi kimi İncili Çavuş Mustafa ilə birlikdə Osmanlı sarayına göndərilmişdi. Səfəvi dövləti ilə əldə edilmiş İstanbul anlaşmasının pozulmasına maraqlı olan Sultan II Əhməd Qasım bəyi həbs etdirmişdi. Qasım bəy Həftqüllə həbsxanasında həbsdə saxlanılırdı. Sultan Mustafa şah elçisini həbsdən azad etdirərək hüzuruna tələb etdi, onunla görüşdü, hədiyyələr təqdim edərək geri qayıtmasına icazə verdi (98).

Bununla belə, Sultan Mustafa Səfəvi dövlətinə qarşı yeni müharibənin başlanması məsələsini Xəlil paşanın seçiminə buraxdı. Bu barədə Sultan Mustafa ona yazdığı məktubda öz fikrini açıqladı. Amma Sultan Mustafanın hakimiyyəti çox da uzun sürmədi. Mövcud olan məlumata görə, onun hakimiyyətdən tez bir zamanda uzaqlaşdırılmasında Xəlil paşanın da rolu olmuşdu. Saray ənənələrinə görə, hakimiyyət məsələlərinin müəyyənləşdirilməsində sədr-əzəmin də fikirləri və mövqeyi nəzərə alınmalı idi. Sultan Mustafa isə Xəlil paşanın mövqeyi öyrənilmədən və nəzərə alınmadan hakimiyyətə gətirilmişdi. Xəlil paşaya görə, Sultan Mustafa yüngül düşüncəli bir adam idi və onun səltənət idarəçiliyinə gücü çatmazdı. Xəlil paşa saraya göndərdiyi məktublarında Sultan Mustafanın hakimiyyətdən uzaqlaşdırılmasını və onun yerinə Sultan Əhmədin böyük oğlu, on iki yaşlı Osmanın taxta çıxarılmasını tələb etdi. Sultan ailəsinin üzvləri, sarayın yüksək məqamlı mənsubları da Sultan Mustafanın dörd aylıq hakimiyyətindən sonra onun uzaqlaşdırılmasına qarşı çıxmadılar. Onun qarşısında məsələ qoyuldu ki, könüllü şəkildə taxtdan əl çəksin. Sultan Mustafanın da əslində, başqa bir seçimi yox idi. Nəticədə, 1618-ci il fevral ayının 26-da Sultan Əhmədin oğlu Osman səltənət taxtına çıxdı və Sultan II Osman kimi tanındı. Taxta çıxmasını bəyan etmək üçün Sultan Osman Şah Abbasa məktub yazdı və onu elçisi vasitəsilə şah sarayına göndərdi. Osmanlı elçisi şah sarayına

yollanarkən Xəlil paşanın da yanında oldu, iki dövlət arasında münasibətlə bağlı onun da mülahizələrini dinlədi. Yeni Osmanlı sultanı iki dövlət arasında müharibənin başlanıb-başlanmaması seçimini Xəlil paşaya həvalə etmişdi. Xəlil paşa da öz şərtlərini Şah Abbasa yazdığı məktubunda açıqladı və həmin məktub da çatdırılmaq üçün sultan elçisinə verildi (99).

Sultan Osmanın Şah Abbasa yazdığı məktubun məzmunu belə idi: "Hədsiz ilahi hikmət nəticəsində mənim atam Sultan Əhməd cavan vaxtında, dövlət və kamranlığının başlanğıcında fani dünyadan əbədi saraya köçdü. Təbiətində guşənişinlik üstünlük təşkil edən böyük əmim əhalinin razılığına əsasən bir neçə gün səltənət və padşahlıq kimi möhtərəm vəzifəyə yüksəldi. Bu günlərdə o, yenidən təbiətindəki tərkdünyalıq səbəbindən öz razılığı ilə bu vəzifədən və hökmranlıqdan əl çəkdi, yerini bizim hümayun zatımıza verdi. İndi Osmanlı dövlət taxtı və uca padşahlıq dərəcəsi bizim vücudumuzla bəzədilmişdir və dünya məlikləri öz təbrik qayda-qanunlarını yerinə yetirirlər. Bu xanədanın bütün tərəfdarları və ətraf yerlərin əzəmətli insanları bizim fərmanlarımıza tabedilər. Sərdar və baş vəzir olan Xəlil paşa əziz atamın fərmanı ilə qızılbaş sərhədində nizam-intizam işləri ilə məşğul idi. Biz sülh və cəng işində ona ixtiyar vermişik ki, dövlətin tələbinə uyğun hərəkət etsin" (100).

İtaliyalı səyyah Pyetro Delavella həmin vaxt Qəzvində idi və Osmanlı elçisinin Şah Abbasla görüşünü şəxsən müşahidə etmişdi. P.Delavella bu görüş barəsində öz xatirələrində də bəzi qeydlər etmişdi. Bu xatirələrdə olan bəzi qeydlər belə idi: "Şah göstəriş vermişdi ki, qızılbaş rəhbərləri başlarına tac qoyaraq şəhərin böyük meydanına gəlsinlər. Bundan bəlli oldu ki, şəhər meydanında mühüm bir hadisə baş verəcəkdir. İyun ayının 13-ü gecəsi (1618-ci il) tez-tələsik meydana getdik. Məlum oldu ki, bu böyük izdiham Osmanlı səfirini qəbul etmək üçündür. Bu səfir Osmanlı sədr-əzəmi Xəlil paşa tərəfindən Diyarbəkr şəhərindən göndərilmişdi. ...Osmanlı səfirini şah səltənət iqamətgahında və ya başqa bir yerdə uyğun saray protokolu ilə qarşılamadı. Onu Qəzvin mey-

danında at belində qarşıladı. Ola bilsin ki, bunun iki səbəbi var idi. Birincisi ona görə ki, elçi birbaşa İstanbuldan gəlməmişdi və Xəlil paşanın göndərdiyi elçi idi. İkincisi isə, ola bilsin ki, İstanbulda onun elçisinə qarşı göstərilən pis münasibətin qisasını almaq istəyirdi. Çünki o zaman hakimiyyətdə olan Sultan Əhməd xan heç də Şah Abbasın elçisinə ehtiram göstərmədi və onu hüzuruna qəbul etmədi. Onu ömrünün sonuna qədər İstanbulda məhbus kimi saxladı. Amma qardaşı Sultan Mustafa xan onun yerinə taxta çıxanda şah elçisini hüzuruna tələb etdi və onunla mehribanlıqla davrandı. Sülh tərəfdarı olduğundan sultan onu Amədə (Diyarbəkrdə) Xəlil paşanın yanına göndərdi ki, onunla məşvərət aparsın. Türk sərdarı da onu məhbus kimi yanında saxladı və onu vətəninə göndərmədi. O öz tərəfindən Hüseyn ağa adlı birisini saraya göndərdi.

...Şah hər zaman olduğu kimi dolu olan meydana daxil olanda, biz hər birimiz öz yerimizə getdik. Şah səltənət rəhbərlərindən olan iki-üç nəfərlə meydanın sonuna getdi və onlarla aramla gəzir və söhbət edirdi. Bu halda səltənət mehmandarı at belində olan Osmanlı səfirini onu müşayiət edən bir neçə nəfərlə meydanın şahla üzbəüz olan hissəsindən meydana gətirdi. ...Amma onu birbaşa şahın yanına aparmadı, meydanın ortasında oxatanların məşqləri zaman ox hədəfi olan sütunun kənarında dayandırdı. ...Şah da o istiqamətdə gəzintisini davam etdirdi və elə hərəkət edirdi ki, sanki Osmanlı səfirini görmür. Nəhayət ki, şah sütunun yaxınlığına gəldi və səfir atdan yerə enməmiş başı ilə təzim etdi. ...Salam verdikdən sonra elçi istədi ki, türk sərdarından gətirdiyi məktubu şaha təqdim etsin. Əqli və zəkası ilə məktubda yazılanların mahiyyətini, yəni sülh şərtlərinin onun istəyinə uyğun olmamasını hiss edən şah onu qəbul etməkdən imtina etdi və elçiyə dedi ki, məktub və peyğamın faydası yoxdur. Amma ona meyllidir ki, türklər onlara məxsus olanı əllərində saxlasınlar və şaha məxsus olanları isə geri qaytarsınlar. Belə olan halda məmnunluqla sülh anlaşmasının imzalanmasına hazırdır. Əgər türklərin başqa məqsədləri və planları varsa, onda bu barədə söhbət açmaq məna-

sızdır. ...Bundan sonra şah bir neçə dəfə də təkrar etdi ki, əgər Osmanlı dövlətinin rəhbərləri ədalətli və səmimi şəkildə anlaşmaya hazır olsalar, o da məmnunluqla öz dostluq əlini uzadacaqdır və belə bir xoş məramlı işə razı olacaqdır. Lakin əgər türklər müharibəyə, qan axıdılmasına, çarəsiz və günahsız insanların öldürülməsinə davam etsələr, onda günah onların boynunda qalacaqdır. Belə olanda şah qoşunları da müharibə meydanına yollanacaqdır. Sonra dedi ki, türklər öz qoşunlarının çoxluğuna arxalanırlarsa, mən də məni qoruyan Allahıma, Məhəmməd və Əliyə arxalanıram. ...Şah bu sözləri bir qədər uca səslə dediyindən və ona yaxın olan bizdən əlavə meydanda olan insanların da bir hissəsi eşidə bildi.

Türk elçisi ahəstə danışırdı və ona görə də onun sözləri aydın şəkildə eşidilmirdi. Anladığım bu oldu ki, səfir bu şərtlərlə Osmanlı dövləti ilə anlaşmanın mümkün olmayacağını dedi. Şah bir daha dedi ki, əgər türklər ağıllı olsalar, gərək böyük ifratçılıqdan və bütün dünyaya hakimlik etmək iddiasından əl çəksinlər, malik olduqları ilə kifayətlənsinlər. Belə olmasa onda onlara qarşı müharibə elan edəcək. Bundan artıq söhbətə ehtiyac görmədi. ...Dedi ki, qızılbaşlar osmanlılar kimi deyildirlər ki, başlarına böyük əmmamə qoyurlar, amma soyuqdan əllərini paltarın qolundan çıxarmırlar. Ola bilsin ki, onlar çoxlarından fərqli olaraq cəld və çevikdirlər. Amma onların əyri qılınc və atdan başqa heç nələri yoxdur. Yorğunluqdan qorxmur, müharibəyə və qılınc oynatmağa adət etmişlər. Əgər türklər müharibə seçimi etsələr, o da dərhal divanə Qərçəqayı onlara qarşı rəhbər təyin edəcəkdir ki, qıza zaman ərzində türk qoşunlarını yerlə-yeksan etsin. Əmin olun ki, iki il əvvəl Məhəmməd paşanın sərdarlığı altında olan Osmanlı qoşunları qadınlar kimi nalə və fəryadla geri qayıtdıqları kimi, bu ildə türk döyüşçülərinin vəziyyəti ondan yaxşı olmayacaqdır. Sonra şah türk elçisinin danışmaq fürsətinin əldə etməsindən əvvəl atını mahmızladı və onu təklikdə buraxdı. Biz də onun arxasınca getdik. Birdən şahın ətrafında olan dövlət adamlarından əlavə meydana toplaşmış adamların hamısı bir neçə dəfə "Allah, Allah" deyə

fəryad çəkdilər və sevinclə şahın türklərə müharibə elan etməsinə öz razılıqlarını bəyan etdilər” (101).

Osmanlı mənbələrinə görə, Xəlil paşa tərəfindən Şah Abbas ünvanlanmış məktubda iki tərəf arasında anlaşmanın əldə edilməsi üçün zəruri olan şərtlər daha aydın və konkret şəkildə ifadə olunmuşdu. Xəlil paşaya görə, bir sıra ərazilər Osmanlı hakimiyyəti altında olmalı olduğu halda, hələ də Səfəvi nəzarəti altında idi. Onun fikrincə, Gürcüstanın bəzi əraziləri, Van qalası, İraqi-ərəbdəki bəzi qalalar Səfəvi işğalı altında idi və bu ərazilər Osmanlı dövlətinə geri qaytarılmalı idi. Xəlil paşanın məktubunda şah sarayı tərəfindən xərac kimi iki yüz tay ipəyin də verilməli olduğu irəli sürülürdü. Bu şərtlərə əməl olunmayacağı təqdirdə Xəlil paşa iki dövlət arasında yeni müharibə başlayacağını və bu müharibədə Krım xanının da öz qoşunları ilə qızılbaş qoşunlarına qarşı vuruşacağını bildirirdi (102).

Şah Abbas həm Sultan Osmanın, həm də Xəlil paşanın məktublarının məzmunundan tanış olduqdan sonra Xəlil paşaya cavab məktubu yazmaq qərarına gəldi. Bu məktubda Şah Abbas iki dövlət arasında sülh yaranmasına tərəfdar olduğunu bildirdi. Bununla belə, Şah Abbas müharibə başlanacağı təqdirdə müharibəyə də hazır olduğunu bəyan etdi. Şah Abbasın Xəlil paşaya yazdığı və saray vəzirlərindən biri olan qələm sahibi Məhəmməd Hüseyn Əbhəri ilə göndərilən məktubun məzmunu belə idi: “Sultan Əhmədin dövründə Nəsuh paşa və başqa xeyirxah adamların vasitəçiliyi ilə tərəflər arasında sülh yaranmışdı. Bizim tərəfimizdən böyük seyid və üləmalardan olan Qazi xan Sədr elçi sifətiylə getdi və müfti, qazi və rum əyanlırının iştirakilə dostluq sazişi imzalandı. Tərəflər arasında o zaman elçi gediş-gəlişi davam etməkdəydi. Bu tərəfdən sülh əleyhinə heç bir hərəkətin olmamasına baxmayaraq Sultan Əhməd xan əhd-peymanı pozdu, Öküz Məhəmməd paşanı ağır qoşunla İrəvan üzərinə yolladı. O səadət sahibinə (Sultan Osmana – red.) məlumdur ki, paşanın get-gəlindən əsgər və rəiyyətə əziyyətdən başqa heç nə [hasil] olmadı. Və indi, bir halda ki, Sultan Osman sülh və cəngin ixtiyar cilovunu o

cənabın (Xəlil paşanın –red.) əlinə tapşırmışdır, biz də əhalinin faydası və müsəlmanların vəziyyətinin yaxşılığından ötrü sülhə razılıq vermişik. Sözümüz elə əvvəlki sözdür! Əgər sülh sazişi yenidən imzalansa və Məhəmməd paşa Öküz təzədən sülhlə razılaşsa, bundan yaxşı nə ola bilər? Allah bəndələri belə olan halda əmin-amanlıqda olarlar əsgər tapdağı altında qalmazlar, zəvvarlar və hacılar rahatlıqla ziyarətə gedib-gələ bilərlər, islam padşahlarının dövlətlərinin davam etməsi üçün dua edərlər. O zaman sülhün savabı hər iki tərəfə qismət olar. Yox əgər, buna razılıq əldə olunmazsa və cəng iddiasına düşərlərsə, biz buna da hazırıq. Qoy hər şey əzəli iradənin (Allahın – red.) istəyi üzrə həyata keçsin" (103).

Osmanlı elçisi və onunla birlikdə şah elçisi yola salındıqdan sonra qızılbaş qoşunlarına da Azərbaycan istiqamətində hərəkət etmək əmri verildi. Çünki elçilərin gətirdiyi xəbərlərdən də görünürdü ki, Osmanlı dövləti ilə yeni müharibənin başlanması qaçılmaz olacaqdır və ona görə də qoşunların Azərbaycan daxilinə göndərilməsi məqsədəuyğun sayıldı. Bu qoşunlar bir neçə gün Xalxal yaxınlığında dayandı. Qoşunların tanınmış rəhbərlərindən olan İsa xan Qorçubaşı və Əliqulu xan Şamlı və bəzi digər əmirlər və əyanlar şah düşərgəsində qaldılar. Qoşunların digər təcrübəli əmirləri öz dəstələri ilə birlikdə səltənət sipəhsaları Qərçəqay xanın dəstəsinə birləşmək üçün qoşunlarla birlikdə Təbriz istiqamətində hərəkətlərini davam etdirdilər. Bu qoşunlar Qərçəqay xanın rəhbərliyi altına keçdikdən sonra onların müharibəyə hazırlaşmaları da sürətləndirilməli idi. Doğrudur, Xəlil paşadan da cavab gözlənilirdi. Lakin bu cavabın sülhə bağlı olacağı artıq inandırıcı görünmürdü. Digər tərəfdən də Xəlil paşa müharibə hazırlıqlarını sürətlə davam etdirirdi. Onun əmri əsasında vilayət qoşunları da bölgəyə gələrək Osmanlı qoşunlarına qatılmışdılar. Havaların qızması ilə Osmanlı qoşunları artıq Azərbaycan istiqamətində hərəkətə başlamışdılar. Osmanlı qoşunları Azərbaycana doğru hərəkətdə olarkən Şah Abbas tərəfindən göndərilən elçi Xəlil paşa ilə görüşə bildi. Bir məlumata görə, Xəlil paşa şah elçisini

Vanda qəbul etdi, Şah Abbasdan gələn məktubla tanış oldu. Lakin məktubda yazılanlar Xəlil paşanı heç də başladığı yürüşdən çəkindirə bilmədi. Xəlil paşa yenə bir məktub yazıb onu elçisi ilə Şah Abbasa göndərdi və bu məktubunda artıq iki dövlət arasında müharibənin qaçılmaz olduğunu anlatdı. Həmin məktubun məzmunu belə idi: "Sizə can sağlığı, uğurlar və müsəlmanlarla yaxşılıqlar izhar etməklə bildiririk: İşıqlı şəxsiyyətinizə məlumdur ki, hər yerdə çoxlu müxaliflər və başqalarında eyib axtaran adamlar vardır. [Həmçinin] fitnə-fəsad əhli olanlar hünərə eyib libası geyindirib, hamının yanında lovğalanırlar. Hal-hazırda İlahinin təqdiri və padşahın fərmanı ilə rum əsgərlərinin bizim sərdarlığımızla sizin tərəfə yürüşü başlanmışdır. Zamanın mülkü və iqtisadi məsələlərinin həllindən ötrü Təbrizə hücum etmək qərara alınmışdır və bəzi müxaliflərin qorxusundan, bu yürüşü saxlamaq mümkün deyildir. Amma, elə ki, biz gəlib müəyyən olunmuş yerə çatdıq, elə orada da əhalinin vəziyyəti və hər iki dövlətin mənfəəti barədə danışıq aparmalıyıq" (104).

Xəlil paşa birmənalı şəkildə iki dövlət arasında sülhün əldə edilməsi imkanını rədd etdi və artıq müharibəyə başladığını bildirdi. Elçiləri yola saldıqdan sonra Xəlil paşa özü də qoşunla birlikdə Təbriz istiqamətində hərəkətini davam etdirdi. Qərçəqay xan da Təbrizdə artıq Osmanlı qoşunlarının gəlməkdə olması barəsində məlumat almışdı. Osmanlı qoşunlarına qarşı şah tərəfindən hansı qərarın qəbul edilməsindən xəbərsiz olan Qərçəqay xan sərhəd istiqamətinə qoşun göndərməyə tələsmədi. Amma onun göstərişi əsasında Osmanlı qoşunlarının yürüşündən əziyyətlərə və talanlara məruz qala biləcək əhali öz yurdlarından köçürüldü. Bu iş yerli əhalinin razılığı əsasında aparıldı. Eyni zamanda Təbriz şəhərinin əhalisi də başqa yerlərə köçürüldü. Boşaldılmış şəhər və məntəqələrdən ərzaq ehtiyatları da daşındı ki, Osmanlı qoşunlarının əlinə keçməsin. Mövcud olan məlumata görə, Şah Abbas 1618-ci il iyul ayının 25-də Qəzvin şəhərini tərk edib Sultaniyyəyə yollandı. Bu zaman qızılbaş qoşunları Sultaniyyəyə toplaşaraq şahın gəlişini və onun hansı əmri verəcəyini gözləyirdilər. Burada

Şah Abbas qoşunlara rəhbərliyi Qərçəqay xana tapşırdı və onu Təbriz şəhərinin müdafiəsinə vəzifələndirdi. Şah Abbas özü isə Ərdəbilə yollandı. O belə bir xəbər almışdı ki, Osmanlı qoşunları Təbrizi nəzarət altına aldıqdan sonra Ərdəbilə yollanacaqdır. Şah Abbas əcdadlarının və Səfəvi şeyxlərinin məskəni olan bu şəhərin Osmanlı qoşunlarının əlinə keçməsini heç bir vəchlə istəmirdi və Osmanlı qoşunlarının irəliləyəcəyi təqdirdə bu şəhərin müdafiəsini öz üzərinə götürməyi qərara aldı (105).

Şah Abbas çox ciddi bir təhlükə ilə üzbəüz qalmışdı. Osmanlı sarayı bu dəfə Səfəvi dövləti üzərinə sayca qat-qat üstün olan bir qoşun dəstəsi göndərmişdi. Görünür, elə ona görə idi ki, Osmanlı qoşunları ciddi bir müqavimətlə rastlaşmadan Təbriz şəhərini nəzarət altına ala bildilər. Mənbələrdə və tarixi ədəbiyyatda da Qərçəqay xanın rəhbərliyi altında olan qızılbaş qoşunlarının Osmanlı qoşunlarına hər hansı bir müqavimət göstərməsi haqqında məlumatlara təsadüf edilmir. Ola bilsin ki, Böyük sayda olan Osmanlı qoşunlarına qarşı Qərçəqay xanın müqavimət göstərməsi məqsədəuyğun bilinməmişdi. Amma onun tərəfindən Təbrizin və onun ətrafının boşaldılması Osmanlı qoşunlarını ağır vəziyyətə saldı. Osmanlı qoşunları Təbrizdə ərzaq və yem ehtiyatları tapa bilmədikdə beş gündən sonra bu şəhəri tərk etdilər və Fəhusfənc adlanan məntəqəyə gəldilər. Şah Abbas isə Sultaniyyədən Xalxala, oradan isə Ərdəbilə gəldi (106).

Mövcud olan məlumatlar isə bir daha onu göstərir ki, Osmanlı qoşunlarına qarşı müqavimət göstərilməməsi və Osmanlı qoşunlarının səltənətin içərilərinə doğru cəlb edilməsi Şah Abbasın məqsədyönlü şəkildə seçdiyi taktikanın tərkib hissəsi idi. Təbrizin və Təbrizə qədər olan ərazilərin əhalisinin köçürülməsi ilə bərabər, ərzaq ehtiyatlarının da kənara daşınması Osmanlı qoşunlarını artıq mürəkkəb vəziyyətə salmışdı. Digər tərəfdən Şah Abbas vaxtın uzadılmasına nail olmaqla qışın gəlməsini və havaların soyumasını istəyirdi. Çünki havaların soyuması Osmanlı qoşunlarını daha ağır vəziyyətə sala bilərdi. Şah Abbasla birlikdə Ərdəbildə olan italiyalı səyyah Piyetro Delavellanın xatirələrində olan qeydlərdən

aydın olur ki, Qərçəqay xanın Osmanlı qoşunlarına müqavimət göstərməməsi Şah Abbasın seçdiyi taktikaya uyğun olaraq baş vermişdi. Məsələn, P. Delavella yazırdı: "O vaxtlarda xəbər tutdum ki, səltənət sipəhsaları olan Qərçəqay xan Təbriz yaxınlığından bir nəfəri Şah Abbasın yanına göndərib ondan qızılbaş qoşunlarına üç günlük məsafədə olan türk qoşunları üzərinə hücuma keçməyə icazə versin. Amma şah ona cavab göndərdi ki, əgər türklərlə müharibəyə girişərsə və ya türk qoşunlarına yaxınlaşarsa, onu öz düşməni kimi qəbul edəcəkdir, verdiyi duz-çörək isə öldürücü zəhər kimi onun canının bəlasına çevriləcəkdir. Şah Abbasın öz sipəhsalarına belə cavab verməkdə məqsədi o idi ki, türk sərdarının və qoşunlarının başını qatsın və Azərbaycanın ağır qışı gəlib çatsın. Vaxt ötdükcə düşmənin müharibə təminatı və azuqəsi qurtarsın, güclü soyuqlar isə onun hücumuna və irəliləməsinə mane olsun. Belə bir vaxtda hər tərəfdən türk qoşunları üzərinə hücumlar edilsin, bu qoşunlar parçalanaraq məhv olunsun. Ona görə də əmr verildi ki, türk qoşunlarının keçdiyi bütün məntəqələr sakinlərdən boşaldılsın, və həmin məntəqələrdə ərzaq və azuqədən heç bir əsər qalmasın" (107).

Şah Abbas Ərdəbilə gəldikdən sonra bir daha ulu əcdadlarının məzarlarını ziyarət etdi və həmin məzarlar üzərində Allahdan ona Osmanlı qoşunlarına qarşı mübarizədə yardımçı olmasına dualar etdi. P.Delavella onu da yazırdı ki, Osmanlı qoşunları Təbrizə daxil olanda Şah Abbas çox fikirli və yorğun görünürdü. Belə bir durumda, Şah Abbasın ulu əcdadlarının türbəsində səhərə qədər ağlayaraq dua edirdi (108).

Şah Abbas Ərdəbildə olarkən Xəlil paşanın elçisi olan Osman ağanı və Osmanlı sarayından geri qayıdan Mazandaran sipəhsaları Qasım bəyi qəbul etdi. Osman ağa əvvəlcə şah sarayının əyanları ilə görüşdü, Osmanlı tərəfinin şərtlərini bir daha onların nəzərinə çatdırdı. Həmin fikirlər sonradan şahın hüzurunda da ərz edildi. Osman ağa Osmanlı sarayının Səfəvi dövləti ilə sülh arzusunda olduğunu bəyan etdi. Bu fikrə qarşı Şah Abbas belə söylədi: "Biz də elə buna görə indiyədək qızılbaş əsgərlərinə döyüş izni vermə-

mişik. Amma, sizin əməlləriniz sözlərinizlə uyğun gəlmir. Buraya bu cür qorxusuz yürüşünüz bizimlə döyüş üçün gəldiyinizə dəlalət edir" (109).

Bu sözləri ilə, Şah Abbas Osmanlı qoşunlarının Təbrizlə də kifayətlənməyərək şərqə doğru irəliləməsinə işarə edirdi. Osman ağa isə Osmanlı qoşunlarının Təbriz hüdudlarını aşmasını və şərqə doğru irəliləməsini Təbriz ətrafında ərzaq və azuqənin mövcudluğu ilə izah edirdi: Bizim belə irəliləməyimizə ərzağın və başqa zəruri malların yoxluğu səbəb olmuşdur. Məhz buna görə də, bir-iki köç irəli gəldik ki, tərəflər arasındakı sülh danışıqları başlayanadək rum əsgərləri azuqə darısqallığı çəkməsinlər. Əslində isə biz burada sizin bir neçə günlük mehmanlarınızıq" (110).

Şah Abbasın Osmanlı elçisi olan Osman ağa ilə Ərdəbildəki görüşü haqqında da italiyalı səyyah P.Delavellanın xatirələrində bəzi qeydlər vardır. Onun yazığına görə: "Avqust ayının son günü olan həmin günün sabahı gün qürub çağı şah Osmanlı elçisi ilə görüşdü. Amma saray protokolunun əksinə olaraq, ona heç cürə ehtiram göstərilmədi. Elçinin qəbulu zamanı qonaq kimi gələn adamların heç biri dəvət olunmadı. Adamlardan eşitdim ki, elçiyə heç oturmaq icazəsi də verilmədi. Səfirlə təklikdə söhbət etdi və onların müzakirəsi belə oldu ki, şahın yaxınlarından və saray əyanlarından heç kim bu görüşdə iştirak etmədilər. Ona görə kimsənin müzakirə olunan mövzudan xəbəri yox idi. Lakin elçi şaha yaxınlaşanda özü ilə gətirdiyi məktubu ona təqdim etdi. Şah isə uca səslə dedi: "Osmanlı sultanı ilə o vaxt sülhə gedəcəyəm ki, Bağdad və Hələbi ondan almış olum". Elçini müşayiət edənlərə də icazə verilmədi ki, elçi ilə birlikdə şah hüzuruna getsinlər. Onlar hamısı imarətin girişində oturmaq icazəsi olmadan gözləyirdilər. ...Həmin gün elçini qəbul etməzdən əvvəl şah hökm etmişdi ki, Ərdəbil şəhərində car çəkilsin və elan edilsin ki, heç bir təbəqəyə mənsub olan şəhər sakininin türk elçisi və onun yoldaşları ilə əlaqəyə girməyə, onlara nə isə satmağa haqları yoxdur. Çünki onlar şah qonaqlarıdır və onların nə isə almağa ehtiyacları olmamalıdır. Bu fərman çox çətinliklə icra olundu. Hətta şah fərmanından xə-

bəri olmayan və türklərə nə isə satmış bir sənətkarı tutaraq şəhər meydanına apardılar ki, onu məhkəmə olmadan orada dar ağacına çəksinlər. Lakin şah fərmanından xəbərsiz olması ilə bağlı onun günahsızlığı bəlli olanda bağışlandı və azad olundu. Belə bir davranış ona görə baş verdi ki, ondan qabaq şah elçisi olan Qasım bəyə qarşı İstanbulda hörmətsizlik və təhqir nümayiş etdirilmişdi. Ya da ki, istənilmirdi ki, kimsə türk elçiləri ilə söhbət etməklə şah planlarını açmış olsun. Amma elçinin şah məclisindən qayıtmasından az sonra Osmanlı dövlətinin sülh üçün irəli sürdüyü şərtlər aşkar oldu. Ola bilsin ki, onların aşkar edilməsi ilə bağlı Osmanlı elçisi tapşırıq almışdı. Ya da ola bilsin ki, şah sarayında heç bir sirrin qorunması mümkün olmadığı üçün çox məxfi olan məsələlər tezliklə faş olurdu. Ona görə bu sirr də gizli qalmadı" (111).

Bəzi məlumatlara görə, Xəlil paşa sülhün əldə edilməsi üçün şah sarayı tərəfindən xərac kimi verilməli olan ipəyin miqdarının iki yüz taydan yüz taya endirilməsinə razı olmuş və eyni zamanda Şah Abbasın övladlarından birinin də girov kimi Osmanlı sarayına göndərilməsini tələb etmişdi. Bu şərtlərin qəbul ediləcəyi təqdirdə Xəlil paşa Osmanlı qoşunlarını Səfəvi hüdudlarından geri çəkməyə razı olduğunu bildirirdi (112).

O da bildirilir ki, bəzi qızılbaş sərdarları və şah sarayının yüksək vəzifəli mənsubları Osmanlı qoşunlarının səltənətin dərinliklərinə doğru irəliləyə biləcəyindən ehtiyatlanaraq sülh anlaşmasının əldə edilməsi üçün müəyyən güzəştlərə gedilməsini mümkün sayırdılar. Onların arasında Sarı Xacə kimi tanınan Azərbaycan vəziri Xacə Məhəmməd Rza, şahın damadı olan İsa xan Səfəvi Qorçubaşı da var idi. Onlar da öz səlahiyyətlərindən istifadə etməklə Osmanlı sarayı ilə sülh anlaşmasının əldə edilməsinə tərəfdar idilər. Şah Abbas bu yüksək vəzifəli məqamların təkidlərinin qarşısını almaq üçün Zülfüqar xan Qaramanlının cavan oğlunu öz oğlu adı ilə Osmanlı sarayına girov göndərmək istəyirdi. Zülfüqar xanın xanımı Səfəvi şahzadələrindən biri idi və Zülfüqar xan şah Abbasın əmri ilə qətlə yetiriləndə Xacə Məhəmməd Rza onun vəziri idi. Zülfüqar xanın oğlu Osmanlı sarayının təhriki ilə sonradan

güc toplayıb Səfəvi hüdudlarına qayıtdığı halda atasını qətlində əli olanları bağışlamazdı. Xacə Məhəmməd Rza xan da bundan ziyan görə bilərdi və ona görə də onun Osmanlı sarayına girov kimi göndərilməsinə elə də həvəslə yanaşmadı. Şah Abbas daha sonra İsa xanla Xacə Məhəmməd Rzanın nəzərinə çatdırdı ki, əgər onlar Osmanlı sarayı ilə sülh tərəfdarıdırlarsa, onda Xəlil paşanın özü üçün tələb etdiyi maliyyə vəsaitlərini də gərək özləri ödəsinlər. Şah Abbasa görə, Xəlil paşanın istədiyi qədər vəsait səltənət xəzinəsində yox idi. Şah Abbasın bu sözlərindən sonra həm Xacə Məhəmməd Rza, həm də İsa xan Qorçubaşı daha səslərini çıxarmadılar. Onlar sülh əldə edilməsi üçün Şah Abbas tərəfindən irəli sürülən təkliflərin icrasına tərəfdar olmadılar. Çünki bu təkliflər onların maraqlarını zərbə altına alırdı. Bu söhbətlər olanda Osmanlı elçisi hələ Ərdəbili tərk etməmişdi. Şah onun incik düşməsinə yol verməmək üçün nağd olaraq yüz tümən pul, bir neçə at və digər qiymətli hədiyyələr göndərdi. Bir neçə gündən sonra isə Şah Abbas onu hüzuruna qəbul etdi. Əvvəlki görüşdən fərqli olaraq bu dəfə elçi üçün daha hörmətli bir məclis təşkil olundu (113).

Şahidlərin xatirələrinə görə, Şah Abbas sonradan daha bir dəfə Osman ağanı qəbul etdi və bu dəfə də ona yüksək ehtiram göstərildi. Belə ki, onun qəbul edilməsi şərəfinə təşkil edilmiş məclisə sarayın yüksək vəzifəli məqamları və qoşun başçıları dəvət olundular. Osmanlı elçisi bu görüş zamanı da sülhün əldə edilməsi üçün əvvəlcə səsləndirdiyi şərtləri xatırlatdı. İtaliyalı səyyah P.Delavellanın yazdığına görə, Osmanlı tərəfi sülhün əldə edilməsi üçün Şah Abbasdan Şəki, Şirvan, Qarabağ, Gürcüstan və İrəvan vilayətini də istəmişdi (114). Amma bu fikrin düzgünlüyü şübhə doğurur. Belə ki, bir tərəfdən Şah Abbas belə bir məsələnin heç müzakirəsinə belə razı olmazdı. Digər tərəfdən isə sonuncu anlaşma ətrafında aparılan müzakirələrdə də söhbət yalnız sərhədyanı ərazilərdən getmişdi və sərhədyanı ərazilərin hansı dövlətə məxsusluğunu müəyyənləşdirmək üçün hər iki tərəfdən məsul adamlar da təyin edilmişdi.

P.Delavellanın xatirələrinə görə, Osmanlı elçisi Şah Abbasın hüzurunda danışarkən iddia edilən ərazilərin güzəştə gediləcəyinə inanmadığını bilirdi. Bunun əvəzində o, şah qarşısında vəd olunmuş illik ipək xəracının və şahın övladlarından birinin girov kimi Osmanlı sarayına göndərilməsi məsələsini qaldırdı. Osmanlı elçisi onu da əlavə etdi ki, əgər şah öz övladlarından birini Osmanlı sarayına göndərmək istəmirsə, sülh anlaşmasının əldə edilməsi xatirinə başqa bir adamı da göndərə bilər. Həmin adamı Xəlil paşa Osmanlı sarayına aparmaqla onu şahın övladı kimi təqdim edə bilərdi. Elçi əmin edirdi ki, Osmanlı sarayında şah övladına yüksək ehtiram saxlanılacaqdır. Bildirilir ki, Osmanlı elçisi əslində, girov kimi göndəriləcək adamın şah övladı olmasını heç də istəmirdi. Çünki bu adamı Osmanlı sarayında daha asanlıqla yolundan çıxarmaq və onu Səfəvi üzərinə qoşun çəkməyə təhrik etmək olardı. Elçi öz sözlərini tamamladıqdan sonra Şah Abbas əl atıb qılıncını qınından çıxardı və əlinin birini onun tiyəsi üzərinə qoydu: “Mənim övladım budur və bundan başqa sizin üçün heç nəyim yoxdur. Türk qoşunları istədikləri yerə kimi gələ bilərlər. Mən tam bir qətiyyətlə onların intizarındayam”.  Səfirin isə şaha cavabı belə oldu: “Bu halda günahsız və biçarə insanların qanı axıdılacaqdır və qanın günahı əlahəzrətin üzərinə düşəcəkdir”. P.Delavellaya görə, Şah Abbas da cavabında dedi: “Belə deyil, səbəbsiz yerə qan axıdılmasının günahı türklərin üzərində qalacaqdır. Çünki mən öz evimdə oturmuşam və kimsə ilə işim yoxdur və məcburiyyət qarşısında mənim vətənimə hücum edənlərə, həmvətənlərimin asayişini pozanlara qarşı döyüşməli oluram. Amma siz hər il mənim torpaqlarıma hücum edirsiniz və məni öz evimdə təhqir edirsiniz. Əslində, heç bilmirəm ki, məqsədiniz nədir və məndən nə istəyirsiniz. ...Ərdəbil şəhəri Şeyx Səfinin və mənim digər əcdadlarımın uyuduğu yerdir. Amma mənim göstərişimə əsasən onların sümüklərini çıxardıb başqa bir yerə aparmışlar. Əgər türk qoşunları irəli gəlsələr, onda göstəriş verəcəyəm ki, şəhərə od vursunlar və onu viranə bir yerə çevirsinlər. Hazırda mənim qərarımda deyil ki, sizinlə əlbəyaxa olum. Siz nə qədər irəli gəlsəniz, mən geri çəkilə-

cəyəm və yol üzərinə olan bütün məntəqələri viran edəcəyəm. Sizi ölkənin içərilərinə çəkəndən sonra fürsət yaranan kimi bir iş görəcəyəm ki, sizə qəbirdən pis olacaq və sizdən bir nəfər də olsa salamat şəkildə Osmanlı hüdudlarına qayıda bilməyəcəkdir" (115).

Şah Abbas burada Səfəvi şeyxlərinin sümüklərinin Ərdəbildəki türbədən çıxarılaraq başqa yerə aparılacağına işarə edirdi. Amma elə P.Delavellinin yazdığından aydın olur ki, Şah Abbas qızılbaş qoşunlarının Osmanlı qoşunları üzərində qələbəsini eşitdikdən sonra bu fikrindən əl çəkdi. Bununla belə, Osmanlı elçisinin şərəfinə təşkil edilmiş məclisin sonunda şah üzünü elçiyə çevirib qəzəbli şəkildə dedi: " Dini və məzhəbi özlərinə rəhbər tutan bizim mollalarımız həmişə mənim qulağıma deyirlər ki, iki müsəlman millətin bir-biri ilə müharibə etməsi yaxşı deyil və xəcalətdir. Mən isə onlar aydın şəkildə deyirəm ki, bundan sonra onlar bu barədə mənim başımı ağrıtsalar hamısını öldürəcəyəm və əmr edəcəyəm ki, onların meyitlərinə də yüz şallaq vursunlar". P.Delavellanın qeydlərinə görə, Şah Abbas bu sözləri dedikdən sonra xeyli qəzəbləndi və elə elçinin yanındaca Ərdəbil kələntərinə göstəriş verdi ki, Ərdəbil əhalisi öz əmlakını və ehtiyatlarını götürərək şəhəri tərk etsinlər və ölkə daxilində daha təhlükəsiz yerlərə çəkilsinlər. Şah onu da əlavə etdi ki, əgər Ərdəbil sakinləri şəhəri tərk etməyi qəbul etməsələr hamılıqla qətlə yetiriləcəklər. Kələntər də çarəsiz halda şah fərmanını şəhər əhalisinə çatdırdı. Şəhər əhalisi də bu fərmandan sonra əşyalarının çoxunu satıb at və qatır almağa başladılar ki, öz əmlakını daşıya bilsinlər. Amma Şah Abbas əslində, Ərdəbil sakinlərinin şəhəri tərk etməsini istəmirdi. O, verdiyi fərmanla sadəcə, Osmanlı elçisi yanında bir görüntü yaratmaq istəyirdi. Ona görə də şah Ərdəbil kələntərinə ayrılıqda dedi ki, şəhər əhalisinin köçürülməsini istəmir. Şah yalnız onu istəyirdi ki, Osmanlı elçisi dayandığı evin ətrafında yaşayan insanlar köç görüntüsü yaratsınlar, əmlaklarını toplayaraq yola düşsünlər və sonra da gizli şəkildə yenidən öz evlərinə dönsünlər. Bununla Osmanlı elçisində belə bir təsəvvür yaransın ki, Ərdəbil sakinləri doğrudan da şəhəri tərk edirlər (116).

Bu görüşün baş verdiyi günün sabahı Osmanlı elçisi Qasım bəylə birlikdə Xəlil paşanın düşərgəsinə tərəf hərəkətə başladı. Şah Abbas Osmanlı qoşunlarının səltənət dərinliklərinə irəliləməsini təmkinlə qəbul edirdi. Lakin bu irəliləyişin gətirə biləcəyi fəlakətləri də Şah Abbas diqqətdən qaçırmırdı. Götür-qoy etdikdən sonra Şah Abbas Ərdəbilin də boşaldılması haqqında qərar verdi. Bu zaman Şah Abbas Ərdəbil sakinlərinin də Osmanlı hücumlarından qurtarılmasını vacib sayırdı. Onun tələbi əsasında şəhər sakinləri səltənətin daha təhlükəsiz ərazilərinə çəkilməli idilər. Eyni zamanda Şah Abbas tələb etdi ki, Ərdəbilin silah tutmağı bacaran kişiləri şəhərdə qalsınlar və şəhərin Osmanlı hücumlarından müdafiəsinə kömək göstərsinlər (117).

Bir məlumata görə, Şah Abbas sülhün yenidən ortaya gətirilməsi üçün Osmanlı sarayı və Xəlil paşa tərəfindən irəli sürülən təkliflərdən bəzisini qəbul etmişdi. O cümlədən, Osmanlı sarayına ipək verilməsinin mümkünlüyü Şah Abbas tərəfindən qəbul edilirdi. Şah Abbasa görə, sülhün əldə edilməsi naminə bir dəfə hədiyyə olaraq Osmanlı sarayının arzusunda olduğu ipəyi vermək mümkün idi. Digər şərtləri isə Şah Abbas qəbul etmədi. Onların arasında bir sıra ərazilərin Osmanlı dövlətinə güzəştə gedilməsi və şah övladlarından birinin girov kimi Osmanlı sarayına göndərilməsi də var idi. Şah Abbas övladlarından birinin Osmanlı sarayında girov olmasını birmənalı şəkildə qəbul etmədi. Onun fikrincə, müəyyən müddətdən sonra Osmanlı sultanı həmin şahzadəni Səfəvi şahı olmağa təhrik edərək Səfəvi dövlətinə qarşı yeni bir müharibəni başlaya bilərdi (118).

Şah Abbasın göstərişi ilə Qərçəqay xanın rəhbərliyi altında olan qoşun dəstələri Osmanlı qoşunları ilə döyüşə girməyərək Təbrizi tərk etsələr də, bu şəhərdən çox da uzaqlaşmadılar və Osmanlı qoşunları ilə döyüşdən də qaçmaq mümkün olmadı. Təbriz şəhəri tərk ediləndən sonra qızılbaş dəstələri Ucanda qərarlaşdılar. Bu məntəqə Qəzvinə aparan yolun üzərində idi və burada qərar tutmaqda da Qərçəqay xanın məqsədi Osmanlı qoşunlarının Qəzvin istiqamətində hərəkətinin qarşısını almaq idi. Ərdəbilə aparan

yol isə açıq saxlanıldı. Osmanlı qüvvələri Ərdəbilə doğru hərəkət edəcəkləri halda onları Ərdəbil istiqamətindən Şah Abbas və onun yanında olan qoşun dəstələri, arxadan isə Qərçəqay xanın rəhbərliyi altında olan qüvvələr zərbə altına ala bilərdilər. Yuxarıda qeyd edildiyi kimi, Xəlil paşa Təbrizə nəzarəti ələ keçirəndən sonra şəhərdə uzun müddət dayanmadı və beş gündən sonra şəhəri tərk etdi. Təbriz ətrafında dayanarkən Xəlil paşanın yanına onun elçisi Osman ağa gəldi və Şah Abbasla olan görüşü haqqında ona məlumat verdi. Elçinin verdiyi məlumatdan sonra Xəlil paşada belə bir təsəvvür yarandı ki, Şah Abbas Osmanlı qoşunları ilə döyüşə girməkdən çəkinir. Elə bunun üçün idi ki, Şah Abbas Ərdəbil şəhərini də dağıdaraq şəhəri tərk etmişdir. Xəlil paşada belə bir inam yarandı ki, Şah Abbas Osmanlı qoşunları ilə qarşılaşmaqdan ehtiyat edir və qızılbaş qüvvələrini məğlub etmək Osmanlı qüvvələrinin imkanı daxilindədir. Xəlil paşa qərara gəldi ki, əvvəlcə Qərçəqay xanın rəhbərliyi altında olan qoşun dəstəsinin üzərinə hücum etsin və bu dəstə üzərində uğur qazandıqdan sonra Ərdəbilə yollanmaqla Şah Abbasın rəhbərliyi altında olan qoşun dəstəsini də məhv etsin (119).

Xəlil paşanı qızılbaş qoşunları ilə döyüşə girməyə həm də Krım xanı Canıbəy Gəray təhrik etdi. İsgəndər bəy Münşinin yazdığına görə, Canıbəy Gəray Osmanlı qoşunlarının bir neçə əmir və paşası, habelə bir neçə şücaətli döyüşçüsü ilə birlikdə Xəlil paşanın yanına gəldilər və onun yanında belə bir fikir söylədilər: "İki-üç ildir ki, əcəm yürüşü və qızılbaş ləşkəri ilə müharibə uzanmaqdadır. Eləcə də, tatar ordusu bu məsələ ilə əlaqədar rum diyarındadır. Mülkümüzə və malımıza bütün bunlardan çoxlu xəsarət dəymişdirsə də, bu gediş-gəlişdən heç bir nəticə əldə olunmamışdır. Tatar ləşkəri daha bundan artıq bu diyarda qala bilməz və müharibə istəyir. Məsləhət belədir ki, rumiyyə və tatar döyüşçülərindən ibarət ordu ilə qızılbaş sərdarının üstünə yollanaq, əgər qələbə çalsaq, çox yaxşı, hamının yanında təqsirləndirilmərik və bizə münasibət yaxşı olar" (120).

Xəlil paşa qızılbaş qoşunları ilə döyüşə girməyə heç də meylli deyildi. Çünki artıq şərait dəyişmişdi, Osmanlı qoşunları çox böyük məsafə keçərək bir sıra çətinliklərlə qarşılaşmışdılar. Ona görə də təklif edilən döyüş haqqında qərar qəbul edilməsi üçün Xəlil paşa qoşun divanını çağırdı. Bu divanda qoşun dəstələrinin rəhbərləri, vilayət əmirləri, vəzifəli məqamlar iştirak etdilər. Müzakirələrin gedişində dəftərdar Baqi paşa və onunla birlikdə bir neçə Osmanlı əmiri qızılbaş qoşunları ilə döyüşə girməyin əleyhinə oldular. Onlar bildirdilər ki, Osmanlı qoşunları uzun bir yol gəlib və yorulubdur. Ərzaq və yem ehtiyatlarının olmaması isə qoşunları tamamilə əldən salıbdır. Belə bir vəziyyətdə qızılbaş qoşunları ilə döyüşə girilməsi ağır nəticələrə gətirib çıxara bilər. Ona görə də onlar şah qoşunlarına qarşı döyüşə başlamağın əleyhinə çıxdılar. Amma Krım xanı Canıbəy Gərayın və Hələb bəylərbəyi Abaza Məhəmməd paşanın təkidindən sonra Xəlil paşa qızılbaş qoşunları ilə döyüşə girmək qərarını verdi. Qızılbaş qoşunları üzərinə göndərilən Osmanlı dəstəsinə Diyarbəkr bəylərbəyi Mustafa paşanın, Van bəylərbəyi Almaçı paşanın, Sivas bəylərbəyi Osman paşanın, Rumeli bəylərbəyi Arslan paşanın, Hələb bəylərbəyi Abaza Məhəmməd paşanın və Krım xanı Canıbəy Gərayın rəhbərliyi altında olan qoşun dəstələri daxil edildilər. Bu dəstələrə ümumi rəhbərlik isə Ərzrum bəylərbəyi Həsən paşaya tapşırıldı. Osmanlı dəstəsi qərardan dərhal sonra hərəkətə başladı. Həmin dəstəyə iki ədəd top da verildi. Osmanlı mənbələrinə görə, bu qoşun dəstəsi səkkiz günlük məsafəni dincəlməyə dayanmadan iki gün yarıma başa vuraraq Sərab adlanan məntəqəyə gəldilər. İstirahət etmədən qoşunların sürətlə hərəkət etməsi döyüşçülərin yorğunluğunu bir qədər də artırdı. O da bildirilir ki, tez-tələsik qızılbaş qoşunları qarşısına çıxmaq istəyən Osmanlı qoşunları qızılbaş dəstələrinin mühasirəsinə düşdülər (121).

Osmanlı mənbələrinin bəzilərində də qızılbaş dəstələrinə qarşı hücumun düzgün hesablanmadığını və bu hücuma ciddi əsaslar olmadan başlandığını yazırlar. Belə mənbələrdəki məlumatlar bir tərəfdən Xəlil paşanın elçisi olan Osman ağada qızılbaşlar tərəfin-

dən heç də düzgün olmayan təsəvvürlər yaradıldığını bidirirlər. Yəni Qərçəqay xan bölgə əhalisinin köçürülməsi görüntüsünü yaratmaqla Osman ağada qızılbaşların döyüşə hazır olmaması təsəvvürünü yaratmışdı. Digər tərəfdən də belə bir məlumat var ki, Krım xanlığından qaçaraq Səfəvi sarayına sığınmış Şahin Gəray adlı birisi öz adamlarını casus kimi Canıbəy Gərayın qoşun dəstəsi daxilinə göndərmiş və onlar da qızılbaş qoşunlarının döyüşə hazır olmaması haqqında Krım qoşunları daxilində şayiələr yaymışdılar. Krım xanı da bu şayiələrə inanaraq qızılbaş dəstələri üzərinə hücum həvəsinə düşmüşdü (122).

“Rövzətüs-Səfəviyyə” əsərinin müəllifinin yazdığına görə, Xəlil paşa Təbrizi nəzarət altına aldıqdan sonra gələcək planlarını götür-qoy etməyə başladı. Havaların soyumaqda olduğu üçün Xəlil paşa qışı Təbrizdə keçirməyi və növbəti ildə qızılbaş qoşunlarına qarşı mübarizəni davam etdirməyi qərara aldı. Havaların qızması ilə Xəlil paşa Ərdəbilə doğru hərəkəti davam etdirməli idi. Məlum olduğu kimi, bu zaman Şah Abbas Ərdəbildə idi və onun göstərişi əsasında Qərçəqay xanla İmamqulu xan Sərab yaxınlığında dayanmışdılar. Bu xanların rəhbərliyi altında 24 min nəfərlik bir qoşun dəstəsinin olduğu bildirilirdi. Qoşun dəstəsinin tərkibinə toplar da verilmişdi. Adı çəkilənə əsərdəki məlumata görə, Qərçəqay xanla İmamqulu xan Sərab yaxınlığında mövqe tutmaqla Osmanlı qoşunlarının Ərdəbilə doğru hərəkətinin qarşısını almalı idilər. “Rövzətüs-Səfəviyyə” müəllifi Osmanlı qoşunlarının sayını 150 min nəfər göstərmişdir. Qızılbaş qoşunlarını müşahidə altında saxlayan Xəlil paşa qoşunların nisbətindəki say nisbətindən xəbər tutduqdan sonra qızılbaş qüvvələri üzərinə qəfil gecə hücumu keçirməyi qərara aldı. O əmin idi ki, qızılbaş qüvvələri çox böyük üstünlüyə malik olan Osmanlı qoşunları qarşısında duruş gətirə bilməyəcəkdir. Beləliklə, Xəlil paşa qızılbaş qüvvələri üzərinə qəfil hücum haqqında qərar qəbul etdi. Qızılbaş casusları bu məsələdən xəbər tutub Qərçəqay xanla İmamqulu xana məlumat çatdırdılar. Onlar da Osmanlı qoşunlarının hücuma hazırlaşmaları haqqında məlumatı Şah Abbasa çatdırdılar(123)

Şah Abbasın bu məlumatı alandan sonra qərarı belə oldu ki, yanında olan yaxınları, hərəmləri, silah tutması məsləhət bilinməyən adamlar Ərdəbildən uzaqlaşdırılsın və Gilana göndərilsin. Onlar üçün Gilan daha təhlükəsiz bir yer ola bilərdi. "Rövzətüs-Səfəviyyə" müəllifinin yazdığından belə bir qənaətə gəlmək olar ki, Şah Abbas yenə də Osmanlı qoşunları ilə döyüşə girməyə meylli deyildi. Belə bir tərəddüd keçirdiyi anlarda Azərbaycan vəziri Xacə Məhəmməd Rza da Şah Abbasın yanında imiş. Xacə Məhəmməd Rza bildirir ki, Ərdəbildə olan şah məiyyətinin və yaxınlarının köçürülməsi qoşunlar arasında ruh düşkünlüyünə səbəb ola bilər. Azərbaycan vəziri Osmanlı qoşunları ilə döyüşə girməyi məsləhət bilir və onu da qeyd edir ki, döyüşdə uğur əldə edilməsi yalnız say üstünlüyündə deyil, yaradanın qədərindədir. Şah Abbas Azərbaycan vəzirinin tədbirli məsləhətini qəbul etdi və qızılbaş qüvvələrinin döyüşə girməsi haqqında qərar verdi. Şah Abbas tərəflər arasında başlanan döyüşün gedişini yaxından izləyirdi və şah adamları davamlı olaraq döyüş barəsində ona yeni məlumatlar gətirirdilər (124).

Şah Abbas döyüşə girmək qərarını verəndən sonra dövrün tanınmış münəccimi olan Mövlana Məhəmməd Şəfiyə tapşırıq verildi ki, qızılbaş qüvvələrinin hansı saatda döyüşə başlaması vaxtını ulduzların seyri əsasında müəyyənləşdirsin. Şah Abbas bu məsələyə ciddi diqqət yetirirdi. Ona görə qoşun rəhbərlərinə əmr göndərilmişdi ki, adı çəkilən münəccim tərəfindən döyüşə girmək saatı müəyyənləşdiriləndə qədər kimsə irəli atılmasın. Hətta Osmanlı qüvvələri irəli atılacaqları təqdirdə belə qızılbaş əmirləri yalnız münəccimin təyin etdiyi saatda döyüşə girə bilərdilər. Şah Abbasda belə bir əminlik var idi ki, Mövlana Məhəmməd Şəfinin müəyyən etdiyi saatda döyüş başlansa, qızılbaş qüvvələri uğur əldə edəcəklər. Belə fikirləşmək üçün Şah Abbasın əlində müəyyən əsaslar da var idi. Çünki əvvəllər Mövlana Məhəmməd Şəfinin söylədikləri dəfələrlə təcrübədən çıxarılmış və onun dediklərinə əməl edilməsi müsbət nəticə vermişdi. Qızılbaş qüvvələri döyüş meydanına atılmağa hazır olsalar da münəccimin işarəsini

gözləmək məcburiyyətində qaldılar. Osmanlı sərdarları əvvəlcə qəfil hücum həyata keçirmək istəyirdilər. Sonra onlar bu plandan əl çəkib sadəcə döyüşün başlanmasını gözlədilər. Səbəb də bu idi ki, qızılbaş əmirləri Osmanlı qoşunlarının ilkin planından xəbər tutmuşdular. Ona görə də osmanlıların qəfil hücum planı təxirə salındı (125).

İsgəndər bəy Münşinin yazdığına görə, hücumda iştirak edən Krım qoşunlarının sayı 15-20 mindən artıq deyildi. Beş min nəfərlik bir qoşun dəstəsi də Ərzrum bəylərbəyi Həsən paşanın rəhbərliyi altında olan döyüşçülərdən, sərhəd bəylərbəyliklərindən və kürd əmirlərindən toplandı. Osmanlı qoşunlarından da 40 min nəfərlik bir qüvvə ayrıldı. Nəticədə 60 min nəfərlik bir qoşun dəstəsi formalaşdırıldı. Nəhayət bu qoşun dəstəsi təşkilatlandıqdan sonra gecə vaxtı hərəkətə başladı və qızılbaş qoşunlarının yerləşdiyi Səqənsaray adlı bir məntəqəyə gəlib çıxdı. Osmanlı qoşunlarının hərəkəti qızılbaş düşərgəsində davamlı şəkildə izlənilirdi. Bu qoşunlar gəlib çatmadan qızılbaş əmirləri öz qoşunlarının qruplaşdırılmasını apardılar, qoşunların çərxçi və hiravul dəstələri, cinahları və mərkəzi müəyyənləşdirildi. Qərçəqay xan qoşunların mərkəzini öz üzərinə götürdü. Döyüşün başlanması üçün çərxçi dəstəsi irəli çıxarıldı və Sınıq körpü adlanan məntəqədə hər iki tərəfin irəli çıxarılmış dəstələri qarşı-qarşıya gəldilər (126)

“Rövzətüs-Səfəviyyə” müəllifi isə qızılbaş qoşunlarının düzülüşünü təsvir edərkən bildirirdi ki, İmamqulu xan məliklərə layiq təchizata malik idi, zireh və cövşən geyinmişdi və qardaşı Davud xanla döyüş aparmağa hazır bir vəziyyət almışdı. Onun rəhbərliyi altında on min nəfər xassə qulamlar və döyüşçülər dəstəsi var idi və İmamqulu xan özünün sağ cinahını bu dəstəyə tapşırmışdı. Bundan başqa onun rəhbərliyi altında daha on min nəfərlik bir dəstə də var idi ki, İmamqulu xan həmin dəstəni sol cinaha vəzifələndirdi. Bu qoşun dəstəsinin döyüşçüləri də döyüş təchizatı ilə təmin edilmişdilər. Adı çəkilən mənbənin verdiyi məlumata görə, Qərçəqay xanın rəhbərliyi altında da 20 min nəfərlik bir qoşun

dəstəsi var idi. Bu qoşun dəstəsində Xorasa qoşunları, hər vilayətdən gətirilmiş topçular və qorçular toplanmışdılar (127).

Göründüyü kimi, qoşunların say tərkibi ilə bağlı həm "Rövzətüs-Səfəviyyə" əsərindəki rəqəmlərlə digər əsərlərdəki rəqəmlər arasında fərq mövcuddur. Amma bəlli olan odur ki, Osmanlı qoşunlarının sayı qızılbaş qoşunlarının sayından xeyli üstün idi. Xəlil paşanı və Osmanlı sərdarlarını bu döyüşə girməyə həvəsləndirən qoşunların say üstünlüyü olduğu halda, Şah Abbası da ehtiyatlandıran qızılbaş qüvvələrinin say azlığı idi.

"Rövzətüs-Səfəviyyə" müəllifi yazırdı ki, qızılbaş qoşunları döyüşə hazır olduğu zaman münəccim Mövlana Məhəmməd Şəfinin işarəsini gözləyirdilər. Mövlana Məhəmməd Şəfi də bu zaman əlində üstürlab qoşunların yanında idi və gözləyirdi ki, bu üstürlabın əqrəbi lazım olan zamanı göstərəcəkdir. Həm Mövlana Məhəmməd Şəfi, həm də qoşunlar intizarla üstürlabın əqrəbinin hərəkətinin intizarında idilər. Üstürlabın əqrəbi müvafiq dərəcə üstünə çatanda Mövlana hərəkətə başlamağın mümkünlüyü barəsində işarə verdi. Bu işarəni alan kimi, ilkin olaraq İmamqulu xanın sağ və sol cinahları irəli atıldılar. "Rövzətüs-Səfəviyyə" müəllifi yazırdı ki, heç Qaf və Səhlan dağları da bu hücumun qarşısında duruş gətirə bilməzdilər (128).

İsgəndər bəy Münşinin yazdıqlarından belə bir qənaətə gəlmək mümkündür ki, tərəflər arasındakı döyüş Osmanlı qüvvələrinin üstünlüyü ilə başladı. Hətta qızılbaş qoşunlarının uğursuzluğa düçar olması işarələri də görünməkdə idi. Belə bir zamanda qızılbaş qoşunlarının sağ cinahının güclü əzmkarlığı döyüşün gedişinə də bir dəyişiklik gətirdi: "Hər tərəfdən hücuma keçən müxalif ləşkər artıq qələbə çalmaq üzrə idi ki, sağ qol adamları və şamlıların əzəmətli yüzbaşı və qorçiləri, habelə İmanlı tayfasının əfşar döyüşçüləri və başqaları Zeynal bəy Bigdelinin sərdarlığı ilə qalibiyyətli qoşuna məbadə bir xətər toxunmamasından ötrü özlərinin azlığı və düşmənlərinsə çoxluğu barədə fikirləşmədən müxalif qoşun üzərinə şığıdılar. Onlar rum və tatar döyüşçülərinin böyük qoluna çatanadək at sürdülər, dayanmadılar, onların böyük bir qismini

həlak etdilər. Sol qoldan da ləşkərin mübariz və dilavərləri Fars [vilayətinin] bəylərbəyi İmamqulu xanın sərkərdəliyi ilə rumların həmlələrini döyüş meydanına ard-ardınca dəf etməyə başladılar. Hər iki tərəf mərdanə döyüşürdü. Şücaətli həmlələrdən və mərdanə sədəmələrdən müxalif dəstələrdə səbat və qərar qalmadı, qəhrli qoşunun meymənə və meysərəsindən zəif olan o saysız-hesabsız ləşkərdə sınıqlıq müşahidə olundu, rumiyyə təlaşa düşdü və onların böyük qolu nizamdan (tuzuk) düşdü. Xülasə, o qəhrli döyüşçülərin meymənə və meysərəsindən edilən qətiyyətli hücumlar nəticəsində rumilər və tatarlar böyük məğlubiyyətə uğrayıb, fərar vadisinə üz tutdular" (129).

Yuxarıda qeyd edildiyi kimi, Krım xanı Canıbəy Gərayın nəslindən olan Şahin Gəray saray çəkişmələri üzündən Krımdan qaçaraq Səfəvi sarayına sığınmışdı və Osmanlı qoşunlarına qarşı aparılan döyüşdə o da qızılbaş qoşunları tərkibində iştirak edirdi. Osmanlı qoşunları ilə birlikdə vuruşan Krım dəstəsinin rəhbərləri bundan xəbərdar idilər. Qızılbaş qüvvələrinin fədakarlığı və şücaəti bəlli olandan sonra Krım dəstəsinin əmirləri qorxuya düşdülər və belə bir təşviş yarandı ki, Şahin Gəray xan öz dəstəsi ilə Krım dəstəsinin üzərinə hücum etsə, onda Canıbəy Gərayın əsir götürülməsi təhlükəsi yarana bilər. Ona görə də Krım əmirləri Canıbəy Gərayı ön xətdən uzaqlaşdırdılar. Osmanlı qoşunlarının uğursuzluq məngənəsinə yuvarlanması müşahidə olunanda Canıbəy Gəray da dayandığı yerdən asanlıqla geri qaçmaq fürsəti əldə etdi. Yalnız ön xətdən kənarlaşdırıldığı üçün Canıbəy Gəray əsir düşməkdən canını qurtara bildi. Halbuki döyüşdən əvvəl Canıbəy Gəray çox böyük iddialarla yaşayırdı və əmin idi ki qızılbaş qüvvələrinə üstün gəlməklə böyük miqdarda hərbi qənimətlər də toplaya biləcəkdir. Krım qoşunlarının böyük bir hissəsi qızılbaş döyüşçüləri tərəfindən qətlə yetirildilər. Canıbəy Gərayın vəkili olan, olduqca mötəbər və ixtiyar sahibi kimi tanınan Mirzəbəy ağa da 80 nəfər nüfuzlu Krım mirzəsi və ağazadəsi ilə birlikdə qızılbaş qüvvələrinə əsir düşdülər. Bu döyüşdə Canıbəy Gəray canını qurtara bilsə də onun çoxlu sayda döyüşçüsü qətlə yetirildi (130).

İsgəndər bəy Münşinin yazdığına görə, bu döyüşdə Osmanlı qoşunlarının "alay" adlandırdıqları 70-80 bayraqlı dəstə və bir alay sərdarı əsir götürüldü. Əldə edilmiş böyük uğura baxmayaraq, Qərçəqay xan geri qaçan Osmanlı qoşunlarının təqib olunmasına ehtiyac görmədi. Onun fikrincə, Osmanlı qoşunlarının müəyyən dəstələri qızılbaş qüvvələrinə qarşı pusqular qura bilərdilər. Digər tərəfdən Osmanlı qoşunlarının təqib edilməsi üçün o, şah tərəfindən də hər hansı bir əmr almamışdı. Ona görə, Qərçəqay xan bir müddət qoşunları döyüş hazırlığı vəziyyətində saxladı. Doğrudur, əldə edilən qələbədən ruhlanan bir sıra qızılbaş döyüşçüləri Osmanlı qüvvələrinin təqibinə qatılmışdılar. Qərçəqay xan adam göndərərək onları da geri çağırdı. İsgəndər bəy Münşinin məlumatına görə, elə Qərçəqay xanın yanında olan bir sıra qızılbaş döyüşçüləri də xandan icazəsiz osmanlıların təqibinə qoşuldular. Bu zaman onları qənimət əldə etmək yox, öz məharətlərini nümayiş etdirmək maraqlandırırdı. Həmin döyüşçülər icazəsiz təqibə qoşulmalarını gizlətməyə çalışsalar da, bir müddət sonra onların bu hərəkəti hamıya məlum oldu.

Osmanlı mənbələrində də Osmanlı qoşunlarının ağır məğlubiyyətə uğraması haqqında məlumatlar vardır. Həmin mənbələrdəki məlumatlara görə, Rumeli bəylərbəyi Arslan paşa, Diyarbəkr bəylərbəyi Mustafa paşa bu döyüşdə həlak oldular. Almaçı Məhəmməd paşa ilə Şirvanlı Mustafa paşa isə əsir düşdülər (131).

Osmanlı qoşunları üzərində uğur əldə edildikdən sonra Qərçəqay xan təcrübəli qulamlardan olan Yusif bəy adlı birisini Şah Abbasın yanına göndərdi ki, döyüşün gedişi və nəticəsi haqqında ona məlumat çatdırsın. Osmanlı mənbələrindəki məlumata görə, Yusif bəy qızılbaş qoşunlarının qələbə xəbərini çatdıranda Şah Abbas Səfəvi şeyxlərinin Ərdəbildəki türbəsində dua və ibadətlə məşğul idi. Bu xəbər sözsüz ki, onu çox sevindirdi. Yusif bəyin ardınca Azərbaycan tüfəngçilərinin minbaşısı Tağı bəy Təbrizi gələrək Şah Abbasa döyüşün gedişi barəsində daha müfəssəl məlumat verdi. Tağı bəy Təbrizi də döyüşün gedişi, Osmanlı qoşunlarından götürülən əsirlər haqqında ərz etdi. Əsir götürülmüş Van bəylər-

bəyi Məhəmməd paşa, Krım xanının vəkili Mirzəbəy ağa Ərdəbildə Şah Abbasa təqdim olundular. Şah Abbas onları mehribanlıqla qarşıladı və onlara ehtiram göstərdi. Döyüşdən geri qayıdan qoşunlar isə ələ keçirdikləri qənimətləri şah hüzuruna gətirdilər və döyüş sıralarında onun qarşısından keçirdilər (132).

Bir məlumata görə, Qərçəqay xan Şah Abbasın icazəsi olmadan Osmanlı qoşunları ilə döyüşə qoşulduğuna görə müəyyən narahatçılıq keçirirdi. Ona görə də o, Şah Abbasa məktub göndərdi, şahdan icazəsiz döyüşə girməyin səbəbi haqqında ona açıqlama verdi. Eyni zamanda bu döyüşün gedişi və nəticələri haqqında da şaha məlumat çatdırıldı. Qərçəqay xan sonra bu məktubda icazəsiz döyüşə başladığı üçün şah qarşısında günahkar olduğunu və buna görə şah əmrini qəbul etməyə hazır olduğunu yazdı. Qərçəqay xanın məktubu 1618-ci il sentyabr ayının 11-də Şah Abbasa çatdırıldı. Məktubun məzmunu həm Şah Abbasın və həm də Ərdəbil əhalisinin böyük sevinc ilə qarşılaşdı. Şah Abbas əmr etdi ki, Osmanlı qoşunları üzərində qələbə xəbəri bütün şəhər əhalisinə car çəkilsin. Şəhər əhalisinə o da çatdırıldı ki, daha kimsə öz evini tərk etməsin. Şah Abbas da Qərçəqay xana məktub göndərdi, əldə etdiyi uğurla bağlı ona öz məmnunluğunu çatdırdı, Osmanlı qoşunlarına qarşı başladığı döyüşü səltənət maraqlarına uyğun əməl kimi dəyərləndirdi. Şah əlavə olaraq ona yazdı ki, tutulmuş əsirlərin hamısının Ərdəbilə yola salınmasına ehtiyac yoxdur (133).

İtaliyalı səyyah P.Delavella öz xatirələrində yazırdı ki, Osmanlı qoşunları üzərində qələbənin sübutu kimi, ələ keçirilmiş əsirlər Ərdəbil küçələrində gəzdirildi. Şəhər sakinləri onları seyrinə çıxdılar. Bu əsirlər at belində idilər və şəhər küçələrini gəzdirdikdən sonra onları şah qəsrinin qarşısına gətirdilər. P.Delavellanın yazdığına görə, bu əsirlərin sayı iyirmi nəfərdən artıq deyildi. Şəhər sakinlərinin gözlədiklərinin əksinə olaraq, Şah Abbas əsirlərin müşahidəsi üçün qəsrdən çıxmadı. Onun əmri əsasında həmin əsirlər yaxınlıqdakı bağlardan birinə aparıldı. Sonradan onları şah qəsrinin içərisinə gətirdilər və orada onlar şah hüzuruna çıxarıldı. İtaliyalı səyyahın yazdığına görə Van bəylərbəyi Mə-

həmməd paşa əsirlərin qarşısında hərəkət edirdi. Onun qısa boyu və ağ saqqalı var idi. Krım xanının vəkili Mirzəbəy ağa da bu əsirlərin arasında idi. Onun başında yara yerləri görünməkdə idi. Digər əsirlərdə isə döyüş əlamətləri yox idi. Osmanlı əsirlərinin hamısı döyüş geyimində idi və silahları da əllərindən alınmamışdı. Şah Abbas sadəcə olaraq onları müşahidə etdi və onlarla söhbətə girişmədi. Onun fərmanına əsasən, bütün əsirlər şəhər böyüklərindən olan Bahadır xan adlı birisinin evinə yerləşdilər. Güman edilirdi ki, Xəlil paşa yenidən qızılbaş qoşunlarının üzərinə hücum edə bilər. Bunun üçün onun yetərli sayda qüvvələri qalmaqda idi. Ona görə də Şah Abbas Osmanlı əsirlərinə qarşı hörmətsiz əməllər edilməsini məqsədəuyğun saymadı (134).

Piyetro Delavella yazırdı ki, əsirlərin Ərdəbilə gətirildiyi günün axşamı (14 sentyabr 1618-ci il) onların hamısı Şah Abbasın hüzuruna çıxarıldı. Bunu əslində, Şah Abbas özü tələb etmişdi. Bu görüşə şah sarayının mənsublarından və şahın yaxın ətrafından kimsə dəvət olunmamışdı. Ona görə Şah Abbasın bu görüşdə əsirlərlə nə danışması haqqında saray mənsublarında yetərli məlumat yox idi. Güman edilirdi ki, Şah Abbas Osmanlı əsirləri ilə iki dövlət arasında davam edə biləcək müharibə haqqında söhbət etmişdi. O da güman edilirdi ki, Şah Abbas Osmanlı əsirlərindən Osmanlı qüvvələri haqqında məlumat almağa çalışa bilərdi (135).

Şah Abbasın Osmanlı qoşunlarının yenidən geri dönə biləcəyi haqqında gümanları heç də əbəs deyildi. Baş verən uğursuzluqdan sonra Xəlil paşa qoşun başçılarının, əmir və əyanların toplantısını keçirdi və orada nə edilməli olduğu barəsində müzakirələr apardı. Qoşun əmirlərinin bir qismi Osmanlı qoşunlarının yenidən döyüşə girməsini məqsədəuyğun saymadılar və onlar təklif etdilər ki, Osmanlı qoşunları geri çəkilsinlər. Bu adamlar ehtiyat edirdilər ki, qızılbaş qoşunlarının yeni hücumu da təhlükəli ola bilər. Qoşunların baş dəftərdarı Baqi paşa və bir neçə təcrübəli dövlət adamı bu təklifin əleyhinə çıxdılar. Onların fikrincə, Osmanlı qoşunlarının geri çəkilməsi qızılbaş qüvvələrini daha da ruhlandıra bilərdi. İrəli hərəkət isə Osmanlı qüvvələrini ruhlandırmaqla yanaşı,

qızılbaş qüvvələrini təşviş içinə sala bilərdi. Təklif olundu ki, Osmanlı qoşunları Ərdəbil istiqamətində öz hərəkətlərini davam etdirsinlər. Xəlil paşa bu təklifə dəstək verdi. Toplantıda olan əmirlərdən biri Osmanlı qoşunlarının bir qayda olaraq Təbrizdən Ərdəbilə tərəf hərəkət etmədiyini və bunun ağır nəticələrə gətirib çıxara biləcəyini qeyd etdi. Bununla belə, Xəlil paşa Ərdəbil üzərinə yürüşü davam etdirmək təklifi üzərində dayandı. Bu barədə qoşunlara da yürüşə hazırlaşmaq barəsində müvafiq əmr verdi (136).

İsgəndər bəy Münşi də baş verən uğursuzluqdan sonra Xəlil paşa tərəfindən bir toplantı keçirildiyini təsdiq edirdi. Xəlil paşa qızılbaş qüvvələrinin baş verən döyüşdə əldə etdiyi uğurdan sonra ehtiyatlanmağa başlamışdı və yeni bir döyüşün baş verməsini istəmirdi. Hətta belə bir xəbər də alınmışdı ki, qızılbaş qüvvələrinin Osmanlı qoşunları üzərinə hücum etməsi gözlənilir. Amma Xəlil paşa düşərgəsində olan bəzi adamlar qızılbaş qüvvələrinin təkrar hücuma başlayacağının inandırıcı olmadığını bildirdilər. Qərar qəbul ediləndən sonra Xəlil paşa öz qoşun dəstəsi ilə Ərdəbilə doğru hərəkət etməyə başladı. Görünür, Xəlil paşa Ərdəbil üzərinə yürüş etməyin daha ağır nəticələrə gətirib çıxara biləcəyini hiss edirdi. Ona görə də elə Ərdəbilə doğru hərəkətdə ikən o, Osman ağanı yenidən elçi kimi Ərdəbilə, Şah Abbasın hüzuruna göndərdi ki, sülh təklifini ona çatdırsın. Osman ağa da onu müşayiət edən heyətlə birlikdə 1618-ci il sentyabr ayının 17-də Ərdəbilə gəlib çatdı (137).

İsgəndər bəy Münşinin yazdığına görə, göndərdiyi elçi vasitəsilə Xəlil paşa Səfəvi hüdudlarına yürüş etməsinin səbəblərini pərdələməyə çalışdı və bu yürüşə Krım xanı, habelə sifətlərinə ruzigar şilləsi dəyməmiş bir neçə cahil döyüşçünün təhriki ilə başlandığını bildirdi. Yəni Xəlil paşa, əslində, bu yürüşə ehtiyacın olmadığını anlatmağa səy göstərdi. Sonra da o, Şah Abbasdan xahiş etdi ki, əgər sülhə razıdırsa sülh anlaşmasının şərtlərini yazsın, möhürləsin və onu etibar etdiyi adamlarının biri vasitəsilə Osmanlı sarayına göndərsin. Şah Abbasa göndərdiyi məktubda Xəlil paşa daha sonra yazırdı: “Bu xeyirxah bəndə bundan sonra tərəflər ara-

sında etimadlı vasitəçi olacaq, sülh işi bu dəfə şahın özünün istəyincə həyata keçiriləcək, bir daha xələl və nöqsandan xətər görməyəcəklər. Biz elçinin gəlişini və əhdnamənin çatdırılmasını bir neçə gün hümayun sərhəddə gözləyəcəyik, o həzrətin mehmanı olacağıq, dostluğa xidmət edən işi yerinə yetirəcəyik. Böyük elçinin gəlişindən sonra bizim yanımızda olan Məhəmməd Hüseyn və başqa ali rütbəli mülazimlər sizin yanınıza gələcəklər" (138).

## 4. Sərab (Mərənd) anlaşması

Osmanlı mənbələrinə görə, Xəlil paşanın sülh təklifini irəli sürməsi yalnız Səfəvi dövləti ilə müharibənin dayandırılması istəyi ilə bağlı deyildi. Burada başqa səbəblər də özünü göstərməkdə idi. O cümlədən, məlum idi ki, Avropa cəbhəsində, Osmanlı dövləti ilə Polşa arasında gərginlik yaranmağa başlamışdır. Bu gərginlik elə bir səviyyəyə çatmışdı ki, Polşa istiqamətinə Osmanlı qoşunlarının göndərilməsinə ehtiyac var idi. Hətta Osmanlı sarayından da Xəlil paşaya xəbər göndərilmişdi ki, şərq cəbhəsində sülh anlaşması əldə edilsin və bununla qoşunların Avropa cəbhəsinə göndərilməsinə şərait yaradılsın. Bundan başqa qışın yaxınlaşmasının da sülh axtarışına səbəb olması bildirilirdi. Osmanlı qoşunlarının soyuq havada Səfəvi ərazilərində olmasının hansı ağır nəticələrə gətirib çıxarması ilə bağlı acı təcrübə var idi. Ona görə də qışın düşməsindən əvvəl Osmanlı qoşunlarının geri çəkilməsi lazım bilinirdi. Sözsüz ki, bu zaman ərzaq ehtiyatlarının qıtlığı da nəzərə alınırdı. O da bildirilir ki, Osmanlı qoşunlarının Ərdəbilə doğru hərəkət etməsi də Şah Abbasın sülhə meylli olmasını təmin etmək üçün idi. Ehtimal edilirdi ki, Şah Abbas sülh əldə edilməsini yenidən döyüşə girməkdən üstün tutacaqdır. Məlumata görə, Osmanlı qoşunları Sərabı adladıqdan sonra Qarasu adlanan məntəqədə dayandı. Xəlil paşa burada Şah Abbasdan gələcək cavabı gözləməyi qərara aldı. Xəlil paşa qızılbaş qüvvələrinin hücum təhlükəsindən ehtiyatlandığı üçün qoşunlarına döyüşə hazır vəziyyətdə dayanmağı əmr etdi. Krım xanının dəstələri isə Ərdəbil

ətrafındakı yaşayış məntəqələrinin talan edilməsinə göndərildi. Bu talanlarla Osmanlı qoşunlarının ərzaq ehtiyaclarının qismən aradan qaldırılacağı ehtimal edilirdi. Ərdəbil ətrafındakı yaşayış məntəqələri yerli əhali tərəfindən boşaldılsa da, Krım döyüşçüləri bəzi yerlərdə az-çox ərzaq ehtiyatları tapa bildilər (139).

Osmanlı mənbələrində olan məlumatlara görə, sülh təklifi alınandan sonra Qərçəqay tərəfindən bir neçə dəfə Xəlil paşaya məktub göndərildi, şah sarayının da sülhə tərəfdar olduğu bildirildi və xahiş olundu ki, Osmanlı qoşunlarının Ərdəbilə doğru irəliləməsi dayandırılsın. Bu xahiş Xəlil paşa tərəfindən qəbul olundu və Osmanlı qoşunları Ərdəbilə bir günlük məsafədə dayandı və irəli hərəkət etmədi. Osmanlı mənbələri Şah Abbas tərəfindən Osmanlı sarayına göndərilmək üçün Mazandaran sipəhsaları Qasım bəyin elçi təyin edildiyini yazırlar. O da bildirilir ki, az sonra Qaşım bəy şah məktubu ilə Xəlil paşanın düşərgəsinə gəldi (140).

Xəlil paşa tərəfindən sülh təklifi edilməsi Şah Abbas tərəfindən məmnunluqla qəbul edildi. Çünki Şah Abbas hər zaman öz şərtləri daxilində Osmanlı dövləti ilə yeni sülh anlaşmasının əldə edilməsinin tərəfdarı idi. Şah Abbasın şərtləri isə Şah Təhmasibin hakimiyyəti illərində mövcud olmuş sərhəd xəttinin tanınması və Osmanlı qüvvələri tərəfindən ələ keçirilmiş ərazilərin geri qaytarılması idi. Xəlil paşa da yeni sülh təklifi irəli sürəndə bu şərtlə razılaşdığını bildirdi. Osmanlı mənbələrinə görə, Xəlil paşa Səfəvi dövlətinə qarşı ərazi tələbindən imtina edildiyini və yalnız illik ipək xəracı saxlanmaqla Səfəvi dövləti ilə sülh əldə edilməsinin mümkünlüyünü qəbul etdi (141).

Sülh anlaşması razılasdırıldıqdan sonra onun mətni şah elçisi olan Qasım bəy, Osmanlı elçiləri olan Osman ağa və Cəbəçibaşı Məhəmməd ağa ilə Ərdəbilə, Şah Abbasa göndərildi. Cəbəçibaşı Məhəmməd ağa Osmanlı qoşunlarında yüksək vəzifə tutan bir əmir idi və onun şah düşərgəsinə göndərilməsi əldə edilmiş sülh anlaşmasına Xəlil paşanın verdiyi əhəmiyyətin nişanəsi idi. Xəlil paşa eyni zamanda Şah Abbasa məktub da göndərdi və həmin məktubda sülhə meylli olduğunu nümayiş etdirmək üçün özünü

Səfəvi ərazisində şah qonağı kimi gördüyünü yazdı. Şah da bu sözdən sonra ona və onun rəhbərliyi altında olan qoşunlara qonaq kimi yanaşmağı üstün tutdu, Osmanlı qoşunlarına qarşı qonaqpərvərlik nümayiş etdirdi. İsgəndər bəy Münşi yazırdı ki, dünya təcrübəsində hücuma məruz qalan ölkənin padşahı hücum edən ölkənin qoşunlarına qonaq münasibəti bəsləməmişdi. Şah Abbas isə Osmanlı qoşunlarına qarşı belə bir münasibət nümayiş etdirdi. Şah Abbasa yaxşı məlum idi ki, Osmanlı qoşunları çox ciddi ərzaq qıtlığı ilə qarşılaşıbdır. Ona görə də şah tərəfindən qərara alındı ki, Osmanlı qoşunlarının ərzaq üzüntülərinin qarşısının alınması üçün onlara yardım göndərilsin. "Şahanə bir inayətlə sərdar və rumiyyə əyanları üçün beş yüz dəvə ilə un, düyü, yağ, qənd, nabat, mürəbbə, qoyun, müxtəlif çeşidli meyvələr və sair ərzaq və heyvan yemi müəyyənləşdirdi, onları münasib vaxtda sərdarın ordusuna çatdırmaqdan ötrü sipəhsaların yanına yolladı. Bu xəbər sərdara çatanda qayıdış cilovunu əlinə götürdü və geri qayıtdı" (142).

Razılaşdırılması nəzərdə tutulan sülh anlaşmasının mətnini qəbul etdikdən sonra Şah Abbas Osmanlı elçisi Osman ağanın geri qayıtmasına icazə verdi. Osman ağa geri qayıdarkan əvvəlcə Qərçəqay xanın düşərgəsində olmalı, onu qəbul edilməsi nəzərdə tutulan sülh anlaşması ilə tanış etməli və sonra da Osmanlı düşərgəsinə yolunu davam etdirməli idi. Xəlil paşa eyni zamanda xahiş etmişdi ki, sülh anlaşmasının rəsmiləşdirilməsi üçün Osmanlı sarayına mötəbər bir şah elçisi göndərilsin. Şah Abbas da sülhə razılığını nümayiş etdirmək üçün Şah Abbas əsir götürülmüş Van bəylərbəyi Məhəmməd paşanı bir neçə başqa əsirlə birlikdə azad edərək Osmanlı düşərgəsinə göndərdi. Eyni zamanda Osmanlı sarayına göndərilməli olan şah elçisi müəyyən edildi. Bu vəzifə yenicə Hindistan elçiliyindən geri qayıtmış və tapşırılan vəzifəni uğurla yerinə yetirdiyinə görə "xüləfa" rütbəsinə layiq görülən Yadigar Əli Sultan Talışa həvalə olundu. Yadigar Əli Sultan Talış şah məktubunu, Şah Abbasın qiymətli hədiyyələrini özü ilə Osmanlı sarayına aparmalı idi (143).

Osmanlı qoşunlarına ərzaq yardımının göstərilməsi də həmin vaxta təsadüf edirdi. Şah Abbas iki dövlət arasında sülh anlaşmasını əldə edilməsinə tərəfdar olsa da, bunun üçün konkret addımlar atsa da, bu anlaşma hələ rəsmiləşdirilməmişdi. Ona görə Şah Abbas sülhlə bağlı öz iradəsini ortaya qoymaqla bərabər, ondan da ehtiyat edirdi ki, sülh razılaşmaları bəhanəsi ilə Osmanlı sərdarları vaxtı uzatmağa və öz qüvvələrini yenidən bərpa etməyə çalışa bilərlər. Şah Abbasa görə, Osmanlı qoşunları daxilində sülh tərəfdarı olmayanlar da tapıla və beləlləri yaranmış sakitlikdən qoşunların yenidən qruplaşdırılması, toparlanması və hücuma başlanması üçün istifadə edə bilərdilər. Ona görə də Qərçəqay xana əmr olundu ki, döyüş sayıqlığını itirməsin, Osmanlı qoşunları ciddi müşahidə altında saxlansın, onların bütün yerdəyişmələri izlənilsin, geri çəkilərkən bu qüvvələr döyüşə girmədən təqib olunsun. Yəni yeni sülh anlaşmasının əldə olunmasına qədər Osmanlı qoşunlarının yerdəyişmələrinin və hərəkətlərinin nəzarət altında saxlanması lazım bilindi. Bu yüksək hazırlıq səviyyəsi sülh anlaşmasının imzalanmasına qədər davam etməli idi. Şah fərmanına uyğun olaraq qızılbaş dəstələri döyüşə hazır vəziyyətdə Osmanlı qüvvələrini müşahidə altına aldılar. Bəzi ərazilərdə bu qızılbaş dəstələri o qədər Osmanlı qüvvələrinə yaxınlaşdılar ki, onların yerləşdikləri çadırları da aydın şəkildə görmək mümkün idi. Qızılbaş qüvvələrinin bu fəallığı Osmanlı düşərgəsində bəzi adamları narahat edirdi və ona görə də Xəlil paşaya təlqin edilirdi ki, sülh anlaşmasının razılaşdırılması məsələsi sürətləndirilsin. Osmanlı sərdarlarının və əmirlərinin çoxu üçün bəlli idi ki, "...qızılbaşların belə qorxu-hürküsüz yaxın gəlmələrinin səbəbi onların öz padşahları tərəfindən hərbə rüxsət almaları ilə əlaqədardır. Biz gərək dərhal, əvvəlcə razılaşdığımız kimi hərəkət edib, sabiq qızılbaş elçisini onların tələb etdikləri və əlahəzrət şahın istəyincə yazılan əhdnamə ilə birlikdə göndərək və belə işlərdən müzayiqə etməyək, gərək yaxınlaşmada olan müharibəyə və böyük sultani cənginə hazırlaşaq" (144).

Osmanlı qoşunları geri çəkildikcə onun tərkibinə daxil olan bir sıra dəstələr ayrılaraq öz yerlərinə istiqamət götürmüşdülər. Ona görə Osmanlı qüvvələrinin sıraları xeyli seyrəlmişdi və bu qüvvələrin qızılbaş dəstələrinə müqavimət göstərmək gücü artıq qalmamışdı. Belə bir vəziyyətdə Xəlil paşa yeni sülh anlaşmasının razılaşdırılmış mətnini imzaladı. İsgəndər bəy Münşinin yazdığına görə, bu mətni həmçinin Osmanlı qüvvələrinin qazi-əsgəri, müftisi, qoşun başçıları, əmirlər də imzaladılar. Sonra bu anlaşma mətni Mirzə Hüseyn adlı birisi ilə şah sarayına yola salındı. Mirzə Məhəmməd Hüseyn Əbhəri vaxtilə şah elçisi kimi Osmanlı düşərgəsinə gəlmiş və Vanda qalmışdı. Xəlil paşa onun qayıtmasına icazə verməklə Şah Abbasa yazdığı məktubu və sülh anlaşmasını da şah düşərgəsinə göndərdi. Mirzə Hüseyn əvvəlcə Qərçəqay xanın düşərgəsinə gəldi, onunla görüşdü, sülh anlaşmasına Xəlil paşa tərəfindən imza atıldığını söylədi. Bundan sonra Mirzə Hüseyn Ərdəbilə yollandı, orada Şah Abbasla görüşdü və sülh anlaşmasına Xəlil paşa tərəfindən imza atıldığı bildirildi. Bu anlaşma Şah Abbasın şərtlərinə uyğun idi. Həmin şərtlər Xəlil paşanın düşərgəsinə gələn şah elçisi tərəfindən də açıqlanmışdı. Xəlil paşa düşərgəsində bu şərtləri müzakirə edərkən şah elçisi qarşısında Axısqada və Bağdad ətrafında bəzi ərazilərin Osmanlı nəzarəti altına qaytarılması məsələsi qaldırılmışdı. Ərazi məsələləri ilə bağlı qarşılıqlı razılaşma nəzərə alınmaqla yeni sülh anlaşması imzalandı. Bu anlaşma I İstanbul anlaşmasının oxşarı idi. Dəyişiklik yalnız Səfəvi dövləti tərəfindən Osmanlı dövlətinə verilməli olan ipək xəracının iki yüz taydan yüz taya endirilməsi idi (145).

Yeni anlaşma 1618-ci il sentyabr ayının 26-da razılaşdırıldı və o, tarixdə daha çox Sərab anlaşması kimi tanınmaqdadır. Elmi-tarixi ədəbiyyatda belə bir fikri də mövcuddur ki, bu anlaşma Mərənd yaxınlığında imzalanmışdır (146). Əslində, bu fikrin doğruluğunu qəbul etmək olar. Çünki yuxarıdakı məlumatlardan da göründüyü kimi, Sərab yaxınlığında sülh anlaşmasının mətni razılaşdırılmışdı. Bundan sonra geri çəkilməkdə olan Osmanlı qoşunlarının sərdarı Xəlil paşa Mərənd yaxınlığında anlaşmanın mətnini

imzalamalı olmuşdu. Sülh anlaşmasının Osmanlı sarayı tərəfindən rəsmiləşdirilməsi məsələsinə isə 1619-cu ildə baxıldı.

Sülh anlaşmasının Xəlil paşa və onun yaxın ətrafı tərəfindən imzalanmış mətni alındıqdan sonra Osmanlı sarayına elçi təyin olunmuş Yadigar Əli Sultan Talış şah məktubu və çoxlu qiymətli hədiyyələrlə İstanbula yola salındı. Xəlil paşa Tokatda olduğu vaxt Yadigar Əli Sultanın yüz yük ipəklə və Van bəylərbəyi Həsən paşanın müşayiəti ilə Vana yetişməsi xəbəri alındı. Bu hadisə 1618-ci ilin dekabrında baş verdi. Bir neçə gündən sonra isə Xəlil paşa Şah Abbasın sülh anlaşmasının əldə edilməsinə məmnunluğunu ifadə edən məktubunu aldı. Bu məktubdan sonra Xəlil paşanın yanında olan şah elçisi Qasım bəyin də geri qayıtmasına icazə verildi. Amma Xəlil paşa tərəfindən Səfəvi dövləti ilə sülh anlaşmasına gedilməsi Osmanlı sarayı tərəfindən heç də razılıqla qarşılanmadı və bunun nəticəsi idi ki, 1619-cu il yanvar ayının ortalarında o, sədr-əzəm vəzifəsindən azad edildi. Osmanlı dövlətinin sədr-əzəmi vəzifəsinə yenidən Xəlil paşadan əvvəl bu vəzifəni icra etmiş Məhəmməd paşa gətirildi (147).

Osmanlı qoşunları Səfəvi hüdudlarını tərk edəndən sonra Qərçəqay xan da qızılbaş qoşunları ilə geri qayıtdı. O, əvvəlcə Gərmrudun Türkmankəndinə gəldi. Burada Qərçəqay xan Osmanlı qoşunlarına qarşı səfərbər olmuş Səfəvi qoşunlarının sıra baxışını keçirdi və sonra da vilayət dəstələrinin öz vilayətlərinə yollanmasına icazə verdi. Sonra da Qərçəqay xan Ərdəbilə, Şah Abbasın hüzuruna yollandı. Şah Abbas Osmanlı qoşunlarına qarşı Qərçəqay xanın fəaliyyətini çox yüksək qiymətləndirirdi. Hətta eşidəndə ki, Qərçəqay xan onun hüzuruna gəlməkdədir. Şah Abbas şəxsən onun qarşılanmasına çıxdı. Hətta qarşı-qarşıya yaxınlaşanda Şah Abbas yerə düşdü və piyada şəkildə Qərçəqay xana tərəf irəlilədi. Qərçəqay xan da şaha ehtiram əlaməti olaraq atdan yerə düşdü, şaha öz itaətini və ehtiramını bəyan etdi. Bəzi məlumatlara görə, Şah Abbas Qərçəqay xana belə müraciət etdi: “Ağa can, sən mənim üçün elə böyük bir fəth eləmişsən ki, ondan da böyüyünü heç yaradandan arzu eləməmişdim. Gəl mənim atıma əyləş, mən

də sənin cilovdarın kimi sənin qarşında piyada hərəkət edim”. Şahidlərin xatirələrində olan qeydlərə görə, Qərçəqay xan bu sözləri eşidəndə özünü itirdi və iltimas etdi ki, şah ona qarşı belə bir lütf göstərməsin ki, insanlar bunu başqa cür başa düşə bilərlər. Şah Abbas isə hərəkəti ilə göstərdi ki, dedikləri heç də adi sözlər deyil. O məcbur etdi ki, Qərçəqay xan yenidən atlansın və sonra da bütün sərdarlar və saray əyanları ilə birlikdə onun arxasınca yeddi addım atdı. Göstərdiyi xidmətlərin qarşılığı olaraq Qərçəqay xan Şah Abbas tərəfindən Azərbaycanın əmirül-ümərası təyin edildi (148).

Qərçəqay xana tapşırıq verildi ki, Azərbaycan hakimi olmaqla Osmanlı qoşunlarının yürüşü zamanı yerli idarəçiliyin təşkilatlanması, insanlara qayğı göstərilməsi məsələləri ilə yaxından məşğul olsun. Şah Abbasın tapşırığı ilə yurdlarından köçürülmüş insanlara, habelə Osmanlı talanlarından insanlara dəymiş olan ziyanlar hesablandı və bu ziyanlar xəzinə hesabına ödənildi. Müharibədən ziyana düşmüş insanlar da Şah Abbasın bu qayğısını məmnunluqla qarşıladılar (149).

Sülh anlaşmasının əldə edilməsi istiqamətində ilkin addımlar atılsa da, Osmanlı sarayından gələcək xəbəri gözləmək lazım idi. Bu sülh anlaşmasının qəbul edilib-edilməməsi ilə bağlı son sözü Osmanlı sarayı deməli idi. Həmin xəbərin gəlməsi isə bir-neçə ay vaxt apara bilərdi. Osmanlı qoşunlarının Səfəvi hüdudlarından çıxarılmasından sonra Şah Abbas Mazandarana yollandı. Həm qışı, həm də 1619-cu ilin Novruz bayramını Şah Abbas Mazandaranda qarşıladı. Burada olarkən Şah Abbas dövlət işlərinin nizamlanması ilə də məşğul oldu. Asudə vaxtlarında Şah Abbas Miyankuhda ovla məşğul olmaq qərarına gəldi. Bu yerdə həm ov heyvanları çox idi, həm də ov edilməsi üçün daha münasib şərait var idi. Belə ki, Miyankuhun üç tərəfi su ilə əhatələnmişdi və o məkanda olan heyvanların ov edilməsi daha asan idi. Şah Abbas tərəfindən bu ov mərasimi kütləvi bir mərasimə çevrildi və onun yanında olan əmirlərə, əyanlara, saray mənsublarına da bu ovda iştirak etmək icazəsi verildi. Ov mərasimi başa çatandan sonra Şah Abbas

Fərəhabada qayıtdı. Orada olarkən Osmanlı dövləti ilə sülh anlaşması ətrafında cərəyan edən bir hadisə haqqında məlumat alındı. Həmin məlumata görə, Osmanlı qoşunlarının sərdarı Xəlil paşa Qərçəqay xanın Azərbaycan əmirül-ümərası təyin edilməsi ilə razı deyildi. O, Qərçəqay xanı Osmanlı hüdudları üçün bir təhlükə hesab edirdi. Ona görə Xəlil paşa onun həmin vəzifədən azad edilməsi arzusunda idi. Şah Abbas bu məsələdən xəbər tutanda Osmanlı dövləti ilə sülhün əldə edilməsi xatirinə Qərçəqay xanı Azərbaycan əmirül-ümərası vəzifəsindən azad etdi və Məşhəd hakimliyini ona verdi. Azərbaycan hakimliyi isə Şahbəndə xan Pornaka həvalə olundu (150).

Sülh anlaşması ilə bağlı məsələnin sona çatdırılması üçün Şah Abbas tərəfindən elçi təyin edilmiş Yadigar Əli Sultan Osmanlı sərdar və əmirlərinin müşayiəti ilə 1619-cu ilin aprel ayında İstanbula yetişdi. O özü ilə Osmanlı sultanına yüz tay ipək, dörd baş fil, bir baş kərgədan və digər qiymətli hədiyyələr gətirmişdi. Yadigar Əli Sultan uzun müddət İstanbulda Osmanlı sultanının görüşünü gözləməli oldu və bir də 1619-cu il sentyabr ayının 29-da yeni sülh anlaşmasının Osmanlı sultanı tərəfindən təsdiq olunması barəsində ona rəsmi məktub təqdim olundu (151).

Elmi tarixi ədəbiyyatda bu anlaşmanın beş, altı və yeddi bəndlik variantları ilə rastlaşmaq mümkündür. Həmin şərtlər aşağıdakı kimidir:

1. Qanuni Sultan Süleyman dövründə Amasiya sülh anlaşması ilə təyin edilən hüdudlar əsas götürülür;
2. Qars və Axısqa qalaları Osmanlı nəzarəti altına verilir;
3. Dərnə və Dərnətək Səfəvi dövləti nəzarətinə verilir. Sultan Süleymanın hakimiyyəti illərində Osmanlı dövlətinə aid olmuş və daha sonra isə Səfəvi qoşunları tərəfindən ələ keçirilmiş Bağdad və Şəhrizor vilayətləri civarındakı bölgələr boşaldılaraq Osmanlı dövlətinin nəzarəti altına verilir;
4. Osmanlı nəzarəti altında olan Dağıstan bəyləri üzərinə Səfəvi dövləti tərəfindən hücum edilməməlidir;
5. Müharibə əsirləri qarşılıqlı şəkildə dəyişdirilir;

6. Səfəvi şahı Osmanlı padşahına hər il xərac olaraq yüz yük ipək və qumaş verməlidir;

7. Əshabi-ikrama ehtiram qoyulmalıdır (152).

Sülh anlaşmasının yeddi bəndlik variantı daha məntiqi görünür. Çünki neçə aylar ərzində sərhəd ixtilafları ilə bağlı müzakirə olunan məsələlər bu bəndlərdə öz əksini tapmışdı. İsgəndər bəy Münşi İstanbulda razılaşdırılan sülh anlaşmasının aşağıdakı məsələləri əhatə etdiyini bildirirdi: "Sülh (mosalehe) tərəflər arasında belə qərarlaşdı: Cənnətməkan Şah Təhmasib əleyhurrəhmə və Rum sultanlarının ən ağıllısı və ən ədalətlisi olan Sultan Süleyman arasındakı sazişə yenidən riayət olunsun. Tərəflərin münaqişəsinə səbəb olmuş sonrakı dəyişiklik indi aşağıdakı kimi razılaşdırılsın: Hazırda qızılbaşların sərhədi daxilindəki Mesq Gürcüstanının Axəsqə vilayəti bu sazişin şərtinə əsasən rumilərin nəzarəti altına keçsin; humayun sərhədlə İraqi-Ərəb arasında mövcud olan Dərtəng ülkasının Zəncir qalası, o vaxtlar rumiyyə sərhədi daxilində olmasına baxmayaraq, indi bu dövlətin ixtiyarına verilsin. Beləliklə qərara alındı ki, tərəflər bu dəyişikliklə razılaşsınlar və münaqişə aradan götürülsün, sazişin başqa şərtləri isə o mərhum padşahların dövründə olduğu kimi dəyişilməz qalsın – hərçənd ki, əlahəzrət Axəsqə barədəki maddə ilə razılaşmırdı" (153).

Bu sülh anlaşmasının qəbul edilməsi Səfəvi dövlətinin maraqlarını özündə əks etdirirdi. Sərhəd məsələləri ilə bağlı bəzi narazılıqlar qalsa da, bütünlükdə anlaşmada Şah Abbasın istəkləri öz əksini tapmışdı. Osmanlı sarayı isə belə bir anlaşmanın qəbulunu heç də məmnunluqla qarşılamadı. Çünki bu anlaşma ilə bir vaxtlar Osmanlı qoşunları tərəfindən fəth edilmiş Səfəvi əraziləri geri qaytarılmalı oldu. Sülh anlaşmasının Osmanlı maraqlarına bütünlüklə cavab verməməsinin nəticəsi idi ki, Sultan Əhmədin hakimiyyəti dövründə onun qəbulundan imtina edildi. Yeni şəraitdə isə Səfəvi qoşunlarının uğurları Osmanlı sarayını belə bir anlaşma ilə razılaşmağa məcbur etdi. Xəlil paşa böyük bir qoşunla hərbi yürüşə başlayıb Osmanlı maraqlarının silah gücünə qorunmasını təmin etməli olsa da, onun uğursuzluğa düçar olması sonda Mə-

rənd yaxınlığında imzalanmış sülh anlaşmasının Osmanlı sarayı tərəfindən rəsmiləşdirilməsinə gətirib çıxardı. Xəlil paşa özü isə, yuxarıda qeyd edildiyi kimi, bu uğursuzluğuna görə tutduğu vəzifədən uzaqlaşdırıldı.

Sərab (Mərənd) anlaşması rəsmiləşdirildikdən sonra onun mətni Yadigar Əli Sultana təqdim olundu ki, onu şah sarayına çatdırsın. Yadigar Əli Sultanla birlikdə Osmanlı elçisi kimi İbrahim ağa da Osmanlı sultanının məktubunu Şah Abbasa çatdırmaq üçün yola salındı. Bu elçilər artıq 1620-ci ildə şah sarayına yetişdilər. Bu məktubda Osmanlı sultanı iki dövlət arasında sülhün olmasını, dostluq münasibətlərinin möhkəmlənməsini istədiyini yazdı. Osmanlı sultanının göndərdiyi qiymətli hədiyyələr Şah Abbasa təqdim olundu. İbrahim ağa şah sarayının yüksək vəzifəli əyanları ilə görüşlərində də iki dövlət arasında sülhün qorunmasına maraqlı olduğunu çatdırdı. Şah Abbas da öz tərəfindən Osmanlı sultanına hörmət dolu bir məktub yazdı. Həmin məktubun və şah hədiyyələrinin Osmanlı sarayına çatdırılması üçün Taxta bəy Yüzbaşı Ustaclı elçi təyin edildi və o, İbrahim ağa ilə birlikdə İstanbula yola salındı (154).

İbrahim ağa həm də Osmanlı sarayı tərəfindən sərhəd məsələlərinin nizamlanmasına vəzifələndirilmişdi. Sərhəd bölgəsində olarkən o bu məsələlərlə bağlı sərhəd hakimlərinə lazım olan göstərişləri verdi. Osmanlı tərəfini daha çox düşündürən isə Bağdad və Şəhrizor ətrafındakı bəzi ərazilərin Səfəvi qoşunları tərəfindən boşaldılaraq Osmanlı nəzarəti altına verilməsi məsələsi idi. Osmanlı qaynaqlarında 1619-cu ilin sonlarında Nəcəfqulu adlı bir şah elçisinin də Osmanlı sarayına gəlməsi öz əksini tapmışdır. Bildirilir ki, Nəcəfqulu bu gəlişi zamanı Şah Abbasdan Osmanlı sultanına hər hansı bir məktub gətirməmişdi. O, yalnız Şah Abbasın iki dövlət arasında sülhün əldə edilməsində maraqlı olması haqqında fikirlərini Osmanlı sarayına çatdırdı. Yenicə sədr-əzəm təyin edilmiş və qısa müddətdən sonra da vəzifəsindən azad edilmiş Məhəmməd paşaya isə bir məktub gətirilmişdi. Həmin məktuba cavab Məhəmməd paşanın yerinə sədr-əzəm təyin edilmiş Gözəl-

çə Əli paşa tərəfindən yazılmışdı. Osmanlı sarayının yeni sədrəzəmi də bu məktubunda şah sarayından xahiş edirdi ki, razılaşdırılmış sülh anlaşmasına əsasən, Bağdad və Şəhrizor ətrafındakı ərazilərin boşaldılaraq Osmanlı nəzarəti altına verilməsində İbrahim ağaya kömək göstərilsin (155).

Şah Abbas tərəfindən İbrahim ağa ilə birlikdə göndərilmiş Taxta bəy Yüzbaşı isə 1620-ci ilin ikinci yarısında Osmanlı sarayına yetişdi. O, Osmanlı sultanından əlavə Osmanlı şeyxülislamı Esad əfəndiyə də Şah Abbasın məktubunu gətirmişdi. Şah Abbasın yazdığı məktublar, habelə göndərdiyi hədiyyələr Osmanlı sarayında məmnunluqla qarşılandı və orada Səfəvi elçisinə yüksək qonaqpərvərlik göstərildi. Şah məktubuna cavab olaraq Osmanlı sultanı tərəfindən də yeni bir məktub yazıldı və onun Şah Abbasa çatdırılması Osmanlı elçisi Məhəmməd ağaya tapşırıldı. Məhəmməd ağa şah elçisi Taxta bəy Yüzbaşı ilə Səfəvi hüdudlarına yola düşdü.

## 5. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Fars dilindən tərcümə Şahin Fazil. Bakı, 2010, s.1546-1547
2. Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии. Грузия в XVII веке. Картлийское и Кахетское царства в начале XVII века.
https://www.gumer.info/bibliotek_Buks/History/Vachn/13.php
3. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639). Doktorta tezi, İzmir, 2009, s. 47
4. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1552-1553
5. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s.1553; Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии. Грузия в XVII веке...
6. Yenə orada, s. 1553-1554

7. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1554; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639). Doktorta tezi, s.47
8. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1555
9. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 844
10. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1556
11. Грузины спасаясь от гнева шаха Аббаса I, находили убежище в Джульфе, в Армянской церкви. https://crusaders1099.livejournal.com/16348.html
12. Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии. Грузия в XVII веке...
13. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1557; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639). Doktorta tezi, s.47; Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии. Грузия в XVII веке...
14. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1561
15. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 48
16. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1562
17. Yenə orada, s. 1563-1564
18. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 846-847
19. Yenə orada, s. 848
20. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1565
21. Yenə orada, s. 1566
22. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 848
23. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1567
24. Yenə orada, s. 1568
25. Yenə orada
26. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 849
27. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1569
28. Yenə orada, s. 1571.
29. Yenə orada, s. 1586
30. Yenə orada, s. 1587-1588
31. Yenə orada, s. 1592
32. Yenə orada, s. 1593
33. Yenə orada

34. Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии. Грузия в XVII веке...
35. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1594
36. Yenə orada, s. 1600-1601
37. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1602; Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии. Грузия в XVII веке...
38. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1602
39. Yenə orada, s. 1603-1604
40. Yenə orada, s. 1604
41. Yenə orada, s. 1605
42. Yenə orada, 1606
43. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1571; Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии. Грузия в XVII веке...
44. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1572
45. Yenə orada, s. 1573
46. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 49
47. Yenə orada, s. 49-50
48. Yenə orada, s. 50
49. Yenə orada
50. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1585
51. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 51
52. Yenə orada, s. 52
53. Yenə orada, s. 52-53
54. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1608
55. Yenə orada
56. Yenə orada, s. 1609
57. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 53-54
58. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1610
59. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 55
60. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 858; Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1611
61. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1610-1611

62. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 858
63. Yenə orada
64. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 55
65. Yenə orada, s. 56
66. Yenə orada, s. 57
67. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 858
68. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1611
69. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1612; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 255
70. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1612-1613
71. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1613
72. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1613; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 57
73. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1614-1615
74. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 860-861
75. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1616
76. Yenə orada, s. 1617
77. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 858-859
78. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 57
79. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1619
80. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 57
81. Conabedi M. Rövzətüs-Səfəviyyə. Tehran, 1378, s. 862
82. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1620; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 58
83. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1623
84. Yenə orada
85. Yenə orada, s. 1623-1624
86. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s.59; Kılıç, R. (2003). Osmanlılar ile Safevîler Arasında Nasuh Paşa (1612) ve Serav (1618) antlaşmaları. http://remzikilic.com/osmanlilar-ile-safeviler-arasinda-nasuh-pasa1612-ve-serav1618-antlasmalari.html?print=print
87. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1626-1627
88. Yenə orada, s. 1640-1641

89. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1641; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 58
90. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1642
91. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1642; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 260
92. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 59
93. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1643
94. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1644; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 60
95. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1645-1646; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 60
96. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s.60-61
97. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1648
98. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s.1 649; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 61; Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 260
99. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1659; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 61; Borazeş Ə. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əsr-e Səfəviyyə. Tehran, 1392, s. 381
100. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1659
101. Bax: Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom. Tehran, 1391, s. 1033-1035
102. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s.61-62
103. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1659-1660
104. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1661; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 62
105. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1661; Belan L. Zendegi-ye Şah Abbas, s. 264; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1037
106. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1662; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s.1037

107. Bax: Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1037
108. Bax: Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s.63
109. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1662
110. Yenə orada
111. Bax: Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1038-1039
112. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1039; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 64
113. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s.1040
114. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1039-1040
115. Bax: Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1040-1041
116. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1041-1042; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 65
117. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1662; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1042
118. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s.1039
119. Yenə orada, s. 1043
120. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1663-1664
121. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 64
122. Yenə orada, s. 65
123. Conabedi M. Rövzətüs-Səfəviyyə, s. 867-868
124. Yenə orada, s. 869
125. Yenə orada
126. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1665
127. Conabedi M. Rövzətüs-Səfəviyyə, s. 869
128. Yenə orada, s. 870

129. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1666
130. Yenə orada, s. 1667
131. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 65
132. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1667-1668; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 65
133. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1045-1046
134. Yenə orada, s. 1047
135. Yenə orada, s. 1048
136. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 66
137. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1668; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 66; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1048
138. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1668-1669
139. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 67
140. Yenə orada
141. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1669; Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 66
142. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1669
143. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1669; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild dovvom, s. 1050
144. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1670
145. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 67; Kılıc R. Osmanlılar ile Safeviler arasında Nasuh paşa (1612) ve Serav antlaşmaları (1618). http://remzikilic.com/osmanlilar-ile-safeviler-arasinda-nasuh-pasa1612-ve-serav1618-antlasmalari.html?print=print ;
146. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, 1981, с. 82; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, 2020, s. 128
147. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 69
148. Fəlsəfi N. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, Tehran, 1391, s. 225
149. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1671

150. Yenə orada, s. 1681
151. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s. 69; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 128
152. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), s.70; Kılıc R. Osmanlılar ile Safeviler arasında Nasuh paşa (1612) ve Serav antlaşmaları (1618).
http://remzikilic.com/osmanlilar-ile-safeviler-arasinda-nasuh-pasa1612-ve-serav1618-antlasmalari.html?print=print; Sərav antlaşması. https://antlasmalar.com/serav-antlasmasi/; Serav Antlaşması Nedir? Serav Antlaşması Tarihi, Maddeleri, Önemi Ve Sonuçları Kısaca Özeti.
https://www.hurriyet.com.tr/egitim/serav-antlasmasi-nedir-serav-antlasmasi-tarihi-maddeleri-onemi-ve-sonuclari-kisaca-ozeti-41802682
153. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1687
154. Yenə orada, s. 1687
155. Küpeli Ö. Osmanlı-Safevi münasibetleri (1612-1639), S .71-72

## MÜNDƏRİCAT

**GİRİŞ ..........................................................................3**

**I FƏSİL**
**ŞAH ABBASIN ŞAHLIĞA QƏDƏRKİ HƏYAT YOLU 10**
1. Şah Abbasın anadan olması ..............................................10
2. Abbas Mirzəni öldürmək cəhdləri ......................................21
3. Abbas Mirzənin qızılbaş əmirlərinin girovluğunda qalması ..........................................................................26
4. İxtilafda olan qızılbaş əmirləri tərəfindən Abbas Mirzənin şah elan etdirilməsi ...........................................................46
5. Abbas Mirzənin ikinci dəfə şah elan etdirilməsi ..................77
6. Abbas Mirzənin Səfəvi şahı elan olunması .........................100
7. İstifadə olunmuş mənbə və ədəbiyyat ................................125

**II FƏSİL**
**ŞAH ABBASIN ŞAHLIĞININ İLK İLLƏRİ ....................133**
1. Hakimiyyətin möhkəmləndirilməsi tədbirləri .....................133
2. Şəriksiz hakimiyyətin təmin edilməsi. Əliqulu xanın və Mürşüdqulu xanın qətlə yetirilməsi ..................................152
3. Qızılbaş əmirlərinin mərkəzi hakimiyyətə qarşı yeni itaətsizlikləri ................................................................173
4. Kirman və Fars vilayətlərində mərkəzi hakimiyyətə qarşı itaətsizlik halının aradan qaldırılması ................................179
5. Mərkəzi hakimiyyətə qarşı Gilan qiyamları və onların yatırılması ...............................................................214
   a) Xan Əhmədin rəhbərliyi altında qiyam .......................214
   b) Gilanda Şah Məlik qiyamı və onun yatırılması ............263
   c) Gilanda yeni itaətsizliyin baş verməsi və onun yatırılması ..........................................................272
6. İstifadə olunmuş mənbə və ədəbiyyat ................................284

**III FƏSİL**
**MƏRKƏZİ HAKİMİYYƏTƏ QARŞI BAŞ VERƏN QİYAMLARIN YATIRILMASI ....................................................298**

1. Lur üsyanının yatırılması ..................................................298
2. Şah Abbas tərəfindən hakimiyyətin müvəqqəti təhvil verilməsi ...............................................................................312
3. Xuzistanda baş qaldırmış itaətsizliyin aradan qaldırılması ...................................................................321
4. Kəcur və Rüstəmdarda idarəçiliyin möhkəmləndirilməsi. Gəraylı itaətsizliyinə son qoyulması .................................326
3. Mazandaran və Astrabad itaətsizliyinə son qoyulması .......333
4. Fərhad xanın qətlə yetirilməsi ............................................344
5. Bəhreynin və Lar vilayətinin fəthi .....................................348
6. Nəhavənd qalasının nəzarət altına alınması ........................353
7. İstifadə olunmuş mənbə və ədəbiyyat ................................357

**IV FƏSİL**
**SƏFƏVİ-ÖZBƏK MÜHARİBƏLƏRİ ................................361**

1. Özbək qoşunlarının Herat üzərinə hücumu ........................361
2. Abdulla xanın Xorasan vilayətinə hücumu ........................372
3. Fərhad xanın rəhbərliyi altında Səfəvi qoşunlarının Xorasan vilayətinə hərbi yürüşü .....................................................382
4. Şah Abbasın özbək şahzadəsi Əbdülmömin xanla yazışmaları ...............................................................................387
5. Şah Abbasın Əsfəreyn-Səbzəvar istiqamətində hərbi yürüşü ..............................................................................415
6. Şah Abbasın Xorasan yürüşü ..............................................433
7. Şah Abbasın Xorasana yeni hərbi yürüşü ...........................451
8. Şah Abbasın Bəlx yürüşü ....................................................464
9. Səfəvi-özbək münasibətlərinin davamı ..............................495
10. İstifadə olunmuş mənbə və ədəbiyyat ..............................528

**V FƏSİL**
**SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ ...........................540**
1. İstanbul sülh razılaşması ...................................................540
2. Səfəvi-Osmanlı müharibələrinin yeni dövrü .......................571
3. Səfəvi qoşunlarının Bağdad üzərinə hücumu .....................603
4. Qarabağda Səfəvi-Osmanlı döyüşü ....................................609
5. Cığaloğlunun rəhbərliyi altında Osmanlı qoşunlarının Azərbaycan üzərinə yürüşü .................................................614
6. Səfəvi qoşunlarının Gəncə və Qarabağ üzərinə hücumu ....656
7. Səfəvi qoşunlarının Şirvan üzərinə yürüşü .........................669
8. Bakı, Dərbənd və Qars qalalarının ələ keçirilməsi .............686
9. Şah Abbasın Azərbaycan yürüşünün başa çatması .............695
10. Cəlalilər hərəkatı və onun Osmanlı-Səfəvi münasibətlərinə təsiri ..........................................................................701
11. Yeni sülh axtarışında .........................................................709
12. Səfəvi-Osmanlı münasibətlərinin yenidən gərginləşməsi ....................................................................................735
   a) II İstanbul sülh anlaşmasının əldə edilməsi ərəfəsində Şah Abbasın Mazandaran səfəri ..........................................748
   b) II İstanbul sülh anlaşması ............................................758
13. İstifadə olunmuş mənbə və ədəbiyyat ..............................763

**VI FƏSİL.**
**SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ (davamı) ..........779**
1. Səfəvi qoşunlarının Gürcüstan üzərinə yürüşü ...................779
2. Osmanlı qoşunlarının yeni hücumları və II İstanbul anlaşmasının pozulması ...................................................805
3. Qərçəqay xanın rəhbərliyi altında olan qızılbaş dəstələrinin Osmanlı hüdudlarına hücumu ............................................832
4. Sərab (Mərənd) anlaşması
5. İstifadə olunmuş mənbə və ədəbiyyat ................................877

**Nəşriyyat direktoru:** İsmayıl Nərimanoğlu

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Maarif” nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Maarif”
Dövlət Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı

Çapa imzalanmışdır: 13.11.2022
Kitabın formatı: 60x84 1/16.
Həcm: 55,5 ç.v.

Ünvan: Mətbuat prospekti, 529-cu məh.